# Heydər Əliyev

## Müasirimiz və zamanımız

II HİSSƏ

# 1969-1982

Elmira Axundova

BAKI
2007

**Redaktor –** Vladimir Morozkov,
Azərbaycanın əməkdar jurnalisti

**Rəssam –** İsmayıl Məmmədov,
Azərbaycanın əməkdar rəssamı

Elmira Axundova
**Heydər Əliyev. Şəxsiyyət və Zaman.**
Bakı, «Ozan», 2007, 784 səh.

Tanınmış Azərbaycan yazıçısı, publisisti, ictimai xadimi Elmira Axundova Heydər Əliyevin ilk bioqraflarındandır. Onun dahi şəxsiyyətin siyasi bioqrafiyasının müxtəlif dövrlərini əks etdirən «Naşirin qətli» (2001), «Həqiqət anları» (2003), «Şüşə saray» kitabları ölkənin mədəni həyatında hadisəyə çevrilmişdir.

Elmira Axundova «Heydər Əliyev. Şəxsiyyət və Zaman» adlı çoxcildlik roman-tədqiqatını ömrünün ən mühüm layihəsi sayır. Beş ilə yaxın gərgin zəhmət, kitab qəhrəmanının uşaqlıq və gənclik dostları, qohumları və yaxınları ilə lentə alınmış yüzlərlə söhbət, tanınmış siyasi xadimlər və dövlət adamları ilə müsahibələr, DTK arxivlərində, Prezidentin şəxsi arxivində iş ulu öndərimizin ən dolğun və obyektiv bioqrafiyasını yaratmaq cəhdi olan romanın unikal sənədli əsasını təşkil edir. Kitab dərin təhlil və müəllif şərhləri ilə müşayiət edilən xeyli sayda az məlum olan fakt, epizod, eksklüziv informasiya ilə zəngindir. Yazıçının Heydər Əliyevlə şəxsi tanışlığı və dostluğu romana xüsusi emosionallıq və səmimiyyət gətirir.

Elmira Axundova respublikanın əməkdar jurnalisti, Milli Məclisin deputatı, H.Zərdabi, R.Rza, N.Nəcəfov adına mükafatların laureatıdır, «Şöhrət» ordeni ilə təltif olunmuşdur.

4702060204-51
A ---------- 2007
On-047-07

© E.Axundova, 2007

# Hakimiyyət və məsuliyyətin ağır yükü altında

*Birinci fəsil*

# Sərt dönüş

## Zamanla səsləşən zərurət

Artıq çoxdan təcrübədə sübut olunub: öz tarixinə nihilistcəsinə, hər şeyi danaraq yanaşma xeyir gətirməz. İstər iqtisadiyyatda, istərsə də mədəniyyətdə və siyasətdə qazanılan uğurlar, əldə olunan nailiyyətlər, irəliləmə, tərəqqi ənənəyə, qabaqkı nəslin topladığı müsbət təcrübəyə əsaslanırsa, özünü doğruldur.

Heydər Əliyev özünə qədər Azərbaycana rəhbərlik etmiş şəxslərə eyni dərəcədə hörmətlə yanaşırdı, öz çıxışlarında tez-tez müharibədən sonrakı dövrdə respublikanın həyatında baş vermiş müsbət dəyişiklikləri nümunə gətirirdi. Beləliklə, bir qədər geriyə çevrilib nəzər salaq, Azərbaycanın Əliyevəqədərki dövrünün partiya liderlərini xatırlayaq.

Kremlin canişini Sergey Kirovdan sonra respublikanı milli kadrlar idarə edib: Mir Cəfər Bağırov (1933-1953), İmam Mustafayev (1953-1959) və Vəli Axundov (1959-1969). Hər üçü Azərbaycanın texniki, elmi və mədəni potensialının inkişafına müəyyən xidmətlər göstərib.

Belə ki, müharibədən sonra Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edirdi: Xəzərdə dəniz yataqlarının mənimsənilməsi, yeni sənaye mərkəzlərinin – Sumqayıtın, Mingəçevirin, Daşkəsənin salınması, Bakının, Gəncənin (Kirovabadın) sənaye potensialının sürətli yüksəlişi, qara və əlvan metallurgiya, maşınqayırma, kimya sənayesinin inkişafındakı qüdrətli sıçrayış – bütün bunlar respublikanın tarixində «Bağırov dövrü»nün reallıqlarıdır. Azərbaycan tarixçilərinin ən son tədqiqatlarında, E.İsmayılovun, C.Həsənlinin və b. kitablarında bu bənzərsiz şəxsiyyətin fəaliyyətini qərəzsiz, obyektiv qiymətləndirməyə, onun dövlət və iqtisadi quruculuqdakı xidmətlərini əks

etdirməyə cəhd göstərilir. Belə düşünürəm ki, Azərbaycan tarixçiləri taxılı alaq otundan ayırmaq, XX əsrin hər cür konyunkturadan uzaq, əsil tolerant Azərbaycan tarixini yaratmaq üçün hələ çox zəhmət çəkməli olacaqlar.

Stalin dövründən sonra Azərbaycana rəhbərlik edən İmam Daşdəmir oğlu Mustafayev də qeyri-adi qabiliyyətə malik şəxsiyyət idi. Azərbaycanın məşhur genetika-seleksiyaçı alimi, akademik İ.Mustafayev respublikanın «xozeyin»i postuna təyin olunana qədər, bir neçə komissariatda rəhbər vəzifələrdə çalışmış, Azərbaycanın kənd təsərrüfatı naziri olmuş, Gəncə Vilayət Komitəsinə rəhbərlik etmişdi. Qocaman partiya və dövlət xadimi Kamran Hüseynovun xatirələrində deyilir: «İmam Daşdəmir oğlu böyük şəxsiyyət, geniş təfəkkürlü dövlət xadimi, kənd təsərrüfatının mahir mütəxəssisi, aqrar sahənin bacarıqlı alimi idi. O, respublikaya şəxsiyyətə pərəstişdən sonrakı dönüş illərində rəhbərlik edirdi, kənd təsərrüfatı ilə yanaşı, sənayenin də inkişafına böyük diqqət yetirirdi. Mingəçevirdə, Sumqayıtda inşa edilən möhtəşəm tikinti işlərində, o illərin digər uğurlarında onun danılmaz xidmətləri vardır»[1].

İmam Mustafayev ölkəni cəmisi 5 il idarə etdi, ancaq bu illər mənəvi yüksəliş, milli şüurun oyanması, kadrların yeniləşdirilməsi illəri idi. Həm də bu zaman məhz öz doğma dilini bilən milli kadrlara üstünlük verilirdi. Elə təkcə Azərbaycan dilinin dövlət dili elan olunması haqqında Qanunun qəbul edilməsi nəyə desən dəyərdi!

«Millətçiliyi»nə və «yerlipərəstlik» təzahürlərinə görə İmam Mustafayev «əziz Nikita Sergeyeviçdən» güclü zərbə aldı. Sov.İKP MK-nın Rəyasət Heyətinin 1959-cu ilin 1 iyulunda keçirilən iclasında Azərbaycan partiya təşkilatının fəaliyyətilə bağlı məsələ müzakirə olundu, 1959-cu il iyulun 6-da İmam Mustafayev birinci katib vəzifəsindən azad olundu (onun silahdaşı və həmfikri olan Mirzə İbrahimovu isə Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsindən daha əvvəl – 1958-ci ilin yanvarında azad etmişdilər).

Tarix elmləri doktoru, professor Cəmil Həsənli Rusiyanın ən yeni tarix dövlət arxivində Sov.İKP MK Rəyasət Heyətinin 1 iyul 1959-cu il tarixli iclasının stenoqramını əldə edib. Azərbaycanın partiya təşkilatının fəaliyyətini yoxlayan Sov.İKP MK komissiyasına başçılıq edən general-polkovnik İ.V.Şikinin məruzəsindən parçalar:

«1956-cı ilin avqustunda Respublika Ali Soveti Rəyasət Heyətinin keçmiş sədri yol.İbrahimovun təşəbbüsü ilə respublikada Azərbaycan dilinin dövlət dili kimi tətbiq olunması barədə qanun qəbul



edildi. Respublika rəhbərliyi bu günün özündə də təkid edir ki, bu qanun həyatın özündən doğub və Lenin milli siyasətinə tamamilə uyğun gəlir. Bu təkid əsassızdır. Qanunun qəbul edilməsi Leninin göstərişlərilə daban-dabana ziddir. Azərbaycan dilinin dövlət dili kimi tanınması ətrafında gedən kampaniya çox mənfi nəticələrə – xüsusilə ziyalılar və tələbə gənclər arasında millətçilik əhval-ruhiyyəsinin qızışdırılmasına, partiyanın milli siyasətinin təhrif olunmasına gətirib çıxardı. Qanun qəbul ediləndən sonra bütün dövlət idarələrində, sənaye müəssisələrində, səhiyyə ocaqlarında və s. Azərbaycan dilinin tətbiq olunması tələbi irəli sürüldü. Ayrı-ayrı rəhbər işçilərin Azərbaycan milliyyətindən olmayan kadrların tədricən dəyişdirilməsinin zəruriliyi barədə təklifləri güclənməyə başladı. Respublika Ali Sovetinin Rəyasət Heyətinin iclasında yol.İbrahimov (Mirzə İbrahimov – *E.A.*) təxminən belə demişdi:

«İndi artıq 20-ci il deyil. İndi azərbaycanlı olmayanları əvəz etmək üçün öz kadrlarımız var». O həm də deyirdi ki, nazirləri və idarə rəhbərlərini yığıb, onlara belə bir təlimat vermək lazımdır: qeyri-azərbaycanlı işçilər öz yerlərində qalsınlar, ancaq onlara Azərbaycan dilini öyrənmək üçün 6 ay vaxt verilsin»[2].

İş o yerə çatdı ki, məsələnin müzakirəsi zamanı Xruşşov hirslənib özündən çıxaraq Azərbaycanın rəhbərlərini, ilk növbədə isə İmam Mustafayevi Almaniyanı, almanları hər şeydən, hamıdan üstün tutan nasistlərə, hitlerçilərə tay tutdu»[3].

Aradan uzun müddət keçəndən sonra Heydər Əliyev xatırlayırdı ki, Sov.İKP MK-nın «Azərbaycan Respublikasında millətçi təmayüllər» barədə qərarı onu qəlbinin dərinliklərinədək sarsıdıb. «O vaxtlar Azərbaycan kimi beynəlmiləlçi respublika, azərbaycanlılar kimi beynəlmiləl millət tapmaq çətin idi. Bizə isə millətçi damğası vururdular. Bu millətçilik nədə təzahür edirdi? Guya biz Nəriman Nərimanova səcdə etməyə, onu bütləşdirməyə başlamışıq, Şaumyanı isə az təbliğ edirik. Bax, vəziyyət belə idi»[4].

Xoşbəxtlikdən çılğın və cırtqoz Xruşşov Stalin kimi qəddar deyildi. Həm də indi 1937-ci il yox, 1959-cu il idi. Ona görə də akademik Mustafayevi elmi fəaliyyətlə məşğul olmağa icazə verməklə sakitcə istefaya göndərdilər. İmam Daşdəmir oğlu ömrünün sonunadək Azərbaycan EA-nın Genetika və Seleksiya İnstitutunda direktor vəzifəsində işlədi[5].

Siyasi olimpdə onu əvəz edən Vəli Yusif oğlu Axundov 1916-cı ildə Bakıda anadan olmuşdu. 1941-ci ildə Azərbaycan Dövlət Tibb

İnstitutunu bitirib orduya çağrılmışdı. Müharibədən sonra xidməti vəzifələrə sürətlə yüksəlməyə başladı. O, Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsində sədr (1946-1949), Azərbaycan SSR səhiyyə nazirinin müavini (1949-1952), səhiyyə naziri (1954-1958), Azərbaycan KP MK-nın katibi (1958), Respublika Nazirlər Sovetinin sədri (1958-1959) işlədi. Nəhayət, 1959-cu ildə KP MK-nın birinci katibi təyin olundu. Bu vəzifədə o, düz 10 il çalışdı.

İşdən azad olunandan sonra 1972-ci ilədək Azərbaycan EA-nın vitse-prezidenti oldu, 1972-ci ildən ömrünün sonunadək isə Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutuna rəhbərlik etdi[6].

1996-cı il iyunun 21-də Heydər Əliyev Azərbaycan EA Rəyasət Heyətinin binasında Vəli Yusif oğlu Axundovun 80 illiyinə həsr olunmuş yubiley yığıncağında ictimaiyyət qarşısında geniş nitqlə çıxış etdi və aralarındakı qarşılıqlı münasibətin bir çox aspektlərini açıqladı. Odur ki, Azərbaycanın ən yeni tarixinin «Axundov» dövrü haqqında danışarkən biz əsərin qəhrəmanının xatirəsinə dönə-dönə qayıdacağıq. Belə ki, Vəli Axundovun Azərbaycan KP MK-nın birinci katibi postunda 10 illik fəaliyyət dövrünü Heydər Əliyev «ölkə tarixində mürəkkəb dövr» adlandırırdı. Nəzərə çatdırırdı ki, Axundov öz komandası ilə Xruşşovun «taxtdan salınması» və ali hakimiyyətin Brejnev başda olmaqla başqa bir qruplaşmanın əlinə keçməsi dövrünü yaşamalı olmuşdur. Bu proses isə daxili və xarici siyasətin dəyişməsi, kadrların yerdəyişməsi ilə müşayiət olunmuşdu. «Şübhəsiz ki, – Heydər Əliyev qeyd edir, – bu dövrdə işləmək, respublikaya rəhbərlik etmək asan məsələ deyildi». Xüsusən də ki, Sov.İKP MK-nın Azərbaycanın partiya təşkilatlarının fəaliyyətində «millətçi təmayüllər» haqqında məşhur qərarından sonra.

Heydər Əliyevin sözləri ilə desək, «... Həm biliyinə, həm təcrübəsinə, həm də zəkasına, təmkinliyinə görə Vəli Axundov bu ağır, çətin bir dövrdə 10 il respublikaya rəhbərlik etdi. Bu on il müddətində respublikamızda böyük nailiyyətlər də olmuşdu, xalqımız yaşamışdı, qurmuşdu. Bütün bunlar heç də avtomatik şəkildə baş vermirdi... Həmin dövrdə görülən işlərdə, əldə edilən nailiyyətlərdə Azərbaycanın rəhbəri kimi Vəli Axundovun rolu böyükdür, yüksək qiymətə layiqdir...»[7].

Bununla belə, Axundovun hakimiyyətinin son illəri Azərbaycanın xalq təsərrüfatında böhran hallarının artması ilə xarakterizə olunur. Bu da respublikanın bir sıra göstəricilər üzrə ümumittifaq səviyyəsindən geridə qalmasına gətirib çıxardı. «Azərbaycan SSR milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfə, əsas



fondlara görə 1,8, kapital qoyuluşuna görə isə 1,7 dəfə geri qalırdı. Neft sənayesində, energetikada, qara metallurgiya, kimya, neft kimyası sahələrində fasiləsiz iş ritmi pozulmuşdu. Kənd təsərrüfatında istehsalın səviyyəsi enməkdə davam edirdi... Taxıl, pambıq, tərəvəz, üzüm, çay yarpağı və digər kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı ən aşağı səviyyədə idi»[8].

Azərbaycan KP MK-nın 1969-cu il 24 dekabr tarixli plenumunda Heydər Əliyev respublikada xalq təsərrüfatının bütün sahələrindəki işlərin vəziyyətini dərindən və tənqidi təhlil etdi. Onun məruzəsindən nümunələr gətirək:

«...Məcmu ictimai məhsul üzrə, milli gəlir, sənaye və kənd təsərrüfatı istehsalının artımı, mərkəzləşdirilmiş kapital qoyuluşu, əmtəə dövriyyəsi üzrə beşillik tapşırıqlar yerinə yetirilmir.

Bu da nəticəsi. Müharibəyəqədərki 1940-cı illə müqayisədə respublikamız sənayenin ümumi məhsulunun artım sürətinə görə orta ittifaq göstəricilərindən xeyli geri qalıb. Eyni sözləri kənd təsərrüfatının ümumi məhsulunun artım sürəti haqqında da demək olar... Heyvandarlıq çox geridə qalıb və başlı-başına buraxılıb. Azərbaycanda bir inəkdən süd sağımı orta hesabla 641 kiloqramdır, bu isə ölkədə ən aşağı göstəricidir.

Keçən illər ərzində külli miqdarda kapital qoyuluşu istifadə olunmayıb və respublika təsərrüfatı, demək olar ki, bir milyard manatlıq əsas fond istifadəyə verə bilməmişdir.

10 il ərzində planda nəzərdə tutulduğundan bir milyon yarım kvadratmetr az yaşayış sahəsi salınmışdı.

Ümumiyyətlə, 28 min yerlik məktəblərin tikilməsi ləngidilirdi, bu səbəbdən biz nəinki məktəblərdə məşğələlərin ikinci növbədə keçirilməsini aradan qaldıra bilmədik, hələ üçüncü növbə də yaratmalı olduq».

«Vətəndaş, Şəxsiyyət, Lider» kitabında Ramiz Mehdiyev 60-cı illərin sonundakı ab-havanı belə xatırlayır:

«Respublika haqqında SSRİ-nin perspektivsiz bir əyaləti təsəvvürünün formalaşması nəticəsində, Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələrində geriləmələr mövcud idi. Sovet rəsmiləri səviyyəsində belə bir fikir yaranmışdı ki, məşhur neft yataqları öz keçmiş əhəmiyyətini itirib və respublikanın neftə hesablanmış iqtisadiyyatı rəzilliklə sürünməyə məhkumdur. Bunun alternativi yox idi. Çıxış yollarını tapmaq əvəzinə vəziyyətlə barışırdılar, neqativ tendensiyalar tədricən güclənərək daha dərinlərə kök atırdı. Hakimiyyət uğrun-

da, getdikcə daha eybəcər formalar alan gizli mübarizə gedirdi. İlk növbədə respublika iqtisadiyyatının durmadan enməsini, tənəzzülünü aradan qaldırmaq, ictimai-siyasi həyatdakı neqativ halların qarşısını almaq lazım idi. Buna hər şeydən əvvəl respublikanın siyasi hakimiyyətindəki çəkişmələr, əmək intizamının və tələbkarlığın olmaması, hökumət orqanlarındakı cəmiyyətə çox mənfi təsir göstərən, cəzasızlıq və özbaşınalıq şəraiti yaradan qohumbazlıq və rüşvətxorluq mane olurdu»[9].

Hakimiyyətdəki iradəsizlik hər yerdə əmək intizamının pozulmasına, səhlənkarlığa, proteksionizmə gətirib çıxarırdı.

«Heydər Əliyev. Kreml səmasında yeni ulduz» məqaləsində rus tarixçisi Roy Medvedyev respublika rəhbərliyinin dəyişilmə səbəblərini təhlil edərək yazır: «Qafqaz sakinləri haqda təsəvvürün əksinə olaraq, azərbaycanlıların əksəriyyəti çox kasıb yaşayırdı. Baxmayaraq ki, burada korrupsiya və talama geniş yayılmışdı və demək olar ki, gizlədilmirdi. Moskvadan gəlmiş çoxsaylı komissiyalardan biri heyrətə gəlmişdi. Komissiya üzvləri Bakı dükanlarının birindən nümunə üçün 100 dəfə, 100 adda mal almış, hamısında da qiymətdə və çəkidə aldadılmışdılar»[10].

«Kölgə iqtisadiyyatı» dövlətin daxilində özünə elə yer eləmişdi ki, sənaye və kənd təsərrüfatının ayrı-ayrı sahələri xüsusi mülkiyyət kimi istismar olunurdu.

Yeri gəlmişkən, onu da qeyd edək ki, eyni cür dözülməz vəziyyət qonşu Gürcüstanda da mövcud idi. Azərbaycanlı «sexoviklər» və valyuta alverçiləri kimi Gürcüstanın gizli milyonerləri haqqında da SSRİ-də əfsanələr söyləyirdilər. Rüşvətxorluq və vəzifəli şəxslərin ələ alınması isə «xalq yaradıcılığının» ən sevimli mövzularına çevrilmişdi.

Sonralar məşhur qalmaqallı «Qiyamçılar Kremldə» əsərinin müəllifləri, emiqrant-yazıçılar E.Klepikova və V.Solovyov öz kitablarında yazırdılar: «Azərbaycanda olduğu kimi, Gürcüstanda da qohumbazlıq, rüşvətxorluq, pulla ələ alma, yüksək vəzifələiləri satın alma, dövlət sənayesi ilə uğurla rəqabət aparan gizli sənaye fantastik vüsət alıb. Faktiki olaraq hər iki respublika mərkəzləşdirilmiş sosialist imperiyasından ayrılaraq məxfi kapitalist respublikalarına çevrilmişlər»[11].

* * *



1969-cu ilin iyulunda hakimiyyət olimpində radikal dəyişikliklərə gətirib çıxaran səbəbləri araşdırmağa çalışarkən Heydər Əliyevdən əvvəlki MK-nın birinci katibi barədə bəzi adamlarla söhbət apardım. Çünki Azərbaycanda yaranmış vəziyyət bir çox cəhətdən Vəli Axundovun şəxsi keyfiyyətləri ilə şərtlənirdi. Həm də, Axundov hakimiyyətinin obyektiv çatışmazlıqları və mənfi cəhətləri, qəribə də olsa, bu işıqlı şəxsiyyətin subyektiv məziyyətlərinin, nəcib keyfiyyətlərinin nəticəsi idi.

Belə ki, demək olar, hamı V.Axundovun xarakterində ziyalılığı və demokratikliyi xüsusi olaraq qeyd edirlər.

«Heydər Əliyevə xas olan sərtlik onda yox idi. O, xaraktercə mülayim, sadəlövh, tez inanan insan idi», – MTN veteranı Albert Salamov belə hesab edir.

Azərbaycan KP MK-nın sabiq katibi Ramiz Məmmədzadə də onunla razılaşır:

«V.Axundov savadlı, ziyalı, mədəni insan idi. Onun Dzerjinski klubundakı məruzəsi yadımdadır. O, kağıza baxmadan iki saatdan çox danışdı, Seyid Əzim Şirvaninin, Nizaminin şeirlərindən misal gətirdi. Birinci katiblərin heç də hamısı bu keyfiyyətlərlə öyünə bilməz. Bununla belə, o, yumruğunu masaya vurub tələb etməyi, kəskin qərarlar qəbul etməyi bacarmırdı...»

V.Axundov və onun dövrü barədə Azərbaycanın xalq rəssamı Tahir Salahov maraqlı xatirələrini mənimlə bölüşdü:

«Yaxşı yadımdadır, Vəli Axundov hansısa ümumittifaq partiya qurultayında kağızsız çıxış etdi. Mətn bir çox dillərə – ingilis, fransız, ispan dilinə, milli respublikaların dillərinə birbaşa tərcümə edilirdi. Ona görə də tərcüməçilərin hamısı tələş keçirirdilər. Axı onlar tərcümə edəcəkləri mətnləri qabaqcadan əldə edirdilər. Belə böyük yığıncaqlarda tərcümə dəqiq olmalıdır, çünki hər bir kəlmənin xüsusi rolu vardır. Axundov isə kağızsız danışırdı. Tərcüməçilərin boğazı qurudu. Rəyasət heyətində hamı bir-birinə baxırdı. Pıçıltılar eşidildi. Zalda oturanlar da narahat oldular, yerlərində qurdalanmağa başladılar. Axundov savadlı olduğunu, kağızsız da çıxış edə bildiyini nümayiş etdirmək istəyirdi, gözlədiyinin əksi oldu.

Əvvəla, rəhbərlik buna alışmamışdı. İkincisi, bu forumda dəqiq tərcümə tələb olunurdu, hissiyyata qapılmaq, emosiyalara yol vermək olmazdı. Sov.İKP MK-nın baş katibi məruzəni üzündən oxuyur, birinci katib isə hamını qabaqlamaq istəyir.

Heydər Əliyev qurultaylarda mətndən kənara çıxmırdı, halbuki respublikada o saatlarla heç bir kağıza baxmadan danışa bilirdi. ...Bir

də V.Axundovun 1969-cu ilin 6 iyulunda Dzerjinski adına klubda keçirilən partiya fəalları yığıncağındakı son çıxışı yadımda qalıb. Əlbəttə, V.Axundov mədəni, ziyalı adam idi. Ancaq siyasətçi deyildi. O, belə bir söz də deyə bilərdi: « – Mən Çerkasovun baş rolda çəkildiyi bir filmə baxmışam. Onun bir sözü mənim çox xoşuma gəldi: «Xeyirxahlıq eləməyə tələsin».

Birinci katibin ağzından çıxan, rayon rəhbərlərinin, nazirlərin əyləşdiyi zala ünvanlanan bu sözlər Şərqdə birmənalı şəkildə izah edilməyə, yozulmaya bilərdi. Görünür, bu ziyalı zəifliyi müqabilində «dəmir əl» zəruri idi».

Onun ən yaxın dostlarından olan İsmayıl İbrahimov danışır ki, «Vəli Axundov vəzifədən getməli olduğunu özü başa düşürdü. Səhhəti zəifləmişdi, yaxın ətrafı ilə aralarında münaqişə mövcud idi, ölkənin iqtisadi inkişaf templəri kəskin şəkildə aşağı düşmüşdü. Sənayenin və kənd təsərrüfatının bir çox göstəricilərinə görə biz ölkədə ən sonuncu yeri tuturduq. Bütün bunların öhdəsindən gəlməyə artıq onun gücü çatmazdı. Vəziyyəti köklü şəkildə dəyişmək üçün Heydər Əliyev kimi titanik gücə malik olan şəxsiyyət lazım idi».

Müasirlərinin dediyinə görə, Vəli Axundovun «ən yaxın dairəsinə» daxil olan Heydər Əliyev özü isə ona belə bir xasiyyətnamə verib:

«O, çox hazırlıqlı insan idi, geniş dünyagörüşünə malik idi. Öz elmindən, öz sahəsindən savayı, siyasi sahədə də çox hazırlıqlı idi. Mədəniyyəti yaxşı bilirdi, tarixlə çox maraqlanırdı, ziyalı və mədəni insan idi, təvazökar idi. O, şəxsi həyatında da, davranışında da təvazökar idi. İnsanlara xoş münasibət göstərirdi. Bəzən deyirdilər ki, çox liberaldır. İşdə liberallıq edirdi, amma görünür, bu da onun xasiyyətinin yumşaqlığından irəli gəlirdi. O, mülayim təbiətli adam idi. Lakin bunların hamısı, ümumiyyətlə, onun obrazını həmişə müsbət bir obraz kimi göstərirdi...

Deyə bilərəm ki, Vəli Axundov o vaxt onun ətrafında olan rəhbər şəxslərin hamısından həm biliyinə görə, həm insani mədəniyyətinə görə, həm alicənablığına görə, həm də özünün və ailəsinin təvazökarlığına görə seçilirdi və onların hamısından üstün idi»[12].

Axundovun istefasının əsas səbəblərindən biri respublikanın yuxarı hakimiyyət üzvləri arasındakı münaqişə və çəkişmələr oldu.

Heydər Əliyevin sabiq məruzəçisi-referenti Turan Hüseynov xatırlayır ki, «Axundovun ölkəyə rəhbərliyi dövründə yuxarı hakimiyyət dairələrində Ali Sovetin sədri Məmməd İsgəndərovdan, Nazirlər Kabinetinin sədri Ənvər Əlixanovdan və Məmməd Əlizadədən ibarət bir qrup yaranmışdı. Məmməd Əlizadə Moskvadan gəlmişdi. O, SSRİ DTK-sında şöbə müdiri işləyirdi, respublikada daxili işlər naziri oldu. Onlar V.Axundova qarşı güclü müxalifətçi qanad yaratdılar. V.Axundov isə onların öhdəsindən gəlmək iqtidarında deyildi. Yuxarı hakimiyyət dairəsində olan bu münaqişələr, şübhəsiz ki, «aşağıların» işində də öz əksini tapırdı.

***Məmməd Əbdül oğlu İsgəndərov – geoloq. Yoxsul kəndli ailəsində anadan olub. 1940-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirib, mühəndis-geoloq işləyib, 1941-ci ildən 1943-cü ilədək cəbhədə döyüşüb. 1944-cü ildən partiya və dövlət işlərində çalışıb. 1954-cü ilin fevralından 1959-cu ilin iyulunadək Azərbaycan KP MK-nın katibi olub. 1956-cı ildən geologiya-mineralogiya elmləri doktoru, professordur. 1959-cu ildən 1961-ci ilədək respublika Nazirlər Sovetinin sədri, 1961-ci ildən isə respublika Ali Sovetinin sədri olub[13].***

***Ənvər Nəzər oğlu Əlixanov – Sovet dövlət və partiya xadimi, alim, geologiya-mineralogiya elmləri doktoru, professor. Azərbaycan Sənaye İnstitutunu bitirib. 1941-1942-ci illərdə Krımda artilleriya diviziyası qərargahının rəisi olub. 1951-ci ildən Azərbaycanda məsul partiya işlərində çalışıb. 1951-1959-cu illərdə Azərbaycanın neft sənayesində yüksək vəzifələrdə çalışıb. 1958-1959-cu illərdə Azərbaycan SSR-in neft sənayesi naziri olub. 1959-1961-ci illərdə Azərbaycan KP MK-nın katibi olub. Azərbaycan SSR-in dəniz neft mədənlərinin kompleks mənimsənilməsinə görə Lenin mükafatına (1961) layiq görülüb. 1961-ci ilin dekabrından Azərbaycan SSR Nazirlər Sovetinin sədri olub»[14].***

Müasirlərinin sözlərinə görə, İsgəndərov ovçuluğa həris imiş, silah kolleksiyası varmış, yeyib-içməyi xoşlayırmış. Yüksək intellekti ilə fərqlənmirmiş. Əhlikef adam olduğundan tabeçiliyində olanların yanında möhkəm söyüş söyə, ya da şit lətifələr söyləyə bilərdi. Sadə idi, bəzən kobudcasına müraciətə yol verə bilərdi.

«Dəmir» inzibatçı Əlixanov MK-nın mülayim, mədəni birinci katibinin tam əksi idi. Nazirlər Sovetinin iddialı, iqtisadiyyatdan yaxşı baş çıxaran sədri müstəqil qərarlar çıxarmağı və onların icrası-

nı tələb etməyi bacarırdı. Bircə vahid komandanın tərkibində işləməyi bacarmırdı.

«Həmin iki nəfər Axundovu rahat işləməyə qoymurdular, – deyə Ramiz Məmmədzadə xatırlayır. – Bəzi məsələlərin həllini ləngidirdilər, kadrların seçilməsi və yerləşdirilməsi işinə maneçilik törədirdilər. İnsanlara da, hadisələrə də münasibətdə Axundov daha mülayim, daha humanist idi. Onlar isə tabeçiliklərində olanların üstünə qışqıra da bilərdilər, onları söyə də bilərdilər. Bir sözlə, hər üçü tamamilə başqa-başqa adamlar idi. Əlbəttə, belə əsəbi vəziyyət digər rəhbərlərin işində də əksini tapırdı. Hiss olunurdu ki, Azərbaycanda bəzi nazirlər, rayon və şəhər komitələrinin katibləri öz xidməti vəzifələrindən sui-istifadə etməyə başlayırlar. Sağlam olmayan şərait yetişirdi».

Elə 50-ci illərdə də, İmam Mustafayev respublikaya rəhbərlik edəndə də yüksək hakimiyyət dairələrində birlik yox idi. O vaxtlar Azərbaycanın Nazirlər Sovetinə çalışqan və işgüzar, ancaq bir qədər sərt xasiyyətli Sadıq Rəhimov başçılıq edirdi. Xalq Təsərrüfatı Şurasının başında bacarıqlı və təşəbbüskar rəhbər olan Sabit Orucov dururdu. Bu üç rəhbər işçi bir-biri ilə yola getmirdilər, bu da respublika həyatının ümumi ab-havasına mənfi təsir göstərirdi. O vaxtlar Ümumittifaq həmkarlar təşkilatının katibi işləmiş Kamran Hüseynov həmin illəri belə xatırlayır:

«Mənim əlimdə deməyə əsas var ki, bu münasibətlərdə gərginliyi yaradan, aranı qızışdıran, onların arasına soxulan «boz kardinallar» idi. Respublikanın bu aparıcı şəxsiyyətləri ilə hər görüşümdə and verirdim ki, aranıza nifaq salmağa imkan verməyin, «xeyirxah» düşmənlərə qulaq asmayın. Onlar sizi dalaşdırmaqla respublikanı geriyə çəkirlər. Tikilməyə başlayan obyektlər yarımçıq qalır, bəzən onları söküb, talayıb başqa yerlərə aparırlar. Özünüzü ələ alın, çəkişməyə son qoyun... Mənim sözlərimə kimisi qulaq asırdı, kimisi yox. Bəzən aralarındakı ziddiyyət o qədər qızışırdı ki, heç məni eşitmək belə istəmirdilər»[15].

Təəssüf ki, Vəli Axundovun respublikaya rəhbərliyi dövründə də rəhbər üçlük arasında bu cür gərgin münasibətlər mövcud idi. Bu da, təbii ki, insanların əl-qolunu soyudur, ruhdan salırdı.

60-cı illərin sonunda leyt.Şmidt adına Bakı Maşınqayırma zavodunun direktoru olmuş Həsən Seyidov mənimlə söhbətində xatırladı ki, respublikanın siyasi rəhbərliyində dəyişiklik edilməsini təkcə partiya və təsərrüfat fəalları yox, sıravi insanlar da böyük intizarla gözləyirdilər. «Təsəvvür edirsinizmi, təcrübəli, böyük iş stajı olan



adamlar zavodlardan, istehsalatdan uzaqlaşıb ticarətdə işləməyə gedirdilər. Məsələn, 25 il zavodda işləyən adam çıxıb gedir. Soruşuram ki, nə olub? Cavab verir ki, «savadca qat-qat aşağı olan qonşum məndən yaxşı yaşayır». İnsanların sosial ədalətə inamı qalmamışdı. Yadımdadır ki, 1966-cı ildə plenumların birində Leonid Brejnev çıxış edərək dedi:

– Yəni respublikada sağlam düşüncəli, bacarıqlı təşkilatçı yoxdur ki, respublikanı ayağa qaldırsın?!

Bu sözlər Sov.İKP MK plenumunda deyilmişdi və bütün ölkəyə yayımlanmışdı. Ümumiyyətlə, Azərbaycanı hər yerdə tənqid edirdilər».

O dövrdə «yuxarılarda» yaranmış mürəkkəb vəziyyətə İsmayıl İbrahimovun öz baxışı var. Bütün Sovet İttifaqında məşhur olan Azərbaycan Neft və Kimya İnstitutunun rektoru İsmayıl İbrahimov 1970-ci ildə Heydər Əliyevin komandasına daxil oldu və doqquz il Azərbaycanın Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdı. DTN-in sədri Heydər Əliyevlə də, MK-nın birinci katibi Vəli Axundovla da İsmayıl Əli oğlu şəxsi dostluq münasibətində idi. Ona görə də respublikanın siyasi olimpindəki vəziyyətdən xəbərdar idi.

Onun dediyinə görə, Əlixanov özü haqqında yüksək fikirdə olan adam idi: «İstedadlı, hiyləgər, intriqalara meyilli idi. Axundova qarşı açıq çıxışlar edir, hətta onu saymadığını gizlətmirdi. Yəni ki, o, görkəmli mütəxəssis, neftçi-geoloqdur, V.Axundov isə həkimdir, iqtisadiyyatdan o qədər də başı çıxmır. Ancaq V.Axundovun hakimiyyətinin son illərində iqtisadiyyat tənəzzülə uğramışdısa, aşağı enmişdisə, burada Axundovdan çox başda Əlixanov olmaqla başdansovdu işləyən Nazirlər Kabineti günahkar idi. Ümumiyyətlə, onlar yola getmirdilər. Hakimiyyət uğrunda açıq-aydın mübarizə gedirdi. Respublikanı hərə bir tərəfə çəkirdi. Əlixanov da, İsgəndərov da V.Axundovun ağır formalı şəkər xəstəsi olduğunu nəzərə alaraq tezliklə istefaya gedəcəyini gözləyirdilər. Əlbəttə ki, xüsusilə də hər kəs həmin vəzifədə, kürsüdə özünü görürdü. Heç kimin ağlına gəlmirdi ki, Vəli Axundovun yerinə Heydər Əliyev gələcək».

Bu barədə 1996-cı ildə Vəli Axundovun yubiley gecəsində Heydər Əliyev özü belə danışırdı: «Bilirsiniz, bu xəstəlik sonralar da müşahidə olunurdu, elə indinin özündə də özünü göstərir. Vəzifə hərisliyi bəzən insanları çox ləyaqətsiz hərəkətlərə təhrik edir.

Vaxtilə Vəli Axundovun irəli çəkdiyi adamlar sonra yerini tutmaq üçün onu vəzifədən kənarlaşdırmağa çalışırdılar. Mən bunları görürdüm. Elə o özü də bəzən dərdini mənə deyirdi...»

Heydər Əliyev V.Axundovun yaxın ətrafının xəstə rəhbərlərinə necə quyu qazdıqlarından, onun yerini tutmaq üçün dəridən-qabıqdan çıxdıqlarından söhbət açır: «... Hər birisi hesab edirdi ki, Vəli Axundov vəzifədən götürülsə, onun yerinə o keçəcəkdir. Bax, bu, bizim bəlamızdır. O vaxtlar mən müşahidə edirdim və bu barədə Vəli Axundovla söhbət aparırdım. Mən ona böyük ürək ağrısı ilə dedim ki, bizim adamlar öz şəxsi məqsədləri üçün bu cür hərəkətlərə yol verirlər... Lakin Vəli Axundovu yıxmaq uğrunda mübarizə aparan adamlar sonra da bir-birini yıxdılar. Nəticədə belə oldu ki, artıq Vəli Axundov vəzifədən getməli idi, onların isə heç biri o kürsüyə yararlı olmadı»[16].

*Çox güman ki, bu mövzu Heydər Əliyevin təxəyyülündə dolaşırdı. O, sanki xəyanət, namərdlik, kürsü uğrunda çarpışma, yüksəkdə duran rəqibə badalaq vurmaq, dünənki dostların və silahdaşların satqınlığı kimi insanların «əbədi xəstəliklərinin» nə vaxtsa onun siyasi taleyində çirkin rol oynayacağını qabaqcadan görürdü. Odur ki, Vəli Axundovla birlikdə dəfələrlə bu söhbətin üstünə qayıdırdılar, Nəriman Nərimanovun dramatik taleyini tez-tez yada salaraq, bu «xəstəliyin» nümunələrini keçmişdə axtarıb tapırdılar. Keçən əsrin 20-ci illərində Azərbaycanın ən hörmətli və ləyaqətli rəhbərlərindən biri olan Nərimanov son nəticədə özünün yaxın əhatəsinin səyi ilə doğma respublikasından kənarlaşdırılmışdı. Yeri gəlmişkən, onların arasında erməni millətindən olan yüksək vəzifəli partiya funksionerləri də az deyildi.*

*«Onlar Nəriman Nərimanovun əleyhinə cürbəcür təxribatlar aparırdılar, – Heydər Əliyev kədərlə danışırdı. – Əgər onun Moskvaya getməsinə səbəb bir tərəfdən, doğrudan da, Sovet İttifaqının Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri vəzifəsinə seçilməsi idisə, digər tərəfdən bu, Nəriman Nərimanovu - Azərbaycanda milliliyi möhkəmləndirmək üçün fəaliyyət göstərən bir adamı aradan götürmək məqsədi daşıyırdı». Heydər Əliyev xatırlayır: Məmməd Səid Ordubadi qəzetlərdən birində yazırdı ki, artıq Moskvada işləyərkən, Nərimanov hansısa iş üçün Tiflisə yollanır və oradan Bakıya gəlmək istəyir. Ancaq Dadaş Bünyadzadə dəridən-qabıqdan çıxaraq onun vətənə gəlib, orada çıxış etməsinə mane olur. Heydər Əliyev möhkəm əmin idi ki, 1920-ci ildən 1933-cü ilədək respublikanı qeyri-azərbaycanlıların idarə etməsinin əsas səbəbi məhz Azərbaycan rəhbərlərinin daxili çəkişmələri idi. Heydər Əliyevin sözlərinə görə, daxili ixtilaflar 1937-1938-ci illərin kütləvi repressiyalarına gətirib çıxardı. 1959-cu ildə daxili siyasi çəkişmələr nəticəsində Azərbaycana millətçi damğası vuruldu.*

*Əlavə edək ki, məhz bu cür çəkişmələr 1988-1993-cü illərdə Dağlıq Qarabağın və eləcə də respublikanın yeddi rayonunun zəbt olunmasına gətirib çıxardı. Təəssüf ki, tarixdən ibrət dərsi götürmürük.*



Yeri gəlmişkən, sovet dövrünün sonrakı tədqiqatçıları, o cümlədən ingilis jurnalisti Martin Uolker sübut etməyə çalışırlar ki, Vəli Axundovun vəzifədən kənarlaşdırılmasında Heydər Əliyevin də əli olub. O dövrün siyasətə yaxın dairələrində bir arayış barədə şayiələr dolaşmaqda idi. Guya ki, rüşvətxorluğun və korrupsiyanın tüğyan etməsi ilə bağlı respublikada yaranmış dözülməz vəziyyətin təhlilinə həsr olunmuş bu arayış Azərbaycan DTK-sından SSRİ DTK-sına göndərilibmiş. Bu da Kremlin səbr kasasını dolduran sonuncu damla olub.

Zənnimcə, əslində bu, belə olmayıb. Əvvəla, yerli və ittifaq rəhbərliyini respublikadakı vəziyyət, o cümlədən müxtəlif neqativ hallar barədə məlumatlandırmaq DTK sədrinin birbaşa vəzifəsi idi. Mənim DTK başçısının birinci katibə korrupsiya ilə, proteksionizmlə mübarizə ilə bağlı məsləhət verib-verməməsi, respublikadakı vəziyyət barədə ona məruzə edib-etməməsi haqda sualıma DTK-nın veteranı Albert Salamov belə cavab verdi:

– Respublikadakı operativ vəziyyət barədə məruzə etmək onun borcu idi. Belə arayışlar hazırlanırdı və Vəli Axundov onları oxumalı idi. Çünki mən şöbə müdiri vəzifəsində işləyəndə bu cür materialları Mərkəzi Komitəyə göndərirdik. Heydər Əliyev birinci katib olanda bizə çox arxalanırdı. Vaxtilə Karamzin demişdi: «Öz təhlükəsizliyini qorumaq siyasətin ən ali qanunudur».

Bundan başqa, Heydər Əliyevsiz də məlumat verənlər kifayət qədər idi. Elə götürək əslində Kremlin canişinləri olan, milli respublikalarda baş verənlər barədə SSRİ-nin ali partiya rəhbərliyini vaxtlı-vaxtında məlumatlandırmaq məqsədilə yerli rəhbərliyə «yeridilmiş» MK-nın ikinci katiblərini. Jurnalist Əlirza Balayev xatırlayır ki, 80-ci illərin sonunda o, respublika KP MK-nın ikinci katibi Viktor Polyaniçkonun mətbuat konfransında iştirak edərək ona sual verib ki, onun səlahiyyət dairəsinə nələr daxildir. Cavab isə belə

olub: «Ən əsas vəzifələrdən biri Siyasi Büroya Azərbaycandakı vəziyyətlə bağlı məlumat vermək»[17].

Heydər Əliyevlə Vəli Axundovun münasibətlərinə gəlincə, o illərdə onların hər ikisi ilə yaxın ünsiyyətdə olan İsmayıl İbrahimov bunları söylədi:

«Vəli Axundov DTK-nın sədrinə çox yaxşı münasibət bəsləyirdi. Sübut üçün iki misal çəkim. Bir gün Vəli Yusif oğlu mənə zəng vurub dedi:

«Məryəm xanımla bizə gəlin, Yeni ili birlikdə qarşılayaq». Mən soruşdum: «Daha kim olacaq?» Cavab verdi: «Sizdən və uşaqlarla bizdən başqa heç kim». Mən təklif etdim: «Gəlsənə Heydər Əliyevi də xanımıyla dəvət edək».

Vəli Axundov böyük məmnuniyyətlə razılıq verdi. Bu ya 1967-ci, ya da 1968-ci ildə olmuşdu. Yeni ili Vəli Axundovun Yerevan döngəsində yerləşən mənzilində qarşıladıq. Yadımdadır ki, Heydər Əliyev Axundova Yeni il hədiyyəsi kimi musiqili konyak butulkası gətirmişdi.

Münasibətlərimizin səmimiliyinə ikinci misal. 1968-ci ilin iyununda Moskvada doktorluq dissertasiyamın müdafiəsi oldu. Vəli Axundov da orada idi. Mən «Moskva» mehmanxanasına zəng vurub, sevincimi onunla bölüşdüm. O mənə təklif etdi ki, «Gəl bu əlamətdar hadisəni qeyd edək». Onunla bir qədəh konyak içəndən sonra dedi: «Bakıya qayıdandan sonra qonaqlıq sənin boynuna». 1968-ci il iyulun 14-də o mənə zəng vurdu: «Gəl sənin müdafiəni Zuğulbada qeyd edək». O, hökumət bağını nəzərdə tuturdu. Mən yenə də Heydər Əliyevi çağırmağı təklif etdim. O isə cavabında: «Mütləq! Elə mən də bu barədə düşünürdüm» – dedi. Biz yenə də bütün axşamı birlikdə keçirdik. Qonaqlığın əvvəlində mən dedim: «Ziyafətin səbəbkarı mənəm, mənzilin sahibi isə sən, bəs kimsə də məclisi idarə etməlidir, ya yox? Gəl Heydəri masabəyi seçək!» Çəkdiyim bu misallar həm Vəli Yusif oğlunun sadəliyini (biz onunla texnikumda bir yerdə oxumuşuq, cavan vaxtlarımızdan dostluq etmişik), həm də Heydər Əliyevin səmimiliyini nümayiş etdirir. Onlar bir-birilə yaxşı yola gedirdilər. Heydər Əliyev Vəli Axundova çox sadiq idi».

Bütün bunlara baxmayaraq Axundovu Azərbaycan KP MK-nın birinci katibi postunda məhz Heydər Əliyev əvəz etdi. Baxmayaraq ki, özünün israr etdiyi kimi, respublikanın rəhbəri olmaq onun heç ağlına da gəlmirdi. O, həqiqətən çekist peşəsini çox sevirdi və ona



bütün varlığı ilə bağlı idi. Cəmisi 2 il əvvəl ona general rütbəsi vermişdilər, Azərbaycan DTK-sının sədri təyin etmişdilər və o nazirlikdə geniş islahatlara başlamışdı. Heydər Əliyev etiraf edirdi: «Mən heç təsəvvürümə gətirmirdim ki, respublikaya rəhbərlik edəcəyəm. Çünki daima öz professional fəaliyyətimə qapılaraq o işdən kənarda olurdum»[18].

Heydər Əliyevin səmimiliyinə şübhə ola bilməz. Ənənəyə uyğun olaraq milli respublikalarda ən yüksək partiya vəzifəsinə Ali Sovetin sədri, MK-nın katibi və ya çarəsiz qaldıqda Nazirlər Sovetinin sədri vəzifələrini tutmuş şəxslər iddia edə bilərdilər. DTK mühitində yetişmiş adamın «birinci» təyin olunması bu ənənəni pozdu və Heydər Əliyevin öz sözləri ilə desək, bütün SSRİ-də böyük hay-küyə səbəb oldu.

Rus yazıçısı N.Zenkoviç öz kitabında yazır: «Sov.İKP-nin və SSRİ-nin tarixində bu ilk hadisə idi. Bu hadisə yalnız 15 ildən sonra Latviyada təkrar olundu. 1984-cü ildə Latviya SSR-in DTK-sının sədri Boris Karloviç Puqonu Latviya Kommunist Partiyası MK-sının birinci katibi seçdilər. Ancaq artıq onun partiya işində təcrübəsi vardı. 1976-cı ildə dövlət təhlükəsizlik orqanlarına göndərilənə qədər Puqo iki il Riqa şəhər Partiya Komitəsinin birinci katibi olmuş, ona qədər isə respublika partiya MK-sında təşkilat-partiya işi şöbəsinə rəhbərlik etmiş, Moskvada Sov.İKP MK-nın təlimatçısı kimi «sınaqdan çıxmışdı». Əgər Azərbaycan Kommunist Partiyası MK bürosuna üzvlüyü hesaba almasaq (bu DTK-nın sədri vəzifəsinə məcburi «əlavə» idi), Heydər Əliyev partiya işində bir gün də çalışmamışdı»[19].

Yeri gəlmişkən, qeyd edək ki, bu məsələdə rus tədqiqatçısı səhv edir. Paradoks da məhz ondadır ki, o vaxt Heydər Əliyev nəinki MK-nın Büro üzvü, heç Mərkəzi Komitənin üzvü də deyildi, hələ yalnız MK üzvlüyünə namizəd idi.

Beləliklə, bizi maraqlandıran əsas sual: Kremlin seçimi nəyə görə son nəticədə məhz kitabımızın qəhrəmanının üzərində dayandı? Bu suala cavab vermək üçün Azərbaycan KP MK-nın iyul (1969) Plenumundan öncəki vəziyyəti yada salmaq lazımdır.

Məlumdur ki, Heydər Əliyev respublika KP MK-sının birinci katibi vəzifəsinə seçiləndən sonra Vəli Axundov Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti seçilmişdi. Bir də ki, onun məsələsi iyul plenumundan 3-4 həftə öncə, Azərbaycan EA-ya tibb elmləri üzrə həqiqi üzv seçilən vaxt həll olunmuşdu. Deməli, onun vitse-prezident seçilməsi üçün zəmin qabaqcadan hazırlanmışdı.

V.Axundovun istefası ərəfəsindəki günlər barədə onun yaxın dostu İsmayıl Əli oğlu İbrahimov bunları xatırlayır:

«Axundov ağır formalı diabet xəstəsi idi. Tez-tez xəstələnirdi. Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Moskvada respublikadakı işlərin vəziyyətindən narazı idilər. Hələ yanvarda Vəli Axundovu Sov.İKP MK-ya dəvət edib, SSRİ-nin Belçikada səfiri vəzifəsini təklif etmişdilər. Ancaq o imtina etmişdi. O, Moskvada xəstəxanada yatıb, demək olar ki, üç ay müalicə olundu. Müalicədən sonra Brejnev yenidən Axundovu yanına dəvət etdi, söhbətdən sonra qərara gəldilər ki, o, Elmlər Akademiyasına keçəcək».

Axundov Bakıya mayın 9-da qayıtdı. Bir neçə gündən sonra qəzetlərdə energetika və tibb elmləri üzrə Azərbaycan Elmlər Akademiyasına həqiqi üzvlərin seçilməsi üçün boş yerlər barədə elan dərc olundu. Bazar günü İbrahimov Axundovla birlikdə onun anasının yanına, bağa getdi. İsmayıl müəllim dostundan birbaşa soruşdu:

– Sən MK-dan gedirsən?

– Yox, bu hardan ağlına gəldi?

– Bəs onda nəyə görə müxbir üzv olmadan, birbaşa akademik seçilmək istəyirsən?

– Belə lazımdır, – deyə V.Axundov qısaca cavab verdi. Görünür bu cür işlərdə heç kimə, hətta yaxın dostlara belə etibar etmirlər.

Bir neçə gündən sonra İ.İbrahimova dostu – respublikada tanınmış və nüfuzlu şəxsiyyət olan artilleriya general-leytenantı Hüseyn Rəsulbəyov zəng vurdu. 1966-cı ildən o, Bakı dairəsinin hava hücumundan müdafiə üzrə komandanı idi.* Dedi ki, onunla görüşmək istəyir, ancaq evdə yox. Onlar şəhər parklarının birində görüşdülər, Rəsulbəyov ona danışdı ki, Moskvada Kapitonovun qəbulunda olub. Onu respublikadakı ab-hava, müxtəlif sahələrdə işlərin vəziyyəti barədə sorğu-suala tutublar, respublikaya kimin rəhbərlik edə biləcəyi barədə onun rəyi ilə maraqlanıblar. İbrahimov ondan öyrəndi ki, Moskvaya məsləhət üçün Həmkarlar Komitəsinin sədri Züleyxa Hüseynova da çağrılıbmış.

«Mən evimə qalxıb Heydər Əliyevə zəng vurdum. O bizə gəldi və mən ona danışdım ki, Moskvada respublikanın gələcək rəhbərliyinə namizədlər barədə məsləhətləşmələr aparılır. Ona məsləhət gördüm ki, fəallıq göstərsin».

İbrahimovun sözlərinə görə, Heydər Əliyev onu sakitcə dinlədi, dostunun söhbətinə münasibətini bildirmədi.

Bir neçə gündən sonra İsmayıl müəllim öyrəndi ki, Heydər Əliyev Moskvaya uçub. O, iki gündən sonra qayıtdı. İbrahimova isə yüngül sənaye naziri Sadıq Rəhimov zəng vurdu:

– Xəbərin var? Kapitonov gəlib. Axundovu işdən çıxarırlar.

İbrahimov Axundovun evinə zəng vurdu. Vəli Axundovun xanımı Sara xanım bu məlumatı təsdiq etdi və ilk dəfə ərini əvəz edəcək şəxsin adını söylədi – Heydər Əliyev.

İbrahimovun sözlərinə görə, Axundov öz yerinə başqa bir adamı – MK-nın sənaye üzrə katibi Əli Əmirovu namizəd göstərib. Müasirlərinin dediyinə görə, Əli Əmirov çox savadlı mütəxəssis imiş, sənayeni yaxşı bilirmiş, məsələləri operativ həll etməyi bacarırmış, bu cəhətdən tezliklə onu əvəz edən Həsən Seyidova oxşayırmış.

Moskva Əli Əmirovdan başqa da namizədlər axtarırdı. Onların arasında Vəli Axundovun əsas rəqibləri – Məmməd İsgəndərov və Ənvər Əlixanov da vardı. Bu «axtarışlar» barədə respublikanın Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul plenumunda Sov.İKP MK katibi Kapitonov birbaşa məlumat vermişdi: «Sizə açığını deyim ki, yoldaşlar, bu məsələ partiyamızın Mərkəzi Komitəsində, eləcə də Azərbaycan Kommunist Partiyası MK-sının bürosunda uzun müddət diqqətlə və hərtərəfli müzakirə olunub. Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsinə bir çox namizədlər nəzərdən keçirilib. Bu, təbii haldır, çünki respublikada yaxşı kadrlar çoxdur və əlbəttə, belə demək mümkündürsə, seçim imkanı da genişdir»[20].

Beləliklə, göründüyü kimi, Moskva Heydər Əliyevin namizədliyinin üstündə birdən-birə durmayıb. Hətta ilk vaxtlar bu məsələyə heç baxılmayıb. Əlbəttə ki, Baş katibə yaxın olan Semyon Sviqunun, eləcə də Andropovun müsbət rəyi olmasaydı, Heydər Əliyevin namizədliyi Brejnevin nəzərindən yayına da bilərdi. Zənnimcə, Sov.İKP MK-nın Baş katibi əvvəlcə bu ideyaya son dərəcə ehtiyatla yanaşıb. Heydər Əliyev onun üçün anlaşılmaz, müəmmalı bir şəxs idi, üstəlik də indiyədək ölkədə respublikaya siyasi rəhbər vəzifəsinə təhlükəsizlik orqanı nümayəndəsinin qoyulması nümunəsi olmamışdı. Əminəm ki, Baş katibin mühafizəkar ətrafı da onun bu işə ehtiyatla yanaşmasına tərəfdar idilər. Bir sözlə, Brejnevi Azərbay-

* Rəsulbəyov 1975-ci ilədək bu vəzifədə işlədi, istefaya gedəndən sonra Heydər Əliyev ona Azərbaycanın rabitə naziri vəzifəsini təklif etdi. General-leytenant Rəsulbəyov milli zabit kadrların hazırlanması üçün xeyli səy göstərənlərdən biridir.

canda qayda-qanun yaratmağa yalnız bir nəfərin gücü çatacağı fikrinə inandırmaq üçün Sviqunla Andropov xeyli tər tökməli oldular.

Yeri gəlmişkən, söhbətləşdiyim adamlardan bəzisi belə hesab edir ki, Heydər Əliyevin irəli çəkilməsində əsas rolu Sviqun yox, məhz Yuri Andropov oynayıb. Belə ki, Tahir Salahovun dediyinə görə «General Rəsulbəyovu MK-nın birinci katibi təyin etmək istəyirdilər. Sviqunun namizədi o idi. Moskvaya çağırıb onunla söhbət etdilər, ancaq o, vəzifədən imtina etdi. Rəsulbəyov Heydər Əliyevdən yaşca böyük idi, bu cür məsuliyyəti boynuna götürmək istəmədi. Başqa namizəd axtarmağa başladılar. Bax, onda Andropov Heydər Əliyevin namizədliyini irəli sürdü. Məndə belə bir təsəvvür yarandı ki, əvvəllər tabeliyində olan bir adamın bu cür yüksəlməsinə Sviqun daxilən müqavimət göstərirdi».

O vaxtlar SSRİ DTK-sının 5-ci idarəsinin rəisi işləmiş, bu məsələ barədə daha məlumatlı olan Filipp Denisoviç Bobkov da eyni fikri söylədi. Onunla şəxsi söhbətim zamanı mən sabiq çekistdən soruşdum ki, Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası MK-sının birinci katibi vəzifəsinə irəli çəkilməsinin təfərrüatı barədə nə bilir? Bobkov mənə belə cavab verdi:

«Mənim fikrimcə, bu məsələdə həlledici sözü Yuri Vladimiroviç Andropov deyib. Çünki o vaxtlar respublikalarda və ümumiyyətlə ölkənin hər yerində qayda-qanun yaradılması, «rüşvətxorluq və korrupsiyaya qarşı ciddi mübarizəyə başlamaq lazımdır» kimi mühüm məsələ ortaya atılmışdı. Heydər Əliyev komitə sədri olanda bu mənada özünü kifayət qədər yaxşı göstərmişdi. O, respublikada prinsipial mövqe tutmuşdu, mənimsəmə ilə bağlı işləri aşkara çıxarmışdı. Bu işlərin birbaşa DTK-ya aidiyyəti olmasa da, çekistlər neqativ hallara qarşı mübarizəyə cəlb olunmuşdular. Bu, DTK-nın «kölgə» iqtisadiyyatının təzahürlərilə mübarizədə ilk addımları idi. Heydər Əliyev DTK-nın sədri kimi bu problemlə ciddi məşğul olurdu.

Heydər Əliyev Moskvaya gəlib MK-da onunla söhbət aparılandan, onun birinci katib vəzifəsinə təqdimatı məsələsi qərara alınandan sonra ilk növbədə mənim yanıma gəldi. Bütün binanı ələkvələk edib onu axtarırdılar, onun giriş qapısından keçdiyini bilirdilər. O isə mənim kabinetimdə saat yarıma qədər oturdu və biz xeyli söhbət etdik. Heydər Əliyev taleyin gözlənilməz dönəmindən çaşıb qalmışdı.

**– O, məgər irəli çəkiləcəyini qabaqcadan bilmirdi? Sizcə Heydər Əliyev bu vəzifəyə düşünərək gedirdi, ya bu cür yüksəkliyə onu həyatın özü qaldırmışdı?**



– Səmimiyyətlə təsdiq edə bilərəm ki, Əliyevi həyatın özü yüksəltmişdi, o heç kimə tor qurmayıb və respublika rəhbərliyinə qarşı altdan-altdan mübarizə aparmayıb. O, şəxsi keyfiyyətlərinə, işə münasibətinə görə irəli çəkilib. Onu mənsəbpərəstlikdə, karyerizmdə günahlandırmaq, onun başqasını yıxaraq yerində oturduğunu söyləmək üçün əsas yoxdur. Belə şeylər ona yad idi. Heydər Əliyev tamamilə haqlı olaraq irəli çəkilib, həmin vaxt üçün o çox gərəkli namizəd idi».

Ədalət naminə uzun müddət Heydər Əliyevin yanında işləyən, çox şeyi şayiələrdən yox, öz gözləri ilə görüb bilən adamın rəyini göstərməyə bilmərəm.

Heydər Əliyevin referenti Rafael Allahverdiyev bunları xatırladı:

«O, Semyon Kuzmiç Sviqun barədə məhəbbətlə danışırdı. Sviqun ona yaxın adam idi. Heydər Əliyevlə işlədiyim vaxt hiss edirdim ki, onlar çox yaxın, ailəvi dostdurlar. Heydər Əliyev Moskvaya gedəndə həmişə Sviqunun qəbrini ziyarət edib, dul xanımı ilə görüşərdi. Zərifə xanım da Sviqunun qəbri üstünə gedərdi. Belə hallarda onu mən müşayiət edirdim. O mənə deyirdi: «Rafael, bu insan Heydər Əliyevə çox yaxşılıqlar edib». Heydər Əliyev özü də mənə deyirdi ki, Sviqun respublikadan gedəndən sonra Azərbaycan DTK-nın sədri vəzifəsinə onun namizədliyini təkidlə irəli sürüb. Axı Sviqun Brejnevlə çox yaxın idi».

Bu barədə rus tarixçisi Roy Medvedyev də özünün «Naməlum Andropov» kitabında bəhs edir:

«1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundovu istefaya göndərmək qərara alındı. Bəs onun yerinə kimi qoymalı? Bu məsələni Heydər Əliyevi tanımayan Brejnev özü həll etməli idi. 1967-ci ilədək Bakıda DTK-nın sədri işləmiş, Brejnevin yaxın dostu Semyon Sviqun isə Heydər Əliyevi çox gözəl tanıyırdı. Məhz Sviqun Heydər Əliyevin Azərbaycanda partiya işinə irəli çəkilməsini məsləhət görüb, Andropov isə bu təklifi müdafiə etdi»[21].

Əslində Heydər Əliyevin yüksəlməsinə kömək edənin məhz kim olması o qədər də vacib deyil. Əsas məsələ ondadır ki, söhbət apardığım insanların, demək olar, hamısında belə bir fikir aydın səslənir: Heydər Əliyev respublikaya rəhbərliyə qayda-qanun yaratmaq və neqativ hallarla mübarizə aparmaq üçün qoyulub.

Emiqrant yazıçı-politoloqlar V.Solovyov və Y.Klepikova öz kitablarında qatı dissident əhval-ruhiyyəsi ilə yazmışdılar ki, Andropov Heydər Əliyevi və Eduard Şevardnadzeni «SSRİ ərazisində sınaq

polis çevrilişinin» icraçıları kimi seçmişdi, özü də bu çevriliş «korrupsiya ilə mübarizə» pərdəsi altında həyata keçirildi.

Onu da qeyd edək ki, cəmiyyət arasında partiya və ictimai həyatdakı ciddi çatışmazlıqlar barədə ilk dəfə Heydər Əliyev çıxış edib. Rafael Allahverdiyevin xatirələrinə üz tutaq:

«Biz Heydər Əliyev və onun DTK-dakı işi barədə ətraflı bir şey bilmirdik. Türkiyə istiqamətində müəyyən sahələrdə uğurlar əldə ediləndə hamı danışırdı ki, bu sırf Heydər Əliyevin xidmətidir. DTK-nın sədri olanda isə artıq Heydər Əliyev görkəmli siyasi fiqur idi. Bir dəfə mən onun SSRİ Ali Sovetinə deputatlığa namizədliyi irəli sürüldüyü Bakının Lenin rayonunun seçiciləri ilə görüşündə iştirak edirdim. Heydər Əliyev ictimaiyyət qarşısında respublikadakı neqativ hallar, kadr siyasətindəki yerlibazlıq və korrupsiya və s. barədə Razin qəsəbəsinin Mədəniyyət sarayındakı çıxışında ilk dəfə açıqca söylədi. Biz oradan tezliklə dəyişikliklər olacağı ümidilə çıxdıq.

Bu görüşdə şəhərin hər yerindən gəlmiş çoxlu partiya işçisi iştirak edirdi. Yadımdadır ki, onlar iclasdan çıxandan sonra fikir mübadiləsi edir, respublikada partiya işini kökündən dəyişmək lazım olduğu, ancaq yəqin ki, respublikanın indiki rəhbərliyinin bu işin öhdəsindən gələ bilməyəcəyi barədə danışırdılar. Sonralar Heydər Əliyev xatırlayırdı ki, bu görüşdən sonra Bakıda DTK-nın sədri barədə çox danışmağa başladılar, Axundov isə bu populyarlığa çox qısqanclıqla yanaşırdı. Bir gün Vəli Axundov onu yanına çağırıb seçiciləri ilə görüşdə belə açıq danışmasını ona irad tutdu. Yəni ki, partiya işindəki, ictimai həyatdakı çatışmazlıqlar barədə kütlə səviyyəsində danışmaq düzgün deyil. Heydər Əliyev isə ona belə cavab verdi: əgər insanlar mənə onları narahat edən suallarla müraciət edirlərsə, mən riyakarlıq edə bilmərəm. Mən heç bir dövlət sirri açmamışam, məxfi məlumat verməmişəm. Ancaq belə hesab edirəm ki, respublikada baş verənlərdən bir qrup seçilmişlər yox, bütün xalq xəbər tutmalıdır».

«Kənar adamın» – tanınmış Azərbaycan yazıçısı Maqsud İbrahimbəyovun fikri də maraqlıdır. Kitabım üçün material toplayanda mən ondan soruşdum ki, DTK sədrinin respublikaya birinci katib təyin olunması Azərbaycan ziyalıları üçün gözlənilməz olmadı ki?

– Bəli, bu heç kimin gözləmədiyi xəbər idi. Ancaq şoka düşən olmadı.

**– Siz necə fikirləşirsiniz, onun respublikaya rəhbər qoyulmasının əsas səbəbi nədir? Bu işdə əsas rolu nə oynayıb?**



– O şəxsiyyət idi.

**– O vaxt Azərbaycanda nə baş verirdi?**

– Əvvəla, yuxarı dairələrdə bir-birinin «ətini yeyirdilər». Mən bunun şahidiyəm. Axundovun heç bir sözü keçmirdi. İsgəndərov yekəxanalıqla deyirdi: «Mən isə hesab edirəm ki, belə olmalıdır». Əlixanov da öz tərəfinə çəkirdi. Onlar açıq-açığına Axundova zidd gedirdilər. Onun isə bu təzyiqə müqavimət göstərməyə gücü çatmırdı. Ancaq bu, Axundov niyə vəzifədən getdi sualına cavabdır.

**– Bəs niyə məhz Heydər Əliyevin üzərində dayandılar?**

– Mən belə düşünürəm ki, SSRİ imperiya idi, Azərbaycan isə onun bir hissəsi. Həm də qeyd edək ki, bərabərhüquqlu hissəsi. Ona görə də imperiya rəhbərliyi, əlbəttə ki, respublikanı əsil rəhbərin idarə etməsində maraqlı idi. Heydər Əliyev hamıda güclü təəssürat oyadırdı.

İkincisi, Moskvada onun tamamilə düzgün adam olduğunu bilirdilər. Onu da bilirdilər ki, o heç vaxt əyri-üyrü işlərlə məşğul olmaz. Həm də dövlət idarəçiliyini dərindən bilən, möhkəm iradəli adamdır. Ümumiyyətlə, onunla söhbətdən sonra hamıda belə bir fikir oyanırdı ki, bu adam hər şeydən xəbərdardır.

Azərbaycanda qayda-qanun yaratmaq üçün Moskvaya nə üçün məhz DTK generalı lazım olduğunu aydınlaşdıran ikinci bir versiya da var. Şəxsən mənə ikinci versiya birincidən daha ağlabatan görünür. Mənə elə gəlir ki, Brejnev, Suslov, Çernenko kimi rəhbərlə üçün azadfikirlilik cücərtiləri, millətçilik və müstəqilliyə can atm rüşvətxorluq, qohumbazlıq, təsərrüfatsızlıq kimi neqativ hallarda daha qorxulu idi. Yada salaq ki, Heydər Əliyevin təyinatı 1968-c ilin bədnam hadisələri, sovet ziyalıları arasında düşüncələri və ide yaları tələtümə gətirən məşhur Çexoslovakiya hadisələrindən sonr baş vermişdi. «Çexoslovakiya sindromu»ndan dərs götürən Kremli yuxarı dairələri hər şeydən əvvəl geosiyasi vəziyyətlərinə və mil ziyalıların simasında güclü azadfikirlilər ocağına görə Moskvaya d ha təhlükəli görünən iki Qafqaz respublikasının rəhbərliyini möl kəmləndirmək qərarına gəldilər.

Ona görə də «dəmir iradəli çekist» və möhkəm əqidəli beynə miləlçi Heydər Əliyev və bir qədər sonra sərt, tərs xasiyyətli dax işlər naziri Eduard Şevardnadze hər hansı milli təzahürü bətnində məhv etmək və dövlətin fundamental dayaqlarını qorumaq üçün t yin edildilər.

Azərbaycanın xalq yazıçısı Anar da bu versiya ilə həmrəydir. Mənimlə söhbət zamanı o çox maraqlı bir fərziyyə irəli sürdü:

«Heydər Əliyevi nə vaxt Azərbaycan KP MK-nın birinci katibi təyin etdilər? 1969-cu ildə. 1968-ci ilin avqustunda sovet tankları Çexoslovakiyaya daxil oldu. Müttəfiq respublikalarda da mərkəzdənqaçma təzahürləri ilə nəticələnə bilən milli əhval-ruhiyyənin yaranması təhlükəsi vardı (bu məsələ Siyasi Büroda müzakirə olunmuşdu). Dövlət Təhlükəsizlik Komitəsi məktəbini keçmiş inanılmış, etibarlı şəxs kimi Heydər Əliyevi ilk növbədə ona görə MK-ya birinci katib təyin etdilər ki, bu cür milli təmayüllərin kökünü kəssin.

Bu, mənim şəxsi fikrimdir. Yadımdadır ki, Heydər Əliyev vəzifəyə təsdiq olunandan sonra Ohanov soyadlı moskvalı jurnalist bir qonaqlıqda azərbaycanlılara demişdi: «Sizə qarşı necə qəddarlıq etdilər».

Bəs nəticədə nə baş verdi? Bu da mənim şəxsi fikrimdir. Zənnimcə, o baş verdi ki, DTK-nın əməkdaşı, çekist və s. olan Heydər Əliyev qəlbində həmişə millətçi-azərbaycanlı olaraq qalmışdı. Pis mənada millətçi yox, məhz öz millətinə sadiq insan mənasında.

Odur ki, o, millətçiliklə mübarizə üçün göndərilsə də, tezliklə bu kampaniyanı korrupsiyaya qarşı mübarizəyə çevirə bildi. Bax, belə bir yerdəyişmə baş verdi».

***Xarici radiostansiyalar Qafqaz respublikalarından birində hakimiyyət dəyişikliyi barədə xəbəri ətraflı şərh edirdilər. 1969-cu il iyulun 18-də «Azadlıq» radiostansiyasının Azərbaycan xidmətinin efirində belə bir şərh səsləndirildi:***

«Bu nəyi göstərir (söhbət DTK sədrinin Azərbaycan KP MK-nın birinci katibi təyin olunmasından gedir. – ***E.A.***)? Partiya orqanlarının çekist aparatına çevrilməsinimi? Axı, digər respublikalardakı kimi, Azərbaycanda da buna bənzər hadisə olmayıb. Doğrudur, Azərbaycan KP MK-da və digər məsul vəzifələrdə çox çekistlər işləyib. Hətta Azərbaycan KP MK-nın keçmiş birinci katibi M.C.Bağırov da bu orqanların əməkdaşı idi. Lakin onlardan heç biri dövlət təhlükəsizlik orqanından birbaşa MK-ya keçməyib...

V.Axundovun birinci katib vəzifəsindən kənarlaşdırılmasının səbəbləri hələlik bizə məlum deyil. Ancaq güman etmək olar ki, Kreml daxili məsələlərin həllində daha geniş sərbəstlik, müstəqillik əldə etməyə çalışan müttəfiq respublikalara etibar etmir.



**Kremlin yeni hakimləri Heydər Əliyevdən ikinci M.C.Bağırov yaratmaq istəyirlər** (seçmə bizimdir – ***E.A.***)*.

Bütün bunlara baxmayaraq, 1969-cu il iyulun 14-də yeni Azərbaycan tarixinin «Əliyev dövrü» başladı. O dövrün ki, sovet quruluşunun inzibati-amirlik sisteminin mahiyyətindən doğan bütün məhdudiyyətləri və çatışmazlıqları ilə bərabər respublikanın sosial, iqtisadi və mədəni inkişafında əvvəllər görünməyən sıçrayışlarla, ən başlıcası isə – xalqın mənəvi intibah, oyanış proseslərinin dərinləşməsi, milli özünüdərkin kütləvi şəkildə oyanması ilə xarakterizə olunurdu.

## Bir səslə seçildi...

Azərbaycan Respublikasının Siyasi partiyalar və ictimai hərəkatlar dövlət arxivində, Azərbaycan KP MK-nın respublikanın partiya təşkilatı tarixində ən yığcam yığıncaqlarından biri olan XVI plenumunun stenoqramı mühafizə olunur. Bu plenumun gündəliyinə yalnız bir – təşkilati məsələ salınmışdı – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə yeni birinci katib seçilməsi. Bu münasibətlə Bakıya Moskvanın nüfuzlu partiya funksionerləri – Sov.İKP MK katibi İ.V.Kapitonov, Sov.İKP MK-nın bölmə müdiri Y.M.Starçenko təşrif gətirmişdilər.

Plenumda iştirak edən MK üzvlərinin sayından aydın olur ki, (125 MK üzvündən 87-si və 75 MK üzvlüyünə namizəddən 56-sı) respublika rəhbərliyindəki dəyişiklik, çoxusu Bakıdakı istilərin ən qızmar çağında paytaxtdan uzaqlarda olan partiya məmurlarının əksəriyyəti üçün gözlənilməz idi. Ona görə də çox çətinliklə yetərsay toplamaq mümkün oldu. Elə bunun özü də Vəli Axundovun libera idarəçiliyi dövründə «hər iki ayağı axsayan» partiya intizamının zəifliyinin göstəricisidir.

Plenumun açılışından sonra söz moskvalı nümayəndə İvan Vasilyeviç Kapitonova verildi. Onun nitqini düzəlişsiz təqdim edirik:

---

* Radiostansiyaların bu və kitabda bundan sonra sitat gətiriləcək digər məlumatları Heydər Əliyevin şəxsi arxivindən götürülüb və ilk dəfədir ki, nəşr olunur. Bu məlumatlar Azərbaycan SSR Televiziya və Radio Verilişləri Komitəsində hazırlanan və respublikanın ali rəhbərliyi üçün nəzərdə tutulan xarici radioverilişlərin gündəlik xülasəsindən götürülmüş parçalardır.

«...Yoldaş Axundov respublika iqtisadiyyatının və mədəniyyətinin inkişafı, təşkilati partiya və ideoloji işin yaxşılaşması üçün az qüvvə sərf etməyib və mümkün olan hər şeyi edib. Son vaxtlar yoldaş Axundovun sağlamlıq durumu pisləşdiyindən, o özü də başa düşür ki, Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi postunda böyük və mürəkkəb işləri yerinə yetirmək onun üçün çətinlik törədir.

Bununla əlaqədar olaraq o, Sov.İKP MK-ya müraciət edərək, onu elmi işə keçirməyi xahiş etmişdir. Sizə məlumdur ki, yoldaş Axundov çoxdan elmə meyil göstərir. O, tibb elmləri doktoru, professordur. Sov.İKP MK yol.Axundovun xahişinə qayğı ilə yanaşmışdır.

...Bu yaxınlarda, bildiyiniz kimi, o, akademik seçilmişdir, Elmlər Akademiyasının bugünki ümumi iclasında isə o, Azərbaycan Elmlər Akademiyasının ümumi məsələlər üzrə vitse-prezidenti seçilmişdir.

Onun respublika Elmlər Akademiyasının vitse-prezidenti seçilməsi ilə bağlı, təbii ki, yol.Axundovu Azərbaycan Kommunist Partiyası MK-sının katibi və büro üzvü vəzifəsindən azad etmək məsələsi ortaya çıxır. Əvvəlcə mən bir fikrimi söyləmək istəyirəm. Düşünürəm ki, mən Vəli Yusif oğlu Axundova görülən işlərə görə səmimi qəlbdən minnətdarlıq edib, Elmlər Akademiyasında uğurlu yaradıcılıq fəaliyyəti və möhkəm cansağlığı arzulamaqla bugünki plenum iştirakçılarının hamısının ümumi rəyini bildirmiş olaram.

Respublika Kommunist Partiyası MK-nın birinci katibliyinə namizəd barədə. Yoldaşlar, sizə açığını deyim ki, bu məsələyə partiyamızın Mərkəzi Komitəsində, eləcə də Azərbaycan KP MK-sının bürosunda diqqətlə və hərtərəfli baxılıb. Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi vəzifəsinə çox adamın namizədliyi nəzərdən keçirilib. Bu, tamamilə təbiidir və tam aydındır, çünki respublikada yaxşı kadrlar çoxdur, odur ki, belə demək mümkündürsə, seçmək imkanı böyükdür.

Bu məsələni diqqətlə və hərtərəfli nəzərdən keçirəndən sonra hazırda sizin respublikanın Nazirlər Kabineti yanında Dövlət Təhlükəsizlik Komitəsinin sədri olan Heydər Əlirza oğlu Əliyevin namizədliyi üzərində dayandıq.

Yoldaş Heydər Əlirza oğlu Əliyevin böyük üstünlüyü ondadır ki, hələ cavandır, 1923-cü ildə anadan olub. Bu minvalla, onun 46 yaşı var. Birinci katib vəzifəsinə isə üç illik, beş illik yox, daha uzun müddətə seçmək lazımdır... Son 25 ili o siyasi işdə – dövlət təhlükəsizlik orqanlarında çalışıb. Zənnimcə, orqanlardakı işin partiyamızın işi, siyasi iş olduğunu sübut eləməyə ehtiyac yoxdur.



Yoldaş Əliyev respublikanızın partiya təşkilatının işində fəal iştirak edir. O, partiyanın Mərkəzi Komitəsinin tərkibinə daxildir, respublika Ali Sovetinin deputatıdır. Yaxşı təşkilatçıdır, insanlarla işləməyi bacarır, eyni zamanda özünə və tabeliyində olanlara qarşı tələbkardır.

Yoldaşlar, sizə məlumat vermək istəyirəm ki, yoldaş Əliyev Sov.İKP MK-nın Siyasi Bürosunun iclasına çağırılmış, orada onunla söhbət aparılmışdır.

Bütün bunlardan çıxış edərək, Sov.İKP MK-nın Siyasi Bürosu və Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Bürosu yoldaş Əliyevin Azərbaycan Kommunist Partiyasının birinci katibi və büro üzvü seçilməsi barədə təklifini sizin müzakirənizə verir. Eyni zamanda onun respublika KP MK üzvlüyünə namizəddən üzvlüyə keçirmək lazımdır»[22].

Bu nitqdə ən azı, iki an maraqlıdır. Əvvəla, Vəli Axundovun xidmətlərini qeyd edərək və görülmüş işlərə görə ona minnətdarlıq edərək Kapitonov respublikanın partiya rəhbərliyinin demokratik olmasa da, sivil şəkildə dəyişdirilməsinin başlanğıcını qoydu. Müharibədən sonrakı Azərbaycanın tarixində ilk dəfə olaraq MK-nın birinci katibi həbsxanaya salınmayıb, partiya töhməti almayıb, hörmətlə yüksək vəzifəyə yola salınırdı. İkincisi isə, aydın olur ki, Axundovun varisi Heydər Əliyev o vaxt nə MK Bürosunun, nə də Mərkəzi Komitənin üzvü deyildi, hələ ancaq MK üzvlüyünə namizəd idi. Beləliklə, o, sovet partiya sistemində üç pilləni birdən qalxmalı olub – bu isə görünməmiş hadisə idi. Biz artıq qeyd etmişik ki, Heydər Əliyev uzun illər boyu dəfələrlə mövcud ənənələrin əleyhinə getməli, «axına» qarşı üzməli və bir çox istiqamətlər üzrə cığır açmalı olub. Onun Azərbaycanın partiya təşkilatına birinci katib seçilməsi də buna əyani sübutdur.

Kapitonovdan sonra sözü Vəli Axundova verdilər.

Öz işi barədə dediyi xoş sözlərə, insani münasibətinə görə Kapitonova minnətdarlıq edəndən sonra o əlavə etdi: «Məsələ ondadır ki, mən həqiqətən xəstəyəm və sonuncu dəfə üç ay Moskvada xəstəxanada yatmışam. Ciddi ürək xəstəliyim MK-nın birinci katibi işləməyimə əngəl törədir. Son vaxtlar vicdan əzabı çəkirdim. Bir tərəfdən təcrübəm çoxdur, bilirəm nə etmək lazımdır, səhhətim isə buna imkan vermir. Məni birinci katib vəzifəsindən azad etmək və elmi işə keçməyə imkan yaratmaq xahişilə yoldaş L.İ.Brejnevə mü-

raciət edərkən məhz bunu əsas tutmuşdum. Deməliyəm ki, Leonid İliç xahişimə böyük diqqətlə, böyük insaniyyətlə yanaşdı. Əvvəla, mənim on illik fəaliyyətimi yüksək qiymətləndirdi və dedi ki, tələsmək lazım deyil, hələ işləmək olar. Mən həkimin rəyini göstərəndən sonra mənim elmi işə keçməyimə icazə verdi...

Yoldaş Əliyevin namizədliyinə gəlincə, mən də öz rəyimi söyləmək istəyirəm.

Yoldaş Əliyev Azərbaycan Kommunist Partiyası MK-sına yaxşı birinci katib olmaq üçün bütün xüsusiyyətlərə – həm siyasi, həm işgüzar xüsusiyyətlərə malikdir. O, qısa müddətdə böyük həcmdə işi mənimsəmək üçün kifayət qədər savadlı, məlumatlı, hərtərəfli hazırlıqlıdır, o dərəcədə obyektivdir ki, **bütün kadrlara eyni gözlə baxa bilər** (seçmə bizimdir – *E.A.*). Azərbaycanda isə kadr məsələsi, əgər keçmişi və indini nəzərə alsaq, həlledicidir (qısa nitqində kadrlara diqqətli münasibət məsələsinə o iki dəfə toxunur. Görünür bu məsələ onu çox narahat edirmiş – *E.A.*). Biz onu vicdanlı, ləyaqətli kommunist kimi tanıyırıq. Dzerjinski deyirdi ki, çekistin isti ürəyi, aydın ağlı və təmiz əlləri olmalıdır. Yoldaş Əliyevdə bütün bu keyfiyyətlər vardır və mən əminəm ki, bu keyfiyyətləri birinci katib vəzifəsində həyata keçirə biləcək və bizim Azərbaycan partiya təşkilatının şərəfli ənənələrinə layiq olmağı bacaracaqdır».

Heydər Əliyev bir səslə seçildi. Səsvermədən sonra söz yeni seçilmiş birinci katibə verildi.

Ona göstərilən yüksək etimada görə Sov.İKP MK-nın və Siyasi Büronun ünvanına minnətdarlıq sözlərindən sonra Heydər Əliyev bəyan etdi:

«Mən bu vəzifəyə keçməyimlə bağlı məsuliyyətimi başa düşürəm, qarşımda duran vəzifələrin çətin və mürəkkəb olduğunu bilirəm. Əmin etmək istəyirəm, bütün qüvvəmi sərf edəcəyəm ki, bu böyük və yüksək etimadı doğruldum. Bu işdə Azərbaycan Kommunist Partiyası MK-sının bütün heyətinin, MK Bürosu üzvlərinin, respublikamızın bütün rəhbər partiya, sovet və təsərrüfat işçilərinin köməyinə və dəstəyinə arxalanır və ümid bəsləyirəm. Belə hesab edirəm ki, fəal birgə əlbir işimiz gələcək uğurlarımızın rəhni ola bilər».

Tarixi plenumun stenoqramı bundan ibarətdir.

İndi isə kadr arxasında qalan, stenoqrama daxil olmayanlar barədə. Əgər desək ki, respublikanın ali partiya nomenklaturasının plenumda iştirak edən nümayəndələri şok keçirtdilər, deməli, heç nə deməmiş olarıq. Onlar çox gözəl başa düşürdülər ki, külək haradan



əsir və yaxın gələcəkdə onları nələr gözləyir. O illərdə vahiməli və qüdrətli bir idarə olan DTK başçısına, şübhəsiz, onların əməlləri məlum idi və çoxları bunun üstündə ən yaxşı halda tezliklə vəzifələri ilə vidalaşacaq, partiya biletlərini, hətta azadlıqlarını belə qurban verəcəkdilər. Odur ki, Heydər Əliyevin namizədliyinə qarşı partiya aparatının daxili müqaviməti güclü idi. Ancaq totalitar rejim şəraitində bunu gizlədir, əsasən, inamsız baxışlarla və başlarını şübhəli tərzdə yellətməklə büruzə verirdilər.

Ramiz Məmmədzadə xatırlayır ki, Heydər Əliyevin namizədliyinə qarşı yeganə çıxış edən Şamaxı rayon partiya komitəsinin katibi Sabir Şəfiyev oldu. Ancaq o da qəti etiraz bildirmədi, sadəcə olaraq soruşdu:

– Sabah biz öz yerlərimizə, rayonlarımıza qayıdacağıq. Camaata necə izah edək – partiya aparatında, MK-nın tərkibində birinci katib vəzifəsinə layiqli adam tapılmadı?

Bu suala Kapitonov təqribən belə cavab verdi: «DTK partiya-dövlət orqanlarının bir parçasıdır və Sov.İKP-nin siyasətini həyata keçirir. Ona görə də bu təşkilata rəhbərlik etmiş adamın MK-nın birinci katibi vəzifəsinə irəli çəkilməsində heç bir təəccüblü şey yoxdur».

MK-nın iyul plenumunu xatırlayarkən mən Əliyev komandasının qocaman üzvündən «yuxarıların» çekistin birinci katib vəzifəsinə seçilməsi məsələsinə necə yanaşmaları barədə səmimi cavab verməyi xahiş etdim.

Məncə, İsmayıl Əli oğlu İbrahimov həqiqətən səmimi cavab verdi:

«Düzünü deyim ki, bu təyinat yekdil sevinc və razılıqla qarşılanmadı. Bizdə çox güclü nazirlər dəstəsi formalaşmışdı, hamısı ali təhsilli iqtisadçılar idi, Heydər Əliyevin təyinatına kifayət qədər şübhə ilə yanaşdılar. Deyim ki, şadlıq hissi ilə qarşılandı, bu düzgün olmaz, ancaq hay-küylü etiraz və hiddət də olmadı. Həm də kim buna cürət edərdi? Partiya intizamı çox güclü idi. Bu işə ehtiyatlı münasibət göstərsələr də hamı onu qəbul etdi. Xüsusilə də MK-nın avqust plenumundan sonra».

Bəli, əgər tam dəqiq desək, Azərbaycanda çoxları elə bugünədək respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul plenumunu yox, Heydər Əliyevin ilk dəfə fəaliyyət proqramını xalqa bəyan etdiyi, əks-sədası Sovet İttifaqının hüdudlarından da uzaqlara

yayılan həqiqətən inqilabi bəyanatlarla çıxış etdiyi avqust plenumunu tarixi hesab edir.

## 5 avqust 1969-cu il

Bu adi, növbəti plenumun gündəliyi belə idi: «V.İ.Leninin anadan olmasının 100 illiyinə hazırlığın gedişi barədə».

On ildən artıq bir müddətdə Heydər Əliyevin məruzə hazırlamaqda sadiq köməkçisi olan Azərbaycan Dövlət İnformasiya Agentliyinin keçmiş direktoru Yefim Qurviç bu qeyri-adi məruzənin hazırlandığı şərait barədə aradan xeyli vaxt keçəndən sonra Həsən Həsənovla söhbət etmişdi.

Heydər Əliyevi MK-nın birinci katibi vəzifəsinə seçənə qədər qarşıdakı plenumda ediləcək məruzə artıq hazır idi. Bu məruzə ənənəvi rəsmi basmaqəlib ifadələrdən və partiya tezislərindən tərtib olunmuşdu. Heydər Əliyev məruzəni diqqətlə gözdən keçirib soruşdu: «Bu nə məruzədir?» Köməkçilər ona izah eləməyə başladılar ki, yubiley məruzələri, xüsusilə də ümumdünya proletariatının rəhbərinin ad günü ilə bağlı məruzələr məhz belə, nikbin əhval-ruhiyyəli olur. Bu məruzələrdə daha çox uğurlardan, yüksək göstəricilərdən danışmaq lazımdır. Onda Heydər Əliyev istehza ilə soruşdu: «Bu qaydanı kim qoyub?»

Əlbəttə, ona ağlabatan cavab verə bilmədilər. O, yazılanları qətiyyətlə kənara qoyub, məruzənin necə olması barədə fikirlərini bildirdi. Azərbaycan KP MK-sının işçiləri Heydər Əliyevin Leninin yubileyinə hazırlıqla bağlı vəzifələrə həsr olunmuş məruzə haqqında dediklərindən bir qədər narahat olsalar da, «birinci»yə etiraz etməyə cürətləri çatmadı. Beləliklə, Heydər Əliyevin Azərbaycan KP MK-nın avqust plenumundakı məruzəsində uğurlardan daha çox, respublikanın partiya və sovet orqanlarındakı ciddi çatışmazlıqlardan söhbət açılırdı.

«Nəticədə MK-nın avqust plenumunun tələbləri, avqust plenumunun «ruhu» uzun illər boyu respublikanın partiya-siyasi işinin səviyyəsini tənzimləyən bir amilə çevrildi, – deyə Həsən Həsənov xatırlayır. – Bu, bəlkə də, Sov İKP və bütün SSRİ-nin tarixində ilk dəfə idi ki, rəhbərin yubileyinə bu cür tənqidi notlar üzərində hazırlıq görülürdü. Bunu yalnız Heydər Əliyev kimi dəmir iradəli, böyük cəsarət və güclü ədalət hissinə malik bir adam edə bilərdi.

Yeri gəlmişkən, Heydər Əliyev komandasının tanınmış simalarından biri, sonralar Azərbaycan KP MK-nın katibi işləmiş Həsən



Əziz oğlu Həsənov «birinci» öz məşhur məruzəsinin tezislərini bir neçə komsomol funksionerlərinin qarşısında «sınaqdan keçirərkən» o azsaylı «dinləyicilərin» sırasında olmuşdu. Həsən Həsənovun kitab müəllifi ilə iltifatla bölüşdüyü xatirələr o dövrün ab-havasını əks etdirən çox qiymətli mənbədir. Odur ki, kitabda bu xatirələrə dəfələrlə üz tutacağıq. O, tarixi plenumdan bir qədər əvvəl, Heydər Əliyevlə hansı şəraitdə şəxsən tanış olduğu barədə bunları danışdı:

«İndiki kimi yadımdadır. 1969-cu ildə mən Moskvaya, ÜİLKGİ MK aparatında işə göndərildim. Həmin ilin iyulunda Bakıda yapon-sovet gənclərinin dostluğu festivalı keçirilməli idi. Məni, Azərbaycanı yaxşı tanıdığım üçün festivala hazırlıq üzrə qərargaha daxil etdilər. Biz Bakıya gəldik. Bundan bir neçə gün sonra, iyulun 14-də Azərbaycan KP MK-nın plenumu keçirildi və orada Heydər Əliyevi birinci katib seçdilər. Yenə bir neçə gündən sonra bizə bildirdilər ki, Heydər Əliyev festivalın keçirilməsi ilə bağlı təşkilati məsələləri müzakirə etmək üçün Ümumittifaq LKGİ MK-nın işçilərini qəbul edəcək. Moskvadan festivala hazırlıq üzrə qərargahın 40-dan artıq üzvü gəlmişdi. Belə qərara gəldik ki, Heydər Əliyevlə görüşə üç nəfər getsin – ÜİLKGİ-nin beynəlxalq şöbəsi müdirinin müavini (o həm də qərargah rəhbəri idi), mən və Azərbaycan LKGİ MK-nın birinci katibi Elmira Qafarova. Mən Heydər Əliyevi yaxından birinci dəfə idi ki, görürdüm. Sonralar bir neçə onilliklər ərzində Heydər Əliyevin xarakterində müşahidə etdiyim fərqli cəhətlər elə o vaxt, ilk görüşümüz zamanı məndə silinməz izlər qoydu. Bu, müsahibini diqqətlə dinləmək bacarığı, qəribə təmkinliyi, eyni zamanda qeyri-adi fəallığı idi. Az müddətdə o həm dinləyir, həm də ilk baxışda demək olar ki, həlledilməz görünən problemləri həll etməyi bacarırdı. Söhbətin sonunda Heydər Əliyev respublikanın rəhbər işçilərinə operativ tapşırıqlar verdi. Sonra soruşdu:

– Deyiləsi sözünüz qalmadı ki?

– Xeyr, – deyə cavab verdik.

– Onda sizə işlərimizdən danışım.

O, respublikadakı vəziyyət barədə danışmağa başladı, neqativ halların, proteksionizmin üzərində dayandı, kadr siyasətindəki nöqsanları, iqtisadiyyatdakı çatışmazlıqları qeyd etdi, bu halların aradan qaldırılması üçün planlarından söhbət açdı. Başqa sözlə desək, o, konseptual şəkildə gələcək fəaliyyət proqramını bəyan etdi.

Bir müddət Azərbaycan KP MK aparatında işləyərkən mən şəraitlə müəyyən dərəcədə tanış olsam da, respublikadakı işlərin vəziyyətindən, çətinliklərdən xəbərim olsa da, onun verdiyi məlumat

məndə böyük təəssürat oyatdı. Mənə aydın oldu ki, Azərbaycandakı belə kadr dəyişikliyindən sonra ciddi islahatlar gözləmək lazımdır. Mənim ÜİLKGİ MK-dan olan həmkarıma gəlincə, o eşitdiklərindən şoka düşmüşdü. Biz həyətə çıxıb, Elmira Qafarova ilə xudahafizləşəndə o, məhrəmliklə dedi: «Əgər Heydər Əliyev dediklərinin hamısını həyata keçirsə, onda SSRİ-də çox şey dəyişiləcək. Həm də yəqin ki, çoxları özünü narahat hiss edəcək». Tarix göstərdi ki, Heydər Əliyev məhz belə fikirləşmişdi və ÜİLKGİ MK-nın məsul işçisinin güman etdiyi kimi də oldu. O illərdə Heydər Əliyev nəzərdə tutduqlarını tamamilə həyata keçirdi. SSRİ-nin bütün sahələrdəki bir çox rəhbər işçilərinin, həqiqətən, necə deyərlər, kürkünə birə düşdü. İctimaiyyətə isə aydın oldu ki, sosializm şəraitində də ciddi iqtisadi nəticələr əldə etmək olar, kommunist ideologiyası monopoliyası şəraitində də mənəvi-əxlaqi qaydaların naqisliyindən danışmaq, sosialist quruluşunda yaranmış çatışmazlıqları tənqid etmək olar. Bir sözlə, Heydər Əliyevin fəaliyyəti göstərirdi ki, SSRİ-də əsaslı dəyişiklik olmasını tələb edən yeni zaman gəlmişdir. Doğrudur, bu dəyişikliklər yalnız Azərbaycanda baş verirdi.

Festivaldan sonra biz hamımız Moskvaya qayıtdıq. Avqustun 6-da həmin şöbə müdirinin müavini mənə zəng vurub soruşdu: «Həsən, sən bilirsən ki, dünən Azərbaycanda MK-nın plenumu olub?» – «Yox». – «Bakıya, uşaqlara zəng vur, qəzetləri bizə göndərsinlər». Mən Azərbaycan komsomolunun MK-sına zəng vurdum, Heydər Əliyevin məruzəsi çap olunmuş qəzeti təyyarə ilə göndərməyi xahiş etdim. Qəzeti oxuyandan sonra gördüm ki, Heydər Əliyev bizimlə görüşdə qaldırdığı problemləri MK plenumunun müzakirəsinə çıxarıb. Bu, Azərbaycanın partiya təcrübəsində görünməmiş hadisə idi. Qəribəlik onda idi ki, plenum başdan-ayağa tənqidi təhlil şəraitində keçirilmişdi. Plenumun gedişində heç kimə güzəşt edilmədən respublikanın bütün rəhbər işçiləri kəskin tənqidə məruz qalmışdılar. Bu tənqidi təhlil bütünlüklə qəzet səhifələrində öz əksini tapmışdı. Nəhayət ki, əvvəllər üstündən sükutla keçməklə, şayiə və qeybət yolu ilə yayılan məsələlər artıq geniş ictimaiyyətin müzakirəsinə verilmişdi. Öz növbəsində ictimaiyyət də respublikada vəziyyətin yaxşılaşdırılması prosesinin özünə aidiyyəti olduğunu dərk etməyə başladı.

*Avqust plenumundan otuz beş il keçəndən sonra azərbaycanlı jurnalist-icmalçı İbrahim Səmədov «1969-cu ilin isti yayı» məqaləsində plenumun yekunlarını təhlil edərək yazacaqdı:*



*«Azərbaycanın onun simasında tarixi maştablı lider qazandığı, artıq onun respublikada yüksək vəzifəyə seçildiyi vaxtdan iyirmi gün sonra aydın oldu. Elə indinin özündə də, onilliklər keçməsinə baxmayaraq, bu sənəd (Heydər Əliyevin avqust məruzəsi – E.A.) özünün standart olmayan yanaşmaları, dərin təhlili, perspektivdə olan vəzifələrin qoyuluşundakı məqsədyönlülüyü ilə heyran qoyur.*

*Hər şeydən əvvəl, hökumət orqanları strukturunda prioritetlər dəqiq müəyyənləşdirilmişdi ki, respublika rəhbərliyinin prinsipial qərar və göstərişləri yerlərə dərhal çata bilsin və mütləq həyata keçirilsin. Maraqlıdır ki, Azərbaycanın geniş partiya kütləsi qətiyyən ruhdan düşmədi, əksinə dərhal başa düşdülər ki, onların gözü qarşısında dəyərlərin yeni sistemi yaranır. Onları diqqətlərini gərgin sistematik işlərdə cəmləşdirməyə çağırıb bunu necə etmək lazım olduğunu da izah etdilər. Özü də bunu başqalarına nümunə ola biləcək bir adam deyirdi.*

*Heydər Əliyev yeni ideya və fikirlər irəli sürdü, onları ənənəvi siyasi leksik üslubda olsa da, yeni tərzdə ifadə etdi. Avqust plenumundan sonra təkcə yüksək səviyyəli rəhbərlərdə deyil, orta və aşağı dairələrdə də böyük siyasi və psixoloji gərginliyin yaranması onun günahı yox, bəlkə də xidmətidir. MK-nın birinci katibinin sərt çıxışları respublikada baş verənləri tamamilə yeni müstəvidə qiymətləndirməli olan ideoloji aparat işçilərinin və onların mətbuat orqanlarının işini çətinləşdirdi.*

*Beləliklə, Heydər Əliyevin avqust məruzəsi gələcək üçün proqram sənədi oldu, çünki orada hazırkı dövrü dərindən təhlil etməklə yanaşı, gələcək istiqaməti müəyyənləşdirməyə uğurlu cəhdlər göstərilirdi»*[5].

Mənim misal gətirdiyim rəylər və fikirlər, necə deyərlər, aradan tarixi dövr keçəndən sonrakı baxışlardır. Ancaq həmin gün MK plenumunun keçirildiyi Siyasi Maarif evində olan, eşitdiklərindən həqiqi şoka düşən canlı şahidlərin xatirələri də maraqlıdır.

Məsələn, o vaxtlar leytenant Şmidt adına zavoda rəhbərlik edən, 1971-ci ildə isə MK-nın sənaye, tikinti və rabitə üzrə katibi olan Həsən Seyidov həmin plenumda iştirak edərək, hətta birinci katibin məruzəsi ətrafında çıxış etməyə hazırlaşıbmış.

«Onun plenumdakı çıxışı heç vaxt mənim xatirimdən silinməz, – deyə Həsən Seyidov xatırlayır. – Bu çıxış respublikanın hüdudlarından kənarda da əsl sensasiyaya çevrildi və SSRİ-nin hər tərəfində böyük rezonansa səbəb oldu. O, respublikanı bürümüş korrupsiya

barədə, xalqın sosial-iqtisadi vəziyyətinin pisləşməsinə səbəb olan, həyat səviyyəsini aşağı salan digər neqativ amillər barədə danışdı. İndiyədək belə açıq tənqid eşitməmişdik. Onun məruzəsindən sonra çoxlarının qəlbində respublikanın qısa müddətdə geriliyi aradan qaldıracağı və irəli gedəcəyi barədə inam yarandı.

Mən zalda oturub fikirləşirdim ki, necə edim, çünki zavod direktoru kimi mən də çıxış etməli idim. Ancaq hamı üçün gözlənilməz olan, hazırladığım çıxışa heç cür uyğun gəlməyən bu məruzədən sonra məni çıxışçıların siyahısından pozmağı xahiş etdim. Həm də bu cür məruzədən sonra axı nədən danışmaq olardı? MK-nın katibi rəhmətlik Əli Cabbar oğlu Əmirova kağız yazıb, çıxış etməyəcəyimi bildirdim. O, siyahıdan mənim adımı pozdu.

Sonralar mən MK-ya işə keçəndən sonra bunu Heydər Əliyevə danışdım. O, gülümsünərək, mənim düzgün hərəkət etdiyimi söylədi.

– Sən o vaxt çıxış etsəydin, özün haqqında fikirləri korlaya bilərdin. Bəlkə heç indi də birlikdə işləməzdik».

«Valehedici bir məruzə idi. İyirmi gün ərzində belə məruzə hazırlamaq, hər şeyi ayırd etmək, respublikadakı vəziyyəti belə dərindən təhlil etmək hər kəsin hünəri deyildi.

Plenum Siyasi Maarif evində keçirilirdi. Əliyevin məruzəsini nəfəs çəkmədən dinləyirdilər. Mən eyvanda oturub onun məruzəsini axıradək dinlədim, sonra instituta gəlib, dərhal ona – MK-ya zəng vurub təbrik elədim».

*(İsmayıl İbrahimovun söhbətlərindən).*

«Heydər Əliyev ilk dəfə avqust plenumunda çıxış edəndə, mən Siyasi Maarif evində mərkəzi radio və televiziyanın xüsusi müxbiri kimi iştirak edirdim. Zal ağzınadək dolu idi.

Plenumda çıxışı zamanı o elə şeylərə toxundu ki, əvvəllər bu barədə pıçıltı ilə yalnız mətbəxlərdə danışırdılar. Zaldakılar özlərini itirmişdilər. Respublikanın rəhbəri çıxışında, hamının yaralı yeri olan məsələlərdən danışaraq, cəmiyyətin həyatındakı çatışmazlıqları açıq-açığına tənqidə məruz qoydu. O vaxtlar, həqiqətən də, korrupsiya respublikanı dəhşətli vəziyyətə salmışdı».

*(Maqsud İbrahimbəyovla söhbətdən).*

Həmsöhbətlərimdən biri, sovetlər dönəmində Naxçıvanda məsul partiya vəzifələrində işləmiş, hazırda Milli Məclisin deputatı olan



Fəttah Heydərov söhbətimizin mövzusuna bir qədər fəlsəfi yanaşaraq onu xalqın keçmişi, bugünü və gələcəyi ilə əlaqələndirdi.

– Məni həmişə bir sual düşündürürdü: biz kimik? Hər gün beş kilometr yol qət edərək müəllim işlədiyim məktəbə gedir, sonra da geri qayıdırdım. Yol boyu mən dərslərim, şagirdlərim haqda çox düşünür, sosial xarakterli məsələlər barədə dərindən fikirləşirdim. Özözümə sual verirdim ki, nəslimizin başına nə iş gəldi, buralara nə cür gəlib çıxdıq? O vaxtlar radio-televiziya yox idi. Uzun qış gecələrində valideynlərimiz bizə keçmiş zamanlardan, tərk etdiyimiz gözəl yerlərdən, elimizdən-obamızdan danışardılar. Qərbi Azərbaycan, Çəmənkənd – anamın əcdadlarının doğulub boya-başa çatdıqları yerlər məhsuldar torpaqları, sıx meşələri, buz bulaqları, əsrarəngiz təbiəti ilə seçilirdi. Yaşadığımız Çeşməbəsarda* isə sudan korluq çəkirdilər, qışda qarı əridib işlədirdilər, yayı isə cəhənnəm kimi isti olurdu. Yaşıllıq az, bitkilər aləmi kasıb idi. Düşünürdüm ki, bura necə gəlib düşmüşük? Nə üçün Türkiyədən qaçan Andronik torpaqlarımızı zəbt edib, evimizi-eşiyimizi talayıb, özümüzü də elimizdən-obamızdan qovub? Biz niyə belə aciz olmuşuq?

60-cı illərin əvvəllərində partiya vilayət komitəsində təlimatçı işləyirdim. Yubiley vaxtı muxtar vilayət haqqında material hazırlamaq üçün Naxçıvana «Oqonyok» jurnalının xüsusi müxbiri Aleksey Qolikov gəlmişdi. Onu müşayiət etməyi mənə tapşırmışdılar. Naxçıvanın bütün rayonlarını və kəndlərini dolaşdıq. Mən ona tarixi abidələri, Mömünəxatun türbəsini, Ordubadın orta əsrdən qalma tikililərini göstərdim, adət-ənənələrimizdən danışdım. Bu müddət ərzində dostlaşdıq. Ətraflı material hazırlayıb vilayət partiya komitəsinin birinci katibi Hacıağa İbrahimova göstərdik. Qolikov H.İbrahimovdan mənim onu Yerevana qədər ötürməyimə icazə aldı. Oradan təyyarə ilə Moskvaya uçacaqdı.

Biz Yerevana yollandıq. Ermənistan sərhədinə çatanda o mənə qəribə sual verdi:

– Fəttah Səmədoviç, nəyə görə xalqınız bu qədər geridə qalıb?

O sinli, təcrübəli insan idi, müharibədə iştirak etmişdi. Onun sualı mənə çox toxundu. Özümü itirdim.

Bir yerdə bu qədər çörək kəsmişdik, yemək məclislərində Azərbaycan xalqı, naxçıvanlılar, şəxsən mənim özüm haqqında gözəl sözlər söyləmişdi. İndi isə bu cür təhqiredici sual verir.

* Naxçıvan MR-in Babək rayonunda düzənlik yerdə salınmış kənd.

– Siz düz demirsiniz, – deyə cavab verdim. – Siz sualı düzgün qoymamısınız. Biz geridə qalmış deyilik. Sizə Möminəxatun türbəsini göstərdim, bu XII əsrin görkəmli memarı Əcəmi Naxçıvaninin əsəridir. Biz isə onun törəmələriyik. Mən sizi Ordubaddakı misilsiz sənət nümunələri ilə tanış etdim. Siz alimlərimizin, elm adamlarımızın həyat və yaradıcılığı ilə tanış oldunuz. Burada Yusif Məmmədəliyev kimi böyük kimyaçı alim yaşayıb-yaradıb. Sizin də iştirakçısı olduğunuz müharibədəki qələbəyə görə Sovetlər ölkəsi ona da minnətdar olmalıdır.

Qolikov gördü ki, mən əsəbiləşmişəm.

– Üzr istəyirəm, – dedi, – həqiqətən də mən sualımı o qədər də düzgün qura bilməmişəm. Mən soruşmaq istəyirdim ki, nə üçün Azərbaycan əsas göstəricilərə görə başqa respublikalardan geri qalır? Mən xalqı nəzərdə tutmurdum.

O, «Ekonomiçeskaya qazeta»nın son nömrəsini açdı.

– Bax gör, sənaye üzrə siz hansı yeri tutursunuz, – dedi.

Biz yalnız Türkmənistandan irəlidə olmaqla sonuncu yerdən əvvəlkini tuturduq.

O, qəzeti vərəqləyərək kənd təsərrüfatı üzrə göstəriciləri tapıb göstərdi.

– Bir bax, hansı yerdəsiniz. Biz kəndlərinizi, yollarınızı keçib gəldik. Hazırda Ermənistan ərazisindəyik. Sizin yollarınızla onlarınkını müqayisə et. Fərq açıq-aydın görünür. Mənə acığın tutmasın.

Mən Yerevana çatana qədər onunla kəlmə kəsmədim.

Qolikovu yola saldım, tezliklə material «Oqonyok»da dərc olundu.

Aradan bir müddət keçdi. Biz onunla zəngləşir, mən Moskvada olanda isə görüşürdük. On ildən sonra, 1979-cu ildə mən Ordubadda birinci katib işləyəndə Leonid Brejnev Bakıya gəldi. Biz bütün tədbirlərdə iştirak edirdik. Sonuncu yığıncaqda o məşhur sözlərini söylədi: «Azərbaycan iri addımlarla irəliləyir». Bu sözlər bütün ittifaqı dolaşdı. Tədbirdən sonra biz «Moskva» mehmanxanasındakı otaqlarımıza dağılışdıq. Mən kiminləsə söhbətləşmək, sevincimi bölüşmək istəyirdim. Respublikamın uğurlarına görə qəlbim fərəhlə, iftixarla dolmuşdu. Elə bu vaxt Aleksey Qolikov yadıma düşdü. Moskvaya zəng vurdum. O, dəstəyi götürdü.

– Aleksey, salam, mənəm, Fəttahdır. Azərbaycan iri addımlarla irəliləyir.

– Heç yadından çıxara bilmirsən, – deyə o güldü. – Bax, mən elə bunu nəzərdə tuturdum. Görürsən, respublikanız necə irəli gedib?! Gördün baş katib sizi necə tərifləndi, necə gözəl göstəriciləriniz var?! Mən fəxr edirəm ki, sənin, Azərbaycanın dostuyam.



Həqiqətən də, bizim geri qaldığımızı deyəndə moskvalı jurnalist başqa şeyi nəzərdə tuturdu: bərbad vəziyyətdə olan kənd təsərrüfatını, partiya aparatındakı münaqişələri və çəkişmələri, güclü rəhbərliyin olmamasını. Lüzumsuz boşboğazlıq, bürokratik əngəllər, təşəbbüskarlıq olmayan yerdə canlı işgüzarlıq görünüşü yaratmaq cəhdləri baş alıb gedirdi. Buraya rüşvətxorluğun, yerlibazlığın, tamahkarlığın tüğyan etdiyini də əlavə etsəniz, respublikanı bürüyən sosial-iqtisadi və mənəvi böhranın dərinliyini təsəvvür edə bilərsiniz.

1969-cu ilin avqustunda keçirilən plenumda məhz bunlardan söhbət gedirdi. Onun çıxışını dinləyərkən, mənə elə gəlirdi ki, o, uzun illərdən bəri mənə əzab verən, məni incidən bütün suallara cavab verir.

Heydər Əliyev bizə düzgün yol göstərdi. İlk növbədə dedi: «Namuslu, vicdanlı zəhmət yolunu tutmaq lazımdır. Bu yolda intriqalara, talançılığa, ikiüzlülüyə, rüşvətxorluğa yer yoxdur. Korrupsiya və ya rüşvətxorluq, necə istəyirsiniz adlandırın, təəssüf ki, cəmiyyətin həyatında mühüm amildir. Xüsusilə də Şərq cəmiyyətinin».

**Avqustun 7-də** «Bakinski raboçi» qəzeti Azərbaycan KP MK-nın birinci katibinin çıxışının stenoqramını qısaldılmış şəkildə dərc etdi. Bu, ictimaiyyət arasında bomba kimi partladı. Heydər Əliyevin çıxışını dərc etmiş «Bakinski raboçi»nin həmin nömrəsi çoxminli sovet partiya işçiləri arasında neçə aylar boyu ən əlçatmaz və tələb olunan mətbu orqanına çevrildi. O günləri **Həsən Həsənov** belə xatırlayır:

«Plenumun stenoqramı dərc olunmuş qəzeti oxuyandan sonra onu beynəlxalq şöbəyə, sonra isə ÜİLKGİ MK-nın təşkilat şöbəsinə verdim. Uzun müddət qəzet komsomolun mərkəzi aparatında əldən-ələ gəzdi. Onu çox adam oxudu. Ay ərzində mən qəzetin şöbələr arasında dolaşmasına nəzarət etdim, birindən alıb o birinə verirdim, izləyirdim ki, itib-batmasın. Axı o vaxtlar faks və surətçıxaran aparatlar yox idi. Həmin günlər Azərbaycan mövzusu ÜİLKGİ MK aparatında ən populyar mövzu idi (zənnimcə, təkcə orada yox, Sov.İKP MK aparatında da həmçinin). Yeri gəlmişkən, həmin qəzeti sonralar bir neçə ay ərzində ezamiyyətə getdiyim yerlərə, o cümlədən Qazaxıstana da apardım. Hər yerdə onu sonsuz maraqla oxuyur və mənə saysız-hesabsız suallar verirdilər.

Müxtəlif cür münasibət bəsləyirdilər. «Partiya evinin zibilini kənara çıxarmaq olmaz» – deyə fikirləşənlər məruzəni bəyənmirdilər. Kommunist Partiyası gizli təşkilat kimi meydana çıxsa da, o vaxt artıq 50 ildən artıq idi ki, hakimiyyət başında idi. Buna baxmayaraq «konspirasiya» taktikası yenə də ən vacib şərtlərdən biri kimi qalmaqda idi. Dəyişən yalnız bu taktikanın şərhi idi. Partiya öz sirlərini yarandığı vaxt çar nəzarətçilərindən gizlədirdisə, 60-cı illərdə xarici antisovet kütləvi informasiya vasitələrinin nəzərindən yayındırmağa çalışırdı. O vaxt belə bir fikir var idi ki, partiya və sovet orqanının hər hansı tənqidi həmin dəqiqə xaricdə bizə qarşı silah kimi istifadə olunur. Buradan belə bir nəticə çıxır: yaxşısı budur ki, çatışmazlıqlardan öz aramızda, örtülü qapılar arxasında danışaq. Buna baxmayaraq, Azərbaycan kommunistlərinin və rəhbər işçilərinin əksəriyyəti (təkcə Azərbaycan yox, digər respublikaların da həmçinin) məruzəyə son dərəcə təqdirlə yanaşdılar. ÜİLKGİ MK-nın ali rəhbərliyi, elə aparatın digər işçiləri də ölkədəki vəziyyət barədə yaxşı məlumatlandırılırdılar. Misal üçün, məsul təşkilatçı kimi mənim funksiyalarıma təkcə LKGİ MK və vilayət komsomol komitəsi katibləri ilə deyil, vilayət partiya komitələrinin birinci katibləri ilə də işləmək daxil idi. Ona görə də ezam olunduğum yerlərdəki vəziyyətdən xəbərdar idim. Müqayisə etmək imkanı var idi. Çünki Heydər Əliyevin nəzərə çatdırdığı neqativ halların və proseslərin çoxusu digər müttəfiq respublikalarda və vilayətlərdə də özünə yer eləmişdi. Çoxları məruzəni oxuyub deyirdilər: «Bu elə hər yerdə var! Ancaq bu barədə təkcə Heydər Əliyev danışdı. Bu hallarla mübarizəyə də elə təkcə o hazırlaşır».

Həqiqətən də, ittifaq miqyasında rəhbərlər arasında ilk olaraq Heydər Əliyev sovet sisteminin əsas qüsurları barədə danışdı. Özü də gizlində, qapalı söhbət zamanı yox, açıq-açığına, ictimaiyyət qarşısında danışdı. Dövlət aparatındakı rüşvətxorluq və korrupsiya barədə, vəzifəli şəxslərin öz səlahiyyətlərini aşması barədə, hüquq bərabərliyi prinsiplərini pozmaq barədə. O, partiya üzrə həmkarlarına təklif etdi ki, ətrafdakı gerçəkliyə ayıq gözlə baxıb səmimiyyətlə etiraf etsinlər ki, rəsmi ideologiyanın təbliğ etdiyi namusluluq, vicdan, ədalət, təmizlik prinsipləri əslində hər addımda pozulur. Özü də sıravi «obıvatel» tərəfindən yox, «yuxarılar»ın nümayəndəsi, nazirlik, idarə, partiya aparatı rəhbərləri tərəfindən pozulur. O, öz respublikasındakı vəziyyətdən danışırdı, ancaq Azərbaycan okeanda ada deyildi ki?! O, SSRİ adlanan bütövün bir parçası idi. Ona görə də



Qafqaz respublikasında baş verənlər bu və ya digər dərəcədə bütün Sovet İttifaqı üçün xarakterik idi.

Onun çıxışı bomba kimi partladı. Əliyevin məruzəsini xaricdə əsl sensasiya kimi qəbul etdilər. O vaxt onun masasının üstünə hər gün xarici KİV-lərin nəşrlərindən götürülmüş sitatların uzun siyahısı qoyulurdu. Hamısı bir nəfər kimi, SSRİ-nin Kommunist Partiyası rəhbərliyində «çekist Əliyev»in hamını və hər şeyi devirmək üçün peyda olduğunu yazırdılar.

Xarici radiostansiyalar verilişləri bütünlüklə bu fenomenə həsr edirdilər.

Qəhrəmanımızın şəxsi arxivində xarici mətbuatın və informasiya agentliklərinin MK-nın birinci katibinin «üsyankar» bəyanatlarını necə qarşıladıqları barədə reylər saxlanılır. Onlardan bir neçəsini misal gətirək:

**«Röyter» agentliyi. 1969-cu il 11 avqust.**

«Keçən ay respublikanın Kommunist Partiyasına rəhbər seçilmiş adam Qafqaz sovet respublikası olan Azərbaycanda yüksək vəzifəli şəxslər arasında guya ki, yer almış korrupsiya, özbaşınalıq halları barədə heyrətamiz bəyanatlar vermişdir.

Onun nitqi cənab Əliyevin respublika Elmlər Akademiyasının vitse-prezidentliyinə qədər vəzifədən salınmış əvvəlki partiya rəhbəri cənab Axundovu nəyə görə əvəz etdiyini aydınlaşdırır».

**«Azadlıq» radiostansiyasının 1969-cu ilin 12 avqustunda rus dilində verilişindən parça:**

«Bakı. Azərbaycan Kommunist Partiyasının birinci katibi Heydər Əliyev Azərbaycan SSR-in bir sıra məsul dövlət və partiya işçilərinin rüşvətxorluğunu və mənəviyyatsız hərəkətlərini ifşa edən məruzəylə çıxış etmişdir. Əliyev intizamsızlıq və kommunist əxlaqı ilə bir araya sığmayan hərəkətlərdən danışmışdır. O, günahkarları ifşa etməyi və rüşvətxorluqla mübarizə aparmağı tələb etmişdir. Bundan əlavə, Əliyev iddia edir ki, Azərbaycan SSR-in bir çox məsul dövlət və partiya işçisi vəzifəyə qohumbazlıqla gəliblər. Əliyevin sözlərinə görə, onlardan bir çoxu özlərinin maddi rifahına həddən artıq çox diqqət yetirirlər».

**«Morninq star» qəzeti 1969-cu il avqustun 12-də «Karyerizm atəş hədəfində» başlıqlı məqalə dərc edib:**

«Azərbaycan Kommunist Partiyasına rəhbər təyin olunmuş cənab Əliyev bəzi vəzifəli şəxslərin mənəviyyatsızlığını və əxlaq normalarını pozması hallarını tənqidə məruz qoyub. O, respublikada kadrların seçilməsi və yerləşdirilməsi, idarəedilməsi metodlarını kəskin tənqid edib».

Bunun ardınca Heydər Əliyevin çıxışından sitatlar gətirilir.

**«Keyhan» qəzeti 1969-cu il 12 avqust tarixli sayında «Korrupsiyaya son qoymalı» məqaləsində yazırdı:**

«Xəzər dənizinin sahilindəki neftlə zəngin rayonun kommunist partiyasının yeni lideri Azərbaycan Sovet Respublikasında korrupsiyaya, intriqalara, rəhbər işçilər arasında rüşvətxorluq hallarına qarşı amansız mübarizə aparmağa çağırır.

Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsinə cəmisi bir ay qabaq təyin olunmuş Heydər Əliyev keçən cümə axşamı söylədiyi nitqdə bu rayonda işlərin vəziyyətini çox sərt qiymətləndirdi».

Bunun ardınca onun nitqindən sitatlar verilir.

**«Yeni qəzetə» adlı türk qəzeti 1969-cu il 30 avqust tarixli sayında «Nyu-York Tayms» qəzetində çap olunmuş məqaləni «Azərbaycan intriqalar və rüşvət diyarına çevrilib» adı ilə yenidən çap edir:**

«Bir müddət əvvəl Azərbaycan Kommunist Partiyası rəhbərliyinə gətirilmiş Heydər Əliyev özünün ilk çıxışında bəyan edib ki, Rusiyanın tərkibinə daxil olan Azərbaycan Muxtar Respublikasında «intriqalar, əxlaqsızlıq, rüşvətxorluq, məkrlilik və gözdən pərdə asma» halları geniş yayılıb. O, respublikanı belə xəstəliklərdən xilas etməyin zəruri olduğunu xüsusi vurğulayıb.

Əliyevin sözlərinə görə, qeyd olunan çatışmazlıqlar bütünlükdə respublikanı cəngənə alıb, nazirlər və vəzifəli şəxslər rüşvəti adət halına gətiriblər.

Nazirlərdən heç biri öz işinin öhdəsindən gələ bilmir, sənaye istehsalı 2/3-yə qədər azalıb, respublikada «mənəviyyatsızlıq» atmosferi hökm sürür.

Belə güman edirlər ki, Azərbaycandakı mövcud vəziyyətin bu cür şərhi üçün Moskva müvafiq sanksiya verib. **Çünki Nikita S.Xruşşovun hakimiyyətindən sonra ilk dəfədir ki, yüksək vəzifəli şəxslərin elə böyük dəstəsinin ünvanına bu cür ağır ittihamlar irəli sürülür** (seçmələr bizimdir – *E.A.*)».



**«Der Spiegel» jurnalı 1969-cu il 30 sentyabr tarixli nömrəsində «Akademiyaya» adlı məqalə dərc etmişdi:**

«Vurulmuş» sahibkarlar Azərbaycan Respublikasında gedən təmizləmə kampaniyasının ilk qurbanlarıdır. Neft şəhəri Bakıda Heydər Əli Rza oğlu Əliyev partiya rəhbəri olandan bəri orada, fərslərlə sərhəddə, güclü küləklər əsir.

Moskva ilk dəfə deyil ki, özünün Qafqazdakı təlatümlü əyalətlərini məxfi polisin köməyi ilə idarə etməyə məcbur olub. Qafqazlı Stalin – Leninin etirazına rəğmən 1921-ci ildə öz vətənini zorla yenidən Rusiya imperiyasına birləşdirdi, bir qədər sonra Zaqafqaziyanı üç sovet respublikasına: Gürcüstan, Ermənistan və Azərbaycana böldü.

Artıq o vaxt Gürcüstanda partiya rəhbərliyinə ən layiqli namizəd polis rəisi Lavrenti Beriya idi. 1933-cü ildə Azərbaycanda partiyanın Birinci katibi vəzifəsinə dövlət təhlükəsizlik orqanlarının rəisi Mir Cəfər Bağırov gəldi. O, 20 il bu vəzifədə qaldı – 1953-cü il aprelin 23-dək, yəni Stalinin ölümündən bir neçə həftə sonraya qədər.

1959-cu ilin iyulunda Azərbaycana partiya rəhbəri vəzifəsi o vaxtlar Siyasi Büronun nüfuzlu üzvü və hazırda partiya hakimiyyətinin başında duran Brejnevin rəqibi Aleksandr Şelepinin himayə etdiyi həkim Vəli Axundova həvalə olundu.

1966-cı ildə Brejnev Sov.İKP MK-nın plenumunda Şelepinin dostu Axundovu tənqidə məruz qoydu. Lakin Axundov özünütənqidin hesabına vəzifəsində qala bildi. 1968-ci ilin oktyabrında MK-nın plenumunda Brejnev yenidən Axundovu günahlandırdı: Axundov kənd təsərrüfatının inkişafı üçün nəzərdə tutulmuş 3,1 milyon rublu (13,6 milyon markanı) Bakıda metro və yaşayış evlərinin tikintisinə sərf etmişdi. Axundov yenə də səhvlərini boynuna aldı və yerində qaldı.

Qaydaya görə varis (V.Axundovun varisi – *E.A.*) Azərbaycanın partiya təşkilatı MK-sının dörd katibindən biri olmalıydı. Ancaq

– katib Kozlov rus idi, qeyri-rus sovet respublikasında hakim vəzifəyə yaramırdı;

– katib Əmirov 1962-ci ildən vəzifədə idi, Xruşşovun tərəfdarlarından idi;

– katib Kazımov əvvəlcədən özünün rəhbərlik üslubuna görə töhmətləndirilmişdi;

– katib Cəfərovun təcrübəsi azdır, cəmi iki ildir ki, vəzifədədir.

Nəticədə Stalin dövründən sonra ilk dəfə olaraq Sovet İttifaqında polis nəzarətçisi partiyanın birinci katibi oldu. O vaxta qədər Əliyevin MK-da səsvermə hüququ olmayıb».

**«Azadlıq» radiostansiyasının 8 oktyabr 1969-cu il tarixli verilişindən:**

«İyul ayından, başqa sözlə desək, Azərbaycan KP MK-nın keçmiş birinci katibi Vəli Axundovun işdən çıxarılması və onun yerinə çekist Heydər Əliyevin təyin olunması anından xarici müşahidəçiləri bir sual maraqlandırır. Əgər Axundovu tutduğu vəzifədən kənarlaşdırmaq lazım idisə, niyə onun yerinə o biri katiblərdən və ya MK-nın büro üzvlərindən birini yox, DTK-nın sədri Heydər Əliyevi qoydular?

Krasilnikovun Azərbaycanda DTK sədri təyin olunması, daha dəqiq desək, onun bu vəzifəyə Moskvadan təyinat alması bir tərəfdən onu göstərir ki, bu orqanlara, xüsusilə də milli respublikalarda yenidən böyük əhəmiyyət verilir. Digər tərəfdən bu, əyalət kommunistlərinə, hətta yerli çekist-kommunistlərə də inamsızlığı sübut edirdi».

*Azərbaycanın DTK-sına Vitali Sergeyeviç Krasilnikovun sədr təyin olunması məsələsinə aydınlıq gətirmək istəyirəm. Məsələ ondadır ki, SSRİ DTK-sında işləyən məlumatlı şəxslərin söhbətindən belə çıxır ki, Heydər Əliyev özü öz yerinə Moskvadan adam göndərilməsini xahiş etmişdi. Krasilnikovun namizədliyini o özü seçmiş və bəyənmişdi. Zənnimcə, Heydər Əliyev bu zaman iki mülahizəni rəhbər tutmuşdu: əvvəla, irəli çəkilməyinə görə şəxsən ona borclu olan bu adam ona həm də sadiq olacaq. İkincisi isə, o, respublikada təzə, gəlmə kadr kimi, korporativ və tayfa əlaqələri qurmağa imkan tapmayıb, ona görə də Azərbaycandakı vəziyyət və baş qaldıran problemlər barədə daha obyektiv məlumat verəcək. İllah da ki, tezliklə aydın olacaqdı ki, Heydər Əliyev öz qarşısında respublikanı çoxsaylı neqativ hallardan təmizləmək və korrupsiya «xərçəngi» ilə mübarizə kimi strateji məqsəd qoymuşdur. Bu məsələdə isə o, ittifaq DTK-dakı həmkarlarına söykənməyə üstünlük verirdi. Yəqin ki, Vitali Sergeyeviçin doğma qardaşı Rem Krasilnikovun SSRİ DTK-da məsul vəzifə tutması da az rol oynamamışdır. Heydər Əliyevin qızı Sevil xanım xatırlayır ki, atası ilə Krasilnikov çox mehriban idilər və ailəlikcə dostluq edirdilər. Onlar demək olar ki, 10 il, 1979-cu ilədək Vilati Sergeyeviçi mərkəzə, yüksək vəzifəyə aparanadək bir yerdə işlədilər.*



*Yalnız onda, özü Moskvaya getməzdən 2 il qabaq Heydər Əliyev DTK-nın sədri vəzifəsinə azərbaycanlı Ziya Yusifzadəni məsləhət gördü.*

*Z.Yusifzadə öz sələfini belə xatırlayır:*

*«DTK-nın sədri general Krasilnikov Vitali Sergeyeviç şovinist idi. Bura gələnədək o, SSRİ DTK-da şöbələrdən birinin rəisi işləmişdi. O, azərbaycanlılara açıq-aydın etibar etmirdi. Moskvadan hər hansı komissiya gələndə o, çalışırdı ki, komissiya üzvləri əsasən ruslarla söhbət etsinlər. Onun rəhbərliyi dövründə orqanlarda işləməyə çoxlu rus gəlmişdi.*

*O, uzun müddət – 1969-cu ildən 1980-ci ilədək işlədi. Buradan Bolqarıstana, Todor Jivkovun müşaviri vəzifəsinə getdi. Heydər Əliyevin vaxtında əlbəttə, Krasilnikov özünü yığışdırır, onun sözündən çıxmırdı. Bununla yanaşı, qeyd etməliyəm ki, professional kimi Krasilnikov çekist kollektivi içərisində nüfuz sahibi idi».*

*İsmayıl İbrahimovun sözlərinə görə, «Heydər Əliyev Krasilnikovla yaxın münasibətdə idi. Başqa cür ola da bilməzdi. Yoxsa Vitali Sergeyeviç burada belə uzun müddət işləməzdi. DTK-dakı kollektiv Heydər Əliyevin yığdığı kollektiv idi və irsən Krasilnikova keçmişdi. Krasilnikov bütün məsələlərdə Əliyevi dəstəkləyirdi. Moskvanın kadrları içərisində o nisbətən səmimi insan idi».*

Heydər Əliyevin avqust plenumundakı çıxışından sonra hamıya aydın oldu ki, əsaslı dəyişikliklər zamanı gəlib çatıb. O cümlədən kadr siyasətində. «Birinci»nin öz islahatlarına partiya və təsərrüfat kadrlarının yeniləşdirilməsindən başlayacağına heç kim şübhə etmirdi.

[1] Гусейнов К. Летопись одной жизни. Баку, 1999. С. 226.
[2] Зеркало. 2005. 19 ноября.
[3] Yenə orada.
[4] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, 6-cı kitab. S.452.
[5] Azərbaycan Sovet Ensiklopediyası, Bakı, 1983, 7-ci cild. S.105.
[6] Azərbaycan Sovet Ensiklopediyası, Bakı, 1976, 1-ci cild. S.495.
[7] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. S.452-453.
[8] Гусейнова И. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку, 2005. С.31.
[9] Бакинский рабочий. 2003. 23 мая.
[10] Вашингтон пост. 1984. 29 июня.
[11] Соловьев В., Клепикова Е. Заговорщики в Кремле. Москва, 1991. С.261.
[12] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. S.458.
[13] Из ежегодников БСЭ от 1960 и 1961 годов.
[14] Из Большой Советской Энциклопедии в 30-ти т.т., т.1, 1970. с.438.
[15] Гусейнов К. Летопись одной жизни. С. 226-227.
[16] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. S.455.
[17] Bakı Post. 1998. Xüsusi buraxılış. S.6.
[18] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. S.455.
[19] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С.368-369.
[20] Материалы XVI Пленума ЦК КП Азербайджана от 14 июля 1969 года. Государственный архив политических партий и общественных движений АР (ГАППОД), Фонд 1, опись 56, дело 4.
[21] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С.360.
[22] ГАППОД, Фонд 1, опись 56, дело 4.
[23] Бакинский рабочий. 2004. 10 августа.



*İkinci fəsil*

# Başlanğıc

## Bu vaxt isə Kremldə...

Heydər Əliyev 1969-cu ilin ortalarında Azərbaycanın partiya rəhbəri seçildi. Həmin il nəhəng ölkə Brejnev hakimiyyətinin beşilliyini qeyd edəcək, 10 ildən artıq bir zaman kəsiyinə, sonrakı nəsillərin ədalətsiz olaraq «durğunluq» dövrü adlandıracağı, SSRİ tarixində yeganə sabitlik dövrünə qədəm qoyacaqdır.

Leonid İliç Brejnev – heç şübhəsiz, sovet dövrünün görkəmli xadimi – qəhrəmanımın həyatında mühüm rol oynayacaqdır. Yeri gəldikcə biz onların münasibətlərinin bu ya digər aspektinə toxunacağıq. İndi isə söhbətin əsas məcrasından bir qədər yayınaraq Qorbaçov yenidənqurması dövründə Baş katibin ləkələnmiş, hətta təhqirlərə məruz qalmış siyasi portretinə daha diqqətli nəzərlərlə baxmaq istərdik.

Yeri gəlmişkən, Heydər Əliyev 1990-cı ilin əvvəlində Azərbaycanda dərc olunmuş ilk böyük müsahibəsində Sov.İKP MK Baş katibinin ölümündən sonra təqib və böhtanlara məruz qalmasını pisləyir:

«İndi çoxları onu pisləyir. Azərbaycanda da elələri var ki, vaxtı ilə Brejnevin şəninə şerlər qoşmuşdular, həmin şerləri saxlayıram, indi onu pisləyirlər. Hər bir rəhbərin müsbət və mənfi cəhətləri olur, ancaq onu deyə bilərəm ki, Brejnev müsahibinə diqqətlə qulaq asan, baqlı sözü, yaxşı ideyanı başa düşən, kömək edən rəhbər idi...»[1].

L.Brejnevin yüksəlməsi səbəblərini götür-qoy edən bioqraflarından biri yazır:

«Ölkə Xruşşovun düşünülməmiş addımlarından yorulmuşdu. Yuxarıdan aşağıya kimi partiya aparatı tükənmək bilməyən, düşünülməmiş yeniliklərdən canə doymuşdu, səsini içinə çəkib dodaq gə-

mirirdi. Camaat gözlənilmədən üzləşdiyi ərzaq qıtlığından hiddətlənmişdi. Zaman təmkinli və ehtiyatlı rəhbər tələb edirdi. Bu mənada Brejnev hamını qane edirdi.

... İnsanlara, o cümlədən partiya aparatına, ətrafa təmkinlə nəzər salıb keçilmiş yol, xüsusilə də gələcək haqqında düşünmək üçün nəfəs dərmək lazım idi. Səbirli, ehtiyatlı, ürəyiyumşaq Brejnev bu cür keyfiyyətlərini artıq kifayət qədər göstərmişdi, bunu hamı bilirdi»[2].

Düzdür, başqa bir tədqiqatçının dediyinə görə, yuxarıda sadalanan xüsusiyyətlər şəxsi hakimiyyət üçün təhlükə yarananda özünün ən mübariz keyfiyyətlərini göstərməkdə ona mane olmurdu:

«MK aparatı və MK ətrafındakı adamların əksəriyyəti L.İ.Brejnevə zəif, bir çoxları isə müvəqqəti fiqur kimi baxırdı. İstisna etmək olmaz ki, məhz elə buna görə çevriliş iştirakçıları MK-nın birinci katibi vəzifəsinə onun namizədliyi üzərində dayandılar. İrəli çəkilmiş liderin hakimiyyətə gələndən sonra bu hakimiyyəti qorumaq bacarığına şübhə ilə yanaşanlar isə sonradan bunun altını çəkməli oldular. Lakin Brejnevi şəxsən yaxşı tanıyan adamlar, mübarizənin belə bitəcəyini gözləyirdilər. Məsələn, yadımdadır ki, oktyabr plenumundan bir-iki həftə sonra N.N.İnozemtsev mənə Birinci katibi müharibədən tanıyan A.A.Arzumanyanla olan söhbətini danışdı... Arzumanyan gizli, təkbətək söhbətdə Brejnevi belə xarekterizə etmişdi: «Bu adama hakimiyyət uğrunda mübarizə aparmağı və kadrları necə yerləşdirməyi öyrətmək lazım gəlməyəcəkdir»[3].

Moskva partiya təşkilatının keçmiş rəhbəri V.Qrişinin fikrinə görə «L.İ.Brejnev fəal, ağıllı və cəsarətli rəhbər idi. Partiya və dövlətin başında dürdüğü dövrün birinci yarısında o, ölkə iqtisadiyyatının və mədəniyyətinin inkişafı, dünyada mövqeyinin möhkəmlənməsi üçün çox işlər gördü... Sənayenin inkişafı, iqtisadiyyatda planlı inkişafın əsaslarını möhkəmləndirmək üçün də az iş görmədi, elmlə, xüsusən müdafiə sahəsində, o cümlədən kosmonavtika problemləri ilə məşğul oldu»[4].

Sosial sahədə ciddi müsbət dəyişikliklər baş verdi, kənd əhalisinin həyat səviyyəsi nəzərəçarpacaq dərəcədə dəyişdi. «İlkin» Brejnev dövrünü yada salan F.Burlatski yazır: «Məktəbi politexnikləşdirmək iddiasında olan Xruşşov onbirilliyi əvəzinə yenidən onilliyə qayıtdılar. Kəndlilər əllərindən alınmış həyətyanı sahələri geri aldılar. Qarğıdalı epopeyası, onunla birlikdə Lısenko keçmişdə qaldı. Tədricən xam torpaqlardan istifadə olunmasına göstərilən diqqət mərkəzi rayonlarda əkinçiliyin intensiv inkişafına yönəldildi. Kolxozçular təqaüd almağa başladılar, kolxozda işləyənlər üçün minimum əmək haqqına zəmanət verildi. Mütləq tədarük normaları azaldıldı, kənd təsərrüfatı məhsulları daha yüksək qiymətlə alınmağa başladı»[5].



1965-ci il martın 24-də keçirilən Plenumda kənd təsərrüfatı məhsulları üçün əlçatmaz yüksəkliyə qaldırılmış planlar aşağı salındı, respublika və vilayətlər üçün sabit norma müəyyənləşdirildi, normadan artıq istehsal edilmiş məhsulun satışına icazə verildi. Taxıl və çovdarın tədarük qiymətinə edilən əlavələr 50 faiz artırıldı. Həyətyanı sahələr, şəxsi təsərrüfatda xırda və iribuynuzlu qaramal, ev quşları saxlanılması təqdir edilməyə başlandı. L.Brejnevin təşəbbüsü ilə RSFSR-in qaratorpaq olmayan zonasında kənd təsərrüfatının inkişafına dair geniş proqram, həmçinin ərzaq proqramı işlənib hazırlanmağa və həyata keçirilməyə başladı.

1965-ci il sentyabrın 29-da keçirilən Plenumda sənayenin iqtisadi islahat proqramı bəyan edildi – planlaşdırma və idarəçiliyin yaxşılaşdırılması, istehsalın stimullaşdırılması. Təsərrüfat hesabı, qiymət, mənfəət təsərrüfat fəaliyyətində ön plana çəkilirdi. İqtisadi islahat «müəssisələrin yenidən qurulmasını və texniki təchizatını, iqtisadiyyatın elm tutumlu və perspektivli istiqamətlərin inkişafını nəzərdə tuturdu. Elektron, atom, cihazqayırma sənayesi, dəzgahqayırma, energetika sahələri, həmçinin əhali üçün malların istehsalı böyük inkişaf tapdı. Çoxlu yeni zavod, fabrik tikildi – Tolyatti və Naberejnıye Çelnı şəhərlərində avtomobil zavodları, iri kimya sənayesi, o cümlədən süni lif istehsalı üzrə komplekslər, elektronika, televizor istehsalı üzrə elm və istehsalat mərkəzləri, güclü hidroistilik – və atom elektrik stansiyaları, neft və qaz istehsal edən yeni mədənlər, Baykal-Amur magistralı, – sadalayıb qurtarmaq mümkün deyil»[6].

Sergey Semanovun sözlərinə görə Brejnevin «şahlığı» sadə sovet zəhmətkeşi üçün «başıbəlalı XX əsrdə ən əlverişli dövr idi. Nə müharibə, nə inqilablar. Nə aclıq, nə fəlakət. Həyat tədricən, fasilələrlə, ancaq hər halda yaxşılaşırdı. Sovet manatı, əmanət kassalarına yatırımlar mütləq idi. Mənzillər əsasən havayı verilirdi, ən sadə ailələrdən olan oğlan və qızlar «tapşırıqsız» MDU və yə LDU-ya daxil ola bilirdilər, dosentlərə rüşvət vermirdilər, eləcə də xəstəxanalarda müalicə üçün. Orduda xidmət birmənalı olaraq yüksək qiymətləndirilirdi»[7].

Brejnev dövrünün demək olar ki, bütün tədqiqatçıları ikinci dünya müharibəsinin dəhşətlərindən keçmiş, müharibədən sonrakı ağır,

qarışıq illəri gözləri ilə görmüş Baş katibin sülhsevərliyini qeyd edirlər. Sovet adamlarının dillər əzbəri olan «təki müharibə olmasın» ifadəsində öz əksini tapmış həyati mövqe, Sovet İttifaqının kifayət qədər tarazlaşdırılmış xarici siyasətində özünü büruzə verirdi.

70-ci illərdə ABŞ və Kanada institutuna rəhbərlik etmiş akademik G.Arbatov yumşalma siyasətini belə mənalandırır:

«1972-ci ilin mayında yüksək səviyyədə Sovet-Amerika görüşü keçirildi (1959-cu ildən bəri ilk dəfə!). Görüş Sovet-Amerika münasibətlərində əsl irəliləyiş, yumşalma dövrünün başlanğıcını qoydu...

60-cı illərin sonu – 70-ci illərin əvvəlində siyasətimizin Avropa istiqamətində də mühüm dəyişikliklər baş verdi. AFR-lə danışıqları və Qərbi Berlin haqqında razılışmanı artıq qeyd etmişəm. Ancaq praktik olaraq hər bir Qərbi Avropa ölkəsi ilə münasibətlərimiz yaxşılaşmışdı. Beynəlxalq sosial-demokrat partiyaları ilə təmasların inkişaf etdirilməsi, beynəlxalq sosial-demokrat hərəkatı, həmçinin Sosinternlə əlaqələrimizin radikal surətdə dəyişməsi də, fikrimcə, çox mühüm əhəmiyyət kəsb edir. Avropa prosesi adlandırılan proses – 1975-ci ildə məşhur Helsenki müqaviləsi ilə nəticələnən Avropada təhlükəsizlik və əməkdaşlıq barədə danışıqlar uğurla davam edirdi»[8].

Baş katibin müşavir və köməkçilərinin çoxsaylı memuarları Brejnevin bir rəhbər kimi şəxsi keyfiyyətləri və partiya aparatına rəhbərlik üslubu haqqında fikir yürütməyə imkan verir.

«Rəhbərliyinin birinci dövründə o, iş gününü qeyri-adi başlayırdı – ən azı iki saat digər rəhbərlik üzvlərinə, respublika və vilayətlərin başçılarına, bir çox nüfuzlu MK katiblərinə telefon zənglərinə həsr edirdi. Adətən eyni tərzdə danışırdı – bilirsən, İvan İvanoviç, biz burada məsələ hazırlayırıq. Məsləhət edib, sənin fikrini bilmək istəyirdim... İvan İvanoviçin bu zaman necə qürur hissi keçirdiyini təsəvvür etmək çətin deyil. Brejnevin nüfuzu beləcə möhkəmlənirdi. Onun haqqında sakit, başqa yoldaşlarla məsləhət etmədən, həmkarlarının tam razılığını almadan bir addım belə atmayan rəhbər təəssüratı yaranırdı.

MK katibliyində, Rəyasət Heyətinin iclaslarında məsələlər müzakirə edilərkən, o, demək olar ki, heç vaxt birinci çıxış etmirdi. Bütün arzu edənlərə sözünü demək imkanı verirdi, yekdil fikir olmayanda məsələni təxirə salmağı, yenidən işləməyi, hamı ilə razılaşdırılandan sonra bir də müzakirəyə çıxarmağı üstün tuturdu»[9]



Əgər Burlatskinin yersiz istehzasını kənara qoysaq, qeyd etməliyik ki, Brejnev həqiqətən sovet dövrünün ən demokratik rəhbərlərindən biri idi. Heydər Əliyevin köməkçiləri xatırlayırlar ki, baş katib tez-tez Azərbaycan KP MK-nın birinci katibinə zəng edirdi, həm də köməkçilərsiz, birbaşa özü zəng vururdu, respublikada baş verənlərlə səmimi maraqlanır, lazım gəldikdə həmişə kömək göstərməyə çalışırdı. Brejnev Sov.İKP MK aparatına kollegial rəhbərlik üslubunu gətirmiş və ömrünün sonuna qədər buna sadiq qalmışdı. Gələn fəsildə H.Əliyevin kadr siyasətindən danışarkən, Azərbaycan partiya təşkilatı rəhbərinin də belə iş üslubuna üstünlük verməsinin şahidi olacağıq.

Akademik Arbatov yazır ki, Brejnev qəddar və ya kinli adam deyildi, öz opponentlərini ən yaxşı halda xarici səfirliklərə «sürgün» edir və ya fərdi təqaüdə göndərirdi. İnsanlarla münasibətlərində sadə və demokratik idi.

«Onun sağlam düşüncəyə malik olması, ifrata varan, düşünülməmiş qərarlar qəbul etməyə meyilli olmaması da şübhə doğurmur...»[10].

Qorbaçovun gələcək sevimli köməkçisi Georgi Şahnazarov L.Brejnev haqqında bunları xatırlayır:

«...Onun cazibədar insan olmasını, doğrudan da, inkar etmək mümkün deyil. Mən onu nə qədər görmüşəmsə, heç vaxt eşitmədim ki, kiminsə üstünə səsini qaldırsın, kiminləsə kobud rəftar etsin və ya bəzi ziyalı insanların özlərinə rəva gördükləri kimi, söyüş söysün»[11].

Georgi Arbatov yazır ki, Sov.İKP MK oktyabr plenumundan keçən ilk iki-üç ildə Brejnevin siyasi görüşlərində müəyyən müsbət dəyişikliklər baş verdi:

«O hələ öz köhnə köməkçilərinə inansa da, artıq başa düşürdü ki, baş katib kimi yalnız onlara arxalana bilməz, aldığı informasiyanın dairəsini genişləndirməlidir, çoxlu sayda adamların fikirlərini (ən müxtəlif) dinləməlidir.

Yəqin elə bu səbəbdən də o, partiya rəhbərləri arasında öz qeyri-adiliyi ilə seçilən Andropovun sözlərinə qulaq asmağa başladı. Aleksandrov və Tsukanovun vasitəsilə, bəzən isə özü şəxsən, tapşırıqlara daha çox adam cəlb etməyə başladı, bunun özü də o vaxtkı partiya aparatı üçün görünməmiş şey idi. O vaxt Brejnev həqiqətən çox şeylə maraqlanırdı və həvəslə qulaq asırdı (o oxumağı sevmirdi, yazılı mətni şifahidən pis qavrayırdı, ona görə də ona göndərilən yazıların çox vaxt oxunmasını xahiş edirdi)»[12].

Tanınmış Rusiya tarixçi və publisisti Roy Medvedevin fikrinə görə, Leonid İliç Brejnev partiya-dövlət aparatının maraqlarının ifadəçisi oldu, bir çox itirilmiş imtiyazları ona qaytardı, maaşları qaldırdı. O yerli və respublika rəhbərlərinin hakimiyyətinə, demək olar ki, heç bir məhdudiyyət qoymurdu. Bəlkə elə buna görə «Brejnevi müxtəlif növ vilayət, respublika və vilayətlərarası aktivlərdə Xruşşovla müqayisədə daha mehriban qarşılayırdılar. Xruşşovun hər hansı vilayətə səfəri ciddi müfəttişin gəlişi kimi qarşılanırdı. Brejnevin səfərləri isə əksinə, yerlərdə onun partiya-dövlət məmurları ilə yekdil olmasının özünəməxsus nümayişinə çevrilirdi»[13].

Baş katibin inkaredilməz üstünlüklərindən biri də özünə fəal və sadiq köməkçilər komandası toplamaq bacarığıdır. L.İ.Brejnevin ölümündən sonra nə Siyasi Büro üzvləri, nə də ki, onun köməkçiləri onun əleyhinə bir sətir belə yazmadılar. Daha M.Qorbaçovun «yenidənquranlar» komandası kimi yox. Sonuncu baş katibin ən inanılmış adamları belə, məsələn Çernyayev və Yakovlev öz xatirələrində Qorbaçov haqqında olduqca kəskin tənqidi ifadələr işlədirdilər ki, nəhəng ölkənin dağılmasına gətirib çıxarmış şərəfsiz Qorbaçov siyasətinin məsuliyyətini gec də olsa, öz üzərlərindən atıb ondan aralansınlar.

Məsələn, Brejnevin köməkçisi Georgi Tsukanov haqqında G.Şahnazarov yazır:

«...Brejnev vicdanlı insan olan Tsukanova inanırdı və inamında yanılmadı. Ola bilsin ki, heç kim Georgi Emmanuiloviç qədər baş katibin həyatındakı gizli, o cümlədən xoşagəlməyən tərəflərdən, onun böyük və xırda ehtiraslarından xəbərdar deyildi. Lakin o bu mövzulara hətta yaxın adamlarının arasında belə heç vaxt toxunmurdu. Özü də təkcə Brejnevin sağlığında deyil, onun ölümündən sonra da, dünyadan köçən rəhbərin bioqrafiyasından maraq doğuran «turşməzə» faktlardan ötrü əldən-ayaqdan gedən jurnalistlərin qırsaqqız olduğu, naşirlərin keçmiş köməkçini təkidlə xatirələr kitabı yazmağa dilə tutduqları vaxtlarda belə. Son zamanlar çətinliklə dolanır, yalnız təqaüdə baxır, lakin bu təkliflərdən qəti surətdə boyun qaçırır»[14]. Həqiqətən də: dostunu göstər, kim olduğunu deyim. Şahnazarovun özü Qorbaçovdan istifadə edərək təkcə siyasi kapital yox, onun yenidənqurması haqqında kitablar nəşr edərək Qorbaçov fondunda «fəallıq» göstərib sərmayə qazanmağa üstünlük verdi.

Bu isə Brejnevin digər köməkçisi, V.Qolikovun onun haqqında söylədikləridir:



«Müharibədən sonrakı tarixdə, çox güman ki, heç kim, təbii ki, Stalin istisna olmaqla, dünyada hamının bu qədər hörmət etdiyi və hesablaşdığı bilikli və nüfuzlu rəhbər olmamışdı. Və o bu hörmətə layiq idi. Qısa müddət ərzində sadə metallurqdan vilayət katibliyinə, əsgərdən generala qədər yüksəlmişdi, müharibənin od-alovundan keçə-keçə Qafqazdan Berlinə qədər addımlamışdı. Müharibədən sonra Dnepropetrovsk və Zaporojyedə metallurgiya zavodlarının sənaye potensialını bərpa etmək üçün nə qədər enerji, bilik lazım idi. Moldaviyada iqtisadiyyatı yoluna qoymaq üçün nə qədər qüvvə sərf etmişdi. Moldaviya, daha sonra xam torpaqların mənimsənilməsi dövründə Qazaxıstan partiya təşkilatına rəhbərlik etdiyi vaxtlarda zəngin təcrübə qazanmışdı.

Baş katib seçilməndən sonra o, işə yaxşı başladı, kənd təsərrüfatında, elə bütövlükdə iqtisadiyyatda yeniliklər etdi, xalqın yaşayış səviyyəsini yüksəltmək üçün çox işlər gördü. Müdafiə məsələlərini diqqətdə saxlayaraq, o nüvə təhlükəsini azaltmaq istiqamətində qərb ölkələri ilə danışıqları ustalıqla aparırdı, ABŞ və Avropa ölkələri ilə əməkdaşlıq etmək üçün şərait yaradırdı.

Brejnev və onun silahdaşları praqmatiklər nəslinə mənsub idilər. Ölkə onların çiyinləri üzərində dayanmışdı. Nə qədər zavod, fabrik, şaxta, elektrik stansiyaları tikdilər, neft və qaz yataqları istismara verdilər. Hələ müdafiə məsələləri?»[15].

SSRİ DTK-sının sabiq sədri V.Kryuçkov da Brejnevin öz ətrafında güclü komanda yığmasını və bunun hesabına hətta uzun illər, iş qabiliyyətini itirdikdən sonra belə 18 il hakimiyyətdə qala bilməsini onun müsbət cəhəti hesab edir:

«Və bu onun bacarığı, yüksək qabiliyyəti sayəsində başa gəlmirdi. L.İ.Brejnevi bütövlükdə uğurla seçilmiş komanda xilas edirdi. Bu komandaya ali partiya və dövlət rəhbərliyinin bəzi üzvləri, Sov.İKP MK şöbələrindəki məsul işçilər, yerli struktur rəhbərləri daxil idilər. Leonid İliçin köməkçiləri böyük rol oynayırdılar. Onlardan bəziləri onunla bir yerdə on illərlə işləyirdilər. L.İ.Brejnev köməkçilərinə tam etibar edirdi, onlar da bu etibara öz sədaqətli xidmətləri ilə cavab verirdilər...»[16]. Daha sonra: «L.İ.Brejnev siyasi və iqtisadi fəaliyyətin müxtəlif istiqamətləri üzrə yaxşı köməkçilər komandası toplamışdı. Onlar baş katibə layiqincə kömək edirdilər, ölkədəki vəziyyəti əla bilirdilər, ən müxtəlif istiqamətlər üzrə partiya və dövlət nümayəndələri ilə sıx əlaqə saxlayırdılar...L.İ.Brejnev, adətən, yerlərdə kadrları düzgün seçirdi, vilayət partiya təşkilatının yaxşı, təcrübəli rəhbərinin isə böyük əhəmiyyəti var idi. Əslində,

dövlətin ali rəhbərliyini bu və ya digər regiondakı qayğılardan qurtarırdı»[17].

Brejnevin özünə komanda seçmək bacarığını onun uzunillik cangüdəni V.Medvedev də qeyd edir:

«Qətiyyətlə demək istəyirəm: Brejnev adamları yaxşı tanıyırdı. Hər halda ondan əvvəl Xruşşovla, sonra isə Qorbaçovla olduğu kimi ona heç kim dönük çıxmadı. Təkrar edirəm, ondan xeyli əvvəl və sonra mövcud olan kadrların seçilməsi və yerləşdirilməsi çərçivəsində güclü kadrlar seçilirdi – Kosıgin, Andropov, Ustinov istedadlı insanlar idi...»[18].

Vyaçeslav Kevorkovun «Gizli kanal» kitabında da bu barədə oxuyuruq:

«İnsafən demək lazımdır: Brejnev adamları pis tanımırdı. Hakimiyyətdə olduğu az qala iyirmi il ərzində o, məsuliyyətli vəzifələrə bir nəfər də olsun elə adam təyin etməmişdi ki, ona olan şəxsi sadiqliyini sonadək qoruyub saxlamasın. Maraqlıdır ki, hətta hakimiyyətinin son dövründə, bu hakimiyyət sırf formal xarakter almağa başlayanda, baş katibin özü isə fiziki cəhətdən tamamilə sıradan çıxanda, onlardan heç biri Brejnevin əleyhinə çıxmağa cürət etmədi»[19].

V.Pribıtkov yazır ki, Brejnevi «bəzən lazımi qədər qiymətləndirmirlər, az qala ağlını itirmiş qoca kimi qələmə verməyə çalışırlır». Pribıtkov bununla razılaşmır: «Lazım olan yerdə o, yaxşı strateq və taktik idi»[20]. Mənimlə olan söhbətlərində Heydər Əliyev də bu keyfiyyətləri yada salırdı. Söyləyirdi ki, Leonid İliç onun ideyalarını «göydə tuturdu» və aparatın müqavimətinə baxmayaraq respublika iqtisadiyyatının inkişafına «işləyən» qərarları Siyasi Bürodan «zor gücünə» keçirdirdi.

H.Əliyev və L.Brejnevin xasiyyətlərində, zövqlərində və maraqlarında olan bütün fərqli xüsusiyyətlərə baxmayaraq bir cəhət şübhə doğurmur: hər ikisi bir-birinə səmimi rəğbət bəsləyirdi. Bundan əlavə: əgər baş katib tərəfindən daimi diqqət və dəstək olmasaydı, Heydər Əliyev bütün gərgin fəaliyyətinə baxmayaraq Azərbaycanda bu cür nəhəng islahatlar aparmağa nail ola bilməzdi, çünki müsəlman respublikalarından biri olan Azərbaycanın (o illər «müsəlman» kəlməsi heç vaxt işlədilmirdi, ancaq həmişə yaddaşda saxlanırdı ) I-ci katibinin təşəbbüslərinə bəzən ehtiyatla yanaşan Brejnev konservativ əhatəsinin müqaviməti böyük idi. Bu qarşıdurmada o, tez-tez Leonid İliçə ədalətli hakim, sonuncu instansiya kimi müraciət etməli



olurdu. H.Əliyevə başucalığı gətirən haldır ki, bu «instansiya» həmişə onun tərəfində olurdu. Ancaq qəhrəmanımız baş katibin ürəyinə yolu belə tez tapmadı. İlk vaxtlarda cavan Azərbaycan rəhbərinin respublikada ab-havanı sağlamlaşdırmaq cəhdləri ehtiyatlı və hər şeyi ölçüb-biçən Leonid İliçə həddindən artıq göründü, onu qorxuya saldı. O hətta düşündü ki, Heydər Əliyev «respublikada sovet hakimiyyətini devirmək» fikrinə düşüb. Ancaq gəlin ardıcıllığı pozmayaq.

## «Mixaylo şəhərdədir!»

*Hakimiyyətə gəldiyi ilk aylar o, paytaxt ticarət nomenklaturasının canına vəlvələ saldı. Üzdən az tanıldığından istifadə edərək, H.Əliyev şəhərə «partizan yürüşlərinə» çıxırdı. Sadə paltar geyinib evdən çıxar, rastına gələn ilk taksiyə otarardı. Ən uzun marşrutları seçərdi ki, sürücü ilə «açıq» söhbət etsin: camaatın güzəranı necədir, nədən narazıdırlar, ən çox şikayətləri nədəndir və s. Yaxud dükana girib satıcıdan soruşurdu: «Ət neçəyədir?». – «İki manat qırx qəpiyə!» Soruşur ki, bəs niyə belə baha? İki manat qırx qəpiyə o vaxtlar birinci növ ət satılırdı. Burada isə, deyir, yalnız sür-sümükdür. Satıcılar çiyinlərini çəkirlər. Bəziləri isə qarayaxa alıcını daha «emosional» sözlərlə başdan eləyirdilər. O da «başdan olurdu» – düz anbara və ya köməkçi otağa keçir, orada istənilən qədər aztapılan ərzaq məhsulları aşkar edirdi. Bir sözlə, iki-üç həftə belə reydlərdən sonra Heydər Əliyevin «nişan verməsi» ilə 40 nəfərə qədər adam həbs olundu.*

*Respublikanın partiya elitasında söz-söhbət gəzməyə başladı: «birinci» qadağan olunmuş üsullara əl atır, onun əməlləri – volyuntarizmdir, partizanlıqdır. Bəs o həqiqəti necə öyrənməli idi? Respublika prokurorunu yanına çağırırdı, o mərüzə edir ki, Azərbaycanda «hər şey qaydasındadır». Daxili işlər nazirindən soruşurdu – yenə o cür bərbəzəkli, reallıqdan uzaq mənzərə. Camaat isə narazı idi! DTK-da işləyəndə onun bu narazılıqdan xəbəri vardı. Lakin bu, aysberqin başqa, görünməyən, ictimaiyyətdən gizlədilən tərəfi idi.*

*Hayıf ki, paytaxtı gizli dolaşmaqdan əl çəkməli oldu – onu tanımağa başladılar. Sonradan ona dedilər ki, kimlər tərəfindənsə Əliyevin yüz nüsxələrlə çoxaldılmış şəkilləri hər bir mağaza müdirinin stolunun üstündə, satıcıların piştaxtası altında saxlanılırmış. Dildən iti Bakı taksi sürücüləri ona hətta ləqəb də vermişdilər : Mixay-*

*lo. O illərdə ölkə ekranlarına Yuqoslaviya və İtaliyada faşistlərə qarşı vuruşmuş əfsanəvi sovet partizanı Mehdi Hüseynzadə («Mixaylo») haqqında təzə film çəkilmişdi – «Uzaq sahillərdə». Film böyük əks-səda doğurmuş, sevilmişdi. Belə ki, «Mixaylo» ləqəbi hətta onun qəlbini oxşayırdı. Hayıf ki, tezliklə gizli fəaliyyətlə xüdahafizləşməli, «Mixaylo»dan ayrılmalı oldu.*

*Təxminən bir ay sonra Azərbaycan partiya liderinin «özbaşınalığı» haqqında Kremlə siqnallar getməyə başladı. Və «birincinin» kabinetində telefon zəng çaldı. O günlər Sov.İKP MK baş katibinin istirahətdə olduğu Krımdan.*

*O həmin dəqiqə başa düşdü ki, Leonid İliç əbəs yerə zəng vurmayıb. «Nə tez çatdırıblar!» – «birinci» öz keçmiş həmkarları haqqında təəssüflə düşündü. Lakin Brejnevin zənginə sevindi – necə olsa, Baş katiblə danışmaq hər gün ələ düşmür.*

*– Hə, orada işlərin necədir? – baş katib salam-kalamdan sonra soruşdu.*

*– Hər şey qaydasındadır. Vəziyyətlə tanış oldum, praktik işə başlamışam, – Əliyev təmkinlə cavab verdi.*

*– Bəs niyə sən işləri qəlizləşdirirsən?*

*– Söhbət nədən gedir, Leonid İliç?*

*– Guya bilmirsən. Bütün xarici radiosəslər bar-bar bağırır ki, bəs, Əliyev Azərbaycanda sovet quruluşunu dağıdır.*

*– Sizə düz məlumat verməyiblər, Leonid İliç. Mən heç nəyi dağıtmıram, əksinə...*

*O, təxminən qırx dəqiqə baş katibə seçildiyi bu ilk günlər ərzində keçirdiyi bütün hiss və həyəcanlar barədə danışdı. Rüşvətxorluğun baş alıb getməsindən, ticarət sektorundakı total oğurluq və fırıldaqlardan, əhalinin sosial narazılıqlarından. Görünür ki, Brejnevi bəzi məsələlərdə inandırmağa nail oldu. Söhbətin sonuna yaxın baş katibin səsi xeyli yumşalmışdı. Buna baxmayaraq sonuncu ifadəsi əmr kimi səsləndi:*

*– Yaxşı, amma bax, həddini aşma! Belə baxıram ki, yaman çılğınsan...*

Sonradan Leonid İliç səmimi qəlbdən Əliyevi sevəcək, ona bütünlüklə etibar edəcək, köməklik göstərəcək. Ancaq oğurluq və rüşvətxorluğa qarşı mübarizədə həmən bu çılğınlıq və prinsipiallığı axıra qədər başa düşməyəcəkdir. Təsadüfi deyil ki, Azərbaycan partiya təşkilatının, o vaxt deyildiyi kimi, «sosialist mənəviyyatının antipodları» ilə mübarizə təcrübəsindən qurultay tribunalarından deyil, bir qayda olaraq, hakimiyyət dəhlizlərində və qeyri-rəsmi söh-



bətlərdə danışılırdı. Brejnevin vaxtında Şimali Qafqazda, Orta Asiyada «gizli milyonçular» praktik olaraq leqal fəaliyyət göstərirdilər. Hətta 17 il (!) SSRİ Daxili İşlər Nazirliyinə, sonradan məlum olduğu kimi, özü də tamahkarlıq və korrupsiya azarına tutulmuş Nikolay Şşolokov, baş katibin yaxın dostu başçılıq edirdi*. Yalnız L.Brejnevin ölümündən sonra Y.Andropovun hakimiyyətə gəlməsi ilə korrupsiyaya qarşı mübarizə ölkə miqyasında aparılmağa başlandı.

Bir sözlə, əgər Brejnevin çox etibar etdiyi, daxili və xarici siyasətin bütün məsələlərinə dair məsləhətləşdiyi Yuri Vladimiroviç Andropovun qeyd-şərtsiz dəstəyi olmasaydı, mənim qəhrəmanım üçün ilk vaxtlar çətin olacaqdı.

Sov. İKP MK baş katibi ilə Azərbaycan partiya təşkilatının rəhbəri arasındakı münasibətlərdə əsaslı dönüş isə, zənnimcə, L.Brejnevin Bakıya ilk səfəri zamanı baş verdi.

## «Bakı – gözəl şəhərdir!»

1970-ci ildə SSRİ-də Leninin 100 illiyi qeyd olunan zaman, Azərbaycanda üstəlik Azərbaycan SSR-in, həmçinin Azərbaycan Kommunist Partiyasının 50 illiyi də qeyd olunurdu. 1970-ci il sentyabrın 30-da yubiley təntənələrinə respublikaya Oktyabr inqilabı ordenini təqdim etmək üçün L.Brejnev gəldi. Bundan əvvəl Azərbaycan SSR-in bayrağını iki Lenin ordeni bəzəyirdi.

Bakı hələ heç vaxt bu qədər adlı-sanlı qonaq qəbul etməmişdi. O günlərdə faktiki olaraq bütün müttəfiq respublikaların kommunist partiyalarının mərkəzi komitələrinin birinci katibləri, Siyasi Büronun üzvləri və üzvlüyünə namizədlər Azərbaycana gəlmişdilər – Sov.İKP MK Siyasi Bürosunun üzvü, Ukrayna KP MK-nın birinci katibi P.Şelest, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Qazaxıstan KP MK-nın birinci katibi D.Kunayev, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, Özbəkistan KP MK-nın birinci katibi Ş.Rəşidov, Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, Gürcüstan KP MK-nın birinci katibi V.Mjavanadze, Litva KP MK-nın birinci katibi A.Sneçkus, Moldaviya KP MK-nın birinci katibi İ.Bodyul, Estoniya KP MK-nın birinci katibi İ.Kebin, Qırğızıstan KP MK-nın birinci katibi T.Usubəliyev, Tacikistan KP MK-nın

* 1982-ci il dekabrın 16-da N.Şşolokov daxili işlər naziri vəzifəsindən azad edildi. 1984-cü ildə onun barəsində cinayət işi açıldı. İlk istintaqlardan sonra Şşolokov intihar etdi.

birinci katibi D.Rəsulov, Ermənistan KP MK-nın birinci katibi A.Koçinyan, Türkmənistan KP MK-nın birinci katibi M.Qapurov, Sov.İKP Leninqrad vilayət komitəsinin birinci katibi Q.Romanov, SSRİ müdafiə naziri, marşal Qreçko və bir çox digər müxtəlif səviyyəli rəhbərlər.

Bakının bu sayda nüfuzlu nümayəndə heyətlərini layiqincə qəbul etməsi üçün xeyli iş görülməli idi: köhnə «İnturist» mehmanxanası, filarmoniya, bayram təntənəsinin keçiriləcəyi Opera və Balet Teatrı (V.Lenin adına saray hələ tikilməmişdi, buna görə də dövlət tədbirləri ya Dzerjinski adına klubda, ya da Opera və Balet Teatrında keçirilirdi) yüksək səviyyədə təmir olunmalı idi.

Heydər Əliyev təmir və abadlıq işlərini Nazirlər Sovetinin sədr müavini vəzifələrinə yenicə təyin olunmuş Əliş Ləmbəranski və İsmayıl İbrahimova tapşırdı. Onlar bu çətin işin öhdəsindən müvəffəqiyyətlə gəldilər. Bu məsələ ilə bağlı publisist Azad Şərifov maraqlı bir əhvalatı yada salır: «...Bu vaxt üçün artıq Dənizkənarı parkı qaydaya saldılar, buxtada sonunda gözəl bir kafe olan estakada quraşdırdılar. Lakin bu, ittifaq səviyyəsində xalq nəzarət orqanlarının narazılığına səbəb oldu. Estakada və kafeni L.Brejnevə göstərəndə o, təşəbbüsü bəyəndi və «nəzarətçilər» necə gəlmişdilərsə, elə də yoxa çıxdılar»[21].

Sentyabrın 30-da Brejnev, Şelest, Kunayev, Mjavanadze Heydər Əliyev və Azərbaycan rəhbərliyi ilə birlikdə Dənizkənarı parkda açılmış «Azərbaycan SSRİ-nin xalq təsərrüfatı 50 ildə» sərgisinə gəldilər. Onlar bulvarı gəzdilər, dənizə qədər uzunan neft buruqlarını seyr etdilər. Pavilyonlar Azərbaycanın 50 il ərzində bütün sahələrdə qazandığı uğurları əks etdirirdi və çox gözəl təsir bağışlayırdı. Onların qurulması üçün memar və dizaynerlər yaxşı işləmişdilər. Məsələn, neft, neft emalı və kimya sənayesinin pavilyonu formasına görə başıaşağı çevrilmiş nəhəng qabı xatırladırdı. İçəridə, gümbəzin altında isə neft emalı və kimya məhsullarının insanın kosmosun fəthinə xidmət etməsinə işarə kimi Ayın qabarıq diski fırlanırdı. Digər pavilyonlarda da daha nələr yox idi: «Şimal» DRES-in bloklarından birinin modeli, Zaqafqaziyada ən böyük su elektik stansiyası – Mingəçevir SES-in işləyən maketi, bərə keçidinin və «Sovet Azərbaycanı» dizel elektroxodunun modeli, Bakı gəmi təmirçiləri tərəfindən şüşəplastikdən hazırlanmış sualtı qanadları olan kater və bir çox başqa şeylər. Sahil xətti boyu respublika zavodlarında istehsal edilən maşın və aqreqatlar düzülmüşdü. Heydər Əliyevin gələcək pavilyonların dizaynerləri ilə bu miniatür SSRİ XTNS-in detallarının ölçübiçilməsinə öz kabinetində neçə axşam sərf etdiyini təsəvvürümə gətirirəm! O axı camaatın qarşısına çıxarmazdan əvvəl hər şeyi öz əli ilə yoxlayıb qiymət verməyə öyrənmişdi.



Baxış qurtarandan sonra Brejnev, Şelest, Kunayev və Mjavanadze Fəxri qonaqlar kitabına yazdılar:

«Gerilikdən – tərəqqiyə, bəsit təsərrüfatdan – yüksək inkişaf etmiş sosialist iqtisadiyyatına, feodal və kapitalizm əsarətindən – azad və xoşbəxt həyata – yarıməsrlik Sovet hakimiyyəti dövründə Azərbaycan zəhmətkeşləri Kommunist Partiyasının rəhbərliyi altında belə bir yol keçmişdir. Respublikanın xalq təsərrüfatı nailiyyətləri sərgisinin eksponatları bunu əyani və inandırıcı göstərir.

Şübhə yoxdur ki, qarşıdan gələn illər Azərbaycana kommunizm quruculuğunun bütün sahələrində yeni, daha şərəfli qələbələr gətirəcəkdir»[22].

Çox sonralar, bu yubiley şənliklərini yada salaraq «Vətəndaş, Şəxsiyyət, Lider» fəlsəfi oçerkində Ramiz Mehdiyev yazırdı:

«Heydər Əliyev yorulmaq bilməyən təşkilatı və siyasi fəaliyyəti ilə qısa vaxtda bəzi sovet rəhbər dairələrində hakim olan, Azərbaycanın SSRİ-nin geridə qalmış ucqar hissəsi olması fikrini dəyişə bildi. O hətta Sovet Azərbaycanının 50 illik yubileyinə həsr olunmuş tədbirləri də elə keçirdi ki, onlar milli mədəniyyət və tariximizin parlaq bayramına çevrildilər. Bir çox yazıçı, mədəniyyət və incəsənət xadimlərinə Dövlət mükafatları verildi. O ilin böyük incəsənət sərgisi isə mədəniyyətimizin görünməmiş nümayişinə çevrildi»[23].

1970-ci il noyabrın 2-də L.Brejnev və H.Əliyev Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasında keçirilən təntənəli iclasında çıxış etdilər.

Heydər Əliyevin giriş sözü bənzərsiz idi, bu gün, üstündən neçə illər keçəndən sonra, bu çıxışı oxuyanda onun natiqlik məharətinə heyran qalmaya bilmirsən. O, ittifaq respublikalarının nümayəndə heyətlərini sadəcə salamlamırdı, bir neçə cümlə ilə bu və ya digər respublikanı səciyyələndirirdi, qonaqları bu diyarın Azərbaycanla, onun xalqı ilə münasibətlərinin tarixi ilə tanış edirdi. Məsələn, Leninşəhərindən danışarkən, o yada saldı ki, «20-ci illərdə Leninqrad hamıdan birinci Bakının dağılmış mədən və zavodları üçün avadanlıq və maşınlar göndərmişdi»; Ukrayna nümayəndə heyətini salamlayarkən qeyd etdi ki, «birinci beşillik illərində Donbas şaxtaçıları və Bakı neftçiləri zərbəçi vətənpərvərlik hərəkatının yaradıcıları kimi çıxış etdilər»; Belarusiyanın nümayəndə heyətinə müraciət

edərkən qeyd etdi ki, «Belarusiya meşələrində – alman işğalçılarını lərzəyə salan cəsur partizanlar diyarında – digər Sovet xalqlarının övladları ilə çiyin-çiyinə Azərbaycan oğulları da vuruşmuşlar».

L.Brejnev öz çıxışında respublikanın həyatındakı nöqsan və kəsirlərin aradan qaldırılması üzrə Azərbaycan KP MK-nın üç plenumunda başlanan «kəskin, prinsipial, işgüzar söhbəti» bəyəndiyini bildirdi, qlobal problemlərin həllində köməklik göstərəcəyini vəd etdi. Belə ki, onun sözlərinə görə, 1971-1975-ci illərdə respublikada əsaslı kapital qoyuluşu ötən beşilliklə müqayisədə bir yarım dəfədən çox artaraq 6 milyard 700 milyon manat təşkil etməlidir.

Azərbaycana o dəfəki gəlişində Brejnev uzun illər paytaxtın mərkəzində, nəhəng lövhədə yazılıb şəhər sakinlərini «sevindirən» tarixi kəlamlarını dilə gətirdi:

«Bakı – gözəl şəhərdir! Görünür ki, onu doğma torpağını hərarətlə sevən, milli ənənələrə qayğı ilə yanaşan, eyni zamanda müasir şəhərsalma nailiyyətlərindən bacarıqla istifadə edən insanlar ucaldıb və ucaldır. Belə şəhərdə yaşamaq və işləmək xoşdur».

Yubiley təntənələri təkcə Sovet Azərbaycanının nailiyyətlərinə deyil, respublika KP MK-nın təzə birinci katibinə də baxış oldu. Ümumi ruh yüksəkliyindən aydın görünürdü ki, Heydər Əliyevin zahiri görünüşü, inadkarlıq və enerjisi, natiqlik məharəti və bayramı yüksək səviyyədə təşkil etməsi ölkənin ali partiya liderlərini sözün həqiqi mənasında valeh etmişdi. Qonaqların əksəriyyəti Bakıdan xoş təəssüratlarla, bəziləri isə paxıllıq hissləri ilə ayrılırdılar. Bu paxıllıq hissi hər bir işdə uğur qazanmağı bacaran qəhrəmanımı bütün həyatı boyu izləyəcəkdir. Elə həmin 1969-cu ildə Stavropol ölkə partiya komitəsinin rəhbəri seçilən və Şimali Qafqaz vilayət komitələrinin birinci katibləri ilə bərabər Bakıya bayram şənliklərinə gələn Mixail Qorbaçovu hansı hisslər bürüdüyünü deyə bilmərəm. Hər halda Vaqif Mustafayevin «Bir paxıllığın tarixçəsi» filmində Sov.İKP-nin gələcək baş katibi Bakıya ilk (məncə, həm də son) səfərini xatırlayarkən etiraf edir ki, Heydər Əliyev hər şeyi «çox gözəl» təşkil etmişdi, Leonid İliç «ümumiyyətlə yüksək əhval-ruhiyyədə idi», xalqın baş verənlərə emosional münasibəti o vaxt hamını «çox təsirləndirmişdi».

L.Brejnevin mühafizə rəisi, «Arxadakı insan» («Çelovek za spinoy») adlı məşhur siyasi memuarların müəllifi Vadim Medvedev 2003-cü ildə Bakıya gəlmişdi. Mən onunla görüşüb kitab üçün eksklüziv müsahibə ala bildim. Müsahibədən kiçik parçanı təqdim edirəm:

**« – Leonid İliç Brejnev Heydər Əliyevi başqa rəhbərlərdən nə vaxt fərqləndirdi? Axı bu həmin saat baş vermədi?**

– Mən Brejnevin Əliyev birinci katib seçilməmişdən qabaq ona necə münasibət bəslədiyini bilmirəm, ancaq biz onunla 1970-ci ildə, Əliyev artıq birinci katib olan dövrdə buraya gələndə, o hamıya güclü təsir bağışladı, o cümlədən də Brejnevə. Əliyev özünü əsl rəhbər kimi göstərdi, hər şeyi bilirdi, respublikanın daxilindəki operativ şəraitdən tutmuş, Azərbaycan ətrafındakı vəziyyətə qədər. Ən təəccüblüsü də budur ki, o iqtisadiyyatı da, mədəniyyəti də, ümumiyyətlə Azərbaycana aidiyyəti olan hər nə varsa bilirdi. Ona görə də onunla söhbəti bitirdikdən sonra, dəhlizə çıxan Leonid İliç dedi: «Görün biz necə adam tapmışıq». Və onun səsində heyranlıq intonasiyası aydın sezilirdi».

1978-ci il sentyabrın 20-23-də Sov.İKP MK Baş katibi, SSRİ AS Rəyasət Heyətinin sədri L.Brejnevin Azərbaycana ikinci səfəri oldu. O Bakı şəhər partiya komitəsinin və Bakı Sovetinin təntənəli iclasında iştirak etdi, Bakı şəhərinə Lenin ordeni təqdim etdi. Sənaye müəssisələrində oldu, partiya və müharibə veteranları, mədəniyyət xadimləri ilə görüşdü. Azərbaycan KP MK-da keçirilən təntənəli iclasda çıxışlar etdi.

Baş katibin verdiyi qiymətə görə, respublika qısa tarixi zaman kəsiyində «müasir sənayesi, inkişaf etmiş kənd təsərrüfatı, qabaqcıl mədəniyyəti olan çiçəklənən diyara çevrilmişdir». Budəfəki səfərində Leonid İliç uzun illər Bakıda nəhəng pannoda göz oxşayan ikinci tarixi kəlamını söylədi: **«Azərbaycan iri addımlarla irəliləyir!»**

## Baş katibin ilk «hədiyyəsi»

Artıq 1969-cu ilin sonunda Azərpaycan KP MK Bürosu Sov.İKP MK-ya respublikanın sənaye istehsalı və kənd təsərrüfatındakı vəziyyət haqqında obyektiv və açıq məlumat verərək kömək istədi. Çox keçmədi ki, Sov.İKP MK işçilərindən ibarət böyük briqada Azərbaycana gəldi və xalq təsərrüfatı problemləri ilə yerində tanış oldu. Onların Azərbaycan mütəxəssisləri ilə birgə hazırladıqları geniş arayış baş katibin stolu üstünə qoyuldu. Reaksiya özünü çox gözlətmədi. 1970-ci ilin iyulunda Sov. İKP MK və SSRİ Nazirlər Soveti iki birgə qərar qəbul etdilər: **«Azərbaycan SSR-in kənd təsərrüfatının inkişafı haqqında»** və **«Azərbaycan SSR-in xalq tə-**

**sərrüfatının inkişaf etdirilməsi haqqında».** İttifaq orqanlarının bu qərarları 70-ci illərdə Heydər Əliyevin Siyasi Bürodan keçirə bildiyi, respublika sənayesinin və kənd təsərrüfatının dinamik inkişafında mühüm rol oynayacaq 5 qərarından birinciləri idi. Tarixçi Roy Medvedevin etiraf etdiyinə görə «ümumi iqtisadi durğunluq şəraitində Azərbaycan nisbətən sürətlə inkişaf edirdi, bəziləri hətta Azərbaycan «iqtisadi möcüzəsi» haqqında danışırdı»[24].

Azərbaycan KP MK-nın 1970-ci il avqustun 11-də keçirilən plenumunda Heydər Əliyev kənd təsərrüfatı istehsalının bütün sahələrində mövcud vəziyyəti geniş və hərtərəfli təhlil edərək partiya aktivini Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarında Azərbaycanın qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsinə yönəltdi.

Həmin qərarda həqiqətən olduqca böyük və məsuliyyətli vəzifələr qoyulurdu: kənd təsərrüfatı məhsullarının istehsalında geriliyə son qoymaq, təsərrüfatların rentabelliyini artırmaq, heyvandarlıqda vəziyyəti yaxşılaşdırmaq. Respublikada taxıl istehsalını 900 min tona qədər, pambığı 360 min tona qədər, tərəvəzi 600 min tona qədər, üzümü 720 min tona qədər və s. çatdırmaq nəzərdə tutulurdu. Azərbaycanın kənd təsərrüfatını inkişaf etdirmək üçün 1971-1975-ci illərdə Moskva 1 milyard 390 milyon manat pul ayırmışdı (ötən beşilliklərdəki 763 milyon manata qarşı). Həmin illərdə Azərbaycana 15 min traktor, 9 min yük maşını, 2 mindən yuxarı ekskavator, 1,7 min buldozer, 3 mindən yuxarı taxılyığan kombayn, 950 min ton gübrə göndəriləcəkdi. Meliorasiyaya, müasir suvarma sistemləri və su anbarlarının tikilməsinə, şoran torpaqların bərpası və istismara verilməsinə xeyli vəsait ayrılmışdı.

Bundan savayı, Moskva Azərbaycan üçün 60 min başa yaxın cins mal-qara ayırmışdı. 1970-ci ildən başlayaraq Azərbaycan üçün pambığın tədarük qiyməti 15 faiz artırılmışdı. Ziyanla işləyən təsərrüfatlar tərəfindən SSRİ Dövlət bankına kreditlərin qaytarılması müddəti uzadılmışdı. Bütün respublika üzrə 40-a yaxın şərabçılıq zavodunun tikilməsi planlaşdırılmışdı.

Bir sözlə, sənəd kənd rayonlarının inkişafı üçün geniş perspektivlər açırdı, o şərtlə ki, respublika ayrılan nəhəng maliyyə vəsaitini «həzm» edib mənimsəyə bilsin. Ona görə də birinci katib komandasını yeni, bilikli kadrlarla gücləndirmək və respublikanın kənd təsərrüfatına uzun illər cavabdeh olmuş yüksək rütbəli məmurları istefaya göndərmək qərarına gəlir. Elə həmin plenumda, 1969-cu ildə qoyduğu aşkarlıq ənənəsinə sadiq qalan H.Əliyev bəyan edir ki, kənd



təsərrüfatının geridə qalmasında böyük günah Nazirlər Soveti sədrinin müavini A.Orucov və KP MK katibi Q.Kazımovun üzərinə düşür. Nəticədə hər ikisi işdə yol verdikləri ciddi nöqsanlara görə tutduqları vəzifədən azad edilirlər.

1970-ci ilin dekabrında Azərbaycan KP MK-nın daha bir plenumu oldu. Plenum Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin digər qərarını yerinə yetirmək istiqamətində respublika partiya təşkilatının vəzifələrini müzakirə etdi və iqtisadiyyatı qaldırmaq üçün konkret tədbirlər proqramının işlənməsini nəzərdə tutdu.

Qərar Azərbaycan üçün cəlbedici perspektivlər açırdı, o cümlədən yeni müəssisələrin tikilməsi və fəaliyyətdə olanların genişləndirilməsi və yenidən qurulması, neft emalı sənayesinin, kimya sənayesi obyektlərinin yenidən qurulması və s. üçün sanballı maliyyə vəsaitlərinin ayrılmasını nəzərdə tuturdu. Öz geniş məruzəsində MK-nın birinci katibi sənaye və tikintinin ayrı-ayrı sahələrindəki vəziyyəti təhlil edərək, xalq təsərrüfatının intensiv inkişafına, istehsalın səmərəliliyinin artırılmasına yönəlmiş bir sıra konkret tədbirlər təklif etdi.

Son illərdə neftçıxarma sənayesindəki xroniki geriləmədən danışan H.Əliyev, uzaqgörənliklə Azərbaycanda neft sənayesinin gələcəyini Xəzər akvatoriyasında yeni sahələrin açılmasında gördü. Artıq o zaman o başa düşürdü ki, neft hasilatının azalması xeyli dərəcədə obyektiv prosesdir və onun səviyyəsini artırmaq üçün «dənizin 150-200 metr dərinliklərini mənimsəməkdən ötrü zəruri olan texnikanın yaradılması, lazım gələrsə xaricdən alınması üçün tədbirlər hazırlanmalıdır».

Bununla yanaşı o, Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasını formalaşdırdı və hamı anladı ki, iqtisadiyyat çoxşaxəli olmalıdır, neftçıxarma sənayesinin üstünlüyü ilə məhdudlaşmamalıdır. Bununla bağlı bir məqəm diqqəti cəlb edir – Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarında açıq-aydın respublika rəhbərliyinin təşəbbüsü ilə Azərbaycanda yeni cihazqayırma zavodlarının tikilməsi və radioelektron sənayesi müəssisələrinin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Bununla da respublikanın sənaye istehsalı strukturunda əsaslı dəyişikliklərin özülü qoyulurdu.

Digər mühüm cəhət: qərarda fəaliyyətdə olan yüngül sənaye müəssisələrinin yenidən qurulması və yeni müəssisələrin tikilməsi nəzərdə tutulurdu. O vaxt respublikada Lenin adına kombinat, Mingəçevir pambıq parça fabriki, Bakı komvol kombinatı fəaliyyət gös-

tərirdi. Bundan başqa Stepanakert ayaqqabı fabrikini, Ağdamda furnitur zavodunu işə salmaq, Naxçıvanda alt paltar trikotajı, Sumqayıtda üst paltar trikotajı, Lənkəranda ipək-toxuculuq, Tovuzda komvol-əyirici, Kirovabadda ayaqqabı, Bakıda tikiş və s. fabriklər tikmək nəzərdə tutulmuşdu. Bu tikintilərə başlamaqla Heydər Əliyev yüngül sənayenin xammal yönümünə son qoymaq, pambığın emalı və hazır məhsul istehsalından gələn xeyli miqdarda pulun respublikada qalmasına çalışırdı. Bununla bərabər, yüngül sənaye müəssisələrini respublikanın rayonlarında tikmək nəzərdə tutulurdu, bu da onların coğrafiyasını genişləndirir, istehsalata mümkün qədər çox əməkqabiliyyətli əhalinin, əsasən qadınların cəlb olunmasına imkan verirdi. Nəticədə işsizlik problemi həll olunmalı idi.

İttifaq səviyyəli qərar yeyinti sənayesində də əsaslı yenidənqurma işləri aparmağa böyük imkanlar yaratdı. Burada söhbət ümumi gücü 120 milyon şərti banka olan konserv zavodlarının, pivə zavodlarının, Zaqatalada tütün fermentləşdirmə zavodunun, Kirovabadda qənnadı və ət kombinatlarının, Astara və Lənkəranda çay fabriklərinin, Bakıda makaron fabriki, süd zavodu və bir çox başqa obyektlərin tikilməsindən gedirdi. Bu qərarla faktiki olaraq respublikanın müasir emal sənayesinin əsası qoyulurdu.

Bəli, respublikaya rəhbərlik etdiyi elə birinci il Heydər Əliyev nəzərəçarpan uğurlar qazandı. Lakin öz qədir-qiymətini bilən birinci katib üçün bu yalnız böyük yolun başlanğıcı idi. Çünki sənədlərdə əks olunmuş müddəaların Azərbaycan xalqının çoxillik gərgin əməyi sayəsində gerçəkləşməsi hələ qarşıda dururdu. Bu ildən başlayaraq respublika müstəqil Azərbaycanın gələcək sənaye və xalq təsərrüfatı potensialının təməli qoyulan nəhəng tikinti meydançasına çevriləcəkdir.



[1] Ulduz. 1990, № 6. S.68
[2] Семанов С. Брежнев. М., 2002. С.108.
[3] Арбатов Г. Человек Системы. М., 2002. С. 182.
[4] Гришин В.В. От Хрущщова до Горбачева. М., 1996. С. 32.
[5] Бурлацкий Ф. Вожди и советники. М., 1990. С. 295.
[6] Гришин В.В. От Хрушщова до Горбачева. С. 32.
[7] Семанов С. Брежнев. С. 8.
[8] Арбатов Г. Человек Сисетмы. С.273-274.
[9] Бурлацкий Ф. Вожди и советники. С. 292.
[10] Арбатов Г. Человек Системы. С. 188.
[11] Шахназаров Г. С вождями и без них. М., 2001. С.219.
[12] Арбатов Г. Человек Системы. М. С. 200-201.
[13] Медведев Р. Л.И.Брежнев. Дружба народов. 1991. № 1. С. 189.
[14] Шахназаров Г. С вождями и без них. С.214.
[15] V.Boldinin V.Qolikovla söhbətindən. «Zavtra». 2002. № 48.
[16] Крючков В. Личность и власть. М., 2004. С. 116.
[17] Yenə orada.
[18] Медведев В. Человек за спиной. М., 1994. С. 129-130.
[19] Кеворков В. Тайный канал. М., 1997. С. 18.
[20] Прибытков В. Аппарат. СПб., 1995. С. 60.
[21] Зеркало. 2005. 31 декабря. С. 39.
[22] Вышка. 1970. 1 октября.
[23] Бакинский рабочий. 2003. 23мая.
[24] Медведев Р. Неизвестный Андропов. Ростов-на Дону. 1999. С.360-361.

*Üçüncü fəsil*

# Əliyev və onun komandası

## Hər şeyi kadrlar həll edir!

Respublikada partiya hakimiyyətinə keçdiyi elə ilk aylarda Heydər Əliyev «kadrların seçilməsi və yerləşdirilməsi» kimi böyük bir problemlə üz-üzə qaldı. Həm İ.Mustafayevin, həm də V.Axundovun zamanında yüksək partiya və dövlət vəzifələrinə bir sıra savadlı və güclü kadrlar gəlmişdi, milliyyətcə azərbaycanlı rəhbər kadrların sayı xeyli artmışdı. Buna baxmayaraq Azərbaycanın yeni rəhbərinin respublika partiya təşkilatı qarşısında qoyduğu mürəkkəb, çətin məsələləri həll etmək hamının hünəri deyildi.

İbrahim Səmədov «1969-cu ilin isti yayı» məqaləsində yazır:

«Heydər Əliyevin qarşısında duran ən böyük çətinlik həm də onda idi ki, partiya fəalları və onun bir çox sıravi üzvləri liderin ideyalarının aktuallığını və gərəkliliyini dərk edib dəstəkləsələr də, onları mütəşəkkilliklə həll etmək iqtidarında deyildilər. Ona görə də yeni təfəkkürlü, yüksək məsuliyyətli, qətiyyətlə qayda-qanun yarada bilən kadrlara böyük ehtiyac var idi. Əlbəttə, cəmiyyəti ətalət və ehkamlardan, neqativ hallardan xilas etmək uğrunda ardıcıl mübarizə bəzi adamlarda daxili müqavimət oyatmaya bilməzdi. Bunu isə əsaslı, inandırıcı fakt və sübutlarla dəf etmək lazım idi.

Söhbət layihə və fikirləri təcrübədə tətbiq etməyin zərurətindən gedirdi. Bunsuz yeniləşmə strategiyasını işləyib hazırlamaq mümkün deyildi... Ancaq heç MK rəhbərliyində də bir sıra təşkilati, ən başlıcası isə kadr məsələlərində birlik, yekdillik yox idi. Bu, mədəni və psixoloji, müəyyən qədər də siyasi mövqelərdəki fərqlərlə bağlı idi.

Bu amillər Heydər Əliyevin o vaxtlar çoxlarının, elə indinin özündə də bəzilərinin anlamadığı hərəkətlərinin, qərarlarının əsas səbəbini aydınlaşdırır. Hər halda sərt mərkəzləşdirmə idarəçiliyinin

tətbiqi zərurəti liderin xarakterindən və ambisiyalarından yox, günün obyektiv tələblərindən irəli gəlirdi»[1].

1971-ci ilin əvvəllərində Kommunist Partiyasının növbəti müddətə MK-nı və respublikanın ali partiya hakimiyyətini formalaşdıracaq XXVIII qurultayı ərəfəsində Heydər Əliyev rayon və şəhər partiya təşkilatlarının rəhbər heyətinin, demək olar ki, yarısını dəyişdi. Bu zaman çoxları bu və ya digər naqis işlərinə görə cəzalandırıldılar. Böyük əks-səda doğuran qurultaydakı nitqində «birinci» cəzalandırılan partiya funksionerlərinin adlarını və onların vəzifələrindən kənarlaşdırılmasının səbəblərini ictimaiyyətə çatdırdı.

### Azərbaycan KP MK-nın Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayına hesabat məruzəsindən

«...Azərbaycan KP MK Əli Bayramlı şəhər partiya komitəsinin keçmiş birinci katibi **yol.Kərimovu** (buradakı və bundan sonrakı seçmələr bizimdir – *E.A.*) və avtokalonun keçmiş rəisi **yol.Başirovu** avtokalonda yol verdikləri ciddi nöqsanlara və Başirovun cinayət hərəkətləri barədə məlumat verən kommunist yol.Cəbiyevə divan tutduqlarına görə ciddi cəzalandırmışdır.

...Elə rəhbərlər də var ki, kollegial orqana saymazlıq nümayiş etdirir, onlara etinasızlıq göstərirlər. Şəki şəhər partiya komitəsinin birinci katibi **yol.Kaşiyev** özünü məhz belə aparırdı.

Kadrlarımızdan yüksək nizam-intizam tələb edən partiya rəhbərləri özlərinə qarşı tələbkarlığı da yüzqat artırmalı, nizam-intizama ciddi əməl etməli, nöqsanlara qarşı barışmaz münasibət nümunəsi göstərməlidirlər. Ancaq bəzi partiya rəhbərləri bunları unudub, işlərində bolşevik prinsipiallığını itirərək, şəxsi davranışlarında abırsızlığa yol vermiş və nəticədə siyasi meşşan (obıvatel) səviyyəsinə enmişlər. Kirovabad* şəhər partiya komitəsinin birinci katibi **yol.Əlizadə**, Şamxor rayon komitəsinin birinci katibi **yol.Əhmədov**, Lənkəranın katibi **yol.Babayev**, Sabirabadınkı **yol.Məmmədov**, Göyçayınkı **yol.Quliyev** və bir çox başqaları özlərini məhz bu cür aparmışlar. Sizə məlumdur ki, onların hamısı işlərində yol verdikləri ciddi çatışmazlıqlara və partiya rəhbərinə yaraşmayan davranışlarına, hərəkətlərinə, əxlaqına görə ciddi partiya cəzaları almaqla tutduqları vəzifədən kənarlaşdırılmışlar.

Ağdaş rayon partiya komitəsinin birinci katibi **Rəhimov**, tikinti işçilərinin həmkarlar ittifaqı respublika komitəsinin sədri **Yolçiyev**, Göyçay rayon İcraiyyə Komitəsinin sədri **Beydullayev** və sovet qanunlarını kobudcasına pozan və vəzifələrindən sui-istifadə edən bir çox başqaları tutduqları vəzifələrdən kənarlaşdırılaraq partiya sıralarından xaric edilmişlər».

Heydər Əliyev «yuxarılar»ın kadr tərkibində dəyişiklikdən də diqqətini yayındırmamışdı:

«...Qurultay iştirakçılarına məlum olduğu kimi, respublika Ali Sovetinin Rəyasət Heyətinin və Nazirlər Sovetinin rəhbərliyi də möhkəmləndirilmişdir (*Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri M.İsgəndərovu Q.Xəlilov, Nazirlər Soveti sədri Ə.Əlixanovu A.İbrahimov əvəz etmişdi. A.Kərimov isə Bakı şəhər komitəsinin birinci katibi olmuşdu – E.A.*). İşdə yol verdikləri ciddi nöqsanlara görə Azərbaycan KP MK katibi **yol.Kazımov**, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavinləri **yol.Orucov** və **yol.Sadıxov** tutduqları vəzifələrdən azad edilmişlər.

Daxili işlər, səhiyyə, sənaye tikintisi, tikinti materialları sənayesi nazirliklərinin, Televiziya və Radio Verilişləri Komitəsinin və s. rəhbərliyinin möhkəmləndirilməsi istiqamətində tədbirlər görülmüşdür.

...Biz bu gün yol.**V.Axundovun**, **Ə.Əlixanovun**, **M.İsgəndərovun** və Azərbaycan KP MK Bürosunun bəzi digər üzvlərinin respublikanın təsərrüfat və mədəniyyət quruculuğunda, kadrların seçilməsi və yerləşdirilməsi işində yol verdikləri, mənfi hallara gətirib çıxaran, aradan qaldırılması üçün partiyanın mübarizə apardığı nöqsan və çatışmazlıqlar barədə qurultaya məlumat verməyi zəruri hesab edirik».

Bu və ya digər yüksək vəzifəli partiya funksionerinin istefasının səbəblərini ictimaiyyətə açıq şəkildə izah etməklə kadrların dəyişdirilməsi üsulunu Heydər Əliyev özünün Azərbaycanda «kommunist idarəçiliyi»nin sonunadək mühafizə edəcək. Artıq ilk partiya qurultayında hamıya aydın oldu ki, – **bundan sonra respublikada toxunulmaz adam olmayacaq.**

* Burada və bundan sonra Azərbaycanın rayon mərkəzlərinin və yaşayış məntəqələrinin adı sovet dövründə səsləndirildiyi kimi veriləcək (Kirovabad—Gəncə). Bu, o dövrün dövlət müəssisələrinin adına da aiddir. Məsələn, S.M.Kirov adına ADU (indiki BDU), V.İ.Lenin adına saray (sonralar «Respublika» sarayı, indi isə Heydər Əliyev adına saray) və s.

Heydər Əliyevin məruzəsində adlarını çəkdiklərindən başqa, 70-ci illərin əvvəllərində işdə yol verdikləri nöqsanlara görə partiya-dövlət aparatının orta və yüksək dairələrinin bir çox rəhbərləri vəzifələrindən kənarlaşdırılmış, partiya sıralarından xaric edilmiş, inzibati və ya cinayət cəzası almışdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə məmurların ürəyində möhkəm yer salmış vahimə özünü doğrultdu. Kommunist Partiyası «qaymaqlarının» sakit həyatına son qoyuldu.

Belə ki, 1969-cu ildə avqust plenumundan dərhal sonra ticarət, ictimai iaşə sahəsinin bəzi işçiləri dövlət malını talan etmə və rüşvətxorluğa görə cinayət məsuliyyətinə cəlb olundular.

1969-cu ilin sentyabrında KP MK əhalinin çörəklə təminatında, çörək məhsullarının keyfiyyətindəki ciddi çatışmazlıqlar barədə məsələni müzakirə etdi. Yeyinti Sənayesi Nazirliyinin rəhbərliyi ciddi cəzalandırıldı.

İşindəki ciddi çatışmazlıqlara və tibb müəssisələrinin işinin aşağı səviyyədə olmasına görə 1969-cu ilin sonunda səhiyyə naziri F.Vəkilov tutduğu vəzifədən azad edildi.

1970-ci ilin əvvəlində işindəki ciddi çatışmazlığa görə MK Bürosu daxili işlər naziri M.Əlizadəni, onun müavini A.Rzayevi, respublika milis idarəsinin rəisi D.Rzayevi, Bakı şəhər İcraiyyə Komitəsinin Daxili İşlər İdarəsinin rəisi Mehdiyevi tutduqları vəzifədən azad etdi, nazirin müavinləri Cənizadə və Əliyevi ciddi cəzalandırdı.

Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri İ.Mirzəyev tutduğu vəzifədən azad edildi.

Təsərrüfat planlarının yerinə yetirilməsinə, ticarət, ictimai iaşə və əhaliyə tibbi xidmət sahəsindəki nöqsanlara görə MK bürosu Cəbrayıl rayon Kommunist Partiyasının birinci katibi Əhmədovu tutduğu vəzifədən azad etdi.

Vəzifəsindən sui-istifadəyə, bəzi təsərrüfatlarda xüsusi mülkiyyət meyllərinə yer verdiyinə və digər çatışmazlıqlara görə Lənkəran rayon partiya komitəsinin birinci katibi Babayev, ikinci katibi Məmmədov, rayon İcraiyyə Komitəsinin sədri Rəhimov 1970-ci ilin ortalarında vəzifələrindən azad edilib, partiya xətti ilə cəzalandırıldılar. Büronun bununla bağlı qərarı mətbuatda dərc olundu. Balakən rayon Kommunist Partiyasının birinci katibi Əbdürrəhmanov dələduzlara havadarlıq elədiyinə görə vəzifəsindən kənarlaşdırılaraq partiyadan xaric edildi.

Sui-istifadə hallarına və qanun pozuntusuna yol verdiyinə görə Bakı şin zavodunun rəhbərləri Əliyev, Bədəlov, Əhmədov və Hümbətov həbs edildilər. Onların işi ilə bağlı istintaq başlanmışdır. Aydın olub ki, bir neçə il ərzində direktor və onun əlaltıları zavodun tikdiyi evlərdə mənzil almaq üçün fəhlə və qulluqçulardan rüşvət alınmışlar. Ümumiyyətlə, rüşvət alınan 71 halda o dövr üçün çox böyük məbləğdə – 48 min manat rüşvət alınmışdı. Rüşvətxorları uzunmüddətli azadlıqdan məhrumetmə cəzasına məhkum etdilər.



1970-1971-ci illərdə S.M.Kirov adına ADU-nun, M.F.Axundov adına Pedaqoji Dillər İnstitutunun, V.İ.Lenin adına Pedaqoji İnstitutun rəhbərliyi yeniləşdirilmiş, R.Hacıyevin yerinə Z.Bağırov yeni mədəniyyət naziri təyin edilmişdir.

Ciddi nöqsanlara görə Dövlət Nəşriyyat Komitəsi sədrinin müavinləri B.Bayramov və D.Nəsirov, «Azərnəşr»in direktoru Q.Musayev işdən azad edilmiş, komitənin sədri İ.Nəzərova şiddətli töhmət elan olunmuşdur. 1970-ci ilin martında MK Kinostudiyadakı vəziyyəti müzakirə edərək qərar qəbul etmişdir. Kinostudiyanın yaradıcı və istehsalat fəaliyyətindəki ciddi nöqsanlara görə MK Bürosu direktor A.İsgəndərova və Kinematoqrafiya Komitəsinin sədri M.Qurbanova partiya cəzası vermişdir.

1971-ci ilin 11-13 martında Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayı oldu. Həmin qurultayda MK-nın yeni heyəti seçildi. Bu qurultaya Heydər Əliyev artıq respublika rəhbərliyinin kadr heyətində əsaslı dəyişiklik edərək formalaşdırılmış komandası ilə gəlmişdi.

İndi qarşıya daha geniş məqsədli vəzifələr qoyaraq əməlli-başlı işə başlamaq olardı.

## Əliyevin kadrları seçmə prinsipləri

Heydər Əliyev komandasının üzvləri, sovet dövründə onunla işləmiş adamlarla söhbət zamanı, bir qayda olaraq sual verirdim ki, məşhur Əliyevçi kadrlar necə və hansı meyarlarla seçilirdi? Çünki Heydər Əliyevin çoxsaylı əleyhdarlarının cidd-cəhdi ilə belə bir yanlış fikir formalaşmışdı ki, 70-ci illərdə hakim komandanın formalaşdırılmasının əsasında regionçuluq, yerlipərəstlik prinsipi dururdu.

SSRİ-də bu ənənənin əsasını kadrları vaxtilə özünün işlədiyi regiondan dartıb gətirməyi xoşlayan Leonid İliç Brejnev qoymuşdu. Xalq arasında belə bir söz də gəzirdi ki, Rusiyada Pyotra qədərki dövr olub, sonra Pyotr dövrü, indi isə Dnepropetrovsk dövrüdür.

L.Brejnev Dneprodzerjinsk və Dnepropetrovsk şəhərlərində birgə işlədiyi həmkarlarından bir çoxunu sonralar yüksək partiya və dövlət vəzifələrinə təyin etdi. Onların arasında İ.Novikov (SSRİ Nazirlər Sovetinin sədr müavini), N.Tixonov (1980-ci ilin oktyabrında Nazirlər Sovetinin sədri oldu), G.Tsinev (DTK-nın sədr müavini), G.Tsukanov (Baş katibin birinci köməkçisi), N.Şşolokov (daxili işlər naziri) və b. göstərmək olar. Moldaviyada L.Brejnev sonralar ona ən sadiq insan olan K.Çernenko ilə dostlaşmışdı. L.Brejnev Moldaviya SSR-in Dövlət Təhlükəsizlik Nazirliyinin sədr müavini Semyon Sviqunu da yaddan çıxarmadı. Həmin respublikada onunla birlikdə çalışan Sergey Trapeznikovu sonralar Sov.İKP MK-nın elm şöbəsinin müdiri vəzifəsinə təyin etdi.

Brejnevdən fərqli olaraq, Heydər Əliyev 70-ci illərdə kadrları ilk növbədə iş keyfiyyətlərinə görə seçirdi. Onun üçün irəli çəkdiyi adamın hansı regiondan olmasının qətiyyən fərqi, əhəmiyyəti yox idi. Əksinə, müasirlərinin dediyinə görə, o, daima onları müxtəlif partiya-təsərrüfat sahələrinə, respublikanın müxtəlif regionlarına «atmağa» üstünlük verirdi. Bu, kadrları ölkənin bir çox müttəfiq respublikalarının kadr siyasətində ən zəif yer olan ziyanlı yerliçilik hisslərindən uzaqlaşdırmağa kömək edirdi.

«Azərbaycan KP MK-nın birinci katibi kimi işə başladığı ilk gündən Heydər Əliyev rəhbər kadrlara yüksək, ancaq ədalətli tələblərlə yanaşdı. Rəhbər kadrlara namizədlər üçün zəruri olan əsas keyfiyyətlər: professional səviyyə, vicdanlılıq və prinsipiallıq, geniş biliyə və məlumata malik olmaq, təvazökarlıq, ümumiyyətlə, mədənilik idi. Bu və ya digər insanın məişətdəki davranışı da nəzərə alınırdı. Ciddi «seçmə» nəticəsində MK aparatına, müxtəlif rəhbər vəzifələrə 35-38 yaşında, istehsalat və partiya işində təcrübəsi olan gənc, perspektivli kadrlar gəldi. Onlar respublikanın ən müxtəlif regionlarına mənsub idilər. Misal üçün, təşkilat-partiya işi şöbəsinin müdiri R.Məmmədzadə, eləcə də mədəniyyət şöbəsinin müdiri A.Şərifov, tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri K.Bağırov, inzibati orqanlar şöbəsinin müdiri C.Vəliyev bakılı idilər. Maşınqayırma şöbəsinin müdiri H.Seyidov Marneulidə (Gürcüstan) doğulmuşdu, neft və kimya şöbəsinin müdiri F.Əliyev Tovuzda, xarici əlaqələr şöbəsinin müdiri Ə.Cəbrayılov Zaqatalada, su təsərrüfatı şöbəsinin müdiri Z.Musayev Sabirabadda, elm və təhsil müəssisələri şöbəsinin müdiri F.Əhmədov Naxçıvanda, işlər müdiri B.Mirzəcanov Qusarda anadan olmuşdular. Ümumi şöbəyə uzun müddət Altıağacın rus icmasından çıxmış Y.Kirsanov rəhbərlik edirdi.



Tezliklə onlardan bir çoxu respublika miqyasında müstəqil rəhbər vəzifəyə irəli çəkildilər. Belə ki, H.Seyidov MK katibi, sonra isə Nazirlər Sovetinin sədri, K.Bağırov MK katibi, Heydər Əliyev Moskvaya gedəndən sonra isə Azərbaycan partiya təşkilatının birinci katibi, F.Əliyev MK katibi, F.Əhmədov Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini oldu. Bir çox şöbə müdirləri respublikanın nazirləri təyin olundular.

MK aparatında işə cəlb olunan digər əməkdaşlar üçün də qeyri-rəsmi yaş məhdudiyyəti tətbiq etdilər. MK-nın təlimatçısının yaşı 25-30-dan, MK-da şöbə müdiri müavininin yaşı isə 35-dən yuxarı olmamalı idi. Özü də artıq aşağı partiya işlərində – partiyanın rayon və şəhər komitələrində təlimatçı işləmiş namizədlərə üstünlük verilirdi.

Heydər Əliyev partiya kadrlarının daim öz ixtisas səviyyələrini yüksəltməsinə ciddi nəzarət edir, onları Sov.İKP yanında İctimai Elmlər Akademiyasına, eləcə də Zaqafqaziya respublikaları kadrlarının təhsil aldıqları Bakı Ali Partiya məktəbinə oxumağa göndərirdi.

Bütün bunlar ona qısa zaman kəsiyində aparatda güclü komanda yaratmağa imkan verdi. Müvafiq olaraq əməkdaşlara yüksək tələblərlə yanaşılmağa başlanıldı, onların səviyyəsi də yüksəldi: materialların MK bürosunda və katibliyində müzakirəsi üçün keyfiyyətlə hazırlanması, qəbul edilmiş qərarların icrasına ciddi nəzarət, əhaliylə iş və s. Heydər Əliyev şəxsən hər ay MK-nın şöbə müdirləri ilə iclaslar keçirirdi. Orada müxtəlif sahələrdəki aktual problemlər müzakirə olunur, zəhmətkeşlərin şikayət və məktublarına münasibət, tapşırıqların yerinə yetirilməsi üzərində nəzarətin vəziyyəti müzakirə olunurdu. Mövcud çətinliklər və bu yığıncaqlarda aşkara çıxarılan çatışmazlıqlar barədə Heydər Əliyev konkret tapşırıqlar verir və onların icrasına şəxsən özü nəzarət edirdi. Bu cür iş metodu istər-istəməz şöbə müdirlərindən problemin mahiyyətinə dərindən bələd olmağı, istənilən, bəzən gözlənilməz suallara cavab verməyə hazır olmağı tələb edirdi».

*(Azərbaycan KP MK-nın keçmiş şöbə müdiri Mikayıl Nəzərovun xatirələrindən).*

«Heydər Əliyevin dövründə partiyanın Bakı rayon komitələrinin birinci katiblərinin tərkibi Azərbaycanın ən müxtəlif regionlarından olan texnika mütəxəssisləri, alimlər, istehsalçılardan ibarət idi. Onlardan yalnız ikisi DTK-dan gəlmişdi: şamaxılı Niyazi Nəcəfov Əzizbəyov rayonuna, Lahıcdan olan Müslüm Məmmədov isə Nəsimi

rayon partiya komitəsinə rəhbərlik edirdi. Lenin rayon komitəsinə qarabağlı Şakir Kərimov, Kirov rayon komitəsinə isə erməni Boris Gevorkov başçılıq edirdi. Sonralar Gevorkov Stepanakert Vilayət Komitəsinə birinci katib seçildi. Qaradağ rayon partiya komitəsinin başında isə Valentin Boqoslovski dururdu.

«Vışka» qəzetinin baş redaktoru şamaxılı Fazil Muradəliyev paytaxtın mərkəzi 26 Bakı komissarı adına rayonuna başçılıq edirdi. Həmin dövrdə Bakı Sovetinə gürcüstanlı Aydın Məmmədovu sədr təyin etdilər. Mən Bakıda doğulmuşam, qabaqlar partiya işinə heç bir aidiyyətim olmayıb. Ancaq taleyin hökmü və Heydər Əliyevin tövsiyəsi ilə Oktyabr rayon partiya komitəsinin birinci katibi oldum.

Siz başa düşürsünüz ki, mən nə demək istəyirəm? Azərbaycanın canı, mərkəzi, paytaxtı olan Bakı Heydər Əliyevin yerlilərinin – naxçıvanlıların əlinə verilməmişdi.

Ona bütün canı-qanı ilə işə girişən insanların dəstəyi lazım idi. Heydər Əliyev komandasının üzvləri arasında mənim kimi «kimsəsiz» adamlar az deyildi. Beləliklə isə heç kimə güvənə, arxalana bilmirlər. Onlar yalnız özlərinə ümid edirlər. Bu isə çox vacib amildir».

*(Nazim İbrahimovun xatirələrindən).*

70-ci illərdə kadrların seçilməsi prinsipləri barədə maraqlı xatirələrini mənimlə uzun müddət Heydər Əliyevin komandasında MK-nın sənaye üzrə katibi işləmiş Həsən Nemət oğlu Seyidov bölüşdü. Ümumiyyətlə, bu kitabın hazırlanmasında o mənə çox kömək edib, qiymətli materiallar verib, mən dəfələrlə ona müraciət edərək bu və ya digər detalı, bu və ya digər familiyanı və ya adı dəqiqləşdirmişəm. Heyf ki, Həsən müəllimin qəfil ölümü əməkdaşlığımıza son qoydu. Heydər Əliyevin xatirəsinə o, sonsuz hörmət və məhəbbətlə yanaşırdı, onun komandasında işləməyini isə taleyinin ən böyük uğuru adlandırırdı. Bundan sonra da mən onunla söhbətimizdən parçaları sitat gətirəcəyəm. O deyirdi:

«Heydər Əliyev çalışırdı ki, onun irəli çəkdiyi kadrlar əvvəlcə aşağı partiya dairələrində məktəb keçsinlər. Onları əvvəlcə rayon və şəhər komitələrinə təlimatçı götürürdülər. Onlardan ən təşəbbüskarları və bacarıqlıları MK aparatına və ya Nazirlər Sovetinə düşə bilirdilər. Sonra isə onları müstəqil işə – rayon partiya komitələrinə və ya hətta nazirliklərə rəhbərlik etməyə göndərirdilər.

Bir neçə nümunə gətirə bilərəm: Adil Sadıqov MK-nın neft-kimya şöbəsinin adicə təlimatçısı idi. Sonra həmin şöbənin müdir müavini oldu, bir müddət keçəndən sonra isə onu Lenin rayonuna partiya komitəsinin birinci katibi vəzifəsinə göndərdilər.



Aleksandr Kulikov Sumqayıt şəhər partiya komitəsində sənaye üzrə katib idi. 70-ci illərin ortalarında mən onu KP MK-ya neft-kimya sənayesi üzrə şöbə müdirinin müavini vəzifəsinə məsləhət gördüm. O yaxşı işləyirdi, sonra isə təqaüdə çıxmış Y.Kirsanovun yerinə MK-nın ümumi şöbəsinin müdiri oldu.

L.Şmidt adına zavoddan gəlmiş Şənlik Əliyev Xalq Nəzarəti Komitəsində işləyirdi, sonra MK-nın sənaye və nəqliyyat üzrə şöbə müdiri oldu. Onun işgüzarlığını, bacarığını nəzərə alıb Sumqayıta şəhər partiya komitəsinin birinci katibi göndərdilər.

Kamran Bağırov Nazirlər Sovetində şöbə müdirinin müavini vəzifəsində işləyirdi, sonra MK-ya tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə gəldi, oradan isə Sumqayıt şəhər partiya komitəsinin birinci katibi göndərildi. Şənlik Əliyev oraya ondan sonra keçmişdi.

Həsən Həsənov gürcüstanlı idi. Moskvada komsomol işində işləyirdi. Bakıda onu MK-nın tikinti şöbəsinə götürdülər. Burada o qısa müddətdə bölmə müdiri, sonra isə şöbə müdirinin müavini vəzifəsinədək yüksəldi. 1975-ci ildə onu 26 Bakı komissarı adına rayon partiya komitəsinə, oradan da Sumqayıt şəhər partiya komitəsinə birinci katib göndərdilər. O, orada cəmi üç ay işlədi. Kirovabad şəhər partiya komitəsi katibinin məsələsini həll etməliydik. Daha səhvə yol verməmək üçün güclü kadr axtarırdıq. Orada ilk vaxtlar Əbdürrəhman Vəzirov, sonra isə Əsgər Məmmədov katib işləmişdilər. Hər ikisi etimadı doğrultmamış, işi yarıtmamışdılar. Yaxşı xatırlayıram ki, Heydər Əliyev məndən soruşdu: etiraz etmirsən ki, biz Vəzirovu MK-ya sənaye və nəqliyyat şöbəsinə müdir təyin edək?

– Niyə etiraz etməliyəm ki? – deyə cavab verdim. – Əgər o məndən yaxşı işləyəcəksə, onu lap Azərbaycan Kommunist Partiyası MK-sına ikinci katib də qoya bilərsiniz.

Beləliklə, Həsən Əzizoviç Kirovabada getdi. Deməliyəm ki, biz onun barəsində səhv etməmişdik: gəncəlilər onun fəaliyyətini indiyədək minnətdarlıqla xatırlayırlar.

Kadrların yerləşdirilməsi ilə bağlı daha bir neçə misal gətirim.

Aydın Məmmədov. «Kaspar»ın partiya komitəsinin katibi idi, biz onu MK-ya nəqliyyat və rabitə şöbəsinə müdir təyin elədik, oradan isə DİN-ə nazir göndərdik.

Firudin Əliyev. O, İttifaq Neft Maşınqayırma Komitəsi yanında Azərbaycan Neft Maşınqayırması İnstitutunun (AZİNMAŞ) direktoru

idi. 1976-cı ildə neft və kimya sənayesi şöbəsinin müdiri oldu. Bu, çox istedadlı, bacarıqlı, namuslu və təmiz, sosializm quruculuğu işinə sədaqətli rəhbər idi.

Ramiz Sadıqov. Ağdamlıdır, asbest-şifer zavodunun direktoru, bacarıqlı təsərrüfatçı idi, Azərbaycan KP MK-nın tikinti üzrə şöbə müdiri təyin edildi.

Başqa sözlə, biz mərkəzi aparata istehsalatı, xalqın real həyatını yaxşı bilən, yaxşı rəhbərlik etməyi bacaran adamları götürməyə çalışırdıq.

**– Belə çıxır ki, Heydər Əliyev 70-ci illərdə kadrları tez-tez dəyişirdi?**

– Yox, dəyişirdi deməzdim, bu bir qədər başqa şeydir. Bir vəzifədə özünü doğruldan adama Heydər Əliyev daha böyük həcmli iş tapşırırdı. Bizdə beş «istehsalat» şöbəsi vardı. Onlara rəhbərlik edənlərin, demək olar ki, hamısı yüksək vəzifələrə getdilər.

Qeyd etməliyəm ki, Heydər Əliyev kadr məsələlərini kollegial şəkildə həll edirdi. Misal üçün, bu və ya digər MK katibi hər hansı bir nəfəri rəhbər vəzifəyə təklif edirdi. Əliyev bu namizədi Ali Sovetin Rəyasət Heyəti sədrinin, Nazirlər Soveti sədrinin, ikinci katibin və həmin sahəyə nəzarət edən katibin iştirakı ilə müzakirə edirdi. Yalnız ümumi razılığa gələndən sonra məsələni büroya çıxarırdı. Bu, kadrlara münasibətdə onun yüksək məsuliyyətindən irəli gəlirdi».

Heydər Əliyevlə birlikdə partiya işinə DTK-dan gələnlərdən biri, beşinci (ideoloji) şöbənin müdiri Ramiz Məmmədzadə idi. Ona ən mühüm sahə tapşırılmışdı – MK-nın inzibati şöbəsinə rəhbərlik etmək. O, həmin dövrü belə xatırlayır:

«Heydər Əliyevin birinci katib seçilməsindən bir neçə ay keçmişdi. Yanvarda o məni yanına çağırıb MK-ya işə keçməyi, hüquq-müdafiə orqanlarına nəzarət etməyi təklif etdi. Ancaq mən imtina etməyi qərara aldım, çünki məndə işçiləri arasında çoxlu natəmiz adam olan inzibati orqanlara inamsızlıq hissi vardı. Mən açıq-açığına bildirdim:

– Heydər Əliyeviç, məni o işə götürsəniz, başınız ağrıyacaq: mən həmin adamları yaxşı tanıyıram, sizə onların bir çoxundan yaxa qurtarmağı təklif edəcəyəm.

– Mənə də elə bu lazımdır, – deyə cavab verdi.

Başqa sözlə desək, o, birinci katib vəzifəsinə aparatı, respublikanı rüşvətxorlardan, qəlbi qara adamlardan təmizləmək, onların yerinə namuslu, işlək, öz işini bilən, bacarıqlı adamları seçmək üçün gəlmişdi.



Bir ilə yaxın mən inzibati şöbənin müdiri vəzifəsində işlədim. Bu vaxt ərzində biz bir çox milis şöbəsi rəislərini, prokurorları dəyişdik. Sonra təşkilat şöbəsinə keçdim.

**– Partiya kadrlarını necə seçirdiniz? Adamları haradan tapırdınız? Heydər Əliyev bu və ya digər raykom katibini təyin edərkən nəyi əsas götürürdü?**

– Heydər Əliyev partiya kadrlarını, xüsusilə rayon, şəhər komitələri katiblərini seçmək məsələsində heç vaxt təklikdə qərar vermirdi. Təşkilat-partiya işi şöbəsi namizədi seçirdi, bir neçə nəfərin sənədlərini hazırlayırdı. Bu namizədlərin işinə əvvəlcə ikinci katibin yanında baxılırdı. Çünki təşkilat şöbələrinə, başqa sözlə, partiya kadrlarının seçilməsi məsələsinə ikinci katiblər nəzarət edirdilər. Bizə, məsələn, Kozlov nəzarət edirdi. Sonra birinci katibə məruzə edirdilər. Bəzən Kozlovla mən bir namizədin üzərində dayanırdıq, bəzənsə ikisindən, üçündən birini seçə bilmirdik. Onda Kozlov deyirdi: «Hər üçü barədə Heydər Əliyeviçə məruzə et». Heydər Əliyev kadrların seçilməsi məsələsinə çox ciddi, məsuliyyətlə yanaşırdı, hər biri haqqında ətraflı sorğu-sual edirdi. O, məni MK-ya işə götürərkən ilk söhbətimizdə demişdi: «Bizə təmizliyi, namusu, vicdanı ilə seçilən, partiya işində və kadrlarla iş üzrə təcrübəsi olan, öz işinin mütəxəssisi olan partiya rəhbərlərindən ibarət komanda yaratmaq lazımdır». Yəni ki, bu mühəndisdirsə, birinci dərəcəli mühəndis olmalıdır.

İlk vaxtlar biz rayona birinci katib vəzifəsinə namizədləri MK işçiləri arasından seçirdik. Məsələn, təşkilat şöbəsinin təlimatçısı Mürsəlov Cəlilabada birinci katib vəzifəsinə tövsiyə olundu. Və ya Bakı şəhər partiya komitəsinin sənaye şöbəsinin müdiri Xalid Kərimovu Mingəçevir şəhər komitəsinə birinci katib vəzifəsinə irəli çəkdik. Başqa sözlə desək, biz partiya işində məktəb keçmiş aparat işçilərini irəli çəkirdik. Birinci katib vəzifəsinə ikinci katibləri və ya rayon icraiyyə komitəsinin sədrlərini məsləhət görürdük. Misal üçün Xanlarda trest müdiri olan Feyruz Mustafayev icraiyyə komitəsinə sədr vəzifəsinə tövsiyə olundu. Sonra Xanlarda birinci katib məsələsi ortaya çıxdı. Hamı deyirdi ki, «birinci» erməni olmalıdır, çünki əvvəldən belə bir qayda qoyulmuşdu ki, bu rayonda birinci katib milliyyətcə erməni olmalı idi. Ancaq biz Heydər Əliyevlə məsləhətləşib, bu qəribə ənənəni qırmaq qərarına gəldik. Elə o vaxt F.Mustafayevi Xanlar rayon partiya komitəsinə birinci katib təyin etdik.

Yadımdadır ki, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov etiraz edərək dedi ki, bizi düzgün başa düşməyə bilərlər, buna başqa don geydirəcəklər. Ancaq biz heç nəyə baxmayaraq, F.Mustafayevi təyin etdik. Sonralar Heydər Əliyev onu Şamaxıya göndərdi, yaxşı işinə görə Sosialist Əməyi Qəhrəmanı adına təqdim etdi.

DTK-nın sabiq sədri Ziya Yusifzadənin sözlərinə görə, partiya kadrlarının seçilməsi zamanı Heydər Əliyev çox vaxt keçmiş həmkarları ilə məsləhətləşər, orqanların fikrinə əsaslanırdı. O vaxtlar demək olar ki, «rəhbər vəzifələrə namizədlərin hamısı komitədə yoxlamadan keçirdilər, bizim rəyimiz nəzərə alınırdı. Bundan əlavə, çox vaxt bir yerə iki, üç namizəd olurdu. Onlar MK bürosunda müzakirə olunur, sonra kollegial qərar qəbul edilirdi. Heydər Əliyev Büro üzvlərinin rəyinə həmişə diqqətlə yanaşırdı».

DTK veteranı Albert Salamov orqanların rəyinin Heydər Əliyevin kadrlarla bağlı qərarına təsiri barədə konkret faktları yada salır:

«Mən şöbə rəisi idim, müavinim isə mayor Nikolay Fyodoroviç Obckov idi. O, qocaman çekist, təcrübəli işçi idi, məndən yaşca çox böyük idi. Mən onunla həmişə hesablaşırdım, elə Heydər Əliyeviç də ona çox hörmət bəsləyirdi. O, bizə xüsusi tapşırıqlar verirdi, onları, bir qayda olaraq Nikolay Fyodoroviç yerinə yetirirdi.

Məsələn, tikilməkdə olan Bakı Məişət Kondisionerləri zavodunun direktoru vəzifəsinə namizəd tapmaq lazım idi. O, bir neçə namizədin adını çəkib dedi: «Fikrinizi bildirin». Biz namizədlərin hamısını araşdırdıq və Ziya Yusifzadə həmin şəxslər barədə yığdığımız məlumatları ona çatdırdı. Heydər Əliyev Sənan Axundovun namizədliyi üzərində dayanıb, tezliklə onu zavoda direktor təyin etdi.

Bir dəfə Heydər Əliyev ona təklif olunan MK-da şöbə müdiri vəzifəsinə namizədi təsdiq etməli idi. Lakin həmin adam xarici xüsusi xidmət agenturasına yaxınlıqda şübhələnilən şəxs kimi bizdə yoxlamada idi. DTK-dan məlumat alan Heydər Əliyev həmin namizəddən imtina edib, başqa bir adamı təyin etdi».

«Onun komandasında heç bir «öz» adamı yox idi. O, yalnız o adamları seçirdi ki, artıq bu və ya digər iş sahəsində özünü göstərmiş olsun, özü də sırf iş keyfiyyətlərinə görə. Misal üçün, ət-süd sənayesi nazirini işdən çıxarıb onun yerinə birinci müavini Arif Məmmədovu təyin etdi, yeyinti sənayesi nazirinin əvəzinə onun birinci müavini Kamil Məmmədovu qoydu və ya Moskvadan SSRİ Mikro-



bioloji Xidmətin sədri Əliş Ləmbəranskini çağırtdırıb Nazirlər Soveti sədrinin tikinti üzrə müavini təyin etdi. Kənd təsərrüfatı nazirinin müavini Şamil Rasizadə Nazirlər Soveti sədrinin müavini oldu. Ağac emalı sənayesi naziri Georgi Şşeqlov Nazirlər Soveti sədrinin yüngül sənaye problemləri üzrə müavini vəzifəsinə yüksəldi. Bu, qızıl kadr fondu toplusu idi. Onun komandasında təsadüfi adam yox idi.

**– Bəs kadrları axtarıb tapmaqda ona kim kömək edirdi?**

– Hər şeydən əvvəl onun əvvəlki vəzifəsi dadına çatırdı. General Rəsulbəyov istefaya gedəndə Heydər Əliyev ona rabitə naziri vəzifəsini təklif etdi. O, kimin nəyə qadir olduğunu yaxşı bilirdi.

Bizim Moskvadakı daimi nümayəndəmiz Cəmaləddin Maqomayevdən soruşanda ki, respublikanızda kimi birinci katib seçiblər, zənnimcə, o çox gözəl cavab verib:

– Çox adamın tanımadığı, ancaq hamını tanıyan adamı.

Heydər Əliyev kadrların seçilməsi məsələsində bizim rəyimizlə hesablaşırdı. Məsələn, Elmlər Akademiyasının prezidentini seçərkən mənimlə məsləhətləşdi.

O vaxt Rüstəm İsmayılovun işdən azad olunması məsələsi həll olunurdu. Mən ona dedim:

– Bu vəzifəyə bir adamı tövsiyə edərdim, ancaq məsuliyyət altına girmək istəmirəm.

– Kimdir ki?

– Abdullayev Həsən Bağır oğlu. Xahiş edirəm, Siz, Xəlilov, İbrahimov və Kozlov bir gün Elmi-tədqiqat Fizika İnstitutuna gedin, bu institutun işiylə tanış olun, sonra qərar qəbul edin.

Onlar həqiqətən oraya gedib bütün günü Abdullayevin yanında keçirtdilər. Axşam Kozlov mənə zəng vurub dedi:

– İsmayıl Əliyeviç, siz haqlıymışsınız.

1970-ci ildə H.Abdullayevi EA-ya prezident seçdilər və o, uzun illər Akademiyaya sərəflə başçılıq etdi.

Baxmayaraq ki, mən onunla bir gün də yola gedə bilməzdim. 70-ci illərin sonunda mən Nazirlər Sovetindən gedəndə xahiş etdim ki, məni geriyə – öz institutumuza göndərsinlər.

Heydər Əliyev məndən soruşdu:

– Bəlkə sizi akademiyaya vitse-prezident göndərək?

– Yox, – dedim, – Abdullayevlə mənimki tutmaz».

*(İsmayıl İbrahimovla söhbətimizdən).*

«Kadrları o çox diqqətlə seçirdi və bu zaman ən müxtəlif üsullar tətbiq edirdi. Misal üçün, o mənimlə işlə bağlı bir söhbət edir,

söhbət əsnasında qəflətən soruşur: «Kamran, filankəs haqda nə deyə bilərsən?», baxmayaraq ki, bizim müzakirə etdiyimiz məsələyə bunun heç bir aidiyyəti yoxdur. Sən də gözlənilmədən verilmiş bu suala düşündüyün kimi cavab verirsən. O bu cür sualları tək mənə vermirdi. Müxtəlif fikirləri cəmləşdirərək özü üçün nəticə çıxarırdı. Misal üçün, məndən Şamil Rasizadə, Hacı İbrahimov, Qurban Xəlilov barədə soruşurdu. Bütün bunlar onların təyinatına qədər baş verirdi. Soruşurdu ki, o nə cür adamdır, sən onu necə tanıyırsan? Sanki onda hipnoz qüvvəsi vardı, səndən bildiklərinin hamısını çəkib çıxarırdı».

*(Kamran Rəhimovla söhbətdən)*

Heydər Əliyevin komandasında ən müxtəlif rəhbər vəzifələrdə işləmiş **Ramiz Ənvər oğlu Mehdiyevin** fikrincə «70-ci illərdə – 80-ci illərin əvvəllərində kadrların seçilməsi və yerləşdirilməsi məsələsinin həlli konkret işlənib hazırlanmış sistemə əsaslanırdı. Burada təsadüflərə yol verilmirdi. Əvvəla, kimisə rəhbər vəzifəyə irəli çəkməzdən əvvəl onun əmək bioqrafiyası, tərcümeyi-halı diqqətlə araşdırılırdı: hansı yolu keçib, harada və necə işləyib, nə ilə fərqlənib, onun mənəvi-əxlaqi keyfiyyətləri necədir və s. Əgər yoxlamanın nəticələri qənaətbəxş idisə, onda namizədin şəxsi işi əvvəlcə MK katibinin, sonra isə birinci katibin masası üzərinə gəlib çıxırdı. Bir neçə vaxtdan sonra Heydər Əliyev şəxsi işi qaytararaq tapşırırdı: «Onu əməlli-başlı öyrənin, ya da mənə alternativ göstərin». Ona konkret bir vəzifə üçün iki və ya üç namizəd təklif edirdilər. O da, şübhələrə tam inansa, etimad göstərsə də, yenə də öz kanalları ilə həmin namizədi yoxlamaqda davam edirdi ki, onun tərcümeyi-halında neqativ hallar yoxdur ki və ya o hər hansı qrup maraqları ilə bağlı, əlaqəli deyil ki?! Onun rəhbər kadrlarla yaxın qohumluq əlaqələri və ya dostluq münasibətləri yoxdur ki? Bu insan obyektiv, ya subyektiv ölçülərlə irəli çəkilir? Bütün bu incəlikləri Heydər Əliyev dəqiqliklə araşdırırdı. Sonra məsələni Büroya çıxarırdı, Büronun gündəliyi isə qabaqcadan Büro üzvlərinə və üzvlüyə namizədlərə göndərilirdi. Yığıncağın gedişində hamı bu namizəd barədə öz fikirlərini bildirməliydi.

Deyək ki, nazir təyin etməlidirlər. Buyurun, öz fikrinizi deyin, kim «lehinə»dir, kim «əleyhinə».

**– «Əleyhinə» çıxış edənlər də olurdu?**

– Nə üçün də olmayaydı? Mən indi konkret adlar çəkə bilmərəm, sadəcə olaraq unutmuşam. Ancaq bu və ya digər Büro üzvü ayağa qalxıb deyə bilərdi: «Heydər Əliyeviç, bu adam haqqında çox şey düz deyilib. Ancaq onun bəzi çatışmazlıqları var. Və ya onunla bağlı hər hansı bir informasiya var. Xahiş edirəm, bunu nəzərə alasınız».

Və əgər Büroya bu və ya digər namizədin vəzifəyə təyinatının mümkünsüzlüyünü sübut edən hansısa yeni faktlar çatırdısa, onda bu məsələ kənara qoyulurdu.

Başqa sözlə, Heydər Əliyev kadrlara dövlət maraqlarından yanaşırdı. O, tez-tez deyirdi ki, kadrları irəli çəkərkən, biz hər şeydən əvvəl dövləti maraqlardan çıxış edərək, bu adamın öz mənəvi və iş keyfiyyətlərinə görə bu və ya digər vəzifəyə nə dərəcədə layiq olub-olmamasını dərindən təhlil etməli, araşdırmalıyıq. Əgər kadrlar bu prinsiplərlə seçilməsəydi, respublika 70-ci illərdə belə sürətli yüksəlişə nail ola bilməzdi.

Kadrların düzgün seçilməsi, kadr potensialının səmərəli səfərbərliyi – Heydər Əliyevin respublika həyatının hər bir sahəsində – iqtisadiyyatda, sosial həyatda, mənəviyyatda apardığı uğurlu islahatların ən vacib amillərindən biridir».

## «Onun komandasında işlədiyim üçün fəxr edirəm»...

Heydər Əliyevin kadr siyasətinin xüsusiyyətlərindən danışarkən onun vəzifəyə irəli çəkdiyi şəxslərin sadəcə adlarını və soyadlarını sadalamaqla kifayətlənmək olmaz. Onun bu və ya digər vəzifəyə tövsiyə etdiyi insanların emosional, hiss və həyəcan dolu söhbətləri çox maraqlı və ibrətamizdir. Nəticədə onlar partiya və dövlət aparatının ən müxtəlif sahələrində çalışmışlar, çoxları bugün də iş başındadırlar. 70-ci illərdə əldə etdikləri təcrübəni onlar əvəzsiz hesab edərək Heydər Əliyevin komandasının üzvləri olduqları və respublikanın sosial-iqtisadi yüksəlişində müəyyən rol oynadıqları üçün haqlı olaraq fəxr edirlər. Böyük məmnuniyyətlə onların xatirələrinə üz tuturam, çünki onlar ötən dövrün canlı şahidləridir. Onu da deyim ki, Heydər Əliyevin keçmiş silahdaşlarının xatirələrindən parçalar tamamilə eksklüziv olaraq kitab müəllifinin onlarla şəxsi söhbətlərindən və müsahibələrindən götürülüb və ilk dəfədir ki çap olunur.

**Fəttah Heydərovun dedikləri:**

«1970-ci ildən 1976-cı ilədək partiya vəzifələrində işləmişəm. 1976-cı ildən 1978-ci ilin mayınadək isə Naxçıvan Muxtar Respublikasının məişət xidməti naziri olmuşam.

Düzünü deyim ki, bu iş mənim ürəyimcə deyildi. Mən müəlliməm, o vaxtlar deyildiyi kimi, ideoloji cəbhənin nümayəndəsiyəm, burda isə sırf texniki problemləri həll etmək lazım idi: istehsalat, əmək haqqı məsələlərini. Məişət xidməti nazirinin əhatə dairəsinə bərbərxanalar, modalar atelyeləri, məişət texnikasının təmiri üzrə atelyelər və s. daxil idi. Bütün bunlar isə mənə cansıxıcı görünürdü və naməlum, yad bir sahə idi.

Günlərin birində məni vilayət partiya komitəsinin birinci katibinin yanına çağırdılar. «Mənimlə birlikdə Ordubada gedək», – deyə birinci katib mənə təklif etdi. Saat yarımlıq yol sükut içərisində keçdi, o mənə heç bir izahat vermədi. Ora çatanda gördüm ki, raykomun plenumu çağırılıb. Plenumda məni Ordubad rayon partiya komitəsinin birinci katibi seçdilər. Camaat məni yaxşı qarşıladı, hətta sevincindən kövrələn də oldu.

Seçkilərdən sonra mən MK-da təsdiq olunmalı idim. Heydər Əliyev özü məni qəbul elədi:

– İşə başlamısan? – deyə soruşdu.

– Başlamışam, Heydər Əliyeviç.

– Orada vəziyyət necədir? Sən o rayona yaxşı bələdsən. Orada hansı problemlərin olduğunu bilirsən. Sənə necə kömək edə bilərəm?

– Su ilə bağlı, sosial-mədəni obyektlərin, məktəblərin tikintisi ilə bağlı problemlər mövcuddur.

– Bax, elə bunlarla da məşğul ol. Məndən asılı nə var?

– Su problemini əsaslı şəkildə həll etmək üçün Ordubadçayla Gilançayın qovuşduğu yerdə su anbarı tikmək lazımdır. Mən hələ ikinci katib işləyəndə bu məsələni araşdırmışıq.

O, stolüstü təqvimində iri hərflərlə nəsə yazdı.

– Daha nə?

Mən dedim ki, kəndlərin birində sürüşmə təhlükəsi yaranıb, insanlar narahatdırlar. O, bunu da təqvimə qeyd etdi. Söhbətimiz başa çatandan sonra ayağa qalxıb əlimi sıxdı və dedi:

– Sizə uğurlar arzulayır və təkrar edirəm: namusla və qayda-qanunla işləyin.

Otaqdan çıxmağa hazırlaşanda Heydər Əliyev məni saxladı.

– Bir dəqiqə ayaq saxla. Sən bilirsən ki, bu mənim təşəbbüsüm idi?

Mən təəccübləndim. Çünki həqiqətən də məəttəl qalmışdım ki, məni yenidən partiya işinə qaytarmaq kimin ağlına gəlib?

– Sən ikinci katib olanda necə işlədiyindən xəbərdar idim. Özünü çox ədəb-ərkanlı aparırdın. Elə ailən də özünü insanlardan yüksək tutmur, hamı ilə sadə davranırdı. Mənə bu barədə məruzə edirdilər. Ona görə də raykomun birinci katibi vəzifəsinə namizəd məsələsi ortaya çıxanda, bir neçə namizəd olsa da, mən dərhal səni yada saldım. «Ordubadda ikinci katib işləyən oğlan plenumun tərkibindən çıxarılmayıb ki?» soruşanda mənə cavab verdilər ki, yox, çıxmayıb. «Onu axtarıb tapın və bu vəzifəyə təyin edin» dedim. Sən ki bunu məndən xahiş etməmişdin, – deyə zarafatyana əlavə etdi.

– Xeyr, Heydər Əliyeviç.

– Bax, görürsən, işə namusla yanaşanlar yadda qalır. Gedin və eləcə də namusla, vicdanla çalışın. Yoldaşlarınıza da bunu çatdırın. Vicdanla işləmək lazımdır. Xalqa layiqincə xidmət etmək gərəkdir.

Bu sözləri indiyədək xatırlayıram. İnsanlarda təmizliyi, namusluvicdanlı olmağı o hər şeydən üstün tuturdu. Partiya işçilərindən kabinetlərdə qapanıb qalmamağı, vaxtlarının çoxunu kütlə arasında keçirməyi tələb edirdi. O, sadə insanlarla danışmağı xoşlayır və bacarırdı, bizdən də bunu tələb edirdi.

Mən həmişə ondan nümunə götürməyə çalışırdım. Yanıma gələnlər heç vaxt qəbul otağında gözləmirdilər, qapımı açıb kabinetimə daxil olurdular. Biz daima xalqın içində olurduq. Tarlalara gedib insanlarla söhbətləşirdik. Mən tarlada, otlaqlarda, biçənəklərdə kolxozçularla çay içib, nahar edirdim.

Bunları Heydər Əliyevdən öyrənmişdim. O, tələblərinə uyğun gələn kadrları incəliklə, əsaslı surətdə seçirdi. Əgər yaxşı parça seçməsən, yaxşı kostyum da tikdirə bilməzsən. Ola bilər ki, bu parça o birisindən, o birisi isə üçüncüdən yaxşı olsun, ancaq üçü də bir qəpiyə dəyməsin.

Heydər Əliyevin də qarşısına təqribən belə çətinliklər çıxırdı. Bizi uzun müddət tənbəl, keyfiyyətli işə qadir olmayan, bir sözlə, «ikinci növ» adamlar hesab edirdilər. Bu, xalqın xarakterinə çox mənfi təsir göstərmişdi. Biz az qala milli şüurumuzu, mənliyimizi, hissiyyatımızı itirmişdik. Ona görə də qarşımızda duran vəzifə təkcə respublikanın iqtisadi həyatında irəliləyişə nail olmaqdan ibarət deyildi. Mənəvi iqlimi sağlamlaşdırmaq, xalqın özünə və əməyinə hörmət hissini qaytarmaq lazım idi.

Bu mürəkkəb məsələləri həll etmək üçün Heydər Əliyev ətrafında həmfikirlərindən ibarət güclü komanda yaratmaq istəyirdi».

**Həsən Seyidovun xatirələrindən:**

«1971-ci ilin lap əvvəlində məni MK-ya çağırdılar. Heydər Əliyev mənimlə ətraflı danışıb gözlənilmədən Azərbaycan KP MK sə-

naye və nəqliyyat şöbəsinin müdiri vəzifəsini təklif etdi. Mən etimad üçün təşəkkür etdim, ancaq imtina etməyə çalışdım, dedim ki, mən həmişə istehsalatçı olmuşam, odur ki, aparatda işləmək mənim üçün çətin olar. «Heç kim anadan alim doğulmur, – deyə Heydər Əliyev gülümsündü. – Öyrəşərsən». Üç aydan sonra, Azərbaycan KP-nın XXVIII qurultayında o, məni MK-nın sənaye üzrə katibi vəzifəsinə təsdiq etməyi təklif etdi. Mənim adımı çəkəndə hətta çoxları kimdən söhbət getdiyini anlamadılar. Heç kimin ağlına da gəlməzdi ki, MK aparatına cəmi 3 ay qabaq gəlmiş adamdan söhbət gedir. Fəxr edirəm ki, 10 ildən artıq müddətdə onun komandasında işləmişəm».

**Lənkəran şəhər partiya komitəsinin birinci katibi işləmiş İsa Məmmədovun söhbətindən:**

«1970-ci ilin iyununda işdə buraxdıqları nöqsanlara görə Lənkəranda həm birinci, həm də ikinci katiblər işdən çıxarılmışdı. MK-nın təşkilat şöbəsinin müdiri İsmayıl Əsgərov Heydər Əliyevə beş namizəd təklif etmişdi: Ağdamın katibi Murtuzayevi, Şamaxının katibi Mustafayevi, Şamxorun katibi Vəliyevi və başqa kimlərisə. Elə bu vaxt Bakı şəhər partiya komitəsinin katibi Əli Kərimov söz alıb dedi: «Heydər Əliyeviç, yaxşı işləyən adamları niyə yerindən eləyək? Bir nəfər var, keçmiş komsomol işçisidir, siz onu, yəqin ki, tanıyırsınız. Çox bacarıqlı və çalışqandır. Onu Lənkərana birinci katib göndərək». Mən Naxçıvanda muxtar respublikanın mədəniyyət naziri işləyirdim. Azərbaycanın Mədəniyyət Nazirliyinə başçılıq edən Rauf Hacıyev isə Əlcəzairə işləməyə gedəcəkdi, mənə də demişdi ki, səni öz yerimə namizəd kimi Heydər Əliyevə təklif etmişəm.

Məni tezliklə Bakıya çağıranda, fikirləşdim ki, yəqin elə paytaxta dəyişilməyimlə bağlıdır. MK-da məni əvvəlcə ikinci katib Kozlov qəbul etdi. O, məni xeyli süzüb dedi: «Sən bilirsən pomidor necə yetişir?» Mən fikirləşdim ki, bunun başı xarab olub. «Əlbəttə, bilirəm, bizim həyətimizdə də pomidor bitir». – «Böyük miqdarda soruşuram». Mən yenə də: «Bizdə o qədər vecsiz aqronom var ki. Onları işləməyə məcbur etsək, böyük miqdarda pomidor yetişdirmək olar». – «Onların heç də hamısı vecsiz deyil», – deyə ikinci katib narazılıqla donquldandı. Sən demə o, ixtisasca aqronom imiş. Bir sözlə, Kozlov MK Bürosundakı söhbət və Əli Həbiboviçin təqdimatı barədə danışdı. Mən etiraz etməyə başladım, çünki qəlbimin dərinliyində başqa bir arzum vardı: özümü artıq mədəniyyət naziri kürsüsündə görürdüm. Burada isə məni pomidorlar barədə sorğu-sual edirlər. Kozlov mənim müqavimət göstərdiyimi görüb, Heydər Əliyevin yanına apardı: «O sizi məcbur edər».



Heydər Əliyev məni qəbul edib dedi: «Bilirəm ürəyindən nə keçir. Teatrlar, səhnə quruluşları, cavan, gözəl qızlar... – deyə güldü. – Ancaq Lənkəran raykomunun katibi MK üzvüdür, mədəniyyət naziri isə – sadəcə namizəd. Sabah Moskvada qurultay olacaq, sən oraya gedəcəksən, mədəniyyət naziri isə yox (*həqiqətən də mən sonra Sov.İKP MK-nın dörd qurultayının nümayəndəsi oldum*). Səni Lənkərandan SSRİ Ali Sovetinə deputat seçə bilərik, bizim iki yerimiz var». Bir sözlə, bu yolla o məni «dilə tuturdu».

Zarafatyana girişdən sonra bizim çox ciddi söhbətimiz oldu. Heydər Əliyev təxminən bunları söylədi: «Mən də öz vəzifəmdə təzəyəm. Biz birlikdə respublikanın iqtisadiyyatını qaldırmalıyıq. Bir çox sahələrdə ciddi nöqsanlar yığışıb qalıb, biz onları aradan qaldırmalıyıq. Bax, elə Lənkəranın özündə də rayon rəhbərləri az işlərdən çıxmayıblar. Buna görə biz onları vəzifələrindən kənarlaşdırdıq, bəzilərini isə partiyadan xaric etdik. Onların təsərrüfatsızlığı ucbatından sahələrdə camaatın minbir zəhmətlə becərdiyi məhsul çürüyüb batır». Uzun söhbətdən sonra o dedi: «İsa, sən məni yaxşı tanıyırsan. Yaxşı, namusla işləsən, sənə həmişə kömək edəcəyəm və zəhmətini layiqincə qiymətləndirəcəyəm. Əgər «biclik» etsən, eşitsəm ki başqa işlərlə məşğul olursan, düşünmə ki, bir-birimizi çoxdan tanıdığımıza görə səni müdafiə edəcəyəm».

Allah ona rəhmət eləsin, yaxşı ki məni fikrimdən döndərə bildi, çünki birinci katib işlədiyim illəri həyatımın ən məhsuldar dövrü kimi xatırlayıram. Üç Lenin ordeni, üç Qırmızı Əmək Bayrağı ordeni, 18 medalla təltif edildim. Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüm. Bütün bunları mənim qara qaşıma, gözümə görə vermirdilər. Respublikanın ən geridə qalmış rayonu bir neçə il ərzində SSRİ-də ən qabaqcıllar sırasına çıxdı. Rayonumuz 9 dəfə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-nin və ÜİLKGİ MK-nın keçici bayrağını aldı.

1969-cu ildə Lənkəran dövlətə 54 min ton tərəvəz, 5050 ton çay satmışdı. 1980-ci ildə isə dövlətə 197 min ton tərəvəz, 16500 ton çay yarpağı təhvil verildi. Bu isə, öz növbəsində əhalinin gəlirlərinin ölçüyəgəlməz dərəcədə artması demək idi. Bu illərdə əmək haqqı 3-4 dəfə artmışdı. Elə ailələrimiz vardı ki, kollektiv təsərrüfatda çalışıb, ildə iyirmi min manat gəlir götürürdü».

**Nazim İbrahimovla söhbətdən:**

Mən Geologiya İdarəsində işləyirdim, ekspedisiya rəhbəri, partiya komitəsinin katibi idim. Artıq Oktyabr rayonunda tanınmışdım.

Namizədlik dissertasiyamı müdafiə etmişdim, doktorluq işim, demək olar ki, hazır idi. Sərbəst yaşayır, idmanla məşğul olurdum. Günlərin birində raykomun birinci katibi Kərimov məni yanına çağırdı. Söhbətimiz alınmadı. O mənimlə söhbəti zamanı soruşdu ki, partiya işinə keçmək istəyirəmmi?

– İstəmirəm, – deyə cavab verdim.

Görünür «istəmirəm» deməyim də öz işini gördü. Necə yəni – istəmirəm, «orada» belə sözləri başa düşmürdülər. Bir neçə aydan sonra o məni yenidən çağırıb dedi ki, səni raykom katibi vəzifəsinə tövsiyə etmək fikirləri var... Heydər Əliyev mənimlə danışmaq istəyir.

Bu bizim ilk şəxsi görüşümüz idi. Heydər Əliyev danışdı ki, respublikada mürəkkəb vəziyyət mövcuddur, o bir çox dəyişikliklər etmək niyyətindədir.

– Sən yəqin ki, qəzetləri oxuyursan?

O vaxtlar mətbuatda bir sıra tənqidi materiallar dərc olunmuşdu. Bunlar hamısı məşhur avqust plenumunun nəticələri idi.

**– O «öz» kadrlarını necə axtarıb tapırdı?**

– Onun istedadı da, bax, bundaydı – axtarıb tapmağı bacarmaqda. Bu işdə də yanılmaq mümkündür, elə o da bəzən səhv edirdi. Ancaq görəndə ki, bu adam onun etimadını doğrultmadı, o dəqiqə onu kənarlaşdırırdı. 70-ci illər ərzində o çoxlarını vəzifəsindən azad etmişdi.

Heydər Əliyevin özünün işlənib-hazırlanmış taktikası vardı. O, raykom katiblərini çox dəqiqliklə seçirdi. Raykom katibi – böyük insan kütləsi ilə işləyən adamdır. O görəndə ki, katiblərin hər hansı birinin ciddi nöqsanları yoxdur, göstəriciləri yaxşıdır, onun vəzifəsini yüksəldir, məsələn, nazir və ya Dövlət Komitəsinin sədri təyin edirdi.

Heydər Əliyev öz işində birinci katiblərə və nazirlərə güvənirdi. O bilirdi ki, sənayenin, kənd təsərrüfatının, sosial inkişafın, mədəniyyətin taleyini raykom katibləri və nazirlər həll edirlər. Nazirlər maksimal dərəcədə müstəqil idilər. Öz aparatına ümid etməyərək onlarla Heydər Əliyeviç birbaşa əlaqə saxlayırdı. Baxmayaraq ki, o aparata da hörmətlə yanaşırdı, MK katiblərindən, şöbə müdirlərindən ibarət çox gözəl komanda toplamışdı. Onun gücü, qüdrəti də bunda idi.

Bilirsiniz, o insanların potensialını tam üzə çıxarmaq üçün onları çox ciddi sınaqlardan keçirirdi. Buna onun imkanı var idi, həm də o



hələ cavan idi. Onun vaxtı çox idi. Tükənməz enerjisi, qüvvəsi, imkanları buna yol verirdi.

**– Siz raykom katiblərinin nazir vəzifəsinə təyin edilməsi ilə bağlı konkret misallar gətirə bilərsinizmi?**

– Nə qədər istəsəniz. Avtomobil nəqliyyatı naziri Şakir Kərimov Bakının Lenin rayonunun birinci katibi idi. Məmməd Əsgərov Şəmkirdə raykom katibi idi. Sonralar kənd təsərrüfatı naziri oldu. Yunus Rzayev Şamaxıda katib idi, Üzümçülük üzrə Dövlət Komitəsinə sədr təyin olundu. Çoxlarını rayon komitələrindən MK-ya çəkib gətirirdi. Bakının rayonlarından birinin, sonra Kirovabadda şəhər komitəsinin birinci katibi olan Həsən Həsənov MK-nın katibi oldu. Lənkəran rayon partiya komitəsinin birinci katibi İsa Məmmədov da eləcə. Nazirlərin çoxusu vəzifəyə katiblikdən gəlmişdilər. Hər halda raykom katibinin insanlarla işləmək səriştəsi olur. Nazir isə insanlarla işləməyi, iqtisadi göstəricilərin və məlumatların quru rəqəmləri arxasında insan talelələrini görməyi bacarmalı, respublikaya beş barmağı kimi bələd olmalıdır. Raykomun birinci katibi MK katibi olmaqla yanaşı, bir qayda olaraq respublika Ali Sovetinin deputatı da seçilirdi. Yəni ki, o öz rayonu çərçivəsində qapanıb qalmırdı, ən müxtəlif informasiyaya malik olurdu. Bax bu, əsil məktəb idi. Məsələn, mən raykom katibi seçilmişdim, paralel olaraq Ali Sovetin plan-büdcə komissiyasına başçılıq edirdim.

Və ya mənim Dövlətnəşrkoma sədr təyin olunmağımı götürək. Mən həqiqətən kitab nəşri işinə vuruldum, poliqrafiyaya incəliklərinə qədər bələd oldum. Heydər Əliyev mənim həyatımın axarını dəyişdi. Poliqrafçı, naşir kimi gözəl bir ixtisas qazandım. Sövq-təbii ilə bu iş üçün lazım olan keyfiyyətlərin məndə olduğunu gördüyünə, mənim bu işi bacaracağımı duyduğuna görə ona minnətdaram.

İnsanın potensialını görüb duymaq Heydər Əliyevi fərqləndirən xüsusiyyətlərdən idi. O özu deyirdi ki, inadkarlıq, qətiyyət, işgüzarlıqdan başqa, Allah-taala ona sövq-təbii ilə duymaq qabiliyyəti verib. O, insanları sanki rentgen şüasından keçirirmiş kimi görürdü».

**Svetlana Qasımova ilə söhbətdən:**

«Elə mənim özümü götürək: on altı yaşında ikən Gəncədən Bakıya gəlmişdim. «Yuxarılar»la heç bir qohumluq, «yerliçilik» əlaqəm yox idi. Valideynlərim sadə adamlar: atam mühəndis, anam isə aqronom idi. Həyatdakı uğurlarıma məndə hansısa xüsusiyyəti görüb respublikanın bütövlükdə ticarətinə rəhbər təyin edən Heydər Əliyevin sayəsində nail olmuşam.

Heydər Əliyev Taqanroqda səfərdə olanda ticarətdən söhbət düşüb və ondan soruşublar:

– Heydər Əliyeviç, siz qadını ticarət naziri qoymağa necə risk eləmisiniz?

O isə cavab verib:

– Bizdə qadınların işə münasibəti çox gözəldir. Onlar səliqəli, məsuliyyətlidirlər, işi axıra çatdırırlar. Əgər sən bir işin vaxtında və yüksək səviyyədə icrasını istəyirsənsə, onu qadına tapşır.

Mənə bu barədə həmin səfərdən qayıtmış mədəniyyət naziri Zakir Bağırov danışdı. O bu söhbətin şahidi olmuşdu və gələn kimi də mənə zəng vurmuşdu».

**Zakir Abdullayevlə söhbətdən:**

«Mənim MK-da şöbə müdiri olmağımdan danışacağam. Məncə görk olası nümunədir. İnanın ki, mənim barəmdə heç kim xahiş edib, ağız açmamışdı, mənim heç bir «arxa»m yox idi. Özüm sadə kənd müəllimi ailəsindən çıxmışam. Ali təhsilimi başa vurduqdan sonra Qubada elmi-tədqiqat institutunda işləyirdim, sonra Kənd Təsərrüfatı Nazirliyinin Bağçılıq və Üzümçülük İdarəsinə rəhbərlik etdim, oradansa məni MK-nın təşkilat şöbəsinə təlimatçı götürdülər.

Heydər Əliyev rayon partiya komitələri katibləri barədə məlumatı çox vaxt məndən alırdı. Məsələn, adını çəkmək istəmədiyim «N» 8 il rayon partiya komitəsinin katibi işləmişdi. Qan təzyiqi yüksək, ürəyi xəstə idi, üstəlik həm də çox içirdi, demək olar ki, içki düşkününə, əyyaşa çevrilmişdi. O, Heydər Əliyevlə yaxın münasibətlərdə olan bir adamın qohumu olduğundan, hərəkətləri, daha doğrusu, fəaliyyətsizliyi ucbatından bütün rayonun əzab çəkdiyi bu adam haqqında «birinci»yə bir kəlmə söz deməyə heç kimin cürəti çatmırdı.

Mən təşkilat şöbəsinin müdiri İsmayıl Nəsrullayeviç Əsgərova məlumat yazdım. O, məlumatı oxuyub dedi: «İstəyirsən bu barədə Heydər Əliyeviçin özünə yaz». Mən Heydər Əliyevin adına məlumat yazanda mənim kuratorum, təşkilat şöbəsi müdirinin müavini Mixail Markoviç Əzimov hərəkətlərimi ağılsızlıq adlandırdı. «Sən dəli olmusan, nədir?» – deyə məndən soruşdu. Mən Əsgərovun yanına gedib məlumat yazdığımı, ancaq müavinin onun üzərində dərkənar qoymaqdan imtina etdiyini söylədim. «Mən də həmin məlumatı verməyi məsləhət görmürəm» deyə Əsgərov çiyinlərini çəkdi.

Onda mən ümumi şöbənin müdiri Kirsanovun yanına gedib vəziyyəti danışdım.



– Xahiş edirəm, şöbə müdirinin və müavinin dərkənar qoymaqdan imtina etdikləri məlumatı qəbul edəsiniz. Mən onu yazmışam, ondan imtina etmək fikrim yoxdur.

– Qeydiyyata alınmasa da, ərizəni qoy qalsın. Mən baxaram.

Bu söhbətdən bir neçə gün keçəndən sonra aparatın partiya iclasında Heydər Əliyev mənə təşəkkür etdi.

– Aparatımızda belə cəsarətli, təmiz, vicdanlı adamların olması məni sevindirir.

Bu cür daha bir neçə epizod olmuşdu. Mənim irəli çəkilməyimin əsasını da bu təşkil edirdi. Doğrudur, o illərdə rayon partiya komitəsinin birinci katibi olmaq arzularımın zirvəsi idi.

Heydər Əliyeviç məni MK-ya şöbə müdiri təyin edəndə cəmisi 35 yaşım vardı, bu cür vəzifədə olacağım, nazirlərə rəhbərlik edəcəyim yatsam, yuxuma da girməzdi.

Əsgərov məni çağırıb dedi:

– Mən sənə heç bir şey deməirəm, ancaq deyəsən şahlıq quşu sənin çiyninə qonmaq üzrədir. Tez Heydər Əliyeviçin yanına qalx.

O, mənimlə dörd saat söhbət elədi, rayon partiya komitələrinin birinci katibləri, nazirlər, aparatın əməkdaşları barədə soruşdu.

– Səncə filankəs necə adamdır? Elə hesab et ki, mən onun haqqında heç bir şey bilmirəm, sənin fikrin mənim üçün maraqlıdır.

Mən öz rəyimi deyəndən sonra o, yekunlaşdırdı.

– Sən, əsasən, düzgün fikirdəsən.

Söhbətimizin sonunda o dedi:

– Bilirəm ki, sən kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsinə hazır deyilsən. Ancaq əminəm ki, səndən yaxşı şöbə müdiri çıxar.

Sonra isə dedi:

– Kənd təsərrüfatı üzrə katib Hacı Xəlil oğlu İbrahimov mənə birinci katiblərdən, nazir müavinlərindən, nazirlərin arasından beş namizəd təklif edib. Mən onların hamısını rədd etdim. Sən İbrahimovla ümumi dil tapa bilərsən?

– Çalışaram, Heydər Əliyeviç, – deyə cavab verdim.

Həqiqətən də, ilk vaxtlar İbrahimov mənə bir qədər ehtiyatla yanaşırdı. Şöbə müdirini onunla məsləhətləşmədən təyin etmələri onu açmamışdı. Ancaq tədricən bir-birimizlə dil tapa bildik».

**Hadi Rəcəbli ilə söhbətdən:**

«1976-cı ildə məni Zaqafqaziya Ali Partiya məktəbinə qəbul etdilər. Heydər Əliyev oraya daxil olan hər bir adamı nəzarətdə saxlayır, partiya kadrlarının təhsilinə xüsusi diqqət yetirirdi. Məni

qrup nümayəndəsi seçdilər və mən APM-i qırmızı diplomla başa vurdum. Dərhal namizədlik işi götürüb SSRİ ilə BMT-nin qarşılıqlı münasibətlərinə dair aktual mövzu üzərində işləməyə başladım. Doğrudur, dissertasiyanı bir qədər gec – 1997-ci ildə müdafiə etdim.

Həddən artıq məşğulluğuna baxmayaraq Heydər Əliyeviç təhsilimizi gözdən qoymurdu, pis oxuyanlara irad tutur, danlayır, çalışmağa məcbur edirdi. Təhsil aldığımız vaxt biz heç bir şeydən korluq çəkmirdik, hər bir şəraiti olan yataqxanalarda yaşayır, məvacib alırdıq. Məsələn, mən şəhər komsomol komitəsinin birinci katibinin maaşını tam həcmdə alırdım.

Ali Partiya məktəbini bitirəndən sonra məni Azərbaycan KP MK-nın orqanı olan «Bakinski raboçi» qəzetinə cənub zonası üzrə xüsusi müxbir götürdülər. Mən texniki ixtisas üzrə təhsil aldığımdan, orta məktəbi də Azərbaycan dilində bitirdiyimdən ədəbi rus dilini o qədər də yaxşı bilmirdim, odur ki, səy edirdim, baş redaktor Okulov başda olmaqla qəzetin kollektivi də mənə arxa-dayaq idilər.

Bir qədər sonra öyrəndim ki, MK-nın birinci katibi mənim məqalələrimi oxuyub, bəzi məqalələrimdə qaldırılan problemlərə müvafiq olaraq tədbirlər də görülür. O vaxtlar qəzet məqalələrinə çox ciddi yanaşırdılar, hətta bəzi yazılar ən nüfuzlu partiya məmurunun taleyini belə həll edə bilərdi.

Bir müddətdən sonra mənim taleyimdə kəskin dönüş yarandı: məni, «Bakinski raboçi» qəzetinin müxbirini Lənkəran Şəhər İcraiyyə Komitəsinə sədr təyin etdilər. Jurnalistikada işləyərkən fikirləşirdim ki, artıq məni unudublar, görünür, partiya işi ilə həmişəlik vidalaşmaq lazımdır. Ancaq Heydər Əliyevə şəhər icraiyyə komitəsi sədri vəzifəsinə bir neçə namizəd göstərəndə o məni seçmişdi. Məni təcili olaraq onunla söhbətə çağırdılar. O vaxt – 1980-ci ildə – 33 yaşım vardı.

O, yenə də təmizlikdən, namuslu, vicdanlı olmaqdan danışdı. Başa saldı ki, bütün bu müddət ərzində mənə nəzarət edib, mən onun meyarlarına uyğun gəlirəm. Şəhər İcraiyyə Komitəsinin sədri vəzifəsi çox vaxt rüşvətlə, müxtəlif sui-istifadələrlə bağlı olur: mənzillərin, avtomobillərin, hər cür az tapılan malların bölüşdürülməsi, paylanması və s. Odur ki, o məndən birbaşa soruşdu: «Sən şirnikləndirici şeylərdən özünü saxlaya biləcəksənmi?» Belə cavan adamın bu cür yüksək vəzifəyə təyin olunması nadir hadisəydi. Mən yüksək təşkilatlardan, Sov.İKP MK-dan, xaricdən tez-tez qonaqlar gələn böyük şəhərin icraiyyə komitəsinə başçılıq etməliydim. Düzünü deyim ki, daxilən qorxu hissi keçirsəm də, neqativ hallarla mübarizə xəttinə sadiq qalacağıma söz verdim.



Və mən şəhər icraiyyə komitəsinin sədri oldum. Qorxurdum, çox qorxurdum. Hakimiyyətdən, qarşımda açılmış imkanlardan qorxurdum. Üstəlik evdə də problemlərim vardı. Evimi təmir etdirmək, arvadımı, uşaqlarımı geyindirib-keçindirmək lazım idi. Bütün bunlar isə adamı yoldan çıxara bilən şeylər idi.

Qərəz, bütün imkanlar mənim əlimdəydi, mən isə özümü saxlayırdım. Bir tərəfdən uşaqlıqdan ailəmizin aşıladığı mənəvi-əxlaqi prinsiplərin böyük rolu vardı. Bayram üçün mənə təzə paltar alanda nənəm deyərdi: «Bala, onu geyib həyətə çıxma, birdən qonşu uşağının təzə paltarı olmaz, özününkünü onun gözünə soxma». Həyat yoldaşım həmişə çox sadə geyinərdi, hətta toyumuzda ona bağışladığım üzük-sırğanı da taxmağa çəkinirdi ki, camaat deməsin: «Bax, şəhər icraiyyə komitəsi sədrinin arvadı bəzənib-düzənib toya gəlib». Bir də səmimiyyətlə etiraf edim ki, canımda bir xof var idi. Qorxurdum ki, Heydər Əliyeviçin mənə olan etimadını itirərəm. Fikirləşər ki, mən öz sözümün üstündə durmamışam».

Hadi Rəcəbli bir il yarım bu işdə vicdanla işlədikdən sonra onu MK aparatına inspektor götürdülər. Bundan iki il sonra isə Azərbaycanın iri sənaye və kənd təsərrüfatı rayonu olan Şəkiyə rəhbərlik etməyə göndərdilər».

**Yuri Məmmədovla söhbətdən:**

«1977-ci ildə mən MK aparatında təşkilat şöbəsinin təlimatçısı vəzifəsinə gəldim. Sonra həmin şöbənin müfəttişi oldum, 1980-ci ildə isə inzibati orqanlar şöbəsi müdirinin müavini vəzifəsinə təsdiq olundum.

**– Siz cəmisi 3 il ərzində adi təlimatçıdan inzibati orqanlar şöbəsi müdirinin müavini vəzifəsinədək yüksəlmisiniz. Həmin şöbə çox mürəkkəb və məsuliyyətlidir, hüquq-mühafizə sistemi tamamilə onun nəzarətindədir. Siz bu şöbəyə necə gəlib düşmüsünüz, axı siz ixtisasca hüquqşünas deyilsiniz?**

– Bəli, mən iqtisadçı-mühəndisəm. Məni öz müavinliyinə Sabir Mamedoviç Hüseynov tövsiyə etmişdi. Ümumi şöbənin müdiri Yakov Kirsanov da onu qeyd etdi ki, inzibati şöbənin tarixində ilk adamdır ki, hüquq təhsili olmadan buraya təyin olunur. Gəlin mənim üçün ən əlamətdar olandan danışaq. Hətta adicə təlimatçını da işə götürəndə, bir qayda olaraq birinci katib onunla söhbət edirdi. Məni şöbə müdirinin müavini təsdiq edən zaman Heydər Əliyevin mənim-

lə söhbətini ömrüm boyu unutmayacağam. O vəzifənin mühümlüyündən, şöbənin əhəmiyyətindən danışdı. Ancaq ən çox yadımda qalan son epizod oldu. Qapıya doğru gedəndə o məni geri çağırdı: «Məmmədov, qayıdın». Mən qayıdıb onun masasına yaxınlaşdım.

– Məmmədov, sən səhərlər heç güzgüdə özünə baxırsan?

Mən ürəyim əsə-əsə düşündüm ki, o mənə bu sualı nə üçün verir?

– Mən səndən rusca soruşuram, sən yuxudan duranda güzgüdə özünə tamaşa edirsən?

– Əlbəttə.

– Mənsə buna əmin deyiləm. Bir bax, gör nə gündəsən. Hələ sənin cəmisi 34 yaşın var.

Nəhayət, mən anlamağa başladım ki, o mənim xarici görkəmimi nəzərdə tutur. O vaxtlar boyum qısa olsa da, çəkim 98 kiloqram idi.

– Sən nəzarət etdiyin kommunistlərə, əməkdaşlara hansı nümunəni göstərəcəksən? Özünü qaydaya salmaq üçün sənə bir ay vaxt verirəm.

Bu, 1980-ci ildə olmuşdu. Ertəsi gündən başlayaraq mən məşq etməyə, qaçmağa başladım. O vaxtdan bugünədək hər gün qaçıram. 60 yaşımda pis görünmədiyim üçün yalnız ona minnətdaram.

Onun insana hətta uzaq məsafədən belə təsir etmək qüdrətinə malik olmasını sübut edən digər bir epizodu da xatırlayıram.

Adətən MK-nın məsul nəzarətçiləri təlimatçılar olurdu. Ancaq Əfqanıstan müharibəsi başlayandan sonra qərar çıxarıldı ki, şöbə müdirlərinin müavinləri MK üzrə növbə çəkməlidirlər. Məsul növbətçilər MK-da Büronun yığıncaqlar zalının qəbul otağında otururdular. Gecələr bütün telefonlar oraya keçirilirdi. Həmin növbətçi hər bir zəngə cavab vermək üçün telefonun yanından aralanmamalı idi.

Bir dəfə mən növbətçi idim. Şənbə günü idi. Məndən başqa MK-da yalnız postda duranlar vardı. Heydər Əliyev isə Moskvada, Ali Sovetin sessiyasında və ya MK-nın plenumunda idi. Qəflətən xüsusi rabitə telefonu zəng çaldı. Mən oturub televizora baxırdım. Telefondan kişi səsi dedi:

– İndi sizinlə Heydər Əliyeviç danışacaq.

Dəqiq yadımdadır ki, o anda mən kresloda rahatca oturmuşdum.

– Salam.

– Salam, Heydər Əliyeviç, MK növbətçisi Məmmədov dinləyir.

– Hansı Məmmədov?

– İnzibati şöbənin müdir müavini.

– Hə, işlər necədir?



Respublikada pambıq yığımının ən qaynar çağı idi.

– Məmmədov, sən rayonlar üzrə mənə məlumat verə bilərsən?

Həmin məlumat əlimin altında idi. Mən onu oxudum.

– Deməli, belə, – Heydər Əliyev sözünə davam etdi, – bu rayonların başçılarını mənimlə çalaşdır.

Onunla heç vaxt telefonla danışmadığımdan, düzünü deyim ki, özümü itirmişdim. Dəstəyi qoyub, Yakov Mixayloviçə zəng vurdum. O dedi: «Narahat olma, rayonların adını de, mən özüm hər şeyi təşkil edərəm». Məni bu halda heyrətləndirən nə idi? «Birinci» ilə danışıb dəstəyi qoyandan sonra gördüm ki, farağat vəziyyətində dayanmışam. Yanımda heç kim yox idi, mən rahatca oturub danışa da bilərdim. Mən isə dərsə cavab verən şagird kimi ayaq üstə dayanmışdım. Bax, bu elə onun hətta uzaq məsafədən də insanlara təsir edə bilmək bacarığının əyani sübutudur».

**Dilruba Camalovanın xatirələrindən:**

«Mən ikinci katibliyə elə də həvəslə getmirdim, şəhər təhsil şöbəsindən uzaqlaşmaq istəmirdim. Məni Bakıya, nazirliyə, guya ki, maarif şöbəsinə çağırdılar. Ancaq gələndən sonra Mehdi müəllim* gülüb dedi ki, sən bura yox, Mərkəzi Komitəyə getməlisən. Qərəz, birinci katibin qəbuluna gecikdim və məni Kozlov qəbul elədi. O mənə işin çətinliyindən danışanda ondan soruşdum:

– Başa düşmürəm, məndən nə istəyirsiniz?

– Necə, bilmirsiniz ki, sizi bura nə üçün çağırıblar? – deyə o təəccüblə soruşdu.

– Xeyr, – cavab verdim.

Məsələ orasındadır ki, İsa Məmmədov uzun müddət məni raykomun ikinci katibi olmaq üçün dilə tuturdu. Razılaşmayıb cavab verirdim ki, ərim hərbçidir, biz burdan gedə bilərik. Onda o, MK rəhbərliyindən xahiş edib ki, məni razı salsınlar. Kozlovla uzun söhbətdən sonra (Heydər Əliyev onda Moskvaya getməyə hazırlaşdığından məni qəbul edə bilmədi) razılaşdım. 1981-ci ilin yanvarında isə Lənkəran şəhər partiya komitəsinin birinci katibliyinə təyinat məsələsi həll olunanda Heydər Əliyev məni yanına çağırdı. Bu mənim onunla ilk şəxsi söhbətim idi.

Kabinetin kandarına ayaq basan kimi, onun iti nəzərlərini üzərimdə hiss elədim. Mən fizika müəllimiyəm. Sonralar o andakı

---

* M.Mehdizadə uzun müddət respublikanın Maarif Nazirliyinə rəhbərlik etmiş və milli təhsil və maarifimizin inkişafında böyük xidmətlər göstərmişdir.

hisslərimi götür-qoy edəndə, onun baxışlarını optik linza ilə müqayisə etdim. Adama elə gəlirdi ki, o sənin daxilindəki hər şeyi oxuya bilir. Ondan heç bir şeyi gizlətmək mümkün deyildi. Ona hər şeyi olduğu kimi söyləmək lazım idi. Mən keçib əyləşdim. O sual verməyə başladı.

Sonra mənə dedilər ki, onun əlində doqquz namizəddən ibarət siyahı var imiş. Mən o siyahıda beşinci idim.

– Biz İsa Məmmədovdan sonra Lənkəranа zəif rəhbər qoya bilmərik, – dedi, – çünki insanlar daima müqayisə edəcəklər.

İsa Məmmədov isə təkid edirdi:

– Heydər Əliyeviç, bu qadına diqqət yetirin. Lənkəranda yalnız o baş çıxara bilər.

– Eşitmişəm, sənə «müəllimə» deyə müraciət edirlər. Sən axı raykom katibisən. Sənə «yoldaş Camalova» və ya «yoldaş katib» deməlidirlər. Sən buna necə baxırsan?

– Heydər Əliyeviç, mən müəllimliyi ən yüksək peşə hesab edirəm.

– Necə yəni?

– Hətta birinci katib vəzifəsindən də yüksək. İndi mən yenidən böyük məmnuniyyətlə müəllimliyə gedərəm.

– Bəs onda sənə müraciət edənlərlə aranızdakı rəsmi münasibətlər pozulmur?

– Xeyr, əksinə, mənə rəsmi şəkildə «müəllimə» kimi müraciət edirlər. Bu kəlmədən sonra hamı ciddiləşir ki, müəllimə gəlib. Mən fizika müəllimi idim. Uşaqlar tənəffüs vaxtı məni məktəbin dəhlizlərində görəndə özlərini yığışdırır, şuluq salmırdılar. Deyə bilmərəm ki, hamı məni sevirdi. Məktəb direktoru bəzi tənbəllərə «üç» yazmaq üçün məni nə qədər dilə tutsa da, mən razılaşmırdım. «Onlar sinifdə qalmalıdırlar». Həmin uşaqların valideynləri atamın yanına getmişdilər ki, bəlkə o mənə təsir edə bilə. Atam isə demişdi: «O mənim qızımdır. Mənə də heç kim təzyiq edə, nəyəsə məcbur edə bilməmişdi. Mən belə hesab edirdimsə ki, bu uşağa «iki» vermək lazımdır, verirdim və həmin şagirdi ikinci ilə saxlayırdım. Onun tamamilə haqqı var. Əgər uşaq dərsi bilmirsə, mən ona necə deyə bilərəm ki, həmin şagirdə «üç» yazıb sinifdən-sinfə keçirsin?»

Heydər Əliyev məni dinləyəndən sonra soruşdu:

– Bilirsən səni nə üçün çağırmışam?

Əlbəttə, təxminən başa düşürdüm. Baxmayaraq ki, İsa Məmmədov xasiyyətimə bələd olduğundan məni yüksək vəzifəyə tövsiyə etdiyini deməmişdi.



– Belə düşünürük ki, səni Lənkəranın birinci katibi seçək.

Bu təklifin ürəyimcə olmadığını söyləsəm, səmimiyyətdən uzaq olaram. Ancaq buna baxmayaraq, ondan imtina etmək üçün bəhanə axtarmağa başladım. Biz bir qədər də söhbətləşəndən sonra mən ona dedim:

– Heydər Əliyeviç, məndən birinci katib çıxmaz.

– Nə üçün?

– Əvvəla, həyat yoldaşım hərbçidir. Sabah o yeni təyinat ala bilər, onda mən də onunla getməli olacağam.

– Bu barədə narahat olma. Sənin ərini harasa göndərməyə biz yol vermərik. O, elə respublikada xidmət edəcək.

– İkincisinə qalanda, indi xan nəslindən çıxanları məsul partiya vəzifələrinə irəli çəkmirlər. Babam xan olub, bunu gizlətməyə ixtiyarım yoxdur.

Mənim də, ərim Şəmsəddinin də babalarımız xan olub. Lənkəranda bunu bilməyən yoxdur. Bilirdim ki, kimsə mütləq bunu MK-ya çatdıracaq, onda məni vəzifədən çıxaracaqlar.

– Biz Talışinskilər nəslindənik. Onlar Lənkəranda iki yüz əlli il hökmranlıq ediblər. Onlardan çoxunu həbsxanaya salıb, repressiyaya uğradıblar. Hazırda o nəslin yalnız kasıb nümayəndələri qalıb.

– Mən o nəsli çox gözəl tanıyıram, – deyə Heydər Əliyev gülümsündü. – Bu çox böyük, hörmətli nəsil olub. Azərbaycanın tarixində xeyirxah iz qoyub. İndi sən o nəslin nəcib, alicənab əməllərini davam etdirərsən.

Daha necə yox deyə bilərdim? Əlbəttə, mən onun təklifini böyük razılıq və minnətdarlıq hissi ilə qəbul elədim.

Sonra o İsa Məmmədovu çağırıb dedi:

– Sən indiyədək niyə bu qadın haqqında mənə bir söz deməmisən? Mənə onun davranışı da, söhbəti də çox xoş gəldi».

**Sabir Hüseynovun xatirələrindən:**

«Nazirliyin dəhlizlərində şayiələr dolaşırdı ki, nəhayət bizə nazir təyin edirlər. Hərə düşünürdü ki, görəsən nazir kim olacaq? Bəziləri məni nişan verirdilər. Fikirlərini məntiqlə belə əsaslandırırdılar ki, nahaq yerə MK məni – daxili işlər nazirinin müavinini Azərbaycanın Ali Sovetinə deputatlığa namizəd irəli sürməyib ki? Başqaları ən gözləmədiyimiz adları çəkirdilər. Heç kim və heç vaxt Heydər Əliyevin planlarından və nə fikirləşdiyindən baş açа bilmirdi. Elə həmin günlərdə o məni yanına çağıranda hamı əmin idi ki, onun yanından nazir kimi qayıdacağam. Ancaq güman edilən kimi olmadı.

– Sabir, sənlə ciddi söhbətim var, – deyə o mənə çox ciddi nəzərlərlə baxaraq dilləndi.

Ürəyim yerindən qopdu. Mən həyəcanla düşündüm ki, axı nə ola bilər?

– Daha doğrusu, söhbətim yox, – deyə o ani sükutdan sonra dəqiqləşdirdi, – təklifim olacaq, – dedi və gülümsündü. – Sənə mənimlə işləməyi təklif edirəm.

– Mən onsuz da elə sizinlə işləyirəm, – deyə onun nə demək istədiyini anlamayaraq dilləndim.

– Mənimlə burada – aparatda inzibati orqanlar şöbəsinin müdiri işləməyi təklif edirəm.

Bu təklifi eşitməyə hazır deyildim. Karıxmış halda, lal-dinməz onun üzünə baxırdım.

– Nə olub, – deyə o soruşdu.

– Bilirsiniz, Heydər Əliyeviç, mən büquqşünasam, praktik işdə çalışmışam. Partiya işini bilmirəm.

– Əvvəla, təklif olunan vəzifə hüquqşünas olmağı tələb edir. Özü də praktik işdə işləmiş adamı. İkincisi, sənin məşğul olduğun iş, mahiyyətcə aparatda işləyənin gündəlik işidir. Tədbirlərə və aparat sənədlərinə gəlincə, düzələsi işdir. Tez mənimsəyəcəksən. Birinci katib vəzifəsinə irəli çəkiləndə etiraf edim ki, partiya işinin özünəməxsusluğu məni də qorxutmuşdu. Mixail Andreyeviç Suslova bunu söyləyəndə o mənə dedi: «Partiya işi – əsil həyatdır, onun təşkili və düzgün axarı üzərində nəzarətdir. Başqa sözlə, DTK-ya rəhbərlik edərkən gördüyünüz işdir».

– Heydər Əliyeviç, nazirlikdə mənim maaşım daha çoxdur. Bir də, artıq üç ildən sonra 25 illik tam xidməti müddətim tamamlanır, polkovniklik təqaüdüm çatır, – deyə mən son bəhanəyə əl atdım. Ancaq Heydər Əliyev üz-gözünü turşutduğundan hiss elədim ki, arqumentim uğurlu olmadı.

– Mənfəətpərəstlik kommunist üçün yaxşı keyfiyyət deyil, – onun buz kimi soyuq səsi məni yerimə mıxladı.

– Qorxuram sizi yarıtmayım, – deyə tez vəziyyətimi düzəltməyə çalışdım.

– A-a... – o, səsini uzatdı. – O cəhətdən nigaran olma. Kömək edərik.

– Çox sağ olun, – deyə cavab verdim.

– Deməli, razısan?!

Mən başımı razılıqla tərpətdim.



– Onda Moskvaya uç. Elə günü bu gün. Sabah səni Sov.İKP MK-nın katibi İvan Vasilyeviç Kapitonov qəbul edəcək. Onunla söhbət et. Əgər sənin namizədliyin onu da təmin elәsə, deməli, sənlə bir yerdə işləyəcəyik...

Heydər Əliyevin MK-nın xarici şöbəsinin müdiri vəzifəsinə irəli sürdüyü Ramiz Abutalıbov da mənimlə eyni təyyarədə uçurdu. Ertəsi gün səhər biz onunla birlikdə Kapitonovun qəbul otağındaydıq. Onun yanına birinci məni dəvət etdilər. İvan Vasilyeviç məni xüsusi hörmətlə qarşıladı. Sonra şəxsi işimi açıb oxumağa başladı.

– Beləliklə... prokurorluqda təcrübə keçən müstəntiq... prokuror köməkçisi... şəhərin prokuroru... istintaq idarəsinin rəisi... nazir müavini... afərin, yoldaş Hüseynov! Siz aşağıdan yuxarıya bütün pillələri keçmisiniz. Çox gözəl. Halal olsun, Əliyev! Müdrik adamdır! – başını razılıqla yellətməkdə davam edərək, xüsusi rabitə telefonunun dəstəyini qaldırıb nömrə yığdı:

– Bir də salam, Heydər Əliyeviç. Yoldaş Hüseynov qarşımda əyləşib. Sizə deyim ki, uğurlu namizəddir. Siz, həmişəki kimi, kadrların seçimində müdriklik nümayiş etdirmisiniz... Belәsini təqdir etməmək çətin işdir. Lap aşağı səviyyədən yetişdirmisiniz... Təsdiq edə bilərsiniz.

Kapitonovla söhbətdən sonra mən SSRİ DİN-ə – özü haqqında ən yaxşı xatirələr qoyub getmiş Nikolay Anisimoviç Şolokovun görüşünə getdim. Mənim DİN sistemindən getdiyimi və partiya işinə keçdiyimi bilən kimi, məni ürəkdən təbrik etdi və dərhal köməkçisinə göstəriş verdi: «Elə bu gün axşam Hüseynovun yüksək vəzifəyə təyin olunması münasibətilə qonaqlıq təşkil et».

Sonra mənim yanımda xüsusi rabitə telefonu ilə Heydər Əliyevlə əlaqə yaratdı:

– Heydər Əliyeviç, sizə çox sağ olun demək istəyirəm. Hüseynovu başqa heç bir yerə verməzdim. Partiya işinə, sizin yanınıza isə böyük məmnuniyyətlə. Bizim sistemimizdən bu cür məsul vəzifəyə az adamı irəli çəkirlər. Son illər ərzində o yeganədir. Sizə deyim ki, o buna layiqdir...

Beləliklə, 1980-ci ilin yanvarında Azərbaycan Kommunist Partiyası MK-da inzibati orqanlar şöbəsinin müdiri vəzifəsində işə başladım. Bu şöbə respublikanın bütün güc idarələrini nəzarətdə saxlayırdı, Azərbaycanda yerləşən hərbi strukturların müəyyən məsələlərdə hamiliyi də bu şöbədə həyata keçirilirdi. Qeyd edim ki, şöbə birbaşa birinci katibin tabeliyində idi və ona görə də böyük təsir və nüfuz dairəsinə malik idi.

Heydər Əliyev, xüsusilə hüquq-mühafizə orqanları sistemində kadrların seçilməsi və yerləşdirilməsinə böyük əhəmiyyət verirdi. Onun hakimiyyəti zamanı respublika səviyyəsindən tutmuş rayon miqyasınadək bütün prokurorlar, Ali Məhkəmənin tərkibinədək bütün hakimlər, DTK-nın və DİN-in bütün rayon və şəhər şöbələrinin rəhbərləri, bütün hərbi komissarlar MK katibliyinin və Bürosunun nomenklatura siyahısına daxil edildilər. Təyinatdan qabaq onların hər biri ilə söhbət edir, xeyir-dua verir, onların diqqətini mühüm məsələlərə cəmləşdirirdi».

**Süleyman Tatlıyevin xatirələrindən:**

«Heydər Əliyev həm özünə, həm də tabeçiliyində olanlara qarşı çox tələbkar insan idi. Düzlüyü çox sevirdi, intizamsızları, layiqsiz hərəkətlərə yol verənləri, rüşvətxorları görməyə gözü yox idi və bütün bunlara qarşı qətiyyətlə mübarizə aparırdı.

Kimya sənayesi idarəsinin rəisi ola-ola mən həm də elmi fəaliyyətlə məşğul olurdum. Dissertasiyamın doxsan faizi artıq hazır idi. Ancaq Heydər Əliyev birinci katib olandan sonra rəhbər işçilərə dissertasiya müdafiəsini qadağan etdi. Mən elmin daşını atmalı oldum. Dissertasiyam isə bugünədək müdafiə olunmamış qalır.

O, yaxşı işçiləri mükafatlandırır, pisləri ciddi cəzalandırırdı. Elə götürək mənim özümü. Mən onun diqqətini cəlb elədim, o işimi qiymətləndirib işlər müdirindən Nazirlər Soveti sədrinin neft emalı, kimya, maşınqayırma, ağır sənayeyə nəzarət edən müavini vəzifəsinədək yüksəltdi.

O, çox tərifləməyi xoşlamırdı, cəmisi ikicə söz deyə bilərdi, sən bu işi düzgün yerinə yetirmisən, afərin. Bu, kifayət edirdi. O, razılığını sözlə bildirmirdi, yaxşı işçini mükafatlandırırdı – vəzifəsini yüksəldirdi. Ancaq nöqsanlarına görə çox ciddi cəzalandırırdı. Neçə-neçə rayon partiya komitəsinin birinci katiblərini işdən çıxarmışdı!»

**DTK-nın veteranı Abbas Əsgərovla söhbətdən:**

«Bizim ilk görüşümüz 1978-ci ildə, mənim Naxçıvan Şəhər İcraiyyə Komitəsinin sədri vəzifəsinə təyinatım zamanı oldu. O vaxt mənim iyirmi səkkiz yaşım vardı. Əlbəttə, onunla görüş zamanı mən çox həyəcanlanmışdım. Görünür, mənim halımı hiss edib Heydər Əliyev birbaşa mətləbə keçmədi, haradan olduğumu, valideynlərimin kimliyini soruşmağa başladı.

Mən bu vəzifəni tutmaq istəmirdim. Çünki yeddi il şəhərin baş memarı olmuşdum, şahidi olmuşdum ki, hər il şəhər icraiyyə komitəsinin başçısını işdən çıxarıb, yenisini qoyurlar. Onların gününə düşmək istəmirdim.

– Necə düşünürsən, – deyə o məndən soruşdu, – sənə çətin olmayacaq ki?

– Çox çətin olacaq, Heydər Əliyeviç, – cavab verdim.

– Nə üçün orada işləmək belə çətindir? Nə üçün hər il sədri dəyişdirməli oluruq?

– Heydər Əliyeviç, orada həddən artıq kənar müdaxiləçilər, məsləhətçilər var.

– Kimdir onlar?

– Naxçıvanda müdir çoxdur: vilayət komitəsi, Nazirlər Soveti, şəhər komitəsi. Hər biri kiminçünsə mənzil istəyir. Verirsən – pis olursan, vermirsən, ondan da bədtər. Bax, elə bu böyük çətinliklər yaradır. Ondan əlavə, Naxçıvanın tikinti bazası çox zəifdir. Orada cəmisi bir kiçik təmir idarəsi var, o da ildə yüz min manatlıq iş yerinə yetirir.

– Necə yəni yüz min manatlıq? – deyə Heydər Əliyev təəccübləndi.

– Bəli, elədir ki, var.

O, məni qırx beş dəqiqə dinləyəndən sonra elə göstərişlər verdi ki, işimi əməlli-başlı yüngülləşdirdi. Naxçıvanda kimsə mənzil verilməsi barədə mənə zəng vuran olmadı, Heydər Əliyevin qulağına çatacağından qorxurdular. O, Naxçıvan rəhbərliyinə şəhər sovetinin işinə qarışmamaq barədə göstəriş verdi. İkincisi, Naxçıvanda yaşayış evlərinin tikintisinin həcmini bir neçə dəfə artırmaq barədə sərəncam verdi. Nəticədə təmir idarəsinin gücünü on dəfə artıra bildik.

Mən bu işdə iki il işləyəndən sonra Heydər Əliyev məni yenidən yanına çağırıb dedi:

– Sənə partiya təhsili almaq lazımdır.

Söhbətimiz təqribən yarım saat – qırx beş dəqiqə çəkdi. Heydər Əliyev məni Moskvaya İctimai Elmlər Akademiyasında oxumağa göndərdi. Orada iki il oxudum. 1982-ci ildə akademiyanı bitirib Bakıya qayıtdım. Heydər Əliyev məni yenidən qəbul edib MK-da qalıb işləməyi təklif etdi. Mənə mənzil də verdi. İndiyədək həmin mənzildə yaşayıram.

Sonra Heydər Əliyeviç Moskvaya getdi, mən isə MK-da təşkilat şöbəsində inspektor işləməyə başladım. Bir ildən sonra mənə dedilər ki, Heydər Əliyeviç məni DTK-ya işə keçirməyi məsləhət görür. Beləliklə, 1983-cü ildə mən dövlət təhlükəsizliyi orqanlarında işləməyə başladım. Bunun üçün mən yenidən Moskvaya Ali DTK mək-

təbində, rəhbər kadrların hazırlığı kursunda oxumağa getməli oldum. İki ildən sonra qayıtdım və DTK-nın o vaxtkı sədri Ziya Yusifzadə məni 2-ci şöbənin rəis müavini təyin etdi. Sonra mən şöbə rəisi oldum».

*Bu, o dövr üçün tipik xidməti bioqrafiya MK-nın birinci katibinin öz kadrlarına münasibətinin təsdiqidir. O daima özünün irəli çəkdiyi kadrları diqqətində saxlayır, onlarla maraqlanır, onları oxumağa göndərir, partiya və dövlət fəaliyyətinin müxtəlif sahələrində təcrübə qazana bilmələri üçün onları müxtəlif sahələrə paylaşdırırdı. Hətta Moskvaya gedəndən sonra, respublikanın problemlərindən uzaqlaşanda belə o təşkilat şöbəsinin adi inspektorunu unutmamışdı. Görünür, elə ilk görüşlərindən gənc memarın çəkinmədən rəhbərlik etdiyi sahənin problemlərindən və çətinliklərindən açıq danışması onun xoşuna gəlmişdi. 90-cı illərin əvvəllərində Abbas müəllim Naxçıvana təyinat alaraq, muxtar respublikanın DTK-nın sədri işləməyə başlayacaq. Siyasi Büronun keçmiş üzvü, həmyerliləri tərəfindən Naxçıvan parlamentinə sədr seçilən Heydər Əliyevlə sıx təmasda, çiyin-çiyinə işləyəcəkdi. Sonra isə rəhbərliyinin qəzəbini qazanıb, vəzifəsini itirmək təhlükəsi altında Abbas Əsgərov Heydər Əliyevi 1992-ci ilin noyabrında Naxçıvanda çevrilişə cəhd edən və Heydər Əliyevi Ali Məclisin sədri vəzifəsindən zorla kənarlaşdırmağa çalışan Xalq Cəbhəsi liderləri ilə qarşıdurmada müdafiə edəcək. Deyirlər ki, çox vaxt ən çətin anlarda yetirmələr öz «ustadlarına kəm baxırlar». Allaha şükürlər olsun ki, bəhs etdiyimiz halda belə olmamışdı, necə deyərlər, toxum münbit zəminə düşmüşdü.*

Bu fəsildə biz əsasən respublikanın partiya və dövlət aparatı üçün kadr seçiminin prinsiplərindən danışdıq. Ancaq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri üçün kadrların hazırlığına Heydər Əliyev eyni məsuliyyətlə, ən başlıcası isə perspektivə hesablanmış şəkildə yanaşırdı. Bu barədə **Svetlana Qasımova** ilə söhbətimizdən:

«Deməliyəm ki, Heydər Əliyevin xalqımız üçün xidmətlərindən biri də ondan ibarətdir ki, Azərbaycanın təbii sərvətlərinə daha bir mühüm sərvət əlavə edib – milli kadrlar. Yalnız o vaxt kadrlar istənilən millətin, istənilən respublikanın sərvəti olur ki, onlar yüksək dərəcədə ixtisaslaşsınlar, yaxşı təhsil alsınlar, yaxşı təcrübə keçsinlər, onların yüksəlişi və düzgün istifadəsi üzərində nəzarət olsun. Mən bütün bu hadisələrin iştirakçısıyam. Xaricdə və respublikamızda ali təhsil almış gənc mütəxəssislərdən necə istifadə olunması barədə MK Bürosunda dəfələrlə hesabat vermişəm. Bax bu xüsusiyyəti biz nəzərdən qaçırırıq. Bəli, Azərbaycan neft, pambıq, meyvə-tərəvəzlə və s. zəngindir. Bizdə bunlar həmişə olub, sadəcə bu sərvətlərdən səmərəli istifadə etməmişik. Onlardan düzgün istifadə üçün Heydər Əliyev yeni bir sərvət yaratdı – kadr korpusu. Həm də onlar xalq təsərrüfatının, mədəniyyətin, maarifin və s. bütün sahələrinin inkişafı üçün hazırlanırdılar.

**– Bu necə baş verirdi?**

– Heydər Əliyeviç yaxşı bilirdi ki, Azərbaycanın iqtisadiyyatını qaldırmaq, xalqın rifahını yüksəltmək üçün təbii ehtiyatlardan düzgün istifadə olunmalıdır. Məsələn, respublikanın zəngin olduğu meyvə-tərəvəzdən biz səmərəli istifadə etmirdik. Onların çoxu elə yerindəcə məhv olub gedirdi. O, kənd təsərrüfatı məhsullarının emalı üzrə nazirliyin rəhbərlik etdiyi xüsusi sahə yaratdı. Oraya Meyvə-Tərəvəz Komitəsi, Üzümçülük Komitəsi, Pambıqtəmizləmə sənayesi də daxil idi. Bu sahələri yaratmazdan öncə onlar üçün kadrlar hazırlayırdı. Beləliklə, əgər Azərbaycan əvvəllər xam pambığı qəpiklərə ixrac edirdisə, indi pambığı emal edir, təmizləyir, qalıqlarından isə pambıq yağı və kombinə edilmiş yem və s. hazırlanmasında istifadə edirdik. Pambıq liflərə, saplara, parçalara çevrilir, başqa sözlə desək, pambığın tam emal mərhələsi Azərbaycanda həyata keçirilirdi. Bunun üçün xüsusi əyirici, toxucu fabriklər, kombinatlar tikilirdi. 70-ci illərə qədər belə şey olmamışdı. Pambığı sadəcə olaraq yığıb ixrac edirdilər. Pambıqtəmizləmə sənayesinin yaradılması isə çoxlu pambıqtəmizləmə zavodları demək idi. Bunun üçün avadanlıq əldə etmək, kadrlar hazırlamaq lazım idi. O, gənc oğlanları və qızları xüsusi ali məktəblərə göndərir, bu sahə üçün mütəxəssis-texnoloqlar hazırlayır, avadanlıq əldə edir, zavodlar tikir və beləliklə, yeni istehsal sahələri yaradırdı.

Və ya üzümçülük sahəsini götürək. Üzüm istehsalı üzərində dövlət nəzarəti yox idi. Heydər Əliyeviç respublikada üzümçülük sahəsi yaratdı. Üzüm istehsalının həcmi 2 milyon tona qaldırıldı, bu da Azərbaycan xalqını varlandırdı. İnsanlar evlər tikməyə başladı. Azərbaycanın kəndlərində gördüklərniz – məktəblər, xəstəxanalar, poliklinikalar, kitabxanalar, şahmat məktəbləri, yaşayış evləri – hamısı 70-ci illərdə tikilmişdi.

Həm də söhbət sadəcə üzüm plantasiyalarının sahəsini genişləndirməkdən getmirdi, üzüm emalı, ondan müxtəlif konservlər, şirələr, şərbətlər, keyfiyyətli şərab hazırlamaq nəzərdə tutulurdu. Bu məh-

sullar daxili bazarda satılır, xaricə ixrac olunurdu. Bu isə Azərbaycanın rifahını yüksəldirdi.

Başqa sözlə desək, kadr hazırlığı Azərbaycanda yeni sahələrin yaradılması ilə bağlı idi və ölkəmizin təbii sərvətlərindən səmərəli istifadəyə, xalqın həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmişdi. Yeni iş yerləri, yeni texnologiyaların tətbiqi, müəssisələrin müasir avadanlıqla təchizatı, ittifaq və xarici bazarlarda rəqabətə davamlı məhsullar istehsalı – bax, Heydər Əliyevin strateji məqsədi bu idi. Çünki əsil zəngin ölkə o deyil ki, onun təbii ehtiyatları var, zəngin o ölkədir ki, bu ehtiyatlardan səmərəli istifadə edən, müxtəlif sahələri idarə etməyi bacaran ixtisaslı kadrları var. Heydər Əliyevin Azərbaycanın, onun iqtisadiyyatının, elm və mədəniyyətinin inkişafına verdiyi əsas və çox dəyərli töhfə, bax, budur».

**Aviasiya marşalı, 1968-1980-ci illərdə Bakı Hava Hücumundan Müdafiə Dairəsi Qoşunları komandanı olmuş Anatoli Ustinoviç Konstantinovla söhbətdən:**

Lap əvvəl, mən özümü təqdim edəndə o uzun müddət, belə demək mümkünsə, məni sorğu-suala tutdu. Maraqlandı ki, harada, hansı vəzifədə, kiminlə işləmişəm. Mən o respublikada və ya vilayətdə olanadək orada vəziyyət necə idi? O, məni Büroya dərhal daxil etmədi, Ali Sovetə deputatlığa irəli sürmədi. Əvvəlcə yoxladı, öyrəndi, sonra. Ancaq bu etimadı doğrultmaq lazım idi.

Heydər Əliyev ona tapşırılan işə yüksək məsuliyyət hissi ilə başqalarından seçilirdi. O, bunu ətrafındakılardan da tələb edirdi. Prinsipiallıq və inadkarlıq, sərtlik, eyni zamanda insanlara qayğılı münasibət – Heydər Əliyevin xarakterinin fərqləndirici xüsusiyyətləri idi. İstər elm, mədəniyyət və incəsənət olsun, istər sənaye və kənd təsərrüfatı, sosial məsələlər, idman, respublika ərazisində yerləşdirilmiş ordunun şəxsi heyətinin həyatı olsun, respublikanın bütün istiqamətlər üzrə ahəngdar inkişafı tamamilə diqqət mərkəzində idi. O tez-tez belə deyirdi: «Əgər biz iqtisadiyyatın inkişafında uğurlara nail olmaq istəyiriksə, kolxoz sədrindən tutmuş, zavod direktorunadək, rayon, vilayət, respublika rəhbərlərinədək bütün səviyyələrdə mükəmməl hazırlıqlı kadrlarımız olmalıdır». Ona görə də o, kadrların seçilməsinə, təhsil və tərbiyəsinə böyük diqqət ayırır, onların yetişməsinə kömək edir, lazımi anda ona dəstək olur, lazım gəldikdə isə ciddi tələbkarlıqla yanaşırdı.

Bir dəfə o məni yanına çağırıb dedi: «SSRİ Ali Sovetinin növbəti sessiyasının yığıncağında olanda Moskva vilayəti rəhbərləri ilə danış, onların kənd təsərrüfatında, əsasən də heyvandarlıqda və taxıl istehsalında təcrübələrini öyrənmək üçün nümayəndə heyətimizi qəbul etsinlər». Bizə Domodedovo rayonunun təsərrüfatını ayırdılar. Qrupda Azərbaycanın bir çox kənd rayonlarının nümayəndələri vardı. Çox dolğun səfər oldu. Moskvalılar təcrübə mübadiləsindən əlavə, yoldaşlarımıza bukletlər, sxemlər, cədvəllər və çoxlu digər əyani vəsaitlər bağışladılar.



Heydər Əliyeviç komandasını həmişə kənd təsərrüfatındakı qabaqcıl təcrübənin, həmçinin xaricdəki təcrübənin öyrənilməsinə yönəldirdi. Beləliklə də, respublikada Hindistandan gətirilmiş yeni pambıq sortları və ya İrandan gətirilmiş düyü və məhsuldarlığı yüksəldən digər bitkilər geniş yayılırdı.

Başqa bir misal. Bir dəfə mən «birinci»nin kabinetində olanda kənd təsərrüfatı üzrə katib gəlib bol məhsul yetişdirildiyini, ancaq onu yığmaq üçün kombayn çatışmadığını söylədi. Onu dinləyəndən sonra Heydər Əliyeviç dərhal xüsusi rabitə telefonunun dəstəyini qaldırıb, Sov.İKP MK-da sənayeyə nəzarət edən Kirilenkoya zəng vurub köməklik göstərməyi xahiş etdi. Onun üçün respublikanın marağı hər şeydən üstün idi. Lazım gələndə o, Kremlin ən ali kabinetlərinin qapısını açıb istədiyinə nail ola bilirdi. Odur ki, respublika möhkəmlənir, güclənir və inkişaf edirdi, xalq öz gücünə və bacarığına, seçdiyi yolun düzgünlüyünə inanırdı.

Heydər Əliyevin ən başlıca xidməti də bunda idi: o, öz xalqının imkanlarını, əməksevərliyini qiymətləndirməyi, aşağıdan yuxarıyadək ən çətin vəzifələri həll etmək qüdrətinə malik olan iş qabiliyyətli kollektiv yaratmağı bacardı».

## «Mən həmişə liberalizmin əleyhinə olmuşam»

Kitabımızın bu və sonrakı hissələrində Heydər Əliyevin istefasından sonra verdiyi iki məşhur müsahibəsinə tez-tez müraciət edəcəyik. Bu, tanınmış rusiyalı publisist Andrey Karaulovla dialoqlar silsiləsi (1989-cu ilin sonu, 1990-cı ilin əvvəli) və Azərbaycan jurnalisti Elmira Əhmədova ilə söhbətdir (1990-cı ilin iyunu). Bu müsahibələrdə o, olduqca səmimi və sərbəstdir, çünki hakimiyyətdə olmadığından müəyyən qədər açıq etirafa yol verə bilərdi.

Müsahibələr zəngin və çoxsahəlidir: öz fəaliyyətinin təhlili, dostların, məsləkdaşların və rəqiblərin rəyləri, dövrün ab-havası,

hətta özünün ünvanına da tənqidi fikirlər, acı tərəddüdlər və məyusluq, hətta bəzən ümidsizlik də nəzərə çarpır. O vaxta qədər də, ondan sonra da Heydər Əliyevin bu cür geniş və açıq müsahibələri, demək olar ki, olmayıb.

Belə ki, A.Karaulovla söhbətində Heydər Əliyev qeyd edib: «Bəlkə də, bu mənim qəribəliyimdir ki, işdən başqa mən, demək olar ki, heç bir şeylə maraqlanmamışam»[2]. Bu, həqiqətən də belədir: Heydər Əliyevin doğmalarının, həmkarlarının və rəqiblərinin də təsdiq etdiyi kimi, bu insan qeyri-adi işgüzarlığı ilə seçilirdi, odur ki, onun ritminə uyğunlaşmaq o qədər də asan məsələ deyildi. Onun komandasının üzvlərindən tələbləri də çox yüksək idi. Hər adam bu tələblərə cavab verə bilmirdi. Karaulovla həmin söhbətində Heydər Əliyev səmimiyyətlə etiraf edirdi: «Bəzilərinə elə gəlirdi ki, mən həddindən artıq tələbkaram, yersiz irad tutanam, bəzən tələbkarlığım qəddarlıq həddinə çatır... Mən nə deyə bilərəm... Hər halda mənə həmişə elə gəlirdi ki, qəbul olunmuş hər bir qərarın real əsası var. Öz təbiətim etibarilə, həmişə liberalizmin əleyhinə olmuşam... Mən, məsələn, insanlarla şit rəftar edənlərə mənfi münasibət bəsləmişəm»[3].

Bu bölmədə Heydər Əliyevin aparatdakı işinin az məlum olan və ya praktiki olaraq naməlum epizodları toplanıb: onun iş günü, rejimi, kadrlarla rəftarının üslub və metodları, MK Bürosunun gedişatı qaydaları, vacib sənədlərin və məruzələrin hazırlanması. Bu qeyri-adi insan barədə hekayətdə xırda şey ola bilməz. Nəzərə az çarpan detal belə Heydər Əliyev şəxsiyyətini daha dərindən və geniş şəkildə dərk etməyə xidmət edir.

Belə ki, təxminən 6 il Heydər Əliyevin qəbul otağında oturub, telefonlarına cavab verən referenti Turan Hüseynov MK-nın birinci katibinin iş günü haqqında heyrətamiz şeylər danışdı:

– Axundov adi rejimlə işləyirdi: səhər saat 9-dan axşam saat 6-ya, bəzən də 7-yədək. Həftənin iki günü – şənbə və bazar günlərində işləmirdi. Yalnız plenum və ya partiya aktivi öncəsi şənbə günləri bir neçə saatlığa işə gələ bilərdi.

Heydər Əliyevinsə çox mürəkkəb rejimi vardı. O, səhər tezdən işə gəlirdi. Nahar etməyə evə getmirdi, kiçik istirahət otağındaca nahar edirdi. Alla adlı bufetçimiz ona yemək gətirirdi. Yeməyini yeyib yenə də işə başlayırdı.

Uzun illər o, MK-da gecə çaat 2-yə, 3-ə qədər ləngiyirdi. Gecədən xeyli keçmiş məni çağırtdırıb deyə bilərdi: «Turan, məni pambıq yetişdirən rayonların katibləri ilə calaşdır». Onlar bilirdilər ki, o



işdən çox gec çıxır, odur ki, hamısı iş yerində olurdular. Bəzən cümə günləri evə getməzdən mənə yaxınlaşıb əlini çiynimə qoyub deyirdi: «Yaxşı, sabah istirahət elə». – «Çox sağ olun, Heydər Əliyeviç». Səhər «birinci»nin mühafizə rəisi Namiq Tağızadə zəng vurardu, dəstəkdən onun çığırtısı eşidilirdi: «Cəld ol! Biz bir azdan çıxırıq, get kabineti aç, kondisionerləri qoş». Heydər Əliyevsə gəlib gülürdü: «Hə, səninlə mən əcəb istirahət elədik!» – «Hə, elədir» deyə dərindən ah çəkirdim. Hər hansı görüş və ya digər tədbir keçiriləndə, o, bazar günlərində də işə çıxırdı. Axundovun vaxtında nazirlər MK-ya uzaqbaşı həftədə bir dəfə gəlirdilər. Əliyevin vaxtında isə onlar hər gün qəbul otağında toplaşırdılar. Heydər Əliyev onları həftədə bir neçə dəfə «məhşər ayağına» çəkərdi. Xüsusilə də hüquq-mühafizə orqanlarının nümayəndələrini. Axı onda əyintilərə qarşı geniş mübarizə başlamışdı.

Onun yanında məruzəçi işlədiyim vaxt ərzində o cəmisi iki dəfə respublikadan kənara uzunmüddətli istirahətə getmişdi. Başqa vaxtlarda həmişə respublikada olurdu.

**– MK-nın birinci katibinin kabinetini təsvir edin. O harada yerləşirdi?**

– Birinci katib dördüncü mərtəbədə otururdu. Hazırda o qanadda dövlət müəssisələrinin mühafizəsi Baş İdarəsi yerləşir. O vaxtlar isə «birinci» şəbəkəli dəmir darvazadan həyətə girib, dərhal sola, hökumət girişinə dönürdü. Sağ qanadda Nazirlər Soveti yerləşirdi. O, liftlə qalxıb qəbul otağına, sonra kabinetinə daxil olurdu. Qəbul otağı kabinetindən geniş idi. Kabinet nisbətən yığcam və sadə idi. Əslində birinci katib Mircəfər Bağırovun kabinetində, sonralar (elə indi də) Nazirlər Sovetinin rəhbəri oturan otaqda oturmalı idi. Ancaq nədənsə onlar yerlərini dəyişmişdilər.

Kabinetin sağ tərəfində üstü həmişə ideal şəkildə səliqə-sahmanlı olan yazı masası qoyulmuşdu. Solda başqa bir uzun masa vardı. Oraya hər səhər qəzet və jurnalları düzürdüm. Onun ümumi məsələlər üzrə köməkçisi Vasili Fyodoroviç Kesar idi. O, bütün mərkəzi qəzetləri gözdən keçirib, Azərbaycana aid materialların altından xətt çəkirdi. Yerli mətbuatla onun digər köməkçisi Arif Mustafayev işləyirdi. Mən mətbuatı düzənəcən o məndən bəzi şeyləri soruşurdu: kim zəng vurmuşdu, hər hansı bir hadisə baş verməyib ki? Ümumiyyətlə, respublikada gedən dəyişikliklər barədə xalq arasında nə danışırlar?

Yazı masasının arxa tərəfində iki balaca otaq var idi – biri istirahət üçün, o birisi isə sənədlər üçün.

**– Köməkçilərlə münasibətdə sərbəstliyə, qeyri-formal söhbətlərə yol verilirdimi?**

– Xeyr, o buna yol vermirdi. Özü isə zarafatı xoşlayırdı. Ancaq özünə qarşı «sərbəstliyə» yol verməzdi. Sizə maraqlı bir hadisə danışım. Bir gün Heydər Əliyev selektorla qəbul otağına zəng vurur, mən ona nə üçünsə lazım imişəm. O anda mən və mühafizə rəisi Əkbər qəbul otağında idik. Görür ki, cavab yoxdur. Öz kabinetindən çıxıb qəbul otağını nəzərdən keçirir, əmin olur ki, orada heç kim yoxdur. Kabinetə qayıdıb fasiləsiz olaraq əsəbiliklə selektorun düyməsini basır. Qulaqbatırıcı səslər ətrafa yayılır. Mən özümü kabinetə yetirirəm. «Sən haradaydın?» – deyə Heydər Əliyeviç məndən soruşur. «Harada olacağam, qəbul otağında». – «Qulaq as, mən qəbul otağına çıxmışdım, siz orada yox idiniz». – «Heydər Əliyeviç, biz xalçanın üzərində uzanmışdıq. Gün ərzində kürəyimiz quruyub ağrayır, onurğamıza bir qədər dinclik vermək qərarına gəlmişdik». – «Dəli olmusunuz, nədir?» – deyə «birinci» lap hirsləndi. «Heydər Əliyeviç, sutkada 15 saat oturanda kürəyimiz davam gətirmir. Siz Allah, üzürlü hesab edin». Axır ki, o özünü saxlaya bilməyib güldü: «Siz ki, hələ çox cavansınız. Onda bəs mən nə edim?» O özü çox möhkəm, yorulmaz insan idi. Biz ona çata bilməzdik. Mühafizədən olan uşaqlar mənə deyirdilər: «Sən hələ yaxşısan, heç olmasa gecə saat ikidə, üçdə yataq üzü görürsən. Biz isə səhərə yaxın evə gedib çıxırıq. Heydər Əliyeviç Zuğulba bağlarına çatıb, çox vaxt gecə saat üç-dörd olsa da dənizə baş vurur, beləliklə də yorğunluğu canından çıxarır».

1980-ci ilin əvvəlində MK-nın birinci katibinin qəbul otağının «xozeyni» Mixail Zabelin oldu. İki il Heydər Əliyevin referenti işləmək cavan oğlan üçün gözəl məktəbə çevrildi. Heydər Əliyevin Azərbaycanın rus icmasının gələcək başçısına keçdiyi bir neçə dərs isə bütün həyatı boyu onun yadında qaldı.

**Milli Məclisin deputatı Mixail Zabelinlə söhbətdən:**

«Əlbəttə, Heydər Əliyevin yüksək tələbkarlığını nəzərə alsaq, işləmək o qədər də asan deyildi. Sadəcə çağırışına görə Heydər Əliyevin kabinetinə daxil olanda özünü yığışdırırdın, çünki MK-nın birinci katibinin nüfuzedici baxışları altında olurdun. Bu «rentgen» baxışın qeyri-adiliyini təkcə mən yox, Heydər Əliyevlə ünsiyyətdə olan hər kəs hiss edirdi. Ümumiyyətlə, onunla xoş, eyni zamanda mürəkkəb xatirələr bağlıdır.



Demək olmaz ki, o, ədalətsiz, həddən artıq tələbkar, çox amansız idi. Məsələn, onun iş rejimi belə idi. Mən səhər saat 9-da işə başlayırdım. Heydər Əliyeviç saat 10-a yaxın gəlirdi. O vaxta qədər mən bütün qəzetləri, mərkəzi və respublika mətbuatını nəzərdən keçirib, az-çox maraq kəsb edənlərin altından qırmızı qələmlə xətt çəkərək onun masasının üstünə qoymalıydım. Mərkəzi qəzetlərdə Azərbaycan haqqında müsbət və ya mənfi materialları, yerli mətbuatda isə ölkə həyatının bu və ya digər sahəsinə aid olan tənqidi məqalələri işarə edirdim.

O, həmin materialları nəzərdən keçirəndən sonra zənglər başlayırdı. «Məni filankəslə calaşdır, filankəsə zəng vur». Birini danlayırdı, o birisi ilə sadəcə söhbətləşir, fikir mübadiləsi aparırdı.

**– Bəs gündəlik mətbuata baxış Arif Mustafayevin və Ramiz Tarıverdiyevin vəzifəsinə daxil deyildi?**

– Əlbəttə, köməkçilər də mətbuatı nəzərdən keçirirdilər. Bəzən mənə zəng vurub soruşurdular: «Mişa, sən filan məqaləni Heydər Əliyeviç üçün nişanlamısan?» – «Bəli, işarə eləmişəm». Mən nəyi isə nəzərdən qaçırırdımsa, onlar deyirdilər: «Bax, bunun altından xətt çək, qatla, Heydər Əliyevin masasının üstünə elə qoy ki, o görə bilsin». Ancaq onlar özləri ona mətbuat barədə məruzə etmirdilər.

**– Hansı qəzetlər onun diqqət mərkəzində idi?**

– Hər şeydən əvvəl «Pravda», «İzvestiya», «Selskaya jizn», bizim qəzetlərdən isə «Kommunist», «Bakinski raboçi», «Vışka», «Sovet kəndi». Bu qəzetləri o çox diqqətlə nəzərdən keçirirdi.

Onun tələbləri nədən ibarət idi? Hər şeydən əvvəl dəqiqlik və yığcamlıq. Belə bir misal gətirim. Bir gün qəbul otağında oturmuşdum, Həsən Seyidov, bir qədərdən sonra isə Qurban Xəlilov daxil oldular. Mən soruşdum: «Bəlkə kabinetə keçəsiniz?» – «Yox, yox, biz burada gözləyərik». Sonra daha bir Büro üzvü gəldi.

Mən heç bir şey başa düşmədim. Bir neçə dəqiqədən sonra zəng çalındı. Heydər Əliyeviç məni çağırdı. Soruşdu ki, qəbul otağında adam varmı? «Bəli, – dedim, – bir neçə adam gəlib». O, yumruğu ilə masanın üstünə vurdu: «Onlar niyə orada durublar? Niyə onları bura buraxmamısan?» – «Mən təklif etdim, onlarsa dedilər ki, qəbul otağında gözləyəcəklər».

Sən demə, onlar Nazirlər Kabinetində hansısa plana baxmalı imişlər. Və Heydər Əliyevin kabinetdən çıxmasını gözləyirdilər ki, onunla bir yerdə Nazirlər Sovetinə getsinlər. Mən isə bunu bilmirdim, Yakov Mixayloviç xəbərdar etməmişdi. Heydər Əliyeviç isə fikirləşib ki, mənim bundan xəbərim var. Odur ki, acığı tutdu ki,

belə insanlar onun qəbul otağında dururlar, onların qarşısında özünü pis hiss elədi. O fikirləşdi ki, mən onları içəri buraxmayıb gözləmişəm ki, hamısı yığışsın.

O, belə səviyyəli adamları yarım saat tez çağıranda bizə irad tutturdu. «Siz deyin ki, mən onları saat on birdə gözləyirəm. Nə üçün onları on birin yarısına çağırırsınız? Onlara deyin ki, saat on birdə yanımda olmalıdırlar. Onlar özləri bilərlər nə vaxt gələrlər, on birin yarısında da gələ bilərlər, on birə on beş dəqiqə qalmış da. Sizsə onlara on birin yarısında deyirsiniz, onlar da iyirmi dəqiqə tez gəlib qəbul otağında darıxırlar, vurnuxurlar».

Bu mənada o insanlara qarşı çox diqqətcil idi. Heç vaxt yadımdan çıxmaz, o necə yumruğunu masanın üstünə çırpıb qışqırdı: «Onları qəbul otağında saxlamağa kim sənə icazə verib?» Mən heç bir cavab vermədim. Dilim dolaşa-dolaşa dodağımın altında mızıldandım. «Yaxşı, get». Ayağa qalxıb, qəbul otağına çıxdı, oradan da hamı keçidlə Nazirlər Sovetinə getdi.

Sonra Yakov Mixayloviç gəldi, mən ona hər şeyi danışdım. O isə dedi: «Narahat olma, ürəyini sıxma. Mən Heydər Əliyeviçin yanına girib, sənin heç nədən xəbərin olmadığını deyərəm». Buna baxmayaraq, Heydər Əliyevin bütün gün ərzində acığı soyumadı. Ertəsi gün isə, o artıq tamam başqa adam idi.

Ona görə də daim sərvaxt olmaq lazım idi. Bütün ömrüm boyu unutmayacağım daha bir əhvalatı danışım. O vaxt da mənə ciddi irad tutmuşdu, düzdür, yumruğunu masaya döyməmişdi. Mən təzə-təzə vəzifəmin icrasına başlamışdım. MK katiblərindən biri mənə zəng vurdu. Onlar adətən Heydər Əliyeviçə birbaşa telefonla zəng vurmamışdan əvvəl məndən «birinci»nin məşğul olub-olmaması barədə xəbər tuturdular. Mənim siqnal verən lampalarım vardı, Heydər Əliyev xüsusi rabitə telefonu ilə danışanda bir lampa, şəhər telefonu ilə danışanda o birisi yanırdı. Bu vaxt katiblərdən biri zəng vurub soruşdu ki, Heydər Əliyev məşğul deyil ki? Mən dedim ki, məşğuldur, yanında adam var. «Yanındakı kimdir?» O vaxt səhiyyə naziri Heydər Əliyevin kabinetindəydi. Mən cavab verdim ki, «Tələt Qasımovdur». Katib dəstəyi asdı. Bir qədərdən sonra Heydər Əliyeviç özü harasa zəng vurdu. Tələt Qasımov çıxıb getdi. Müxtəlif telefonlarla bir neçə danışıqdan sonra zəng çalındı – «birinci» məni yanına çağırdı. O qışqırmadı, məni danlamadı, sadəcə soruşdu: «Kim sənə icazə verib, mənim kiminlə söhbət etdiyim, kimi qəbul etdiyim barədə məlumat verəsən?» O başqa heç bir söz demədi.



Ancaq elə bu kifayət idi. Sanki başıma qaynar su tökdülər. Cavab verdim: «Mən başa düşdüm, Heydər Əliyeviç».

Əlbəttə, müxtəlif vəziyyətlərə düşürsən. O, bəlkə də hansısa problemlər barədə bir insanla söhbət edir. Kimsə öyrənir ki, bu adam birinci katibin yanında olub. Ondan söz almağa, nəticələr çıxarmağa başlayır. Bu əhvalat mənim üçün ibrət dərsi oldu. Beləliklə, Heydər Əliyeviçlə işləmək, onunla ünsiyyətdə olmaq böyük həyat məktəbi idi».

Heydər Əliyevin komandasının ən parlaq simalarından biri Lidiya Rəsulovadır. Onun dövründə Azərbaycan paytaxtının Nəsimi rayon partiya komitəsinə rəhbərlik edib, sonra isə Azərbaycan Həmkarlar İttifaqı Şurasının sədri olub. Lidiya Xudatovnanı «müstəqilliyə» buraxmazdan əvvəl Heydər Əliyev onu MK-da elm şöbəsinin müdir müavini kimi yaxşıca «sınaqdan keçirib». Mən müsahibimdən soruşdum ki, Heydər Əliyevin şöbə müdirləri və müdir müavinləri ilə iş üsulu necə idi?

«Mənim aparat işiylə bağlı, aşağı, raykom səviyyəsində olsa da artıq müəyyən təcrübəm var idi. Ancaq bu, partiyanın MK aparatında işləyərkən əldə etdiyim təcrübə ilə müqayisə oluna bilməz.

Heydər Əliyeviçin çox sərt və tələbkar olduğunu söyləməyə ehtiyac yoxdur. O hər şeydən öncə özünə qarşı tələbkar idi və bunu tabeçiliyində olanlardan da tələb edirdi. Məsələn, elə götürək hazırlamağa tapşırdığı sənədlər üzərində işi. Bunun üçün verilən vaxtın bir və ya iki gün uzadılması barədə söhbət ola bilməzdi. Hər şey ciddi nəzarət altında idi.

Deyək ki, hansısa materialın hazırlanması üçün on gün lazım olurdu. Müddətin bitməsinə üç gün qalmış, bir də görürdün artıq sənə xəbərdarlıq kağızı gətirdilər: üç gündən sonra tapşırığı yerinə yetirmə müddəti başa çatır. Odur ki, şəxsən mən yadıma sala bilmirəm, elm və tədris müəssisələri şöbəsinin nəzarətində olan hər hansı bir məsələ barədə Heydər Əliyeviçə öz vaxtında məruzə olunmasın.

Həm də ona sadəcə məruzə etmək kifayət deyildi. Tutaq ki, hazırlayacağımız material iki-üç səhifədən ibarət olmalı idi. Ancaq o materiala içində külli miqdarda əlavə material olan qovluq əlavə olunurdu. Axı, materialın Heydər Əliyevin yanında oxunması və ya müzakirəsi zamanı əlavə suallar meydana çıxa bilərdi və onlara ixtisaslı, dəlilli-sübutlu cavab vermək lazım idi. O, heç bir qeyri-dəqiq-

liyə, təxminiliyə yol vermirdi. Odur ki, bu cür qovluq həmişə yanımızda olurdu. Zəruri hallarda deyirdik:

– İcazə verin, birbaşa Mərkəzi Statistika İdarəsindən aldığımız rəqəmlərlə danışaq.

Bu rəqəmlər həmişə əlimizin altında olmalı idi.

Mən MK aparatının Həmkarlar İttifaqı Komitəsinin sədri idim. O vaxtlar Həmkarlar İttifaqı Komitəsinin sədri MK-da partiya bürosunun üzvü olurdu. Biz partiya bürosunun yığıncaqlarında tez-tez ayrı-ayrı əməkdaşların iş yerlərindəki nizam-intizamları ilə bağlı, onların mütəxəssis olmaması, səriştəsizliyi, təcrübəsizliyi ilə bağlı məsələləri müzakirə edir, əlbəttə ki, onların məsuliyyət səviyyəsini yüksəltməyin zəruriliyindən danışırdıq.

**– Belə «araşdırma»lardan sonra əməkdaşı işdən qovmaq halları olurdumu?**

– Əlbəttə, sözsüz. Heydər Əliyeviç belə məsələlərdə çox sərt olurdu. Ancaq heç vaxt birinci dəfə xəta eləyənləri işdən çıxarmazdı. Ona özünü islah etmək, doğrultmaq üçün şans verirdi. Onun üçün ən başlıcası – insanları işə alışdırmaq, onları işləməyə öyrətmək idi».

Bu barədə mənə Azərbaycan KP MK-nın keçmiş katibi Fuad Musayev də danışdı:

«O, insanları müstəqil işləməyə və öz iş sahəsinə cavabdeh olmağa öyrədirdi. Mən respublikadakı tikintilərin hamısına cavabdeh idim, ancaq diqqətimi Sov.İKP MK-nın nəzarətində olan mühüm obyektlərin işə salınmasına yönəldirdim. İstirahət günlərində də ora gedir, nazirləri yığıb iclas keçirir, adamları bir obyektdən o birinə keçirirdim. Bəzən Heydər Əliyev kimdənsə soruşurdu – hansısa obyekt nə vəziyyətdədir? Ona cavab verirdilər ki, obyekt olmayacaq. Mən ona məruzə etməyə gəlirdim. O soruşurdu: «Orada vəziyyət necədir?» Mən cavab verirdim ki, «vəziyyət mürəkkəbdir, ancaq biz çalışırıq». Necə vardısa, hamısını səmimiyyətlə danışırdım. Soruşurdu: «Obyekt olacaq?» Cavab verirdim ki, «olacaq». O, diqqətlə üzümə baxıb dillənmirdi. Mən başa düşmürdüm, onu necə aldatmaq olar? Əgər bu gün onu aldatsam, bəs sabah ona nə cavab verərəm? O çox zəhmli, tələbkar idi. Hamıdan da çox özünə qarşı.

Misal üçün, isti yay günü, gecə saat on bir-on ikidir, biz isə heç cür işdən gedə bilmirik. Çünki o yerindədir, deməli, biz də heç yerə tərpənə bilmərik. «Ağsaqqallar»dan xahiş etdik onu dilə tutsunlar ki, heç olmasa şənbə günü saat 6-7-də bizi buraxsın, biz də çimərliyə



gedib sərinləyə bilək. Yaxşı xatırlamıram, ya Qurban Xəlilov, ya da Kamran Bağırov onun yanına getdilər. O təəccübləndi: «Məgər mən sizi saxlayıram? Nə vaxt istəyirsiniz, gedin». Həqiqətən də çox gərgin işləyirdik, həm də özümüzü gözə soxmurduq. Onun bitib-tükənməyən enerji ilə işləməsi bizə də sirayət eləmişdi. Yadıma düşür ki, mən bir neçə dəfə yayın qızmar çağında temperaturun 50 dərəcəyə çatdığı rayon mədəniyyət saraylarının akt zallarında keçirilən pambıq üzrə zona yığıncaqlarında iştirak etmişəm. Heydər Əliyevin sədrlik etdiyi iclas rayon partiya komitələrinin birinci katiblərinin, rayon icraiyyə komitələri sədrlərinin, nazirlərin və s. iştirakı ilə keçirilirdi. Onun səhərdən gecədən xeyli keçmişədək davam edən bu gərginliyə necə dözdüyünə məəttəl qalırdıq! Rəhbər işçilərin çıxışlarını dinləyir, onların sözünü kəsərək, işin bilicisi kimi sorğu-suala tutur, cavablarını təhlil edərək son nəticəyə istiqamətləndirirdi. Ümumiyyətlə, bizlərdən hər birimiz ayrılıqda, öz sahəmizə cavabdeh olaraq, onunla görüş zamanı tikintidə, sənayedə, sosial sahədəki vəziyyət barədə məruzə edərkən onun bütün bu sahələrə necə dərindən bələd olmasına heyran qalırdıq. İqtisadiyyat məsələlərindən o sanki iqtisadçı-mütəxəssislərdən daha yaxşı baş çıxarırdı.

Yeri gəlmişkən, bu və ya digər sosial obyektin tikintisiylə bağlı bir məsələni də o təkbaşına, Büro üzvləri ilə, memarlarla və digər mütəxəssislərlə müzakirə edib razılaşdırmadan həll etmirdi.

O, Bakının baş planını, Sovet küçəsinin tikilib abadlaşdırılması layihələrini dəfələrlə gözdən keçirirdi. Yadımdadır ki, Gürcüstanda hansısa təntənələrdə iştirak edib qayıdandan sonra o, Kamran Bağırovu və məni çağırıb qədim Tbilisinin yenidən qurulması işlərindən təəssüratlarını danışdı, mütəxəssislərlə birgə ora gedib, görülən işlərlə etraflı tanış olmağı təklif etdi. Biz Tbilisiyə gedib E.Şevardnadze ilə, Gürcüstanın digər rəhbərləri ilə görüşdük, işlərlə tanış olduq. Bakıya qayıdandan sonra İçərişəhərə dair MK qətnaməsini hazırladıq. Heydər Əliyev həmin qətnaməni 1981-ci ildə MK-nın Bürosunda təsdiq etdi».

Heydər Əliyev özü idarəetmənin psixologiyasına dərindən yiyələnmişdi. Ona lazım olanı incəliklərinə qədər bilirdi. Mütəxəssislərdən soruşub dəqiqləşdirməkdən, ömrünün axırınadək öyrənməkdən çəkinmirdi. Kənd təsərrüfatının, maşınqayırmanın, neft sənayesinin problemlərindən yaxşı baş çıxarırdı. Hər şeyin dərinliyinə varırdı.

Həmkarlarının xatırladığına görə, Heydər Əliyev işdə təxminiliyi və başdansovduluğu sevmirdi. Yeri gəlmişkən, xarakterinin bu cəhə-

ti onu Yuri Andropovla yaxınlaşdırdı, doğmalaşdırdı. Görün bir müddət onunla Sov.İKP MK-da işləmiş Fyodor Burlatski Andropov (Y.V. – o, Andropovu belə adlandırır – ***E.A.***) barədə nə yazır:

«Y.V. üçün xırda şey anlayışı yox idi. Onun icra etdiyi hər bir iş nöqsansız, qüsursuz olmalı, axıradək çatdırılmalı və mümkün qədər parlaq olmalı idi. Y.V. yarımçılığı, natamamlığı, səliqəsizliyi və məsuliyyətsizliyin hər hansı təzahürünü sevmirdi. Belə hallarda o hətta qəddar ola bilirdi. Bacarmamısansa, eləyə bilməmisənsə, eybi yoxdur. Ancaq buna səy göstərməmisənsə, çalışmamısansa, bax bunu o heç vaxt bağışlamırdı. Onu da deyim ki, ətrafındakıların hamısı, qorxudan daha çox vicdanlarının səsi ilə işə can yandırırdılar. Necə deyərlər, «gəlin ocağa çəkər». Kiçik istisnalarla Y.V. ətrafına elə adamları yığırdı ki, tələblərinə yüksək səviyyədə cavab verə bilsin»[4].

Qəribədir ki, eyni sözləri, tamamilə Heydər Əliyev və onun komandası haqqında da demək olar. Heydər Əliyevlə təxminən on il işləmiş MK-nın şöbə müdiri Zakir Abdullayevə belə bir sual verdim:

**– Siz ondan nə öyrənmisiniz və bu insanla ünsiyyət sizə nə verib?**

– Mənimlə işləyənlərin çoxusu deyirdi ki, Heydər Əliyeviçdən çox şey öyrəniblər. Nəyi isə avtomatik olaraq götürüblər, nəyi isə şüurlu. Mən isə, onun qədər savadlı və məlumatlı olmaq istəyirdim. O çox şeylə maraqlanır, öyrənir və çox şeyləri dərindən bilirdi, hətta mənim mütəxəssisi olduğum kənd təsərrüfatını da. Onun iş üslubu belə idi. Deyək ki, hansısa memarlıq layihəsinin müzakirəsini keçirməliydik. O, bir neçə gün hazırlaşandan sonra elə çıxış edirdi ki, memarların ağzı açıla qalırdı.

İkincisi. Onun çox gözəl hafizəsi, yaddaşı vardı. O, 20-30 il qabaq baş vermiş ən kiçik bir hadisəni də yaddan çıxarmırdı. Bu məni heyrətə gətirirdi. Mən də belə olmaq istəyirdim. O heç bir qeyd aparmadan, bütün rəqəmləri əzbərdən bilirdi. Bu, xüsusi istedad idi. Dediyin rəqəmi beş ildən sonra sənin yadına sala bilərdi.

Üçüncüsü: tələbkarlığı. İlk növbədə özünə, sonra isə tabeçiliyində olanlara qarşı. Mən həmişə tabeçiliyimdə olanlara deyirdim: «Siz görsəniz ki, mən tənbələm, siz məndən də bədtər ərincək ola bilərsiniz. Görsəniz ki, mən oğru, qulduram, siz də eyni cür ola bilərsiniz. Ancaq görsəniz ki, mən səhərdən axşamadək işləyirəm, çalışıram, işimə can yandırıram, deməli, sizdən də bunu tələb edəcəyəm».



Heydər Əliyeviç işdən axşam saat 10-11-də çıxırdı. Ancaq çox vaxt gecədən xeyli keçmişə qədər də ləngiyirdi. Bəzən aparatdan səhərə yaxın, saat 3-4-də çıxırdıq.

Bu cür iş ahənginə çox adam dözə bilmirdi.

Nizam-intizamlılıq, tələbkarlıq və obyektivlik onun başlıca cəhətləri idi. Əlbəttə, bəzən əhatəsində olanlar onu düzgün məlumatlandırmır, ona təsir edə bilirdilər. Ancaq o, əsasən mümkün qədər obyektiv olmağa çalışırdı.

**– Bəs tabeçiliyində olanlarla necə rəftar edirdi? Onların üstünə qışqırıb söyduyü hallar olurdumu?**

– Səsini qaldıra bilərdi, ancaq söymək... Mən onunla neçə illər bir yerdə işləmişəm, yalnız bircə dəfə eşitmişəm ki, o kimisə əclaf adlandırıb. O, nöqsanları üzə vura bilərdi, ancaq nə rayonlarda keçirilən geniş yığıncaqlarda, nə də məhdud dairədə təhqiredici söz işlətməzdi. Belə hallarda o öz hisslərini cilovlamağı bacarırdı».

«Ümumiyyətlə, Heydər Əliyev çox sərt adam idi, – Turan Hüseynov belə deyir. – Mən çox vaxt danlanandan sonra onun kabinetindən bənizi saralmış çıxan nazirlərə validol içirdirdim».

Bununla bağlı Turan Hüseynov mənə maraqlı bir əhvalat danışdı.

Büronun yığıncağı keçirilirmiş. Adətən yığıncaqlarda iştirak etməyən referent, «birinci»yə Moskvadan vurulan hansısa mühüm telefon zəngi barədə məlumat vermək üçün zala daxil olanda belə bir səhnənin şahidi olur. MK-nın kənd təsərrüfatı üzrə katibi Hacı İbrahimov, rayonlardakı vəziyyət barədə məruzə edirmiş. MK-da işləyənə qədər İbrahimov yeddi-səkkiz il Naxçıvan vilayət partiya komitəsinə rəhbərlik etmişdi. Vicdanla çalışmışdı, həddən artıq düz, çox təmiz insan idi. O dövr üçün çox təəccüblü, heyrətli bir fakt: muxtar vilayətdə işlədiyi neçə illər ərzində «yuxarılara» bir dənə də olsun şikayət, imzasız məktub gəlməmişdi. Ona görə də Heydər Əliyev ona etimad göstərib, kənd təsərrüfatı üzrə MK-nın katibi təyin etmişdi.

Beləliklə, Büronun iclası gedirdi. Hər bir büro üzvünün qarşısında kağızla dolu qalın dəri qovluqlar vardı. İbrahimov deyirdi: «Heydər Əliyeviç, siz indi pambıq tədarükü üzrə rəqəmləri səsləndirdiniz. Bəzi düzəlişlər eləmək istəyirəm: Ucar rayonu o qədər pambıq verə bilməz, ora şoranlıqdır. Zərdab da həmçinin. Onlar güc-bəla ilə 10 min ton verə bilirlər. Onların artıq verməyə gücü çatmaz!» Heydər Əliyev səsini qaldırdı: «Bəsdir! Siz daima partiyanın xəttinə qarşı gedirsiniz!» Bu zaman Kozlov qarşısındakı qovluğu qaldırıb stolun

üstünə çırpdı: «Sən niyə onun üstünə qışqırırsan? O sənin nökərin, əsgərin-zadındır? O MK-nın katibidir!»

«Kozlov heç kimdən qorxub-çəkinmirdi, – deyə Turan Hüseynov xatırlayır. – O, Axundovun dövründə özünü xozeyin kimi aparmağa alışmışdı.

Bu epizod Heydər Əliyev komandasının digər üzvlərinin xatirələrini dolayısı ilə təsdiq edir. Onların dediyinə görə, MK-nın ikinci katibi Sergey Kozlov özünü çox kobud, canişin kimi aparırdı. Özünün fikrini, daha doğrusu, Moskvanın mövqeyini inadla müdafiə edirdi. Axı, ikinci katib prinsip etibarilə kim idi? Birinci katibə nəzarət etmək üçün qoyulmuş adam. Əlbəttə ki, məğrur və müstəqilliyi xoşlayan Heydər Əliyev yanında bu cür ərköyün və şıltaq canişinin olmasına uzun müddət dözə bilməzdi. Bir neçə ildən sonra Kozlov respublikadan yeni bir yerə köçüb getdi, ikinci katib vəzifəsini Yuri Puqaçov tutdu, onunla Heydər Əliyev çox yaxşı yola gedirdi. Ziya Yusifzadənin sözləri ilə desək, Puqaçov «işlək at» idi. Əlbəttə, o da Moskvaya xəbərçilik edirdi, ancaq Heydər Əliyevin təşəbbüslərinə və ideyalarına hörmətlə və başa düşərək yanaşırdı. Çünki onun nə cür əlləşib-vuruşduğunu görüb, özü də dörd adamın yerinə işləyirdi. «Kozlov mürəkkəb adam idi, – İsmayıl Əliyeviç İbrahimov xatırlayır. – Çox vaxt hansısa qərarlardan narazı qalırdı və öz narazılığını da susmaqla bildirirdi. O, çox qapalı, qeyri-səmimi idi. Onlar Heydər Əliyevlə xaraktercə başqa-başqa adamlar idilər.

Puqaçov, əlbəttə, intellekt cəhətdən Kozlovdan zəif idi.

**– Bəs Heydər Əliyevi onlardan hansı təmin edirdi?**

– Nə o, nə də o birisi. Bütün hallarda onlar Moskvanın əlaltısı, adamı idilər. Və Heydər Əliyev bilirdi ki, onlara lazım olan hər şeyi Moskvaya məruzə edirlər».

*2002-ci ildə V.Semiçastnının «Narahat ürək» adlı xatirələr-memuarlar kitabı nəşr olundu. Həmin kitabda müəllif Azərbaycanda ikinci katib kimi çalışdığı qısa zaman barədə çoxlu maraqlı əhvalatlar danışırdı. Onun lovğalıqla deyilmiş bəyanatı nəyə desən dəyər: «Mən belə bir qayda qoymuşdum: «partiya MK-sının heç bir qərarı mənim dərkənarım olmadan keçmirdi. Hətta əgər V.Axundov imzalasa belə...»*[*]

[*] Burada və bundan sonra gətirilən sitatlar N.Zenkoviçin «Heydər Əliyev. Taleyin dönərgələri» kitabındandır.



*Respublikada olduğu iki-üç il ərzində Semiçastnı Azərbaycan dilində bir neçə söz belə öyrənmədi. «Nəyimə gərəkdir? – deyə o, respublikanın 40 illiyi münasibətilə Bakıya gələn N.Xruşşova demişdi. – İki ildən sonra mənə deyəcəksiniz ki, Özbəkistana get. Onda da özbək dilini öyrənəcəyəm?» O sakinlərlə də yerli tərcüməçi vasitəsilə ünsiyyətə girirdi. Opera teatrında muğam konsertində olanda isə MK-nın ideologiya üzrə katibi Nazim Hacıyevi danlamışdı: «Opera teatrını otlaqla dəyişik salmaq olmaz!» Nədənsə Semiçastnı özünə təlqin etmişdi ki, muğam – sadə kütlənin mal-qaranı otararkən, nəşə çəkib oxuduğu musiqidir. «Oradakıların hamısı narkomandır, – deyə Semiçastnı özünü itirmiş MK katibinin üstünə qışqırdı. – Bu ah-zar, zarıltı və s.-ni eşidirsən?»*

*Rus yazıçısı N.Zenkoviç Heydər Əliyev barədə bioqrafik kitabında haqlı olaraq qeyd edir: «Moskvanın göndərdiyi adamlar nə diplomatiyaları, nə çevikilikləri, nə də ümumi dil tapa bilmək, yola gedə bilmək bacarıqları ilə seçilmirdilər. İncikliklər, narazılıqlar yığışıb, kritik həddə çatdı və Qorbaçov «yenidənqurma»sında partladı»*[5].

*N.Leonovun «Fəlakət və hərc-mərclik dövrü» kitabında (rus dilində bu kitab «Lixoletye» adlanır) müttəfiq respublikaların kommunist partiyaları MK-larının ikinci katib institutları barədə maraqlı bir fikir yürüdülür: «Stalinin ölümündən sonra respublikalardakı hakimiyyətlərin müstəqillikləri durmadan artırdı, müttəfiq respublikaların kommunist partiyalarının rəhbərləri Moskva ilə özünəməxsus münasibətlərdə, asılı vəziyyətdə olsalar da, tədricən qüdrətli, milli liderlərə çevrilirdilər.*

*Lakin bütün bu milli-dövlət elitasının formalaşması prosesi gizli gedirdi, onun haqqında ucadan danışmırdılar, çünki bu, milli məsələnin həllinin reklam olunan konsepsiyasına daxil edilmirdi. Milli kommunist partiyaların mərkəzi komitələrinin ikinci katibləri formal olaraq rus olsalar da, bu, rus nəzarəti barədə danışıqların getməsinə əsas versə də, əslində ikinci katiblər elə ikinci dərəcəli rola malik olaraq qalırdılar. Onlar ya yerli elitaya qaynayıb-qarışır, ya da sadəcə olaraq əsil rəhbərlər onlara məhəl qoymur, saymırdılar. Adətən onlar ümumdövlət maraqlarını güdməkdən daha çox siyasi büronun üzvləri və ya üzvlüyə namizədlər olmaqla istənilən halda baş katibə birbaşa çıxışları olan öz «birinci şəxs»lərini narazı salmamağa çalışan sıravi partiya kadrları idilər. Bütün bu adi, cılız «mərkəz təmsilçiləri» respublikaların kommunist partiyalarının tarixində kölgə kimi bir-birini əvəzləyərək dövlətçilik tarixində kiçik bir iz də qoymadan çıxıb gedirdilər»*[6].

*Allaha şükür ki, onlar çar Rusiyası dövründə Rusiyanın əyalətlərini «parçala, hökm sür» metodu ilə idarə edən sələfləri kimi Kremlin qəddar, dikbaş, təkəbbürlü canişini deyildilər. Bəlkə də onlar «dövlətçilik tarixində kiçicik bir iz də» qoyub getmədilər, ancaq onların hamısını «praktiki cəhətdən fəal olmamaqda» təqsirləndirmək ədalətsizlik olardı. Məsələn, Puqaçov barədə hamı hədsiz işgüzar, zəhmətkeş adam kimi danışır. O, Azərbaycanın iqtisadiyyatının və kənd təsərrüfatının inkişafı üçün bir çox məsələlərin həllində böyük köməklik göstərmişdi. Bəli, o, Azərbaycan üçün işləyirdi, ancaq bu zaman düşünürdü ki, bütün SSRİ-nin qüdrəti və rifahı üçün çalışır. Çünki bu, vahid unitar dövlət idi, onun dağılacağını heç kim ağlına belə gətirməyə cürət etməzdi.*

*N.Zenkoviçin sözlərinə görə, Heydər Əliyevin dövründə ikinci katiblər də «respublikanın milli rəhbərliyinə təsir etməyə (təzyiq göstərməyə) çalışırdılar. Ancaq Heydər Əliyeviçlə əlbəttə ki, bu nömrə keçməzdi. O elə biçimli adam deyildi ki, ona kimsə təzyiq göstərə bilsin. Ancaq Moskvanın göndərdikləri ilə də, başqa respublikalarda olduğu kimi, konfliktə girmirdi. Milli maraqlardan çıxış edərək, ümumittifaq maraqlarından da yan keçmədən onlarla xoş, dostluq münasibətləri saxlaya bilirdi. Bu, onun mükəmməl şəkildə sahib olduğu zərgər dəqiqliyi ilə işlənmiş incə sənət idi»*[7].

Heydər Əliyev komandasının digər bir üzvünün onun rəhbərliyinin sərt qaydalarına qarşı açıqca etiraz etməsi ilə bağlı maraqlı səhnələr barədə mənə MK-nın keçmiş şöbə müdiri Zakir Abdullayev danışdı. Heydər Əliyevin məddahlarının tənqidini öncədən duyaraq, qeyd etmək istəyirəm ki, bu cür epizodlar bu qeyri-adi şəxsiyyətin xatirəsinə zərrə qədər də olsa xələl gətirmir. Əksinə, onlar Heydər Əliyevin canlı insani xüsusiyyətlərini açmaqla bərabər, birinci katibin üzünə öz narazılıqlarını açıq deməkdən çəkinməyən iş yoldaşlarını da gözümüzdə ucaldır.

## Rasizadənin «qiyam»ı

«Adətən MK Bürosunun aparılması qaydası belə idi: ya şöbə müdiri, ya da onun müavini müzakirə olunacaq məsələ barədə məlumat verirdi. Sonra məsələsi gündəliyə çıxarılan şəxs tribunaya çağırılırdı. Bundan sonra isə Büro üzvləri – müzakirəyə çıxarılan sahə üzrə katiblər, nazirlər, ümumiyyətlə, rəy söyləmək istəyən hər



kəs çıxış edirdi. Sonda isə Heydər Əliyeviç müzakirəyə yekun vurardı.

Əlbəttə, ciddi, mühüm məsələyə o çox diqqətlə yanaşırdı. Əslində onun üçün mühüm olmayan məsələ yox idi. Odur ki, Büro iclasları çox gərgin keçir, fasiləsiz 6-7 saat çəkirdi. Onun nüfuzu, zəhmi hamını təzyiq altında, gərginlik içərisində saxlayırdı. Yadıma gəlmir ki, kimsə onun sözünün üstündən söz desin. Yalnız bir dəfə Nazirlər Soveti sədrinin kənd təsərrüfatı üzrə müavini Şamil Əliyeviç Rasizadə hamının yanında nümayişkəranə şəkildə kağızları tullayıb onun üzünə qayıtdı:

– Sən bu adamlardan nə istəyirsən?

Onda Heydər Əliyev kənd təsərrüfatı üzrə işləri və onun özünü kəskin tənqid etmişdi. Bəlkə də Heydər Əliyev ifrata varmışdı, ona görə də Rasizadənin səbri tükənmiş, özünü saxlaya bilməmişdi. Rasizadə deyirdi ki, insanlar gecə-gündüz bilmədən canı-dildən işləyirlər, o isə bunu qiymətləndirmir, onlara qarşı haqsızlıq edir. Özü də Rasizadə Heydər Əliyevə «sən» deyə müraciət edirdi. O, uzun müddət, odlu-alovlu, yanında oturanlar onu sakitləşdirənədək danışdı. O kiriyəndən sonra Heydər Əliyeviç onun «qabırğasına döşədi». Hamı düşündü ki, vəssalam, Rasizadənin «kitabı bağlandı». Ancaq Heydər Əliyeviç bu hərəkətinə baxmayaraq, ona toxunmadı. Hər necə olsa da, onlar çox yaxın idilər».

Məncə, Heydər Əliyev Şamil Rasizadənin bu qiyamını təkcə yaxın münasibətdə olduqlarına görə bağışlamayıb. Onun elə adamlardan xoşu gəlirdi ki, fikrini ürəyində gizlətməyib, onun özü və siyasəti barədə düşündüklərini cəsarətlə üzünə desinlər. Hətta onlar ürəkaçan sözlər deməsələr belə. Əsas odur ki, yerində, həm də vaxtında danışılsın. Daha ciddi əyintilərə yol verdiyinə görə işdən çıxarılanda yox. Bir qədər sonra biz bu mövzuya MK-nın birinci katibi ilə keçmiş respublika prokuroru Qamboy Məmmədov arasındakı qarşıdurmadan bəhs edən fəsildə qayıdacağıq.

Heydər Əliyev komandasının üzvlərindən biri də Cahangir İldırımzadə idi. 1973-cü ildə o, Dövlət Nəşriyyat Komitəsinin sədri seçilmişdi, 1976-cı ildən 1981-ci iledək isə MK aparatında təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsində işləmişdi. Naturası etibarilə o, çox tərs, inadcıl adam idi, bəzən «birinci»yə irad tutmağa və

hətta hansısa məsələdə ona etiraz etməyə də cürət tapırdı. Mənimlə söhbəti zamanı Cahangir müəllim maraqlı bir əhvalat danışdı:

«Əlbəttə ki, iş vaxtı hər şey ola bilər: çox nadir hallarda olsa da, Heydər Əliyev səsini qaldırır, bu və ya digər aparat işçisinin sözünü ağzında qoyurdu. Ancaq bu zaman o söyüş söymәz, nalayiq sözlər işlətməz, insanları təhqir edib alçaltmazdı. Bəli, onun çox sərt tələbləri vardı. Ancaq bu tələblər həmişə ədalətli olurdu. Aparatda işləyənlərin hamısı gərginlik içində olur, məsuliyyət hiss edirdilər. Çox tez-tez də olmasa, bəzən belə hallar olurdu: dar çərçivədə keçirilən yığıncaqların birində Heydər Əliyev mənim birinci müavinim Zahid Hüseynzadəyə* səsini qaldırmışdı. Mən dərhal sezdim ki, Zahidin əhvalı dəyişdi, onunla bu tərzdə rəftar olunmasına o adət etməmişdi. İki gündən sonra Heydər Əliyeviçin kabinetində yığıncaq başa çatanda, bütün katiblər çıxıb getdilər, mən isə onun yanında oturub dedim:

– Heydər Əliyeviç, elə adamlar var ki, onlarla belə kəskin danışmaq olmaz.

Kimi nəzərdə tutduğumu o dərhal başa düşdü və hirsləndi:

– Qulaq as, sən mənə öz işçilərimlə necə danışmağı öyrədəcəksən? Yox, de görüm, sən mənə çox öyüd-nəsihət verəcəksən?

– Heydər Əliyeviç, mən sadəcə demək istəyirəm ki, bu adamla elə rəftar etmək olmazdı.

– Yaxşı, gedə bilərsən.

Qısası, mənim iradım onun xoşuna gəlməmişdi.

1981-ci ildə partiya qurultayında məni təbliğat-təşviqat şöbəsinin müdiri vəzifəsindən azad etdilər. Qurultayın gedişində fasilə vaxtı mən dostum İlham Nuru oğlu Quliyevə (o vaxtlar o, MK-da işləyirdi) zəng vurub dedim ki, Heydər Əliyev belə qərar verib. O isə cavab verdi: «Lap düz eləyib, sən onun zəhləsini tökmüşdün.

* 50-60-cı illərdə Z.Hüseynzadə XİN-də işləmişdi—əvvəlcə Misirdəki sovet səfirliyində müşavir, sonra isə SSRİ-nin İstanbulda Baş konsulu vəzifəsində. Böyük nüfuza malik idi. O, Heydər Əliyevin bir sıra tapşırıqlarını yerinə yetirmiş, bununla da ona 2-ci şöbənin müdiri, eləcə də DTK-nın sədr müavini işləyərkən çox kömək etmişdi. Misirdə, Camal Əbdül Nasirin vaxtında mancəsiz olaraq onun yanına getmək səlahiyyəti vardı. C.Ə.Nasir A.Qromıkodan xahiş etmişdi ki, Misirə aid bütün məsələləri səfirdən yan keçərək Z.Hüseynzadə vasitəsilə həll etsin. Diplomatiya təcrübəsində belə şeylər az-az olur.



Mən dəfələrlə onun səninlə söhbətlərinin şahidi olmuşdum. Sən çox vaxt ona etiraz edir, irad tuturdun. Bu kimin xoşuna gələr?»

Mən, əlbəttə ki, öyüd, nəsihət vermirdim, sadəcə olaraq, bəzi dəqiqləşmələr aparırdım. Görürdüm ki, bəzən bu onun ürəyincə olmur. Ancaq mən axı bunları işin xatirinə edirdim. Əgər uzun illər mənə dözüb, mənimlə hesablaşırdısa, prinsip etibarilə yəqin ki, o mənim haqlı olduğumu başa düşürdü.

Məsələn, 1977-ci ildə o kadrların kasadlığından şikayətlənəndə mən ona etiraz etdim:

– Necə yəni kadr yoxdur. Nə qədər desəniz!

– Kimdir onlar?

– Ramiz Tanverdiyev, hazır kadrdır, bizdə instruktor işləyir, – Heydər Əliyev dinləyir, mənsə söhbətimə davam edirdim. – Nəriman Məmmədov – bizim instruktordur. Tələt Qasımov – o da instruktordur. Məgər onlar şöbə müdirlərinin müavini ola bilməzlər?

Elə həmin gün Heydər Əliyev onların üçünün də vəzifəsini yüksəltdi. Ramiz Tanverdiyev onun köməkçisi oldu, Nəriman Məmmədovu mədəniyyət şöbəsi müdirinin müavini, Tələt Qasımovu isə elm şöbəsində səhiyyə bölməsinin müdiri vəzifəsinə təyin etdi (sonralar Tələt Qasımov səhiyyə naziri oldu)».

«Literaturnaya qazeta»nın keçmiş xüsusi müxbiri Emil Ağayevin sözlərinə görə, «rəhmətlik prezident bilə-bilə ətrafına yaltaqları yığmırdı (onlar həşərat kimi istənilən deşiyə girirlər!). O, hörmət etdiyi adamlarla, Şəxsiyyət olan insanlarla hesablaşırdı. O, heç vaxt Dəyişməz və Qəti qərarını başqasına dərhal qəbul etdirmirdi... Belə ki, o insanları dinləməyi bacarırdı, hətta o kəslərə də səbrlə qulaq asırdı ki, onlar ona məlum olan şeylərdən və yaxud səfeh şeylərdən danışırlar. Mən özüm dəfələrlə bunun şahidi olmuşam – yazıçıların qurultayında da, respublikanın rayonlarına səfərə çıxanda da.

...Bəzilərinin düşündüyü kimi, Heydər Əliyev ona etiraz edənlərə yox, qorxaqlara, rəzillərə, gözünün içinə dik baxa bilməyənlərə, onun baxışlarına dözə bilməyənlərə, onu görəndə özünü itirib, söz tapa bilməyənlərə ikrah hissi ilə yanaşırdı».

Bu barədə MK-nın keçmiş katibi Fuad Musayev də mənimlə söhbətində xatırladı: «O, qarşısında quyruq bulayanları, ən çox da qeyri-səmimi olanları sevmirdi. Misal üçün, mənim barəmdə o bilirdi ki, mən bu və ya başqa formada öz sözümü deyəcəyəm. O, sözünü şax deyən insanları sevirdi. Yaltaqları xoşlamırdı. Əgər nə isə xoşuna gəlmirsə, yaxşı olar ki, dərhal deyəsən».

Azərbaycan KP MK-nın keçmiş katibi Həsən Həsənov Heydər Əliyevin kadr siyasətinin xüsusiyyətləri barədə öz fikirlərini mənimlə bölüşdü:

«Məlumdur ki, SSRİ-də uzun müddət «kadrlar hər şeyi həll edir» devizi qüvvədə idi. Bu şüara Heydər Əliyevin daxil etdiyi əsas xüsusiyyət ondan ibarət idi ki, əgər bunun üçün ümumi sağlam əxlaqi-siyasi atmosfer yaradılmayıbsa, heç də kadrlar hər şeyi həll edə bilməz. Həm də bu, məhdud çərçivədə ayrıca bir rayonda və ya şəhərdə mümkün deyil. Ona görə də o, öz tərəfindən hər şeyi edirdi ki, bütünlüklə respublikada əxlaqi-siyasi vəziyyət kadrların yerlərdə uğurlu fəaliyyətinə imkan yaratsın. Bundan əlavə, onun kadrlara münasibəti çoxcəhətli idi. Bir tərəfdən o, bütün işçilərə onların əxlaqi-mənəvi xüsusiyyətləri nöqteyi-nəzərindən eyni tələbkarlıqla yanaşırdı, digər tərəfdən – onların bu və ya digər vəzifəyə uyğun olub-olmamasını dəyərləndirirdi. O, məsul vəzifəyə irəli çəkilən, təklif edilən bər hansı namizəd barədə öz rəyi olmasına çalışırdı. Heydər Əliyev qayda-qanun qoyurdu, ancaq onları ehkamlaşdırmırdı. Çox vaxt o, əməkdaşların nəyə qabil olduğunu onların özlərindən yaxşı bilirdi, onların müxtəlif şəraitlərdə fəaliyyətlərini diqqətlə izləyir və yalnız işin nəticələrinə görə qiymətləndirirdi. Ölçülər, meyarlar çox idi, ancaq əsas kriteriya əxlaqi-siyasi keyfiyyətlər idi...

1981-ci ilin yanvarında Heydər Əliyev məni Azərbaycan Kommunist Partiyası MK-sına katib vəzifəsinə təklif etdi. O dövrün protokol qaydalarına görə seçkiyə qədər Moskvada yüksək səviyyədə müsahibədən keçmək lazım idi. Siyasi Büronun üzvü, Sov.İKP MK-nın katibi, faktiki olaraq partiyada ikinci adam olan Mixail Suslov mənim bioqrafiyamla tanış olandan sonra (onun yanında olduğum 30 dəqiqənin 15 dəqiqəsini o mənim tərcümeyi-halımı oxuyaraq şərh etməyə sərf elədi), eynəyini çıxarıb dedi: «Hə! Heydər Əliyev sizi bu vəzifəyə çoxdan hazırlayırmış». Həqiqətən də, sanki Heydər Əliyev mənimlə eyni nəslin nümayəndələrindən bir çoxunun xidməti karyerasını, yalnız özünə məlum olan kodla proqramlaşdırırdı. Hamıya eyni cür başlanğıc şansı, bərabər imkanlar yaradılırdı. Lakin eyni zamanda hər şey həmin adamın öz üzərində daim işləməsindən, özünü təkmilləşdirmə bacarığından, özünü göstərmək cəhdlərindən asılı idi. Bir də: Heydər Əliyev kadrları səmimi, təbii görməyə üstünlük verirdi, o süniliyi, davranışdakı qeyri-səmimiliyi xoşlamırdı.



Bir dəfə o mənə dedi: «Nədənsə yanıma müsahibəyə gələnlərin hamısı eyni cürdürlər, bir-birinə oxşayırlar». – «Bu yaxşıdır, ya pis?» – deyə mən soruşdum. «Bu nə yaxşıdır, nə də pis. Sadəcə olaraq onlar özlərini bu cür buxovlanmış, müti aparmasalar yaxşıdır. Mən onları əslində necədirlərsə, o cür görmək istəyirəm, daha mənimlə görüşə xüsusi olaraq hazırlandıqları kimi yox».

Həsən Seyidov Heydər Əliyevin kadrlarla bağlı Moskvadan ehtiyatlanmadan müstəqil qərar çıxardığını sübut edən əyani bir epizod danışdı. Lazım gələndə o, öz nüfuzu ilə Sov.İKP MK-nın rəyinə üstün gələ bilirdi. Bir də ki, o, təzyiqi xoşlamırdı.

«Belə bir qayda qoyulmuşdu – hamilik edən katib sahə rəhbərliyinə namizədləri irəli sürürdü, sonra «dördlük» yığışırdı və məsələ Büroya çıxarılırdı. Mən beş şöbəyə nəzarət edirdim: sənaye, nəqliyyat, tikinti, «B» qrupu obyektlərinə – yüngül və yeyinti sənayelərinə.

Bir dəfə Sov.İKP MK-nın yüngül sənaye üzrə şöbə müdirinin müavini Moskvadan gəlmişdi. O, Azərbaycanın yeyinti sənayesi naziri vəzifəsinə bizim təyin etmək istədiyimiz adamı yox, tamam başqa adamın namizədliyini irəli sürürdü. O, bu məsələ ilə bağlı ikinci katib Sergey Vasilyeviç Kozlovun yanında olur və sonra onlar birlikdə «birinci»nin yanına gedirlər. Mən artıq onların təklif etmək istədikləri adam barədə Heydər Əliyeviçi məlumatlandırmışdım. Heydər Əliyev onları dinləyəndən sonra dedi:

– Sergey Vasilyeviç, siz bilirsiniz ki, bizdə qayda-qanun necədir? Zəmanəti hamilik edən katib təqdim edir.

Təsəvvür edin ki, **bunu** ikinci katibə deyirdi.

– Siz Seyidovla danışmısınız?

– Xeyr.

– Qabaqca onunla müzakirə edin, ondan sonra birlikdə görüşüb danışarıq.

Moskvalı yanıma gəldi, mən artıq özümü onun bizim irəli sürdüyümüz namizədi tənqid edəcəyinə, özününkünü tərifləyəcəyinə hazırlamışdım. O, həmin adamın respublikanın Yeyinti Sənayesi Nazirliyinin kollegiyasındakı çıxışları, kollegiyanın qərarları və s. olan qovluqları özü ilə gətirmişdi. Onların tövsiyə etdikləri adam yeyinti sənayesi nazirinin müavini idi. Bizim namizədimiz də nazir müavini idi. Moskvalı onların çıxışlarını müqayisə edirdi. Mən onu dinləyib öz fikrimi dedim. O, əlbəttə ki, narazı qalıb getdi. Mən başa düş-

düm ki, Kozlov da, moskvalı da məndən inciyiblər. Buna baxmayaraq öz namizədimizi – Kamil Məmmədovu yeyinti sənayesi naziri vəzifəsinə təsdiq etdik».

Əlbəttə ki, kadr məsələsinin həllində bu cür müstəqilliyə Azərbaycan KP MK-nın birinci katibi heç də asanlıqla nail olmamışdı. O, «Köhnə Meydan»*ın kabinetlərində bu və ya digər namizədlərin irəli sürülməsi və sonsuz razılaşmalar ənənəsini çox böyük çətinliklə qıra bilmişdi. Deyək ki, Sov.İKP MK-da Zaqafqaziya üzrə təşkilat şöbəsinin sektor müdiri vəzifəsi vardı. 1969-cu ilədək bu vəzifəni tutan adam praktiki olaraq respublikanı idarə edirdi. Hər halda onun rəyi, demək olar ki, respublika rəhbərləri üçün qanun idi.

70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Azərbaycan KP MK-nın şöbə müdiri işləmiş Ramiz Mehdiyev mənimlə şəxsi söhbətində bunları danışdı:

«Heydər Əliyev tez-tez bizə deyirdi: «Niyə axı biz bər hansı kadr məsələsini sektor müdiri ilə razılaşdırmalıyıq? Kimin harada öz vəzifəsinin öhdəsindən daha yaxşı gələ biləcəyi bizə respublikada daha yaxşı məlumdur». Sektor müdiri Moskvadan telefonla zəng vuraraq qətiyyətlə deyə bilərdi: «Mən belə hesab edirəm ki, bu və ya digər vəzifəyə filankəsi irəli çəkmək lazımdır». Ona cavab verirlər ki: «Biz artıq bu məsələni kollegial şəkildə Büroda müzakirə edib, qərar çıxarmışıq». – «Yox, Sov.İKP MK başqa cür hesab edir. Öz qərarınızı dəyişin!»

Heydər Əliyev milli kadrların təyinatının Moskvanın iradəsi ilə həll olunması ənənəsini qırmaq üçün uzun müddət və inadla mübarizə apardı. Respublika rəhbərliyi ilə Sov.İKP MK-nın təşkilat şöbəsi arasında qarşıdurma bir vaxt elə gərgin həddə çatdı ki, Heydər Əliyev partiyanın rəhbərliyinə müraciət etməli oldu və həmin sektor müdirini işdən azad etdilər. Onun soyadını təəssüf ki, xatırlamıram. Yadımdadır ki, onu sonralar SSRİ Xalq Nəzarəti Komitəsinə işə göndərdilər.

Bu hadisə Mərkəzdə bir çoxlarını ayıltdı. Moskvada başa düşdülər ki, Heydər Əliyev elə rəhbərlərdən deyil ki, onun rəyilə hesablaşmayasan və ona nəyisə diktə edəsən. Bir sözlə, münasibət tədricən dəyişməyə başladı. Xüsusilə də respublika dirçəlib möhkəmlənəndən, öz nailiyyətləri ilə bütün ölkədə şöhrətlənəndən sonra.

* Sov.İKP MK-nın yerləşdiyi binalar «Köhnə meydan» (Старая площадь) adlanan küçədə yerləşirdi.



Bundan sonra, Heydər Əliyevin vaxtında Sov.İKP MK-dan kim gəlirdisə, kim Azərbaycana mərkəzdən hamilik edirdisə, respublika rəhbərliyinə münasibətdə çox hörmətlə danışır, müvafiq dövlət strukturları ilə ədəblə, nəzakətlə, təzyiqsiz, sıxışdırmaya yol vermədən əməkdaşlıq etməyə çalışırdı».

Həsən Neymət oğlu Seyidov Heydər Əliyevin hər hansı ittifaq rəhbərinin Azərbaycana gəlişinə necə hazırlaşdığı və onun bu gəlişlərə necə nəzarət etdiyindən maraqlı təfərrüatlar danışdı:

«Deyək ki, nazir və ya Dövlət Plan Komitəsinin işçisi gəlməmişdən biz Heydər Əliyeviçə həmin rəhbərin nəzarətində olan müəssisələr, onların buraxdığı məhsullar, onların həcmi barədə material hazırlayır, başqa sözlə, onun iş sahəsi barədə tam arayış verirdik. Bundan əlavə, Nazirlər Soveti, Dövlət Plan Komitəsi və s. qarşısında qoyacağımız məsələləri dəqiqləşdirirdik.

Bir xarakterik cəhət var idi. Artıq deyək ki, hansısa qonağın gəlişi məlumdur. Müəyyən olunurdu ki, ona Bakıda kim xidmət edəcək – MK, Nazirlər Soveti və ya Dövlət Plan Komitəsi. Bu adamlar qonağı qarşılayıb müşayiət edirlər. Aeroportdan mütləq «birinci»yə zəng vururlar:

– Heydər Əliyeviç, filankəs gəlib çıxdı.

Sonra qonaq evinə gəlib, oradan da zəng vururlar. Gəlişləri haqda, sonrakı proqram barədə məruzə edirlər: hansısa obyektə gedirik. Nahara qədər, deyək ki, müəssisələri gəzəcəyik. Nahardan sonra yenə də MK-ya zəng vurub, ətraflı hesabat verirlər: «Heydər Əliyeviç, filan müəssisələrdə olmuşuq. O, filan məsələlər irəli sürür, onun filan fikri var».

Başqa sözlə, Heydər Əliyev, hər an həmin adamla görüşə hazır olurdu.

Sonuncu gün biz birlikdə şam yeməyi yeyirdik. Qabaqcadan şam yeməyində iştirak edənlərin siyahısı tutulurdu. Hər şey dəqiqliklə ölçülüb-biçilirdi.

Aeroportda vidalaşan vaxt Heydər Əliyev qonağa Bakıya gəlişi ilə bağlı fotoalbom hədiyyə edirdi. Bu onun əsasını qoyduğu özünəməxsus ənənə idi. Mən həmişə deyirdim ki, Heydər Əliyeviç riyaziyyat kitabına bənzəyir: əvvəldə suallardır, sonda isə cavablar.

**– Bu metod sizə nə verirdi?**

– Biz hər bir sualı əməlli-başlı işləyib hazırlamağa alışırdıq. Bundan başqa, həmin rəhbərlərin Bakıya gəlişi zamanı respublikanın bir çox problemlərini həll etməyə nail olurduq».

Respublikaya yüksək səviyyəli rəhbər – nazir, dövlət komitəsi sədri, MK-ya şöbə müdirləri təyin edilən zaman qarşıya çıxan çox ciddi problemlərdən biri anonim, imzasız məktublar idi. O vaxtlar hər hansı imzasız məktublara yerlərdə diqqətlə yanaşırdılar, həmin anonim məktublar istənilən adamın, hətta ən təmiz və ləkəsiz rəhbərin belə həyatını korlaya bilərdi. İmzasız məktublar barədə hekayələr və felyetonlar yazırdılar. Stalin dövründən qalmış bu çirkin miras teatr tamaşalarında və kinofilmlərdə tənqidə məruz qalırdı. Buna baxmayaraq onlara yenə də əhəmiyyət verir, nəzərə alırdılar. Komissiyalar yaradır, yoxlamalar göndərirdilər. Prinsip etibarilə anonim məktublar ən müxtəlif səviyyədə olan rəhbərləri – müttəfiq respublikanın nazirindən tutmuş MK-nın və ya vilayət partiya komitəsinin birinci katibinədək hamını nəzarətdə saxlamağa imkan verən rahat metod idi. Xüsusilə də bu rəhbərlər həddən artıq sərbəst, müstəqildirlərsə.

1984-cü ildən 1989-cu ilədək «İzvestiya» qəzetinin baş redaktoru vəzifəsində işləmiş İvan Laptev yazır: «Hər şeydən çox onunla fəxr edirəm ki, məhz bizim qəzet şər və böhtanlarla dolu anonim məktublara son qoydu. Milyonlarla həmvətənimizin həyatı anonim məktublarla şikəst edilir, qırılırdı. İl ərzində aldığımız 500-600 min məktubdan on minlərləsi imzasız olurdu. Onlara da adi məktublar kimi yanaşmağa məcbur olurduq. Polyanovskinin «İmzasız məktubdan sonra» adlı məqaləsindən başlayaraq «İzvestiya» daha on dəfə çıxış etdi. Məsələ üç dəfə Sov.İKP MK-nın Siyasi Bürosuna çıxarıldı. Axır ki, biz istədiyimizə nail olduq – ən yüksək «mərtəbənin» xüsusi qərarıyla imzasız məktublar qanunsuz elan edildi»[8].

*Nazim İbrahimov bununla bağlı 70-ci illərin əvvəllərinə aid olan maraqlı əhvalatı yada saldı.*

*«1973-cü ildə Oktyabr rayonunun inkişafı ilə bağlı yaxşı bir söhbətimiz oldu. O, heç vaxt heç kimi tərifləmirdi. Sadəcə soruşurdu:*

*– Gələcək fəaliyyətin üçün sənə nə lazımdır? Sən indi diqqətini nəyə yönəltmisən?*

*Başqa sözlə, sən işində artıq hansısa səviyyəyə çatmısan, bəs sonra?*

*Söhbətimizin sonunda Heydər Əliyev soruşdu:*

*– Yaxşı, İbrahimov, de görüm səni nə düşündürür, narahat edir?*

*– Heydər Əliyeviç, prinsipcə heç bir şey. Ancaq bilirsiniz, mənim 37 yaşım var, mən heç vaxt imzasız məktublarla, böhtan, şər, iftira ilə üzləşməmişəm. İndi isə haqqımda cürbəcür iyrənc şeylər yazırlar.*



*Heydər Əliyevin stolunun üstündə böyük kağız qalağı vardı. O, əlini həmin kağızların üstünə qoyub soruşdu:*

*– Bilirsən bu nədir? Sənin haqqında materiallardır.*

*Deməli, o mənimlə söhbətə hazırlaşarkən, bütün bu imzasız məktubları əlinin altında cəmləşdirmişdi.*

*– Bunlar sənin haqqında materiallardır, – deyə birinci katib təkrar etdi. – Ancaq bir şeyi yadında saxla: indi Leonid İliç Brejnev haqqında da yazırlar, mənə də böhtanlar atırlar, sənə də, bir sözlə, hamıdan yazırlar. Təəssüf ki, bu, həyatımızın reallığıdır. Bir şeyi unutma – yazacaqlar, buna əmin ola bilərsən. Ancaq özünü elə apar ki, yazılanlar özünü doğrultmasın, təsdiqini tapmasın. Bax, sənin başlıca vəzifən budur. Onda sən rahat yata bilərsən».*

Çox vaxt belə olurdu: Heydər Əliyev növbəti kadr məsələsini həll etməyə macal tapmamış, bundan «inciyən» məmurlar Moskvaya anonim məktublar göndərirdilər. O vaxtlar hər bir namizədi Sov.İKP MK-nın şöbəsi və ya katibliyi, müvafiq ittifaq nazirliyi və ya idarəsi ilə razılaşdırmaq lazım gəlirdi. Bir sözlə, bir çox sədləri keçməli idin, imzasız məktublar da bir yandan. Çox vaxt paytaxta vəzifəyə təsdiq olunmaq üçün gedənləri, müvafiq instansiyalara yorulmaz anonimçilər tərəfindən operativ şəkildə çatdırılmış külli miqdarda «ifşaedici» materiallar qabaqlayırdı. Başqa sözlə, Moskvadakı təkzibedilməz nüfuzuna baxmayaraq, kadr məsələsində Heydər Əliyev yerli anonimçilərlə moskvalı bürokratlar arasında odla su arasında qalmış kimi olurdu.

Buna görə də, bədxahlarını qabaqlamaq üçün MK-nın birinci katibi bəzən qeyri-adi metodlara əl atırdı. Onlardan biri – demək olar ki, detektiv süjetlisi haqda mənə Dövlətməşrkomun keçmiş sədri Nazim İbrahimov danışdı. 1980-ci ilin avqustunda o ailəsi ilə Soçidə dincəlirmiş, qəflətən onu təcili olaraq Bakıya «birinci»nin yanına çağırırlar.

«Mən Heydər Əliyeviçin kabinetinə daxil oldum. O qabaqca mənə heç bir söz demədi. Məni kitab rəflərinin yanına çəkib, yeni nəşrləri göstərməyə, onlar haqqında rəyimi soruşmağa başladı. Sonra isə dedi:

– Bilirsən, on illik fəaliyyətim ərzində mən çox iş görmüşəm – kənd təsərrüfatında da, sənaye sahəsində də. Elə şeylər var ki, çatdıra bilməmişəm. Ancaq bir sahə var ki, mən heç bir şey eləyə bilməmişəm. Bu, kitab nəşridir. Birini çıxarıb, digərini təyin etmişəm,

yenə də heç bir şey alınmayıb. Bu sahə ağ ləkə kimidir. İndi bu inşaatçı (Marat Allahverdiyev – *E.A.*) yerində sayır. İşləri qarışdırıb, kollektivdə çəkişmələr, dedi-qodular, konfliktlər yaradıb. Moskva qarşısında utanıram, biz bu sahədə həmişə quyruqda sürünürük. Sən şəhərlisən, böyük bir rayona rəhbərlik etmisən, elmlə, istehsalatla məşğul olmusan. Odur ki, mən fikirləşdim: bəlkə sən bu sahədə nə isə eləyə bilərsən?

– Heydər Əliyeviç, birdən alınmadı?

– Mənə elə gəlir ki, alınacaq. Çalış! Sən anadan raykom katibi doğulmamışdın ki, ancaq sonra oldun. Bu çox mürəkkəb, incə işdir, ancaq sən bu işə bir alim kimi, elm adamı kimi yanaş. Gəl, elə bunun üzərində dayanaq.

Söhbəti başa vurduq. Xudahafizləşəndə o qəflətən dedi:

– Ayaq saxla. – Rafael Allahverdiyevi çağırdı.

– Sənin biletin ondadır, sabah saat 7-də Moskvaya uçmalısan. Heç kim, hətta ailən də heç bir şey bilməməlidir. Səhər təyyarəyə minib uçursan.

Mən soruşdum:

– Bəs Kərimov?

Kərimov şəhər komitəsinin katibi idi, mən isə rayon komitəsinin, deməli, bilavasitə rəhbərim olan adama məlumat verməli idim.

– Bu sənin işin deyil. Bilirsən də, bizdə nə cür adamlar var. Sən təyyarəyə minməmiş, imzasız məktublar mərkəzə uçacaq. Bir-iki teleqram verib sənin namizədliyini heç eləyəcəklər. Belə işlər isə mənim zəhləmi töküb. Odur ki, heç kimə bir kəlmə də! Moskvaya uçub, Tyajelnikovun (o vaxtlar Sov.İKP MK-da ideoloji şöbənin müdiri – *E.A.)* qəbuluna, sonra MK katibinin, lap axırda isə ittifaq naziri Stukalinin yanına gedərsən.

Moskvada həmişə nazirlərlə, dövlət komitələrinin sədrləriylə söhbətlər aparır, namizədlər barədə şifahi rəylərini söyləyirdilər. Ancaq namizədlər rəsmi şəkildə respublika Kommunist Partiyası MK-nın bürosunda təsdiq olunurdu.

– Bu üç görüşü keçirəndən sonra dərhal geri qayıdırsan, – Heydər Əliyev dedi. – Birisi gün MK-nın Bürosunda səni təsdiq edəcəyik.

Söhbətlərdən uğurla keçdim. MK-nın Bürosuna gəldim. Bütün katiblər, həmkarlarım oturmuşdular. Heç kimin ağlına heç nə gəlmirdi. Dövlətnəşrkomun bütün rəhbərliyi də burada idi.

Birdən Heydər Əliyev elan etdi:

– Dövlətnəşrkom barədə məsələ qaldırılıb.



O, müzakirə açmadı.

– Allahverdiyev, nəsə demək istəyirsən?

– Bəli.

Heydər Əliyev onu səbrlə dinləyəndən sonra dedi:

– Təklif var ki, Allahverdiyev tutduğu vəzifədən azad edilsin. Ona şiddətli töhmət elan olunsun.

Bu zaman onun müavini Fəridə Qasımova əlini qaldırıb çıxış etmək qərarına gəldi. O, Allahverdiyevin vəzifədən çıxarıldığını görüb bütün çirkabı onun üstünə atmağa başladı. Onlar daima çəkişirdilər. Heydər Əliyev onu da dinlədi. Axırda dedi:

– Təklif var ki, Fəridə Qasımova da Dövlətnəşrkomun sədr müavini vəzifəsindən azad edilsin. Mənim təklifim var: Nazim İbrahimov sədr təyin edilsin.

Hamı heyrətləndi. Hətta şəhər komitəsinin birinci katibi, Büro üzvü Əli Kərimov da heç bir şey bilmirdi. Daha doğrusu, bu, bir növ MK-nın birinci katibinin işləyib hazırladığı və uğurla həyata keçirdiyi xüsusi əməliyyat idi».

Bu, hətta Heydər Əliyev kimi qüdrətli, güclü bir adamın anonimçilərin və konyunktur qruplaşmaların həmlələrini dəf etmək üçün müxtəlif üsullara əl atmaq məcburiyyətində qaldığını göstərən ibrətamiz əhvalatdır.

Çox vaxt öz kadrlarını məzuniyyətdən yarımçıq qaytarmaqla bu cür operativliklə vəzifəyə qoyurdu. Özünün MK-nın elm və tədris müəssisələri şöbəsinin müdiri vəzifəsinə təyinatının təfərrüatını Ramiz Mehdiyev belə xatırlayır:

«Mən 26 Bakı Komissarı adına rayonun partiya komitəsinin birinci katibi vəzifəsində 1980-ci ilin yayınadək işləyib, Heydər Əliyeviçdən məzuniyyətə getmək üçün icazə istədim. Yessentukiyə gedib, orada 15, ya da 16 gün istirahət etdim. Bir səhər məni təcili olaraq sanatoriyanın direktorunun kabinetinə çağırdılar, dedilər ki, mənimlə Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi danışmaq istəyir.

Heydər Əliyeviç söhbətə zarafatla başladı:

– Biz burada tər tökürük, sənsə orada istirahət edirsən.

Mən özümü təmizə çıxarmağa başladım:

– Siz özünüz mənə icazə vermisiniz...

– Elədir, yadımdadır, fikir vermə. Məsələ burasındadır ki, biz Büroda yığışıb səni MK-nın elm və tədris müəssisələri şöbəsinin müdiri təyin etmək qərarına gəlmişik. Sən təcili Moskvaya uçub,

orada MK-nın şöbə müdiri və katibi ilə görüşməli, sonra isə Bakıya qayıtmalısan. İşimiz çoxdur.

O vaxt SSRİ-də Olimpiada keçirilirdi, Moskva uçuşlara faktiki olaraq qapalı idi. Böyük çətinliklə, Yessentuki şəhər partiya komitəsinin birinci katibinin köməkliyi ilə bilet tapıb Moskvaya uça bildim. Mən müvafiq rəhbər işçilərlə söhbətdən keçdim, təşkilat şöbəsinin müdiri – Sov.İKP MK-nın katibi İvan Vasilyeviç Kapitonovla görüşdüm. O, Heydər Əliyeviç barədə, onun Azərbaycanın rəhbəri kimi Sov.İKP MK-da, Siyasi Büronun üzvləri arasında böyük nüfuza malik olması, indi Azərbaycanın magistral inkişaf yoluna çıxması, Heydər Əliyevin gəncləri məsul vəzifələrə irəli çəkməkdə düzgün iş görməsi, ona kömək etməyin vacibliyi və s. barədə uzun müddət və hörmətlə danışdı. Mənim gələcək işim barədə o cəmisi bir neçə kəlmə işlətdi: «Heydər Əliyev sizi irəli çəkirsə, bizim heç bir sözümüz ola bilməz. Bilirik ki, o kadrları seçərkən səhv etmir».

Eyni sözləri İ.Kapitonov Sov.İKP MK-da söhbət zamanı Kamran Rəhimova da demişdi. Bu da maraqlı əhvalatdır.

«Mən heç təsəvvür eləyə bilməzdim ki, nə vaxtsa Naxçıvan vilayət komitəsinin birinci katibi vəzifəsini tutacağam, – deyə Kamran Nəbioğlu bizə danışdı. – Bu isə belə olmuşdu. O vaxtlar mən jurnala rəhbərlik edirdim, eyni zamanda Jurnalistlər Birliyinin sədri idim. 1975-ci ilin sentyabrında Kubadan böyük bir jurnalist qrupu bizə qonaq gəldi. Mən onları Lənkərana yola saldım, özüm isə məşğul olduğumdan oraya bir qədər gec getdim. Şəhərə təzəcə çatmışdım ki, Lənkəran şəhər komitəsinin birinci katibi İsa Məmmədov mənə xəbər verdi ki, Kirsanov zəng vurub və mən dərhal Bakıya qayıtmalı, sabah isə Moskvaya uçmalıyam. O vaxt Moskvadakı nümayəndəliyimizin foyesində Azərbaycanın nailiyyətlərini əks etdirən fotosərgi təşkil etmişdik. Düşündüm ki, yəqin hazırda Moskvada olan Heydər Əliyev sərgini görüb və məni çağırtdırmaq qərarına gəlib. Mənim əvəzimə müavinim Hacı Hacıyev Moskvada idi.

Mən Bakıya qayıdıb Kirsanova zəng vurdum. O dedi ki, artıq mənim adıma bilet alınıb, ezamiyyə vərəqəsi verilib, – hamısı evimizə çatdırılıb. İsmayıl Əsgərova, Balabəy Mirzəcanova zəng vurub, nə baş verdiyini öyrənmək istədim. Onlar da mənə yalnız onu dedilər ki, səhər saat 10-da Azərbaycanın nümayəndəliyində olmalıyam, səbəbini isə bilmirlər. Moskvaya uçdum. Səhər saat 10-da Heydər Əliyevin yanında idim – o dəqiqliyi sevirdi.



Nümayəndəlikdə onun öz kabineti var idi. O, beş dəqiqədən sonra gəlib çıxdı. Gülümsəyərək dedi:

– Sərgini təşkil eləmisən, özün isə gəlməmisən.

Sonra isə dedi ki, sərgi onun çox xoşuna gəlib, bu ilk təcrübədir, onu davam etdirmək lazımdır. Gözlənilmədən belə bir xəbər dedi: fikir var ki, səni Naxçıvan vilayət komitəsinə katib göndərək.

Eşitdiklərimdən şoka düşdüm. Etiraz etməyə cəhd göstərdim:

– Heydər Əliyeviç, mənim partiya işi ilə nə əlaqəm var? Mən heç vaxt belə məsələlərlə məşğul olmamışam.

– Necə məşğul olmamısan? Sən ki, rayonların əkinçiliyyətini dolaşmısan.

O illərdə Büro üzvlərini əkini-səpini, pambıq, üzüm, taxıl məhsullarının yığımını təşkil etməyə köməklik göstərmək məqsədilə rayonlara təhkim edirdilər. Büro üzvü olmasam da, məni də bu komissiyalara daxil edirdilər. Mən Ağdaşda da, Füzulidə də, Ucarda da, Zərdabda da olmuşdum. Qısası, biz onunla söhbət etdik və o birdən dedi:

– Səni Sov.İKP MK katibi Kapitonov gözləyir.

Başqa sözlə, bütün məsələlər artıq həll olunmuşdu. MK-ya gəldim, məni o dəqiqə Kapitonovun yanına ötürdülər, biz onunla çox şeydən, o cümlədən artıq Moskvada müdafiə edib tarix elmləri doktoru adını aldığım dissertasiyam barədə də danışdıq. Söhbətimiz təqribən 50 dəqiqə çəkdi. Bu, çox nadir hallardan biri idi ki, Sov.İKP MK katibi bir nəfərlə bu qədər çox danışsın. O, masasının üstündə bizim jurnalı göstərib dedi: «Məqalələrin məzmunundan görünür ki, siz təsərrüfat işindən o qədər də pis baş çıxarmırsınız». Kapitonov mənimlə beynəlxalq vəziyyətdən – İranla, Ermənistanla, Türkiyə ilə bağlı məsələlərdən, Naxçıvandakı vəziyyətdən söhbət açdı. Soruşdu ki, nə üçün Naxçıvanın anklav statusu var? Mən ona hər şeyi ətraflı izah etdim. O təəccübləndi:

– Bəs nə üçün sizin tarixçilər bu mövzularda yazmırlar? Misal üçün, mən bu barədə ilk dəfədir ki, eşidirəm.

– Axı Azərbaycan da bir vaxtlar vahid dövlət idi, – dedim, – sonralar müqaviləyə əsasən iki hissəyə parçalanıb.

O bunu da bilmirdi. Mən ona torpaqlarımızın ermənilərə verilməsindən, Azərbaycan ərazisində Ermənistan yaradılmasından danışdım. Sonra Kapitonov Suslova zəng vurdu:

– Rəhimov mənim yanımdadır. Ancaq nə üçünsə vilayət komitəsinə birinci katib getmək istəmir. Heydər Əliyevsə kadrlarda heç vaxt səhvə yol vermir.

– Məgər o kommunist deyil? – deyə Suslov sual verdi.

– Onu Siyasi Büroda təsdiq olunana qədər Moskvada saxlayaq? – qısa sükutdan sonra Kapitonov soruşdu. Namizədləri belə vəzifələrə yalnız Siyasi Büroda təsdiq edirdilər. Namizədin orada iştirakı zəruri idi.

– Mən Leonid İliçlə danışmalıyam, – deyə Suslov cavab verdi. Bir neçə dəqiqədən sonra o yenidən zəng vurub, Kapitonovdan bir də soruşdu:

– Siz ona etimad bəsləyirsiniz?

– Tamamilə, – deyə Kapitonov cavab verdi.

Məni qiyabi olaraq təsdiq etməyi qərara aldılar. Əlbəttə, bu, ilk növbədə Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibinə olan böyük inamın, etimadın və hörmətin nişanəsi idi. Kapitonovun yanından çıxandan sonra gördüm ki, Heydər Əliyev söhbətimizin belə uzun sürməsindən narahatlıq keçirərək məni gözləyir.

Beləliklə, məni sentyabrda təsdiq etdilər, dekabrda isə Naxçıvanda hesabat-seçki konfransı keçirildi və mən həmin konfransda Naxçıvan vilayət komitəsinin birinci katibi seçildim».

R.Mehdiyevin dediyinə görə, kadr məsələsinin həllində bu cür sərbəstliyə Heydər Əliyev «özünün prinsipiallığı, böyük zəhməti, barəsində Moskvaya məruzə etdiyi və respublikada uğurla həyata keçirdiyi real proqramları sayəsində nail olmuşdu».

* * *

Heydər Əliyev kadr siyasətində səhvlərdən sığortalanmışdımı? Əlbəttə ki, yox. Özünün sonrakı müsahibələrində o dəfələrlə bu mövzuya qayıdaraq, səmimiyyətlə etiraf etmişdi ki, «kadr işində ən ağır səhvlərimiz – 70-ci illərdə bizim hazırlayıb məsul vəzifəyə irəli çəkdiyimiz şəxslərin bizi pis vəziyyətdə qoyub əyintilərə yol verməsi idi. Biz, təkrar edirəm, heç vaxt mundirin ləyaqətini qorumağa qalxmırdıq»[9].

Respublikada ilk dəfə olaraq Siyasi Büronun işdən kənarlaşdırılmış üzvü ilə geniş müsahibəsini dərc etdirən Azərbaycan jurnalisti Elmira Əhmədova ilə söhbətində Heydər Əliyev yenidən kadr siyasətində buraxdığı səhvləri özünütənqid ruhunda təhlil edir:

«Bəzən biz bu səhvləri düzəldirdik, bəzən isə yox. Ancaq mən respublikadan gedəndən sonra, illər keçdikcə bəzi adamların professional və şəxsi keyfiyyətlərini zaman məsafəsi yüksəkliyindən izləyəndə özümü tənqid etməyə başlayırdım. Ancaq siz onu da bilməlisiniz ki, kadr işi çox mürəkkəb, çətin məsələdir. Mən birinci katib



kimi həmişə ətrafımdakı adamlara inanmağa çalışmışam. MK-da məndən başqa 5 katib vardı, hər katib öz sahəsi ilə məşğul olur, öz sahəsi üzrə kadrları irəli çəkirdi. Əgər mən MK katiblərinə inanmasaydım, onlarla işləməyə dəyməzdi. Ancaq həmin katib səhv edəndə, yanılanda, həmin səhv mənim əllərimlə həyata keçirilirdi. Bəzən səhvi vaxtında aşkara çıxarıb, aradan qaldırmaq mümkün olurdu. Bəzən isə ondan xəbər tutmurdum»[10].

Ramiz Mehdiyev xatırlayır ki, kadr məsələsindəki hər bir belə səhv Heydər Əliyevi daxilən çox sarsıdırdı:

«Əlbəttə, yanlışlıqlar da olurdu. Bir insanı təyin edirlər, o yarım il, bir il işləyir, nəticə çox zəifdir. Əgər həmin adam vicdanla, təmiz işləyibsə, ona başqa sahədə özünü bir daha sınamağa imkan yaradırdılar. Ancaq o, həddini aşıb layiqsiz, əxlaq qaydalarına zidd hərəkətlərə yol verirdisə, rüşvətxorluq, tamahkarlıq, acgözlük edirdisə, Heydər Əliyeviçin mövqeyi birmənalı şəkildə sərt olurdu. Kadrlara əzizləyərək qayğı göstərib, ümid bəsləyirdi, onları qoruyurdu, odur ki, hər bir belə hadisə üçün həyəcan keçirirdi. Sailovu götürək, keçmiş komsomol işçisi Qasım İsmayılov, sonra isə Şamaxı rayonlarının başçısı vəzifəsinədək yüksəldi. Heydər Əliyeviç onu Sosialist Əməyi Qəhrəmanı adına təqdim edib, başqa rayonların rəhbərlərinə nümunə göstərirdi. Sonradan onun paxır açıldı. Yadımdadır ki, MK-nın plenumunda, respublika yığıncağında Heydər Əliyev bu barədə necə ürək ağrısı ilə danışırdı: biz bu kadrları yetişdiririk, onlara etimad göstəririk, sonradan məlum olur ki, onlar bizim təsəvvür etdiyimiz kimi deyilmişlər.

Bir sözlə, sözsüz ki, kadr siyasətində yanlışlıqlar olurdu, bundan heç bir rəhbər sığortalanmayıb, çünki maşınlarla yox, canlı insanlarla işləyir. Ancaq Heydər Əliyev bu yanlışlıqları görməyi, aşkara çıxarmağı, vaxtında islah etməyi bacarırdı. Vacibi isə odur ki, o bunları gizlətmir, Büro yığıncaqlarında da, MK plenumlarında da Büronun bu və ya digər kadr məsələsi üzrə qərarlarını əsaslandıraraq, öz mövqeyini açıq-aydın bildirirdi».

Belə səhvlərdən biri, Heydər Əliyevin özünün mənimlə söhbətində etiraf etdiyi kimi, Vaqif Hüseynovu Bakı şəhər partiya komitəsinin birinci katibi vəzifəsinə təyin etməsi olub. Heydər Əliyev bu adama böyük sevgi və etimadla yanaşırdı, onun ləyaqətli və güclü rəhbər kimi yetişməsi üçün əlindən gələni edirdi. Heydər Əliyevin təşəbbüsü ilə bu komsomol rəhbəri ÜİLKGİ MK-nın katibi təsdiq olunur və Moskvaya gedir. Orada təcrübə toplayır, Sov.İKP MK-nın, Leninqrad vilayət partiya komitəsinin bir çox partiya

işçiləri ilə yaxın əlaqələr qurur, sonralar həmin adamlar onun gələcək taleyində böyük rol oynayırlar. Bir neçə ildən sonra Vaqifi Bakıya qaytarıb Bakı şəhər partiya komitəsinin birinci katibi təyin edirlər. Sonralar BK-nın birinci katibi vəzifəsində Vaqif Hüseynovu əvəz edən MK-nın keçmiş katibi Fuad Musayev xatırlayır:

«Bir çox Büro üzvləri əsasən professionallığın aşağı səviyyəsinə görə Hüseynovun təyinatının əleyhinə idilər. Respublika paytaxtının rəhbəri gərək sənaye, tikinti və iqtisadiyyatın digər sahələrinə aid məsələlərdən, şəhər təsərrüfatının problemlərindən yaxşı baş çıxara idi, illah da ki, o illər rəhbərlərə tələblər çox yüksək idi. Demək olar ki, respublikanın bütün iqtisadiyyatı Bakıda cəmləşmişdi, keçmiş jurnalist belə şəhərə necə rəhbərlik edə bilərdi!

MK-nın birinci katibi 70-ci illərdə rayon, şəhər partiya komitələrinə güclü birinci katiblər təyin edirdi, əksər hallarda həmin kadrlar onun etimadını doğruldurdular. Ancaq Vaqif Hüseynovun təyinatı Heydər Əliyevin kadr siyasətindəki səhvi idi. Yaxşı ki, Heydər Əliyev onun iç üzünü vaxtında açа bildi. Hüseynov cürbəcür intriqalarla məşğul olurdu, ətrafına lazımsız işlərlə məşğul olan qəribə kadrlar yığırdı. Axı şəhər komitəsi – bütün respublika demək idi. Burada Azərbaycanın demək olar ki, bütün sənayesi cəmləşmişdi. Görün Bakı şəhər partiya komitəsində necə güclü şəxsiyyətlər birinci katib işləmişdilər. M.C.Bağırov MK-nın birinci katibi idi, eyni zamanda BK-nın birinci katibi vəzifəsini tuturdu. Bu vəzifədə Allahverdiyev, Nəsrullayev, Qədirov, Kərimov kimi bütün respublikada tanınmış adamlar çalışmışdı. Onlardan sonra Vaqif Hüseynovun bu vəzifəni tutması göydəndüşmə bir şey idi.

Rüşvətxorluqla, «kölgə» iqtisadiyyatı və digər neqativ hallara qarşı Azərbaycanın partiya liderinin respublikaya rəhbərlik etdiyi bütöv dövr ərzində apardığı mübarizədən bəhs edən «Qoy ədalət zəfər çalsın» fəslində biz kadr dəyişikliyi mövzusuna yenidən qayıdacağıq. Hələliksə, yenə «yetmişincilər»in, Heydər Əliyevlə çiyin-çiyinə işləmək xoşbəxtliyi nəsib olmuş insanların çox qiymətli xatirələrinə üz tutaq:

«Məndə Heydər Əliyevə qarşı heyranlıq hissi oyadan, xoş təsir buraxan, cəlb edən daha nə idi? O, səni saatlarla dinləyə bilərdi, nə sözünü kəsərdi, nə də araya söz qatardı. Yəqin ki, DTK-da işləyərkən onda çox dinləyib, az danışmaq vərdişi yaranmışdı. O danışmağı da bacarırdı, inandırmağı da. O, səni danlaya da bilərdi, irad da tuta



bilərdi, ancaq lazım gələndə müdafiə edər, arxanda durardı. Bu, rəhbərin müstəsna istedadıdır.

**– Alternativ nöqteyi-nəzər söylənilə bilərdimi? Heydər Əliyev, deyək ki, hər hansısa bir məsələnin Büroda müzakirəsindən sonra öz fikrini dəyişə bilərdimi?**

– Bu işdə o, sözün tam mənasında demokratik adam idi. Biz hamımız danışıb öz mövqeyimizi bildirirdik. Aramızda fikir müxtəlifliyi ola bilərdi. Onun istədadı da onda idi ki, bütün bunları dinləməyə, götür-qoy, təhlil etməyə və yeganə düzgün qərar çıxarmağa səbri çatırdı. O, deyilənlərə yekun vurur və biz ümumi rəyə gəlirdik. Həmişə kollektiv şəkildə qərar çıxarılırdı.

O, hər şeyi operativ həll edirdi. Bir nümunə gətirim. 1974-cü ildə, Krımın azad olunmasının 30 illiyi ərəfəsində mən Sapun-dağa həmlə edilən zaman döyüşlərdə iştirak etmiş 77-ci Azərbaycan diviziyasının qəhrəmanlığını əbədiləşdirmək təklifi ilə MK-ya müraciət etdim. Müharibə vaxtı mən həmin diviziyada rabitə batalyonunun komandiri idim. Heydər Əliyev fikrimi bəyəndi. Biz Sapun-dağda abidə ucaldıb 77-ci diviziyanın adını əbədiləşdirmək barədə qərar qəbul etdik. Məsələnin həllini İbrahimova, yəni mənə tapşırdılar. Bayrama isə bir aydan bir qədər çox vaxt qalmışdı. Mart ayının sonları idi.

Ertəsi gün Ömər Eldarovla mən obeliskin eskizini «birinci»nin masasının üstünə qoyduq. Mayın 9-da Sevastopolun girişində Sapun-dağda obeliskin açılışı oldu. Hər şənbə təyyarə ilə Ukraynaya uçurduq, işçi briqadası təşkil etmişdik, bünövrənin tikintisi üçün oraya material aparmışdıq. Bundan əlavə, kitab nəşr etmək üçün mütəxəssislərdən ibarət kollektiv yaratmışdıq, onlar döyüş iştirakçılarından müsahibələr alıb, fotoşəkillər seçdilər, toplu operativ şəkildə nəşr olundu.

Bu, yalnız bir nümunədir, lakin qalan məsələlər də beləcə operativliklə həllini tapırdı. O, kimə nə tapşırmaq lazım olduğunu bilirdi və nə tapşırmışdısa, hamısını yadında saxlayırdı. O, işçiləri həm qiymətləndirir, həm onlardan tələb edir, lazım gələndə də cəzalandırırdı.

Büro üzvləri ilə o, demək olar ki, bütün məsələlərdə məsləhətləşirdi. Misal üçün, plenumda və ya hansısa yığıncaqda məruzəni tanış olmaq üçün bizə bir gün qabaqcadan verirdilər. Səhərisi o bizi qəbul edir, irad və təkliflərimizi diqqətlə dinləyir, ağlabatanı mütləq mətnə əlavə edirdi. Kadr məsələsində o çox vaxt bizim hər birimiz-

lə ayrı-ayrılıqda məsləhətləşirdi. Yalnız bundan sonra qərar qəbul edirdi.

*(İsmayıl İbrahimovla söhbətdən).*

«Onun insani keyfiyyətlərindən danışmaq istəyirəm. Sözsüz ki, birinci katibin qəbuluna çağırılan şəxs həyəcanlanır, əsəbi gərginlik keçirirdi. Görün mən nə müşahidə etmişdim. O başa düşürdü ki, yanına gələn adam həyəcanlıdır, odur ki, gərginliyi məharətlə aradan qaldırırdı: köməkçi suallar verirdi, bəzən hətta dəxli olmayan mövzularda söhbət salırdı ki, qarşısında oturan adam özünü bir qədər sərbəst hiss etsin. Heydər Əliyeviç çox gözəl müsahib idi. Həm də psixoloq idi. O, söhbət zamanı elə atmosfer yaradırdı ki, insan ürəyini tamamilə ona açırdı. Bundan əlavə, onun komandasının üzvləri bilirdilər ki, əgər onlar «birinci» ilə üz-üzə, necə deyərlər «tet-a-tet» söhbət edəcəklərsə, o deyilənlərdən heç vaxt həmsöhbətinin ziyanına istifadə etməzdi. O deyilənləri təfəkküründən keçirib, sonra müvafiq nəticə çıxarır, mənbəyə istinad etmirdi. Başqa sözlə, Heydər Əliyev heç vaxt öz həmsöhbətlərini «satmazdı». Ona verilən məlumatları öz adından üzə çıxarırdı».

*(Həsən Seyidovla söhbətdən).*

«Mən bir çox həmsöhbətlərimdən eşitmişdim ki, Heydər Əliyev hər şeyi bilir. «Onunla danışmaq müşkül məsələdir, – deyə rayon partiya komitələrinin birinci katibləri az qala ağlamsınaraq mənimlə dərdlərini bölüşürdülər. – Ona nə isə danışmaq istəyirsən, o isə deyir:

«Bilirəm, sənin rayonunda hələ filan-filan məsələlər də var, ancaq sən nədənsə o barədə ümumiyyətlə, heç bir şey demirsən». O hər şey barədə tam məlumatlı idi».

*(Turan Hüseynovun söhbətindən).*

«Hamı ona təəccüb edirdi ki, o fırça ustaları ilə görüşəndə rəssam kimi danışırdı, yazıçılarla yazıçı olurdu və s. Axı o, görüşəcəyi adamı tanımalı idi. Həmin sənətkarlarla görüşə o on gün, bəlkə də daha çox qabaqdan hazırlaşırdı. O, hər bir rəssam haqqında hər şeyi bilməli idi: harada anadan olub, yaradıcılığının əsas xüsusiyyəti nədən ibarətdir, hansı üslubda yazıb-yaradır, hansı əsərləri var, harada sərgisi keçirilib və s. Fenomenal yaddaşı olmasına baxmayaraq, o yenə də görüşlərə hazırlaşırdı. O, nəinki Azərbaycan rəssamları, eləcə də ittifaq rəssamları barədə hər şeyi bilirdi. Ona görə də onların hamısı heyrətdən donub qalırdılar. Ancaq bilmirdilər ki, hər görüş qabağı nələr baş verir. Elmlər Akademiyası, muzeylər, institutlar və digər təşkilatlar onun üçün materiallar hazırlayırdılar, o isə onları diqqətlə öyrənirdi».



*(Lidiya Rəsulova ilə söhbətdən).*

«Mən demək istəmirəm ki, onunla oturub, hansısa mövzunu müzakirə edirdik. Ancaq bəzən elə olurdu ki, o hər hansı nümayəndə heyəti ilə görüşə hazırlaşanda, səni qarşısında oturdub tapşırıq verirdi: «Filankəsə zəng vur, filankəsi tap». Başqa sözlə, mən görürdüm ki, o bu görüşə necə hazırlaşır. O hər bir qəfil görüşə hazır olurdu.

Heydər Əliyeviç hər bir görüşə, hər bir söhbətə məsuliyyətlə yanaşırdı. Əgər hətta hər hansı bir rayonun partiya komitəsinin birinci katibini qəbul edirdisə, bu görüşə də hazırlaşırdı. O, bu rayon haqqında hər şeyi bilirdi, hətta yetişdirdiyi son kiloqram məhsula qədər. Onu heç kim aldada bilməzdi. O, onlarla, yüzlərlə kitab oxuyub, hər şeyi dönə-dönə yoxlayırdı. Çox vaxt hansısa məsələnin mənşəyi ilə tanış olmaq üçün arxiv materialları tələb edirdi. Əlbəttə, o, qeyri-adi insan idi. Onun işə fədakarlıqla, can yanğısı ilə yanaşması da qeyri-adi idi. O rayondakı vəziyyətə ən xırda detallarına qədər bələd olmalı və təhlildən keçirməliydi ki, onu aldatmasınlar, söhbət və ya müzakirə zamanı düzəliş verə bilsin ki, «belə deyil, rayonunuzda məsələ bu vəziyyətdədir».

Heydər Əliyeviç Moskvaya getməmişdən bir ay qabaq, ona lazım olan kitabların siyahısını tərtib etdi. Rafael Allahverdiyevlə kitabxanalardan üç böyük qutu kitab gətirdik. Orada qanunvericilik aktlarından dərsliklərədək, səhiyyəyə, neqliyyata, onun SSRİ Nazirlər Soveti sədrinin birinci müavini rütbəsində hamilik edəcəyi bütün sahələrə dair kitab vardı.

O, kitabları əli altına yığıb, paytaxta gedən günədək oxuyub öyrəndi, qeydlər götürdü. Başqa sözlə desək, Heydər Əliyev Moskvaya gedərkən üzərinə necə böyük məsuliyyət düşdüyünü çox gözəl bilirdi: o azərbaycanlıdır, əyalətdəndir, bu cür yüksək vəzifədə işləmək üçün gedir, odur ki, ifadə etdiyi fikirdə qeyri-dəqiqliyə yol verməyə, səhv etməyə, hansısa mövzuda nabələdlik göstərməyə ixtiyarı yoxdur.

Keçən əsrin 90-cı illərinin ortalarında, artıq Azərbaycanın Prezidenti vəzifəsində Heydər Əliyev Rusiyaya səfərə gedəndə onun Elmlər Akademiyasında görüşü oldu. Rusiyalı akademiklərdən biri öz çıxışında dedi: «Heydər Əliyeviç, biz həmişə sizə heyran

olmuşuq. Mən sizin burada, Elmlər Akademiyasındakı ilk görüşünüzü xatırlayıram. O vaxt siz SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi bizə elə mətləbləri açır, elə şeylərdən danışırdınız ki, biz akademiklərin onlardan heç xəbəri də yox idi».

Bax, hər bir görüşə o beləcə hazırlaşırdı. Nəqliyyat, səhiyyə, Elmlər Akademiyası və s. sahələrin rəhbər işçiləri ilə ünsiyyətdə olanda o bu və ya digər sahə üzrə dərin bilik nümayiş etdirirdi. Ona görə də onun Rusiyada qarşılaşdığı insanlar ona valehedici insan, zarafatlaşmağı da, məhrəmanə söhbətləşməyi də bacaran, eyni zamanda hər bir sahədən çox gözəl baş çıxaran qeyri-adi rəhbər kimi heyran olurdular. Bunun üçün xüsusi istedad sahibi və çox böyük zəhmətkeş olmaq lazım idi».

*(Mixail Zabelinlə söhbətdən).*

«Mən onun müxtəlif səviyyəli və ölçülü görüşləri necə keçirdiyini tez-tez müşahidə edirdim. Əvvəlcə hamını dinləyir, sorğu-sual edir, onu maraqlandıran informasiyanı alır, sonra isə bir növ proqram verirdi. Uşaq həkimləri ilə görüşəndə pediatriyaya aid məsləhət və təkliflərini verirdi, partiya tarixçiləri ilə görüşəndə marksizm-leninizm nəzəriyyəsinin hansısa qatını necə öyrənmək barədə arzularını bildirir, yazıçılarla görüşdə sovet ədəbiyyatı qarşısında duran vəzifələri professionallıqla şərh edirdi. Onun yanından çıxan hər kəs heyrətlənirdi: o bizim sahəmiz barədə bu qədər şeyi haradan bilir? Başqa sözlə desək, o hamıyla onun səviyyəsində danışırdı. Misal üçün, o rayona gələndə pambıq tarlasında briqadirin yanına gedir, onlar kənd təsərrüfatı mövzusunda tamamilə professional söhbət aparırdılar. Briqadir deyirdi: hər hektardan 50 sentner pambıq yığmağı öhdəmə götürürəm. Heydər Əliyev onun sözünü kəsir: «Ağ eləmə, sənin o qədər məhsulun olmayacaq. Hesabla gör, bir kvadratmetrdə sənin neçə pambıq kolun var». Briqadirin heyrətdən ağzı açıla qalırdı.

Və ya götürək MK Bürosunu. Mən dəfələrlə həmin yığıncaqlarda iştirak etmişəm. Deyək ki, metallurgiya sənayesinin fəaliyyəti müzakirə edilir. Zavod direktorları, nazirlər, Büro üzvləri çıxış edirlər. Heydər Əliyev onlara qulaq asır. Qarşısında isə bir qovluq var. O, qovluğu açıb içərisindəkilərə baxır və çıxış edəni susdurur: «Bax, sənin anbarında məhsul çatışmazlığı aşkara çıxarılıb». Ondan qabaq çıxış edənə müraciətlə: «Səndə isə növbədə olanlara paylanmaq üçün ayrılmış iki mənzil «kənara» verilib», – deyirdi. Həmin adamlar az qala huşlarını itirəcəkdilər: bu məlumatlar onda hardandır? Bu cür «kəskin» məlumatları onun üçün şöbələrdən kənar köməkçiləri toplayırdı. Şöbələr çox vaxt susmağı üstün tuturdular, çünki bu sahələrə özləri nəzarət etdiklərindən cavabdeh də özləri idilər və «zəif» yerləri həddən artıq nəzərə çarpdırmaq onlara sərfəli deyildi. Belə hallarda Heydər Əliyevin özünün informasiya kanalları var idi.

*(Azərinformun keçmiş müxbiri Vladimir Morozkovla söhbətdən)*

Köməkçilərlə yanaşı, Heydər Əliyeviç Dövlət Təhlükəsizlik Komitəsindəki keçmiş həmkarlarına arxalanırdı. Onlar hər yerdə, o cümlədən istehsalatda da geniş agent və informator şəbəkəsinə malik idilər. Sovetlər dönəmində «çekist»lər nəinki casusları və antisovet ünsürləri zərərsizləşdirməliydilər, həm də qanunçuluğun pozulması hallarına qarşı mübarizə aparmalı idilər. Gələcək fəsillərdə mən MK-nın birinci katibinin DTK ilə bu cür konstruktiv əməkdaşlığına dair çoxlu nümunələr gətirəcəyəm.

Hətta Azərbaycanda yerləşdirilmiş hərbi hissələrin rəhbərliyindən də Heydər Əliyev respublikanın inkişafı naminə iqtisadi maraqlarına uyğun istifadə etməyi bacarırdı. Misal üçün, 4-cü ordunun komandanı general-polkovnik **Aleksandr Vasilyeviç Kovtunov** Azərbaycan Kommunist Partiyası MK Bürosunun üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı idi. O, respublika rəhbərinin ona həvalə etdiyi tapşırıqları dəfələrlə yerinə yetirmişdi. Bu gün də Heydər Əliyevin hərbçiləri «istismar etmək» məharətini təbəssümlə yada salır. Heydər Əliyevin hərbçiləri Azərbaycanın həyatına və gündəlik problemlərinə cəlb etmək bacarığından **aviasiya marşalı Anatoli Ustinoviç Konstantinov** da danışır:

«O bizə açıq-aşkar deyirdi:

– Respublikamızda yaşayırsan? Onda zəhmət çək, respublikanın dərd-sərinə yan.

Qırmızı Bayraqlı Bakı Hava Hücumundan Müdafiə Dairəsi qoşunlarına komandanlıq etməklə yanaşı, Azərbaycan KP MK Büro üzvü, Azərbaycan respublikasından iki çağırış SSRİ Ali Sovetinin deputatı idim. Mən bu respublikanın vətəndaşının tamhüquqlu həyatını yaşayırdım: seçicilərimin tapşırıqlarını yerinə yetirir, yollar çəkir, məktəblər tikir, zavod və fabriklərin işini yoxlayır, Azərbaycan rəhbərliyi adından rəsmi tədbirlərdə çıxış edir, Ali Sovetin tapşırığı ilə istehsalat qabaqcıllarına orden və medallar verirdim və s.

Nə gizlədim, deputat kimi kömək üçün tez-tez MK-nın birinci katibinə müraciət edirdim. Rayona yol çəkmək lazımdır, mən onun yanına gedirəm:

– Heydər Əliyeviç, kömək elə!

O, Nazirlər Sovetinə zəng vurur:

– Vəsait ayırın.

Rayonların birində uşaqlar məktəbə dəmir yolunu keçib gedirdilər. Orada qatarlar daima hərəkətdə idilər. Rayon sakinləri gediş-gəliş üçün dəmir yolunun üstündən çəkilən körpünün tikintisi ilə bağlı qarşımda məsələ qaldırmışdılar. Mən Nazirlər Sovetinə, Dövlət Plan Komitəsinə gedib məsələni danışdım. Dedim ki, uşaqlar qatarın altına düşüb həlak olurlar. Vəsait olmamasından şikayətlənməyə başladılar. Mən Heydər Əliyeviçin yanına gəlib problemi danışdım. O, yanımdaca dəstəyi qaldırıb Nazirlər Sovetinin sədrinə zəng vurdu:

– Əli İzmayloviç, nə olub? Bu körpünü çəkmək neçəyə başa gəlir? Direklər qoyub, yolun üstündən piyada cığır açmaq nə böyük işdir? Sizsə bundan problem düzəldirsiniz, – deyib dəstəyi asdı.

Əli İzmayloviç İbrahimov mənə zəng vurdu:

– Anatoli Ustinoviç, gəl, danış, harada, hansı rayonda nə iş görmək lazımdır, mən də ora mütəxəssisləri göndərim.

Vəssalam. Körpü tikildi.

Daha bir hadisə yadıma düşür. Bir gün Heydər Əliyeviç məni yanına çağırıb dedi:

– Dağlıq Qarabağda dağ-mədən saflaşdırma kombinatını yoxlamaq lazımdır.

Məni niyə göndərirdilər? Çünki mən milliyyətcə rus idim, yerli əhalinin mənə inamı, etimadı daha çox olar. Heydər Əliyev belə şeyləri qabaqcadan ölçüb-biçirdi.

MK-ya muxtar vilayət sakinlərindən şikayət ərizəsi daxil olmuşdu. Guya çayın suyu qırmızı rəngə boyanıb. Mən Stepanakertə uçdum. Kombinat filizi partlayış üsulu ilə çıxarırdı. Mən şəhərin üzəri ilə uçarkən partlayışın nə cür həyata keçirildiyini, filizi ekskavatorla necə yüklədiklərini, göndərilməyə hazırladıqlarını öz gözümlə gördüm. Partlayış zamanı qəlpələr ətrafa sıçrayır və suya düşürdü. Ona görə də çayın suyu qızarırdı.

Mənim yanımda olan mütəxəssislər – mühəndislər fikirləşdilər ki, nə etmək olar.

Bakıya qayıdıb vəziyyət barədə Heydər Əliyeviçə məruzə etdim.

– Su lap elə qıpqırmızıdır? – deyə o məndən soruşdu.

– Bəli, qırmızıdır.



– Sənədləri hazırla, məsələni Büroya qoyaq. Sən isə məruzəçi olacaqsan.

Mən vəziyyət barədə Büroya məlumat verib, nə etmək lazım olduğunu təklif etdim. Tədbir görüldü. Deyəsən həmin dağ-mədən saflaşdırma kombinatının direktorunu və baş mühəndisini ekoloji təhlükəsizliyi pozduqlarına görə işdən çıxartdılar.

Heydər Əliyeviç saxtakarlığı və mübaliğəni, şişirtməni xoşlamırdı, bu cür yoxlamalarda obyektivlik ən başlıca meyar idi. Bir də aşkara çıxan çatışmazlıqları aradan qaldırmaq üçün nə eləmək olar – bax, bu barədə təkliflər əsas idi.

Bir dəfə aralarında kənd təsərrüfatı mütəxəssisləri də olan yoldaşlardan ibarət qrupla Salyanda yoxlama aparırdım. Aşkara çıxardıq ki, rayon partiya komitəsinin katibi işdə nöqsanlara yol verib, odur ki, rayon geridə qalmağa başlayıb.

Büro iclası çağırıldı, Salyanın raykom katibi də oraya dəvət olundu. Heydər Əliyeviç belə müzakirələri qapalı keçirmirdi. Mənim məruzəmdən sonra həmin sahəyə nəzarət edən katibdən soruşdu:

– Bu barədə nə deyə bilərsən?

O, nəsə mızıldandı.

– Nə təklifiniz var? – deyə Heydər Əliyeviç təkrar soruşdu.

Salyanda yaranmış bərbad vəziyyətdən sonra nə təklif ola bilərdi?

– Heydər Əliyeviç, yoxlama aparan qrupun rəhbəri kimi partiya komitəsi katibini işdən azad etməyi təklif edirəm, – dedim.

Büro üzvləri məni dəstəkləyib və katib dəyişdirildi.

Heydər Əliyevin iş üslubu belə idi. O çox sərt, prinsipial, həm özünə, həm də başqalarına qarşı tələbkar insan idi.

Öz növbəsində Heydər Əliyeviç HHM Bakı dairəsinin Hərbi Şurasının yığıncaqlarında iştirak edirdi. Mən şuranın keçirilmə vaxtı barədə ona məruzə edirdim, müzakirə olunacaq məsələlər barədə məlumat verirdim. Əgər hansısa məsələ onun xüsusi marağına səbəb olurdusa, o məsələ barədə çıxışın tezislərini hazırlamağı xahiş edirdi.

Çox razıyam ki, həyat məni bu cür insanlarla üzləşdirib və mən onların hesabına hərbçi çərçivəsində qapanıb qalmamışam. Mən daha geniş ölçülü işə qoşulmuşdum, bir çox məsələlər üzrə iqtisadiyyatla, respublikada həll olunan sosial problemlərlə bağlı idim. Bütün bunlar mənim bir rəhbər kimi dünyagörüşümü genişləndirirdi».

Heydər Əliyevin bir rəhbər kimi xüsusiyyətlərini yada salan hər kəs deyir ki, o öz kadrlarına qarşı qeyri-adi dərəcədə tələbkar idi, onlarla çox sərt davranır, çatışmazlıqlarına görə işdən çıxarırdı. Ancaq heç vaxt tələskənliyə yol verməzdi. Bununla bağlı Zakir Abdullayev heyrətamiz bir əhvalat danışdı. MK birinci katibinin obyektivliyi və güzəştə getməyi bacarması Nazirlər Soveti aparatı əməkdaşlarından birinin ədalətsizliklə işdən çıxarılmasının qarşısını almışdı.

## Baxışovun başına gələnlər

MK-nın köhnə binasının yeddinci mərtəbəsində Mərkəzi Komitə Bürosunun geniş iclası keçirilirdi. Rayon komitələrinin birinci katiblərinin hamısı, rayon icraiyyə komitələrinin sədrləri, nazirlər iclasda iştirak edirdilər. Nazirlər Sovetinin kənd təsərrüfatı şöbəsi müdirinin müavini vəzifəsində işləyən Aqaş Baxışov da həmçinin. Heydər Əliyev yekun sözü söyləyəndə, Baxışovun ürəyi sancdı. O yanında əyləşmiş Feyruz Mustafayevə pıçıldadı ki, «mən özümü çox pis hiss edirəm, əgər yıxılsam, mənə dayaq ol». Heydər Əliyev Baxışovun yanında oturanla danışdığını gördü.

– Sən kimsən, harada işləyirsən?

– Mən Nazirlər Sovetinin kənd təsərrüfatı şöbəsi müdirinin müaviniyəm.

O zaman Nazirlər Sovetinin sədri birinci katibin nüfuzu qarşısında zağ-zağ əsən Əli İzmayloviç İbrahimov idi.

– Əli İzmayloviç, – deyə Heydər Əliyev əsəbiliklə dilləndi. – Siz orada kimlərlə işləyirsiniz? O özünü normal apara bilmir. Mən çıxış edirəm, o isə söhbət edir.

«Qısası, o, Əli İzmayloviçi necə lazımdırsa danladı, – deyə Zakir müəllim sözünə davam etdi. – İclas başa çatdı. Mən zaldan çıxan kimi Baxışov mənə yaxınlaşdı. «Başa düşürsünüz, mən özümü çox pis hiss edirəm, bunu Mustafayevə deyəndə Heydər Əliyeviç elə bildi ki, mən söhbət edirəm».

Sən demə, o köməklik göstərməyi məndən xahiş etmək üçün gəlibmiş. Məsələ burasındaydı ki, Əli İzmayloviç, heç Nazirlər Sovetinə çatmamış, Baxışovun işdən çıxarılması barədə qərar hazırlamağı tapşırıbmış. Heydər Əliyeviç deyibsə, deməli dərhal işdən kənarlaşdırmaq lazımdır.

İş gününün axırı idi. Hamı yorulmuşdu. Yığıncaq həmişə olduğu kimi gərgin keçmişdi. Buna baxmayaraq mən birbaşa rabitə telefonunun dəstəyini qaldırdım.



– Heydər Əliyeviç, bilirəm ki, yorulmusunuz, ancaq çox xahiş edirəm, ikicə dəqiqəliyə məni qəbul edin.

– Yaxşı, – dedi, – görünür, nə isə təcili işdir. Gəl.

Mən onun yanına getdim.

– O adam özünü pis hiss eləyib, sizin çıxışınız zamanı yıxılsa onu saxlamağı yanında oturandan xahiş edirmiş. Elə həmin anda siz onun danışığını görmüsünüz. O isə yalnız köməklik göstərməyi xahiş edirmiş.

– Yaxşı, – deyə Heydər Əliyeviç cavab verdi. – Bunu mənə demək lazım idi, mən ona çıxmağa icazə verərdim. Bəs indi vəziyyəti necədir?

– İndi nisbətən yaxşıdır. Amma Əli İzmayloviç onun işdən çıxarılması barədə qərar hazırlamağı əmr edib.

O, birbaşa rabitə telefonunun dəstəyini qaldırıb dedi:

– Əli İzmayloviç, ayıb deyil? Mən sizə yüzlərlə dövlət əhəmiyyətli tapşırıqlar verirəm, onların əksəriyyətinə siz belə operativ yanaşmırsınız. O binəva özünü pis hiss eləyib, az qala yıxılırmış. Bunu yanında oturana deyib. Onu rahat buraxın.

Üç aydan sonra mənim təklifimlə Baxışovu MK-ya işə götürdülər».

Əliyev komandasının digər üzvü, tanınmış Azərbaycan jurnalisti Azad Şərif mənə etiraf etdi ki, Heydər Əliyevlə işləmək çətin, ancaq maraqlı idi.

1969-cu ilədək Azad müəllim bir neçə il «İzvestiya» qəzetinin Türkiyə, İran və Əfqanıstan üzrə xüsusi müxbiri işləyib. 70-ci ilin əvvəlində o geri çağırılmış, Heydər Əliyev onu Azərbaycan KP MK-nın mədəniyyət şöbəsinə müdir təyin etmişdi. Azad Şərifin MK-da işlədiyi dövrlə bağlı mətbuat səhifələrində çap olunmuş xatirələri, eləcə də mənimlə şəxsi söhbətindən şərhlər kitabımızın səhifələrində tez-tez görünəcək. Çünki onlar ötən dövrün qiymətli sənədləridir.

«O çox zəhmətkeş və çalışqan insan idi. Onun iş günü səhər saat 9-dan başlayır, «Vremya» proqramı qurtaranadək uzanırdı. Bir dəfə mən ondan soruşdum:

– Heydər Əliyeviç, siz «Vremya» proqramına evdə niyə baxmırsınız?

– Azad, – deyə o cavab verdi, – birdən elə bir xəbər ola bilər ki, ona dərhal münasibət bildirmək, müəyyən tədbir görmək lazım gələr.

Ona görə də o və şöbə müdirlərinin hamısı axşam saat on birin yarısınadək işdə otururdular. Ümumiyyətlə, o, MK katiblərindən daha çox şöbə müdirləri ilə işləyirdi. Ayda bir dəfə o bizi – şöbə müdirlərini yanına çağırırdı. Hər kəs şöbənin hansı məktublar aldığını, bu və ya digər sahədə hansı problemlər olduğunu, hansı işlər görüldüyünü, nəyi eləyə bilmədiklərini qısaca məruzə edirdi. O özü rəsmi şəkildə inzibati şöbəyə hamilik edirdi.

**– Rəsmi şəkildə deyəndə nəyi nəzərdə tutursunuz?**

– MK katibləri arasında səlahiyyət bölgüsü mövcud idi. O, MK-nın birinci katibi və hüquq-mühafizə orqanlarından çıxan adam kimi inzibati şöbəyə hamilik edirdi. Qeyri-rəsmi şəkildə o bir də mədəniyyət şöbəsinə nəzarət edirdi. Odur ki, mənim işlədiyim MK katiblərinin dördü də çox vaxt deyirdilər: «Get, bu problemi özün həll elə».

Heydər Əliyeviç təşəbbüsü göydə tuturdu. Gəlib, onunla ideyanı bölüşən kimi, o dərhal hərəkətə gələrək, həmin ideyanı daha gözəl şəkildə həyata keçirməyin yollarını fikirləşirdi. Ona görə də onunla işləmək həm asan, həm də maraqlı idi. O, həssas insan idi, adamı bir sözdən başa düşürdü.

Həyatın öz qanunları var. Səhv də etmək olar, ağılsızlıq da, pis vəziyyətə də düşmək mümkündür. «Mən sizdən yalnız səmimi olmağı xahiş edirəm» – deyirdi. Onunla açıq danışanda, səmimi olanda o, həmin adamın günahının 50 faizini bağışlayırdı. MK-ya təzə işçi götürəndə o, namizədi mütləq kollegial şəkildə, o cümlədən şöbə müdirləri ilə birgə müzakirə edirdi.

Ancaq son sözü həmişə özü deyirdi. Onun seçdiyi adamlar da bacarıqlı, qabiliyyətli şəxsiyyətlər idi.

Bir dəfə Büro yığıncağında Heydər Əliyev özünütənqid ruhunda etiraf etdi:

– Bu günlərdə Azad Şərifovu danlamışam. İndi isə fikirləşirəm ki, nə üçün? O iki dəfə yanıma gəlmək istəmişdi, mənsə ona demişdim ki, «sən məni işləməyə qoymursan». Sonra isə fikirləşdim ki, axı mən özüm ona tapşırıq verib, bununla bağlı məni məlumatlandırmasını xahiş etmişdim. Daha onu niyə danlayıram ki?

O çox obyektiv, ədalətli insan idi. İşləyən insanları xoşlayırdı. Xüsusilə də əgər onlar sadəcə icraçı, necə deyərlər, «buyuruq qulu» yox, yaradıcı şəkildə düşünən insanlardırsa».

Bəzən Heydər Əliyev öz komandasının üzvlərinə istənilən cəzadan daha təsirli olan özünəməxsus «tərbiyə» metodları tətbiq edirdi.



Həsən Əziz oğlu Həsənov bununla bağlı 70-ci illərin sonuna aid olan maraqlı bir əhvalat danışdı.

«Gəncədə işləyərkən mən sonradan Heydər Əliyeviçlə razılaşdırmaq üçün bir sıra təkliflər hazırlamışdım. Bakıya gəlməmişdən əvvəl MK-ya zəng vurub, «birinci»nin qəbuluna yazıldım. Mənə zəng vurub dedilər: «Heydər Əliyeviç sizi filan gün, saat filanda qəbul edəcək». Görüş vaxtı mən öz təkliflərimi bildirdim, Heydər Əliyeviç onları bəyəndi.

Mən onun çoxsaylı suallarını da cavablandırdım. Uzun sürən söhbətimizin sonunda o dedi: «Yaxşı, hər şeyi yazılı şəkildə izah et, mən sənin məsələni həll edim». Mən cavab verdim: «Mən artıq hər şeyi yazmışam». – «Onda onu Yakov Mixayloviçə ver, mən bir azdan sənədləri nəzərdən keçirəcəyəm, dərkənar qoyaram». Heydər Əliyevin yanından xeyli gec çıxdım, gecə saat 12-yə işləyirdi. Görüşdəki uğurumdan qanad açaraq Azərbaycan Kommunist Partiyası MK-sının Ümumi şöbəsinin müdiri Yakov Mixayloviç Kirsanovun yanına gəldim, kağıza qol çəkib işin mahiyyətini ona izah etdim və evə yollandım. Vəzifəmi yerinə yetirdiyim üçün yüksək əhval-ruhiyyə ilə evə gəlib şam yeməyi yedim, yatmağa hazırlaşdım. Gecə saat 1-də telefon zəng çaldı. Dəstəyi qaldırıram – Yakov Mixayloviç Kirsanovdur. «Sizin mənə verdiyiniz kağızda imza var, ancaq tarix qoymamısınız». – «Bağışlayın, Yakov Mixayloviç, mən Heydər Əliyeviçin yanından elə qanadlanıb çıxdım ki, hər şeyi unutdum. Sabah səhər gəlib, sənədə tarix qoyaram». – «Yox, sabah olmaz, indi gəlmək lazımdır». – «Nə üçün? Siz mənim kağızımı gecəylə nə edəcəksiniz?» – «Mən heç bir şey eləməyəcəyəm. Heydər Əliyeviç dedi ki, əgər Həsənov gecə saat 1-də MK-ya gəlib məktuba tarix qoysa, o ömründə bir daha imza atdığı kağıza tarix qoymağı unutmayacaq». Doğrudan da, bu sanki adi, gündəlik hadisəni mən ömrüm boyu unutmadım. Sonralar özüm də tabeçiliyimdə olanlara bu metodu tətbiq etdim ki, onlar da yadda saxlasınlar, işi başqa cür yox, məhz belə icra etmək lazımdır. Təkcə tarix qoymaqla iş bitmir, başqa pintiliyə də yol verməsinlər».

İşi başından aşsa da, Heydər Əliyev təyin etdiyi kadrlarla fərdi iş aparmaq üçün vaxtını əsirgəmirdi. Oktyabr rayon partiya komitəsinin keçmiş birinci katibi Nazim İbrahimov heyrətamiz bir faktı misal gətirdi: 1973-cü ildə respublikanın rayon partiya komitələri rəhbərlərinin kütləvi şəkildə yenidən seçkisi keçirilərkən MK-nın birinci katibi seçkilər ərəfəsində hər bir namizədlə 3 saat söhbət etmişdi. Hər biri ilə! Bu isə bütövlükdə Azərbaycan üzrə 75-80 rayon demək idi.

Onlarla istirahətindən, ailəsindən, uşaqlarından kəsdiyi saatlar hesabına söhbətləşmişdi. Bu və ya digər rayonda görülən işləri, daha nələr etmək lazım olduğunu, birinci katibin özünü xalqla necə aparmalı, tabeliyində olanlarla necə rəftar etməli olduğunu və s. səsləndirmişdi.

«Mən dörd dəfə raykomun birinci katibi seçilmişəm, – deyə N.İbrahimov danışır. – Heydər Əliyeviçin ilk söhbətimizdə mənə nə cür tövsiyələr etdiyini heç vaxt unutmaram.

– Partiya işinə keçəndən sonra həyatında hər şey dəyişiləcək, – deyirdi. – Sən cəmiyyətdə özünü belə sərbəst hiss etməyəcəksən. Təsəvvür elə ki, səni lüt soyundurub küçəyə buraxıblar. Sən küçə ilə gedirsən və üzbəüz gələn hər kəs sənin ayıblarını, qüsurlarını müzakirə edir. Sən əl içindəki kimisən. Bunu ona görə deyirəm ki, sən katib olandan sonra bir şeyi yaddan çıxarmayasan. Əvvəllər idmançı olmusan, müxtəlif adamlarla dostluq etmisən, oturub-durmusan, restoranlara getmisən, yeyib-içmisən. Özünü tam sərbəst aparmısan. İndi isə sən nəzarət etməlisən ki, avtomobilə necə minirsən, məhz hansı yerdə oturursan, insanlarla necə danışırsan, iclasda necə çıxış edirsən. Əgər əvvəllər buna o qədər də diqqət yetirilmirdisə, indi artıq sən birinci şəxssən, hamının diqqəti səndədir. İstər-istəməz tərbiyəçi olursan, özünün həyat tərzinlə, məişətinlə, özünü aparma tərzinlə hamıya nümunə göstərirsən.

O, uzun zaman özümü xalqla, tabeçiliyimdə olanlarla necə aparmalı olduğumu izah etdi. Belə dərslər həmişəlik yadda qalırdı».

«Onun bütün problemlərin dərinliyinə getməsi məni həmişə heyrətləndirirdi. Hər bir bayram qabağı – 7 noyabrda, 1 mayda – 10-15 gün qabaq o bütün MK katiblərini, Nazirlər Soveti sədrlərinin müavinlərini, bizi, hərbi rəhbərləri yığırdı. Nazirlər Soveti sədrinin hər bir müavini öz sahəsi üzrə ərzaqla təminat, şəhərin təmizliyi, ictimai asayişin təşkili barədə məruzə edirdi. Məni bir hadisə heyrətləndirdi. Hansısa bayram ərəfəsində o dedi:

– Dünən mən mağazaları gəzdim, nədənsə onların heç birində qəhvə yoxdur.

Nazirlər Soveti sədrinin müavini cavab verdi:

– İttifaq üzrə ehtiyatda cəmisi 400 ton qəhvə qalıb. Başqa heç bir şey yoxdur.

– Bəs nə üçün həmin 400 ton İttifaqdadır? Nə üçün onlar Azərbaycanda olmamalıdır? – deyə Heydər Əliyev soruşdu.

*H.Əliyev Naxçıvan MSSR-in 50 illik yubiley təntənələri zamanı növbəti obyekti açmağa hazırlaşır*

*Şəki. 6 iyul 1974-cü il. H.Əliyev S.Kozlov (solda) və A.İbrahimovla.*

*Azad Şərif (solda), Maksim Radayev (ortada) və Heydər Əliyev Naxçıvanda.*

*Lənkəran sərhəd dəstəsində. H.Əliyevdən sağda - general-mayor M.Nəsirov və Lənkəran şəhər partiya komitəsinin 1-ci katibi İ.Məmmədov.*

*Heydər Əliyev Bakının Nəsimi rayonunda. Solda - Lidiya Rəsulova.*

*Şuşada Mədəniyyət evinin qarşısında. H.Əliyev şəhər rəhbərlərinə şəhərin abadlaşdırılmasına dair göstərişlər verir. Dekabr, 1977-ci il.*

*Soldan sağa: general-polkovnik A.Kovtunov, Q.Xəlilov və H.Əliyev hərbi parad qəbul edirlər.*

*H.Əliyev sərhəd qoşunlarının 60 illiyinə həsr olunmuş təntənəli iclasda. H.Əliyevdən sonra - general-mayor M.Nəsirov, sağda - Bakı şəhər partiya komitəsinin 1-ci katibi Ə.Kərimov*

*Heydər Əliyev, aviasiya marşalları Gelovani, Koldunov və başqaları Qəbələ şəhərində RLS-in tikintisi ilə maraqlanırlar. 13 may 1978-ci il*

*H.Əliyevin "yaxın dairə" üzvləri. Ayaq üstə (soldan sağa): F.Əhmədov, B.Mirzəcanov, M.Nəzərov. Əyləşiblər: C.İldırımzadə, L.Tairov, S.Tatlıyev, Y.Kirsanov*

*H.Əliyevin 1977-ci il dekabrın 20-də Azərbaycan Ali Sovetində dövlət təhlükəsizliyi orqanlarının əməkdaşları ilə görüşü*

*H.Əliyev və Azərbaycan hökumətinin üzvləri respublika kommunist partiyası XXX qurultayının nümayəndələri olan çekistlərlə.*
*Yanvar, 1981-ci il.*

*H.Əliyev Sov.İKP XXVI qurultayının nümayəndələri olan Azərbaycan qadınları ilə, 1981-ci il.*

*H.Əliyev Qələbə günü Həzi Aslanovun abidəsini ziyarət edərkən. 80-ci illərin əvvəli.*

*H.Əliyeva Kremldə Sosialist Əməyi Qəhrəmanı Qızıl Ulduzunun və Lenin ordeninin təqdim olunması. 1979-cu il.*

*H.Əliyevə Oktyabr inqilabı ordeninin təqdim olunması. 1982-ci il.*

*Sov.İKP MK-nın Baş katibi L.Brejnev tərəfindən*
*Azərbaycan SSR-ə Lenin ordeninin təqdim olunması.*

*Onun fitri natiqlik istedadı var idi.*

*O həmsöhbətinə diqqətlə qulaq asmağı bacarırdı.*

*H.Əliyev Azərbaycan həmkarlar ittifaqlarının XVI qurultayına həsr olunmuş konsertin iştirakçıları arasında. 9 fevral 1982-ci il.*

*H.Əliyev SSRİ Ali Soveti nümayəndə heyətinin üzvləri ilə Meksikada. Aprel, 1982-ci il.*

*Moskvaya getmək ərəfəsində Azərbaycan KP MK-nın Büro üzvləri ilə vida şəkli. Onlar hələ ki vahid komandadır.*

Əgər məsələ həllini tapmırdısa, o heç bir bəhanəni qəbul etmirdi. Özü də tam ciddiyyətlə sorğu-sual edirdi. O həmişə parada hazırlığın vəziyyəti ilə maraqlanırdı, xəbərdarlıq edirdi:

– Yoldaş hərbçilər, əgər orduda parada hazırlıqla bağlı əyər-əskik varsa, siz vaxtında məruzə edin ki, tədbir görmək mümkün olsun.

O, xırda bir şeyi də nəzərdən qaçırmırdı.

Bir də Əliyev ondan nəyisə gizlətməyi, bu və ya digər şəraiti qeyri-obyektiv qiymətləndirməyi heç xoşlamırdı. O, cəhd edirdi ki, insanlar öz sahələrində işlərin vəziyyətini real şəkildə qiymətləndirməyi bacarsınlar, həqiqəti, gerçəkliyi bəzəyib-düzəyib təqdim etməsinlər».

*(4-cü ordunun siyasi şöbəsinin keçmiş rəisi A.Qudkovla söhbətdən).*

Heydər Əliyevin keçmiş referenti Mixail Zabelin mənə daha bir maraqlı əhvalat danışdı:

«Bir dəfə Heydər Əliyeviç hansısa tədbirdə, partiya fəallar yığıncağında, ya da respublika yığıncağında çıxış edirdi. Elə o gün futbol oyunu keçirilirdi. «Neftçi» hansısa komanda ilə oynayırdı. Oyundan birbaşa translyasiya göstərilməli idi. Ancaq bizim Dövlət Teleradio Komitəsinin rəhbəri oyunun translyasiyası əvəzinə fəallar yığıncağının lent yazısını nümayiş etdirməyə başladı.

Heydər Əliyeviç həmin vaxt oyun getdiyini bilmədən, öz çıxışına baxırdı. Həsən Həsənov zəng vurub Heydər Əliyeviçlə calaşdırmağı xahiş etdi. Mən onu MK-nın birinci katibi ilə calaşdırdım. Həsənov vəziyyət barədə məlumat verdi. Bundan sonra Heydər Əliyev hamıya, o cümlədən Həsənovun özünə də elə bir divan tutdu ki, gəl görəsən. «Məni belə pis vəziyyətə niyə salırsınız? Siz nə edirsiniz? Siz oyunun translyasiyasını mənim çıxışımla əvəz etmisiniz. Camaat oturub, məni lənotləyir. İnsanlar televizorların qarşısında oturub, futbola baxmaq istəyirdilər, Heydər Əliyev peyda olur. Sizcə bu tədliğatdır, ya əks-təbliğat? Gör bir siz nə edirsiniz?»

Həsən müəllim ona bu barədə məlumat vermişdi, məlumat verməyə borclu idi. O, idmana, mədəniyyətə hamilik edirdi. Yoqin ki, etiraz zəngləri başlandı, bəlkə də o özü də oyuna baxmaq istəyirdi, onu isə loğv eləmişdilər. O, yaxşı bilirdi ki, Heydər Əliyevə məlumat verməsə, sabah daha pis olacaq. Onlar hamısı çox gözəl bilirdilər ki, öz səhvlərini gizlətməkdənsə, «birinci»yə məlumat vermək yaxşıdır. Onsuz da bir gün üzə çıxacaq. Onda o, səhv

eləməyə görə də, üstəlik bunu ondan gizlətməyə görə də dərsini verərdi».

Mən öz müsahiblərimdən soruşurdum: «Heydər Əliyevin komandasında işlədiyiniz illər sizə nə verib?» Bu suala Milli Məclisin deputatı Hadi Rəcəbli belə cavab verdi:

«Hər şeydən əvvəl, yüksək icra etmə intizamı. İkincisi – təşkilatçılıq. Özünü və ətrafında olanları təşkilatlandırmaq. Üçüncüsü – mənəvi keyfiyyətlər. Bu keyfiyyətlər mənə genetik şəkildə keçmişdi və onun tələbatına uyğun olaraq inkişaf etmişdi. Bizi daima onun yüksək tələbkarlıq aurası əhatə edirdi. On iki ildir ki, mən Parlamentin deputatıyam, Milli Məclisin sosial siyasət şöbəsinə rəhbərlik edirəm. Nazirlərin biri də deyə bilməz ki, mən ondan nə isə xahiş etmişəm. Yəqin ki, bunlar mənim bugünədək mənliyimi qorumağa səbəb olub. O dəstədən bu gün kim qalıb işləyir? Sahib Ələkbərov, Zeynal Nağdəliyev, Eldar Əzizov, Arif Rəhimzadə. Onların hamısı Heydər Əliyevin aşıladığı yüksək mənəvi və iş keyfiyyətləri ilə seçilirlər. Kim onun tələblərinə sadiq qalıbsa, özlərini mühafizə edə biliblər. Kim onu pozubsa – hansısa mərhələdə fəal həyatdan uzaqlaşıb. Xoşbəxtəm ki, Heydər Əliyevin məktəbini keçmişəm və onun etimadını itirməmişəm».

## «MK Bürosunda tam diskussiya azadlığı hökm sürürdü...»

Heydər Əliyevin aparatdakı işinin üslub və metodlarını anlamaq üçün «yetmişincilər»in Azərbaycan KP MK-sı Bürosunun necə keçirilməsi ilə bağlı xatirələri xüsusi maraq kəsb edir. Həmin yığıncaqlarda iştirak edənlər təsdiq edirlər ki, Büronun hər bir yığıncağı, gedişi zamanı Heydər Əliyevin öz komandasının üzvlərinə dövlət və siyasi idarəetmənin virtuoz vərdişlərini nümayiş etdirdiyi, ən kiçik detallarına qədər düşünülmüş və quruluş verilmiş, müasir dillə desək, «usta dərsləri» idi.

Sonralar Andrey Karaulovla söhbətində Heydər Əliyev qeyd edirdi: «MK Bürosunda, Katibliyin iclaslarında tam diskussiya azadlığı hökm sürürdü. Bəzi yoldaşlara elə gəlirdi ki, bizim iclaslarımız uzun sürür. Bir məsələnin müzakirəsi bəzən 3-4 saat çəkirdi. Hər kəsin öz sözünü deyə bilməsi üçün, hər şeyi araşdırmaq və düzgün qərar qəbul etmək üçün biz vaxta qənaət etmirdik»[11].



Büro üzvləri ilə münasibətə gəlincə, Heydər Əliyevin dediyinə görə «hörmət çərçivəsində olsa da, çox ciddi və tələbkarlıq xarakteri daşıyırdı. Heç vaxt ətrafımdakılarla yaxın münasibətdə olmamışam»[12].

Hər şeyin düzünü demək lazımdır. Elə Büronun ilk yığıncağındaca yeni rəhbər tabeçiliyində olanlara ibrətamiz dərs verərək, birmənalı şəkildə anlatdı ki, Vəli Yusif oğlu Axundovun liberal idarəçiliyi dövrü keçmişdə qaldı. Bu barədə Heydər Əliyevin keçmiş köməkçisi – referenti Turan Hüseynov həmişəki kimi emosional danışır:

«Axundov çox yumşaq, ziyalı insan idi. Bəzən həddən artıq yumşaqlıq göstərirdi. Sizə bu rəhbəri xarakterizə edən maraqlı bir əhvalat danışım.

Ənvər Nəzər oğlu Əlixanov Vəli Axundovun dövründə Nazirlər Sovetinin sədri idi. O, demək olar ki, həmişə Büronun iclaslarına gecikərdi. Özü də nümayişkaranə şəkildə. Əlixanov, ümumiyyətlə, Axundovdan güclü idi, onu heç saymırdı. Büro yığıncağı başlayanda «birinci» məni yanına çağırırdı: «Turan, sən yoldaş Əlixanova zəng vurmusan?» – «Zəng vurmuşam». – «Bir də zəng vur, de ki, biz onu gözləyirik». Büro adətən cümə axşamları saat ikidə yığışırdı. Mən Əlixanova zəng vururdum, o isə kobudcasına: «Əşşi, dedin də mənə. Yaxşı da!» – deyə cavab verib, dəstəyi asırdı. Beş-yeddi dəqiqədən sonra o peyda olurdu. MK və Nazirlər Soveti o vaxtlar bir binada yerləşirdi, o yalnız dördüncü mərtəbədən keçməli idi. O qəbul otağına daxil olur və bilə-bilə ki, qonşu otaqda Büro üzvləri onu gözləyir, tələsmədən telefona yaxınlaşır, evə – arvadına zəng vurur, əhəmiyyətsiz şeylər barədə danışırdı. Yalnız bundan sonra Büroya daxil olurdu. Bax, hər dəfə o belə kiçik tamaşalar nümayiş etdirirdi.

Heydər Əliyev MK-nın birinci katibi olanda, mühafizə rəisi Namiq Tağızadə mənə dedi: «Baxaq, görək o indi də gecikəcək?»

Heydər Əliyevin keçirdiyi ilk Büro yığıncağına Əlixanov beş dəqiqə gecikdi. Bu vaxt xüsusi rabitə telefonu ilə zəng vurdular. Heydər Əliyevsə mənə tapşırmışdı ki, əgər həmin telefonla zəng vursalar, mən məşğul olsam da, Büro yığıncağı keçirsəm də, lap elə yemək yesəm də, sən zəng eləyənin kim olduğunu yaz, gətir masamın üstünə qoy. Mən Sov.İKP MK katibi Fyodor Kulakovun zəng vurduğunu kağıza yazıb, Büro iclasının keçirildiyi zala keçdim. Elə bu vaxt Əlixanov da ora daxil oldu. Beləliklə, mən istər-istəməz oradakı söhbətin şahidi oldum.

Heydər Əliyev dedi: «Ənvər Nəzəroviç, yaxşı, mənə hörmət qoymursunuz, axı bu adamlara da hörmətsizlik edirsiniz! – deyə kabinetdə oturanları göstərdi. – Siz niyə gecikirsiniz?

Əlixanov özünü təmizə çıxarmağa başladı: «Polşadan qonaqlarım vardı».

«Siz nə danışırsınız? Siz daima gecikirsiniz. Özü də bilərəkdən gecikirsiniz!» – deyə Heydər Əliyev yumruğunu masaya çırpdı.

Əlixanovun üzünü qıpqırmızı ləkələr bürüdü. Əvvəllər onunla heç kim bu cür danışmağa cürət etməzdi.

Büro yığıncağı başa çatandan sonra Əlixanov kabinetdən çıxıb, deyinməyə başladı: «Buna bax bir, gör mənimlə necə danışır! Mənsə onu general rütbəsinə təqdim etmişəm!»

*Tezliklə Ənvər Əlixanovu Əli İbrahimov əvəz elədi. O, təmiz, namuslu adam idi, respublika iqtisadiyyatından əla baş çıxarırdı. Yeni təyinatına qədər İbrahimov Dövlət Plan Komitəsinə başçılıq etmişdi. Doğrudur, ona bələd olanlar, yaxşı xatırlayırlar ki, onun yeganə çatışmazlığı vardı – o sənədlərə imza atmağı xoşlamırdı və maliyyə məsələlərində həddindən artıq ehtiyatlı idi. Hamı deyirdi: «Sənəd Əli İzmayloviçə imzalanmağa gedibsə, onu 2-3 ay gözləmək lazım gələcək». Heydər Əliyev Büro iclaslarında onu dəfələrlə danlayırdı: «Sən niyə qərar qəbul etmirsən, süründürməçiliyə yol verirsən, işi ləngidirsən?» O isə həmişə filosofanə cavab verirdi: «Tələsən tərsə düşər».*

*Respublika Dövlət Plan Komitəsində bir neçə il onun bilavasitə rəhbərliyi altında işləmiş Fuad Musayev Əli İbrahimov haqqında çox maraqlı xatirələrini mənimlə bölüşdü:*

*«Əli İzmayloviç həqiqədən həddən artıq ehtiyatlı adam idi. Bu qorxu, xof onun canına Stalin dövründən hopmuşdu. O, 1913-cü ildə Sibirdə anadan olmuşdu. Valideynləri gərək ki, inqilabi fəaliyyətlərinə görə oraya sürgün olunmuşdular. Mən Azərbaycanda ikinci belə ağıllı adam tanımıram. Otuz üç yaşında onu Zaqafqaziya Plan Komitəsinin (ZakPlan) sədri təyin etmişdilər. Kosıgin SSRİ Nazirlər Sovetinin iclaslarını aparan zaman mən onunla Moskvaya getmişdim. İbrahimov bəzən məni özü ilə aparırdı və mən görürdüm ki, orada onun necə böyük nüfuzu var.*

*O, ixtisasca maşınqayıran idi, rəhbər işə zavod direktoru vəzifəsindən irəli çəkilmişdi. Mənə deyirdilər, sən yeganə adamsan ki, o səni özü yüksək vəzifəyə namizəd göstərib. Başa düşürsünüz, o kimisə irəli çəkməkdən çəkinirdi, birdən o sabah nəsə törədə bilər və*



*onun üzərinə kölgə düşər. O çox ehtiyatlı, mühafizəkar adam idi. Bəzən Heydər Əliyevi onun iş tempi qane etmirdi. Onu cəldliyi, yüksək operativliyi ilə Seyidov daha çox razı salırdı. Dövlət Plan Komitəsinin keçmiş sədri İbrahimov isə hər şeyi diqqətlə yoxlamağa, onu dəfələrlə razılaşdırmağa adət etmişdi. İbrahimov hələ Mircəfər Bağırovun vaxtından Dövlət Plan Komitəsi sədrinin birinci müavini işləyirdi. O, heç kəsə müyəssər olmayan həyat məktəbi keçmişdi.*

*Məsələn, onun başına belə bir iş gəlmişdi. Bir gecə Mircəfər Bağırov Büro iclası keçirir. Kiminsə imzaladığı, düşmənçilik aksiyası kimi təqdim edilən sənəd barədə sual verir. O, İbrahimovu ayağa qaldırıb soruşur: «İbrahimov, bu sənədi siz imzalamısınız?» Əli İzmayloviç xatırlayır ki, mən bir anlıq o dünyanı görüb gəldim. Ancaq bilirdim ki, o kağızı mən imzalamamışam. Bağırov yoxlayıb, arayış təqdim etməyi tapşırdı. «Mən Büro iclasından işə qayıdana kimi az qaldı ürəyim dayansın. Gələndən sonra əmin oldum ki, sənədi mən imzalamamışam».*

*Yeri gəlmişkən, sənədi imzalayan adam sonralar güllələnmişdi. O mənə deyirdi: «Nəzərə al ki, Plan Komitəsində son dərəcə diqqətli və ehtiyatlı olmaq lazımdır. Sənə yuxarılardan zəng vurub deyə bilərlər ki, bunu təcili həll etmək lazımdır. Ancaq sən görürsən ki, burada nə isə qaydasında deyil. Onda nə etməlisən? Oturub yuxarıya məktub yazırsan: «Sizin göstərişinizlə filan məsələyə baxıldı. Ancaq filan-filan səbəblərə görə həmin məsələni həll etmək mümkün deyil. Göstərişlərinizi verməyi xahiş edirəm». Sənəd göndərilir. Yuxarılarda sənədi alıb, dərkənar qoymalıdırlar. Əgər yazsalar ki, «yerinə yetirin» – sən mütləq icra etməlisən. Əgər həmin dərkənar yoxdursa, sənin üzərindən məsuliyyət götürülür».*

*Adamlar deyəndə ki, o sənədləri imzalamağı xoşlamır, söhbət bax, bundan gedirdi.*

*Bir dəfə Heydər Əliyev, görünür, onunla çox sərt danışmışdı. Əli İzmayloviç mənə birbaşa telefonla zəng vurdu: «Sən nəyə görə bu obyekti plana salmamısan?» Mən cavab verdim ki, filan səbəblərə görə bu mümkün deyil. O, israrla həll etməyi tələb edirdi. Mən oturub onun özünün öyrətdiyi kimi məktub yazdım və göndərdim.*

*Aradan bir gün, iki gün, üç gün keçdi. Nazirlər Sovetinin yığıncağı gedirdi. İclasdan sonra Əli İzmayloviç dedi: «Musayev, yanıma gəlin». Kabinetinə daxil oldum. Gördüm gülümsəyir. «Afərin sənə. Arayışını götürüb MK-ya getdim, orada göstərdim. Məsələ həll olundu».*

*O, gözəl mütəxəssis idi. Belə deyirdilər ki, o illər Azərbaycanda Süleyman Vəzirovdan sonra başqa belə mütəxəssis xatırlamırlar.*

*Ümumiyyətlə, Heydər Əliyevin çox layiqli komandası vardı. Aşağı, orta pilləsi başlamış zavod direktorlarına, tikinti trestlərinin müdirlərinədək bütün rəhbərlər mükəmməl hazırlıqlı, savadlı, bacarıqlı mütəxəssislər idi. Bu komandada təsadüfi adam, demək olar ki, yox idi».*

Beləliklə, MK Bürosu həftədə bir dəfə cümə axşamları yığışırdı. Növbədənkənar yığıncaqlar da keçirilə bilərdi. Büro yığıncaqları çox az hallarda, Heydər Əliyev Moskvada olanda təxirə salınırdı.

Hər şöbə qabaqcadan MK Bürosunda baxılmasını zəruri hesab etdiyi məsələləri təqdim edirdi. Lidiya Rəsulovanın sözlərinə görə, Heydər Əliyev məsələləri dərhal Büroya çıxarmağı xoşlamırdı. O, problemləri şöbələrdə diqqətlə araşdırmağa, onun dinamikasına nəzarət etməyə, müstəqil şəkildə həllini tapmağa cəhd edilməsinə, bütün bunlardan sonra zərurət olarsa Büroda baxılmaq üçün çıxarılmasına üstünlük verirdi:

«Bu, elə düzgün qərar idi, – Lidiya Rəsulova belə hesab edir. – Çünki sən hansısa məsələni dərhal Büroya çıxarırsansa, daha artıq subyektivliyə yol verə bilərsən. Misal üçün, bu və ya digər nazirliyin və ya ali təhsil ocağının fəaliyyəti qabaqcadan şöbədə araşdırılanda, bütün materialları nəzərdən keçirəndə, problem tam həcmdə aşkara çıxır. Biz problemi müzakirə edib, bu və ya digər çatışmazlıqları göstərib, zəruri hallarda xəbərdarlıq edirdik. Vaxt verirdik. Bir müddətdən sonra biz bu məsələnin üstünə qayıdanda bəzən belə hallarla üzləşirdik ki, bu idarədə həmin çatışmazlıqlar, işə və konkret məsələyə həminki münasibətlər qalmaqdadır. Bax, onda qərar qəbul etmək üçün həmin məsələni MK Bürosuna çıxarmaq zərurəti yaranırdı. Bu üsul həm də obyektivliyə xidmət edirdi, insanlar şikayətlənməsinlər ki, hansısa neqativ halı aşkara çıxaran kimi dərhal məsələni Büro yığıncağına qoyurlar. Bu çox yaxşı məktəb idi. O, rəhbərlərə də özlərini düzəltməyə imkan verirdi, istəsəydi o qeyd olunan nöqsanları aradan qaldırıb, MK Bürosunda müzakirə olunmaqdan yaxa qurtara bilərdi».

İclasdan bir gün qabaq Büronun bütün üzvləri gündəlikdə duran məsələlər barədə məlumatlandırılırdılar. Əgər məsələ təşkilati nəticələr olmadan da ötüşürdüsə, Büro üçün arayış hazırlanırdı. İkinci halda qərar layihəsi hazırlanırdı. O, Büroya qədər müzakirə olunurdu. Büro üzvləri yığışıb, kimisə işdən azad etmək və ya ona partiya cəzası vermək lazım olub-olmadığını qabaqcadan həll edirdilər. Büro qərar layihəsini dəyişə də bilərdi. Müzakirənin gedişi bəzən



cəzanın yüngülləşməsi və ya əksinə, ağırlaşması istiqamətində ciddi dəyişikliklərə də səbəb ola bilərdi.

«Büro iclasının keçirilməsi qaydası belə idi, – deyə Ramiz Mehdiyev yada salır. – Əvvəlcə şöbə müdiri və ya onun müavini kiçik məruzə ilə çıxış edərək, məsələnin mahiyyətini şərh edirdi. Sonra söz haqqında məsələ qaldırılan nazirlik və ya idarənin rəhbərinə verilirdi. Məsələnin birbaşa və ya dolayısı ilə aid olduğu müəssisədən dəvət olunanlar da Büroda iştirak edirdilər. Onlara da həmin məsələ ilə bağlı çıxış etməyə imkan yaradılırdı. Sonra Heydər Əliyev Büro üzvlərinə müraciət edərək öz fikirlərini söyləməyi xahiş edirdi. Hamı öz fikrini söyləyəndən, mənzərə tamamilə aydın olandan sonra o, yekun vurmağa və öz qiymətini verməyə başlayırdı. Sonda şöbənin irəli sürdüyü məsələ səsə qoyulurdu: misal üçün, şöbə hesab edir ki, kiməsə uçot vərəqinə yazılmaqla və vəzifəsindən kənarlaşdırılmaqla şiddətli töhmət verilməlidir. Büro üzvləri isə belə fikrə gəlirlər ki, töhmətlə kifayətlənmək və həmin kadra nöqsanlarını islah etmək üçün vaxt vermək olar. Əksinə də ola bilərdi: MK katibi və ya şöbələr tərəfindən məsələyə daha liberallıqla yanaşılar, Büroda isə şöbənin əməkdaşlarının nəzərə almadıqları əlavə faktlar aşkara çıxa bilərdi. Onda tamam başqa vəziyyət yaranırdı».

Lidiya Rəsulova xatırlayır ki, Büro yığıncaqlarından birində çörək-bulka məmulatları istehsalında və onların satışındakı ciddi çatışmazlıqlar barədə məsələyə baxılırdı. Çörək kombinatları aşağı keyfiyyətli məhsul buraxırdılar, bununla bağlı MK-ya əhalidən çoxsaylı şikayətlər daxil olurdu. Büro iclasına qədər ciddi cəzalarla bağlı təşkilati qərar hazırlanmış, yeyinti sənayesi naziri, «Bakı çörək ticarəti» idarəsinin rəhbərliyi barədə də məsuliyyət ölçüləri müəyyənləşdirilmişdi.

«Belə Büro yığıncaqları öncəsi biz, Büro üzvləri çox həyəcanlanır, narahat olurduq, – deyə Lidiya xanım xatırlayır, – hesabat verməli olanların necə əsəb keçirdiklərindən isə danışmağa dəyməz. Büro yığıncaqlarında bizdən başqa, daima dəvət olunanlar – MK-nın şöbə müdirləri və məsələsi müzakirə olunanlar da iştirak edirdilər. Biz onlardan qabaq yığışırdıq ki, mövqeyimizi müəyyənləşdirək, hansısa əlavə məlumatı dinləyək. Büro üzvləri buna hazırlaşırdılar. Onlar da hərə öz xətti ilə bu və ya digər məsələyə və ya məsələnin qoyuluşuna aydınlıq gətirə bilən hər hansı materialı toplayırdılar.

Biz Büroya qədər yığışıb, çörəklə bağlı vəziyyəti müzakirə edirdik. Qabaqcadan hazırlanmış qərar layihəsi qüvvədə saxlanılmışdı. Ən əvvəl MK əməkdaşının məlumatını dinləmək nəzərdə tutulmuşdu, çünki söhbət ciddi problemdən gedirdi. Şöbə müdirlərindən kimsə məruzə etməli idi. Ancaq elə oldu ki, Heydər Əliyeviç dərhal müzakirələrə keçdi. Nazirdən bu məsələ ilə bağlı dərhal hesabat verməsini tələb etməklə onu çaşdırdı. Yeyinti sənayesi naziri Məmmədov yaxşı adam idi, sonralar Heydər Əliyeviçin dövründə tədarük naziri oldu.

O, çıxışını bu sözlərlə başladı:

– L.İ.Brejnevin «Xam torpaq» kitabında deyildiyi kimi, «çörək olarsa, mahnı da olacaq». Büroda isə hamı gərginlik içərisində oturmuşdu, nə isə dəhşətli bir şey gözləyirdilər. Onun bu sözləri gülüşə səbəb oldu və gərginliyi azaltdı. Heydər Əliyevin də dodağı qaçdı, çünki gülməmək mümkün deyildi. Sonra müzakirə başlandı. Nazir çox inandırıcı danışırdı. O nəinki rəhbərlik etdiyi sahənin nöqsan və çatışmazlıqlarından danışdı, həm də nazirliyin hansı tədbirlər görəcəyini söyləməyə hazır olduğunu da nümayiş etdirdi. Onun çıxışı Büro üzvlərində və Heydər Əliyevdə belə bir inam yaratdı ki, həqiqətən də, bu məsələdə dönüş olacaq, müsbət dəyişikliklər baş verəcək. Ona görə də ciddi xəbərdarlıqla kifayətləndilər. Halbuki naziri uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət gözləyirdi».

Çox vaxt bu və ya digər məsələnin müzakirəsi zamanı, nəzərdə tutulan qərarın məsələnin bütün aspektlərinə uyğun gəlmədiyi aydın olan zaman Heydər Əliyev fasilə elan edirdi. O, Büro üzvlərini öz kabinetinə yığır, yenidən diskussiyalara, mövqelərin razılaşdırılmasına başlanırdı. O, səhvə yol vermək istəmirdi, çünki bütün bunların arxasında canlı insan taleyi dururdu.

Həsən Seyidov özünün MK katibi olduğu zaman baş vermiş bir hadisəni yada saldı:

«Biz bir zavodun fəaliyyəti barədə məsələni Büronun gündəliyinə salmışdıq. Mən də, şöbənin əməkdaşları da hiss edirdik ki, Büronun bəzi üzvləri məsələnin qoyuluşu cəhətdən bizimlə razı deyillər, fikirlərimiz üst-üstə düşmür. Heydər Əliyev başa düşdü ki, mən direktorun işdən çıxarılmasında, ona cəza verilməsində və s. israrlıyam. Mən şöbə əməkdaşlarının apardıqları yoxlamaya əsaslanırdım. Beləliklə, Büro başlandı, mən oturub düşünürdüm: o mənim təklifimi müdafiə edəcək, dəstəkləyəcək, ya digər Büro üzvlərinin? Qəflətən Heydər Əliyev fasilə elan elədi. Biz onunla



ikilikdə oturub, xeyli söhbət etdik. O mənə səbrlə izah etdi ki, düzgün qərar hansıdır. Başa düşürsünüz, o istəyirdi ki, Büroda bütün məsələlər üzrə yekdil rəy formalaşsın. Axırda o, kompromis qərarı qəbul etmək lazım olduğuna məni inandırdı: direktoru cəzalandırmaq, ancaq əvvəlki iş yerində saxlayaraq, sınaq müddəti vermək lazımdır. Bir ildən sonra həmin məsələyə qayıtmaq olar.

O, heç vaxt nə MK katibini, nə də şöbə müdirini ayağa vermədi. Ümumiyyətlə, öz aparatının işçilərinə Heydər Əliyev xüsusi diqqətlə yanaşırdı. Büroda o, Nazirlər Sovetinin, Dövlət Plan Komitəsinin əməkdaşlarına irad tuta bilərdi. Ancaq MK aparatının işçilərinə – nadir hallarda.

Ancaq MK-nın partiya yığıncaqlarında tez-tez çıxış edib, çatışmazlıqlar barədə açıq danışırdı.

Bir halı vurğulamaq istəyirəm: respublikanın bəxti gətirmişdi ki, onun başında bu cür yüksək səviyyəli insan dururdu. Bizlərdən hər birimiz ondan nəyi isə əxz etməyə can atırdıq. Onun səviyyəsinə qalxmağa çalışırdıq. Ancaq bu, əlbəttə ki, mümkün olan iş deyildi. Ancaq əsas odur ki, ibrət götürməli, hər işdə örnək olası bir insan var idi».

Lidiya Rəsulova söyləyirdi ki, Heydər Əliyev MK-nın hər bir Büro yığıncağına möhkəm hazırlaşırdı. Tutaq ki, nə barədəsə məsələ qaldırılmışdı.

O, Büroya qədər həmin şöbənin müdirini və ya onun müavinini on dəfə çağırıb bir xeyli əlavə, bəzən də gözlənilməz suallar verə bilərdi. Əməkdaşlar yenidən – ikinci dəfə məlumat toplamaq məcburiyyətində qalırdılar. Lidiya xanım deyir ki, «təsəvvür edirsinizmi, Büroya 3-4 ciddi məsələ qoyulmuşdusa, materiallarla dolu 3-4 qovluq olurdu. Heydər Əliyev onların hamısı ilə tanış olurdu. Həm də özü oxuyub, lazım olanın altından qırmızı qələmlə xətt çəkir, qırağında qeydlər edirdi. Bilmirəm respublikada ikinci belə rəhbər olubmu ki, sənədlərlə bu cür dəqiqliklə işləsin. Mənim işləməli olduğum katiblərdən heç biri MK Bürosuna onun qədər hazırlaşmırdı».

Müsahiblərimin rəyinə görə respublika partiya təşkilatı rəhbərinə xas olan ən gözəl xüsusiyyət – dinləməyi bacarmaq qabiliyyəti idi. O, nəinki Büro üzvlərinə, həm də dəvət olunanların hamısına öz fikirlərini söyləmək üçün imkan yaradırdı. Özü heç vaxt birinci danışmırdı ki, diskussiyanı müəyyən axara yönəltməsin. Müzakirənin gedişi zamanı kimsə sual verə, kimisə ayağa qaldıra bilərdi. Ancaq heç vaxt öz mövqeyini bildirməzdi. Həmkarların çıxışlarının gedişin-

də özü üçün qeydlər edir, zəruri hesab etdiklərinin altından xətt çəkirdi.

Diskussiyanın sonunda toplaşanlar üçün «həqiqət anı» çatırdı. Heydər Əliyev növbəti dəfə «ustad dərsləri» nümayiş etdirirdi: məsələnin məntiqi ardıcıllığını yaradır, təklifləri ümumiləşdirir, nəzərləri daha əsas, aparıcı bəndlərdə cəmləşdirir, zəruri hallarda, əgər bu və ya digər Büro üzvünün fikri prinsipial xarakter daşıyırdısa, mühüm və konstruktivdirsə, onlara əsaslanır, vurğulayırdı ki, bütövlükdə düzgün təklif verilib.

Bir gün Həsən Seyidov sual verdi:

– Heydər Əliyeviç, siz Büroya gələndə, artıq hər bir məsələyə dair öz rəyiniz olur. Bəs belə hal olurmu ki, siz Büroya bir rəylə gəlib, başqası ilə gedəsiniz?

– Bəzən belə hallar olub. Mənim öz rəyim var, ancaq insanları dinləyəndən sonra, düşünürəm ki, mənim fikrim yanlışdır. Bu, normal haldır.

Bu barədə mənimlə söhbətində Azərbaycan DTK-nın keçmiş sədri Ziya Yusifzadə də xatırlayır:

– Elə hallar olurdu ki, bu və ya digər məsələnin müzakirəsi zamanı Heydər Əliyeviç fikrini dəyişir, Büroya qədər düşündüyü qərarı qəbul etmirdi. O, həmişə hamını axıradək dinləyər, hər çıxışdan ağlabatan fikri götürərdi. Özünün yekun nitqində o bütün bunları ümumiləşdirib vahid fikrə gələrdi. Hər kəsin rəyi nəzərə alındığından hamı razı qalardı».

Büroda «birinci»nin köməkçiləri, ümumi şöbənin müdiri və stenoqrafçılar mütləq iştirak edirdilər. Müzakirə zamanı hər şey stenoqraflaşdırılır, sonra, lazım gələrsə, bütün stenoqram yekun sənədi hazırlayan MK əməkdaşına verilərdi ki, o deyilmiş heç bir təklifi nəzərdən qaçırmasın. Qərar layihəsi, stenoqram nəzərə alınmaqla, işlənib başa çatdırılırdı. Özü də stenoqramı ertəsi gün verirdilər – belə bir operativlik mövcud idi.

«Çətin vaxtlarda, 1988-ci ildə Dağlıq Qarabağ məsələsi müzakirə olunanda isə, müxtəlif, bəzən bir-birinə zidd fikirlər səslənəndə biz çox vaxt stenoqramları görmürdük, – deyə Lidiya Rəsulova yada salır. – Müzakirə edirdik, Ermənistan qaçqınlarını Qarabağda yerləşdirmək lazımdırmı? Şəhər partiya komitəsinin katibi Musayev deyirdi ki, bu adamları Bakıda saxlamaq olmaz, onları məhz Qarabağa göndərmək lazımdır, onlar orada tez qayda-qanun yaradarlar. Vəzirovsa deyirdi ki, bizə münaqişə gərək deyil. İclasda stenoqrafçı yox idi. Doğrudur, ümumi şöbənin müdiri oturub nə isə yazırdı. Bu o



vaxtlar idi ki, Büro üzvləri çox vaxt Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi ilə razılaşmırdılar. Ancaq bu, rəsmi şəkildə heç bir yerdə öz əksini tapmırdı».

Nazirlər Sovetinin keçmiş sədr müavini İsmayıl Əli oğlu İbrahimovun rəyinə görə, Heydər Əliyevin MK-nın birinci katibi vəzifəsində fəaliyyətinin ən başlıca uğurlarından biri onun yaratdığı çox gözəl komanda idi.

«Yuxarılardakı ab-hava kökündən dəyişmişdi: hamı ahəngdarlıqla, nizam-intizamla işləyirdi, dedi-qodulara, çəkişmələrə, nifaqə son qoyulmuşdu. Bəli, Büro iclasları demokratik şəraitdə keçirdi, biz qapalı Büro yığıncaqlarında iki, üç saat danışa, mübahisə edə bilərdik. Ancaq qərar qəbul ediləndən sonra bütün mübahisələrə son qoyulurdu».

Mərkəzi Komitəyə rəhbərlik edərkən Heydər Əliyev təlimatçıları MK Bürosu iclaslarına dəvət edirdi. Bu, onlara tətbiq olunan təlim metodu idi. Müxtəlif şöbələrdən on təlimatçı Büroya dəvət olunur və əgər fövqəladə məxfi məsələlər meydana çıxmırdısa, demək olar ki, əvvəldən axıradək orada iştirak edirdi.

Beləliklə, bu yığıncaqlar gənc partiya kadrları üçün əsil universitetə çevrilirdi.

«Bu, təlim deyil? – deyə Mixail Zabelin yada salır. – Sən MK Bürosunun necə keçirildiyini, Heydər Əliyeviçin, Büro üzvlərinin necə çıxış etdiklərini, hansısa arayış üzrə MK-nın şöbə müdirlərinin necə məruzə etdiklərini öz gözlərinlə görürsən. Bunlar hamısı dərsdir. Sabah sən MK-nın Büro iclaslarına nə cür arayış hazırlanması, Büroya normal, düzgün, mükəmməl sənəd təqdim olunması üçün yoxlamanı nə cür həyata keçirməyi biləcəksən. Heydər Əliyevin Bürodakı çıxışları kiçik «sənət əsərləri» idi. Onun hər şeyi necə qayda-qanunla yerbəyer etməsini, necə geniş dünyagörüşü, məsələyə dərindən bələdlik nümayiş etdirməsini gərək öz gözlərinizlə görüb, qulaqlarınızla eşidəydiniz. Mən onun yanında referent işləməyə başlayanda, bu mənim üçün başqa bir məktəb oldu. Əvvəla, dilimizi dinc qoymağı öyrəndik. Bu, hər şeydən əvvəl – artıq-əskik danışmamağı, dəqiq məlumat verməyi, nəm-nüm etməməyi, nala-mıxa vurmamağı bacarmaq demək idi. Heydər Əliyeviçlə hər iş günü bizim üçün əsl məktəb idi».

Heydər Əliyev xoşlayırdı ki, məsələsi Büroda müzakirə olunan adamlar öz mövqelərinin müdafiəsi üçün dəlil-sübut gətirsin, özlərinin haqlı olduqlarını israr etsin, problemin həlli üçün konkret yollar

təklif etsinlər. Belə hallarda o, məsələnin qoyuluşunu dəyişdirib, Büro iclasının gedişini kəskin şəkildə başqa səmtə yönəldə bilərdi. Bu cür hallardan birini keçmiş ticarət naziri Svetlana Qasımova yada salır. O bu vəzifəyə 1979-cu ilin iyununda təyin olunmuşdu.

O illərdə Azərbaycan sənayesi gücünü artırır, daha çox xalq tələbatı malları istehsal edirdi. Doğrudur, bu malların keyfiyyəti o qədər də ürəkaçan deyildi. Ona görə də əsas vəzifə ondan ibarət idi ki, yüngül sənaye anbar üçün yox, istehlakçı üçün, bazar üçün işləsin. Volodarski adına fabrikin, Bakı Zərgərlik zavodunun, digər müəssisələrin məhsullarından çoxlu şikayətlər daxil olurdu.

«Ticarət naziri kimi mən buraxılan məhsulların keyfiyyətinə çox tənqidi yanaşırdım, – deyə Svetlana Qasımova yada salır. – Nazirlər Sovetinin hər ay keçirilən yığıncaqlarında mənim məlumatım dinlənilirdi: ötən ay ərzində ticarət sahəsində nə işlər görülüb, o cümlədən Azərbaycan sənayesi hansı xalq tələbatı mallarını istehsal edib.

Mən iclaslarda hamışə dəqiq fikir söyləyirdim. Çünki müəssisələrdəki vəziyyəti çox müfəssəl bilirdim, hər şey mənə təfərrüatı ilə məlum idi, əlimin altında faktlar var idi. Nazirlər Sovetinin yığıncaqları bir qayda olaraq mənim tənqidi məlumatlarımla başlayırdı. Bu, çoxlarına xoş gəlmirdi. Yuxarılara şikayətlər gedirdi, guya ki, sənaye sahəsində planlar artıqlaması ilə doldurulur, Ticarət Nazirliyi isə sənaye məhsullarını satmaqdan imtina edir. Hamıdan çox müəssisələrin rəhbərləri, məsələn, Zərgərlik zavodu narazılıq edirdi.

Mənə dedilər ki, MK Bürosunda mənim məsələmə baxılacaq, mənə ən azı töhmət verəcək, ya da işdən çıxaracaqlar.

Büroda Ticarət Nazirliyinin milyon manatlıq zərgərlik məmulatını qəbul etməməsi, anbarların satılmamış mallarla dolu olması barədə məlumat verilməndən sonra Heydər Əliyeviç mənə müraciətlə:

– Xitabət kürsüsünə çıx, – dedi.

Mən necə işlədiyimizdən danışmağa başladım. Sonra isə dedim:

– Konkret olaraq, müəssisələr üzrə məlumat vermək istəyirəm. Götürək elə Zərgərlik zavodunu. Doğrudur, biz onların məmulatlarını qəbul etmirik, çünki bunlar əsasən çox da qiymətli olmayan qırmızı qaşlı üzüklər, sırğalardır. Azərbaycanda artıq alıcılıq qabiliyyəti yüksəlib, qadınlarımız brilyant qaşlı sırğalar, zümrüd qaşlı boyunbağılar və qolbaqlar, mirvaridən həmayillər, firuzə qaşlı üzüklər taxmaq istəyirlər. Bizim qadınlar qızlarını ərə verəndə və ya oğullarını evləndirəndə qırmızı qaşlı ziynət əşyası almaz. Hamı brilyant qaşlı saat istəyir. Xalq yaxşı yaşamağa başlayıb, bu məmulatları almır. İnsanlar piştaxtada qızıl suyuna çəkilmiş gümüş qaşıqlar, çəngəllər,



vazalar görmək istəyir. Zavodun məhsulları arasında bunlar yoxdur. Mən bu zavodda dəfələrlə olmuşam, hazır məhsullar anbarına baş çəkmişəm. Bax, zal ağzınadək doludur. Qoy desinlər, kiminsə qızı və ya arvadı qırmızı qaşlı ziynət əşyası taxırmı? Heç kim taxmır, elə mən özüm də onları almaram. Onları zorla adamlara necə sırımaq olar? Siz satışdakı qalıqlara fikir verin. Mərkəzi Univermaqda, Bakı Univermağında bir neçə milyon manatlıq qalıq var, satışda milyardlarla manatlıq mal var. Mən təzə malı necə götürə bilərəm?

– Bəs onlar niyə qırmızı qaşlı məhsul istehsal edirlər? – deyə Heydər Əliyev maraqla soruşdu.

– Heydər Əliyeviç, həmin mallar Orta Asiyada çox tələb olunur. Daxili bazar üçünsə gərəkli deyil.

O, sərt nəzərlərlə müəssisə rəhbərlərinə, Nazirlər Sovetinin sədr müavinlərinə baxıb onları danlamağa başladı:

– Siz hara baxırsınız? Axı o düz deyir. Niyə siz firuzə qaşlı məmulat istehsal etmirsiniz? Niyə brilyantla, mirvari ilə işlənmiş boyunbağılar, üzüklər buraxmırsınız?

Mən oradan çıxanda, Ali Sovetin deputatı Yefim Qurviç dedi:

– Svetlana xanım, öz aramızdır, sizi işdən çıxarmaq fikrində idilər.

Vəziyyət isə tərsinə çevrildi. Başqa sözlə desək, Heydər Əliyeviç, heç vaxt araşdırmadan qərar çıxarmırdı. O vəziyyəti ətraflı öyrənirdi».

MK-nın bu və ya digər kadrlarının vəzifədən kənarlaşdırılması barədə məsələyə baxılan Büro iclasları həqiqətən çox gərgin keçirdi. Ancaq iclasın gedişində Heydər Əliyev qərarını dəyişə bilərdi. Xüsusilə də əgər «günahlandırılan»ın tərəfdarları onun xeyrinə ciddi dəlillər gətirsələr... Belə əhvalatlardan birini Azərbaycan KP MK-nın keçmiş katibi Fuad Musayev xatırlayır:

«...Bürodan qabaq sənaye tikintisi naziri rəhmətlik Səfərəliyev yanıma gəlib dedi ki, onun müavini Əjdər Əliyevi Sumqayıtda hansısa obyektin tikinti protokolunu imzalamadığı üçün işdən çıxarmaq istəyirlər. Həmin obyekt Azərbaycan Kommunist Partiyası MK-nın qərarı ilə inşa edilirdi. Tikintiyə cüzi vəsait ayırmışdılar, layihə sənədi yox idi, ona görə də İttifaq Nazirliyi obyekti qəbul etmirdi. Bütün sənədləri hazırlamalı olan sifarişçi «Ximprom» isə obyektin inşaata qəbul edilməsini Əjdər Əliyevdən tələb edirdi.

Heydər Əliyevə məlumat vermişdilər ki, Əjdər Əliyev sizin göstərişinizi yerinə yetirməkdən boyun qaçırır, səbəbini isə göstər-

məmişdilər. Büro yığıncağında mən ayağa qalxıb MK-nın birinci katibinə müraciətlə dedim: «Heydər Əliyeviç, Əjdər Əliyev obyekti əsasən səbəblərə görə qəbul etmir. Günahkar vaxtında layihə sənədlərini tam həcmdə hazırlamayan, maliyyələşməsini təmin etməyən sifarişçi «Ximprom»dur. Hamı heyrətlə mənə baxdı. Mən sadəcə olaraq vəziyyətə tam bələd deyildim. Büroda nadir hallarda «günahkarın» maraqlarını müdafiə etmək üçün ayağa qalxan olurdu. Əlbəttə ki, mənim atmacam «birinci»nin xoşuna gəlmədi. Bəlkə də bu barədə o özü danışmalıydı. Ancaq məsələ onunla qurtardı ki, Əjdər Əliyevi işdən kənarlaşdırmadılar, yalnız töhmət elan etdilər.

Başqa bir əhvalat. Öz vaxtında biz çoxlu mineral gübrə zavodları, anbarları tikirdik. Bütün bunlar da MK-nın qərarı ilə inşa olunurdu. Anbarlar avtomatlaşdırılmışdı. Avtomatika ilə işləməyi bacaran işçi isə yox idi. Obyektləri istifadə edənlər onları pis günə qoymuşdular. Çoxusunu mən kənd təsərrüfatı nazirinin birinci müavini işləyəndə inşa etmişdim. Aradan 4 il keçəndən, mən MK katibi olandan sonra gözlənilmədən məsələ Büroya çıxarıldı. Özü də belə formalaşdırıldı: «Mineral gübrə komplekslərinin tikintisi zamanı yol verilən sui-istifadə hallarına və yarımçıq görülmüş işlərə görə»... Başqa sözlə, bütün günahları inşaatçıların üçtünə yıxır və onları «məhşər ayağına» çəkirdilər. Bu məsələni qaldıran isə kənd təsərrüfatı şöbəsi, bu obyektlərin işinə məsul olan MK katibi İsa Məmmədovun şöbəsi idi. Məsələni araşdırmağı, komissiya yaratmağı tapşırırdılar. Komissiya kimin idi? Yenə də İsa Məmmədovun. Mənə imzalamaq üçün qərar layihəsini gətirəndə gözüm kəlləmə çıxdı. Bu obyektlərin çoxunu mən tikib təhvil vermişdim. Dedim ki, «bu düzgün deyil, insanlar boş yerdən cəzalandırılacaqlar». Büroda çıxış etdim, özü də çıxışım çox kəskin oldu. «Birinci» Büro üzvlərinə söz verəndə əlimi qaldırıb dedim: «Üzr istəyirəm, Heydər Əliyeviç, mən İsa Məmmədova sual vermək istəyirəm». Mən sualdan başladım və hiss elədim ki, bu onun xoşuna gəlməsə də, dillənmədi. Mən soruşdum: «İsa Əliyeviç, Port İliçdə mineral gübrə anbarını təhvil verməyimiz xatirinizdədir?» – «Bəli , yadımdadır». – «O vaxt mən nazirin birinci müavini, siz isə Lənkəran şəhər partiya komitəsinin birinci katibi idiniz. Biz ikimiz də təhvil prosesində iştirak edirdik. Obyekti «əla» qiymətlə təhvil verdik». – «Bəli, «əla» qiymətlə». – «Bəs nə üçün sizin verdiyiniz arayışda göstərilir ki, obyekt yarımçıq qalmış işlərlə təhvil verilib. Obyektin istismarı həddindən artıq səriştəsiz aparılırdı, əsas səbəb budur. Siz isə arayış təqdim edərək inşaatçıları günahlandırırsınız». Sözün



qısası, axır ki, məsələni araşdırıb, aydınlaşdırdılar. Əgər belə olmasaydı, hansısa günahsız insanlar başları ilə cavab verməli olacaqdılar».

Buna bənzər əhvalatı Nazim İbrahimov da xatırlayır. 1981-ci il sentyabrın 29-da ona uçot vərəqinə yazılmaqla şiddətli töhmət elan olunsa da, Büroda Heydər Əliyev faktiki olaraq onun müdafiəsinə qalxdı və nəinki onu işdən azad etmədi, əksinə, respublikada kitab nəşri sahəsinin inkişafı naminə ona geniş səlahiyyətlər və vəsait ayırdı.

«Büroda mənə töhmət verdilər, ancaq bir müddətdən sonra onu üzərimdən götürdülər, – deyə Nazim İbrahimov söz açır. – Hamı müzakirələrin gedişindən heyrətləndi. «Birinci» hamını dinlədi, ancaq söhbətinə kitab nəşrindən başladı. Faktiki cəhətdən hamıya anlatdı ki, Vaqif Hüseynovun məni gözdən salmaq üçün topladığı materiallara o qədər də əhəmiyyət vermir. Onun etimadı məni ruhlandırdı. Mən dərhal Belarusiyaya, Baltikyanı ölkələrə, Moskvaya getdim. Mütəxəssisləri dəvət edib, yaxşı sənəd hazırladım. Qərar 1982-ci ilin yanvarında qəbul olundu. Həmin qərar «Azərbaycanda poliqrafiya və kitab nəşri işinin gələcək inkişafı» adlanırdı.

O illərdə biz 26 Bakı komissarı adına mətbəənin maddi-texniki bazasını gücləndirdik. Əhmədlidə mətbəə tikildi. Rayonlarda – Bərdə, Ucar, Kəlbəcər, Gəncə və s. 11 mətbəə tikildi, 16 mətbəə təmir olundu. Mingəçevirdə gözəl mətbəə quraşdırıldı. Nəşriyyatları gücləndirdik. İri kitab mağazaları açdıq.

«Yazıçı» nəşriyyatı «Kommunist» qəzeti və Azərinformla birlikdə bir binaya sığınmışdı. «Yazıçı»ya ayrıca bina verilməsinə nail oldum. 80-ci illərin əvvəlində Azərbaycan ensiklopediyasının cəmi 3 cildi işıq üzü görmüşdü. Qalan 7 cildi beş ilə nəşr etdik. Uşaq ensiklopediyasının nəşrinə başladıq. Nizami əsərlərinin tam külliyyatını həm Azərbaycan, həm də rus dillərində çap etdik. Elə onda 18 cildində Azərbaycan klassikləri təmsil olunan 50 cildlik Dünya Uşaq ədəbiyyatını nəşr etməyə başladıq. Sonra isə şərəfli bir layihənin icrasına – 100 cildlik «Dünya ədəbiyyatı kitabxanası» silsiləsindən əsərlərin çapına başladıq. 32 cildi nəşr edə bildik. Mən Dövlətnəşrkomdan çıxandan sonra bütün işlər dayandırıldı. Məndən sonra 5 sədr dəyişdirildisə də, bir cildi belə nəşr edə bilmədilər.

İttifaq miqyasında nüfuza malik idik, sərgilərdə iştirak edirdik. Heydər Əliyevin artıq Moskvada işlədiyi vaxt beynəlxalq kitab yarmarkasında bizim ekspozisiyamıza gəlişini əks etdirən fotoşəkli qoruyub saxlamışam».

Nazim İbrahimov mənə 1985-ci ilin aprelinə – Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanımın həyatla vidalaşdığı vaxta aid olan qəribə hadisə danışdı. Növbəti kitabımızda qəhrəmanımızın həyatının bu faciəli və onun çox ağır keçirdiyi səhifəsi barədə ətraflı söhbət açacağıq. Ancaq heç bir dərd, şəxsi faciə onun əsas işini, uğrunda yaşayıb çalışdığı doğma respublikasının maraqlarını arxa plana çəkə bilmədi. Zərifə xanım vəfat edən vaxt Nazim İbrahimov Yuqoslaviyada ezamiyyətdə idi. Moskvaya uçub, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə yollandı. Zərifə xanımın məzarı üstünə gül qoyub, Heydər Əliyevə başsağlığı vermək üçün başqa yoldaşlarla birlikdə qəbiristanlığa getdi.

«Biz ora çatandan beş dəqiqə sonra Heydər Əliyev gəldi, – deyə Nazim İbrahimov xatırlayır. – O bir qədər dayandı, məzarın üstünə gül qoydu, sonra isə mənə tərəf çevrilib soruşdu:

– Nazim, sən o qərara uyğun olan bər şeyi etdin?

Mən qəbiristanlıqda, Zərifə xanımın məzarı başında nə etdiyim, nəyi etmək mümkün olmadığı barədə hesabat verdim. Təsəvvür edirsinizmi? Mən ona danışırdım, o isə soruşurdu: «Filan şeyi etdin? Mingəçevirdə inşa etdiniz? Nə qalıb?» Mən cavab verdim ki, kombinatda işlər ləng gedir, Moskva süründürməçilik edir.

– Sən mənə sabah Kremlə zəng vur, yadıma sal, mən mütləq bununla maraqlanaram.

Ertəsi gün mən Bakıya uçub gəldim, dərhal mənə ittifaq nazirliyindən zəng vurdular. Elə onda biz kombinat üzrə, onun gələcəkdə möhkəmləndirilməsi və avadanlıqla təchiz olunması ilə bağlı ikinci qərar qəbul etdik. Bu, gücünə görə Zaqafqaziyada ilk nəhəng kombinat – Ofset çapı kombinatı idi».

Heydər Əliyevin kadrları barədə mövzunun yekununda uzun illər qəhrəmanımızla sıx ünsiyyətdə çalışmış və bakılıların xatirində özündən sonra xeyirxah iz qoymuş əfsanəvi şəxsiyyəti yada salmaq istərdik.

## Əliş Ləmbəranski haqqında

Azərbaycan Sənaye İnstitutunun (indiki Neft Akademiyası) məzunu, Böyük Vətən müharibəsi iştirakçısı, «Azneftzavod» birliyinin rəisi, neft sənayesi nazirinin müavini, Stalin mükafatı laureatı, 60-cı illərdə Bakının məşhur və xalq arasında şöhrət qazanmış meri (o, 1959-cu ildə Bakı şəhər İcraiyyə Komitəsinin sədri olmuşdu) Əliş



Cəmil oğlu Ləmbəranski Heydər Əliyevin hakimiyyətə gəlişi ərəfəsində Moskvada SSRİ Nazirlər Soveti yanında Baş Mikrobiologiya Sənayesi İdarəsi rəisinin birinci müavini işləyirdi. Onu Bakıda Dənizkənarı parkın yenidən qurulmasının (təkcə elə «Venetsiya» nəyə desən dəyər!), məşhur «Mirvari» kafesinin, şəhərin mərkəzindəki «Nərgiz» kafesinin, Yaşıl teatrın, yenidən qurulmuş «Molokan» bağının və Bakının simasına yaraşıq verən bir çox digər gözəl tikililərin, obyektlərin müəllifi kimi sevir və xatırlayırdılar. Bakıdakı məşhur skamyalar haqqında mahnı isə 60-cı illərin sevimli və geniş yayılmış mahnılarından idi.

1970-ci ildə Ləmbəranski vətənə qayıdıb Azərbaycan Nazirlər Sovetinin tikinti üzrə sədr müavini vəzifəsində işləməyə razılıq verdi. Respublika rəhbəri ilə birlikdə və onun rəhbərliyi altında nəhəng layihələr həyata keçirmək üçün o bu vəzifədə çox gərəkli idi.

Sonralar Heydər Əliyev xatırlayırdı:

«Biz «Respublika» sarayının tikintisinə başladıq və az zaman kəsiyində, 1972-ci ilin dekabrında onu istismara verdik, orada təntənəli mərasim keçirdik. Mən bu sarayın, sonra isə Bakı məişət kondisionerləri zavodunun, «Gülüstan» sarayının tikintisinə rəhbərliyi Əliş Ləmbəranskiyə həvalə elədim. Çünki ona inanırdım, çünki o, ürəklə iş görürdü, işə can yandırırdı.

Heydər Əliyev Moskvaya işləməyə gedəndən sonra Əliş Ləmbəranski Opera və Balet teatrının binasını iki dəfə (ikinci dəfə yanğından sonra!) bərpa etdi. 1993-cü ildə Heydər Əliyev qayıdandan sonra isə həyatının son – vida mahnısı olan – keçmiş Tağıyev teatrının (indiki Musiqili Komediya Teatrı) tikintisinə girişdi.

O, 1999-cu il mayın 1-də, 85 illiyi ərəfəsində həyatla vidalaşdı.

«...Artıq bərk xəstə olan Ləmbəranski Heydər Əliyevin üzərində xaricdə əməliyyat aparıldığından xəbər tutaraq çox narahat olmuşdu. Əliş Cəmil oğlunun kürəkəni, məşhur həkim Ağabəy Sultanov sarsılaraq danışırdı ki, son saatlarında Əliş Ləmbəranski əlini yuxarı qaldıraraq sanki «yuxarılarda nə var-nə yox? Prezident necədir?» – deyə soruşdu. Və «hər şey qaydasındadır. Əməliyyat uğurla keçib» cavabını eşidəndən sonra azca gülümsünüb rahat nəfəs aldı və gözlərini yumdu... Son anda da narahat olub dostunun səhhətini düşünürdü. Ləmbəranskinin əsil mahiyyəti bu idi»[13].

Əliş Ləmbəranskinin xidməti tərcümeyi-halı 70-ci illərdə Heydər Əliyevin kadr siyasətinin xüsusiyyətlərini anlamaq üçün çox xarakterikdir. MK-nın birinci katibi milli kadrları toplayır və bir yerə yığırdı. O çalışırdı ki, Moskvada, Kiyevdə, SSRİ-nin digər şəhərlərində

təcrübə toplamış və özünü göstərmiş az-çox dərəcədə mütəxəssis olan adam Vətənə qayıtsın və Azərbaycanın iqtisadi və sosial-mədəni inkişafına öz töhfələrini versin. Doğrudur, sonralar Qorbaçovun yenidənqurması dövründə, qondarma Dağlıq Qarabağ problemi yenidən gündəmə gələndə, Heydər Əliyevin əleyhdarları onu günahlandırırdılar ki, Moskvada yüksək vəzifələrdə işləyən azərbaycanlıların sayı azdır. Yəni ki, hamını Bakıya «dartıb gətirmək» lazım deyildi. Yəni ki, Heydər Əliyevin kadr siyasəti olmasaydı, Əliş Ləmbəranski kimilər ittifaq hökumətində, Sov.İKP MK-da çox olardı və azərbaycanlılar erməni separatçılarının və onların Moskvadakı lobbilərinin həmlələrini dəf edə bilərdilər. Bilmirəm, bu cür ittihamlar nə dərəcədə ədalətlidir? Heydər Əliyev Azərbaycanı həyatından çox sevirdi və milli kadr potensialından mümkün qədər çox istifadə etməyə çalışırdı. 70-ci illərdə kimin ağlına gələrdi ki, cəmi 15 il keçəndən sonra Qorbaçovun fərsiz, vecsiz idarəçiliyi nəticəsində hər cür separatçılar baş qaldıracaq və möhtəşəm bir dövlət, qəhrəmanımın həyatının mənası hesab etdiyi dəyərləri də öz xarabalıqları altına gömərək bir an içində yerlə-yeksan olacaq.

Buna baxmayaraq, Heydər Əliyev ən yaxşı milli kadrları qanadı altına almaqla məncə, uzaqgörənlik nümayiş etdirmişdi. Yoxsa müstəqillik əldə etdiyi dövrdə respublika çox çətinliklərlə üzləşərdi. Heydər Əliyevin yetişdirdiyi nəhəng mütəxəssis ordusunun sayəsində isə yeni Azərbaycan dövlətçiliyinin mürəkkəb quruculuq məsələlərini həll etmək ölçüyəgəlməz dərəcədə asan oldu.

## O, anadangəlmə natiq idi

Müxtəlif partiya qurultaylarında, forumlarda və yığıncaqlarda uzun və dolğun məruzələr etmək ənənəsinin əsası Stalindən sonrakı dövrdə qoyuldu, Brejnevin dövründə isə çiçək açdı. Xəstəliyinə və nitqindəki problemlərə baxmayaraq Leonid İliç Brejnev çox danışırdı, partiya qurultaylarında isə onun məruzələri, demək olar ki, bütün günü davam edirdi.

Müttəfiq respublikaların partiya rəhbərləri də çox çıxış etməli olurdular. Kremldən nümunə götürürdülər. 70-ci illərdə Bakıda çoxlu tədbirlər keçirilirdi. Həm də bu tədbirlər təkcə partiya xarakterli deyildi: bu və ya digər müttəfiq respublikanın mədəniyyət günləri, ümumittifaq və beynəlxalq yığıncaqlar, Azərbaycana keçici qırmızı bayraq verilməsilə bağlı zəhmətkeşlərin mitinqi və s. Bütün bu yığıncaqlarda, görüşlərdə, forumlarda MK-nın birinci katibinin parlaq



şəkildə işlənmiş nitqi səslənirdi. Ona görə də Əliyevin məşhur məruzə və çıxışlarının hazırlanması məsələsinə toxunmaq mənim üçün çox maraqlı gəldi. Həm də ki, onun tərcümeyi-halından bəhs edənlərin heç biri bu mövzunu işıqlandırmayıb.

*Qeyd etmək lazımdır ki, Bakıda bütün qurultay və plenumlar rus dilində keçirilirdi. Sonra materiallar Moskvaya göndərilirdi. Yalnız Ali Sovetin sessiyaları Azərbaycan dilində keçirilirdi. Heydər Əliyev iki dili də mükəmməl bildiyindən asanlıqla rus dilindən Azərbaycan dilinə keçirdi. Baxmayaraq ki, o dövrün ənənələrinə uyğun olaraq çox vaxt rus dilində çıxış edirdi, ancaq rəsmiyyətdən kənarlaşmağa kiçicik imkan yaranan kimi, Azərbaycan dilinə müraciət edirdi. Bu vaxt o, praktiki olaraq heç vaxt qabaqcadan hazırlanmış mətndən istifadə etmirdi, doğma ana dilində bədahətən danışırdı. Bəlkə bunun səbəblərindən biri də o idi ki, MK-da Azərbaycan dilində nitq hazırlamaq üçün ona kömək edə biləcək adam tapmaq çətin idi.*

*Tanınmış Azərbaycan yazıçısı Mövlud Süleymanlı xatırlayır ki, 70-ci illərin ortalarında Novruz bayramı ərəfəsində Şix çimərliyinin ətrafında parkın təməlinin qoyulmasında iştirak etmək üçün bütün şəhər imaciliyə çıxmışdı. Yazıçılar İttifaqının öz sahəsi vardı, orada ədəbiyyatçılar hamılıqla ağac əkirdilər. Heydər Əliyev gələcək parkı gəzir, insanlarla söhbətləşirdi. Nəhayət, yaradıcı ziyalıların nümayəndələrinə yaxınlaşdı.*

*«O həmişəki kimi sadə və səmimi idi, – deyə M.Süleymanlı xatırlayır, – ağsaqqallarla zarafatlaşır, gənc yazarlarla maraqlanırdı.*

*Şair Qabil burada da öz səmimiyyəti ilə seçildi:*

*– Yoldaş Əliyev, siz azərbaycanca necə gözəl danışırsınız!*

*Heydər Əliyev astaca güldü:*

*– Qabil, qəribədir, sən mənim rus dilini yaxşı bilməyimə təəccüblənmirsən, azərbaycanca danışmağıma heyrətlənirsən. Axı bu mənim ana dilimdir və onu bilmək mənim üçün vacibdir. Özü də təkcə mənim üçün yox, hamımız üçün...*

*Onun bu sözləri alqışlarla qarşılandı. Ancaq iş bununla bitmədi. Ana dilini bilmək zərurəti barədə respublika liderinin sözləri tezliklə Azərbaycanın bütün guşələrinə yayıldı və Azərbaycan dilinə mühafizəkarlıqla yanaşan çinovnikləri düşünməyə vadar etdi. Heydər Əliyevin adicə imacilikdə dediyi sözlər, ümumiyyətlə, onun bu istiqamətdəki fəaliyyəti cəmiyyətdə o vaxtadək doğma dilə hakim olan soyuq münasibəti dəyişdi».*

*1970-ci ildə görkəmli alimlərdən ibarət bir qrup, Azərbaycan Dövlət Universitetində keçirilən partiya yığıncaqlarından birində işti-*

*rak etməyi MK-nın birinci katibindən xahiş etdilər. Heydər Əliyev ilin sonunda hesabat-seçki yığıncağına gələcəyinə söz verdi və sözünə də əməl elədi. Akt zalı ağzınadək dolu idi. Həmin gün Heydər Əliyev Azərbaycan alimləri qarşısında təqribən üç saat çıxış etdi, özü də təmiz Azərbaycan dilində. Mahiyyət etibarilə, bu onun elmi ictimaiyyət qarşısında böyük uğurla keçən və bir sıra əsatirləri dağıdan ilk çıxışı idi. Bu çıxışla o, əvvəla, Heydər Əliyevin «rus dilli» olması, ikincisi də DTK-dan gələn təzə birinci katibin haqqında əleyhdarlarının uydurub yaydığı bəzi fikirləri alt-üst etdi. Heydər Əliyevin elm adamının psixologiyasını və mentalitetini dərindən dərk etməsi, söhbətin predmetinə sahib olması, respublikamızın təhsil sferasındakı vəziyyət, onun inkişaf strategiyası barədə partiya liderinin yeni ideyaları və fikirləri auditoriyanı heyrətə saldı. Bu görüş elmi və yaradıcı ziyalıların Heydər Əliyevə münasibətini kökündən dəyişdi.*

Məruzələri hazırlamaq üçün Heydər Əliyevin yanında özünəməxsus «beyin mərkəzi» yaranmışdı. Oraya Azərinformun direktoru Yefim Qriqoryeviç Qurviç, birinci katibin köməkçiləri Ramiz Tarıverdiyev və Arif Mustafayev, ümumi şöbənin müdiri Yakov Kirsanov daxil idilər. Sonralar təbliğat şöbəsinin müdiri Əfrand Daşdəmirov da bu dəstəyə daxil edildi. Əvvəlcə, hamı MK-nın birinci katibinin kabinetinə yığışırdı. Orada əsas mövzu və məruzənin ümumi konsepsiyası, necə deyərlər, başlıca istiqamətləri, əsas bölmələri, xüsusi nəzərə çarpılacaq məsələlər və s. əsaslı şəkildə müzakirə olunurdu. Sonra müvafiq şöbələrə sorğu vərəqələri paylanırdı, onlara əsasən geniş arayışlar hazırlanırdı. Onları alandan sonra qrup üzvləri mətnin hamısını bir yerə yığıb məruzənin dilinə uyğunlaşdırırdı. Sonra növbə Y.Qurviçə çatırdı, o mətnə əməlli-başlı əl gəzdirirdi. Heydər Əliyev komandasının üzvləri üzlərində təbəssüm mənə danışırdılar ki, plenum və ya yığıncaq ərəfəsində rayon və şəhər partiya komitələrinin birinci katiblərinin Y.Qurviçin yanına «ziyarətləri» başlanırdı. Bəziləri onların ünvanına olan tənqidi yumşaltmağı, bəziləri isə tamamilə çıxartmağı xahiş edir, digərləri onların «xidmətini» tərif bölməsində qeyd etməsi üçün yalvarır, dil tökürdülər.

Məruzə üzərində iş zamanı daima material yenidən işlənir və cilalanırdı, eləcə də təzə faktlarla ətə-qana doldurulurdu. Əlbəttə, Heydər Əliyev öz irad və təkliflərini daxil edir, yeni ideyalar və fikirlər əlavə olunmaqla dəyişikliklər edir, mətnə dəfələrlə nəzər yetirirdi.



MK katibləri də hamisi olduqları şöbələrlə birlikdə məruzələr üzərində işə cəlb edilirdilər.

«Plenum və yığıncaqlar üçün materialları biz hazırlayırdıq», – deyə H.Seyidov yada salır. – Onu razı salmaq çox çətin idi. Mən beş şöbəyə hamilik edirdim. Hər şöbə öz sahəsinə aid bölməni hazırlayırdı. Sonra biz hamısını birləşdirir və ona artıq sənaye, tikinti, rabitə və s. üzrə ümumiləşdirici material təqdim edirdik. Sonra Heydər Əliyev öz köməkçiləri ilə birlikdə bu materiallar üzərində işləyirdi. Bizim şöbələrə inanır, etibar edirdi. Elə olurdu ki, məruzənin ilkin variantını bütövlükdə «beşinci mərtəbə» (biz özümüzü belə adlandırırdıq) hazırlayırdı. İlkin variantı Yefim Qurviç cilalayırdı. O çox vaxt bizim uşaqları bu işə cəlb edirdi. Bəzən MK-nın birinci katibinə elə beləcə də deyirdi: «Beşinci mərtəbəni mənə verin».

Plenumdan və ya iclasdan sonra o hər birimizə öz materiallarımızı qaytarırdı. Bir dəfə Hacı Xəlil oğlu İbrahimov zarafatla soruşdu: «Siz bunları bizə nə üçün qaytarırsınız? Sizin məruzənizlə müqayisə edib, görək ki, nə sizin gərəyiniz olub, nə yox?»

Plenuma bir neçə gün qalmış MK Bürosu çağırılırdı. Büro üzvlərinə birinci katibin məruzəsinin layihəsi qabaqcadan verilirdi. Müzakirə zamanı onlar öz təkliflərini və iradlarını bildirirdilər. Heydər Əliyevin təklifi üzrə konstruktiv iradlar məruzənin son variantına əlavə edilirdi.

Buna baxmayaraq, Heydər Əliyevə təqdim olunmuş sonuncu varianta o, plenumda və ya partiya fəalları yığıncağında məruzə eləyərkən bir neçə kəlmə və ya abzasdan tutmuş bütöv səhifəyədək qabaqcadan nəzərdə tutulmamış əlavələr daxil edirdi.

«O vaxtlar axı diktofon yox idi, – deyə Azərinformun keçmiş müxbiri Vladimir Morozkov xatırlayır. – Ona görə də mən dinamikin qarşısında səhnə arxasında oturub hazır mətni Heydər Əliyevin danışığı ilə müqayisə edirdim. Mətndən kənar nə danışılırdısa, özüm yazırdım, stenoqrafçılara inanmırdım. Onlar ləng işləyir, yazdıqlarını da çox gec təqdim edirdilər. Biz isə düzəlişləri sabahkı qəzetlərə çatdırmalı idik. Orada artıq məruzənin əsas mətnini qabaqcadan yığıb, axşama düzəlişləri gözləyirdilər.

Mətni oxuyub düzəlişlər eləyəndən, mətndən kənarlaşmaları təmizləyəndən sonra materialı götürüb «birinci»nin yanına gedirdik. O əlavələr və düzəlişlərlə birlikdə bütün mətni (artıq neçənci dəfə!) nəzərdən keçirirdi. Artıq axşamdan xeyli keçmiş, saat 9-da, 10-da, bəzən lap 11-də biz əsas mətnə düzəlişləri qəzetlərə çatdırırdıq.

O, rəsmi mətnlərin üzərində başqalarından daha səliqəli, səriştəli işləyirdi. Onun iştirak etdiyi hadisə barədə səhər mətbuatda çıxacaq istənilən informasiyanın hər bir sözünü, hər bir abzasını dəqiqliklə yoxlayırdı».

«Heydər Əliyeviçin öz komandası tərəfindən hazırlanan sənədləri öz əli ilə necə yenidən işlədiyini mən öz gözlərimlə görmüşəm. O vaxtlar ümumi şöbəyə çox savadlı, fərasətli adam olan Yakov Kirsanov başçılıq edirdi. Lakin onun hazırladığı sərəncamların və ya digər sənədlərin mətnini Heydər Əliyev əsaslı şəkildə, bütün incəliklərinə qədər cilalayaraq yenidən işləyirdi. Mətnin yazıldığı kağızın qıraqlarında və arxa tərəfində düzəlişlərin əlindən yer olmurdu.

Köməkçiləri onun üçün qaralama hazırlayırdılar. O isə hər şeyi əvvəldən axıradək yenidən düzəltməyin mahir ustası idi. O xəttatlar kimi gözəl hərflərlə yazırdı. Onun əl ilə yazdıqlarını oxumaq adama ləzzət verirdi».

*(Zakir Abdullayevin xatirələrindən)*

Heydər Əliyevin məruzələrinin əksəriyyətinin birinci hissəsi zəmanəyə uyğun olaraq, Sov.İKP MK-ya və onun sadiq sükançısına minnətdarlıqdan, Lenin partiyası işinə, imperializm əleyhinə, işıqlı kommunist gələcəyi uğrunda mübarizəyə sadiqlik hisslərinin tərənnümündən ibarət olurdu. Ancaq bu, yalnız ondan çox-çox əvvəllər qoyulmuş zəruri qayda idi. Məruzənin əsas cövhərini, mahiyyətini isə tənqid ruhlu tərkib hissəsi təşkil edirdi. Özünütənqid məsələsində, mən deyərdim ki, Heydər Əliyevin tayı-bərabəri yox idi.

«Heydər Əliyevin bütün çıxışları tənqidi ruhda tərtib olunur, orada qarşıya yeni vəzifələr qoyulurdu, – deyə Həsən Seyidov xatırlayır. – Respublikada bu cür uğurlar qazanılıb, xalq təsərrüfatının bütün sahələrində bu qədər işlər görülüb, o isə tənqid istəyir! Nə qədər çox tənqidi cəhət tapsaq, onun qarşısında nə qədər çox «neqativ» hal qoysaq, o qədər onun xoşuna gəlirdi. Bəzən mən xahiş edirdim: gəlin burada daha çox uğurlarımızdan danışaq. «Yox, cavab verirdi, uğurlardan çox qısa danışmaq lazımdır». Mən deyirdim: «Düşmənlərimiz deyəcəklər ki, uğurları ilə öyünürlər, ancaq görün onların nə qədər çatışmazlıqları var». O isə cavab verirdi: «Biz bu çatışmazlıqları nə qədər prinsipiallıqla aşkara çıxarsaq, onlar o qədər az qalacaq».

Zakir Abdullayev də bu barədə xatırlayır:



Heydər Əliyev tez-tez deyirdi: «Uğurun, inkişafın yolu tənqiddən, çatışmazlıqların aşkara çıxarılmasından başlayır. Sən nöqsanları görməsən, onlar haqqında heç nə bilməsən, səndə özündənrazılıq hissi yaranacaq, sənə elə gələcək ki, artıq bütün işləri başa çatdırmısan».

«Məni Heydər Əliyevin bir cəhəti heyrətləndirirdi ki, o hər şeydən dərindən baş çıxarırdı, – Turan Hüseynov deyir. – Bir dəfə Kirovabaddan professorlar gəlmişdi. Onları MK-nın kənd təsərrüfatı üzrə katibi qarşıdakı plenuma məruzə hazırlamağa kömək etmək üçün çağırmışdı. Onların yazdıqlarını Heydər Əliyevin masasının üstünə qoyanda o öz köməkçisini çağırıb (bunlar mənim gözümün qarşısında olmuşdu) dedi: «Bu nə məruzədir? Elmlər doktorları, professorlar yazıblar, ancaq yeni fakt yoxdur». Hamısını cırıb zibil yeşiyinə atdı. Sonra isə mənə dedi: «Yanıma heç kimi buraxma və məni heç kimlə calaşdırma». Səhərə qədər oturub məruzəni yazdı. Öz kanalları ilə bu və ya digər rayonda işlərin vəziyyəti, orada hansı həll olunmamış problemlərin qalması, «zəif» yerlər barədə soruşub öyrənmişdi. Misal üçün, Zərdab rayonunda yağış yağıb. Orada pambığın üstünü sellofonla örtmədiklərindən pambıq çürüməyə başlayıb. Kürdəmirdə işlərə təsərrüfatçılıqla yanaşılıb, Zərdabda və Ağdaşda isə yox. Belə faktları toplayıb plenumda üzə çıxarırdı. Sonra raykom katibləri zəng vurub, qorxu qarışıq həyəcanlı səslə soruşurdular: «Turan, ona məruzəni kim hazırlayıb?» – «Nə olub ki?» – soruşuram. «Qulaq as, o tamamilə yeni faktları söylədi, biz bu barədə hələ heç kimə məlumat verməmişdik. O bunları haradan bilir?» Sənaye və ya təbliğat məsələlərindən söhbət gedəndə də bu cür vəziyyət yaranırdı.

Axırda ona çeynənmiş faktları və köhnə məruzələri sındığına görə o öz köməkçiki Vasili Fyodoroviç Kesarın vəzifəsini aşağı salaraq onu təbliğat şöbəsinə adi təlimatçı göndərdi.

Təsəvvür edin ki, onun hər şeydən başı çıxırdı, hər şeyin dərinə gedirdi. Görünür, əvvəlki çekist işi onu buna alışdırmışdı. O idarədə səhv etmək bəzən ölüm təhlükəsinə bərabər idi.

Gündəlik işində o, DTK-nın rayon şöbələrinə söykənirdi. Axı birinci katiblər çox vaxt öz nöqsanlarını gizlətməyə, rayondakı işlərin vəziyyətini bəzəyib-düzəməyə çalışırdılar. Çekistlər isə işlərin necə getməsi barədə onu məlumatlandırırdılar. Bu siqnalların səbəbinə o vəziyyətə tam nəzarət edir, heç kimə güzəştə getmirdi, istəyirsən yüz dəfə qabaqcıl və ya əməkdar ol».

Heydər Əliyevin məruzələrinin hazırlanma atmosferi Azərbaycan KP MK-nın birinci katibinin köməkçisi Ramiz Tarıverdiyevin xatirələrində çox maraqlı əksini tapmışdır. O bu xatirələri mənimlə bölüşdü. MK-ya jurnalistikadan gələn Ramiz Tarıverdiyev 1976-cı ildə Heydər Əliyevin ideologiya, elm və təhsil üzrə köməkçisi təsdiq olunub.

«Müxtəlif yığıncaqlar üçün biz ona yalnız tezis materialları: zəruri rəqəmləri, faktları və familiyaları təqdim edirdik. Başa çatdırılmış, hazır mətn olmurdu. Bütün bunlar stenoqramlaşdırılır və sonra çap üçün normal hala salınırdı. Yazıçıların qurultayında o azərbaycanca danışdı, bu mətni onun üçün xüsusi olaraq hazırlayırdılar. Moskvadakı çıxışlar üçün də hər şey yazılıb hazırlanırdı.

Lakin ən çətini plenum və ya qurultay üçün məruzə hazırlamaq idi. Bu zaman mətn vergülünə, nöqtəsinədək işlənib-hazırlanırdı.

Bəs bu necə baş verirdi? Əvvəla, o, bütün şöbə müdirlərini yığıb elan edirdi ki, Büroda təqribən bir ay sonra hansısa plenumun keçirilməsi barədə qərar çıxarılıb. Bu mövzu üzrə arayışlar hazırlamaq lazımdır. Bir çox şöbələr işə qoşulurdu, çünki məruzələr çoxcəhətli olurdu, bir qayda olaraq bütün sahələr əhatə olunurdu. Paralel olaraq bizim üçün, köməkçilər üçün tapşırıqlar hazırlanırdı.

Məruzənin hazırlanması və yazılması qrupuna kimlər daxil idi? 70-ci illərin əvvəllərində MK-nın təbliğat şöbəsinin müdiri Teymur Əliyev, Azərinformun direktoru Yefim Qurviç, sonralar isə «Vışka» qəzetinin baş redaktoru Yuri İvanov, «Bakinski raboçi» qəzetinin şöbə müdiri Vladimir Sinitsın, «Vışka» qəzetinin baş redaktor müavini Yuri Katkov bu işə cəlb olunurdular.

Mütəmadi olaraq o qrupu başına toplayır və ümumi istiqamət verirdi. Onun bütün ideyaları iş prosesində meydana gəlirdi. Bəzən o bizi yığıb deyirdi: «Mən plan cızmışam, siz bu planla işləyəcəksiniz». Və bizə iki vərəq uzadırdı. Bu, bizim üçün bayram idi, çünki plan üzrə işləmək asan idi axı. Ancaq bir qayda olaraq o bizə şifahi olaraq bəzi göstərişlər verirdi.

Biz Qurviçlə onun yanından qayıdandan sonra oturub fikirləşirdik. Qurviç deyirdi: «Plan yazın». Bir neçə gün arayışlar toplayıb, məruzə şəklində tərtib edirdik. İlk variantı ona aparırdıq. Bir neçə gündən sonra o bizi yanına çağırırdı. Qaşqabaqlı, narazı şəkildə oturmuşdu. «Siz nə yazmısınız? Bu nə cəfəngiyatdır mənə gətirmisən? Bu, qətiyyən mən dediyim deyil!» Bir sözlə, əməlli-başlı abrımızı alırdı. «Gedin, düzəldin». Beləliklə, bu əzablar 6-7 dəfə təkrar olunurdu. O, zəng vurub məruzənin növbəti variantını götürmək üçün məni yanına çağıranda, artıq səsinin ahəngindən başa düşürdüm ki, bu variant onun xoşuna gəlib, ya yox. Gedirdim. «Bax, görürsən, bu başqa məsələ. Artıq bunun üzərində işləmək olar!» – «Allaha şükür!» – deyə öz-özümə düşünürdüm. Bu mətn üzrə o dəqiq plan tərtib edirdi. Bunu çıxarmaq, bura isə əlavə etmək lazımdır. Nə üçün siz bunu qeyd etməmisiniz, onu unutmusunuz? Biz bütün bu qeydləri yazıb, sonra onun göstərişlərinə uyğun şəkildə düzəldirdik.



O yeni variantı oxuyurdu, biz də onunla birgə mətn üzərində bilavasitə işə başlayırdıq. Mətn həm onda olurdu, həm də bizdə. Biz mətni onunla birgə abzas-abzas oxuyurduq. Bəzən o özü mətndə düzəlişlər edir və bizə də mətni düzəlişləri ilə birgə verirdi.

Çox nadir hallarda stenoqrafçılar cəlb edilirdi. Ancaq bəzən onlar da iştirak edirdi. Mətn on dəfələrlə dəyişikliyə məruz qalırdı. Sonuncu variantı gətirirdik. Deyəsən, dərindən nəfəs almaq olar. Ancaq sən saydığını say... Mətn üzərində iş son dəqiqəyədək davam edirdi. Artıq xitabət kürsüsünə getməlidir, o isə hansısa rəqəmi və ya daha nəyisə yoxlamağı xahiş edir. Hər şey başa çatandan sonra onun əhvalı yüksəlirdi. Bizimki ondan da yüksək olurdu».

Başqa tədbirlərə – daha kiçik həcmlilərə gəlincə, onun bütün çıxışları, nitqləri, təbrikləri improvizələrdən ibarət idi. Çoxsaylı partiya fəalları yığıncaqlarına, zəhmətkeşlərin mitinqlərinə, seçicilərlə görüşə o şöbələrdə onun üçün hazırlanmış kiçik mətnlərlə gəlirdi. Bu, faktlar yığını, qeydlər, tezislər, statistikadan ibarət olurdu. Mətn işin gedişində ətə-qana dolurdu, məruzə göz önündə yaranırdı.

Müasirləri söhbət edirlər ki, Heydər Əliyev partiya fəalları yığıncaqlarında 2-3 saat danışırdı. Əksər hallarda da kağıza baxmadan.

Çoxları onun Azərbaycan SSR-in 60 illiyinə həsr olunmuş qəbul zamanı yenicə açılmış «Gülüstan» sarayındakı parlaq çıxışını bugünədək fəxrlə xatırlayırlar: Sarayda bütün müttəfiq respublikalardan birinci katiblər başda olmaqla böyük nümayəndə heyətləri iştirak edirdilər. Həmin qəbulda Heydər Əliyev bu və ya digər nümayəndə heyətinin şərəfinə badə qaldırır və ayrıca nitq söyləyirdi. Bu zaman o, həmin respublika, onun mədəniyyəti, ənənələri barədə elə hərtərəfli və dəqiq informasiya verirdi ki, hamı sadəcə olaraq heyran qalırdı. Sonda isə həmin respublikanın klassik şairlərindən bir bənd şeiri əzbərdən söyləyirdi.

«Onda anadangəlmə natiqlik qabiliyyəti vardı», – Həsən Seyidov deyir. – Və bir də çox güclü yaddaş. Kütləvi yığıncaqlarda o çox

tez-tez bildiyi saysız-hesabsız şeirlərdən söyləyirdi. Bir də mənim yadımdadır ki, o kağıza baxmadan Sovet Azərbaycanının yeni himnini başdan-ayağa xüsusi ahənglə əzbər söylədi. Bu, 1978-ci ildə olmuşdu».

Yeri gəlmişkən, Heydər Əliyevin çıxışlarının ən diqqətli dinləyicisi həyat yoldaşı Zərifə xanım olurdu. Zərifə Əliyevanın rəfiqəsi, onunla bir yerdə oftalmologiya kafedrasında işləyən Zəhra Quliyeva mənimlə söhbəti zamanı xatırlatdı: «O vaxtlar, demək olar ki, bütün iclaslar Dzerjinski adına klubda keçirilirdi. Lenin adına saray sonralar tikilmişdi. Zərifə çalışırdı ki, onun bir çıxışını da ötürməsin. Gəlib bir kənarda oturur və ona qulaq asırdı. O, Heydər Əliyevin sual qoymaq bacarığı, onun mükəmməl nitqi, natiqlik istedadı ilə fəxr edirdi. O mənə tez-tez deyərdi:

– Zara, Heydər Əliyev bizə Allahın bədiyyəsidir, onu qorumaq lazımdır».

Heydər Əliyevin çoxsaylı nitq və məruzələrinin hazırlanmasında onun ən sadiq və həssas köməkçilərindən biri – Azərbaycan Dövlət Teleqraf Agentliyinin – Azərinformun direktoru Yefim Qriqoryeviç Qurviç idi. 70-ci illərdə Qurviç Azərbaycan KP MK-nın üzvlüyünə, respublika Ali Sovetinə deputatlığa qədər yüksələ bilmişdi. Onun qəribə taleyi vardı: o çox nüfuzlu agentlik rəhbəri vəzifəsində 44 il – 1943-cü ildən 1987-ci ilədək işləmişdi! Təbii ki, fəaliyyəti dövründə respublika rəhbərlərinin hamısı ilə – Mir Cəfər Bağırovdan tutmuş Heydər Əliyevə qədər görüşməli olmuşdu. Sovetlər dönəmində partiya məruzələri əksər hallarda rus dilində yazıldığından, onların hazırlanmasına mütləq səriştəli redaktor və partiya-siyasi leksikanın gözəl bilicisi olan Qurviçi cəlb edirdilər. Vaqif Mustafayevin «Birinci» filmində Qurviçin oğlu Qriqori* atasının kitabımızın qəhrəmanı ilə birgə işini belə xatırlayır:

«Uşaqlıqda bu məni o qədər maraqlandırmasa da, mən sezmişdim ki, 1969-cu ildən – Heydər Əliyev respublika rəhbərliyinə gələndən sonra atam daha xoşbəxt olmuşdu. İlk dəfəydi ki, rəhbəri ilə işləmək ona maraqlı idi, ilk dəfə idi ki, qəlbinin dərinliyində rəhbərinə rəğbət bəsləyirdi. Onun liderliyini və birinciliyini, qüdrətini, deyərdim ki, hakimiyyət gücünü etiraf edirdi. Atam fəxr edirdi ki, ona gərəkdir. 1969-cu ildən Əliyevi Moskvaya aparana qədər atam ruh yüksəkliyi ilə yaşayırdı. Öz rəhbərinə, öz rəisinə bağlılığında, ona sədaqətində, əlbəttə ki, ideoloji incəlik, çalar vardı. Atam belə hesab edirdi ki, nəhayət ki, onun bütün həyatı boyu xidmət etdiyi və səmimiyyətlə bölüşüb etiqad etdiyi ideallara uyğun insana rast gəlib».

* Mən öz jurnalistlik fəaliyyətimə Azərbaycan televiziyasında, Qrişa Qurviçlə eyni redaksiyada başlamalı olmuşam. Bu mehriban, ziyalı, savadlı oğlan bir müddətdən sonra Moskvaya gedib «Yarasa» teatrını yaratdı. Təəssüf ki, vaxtsız dünyasını dəyişən Qriqori Qurviç son illərdə Rusiya televiziyasında çox populyar olan «Köhnə mənzil» verilişini aparırdı.

[1] «Respublika», 2004. 10 avqust.
[2] Наше дело. 1990. № 4. С.5.
[3] Yenə orada.
[4] Бурлацкий Ф. Вожди и советники. М., 1990. С.158.
[5] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С.428.
[6] Лесонов Н.С. Лихолетье. М., 1997. С.206.
[7] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. С.428.
[8] Известия. 2006. 28 декабря.
[9] Наше дело. 1990. № 4. С.5.
[10] Ulduz. 1990. № 6. S.66.
[11] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С.222.
[12] Yenə orada. S.221.
[13] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004. С.238-239.



*Dördüncü fəsil*

# Birinci katib: «Gürzlə zindan arasında»

## Tarazlaşdırma siyasəti

N.Xruşşovun iqtidardan kənarlaşdırılması ilə onun adıyla bağlı «mülayimləşmə» də yavaş-yavaş sovuşub tarixdə qaldı. 60-cı illərin sonlarında ideoloji «cəbhə»də nəzərəçarpacaq dərəcədə «sağa» doğru dönüş baş verdi. Əlbəttə, stalinpərəstlər Stalinin reabilitasiyasına, yaxud Sov.İKP XX qurultayını gözdən salmağa nail ola bilmədilər. Lakin ideologiya, mədəniyyət və ictimai elmlər sahəsində boşaldılmış «qayka»lar yenidən az qala son həddədək burulmuş, senzura sərtləşmiş, redaksiya-nəşriyyat planları hər hansı azadsevər «zındıqlıq» çıxarılmaqla ələk-vələk edilmişdir.

1968-ci ildən sonrakı dövrü Moskvanın dissidentlik edən ziyalıları «sürgündən reabilitasiya» adlandırmışlar. Bu dövrdə adamları öz əqidələrinə görə tutmaq, mühakimə etmək halları az olsa da, işdən qova, şiddətli partiya töhməti verə bilərdilər, ya «günahkara» «şərəf divanı» tutub sovet adamının «uca adına layiq olmayan baxışlarını» xalqın qarşısında pisləyib «tövbə» etməsini tələb edirdilər. Rəsmi ideologiyaya qarşı inadla müqavimət göstərənləri dəlixanaya yolla-ya, ya vətəndaşlıq hüququndan məhrum edib ölkədən xaricə «sürgün» edə bilərdilər.

**Akademik G.Arbatov xatırlayır:**

«Hətta təqibin bilavasitə hədəfi olmayan bəziləri üçün də dissidentlərlə mübarizə ağır şəxsi sarsıntılara səbəb olurdu, – akademik G.Arbatov xatırlayır. – Gözümçıxdıya salınmış elm xadimləri, yazıçı və rəssamlara qarşı kəskin tənqidi məktublara tanınmış alimləri və mədəniyyət xadimlərini imzalamağa məcbur etmək adi hal idi. İmza qoymaqdan imtina edənləri pisliklər gözləyirdi – bəzən bu, onlar

üçün «kitabın bağlanılmasına» doğru ilk addım demək idi. Razılaşanları isə həmkarlarının, dostlarının nifrəti gözləyirdi. Bir çoxu sınırdı, mənliyini itirirdi... Antidissident siyasətinin bilavasitə hədəfi yüzlərlə, bəlkə də minlərlə adam olsa da, onların aşkarlanması və təqib edilməsi «məxfi polis» adlanan orqanların bütövlükdə fəallaşmasını: cəmiyyətin bir çox özəklərinə əlavə agenturanın qondurulmasını, «donos»ların toplanması və təqdir edilməsini, məktubların perlüstrasiyasını*, telefon söhbətlərinin izlənib dinlənilməsini tələb edirdi. Bu da diqqətdən yayına bilməzdi: dinləmələr, izləmələr... «donos»lardan hamı, çox yüksək vəzifə sahibləri daxil olmaqla, xoflanmağa başlamışdılar»[1].

Mənə kitab üçün çox dəyərli eksklüziv material təqdim edən Heydər Əliyevin qızı Sevil xanım bununla bağlı xatırlayırdı:

«Mən çoxdan, hələ 70-ci illərdə bilirdim ki, bizə nəzarət edirlər. Yadımdadır, ata-anamla Moskvaya gəlib mehmanxanada qalanda, atam anama nəsə söyləmək istəyərkən onu vanna otağına aparıb su kranını açandan sonra danışardı. Həm də atamın DTK-dan bir həmkarı, köhnə dostunun ona «siz daima nəzarət altındasınız» dediyi yadımdadır. Bu, atamın respublika Kompartiyası Mərkəzi Komitəsinin birinci katibi işlədiyi və Moskvaya tədbirlərə gəldiyi xoş dövrə təsadüf edir. Həmin sözləri deyən adam isə gizli telefon dinləmələri ilə məşğul olan idarədən idi». Bu, doğrudan da, sovet əyyamının faciəvi paradoksu idi: DTK içində yetkinləşmiş, bir zaman özü bu idarəyə başçılıq etmiş adam sonralar uzun illər boyu xüsusi xidmətlərin gözü altında olmuşdur...

70-ci illərdə Sov.İKP MK-nın elm, mədəniyyət və təbliğat-təşviqat şöbələrinə nəzarət edən katibi, müasirlərinin xatirələrinə görə, istedadsız və əslində, kəmsavad adam olan P.Demiçev idi. Deməyə ehtiyac varmı ki, müttəfiq respublikalarda da ideoloji kadrları o öz «arşınına» uyğun seçirdi?

«Mərkəzi Komitənin ideoloji qurumu Suslov dövründə ölkənin intellektual və mənəvi həyatının geniş sahəsini: kütləvi informasiya vasitələrini, elmi, təhsili, mədəniyyəti, xarici siyasəti və hətta idmanı «mühafizə» edirdi. Bu sahələrin hər birində MK-nın nəzarət-buraxılış məntəqəsi vardı – daha çox hallarda nəzarət aparan şöbə şəklində. Mərkəzi və hətta yerli qəzetlərdən heç biri MK təbliğat şöbəsinin, ya yerli partiya komitəsinin hər şeyi görən gözündən yayına bilməzdi. SSRİ-də sanballı elmi konfranslardan, ya ictimai təşkilat

* Perlüstrasiya—məktubların məxfi yoxlanması və oxunması.



görüşlərindən, beynəlxalq konqreslərdən heç biri Moskvada MK katiblərinin məruzəsi və razılığı, ya ən azı müttəfiq respublika partiya Mərkəzi Komitəsinin razılığı olmadan keçirilmirdi. Eyni qayda nomenklatur, yəni az-çox rəhbərlik səviyyəli kadr təyinatlarına, mükafatlar, fəxri adlar verilməsinə, yaradıcılıq müsabiqələri və idman yarışları keçirilməsinə və əlbəttə ki, sovet nümayəndələrinin xarici səfərlərinə aid idi»[2].

*70-ci illərin sonları – 80-ci illərin əvvəllərində mən respublika Yazıçılar İttifaqında birinci katibin köməkçisi vəzifəsində çalışırdım və bununla bağlı Azərbaycan KP MK mədəniyyət şöbəsi ilə sıx təmasda olurdum. Məhz oraya biz vəzifəsi yüksəldiləcək, ya hansısa mükafata layiq görüləcək yazıçılara aid məktub və arayışları göndərirdik. Hər şey məhz orada, yuxarıda həll olunurdu. O ki qaldı xarici səfərlərə hazırlaşan yazıçıların rayon və şəhər partiya komitələrinə çatdırılan xasiyyətnamələrinə, şəxsən hazırladığım belə sənədlərin sayı-hesabı yox idi. Bizim yaradıcılıq təşkilatına DTK xəttilə kuratorluq edən Səfər Əliyevlə söhbətin mənə necə acı təsir bağışladığı yadımdadır, hərçənd o, özünü tamamilə nəzakətlə aparır və yalnız hər hansı iğtişaş və anlaşılmazlıq baş verdiyi hallarda ona xəbər çatdırmağı təkidlə məsləhət görürdü. Sonralar onunla əməkdaşlıq etmək istəmədiyimə və orqanlara heç bir dəyərli məlumat vermədiyimə görə dəfələrlə məni qınayırdı. Hətta, zənnimcə, bir dəfə məndən bizim rəhbərliyə şikayət də etmişdi.*

*Xoşbəxtlikdən, bu adamı tezliklə başqa sahəyə keçirdilər, yerinə isə Aydın Abdullayev gəldi. Təbiətən ürəyiaçıq və necə deyərlər, «kefkom» adam olan kurator yazıçılara səmimi hörmətlə yanaşır, illah ki, özü də yaradıcılıq «damarı»ndan məhrum deyildi (sonralar respublika Yazıçılar İttifaqına da qəbul olundu), odur ki, onun gəlişilə «hər şeyi görən gözün» Yazıçılar İttifaqı üzərində nəzarəti duyulacaq qədər zəiflədi. Həm də ki, o vaxt artıq daha liberal çağlar gəlmişdi.*

«Əlbəttə, Axmatovanı, Zoşşenkonu, Şostakoviçi çarmıxa çəkən Jdanov «basqın»ları və Pasternakın, Neizvestnı və Voznesenskinin abırını tökən Xruşşov danlaqlarının vaxtı ötüb keçmişdi. Brejnev dövrünü «şəxsiyyətə pərəstiş» və «subyektivizm» çağlarından fərqləndirə bilən «respektabelliyi» nümayiş etdirmək üçün partiya iqtidarı tərəfindən səs-küylü proseslər quraşdırılmırdı. O, yalnız göstərilən kursdan yayınmaları düzəldir, hərdən atalıq ərki ilə qınayır, hərdən

də başqalarında xof oyatmaq üçün günah işlədənləri cəzalandırırdı... Hətta ideoloji repressiyaların xüsusi «yumşaq» metodu hazırlanmışdı. Rejim (bəzi istisnalar olmaqla) cəsarətli, ya qeyri-məqbul saydığı əsər müəlliflərini həbs etməsə də, edam etməsə də, onların əsərləri həbs edilir, yasaqlanır, xaricə buraxılmır, ya da əksinə xaricə «sürgün edilirdi». Məsələn, MK bu ya digər qeyri-konformist müəllifin «maddi vəziyyəti çətin olduğu ilə bağlı» əsərini «məhdud tirajla», yaxud «yalnız elmi kitabxanalar üçün» dərc etdirmək qərarı da çıxara bilərdi.

...Rəsmi Həqiqətə (o zamanlar düşünülən şəkildə aşılanan Həqiqətə) qarşı günahlar siyahısına hər nə desən qatıla bilərdi: istər kənd həyatı haqqında «pessimistik» oçerk, rus mistik filosofların unudulmuş əsərlərini çap etmək cəhdi olsun, istərsə televiziyada cızıqdan çıxan veriliş, yaxud Vladimir İliçin anasının qeyri-rus mənşəli olduğuna eyham vuran məqalə»[3].

* * *

Respublikaların rəhbərlərini yerli «millətçilik» təzahürlərilə daha fəal və prinsipial mübarizəyə təhrik etmək üçün Kremldə və SSRİ Dövlət Təhlükəsizlik Komitəsində iki cəbhəyə qarşı – qərbpərəst təmayüllü dissidentlərə və digər tərəfdən, «rusist» adlananlara qarşı vaxtaşırı hücumlara keçməyi zəruri sayırdılar. Daha əvvəl, 50-ci illərdə M.Suslov Sov.İKP MK ideoloji komissiyasında «Slavyane» adlı ura-patriotik jurnal haqqında məsələ qaldırmış, nəticədə jurnalın nəşrinə son qoyulmuşdur. Və bu ağlabatan hökm idi, çünki təsəvvür etmək olmazdı ki, məsələn, Azərbaycanda «Türklər» adı altında eynilə etnik, ya irqi ayrı-seçkiliyi körükləyən bir jurnal çıxsın. Bir qədər sonra «Qobustan» dərgisinin baş redaktoru və əməkdaşlarının tamamilə suçsuz-qərəzsiz mətbu yazılara görə yetərincə sərt təzyiqlərə məruz qaldıqları haqqında danışacağıq.

70-ci illərdə bu «tarazlaşdırma» siyasəti uğurla davam etdirildi. 1974-cü ilin 30 aprelində dövlət təhlükəsizliyinin başçısı Andropov «antisovet» «Veçe» jurnalının nəşri üzrə istintaq aparılmasına sərəncam verdi. Andropov haqqında kitab müəllifi yazıçı S.Semanov xatırlayır ki, «Veçe»nin rəhbəri Vladimir Osipov Helsinki zirvə görüşündən sonra ilk siyasi məhbus oldu. Ardınca «Cari hadisələrin xronikası»nı nəşr edən P.Yakir və V.Krasin işdən çıxarıldılar, Ryazan və Tver şəhərlərinə sürgün edildilər.[4]

Bir neçə ildən sonra «rusist» Semanov özü də orqanların əlinə keçdi.



«A.M.İvanovun və S.N.Semanovun antisovet fəaliyyəti haqqında SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Sov.İKP Mərkəzi Komitəsinə 28 mart 1981-ci il tarixli Məktubu»ndan:

«Son zamanlarda Moskvada və bir sıra başqa şəhərlərdə özlərini «rusist» adlandıran elmi və yaradıcı ziyalıların müəyyən hissəsinin əhvali-ruhiyyəsində yeni təmayül ortaya çıxmışdır. Rus milli ənənələrinin qorunması şüarı altında onlar əslində antisovet fəaliyyətlə məşğuldurlar. Bu təmayülün inkişafı xarici ideoloji mərkəzlər, antisovet emiqrant təşkilatları və burjua kütləvi informasiya vasitələri tərəfindən fəal qızışdırılır və şövqləndirilir. Düşmənin xüsusi xidmət orqanları bunda sovet cəmiyyətinə təxribat müdaxiləsi üçün əlavə fürsət görürlər.

...Təhlükə ən əvvəl ondan ibarətdir ki, «rusizm», yəni rus mədəniyyətinin, qədim abidələrin qorunması, «rus millətinin qurtuluşu» naminə mübarizənin zəruriliyi haqqında demaqogiya pərdəsi altında sovet quruluşunun açıq-aşkar düşmənləri öz təxribatçı fəaliyyətini ört-basdır edirlər. Yuxarıda söylənilənlərlə bağlı göstərilən düşmənçilik təzahürlərinin qarşısının alınması zərurəti görünür»[5].

Emiqrant yazıçılar V.Solovyovun və Y.Klepikovanın fikrincə, ötən əsrin 60-70-ci illərində rus nasional-şovinizmi hələ Şelepin və Semiçastnının dövründə DTK tərəfindən gizli dəstəklənirdi. Rus partiyasının yarıgizli fəaliyyət göstərdiyi dövr 60-cı illərin ikinci yarısına təsadüf edir. 70-ci illərdə «rusist»lər getdikcə daha tez-tez açıq mətbuatda – «Moskva», «Naş sovremennik» jurnallarında, «Molodaya qvardiya» nəşriyyatında çıxış edirlər. Bu məqamda Klepikova və Solovyovun sözünə görə, «antisemitizm rəsmi və ruspərəst ideologiyanın ən sıx yaxınlaşma nöqtəsi oldu...» Müəlliflər «Molodaya qvardiya»da yüz minlik tirajla buraxılmış «Efirdə yad səslər» kitabını, V.Pikulun «Ölüm ayağında» romanını, İvan Artamonovun «Məhkumların silahı» kitabını və başqa antisemit mətbu əsərləri xatırlayırlar. Onlar əmindirlər ki, rotatorda çap olunmuş, intellektual və partiya elitasından çoxsaylı nüfuzlu adamlara göndərilən məşhur «Vasili Ryazanovun risaləsi» – MK-da sionistlərin cövlan etməsi haqqında – Dövlət Təhlükəsizlik Komitəsinin bətnində yaranmış, Andropov isə bu risaləni şəxsən redaktə edibmiş. Bilmirəm bu ehtimallar həqiqətə nə dərəcədə uyğundur. Lakin aydındır ki, DTK, «tarazlaşdırma» siyasətini yeridərkən, rusistlərin əməllərindən liberal dissidentlərə qarşı mübarizədə silah kimi bacarıqla istifadə etmişdir.

Eyni siyasət Brejnev və onun baş ideoloqu Suslov tərəfindən yaradıcı ziyalılar arasındakı «sağçı» və «solçu» müxalifətlə mübarizədə tətbiq olunurdu. Bir tərəfdən partiya funksionerləri liberal-burjua yönümlü dissidentlərin «ipini çəkirdi», onların arasında da, məlum olduğu kimi, böyük əksəriyyəti yəhudilər təşkil edirdilər. Beləliklə liberal «Novıy mir» jurnalına qarşı, onun baş redaktoru Aleksandr Tvardovskini kənarlaşdırmaq həddinə çatan sərt ölçülər götürülmüş, çılğın «Yunost»un «köpü yatızdırılmışdır». Digər tərəfdən, rus-patriotik xəttinin ideoloqu, «Molodaya qvardiya»nın baş redaktoru Anatoli Nikonovu işdən çıxardılar. «Rusist»lərin təmsilçisi Sergey Semanovun fikrincə, bu, hamıya bəlli Brejnev «yelləncəyi» idi – bir səmtə atılan addım (təqdir, ya təkfir) əks tərəfə yönəldilmiş addımla tam müvafiq olurdu. «Stalinçilərin qalıqları xətrinə «Novıy mir» liberallarını aradan götürdülər, indisə şuluqluq salan «Molodaya qvardiya» patriotlarını yerində oturtdurarıq. Amma hər halda sakitcə, dinc yolla və camaat qarşısında qalmaqal salmadan... Çətin ki, Brejnev öz aləmində belə düşünürdü, az bələd olduğu bu sahədə, çox güman ki, fəhmlə, lakin siyasət anlamı müqabilində məntiqi hərəkət edirdi»[6].

Zənnimcə, Kreml ideoloqları ali dövlət mənafeyi baxımından tamamilə məqsədəuyğun davranırdılar. Rusiyanın titul milləti arasında başqa düşüncə, fərqli təfəkkürlə mübarizədə onlar prinsipiallıq göstərməsəydilər, eyni yanaşmanı yerli millətçilər üzərində nəzarətə cavabdeh olan müttəfiq respublika rəhbərlərindən tələb edə bilməzdilər.

60-cı illərin sonluğunda və 70-ci illərdə SSRİ-də millətlərarası zəmində baş verən çaxnaşmalar və tələtümlər az olmamışdı. Bütün bu tələtümlər qətiyyətlə yatızdırılır, təhrikçiləri bəbs olunub cinayət məsuliyyətinə cəlb edilirdi.

Roy Medvedyevin «Naməlum Andropov» kitabında, eləcə də V.Ponomaryovun «SSRİ-də ictimai çaxnaşmalar» broşüründə bir qayda olaraq etnik səciyyə daşıyan kütləvi pozuntu və iğtişaşlar haqqında məlumat verilir. Belə ki, məsələn, 1966-cı ilin sonlarında 1945-ci ildə Orta Asiyaya sürgün edilmiş Krım tatarları, Krım Muxtar Respublikasının 45 illiyini qeyd edərək Özbəkistanda kütləvi mitinqlər keçirmişdilər.

1967-ci ilin sonlarında Andropovun idarəsi, xalq toplantısına yığışmış və Abxaziya Muxtar Respublikasının «gürcüləşdirilməsi»nə qarşı etiraz edən milli icma nümayəndələrinin tələblərini araşdırmalı oldu. 1967-ci ilin 17 may günündə Frunze (indiki Bişkek) şəhərində



(Qırğızıstan SSR) böyük çaxnaşmalar baş vermiş, onların qarşısını almaq üçün silah işlətmək lazım gəlmişdi. Kitabın birinci cildində 1968-ci ildə Stepanakertdə (Xankəndidə) kolxoz sədrinin oğlunun qətlində günahlandırılan adamların məhkəməsi ilə bağlı baş vermiş çaxnaşmalardan yazmışdım. 1969-cu ilin may ayında Daşkənddə özbək gənclərinin antirus nümayişləri keçirilmiş, 1971-1972-ci illərdə Tiflis və Kaunasda milli zəmində kütləvi hərəkatlar asayişi pozmuşdu. 1973-cü il, 16-19 yanvarda Qroznı şəhərində minlərlə inquşun qatıldığı möhtəşəm manifestasiyalar vəlvələ salmışdı. Baltikyanı respublikalarda zaman-zaman etiraz dalğaları kükrəyib coşurdu.

«Təbii ki, bu ciddi simptom idi, lakin sovet və partiya rəhbərliyinin lazımi diqqətini cəlb etməmişdi. Həm də mətbuat yuxarıda sadalanan bütün çaxnaşmalardan, demək olar ki, heç nə yazmırdı»[7], – Roy Medvedyev kitabında xatırlayır.

Bunun əksinə olaraq, həmin iğtişaşlar Qərb mətbuatında Qərb radiostansiyalarının xəbər proqramlarında ətraflı işıqlandırılırdı.

«Azadlıq» radiosunun **1970-ci il 5 fevral** tarixli verilişində Azərbaycanda daxili işlər naziri və onun müavinlərinin, Dövlət Plan Komitəsi sədrinin, Televiziya və Radio Verilişləri Dövlət Komitəsi sədrinin işdən çıxarılması şərh edilirdi. DİN rəhbərliyinin dəyişdirilməsindən söz açan «Azadlıq»ın icmalçısı qeyd edir ki, məsələnin rəsmi cəhətləri ilə yanaşı, «xalq kütlələrindən gizlədilməsinə cəhd edilən qeyri-rəsmi səbəblər də var. **Əsas qeyri-rəsmi səbəblərdən biri millətçilik meyllərinin yayılması təhlükəsidir** (vurğulama bizimdir – ***E.A.***). Bu sirr deyil ki, son illərdə dost olan və olmayan dairələr respublika rəhbərliyi arasında milli maraqların və sərbəstliyin üstün tutulmasına yönələn meyllərin yayılmasından söz açırlar. Bəzi dairələr gizlətmirlər ki, Azərbaycan rəhbərliyi BMT-də Ukrayna və Belarusiya kimi öz təmsilçisinə malik olmaq məqsədilə daha çox müstəqillik almağa çalışır. Bununla bağlı eyni niyyətlərin respublika ziyalıları arasında da yayılması müşahidə olunur. Görünür, Türkiyə baş naziri Süleyman Dəmirəlin və bu ölkənin prezidenti Cövdət Sunayın böyük nümayəndə heyətlərilə səfərləri həmin hissların qızışdırılmasına yardım etmişdir...»

Ardınca şərhçi vurğulayır ki, millətçilik meyilləri digər respublikalarda da yayılmışdır və bunun da öz səbəbləri vardır.

«Birincisi, qeyd etmək lazımdır ki, bu hisslərin qızışdırılmasına dünya kommunist hərəkatında izlənən təmayüllər təsir göstərir. Çexoslovakiya hadisələri önəmli rol oynamışdır.

Digər tərəfdən, – şərhdə deyilir, – məgər Kremlin indiki ağaları bir çox hallarda millətçilik və hətta fövqəldövlət şovinizmi mövqeyindən çıxış etmirlərmi? Düz deyilib ki, balıq başından iylənər»*.

* * *

V.Solovyov və E.Klepikovanın «Kremldəki qəsdçilər» kitabında Heydər Əliyev və onun «millilik» probleminə münasibəti səciyyələndirilir:

«Onun (Heydər Əliyevin – *E.A.*) və onunla birgə Gürcüstanın daxili işlər naziri Eduard Şevardnadzenin timsalında DTK-nın gizli hücrələrində yetişdirilmiş insan cinsinin ali məhsulu sərgilənmişdir.

Onların, hətta rus qulağı üçün qəribə səslənən adlarına baxmayaraq bu, inamlı imperiyaçı-kosmopolitlər idi: hər ikisi rus məktəblərində oxumuş (Heydər Əliyev orta və ali təhsilini Azərbaycan dilində almışdır – *E.A.*), hər ikisi hər hansı zəmin təməlindən, xəlqi köklərdən məhrumdur, hər biri öz respublikasını sovet imperiyasının tərkib və ayrılmaz hissəsi kimi görür. Hər ikisi, xüsusən də Əliyev, milli özgürlüyə, ənənələrə, öz xalqının xarakterinə və həyat tərzinə qarşı dözümsüzdür – onlar üçün bu, xürafatdan artıq olmayan, keçmişin qalıqları, universal və fövqəl-milli sovet imperiyasının yaranmasını əngəlləyən acı və aradan qaldırılmalı maneələrdir. Tipik «keçəbə» dünyagörüşüdür ki, Andropovun özü də istisna olunmur, buna şərikdir...»[8]

Bu ədalətsiz və birtərəfli səciyyələndirməni təkzib edən çoxsaylı faktları aşağıda gətirəcəyəm, hərçənd bu yozumdan müəyyən rasional məqam xali deyil. Bu barədə yuxarıdakı kateqorik formada olmasa da, Roy Medvedyev Andropov haqqında kitabında yazır: «...20-30-cu illərin gəncləri ölkə və partiya liderləri kimi özlərinin yaxın və uzaq milli köklərindən az düşünürdülər, ələlxüsus Şimali Qafqazda. Sovet dövlətində sosial status birinci yerdə idi»[9]. Kommunistlər əslində beynəlmiləlçi idilər, burada Roy Medvedyev haqlıdır və onları öz milli mənsubiyyəti son növbədə maraqlandırırdı.

Qərb politoloqları bir düşüncədə haqlıdırlar ki, Heydər Əliyev marksist-leninçi ideyalarının müqəddəsliyinə inam bəsləyən kommunistlərdən idi. Çox sonralar, SSRİ-nin dağılması ərəfəsində keçmiş partiya «vaiz»ləri tələm-tələsik dissident cildinə girməyə çalışanda Heydər Əliyev jurnalist E.Əhmədova ilə müsahibəsində danılmaz

* Burada və irəlidə sitatlar H.Əliyevin şəxsi arxivində tapılmış mətnlərdən gətirilir.



səmimiyyətlə etiraf edirdi: «...Mən gəncliyimdən öz həyatımı Kommunist Partiyasına həsr etmişəm. Sadə fəhlə ailəsində doğulmuşam. Atam kommunist idi, mən də 20 yaşımda Kommunist Partiyası sıralarına daxil oldum. Kommunizm ideyaları mənim üçün müqəddəs idi, başqa ideologiyanı mən qəbul edə bilməzdim. Mənim ağlıma da gəlməzdi ki, hansısa başqa ideologiyaya tapına bilərəm. Mən bu Sistemin yeritdiyi başlıca xəttə sadiq idim...»[10].

İlk aksiyalar və bəyanatlarına görə, MK-nın yeni birinci katibi «günün tələblərinə uyğun olmağa» və Kreml ideoloqlarının onunla bağlı gözləntilərini doğrultmağa çalışırdı. Heydər Əliyev ehtiyatlı və uzaqgörən rəhbər idi, bundan başqa, İmam Mustafayevin karyerasının necə sona yetdiyi və bunun respublika üçün necə acı nəticələrə səbəb olduğunu çox yaxşı xatırlayırdı. Ona görə də ilk illərdə Heydər Əliyev tez-tez Brejnevsayağı «yelləncək üsulu»na əl ataraq bir tərəfdən Moskvanın gözündə «millətçilik sapıntıları»nın, keçmişin qalıqlarının qənimi kimi görünməyə çalışır, digər tərəfdən isə, onun çağırışlarını bəsit hərfi mənada başa düşüb canfəşanlıq edən komanda üzvlərinin «cızıqdan çıxmaması»na göz qoyurdu. 29 oktyabr 1971-ci il tarixli XXIV partiya qurultayının qərarları işığında ideoloji işin daha da gücləndirilməsi üzrə respublika partiya təşkilatlarının vəzifələrinə həsr olunmuş Azərbaycan KP MK plenumu bu baxımdan səciyyəvidir.

Əslində, Heydər Əliyev partiya forumunda yaradıcı ziyalıların nümayəndələrini, həm də «günah işlətmiş» yazıçıların konkret adlarını çəkərək ilk dəfə (və şükür ki, son dəfə) kəskin tənqid etmişdi. Bu çıxış onun bəzi komanda üzvləri tərəfindən «rəhbər göstəriş» kimi, ziyalılar tərəfindən isə «sıxma-boğma» siyasətinə keçmək kimi qarşılanmışdı.

Azərbaycanın ali rəhbərinin fəaliyyətini diqqətlə izləyən bir çox xarici informasiya vasitələri, o cümlədən Fransanın «Mond», Qərbi Almaniyanın «Frankfurter algemayne», «Züddoyçe tsaytunq» kimi mötəbər qəzetlər Heydər Əliyevin məruzəsinin şərhinə xüsusi məqalələr həsr etmişdilər.

Bu mövzuda bir sıra reportajlar «Azadlıq» radiosunun efirində səsləndi. Düzdür, xarici radiosəslər daha çox Heydər Əliyev məruzəsinin orta və ali məktəblər sistemində ciddi nöqsanlardan, «qəribə» medalçılardan, bir çox məzunların təyinatdan yayınaraq tanışlıqla müxtəlif nazirliklərdə, idarələrdə işə düzəldiklərindən bəhs edilən hissəsinə diqqət yönəldirdilər. Əliyev konkret misallar da gətirirdi: ötən beşillikdə ümumtəhsil məktəblərinə təyinatla göndərilən 2 min

534 nəfər ali təhsilli məzun təyinat yerinə getməmişdir. Azərbaycan Dövlət Konservatoriyasının məzunlarından son üç ildə rayonlara 46 nəfər göndərilsə də, iş yerlərinə vur-tut on nəfər (!) gəlib çıxmışdır.

Heydər Əliyev öz məruzəsində ali məktəblərə qəbul zamanı neqativ halları, rüşvətxorluğu, müəllimlərin sırasında təsadüfi, kəmsavad, bəzən də əlüyəri adamların yer tutmasını vurğulamış, gənclərin fiziki tərbiyəsində ciddi geriləməni nəzərə çatdırmış, bir çox elmitədqiqat işlərinin və hətta bütövlükdə institutların səmərəsizliyindən söz açmışdı. Məsələn, Azərbaycan elmi-tədqiqat Elektrotexnika İnstitutu on bir il ərzində öz tematikası üzrə bircə elmi işi də tətbiq etməmişdi, halbuki institutda 400 nəfər çalışır və onların elmi araşdırmalarına 3 milyon manat vəsait sərf olunmuşdu. O, namizədlik və doktorluq dissertasiyaları yazılışında konkret plagiat hallarını bildirmiş, kadr seçimində yerlibazlıq və əyalətbazlığın yolverilməzliyini qeyd etmiş, bəzi adlı-sanlı adamların övladlarının qanunsuz yollarla ali məktəblərdə, aspiranturalarda özlərinə yer tapmasını, növbədənkənar mənzil almasını və s. halları pisləmişdi.

Azərbaycanda ictimai həyatın neqativ cəhətlərinin belə qeyri-adi kəskinliklə tənqid edilməsi hətta Qərb şərhçilərinin təəccübünə səbəb olmuşdu. Belə ki, «Azadlıq» radiosunun 11 noyabr 1971-ci il tarixli verilişində məruzənin icmalını sona yetirən jurnalist sözünü sualla tamamlayırdı:

«Əziz dinləyicilər, Azərbaycanda təhsil və mədəniyyət sahəsində vəziyyətin başqa respublikalardakından pis olduğuna inanmaq çətindir. Bu, istər başqa respublikalara, istərsə də bütövlükdə sovet rejiminə xasdır. Bəs niyə yalnız Azərbaycan tənqid olunur?»

Geniş məruzənin əsas hissəsi partiyanın ideoloji, ideya-tərbiyəvi işinin yaxşılaşdırılması məsələlərinə, respublika yaradıcı ziyalıları qarşısında duran vəzifələrə həsr olunmuşdu.

Belə ki, mətbuat haqqında söz açarkən, Heydər Əliyev «Azərbaycan qadını» jurnalının səviyyəsinə irad tutmuş, həmçinin «Qobustan» almanaxının (redaktoru Anar Rzayevdir) səhifələrinə «qeyrisağlam, obıvatel meyillərinin sirayət etdiyini» bildirmişdi. «Literaturnıy Azerbaycan» jurnalında dərc olunmuş Maqsud İbrahimbəyovun «V odin prekrasnıy den» («Günlərin bir günündə») hekayəsi haqqında da tənqidi rəy söyləyən birinci katib nəzərə çatdırmışdır ki, həmin hekayədə «müəllif namuslu rəhbər işçilərin üzərinə kölgə salmağa cəhd etmiş, ictimaiyyətimizi bişüur, prinsipsiz kimi göstərmişdir». Yazıçılardan «Dünyanın arşını» romanının müəllifi Sabir



Əhmədov (romanda «sovet varlığı təhrif edilir, kolxoz həyatının kölgəli cəhətləri və nöqsanları qabardılır»), şair Xəlil Rza («ayrı-ayrı əsərlərində bizim varlığımız təhrif olunmuş şəkildə təqdim olunur, o, sanki xalqımızın həyatında baş vermiş dəyişiklikləri görmür»), eləcə də Yazıçılar İttifaqının bütövlükdə ədəbi orqanları «ideya və bədii baxımdan zəif əsərləri» dərc etdiklərinə görə tənqid olunmuşdu.

Ardınca Heydər Əliyev 1971-ci ilin iyununda Kommunist Partiyası Mərkəzi Komitəsinin Dövlət Mətbuat Komitəsinin qeyri-kafi işi haqqında bəhs edilən qərarını xatırlamış və respublikada kitab nəşri və satışının vəziyyətinin kökündən dəyişməli olduğunu qeyd etmişdi.

Həmin plenumda Azərbaycan Sovet Ensiklopediyasının fəaliyyəti də tənqidə məruz qalmışdı:

«...ASE-nın redaksiyası mövcud olduğu beş ildə bütün ensiklopediyanın nəşrinə ayrılmış məbləğin yarısından artığını xərcləmiş, hazırlanmış və 20 minlik tirajla çap olunmuş yeganə birinci cildi isə ciddi səhvlərə və kəm-kəsirlərə görə hazırda yenidən işləmək lazım gəlmişdir.

Yüksək ixtisaslı kadrları seçə, ən yaxşı mütəxəssisləri redaksiya ətrafında birləşdirə bilməmiş, material seçimində prinsipsizliyə yol vermiş ensiklopediyanın baş redaktoru yol. Rəsul Rzaya ciddi iradlar bildirilməlidir».

Azərbaycan kinematoqrafçıları da diqqətdən yayınmamış, onların işi, məruzədə deyildiyi kimi, «günün tələblərinə cavab vermir», R.İbrahimbəyovun ssenarisi üzrə çəkilmiş «Bir cənub şəhərində» filmində isə «bizim həyatımızın mənzərəsi təhrif edilmişdir».

Belə ideoloji tənbehlər müsəlman respublikalarının yaradıcı ziyalılarına daima açıq-saçıq bədgümanlıqla yanaşan Kreml sakinlərinin ürəyincə olmaya bilməzdi. Lakin yaradıcı ziyalıların ayrı-ayrı belə nümayəndələrinin başı üzərində, partiya məmurlarının canfəşanlığı nəticəsində qara buludlar sıxlaşanda, «divana çəkilmək» təhlükəsi yarananda Heydər Əliyev özü işə müdaxilə etməyi lazım bildi. KP Mərkəzi Komitəsinin ideologiya üzrə katibi Daniil Piriyeviç Quliyevin Maqsud İbrahimbəyovu az qala dissidentə «çevirəcəyi» barədə mənə yazıçı özü söyledi:

**Maqsud İbrahimbəyovla söhbətdən:**

«Axundov dövründə senzura tüğyan eləyirdi. Bir pyesdə əlli düzəliş etməyincə səhnəyə yol tapmaq mümkün deyildi. Bir dəfə teat-

ra zərərsiz-ziyansız «Gecə yarısı kim gələcək» pyesimi gətirmişdim, mənə dedilər: «Bilirsiniz, pyesinizi nəzərdən keçirtdik, burada filan şey əlavə edilməli, filan şey də çıxarılmalıdır». Mən əvvəl üzüyolalıqla hər şeyi cızıb qaralayırdım, axır-axırda: «Dayanın, – dedim. – Siz neyləyirsiniz?» Sonralar bütün pozulanları səhnədə bərpa etdik. Hər hansı əsərini Moskvada çap etdirməyincə Azərbaycanda üzə çıxarmaq müşgül olurdu. Heydər Əliyeviç isə dahi insan idi. O elə etdi ki, Azərbaycanda bircə nəfər də dissident peyda olmadı.

**– Bu nə ilə izah oluna bilər?**

– Ağılla. Onun ağlı ilə. O dedi – uşaqlar, çap olunmaq istəyirsiniz, buyurun. Heydər Əliyev məni Rüstəmlə qəbuluna dəvət etdi. Mən o vaxt Moskvadaydım və Bakıya gəlməyə qorxurdum.

**– Bu, ideoloji məsələlər üzrə oktyabr plenumundan sonra olmuşdumu? O vaxt Heydər Əliyev demişdi ki, Maqsud İbrahimbəyov «Günlərin bir günündə» hekayəsində «namuslu rəhbər işçilərin üstünə kölgə salmağa cəhd göstərmişdir...»**

– Mən cəhd göstərməmiş, elə həqiqətən də kölgə salmışdım.

**– Nəticədə bu sizinçün başağrısı olmuşdumu?**

– Olmuşdu... İş ondadır ki, Danil Quliyev «Malıy teatr»a, «Molodaya qvardiya», «Sovetski pisatel» nəşriyyatına, daha harasa məktub yazmışdı, cəmi altı məktub. Yazmışdı ki, bizdə təxribatçılıq fəaliyyətilə məşğul olan antisovetçi Maqsud İbrahimbəyov var, siz isə orada onu təbliğ edirsiniz. Yadımdadır, «Molodaya qvardiya»dan Qaniçev ona cavab vermişdi: «Hörmətli Danil Quliyev, biz nələrdən söhbət getdiyini bilmirik, amma İbrahimbəyovun «Molodaya qvardiya»ya təqdim olunmuş əsərlərində sizin yazdıqlarınızdan əsər-əlamət də yoxdur». Və «Malıy teatr»dan Tsaryov da cavab vermişdi ki, hazırda üzərində işlədikləri pyesdə heç bir ziyanlı fikir onların gözünə dəyməyib. Amma pyesi saxladılar. Tamaşaya sonralar qoydular. «Sovetski pisatel»də də kitabımın nəşri dayandırıldı.

Onda Heydər Əliyevə teleqram göndərdim: «Əziz Heydər Əliyeviç. Sizin MK katibi orta statistik ölçülərlə axmaq adamdır. O, ağıldan kəmdir. Bundan əlavə, onun kütbeyinliliyinə mütaliə etdiyi zaman dodaqlarını tərpəşdirməsi dəlalət edir. Bu o deməkdir ki, o, oxumağı bacarmır». Xülasə, müraciətimin məğzi ondan ibarət idi ki, qoyun bizi dinc yaşayıb işləyək. Heydər Əliyev Danil Quliyevi, Azad Şərifovu yanına çağırıb mənim teleqramımı oxumağı xahiş edir, Daniil Piriyeviç mətni oxuyarkən adətincə dodaqlarını tərpədir, həmin yerə çatanda isə ağzı quruyur, pərtlikdən pörtür... Az sonra



mənə Moskvaya zəng vurub dedilər ki, Azərbaycana gəlim, «birinci» bizimlə söhbət etmək istəyir.

...Mən Rüstəmlə Heydər Əliyevin yanına axşam saat səkkizdə gəldik, onun yanından isə on ikinin yarısında çıxdıq. Özü də onun işlərinin aşıb-daşdığı zaman. Söhbətləşdik, danışdıq. Özümüzdən yox. Bildiyimiz nə vardısa, ona söyləyir, o da cavab olaraq planlarını bizimlə bölüşür, nə qədər zir-zibili kürüyüb atmalı olduğunu dilə gətirirdi. Axırda mənə dedi: «Bilirsən, mən sənin povestlərini oxumamışam. Mənə elə sizin yazıçılarınız əsəri altından cızıqlanmış yerlərlə gətirib vermişdilər». Hekayəm haqqında isə Dövlət Televiziya və Radioverilişləri Komitəsi sədri onun «qulağını doldurmuşdu». Mən sədri hekayədə «Qurban dayday» adlandırdım. Bir il sonra Heydər Əliyev özü də onu belə çağırırdı... «Bütün bunlar, – dedi, – yəni Moskvada oturub qalmağın, nədənsə qorxmağın düzgün deyil. Gəlin, qayıdın, əlimizdən gələni sizinçün eləyərik, işləyin ürəyinizcə». Bax belə...

**– Deməli, onun ətrafındakı «xeyirxah»larmış dissident axtarışlarında aranı qızışdıranlar?**

– Axı elə Yazıçılar İttifaqının özündə də xəbis, paxıl adamlar az deyildi. Onlar ona (Heydər Əliyevə – *E.A.*) hekayələrimizi gətirir, haqqımızda qulağına hansısa iyrənc uydurmaları pıçıldayırdılar. Nəbi Xəzri «Ondan yaxşı qardaş yox idi» povesti haqqında Bakı şəhər partiya komitəsi plenumunda çıxış edərək demişdir ki, bizim öz Soljenitsınımız – Maqsud İbrahimbəyov var, o, sevimli vətənimizi ləkələyir.

Başqa bir nəfər, o da yazıçı idi, Heydər Əliyevin yanına gedə bilirdi, hansısa əsərimi ona gətirib demişdi: «Heydər Əliyeviç, bir baxın görün bu yaramaz nələr yazır!» Bütün bunları Heydər Əliyev o axşam görüşündə danışdı. «Gəlin, işləyin. Problem ortaya çıxarsa, zəng çalın». Beləliklə, o, ətrafımızda gedən fitnə-fəsadlara bir yağlı nöqtə qoydu».

70-ci illərin əvvəllərində populyar cavan nasir Anar Rzayevin başçılıq etdiyi «Qobustan» incəsənət toplusu ətrafında da oxşar vəziyyət yaranmışdı.

Anar müəllim xatırlayır: «Bir təcrübəli çekist və aparatçı kimi Heydər Əliyev anlayırdı ki, Mərkəzin umacaqları «ödənməlidir». Odur ki, guya millətçiliklə mübarizəyə başladı».

Jurnalın tarixçəsi belədir: 60-cı illərdə «Azərbaycan incəsənəti» toplusu nəşr olunurdu, hərçənd məşhur teatr xadimi, rejissor Mehdi

Məmmədovun redaktorluğu altında cəmi üç sayı çıxdı. Sonra almanaxın buraxılışı dayandırıldı. 1968-ci ildə Mərkəzi Komitənin ideologiya katibi Cəfər Cəfərov Anarı baş redaktor vəzifəsinə dəvət etdi. Anar dərhal razılaşdı, həm də dərgini «Qobustan» adlandırmağı təklif etdi. İndi hamı bilir ki, Qobustan ən qədim tarixi-arxeoloji qoruq, qayaüstü rəsmlərdə qədim insanların müxtəlif peşə və sənət növlərinin ibtidai görüntülərini cizgilədikləri təbii muzey, Azərbaycan xalqının unikal sərvətidir. O zamanlar isə bu ad sıravi «obıvatel»i çox da maraqlandırmırdı. Cəfər Cəfərov almanaxın adının dəyişdirilməsi məsələsini MK Bürosundan keçirib müvafiq qərar qəbul edilməsinə nail oldu. «Qobustan»ın ilk sayı 1969-cu ildə çıxdı. O vaxtdan da çətin həyatı başladı.

Almanax Stalindən sonrakı cəmiyyətin mənəvi həyatında tamamilə yeni hadisə idi. O, azərbaycanlı «altmışıncılar»ın istedadlı nəslinin bəhrəsi oldu. Topluda hər şey, quru rəsmilikdən uzaq, qeyri-standart, baxımlı bədii tərtibatdan tutmuş – yeni, təravətli idi. Cildini orta əsr Azərbaycan miniatürləri, «Molla Nəsrəddin»dən karikaturalar, çağdaş rəssamlar Cavad Mircavadovun, Mikayıl Abdullayevin, Tahir Salahovun, Rasim Babayevin əsərləri süsləndirirdi. Bununla yanaşı, toplunun cildindən oxucular italyan İntibah rəssamlarının əsərləri, Yaponiya qravürləri, Pikassonun qrafikası ilə də tanış olurdular. Və belə cəsarətli sərbəstlik, əlbəttə ki, anlaşılmazlıq doğururdu.

Partiya məmurlarını toplunun məzmunu, əyalətçilik çərçivəsini aşıb keçməyə çalışması daha da çox qıcıqlandırırdı. Dərgidə Pikassodan, Çaplindən, Stravinskidən bəhs edilir, Güney Azərbaycan poeziyasından, Türkiyənin, türkdilli xalqların çağdaş sənətindən söz açılırdı. Onun səhifələrində qazax rəssamlığı, qırğız kino sənəti, tatar musiqisi, Tuva abidələri və başqa bu kimi mövzulara yer verilirdi. Bununla belə, almanax ideoloji qəliblərdən tamamilə xali idi. «Qobustan»ın kollektivi inqilabdan əvvəl, ya Azərbaycan Demokratik Respublikası dövründə fəaliyyət göstərmiş görkəmli milli ziyalıların unudulmuş adlarını üzə çıxarır, xidmətlərini xatırladırdı. Bütün bunlar rəsmi ideologiyanı qoruyanların əlində dərgi əməkdaşlarını «pantürkizm» və başqa «izm»lərdə günahlandırmağa bəhanəyə çevrilirdi.

«İş absurda gətirib çıxarırdı, – Anar xatırlayır. – Aprel inqilabının ildönümünə mən üz qabığında Toğrul Sadıxzadənin «Nərimanov, Kirov, Orconikidze və Mikoyan» adlı tablosunu yerləşdirmişdim. Danil Quliyev bizi təcili Mərkəzi Komitəyə çağırdı. Sən demə, bu şəkildə – yeri gəlmişkən, rəssam artıq sərgilərdə nümayiş etdirdiyi şəkildə – Nərimanov öz partiya silahdaşlarından bir az qabağa düşübmüş. «Bu nə deməkdir? Niyə o qabaqdadır? Buna görə 1937-ci ildə sizi dama basardılar». Toğrul dözmədi: «Buna görə bizləri yetərincə dama basıblar». O, Seyid Hüseynin və Gülsüm xanımın oğludur, atası da, anası da perpessiya qurbanlarıdır. Danil Quliyev israr edir: «Siz cildi dəyişməli, başqa rəsmlə əvəz etməlisiniz». Siqnal nüsxəsi təzəcə çıxmışdı. Amma mən də burada «demaqoqiya»ya əl atdım: «Bacarmaram, – dedim. – Mən mətbəə işçilərinə izah edə bilmərəm ki, nəyə görə inqilab bayramı ərəfəsində üz qabığından dörd inqilabçını çıxarıb atırıq».

Yaxud – jurnalımızda Elturanın məqalələri gedirdi. Danil Quliyev də bizi danlayır: «Bu nədir, necə yol vermisiniz? Belə imza qoymaq olar?» – «Axı bu onun adıdır!» – «Siz deməliydiniz!» – «Yəni adını dəyişsin?» – «Qoy dəyişsin!».

**Anarın «Ömrümün «Qobustan» illəri» xatirə-yazısından:**

«...Başı bəlalı «Qobustan»la bağlı söz-söhbət hələ ilk sayı işıq üzü görməmişdən başlamışdı. «Qobustan» adından başqa «toplu» sözü də mübahisələr doğururdu. Əcnəbi «almanax», yaxud «məcmuə» kəlmələri heç kəsi narahat etmirdisə, «toplu»nu türk dilindən (?!) alınma söz kimi qəbul edirdilər və bunun yaman nigarançılığını çəkirdilər. Türk sözü! Bu irad, xüsusilə Azərbaycanda o dövrün və o sistemin anlayışlarına görə ən ağır siyasi ittihama bərabərdi...

...İş ondaydı ki, Azərbaycan dili lüğətlərinə daxil olan, amma çox istifadə edilməyən, az qala unudulmuş sözləri məhz «Qobustan» səhifələrində görəndə bunları «türk dilinin» (oxu: Türkiyə türkcəsinin) təsiri kimi qələmə verirdilər. Məsələn, **müvəffəqiyyət** əvəzinə daha **çox uğur**, **nümunə** əvəzinə **örnək**, **əsr** əvəzinə **yüzil**, **əlaqədar** əvəzinə **bağlı** işlədəndə bunu pantürkizm əlamətləri kimi qiymətləndirirdilər. «Qobustan» haqqında şeytançılıq edən «qeyrətli donosbazlarımızın» xəbərdarlıqları əsasında Mərkəzi Komitənin ikinci katibi Kozlov Cəfər Cəfərovdan soruşurdu: Doğrudurmu ki, «Qobustan» türk dilində çıxır? (Bu günün gənc oxucularına bir daha izah edirəm ki, o dövrdə «türkcə» anlayışı yalnız «Türkiyə türkcəsinə» şamil edilirdi və dünya imperializminə xidmət kimi ciddi siyasi suç sayılırdı).

Yenə də izahat verməli olurduq ki, məsələn «təfsir etmək» əvəzinə «yozmaq» kəlməsini ...işlətməyin Türkiyə türkcəsinə, pantürkizmə və dünya imperializminə heç bir dəxli yoxdur. İzah etməli olurduq ki, ...incəsənətin bəzi növləri (məsələn, kino, balet, dozgah rəsmi) sənətimizə yeni gəlib, odur ki, ...simfonik musiqi, yağlı boya,

heykəltəraşlığa aid terminlərimiz yox dərəcəsindədir. Onları yaratmalıyıq. Tutalım, yağlı boya sənətində «mazok» mənasında «yaxmaq» felindən «yaxı» sözünü işlədə bilərik. Heykəltəraşlıqda taxta heykəli yonmaq, gipsi isə yapmaq olar. Və bu «yapmaq» kəlməsindən Türkiyə türkcəsindəki «yapmağa» görə hürkmək lazım deyil.

Bundan başqa, Azərbaycan dilində incəsənətşünaslıq, tutaq ki, dəzgah rəngkarlığı, balet, simfonik musiqi, yəni mədəniyyətimizə artıq XX əsrdə gələn sahələr üzrə çox az terminlər vardı. Ona görə də söz yaradıcılığı ilə məşğul olmaq, hansısa yeni sözlər tapmaq lazım gəlirdi. İndi həmin sözləri biz gündəlik leksikonumuzda işlədirik: «çağdaş», «önəmli», «öncə». O vaxt isə bunlar ilk dəfə «Qobustan» toplusunun səhifələrində dilimizə qatılmışdı. Və bu yönümü «pantürkizm» kimi qələmə verməyə başlamışdılar»[11].

Anarın bəzi üzdəniraq həmkarları müxtəlif idarələrə «donos»lar göndərməyə girişdilər. İş o yerə gəldi ki, «müxalif» Azərbaycan jurnalı haqqında şayiələr Moskvaya çatdı və Sov.İKP MK katibi Kapitonov hansısa müşavirədə dilə gətirdi ki, Azərbaycanda «Qobustan» adlı millətçi jurnal buraxırlar». Və Azərbaycandakı ideoloji katib bütün bu sıxma-boğmalarda öz neqativ rolunu oynamışdı.

Anar xatırlayır:

«O, Aktyorlar Evində, jurnalistlərin qurultayında çıxış edirdi. Mən gecikmişdim, foyedə dayanmışam. Mənə deyirlər: «Daniil Piriyeviç yenə də adını «hallandırdı». Moskvadan qurultaya gələn «Komsomolskaya pravda»nın müxbiri V.Peskova üz tutub deyirmiş: «Yoldaş Peskov, Moskvada cavan nasir Anarı çox tez-tez çap edirlər. Və tamamilə nahaq. Siz orada yoldaşlarımıza çatdırın ki, bu adam millətçidir». Daha bir məqam. Moskvadan hansısa böyük ideoloji müşavirədən qayıtmış Daniil Quliyev ziyalıları Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində toplayır. Çeşidli mətləblərin sırasında bu dayaz adam arsızcasına belə bir etirafını dilə gətirir: «Orada Gürcüstanı və Estoniyanı millətçiliyə görə tənqid etdilər. Bizi tərifləyib qeyd etdilər ki, Azərbaycanda yaxşı beynəlmiləl atmosfer mövcuddur. Lakin mən çıxış edib dedim: «Yoldaşlar, bu heç də elə deyil. Bizdə də millətçilik tendensiyaları var, məsələn, «Qobustan» jurnalı». Və onda məndən soruşdular: «Bəs niyə indiyədək siz jurnalın redaktorunu cilovlaya bilmirsiniz?»

Amma yenə də hökumət mətbuatında cürbəcür hücumlara, tənqid və hətta «Kirpi» jurnalında karikaturalara baxmayaraq, «Qobustan»ı qapamadılar. Hərçənd toplu əslində qeyri-qanuni nəşr idi, çünki Sov.İKP Mərkəzi Komitəsinin reyestrinə daxil deyildi. O zaman



bütün jurnallar yalnız Sov.İKP MK reyestrinə daxil ediləndən sonra abunə üçün «Soyuzpeçat»ın kataloqlarına qatıla bilərdi. «Qobustan»a abunə yazılmaq mümkün deyildi. O, almanax kimi, (yəni kitab statusunda) «Azərnəşr»in məhsulu kimi buraxılır, sonralar Mədəniyyət Nazirliyinin nəzdində sayılırdı. Yuxarıda sadalanan və sadalanmayan ittihamlara görə Heydər Əliyev onu hər hansı məqamda qapaya, yaxud ən azı başqa daha üzüyola redaktor təyin edə bilərdi».

Anar şükranlıqla davam edir:

«... «Qobustan»ı da, onun redaktorunu da çox bəlalardan, o cümlədən öz əli altında işləyən partiya məmurlarından qoruyan MK-nın birinci katibi Heydər Əliyev idi».

O, bir çərək əsr ötəndən sonra artıq müstəqil Azərbaycanın prezidenti olaraq, «Qobustan» dərgisinin tarixi rolunu belə dəyərləndirirdi: «Bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi. Bizim rəsmi jurnallardan fərqli olaraq bu jurnal bunları təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiramı yaradırdı. Çünki dövr belə idi – hesab edilirdi ki, Oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı Oktyabr inqilabından sonra olubdur. Bax, o illər bu cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdur. O cümlədən «Qobustan» jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqəti deyirdi, düzü deyirdi və insanları həqiqətə çağırırdı»[12].

*Bir müddət sonra kadr məsələlərinin həllində «qalınqafalığı»na və qatı mühafizəkarlığına görə Daniil Quliyevi MK katibi vəzifəsindən azad etdilər. Quliyev əvvəllər Ali partiya məktəbinə başçılıq etmiş, sonra təhsil naziri, 1971-ci ilin yanvar ayından MK-nın ideologiya üzrə katibi olmuşdu. Müasirlərinin xatirələrinə görə o, əməli-saleh adam olsa da, yaman ehkamçı imiş. Bütün müharibəni keçmiş, ağır yaralanmışdı. Stalin dövrünün partiya işçisi olaraq, o, heç bir yeniliyi qəbul etmir və daima nədənsə xoflanırdı. Azad Şərifov xatırlayır ki, yaradıcıların mühitində növbəti bir iğtişaşdan sonra Daniil Piriyeviç ona üz tutub acizanə halda əl-qolunu aralayaraq: «Niyə məni buraya təyin etdilər? Nə üçün buna görə cavabdeh olmalıyam?» deyə gileylənirmiş.*

*Akademik İsmayıl İbrahimov xatırlayır:*

*«Yadımdadır, Heydər Əliyev mənə deyirdi: «Bizə bir köklü bakılı olan MK katibi lazımdır». Daniil Quliyev isə bakılı, məşhur neftçi usta Pirinin oğlu idi. Bir neçə ildən sonra onu işdən azad etmək lazım*

*gəldi, ondan MK katibi alınmadı. Eləcə Ramiz Məmmədzadə ideoloji katib vəzifəsində özünü doğrultmadı. Onların sələfləri Cəfər Cəfərov, Nazim Hacıyev, Şıxəli Qurbanov bir qat daha yüksək və parlaq şəxsiyyətlər idi. Heydər Əliyev kimi rəhbərə MK-da ideoloji məsələlər üzrə köməkçi gərək idi. O, özü güclü ideoloq idi. Onun sadəcə yaxşı icraçılara ehtiyacı vardı».*

*Daniil Piriyeviç Quliyevə gəldikdə, Azərbaycan Kommunist Partiyasının 1991-ci ilin payızında keçirilən və partiyanın buraxılmasını qərarlaşdıran sonuncu qurultayında əsas məruzəçi kimi çıxış edən bu «ideoloq» sübuta yetirirdi ki, Kompartiyanın ömrü bitmişdir, o «qapanmalı»dır. SSRİ dağılandan və Azərbaycan müstəqillik qazanandan sonra övladları Qərbə üz tutdu. Orada, Almaniyada, Daniil Quliyev ömrünün son illərini yaşamış, yəqin vətən xiffətinin acısını da dadmış, bununla belə, «pozucu təsirini» vaxtilə amansızca və vəcdlə ifşa etdiyi yad Avropanın qoynunda özünü rahat, asudə hiss etmişdir... «Tale» adlanan, bildiyi bilinməz, saydığı sayılmaz xanımın bax belə qəribə oyunları da olur...*

MK birinci katibi Heydər Əliyev tabeliyində olan həmkarlarının partiya işi ilə yanaşı, elmi, ya yaradıcı fəaliyyətlə məşğul olmaq meylinə çox «sərin» yanaşırdı. Bu bir sirr deyil ki, 70-ci illərdə qondarma namizədlik, doktorluq dissertasiyalarının müdafiə edilməsi çox geniş «vüsət» tapmışdı. SSRİ-də elm üçün zərərli olan bu «alimbazlıq»la mübarizəyə ilkin olaraq Azərbaycan KP MK birinci katibi təşəbbüs göstərdi. Partiya toplantısında o dəfələrlə yüksək vəzifəli məmurların öz inzibati mövqeyindən sui-istifadə edərək sifarişlə dissertasiyalar yazdırıb heç bir mənəvi haqqı olmadan, arsızcasına aldıqları elmi dərəcələr haqqında konkret misallar gətirirdi. Belə tənqidi iradlar ilk dəfə Azərbaycan KP MK-nın məşhur avqust (1969) plenumundakı çıxışında səsləndi:

«...Artıq ifrat səviyyə daşıyan bəzi rəhbər partiya, sovet, təsərrüfat işçiləri tərəfindən dissertasiyalar müdafiə etməyə meyillərin qarşısı alınmalıdır...

Bəlkə burada iştirak edən bəzi rəhbər işçilər, rəhbər vəzifə tutan kimi, daha çox dissertasiya haqqında düşünürlər. Elə adamlar var ki, bu vəzifədə namizədlik dissertasiyasını müdafiə etməyə macal tapır və nəfəsini dərmədən, necə deyərlər, doktorluq dissertasiyasına doğru addımlayırlar.

Əgər rəhbər işçilər özləri dissertasiya hazırlayarsa, bu ya dissertasiyaya, ya da onların əsas işinə ziyan vura bilər... Daha çox əsas



işlərinə ziyan dəyir, çünki dissertasiya yazmaqda onlar zirək tərpənirlər.

Açığını deyək: bu yoldaşlardan bir çoxu özləri dissertasiya yazmır, bu işə institutlardan bir sıra alimləri qoşurlar. Bu alimlər də dissertasiya hazırlayarkən hansısa şəxsi təmənna güdür ki, onlar da təmin edilir... Və bütün bunlar son nəticədə kadrlarımızın pozulmasına gətirib çıxarır».

Təəssüf ki, H.Əliyev komandasından bəziləri onun göstərişini doqmatik mənada qavrayıb, həqiqətən elm adamı olan, Mərkəzi Komitəyə yaradıcı sahədən, elm aləmindən gəlib partiya işində çalışan əməkdaşlara «badalaq vurmağa» cəhd göstərdilər. Belə əhvalatlardan birini mənimlə söhbət əsnasında MK-nın sabiq mədəniyyət şöbəsinin müdiri Azad Şərifov xatırlayır:

«Mərkəzi Komitənin ikinci katibi Sergey Kozlov təhsilinə görə zootexnik olsa da, mədəniyyət məsələlərinə müdaxilə etməyi xoşlayırdı. Bir dəfə MK katibi Cəfər Cəfərov onu camaatın qarşısında yerinə otuzdurdu.

– Sergey Vasilyeviç, – dedi, – siz bir mütəxəssis kimi süni mayalandırmadan danışanda mən sizə maraqla qulaq asıram. Amma siz hətta rus ədəbiyyatını da bilməyərək Azərbaycan ədəbiyyatı haqqında hökm verə bilərsinizmi? Mən bilirəm bu ideyaları qulağınıza kim pıçıldayır, siz də sonra onları Büronun rəyi kimi qələmə verirsiniz.

Təbii ki, Kozlov öz opponentindən «heyfini çıxmağa» fürsət tapdı. Bir müddət ötəndən sonra Bakıda Cəfər Cəfərovun teatr haqqında ikicildliyi çıxdı. Və Kozlov Büroda məsələ qaldırdı ki, MK katibi Cəfərov guya öz vəzifəsindən sui-istifadə edərək elmi əsərlərini nəşr etdirir.

Cəfər Cəfərov:

– Bu kitablar üç il nəşriyyatda qalmışdılar, – deyə etiraz edir, – öz növbəsini gözləyirdilər. Ola bilsin MK-ya katibliyə keçməyim onları irəliləşdirib, amma inanın ki, bu ikicildliyə otuz il sərf olunub...

Bu əsər doğrudan da, onun bütün ömrünün əməyi idi.

Ədalət naminə qeyd edilməlidir ki, bu mübahisədə Heydər Əliyev Cəfərovu dəstəklədi:

– Sergey Vasilyeviç, siz haqlı deyilsiniz. Mən soraqlaşıb əmin oldum ki, bu kitablar nəşriyyata bir neçə il öncə təhvil verilib».

MK birinci katibi həqiqi elm adamlarının qədrini bilir, onlara hörmət bəsləyirdi, insanda hər şeydən əvvəl professionallığı qiymətləndirirdi.

MK təbliğat şöbəsinin sabiq müdiri Əfrand Daşdəmirovun fikrincə, ümumiyyətlə, Heydər Əliyevin bəhs edilən məsələdə sərtliyinin əsası vardı: partiya, idarəçilik vəzifəsində çalışarkən eyni zamanda dissertasiya yazmaq nə fiziki, nə də psixoloji baxımdan mümkün deyildi. «Əvvəllər, Mərkəzi Komitəyə gəlməmişdən qabaq zənn edirdim ki, bu mümkündür, – Daşdəmirov deyir, – insan təpərli-güclüdürsə, öhdəsindən gələ bilər.

Amma az qala gecəbəgündüz işləyirsənsə, məsul işlə məşğul olursansa, bunu tədqiqat fəaliyyətilə bir arada aparmaq mümkün deyil».

* * *

Heydər Əliyevin «tarazlaşdırma» siyasətinin daha bir əyani nümunəsi – Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru Rəsul Rza ilə bağlı əhvalatdır.

Ötən əsrin 60-cı illərinin ortalarında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarına uyğun olaraq bütün müttəfiq respublikalarda milli ensiklopediyaların hazırlanması üzrə Baş redaksiyalar yaradılmışdı. 1965-ci ilin dekabr ayında Azərbaycan Sovet Ensiklopediyası baş redaktoru vəzifəsinə məşhur şair və ictimai xadim Rəsul Rza təyin edilmişdi. Müasirlərinin fikrincə, belə bir vəzifəyə hansısa nomenklatur işçinin, ya partiya ideoloqunun və hətta çoxsaylı elmlər doktorları, ya akademiklərdən kimisə deyil, xalq şairi, ünlü sənət adamı Rəsul Rzanın təyin edilməsi o vaxt və indiyədək müəmma olaraq qalır. İş onda deyil ki, Rəsul müəllim, öz etirafına görə, müntəzəm təhsil almamış və tam dəyərli ali məktəb diplomuna sahib deyildi. Savada, biliyə gəldikdə isə, zəngin və geniş erudisiya, yüksək elmi təfəkkürə, redaktorluq, məsul inzibati iş təcrübəsinə (məsələn, 1944-1949-cu illərdə respublika kinematoqrafiya naziri vəzifəsində çalışmış) malik idi. ASE-nin sabiq əməkdaşı İmran Xəlilov xatırlayır: «...o dövrdə belə vəzifələrə, adətən nomenklatura qazanında qaynayıb-qarışanları, ...sovet ideologiyasını əlində dəstəvuz tutanları, hökumət dairələrinə ləbbeyk deyənləri...: irəli çəkirdilər. İlahi, bəs görəsən niyə bütün yuxarıda deyilənlərə daban-dabana zidd olan, bütün həyatı, varlığı ilə xalqa, milli tariximizə, mədəniyyətimizə, adət-ənənələrimizə bağlanan, heç nədən qorxub-çəkinmədən öz sözünü cəsarətlə, şax üzə deməyi bacaran milli qeyrətli, vətənpərvər, bir növ dissident dünyalı, xalq şairi Rəsul Rza məhz belə məsul vəzifəyə təyin olunmuşdu: bax, bu mənim üçün sirri-xudadır»[13]. Ola bilsin ki, Rəsul Rzanın təyinatında digər müttəfiq respub-



likalarda da milli ensiklopediyalarda baş redaktor vəzifəsinə görkəmli şairlər, Ukraynada – Mikola Bajan, Belarusiyada – Petrus Brovka, Gürcüstanda – İrakli Abaşidzenin irəli sürülməsi öz rolunu oynamışdır.

Hər necə olsa da, bizim ustad şairimiz çox ağır yükü öz öhdəsinə götürməli olmuşdu, çünki Azərbaycan tarixində «indiyədək nə ensiklopediya yaratma təcrübəsi, nə bu işin ənənələri, nə vərdişləri, nə də kadrları vardı. Nə dəqiq terminologiya, nə bu və ya digər sahədə konkret istilahlar, nə təsdiqlənmiş coğrafi adlar. Hələ bu harasıdır, hətta Azərbaycan dilinin böyük izahlı lüğəti də yox idi. Əvəzinə həm coğrafi xəritələrlə, həm tarixi problemlərlə bağlı mübahisəli məsələlər vardı»[14].

Çox qısa müddət ərzində Rəsul Rza nəhəng bir vəzifənin həlli üçün əsl milli ensiklopediyanın yaradılmasına qatlaşan kollektiv formalaşdırmağa nail oldu. Sovet dövrünün partiya-ideoloji buyuruqlarına rəğmən, Rəsul Rza Azərbaycan xalqının Oktyabr inqilabınadək nə öz mədəniyyəti, nə öz keçmişinə malik olmayan, geridə qalmış bir millət kimi göstərilməsinə yönəlmiş naqis tendensiyanın əleyhinə idi. O, əsəbi halda öz həmkarlarına üz tutub deyirdi: «Bəs Nizami, Xaqani, Nəsimi, bəs Şah İsmayıl, Mirzə Fətəli Axundov, Sabir? Yəni onları da Oktyabr inqilabı yetişdirmişdir?»

Odur ki, R.Rza kollektivi tərəfindən hazırlanmış ASE-nin ilk cildlərinə Azərbaycan xalqının, daha geniş ölçüdə – bütün türkdilli dünyanın, bolşeviklər tərəfindən «müsavatçı», «xalq düşməni», bir sözlə, «yad ünsürlər» kimi damğalanmış bir çox görkəmli xadimlərinin adları daxil edilmişdir. Yeri gəlmişkən, müxtəlif partiya xadimlərinə, xüsusən milliyyətcə erməni olanlara, birinci cilddə yetərincə «dərsqal» yer verilmişdir. Sabiq əməkdaşlardan kimsə diqqətcilliklə hesablamışdı ki, birinci cilddə azərbaycanlılar haqqında 180, ermənilər haqqında isə cəmi 15 məqalə dərc olunmuşdu. Amma sonralar bu rəqəmlər müvafiq olaraq 150-dək və 51-dək dəyişdirilmişdi.

Bundan başqa, Rəsul Rza hesab edirdi ki, ensiklopediyada azərbaycanlıların sıx yaşadıqları Ermənistan və Gürcüstan yaşayış məntəqələri və kəndlərinin həqiqi, azərbaycanca olan adları geniş əks edilməlidir. Bu yanaşma ələlxüsus ona görə aktual idi ki, Ermənistanda və qismən Gürcüstanda qədimdən bəri türkcə adlanan kəndlərin, çayların, dağların, dağ aşırımlarının adlarını tələsik dəyişdirməyə başlamışdılar. ASE Baş redaksiyanın məsul katibi Arif Hüseynovun xatirələrinə görə, «baş redaktor Ermənistanın və Gürcüstanın

müvafiq təşkilatlarına həmin respublikaların Azərbaycan yaşayış məntəqələri haqqında inzibati-ərazi bölgüsünə uyğun olaraq ASE kollektivinə məlumat çatdırılması barədə xahişlə məktublar yollamağı tapşırmışdı. Əlavə material toplamaq üçün isə müttəfiq respublikalara yerli dilləri bilən əməkdaşlarımız ezam edilmişdilər»[15].

Eyni patriotik mövqedən ensiklopediya əməkdaşları Azərbaycan dili və respublikada yaşayan millətlərin, xalqların etnik tərkibi, milli adət və ənənələri, milli xörəklər və s. haqqında məqalələrin yazılmasına yanaşırdılar. «Sağ»dan və «sol»dan təzyiqlərə baxmayaraq, Rəsul Rza ensiklopediyada «azəri» anlamını – «azəri xalqı», «azəri dili» və s. – daxil etməyi zəruri hesab edirdi. O, haqlı olaraq belə dəlil gətirirdi ki, «azərbaycanlı» deyəndə, Azərbaycanda yaşayan rus da, gürcü də, başqa millətin nümayəndəsi də nəzərdə tutula bilər. «Azəri» anlamında isə məhz «azəri» xalqının adı təsdiqlənir. Bu problemlərlə bağlı tanınmış tarixçilərin, dilçilərin iştirakıyla ASE Baş redaksiyasının ikigünlük müşavirə çağırmasına və qızğın mübahisələr nəticəsində «azəri» terminin elmi anlayış kimi qəbul edilməsinə baxmayaraq bu termin ensiklopediyanın sonrakı nəşrlərindən istisna edildi.

1970-ci ildə, yəni işə başlanmasından dörd il ötəndən sonra ASE əməkdaşları 1 cildi və Azərbaycana həsr olunmuş xüsusi cildi hazırladılar. Azərbaycan SSR-in 50 illiyi ərəfəsində birinci (sonralar «Yaşıl cild» adıyla şöhrətlənmiş) cild 20 minlik tirajla buraxıldı. Lakin Azərbaycan Elmlər Akademiyasının prezidenti H.Abdullayev başda olmaqla, akademiyanın müxbir üzvləri, akademiklər qatıldığı səlahiyyətli komissiyanın tamamilə müsbət rəyinə baxmayaraq, 1 cild satışa buraxılmadı. Sonralar yüksək rütbəli partiya məmurları, həmin alimlərin mövqeyini «prinsipsiz» kimi pisləyəcəklər.

«Yaşıl cild»də bir çox texniki səhvlər və kəm-kəsirlərdən əlavə, prinsipial mahiyyətli nöqsanlar da yer almış, onları düzəltmək təklif edilmişdi. Eyni zamanda Azərbaycan KP Mərkəzi Komitəsinə, Sov.İKP MK-ya və Böyük Sovet Ensiklopediyası baş redaksiyasına çoxsaylı rəylər, məktublar, bəzən isə açıq-aşkar «donos»lar axışdı, onların müəllifləri ASE kollektivinin işinə qara yaxmağı, «ipə-sapa yatmayan» baş redaktorun bostanına daş atmağı özlərinə «müqəddəs» borc bildilər... Moskvada BSE-nin Baş redaktor müavininin Azərbaycanın üzdəniraq «dostu» Levon Stepanoviç Şaumyan olduğunu yada salsaq, bütün qarayaxmaların və «donos»ların münbit zəminə düşdüyünü təsəvvür etmək olar...



Rəsul Rza iradların əksəriyyətilə razılaşmayaraq, öz mövqeyini müdafiə edərək və haqlı olduğunu anlatmağa çalışaraq, müxtəlif idarələrə cavablar yazırdı. Xalq şairinin «tərsliyi» «səlahiyyətli yoldaşları» daha da çox cırnadırdı. Axırda məsələ Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsinə çatdı. Oradan xüsusi komissiya göndərildi və 1975-ci ilin 10 sentyabrında Azərbaycan KP MK-ya Sov.İKP MK nəzdində PNK-nın məsul nəzarətçisi A.V.Sokolovun imzasıyla «ASE Baş redaksiyasında işlərin qeyri-qənaətbəxş vəziyyəti haqqında məktubun yoxlanılmasının nəticələri» daxil oldu.

Bu məktubda deyilirdi ki, ilk cildlərin buraxılışı üzrə işlər yolverilməz halda uzadılır və faktiki olaraq «özbaşına» buraxılmış, ensiklopediyanın 1970-ci ildə 20 minlik tirajla buraxılmış birinci cildi ciddi səhvlər ucbatından zay hesab edilmişdir. Və yalnız 1976-cı ilin əvvəllərində birinci cildin yenidən işlənmiş materialları yığılmağa göndəriləcək. Birinci cildin yubanması səbəbindən Azərbaycan və rus dillərində hazırlanmış ensiklopediyanın xüsusi cildi də işıq üzü görməmişdir. Arayışda qeyd olunurdu ki, öz səhvlərini boynuna almaq əvəzinə Rəsul Rza «öz səylərini işdə yol verilmiş nöqsanları doğruya çıxarmağa və təkzib edilməsinə yönəldərək, 1973-cü ilin avqustunda – Kompartiyanın Mərkəzi Komitəsinə göndərdiyi məktubda 1 cildin məzmununa və Baş redaksiyanın işinə aid əksər iradların əsassız olduğunu sübuta yetirirdi».

Azərbaycan KP MK-nın müvafiq şöbəsi, öz növbəsində, «ASE Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında» arayış hazırlayıb Heydər Əliyevin masası üzərinə qoydu; bu yazıda, o cümlədən, aşağıdakılar deyilirdi:

«ASE-nin birinci cildində... zəhmətkeşlərin beynəlmiləl və vətənpərvərlik tərbiyəsinə yardım edən materialların, ölkəmizdə inkişaf etmiş sosializmin tarixi nailiyyətlərinin təbliğinin lazımınca qiymətləndirilməməsi özünü büruzə verir. ASE-nin birinci cildindəki məqalələrdə inqilabi hərəkat tarixi, Azərbaycan zəhmətkeşlərinin sovet hakimiyyəti uğrunda mübarizəsi və xüsusən, respublikada sosializm və kommunizm quruculuğu tarixi üzrə məsələlər səthi işıqlandırılmışdır.

Cilddə Sovet İttifaqının bir sıra görkəmli partiya, ictimai, elm və mədəniyyət xadimləri, Böyük və Kiçik sovet ensiklopediyalarında həyat və fəaliyyətləri əksini tapmış başqa ölkələrin mütərəqqi xadimləri haqqında məqalələr yoxdur.

Elmi və siyasi baxımdan birinci cilddə Azərbaycan haqqında iki məqalənin – «Azərbaycan» və «Azərbaycan SSR» – dərc edilməsi qeyri-düzgün görünür. Azərbaycan tarixinin bəzi təməl məsələləri üzrə müddəalara məhəl qoymayaraq, tarixi həqiqətə rəğmən, ASE rəhbərliyi, «azəri» terminini Azərbaycan xalqının təsdiqlənmiş soyadı kimi qələmə verərək, onu BSE redaksiyasına sırımağa cəhd göstərmişdir»[17].

Arayışda Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti, həmçinin şöbələri tənqid edilmişdi.

«Respublika Elmlər Akademiyasının bəzi rəhbər işçiləri ASE hazırlanması və nəşri üzrə işdə ciddi nöqsanlara qarşı prinsipsiz, barışdırıcı mövqe tutmuşlar. Buna, o cümlədən komissiyanın və Azərbaycan SSR EA ASE-nin birinci cildini bəyənmiş və çap olunmasına zəmanət vermiş 8 fevral 1971-ci il tarixli rəyi dəlalət edir...»[18].

Rəsul Rza sonadək mübarizə apardı. O, Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsi sədri A.Pelşeyə ətraflı cavab göndərib Sokolovun ASE kollektivinin işinin «özbaşına» buraxması» haqqında iddiaları ilə razılaşmadığını bildirdi:

«Məlumdur ki, ASE kollektivi nəhəng iş görmüş, ensiklopediyanın 1, 2, 3, qismən 4-cü və 5-ci cildlərini, həmçinin Azərbaycan və rus dillərində xüsusi cild hazırlanmışdır. 60 min söz və terminlərdən ibarət sözlük nəşr edilmişdir. Onu da nəzərə almaq lazımdır ki, respublikada ensiklopediya nəşri təcrübəsi yox idi və terminologiya və toponimika bərbad vəziyyətdə idi. Baş redaksiya respublikanın şəhər və kəndlərinə onlarla əməkdaşlarını ezam etmiş və onların topladığı material məhz bizim tərəfimizdən yazıya alınmışdır. ASE onlarla tarixi və coğrafi xəritə hazırlayıb buraxmışdır. Əgər bütün bunlar yol.Sokolovun təbirincə, «özbaşına iş» adlanır, bəs onda gərgin, faydalı və mütəşəkkil iş nə deməkdir?»

ASE Baş redaktorunun bütün rəylərinə baxmayaraq, onun aqibəti həll olunmuşdu. Oktyabrın 22-də Rəsul Rza Qafqazyanı ensiklopediyaçıların elmi konfransının keçirildiyi Yerevandan təcili olaraq Bakıya çağırıldı.

Bakıda MK-nın ideologiya üzrə katibi D.Quliyev tərəfindən qəbul olundu və ona bildirildi ki, ASE Baş redaksiyasının fəaliyyəti haqqında məsələ MK Bürosunda müzakirə ediləcək. MK birinci katibi Heydər Əliyevlə söhbət zamanı Rəsul müəllim Büro iclasına qatılmaması üçün icazə istəyir. Əliyev təəccüblənsə də, öz razılığını verir.



**Azərbaycan Kommunist Partiyası**
**MK Bürosunun 24 oktyabr 1975-ci il tarixli,**
**139 saylı iclasının protokolundan:**

«ASE Baş redaksiyasının işində ciddi nöqsanlar haqqında.

...Yol verilən intizamsızlıq nəticəsində ayrı-ayrı cildlərin hazırlanma və buraxılış müddətləri pozulmuş və indiyədək ensiklopediyanın heç bir cildi çapdan çıxmamışdır. Eyni zamanda ASE-yə bu illər ərzində xərclər 3.230 min manat təşkil etmiş, yaxud ensiklopediyanın bütövlükdə nəşrinə nəzərdə tutulmuş məbləğdən 550 min manat artıq olmuşdur.

ASE Baş redaksiyasının işində ciddi nöqsanların olması bütün əyaniliyi ilə ensiklopediyanın çap olunmuş birinci cildində üzə çıxmışdır. Onun bəzi məqalələrində ideya yanlışlıqları və səhvlərə, subyektivizmə, ictimai və tarixi hadisələrə qeyri-sinfi yanaşmaya yol verilmişdir. Xarici ensiklopediyalardan alınmış terminlərə və adlara əsassız aludəçilik özünü büruzə vermişdir. Azərbaycanda inqilabi hərəkatın tarixi səthi işıqlandırılmış, bir çox görkəmli inqilabçılar, Azərbaycan partiya təşkilatının xadimləri haqqında məqalələr yoxdur. Azərbaycan Kommunist Partiyasının müasir mərhələdə fəaliyyəti ensiklopediyada lazımi əksini tapmamışdır.

Bu səbəbdən ASE birinci cildinin buraxılışı dayandırılmışdır».

ASE Baş redaksiyası və onun rəhbərinin fəaliyyəti, – sənəddə deyildiyi kimi, – MK-nın 1971-ci il oktyabr plenumunda, Sov.İKP MK-nın 25 dekabr 1974-cü il tarixli «Respublika ensiklopediyaları buraxılışında ciddi nöqsanlar və onların aradan qaldırılması üzrə tədbirlər haqqında» qərarında tənqidə məruz qalmışdır. 1975-ci ilin avqust ayında Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsindən göndərilmiş komissiya yoxlama aparmışdır.

Sosialist qanunçuluğunun pozulmalarına qarşı mübarizə «dalğası»nda Rəsul Rzaya doğma Göyçay şəhərində ikimərtəbəli ev tikdirməsini də xatırlatmışlar (evin «yaşayış sahəsi qanunla müəyyənləşdirilmiş həcm həddindən bir tam yarım dəfə artıq»mış), son on il ərzində 18 kitabını nəşr etdirdiyini və ümumən 122 min manat qonorar aldığını da «başına qaxınc» etmişdilər.

Azərbaycan KP MK-nın qərarında deyilirdi:

«1. Azərbaycan Sovet Ensiklopediyasının buraxılışa hazırlanması işində ciddi nöqsanlara, bu işlə rəhbərliyin lazımi səviyyəsini təmin etmədiyinə görə yol.R.İ.Rzayev ASE baş redaktoru vəzifəsindən,

yol.R.K.Hüseynov – ASE baş redaktorunun müavini vəzifəsindən azad edilsinlər.

2. ASE baş redaktoru vəzifəsinə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü yol.Quliyev C.V. təsdiq edilsin».

Daha sonra qərarda Mərkəzi Komitəyə təsdiqlənmə üçün ASE Baş redaksiyasının Redaksiya Şurasının yeni tərkibi (Rəsul Rza siyahıya daxil edilməmişdi) və redaksiya tərkibinin «səriştəli kadrlarla möhkəmləndirilməsi, ASE hazırlanması və nəşri işinə görkəmli alim və mütəxəssislərin cəlb edilməsi» təklif olunurdu.

Dövlət Nəşriyyat Komitəsi və Baş redaksiya qarşısında ASE-nin tam nəşrini 1976-1982-ci illər ərzində başa çatdırmaq vəzifəsi qoyulurdu[19].

Ədalət naminə deməliyik ki, əvvəllər Azərbaycan EA Tarix İnstitutunun direktoru vəzifəsində işləmiş Cəmil Quliyev ASE-nin Baş redaktoru təyin olunandan sonra ensiklopediyanın cildləri birbəbir çıxmağa başladı. Bu cildlərdə bir çox məqamlar marksizm-leninizm ideologiyası hökmlərinə və «proletar beynəlmiləlçiliyi prinsiplərinə» uyğun «hamarlaşdırılsa» da, hər halda beş cildin əsasını Rəsul Rza ensiklopediyaya başçılıq etdiyi dövrdə əməkdaşların hazırladığı materiallar təşkil edirdi.

Azərbaycan mədəniyyəti tarixində bu dramatik epizoddan belə ətraflı bəhs edərək, mən kimlərisə ittiham etmək, yaxud damğalamaq niyyətində deyiləm. Bütün bunlar çox mürəkkəb olan o dövrün reallıqları idi. Heydər Əliyev, doğrudan da, çox çətin seçim qarşısında qalmışdı, bir tərəfdən xalq şairinin həqiqətən ümummilli ensiklopediya yaratmaq əzmi birinci katibin ürəyincə idi. Digər tərəfdən, o dərk edirdi ki, rəsmi meyarlar baxımından çap olunmuş cildin «siyasi yetkinsizliyi» Azərbaycan üçün davamlı neqativ nəticələrə səbəb ola bilər. Onun nəzərləri qarşısında Xruşşov iqtidarının «Azərbaycan millətçiliyi» haqqında bədnam qərarının kabusu boylanırdı...

Sov.İKP MK nəzdində Partiya Nəzarəti Komitəsinin mənfi arayışından sonra Heydər Əliyev özü ölçü götürmək məcburiyyətində qalmışdı, əks təqdirdə ölçü götürəsi (həm də daha sərt ölçü) Moskva olacaqdı. Həm də Azərbaycan ensiklopediyası ətrafında qalmaqal şişirdilib elə həddə çatmışdı ki, «birinci» bunu sadəcə cavabsız qoya bilməzdi.

Bundan başqa, ASE Baş redaktorunun fəaliyyəti nöqsanlardan da xali deyildi: o, işin formal cəhətlərinə az diqqət yetirmiş, yaratdığı Redaksiya Heyətilə, demək olar, əməkdaşlıq etməmiş, acıdil olması da, onun rəhbərlik üslubunu yığıncaqlarda tənqid etməyə cürət edən



bəzi əməkdaşlarına qarşı dözümsüzlük göstərməsi də ümumi işə xələl gətirmişdi. ASE Baş redaksiyasında, əlbəttə, kənardan fəndgirliklə qızışdırılan çəkişmələr, dedi-qodular başlandı...

Heydər Əliyevə Sov.İKP Mərkəzi Komitəsindən, Böyük Sovet Ensiklopediyasının Baş redaksiyasından «təzyiq» göstərirdilər. Zənnimcə, o, tərəddüd, götür-qoy etmiş və qəti qərarın qəbul edilməsini uzatmışdır. Qərara gəldikdə isə, ilk növbədə Rəsul Rzanın Baş redaktorluqdan kənarlaşdırılmasının onun yaradıcı fəaliyyətinə xələl gətirməməsi üçün qayğısını əsirgəməmişdir. Bu baxımdan ensiklopediyanın sabiq işçisi Nəriman Həsənəlinin xatırladığı epizod daha diqqətəlayiqdir:

«Rəsul müəllim işdən çıxarıldığı gün mən Azərbaycan Yazıçılar İttifaqının birinci katibi, xalq yazıçısı İmran Qasımovun yanında oldum. O mənə dedi ki, indicə respublika rəhbərliyi ilə danışmış və ona bu axşam Rəsul Rzaya baş çəkməyi tapşırmışlar. Ardınca İmran Qasımov əlavə etdi: «O (yəni Heydər Əliyev) ...dedi ki, Rəsul Rza xalqımızdan, milli mədəniyyətimizdən ayrılmazdır. Bu, bütün nəşriyyatların və redaksiyaların nəzərinə çatdırılmalıdır. Heç kim onun yaradıcı inkişafına mane olmamalıdır!»[20]

Bu sözlər görkəmli şairi gözümçıxdıya salmaqda davam etməyə hazır olan bir çox bədxahların köpünü yatızdırdı... Bir müddət sonra, ASE ətrafında hay-küy səngiyəndən sonra Rəsul Rza yenə də Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, özünün 70 illiyi münasibətilə də SSRİ-də ən yüksək ada – Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

1980-ci il dekabrın 4-də bu mükafatı Ali Sovetin binasında şairə təqdim edən Heydər Əliyev onu «sovet ədəbiyyatının görkəmli nümayəndəsi» və «Azərbaycan sovet poeziyasının banilərindən biri» adlandırmışdı.

Cavab nitqində Rəsul Rza məmnunluqla özünü «Azərbaycanın ən xoşbəxt övladlarından biri» saydığını bildirmişdi.

Rəsul Rzanın Heydər Əliyevlə münasibətlərini yaxından bilən şairin oğlu Anarın söylədiklərindən:

«Heydər Əliyev bir dəfə kiməsə deyirmiş: «Əgər Rəsul Rza üçün Sosialist Əməyi Qəhrəmanı adını ala bilməsəm, bunu özümə bağışlamaram». Demək o, atama «qənim» kəsilməyib, onu məhv etmək niyyətində olmayıb. Sadəcə donosbazların, ədəbi qatillərin basqınları müqabilində o, reaksiya verməyə məcbur olub. Ələlxüsus da donoslar Moskvaya, Şaumyanın oğlunun oturduğu Baş redaksiyaya gedib çatırdı».

2001-ci ilin 25 dekabrında Respublika Sarayında Rəsul Rzanın 90 illiyi təntənəli şəkildə qeyd olunurdu. Gecədə ölkə prezidenti Heydər Əliyev, hökumət nümayəndələri, ictimaiyyət iştirak edirdilər. Görkəmli şairin oğlu Anar öz çıxışında atasına qarşı Moskvaya yazılan donosları, «pantürkizm, millətçilik, antisovet təzahürlər» haqqında ittihamları xatırladıb qeyd etdi ki, belə bir şəraitdə Heydər Əliyev şairə Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə nail olmuş və bu da Əliyev tərəfindən göstərilən «siyasi cəsarət» demək idi. Bəziləri indi belə adlar xatırlananda ağızlarını büzürlər, – Anar rişxəndlə bildirdi. – Amma bu sadəcə sinəüstü nişan deyildi, «belə adlarla mükafatlandırma Azərbaycanın nüfuzunun qaldırılması demək idi. Azərbaycan mədəniyyətinin ümumittifaq miqyasda təsdiqlənməsi demək idi»[21].

Bu məqamları «Deyirdim ki, bu quruluş dağılacaq» kitabında Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəy də xatırlayırdı. Onun fikrincə, Azərbaycan xalqının vətənpərvərlik, azadsevərlik hissiyyatının inkişafında 60-70-ci illərin milli ədəbiyyatı önəmli rol oynamışdır. Və Heydər Əliyev, Əbülfəz Elçibəy etiraf etdiyi kimi, yazıçılara «liberallıq»la yanaşırdı. Bundan əlavə, «əvvəllər tənqid elədiyi adamların hamısına sonradan həm vəzifə verdi, həm müdafiə etdi, həm də Sosialist Əməyi Qəhrəmanı adı verdi və sair. Beləliklə də, «Azərbaycanda yeni bir millətçilik, bir düşmənçilik var» sözünü götürtdü (ab-havanı yumşaltmaq məqsədilə)»[22].

*Yeri gəlmişkən, 70-ci illərdə Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanı adının Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Rəşid Behbudov, Tahir Salahov, Rəsul Rza, Süleyman Rəhimov, Süleyman Rüstəm, Mirzə İbrahimov, Mikayıl Hüseynov kimi sənətkarlara və mədəniyyət xadimlərinə verilməsinə nail olmuşdu. Bir dəfə kimsə qeyd etmişdi ki, Azərbaycanda mədəniyyət sahəsində Sosialist Əməyi Qəhrəmanlarının sayı Ukraynada – Baş katibin vətənində – olanlardan da çoxdur. Hələ onlarla istehsalat qabaqcılları, alimləri, dövlət xadimlərinin qəhrəman adına layiq görüldüyünü demirik. Sonralar bu yüksək adlara necə «yol açdığını» xatırlayaraq Heydər Əliyev demişdir:*

*«Belə qısa müddət ərzində Azərbaycan ziyalılarının böyük bir dəstəsinə ən yüksək mükafatların verilməsi bütün xalqın hörmətini artırmışdır... Deyə bilərəm ki, 70-ci illərdə Azərbaycanın ümumittifaq və dünya miqyasında nüfuzu xeyli yüksəlmişdir»*[23].



Rəsul Rzanın başına gələn əhvalat o dövr üçün tamamilə adi olan iş idi. O illərdə vəzifənin aşağı salınması, ideoloji «sapıntılara» görə müxtəlif partiya cəzaları SSRİ-də yetərincə çox təsadüf edilən hal idi. A.Qraçov xatırlayır ki, bir dəfə Böyük Sovet Ensiklopediyasının növbəti cildinin redaktorunu sərt cəzalandırmışdılar, nə var-nə var ki, trotskizm haqqında mütləq tənqidi məqalə ilə yanaşı, o, Trotskinin qısaca tərcümeyi-halını da dərc etməyə cəhd göstəribmiş, – bunu da ideoloji təxribat saymışlar. «Komsomolskaya pravda»nın ABŞ-da xüsusi müxbiri vəzifəsində çalışan tanınmış jurnalist Aleksandr Pumpyanski bircə mülahizəsinə, yəni Birləşmiş Ştatlarda «milyonçular daha nadir hal deyillər» fikrini dilə gətirdiyinə görə təcili olaraq Amerikadan geriyə çağırılmışdı.

Ümumiyyətlə, 70-ci illərdə mətbuat səhifələrinə, partiya liderlərinin dilinə bir qədər unudulmuş, çeynənmiş «kommunist» ritorikası yenidən qayıtmışdır. Milli respublikaların partiya liderləri, sərt ideoloji çərçivələrdə işləməli olaraq, bəzən bizim bu gün «ikili əxlaq» adlandırdığımız davranışa yol vermək məcburiyyətində qalırlar. Bizim qəhrəmanımız da, xüsusən respublikanın partiya rəhbəri olduğu ilk dövrdə bu ikiləşmədən yayına bilməmişdi. Çox sonralar, müstəqil Azərbaycanın prezidenti olarkən, o, etiraf edirdi ki, Kremli qıcıqlandırmamaq üçün dolama getməyə, ustufca hərəkət etməyə məcbur olurdu:

«DTK-da işləyərkən mən çox şeylər görmüşdüm. İlk günlərdən Moskvanın türkdilli millətlərə qarşı apardığı birtərəfli siyasətin şahidi oldum. Və buna qarşı daxilən üsyan etsəm də, mən həyatda öz hisslərimi büruzə verə bilməzdim. Azərbaycan KP MK-nın birinci katibi olaraq, mən Moskva siyasətinə qarşı çıxış edə, Mərkəzlə münaqişəyə girişə bilməzdim. Moskva bir bütöv imperiya siyasətini yeridirdi. Mən onların əleyhinə getsəydim, birincisi, bundan bir şey çıxmayacaqdı, ikincisi isə, Əliyevi, ölkənin başqa katibləri kimi, məhv edəcəkdilər.

Mən xalqın, doğma millətin milli duyğularını tədricən oyatmağa başladım. Arzulayırdım ki, Azərbaycan türklərinin milli hissiyyatı, milli oyanışı reallığa çevrilsin. Lakin bunu mən asta-asta edirdim ki, Moskvanı narahat etməyim, cırnatmayım».

Həqiqətən də, birinci katib Heydər Əliyevin yazıçılarla rəsmi forumlarda və qeyri-formal şəraitdə ünsiyyətinə diqqət yetirəndə tamamilə fərqli məna vurğuları nəzərə çarpır. Yaradıcı ziyalılar qarşısında rəsmi çıxışlarında o, söz ustalarını burjua saxtakarçılara və imperializm agentlərinə qarşı fəal mübarizəyə, beynəlmiləlçilik, sərsil-

maz xalqlar dostluğu ideyalarının təbliğinə çağırmağı unutmurdu. Demək olar, onun bütün partiya plenumları və müşavirələrindəki çıxışlarında rus dilinin əhəmiyyətindən bəhs edilir, rus dilinin şəninə sözlər səslənir, bu dilin orta və ali məktəbdə tədrisini yaxşılaşdırmaq tələbi irəli sürülür. Belə ki, 1973-cü il aprelin 19-da zəhmətkeşlərin məfkurəvi və beynəlmiləl tərbiyəsinə həsr olunmuş partiya fəalları yığıncağında o bildirirdi:

«Bu yaxınlarda Azərbaycan KP Mərkəzi Komitəsi ümumtəhsil məktəblərində rus dili tədrisinin daha da yaxşılaşdırılması üzrə tədbirlər haqqında qərar qəbul etmişdir. Rus dili və ədəbiyyatı üzrə Azərbaycan Pedaqoji İnstitutu yaradılmışdır». Heydər Əliyevin fikrincə, respublikada ixtisaslaşmış rus dili müəllimləri, xüsusən kənd yerlərində hələ az olduğundan yeni yaradılmış institut qısa müddətdə bu boşluqları doldurmalıdır. Sözügedən partiya aktivində o, kütlələrə rus dilini mənimsəməkdə kömək məqsədilə televiziya və radio imkanlarından daha geniş faydalanmağı təklif edir.

Bununla yanaşı, respublika yazıçıları ilə üz-üzə, ayrı-ayrılıqda söhbət edərək, birinci katib Azərbaycan dilinin milli şüurun təşəkkülündə rolu və əhəmiyyəti haqqında onu düşündürən mövzuya dönə-dönə qayıdır. Tanınmış Azərbaycan nasiri və dramaturqu Elçin Əfəndiyev bununla bağlı maraqlı xatirələrini mənimlə bölüşdü:

«1975-ci ildə, mənim Azərbaycan Yazıçılar İttifaqı katibi seçilməyim ərəfəsində Heydər Əliyevlə ilk şəxsi görüşüm oldu. O, mənimlə çox açıq danışdı. Onun «millilik» adlandırdığımız cəhəti məni heyrətləndirdi. Məsələn, o deyirdi: «1937-ci ildə Azərbaycan ziyalılarını kökündən qırırdılar, amansızcasına məhv edirdilər, – bunu deyərkən dönə-dönə Hüseyn Cavidin adını təkrarlayırdı, – indiki Azərbaycan ziyalıları – Stalin dövründə formalaşmış ziyalılardır. Və onlarda həmişəlik qorxu qalıb. Yaşlı nəsil nümayəndələrinin əsərlərində beynəlmiləlçilik hissi... həddindən artıq, hipertrofikdir. Mən istəyirəm ki, sizin nəsliniz milli zəminlə, Azərbaycan nağılları, Azərbaycan folkloru ilə daha sıx bağlı olsun». Və daha bir şey yadımda qalmışdır ki, o, bizim yazıçılarımız haqqında necə də hörmətlə danışırdı, yəni xalq üçün Azərbaycan dilini qoruyub saxlayan onlardır. Məndən soruşdu ki, Azərbaycan məktəbini bitirmisənmi? Əlbəttə, – cavab verdim. «Bax, görürsən. Azərbaycan yazıçılarından savayı, ziyalıların qalan hissəsinin uşaqları, bir qayda olaraq, rus məktəbində oxumuşlar. Sən isə – Azərbaycan məktəbində, Anar – Azərbaycan məktəbində, Süleyman Rəhimovun övladları da və ilaxır. Mən istəyirəm ki, siz cavanlar cəsarətlə, kəskinliklə, heç nədən və heç kimdən qorxmadan yazasınız. Bir şey olarsa, birbaşa mənə müraciət edin».



Lakin Heydər Əliyev yazıçılara doğma dili qorumaq və inkişaf etdirməyə aid çağırışlarla kifayətlənmirdi. O özü də bu istiqamətdə hərəkət edirdi, həm də çox vaxt o dövr üçün başa bəla gətirəcək addımlar atırdı. Əbülfəz Elçibəy yuxarıda xatırladığımız kitabında yazırdı ki, 70-ci illərdə onun Heydər Əliyevə münasibəti, MK birinci katibi iki mühüm işi əmələ yetirəndən sonra dəyişməyə başlamışdır. Birincisi, ilk dəfə olaraq bir qrup dilçi alimə dövlət mükafatı verdirdi. Söhbət «Müasir Azərbaycan dili» dördcildliyindən gedir.

«...Mükafatın verilməsi o demək idi ki, Azərbaycan dilçilərinin nüfuzu qalxır... Axı millətin təfəkküründü inkişaf etdirməyə dilçilər başlayır. Bu baxımdan mükafatın çox xeyri oldu. Mükafat verilən kimi dilimizin işlədilməsi genişlənməyə başladı. Bu, çox təbiidir, o zaman eləydi – nəyə mükafat verilsəydi, həmin sahə inkişaf etdirilməliydi.

...Bu, Heydər Əliyevin xidməti idi. Və bir də akademik Ziya Bünyadovun «Azərbaycan Atabəylər dövləti» əsərinə dövlət mükafatı verdirməsi. Vaxtilə Ziya Bünyadova «millətçi», «şovinist» deyə hər cür damğalar vururdular və indi o, alimi bütün hücumlardan qorudu, yəni siz, ermənilər ki, həmişə Ziyaya «millətçi» deyirdiniz, indi alın – o, dövlət mükafatı laureatıdır. Vaxtilə Heydər Əliyev Ziya Bünyadovu tənqid etmişdi. Ermənilər bundan istifadə edib yazırdılar ki, hətta Azərbaycan KP MK-nın birinci katibi belə onu tənqid edib (və Ziyanı beləcə vururdular). Bu mükafatdan sonra isə ermənilər təzədən yazdılar ki, Heydər Əliyev millətçidir – o, millətçi Ziya Bünyadova dövlət mükafatı verdirib»[24].

Birinci katibin belə hərəkətləri, «yuxarıda», əlbəttə, birmənalı qarşılanmasa da, onun yaradıcı ziyalılar qarşısında nüfuzunu, hörmətini artırırdı. Yazıçı Mövlud Süleymanlı 70-ci illərin ikinci yarısında respublika Yazıçılar İttifaqının dəvətilə Bakıya gələn gürcü şair-tərcüməçi Zezva Medulaşvili ilə görüşünü, ünsiyyətini xatırlayır. Mövluda tapşırmışdılar ki, qonağı Azərbaycan paytaxtının görməli-görklü yerləri ilə tanış etsin. Zezva Azərbaycan xalq nağıllarını, «Koroğlu» dastanını gürcü dilinə tərcümə etməklə məşğul olmuş, Azərbaycan dilini də, erməni dilini də yaxşı bilirmiş.

«İçərişəhəri dolaşdıq, Dağüstü parkdan Bakını seyr etdik...

Bakı doğrudan da bir neçə ilin içərisində dəyişmişdi...

Qonaq baxdı-baxdı, gözləmədiyim halda dedi:

– Bilirsiniz siz niyə belə sürətlə inkişaf edirsiniz?!

– İnkişaf edirik ki bəyəm?! – təəccübümü gizlədə bilmədim.

– Siz görməsəniz də böyük inkişaf mərhələsi keçirirsiniz, – dedi. – Uzaqdan hər şey yaxşı görünür.

– Bəs inkişafımızın səbəbi nədir? – soruşdum.

– Sizin birinci katibiniz millətçidir, budur səbəb.

Dedim:

– Hörmətli Zezo, hamı sizə millətçi deyir, sizsə...

Dedi:

– Hamının millətçi olmağı başqa şeydir. Bir də ki, bizimkilər ancaq danışarlar, iş görməzlər. Sizinki isə danışır, amma dilindəki işi yox, ürəyindəki işi görür.

Bu söz gözlənilməz olsa da, mən fəxr etdim və qürur duydum...

Biz çox vaxt uzaqların – qonşuların belə yaxşı gördüyü həqiqəti görmək istəmirik. Ancaq görməmək mümkün deyil, sadəcə görüb göz yumuruq...

...Əbülfəz Elçibəyin bir söhbətini xatırlayıram: «Türkiyə radiosunu dinləyirdim, veriliş Heydər Əliyevə həsr olunmuşdu, jurnalist belə bir cümlə işlətdi: «Azərbaycanda doğulmuş türk çocuğu Haydar Əliyev Kremli fəth ediyor...» Sonra əlavə elədi: «XX əsrdə türk dünyası iki böyük şəxsiyyət yetirib: Mustafa Kamal Atatürk və Heydər Əliyev...»

Heydər Əliyevin ən dərin və konseptual siyasi portretlərindən birinin müəllifi **Ramiz Mehdiyev «Vətəndaş, şəxsiyyət, lider» əsərində yazır:**

«O, bir tərəfdən sabiq SSRİ-də hökm sürən sovet və partiya həyatının bütün normalarına dəqiq və nəzakətlə riayət edirdi. Həmin dövrə aid nitqləri ilə tanış olarkən, anlayırsan ki, o özü kommunizm ideallarına daxilən inanırdı. Lakin bununla belə, sovet mədəniyyətinin – formaca milli, məzmunca sosialist-ənənəvi düsturuna tamamilə yeni məna aşılaya bilmişdi. O, hər nə edirdisə, formal baxımdan marksist-leninçi ideologiyanın tələblərinə uyğun idi. Lakin əvvəlki standart stereotiplərə nəsə elə bir mətləb sığışdıra bilmişdi ki, həmin illərdə onu anlamaq və sərrast ifadə etmək çətin olsa da, son dərəcə aydın nəticələrə gətirib çıxarırdı. O, nəinki milli ruhun dirçəlişinə, çağdaş Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail ola bilmiş, həmçinin bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir.



Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan musiqisi – unikal milli mədəniyyətimizin bütün qatlarını o illərdə biz sanki özümüzə yenidən açır və mənalandırırdıq. Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrü məhz bu kontekstdə, milli şüur oyanışının, özgür qaynaqlara qayıdışın və üz tutmağın yeni mərhələsinə aparan proseslərin başlanğıcı kimi qavranılmalıdır»[25].

Bununla bağlı öz subyektiv mülahizəmi bildirmək istərdim. Mənə elə gəlir ki, Heydər Əliyevin yaradıcı ziyalılarla, xüsusən Azərbaycan yazıçıları ilə (bəstəkarlar, rəssamlar – nisbətən daha «kosmopolitik» ifadə vasitələri ilə üzləşən və işləyən sənətkarlardır) ünsiyyəti onun özünün dünyagörüşünə, dünyaduyumuna müsbət təsir göstərmişdir. A.Karaulova verdiyi müsahibəsində o etiraf edirdi ki, yaradıcı insanlarla münasibətləri «daima məhrəm olmuş», çünki «buna daxili ehtiyac duyurdu». O, MK-nın birinci katibi olduğu dövrdə isə bu münasibətlər «genişlənmiş və möhkəmlənmişdir».

Cəsarətlə deyə bilərəm ki, yazıçılarla ülfəti, dostluğu Heydər Əliyevin özünü, öz daxili aləmini bir çox cəhətdən dəyişdirmiş, bilgi üfüqlərini genişləndirmiş, ən başlıcası isə – onda sovet partiya rəhbərlərinin dargöz mühafizəkarlığına qarşı davamlı əleyhdarlıq hissi yetişdirmişdir.

O dövrdə Azərbaycan ədəbiyyatında, hətta ümumittifaq ölçülər müqabilində də güclü-təpərli «altmışıncılar nəsli», XX qurultayın doğurduğu ab-havanın övladları meydana çıxmışlar. Əli Kərim, Anar, Elçin, Əkrəm Əylisli, Sabir Əhmədov, Yusif Səmədoğlu, Fikrət Qoca, İsa İsmayılzadə, Mövlud Süleymanlı və bir sıra başqa qələm sahibləri öz milli təəssübkeşliyi, haqsevərliyi və yenilikçi ruhu ilə fərqlənirdilər. Onlarla ünsiyyətdə olmuş, yaradıcılıqlarıyla tanış olmuş, 70-ci illərdə «Azərbaycan», «Ulduz» jurnallarında dərc edilən əsərlərdən ən bariz və yaxşı nümunələri oxuyan Heydər Əliyev marksizm-leninizm təliminin dəyişməz sayılan ehkamlarından tədricən uzaqlaşmış, öz xalqının keçmişini, qaynaqlarını, köklərini daha dərindən dərk etmiş, yazıçıları düşündürən suallara özü də cavab axtarmışdır. Bu qarşılıqlı mənəvi bağlılığın, mübadilənin, zənginləşmənin parlaq təzahürü Heydər Əliyevin 1981-ci ilin 12 iyununda respublika yazıçılarının VII qurultayında söylədiyi tarixi nitqi oldu. Bu önəmli çıxış haqqında sonrakı fəsillərdə bəhs edəcəyik.

## «Sizin aranızda əsas dissident mən özüm idim!»

SSRİ-də dissident hərəkatının baş alması səbəbləri haqqında düşünərək Roy Medvedyev «Naməlum Andropov» kitabında yazır:

«Bu hərəkat, həmçinin ölkədəki vəziyyətdən geniş xalq kütlələrinin ümumi narazılığı, əhalinin təminatında, istehsalatın təşkilindəki nöqsanlar, hələ də sovet partiya-dövlət ierarxiyasının bir çox özəkləri və bütün məktəblərində qalan özbaşınalıq və korrupsiya ucbatından törədilirdi...»[26]

Hələ DTK-da işlədiyi dövrdə Heydər Əliyev bu qənaətlərin gerçəkliyinə şahid olmuşdu. Ona görə də ölkə rəhbəri vəzifəsində korrupsiya və quruluşun digər sistem «azarlarına» qarşı mübarizənin başında duraraq, o, ictimai narazılığı ustalıqla leqallaşdıra bildi. Bu sosial narazılığın ədəbi-bədii inikası yolunda da (kitablar, pyeslər, tamaşalar) «yaşıl işıq» yandırıldı.

«O, məhz neqativ halları qamçılayan əsərləri dəstəkləyirdi, – Anar söyləyir. – Məsələn, mənim «Şəhərin yay günləri» pyesim onun xoşuna gəlmişdi. Əsər, ali məktəblərdəki proteksionizmə, tanışbazlığa, təbabət və ədliyyə sahəsində rüşvətxorluğa qarşı yazıçı barışmazlığını ifadə edirdi. Mən Mədəniyyət Nazirliyi ilə müqavilə bağlamışdım, bizim məşhur rejissor Tofiq Kazımov artıq aktyorlarla məşqlər aparırdı. Premyera ərəfəsində «Qlavlit»* dirəndi ki, bu antisovet pyesdir, çox şeylər çıxarılmalı, dəyişdirilməlidir və s. Onda MK mədəniyyət şöbəsinin müdiri Azad Şərifov bizə kömək etdi, «Qlavlit»ə «təpindi». Pyesə icazə verdilər. Premyeradan sonra Mirzə İbrahimov «Kommunist» qəzetində, Gülrux Əlibəyli «Bakinski raboçi»də alqışlayıcı məqalələr yazdılar.

Bir neçə gün sonra mənə Heydər Əliyevin tamaşaya gəlmək istədiyini dedilər. Onunla birgə bütün nazirlər, yaradıcılıq ittifaqlarının rəhbərləri təşrif buyurdular. Mən bədii rəhbərin yanında oturub oradan salona baxırdım, görürdüm ki, reaksiya, deyəsən, normaldır. Tamaşa sona yetdi və bax onda Heydər Əliyev ilk dəfə səhnə arxasına yaradıcı kollektivlə söhbətləşmək üçün keçdi. Sonralar o, belə ünsiyyət yoluna tez-tez qayıdacaqdı. O, bizim işimizi bəyəndi. Dedi ki, Mirzə İbrahimovun və Gülrux xanımın məqalələrini oxuyub maraqlanmış və özü tamaşaya baxmağı qət etmişdir, çünki «müxtəlif rəylər» varmış. İndi mən, – söylədi, – özüm əmin oldum ki, pyes vaxtında yazılıb, onu müvafiq rus teatrında da tamaşaya qoymaq lazımdır, bundan başqa film çəkilişi haqqında da düşünmək olar. Yeri gəlmişkən, elə həmin axşam o, üç cavan aktyoru ruhlandırdı və onların mənzil məsələsini həll etdi».

Eyni əhvalatı bir qədər fərqli sərkidə mənə Azad Şərif də söylədi. Onun sözünə görə, MK birinci katibi yamanca teatralmış, ömür yoldaşıyla Bakı teatrlarında bütün premyeralara, illah da ki, Moskva teatr kollektivlərinin çox vaxt gətirdikləri tamaşalara gedib baxarmış.

«Premyera günü çatdı, – Azad müəllim xatırlayır, – Anarın pyesi üzrə biletlər büsbütün satılmış, «Qlavlit»in isə icazəsi hələ də yoxdur. Tərs kimi, bu təşkilatın rəisi, hər zaman dil tapdığımız Cahangir İldırımzadə də şəhərdə yox idi. Neyləyək? Onda biz ədəbiyyat sektorunun müdiri Xeyrulla Əliyevlə məsuliyyəti öz üzərimizə götürməyi və premyeraya «Qlavlit»in razılığı olmadan icazə verməyi qərara aldıq. Tamaşa böyük müvəffəqiyyətlə keçdi. «Qlavlit» əməkdaşları isə özlərini sığortalamaq üçün Mərkəzi Komitəyə «namə» göndərdilər. Bir neçə gün keçmiş Heydər Əliyeviç telefonla məndən soruşdu ki, «Azdrama»da nə baş verib.

– Deyirlər sən pozuntularla məşğul olursan.

– Heydər Əliyeviç, sabah tamaşadır, mən sizdən çox xahiş edirəm, həyat yoldaşınızı da götürüb gəlin. Əgər görsəniz ki, bu zərərli pyesdir, neylək, mən hər hansı cəza almağa hazıram.

– Yaxşı. Sabah Büro üzvləri ilə gələrik.

Əlbəttə, biz hamımız, Anar, mən, teatrın direktoru o gün çox həyəcan keçirirdik və ümumiyyətlə, özbaşınalığa görə əməlli-başlı «qulaqburması» gözləyirdik. Cavanlara bu gün bunu təsəvvür etmək çətindir, amma o vaxt bu, nonsens, bir növ fövqəladə hadisə idi! «Qlavlit»in icazəsi olmadan heç bir kitab, qəzet, ya jurnal çıxa bilməzdi. Hələ jurnal nədir, senzorun əvvəlcədən imzası olmadan bir sətir də dərc etmək mümkün deyildi. Biz isə bütöv bir tamaşaya «yol vermişdik», beləliklə də onlar üçün (senzura əməkdaşları üçün – ***E.A.***) xoşagəlməz presedent yaratmışdıq. Xoşbəxtlikdən, hər şey yaxşı qurtardı. Tamaşadan sonra Heydər Əliyeviç müəllifi, rejissoru və bütün kollektivi gözəl iş münasibətilə təbrik etdi, sonra isə mənə üz tutub hamının yanında az qala «məzəmmətlə» dedi:

– Axı bu partiyanın xəttidir, – rüşvətxorluqla mübarizə. Azad, bəs bu pyes niyə tərcümə olunmayıb və Rus Dram Teatrında getmir?

* Qlavlit – Mətbuatda dövlət sirrlərinin qorunması üzrə Baş idarə.

Hamı gülümsəyərək anladı ki, bu tərzdə o mənə bəraət qazandırdı».

R.İbrahimbəyov və E.Quliyevin «Bir cənub şəhərində» filminin qadağan edilməsi ilə bağlı əhvalat məlum olsa da, onu müxtəlif şəkildə xatırlayırlar. Həqiqəti aydınlaşdırmaq üçün mən filmin quruluşçu rejissoru Eldar Quliyevdən otuz il əvvəl baş vermiş hadisələri «xırdalamasını» xahiş etdim. Onun mənə söylədikləri:

«Film 1968-ci ildə çəkilmişdi. Onu Azərbaycan «Dövlətkino»sunda qəbul edib Moskvaya təsdiqlənməyə göndərdilər. SSRİ «Qoskino» redaksiya kollegiyası filmi çox «isti» qarşıladı. Lakin elə bu vaxt Kinematoqrafiya komitəsi rəhbərliyi Bakıdan, adlarını indi çəkmək istəmədiyim çox tanınmış adamların imzasıyla teleqram aldı. Onlar qəzəblə filmin üstünə düşmüşdülər ki, bu guya antisovet filmdir, bizim gerçəkliyimizi təhrif edir və onu ekrana buraxmaq olmaz. Təbii ki, belə teleqramdan sonra Moskvanın kino rəhbərliyi təşvişə düşdü və filmin qəbul edilməsi dayandırıldı. Yadımdadır, mən iki həftə Moskvada qalıb filmi ən müxtəlif adamlara, o cümlədən Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda müəllimim olmuş Sergey Apollinaryeviç Gerasimova göstərdim, o da filmi bəyəndi. Axırda filmi qəbul etdilər və hətta bizə quruluş üzrə qonorar da ödədilər, amma geniş ekran yayımından çəkinməyi rəva bildilər...

Bütün bu hay-küy respublika rəhbərliyinə də çatdı və Mərkəzi Komitədə Büro üzvləri üçün baxış keçirməyi qət etdilər. Baxışa «Dövlətkino»nun sədri Məmməd Qurbanovu, «Azərbaycanfilm» kinostudiyasının direktoru Adil İskəndərovu, kinolentin yaradıcılarını, yəni məni və Rüstəm İbrahimbəyovu dəvət etdilər.

Baxış qurtarandan sonra Vəli Yusif oğlu Axundov Qurbanova və İskəndərova üz tutdu:

– Yaxşı, onlar cavandırlar. Bəs siz hara baxırdınız? – Və ciddi tərzdə: – Hamı Büro iclasına! – dedi.

Onun tonundan, eləcə də Büro üzvlərinin bəzi replikalarından biz anladıq ki, qərar bizim xeyrimizə olmayacaq. Elə də oldu: filmi ekranlara buraxmamaq qərara alındı. Üstəlik, SSRİ daxili işlər naziri Nikolay Şşolokov da özünü qəribə apardı, nədənsə filmdə göstərilən milis obrazını təhqiramiz saymışdı. Bundan sonra o «Qoskino»dan bütün ssenarilərin, milis formasında bir kimsə təsvir olunursa, DİN-ə bəri başdan göstərilməsini tələb etmişdi...

O zaman MK ideologiya üzrə katibi Cəfər Cəfərov bizim filmimizin qızğın tərəfdarı oldu. Deyirlər ki, məhz o, Azərbaycan DTK



sədri Heydər Əliyevdən, onun MK Büro üzvləri arasında çəkisini və nüfuzunu nəzərə alaraq (özü Büro üzvü olmasa da), gözümçıxdıya salınan filmə baxmasını xahiş edibmiş.

1969-cu ilin yaz çağları idi, mənə xəbər verdilər ki, hansısa general filmimizə baxmağa gələcək. İş günü sona yetirdi. Əvvəl binanın qapısı qənşərinə iki qara «Volqa» yaxınlaşıb dayandı, maşınlardan mülki geyimli şəxslər sıçrayıb tökülüşdülər, ardınca həmin generalı gətirən üçüncü «Volqa» gəldi. Maşından düşən ucaboy, idmançılar kimi tökməbədən şəxs salamlaşıb məni iti, sınayıcı nəzərlə süzdü. Biz kinozala getdik. Baxış qurtarandan sonra Heydər Əliyev mülayimliklə gülümsəyib dedi:

– Hə, nədir ki, normaldır, təbrik edirəm! Hər şey yaxşı olacaq, – və zarafatyana əlavə etdi: – Ancaq filmi daxili işlər nazirinə göstərməyin...

Bir müddət sonra MK-nın iyul plenumunda Heydər Əliyev respublikanın partiya rəhbəri seçildi və mədəniyyət sahəsində ilk addımlarından biri SSRİ Dövlət Kinematoqrafiya Komitəsinə filmin ümumittifaq ekrana buraxılması barədə verilən zəmanət oldu».

On ildən sonra MK birinci katibi yenə Eldar Quliyevə kömək əli uzadacaq və bəzi Büro üzvlərinin hücumlarından qoruyacaq. Eldar Quliyev IX əsrin əvvəllərində xalqı ərəb istilasına qarşı mübarizəyə qaldırmış milli-azadlıq hərəkatı qəhrəmanı haqqında «Babək» tarixi kinolentini çəkirdi. Artıq aktyor tərkibi, Naxçıvanda naturada çəkiliş yerləri müəyyənləşdirilmiş, cavan bəstəkar və populyar müğənni Polad Bülbüloğlu filmə yazılacaq musiqi müəllifi kimi təsdiqlənmişdi. Lakin çəkiliş prosesinin ən qızğın çağında Mərkəzi Komitə Bürosunun iki üzvünün birinci katibə yazdıqları rəsmi məktubun ucbatından filmin çəkilişi dayandırıldı. Az sonra rejissor Heydər Əliyevin yanına çağırıldı. «Birinci»nin kabinetində həmin məktubu yazan Büro üzvləri (Eldar Quliyev, münaqişənin münasibətlərinə təsir etmədiyinə görə yüksək opponentlərin adlarını çəkməyi rəva bilmədi), filmin məsləhətçisi – məşhur şərqşünas alim Ziya Bünyadov, ssenari müəllifi, yazıçı Ənvər Məmmədxanlı, həmçinin «Dövlətkino»nun və «Azərbaycanfilm»in rəhbərləri oturmuşdular.

«Opponentlərin iradları sırasında Poladın filmin bəstəkarı olması, bir sıra aktyorların baş rollara çəkilməsi və natura çəkilişləri yerlərinin seçilməsi daxil idi, – Eldar Quliyev söyləyir. – Büro üzvlərindən biri dedi ki, Naxçıvan dağları Bəzz qalası yerləşdiyi Savalan dağlarına oxşamır.

Bu məqamda Heydər Əliyev:

– Bəs sən özün o dağları İranda görmüsən? – deyə maraqlı replika atdı.

– Yox, – həmin adam çiyinlərini qısdı.

– Mən isə görmüşəm, – birinci katib bildirdi.

Xülasə, müzakirə başa çatandan, mən iradlara aid öz mülahizələrimi söyləyəndən sonra Heydər Əliyev qısaca yekun vurdu:

– Bilirsiniz nə var, onun işinə mane olmayın, qoyun çəksin.

Sonra mənə baxdı:

– Amma səndən də «tam proqram»la tələb edəcəyik.

Əsər «Mosfilm»lə birgə çəkilirdi, montajını və cilalanmasını da Moskvada başa çatdırdım. Kinolenti SSRİ «Qoskino»suna təhvil vermək üçün respublika kino rəhbərləri təyyarə ilə uçub gəldi. Bu ərəfədə filmə «Mosfilm»in baş direktoru Nikolay Trofimoviç Sizov da baxdı. Baxışdan sonra məni lap mat-məəttəl qoydu:

– Sabah yox, o birisi gün filmi Heydər Əliyeviçə göstəririk, – dedi. Və özü də bizimlə Bakıya uçdu.

O baxış günü dəqiq yadımdadır – 1979-cu il 29 dekabr. Əlbəttə, yaman həyəcan keçirirdim. Heydər Əliyev və Büro üzvləriylə birgə filmə baxmağa Zərifə xanım da gəlmişdi. Film sona yetəndən sonra bədahətən müzakirə başlanan zaman Zərifə Əzizovna ara-sıra dönüb xeyirxah baxışlarıyla ürək-dirək verirmiş kimi mənə nəzər yetirirdi.

Müzakirə uzun çəkməsə də, çox gur keçdi. Bir maraqlı məqamı xatırlayıram: opponentlərdən biri ilişməyə nöqsan axtararaq bezikmiş halda:

– Filmdə atlılar çapanda tozanaq həddindən çoxdur! – dedi.

– Axı o zamanlar asfalt yox idi, – deyə Heydər Əliyev «tozanağı» yatızdırdı.

Axırda Heydər Əliyev «Mosfilm»in direktoruna köməyə görə təşəkkür etdi, filmin yaradıcılarını təbrik etdi və bununla faktiki olaraq filmin ekrana çıxmasına xeyir-dua verdi.

Ümumiyyətlə, bu iki filmə Heydər Əliyevin fəal dəstəyi olmasaydı, bəlkə də onları tamaşaçılar görməyəcəkdilər».

Azərbaycan kino sənətçilərinin «İstintaq» (rusca «Dopros» adlanan) filmi ölkədə böyük səs-küy doğurmuşdu. Filmə münasibət birmənalı olmasa da, Heydər Əliyev bu ekran əsərinə SSRİ Dövlət mükafatı verilməsinə nail olmuşdu. «İstintaq»la bağlı, hərçənd Bakıda deyil, Moskvada çətin problemlər yarandı. Heydər Əliyev filmə baxıb heyrətlə: «Axı bu ki, Mərkəzi Komitə Bürosunun bədii formaya salınmış siyasətidir!» – demişdi. Lakin Moskvada, «Qoskino»ya xüsusi gəlib filmə baxmış daxili işlər naziri Nikolay Şşolokov kəsinliklə əleyhinə çıxmış, hiddətini bildirmişdi: guya bu bütövlükdə DİN-ə, sovet varlığına qara yaxmaqdır. Filmdə hüquq-mühafizə orqanları – prokurorluq, milis – xoşagəlməz şəkildə göstərilmişdi. Bununla belə, Heydər Əliyev filmə həyan çıxıb qorumuşdu. Həm də bu əhvalat 70-ci illərin əvvəllərində, Heydər Əliyevin Baş katibə çox da yaxınlığı olmadığı vaxta təsadüf edir. Halbuki, Şşolokov Brejnevin «can-ciyərləri»ndən sayılırdı.

Sonralar Andrey Karaulovla müsahibəsində Heydər Əliyev iftixarla xatırlayırdı:

«Sovet kinematoqrafının təcrübəsində bu, sosial eybəcərlikləri açıq ifşa edən və onlara qarşı mübarizəni göstərən ilk film idi».

Rusiya jurnalisti maraqlanır:

– Bəs Azərbaycanda tamaşaların, filmlərin qapadılması, kitab əlyazmalarının yasaqlanması nə dərəcədə tez-tez baş verirdi?

– Bağışlayın, Andrey Viktoroviç, – Heydər Əliyev cavab verir, – mənim işlədiyim dövrdə bizim praktikamızda hər hansısa sənət əsərinə bircə dəfə də qadağa qoyulma halı olmamışdır... Biz ədəbiyyat və incəsənət xadimlərinə tam bədii yaradıcılıq sərbəstliyi verirdik, heç kim heç nədə məhdudlaşdırılmırdı.

– Bəs yaradıcı ziyalılar arasında dissidentlər vardımı? – usanmaq bilməyən Karaulov müsahibindən əl çəkmir.

– Əslən dissident olanlar bizdə yox idi. Amma bəlkə də dissidentlər ona görə yox idi ki, biz ümumiyyətlə onları axtarmırdıq?»[27]

Eynilə «narahatedici» sualları mən bütün müsahiblərimə israrla verirdim. Doğrudan da, necə olur ki, Rusiyada, Ukraynada, hətta Baltikyanı respublikalarda adamları əqidələrinə görə «dəmə» basır, dəlixanalara yerləşdirir, antisovet təbliğata görə xaricə sürgün edirdilər, bizlərdə isə tam sakitlik hökm sürürmüş? Məgər Azərbaycan yazıçılarının hamısı bu dərəcədə üzüyola, qanuna baş əyən imiş? Yoxsa burada nəsə başqa bir əmma var?

Mənim suallarıma məşhur «altmışıncılar», bir qayda olaraq, öz praktikalarından inandırıcı misallar gətirib cavab verirdilər; belə çıxırdı ki, Heydər Əliyev yazıçıların üsyan həddinə, sistemlə açıq qarşıdurmaya gətirib çıxarılmasına yol vermədən, potensial konfliktlərin közərdiyi zaman söndürülməsini üstün tuturdu.

**Vaqif Səmədoğlu ilə söhbətdən:**

«Azərbaycan» jurnalında dərc olunmuş şeirlərimlə Latviyaya səfərə çıxmışdım. Riqada məni Azərbaycan dilini gözəl bilən tanınmış

şair-tərcüməçi Uldis Berzinş müşayiət edirdi. Müxtəlif ədəbi məclislərdə o şeirlərimi sinxron tərcümə edəndə, latışlar təəccüblə: «Ola bilməz! Belə şeirlər sovet jurnallarında çap oluna bilərmi?» – deyirdilər. İnanmırdılar. Uldis bu şeirlərdən bəzilərini çevirsə də, onları «Atmoda» jurnalında çap etdirə bilmədi. Hərçənd məni, əlbəttə, «pessimizm»ə, «abstrakt humanizm»ə, «formalizm»ə görə tənqid edirdilər. Eyni zamanda anlayırdım ki, əgər şeirlərim çap olunursa, bu yalnız Əylislinin «Azərbaycan»da, yaxud Anarın «Qobustan»da xidməti deyil. Deməli, yuxarıda, bütün bunlara dəstək verən hansısa bir qüvvə var.

Yadımdadır, Soljenitsın ölkədən qovulan günü mən möhkəm içdim; Bakıya Moskva kinoçuları gəlmişdi və mən onların məclisində gözümçıxdıya salınmış yazıçının sağlığına badə qaldırdım. Banketdə təxminən otuz nəfər vardı. Əlbəttə, bu barədə «birinci»yə xəbərçilik elədilər. Amma elə bir təsirli nəticə olmadan keçindi. Hərçənd sonralar o mənə bir dəfə zarafatla «yaman xuliqanlıq eləyirsən!» dedi. Vəssalam. Mən istəyirəm ki, nəhayət, DTK arxivləri açılsın. Çünki əminəm ki, orada yazıçılara aid yüzlərlə **iş olmayacaq**, onları Heydər Əliyev sadəcə açmamışdır. Açılmasına yol verməmişdir. Ona görə, o deyəndə ki, «bir nömrəli dissident mən özüm idim», buna tam haqqı var idi».

1994-cü ildə Moskvada yazıçı Aleksandr Soljenitsınla bağlı Siyasi Büronun məxfi sənədlərinin «Kremlyovski samosud»* adlı toplusu çıxdı. Bir çox başqa sənədlərlə yanaşı kitabda SSRİ daxili işlər naziri Nikolay Şşolokovun Sov.İKP MK baş katibi L.Brejnevə ünvanlanmış məktubu da dərc edilmişdi. Nazir yazırdı:

«Soljenitsınla bağlı əhvalatda biz, Boris Pasternaka qarşı yol verdiyimiz lap kobud səhvləri təkrarlayırıq. Soljenitsın ideoloji mübarizədə böyük fiqura çevrilmişdir. Bu elə bir reallıqdır ki, onunla hesablaşmamaq olmaz. Bu faktın nə üstündən sükutla keçmək, nə də yan keçmək olmaz... Obyektiv olaraq Soljenitsın istedadlıdır. Bu, ədəbiyyatda bir hadisədir. Bu baxımdan sovet hakimiyyəti üçün o, şərtsiz maraq kəsb edir. Son dərəcə sərfəli olardı ki, onun qələmi xalqın mənafelərinə xidmət etsin... Soljenitsına təcili olaraq mənzil verilməlidir. Yaşayış qeydiyyatına alınmalı, ona diqqət göstərilməlidir. Onunla görkəmli rəhbər işçilərdən kimsə danışmalıdır ki, ona

* «Samosud»—«özbaşına, qanunsuz məhkəmə»; kitabın adı «Kremlin divanı» kimi də tərcümə edilə bilər.



qarşı aparılan sıxma-boğmaları, bütün bu ağrı-acıları içindən sovuşdursun. **Soljenitsını kənara tullamaq yox, onun naminə mübarizə etmək lazımdır** (vurğulama bizimdir. – *E.A.*) Bizim nəşriyyatlar artıq başa düşməlidir ki, hazırda ədəbi əsərləri rədd etmək yox, transformasiya etmək gərəkdir. İndiki halda düşmənləri aləmin qarşısında dara çəkmək deyil, ağuşlarda boğmaq lazımdır...»[28] Leonid İliçin bu xəbərdarlığa böyük maraq göstərməsinə baxmayaraq Kreml strateqləri görkəmli yazıçıya qarşı ən uğursuz variantı seçdilər. Nə Moskvada yaşayış qeydiyyatını təmin etdilər, nə də öz puluna kooperativ mənzil almasına imkan verdilər. 1974-cü ildə A.Soljenitsın Sovet İttifaqından xaric edildi, bu da Qərbdə şiddətli antisovet mərəkəsi qopardı.

Heydər Əliyevin Soljenitsının yaradıcılığına necə münasibət bəslədiyini deyə bilmərəm, amma onun yazıçılara yanaşmada Nikolay Şşolokovun məsləhət gördüyü siyasətlə səsləşən cəhətlər aydındır. O, istedadlı yazıçıları respublikadan sıxışdırıb perik salmağa deyil, «ağuşunda boğmaq» olmasa da, «sığal çəkməyə» üstünlük verirdi. O cümlədən yüksək mükafatlar, adlarla təltif etməklə, mənzil, bağ verməklə və s.

**Maqsud İbrahimbəyovla söhbətdən:**

«Heydər Əliyev öz təkrarsız, orijinal «oyununu» aparırdı. O, heç kimi təqlid etmirdi. Heydər Əliyevin sayəsində yenidənqurmadan sonra Azərbaycanda, ideologiyada bunca ağrılı, kəskin keçid baş vermədi. Çünki onun vaxtında hər şeyə icazə verilmişdi. Siz mənə heç bir adamın adını çəkə bilməzsiniz ki, şeirdə, yaxud nəsrdə yol verdiyi hansısa sərbəstliyə görə təqiblərə məruz qaldığını deyə bilsin. Heydər Əliyev ədəbiyyat və incəsənət xadimlərinə misilsiz hörmət nümayiş etdirdi və biz buna görə ona minnətdar olmalıyıq. 90-cı illərin ortalarında Moskvada Sütunlu salonda Füzulinin yubileyi qeyd edilərdə, o mənə dedi: «Mən yazıçılar üçün ordenlər «qoparırdım», onlara fəxri adlar verirdim. Sən elə bilirsən onların bəzilərinin bu mükafatlara tam halalca layiq olmadıqlarını anlamırdım? Amma yenə də mən onları ürəklə verirdim ki, onlarda (yəni «bəziləri»ndə – *E.A.*) ləyaqətlilik nəşət tapsın...» O, yaradıcı işlə məşğul olanların hamısına həmişə dəyişməz diqqət nümayiş etdirirdi.

...70-ci illərin əvvəllərində Heydər Əliyev bizi – məni və qardaşımı xilas etdi demək olmasa da, qorudu, yalnız Əliyevin sayəsində biz vətəndə qala bildik».

**Elçinlə müsahibədən:**

«Azərbaycan «altmışıncıları»nın ən birinci və çox vaxt gözəgörünməz qoruyucusu, demək olar ki, himayədarı Heydər Əliyev idi. O zaman hamının haqqında danışdığı və 60-70-ci illərdə çox populyar olan «üçlüyün» – Anar, Elçin və Əkrəm Əylisli – arxasında Heydər Əliyev dururdu. Əylisli indi iftixarla bəyan edir ki, mən öz nəsr əsərlərimdə sərbəstliklərə yol verirdim, «Azərbaycan» jurnalında əvvəllər yasaqlanmış əsərləri çap etməyə icazə verirdim və s. Sual olunur: məgər sən özbaşına buraxılmışdın?

İmran Qasımov, onun da arxasında Heydər Əliyev olmasaydı, sən bunlara rəvac verə bilərdinmi? Rusiyanın məşhur ədəbi tənqidçisi Lev Anninski mənə deyirdi: «Siz respublikada nə oyunlar çıxarırsınız? Siz jurnallarınızda «kramolnı» (qanunazidd) əsərləri çap etməyə yol verirsiniz!»

**– Bəs niyə Azərbaycanda dissident ədəbiyyatı yox idi? Belə fikir var ki, Azərbaycan və bütövlükdə sovet yaradıcı ziyalıları «Stalin şineli»ndən çıxmış və anadangəlmə qorxu batsillaları ilə yoluxmuşdur. Onlar əslində nəyə icazə verilirdisə, yalnız ondan yazırdılar...**

– Bizdə dissident ədəbiyyatı əsasən ona görə yox idi ki, biz bütün əsərlərimizi çap edə bilirdik. «Azərbaycan» jurnalında, Heydər Əliyevin kəraməti sayəsində çap etdiyimiz əsərlərin çoxusu Moskva dərgilərində işıq üzü görə bilməzdi, çünki onları dissident ədəbiyyatı sayardılar».

**Anarla söhbətdən:**

«Azərbaycanda yazıçılar arasında niyə dissident yox idi – sualına qayıdaq. Niyəsi olmadığına görə. O vaxtlar bizim hər birimizi dissident edə bilərdilər. Vaqif Səmədoğlunu, Əylislini, məni. Amma Əliyev vəziyyəti qaynar nöqtəyə gətirib çıxarmırdı.

Mənim ilk hekayəm – «Keçən ilin son gecəsi» 1960-cı ildə çıxmışdı. Bir həftə keçəndən sonra Qulu Xəlilov «Azərbaycan gəncləri» qəzetində hekayəni darmadağın elədi. İlk povestim – «Ağ liman» – «Kommunist» qəzetində, indi baş millətçi və müxalifətçi olan Xalid Əlimirzəyev tərəfindən hücumlara məruz qaldı. O yazırdı ki, əsər sosializm realizminə ziddir, yazırdı ki, bu antisovet əsərdir. Bundan az sonra çağırılan partiya fəallarının toplantısında Vəli Axundov böyük məruzə ilə çıxış etdi. Təvazökarlıqdan bir qədər kənar görünə bilsə də, həmin aktivdə böyük Qara Qarayevin mənim müdafiəm naminə dediyi sözləri səsləndirmək istəyirəm: «Mən ən istedadlı Azərbaycan yazıçısı Anarın əsərlərinin əsassız tənqid olunmasını qətiyyətlə rədd edirəm».

Yaxud «Ulduz» jurnalında çıxmış «Yaxşı padşahın nağılı». Mən onu Moskvada «Drujba narodov» jurnalının məsul katibi Şilovtsevaya göstərdim, o, mənə çox xeyirxah münasibət bəsləyirdi. Əsəri oxuyub dedi: «Anar, bunu nəinki çap etməzlər, sən həm də heç kimə göstərmə». O hesab edirdi ki, «Nağıl» son dərəcə qanunazidd əsərdir. Mən bildirdim ki, əsər Bakıda çap olunub. Şok vəziyyətində «ola bilməz!» – dedi. Sonra hekayəni «Nedelya»ya, Makarova göndərdim, o da mənə məktub yazdı ki: «Əziz Anar, əsər əladır, amma indiki zəmanəyə görə yox!» Onlar yalnız yenidənqurma başlanmasıyla senzura zəifləyəndən sonra «Nağıl»ı dərc etdilər.

Amma elə hallar da olurdu ki, biz hansısa əsəri əvvəl Moskva qəzet və jurnallarında çap etməyə nail olurduq, sonra isə o, Azərbaycanda özünə «yol tapırdı». Cəlil Məmmədquluzadə haqqında «Anlamaq dərdi» (ruscası «Большое бремя – понимать» – *E.A.*) məqaləmi «Novıy mir» dərc etdi. Yalnız bundan sonra İsmayıl Şıxlı həmin yazını «Azərbaycan» jurnalında «keçirdə» bildi.

Yəni biz zaman-zaman senzura, partiya orqanları ilə toqquşmalı olurduq; mən ədəbiyyatda az-çox önəmli nə edirdimsə, müqavimətlə qarşılanırdı. Və bizi qurtaracaq yeganə pənah yerimiz vardısa, o da Heydər Əliyev idi. O, bəlkə də bizlərdə dissident ədəbiyyatı mövcudluğu haqqında Moskvada təəssürat yarana biləcəyindən ehtiyatlanaraq, məsələni partlayışa gətirib çıxarmırdı. Bizi qoruyaraq, özünü qoruyurdu. Bəlkə də bizə şəxsi rəğbət bəslədiyinə, «olanlar – bizik» həqiqətinə inandığına görə...»

*1999-cu il fevralın 5-də Rüstəm İbrahimbəyovun yubileyində Azərbaycan prezidenti respublikada istisna edilə bilən, ümumiyyətlə isə sovet dönəmlərində dəbdə olan «dissident ovu»nu yada salacaq: «...60-70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq onlar çox idi. Ən böyük dissident Bəxtiyar Vahabzadə idi... Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də onlar indi heyfsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq, indi bəlkə hörmətimiz daha da artıq olardı. Yaxud götürək Anarı. O da dissident idi. Məsələn, «Qobustan» jurnalının yaranması və ...səhifələrində dərc olunan əsərlər, şübhəsiz ki, dissident xarakteri daşıyırdı...»*[29]

**Azad Şərifl ə söhbətdən:**

**– Nədəndir, Azərbaycanda dissidentlər olmamışdır? Heç kəs baş götürüb getmədi, heç kəsi sürgün etmədilər.**

– Olmamışdır demək düz deyil. Olmuşlar. Rəsul Rzada da, Süleyman Rüstəmdə də, Nəbi Xəzridə də «qulp qoyulası» şeirlərə rast gəlinirdi. Hələ cavan şairləri demirəm, – başdan-başa dekadans və o vaxtın təbirincə desək, formalizm. Rüstəm və Maqsud İbrahimbəyovlar yeni səpkidə, yeni baxımla yazırdılar, buna görə də yaşlı nəslin nümayəndələri onları bəyənmirdilər. Amma mənə elə gəlir ki, Heydər Əliyev burada hansısa sağlam, saf, gələcəyi olan pöhrələri sezirdi. Hərçənd özü haqqında hərdən deyirdi ki, «mən konservatoram». Düzdür, bu daha çox əşyalara aid idi. Onun kabinetində Vəli Axundov dövründən qalmış bir «kontorka» qalırdı, ayaqüstə yazmaq üçün. Ona toxunmağa qoymadı: «Qoyun dursun».

**– Bəs yazıçıların çəkişmələrinə qarışmaqdan vaz keçilməsi – sizdənmi, ya Əliyevdən irəli gəlirdi?**

– Ondan da, məndən də. Heydər Əliyeviç mənə deyirdi: «Sənin nəyinə gərəkdir? Qoy özləri baş açsınlar. Bizə müraciət edərlərsə, onda da düşünüb-daşınarıq».

**– Müraciət edirdilər də. 1996-cı ildə yazıçıların qurultayında Heydər Əliyev xatırladırdı: «Siz öz həmkarlarınıza qarşı şikayətləri üstümə yağdırırdınız, bir-birinizdən «donos»lar yazırdınız».**

– İş ondadır ki, o şikayətlərin içində imzasız yazılar bolluca idi. Biz yaradıcı adamlara qarşı «anonimka»lara məhəl qoymamaq haqqında şərtləşmişdik. Belə bir üstüörtülü razılaşmamız vardı.

Yeri gəlmişkən, şikayətlər haqqında. Doğrudan da bu, yaradıcı ziyalılar arasında yayılmış «azar» idi. Bir çox qələm sahibləri, əsasən yaşlı nəslə mənsub olanlar, poeziya və nəsrdə yeni nəfəs, yeni yönüm və axtarışlarla razılaşmayaraq, cavanların onları ədəbi prosesin arxa planına «sıxışdırmalarından» ehtiyatlanaraq, sənət zəminində baş verən olaylardan Mərkəzi Komitə aparatını «agah etməyi» özlərinə borc bilirdilər. İllah ki, cavanlardan kimsə, onların fikrincə, «təməllərə» qarşı qəsd edəydi.

Bununla bağlı bir çox müsahiblərim Movlud Süleymanlının «Dəyirman» povesti çap olunduqdan sonra baş vermiş qalmaqallı əhvalatı xatırladılar.

Bu əsər 1979-cu ildə «Azərbaycan» jurnalında dərc edilmiş və dərhal hücumlar hədəfinə çevrilmişdi. Bəziləri hətta onu antisovet əsər adlandırırdı. «Yuxarı»ya məktublar, siqnallar axırdı. Həmin ilin



payızında Azərbaycan Yazıçılar İttifaqında «Dəyirman»ın daha çox divanxananı xatırladan müzakirəsi keçirildi. Bu əsərin müəyyən yozumu və ətrafında baş vermiş qalmaqal əsasında Mərkəzi Komitə xüsusi qərar da çıxarda, hətta müəllifi sevdiyi sənətindən bezdirib, uzun müddətə ayıra da bilərdi.

O günləri Movlud Süleymanlı belə xatırlayır:

«Ədəbi mühafizəkarlar və irticaçılar mənə qarşı çox aqressiv idilər. Amma diqqəti buna tuşlamaq istəmirəm. O adamlardan söhbət gedəcək ki, həmin çətin aylarda mənə arxa durdular, tab gətirməyimə, sınmamağıma yardımçı oldular.

...«Dəyirman» ətrafında qalmaqal qızışırdı. Moskvaya teleqramlar axışdı, nəticədə bütün kitablarım, həm Azərbaycan, həm Rusiya nəşriyyatlarında planlardan çıxarıldı. Mən hiss eləyirdim ki, halqa daralır... Belə ağır günlərin birində mütərəqqi düşüncəli və gəncləri sevən insan olan İmran Qasımov məni və «Azərbaycan» jurnalının baş redaktoru Əkrəm Əylislini öz kabinetinə çağırdı:

– Yoldaş Əliyev mənimlə telefon bağlantısında oldu, – dedi. – Soruşdu bu nə «Dəyirman»dır ki, hamı elə onun söhbətini eləyir. Mən qısaca əsər haqqında ona öz rəyimi söylədim. Jurnalı ona göndərməyi xahiş etdi. Mən də «Azərbaycan»ı Mərkəzi Komitəyə göndərdim. Bu gün yoldaş Əliyev yenidən zəng vurub öz münasibətini bildirdi. Yeri gəlmişkən, povesti akademik Həsən Əliyev də (Heydər Əliyevin böyük qardaşı. – *E.A.*) oxumuşdur, Heydər Əliyev onun da fikrini mənə çatdırdı.

Birinci katib dedi ki, «povest istedadla yazılıb, müəllifi lüzumsuz hücumlardan qorumaq gərəkdir. Yeganə istənilən odur ki, cavan yazıçının həyata baxışlarını, dünyagörüşünü bir qədər səhihləşdirmək lazımdır. O, başa düşməlidir ki, bizim varlığımızda yalnız qaranlıq deyil, işıqlı cəhətlər də var...»

Bu söhbətdən sonra mən dərhal hiss elədim ki, nəsə dəyişib. Hər halda irticaçıların hücumları xeyli səngimişdi. Mən yenə də nəfəs ala, yaza bilirdim.

Sonralar öyrəndim ki, mənim opponentlərim Heydər Əliyevin özünün qəbulunda olmuşlar. Onlardan biri özü mənə söyləmişdi: «Əlimizdə «Dəyirman» povesti Heydər Əliyevin kabinetinə daxil olduq.

– Nə baş verib? – soruşdu.

– Yoldaş Əliyev, bu povestdə bizim quruluşa böhtan, qarayaxma var, tünd və yolverilməz söyüşlər var!

– Nə söyüşlər? – MK-nın birinci katibi maraqlanır.

Onlar isə «ədəbsiz» yerlərin altından qırmızı xətt çəkmişlər. Və eləmə tənbəllik, müəllifin neçə dəfə söyüş ifadələri işlətdiyini hesablamışlar: 73 dəfə!

Heydər Əliyev jurnalı vərəqləyir, cizgilənmiş yerlərdən bəzilərini oxuyub birdən qəhqəhə çəkir:

– Ay yoldaşlar, belə halda rus xalqı çoxdan Şoloxovu məhkəməyə verməliydi...

Bax belə... Heydər Əliyev məni sözün əsil mənasında qaragüruhçuların əlindən xilas etdi».

1973-cü ildən 1976-cı ilədək Dövlət Mətbuat Komitəsi sədri vəzifəsində işləmiş, ardınca beş il Mərkəzi Komitədə təbliğat və təşviqat şöbəsinə başçılıq etmiş Cahangir İldırımzadə bildirir ki, Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə, əvvəllər çətinliklə nəşrə «yol tapan» əsərlərə «yaşıl işıq» yandırılmışdı.

«Məsələn, mənə Maqsud İbrahimbəyov zəng vurub gileylənir ki, kitabını senzura buraxmadığına görə yarım ildir ki, nəşriyyatda qalıb. Mən onu və «Qlavlit» rəisini Mərkəzi Komitəyə dəvət etdim. Konkret şəkildə qeydləri araşdırdıq, bir irad da qalmadı, bütün suallar aradan qaldırıldı.

**– Demək olarmı ki, Heydər Əliyevin vaxtında senzura, xüsusən hansısa qeyri-standart əsərlərə yanaşmada nisbətən az sərtlik göstərmişdir?**

– Bəli, belə də olmuşdur. Əvvəllər keçirilə bilməyəcək bir çox əsərlər dərc edilirdi. Mənim yanıma tez-tez şairlər, nasirlər gəlirdilər və elə bir hal baş verməmişdi ki, hansısa kitab plandan çıxarılsın, ya satışdan götürülsün. Bir dəfə Süleyman Rüstəm «İlki sahil» poeması ilə bağlı zəng vurmuşdu. Senzorun iradları vardı. Mən məsələni həll etməyə söz verdim və biz bu poemanı dərhal buraxdıq.

Yazıçılarla, şairlərlə bağlı belə faktlar çox olurdu. Manaf Süleymanov hər dəfə mənimlə görüşərkən inqilabdan əvvəlki köhnə Bakı və bakılılar haqqında maraqlı xatirələrilə bölüşürdü. Bir dəfə ondan soruşdum ki, niyə bunları yazmır, kitab şəklində cəmləşdirmir.

– Belə kitabı buraxarlarmı? – soruşdu.

– Niyə də buraxmasınlar, – dedim.

Üstündən on il keçəndən sonra (mən yenə də «Qlavlit»ə başçılıq edirdim) o gəlib xəbər verdi ki, kitabı yazmış və nəşriyyata təqdim etmiş, nəşriyyat əlyazmanı Partiya Tarixi İnstitutuna rəyə göndərmiş və mənfi rəy almışdır... Lakin biz ötən günlər haqqında bu bədii-publisistik oçerkləri nəşr etdirməyə kömək etdik, sonralar «Eşitdiklərim, oxuduqlarım, gördüklərim»* adıyla bu kitab dəfələrlə böyük tirajlarla buraxıldı. Bütün bunlar haqqında M.Süleymanov mətbuat səhifələrində və televiziya, radio verilişlərindəki çıxışlarında tez-tez söz açardı.

Siyasi-ideoloji baxımdan bizdə, demək olar ki, heç bir yubandırma, süründürmə olmazdı. Tutaq ki, senzorlar «ilişdikləri» mətnləri gətirirdilər: bir baxın, müəllif ət, çörək almaq üçün növbələrdən yazır. Mən belə iradları dərhal aradan götürürdüm.

**– Çingiz Hüseynov mənə danışırdı ki, onun «Məhəmməd, Məmməd, Məmiş» povesti respublikada «keçməyib».**

– O, povesti burada dərc etməyə heç cəhd də göstərməmişdi. Bizim Çingizlə xoş münasibətlərimiz vardı, biz bir yerdə Moskvada oxumuşduq. Bizə həmin əsərini təqdim etməmiş, dərhal Moskvada buraxdırmışdı. Əgər təqdim etsəydi, zənnimcə, elə bir çətin problem də meydana çıxmazdı.

«Azərbaycan» jurnalının sabiq baş redaktoru Əkrəm Əylislinin qənaətinə görə, istedadlı əsərlərin əksəriyyəti yalnız «yuxarı»da əngəllər törədildiyinə görə deyil, daha çox sənətdaşların bir-birinə badalaq vurduqlarına görə «tilsimə» düşürdü.

– Mən həmişə yazmışam ki, hər şey «aşağı»dan körüklənir. Mərkəzi Komitə məmurları nə etməliydi ki, onların yanına diri klassiklər təşrif buyurub həmkarlarından şikayətlənir, guya ədəbiyyatın ideya saflığını qoruyurdular. Mərkəzi Komitənin birinci katibi bu donosbazlara necə cavab verəydi? Deyəydi ki, mən sizinlə razı deyiləm?

**– Yenə də, bəs niyə belə şəraitdə Azərbaycan yaradıcı ziyalıları arasında həqiqi dissidentlik yer almadı, nə əcəb bizim yazıçı – «altmışıncılar» xaricdə heç nə dərc etmədilər, xarici radiosəslərə öz əsərlərini ötürmədilər, demək olar ki, «sandıq» ədəbiyyatına da bel bağlamadılar?**

– Bu qeyri-təvazökar səslənsə də, çoxları bu suala belə cavab verirdilər: çünki «Azərbaycan» jurnalı və onun baş redaktoru Əkrəm Əylisli vardı. «Sandığa» yazılanlar da vardı, əvvəllər çap olunmayan əsərlər də. Bunların hamısını mən 70-ci illərin sonu – 80-ci illərin əvvəllərində jurnalda dərc etdim. Sabir Əhmədovun da, Mövlud Sü-

* Rusca bu kitab «Дни минувшие» adıyla o çağları görə misilsiz sayılacaq 100 minlik tirajla buraxıldı. Sonralar bir neçə dəfə yenidən nəşr edildi. Bu gözəl əsərin bədii tərcüməsini gerçəkləşdirmək mənə müyəssər oldu.—**E.A.**

leymanlının da belə əsərləri var idi. Ramiz Rövşən, Afaq Məsud, Vaqif Cəbrayılzadə... – onlar o vaxt çap oluna bilmirdilər, «ədəbiyyat generalları» onları qabağa buraxmırdılar. Dissidentlər nəsli elə onlardan başlaya bilərdi.

**– Bəs hakimiyyət başında Heydər Əliyev kimi sözün yaxşı mənasında millətpərəst deyil, bir başqa adam olduğu təqdirdə siz jurnalınızda bunca sərbəst qol-qanad açа bilməyəcəyinizlə söylədiklərinizi uzlaşdırmırsınızmı?**

– Tamamilə səmimi cavab verirəm. Heydər Əliyev olmasaydı, mən ümumiyyətlə jurnalda yer tuta bilməzdim. Məni bu vəzifəyə heç kim təyin etməzdi.

**– Siz əsərlərin seçimində sərbəstdiniz. Ən orijinal, qeyri-standart, istedadlı nə varsa çap edirdiniz. Bu baxımdan Heydər Əliyevin xidmətini görürsünüzmü?**

– Əlbəttə. Mən baş redaktor olaraq buraxdığım ilk sayda cavan şairlərdən 700 misra dərc etdim. Buna qədər onlara cüzi yer – 30-40 misralıq yer verilirdi. Jurnalın sayı çıxandan az sonra məni İmran Qasımov çağırıb dedi: «Heydər Əliyeviç zəng vurmuşdu. Maraqlanır ki, nədən bu cavan şairlər şeirlərində belə ağlaşırlar? Bəlkə mənziləri yoxdur, bəlkə hansı yollasa onlara kömək etmək lazımdır?»

Düzü, mən İmran müəllimə inanmadım. Öz-özümə düşündüm ki, Əliyevin işi-gücü yoxdurmu, Yazıçılar İttifaqı katibinə jurnala görə zəng vura. Amma axşam mənə evə Həsən müəllim, Heydər Əliyevin böyük qardaşı zəng vurdu. Dedi ki, sizin jurnalınıza baxdım, gənc şairlərdən bəziləri taleyindən gileylənir, bədbinliyə qapılıblar. Bəlkə sizin redaksiyaya gəlib uşaqlarla söhbətləşim. O anda bildim ki, İmran müəllim düz deyirmiş. Heydər Əliyev həmişə ədəbiyyatla maraqlanmış, «Azərbaycan» jurnalını da, başqa dərgilərimizi də, «Ədəbiyyat qəzeti»ni də oxumuşdur. Mərkəzi Komitədə başqaları ümumiyyətlə heç nə oxumurdular. Ya da rus dilində çıxan ədəbiyyatı izləyirdilər.

Heydər Əliyev hər sahəyə dərin marağı olan, olduqca istedadlı şəxsiyyət idi. Həmçinin Azərbaycanda istedadlı ədəbiyyatın inkişaf etməsində maraqlı idi. Başqa məsələdir ki, hansı ədəbiyyatı istedadlı, hansını isə istedadsız hesab edirdi. Bu həm doğma torpağa, xalqa bağlılıqdan, həm də hər bir sahədə, o cümlədən ədəbiyyat və incəsənət sahəsində hamıdan öndə olmaq təəssübündən irəli gəlirdi.

Mən hesab edirəm ki, o, qeyri-adi, heç kim tərəfindən tam araşdırılmamış şəxsiyyət, unikal psixologiyaya malik bir insan idi. Onu dərk etmək bizim ağlımızın işi deyil».



Bir sıra müsahiblərim, Şüvəlandakı Yazıçıların Yaradıcılıq Evində, qələm sahiblərinin Mərkəzi Komitənin birinci katibi ilə görüşü gedişatında baş vermiş insidenti xatırlayırlar. O vaxt «Azərbaycan» jurnalının baş redaktoru tərəfindən əsərlərinə etinasızlıq göstərilən və bundan qəzəblənən bəzi ədiblər «axırıncı və qətiyə döyüşə atılmağa cəhd göstərdilər. Əhvalat 1981-ci ildə, növbəti yazıçılar qurultayı ərəfəsində baş vermişdi. Gözəl yaz günlərindən biri idi, MK birinci katibinin diqqət və qayğısı sayəsində şəhəryanı bağların səfalı guşəsində inşa edilmiş yazıçılar ocağının yeni yaraşıqlı binası adama «gəl-gəl» deyirdi, gəndən baxanda hamı xoş ovqatda idi. Və bəzi romanlarda olduğu kimi, heç bir şey «qopacaq tufandan xəbər vermirdi». Əslində, elə tufana Əkrəm Əylislinin özü səbəbkar oldu. O, dilini dinc qoysaydı, ya heç olmasa opponentlərinə ədəb-ərkanla, tarazlı cavab versəydi... amma o, açıq-açığına «cəngə girişdi».

Birinci şikayətçi olaraq şair Famil Mehdi yerindən qalxıb Heydər Əliyevə üz tutdu: «Mən bir poema yazmışam, mərkəzdə raykom katibi obrazı durur; onu yaradarkən sizi düşünmüşəm. Əkrəm Əylisli isə onu çap etmir, çünki sizi istəmir». Əylisli təxminən belə dedi: «Heydər Əliyeviç, o hansısa bir misgin adamın obrazını yaratmışdır... və ümumiyyətlə, partiyanı və onun rəhbərlərini mədh etməkdə canfəşanlıq göstərənlər məndə şübhə doğurur». Heydər Əliyev istehza ilə: «Bəs onlara qarşı nə etməyi buyurursan? Buna görə dama basaqmı?». Bu məqamda ümumi çaxnaşma zilə çatdı. Salonda oturanların arasında olan alim-yazıçı Mübariz Əlizadə söz istədi: «Heydər Əliyeviç, – dedi, – siz elə bir gözəl respublika yaratmısınız ki, 20-30 il sonra hamı «yaşasın Heydər Əliyev!» deyəcək. Amma Əkrəm Əylislinin buraxdığı jurnalı oxuyanda belə təəssürat yaranır ki, bizdə heç bir müsbət şey baş vermir, hər şey pis və ümidsizdir». Əylisli yerindən səsini ucaltdı: «Sən şər atma, faktlarla danış!». Mübariz Əlizadə hiddətləndi: «Mən sənin atan yerindəyəm, sən isə sözümü kəsirsən!». Əkrəmin cavabı kəskin oldu: «Mənim atam müharibədə həlak olub, sağ olsaydı, sənin kimisinə əl verməzdi».

Yazıçı Ələviyyə Babayeva da aranı qızışdırdı: «Əylisli öz jurnalında bir şeir dərc edib, orada belə deyilir: «Mən bir zırpı döymək istəyirəm». Görəsən o kimi nəzərdə tutur?» Ələviyyə xanım matdım-matdım birinci katibə baxdı. O da tökməbədən, qəddi-qamətli olduğundan diqqətcil yazıçı xanımın hansı yozuma işarə vurduğunu anladı...

Əlbəttə, görüşdə başqa, daha vacib məsələlərə toxunuldu, birinci katib yazıçılar təşkilatına rəhbərlik edə biləcək namizəd haqqında

qələm sahiblərinin fikrini, mövqeyini öyrəndi. Lakin son sözündə, Əkrəm Əylisliyə ünvanlanan şikayətlərdən, iradlardan, «Azərbaycan» jurnalının baş redaktorunun bu «kütləvi həmlə»dən bezikib «cızıqdan çıxmasından» yan keçə bilmədi və baş redaktoru çox sərt şəkildə məzəmmət etdi:

«Əgər sən bizim siyasətimizi anlamırsan, qəbul etmirsən, onda çıx get, fikirləş!» Əkrəmin opponentləri bu sözləri «sürəkli alqışlar»la qarşıladılar.

«Amma görüş bizim barışmağımızla sonuclandı, – Əkrəm Əylisli gülümsəyərək xatırlayır. – Fasilə zamanı o məni baxışları ilə arayırdı. Lap axırda xatirə şəkli çəkdirəndə, Əliyev ətrafdakılardan «bəs o hanı?» deyə soruşdu. Mən yaxınlaşdım. Qucaqlaşdıq. Barışdıq. Və o hamıya eşitdirdi: «Get kimi istəyirsən çap et. Mən sənə inanıram».

Yeri gəlmişkən, Əkrəm Əylislinin iqtidar məddahlarına qarşı bədgümanlığı sonralar özünü doğrultdu. Famil Mehdi də, Mübariz Əlizadə də (gələcəkdə müxalifət liderləri kimi tanınan Zərdüşt və Araz Əlizadənin atası) və bəzi başqa əhli-qələmlər 80-ci illərin «aşırımında» Heydər Əliyev vəzifədən kənarlaşdırılandan sonra «yönümlərini dəyişərək» Heydər Əliyev dövrünün barışmaz ifşaçılarına çevrildilər. Eyni zamanda onun 70-ci illərdə yeritdiyi siyasətə yetərincə sərin və hətta müxalif yanaşan şəxslər buna rəğmən özlərini daha çox ləyaqətlə apardılar.

Xalq Cəbhəsinin lideri, sabiq prezident Əbülfəz Elçibəyin* Heydər Əliyevə münasibətinin təkamülü maraqlıdır, 1992-ci ildə işıq üzü görən və o zaman Azərbaycana başçılıq edən prezidentlə müsahibə kimi qurulmuş «Deyirdim ki, bu quruluş dağılacaq» kitabında o, respublikanın sabiq partiya rəhbərinə münasibətini çox ətraflı və səmimiyyətlə açıqlayacaq.

«...Heydər Əliyevin Azərbaycanda dövlət başçısı ola bilməyəcəyini belə əsaslandırırdım ki, o güclü savad almamış (onda belə düşünürdüm), Dövlət Təhlükəsizliyi Komitəsinin məktəbini qurtarıb... Ancaq etiraf etməliyəm ki, onun savadının nə səviyyədə olduğunu o zaman düzgün bilməmişəm. Mən fikirləşmişdim ki, o, tarix fakültəsini qiyabi qurtarıb. Deyirdim ki, tarix fakültəsində ona dərs deyən müəllimlərin səksən faizi savadsızdır, onun özü də qiyabi qurtarıb – onun nə savadı ola bilər? Amma mən bilmirdim ki, Heydər Əliyev xüsusi məktəb keçib. Sonradan gördüm ki, onun çox möhkəm yaddaşı və yüksək qabiliyyəti var. Mən həbsxanaya getdim, həbsxanada da onun əleyhinə oldum, çıxandan sonra da bir-iki il... Sonralar onun bəzi çıxışlarını, bəzi manevrlərini gördüm, inandım ki, o çox idraklı adamdır, çox güclü şəxsiyyətdir... Doğrudan da, etiraf edirəm ki, Heydər Əliyevin təqribən 6-7 il əleyhinə danışdığım halda, sonradan elə olub ki, 6-7 il də onu tərifləmişəm, öz-özümə boynuma almışam ki, səhv etmişəm».[30]

Düşünürəm ki, o zaman öz populyarlığının zirvəsində olan sabiq prezidentin etirafı, çox önəmli şəhadətdir. Şəxsən məndə həmin etiraf Azərbaycanda milli-demokratik hərəkatın lideri, bəlkə də respublikada yeganə həqiqi dissident olmuş Elçibəyin birmənalı görünməyən fiquruna dərin hörmət doğurur.

O ki qaldı Rusiya dissidentliyinə, Azərbaycan yazıçılarının bu hərəkatın ünlü təmsilçilərinə münasibəti bu gün birmənalı deyil.

Vaqif Səmədoğlu deyir:

«Rusiya dissidentliyi ilə biz fəxr edirdik, onun halına yanırdıq, amma çox təəssüf ki, onun nümayəndələrinin əksəriyyəti, əslində elə də saleh adam olmadılar.

Andrey Dmitriyeviç Saxarovu götürün, mən ona böyük hörmət bəsləyirdim, pərəstiş edirdim. Amma Qarabağ münaqişəsində o özünü necə xoşagəlməz, açıq-aydın öz arvadına və madam Starovoytovaya züy tuta-tuta apardı! Yaxud Sergey Kovalyov: bu adam ömrünün 11 ilini həbsxanalarda və «psixuşka»larda keçirib. Bir dəfə Strasburqda mən onunla restorana nahar etməyə getdim. Söhbət əsnasında mənə açıq etiraf etdi: «Ermənilər bizimkilərdir, xristianlardır. İş belə gətirib də, Vaqifçik...» Odur ki, dissidentlik hələ saflıq meyarı deyil».

«Literaturnaya qazeta»da dərc olunan məqalələrinin birində Anar yazırdı: «Bizim nəslin faciəsi onda deyildi ki, biz Brejnev və digər sovet rəhbərlərindən əlimizi üzmüşdük, onda idi ki, biz Soljenitsın və Saxarovdan ümidimizi kəsmişdik. Onlar demokratiyanı yalnız Rusiya üçün istəyirdilər, amma sən həqiqi demokratsansa, hər xalqın öz inkişaf yolunu seçməyə haqqı olduğunu etiraf etməlisən».

Və öz fəaliyyətinin sonrakı dövründə Azərbaycanın partiya rəhbəri də bu barədə düşünüb-daşınır, nəinki öz fikirlərini söyləyir, həm də sovet ideoloji sistemi çərçivəsində əvvəllər mümkün olmayacaq aksiyaları keçirirdi.

* Bir sıra müəlliflər «Elçibəy» adını «Elçi bəy» kimi yazılışını israrla söyləsə də, biz mətbu ənənəyə istinad etməyi üstün tuturuq – E.A.

# DTK Əbülfəz Əliyevə qarşı

Yuxarıda biz Azərbaycanın sabiq prezidenti Əbülfəz Elçibəyin müsahibə-kitabından parçalar gətirdik. İndi isə 70-ci illərdə baş verənlərə nəzər salaraq, Əbülfəz Əliyevin universitet kafedrası əvəzinə daş karxanasında «külüng çalmalı» olduğunun səbəblərini incələməyə çalışaq.

1975-ci ildə Bakıda böyük əks-səda doğuran məhkəmə prosesi keçirildi. Bu prosesin unikallığı ondan ibarət idi ki, Stalindən sonrakı dövrdə bəlkə ilk dəfə müttəhimlər kürsüsündə adi cinayətə görə deyil, siyasi baxışlarına görə ziyalı azərbaycanlı oturmuşdu.

Azərbaycanın gələcək prezidenti Əbülfəz Əliyev (o, «Elçibəy» adıyla on beş il sonra tanınacaq) respublikada ən nüfuzlu sayılan fakültəni – ADU-nun şərqşünaslıq fakültəsini bitirmiş, bir neçə il Misirdə, Asuan bəndinin inşaatında tərcüməçi kimi işləmişdir. Vətənə qayıdıb Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində müəllimliyə dəvət olunmuşdur. Tələbələr təzə müəllimlərinə az qala səcdə qılırdılar. Onunla ünsiyyətdə olmaqdan, söhbətlərini dinləməkdən vəcdə gəlir, düşüncələrində çaxnaşma baş verir, qəlblərində azadsevərlik həvəsi qızışır, coşub-daşırdı... Tezliklə tarix fakültəsində ilk gizli tələbə dərnəyi yarandı, ideoloji ilhamçı da, təbii Xalq Cəbhəsinin gələcək lideri oldu. Tələbələr məruzələr yazır, məsləkdaşları arasında oxuyur, sonra da uzun və qızğın diskussiyalar aparırdılar. Bir müddət sonra belə dərnəklər daha bir neçə ali təhsil ocaqlarında «cücərdi». Xülasə, «mərəz» elə sürətlə yayıldı ki, iqtidar təşvişə düşdü. Bəs necə: dərnəklərdə qəti yasaqlanmış mövzularda söhbətlər gedirdi. Milli şüurun inkişafı, Şimali Azərbaycanın müstəqilliyə nail olması yolları, respublikanın SSRİ tərkibindən çıxması, Cənubi (İran) Azərbaycanda milli-azadlıq mücadiləsi... Dissidentlik edən azərbaycanlı tələbələr haqqında «çekistlər»in siqnalları Moskvanın qulağına çatdı.

Oradan əmr etdilər ki, dərnəklər dağıdılmalı, təşkilatçıları başqalarına görk olsun deyə əməlli-başlı cəzalandırılmalıdır.

Əbülfəz Əliyev hələ 1973-cü ildən göz altında idi. İzlənirdi, görüşləri, söhbətləri haqqında material yığılan qovluq qalınlaşırdı. Sonra işi Azərbaycan DTK-nın sədri general-mayor Vitali Krasilnikova çatdırdılar. Qərarı qəti idi: Əbülfəz Əliyev tutulmalıdır, lakin həbs etməkdən öncə səriştəli mütəxəssis rəyi lazım idi ki, onun hərəkətlərində cinayət tərkibi olub-olmaması müəyyənləşdirilsin. Bu suala cavab olmadan, tutarlı sübut-dəlil gətirilmədən kimsə həbs üsuluna



əl atmağa çətin ki, cürət edəydi. Hətta dövlət təhlükəsizliyi generalı – bunu çox istəsə də...

«Krasilnikov öz müavinləri ilə məsləhətləşib, bu işi mənə tapşırdı, – Əkrəm Səlimzadə söyləyir. – Asan iş deyildi, DTK-nın fəndgir sədri bunu bilirdi. Tələbə və həmkarları arasında hörmət və nüfuz qazanmış universitet müəllimi, cavan elmlər namizədinin tutulması, ziyalılar arasında söz-söhbət və hətta açıq etiraz doğura bilərdi, ona görə də Krasilnikova inandırıcı faktlar lazım idi.*

Əkrəm Səlimzadə «gürzlə zindan arasında» qalmışdı.

Əməliyyata Naxçıvanan Ordubad rayonundakı DTK nümayəndəsi cəlb olundu və onun vasitəsilə Əbülfəz Əliyevin şəcərəsi başdanbaşa yoxlanıldı. Səlimzadə xatırlayır ki, qovluğun içində çoxsaylı materiallar, o cümlədən onun öz həmkarları və tələbələrinin yazdıqları «donos»lar vardı. Məlum olmuşdu ki, Əbülfəz kasıb və çoxuşaqlı ailədəndir, atası cəbhədə həlak olmuş, anası sıravi kolxozçudur.

«Onu mühazirələr zamanı millətçilik səciyyəli təbliğat aparmaqda, SSRİ dövlət və ictimai quruluşu haqqında neqativ mülahizələr söyləməkdə, rus dilini pis bilən kəndli cavanlara qarşı rəsmi orqanların münasibətini danmaqda, Azərbaycan tarixinin saxtalaşdırılmasını sübut etməyə çalışmaqda suçlandırırdılar. Bir sözlə, o, sovet quruluşunun əsaslarına qəsd edir, partiya xəttini və siyasətini şübhə altına alırdı. Ancaq bu hələ hamısı deyil. Materiallardan görünürdü ki, Əbülfəz Əliyev «daha ağır cinayətlər törətmişdir». Məsələn, deyirmiş ki, saysız-hesabsız təbii sərvətlərə malik olan Azərbaycan xalqı kölə vəziyyətində yaşayır, onu öz müqəddəratını həll etmək hüququndan məhrum etmişlər. Kənddə vəziyyət dözülməzdir. Şəhərdə qeyri-köklü xalqların nümayəndələri yerli əhalidən yaxşı yaşayırlar. Onlar məsul vəzifələrə soxuluşub elə azğınlaşmışlar ki, hətta vətəndaşlardan azərbaycanca yazılmış ərizələri qəbul etmək istəmirlər. Beləliklə, o deyirdi, biz tezliklə öz dilimizi itirəcəyik. Yaltaqları, rüşvətxorları, şöhrətpərəstləri isə xalqın acınacaqlı vəziyyəti əsla narahat etmir...»

Əkrəm Səlimzadə vurğulayır ki, işi üç dəfə operativ şöbəyə dəqiqləşdirməyə və əlavə yoxlanılmağa göndərmişdi. Bu, operativ şöbə rəisinin narazılığına səbəb olur və onu DTK sədrinin hüzuruna çağırırlar. Kabinetdə istintaq və əməliyyat şöbələrinin müdirləri də

* Burada və ardınca Ələkbər Şəhrilinin «Dalğa» qəzetinin 5-11 yanvar 1993-cü il tarixli sayında verilən müsahibədən sitatlar gətirilir.

varmış. Onlara tapşırıq verilir: istintaq sürətləndirilməli, «millətçi» yubanmadan ifşa olunmalı və tutulmalıdır.

Əkrəm müəllim istintaq şöbəsinin müdir müavini olaraq etiraz etməyə çalışır: agenturanın informasiyası hələ hüquqi sənəd deyil, hüquqi qüvvəyə malik deyil. Universitetdə Əbülfəz Əliyevi perspektivli cavan alim kimi müsbət səciyyələndirən rəsmi xasiyyətnamə verilmişdir. Onun doktorluq dissertasiyasının mövzusu da təsdiqlənmişdir. Odur ki, həbs edilməsi istənilməz nəticələrə gətirib çıxara bilər...

Lakin artıq qərar qəbul edilmişdi: Əbülfəz Əliyevə qarşı Azərbaycan SSR Cinayət Məcəlləsinin 67-ci maddəsi üzrə cinayət işi qaldırılmalıdır. Azərbaycanın gələcək prezidentini – «millətçilik və millətlərarası nifaq təbliğinə görə» – üç il azadlıqdan məhrumiyyət gözləyirdi.

Düzdür, güzəştli variant da nəzərdə tutulurdu: Əbülfəz öz səhvlərini səmimiyyətlə boynuna alsa, öz əməllərinə son qoymağı vəd etsə, bir çox yaradıcı və elmi intelligensiya nümayəndələrinə şamil edilən «profilaktika» ilə kifayətlənmək də istisna olunmurdu.

Prokuror Əbülfəz Əliyevin evində axtarış aparılmasına göstəriş verir. Əməliyyatçılarla birgə axtarışa Səlimzadə də yollanır. Gördükləri onları şaşırdır. Əbülfəz Bakının Oktyabr rayonunda bir daxmanı kirayə tutubmuş. Köhnə çarpayı, tərəvəz qablarından, taxta-tuxtadan qondarılıb divardan asılmış kitab rəfləri. Çarpayının yanından stulların kürəkçələrindən köynək, qalstuk asılmışdır. Yatağın üstündə də idman geyimi. Mebel-filan elə bu imiş!

Üç gün sonra Əbülfəz Əliyev DTK-ya, Əkrəm Səlimzadə ilə «həsb-hala» gəlməli olur. Səlimzadə ilk təəssüratını xatırlayır:

«Çox sadə və səliqəli geyinmişdi. Üzü təmiz taraş edilmişdi. Amma... o, nə isə üzgün görünürdü. Hiss olunurdu ki, DTK-ya çağırış onu çox həyəcanlandırıb».

Əbülfəz Təhlükəsizlik Komitəsinə nə üçün çağırıldığını və evində axtarış aparılmasının səbəbini soruşur. Səlimzadə cavab verir: onlara məlumat çatdırılıb ki, Əbülfəz Əliyev antisovet təbliğat aparır, dövlət quruluşuna zidd olan fikirləri bəyan edir. Müstəntiq maraqlanır: «Axı yaxşı gələcəyi olan cavan alimə bunlar nəyə gərəkdir? Axı sizin atanız bu quruluş uğrunda həyatını qurban verib, həyatını!»

Söhbət iki saat sürür. Səlimzadə deyir ki, bu sorğu-sual deyil, məhz söhbət idi. Əbülfəz öz fikrinin üstündə dururdu: bəlkə mən



kiminsə xoşuna gəlməmişəm, onlar da sizə «donos» yazıblar. Amma mənim heç bir günahım yoxdur.

...Müstəntiq onu dilə tutmağa çalışır, inandırır ki, həbs olunsa elmi işinin, müəllimlik fəaliyyətinin, dissertasiyasının üstündən qara xətt çəkiləcək, nəhayət onu əzab-əziyyətlə boya-başa çatdırmış anasını düşünməyi, yada salmağı xahiş edir...

DTK əməkdaşına Ə.Əliyev məsələsini elə həmin gün həll etmək tapşırılmışdı. Səlimzadənin masası üstə həbs olunma qərarının layihəsi hazır idi. Lakin o, «qonağı»na bir gün də düşünüb-daşınmaq üçün möhlət verir.

Ertəsi günü düz saat 3-də Əbülfəz Səlimzadənin kabinetinə daxil olur: «Mən elm adamıyam. Elə bir iş görməmişəm ki, xalqıma ziyan vura bilsin. Neyləyirsiniz eləyin, ixtiyar sizindir».

Onu həbs edirlər, gündəlik dindirmələr başlayır. Əbülfəz heç nəyi inkar etmir, ona qarşı irəli sürülən ittihamların hamısını yazılı surətdə təsdiqləyir. Lakin Səlimzadənin sözünə görə o, antisovet, «küfr» söhbətlər apardığı tələbə və həmkarlarından heç birini «güdaza vermir».

SSRİ DTK-sının müvafiq şöbəsi bu araşdırmanın gedişatını diqqətlə izləyir, Bakıya onların adamları gəlirdi. SSRİ DTK istintaq şöbəsinin Azərbaycan üzrə kuratoru erməni Robert Uluntsev idi. O, dəfələrlə Əbülfəzin dindirmələrində iştirak etmək istəyini bildirsə də, Azərbaycan DTK işçiləri onu bu fikirdən daşındırmışlar. Onlar Əliyevin xasiyyətinə artıq bələd olduqlarından bilirdilər ki, erməni polkovnikin yanında o heç nə deməyəcək, ya bəlkə də «artıqlaması ilə döşəyəcək». Respublika DTK-sının sədri Krasilnikov hesab edirdi ki, Əbülfəzə Azərbaycan CM-nin 63-cü maddəsini – «antisovet təbliğatı və təşviqatı»nı tətbiq etmək olar. Bu ağır maddəyə görə yeddi ilədək həbs cəzası verilə bilərdi. Cəza müddəti də Rusiyada, xüsusi düşərgələrdə keçirilməli idi. Səlimzadə və onunla birgə istintaq aparan Əziz Rəsulov israr edirdilər ki, Əbülfəzi bu maddə ilə günahlandırmağa heç bir əsas yoxdur. Bundan başqa, DTK sədrinin müavini general Abbas Zamanovun yanında müşavirə keçiriləndə istintaq qrupunun üzvləri işə xitam verilməsini və Əbülfəz Əliyevin azadlığa buraxılmasını təklif etmişlər; yəni ki, «SİZO»da (xüsusi təcridxanada) qaldığı bəs edər, ələlxüsus ki, o, hər şeyi boynuna almışdır. DTK sədrinin başqa müavini – Ziya Yusifzadə də eyni fikirdə idi. Bu barədə Krasilnikova xəbər verildi. O, fikirləşib dedi: «Etiraz etmirəm, ancaq Əbülfəz Əliyevlə özüm danışmalıyam». Səlimzadə xatırlayır ki, sədrlə söhbət ərəfəsində o, Əbülfəzi nə deyə-

cəyi, necə deyəcəyi haqqında «təlimatlandırmışdır». «Axırda deyərsən ki, təqsirim var, səhv etmişəm. Elə günü sabah azad olacaqsan».

Əbülfəzi Krasilnikovun gen-bol kabinetinə aparıb içəriyə ötürən kimi o, qaş-qabağını saldı. Səlimzadə dərhal onun qırımından şəkləndi. Əbülfəzin rus dilini yaxşı bilmədiyini və hardasa «nala-mıxa vuracağını» düşünüb tərcüməçi əvəzinə vasitəçiliyini təklif etdi. Lakin Krasilnikov cavab verdi ki, Əbülfəzlə birbaşa danışacaq və onu anlamağa çalışacaq.

İlk sualı:

– Sən ruslar haqqında nə danışmısan? – oldu.

Bu sual Əbülfəz Əliyevə yer elədi. Dedi ki, rus xalqı haqqında heç vaxt pis fikir söyləməyib. Yalnız sizin kimi dəbdəbəli saraylarda əyləşən, özlərini ağa kimi aparanlar haqqında danışmışam. Xalqımın qonaqpərvərliyindən, sadəlövhlüyündən istifadə edərək siz onun sərvətlərini talan edirsiniz, üstəlik ona həqarətlə baxırsınız. Əslində siz rus xalqından da uzaqsınız. Sizinlə rus kəndlisi, rus fəhləsi arasında böyük uçurum var. Buraya da yeganə məqsədlə – Moskva siyasətini yeritmək üçün gəlmisiniz...

Sözün qısası, Azərbaycanın gələcək prezidentini çəkib apardılar. Krasilnikov Səlimzadəyə üz tutub: «İşin dayandırılması haqqında heç bir söhbət ola bilməz, – deyir. – Onu yalnız islah-əmək koloniyasında uzunmüddətli islah işləri düzəldə bilər».

Səlimzadə nəsə etiraz etməyə çalışınca, Krasilnikov «cin atına minir»: «Gedin sizə deyilənə əməl edin! İttihamnaməni hazırlayın. Və yadınızda saxlayın: mən ona 63-cü maddəni sırıyardım!»

Axır-axırda cinayət işi iki maddə üzrə – 188-ci (sovet dövləti və ictimai quruluşunu ləkələyən uydurmalara görə) və 67-ci (milli nifaq qızışdırılmasına görə) maddələr üzrə məhkəməyə verilmişdi.

Azərbaycan Ali Məhkəməsində keçirilən açıq məhkəmə prosesinə komsomol fəalları, tələbə və müəllimlər dəvət olunmuşdu. Əbülfəz özünü sakit aparır, üsyankar nitqlər söyləmir və bütün suallara «mən günahkaram» cavabını verirdi. Səlimzadə onun qəribə «üzüyolalığına» hətta təəccüblənmişdi. Prokuror müttəhimə üç il cəza müddəti istədi, elə də oldu. Onu Qaradağ əmək-islah düşərgəsinə yolladılar.

Ə.Səlimzadə xatırlayır ki, 1992-ci ildə Ə.Elçibəy prezidentliyə keçəndən sonra vaxtilə məsələsini araşdırmış müstəntiqi tapıb Prezident Sarayına dəvət etməyi tapşırır. Nəhayət, Səlimzadəni Saraya gətirirlər. Elçibəy onu mehribanlıqla qarşılayıb qucaqlayır, üzündən öpür, uzaq 1975-ci ildə onunla insani rəftar etdiyinə görə təşəkkür



edir. Və həyanlıqla soruşur: «Harada işləmək istərdiniz?». Səlimzadə ölkə başçısının yardımından imtina edir.

Azərbaycanın gələcək prezidentinin tutulması və cəzaya məhkum edilməsi ilə bağlı bu əhvalatda müşahidəçilər üçün müəmmalı məqamlar qalırdı. Nədən iş üzrə yalnız Əbülfəz Əliyev cəzalandırılmış, dərnəklərin başqa üzvləri məhkəmə təqibindən, ali məktəblərdən xaric olunmaqdan yayına bilmişlər? Elə Əbülfəz Əliyev özü də az müddətdən sonra elmi fəaliyyətə qayıda bilmişdir...

Üç ildən yalnız bir ildən azca artıq müddəti dustaqlıqda keçirərək, o, kommunist rejiminə qarşı mübariz kimi azadlığa çıxmışdır. Və 80-ci illərin axırlarında bir qrup ziyalı Baltikyanı respublikalarda olduğu kimi Azərbaycanda Xalq Cəbhəsi yaratmaq fikrinə gəldiyi dönəmdə bu əfsanəvi imic yaxşıca karına gəldi.

Ə.Səlimzadə 70-ci ildə baş vermiş, daha bir «antisovetçi»nin tutulması ilə bağlı əhvalatı yada saldı. Dənizçilərin xəstəxanasında Ayrapetov soyadlı bir nəfər diş həkimi vəzifəsində işləyirmiş. O, sovet hakimiyyətinə qarşı yamanca köklənmiş, həmkarlarıyla söhbətlərdə sovet quruluşunu və baş katibdən tutmuş bütün rəhbərləri amansızca söyürmüş. Həmkarlarından kimsə onu DTK-ya «çuğullayır». Axtarış zamanı Ayrapetovun evindən tapılan antisovet sənədlər və çağırışlar işə qatılır. Onu həbs edirlər. Hər bir həbsetmə halı haqqında respublika orqanları SSRİ DTK-sının istintaq şöbəsinə xəbər verməli, tutulanların anket göstəricilərini və həbs səbəblərinin xülasəsini göndərməli idilər.

Erməni soydaşının tutulmasını bilən ittifaq DTK-sının istintaq şöbəsinin məsul işçisi Robert Uluntsev Moskvadan təyyarə ilə Bakıya gəlir, aydındır ki, «özünüqkü»nü cəncəldən qurtarmaq niyyətilə. O, Səlimzadəyə tutulmuş şəxsin dindirilməsində iştirak etmək niyyətini bildirir.

Ayrapetovu gətirirlər (onun adı Əkrəm müəllimin yadından çıxıb).

Cavan deyildi, yaşı qırxı ötmüş olardı. Qaraqabaq, sanki bütün aləmə qarşı kin saxlayan adam idi.

– Sizi bu yolu tutmağa vadar edən nədir? – Səlimzadə soruşur.

Ayrapetov qısnanmış qurd kimi gözlərini ağardıb dil açır:

– Hayıf ki, əlimdə avtomatım yoxdu, yoxsa sizin Əliyevi də, Siyasi Büronun bütün üzvlərini də qırardım! Hamısını divara dirəyər-

dim! Nifrət eləyirəm! Sizin hakimiyyətə, quruluşunuza, bütün Sovet İttifaqına!

Ə.Səlimzadə söyləyir:

«Mənim praktikamda bu, demək olar ki, belə açıq-saçıq antisovetizm halı ilk dəfə baş verirdi. Ayrapetovu heç bir vəchlə fikrindən daşındırmaq olmurdu. Mən nə qədər onunla əlləşdim! Amma kinküdurət içindən elə bil püskürürdü. Biz baş açа bilmirdik, nədən: tək yaşayırdı, maddi baxımdan təminatı pis deyildi, idarə xəstəxanasında stomatoloq kimi çalışırdı. Bəlkə şəxsi həyatı baş tutmamış, bəlkə kimsə yamanca xətrinə dəymişdi. Hərçənd psixi cəhətdən tamamilə sağlam adam idi.

...Dinləmə zamanı Uluntsevə ötəri nəzər yetirdim. Gördüm pörtüb, başını da aşağı salıb. Dinləməni bitirdim, tutulanı apardılar. Biz Uluntsevlə DTK rəhbərliyinin hüzuruna yollandıq. Yolda o mənə üz tutdu: «Bu ki, qatı antisovetçidir, düşməndir. O tam ciddiyyətlə mühakimə edilməlidir».

İstintaq qurtarandan sonra iş Azərbaycanın Ali Məhkəməsinə verildi. O, məhkəmədə də demədi ki, peşmandı. Onu 63-cü maddə ilə məhkum etdilər və cəza müddətini respublikadan kənarda çəkməyə yolladılar. Ayrapetovun sonrakı aqibətindən heç nə məlum deyil».

Yuxarıda söylənən əhvalatlar 70-ci ildə, güman ki, respublikada «siyasi» maddələrlə qaldırılmış və məhkəmə yoluna yönəldilmiş iki nadir iş idi.

Əlbəttə, bu günün mövqeyində Əbülfəz Əliyevə və zavallı stomatoloqa qarşı məhkəmə qərarları həddən artıq sərt görünə bilər. Lakin o dövrün reallıqlarını və mərkəzi orqanların daimi təzyiqi nəzərə alınmalıdır. Bu kitabın əvvəlki hissəsində Azərbaycan çekistlərini onsuz da ifrat liberallıqda, gurultulu əyani proseslərin keçirilməməsinə görə və s. günahlandırırdılar. Ona görə Əbülfəz Əliyevin və Ayrapetovun tutulması ilə bağlı əhvalatlarda heç bir qeyri-adi şey yoxdur. Qeyri-adi odur ki, milli-demokratik hərəkatın gələcək lideri dustaqxanadan çıxandan sonra Əlyazmalar Fonduna (sonralar Elmlər Akademiyasının Əlyazmalar İnstitutu) işə qəbul olunacaq, elmi tədqiqatla məşğul olmaq üçün ona imkan veriləcək. Bu doğrudan da, sovet dövrü ölçülərinə görə qeyri-adi hal idi, axı Rusiyadakı dissidentlər cəza müddətini bitirəndən sonra əksər hallarda xaricə üz tutmalı olur, yaxud sevdikləri peşə sayəsində dolanmaq imkanı olmadığından dilənçi vəziyyətində qalırdılar. Aydın məsələdir ki, o zaman məhz respublika Mərkəzi Komitəsinin birinci katibi Moskvanı siyasi



repressiya dəyirmanını gur-gur fırlatmadan «az qanla» kifayətlənməyə inandıra bilmişdir.

Yuxarıda Azərbaycanın partiya rəhbərini daha yaxşı tanıyıb ona dərin hörmət bəsləmiş və bu hörməti ömrü boyu yaşatmış Əbülfəz Elçibəyin müsahibəsindən sətirləri diqqətinizə çatdırdıq. Elçibəyin məsləkdaşları söyləyirdi ki, onun otağında daima iki şəxsiyyətin – Mustafa Kamal Atatürkün və Heydər Əliyevin divardan asılı portretləri nəzəri cəlb edirdi.

## «Biz yaradıcı ziyalıların fəaliyyətini məhdudlaşdırmırdıq»

Bu sözlər kitabımızın qəhrəmanına məxsusdur. Yuxarıda istinad etdiyimiz A.Karaulovla müsahibəsində Heydər Əliyev xatırlayırdı: «Yazıçılar, rəssamlar, bəstəkarlar bir-birindən kəskin fərqlənir, forma və janrları sərbəst seçirdilər. Biz heç vaxt bu işlərə qarışmırdıq».

Sənətkarlarla orta səviyyəli partiya məmurları arasında ayrı-ayrı münaqişəli hallar istisna edilsə, Heydər Əliyevin sözləri onun şəxsi yanaşmasının ruhunu əks edir və tam etimad doğurur. Əlbəttə, o, zövqünün yönümünə görə, özü etiraf etdiyi kimi sənətə baxışında ənənəçilər tərəfində idi, məsələn, realistik rəngkarlığı bəyənirdi, cavan fırça sahiblərinin avanqard səpgidə axtarışlarına isə, görünür, skeptik yanaşırdı. «Görünür» kəlməsini ona görə işlədirəm ki, o, heç vaxt hansısa rəssamlıq əsəri haqqında, hətta əsla xoşu gəlməsə də, tənqidi fikrini bəyan etməyi rəva bilmirdi.

Tahir Salahov söyləyir ki, sərgilərə gələrkən MK birinci katibi ən pis halda bəyənmədiyi əsərin yanından ötərdi, ayaq saxlamazdı. Ancaq hamının qarşısında bu və ya digər rəssamın fərdi üslubunu, manerasını qəbul etmədiyini bildirməsi... belə hal heç vaxt olmamışdı. Bunu mənimlə söhbətində heykəltəraş, akademik Ömər Eldarov da təsdiqləyirdi:

«70-80-ci illərdə çox şeylər layihələşdirilir, tikilirdi. Heydər Əliyeviç ona təqdim edilən hər bir layihəni diqqətlə nəzərdən keçirər, fərdi və respublika sərgilərinə gələrdi. Fərdilərin hamısına yox, amma respublika əhatəli sərgilərə – mütləq. SSRİ üzrə hər il respublikalarda keçirilən sərgilərdə əsərlər seçilir, alınır, Ümumittifaq sərgiyə göndərilirdi. Və Moskvaya göndərilməzdən Heydər Əliyeviç mütləq onlara baxırdı. Elə şəkillər, heykəllər olurdu ki, xoşuna gəlməzdi, amma bu barədə heç vaxt danışmazdı. Hərdən məzmunla

bağlı öz qeydini deyə bilərdi. Sərgilər, hər halda partiya siyasətilə bağlı tədbirlər idi. Səmtkarlıq məsələlərinə Heydər Əliyeviç yalnız əsəri bəyəndiyi hallarda toxunardı.

O, partiya təşkilatının rəhbəri olaraq ideoloji, məzmun səciyyəli məsələlər üzrə qeydlərini bildirsə də, onlar hökm kimi deyilmirdi. Mən rəssamlara qarşı heç bir «sıxma-boğma» xatırlamıram. Bundan əlavə deyim: bütün cavanlarımız orta və yaşlı nəsildən olan yazıçılar, rəssamlar, bəstəkarlarla yanaşı «əməkdar» adlarını, nüfuzlu ədəbi mükafatlar alır, onlara növbədənkənar mənzil, maşın ayrılıb verilirdi...»

Azad Şərif söyləyir ki, onunla ilk söhbətində Heydər Əliyev MK mədəniyyət şöbəsi qarşısında başlıca vəzifə kimi sənət meydanında görünməyə başlayan və sanballı sənətkarların «dabanlarını basan» istedadlı gənclərin boy atmasını dəstəkləməyini tapşırmışdı.

Bu barədə Mövlud Süleymanlı da xatirələrini bölüşdürür:

«1976-cı ildə Azərbaycan yazıçılarının VI qurultayı keçirilirdi; Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev şəxsən təşrif buyurmuşdu. Bu mənim və gənc qələm yoldaşlarımın iştirak etdiyi ilk qurultay idi.

Öz çıxışı zamanı Heydər Əliyev, Süleyman Rüstəm və Azərbaycan ədəbiyyatının digər ağsaqqalları əyləşdiyi rəyasət heyətinə üz tutub soruşdu:

– Süleyman müəllim, mən hələ orta məktəbdə təhsil alarkən dərsliklərdə şeirlərinizi oxuyurdum. O vaxtdan yarım əsr keçib, dərsliklərdə isə yenə sizin şeirlərinizdi. Bu çox yaxşıdır. Bəs bu yarım əsr ərzində məgər bircə nəfər də cavan şair çıxmayıb? Bəs cavanlar hanı?!

İndiyədək «birinci»nin bu sözlərini qarşılayan gurultulu alqışlar qulağımda səslənir».

Qurultaydan iki il öncə Azərbaycan Yazıçılar İttifaqının rəhbərliyi təzələndi, Mirzə İbrahimovun əvəzinə birinci katib İmran Qasımov oldu. Azərbaycanın görkəmli söz ustası, xalq yazıçısı Mirzə İbrahimov respublika yazıçılar təşkilatına 1965-ci ildən başçılıq etmişdi. Bütün danılmaz müsbət cəhətləri ilə yanaşı, Mirzə müəllim Stalin dövründə yetkinləşmiş və formalaşmış şəxsiyyət idi. O, daha çox yazıçıların konservativ hissəsinə rəğbət bəsləyir, loyal və ənənəvi baxımdan uzaqlaşan yeniliklərə ehtiyatla yanaşır, o zamanlar cavanların püxtələşməsi, yeni ədəbi nəslin «ayaq tutması»nda da, əsərlərinin dəyərləndirilməsində də əsasən rəsmi ideoloji tələblərlə «ayaqlaşmağı» rəva bilirdi. Nəticədə 70-ci illərin əvvəllərində Yazıçılar



İttifaqında qeyri-sağlam ab-hava duyulur, «yuxarı»lara şikayətlər baş alıb gedirdi. Paradoksal olsa da, həqiqətdir: bu «atalar və oğullar» qarşıdurmasında MK birinci katibi «ədəbiyyat generalları»nın tərəfini tutmayıb yeniləşmə arzulayanların mövqeyini dəstəklədi.

Elçin 1975-ci ildə Yazıçılar Birliyinin katibi seçilməyini xatırlayır. Yəqin ki, o, respublika Yazıçılar Birliyinin tarixində ən cavan katib olmuşdur. O vaxt 31 yaşı var idi.

«İmran müəllim Yazıçılar İttifaqının katibi olanda mənə katib vəzifəsini təklif etdi, – Elçin söyləyir. – O vaxt məni çox çap edirdilər, o cümlədən Moskvada da. 1972-ci ildə mən «Drujba narodov» jurnalının «Ən yaxşı ədəbi-tənqidi məqaləyə görə» mükafatını almışdım. İmran müəllimdə yeniliyə meyillilik var idi, o, konservativ əyalətçilikdən yaxa qurtarmaq, rəhbərlik üslubunu dəyişmək, Yazıçılar İttifaqına yeni ab-hava gətirmək istəyirdi.

Əlbəttə, bu, Heydər Əliyevin təyinatı idi; sovet dövründə yaradıcı təşkilatların birinci katibləri məhz təyin olunurdular, – indi niyə gizlədək. Və mən düşünürəm ki, Heydər Əliyev onu təyin edərkən cavanların irəli sürülməsini, o cümlədən Yazıçılar Birliyi rəhbərliyinə cəlb edilməsini məsləhət görüb».

Mirzə İbrahimova gəldikdə, Yazıçılar Birliyinin rəhbərliyinin dəyişdirilməsi zahirən «hamar» keçsə də, ağsaqqal yazıçının bütün istəklərinə əməl edilsə də, Heydər Əliyev bu əhvalatın istər-istəməz doğurduğu ağrı-acını, bəlkə də Mirzə müəllimin özündən az duymamışdır... Az sonra o, sovet nümayəndə heyətinin başçısı olaraq Rumıniyaya rəsmi səfərə yollanarkən Mirzə İbrahimovu da dəvət etmiş, yazıçı razılıq vermiş və qayıdandan sonra səfər haqqında təəssüratını qələmə almışdır. «Beləliklə, onunla Mərkəzi Komitənin birinci katibi arasında «status-kvo», Heydər Əliyevin ona diqqətcil münasibəti və Mirzə İbrahimovun tolerantlığı sayəsində bərpa olundu», – bu əhvalatı xatırlayan Azad Şərif söyləyir.

Lakin qayğıkeş birinci katib Mirzə İbrahimov əvvəlki vəzifəsindən daha miqyaslı, nüfuzlu vəzifəyə sahib olmayınca rahatlıq tapmadı. Azad Şərifi dinləyək:

«O illərdə ölkədə çox nüfuzlu bir təşkilat – Asiya və Afrika Ölkələri ilə Sovet Həmrəylik Komitəsi mövcud idi və bu quruma nədənsə dalbadal Tacikistan təmsilçiləri – əvvəl Babacan Qafurov, onun vəfatından sonra Mirzo Tursunzadə – başçılıq etmişdilər. Günlərin bir günündə, 1977-ci il idi, Heydər Əliyeviç beynəlxalq əlaqələr şöbəsinin müdiri Ənvər Cəbrayılovu və məni yanına çağırıb dedi:

– Kim bu ənənəni qoymuşdur ki, Asiya və Afrika Ölkələrilə Həmrəylik Komitəsinə həmişə Tacikistan nümayəndələri başçılıq etməlidir? İndi orada yer boşdur. Biz çalışmalıyıq ki, bu vəzifədə Azərbaycan yazıçısı çalışsın – məsələn, Mirzə İbrahimov, nüfuzlu ədib, ictimai xadimdir. Odur ki, ikiniz də Moskvaya uçun. Ənvər, sən Sov.İKP Mərkəzi Komitəsinin beynəlxalq şöbəsilə iş gör. Azad isə Aleksandr Dzasoxovun məsul katib işlədiyi komiteni öhdəsinə götürsün, komsomolda onunla çox əməkdaşlıq etmisən (mənə üz tutdu). Sonra SSRİ Yazıçılar İttifaqında Georgi Markova və Yuri Verçenkoya baş çək; Azərbaycanda sovet ədəbiyyatı günləri keçirilməndən bəri onlarla dostlaşmışıq. Onların dəstəyilə zamin olunmalıyıq. Və nəhayət, Sov.İKP MK mədəniyyət şöbəsilə söhbət aparılmalıdır, düşünürəm ki, orada da təklifimizə müsbət yanaşacaqlar. Mirzəni onlar yaxşı tanıyırlar».

Xülasə, bizim «elçilər» Moskvada uğurla çalışdılar, bərk ayaqla «ağır artilleriya»nın köməyindən də, yəni Heydər Əliyevin «Staraya ploşşad»dakı partiya məmurlarına zənglərindən də faydalandılar. Heydər Əliyev bununla bağlı hətta ideoloji cəbhənin «boz kardinal»ı Suslovla da danışmalı oldu. Bir həftə sonra Asiya və Afrika ölkələrilə Sovet Həmrəylik Komitəsinin növbədənkənar konfransı keçirildi və Mirzə İbrahimov yekdilliklə Komitənin sədri seçildi.

«Aleksandr Dzasoxovun sözlərinə görə, bir neçə aydan sonra bu təşkilatın minvalı tamam dəyişdi, – Mirzə İbrahimovun dövlətçilik təcrübəsi özünü büruzə verdi (müharibə illərində o respublikanın maarif naziri, 50-ci illərin ortalarında isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur – *E.A.*). Asiya və Afrika ölkələrilə yeni təmaslar və işgüzar əlaqələr yaradıldı, köhnə dostlarla ilgilər bərpa edildi. Nümayəndə heyətlərinin qarşılıqlı mübadiləsi qat-qat artdı, sanballı konfrans və simpoziumların keçirilməsi ənənəvi hala çevrildi...»[31].

*Bütün bunları qulaqucu eşitdiklərimdən deyil, şəxsi təəssüratlarımdan bilirəm. 1979-cu ildən etibarən mən Yazıçılar İttifaqında məsləhətçi, 80-ci illərin əvvəllərindən isə Mirzə İbrahimovun bu təşkilatın rəhbərliyinə qayıdışından sonra (1981-ci ildə ağır xəstəliyin uçbatından, əfsuslar olsun, İmran Qasımov dünyasını dəyişdi) Mirzə müəllimin köməkçisi vəzifəsində çalışmaq mənə müyəssər olmuş və on il işbirliyimiz davam edib.*

*Bu görkəmli yazıçının və qeyri-adi, dünyagörmüş insanın dəyərli məziyyətləri ayrıca söhbətin mövzusudur.*



**Əkrəm Əylisli ilə söhbətdən:**

«Bir dəfə mənə Mərkəzi Komitənin mədəniyyət şöbəsindən zəng çalıb xəbər verdilər: Heydər Əliyeviç maraqlanır ki, niyə «Azərbaycan» jurnalından bu qədər şikayətlər gəlir? Mən Heydər Əliyevə yazılı cavab göndərdim. Arayış verdim: təsəvvür edin ki, Azərbaycanda 400 nəfər ittifaqın üzvü var, onlardan 80-ni, yəni 20 faizini az-çox müntəzəm çap edirəm. Qalan 320 nəfər, təbii ki, baş redaktordan narazı qala bilərlər. Mən işimə vicdanla yanaşsam da, 80 faiz düşmən qazanmağa məhkumam.

Və daha bir arayış: «Azərbaycan» jurnalında «püsküklü» yazıların guya çox çap olunması ilə bağlı yaradılmış rəyə gəldikdə, mən qalmaqal qoparan qeyri-adi əsərlərin neçəsi və hansı saylarda çıxdığını faizlərlə göstərdim. Belə çıxır ki, həmin əsərlər ümumən dərc olunmuşların cüzi bir qismini – 2-dən 5-10 faizədək təşkil edirdi. Qalanların hamısı sosialist realizminin ideoloji tələblərinə tam uyğun gələn əsərlərdi. Və sual verirdim ki, belə təqdirdə, bu cüzi nisbətdə də bizim eksperimentlərə yol verməyə haqqımız yoxdurmu?.. Zənnimcə, bu rəqəmlərin, dəlillərin təsiri oldu və Heydər Əliyevi arayışım tamamilə qane etdi. Daha mənə suallar olmadı».

Azərbaycan Yazıçılar İttifaqının 1971-ci ildə keçirilən V qurultayından etibarən Heydər Əliyev yazıçıların bütün belə forumlarında iştirak etmiş, apaydın, dupduru Azərbaycan dilində geniş çıxışlar etmiş, nitqlər söyləmişdi. Ertəsi günü köşklərdə qəzet tapmaq o qədər də asan deyildi, Mərkəzi Komitənin birinci katibinin çıxışları, məruzələri əldən-ələ gəzirdi. VI qurultayda ətraflı məruzə ilə çıxış edən Heydər Əliyevlə söz ustalarının səmimi ünsiyyəti, böyük Füzulinin nəşini uzaq Kərbələdan Azərbaycana gətirilib tarixi vətən torpağına tapşırılması təklifi ilə bağlı hərarətli fikir mübadiləsi bir çox yazıçıların yaxşı yadındadır. MK-nın birinci katibi qurultay iştirakçılarına üz tutub dedi:

– Siz istəyirsiniz bu məsələni mən qaldırım. Ancaq bilin ki, elə şeylər var ki, mənə qədər həll olunmalıdır. Siz öz tərəfinizdən bu istəyinizi, arzunuzu bildirsəniz daha yaxşı olar. Çünki mən bunu etsəm, hallandıracaqlar, mənalandıracaqlar, ona başqa rəng verənlər olacaq...

Sonralar jurnalist Elmira Əhmədova ilə müsahibəsində Əliyev bu cəhdləri belə xatırlayırdı:

«...Məlumat aldım ki, İraq hökumətinin nümayəndələri Kərbəlada Füzulinin dəfn olunduğu qəbiristanlığı söküb rekonstruksiya etmək məqsədilə qəbri söküb, şairin sümüklərini yığıb başqa yerdə saxlayırlar.* Bu məni dəhşətə gətirdi. SSRİ Xarici İşlər Nazirliyi vasitəsilə bu məsələni qaldırdıq. Məktublar göndərdik. Bir nəticə hasil olmadı. S.Rüstəmi, R.Rzanı, M.İbrahimovu, N.Xəzrini və başqalarını çağırıb bu işə cəlb etdim. Heyf ki, lazımi dərəcədə hərəkətə gəlmədilər. O vaxt bizdə təzəcə İraq konsulluğu açılmışdı. Həmin dövrlərdə İran-İraq müharibəsi başlandı, münasibətlərimiz kəskinləşdi. Bizə dedilər ki, bu məsələni dövlət səviyyəsində qoymağımız çox çətindir. İraq prezidenti Həsən Əl Bəkrə məktublar yazdıq. Çox cəhd elədik, ancaq Füzulini Azərbaycana gətirməyə nail ola bilmədik. Belə güman edirəm ki, əgər bizim ziyalılarımız, onların görkəmli nümayəndələri daha fəal iştirak etsəydilər, istədiyimizə nail ola bilərdik»[32].

Bu təəssüf doğuran əhvalatla yanaşı, Heydər Əliyev haqlı olaraq iftixar hissilə demək olar ki, ağlasığmaz bir niyyəti uğurla həyata keçirdiyini xatırlayırdı – uzaq Sibirdə, sürgündə ömrü çürüdülmüş, repressiya qurbanı olmuş görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin adı da bilinməyən məzarının tapılması, nəşinin ana vətənə qaytarılması, doğma yurdu Naxçıvanda torpağa tapşırılması məhz Heydər Əliyevin səyləri, təəssübkeşliyi, əzmkarlığı nəticəsində mümkün olmuşdur. Bu kitabın ilk fəsillərində biz Əliyevin hələ uşaqlıqdan yaradıcılığına bələd olduğu böyük yurddaşına xüsusi, həssas münasibətindən bəhs etmişdik. Repressiyaya məruz qalmış sənətkara 70-ci illərdə münasibət dəyişməyə başlasa da, pyesləri teatr səhnəsində yenidən canlansa da, hələ də rəsmi ab-havada onun pak adını «millətçi», «pantürkist» kimi damğalayıb qaralayanlar vardı.

«...Odur ki, belə qərara gəlmək mənim üçün o qədər də asan deyildi. Cavidin qəbrini tapdıq. Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri Xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, H.Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin, hansı təklif düz olub! Fəxri Xiyabanda yan-yana yatan dahilər çoxdur. Lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha

* 1994-cü ilin 1 avqustunda Füzulinin 500 illiyinin keçirilməsi üzrə Dövlət Komissiyasının iclasında Heydər Əliyev böyük şairin nəşinin köçürülməsinin səbəblərini bir qədər fərqli açıqlamışdı: «Kərbəla şəhəri inkişafının baş planına uyğun olaraq Füzuli dəfn olunmuş qəbiristandan keçən yeni yol salınırdı. Ona görə şairin sümüklərini yığıb hansısa məsciddə yerləşdirmişdilər».



çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun ev-muzeyini açmışdıq»[33].

Yeri gəlmişkən, böyük Azərbaycan ədibinin xatirəsinin əbədiləşdirilməsinə xidmət edən bu nəcib əməlindən Heydər Əliyevin opponentləri onunla siyasi «haqq-hesablarını çürütmək» üçün istifadə etmişdilər. Elçin söyləyirdi ki, 1982-ci ildə Moskvaya yeni vəzifəylə bağlı yola düşməzdən əvvəl yazıçılarla görüşündə Heydər Əliyev Hüseyn Cavidin nəşinin vətənə gətirilməsini xatırlayaraq deyirmiş: «Siz bilsəydiniz ki, bu ideyanın nə qədər əleyhdarları vardı, mənə qarşı o vaxt nə qədər «anonimka»lar yazılmışdı! Hətta Brejnev də məni bir dəfə qınamışdı: «Bax, sən öz xalqın üçün çalışırsan, məşhur yazıçının nəşini vətənə gətizdirmək istəyirsən, sənin öz azərbaycanlıların isə bizə «anonimka»lar yağdırır, sənin hərəkətlərini «antisovet» adlandırırlar».

Ramiz Mehdiyev «Vətəndaş, şəxsiyyət, lider» adlı kitabında yazır:

«Bu addım nəinki xalqımızın mədəniyyət salnaməsinə, həm də sovet zamanında mümkün olmayan hadisələr sırasına daxil oldu. Təsadüfi deyil ki, geniş qaynaqlara istinad edən bir çox xarici müəlliflərin kitablarında bu fakt çox müfəssəl şərh edilir. Bu fakt, o cümlədən, Azərbaycanın müstəqilliyə doğru yönəlməsinin başlanğıcı kimi yozulur»[34]

*Sevimli və nakam taleli şairin məzarı üzərində möhtəşəm məqbərə ucaltmaq niyyətini Heydər Əliyev ikinci dəfə iqtidara gəldiyi dövrdə – 90-cı illərin ortalarında həyata keçirə biləcək. Böyük sənətkarın qızı Turan Cavidlə və yaradıcı ziyalıların çoxsaylı «desant»ı ilə o doğma şəhərinə gələcək, Şərq memarlığının ən yaxşı ənənələri üslubunda yaradılmış əzəmətli abidənin təntənəli açılışında iştirak edəcək. Və Cavidin son mənzili, mübarək türbəsi həmişəlik qədim şəhərin müqəddəs yadigarına, qədirbilən xalqın ziyarətgahına çevriləcək. Tarix öz ədalətli hökmünü vermişdir.*

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində olduğu dövrdə Heydər Əliyev digər görkəmli ədəbiyyat və mədəniyyət xadimlərimizin də xatirəsinin əbədiləşdirilməsinə çox diqqət yetirirdi. O, tam haqlı olaraq hesab edirdi ki, belə binagüzarlıq milli şüurun inkişafına, öz tariximizə, mədəniyyətimizə qarşı marağın canlanmasına, xalqın mənəvi özünütəsdiqinə

təkan verir. O, Elmira Əhmədova ilə müsahibəsində xatırlayırdı ki, bir sıra ev-muzeylərin yaradılması məişət səciyyəli problemlərlə əngəllənirdi:

«...S.Vurğun 1956-cı ildə vəfat etmişdir, ancaq ev-muzeyini 1975-ci ildə açdıq. Bəs bu uzun dövr ərzində belə bir dühanın ev muzeyini açmaq mümkün deyildimi? Əlbəttə, Azərbaycan, Bakı üçün bu adi bir şey idi. Sadəcə olaraq, düşünən yox idi. Ancaq biz bunu etdik. Şairin ailəsi ilə, həyat yoldaşı Xavər xanımla danışdıq, ailə üzvlərini yaxşı yaşayış evləri ilə təmin etdik. Azərbaycanda SSRİ ədəbiyyatı günlərində biz həmin muzeyi açdıq. Lenti Nikolay Tixonov və Süleyman Rüstəm kəsdi...»

Bir qədər sonra Cəfər Cabbarlının, Üzeyir Hacıbəyovun, Bülbülün ev muzeyləri açılmış, Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Müslüm Maqomayevin ev muzeylərinin yaradılması haqqında qərarlar qəbul edilmişdir. Yeri gəlmişkən, Heydər Əliyev Moskvaya gedəndən sonra bu qərarları «qəribliyə salmışlar» və Azərbaycan mədəniyyətinin görkəmli xadimlərinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı işlər yalnız onun doğma respublikaya qayıdışından sonra davam etdirilmişdir.

**Fəttah Heydərovun xatirələrindən:**

«Heydər Əliyevin təşəbbüsüylə Məmməd Səid Ordubadinin yüzillik yubileyinin keçirilməsi haqqında qərar qəbul edilmişdi. Və bu yubiley keçirildi. 1972-ci ildə, mən rayon partiya komitəsinin ikinci katibi olduğum zaman biz Ordubadda yazıçının ev muzeyini açdıq. Hərçənd buna heç də dərhal nail ola bilmədik. İş ondaydı ki, həmin evdə Ordubadinin qohumları yaşayırdılar. Onları küçəyə atmayacaqsan ki? Heydər Əliyev muzey üçün yer olsun deyə, torpaq sahəsi ayrılması, yazıçının qohum-əqrabası üçün təzə ev inşa edilməsi ilə bağlı göstəriş verdi. Amma bəzi adamlar sahə ayrılmasını süründürdülər. Buna baxmayaraq, torpaq verilməsinə və yeni evin tikilməsinə nail oldum. Nəhayət, Ordubadinin ev-muzeyi açıldı. Yeri gəlmişkən, əla muzey yaradıldı.

Ruhlanaraq, 1975-ci ildə mən görkəmli kimyaçı-alim Yusif Məmmədəliyevin ev muzeyi məsələsilə məşğul oldum. Ordubadda onun anadan olduğu ev vaxtilə uşaq bağçasına verilmiş, sonra həmin bağça yeni binaya köçmüş, yerində kənar adamlar məskunlaşmışlar. Mən kommunal təsərrüfatı idarəsinə binanı təmir etməyi tapşırdım. Alimin qızı Sevda Məmmədəliyeva ilə görüşüb eksponatlarla bağlı yardım göstərməsini xahiş etdim. O vaxt mən Bakı Ali Partiya Məktəbində qiyabi təhsil alırdım, məşğələlərdən sonra isə elmi-tədqiqat institutları və neft-kimya müəssisələrinə yollanıb Yusif Məmmədəliyevin tələbələrini və yetirmələrini axtarırdım. Bu soraqlaşmalar və təmaslar sayəsində bir çox eksponatlar – sənədlər, alimin şəxsi əşyaları və s. toplaya bildim. Bir sözlə, ictimai əsaslarla muzey praktiki olaraq yaranmışdı. Qalırdı rəsmi açılışını qərarlaşdırmaq.



Elə bu vaxt Mərkəzi Komitənin elm və təhsil müəssisələri şöbəsinin müdiri, çox ziyalı insan, dostum olan Fikrət Əhmədov mənə zəng vurdu. Vaxtilə Naxçıvanda belə bir muzey açmaq niyyətimizi ona söyləsəm də, o, elə bir ruh yüksəkliyi göstərməmişdi.

– Fəttah, sən mənə demişdin ki, Məmmədəliyevin ev-muzeyini açmaq istəyirsən. Bəs necə oldu, bir şey edə bildinmi? İndicə məni Heydər Əliyeviç çağırıb danladı: «Yusif Məmmədəliyevin yubileyi yaxınlaşır. Bunun üçün nə edirsiniz? Nələri nəzərdə tutmusunuz?» Əzizim, dadıma çat. Bu yubileylə bağlı hansı təkliflərin var?

– Muzey hazırdı, – dedim. – Odur ki, tədbirlər siyahısına Məmmədəliyevin ev-muzeyinin açılışını yaza bilərsiniz.

Bakıda olarkən, mən Məmmədəliyevin büstünü sifariş etmişdim. Heykəl üzərində Azərbaycan xalq rəssamı Cəlal Qaryağdı işləyirdi, amma iş uzanırdı.

Fikrətə dedim:

– Büst üzərində iş gedir, xahiş edirəm, onu sürətləndirin. Və daha bir təklif: Naxçıvanda Pedaqoji İnstitutun filialı açılmışdır, mümkündürsə ona Yusif Məmmədəliyevin adını verin. Bundan başqa, biz burada, şəhəryanı torpaqlar hesabına sovxoz təşkil etmişik, ona da Məmmədəliyevin adını vermək olar.

O, təkliflərimin hamısını qeydə aldı, iki gündən sonra isə telefonla zəng çalıb, təşəkkürünü bildirdi. Dedi ki, hər şeyi Heydər Əliyevə çatdırıb, o da bütün tədbirləri bəyənib.

Sözüm ondadır ki, Heydər Əliyev bizi, yuxarıdan göstəriş gözləmədən təşəbbüs göstərməyə öyrətmişdi.

Sonra onun təkidilə bütün rayonlarda tarix-diyarşünaslıq muzeyləri yaradılması haqqında Mərkəzi Komitə qərar qəbul etmişdi. Bu çox vacib addım idi. Axı bizlərdə, yeni rayon və şəhərlərlə yanaşı, Şəki, Beyləqan, Gəncə, Qəbələ, Naxçıvan, Ordubad kimi çox qədim şəhərlərimiz var. Onların tarixi minilliklərlə ölçülür! Bu şəhərlərdə tarix-diyarşünaslıq muzeylərinin yaradılması həm də yeni iş yerlərinin açılmasına, tarixi önəm daşıyan çoxsaylı eksponatların muzeylərdə cəmləşməsinə xidmət edirdi. Diyarşünaslıq muzeyləri haqqında qərar bu sahədə məqsədyönlü iş aparılmasına güclü təkan verdi. Və

bugün onlarda arxeoloqların qiyməti ölçülməz tapıntıları da, əhalidən satın alınmış qədim əşyalar da saxlanılır. Beləliklə, həmin qərar keçmişin yadigarlarının kütləvi şəkildə xaricə daşınmasının qarşısını aldı».

«Azərbaycan tarixi»nin akademik nəşrində, 7-ci cildində deyilir ki, 70-80-ci illərdə respublikada 87 yeni muzey açılmış, 1990-cı ilədək artıq 124 muzey fəaliyyət göstərirdi. Heydər Əliyevin təşəbbüsüylə Azərbaycan Tarixi muzeyi öz eksponatlarını Tokio və Budapeştdə, Paris və Madriddə, Nyu-York və Londonda sərgiləmiş, muzeyin özü isə YUNESKO nəzdində Beynəlxalq Muzeylər Komitəsinə üzv seçilmişdir[35].

«Bizim mədəniyyətimizdə, milli özgürlüyümüzün atributu olaraq, tarixən xalçaçılıq olduqca mühüm yer tutmuşdur, – Ramiz Mehdiyev yazır. – Lakin o dövrdə xalq sənətinin bu növünə göstərilən sərin münasibətin nəticəsində Azərbaycanda xalça muzeyi də yox idi. Bu vəziyyət Heydər Əliyevin vəzifə səlahiyyətlərindən kənarda olsa da, onu çox narahat edirdi. Tezliklə, 1972-ci il aprelin 25-də Bakıda Azərbaycan xalçası və xalq tətbiqi sənəti muzeyinin təntənəli açılışı oldu»[36].

Ümumiyyətlə, Heydər Əliyev mədəni irsin təbliğinə, xalqın incəsənətə marağının dirçəlişinə xidmət edən sahələrə xüsusi diqqətlə yanaşırdı. 70-ci illərdə Bakıda Opera və Balet Teatrı, Azərbaycan Dram Teatrı bərpa edilmiş, Musiqili Komediya Teatrı və Gənc Tamaşaçılar Teatrı yenidən tikilmiş, Şəkidə, Sumqayıtda, Ağdamda teatrlar bərpa edilmiş, Lənkəranda yenidən teatr açılmışdı, – bu, Azərbaycanda səhnə sənətinin, teatr həyatının çiçəklənən dövrü idi.

1974-cü ilin 31 may günündə Lenin adına Sarayda Azərbaycan Dram Teatrının 100 illiyi təntənə ilə qeyd olundu. Heydər Əliyev bütün ölkədən teatr ictimaiyyətinin aparıcı nümayəndələrini teatrın bayramına dəvət etmiş və həmin təntənəli iclasda Şərqdə ilk professional teatrın inkişaf yolu, ictimai fikrin formalaşmasına təsiri haqqında parlaq nitq söyləmişdir. Sonda isə M.Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrının bayrağına SSRİ-nin ən yüksək mükafatı – Lenin ordenini taxmışdır.

Məşhur səhnə ustaları Mehdi Məmmədov, İsmayıl Dağıstanlı və İsmayıl Osmanlı «SSRİ xalq artisti» fəxri adına layiq görülür. Həmin ildəcə – mayın 26-dan iyunun 10-dək Moskvada Azərbaycan Akademik Dram Teatrının qastrolları uğurla keçirilir.



Bundan iki il əvvəl – 1972-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının yarıməsrlik yubileyi, Səməd Vurğun adına Rus Dövlət Dram Teatrının 50 illiyi təntənəli qeyd olunmuşdu. Heydər Əliyev belə yubileylər keçirməyi xoşlayır, onların vüsətli, qonaqlı-qaralı olmasına çalışır və hər dəfə belə büsatlar Azərbaycan mədəniyyətinin əyani təbliğinə çevrilirdi. Çoxsaylı ədəbiyyat və incəsənət xadimlərinə isə bu bayramlar əlavə imtiyazlar gətirir, kimi mənzil alır, kimi «əməkdar», ya «xalq» artisti fəxri adına, ya yüksək dövlət mükafatına layiq görülürdü. Bütün bunlar sənətçilərin ictimai statusunu yüksəldir, sadəcə olaraq maddi vəziyyətini yaxşılaşdırır, bu da, razılaşaq ki, heç də az önəmli amil deyil.

Görkəmli Azərbaycan söz ustalarının şərəfinə abidələrin ucaldılması, yazıçılar, rəssamlar, bəstəkarlar üçün yaradıcılıq evlərinin tikilməsi, memarlıq komplekslərinin bərpa edilməsi – bütün bunlar MK birinci katibinin daim diqqət mərkəzində olan, qayğı göstərdiyi hədəflər idi.

70-ci illərdə respublikanın bütün rayonlarında İkinci Dünya müharibəsində həlak olmuş azərbaycanlı döyüşçülərin xatirəsini canlandıran memorial lar qurulmuşdu. Bu gün bu yadigarların milli özünütəsdiq proseslərinin dərinləşməsinə təsiretmə ölçülərini təsəvvürə gətirmək belə çətindir.

On il sonra, 80-ci illərin sonlarında Azərbaycanda postsovet məkanında ən güclü milli-demokratik hərəkatlardan biri baş verəndə, Qorbaçov məhz istefaya çıxan Siyasi Büro üzvünün respublikada inqilabi əhval-ruhiyyələrin «körüklənməsində» əli olduğunu ciddiyyətlə güman edəcək. Bu baxımdan Sov.İKP MK baş katibinin ehtimalları həqiqətdən çox da uzaq deyildi: Xalq Cəbhəsinin gələcək liderlərinin gəncliyi və cavanlıq dövrü 70-ci illərin əvvəlləri – 80-ci illərin başlanğıcındakı mədəni yüksəlişə, intibaha təsadüf edir və həmin dövrdə doğma xalq varlığına, tarixinə, ədəbiyyatına, incəsənətinə, mənəvi irsinə qədirbilənlik və hörmət dövlət siyasəti mərtəbəsinə qaldırılmışdı. Odur ki, milli-demokratik hərəkatın rəhbərləri doğrudan da, müəyyən mənada Heydər Əliyevin yaratdığı ab-havanın, Heydər Əliyev «dövrünün» yetirmələri idilər.

Biz Heydər Əliyevin teatr sənətinə rəğbəti, bir premyeraya baxmaq fürsətini belə əldən verməməsi haqqında bəhs etmişdik. Şəmsi Bədəlbəylinin təşəbbüsüylə (o, 70-ci illərdə Musiqili Komediya Teatrının direktoru olmuşdur) Bakıda «Dostluq» teatrı yaradılmış və

həmin teatr respublika paytaxtına bir-iki günlüyə Moskva, Leninqrad teatrlarının ən yaxşı tamaşalarının gətirilib göstərilməsinə nail olanda MK birinci katibi bu təşəbbüsü «ikiəlli» dəstəklədi və həmin qısamüddətli qastrolların daimi tamaşaçısı oldu.

Bəs onun Filarmoniyaya bütün Büro üzvlərini də özüylə bir çəkib gətirdiyi «cümə ziyarətləri»! Həmin musiqi «likbez»ləri haqqında daha ətraflı danışmağa dəyər.

Görkəmli dirijor Niyazinin təşəbbüsü və Heydər Əliyevin fəal dəstəyi ilə bir qayda olaraq ayın son cümə günündə respublikanın partiya-dövlət aktivi üçün klassik və Azərbaycan simfonik musiqisindən konsertlər verilirdi. Əvvəl dinləyicilər qarşısında Moskvadan xüsusən dəvət edilən musiqişünas Janna Dozortseva populyar tərzdə bu və ya digər bəstəkarın yaradıcılığı, proqramda göstərilən əsərlər haqqında məlumat verərdi. Sonralar məşhur sovet bəstəkarı Dmitri Kabalevski bu musiqi gecələrini «ciddi musiqi dinləmə institutu» adlandırırdı.

Mərkəzi Komitənin mədəniyyət şöbəsinin sabiq müdiri Azad Şərif sonralar xatırlayırdı: «Etiraf etməliyəm ki, ilk vaxtlarda bəzi vəzifəli dinləyicilərimiz narazılıqla məni qınayırdılar, axı həftənin axırıdır, plan «yanır», sən də bizi sıravi tamaşaçılar sayağı heç kimin getmədiyi konsertlərə təpindirirsən... Tədricən adamlar alışmağa başladılar, musiqiyə maraq oyandı, bəziləri hətta şöbəyə zəng vurub bu gün axşam onları nəyə «qonaq edəcəyimizi» soruşurdular. Bu konsertlərin hamısında, eləcə də şöbəmizin bütün tədbirlərində mən həmişə Heydər Əliyevin arxasında əyləşərdim, o da gedişat ərzində çox-çox suallar, müxtəlif tapşırıqlar verərdi. Heç vaxt yadımdan çıxmayacaq: Qara Qarayevin «Leyli və Məcnun» simfonik poeması ifa ediləndə Heydər Əliyeviç bizə tərəf dönüb heyrətlə: «Necə də ecaz kar musiqidir!» – dedi»[37].

Düzdür, partiya-təsərrüfat aparatının bəzi rəhbərləri «birinci»nin klassik musiqiyə bəslədiyi məhəbbəti heç də bölüşdürmürdülər və onlar üçün cümə günləri «qara bayrama» çevrilmişdi... Bununla bağlı Müslüm Maqomayev öz təəssüratını belə xatırlayır:

«Niyazi və onun orkestri onlar üçün simfoniyalar, fortepiano və skripka konsertlərini ifa edirdilər, heç bir operetta, mahnı yox, ancaq klassikanı. Onların sifətlərinə baxaydınız! Simfonik konsertlərə belə gəlişlərini «ziyan çəkənlərdən» biri «işgəncə» adlandırmışdı, sanki bundan betər cəzanı onlar üçün icad etmək də olmazdı. Heydər Əliyeviç Moskvaya gedənə qədər beləcə də davam etdi – deyinsələr



də, klassik musiqini candərdi dinləyirdilər. Əliyev: «Bəlkə kimlərinsə qəlbi gözəllikdən silkələndi», – deyirdi...»[38].

Sonralar Heydər Əliyev özü bu cümə konsertlərini yada salırdı:

«Sovet Azərbaycanının rəhbəri olduğum zaman tez-tez Filarmoniyaya gedərdim: simfonik musiqini sevirəm... Görürdüm ki, konsertlərdə bizim rəhbər işçilərimiz yoxdur... Onda mən elan etdim ki, hər cümə günü axşam saat 7-də Filarmoniyada simfonik musiqi konsertlərinə getmək lazımdır. Birinci dəfə gələndə gördüm oturublar, düzü, güclə dözürlər, fikirləşdim, bəlkə də ürəklərində məni hətta söyürlər... Bir dəfə, yadımdadır, mən belyetajda əyləşmişdim və birdən rəhmətlik həyat yoldaşım mənə dedi: «Gör simfonik musiqiyə onlar necə qulaq asırlar...» Baxıb gördüm ki, bizdən bir sıra aralı Nazirlər Sovetinin sədr müavinlərindən biri möhkəm yatıb, hələ xoruldayır da. Yoldaşım deyir: «Yazığım gəlir, niyə onları məcbur edirsən?». Mən: «Məcbur edirəm, edəcəm də», – dedim... Sonra nəsə buna oxşar tədbirləri Lənkəranda, Gəncədə, Ağdamda, Cəlilabadda keçirməyə başladılar.

Filarmoniya «cümə»ləri haqqında soraqları Moskvanın musiqi dairələrində xeyirxahlıqla qarşıladılar, bu barədə mərkəzi qəzet və jurnallar yazdılar, bu barədə Siyasi Büroda söhbət gedirdi»[39].

Rusiyanın ən qocaman bəstəkarlarından biri, SSRİ xalq artisti Tixon Xrennikov artıq Heydər Əliyev vəfat edəndən sonra onun haqqında xatirələrini AzərTAc-ın müxbirilə bölüşmüşdü:

«Mən Heydər Əliyeviçi yaxşı tanıyırdım, onun dəvətilə dəfələrlə evində olmuşdum... Deyə bilərəm ki, o, olduqca cazibədar və maraqlı insan idi. O, musiqini çox sevir, dəyərləndirir və musiqi sənətinə yaxşı bələd idi. Və yadımda qalan ən başlıcası odur ki, Heydər Əliyeviç öz ətrafındakıları, partiya fəallarını daim elə tərbiyə etməyə çalışırdı ki, onlar ciddi musiqini bilsinlər və sevsinlər. Heydər Əliyeviçin bütün partaktivi simfonik musiqini dinləməyə cidd-cəhdlə necə şövq etdiyi mənim yaxşı yadımdadır. O, müntəzəm olaraq simfonik konsertlər silsiləsini təşkil edir, bu məqsədlə Moskvadan məxsusi tanınmış musiqiçiləri, tanınmış orkestrləri dəvət edirdi. O, musiqini çox sevir və istəyirdi ki, hamıya sevdirsin. Axı partiya işçilərində klassika ilə, simfonik musiqi ilə maraqlanan az tapılardı...

Üstəlik Azərbaycanın musiqiçi-kompozitor dəstəsi Sovet İttifaqı bəstəkarlarının ən parlaq dəstələrindən biri idi və Heydər Əliyeviç həmişə Azərbaycanın istedadlı musiqiçilərinə himayədarlıq edirdi. Yadımdadır, bir dəfə Heydər Əliyeviç məni və mənim azərbaycanlı bəstəkar sənətdaşlarımı öz evinə qonaq çağırmışdı. Məmnunluqla musiqi çal-

mağımızı, nəğmə oxumağımızı xatırlayıram, – ən başlıcası odur ki, o da bizə qoşulub oxuyurdu – Azərbaycan xalq mahnılarını da, o zaman ümumittifaq məkanda populyar olan sovet mahnılarını da.

Xüsusən vurğulamaq istəyirəm ki, Heydər Əliyeviç böyük dövlət xadimi və elə bir insan idi ki, sözün əsl mənasında, Azərbaycan musiqi mədəniyyətini təlqin etmiş və onun inkişafı üçün, onun dünya musiqi sənətində öz yerini tutması üçün çox-çox işlər görmüşdür».

Heydər Əliyev Üzeyir Hacıbəyovun musiqi dühasına pərəstiş edirdi və onun 90 illiyinin SSRİ-nin paytaxtında, «Bolşoy teatr»da keçirilməsinə nail olmuşdu. O, digər görkəmli musiqi ustalarına da – Qara Qarayevə, Fikrət Əmirova, Niyaziyə, Rəşid Behbudova ehtiram bəsləyirdi. Fikrət Əmirovun «Min bir gecə» baletinə bir neçə dəfə tamaşaçı kimi baxmış, daha sonra Sovet İttifaqı mədəniyyət naziri P.Demiçevlə danışıqlar aparıb baletin Kremlin Qurultaylar Sarayında göstərilməsinə təhrik etmişdir. Moskvada işləyərkən o, Azərbaycan balet truppasının paytaxtda daha bir qastrolunun gerçəkləşməsinə nail olmuş və Fikrət Əmirovun baleti «Bolşoy teatr»ın səhnəsində də göstərilmişdir.

Heydər Əliyev Qara Qarayev musiqisinin vurğunu idi, bəstəkarla onu haçandan bəri ülfət telləri bağlayırdı. Sonralar o, etiraf edirdi: «O vaxtlar biz hər şeyi Sovetlər İttifaqı miqyasında ölçürdük. Mənim aləmimdə o zamanlar Sovet İttifaqında Dmitri Şostakoviçdən sonra ikinci yerdə Qara Qarayev idi»[40]. Qara Qarayevin 60 illiyini vətəndə təntənə ilə qeyd edəndən sonra Heydər Əliyev həyat yoldaşı ilə Moskvaya yollanıb 1978-ci ilin 15 fevralında Moskva Konservatoriyasının Böyük salonunda, ölkənin musiqi elitası qarşısında dahi bəstəkarın şərəfinə qurulmuş büsatın sevincinə yenidən qoşulmuşdu. Əfsuslar olsun ki, xəstəliyi ucbatından Qara Əbülfəz oğlu özü bu bayramda iştirak edə bilməmişdi.

Heydər Əliyevin birinci katib vəzifəsində işlədiyi ilk illərdən başlayaraq, onun iştirakı ilə böyük Azərbaycan şairi və mütəfəkkiri Nəsiminin 600 illiyi,* Azərbaycan Dram Teatrının 100 illiyi, Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mixail Şoloxov, Məmməd Səid Ordubadi, Sergey Yesenin, Səməd Vurğun, Aşıq Ələsgər kimi sənətkarların yubileyləri keçirilmişdir. Yubiley tədbirləri ümumittifaq, beynəlxalq miqyasda əks-səda doğurur, Bakıdan baş alıb Moskvanın mötəbər salonlarında tamamlanırdı.

Mədəni ölçülərdən başqa bu əlamətdar yubileylər həm də böyük siyasi önəm daşıyırdı. Bu toplantılara Moskvanın elitası, başqa respublikaların görkəmli nümayəndələri cəlb olunurdu. Heydər Əliyevin iştirak edəcəyini bilərək tədbirlərə partiya rəhbərləri də təşrif buyururdular.

**Azad Şərif söyləyir:**

«Yadımdadır, İttifaqlar Evinin sütunlu salonunda Aşıq Ələsgərin yubileyini keçirirdik. Buna qədər moskvalılar Aşıq Ələsgərin kimliyini də bilmirdilər. Sonra biz Moskvada Azərbaycan ədəbiyyatı günlərini keçirdik. Belə tədbirlərə həmişə böyük sənətçilər dəstəsi də aparılırdı. Bizim incəsənət ustalarımız bütün iri müəssisələrdə çıxış edirdilər.

Heydər Əliyev bizi hər zaman təhrik edirdi ki, respublika hüdudlarından çıxmaq lazımdır. Ukraynada, Özbəkistanda Azərbaycan mədəniyyəti günlərinin necə də yüksək səviyyədə keçdiyini heç vaxt unutmayacağam. Daşkənddə Özbəkistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Şərəf Rəşidov bizim nümayəndə heyətimizi şəxsən trapın yanında qarşıladı. Ayrılanda da özü yola saldı. Azərbaycan nümayəndə heyətinin şərəfinə verilən ziyafətdə isə dedi:

– Sizin necə də böyük, qüdrətli mədəniyyətiniz var! Bizim Mirzə İbrahimovumuz yoxdur, mən bir ədib kimi öz içimizdə belə azmanı görmürəm. Bizdə Rəsul Rza, Süleyman Rəhimov yoxdur, bizim Tahir Salahovumuz yoxdur, Rəşid Behbudov kimi müğənnimiz yoxdur və yəqin ki, heç vaxt olmayacaq...

SSRİ məkanında belə çıxışlar millətin mədəni, mənəvi özünütəsdiqi üçün çox vacib idi».

70-ci illərdə Azərbaycan yazıçılar təşkilatını SSRİ Yazıçılar İttifaqında təmsil etmiş yazıçı-tərcüməçi Azər Mustafazadə bu mövzuyla bağlı mənə bir maraqlı əhvalat söylədi:

«Böyük şairimiz Nəsiminin 600 illik yubileyinə hazırlıq Moskvada müzakirə edilirdi. Müşavirə Azərbaycanın daimi nümayəndəsinin kabinetində, Heydər Əliyevin iştirakıyla keçirildi. Yubileyin məhz harada keçiriləcəyi məsələsi ortaya çıxdı.

* Heç də hamıya bəlli deyil ki, 70-ci illərdə hökumət nümayəndə heyətinə Suriya səfərində başçılıq edən Heydər Əliyev Nəsimi dəfn olunduğu Hələb şəhərini ziyarət etmək istədiyini bildirir; Suriya prezidenti Hafiz Əsəd şəxsən qonaqların marşrutunun dəyişilməsinə sərəncam verir. Uzun axtarışlardan sonra, şəhər qəbiristanlığında böyük şairin məzarını göstərirlər. Türbə sadə olsa da, səliqə-sahmanlı saxlanılırdı. Heydər Əliyev türbənin baxıcısı ilə tanış olur. Məlum olur ki, o, ulu şairin nəslindəndir.

Tədbirin səviyyəsi yüksəldilsin deyə yubileyin «Bolşoy teatr»da keçirilməsi qət edildi. Lakin SSRİ mədəniyyət naziri yubiley günündə həmin teatrda tamaşa gedəcəyini və bütün biletlərin satıldığını (özü də valyutaya) bəhanə edərək Azərbaycan tərəfinin xahişinə «yox» cavabı verdi. Heydər Əliyev telefon dəstəyini götürüb özü Demiçevə zəng vurdu. Nazir yenə də direndi: axı bütün biletlər satılıb! Onda Əliyev təşkilat komitəsi üzvlərinə üz tutub: «Kabineti tərk edin!» deyə xahiş etdi. Beş dəqiqədən sonra hamını yenə çağırıb mədəniyyət nazirimizə tapşırdı: «Zakir (Zakir Bağırov – *E.A.*), «Bolşoy»a yollan, bütün detalları yerbəyer eləyin».

Azər Mustafazadə sözünə davam edir: «Biz anladıq ki, o, SSRİ mədəniyyət nazirinin buyruğu və istəyinə qarşı getmiş və daha yuxarıda kiməsə, ola bilsin Suslova, bəlkə də baş katibin özünə zəng vurmuşdur. Yəni respublikanın maraqları naminə o, hətta ən nüfuzlu Moskva məmurları ilə qarşıdurmaya gedə bilərdi».

70-ci illərdə Heydər Əliyev Azərbaycanın mədəni əlaqələr məkanını SSRİ hüdudları ilə kifayətlənməyərək qeyri-adi dərəcədə genişləndirməklə dünyanın ən müxtəlif məmləkətlərinə öz doğma respublikasını tanıtmağa çalışırdı. Belə ki, 1977-ci ilin oktyabr ayında Yaponiyada Azərbaycanın tarixi, elmi, milli-mədəni ənənələrinə həsr olunmuş sərgi açılır, İtaliyanın Neapol şəhərində isə Azərbaycan mədəniyyəti günləri keçirilir; 1978-ci ilin oktyabrında Böyük Britaniyada Azərbaycan mədəniyyəti günləri keçirilir; bir il sonra İsveçdə təkrarsız Rəşid Behbudov başda olmaqla Azərbaycan incəsənət ustalarının konsertləri alqışlanır; respublikanın mədəniyyəti günləri Fransada, Danimarkada, Portuqaliyada uğur qazanır...

Heydər Əliyev milli təəssübkeşlik baxımından olduqca iddialı vətən oğlu idi. O çalışırdı ki, onun «millətinin xətti» «imzalar içində» layiqli yer tutsun. O cümlədən incəsənət aləminde. «Любовь моя – мелодия» («Mənim məhəbbətim melodiyadır») kitabında Müslüm Maqomayev MK birinci katibinin «xeyir-dua»sı ilə Bakıda yeni estrada-simfonik orkestrinin necə meydana çıxmasını açıqlayır:

«Çoxdan arzum vardı ki, əməlli-başlı estrada orkestri yaradım. İş belə gətirdi ki, bir müddət sonra arzumu gerçəkləşdirməyə başlaya bildim... İlk çağlarda Lyova Merabovun rəhbərlik etdiyi gözəl «biqbend»lə işləyirdim, sonralar mənim üçün oranjemanlar hazırlayan gözəl musiqiçi dostum Vladimir Terletski yeni orkestrin yaradılmasında mənə yardım göstərməyə qatlaşdı. Və tezliklə, yalançı təvazökarlığa uymadan deyə bilərəm ki, ən yaxşı caz musiqiçiləri qatılan orkestrin özəyini yaratmağa nail olduq»[41].

Heydər Əliyev növbəti məzuniyyəti zamanı ailəsilə Krımda dincələrkən orkestr də oralarda qastrol səfərində imiş. Konsertlərinə gedib Müslümlə görüşür, Bolqarıstan lideri Todor Jivkovun tezliklə gəlişini gözləyən Bakıya orkestrlə birlikdə təşrif buyurmasını xahiş edir. Müslümün kollektivi hökumət tərəfindən təşkil edilən konsertdə öz məharətini göstərir.

Maqomayev xatırlayır:

«Konsertdən sonra Heydər Əliyeviçdən soruşdum:

– Xoşunuza gəldimi?

– Çox xoşuma gəldi. Gözəl musiqiçilərdir. Hər şey əladır. Təbrik edirəm.

Fürsətdən istifadə edib deyirəm:

– Olarmı ki, orkestrimizi belə adlandıraq: Azərbaycan dövlət estrada-simfonik orkestri?

– Sanballı təsir bağışlayır, – Əliyev razılaşır.

– Amma bir «əmma»sı var. Azərbaycanlılar orkestrdə bir-iki nəfərdir. Qalanları tam «internasional»dır. Elə bizim Bakımız kimi.

– Eybi yox, Müslüm. Vaxt keçdikcə bizimkilər də yeyin tərpənər. Musiqiçilərə isə ən yüksək ölçüdə maaş verərik.

Çalğıçıların çiçəyi çırtladı: bundan yaxşı maaşlar ola bilməzdi. O vaxta görə iki yüz altmış – iki yüz yetmiş rubl – bir yarım, ikiqat «stavka» demək idi. Üstəlik, «premiyalar», ezamiyyət pulu, studiya yazılışlarının qonorarları...»[42].

Azad Şərif Bakı xoreoqrafiya məktəbi üçün yeni bina tikilişi fikrinin Heydər Əliyevi necə şövqləndirdiyini yada salır. O, layihə üzərində işlərin başlanmasına sərəncam verib Büroda bu məsələni qaldırır; nəticədə şəhərin mərkəzində geniş sahə ayrılır, lazımi maliyyə vəsaiti verilir. Düzdür, binanın inşası uzun çəkmiş və məktəbin açılışı Heydər Əliyevin iştirakı olmadan keçirilmişdir. Lakin Siyasi Büro üzvü olaraq Bakıya ilk səfərində o, öz «yadigar»ına baş çəkmək istəyini bildirmişdi.

Yeri gəlmişkən, Mərkəzi Komitənin birinci katibinin məsləhəti sayəsində bir çox mədəniyyət sarayları, mehmanxana kompleksləri, metropoliten stansiyalarının tikintilərində hələ ulu Əcəmi Naxçıvanidən başlanan milli memarlıq ənənələrinin ünsürləri istifadə edilməyə başlamışdır.

**Milli Məclisin deputatı Fəttah Heydərov xatırlayır:**

«Heydər Əliyevin göstərişilə Naxçıvanın inkişafı üzrə baş plan işlənib hazırlanmışdı. Raykomların birinci katibləri, Naxçıvan hökumətinin sədri, nazirliklərin və Bakı idarələrinin bu işə cavabdeh olan başçıları, o cümlədən Respublika Nazirlər Sovetinin sədri Əli İbrahimov və onun müavini Əliş Ləmbəranski bir araya yığışmışdılar. Divardan baş plan xəritəsi də asılmışdı. «Azqosproyekt»in rəhbəri Tahir Abdullayev Heydər Əliyevə memarların işi haqqında məruzə edir.

– Mən Naxçıvanda Mədəniyyət sarayının tikilməsi haqqında göstəriş vermişdim, – Əliyev məruzəçiyə üz tutur, – onu harada yerləşdirməyi planlaşdırırsınız?

– Şəhərdə bir məscid var, yanından köhnə, birmərtəbəli, artıq uçmaqda olan evlər sıralandığı küçə keçir. Sarayı orada tikmək istəyirik.

– Hə, bir göstər görək hardadı?

Məsciddə vaxtilə Telman adına klub yerləşirmiş, Heydər Əliyev də gənclik çağlarında yerli dram dəməyində iştirak edər, baş rollarda oynayarmış, sonralar klubu Poeziya teatrı əvəz etdi. Heydər Əliyev diqqətlə baxıb:

– Burada pir olmalıydı, – dedi. – O, qalıbmı?

– Bəli, – Abdullayev təsdiqlədi. – Eşitdiyimə görə qalıb. Bibimgilin yaxınlığındadır.

– Bibinmi? Bəs kimdir sənin bibin?

– Məsmə xanımdı.

– Məgər o sənin bibin çıxır? Axı sənin atan... – Heydər Əliyev hansısa soyun adını çəkdi. Məlum oldu ki, Məsmə xanım Abdullayevin atasının ögey bacısıdır.

Bax, belə bir dialoq gedir, özü də o vaxt Ləmbəranski Tahir Abdullayevi işdən azad etmək niyyətində idi. Heydər Əliyev qəsdən bu söhbəti ortalığa atmışdı, Ləmbəranskiyə dolayısı yolla bildirmək istəyirdi ki, Abdullayevə dəyməsin.

– Mədəniyyət sarayı elə yerdə tikilməlidir ki, şəhərin mərkəzinə yaxın olsun, camaat oraya həvəslə gəlsin, həm də şəhərə daxil olanda görünsün. Siz bilirsiniz ki, indi mədəniyyətə böyük vəsait verirlər. Mən «Qosplan»dan bir neçə mədəni-maarif müəssisələrinin, o cümlədən Naxçıvanda Mədəniyyət sarayının inşasına çətinliklə pul ala bildim. Bizim orada gözəl müasir binalarımız azdır, odur ki, onu elə yerdə tikməlisiniz ki, şəhərə yaraşıq versin. – Heydər Əliyev özü xəritədə sarayın tikilməli olduğu yeri göstərdi. Birdən: –



Bəs onu hansı memarlıq üslubunda inşa etmək istəyirsiniz? – soruşdu. Məmurlar baxışıb cavab verməyə söz tapmadılar.

– Sizin hansısa milli memarlıq konsepsiyanız varmı?

– Biz onun üzərində işləyirik, Heydər Əliyeviç, – Nazirlər Sovetinin sədri dilləndi.

– Yaxşı, işləyin. Mömünəxatun məqbərəsi timsalında dahi memar Əcəminin üslubunu öyrənsəniz, bu sizə iyirmi il bəs edər. Bu iyirmi il ərzində də ümidvaram ki, konsepsiyanı hazırlayıb həyata keçirərsiniz...

Onun sözləri memarları həm şaşırtdı, həm də eyni zamanda milli konsepsiya ünsürlərini hansı istiqamətdə axtarmalı olduqlarını nişan verdi. Bundan sonra Naxçıvanda Mədəniyyət sarayı (belə birisi də Bərdədə tikildi), Bakıda bir sıra binalar Əcəmi Naxçıvani üslubundan bəhrələnməklə inşa olundu».

* * *

Heydər Əliyev sənət adamlarını, yaradıcı insanları daim duymuş, anlamış, onlara xüsusi həssaslıqla yanaşmış, problemlərinin, fikir ixtilaflarının, münaqişələrinin məğzinə varmağa çalışmışdı. Yaradıcı insanlar bir çox hallarda çətin, mürəkkəb təbiətli, incik, necə deyərlər, ürəyinazik, «dəymədüşər», uşaq kimi dəyişkən ovqatlı olurlar. Respublikada bir çoxları indiyədək birinci katibin Azərbaycan musiqisinin korifeyləri, münasibətləri heç də «hamar» olmayan dirijor Niyazini, bəstəkarlar Qara Qarayevi, Fikrət Əmirovu barışdırmaq üçün nə qədər səy göstərdiyini xatırlayırlar:

«Heydər Əliyeviç nələr etmədi! – Müslüm Maqomayev söyləyir. – Hər birinə zəng edir, hər üçünü ya ayrı-ayrı çağırıb səmimi söhbət edir, dilə tutur, barışdırır: «Mən sizdən xahiş edirəm, bizim Azərbaycan incəsənətinə kölgə salmayın». Onlar gedirdilər, başlarını tərpədə-tərpədə razılaşır, gülümsəyir, dostluq etməyə söz verir, – Əliyevin yanından bir yerdə çıxır... və ayrı-ayrı səmtlərə dağılışırdılar. Bu böyük istedadlar bir-birilə yola getmirdilər, o isə acıyırdı»[43].

Tbilisidə «Zakavkazskaya vesna» musiqi festivalı keçirilməli idi və «ev sahibləri» Azərbaycanın hər üç sənət korifeyini bu bayramda görmək istəyirdilər. Lakin elə həmin vaxt onların şəxsi münasibətləri son dərəcə gərginləşmiş və onlar bir-birilə, demək olar ki, ünsiyyətdə olmurdular.

Azad Şərif öz xatirələrində yazır:

«Heydər Əliyevin onların hər birinə hörmətcil və qayğıkeş münasibətini, onlara «ərki çatacağını» bilərək, respublikanın rəhbərinə

kömək üçün müraciət etməli olduq. O, bizim (mədəniyyət naziri Zakir Bağırovla – *E.A.*) xahişimizə – onlarla dostcasına, qeyri-rəsmi «çay süfrəsi» başında görüşməyə – dərhal razılıq verdi... Açığını deyim ki, kabinet sahibinin yaratdığı xoş şəraitə və ünsiyyəti dərhal sərbəst ton üstə kökləməsinə baxmayaraq əvvəl söhbət heç cürə alınmırdı».

Üç məşhur sənətkar H.Əliyevi özlərinin «qəliz münasibətlərinin dolanbac» məqamlarına qatmaq istəmirdi. Və birinci katib bütün diplomatik istedadını səfərbər etməli oldu ki, qonaqları açıq məhrəm söhbətə həvəsləndirə bilsin. Nəticədə, Azad Şərif xatırlayır, bu görüş beş saat (!) sürmüş, çay süfrəsinə kolbasa, pendir-çörək də əlavə olunmuşdur.

Əlbəttə, məsələ ancaq ya bütövlükdə şəxsi rəğbət, ya antipatiyalarda deyildi: «Hər birinin musiqi sənətinin çağdaş dönəmindəki inkişafı haqqında öz anlayışı, zəngin Azərbaycan milli musiqi folklorundan bəhrələnmə haqqında öz yozumu var idi. Məsələn, Qara Qarayev folklordan, onun təbirincə desək, «sitatçılığın» əleyhinə idi. Niyazi hesab edirdi ki, Qara Qarayev «Üçüncü simfoniya»sında və skripka ilə orkestr üçün konsertində işlətdiyi eksperimentlər və yeni fəndlər bir ustad kimi Qarayev üçün məqbuldursa, cavan bəstəkarlara rəva deyil...

Söhbət artıq sona yetirdi ki, Moskvadan «VÇ» xəttilə telefon zəngi çalındı. Bu pauzadan istifadə edən üçlük sıxlaşıb «pəs»dən öz aralarında söhbətləşirdi. Bu, əlbəttə ki, Heydər Əliyevin diqqətindən yayınmadı. O, zarafatla dedi: «Allaha şükür, görürəm ki, siz daha barışmısınız, indi də kiminsə əleyhinə birləşirsiniz!»

– Olan şeydimi, Heydər Əliyeviç! – Qara Qarayev vəcdlə etiraz etdi. – Belə şey mümkündürmü? Biz burda xeyli vaxtınızı aldıq, amma yaxşı ki, bu görüş baş verdi. Bizim ona çox ehtiyacımız vardı.

– Biz bu gün üçümüz də respublikanın musiqi imicini dəstəkləmək üçün Tbilisiyə getməyə hazırıq. – Qarayev yüngülləşmiş kimi nəfəs dərdi, gərgin söhbətləşmədən sonra ilk dəfə eynəyinin arxasında tanış, həlim Qarayev təbəssümü sezildi...

Birlikdə çıxıb evlərinə yollanarkən, Filarmoniyanın tinində ayaq saxlayıb dostcasına, vəcdlə əl-qol ata-ata, arabir şaqqanaq çəkərək, üçlükdə xeyli söhbətləşdilər...»[44]

Üstündən uzun illər keçəndən sonra, bəstəkar Arif Məlikovun yaradıcılıq gecəsində Azərbaycanın prezidenti Heydər Əliyev görkəmli sənətkarları barışdırmaq üçün göstərdiyi səylərini xatırlayacaq:



«Xatirimdədir, mən onlarla vaxtaşırı görüşüb danışarkən bir-biri ilə münasibətlərinin gərgin olduğunu hiss edirdim. Biri yanıma gələndə deyirdim ki, filankəs səni çox tərifləyirdi. Bu birisi yanıma gələndə deyirdim ki, o da mənim yanıma gəlmişdi, səni çox tərifləyirdi. Bilirsiniz ki, istedadlı adamlar həmişə qəribə olurlar. Onlar adi deyillər, adi olsalar istedadlı ola bilməzlər. İstedadlı olanların hər birinin özünəməxsus xüsusiyyəti var. Mənim kimi siyasət adamı, respublikaya rəhbərlik edən adam gərək hərənin öz dilini bilsin, hərəni öz dili ilə dindirsin. Çalışsın ki, münasibətlər yaxşı olsun, mehriban olsun. Mən buna çalışırdım»[45].

1973-cü ildə Heydər Əliyev bəstəkarlar arasında çəkişmələrə son qoymaq niyyətilə musiqi mədəniyyətinin korifeylərini özünün şəhəryanı iqamətgahına, Zuğulbaya dəvət etmişdi. Sonralar prezident xatırlayırdı: «Biz bütün günü söhbət etdik, musiqidən danışdıq... Hesab edirəm ki, bu, çox böyük bir görüş oldu. Bundan sonra münasibətlər xeyli düzəldi»[46].

Birinci katib yaradıcılıq təşkilatlarının daxili «nizamnamələk» işlərinə qarışmağı xoşlamırdı. Amma bəzən «açıq mətnlə» bildirirdi ki, Azərbaycan mədəniyyətinin şan-şöhrətini təmsil edən insanları darda qoymayacaq.

1979-cu ildə Niyazi ilə bağlı belə bir əhvalat oldu. Görkəmli, bənzərsiz dirijorumuz tündxasiyyətliyi, ötkəmliyi ucbatından yaradıcılıq təşkilatının az qala yarısıyla arası pozmuş və onun əleyhdarları respublika bəstəkarlarının V qurultayının son iş günündə, İttifaqın Rəyasət Heyəti üzvləri seçiləndə «hayıflarını çıxmışdılar» – onu Rəyasət Heyətindən kənarda qoymuşdular. Niyazi ilə dostluq münasibətlərində olan jurnalist Svetlana Mirzəyeva xatırlayır ki, İttifaqın Rəyasət Heyətinə az qala təşkilatın yarandığı gündən daxil edilən, ötkəm, eyni zamanda kövrək heysiyyatlı bəstəkar üçün bu hadisə çox sarsıdıcı zərbə olmuşdu.

«Bəstəkarlar İttifaqında baş vermiş fövqəladə hadisələr Azərbaycanın rəhbəri Heydər Əliyevi dərindən həyəcanlandırmışdı. O, telefonla Niyaziyə zəng vurur və dəstəkdən gələn səsindən sənətkarın necə də ümidsiz halda olduğunu duyur. O, özünü tox tutmağa çalışsa da, hətta zarafat etməyə özündə güc tapsa da, həssas müsahibi anlayır ki, bu insanı xilas etmək lazımdır.

Bəstəkarlar İttifaqının yeni idarə heyəti qatılmaqla təcili müşavirə çağrılır. Respublika başçısı bütün musiqi həyatının panoramı əks edilən parlaq məruzə ilə çıxış edir (təsadüfi deyil ki, tezliklə həmin məruzə nüfuzlu professional «Sovetskaya muzıka» jurnalında dərc

olunmuşdu). Və yığışanları heyrətə gətirən onun kağızsız-filansız danışmağı, musiqi erudisiyası, yaddaşı, yaradıcı prosesin psixologiyasını, sənətkar fərdiyyətini anlamağı idi»[47].

Ardınca Heydər Əliyev Bəstəkarlar İttifaqında «qeyri-sağlam ab-havadan, paxıllıqdan, adamların xırda umu-küsülərindən, qərəzli çəkişmələrin yolverilməz olduğundan danışdı. Heydər Əliyev bildirdi ki, heç kimi – nə Qarayevi, nə Əmirovu, nə Niyazini incik salmağa qoymayacaq...

Niyazidən söz düşəndə, dirijor nəzərə çarpmadan salona daxil oldu. O, respublika rəhbərinin baş verənlər haqqında – niyə bütün sovet ölkəsində tayı az tapılacaq («üçü varsa, biri Niyazidir»), səsverənlərin yarısı hələ dünyaya gəlməmiş İttifaqda olan istedadlı dirijor təhqirə məruz qalmışdır? – deyə necə ağrıyla danışdığını eşitdi.

Bir neçə saatdan sonra mən Niyazinin artıq sevincək üzünü gördüm.

– Təsəvvür eləyirsən, Heydər Əliyeviç «mən Niyazini incitməyə qoymaram!» dedi.

O, həmin axşam bu sözləri dönə-dönə dilə gətirdi...»[48].

1979-cu ilin 1 oktyabrında Mərkəzi Komitədə respublikanın aparıcı bəstəkarları ilə görüşdə Heydər Əliyev həqiqətən də çox professional nitqlə çıxış etdi və bu çıxış onun nəinki milli musiqi sənətinin bütün müasir problemlərindən xəbərdar olduğunu, həm də bu problemlərin çözüm yollarına öz baxışı, öz görümü olduğunu nümayiş etdirdi. Həmin çıxışdan bir neçə sitat gətirmək istəyirəm:

«...Bəzən bəstəkarlar arasında daban-dabana zidd nöqteyi-nəzərləri ifadə edən fikirlər eşitmək olar. Bəziləri hesab edir ki, əsərlər yalnız klassik professional musiqi əsaslarında yaradılmalı, o biriləri əksinə, hər şey xalq havacatı zəminində qurulmalıdır – deyirlər. Həm bu, həm digər əyintilər yanlış və ziyanlıdır... Biz ondan çıxış edirik ki, professional musiqi Avropa sivilizasiyasından... bizim üçün isə həmçinin klassik rus musiqisindən qaynaqlanır... Bəstəkarın ustalığı, yüksək professionallığı ondan ibarət olmalıdır ki, toplanmış zənginliklərdən faydalanaraq, Azərbaycan xalq musiqisi, folkloru əsasında bütün janrlarda fundamental əsərlər yaratsın. Bunu Qara Qarayev özünün «Yeddi gözəl» baletində gözəl ifadə etmişdir. Fikrət Əmirov «Kürd-ovşarı» simfonik muğamında, Niyazi – «Rast» simfonik muğamında buna nail olmuşdur. Bu əsərlərin kökündə bizim qədim muğamlar dursa da, görün onlar necə professionallıqla yazılmış, xalq melodiyalarından necə yaradıcı istifadə olunmuş, folklor və müasirlik necə bacarıqla, üzvi şəkildə sintez halına salınmışdır».

Öz nitqində Heydər Əliyev Azərbaycanda xor sənətinin zəif inkişaf etdiyini, «Dövlətteleradio»su estrada orkestrinin keyfiyyətcə professional müasir tələbatdan çox gerida qaldığını nəzərə çatdırmış, hətta «Qaya» ansamblının, yeni səsləndirmə formaları axtarışları, eksperimentçiliyi nəticəsində ifaçılıq üslubuna xələl gətirdiyini və özünəməxsusluğunu nəzərə çarpacaq dərəcədə itirdiyini qeyd etmişdi. Bəstəkarlar mühitində əsəbi ab-hava olduğunu da ağrı-acı ilə dilə gətirmişdi: «Bir sirr deyil, faktlar var ki, bir bəstəkar o birisi ilə danışmır, biri o birisinə məhəl qoymur».

Özü qəlbiaçıq, qarşılıqlı münasibətlərdə saxtalığa dözməyən bir insan olaraq, bəstəkarları bir-birinə qarşı qeyri-səmimi olduqlarına, şəxsi-qərəzliyə yol verdiklərinə görə qınayırdı: «Hər bir əsər dəyərinə görə obyektiv, prinsipial qiymətləndirilməlidir. Əsər tam işlənməyibsə, sönükdürsə, elə də demək lazımdır. Nöqsanın, kəm-kəsirin nədə olduğunu birbaşa üzə demək lazımdır. Siz isə çox vaxt üzə heç nə demirsiniz, arxada pisləyirsiniz»[49].

**Vaqif Mustafayevin «Birinci» filmindən:**

**Vidadi Nərimanbəyov**: «Heç bir mühüm sərgi, heç bir mühüm tədbir, hətta «qeyri-mühüm» də, mədəniyyətlə bağlı tədbirlər onun iştirakı, dərin marağı və lazım gələndə, təbii ki, köməyi olmadan keçirilmirdi.

Respublika Rəssamlar İttifaqı katiblərindən biri kimi mən tez-tez belə tədbirlərə qatlaşmalı olurdum və çox vaxt mənə xəbərdarlıq edirdilər ki, Heydər Əliyevin qarşısında bir dəfə çıxış edilməli, təkrarçılıq olmaz, odur ki, hazırlaşın və demək istədiyinizi biryolluq deyin. Amma hər bəfə bu deyilmələr söhbətə çevrilirdi. O, hansı minvallasa adamı açıq danışmağa, içində baş qaldıran hansısa yeni düşüncələrə təhrik etməyi bacarırdı. Sən ürəyindəkini deməkdən qorxmurdun, əksinə, buna ehtiyac duyurduq. Bu da həmişə məmnunluq doğururdu».

**Ömər Eldarov**: «Bizim birinci katiblə tez-tez görüşməyimizə həm də ona görə sevinirdik ki, o, sərgiyə baş çəkmək, qonaqlarımızı – Moskva, ya Leninqraddan, yaxud Kiyevdən gələn məşhur rəssamlarla görüşmək fürsətini əldən vermirdi. O, belə ünsiyyəti çox xoşlayırdı və bu onda elə təbii alınırdı ki, heç kəsdə, heç cürə, belə deyək, gərginlik yaranmazdı. Hər şey təbii, natural olardı».

Heydər Əliyev yalnız Azərbaycan mədəniyyət ustalarına qayğı göstərməklə məhdudlaşmırdı. Çoxları bəlkə bilmir ki, böyük musiqiçi, violonçel sehrkarı Mstislav Rostropoviçin Heydər Əliyevlə dostluğu 70-ci illərdən başlamışdır. Rostropoviç-Vişnevskaya cütlüyü gözümçıxdıya salınmış Soljenitsına öz mülkündə sığınacaq verəndən, üstəlik maestro mərkəzi qəzetlərə açıq məktub göndərib başıbəlalı yazıçının müdafiəsinə qalxandan sonra Rostropoviçin də başı üzərində qara buludlar sıxlaşdı.

Moskvada, Leninqradda çıxışları yasaqlandı, xaricə səfərləri pozuldu, onu hətta Ukraynaya da buraxmadılar.

«Məhz o çətin zamanda Rostropoviç Bakıya, sevdiyi şəhərə, sevimli adamların yanına gəldi, – Azərbaycanın tanınmış jurnalisti Svetlana Mirzəyeva yazır: «Onu sevinclə qarşıladılar. O da səxavətlə bakılılara fantastik musiqi, müxtəlif dövrlərə mənsub olan müəlliflərin çoxsaylı bəstələrini bəxş etdi. Bakıda beş gün çıxış edən Mstislav Leopoldoviç on konsert verdi...

Slavanı ilahiləşdirən dostları, o, cismən də, ruhən də dincələ bilsin deyə, Moskvada ətrafında dolaşdırılan intriqa torlarını heç olmasa bir qədər unutsun deyə, gözəl şərait yaradırdılar.

Həmin intriqalardan Azərbaycanın o vaxtkı rəhbəri Heydər Əliyev yaxşı xəbərdar idi, – bu barədə, necə deyərlər, «ilkin mənbələr»dən məlumatlanmışdı. Buna baxmayaraq, ədalət hissini və musiqiçinin sənətinə heyranlığını rəhbər tutaraq, o, nəinki konsertlərə, məsələn, Ukraynada olduğu kimi qadağa qoymadı, üstəlik öz dostuna, etibar etdiyi adama – dirijor Niyaziyə təqiblərə məruz qalan sənətkara maksimal diqqət göstərməyi tapşırdı. Rostropoviçin əleyhinə barışmazcasına köklənmiş müəzzəm Moskvaya rəğmən bunu etmək üçün gərək necə mərdlik sahibi olasan!»[50]

On altı il ötəndən sonra hər iki şan-şöhrətli sənətkar Rusiyaya qayıdan zaman, bir çox dost-tanışları xəcalət çəkdiklərini bildirir, üzrxahlıq edirdi, «Bolşoy teatr» isə Qalina Vişnevskayanın yaradıcılıq fəaliyyətinin qırx beş illiyi şərəfinə təntənəli gecə qurdu...

Azərbaycanın xəcalət çəkməsinə elə bir səbəb yox idi və Rostropoviçin 70 illiyi bayram edilən Parisə şəxsən yubilyar və Fransa prezidenti Jak Şirak tərəfindən dəvət olunmuş Heydər Əliyev Mstislav Leopoldoviçə tarixi vətənini ziyarət edəcəyi barədə vədini xatırlatdı.

Tezliklə Rostropoviç Bakıya gəldi, mehriban qarşılanmasından məmnun olub hər il buraya gəlməyə və ustad dərsləri keçirməyə söz verdi. Vədinə də əməl etdi; musiqi təliminden əlavə, ölkənin ən



möhtəşəm salonu Respublika Sarayında konsertlər verdi, humanitar yardım gətizdirdi, Azərbaycan təbabətinə köməklik göstərdi; bir neçə il sonra onun nüfuzu sayəsində Yaponiya hökuməti bir neçə yüz min dollar məbləğində ayırdığı qrant hesabına Ü.Hacıbəyov adına Dövlət simfonik orkestri üçün təzə musiqi alətləri alındı. Bakı da borclu qalmadı: ata və oğul Rostropoviçlərin adları musiqi məktəbinə, böyük violonçel ustadı doğulduğu evin yerləşdiyi, Bakının mərkəzində olan küçəyə verildi. Leopold Vitoldoviç Rostropoviçin ailəsi yaşadığı binada ev-muzeyi açıldı. Mstislav Rostropoviç Heydər Əliyevin şəxsən təqdim etdiyi iki yüksək dövlət mükafatını – «Şöhrət» və «İstiqlal» ordenlərini aldı...

Heydər Əliyevi böyük Azərbaycan müğənnisi Rəşid Behbudovla həqiqi dostluq münasibətləri bağlayırdı. Birinci katib olaraq, o, gözəl sənətkarın bütün təşəbbüslərinə «yaşıl işıq» yandırırdı. Estrada, xalq səhnə sənətinin, xoreoqrafiya mədəniyyətinin ən müxtəlif janrlarını əxz edən «Azərbaycan» dövlət konsert ansamblı yaradılması ilə R.Behbudovun niyyətini dəstəkləmişdi. Daha sonra müğənni SSRİ tarixində ilk dəfə Mahnı Teatrı yaratmaq fikrini bildirəndə də Heydər Əliyev köməyini əsirgəmədi.

«...Heydər Əliyev sonralar da müğənnini izləyir, çalışırdı ki, ağrı-acılara məruz qalmasın, cürbəcür qan qaraldan şeylərdən qoruyur, hər məsələdə səsinə səs verirdi.

Təzə, müasir musiqi alətləri gərəkdi, – və Heydər Əliyev o vaxt astronomik məbləğ sayılacaq 60 min dollar tapıb ayırır və Azərbaycanı ən yaxşı tərzdə təqdim edən orkestr ölkədə və xaricdə bütün rəng və səs çalarları ilə parlayır.

– Bina lazımdırmı? Min maşına, şəhəri dolan, bax, seç.

Rəşid Behbudov Hidromeliorasiya İnstitutu yerləşən binanı gözaltı eləyir.

– Bu sanki balaca «Bolşoy teatr» idi, eyni sütunlar, təntənəli frontonlar, – Behbudov sevinirdi. Təmirə başlasa da, iş uzandı. O zaman artıq Heydər Əliyev Moskvada işləyirdi...

«Qalınqabırğalı» məmurlarla, çətinliklərlə və çoxsaylı əngəllərlə üzləşən Rəşid Behbudov yavaşdan, özüylə danışırmış kimi:

– Hardasan, ay Heydər? – deyir, bu insanın necə tezliklə dadına çatdığını, ən müşgül problemlərini necə həll etdiyini xatırlayırdı»[51].

Tahir Salahov mənə söyləyirdi ki, Heydər Əliyev bəstəkar Rauf Hacıyevi Səməd Vurğunun sözlərinə bəstələdiyi «Azərbaycanım» mahnısına görə çox istəyirdi. Yaxınlarının arasında özü bu mahnını

oxumağı xoşlayar, ömür yoldaşı Zərifə xanım isə royalda müşayiət edərdi.

Bütün dəyərli sənətçilərə, musiqiçilərə isti münasibət bəsləyən Heydər Əliyev, bu sırada Müslüm Maqomayevi atalıq qayğısı, mehri ilə əziz tutardı.

Kitab üzərində işləyərkən mən görkəmli müğənni ilə Moskvada görüşdüm və biz az qala iki saat söhbətləşdik.

«Heydər Əliyeviç mənə ata əvəzi oldu, – Müslüm Məhəmməd oğlu söyləyir. – Xüsusən, əmim rəhmətə gedəndən sonra o, nəzakətlə, qabartmadan mənə doğma adamımı, ümumiyyətlə, itirdiklərimin hamısını əvəz etdi. Bir dəfə Bakıda məndən soruşdu: «Deyirlər, sən çox gəzirsən, içirsən. Düzdürmü?» Cavab verdim: «Heydər Əliyeviç, «deyirlər» sözü xoşuma gəlmir, siz mənim özümdən soruşsaydınız, mən sizə ən yaxın adamım kimi olduğunu deyərdim. Həm də sizə «deyənlərin» kimliyini bilirəm». O maraqlandı: «Doğrudanmı?» Mən bir nəfərin adını çəkdim: «Düzdür», – deyib güldü. «Gələn dəfə mənə hansısa sualınız olsa, özümdən soruşun. Sizə məndən çox şey «üyüdə» bilərlər, 10 faizi həqiqət olacaq, 90 faizi – yalan. Mən isə heç vaxt heç nəyi gizlətmərəm və heç nə də etmirəm ki, gizlədiləsi olsun». – «Danışdıq». Bundan sonra o heç vaxt heç kəsə qulaq asmırdı, hansısa sual ortaya çıxanda, zəng vurub soruşa bilərdi. Mənə dönə-dönə deyərdi: «Müslüm, sən mənə oğul kimisən».

2002-ci ilin sentyabr ayında Bakıda Müslüm Maqomayevin 60 illiyi qeyd olunurdu. Yubileyin ən əziz qonağı, əlbəttə ki, ölkə prezidenti Heydər Əliyev idi. O, səhnəyə çıxıb Maqomayevə çox səmimi nitqlə müraciət etdi. Müslüm Moskvaya, ən yüksək səviyyəli, Sov.İKP MK katibləri, Siyasi Büro üzvləri gəldiyi konsertlərə dəvət ediləndə necə sevindiyini xatırladı. Həmin rəhbərlər hökmən bu konsertlərdə Azərbaycan müğənnisinin, – sovet estradasının seçmə ulduzunun iştirak etməsini ismarlayırdılar.

«Yadımdadır, mən bütün bu törənlərdə iştirak edirdim. O vaxt Sovet İttifaqının rəhbərləri bir arada əyləşib konsertləri dinləyər, mən də həyəcanla Müslümün haçan çıxacağını gözləyərdim. Hər bir detala fikir verərdim – onu necə gur alqışlarla qarşıladılar, o, necə oxudu. Yanımda əyləşən Siyasi Büro üzvləri mənə üz tutub təbrik edərdilər. Mən necə də qürur hissi keçirərdim!..»[52]

1971-ci ildə Heydər Əliyev M.Maqomayevi Azərbaycan xalq artisti adı ilə fərqləndirdi. Bu, respublika tarixində ilk belə hadisə idi, – xalq artistinin cəmi 29 yaşı vardı. Həmin ildə o, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu. İki il sonra, 1973-cü ildə Müslüm



Maqomayev SSRİ xalq artisti adını aldı. Sovet İttifaqında onun yaşında heç kim belə yüksək ada layiq görülməmişdi.

Yaradıcı ziyalılarla, xüsusən yazıçılarla danışmağı sevməyən və bacarmayan bir çox partiya məmurlarından fərqli olaraq Heydər Əliyev üçün bu ünsiyyət bir udum təmiz hava misalında idi. O, Moskvada Vorovski adına (indi Povarskaya adlanan) küçədə yerləşən SSRİ Yazıçılar İttifaqında iki dəfə olmuş, – sadəcə baş çəkməmiş, respublikada gedən proseslər haqqında parlaq nitqlərlə çıxış etmiş, ölkənin yazıçılar elitasının ən kəskin suallarını cavablandırmışdı.

**Azad Şərifin hekayətindən:**

«...Mən Moskvaya uçub o vaxt Yazıçılar İttifaqının katibi olan Verçenko ilə görüşdüm.

– Yuri Nikolayeviç, – dedim, – necə baxırsınız, Heydər Əliyeviç gəlib yazıçılar qarşısında çıxış edə?

– Məgər birinci katiblərdən yazıçılar qarşısında çıxış edən olubmu? – Verçenko təəccüblə soruşur.

– Bax, elə Heydər Əliyeviç də başlanğıcını qoyar...

Biz ikilikdə Georgi Markovun yanına getdik.

– Azad, bu qiyamət olardı, amma o, buna gedərmi? – Yazıçılar İttifaqının birinci katibi tərəddüdünü bildirdi. – Onu elə suallara tutarlar ki...

– Onun boyu bir metr doxsandır, – dedim. – Tab gətirər...

– Biz razıyıq, – Markov güldü.

Bu söhbəti Heydər Əliyevə çatdırdım.

– Markov bircə ondan qorxur ki, sizin üstünüzə cürbəcür suallar yağdıra bilərlər...

– Eybi yox, qoy yağdırsınlar.

– Bəs siz hansı mövzuda çıxış etmək istərdiniz?

– Necə yəni – hansı? Rüşvətxorluqla mübarizə. Bu indi mənim məşğul olduğum başlıca işdir, sən ki bilirsən!

Görüş 1971-ci ilin sentyabr, ya oktyabr ayında, SSRİ Yazıçılar İttifaqının böyük salonunda keçirildi. Zal ağzınacan dolu idi, hətta illər boyu buraya ayaq basmayan yazıçılar da gəlmişdilər. Sovet ədəbiyyatının patriarxı, iyirmi il Moskvaya baş çəkməyən Leonid Leonov da məxsusi gəlmişdi ki, ona qulaq assın.

Heydər Əliyev royalın yanında dayanıb iki saat kağız-kuğuzsuz danışdı. Salona sükut çökmüşdü. O, korrupsiya ilə mübarizədən, kənd təsərrüfatını necə qaldırdığından, sənaye sahəsində hansı planları düşündüyündən, daha sonra yazıçıların, yaradıcı ziyalıların vəziyyətindən bəhs etdi.

Çıxışını bitirib soruşdu ki, ona sual vermək istəyənlər varmı. Kimsə salondan:

– Siz elə ətraflı danışdınız ki, daha sual verməyə yer qalmadı, – dedi.

Sonra biz onlar üçün daimi nümayəndəlikdə banket təşkil etdik. Orada, ikinci mərtəbədə artıq süfrə hazır idi, – «Bakı» restoranı öz işini əla görmüşdü».

Həmin görüşü yazıçı-tərcüməçi Azər Mustafazadə də xatırlayır:

«Heydər Əliyev çox parlaq çıxış etdi, neqativ hallarla, yerlibazlıqla mübarizədən danışdı. Hamı heyrət içində idi, Valentin Katayev isə Heydər Əliyevin SSRİ Yazıçılar İttifaqı üzvlüyünə qəbul olunmasını təklif etdi. O da zarafatla imtina edərək dedi ki, sizin sıralarınızda birinci MK katiblərindən artıq biri – Şərəf Rəşidov var... Yazıçı katiblərdən kimsə qayıtdı ki, Heydər Əliyeviç, sizdən fərqli olaraq, o, SSRİ Yazıçılar İttifaqında bir dəfə də olmayıb. «Eləmi? – Əliyev təəccübləndi. – Mən ona zəng vurub qınayaram ki, bu səhvini düzəltsin...»

Bir həftə keçər-keçməz Azər Mustafazadə SSRİ Yazıçılar İttifaqına təşrif buyurmuş Şərəf Rəşidovu binanın dəhlizində gördü...

70-ci illərin ortalarında, H.Əliyevin Moskva yazıçılarının adlısanlı nümayəndələri qarşısında ikinci dəfə çıxış etdiyi zaman «Druzba narodov» jurnalının baş redaktoru Sergey Baruzdin də «saqqal tərpətdi» ki, Azərbaycan KP MK-nın birinci katibi Ümumittifaq Yazıçılar Birliyinə fəxri üzv kimi qəbul edilsin. Yenə də bu təklifi H.Əliyev zarafat kimi qarşıladı. Sonralar Heydər Əliyev acı təəssüflə xatırlayırdı ki, vaxtilə ona şərtsiz sədaqətindən dəm vuran həmin Baruzdin onun bədxahları sırasında görünmüşdü...

1981-ci ilin 22 noyabrında Moskvada, Mərkəzi Memarlar Evində Azərbaycana həsr olunmuş gecə keçirilirdi. Bu tədbirdə Heydər Əliyevlə Azərbaycan KP MK Büro üzvləri, Rusiyanın tanınmış memarları, rəssamları, elm və mədəniyyət xadimləri iştirak edirdilər. Heydər Əliyev həmişəki kimi, kağızsız, necə deyərlər, sinədən danışır, Sovet Azərbaycanının son illərdəki uğurlarından canlı, mənalı söhbət aparırdı.



**Yazıçı Elçinlə söhbətdən:**

«Bu yaxınlarda hardasa belə bir məlumata rast gəldim ki, Todor Jivkov on cildlərlə «Seçilmiş əsərləri»nə toplanmış məqalələrini nəinki özü yazmayıb, ümumiyyətlə, heç onları oxumayıb da! «Sosializm komediyası» farsı üçün bundan gözəl bir illüstrasiya tapmaq, güman ki, çətindir... Leonid Brejnevi yaxından tanıyanların dediyinə və yazdığına görə, bu rəhbər də heç nə oxumurdu.

Və həmin kontekstdə Heydər Əliyev şəxsiyyətinin «inkişaf etmiş sosializm» çərçivələrinə sığışmayan bir cəhəti də mənim üçün əlamətdardır: mətbuatı şəxsən izləmək. Onun çıxışlarında, söhbətlərində (mən həmin çıxışların sıravi dinləyicilərindən, o söhbətlərin təsadüfən-təsadüfə sıravi iştirakçılarından biri kimi fikir yürüdürəm) dərhal hiss olunurdu ki, qələm əhlindən kimin kim olduğunu, hansı məzhəbə qulluq elədiyini yaxşı bilir və bu, köməkçilərin hazırladığı (eləcə də xeyirxahların, daha artıq dərəcədə isə bədxahların verdiyi) məlumatların nəticəsi deyil, öz müşahidəsi, öz biliyidir.

Səksəninci illərin lap əvvəllərində mənim «Literaturnaya qazeta»da bir məqaləm çap olunmuşdu. O vaxt «Litqazeta» bir ədəbi problem, yaxud əsər haqqında müxtəlif fikirlər verirdi. Mənim məqaləm də Yuri Boldırevin məqaləsi ilə yanaşı verilmişdi və onunla kəskin ədəbi mübahisə edirdim. Onda Həsən Həsənov Mərkəzi Komitənin ideoloji katibi işləyirdi və birdən-birə gecə mənə evə zəng elədi. Məlum oldu ki, Heydər Əliyev Soçidə (əgər səhv etmirəmsə) istirahət edir, məqaləni oxuyub və zəng eləyib bu barədə Həsən Həsənova ətraflı fikrini bildirib. Burada yəqin ki, fəxr eləməli bir şey yoxdur, amma o var ki, cavan bir yazıçının, özü də sırf ədəbiyyat problemlərinə həsr olunmuş yazısı da diqqətdən (və məraqdan!) kənarda qalmırdı və bu diqqət «rəhbər diqqəti» yox, oxucu diqqəti idi. Məsələnin maraqlı bir cəhəti də o idi ki, ətrafındakıların xeyli qismi mətbuatla, ümumiyyətlə, mədəniyyətlə maraqlanan adamlar olmasa da, rəhbərdən çəkindikləri üçün, özləri də mətbuatı izləmək, ədəbi ictimaiyyətin problemlərinə məhdud qabiliyyətləri daxilində diqqətlə yanaşmaq məcburiyyətində qalırdı.

Dəfələrlə bunun şahidi olmuşam ki, Heydər Əliyev teatr tamaşalarına baxıb və qurtardıqdan sonra, səhnə arxasında yaradıcı kollektivlə görüş keçirib və heç bir mübaliğəyə yol vermədən deyim ki, yüksək səviyyəli professional sənətşünas kimi tamaşanın təhlilini verib. Orasının da şahidiyəm ki, həmin görüşlərdən sonra yaradıcı kollektivin həvəsi birə-on artırdı. Əsl sənət adamına, sənət kollekti-

vinə nə lazımdır? İlk növbədə xalqın onun sənətinə qiymət verməsi, onu başa düşməsi. Xalqa rəhbərlik edən adam da qiymət verməyi bacarırsa, bu – əlbəttə, çox təqdir ediləsi cəhətdir.

Bu cür görüşlər Moskvada da keçirilirdi: görkəmli arxitektorlarla, yazıçılarla, teatr kollektivləri ilə və deməliyəm ki, onların əks-sədası Azərbaycan mədəniyyətinin inkişafı üçün münbit şərait yaranması baxımından çox xeyirli olurdu.

Həmişə öz-özümə fikirləşəndə, təəccüb, bəzən, hətta heyrət etmişəm ki, Heydər Əliyev kimi, ucqar bir yerdə boya-başa çatıb təhsil alasan, uzun illər boyu DTK kimi sənətdən, yaradıcılıq mühitindən uzaq bir yerdə işləyəsən və bu dərəcədə də ədəbi-estetik təfəkkür tərzinə malik olasan. Yadıma gəlir, 1976-cı il idi, onda lap cavan bir yazıçı idim və Yazıçılar İttifaqına yenicə katib seçilmişdim. Moskvada Səməd Vurğunun anadan olmasının 70 illiyini keçirdik və sonra Daimi Nümayəndəliyimizdə yubiley iştirakçıları üçün kiçik bir qəbul düzəltdik. Adamların sayı az idi – 30-35 nəfər, amma kimlər idi: Leonid Leonov kimi «canlı klassik»dən tutmuş o zamanın böyük «ədəbiyyat generalları» – Georgi Markov, Aleksandr Çakovski, Nikolay Qribacovacan rus ədəbi ictimaiyyətinin «rəsmi və qeyri-rəsmi ən irəlidə gedənləri». Heydər Əliyev də orada idi və söhbətləri, çıxışları ilə miz arxasında əyləşənlərin, xüsusən, «ədəbiyyat generalları»nın çoxundakı «böyük qardaş» təkəbbürünü sözün əsl mənasında məhv etdi və o danışdıqca həmin «ədəbi generallar» göz-görəti kiçilirdi...

Bu – şəxsiyyətin miqyasıdır. O məclisdə yalançı məlumatfüruşluqla, əvvəlcədən hazırlaşma ilə, gözə lap ustalıqla da olsa kül üfürməklə, hətta Siyasi Büro üzvlüyünə namizədliyin hipnozu ilə iştirakçıları ovsunlamaq mümkün deyildi, çünki onların özləri sovet «hakimiyyət mətbəxi»nin aparıcı fiqurları, funksionerləri idi. Yalnız şəxsiyyətin təbii özünüifadəsi, fitri qabiliyyət onları o cürə göz-görəti kiçildə və hərəni öz yerində oturda bilərdi».

MK birinci katibinin respublikanın yaradıcı ziyalıları qarşısında daha bir çıxışını xatırlatmaq istərdim. 1981-ci ilin 12 iyunu Heydər Əliyev respublika yazıçılarının VII qurultayında fundamental vəzifələrin çözümünə istiqamətləndirən parlaq və dərin nitq söylədi. Bu çıxışın bir çox müddəaları indiyədək öz aktuallığını itirməmişdir.

O, Azərbaycan sovet ədəbiyyatının uğurlarıyla yanaşı, respublikanın söz ustalarının yaradıcılığında «ağ ləkələr» və zəif məqamlara diqqəti cəlb etdi.



«Nizami və Füzuli, Xaqani və Nəsimi, Axundov və Məmmədquluzadə, Üzeyir Hacıbəyov və Məmməd Səid Ordubadinin vətəni müasir yazıçı və şairlərdən parlaq tarixi əsərlər, Azərbaycan tarixi, mədəniyyəti və elminin görkəmli xadimlərinin bədii qalereyasının yaradılmasını gözləyir. Yazıçı peşəsi salnaməçi missiyası ilə qohumdur. Və qoy bu çətin yolda sizi ölməz «Vaqif» dramında böyük Azərbaycan şairinin tarixi surətini yaratmış, o dövrün sosial-siyasi həyatının mənzərəsini heyrətamiz gerçəkliklə göstərmiş Səməd Vurğun yaradıcılığının parlaq nümunəsi ruhlandırsın».

Heydər Əliyev xatırlayır ki, Mərkəzi Komitə daima milli ədəbiyyatın klassik irsinin öyrənilməsi və təbliğinə böyük diqqət yetirmişdir. Bunu son illərdə Mərkəzi Komitənin qəbul etdiyi «Bədii ədəbiyyat klassiklərinin əsərlərinin tədqiqatı, nəşri və təbliğinin yaxşılaşdırılması üzrə tədbirlər haqqında», «Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsi, nəşri və populyarlaşdırılmasının yaxşılaşdırılması üzrə tədbirlər haqqında», «Azərbaycan şair-maarifçisi Mirzə Şəfi Vazehin yaradıcılıq irsinin öyrənilməsinin gücləndirilməsi haqqında» qərarları sübut edir.

O, böyük rus mədəniyyəti və ədəbiyyatının milli respublikalarda bədii prosesə müsbət təsiri haqqında söz açır.

«...Rus mədəniyyəti və ədəbiyyatının zəngin ideya-mənəvi və bədii təcrübəsinə müraciət bu gün Azərbaycan ədəbiyyatının gələcək uğurlu inkişafının zəruri şərtidir. Klassik və müasir rus ədəbiyyatının yaradıcılarından yorulmadan sənətkarlıq dərsləri almaq, onun zənginliklərindən bacarıqla faydalanmaq – bu milli ədəbiyyatımızın təkmilləşdirilməsinin, onu beynəlmiləl nailiyyətlərlə və dünyanın bədii təcrübəsilə zənginləşdirilməsinin münbit yoludur».

Heydər Əliyevin VII yazıçılar qurultayındakı çıxışından sonra bir çərək əsrdən artıq vaxt keçsə də, onun yüksək ixtisaslı tərcüməçi kadrlarının yaradılması zəruriliyi, dünya və rus klassikasının seçimi və Azərbaycan dilində nəşri üzrə düşünülmüş, uzunmüddətli planın hazırlanması haqqında fikirləri əvvəlkitək aktuallığını saxlayır.

O vaxt Heydər Əliyev yazıçılara üz tutub bildirmişdi ki, Mərkəzi Komitə respublikada tərcüməçilik işinin vəziyyətini nəzərdən keçirmək və kökündən yaxşılaşdırmaq üçün tədbirlər görmək niyyətindədir. Yeri gəlmişkən, bundan az sonra Azərbaycan Yazıçılar İttifaqından Gürcüstana ezam olunan bu sətirlərin müəllifi Gürcüstan Tərcümə Mərkəzinin iş təcrübəsilə etraflı tanış olmuş və Yazıçılar İttifaqının rəhbərliyinə müvafiq arayış təqdim etmişdi. Sənəd Mərkəzi Komiteyə göndərildi və müəyyən müddətdən sonra Azərbaycanda

xüsusi Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzi yaradıldı və indi də fəaliyyət göstərməkdədir.

Heydər Əliyevin yazıçılar qurultayındakı çıxışında ən əlamətdar məqam Cənubi Azərbaycanla bağlı idi:

«Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədiblər məhsuldar çalışırlar. Yaradıcı təşkilatın rəhbərləri onlara daima diqqət yetirməli, əsərlərini respublikada və onun hüdudlarından kənarda təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələrin möhkəmləndirilməsi, bütün mədəni, mənəvi yaradıcılıq məkanında geniş təmasların inkişaf etdirilməsi haqqında düşünmək, qələm yoldaşları ilə bizdə toplanmış zəngin bədii-estetik təcrübə ilə bölüşmək lazımdır...»

Sonralar, bu nitqindən söz düşəndə Heydər Əliyev qeyd etdi ki, «...o vaxt ilk dəfə «Cənubi Azərbaycan» sözlərindən qadağa götürüldü... Ona qədər mətbuatda «Cənubi Azərbaycan» ifadəsi qadağan idi. Elə fikir vardı ki, bu SSRİ-İran münasibətlərinə ziyan vura bilər. Mən isə Cənubi Azərbaycan şairlərilə sıx əlaqə saxlayırdım. Həmin qurultayda – Balaş Azəroğlunu Respublika Yazıçılar İttifaqının katibi seçdik, ona xalq şairi adını verdik...»[53]

Yeri gəlmişkən, çoxlarına məlum deyil ki, hələ 50-ci illərin sonlarında, Azərbaycan DTK 2-ci şöbəsinin rəisi Heydər Əliyev şəxsən uzaq, qarlı Saransk şəhərinə yollanmış və oradan Məhəmməd Biriyanı – şah rejiminin təqiblərindən SSRİ-yə qaçmış və «yağışdan yağmura düşmüş», Stalin repressiyalarına məruz qalmış və 1949-cu ildə uzunmüddətli həbsə məhkum edilmiş zavallı Cənub şairini Bakıya gətirmişdir. Nə qədər qəribə olsa da, totalitar rejimi hər hansı donunda rədd edən böyük şair və həmin rejimi təmsil edən dövlət təhlükəsizlik orqanlarının zabiti bir-birinə rəğbətlə yanaşmışlar. Tez-tez, uzun sürən söhbətlər aparmışlar. Heydər Əliyev daima bir qədər tuhaf təbiətli şairə himayədarlıq etmiş, axır-axırda vətənə – İrana qayıtmasına yardım göstərmişdir.

1982-ci ildə, Moskvada işləməyə yollanmaq ərəfəsində yazıçılarla görüşüb halallaşarkən, Heydər Əliyev yenə də Cənubi Azərbaycandan söz açacaq, bu dəfə daha açıq şəkildə danışacaq.

Həmin görüşdə iştirak edən Elçin sonralar xatırlayırdı:

«Yadımdadır, o, parçalanmış Azərbaycanın gələcək birliyi haqqında danışır, özü də söhbət müstəqil bir dövlət haqqında gedirmiş kimi danışırdı. O vaxt o, heyrətə gətirən şeylər dedi: «Mən Amerika müxbirini qəbul edirdim, o məndən Cənubi Azərbaycan barədə soruşdu. Düşündüm ki, partiya xadimi kimi cavab versəm, bu, Siyasi



Büroya çatacaq və istənilməz reaksiya doğuracaq. Sonra isə qərara gəldim: nə olur olsun! Və düşündüyümü dedim: biz ikiyə bölünmüş bir xalqıq və haçansa ədalət bərpa olunacaq». Zənnimcə, o dövrün ab-havası və Heydər Əliyevin tutduğu vəzifə kontekstində bu cür etirafların nə demək olduğunu açıqlamağa ehtiyac yoxdur...»[54]

Azərbaycan KP MK birinci katibinin iranlı siyasi mühacirlərlə sıx təmaslarından və İran Xalq Partiyasının xarici fəaliyyətində iştirakından biz ayrıca fəsildə bəhs edəcəyik.

Nəriman Nərimanovun 100 illik yubileyinin keçirilməsinə Moskvanın «hərisi»ni almaq üçün Azərbaycan partiya rəhbəri çox səy göstərməli oldu. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin ilkin sədrlərindən olmuş görkəmli partiya və dövlət xadiminin yubileyi 1970-ci ilə təsadüf etsə də, yubiley tədbirləri iki il sonra keçirildi.

«Soruşa bilərsiniz: niyə? – Heydər Əliyev jurnalist E.Əhmədova ilə müsahibəsində bu məqama toxunurdu. – Çünki bu yubileyi keçirmək üçün iki il mübarizə aparmaq lazım gəldi. Çünki Nərimanova «millətçi» damğası vurulmuşdu... Millətçi ruhlu ermənilər açıq yox, gizli manevrlər törədirdilər, cürbəcür kanallarla MK-da belə rəy yaradırdılar ki, guya N.Nərimanov böyük səhvlər buraxıb və bu səhvlər millətçilik nəzəriyyəsindən irəli gəlib, guya o, yubileyi keçirilməyə layiq şəxsiyyət deyil. Nərimanovun abidəsini qoymaq bizim üçün nə qədər çətin oldu!.. İki dəfə Suslovun, Brejnevin yanına getdim, ancaq onlara Nərimanov barədə başqa informasiyalar vermişdilər. Əjdər İbrahimov İsa Hüseynovla birlikdə Mosfilmdə N.Nərimanova həsr olunmuş dəyərli film çəkmişdi. Bizdən qabaq həmin filmə Moskvada baxmışdılar və ermənilərin təsiri altında olan MK-nın bəzi məsul işçiləri həmin filmi qadağan etmişdilər. Bir sözlə, filmi buraxmırdılar, nə yubileyi keçirməyə, nə də abidəni qoymağa imkan vermirdilər. Çalışdım, mübarizə apardım, neçə adamı inandırdım və axır ki, istəyimə nail oldum»[55].

1972-ci ilin 6 iyun günündə Heydər Əliyev Nəriman Nərimanov heykəlinin açılış mərasimində nitq söylədi. Respublika paytaxtının cazibədar mənzərəsi açılan Cənubi Sovet meydanı məkanına tunc heykəl uğurla uyuşurdu. Hərçənd, postament Nərimanovun massiv fiquru müqabilində alçaqsayağı görünür və ümumi təəssürata xələl gətirirdi.

*(Qocaman sakinlər indiyədək əmindirlər ki, bu natarazlıq siyasi səbəblərdən irəli gəlirdi. Söz-söhbət gəzirdi ki, yerli iqtidara göstəriş verilmişdi ki, Nərimanovun abidəsi Dağüstü parkdakı Kirovun heykə-*

*lini «üstələməməlidir»).* Abidəni Azərbaycan xalq rəssamı, heykəltəraş Cəlal Qaryağdı yaratmış, memarlıq işləri Tahir Abdullayev və Yusif Qədimova məxsusdur.

Həsən Seyidov Bakının dağüstü məhəlləsində heykəlin quraşdırılması ilə bağlı xatırlayırdı:

«Abidənin montajı və tərtibatı ilə Əliş Ləmbəranski məşğul idi. Ona dedilər ki, postament kiçikdir, o da böyütdü. Amma yenə də Nərimanovun fiquru həddindən iri, doğrudan da, postamentə nəmütənasib göründü. Bunun ətrafında sonralar söz-söhbət oldu. Biz abidəni ucaldanda, Moskva hələ rəsmi icazəsini verməmişdi. Yəni Əliyev quraşdırma işlərinin başlanmasına Moskvanın razılığı olmadan sərəncam vermişdi».

1972-ci ilin 29 iyununda Opera və Balet Teatrında N.Nərimanovun 100 illiyinə həsr olunmuş təntənəli yığıncaq keçirildi. Heydər Əliyevin məruzəsi eyni zamanda Azərbaycanda bolşevik təşkilatlarının və respublikada sovet hakimiyyəti qurulması uğrunda mübarizə tarixinə qısa ekskurs oldu.

Heykəl ucaldılması ilə, yubiley keçirməklə iş bitmədi. SSRİ-nin ən sanballı qəzeti «Pravda»da Heydər Əliyevin Nərimanov haqqında məqaləsi çıxdı; müəyyən ixtisarlarla da olsa Nərimanov haqqında film axır ki, ölkə ekranlarında göstərildi. Əvvəl «Doktor Nərimanov» adlanan kinolent, bu soyadın xalq arasında populyarlaşmasını istəməyən səlahiyyətli məmurların təkidilə başqa adla çıxdı: «Ulduzlar sönmür»...

Bakıda Nərimanovun ev muzeyi açıldı.

1979-cu ildə Nərimanovun yaxın və məhrəm münasibətdə olduğu Leninin yurdu – Ulyanovsk şəhərində, Azərbaycanın görkəmli dövlət xadiminə heykəl ucaldıldı. Heydər Əliyev şəxsən təntənəli açılışda iştirak etdi.

Beləliklə, olmazın səylər, bəzən də Kremlin ideoloji təzyiqinə açıq müqavimət bahasına (haqlı olduğunu təsdiqləmək üçün Heydər Əliyev Sov.İKP Mərkəzi Komitəsinə hətta Nərimanovun Leninə məşhur məktublarını da aparıb göstərmişdi) Azərbaycan rəhbəri tarixi ədalətin bərpa edilməsinə və «doktor Nərimanovun» vətənində adının və xatirəsinin əbədiləşdirilməsinə nail olmuşdu.

Daha bir əlamətdar yubiley haqqında Ramiz Mehdiyev öz məqaləsində bəhs edir:

«1969-cu ildə bəzi adamlar Azərbaycanın tarixini saxtalaşdıraraq, Bakı Dövlət Universitetinin açılışını respublikada sovet hakimiyyəti



qurulmasının nəticəsi kimi qələmə verməyə cəhd edir, müxtəlif bəhanələrlə universitetin 50 illik yubileyinin 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə eyni zamanda keçirilməsini istəyirdilər. Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində deyir: «Bu dözülməz idi. Həmin 1969-cu ilin 1 noyabrında biz universitetin 50 illiyini qeyd etdik. Mən özüm bu mərasimdə çıxış etdim. Bakı Dövlət Universitetinin sonrakı yubileylərində dəfələrlə qeyd olunurdu ki, bu çıxış universitetdə geniş əks-səda doğurmuşdu, çünki çıxış Azərbaycan dilində olmuş, universitet qarşısında qoyulan məsələlər isə bizim ümummilli problemlərimizlə sıx bağlı olmuşdur».

Yəqin ki, həmin o yubiley günlərində bir çoxları ümumiyyətlə, ömründə ilk dəfə əsrin əvvəllərində Azərbaycan Demokratik Respublikasını yaradanların hansı məqsəd və niyyətləri olduğu haqqında düşünmüşlər. Axı sovet elmində ADR nümayəndələrini yalnız damğalamaq məqbul sayılırdı, halbuki, sən demə, məhz onlar tərəfindən respublikada ali təhsilin əsaslarını qoyan Bakı Universiteti açılmışdır»[56].

Həmin yubiley günü 1969-cu ilin 1 noyabrında ADU professorlarına və müəllimlərinin böyük dəstəsinə fəxri adlar verilmişdi.

## «Küll bayraqlar bizə qonaq olacaq»...*

**1975-ci ilin iyul ayında** SSRİ Yazıçılar İttifaqının katibliyində oktyabrda keçiriləcək Sovet ədəbiyyatı günlərinə hazırlığın gedişatı müzakirə olundu. İclasda Azərbaycan KP MK birinci katibi Heydər Əliyev, respublika Ali Soveti Rəyasət Heyətinin sədri Qurban Xəlilov, Nazirlər Sovetinin sədri Əli İbrahimov və Sov.İKP MK mədəniyyət şöbəsinin müdiri Vasili Şauro iştirak edirdilər. Həqiqətən də, möhtəşəm bir hadisə gözlənilirdi, hər halda SSRİ-də buna bənzər, belə vüsətli, miqyaslı tədbir keçirilməmişdi.

Heydər Əliyev yazıçılar qarşısında böyük nitqlə çıxış etdi; Azərbaycan iqtisadiyyatı, elmi, mədəniyyətinin inkişafından, «sosializm qanunçuluğundan hər hansı sapıntıların qarşısının alınması» yolunda aparılan mübarizədən danışdı, sovet ədəbiyyatı günləri çərçivəsində keçirilməsi nəzərdə tutulan tədbirləri sadaladı. Yazıçılar briqadalarının respublika bölgələrinə, eləcə də məşhur Neft Daşlarına səfərləri, elmi müəssisələrin işçiləriylə, məktəbli və tələbələrlə görüşlər... Ser-

* A.S.Puşkindən çevirmədir (Red.).

gey Yeseninin yubileyinin bayram edilməsi və Mərdəkanda böyük rus şairinin muzeyinin açılışı... Bayram törənləri sırasında həmçinin Sabir heykəlinin qarşısında poeziya axşamı, sovet ədəbiyyatına həsr olunmuş sərginin açılışı, Kitab bayramı və bir çox başqa aksiyalar var idi.

Bu genişmiqyaslı tədbirin təşəbbüskarı, həmişə olduğu kimi, respublikanın rəhbəri idi; günlərin təşkili ilə bağlı ağır yükün böyük qismi onun mədəniyyət məsələləri üzrə səlahiyyətli elçisi Azad Şərifin öhdəsinə düşmüşdü. Öz dostu, SSRİ Yazıçılar İttifaqının təşkilat məsələləri üzrə katibi Yuri Verçenko ilə Azad Kərim oğlu üç ay bu misilsiz tədbirin hazırlanması ilə məşğul olmuşdur. O zaman nə faks, nə kompüterlər, nə də ki İnternet vardı. Azad Şərif saatlarla MK makinaçılarına işlə bağlı sənədləri diktə edir, saysız-hesabsız ideya və təklifləri ümumiləşdirir, bunlar da dərhal birinci katibin masası üzərinə «qonurdu»...

«Heydər Əliyev mənimlə Mirzə İbrahimovun qarşısında bir vəzifə qoymuşdu: Günlərin açılışında Rəyasət Heyətinin ön sırasında yazıçı və şairlərdən ən azı səkkiz nəfər Sosialist Əməyi Qəhrəmanı əyləşməlidir. Mən və Nazirlər Sovetinin bir əməkdaşı Moskvaya, Verçenkonun yanına yollandıq, onunla siyahı tərtib etdik. Biz həmin adamlara zəng vurub deyirdik ki, qarşıdakı Sovet ədəbiyyatı günləri münasibətilə dəvətnaməni sizə gətirib çatdırmaq istəyirik. Mən mənzilə daxil olub həmin dəvətnamələri təqdim edirdim, söhbət «tumurcuqlanırdı». Və baş çəkdiyim yazıçının evində birdən telefon səslənirdi. Mən dəstəyi götürüb:

– Bəli, Heydər Əliyeviç, buradayam, – deyib dəstəyi ev yiyəsinə verirdim. Heydər Əliyev də hər biri ilə şəxsən danışır, şəxsən də Bakıya, ədəbiyyat bayramına dəvət edirdi. Belə bir zəngdən sonra onlar dəvətdən imtina edə bilərdimi? (**Həqiqətən, mənim qəhrəmanımın timsalında böyük bir rejissor qeyb olmuşdur!**) Nəticədə Rəyasət Heyətində doqquz «ədəbiyyat generalı» yer tutmuşdu».

*(Azad Şərifin söylədiklərindən).*

**1975-ci il, 2 oktyabr.** Lenin adına Sarayda bütün müttəfiq respublikaların adlı-sanlı söz ustalarının – 1100 nəfər! – qatıldığı çoxmillətli Sovet ədəbiyyatı günlərinin təntənəli açılışı oldu. Bu ədəbiyyat bayramına maraq o qədər böyük idi ki, Bakıya həmçinin Bolqarıstan, Macarıstan, Almaniya Demokratik Respublikası, Polşa, Rumıniya, Çexoslovakiya, Fransa, Portuqaliya, Yaponiyadan yazıçı və



şairlər qonaq gəlmişdilər. Ən çoxsaylı dəstə, təbii ki, Rusiya nümayəndələri idi.

Heydər Əliyev açılış mərasimində hərarətli, təsirli nitqlə çıxış etdi. Əlbəttə, bu çıxış o zaman üçün ənənəvi müddəalar və mətləblərdən – ədəbiyyatda partiyalılıq, sosialist realizmi, Lenin milli siyasətinin təntənəsi və i.a. – yan keçməmişdi. Lakin H.Əliyev nitqinin ana xəttini, özəyini Azərbaycan, onun tarixi, keçmişi, bu günü təşkil edirdi. O, böyük Azərbaycan şairlərinin adlarını çəkir, Nizaminin, Səməd Vurğunun misralarını səsləndirir, respublikanın sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət sahəsində uğurlarından söz açır, bununla da ümumittifaq, beynəlxalq miqyaslı auditoriyanın diqqətini doğma yurduna cəlb edir, Azərbaycanı bir daha tanıdır və nüfuzunu qaldırırdı.

Yeri gəlmişkən, belə patriotik «piar» üsulundan o, başqa genişmiqyaslı tədbirlərdə də istifadə edirdi. Məsələn, Azərbaycanda RSFSR ədəbiyyatı və incəsənəti günlərində (**2-11 oktyabr 1972-ci il**) söylədiyi nitqində o, Azərbaycan ədibi və alimi A.Bakıxanovun rus şairi A.Qriboyedovla dostluğunu, Qriboyedovun «Azərbaycanın özünəməxsus maddi mədəniyyət abidələrini böyük maraqla» öyrənməsini və «Nizami nəşinə baş əymək üçün Gəncəyə səfər etməsini» xatırladırdı. O, Rusiya mədəniyyət xadimlərinə onların başqa böyük sələfi – Mixail Lermontovun Azərbaycan tarixilə maraqlanmasını, Azərbaycan dilini yüksək dəyərləndirməsindən söz açıb rus şairinin dostu Rayevskiyə yazdığı məktubdan «Azərbaycancanı öyrənməyə başlamışam – o dili ki, burada və ümumiyyətlə Asiyada fransız dili Avropada olduğu kimi lazımdır», – sözlərini səsləndirmiş, «Moskovski nablyudatel» jurnalında ruscaya tərcümədə dərc olunan «Puşkinin məzarı üstə şair əlilə qondurulan gözəl gül» adlandırılan Mirzə Fətəli Axundovun «Şərq poeması»nı yada salmışdı.

Yəqin ki, bu faktlar bizlərə, azərbaycanlılara yaxşı məlumdur, lakin ilk dəfə respublikamızın qonağı olanların əksəriyyətinə bəlli deyildi. Heydər Əliyev öz vətəni haqqında xoş sorağların eldən-elə, dildən-dilə yayılmasını arzulamış, burada yaşayan soydaşlarını, həmvətənlərini, xalqını sevərək sevdirməyə çalışmışdı. Ona görə də belə tədbirlər zamanı respublikanın qonaqları üçün özü şəxsən marşrutlar seçir, cizgiləyir, Azərbaycan elləri haqqında mümkün qədər geniş və dolğun təsəvvür yaranmasına səy göstərirdi.

Sovet ədəbiyyatı günləri sona yetəndə, SSRİ Yazıçılar İttifaqının birinci katibi Georgi Markov çıxışında demişdir:

«Biz həm köhnə, həm təzə tikilən müəssisələrdə, kolxoz və sovxozlarda, elmi-tədqiqat institutlarında, mədəniyyət və məişət təsisatlarında, nəhayət, zəhmətkeşlərin evlərində, mənzillərində ola bildik.

Və Azərbaycanı «üfüqi» baxımdan öyrənməyimiz onun təbiətinin qənirsiz gözəlliyi, küçə və meydanların özünəməxsusluğu, binaların, bütövlükdə yaşayış məntəqələrinin təkrarsız memarlığı ilə bağlı bir çox heyrətamiz kəşflər gətirdisə, xalqın yaşam tərzinin dərinliklərinə varmağımız, onun «şaquli» kəsimi qarşımızda insanların öz mənəvi dünyasının zənginliyi, rəngarəngliyi yolunda, yeni insanın keyfiyyət və məziyyətlərinin möhkəmləndirilməsi yolunda mübarizəsinin qəribə cizgilərini açdı...»

Yazıçıların bu qonaq-qaralı tədbirlərinin gedişatında bir sıra maraqlı və məzəli əhvalatlar da baş verirdi. Onlardan birini Azad Şərifin dilindən eşitdim.

## Tankın* ulduzunun macərası

Sovet ədəbiyyatı günlərində qonaqların hamısı rayonlara səfərə yollanırlar. Gəncəyə getmiş Maksim Tank Bakıya qayıdan kimi mehmanxanada car çəkir ki, onun Sosialist Əməyi Qəhrəmanı nişanını – Qızıl ulduzunu oğurlamışlar. Vəlvələ qopur.

Heydər Əliyev mədəniyyət şöbəsinin müdirini yanına çağırır. «Birinci»nin kabinetində artıq DTK sədri Vitali Krasilnikov və daxili işlər naziri Arif Heydərov əyləşmişdilər.

Heydər Əliyev Azad Şərifə üz tutur:

– Sənin xəbərin varmı ki, Maksim Tankın Qızıl ulduzu itib? Bu axşam ədəbiyyat günləri bağlanır. Sizin hamınıza deyirəm: yerin altından da olsa tapın ki, axşam ona təqdim edək.

Azad Şərif «birinci»nin kabinetindən çıxıb Dəmiryol rəisi Tofiq Bağırova zəng vurur.

– Tofiq müəllim, təcili sizin yanınıza gəlirəm.

Gəlib işin nə yerdə olduğunu açır:

– Maksim Tankın guya «Sotstruda» ulduzunu çırpışdırıblar. Deyir ki, Gəncədə qatara minəndə ulduz üstündəymiş.

– Hansı vaqonda gəlib?

– Təbii ki, «mejdunarodnı»da.

---

* Maksim Tank—belarus sovet poeziyasının klassiki Yevgeni Skurkonun təxəllüsüdür.



Bağırov öz əməkdaşlarını çağırır:

– Dünən Gəncə-Bakı qatarında «beynəlxalq» vaqonda işləyən bələdçi qadının ünvanını tapın.

Bələdçi iki nəfərmiş.

Onların ünvanlarını öyrənib Azad Şərif idarə əməkdaşlarıyla maşına minərək bələdçilərdən birinin evinə yollanırlar. Çathaçatda küçədə bir qadınla rastlaşırlar.

– Odu ha özü! – dəmiryolçu qadını tanıyıb səsləyir: – Dusya xala!

Dayanırlar.

– Mən milisə gedirəm.

– Nə olub ki? Milisə niyə?

– Deyə bilmərəm. Siz, deyəsən, dəmiryol idarəsində işləyirsiniz? – Azad Şərifi müşayiət edən təsdiqləyir.

– Amma bax bu adamı tanımıram, – Dusya xala Azadı göstərir.

– Mərkəzi Komitədə şöbə müdiridir.

– Bilirsiniz, mən vaqonun içini süpürəndə bir Qızıl ulduz tapmışam...

– Harda?

Sonradan məlum olur ki, həmin ulduz şairin şalvarının «piston»unda imiş. Bir az kefli halda şalvarını kupedə asıb, şalvar döşəməyə düşəndə ulduz da cibişdandan sivişib. Yiyəsi görməyib, qapını çəkib qapayıblar. Səhər Dusya xala kupeni süpürəndə bir işartı gözünə sataşıb...

Azad Şərif qiymətli tapıntını dərhal alır, dəmiryolçu isə bələdçiyə səxavətlə «şirinlik» verir. Şöbə müdiri özünü Mərkəzi Komitəyə yetirib ulduzu birinci katibin qarşısına qoyur...

Heydər Əliyev dərhal DTK və DİN-ə telefon açır:

– Hə, sizdən nə xəbər? Hansısa informasiya varmı? Bir şey tapdınızmı, ya yox? Heç axtarmayın da. O masamın üstündədi.

O, bir hovur ulduzu əlində ora-bura çevirib deyir:

– Azad, sən bu ulduzu ona hamının qarşısında qaytararsan. Özü də Rəyasət Heyətində. Mən hələ öz otağımda olacam. Sən bunu cib dəsmalına bük. Qonaqlar, bizimkilər prezidiumda yerbəyer əyləşəndən sonra, yavaş-yavaş dəsmalı aç, ulduzu göstər...

Bu əməlli-başlı tamaşa idi.

«Ədəbiyyat generalları» yığışandan sonra Azad Şərif ucadan:

– Yoldaşlar, xahiş edirəm mənə bir dəqiqə diqqət edəsiniz.

Ovcundakı dəsmalı tələsmədən açır. Şair itkin ulduzunu görəndə onu ağlamaq tutur... Qəhrəmanlıq ulduzları iki nüsxədə – xalis qızıl

və tuncdan hazırlanıb verilirmiş ki, ikincisi gündəlik daşımaq üçün olsun. Maksim Tank Bakıya orijinalla, yəni əsl Qızıl ulduzla gəlibmiş. Mükafatı alıb öpüşlərə qərq eləyir... Bir neçə dəqiqə sonra səhnəyə heç bir şeydən xəbəri olmamış kimi Heydər Əliyev çıxır. Maksim Tankdan soruşur:

– Sizdə nəsə baş verməmişdimi?

– Yox, yox, Heydər Əliyeviç, – şair deyir. – Hər şey qaydasındadır».

70-ci illər – 80-ci illərin əvvəllərində Azərbaycanda ümumittifaq miqyaslı mədəni törənlər bol-bol keçirilmişdi. Onlardan ən yaddaqalanlarına üz tutaq.

**1974-cü ilin aprelində** Bakıda VII Ümumittifaq kinofestivalı keçirilir. Yeri gəlmişkən, bu sənət bayramı həm də Vasili Şukşinin «Qızıl başınağacı» («Kalina krasnaya») filminin baş mükafat qazanması ilə əlamətdardır.

Azərbaycan KP MK-da görüşdə Nazirlər Soveti nəzdində Dövlət Kinematoqrafiya Komitəsi sədri F.Yermaş demişdir: «Azərbaycanın paytaxtı festivalın keçiriləcəyi yer kimi təsadüfi seçilməmişdir. Bununla Azərbaycan zəhmətkeşlərinin iqtisadiyyat və mədəniyyətin inkişafında uğurlarına... Azərbaycana həmişə şərəf gətirən dostluq və beynəlmiləlçilik ənənələrinə sovet kino xadimlərinin hörməti izhar edilmişdir...»

**Mərkəzi Komitənin mədəniyyət şöbəsinin sabiq müdiri Azad Şərifllə müsahibədən:**

**– Heydər Əliyevin mədəniyyət xadimlərilə ünsiyyətə həvəslə meyl etməsini siz nə ilə əlaqələndirirsiniz?**

– O, uzun illər, ömrünün yarısı boyu DTK məngənəsində olmuşdur – protokol, nizam-intizam, rejim, kölgədə qalmaq zəruriyyəti və i.a. Və birdən – belə enginlik. 1974-cü ildə Bakıda ümumittifaq festival keçirildi. Yadımdadır, mənə «Qoskino»dan Yermaş zəng vurub soruşdu:

– Azad Kərimoviç, bəlkə festivalı sizdə keçirək? Orada Heydər Əliyevdir. Bu miqyas qazandırar.

Əlbəttə ki, miqyas qazandırıldı. Həqiqətən, Azərbaycanın qonaqpərvərliyini bilərək, Bakıya sovet kinosunun «qaymağı» gəldi. Qonaqları respublikanın görməli yerlərində gəzdirdilər.

Heydər Əliyev sovet kinosunun elitasını: «Qoskino» rəhbərlərini, ünlü rejissorları, məşhur kinodramaturqları qəbul etdi.



Həmin kinofestivalda moskvalılar bizə Azərbaycanda «Mosfilm» günlərini keçirməyi təklif etdilər, sonralar keçirdik də. Heydər Əliyev «Nizami» kinoteatrında festivalın açılışında oldu, – binanı bu münasibətlə təzəcə təmir etdirmişdik.

**– Şukşinin «Kalina krasnaya» filminin baş prizə layiq görülməsi ölkədə səs-küyə səbəb olmuşdu. Axı Şukşini o vaxt az qala dissident sayırdılar...**

– Elədir. Özü də bu, Azərbaycan kino sənətçilərinin təklifi idi. «Kalina»nın əleyhdarları çox idi.

O ki qaldı dissidentlik məsələsinə, bu mövzuda bizdə heç vaxt söz-söhbət olmamışdı. Heydər Əliyev: «Biz dissident yox, istedadlar axtarırıq!» təkrarlamağı xoşlayırdı.

**1979-cu ilin oktyabrında** Azərbaycanda Ukrayna ədəbiyyat və incəsənət günləri gerçəkləşdi. Bir il öncə Ukraynada Azərbaycan mədəniyyəti Dekadası keçirilmişdi.

Oktyabrın 10-da ukraynalı qonaqların şərəfinə verilən qəbul zamanı Heydər Əliyev Səməd Vurğunun «Ukrayna partizanlarına» şeirini əzbər söylədi, qardaş Ukraynanın keçmişindən, bugünündən bəlağətlə söz açdı. Sonra da Boris Oleynikin «Həqiqət» şeirindən böyük bir parçanı səsləndirdi...

**1979-cu ilin noyabrı** Bakıda VIII Ümumittifaq televiziya filmlərinin festivalı ilə əlamətdar oldu.

**1980-ci ilin 27 oktyabrı** – Bakıda «Xalqlar dostluğu – ədəbiyyatların dostluğu. Yazıçı sözü – sovet adamının beynəlmiləlçilik və vətənpərvərlik ruhunda tərbiyəsində fəal qüvvədir» başlığı altında söz ustalarının Ümumittifaq yaradıcılıq konfransı açıldı. Toplantıya sovet yaradıcı ziyalılarının görkəmli nümayəndələri, həmçinin xarici ölkələrdən yazıçılar qoşuldular.

Konfransın tərkibi də, ab-havası da, səslənən çıxışlar da Azərbaycan kimi çoxmillətli respublikada vətəndaşların beynəlmiləlçilik ruhunda tərbiyəsində, tarazlı və ölçülüb-biçilmiş siyasət aparılmasında əldə edilmiş böyük uğurları təsdiqlədi.

**1981-ci ilin 17 noyabr günü**. Moskvada, İttifaqlar Evinin Sütunlu salonunda dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 840-cı ildönümünə həsr edilmiş təntənəli yubiley gecəsi keçirildi. Burada ölkənin partiya və siyasi elitası, o cümlədən Sov.İKP MK katibləri M.Qorbaçov və M.Zimyanin, müttəfiq respublikalardan yazıçılar təşkilatlarının rəhbərləri, şərqşünas alimlər

və başqa mədəniyyət xadimləri iştirak edirdilər. Məruzə ilə Azərbaycan KP MK ideologiya üzrə katibi Həsən Həsənov çıxış etdi. Həsən müəllim mənimlə söhbət edərkən, Heydər Əliyevin Sov.İKP Mərkəzi Komitəsinin gələcək baş katibi M.Qorbaçovla münasibətlərini səciyyələndirən maraqlı bir epizodu xatırladı:

«Mən bilavasitə tədbirin təşkili ilə məşğul idim. Heydər Əliyevin məsləhətilə məni məruzəçi kimi təsdiqlədilər. Biz bütün Siyasi Büro üzvlərinə, nazirlərə, Nazirlər Sovetinin yüksək vəzifəli əməkdaşlarına dəvətnamə göndərdik.

Yubiley günü gəlib çatdı, Sütunlu Salona yollandıq, tədbirin vaxtı yaxınlaşırdı. Mən Rəyasət Heyətinin otağına girib Heydər Əliyevə məlumat verirəm ki, salon doludur, bütün qonaqlar yığışıblar. O dedi: «İndi Siyasi Büronun iclasıdır, məni tədbir keçirdiyimə görə buraxıblar. Amma başqa Siyasi Büro üzvləri çətin ki çatdıralar. Demək, biz yubiley gününü təyin edəndə nəyisə nəzərə almamışıq». Biz bu söhbəti bitirməmişdik ki, qapı açıldı və Azərbaycanın daimi nümayəndəsi Ənvər Hüseynov o vaxt Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katibi M.Qorbaçovu içəriyə ötürdü. O, daxil olub Heydər Əliyevi çox dostcasına salamladı. Sonra vəcdlə əlavə etdi: «Гейдар Алиевич, я отпросился ради Вас. Никого с заседания Политбюро не отпускали, но я настоял, что не могу проигнорировать приглашение Гейдара Алиевича».*

Heydər Əliyev qısaca: «Спасибо за внимание»** dedi. Sonra məni Qorbaçova təqdim edib bildirdi ki, MK-nın ideologiya üzrə katibiyəm və tədbirdə məruzəçi olacam, sonda da zarafata keçdi: «Если у тебя есть какие-нибудь вопросы по Низами, смело обращайся к нему».*** Onlar salona keçdilər və tədbir başlandı.

Bu və bəzi başqa faktlar mənə bu nəticəyə gəlməyə əsas verir ki, Qorbaçov Heydər Əliyevlə çox hesablaşırdı, sadəcə hesablaşır demək azdır, hətta, demək olar ki, onun tərəfindən xoş münasibət qazanmaq və özünə qarşı rəğbət doğurmaq istəyirdi. Düşünürəm ki, Qorbaçovun Heydər Əliyevə münasibətində sonrakı dəyişmələr, qısaca ifadə etsək, sabiq baş katibin onu əhatə edən adamlara qeyri-səmimi və konyunktur münasibət bəslədiyinə dəlalət edir».

* «Heydər Əliyeviç, mən Sizə görə izn alıb gəldim. Heç kimi Siyasi Büronun iclasından buraxmırdılar, amma mən təkid etdim ki, Heydər Əliyeviçin dəvətini saymamazlığa sala bilmərəm».

** «Diqqətinə görə sağ ol».

*** «Nizamiyə aid hansı sualların varsa, cəsarətlə ona müraciət et».



«Mən o vaxt artıq Moskvada işləyirdim. 1981-ci ilin yaz çağında biz Bakıda SSRİ Rəssamlıq Akademiyasının genişləndirilmiş iclasını keçirirdik. İki yüz nəfər gəlmişdi – hamısı da Rəyasət Heyətinin üzvləri. İttifaqın Moskva, Leninqrad, Kiyev, Tbilisidəki ən böyük institutlarının professorları idi. Bu, təsviri-sənətin əsl bayramı idi. Tədbir çərçivəsində ölkə rəssamlıq institutlarının 1980-ci il buraxılışını təmsil edən tələbələrin diplom işləri sərgilənmişdi. Yadımdadır, Heydər Əliyev Elmlər Akademiyasında bir saat yarımlıq nitq söylədi, sərgiyə də gəldi».

*(Tahir Salahovun söhbətindən).*

«Heydər Əliyeviç təbiətən ürəyi geniş idi – qonaqpərvərliyində əsl Şərq vüsəti vardı. İndiyədək sabiq müttəfiq respublikaların artistləri Azərbaycanda mədəniyyət və incəsənət dekadaları keçirilərdə necə qəbul olunduqlarını xatırlayırlar: «Əgər bizdə o vaxt ölkədə kommunizm vardısa, o da Əliyev kommunizmi idi». Hərdən iki-üç yüz nəfər axışıb gəlirdi, hamısı da Heydər Əliyevin qonağı olurdular: Bakı mehmanxanalarında onlar üçün kürü, ləziz yeməklər pulsuz-parasız idi...

Amma Heydər Əliyeviç nəinki qonaqları qəbul edir, özü də onların qonağı olurdu: demək olar, bütün konsertlərə, tamaşalara gəlirdi. Həm də sadəcə gəlmək yox, artistlərlə görüşə hazırlaşırdı ki, antraktda, ya çıxışlarından sonra səhnə arxasında onlarla öz professional dillərində, bərabər səviyyədə söhbətləşsin»[57].

*(Müslüm Maqomayevin xatirələrindən).*

Heydər Əliyevdə məni bir cəhət heyrətə gətirirdi. Mən bu insanı dahi sayıram, çünki o, sutkada 24 saat olmasa da, 18 saat yəqin işləyirdi. İstirahətinə cəmi 5-6 saat qalırdı.

Bax, tutaq ki, Rusiya Federasiyasının mədəniyyət günləridir. Onun qəbuluna Paxmutova və Dobronravov gəlirlər. Onunla söhbətdən sonra:

– O, əlbəttə ki, musiqiçidir, – deyirlər.

Rəssamlar gəlirlər, çıxanda:

– İlk dəfə partiya məmurunu görürük ki, Monenin kim olduğunu və postimpressionizmin nə olduğunu gözəl bilir, – deyirlər.

Yəni o, hər kəslə onun dilində danışırdı».

*(Mais Məmmədovun xatirələrindən).*

«Heydər Əliyev mənəvi tərbiyə, korrupsiya ilə mübarizə dalğasında yüksəlmiş siyasi fiqur sayılsa da, o, tarix, milli siyasət məsələlərinə çox diqqət yetirirdi. Ona görə də respublikada belə tədbirlər keçirilməsi ideyasını dəstəkləyirdi ki, onlar müəyyən məqamda Bakını əslində SSRİ-də beynəlmiləl problematikası mərkəzlərinin birinə çevirmişdi. Bizdə milli münasibətlər, beynəlmiləl siyasət problemləri üzrə ən sanballı elmi simpoziumlar keçirilirdi. Dünya şöhrətli, ən aparıcı alimlər bizə gəlirdilər. O, gələnləri qəbul edir və bütün başqa hallarda olduğu kimi, qonaqlar onun kabinetindən Azərbaycanın təbliğatçıları kimi çıxırdılar... Üstəlik neçə il sonra Bakı konfransının materialları əsasında öz regionlarında doktorluq dissertasiyaları müdafiə etdiklərini mənə söyləyən adamlar da tanıyıram. Təbii ki, belə toplantılarda Heydər Əliyev çıxış edirdi, bu da onun ümumittifaq məkanında özünün imicinin formalaşmasında önəmli rol oynamışdır. Bu forumlar SSRİ Elmlər Akademiyası xəttilə, Sov.İKP MK nəzdində marksizm-leninizm İnstitutu, bizim Elmlər Akademiyamızın müstəvisində keçirilirdi. Çox görümlü, zəngin məzmunlu iş gedirdi.

Və o, Moskvada işlədiyi və artıq bütün ölkə ilə üz-üzə qaldığı zaman artıq yeni bir şəxs deyildi. Onu Bakıda gördüyü işlərin sayəsində bütün ittifaq tanıyırdı».

*(Əfrand Daşdəmirovla müsahibədən).*

**1973-cü ilin 31 oktyabrında** Opera və Balet Teatrında Qafqaz uğrunda aparılmış vuruşların 30-cu ildönümü münasibətilə təntənəli yığıncaq keçirildi. Heydər Əliyev bu bayramı geniş miqyasda təşkil etmiş, Rusiyadan, Gürcüstandan, Ermənistandan, Şimali Qafqazdan qonaqlar dəvət etmişdi.

Maraqlıdır ki, çoxsaylı qonaqlar qarşısında söylədiyi nitqində o, Bakı neftinin Böyük Vətən müharibəsi cəbhələrində qazanılan qələbənin həlledici amillərdən biri olduğunu vurğulamışdı. Bu barədə o vaxt da, indinin özündə də çox könülsüz xatırladırlar. Odur ki, Heydər Əliyevin bunu hələ sovet dövründə var səsilə danışması xüsusən önəmlidir.

«Donetsk və Moskvayanı kömür mədənləri, Maykop düşmən tərəfindən işğal edilmişdi. Düşmən böyük neft rayonu olan Qroznıya da xeyli yaxınlaşmışdı. Bütün bunlar ölkənin yanacaq-enerji ehtiyatlarını kəskin azaltmışdı. Bakı öz mədənləri, neftayıran zavodları ilə o vaxt hərbi qüvvələrin, fabrik və zavodların yanacaq və sürtkü yağı materialları ilə təmin edilməsində, əslində, yeganə baza olaraq qalmışdı. O ağır illərdə ölkədə basil edilən bütün neftin dörddə üç hissəsini Azərbaycan verirdi. Bakı nefti ilə hərəkətə gətirilən tanklar və təyyarələr düşməni haqlayır və ölümcül zərbələr endirirdilər...»



**1975-ci ilin 7 mayında** Lenin adına Sarayda Bakı zəhmətkeşlərinin Qələbənin 30-cu ildönümünə həsr olunmuş yığıncağı keçirildi. Heydər Əliyev parlaq nitqlə çıxış edərək, növbəti dəfə Bakı neftçilərinin faşizm üzərində zəfər çalınmasında oynadığı rolu qeyd edir.

Bu kitabın qəhrəmanının şəxsi arxivində xarici jurnalistlərin Bakıda Qələbə günü bayramından görüntüləri cizgiləyən unikal bir yazını üzə çıxara bildim. Heydər Əliyevin şəxsi arxivində saxlanılan, çap edilmiş mətni olduğu kimi verirəm. Təəssüf ki, materialın dərc olunduğu (yayımlandığı) kütləvi informasiya vasitəsinin adı göstərilmir.

**D.HOLL**
**TAX-C.HERROD**

**1975-ci ilin 8-9 mayında Bakıda Qələbə gününün bayram edilməsi haqqında**

Xarici müxbirlər bayram haqqında bəhs edib Sovet Azərbaycanının rəhbəri haqqında təəssüratlarını bölüşürlər:

«Əliyev barədə səfirin qəbulu zamanı, kütləvi mitinqdə və Qələbə şərəfinə ziyafətdə (üç tamamilə fərqli tədbirdə) onun davranışını müşahidə edərək, mən etiraf edirəm ki, o, mənə yetərincə güclü təsir bağışladı. Onun şəxsiyyəti, yəqin ki, ən yaxşısı «təsirli» sözü ilə səciyyələnə bilər, natiqlik üslubu da bir çox cəhətdən güclü təsir bağışlayan görkəmi və gur səsi ilə uyuşur. Kütləvi mitinqdə o, özünü elə aparırdı ki, sanki Nyu-Hempşirdə seçkiqabağı kampaniyasının «praymeri»ndə* iştirak edirdi.

Uşaqlar gül-çiçək təqdim edəndə o, onları ən yaxşı siyasi ərkanla bir-bir öpdü; fasilədə camaatla əl tuta-tuta, xoş ovqatla adamların arasında gəzir, ayrı-ayrı vətəndaşlarla qayğıları haqqında əhvallaşmaq üçün ayaq saxlayır (bir qoca ilə üzüm məhsulu barədə necə müzakirə etdiyini eşitmişdim). Sözün qısası, o, zövqsüz geyinib-keçinmiş qaradinməz partiyaçılarla daban-dabana ziddir».

Daha sonra jurnalistlər beş il birinci katib vəzifəsində olan Heydər Əliyevin yerli muxtariyyətin gücləndirilməsi vasitəsilə iqti-

* ABŞ-da siyasi partiyaların daxilində keçirilən bir neçə partiya üzvündən ölkə prezidentliyinə namizədin seçilməsi kampaniyası.

sadiyyatın ümumi yüksəlişindən tutmuş Bakıda ağacların sayının üçqat artmasınadək – hər sahədə görünən xidmətlərini qeyd edirlər.

70-ci illərin başlanğıcından Azərbaycanda beynəlxalq miqyaslı tədbirlər müntəzəm keçirilir. 24-cü Beynəlxalq astronavtik federasiyasının konqresi də bu qəbildəndir (Bakı, 1973-cü ilin oktyabr ayı). Diqqətəlayiq faktdır ki, əvvəlki iyirmi üç konqres SSRİ hüdudlarından kənarda keçirildiyi halda, ardınca gələn toplantının məkanı Bakı olmuşdur. Azərbaycana o zaman məşhur kosmonavtlar, astronavtlar, konstruktorlar, kainatın məchul üfüqlərinə yol açanları təmsil edən elm və əməl adamları gəlmişdilər. Və məhz bu toplantıda amerikalılar ilk dəfə çoxdəfəli «Şatl» kosmik nəqliyyat gəmisinin yaradılmasını açıqlamışdılar.

**1976-cı ilin 12 may günü** – Lenin adına Sarayda Asiya və Afrika Xalqları Həmrəyliyi Komitəsinin 20 illiyi ilə uzlaşdırılmış həmin nüfuzlu təşkilatın IV Sovet konfransı açıldı. Bakıya bütün respublikalardan, Moskvadan, Leninqraddan nümayəndə heyətləri, sosialist ölkələrindən, Afrika, Asiya dövlətlərindən qonaqlar, BMT, Afrika Birliyi Təşkilatı, Ümumdünya Sülh Şurasının təmsilçiləri gəlmişdilər. Asiya və Afrika Xalqları Həmrəyliyi Təşkilatının nüfuzlu nümayəndə heyətinə Baş katib Yusif əs-Sibayi başçılıq edirdi. Konfransın açılışında Heydər Əliyev nitq söylədi.

O vaxt Mərkəzi Komitənin ideologiya üzrə katibi vəzifəsinə seçilmiş Ramiz Məmmədzadə konfrans ərəfəsində görülən nəhəng təşkilat işlərini xatırlayır:

«Təbii ki, çoxsaylı məsələləri razılaşdırmaq üçün tez-tez Moskvaya uçmalı olurduq. Məşhur Rusiya alimləri Georgi Arbatov və Yevgeni Primakov bizə çox kömək göstərdilər. Yadımdadır, Heydər Əliyev məndən xahiş etdi ki, Moskvada Arbatovun neçə adam, hansı dairələrlə bağlı olduğunu və i.a. araşdırıb öyrənim. Mənə dedilər ki, Arbatov Leonid İliç Brejnevlə çox yaxındır. Heydər Əliyeviç bundan respublikanın maraqları üçün faydalanmaq niyyətilə akademikə SSRİ Ali Soveti deputatlığına Şamaxı rayonundan namizədliyinin irəli sürülməsini təklif etdi.

Elə həmin vaxt, məhz bu konqres başlayınca, «Azərbaycan» mehmanxanasının inşası sona yetirildi».

*Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsinin sabiq müdiri Əfrand Daşdəmirov haqlıdır: Bakıda keçirilən beynəlxalq forumlar*



*respublikanın və onun liderinin Sovet İttifaqı hüdudlarından uzaqlarda tanınmasına rəvac verirdi. Eləcə də Heydər Əliyevin özü təcrübə toplayır, dünya səviyyəli siyasətçi kimi yetkinləşirdi. Öz çıxışlarında o get-gedə daha çox ölkənin daxili problemləri çərçivəsindən kənara çıxır, sovet dövlətinin xarici siyasəti, müasir beynəlxalq vəziyyət, antimüstəmləkə və milli azadlıq hərəkatı məsələləri haqqında kəskin və prinsipial mövqeyini bildirirdi.*

*Bundan başqa, 70-ci illərdə Heydər Əliyev xarici ölkələrə səfərə çıxan partiya-hökumət nümayəndə heyətlərinə dəfələrlə başçılıq etmişdi. Respublika partiya lideri kimi ilk dəfə Heydər Əliyev 1971-ci ilin iyun ayında Sov.İKP MK baş katibi L.Brejnevin başçılıq etdiyi partiya nümayəndə heyəti tərkibində xarici səfərə yollanmışdı. Sovet elçiləri o vaxt Brejnev başda olmaqla Almaniya Demokratik Respublikasında olmuş, Almaniya Sosialist Vahid Partiyasının VIII qurultayında iştirak etmişlər.*

*Bir il də keçməmiş, 1972-ci ilin aprelində Heydər Əliyev özü Sov.İKP nümayəndə heyətinə başçılıq edərək Dəməşqə yollanmış, Ərəb Sosialist İntibahı Partiyasının təsis edilməsinin 25-ci ildönümünə həsr edilən bayram tədbirlərinə qoşulmuşdur.*

*1976-cı ilin 22-28 sentyabr günlərində İttifaq Şurası sədrinin müavini, Sov.İKP MK Siyasi Büro üzvlüyünə namizəd, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin başçılıq etdiyi SSRİ Ali Sovetinin nümayəndə heyəti Yuqoslaviyada da rəsmi dostluq səfərində oldu. Səkkiz gün davam edən səfəri sovet informasiya agentlikləri izləyir, SİTA günbəgün öz kanallarıyla geniş xəbərlər yayırdı. Nümayəndə heyəti SFYR tərkibində olan Çernoqoriya, Serbiya, Xorvatiya, Makedoniyada qarşılandı, ölkənin ən böyük sənaye müəssisələrilə tanış oldu, Yuqoslaviya rəhbərlərilə bir sıra görüşlər və danışıqlar apardı.*

*1978-ci ilin 31 martında Heydər Əliyevin başçılıq etdiyi Sov.İKP nümayəndə heyəti Hindistan Kommunist Partiyası XI qurultayının işində iştirak etdi.*

*1982-ci ilin 20 aprelində Heydər Əliyev, SSRİ Ali Soveti nümayəndə heyətinin Meksika Milli Konqresinin dəvəti ilə Mexiko şəhərinə rəsmi dostluq səfərinə başçılıq edir. Bu barədə məlumat SİTA kanalları ilə verilir. Respublika və mərkəzi qəzetlər sovet elçilərinin Meksikanın hökuməti və parlament təmsilçilərilə danışıqlarını ətraflı işıqlandırır, Heydər Əliyevin nitqləri və çıxışlarından parçalar dərc edir, yerli jurnalistlərlə müsahibələrindən, nümayəndə heyətinin muzeylərlə, memarlıq abidələrilə tanış olmasından, konsertləri dinləməsindən söz açırlar. Meksika prezidenti X.Lopes Portilyo ilə mühüm*

*beynəlxalq mövzularda söhbət zamanı da, ölkənin ən böyük «Bankomer» bankının təşkil etdiyi iş adamları ilə ziyafətdə SSRİ-Meksika iqtisadi əlaqələri haqqında fikir mübadiləsi aparanda da Heydər Əliyev özünü eynilə sərbəst, «öz yerində» hiss edirdi. Kampeçe körfəzində dəniz neftçıxarma rayonuna səfər Heydər Əliyevdə xüsusi maraq doğurdu. O, «Akalxota» dəniz platformasına baş çəkmiş, neftçilərin yaşayış və iş şəraitilə, bu zəngin yatağın kəşf edilməsinin tarixi, neft hasilatının artırılması, eləcə səmt qazından daha səmərəli istifadə olunması perspektivlərilə maraqlanmışdı. Daha bir məqam: Heydər Əliyev Kankun şəhəri yaxınlığında ölkənin kurort zonası ilə tanışlıqdan məmnun qalmış, otelləri, turist komplekslərini nəzərdən keçirmiş, inzibatçılarla, dincələnlərlə söhbətləşmiş, kurort işinin təşkili, turistlərə xidmət edilməsilə maraqlanmışdır.*

*Bütün bu səfərlər, xarici ölkələrin rəhbərləri, beynəlxalq kommunist və milli-azadlıq hərəkatları liderləri ilə şəxsi tanışlıq və ünsiyyət Heydər Əliyevin üfüqlərini genişləndirir, siyasi təfəkküründün miqyaslarını şərtləndirir, elə keyfiyyətlərin püxtələşməsinə zəmin yaradırlar ki, Siyasi Büro üzvü və Sovet hökuməti başçısının birinci müavini vəzifəsində Heydər Əliyevin tezliklə karına gələcəkdilər.*

**1977-ci ilin 26 may** tarixində Lenin adına Sarayda sovet xarici siyasətinin mühüm istiqamətini kəsb edən «Böyük Oktyabr Sosialist inqilabı və Asiya, Afrika və Latın Amerikası ölkələrində milli-azadlıq hərəkatı» mövzusunda beynəlxalq elmi konfrans işinə başladı.

Konfrans iştirakçılarına Sov.İKP MK baş katibi L.İ.Brejnevin təbrik məktubu çatdırıldı. Bakıya 70 ölkənin elçiləri – beynəlxalq kommunist, fəhlə və milli azadlıq hərəkatının nümayəndələri, sosialist dövlətlərin görkəmli siyasi və ictimai xadimləri, Asiya, Afrika, Latın Amerikası ölkələrinin milli-demokratik partiyalarının rəhbərləri, nüfuzlu sovet alimləri gəlmişdilər.

Qonaqların sırasında Çili kompartiyasının baş katibi Luis Korvalan, İran kommunistlərinin lideri Əziz Məhəmməd, Braziliya Kommunist Partiyasının rəhbəri Luis Karlos Prestes, Asiya və Afrika Xalqları Həmrəylik Təşkilatının baş katibi Yusif əs-Sibayi, Kuba kompartiyası Mərkəzi Komitəsinin və Dövlət Şurasının üzvü Severo Aqirre del Kristo və başqa şəxslər vardı.

Heydər Əliyevin bu mötəbər məclisin kürsüsündən səsləndirdiyi məruzədə «Oktyabr inqilabının tarixi əhəmiyyəti» vurğulanır, Sovet Azərbaycanının nailiyyətlərindən bəhs edilir, milli-azadlıq hərəkatının müasir vəziyyəti və perspektivləri nəzərdən keçirilirdi.



Konfrans iştirakçıları respublikanın böyük sənaye müəssisələrində olmuş, Kirovabad, Quba və Şamaxı rayonlarına səfər etmişlər. Sonralar, respublika KP MK-nın iyunun 10-da keçirilən plenumunda Heydər Əliyev bu toplantının əhəmiyyətini belə dəyərləndirmişdir: «Bakı beynəlxalq elmi konfransı haqlı olaraq Böyük Oktyabr Sosialist inqilabının 60 illiyinə həsr olunmuş tədbirlər sırasında layiqli yer tutmuşdur. Onun yekunları milli-azadlıq inqilablarının elmi-praktiki təhlilinə və qanunauyğunluqları, başlıca təmayülləri və inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə yeni təkan vermişdir. Bunlar, şübhəsiz ki, müstəqil inkişaf yoluna qədəm qoymuş ölkələrdə yeni cəmiyyət quruluşunun strategiya və taktikasının işlənilməsinə müvəffəqiyyətlə yardım göstərərək, onları mübarizə təcrübəsilə zənginləşdirərək, geniş kütlələrin, bütün sülh və tərəqqi qüvvələrinin siyasi fəallığının artırılmasında yeni stimul olacaq»[58].

70-ci illərin sonları – 80-ci illərin başlanğıcında Sovet Asiya və Afrika Ölkələri ilə Həmrəyliyi Komitəsində Mirzə İbrahimovun birinci müavini olmuş Aleksandr Dzasoxov sonralar Vaqif Mustafayevin çəkdiyi «Birinci» filmində xatırlayır:

«Bizim xahişlərimizə Heydər Əliyeviç tərəfindən diqqətli münasibət sayəsində biz Bakıda bir neçə böyük beynəlxalq forumlar keçirmək imkanı əldə etmişdik. O dövrün Azərbaycanı yüksəlməkdə idi. O, çox müasir idi, yeni, həm də tamamilə unikal sahəli sənaye yaradılırdı... Və respublika Elmlər Akademiyası çox nüfuzlu idi. Bütün bunlar Azərbaycan paytaxtına gələsi olanları maraqlandırır, burada, cavan dövlətlər üçün çox vacib olan təhsil, təbii sərvətlərdən rasional faydalanma haqqında hansısa yeni təsəvvürlər, deyək ki, əxz edə biləcəkləri, üzlərinə açıq, qapanmamış bir ocaq görürdülər.

Heydər Əliyevdə qonaqla ən düzgün davranış variantını tapmaq qabiliyyəti vardı, yəni o, əlbəttə, hər siyasətçinin ehtiyacı olan, lakin heç də hər biri belə məharət sahibi ola bilməyən hansısa bir «ədəb qaydalarına» malik olmalıydı. Xalq içində buna diplomatik bacarıq deyirlər, ancaq mən, diplomat olaraq bunu daxili mədəniyyət adlandırmaq istərdim. O, dərsliklərlə formalaşmır, necə deyirlər, doğma ocaqdan, evdən, ailədən qaynaqlanır».

A.Dzasoxovun sözünə qüvvət verərək, Heydər Əliyevin Çili kommunistlərinin lideri Luis Korvalanla görüşündən bir maraqlı epizod söyləmək istəyirəm. Bugünkü gənc nəslə onun adı bəlkə də heç nə demir, amma 70-ci illərdə Korvalan azadlıq rəmzi, Pinoçet dikta-

turasına qarşı mübarizənin bayrağı misalında idi. Sovet hökuməti dustaq olan Çili kommunistini dissident yazıçı Vladimir Bukovskiyə dəyişdirməyə nail olmuşdu, hərçənd Korvalan onun əslində sosializmin düşməninə tay edilməsini düşünərək bu dəyişmədən çox da məmnun qalmamışdı...

Korvalan Moskvaya gəlib çıxır, onun üçün Sovetlər ölkəsi boyu təmtəraqlı səfərlər təşkil olunur. Onu qarşılamaq Azərbaycanın da öhdəsinə düşür.

## Heydər Əliyevin Luis Korvalanla görüşü

«Jurnalistləri bir-iki dəqiqəlik «birinci»nin kabinetinə buraxdılar. Sonra köməkçi qonağı dəvət etdi. Luis Korvalan, məşhur Luqo içəriyə daxil olur. Qaşqabaqlı, kəmiltifatdı. Heydər Əliyeviçlə quruca əl tutdu. Uzun taxta müştüyünü çıxarıb «Soyuz-Apollon» siqaretini ora dürtdü və ev yiyəsindən icazə almadan yandırıb tüstülətdi. Heydər Əliyeviçin kabinetində heç kəs heç vaxt siqaret çəkməzdi – o, buna qarşı dözümsüz idi. Heydər Əliyev masa arxasından qalxıb istirahət otağına keçdi və qayıdıb qonağın qarşısına külqabı qoydu.

Xülasə, söhbət başladı. Heydər Əliyeviç ona Azərbaycandakı işlərdən, pambıqçılığın, üzümçülüyün inkişafından, bizim yaxşı şərab hazırlamağımızdan və sairə şeylərdən danışır, Korvalan birdən onun sözünü kəsir: «Biz deyirik Qərbdə kapitalizm xalqı içki düşkünü eləyir ki, sosial problemlərdən uzaqlaşdırsın. Siz isə öz şərabınızı tərifləyir, şərabçılıq sənayesinin inkişafından danışırsınız. Bu necə olsun?».

Heydər Əliyev bir qədər susub dedi: «Bilirsiniz, yoldaş Korvalan, mənca, alkoqol problemi – siniflərdən kənar problemdir. Mən bununla bağlı bir maraqlı lətifəni xatırladım. Bizim Qafqazda çoxdan üç böyük xalq – ermənilər, gürcülər və azərbaycanlılar yaşayır. Onlar bir-birinə atmaca atmağı xoşlayırlar. Demək belə: bir dəfə gürcü, erməni və azərbaycanlı toplaşıb mübahisə edirlər ki, kimin konyakı daha yaxşıdır. Erməni döşünə döyür: «Bizim konyak hamıya bəllidir, dünyada ən yaxşısıdır». Gürcü deyir: «Onda bizim konyak İttifaqda ən yaxşısıdır». Azərbaycanlı başının ardını qaşıyıb deyir: «Bizə qalsa, təvazökar adamlarıq. Bizim konyak «Zaqafqazye»də ən yaxşısıdır». Korvalana lətifəni tərcümə etdilər. O, uşaq kimi uğunub getdi, məzələndi, açılışdı. Söz-sözü çəkdi, söhbətləri tutdu, yağ kimi



axdı, vidalaşanda isə qonaq Heydər Əliyevlə qucaqlaşıb öpüşdü. Yəni onun yanından tamamilə başqa əhvalda çıxdı».

*(Azərinformun sabiq müxbiri Vladimir Morozkovun söylədiklərindən).*

**1981-ci ilin 3 sentyabrında** Bakıda «Gənclik, inkişaf və sülh» mövzusunda beynəlxalq gənclər konfransı açıldı. Burada 38 ölkənin elçiləri – Asiya, Afrika, Latın Amerikası, sosialist dövlətləri, beynəlxalq gənclər təşkilatları, ÜLKGİ, SSRİ Gənclər Təşkilatları Komitəsinin təmsilçiləri iştirak etdi. Konfransı BMT baş katibi Kurt Valdhaym və YUNESKO-nun baş direktoru Amadu M.M'Bou təbrik etdilər. Heydər Əliyev toplantının açılışında nitq söylədi.

**1981-ci ilin 21 sentyabrı** ümumi və tətbiqi kimya üzrə XII Mendeleyev qurultayının keçirilməsi ilə əlamətdar oldu. Tədbiri açan SSRİ EA vitse-prezidenti akademik Y.Ovçinnikov bu rəqəmləri səsləndirdi: qurultaya SSRİ-nin bütün bölgələri və respublikalarından 2 mindən artıq alim və sənaye xadimləri gəlmiş; sosialist ölkələrinin kimya sənayesinin rəhbərləri, dünyanın 20-dən artıq ölkələrindən kimya elminin adlı-sanlı təmsilçiləri qurultayda iştirak edirlər. Qurultayın açılışında təbrik sözü ilə çıxış edən Heydər Əliyev L.Brejnevin iştirakçılara ünvanlanmış məktubunu oxudu.

Bu forumun iştirakçısı U.Osmanov xatırlayır:

«Azərbaycan liderinin təbrik çıxışı bütün qurultay iştirakçılarını yüksək mədəniyyəti, professionallığı ilə məmnun etdi. Saf rus dilində, kağızsız-filansız söylədiyi nitq yeni fikir və ideyalar daşıyırdı və gur alqışlarla qarşılandı. İclaslararası fasilədə tanınmış sovet alimi, akademik Bonifati Kedrov qonaqların arasında qeyd etdi: «Azərbaycan kimyaçılarının bəxti gətirmişdir – onların Heydər Əliyevi var»[59].

**Svetlana Qasımova ilə söhbətdən:**

«70-ci illərdə Bakıda ümumittifaq əhəmiyyətli tədbirlər tez-tez keçirilirdi. Bunda Heydər Əliyeviçin böyük xidmətləri var. Mərkəzi Komitənin birinci katibi olaraq, o, nəinki millətin şüurunu yüksəltdi, həm də millətin öz-özünə inamını dirçəltdi, tərbiyələndirdi. Eyni zamanda Azərbaycan xalqını Sovet İttifaqında tanıtdı.

**– Siz yəqin özünüz də o ümumittifaq miqyaslı tədbirlərin iştirakçıları ilə ünsiyyətdə olmusunuz?**

– Bəli, mən bütün tədbirlərdə iştirak edirdim. Və heç vaxt Heydər Əliyevi əhatə edən vurğunluq ab-havasını unutmayacam. Qonaqlarımız ondan ayrıla bilmirdilər. Onunla görüşəndən sonra təəssürat-

larını bildirirdilər: «O, elə bir nəhəngdir ki, elə fenomenal şəxsiyyətdir ki! O, nə qədər zəngin biliklidir!». Kimyaçılar qurultayından tutmuş ədəbiyyat və incəsənət günlərinədək bütün tədbirlərin iştirakçıları belə deyirdilər.

1980-ci ildə Azərbaycanın 60 illiyinə müttəfiq respublikaların hamısından MK birinci katibləri öz xanımları ilə gəlmişdilər. Bakıda təntənəli yığıncaq oldu, xalq təsərrüfatı nailiyyətlərinə həsr olunmuş gözəl sərgi açıldı, orada hər nazir öz sahəsindən məlumat verdi. Sonra «Gülüstan» sarayında qəbul təşkil olundu. Bu, «Gülüstan»da keçirilən ilk tədbir idi. Təsəvvür edə bilərsiniz, hamımız necə həyəcan keçirirdik! Qəbulda, gərək ki, 976 nəfər iştirak edirdi. O cümlədən bütün MK birinci katibləri.

Heydər Əliyevin bu qəbulu necə aparması barədə söyləmək istəyirəm. O, Sovet İttifaqının bütün xalqları şərəfinə badə qaldırdı, sonra hər respublika – Gürcüstan, Ermənistan, Özbəkistan və i.a. haqqında ayrıca söz dedi. O, elə şeylərdən danışırdı ki, bu barədə bəzən həmin respublikaların heç birinci şəxslərinin də xəbəri olmurdu. Bu, Heydər Əliyev şəxsiyyətinin fenomenallığının, onun erudisiyası, intellektinin parlaq nümayişi idi. Tərtəmiz rus dilində, heç bir kağız-kuğaz olmadan. Bunu eşitmək gərək idi! Bizim hər birimizi Azərbaycanın rəhbərinə görə iftixar hissi riqqətə gətirirdi».

Yevgeni Primakov Azərbaycan paytaxtına 1981-ci ilin oktyabr ayında gəlişini xatırlayır. Oktyabrın 5-də o, Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan şöbəsinin təsisat yığıncağını açırdı. O vaxt Y.Primakov SSRİ EA Şərqşünaslıq İnstitutunun direktoru və Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin sədri kimi yalnız sabiq İttifaqda deyil, daha geniş miqyaslarda tanınmış şəxsiyyət idi.

«Biz Bakıya böyük nümayəndə heyəti ilə gəldik. O vaxt respublikada Nizaminin 840 illiyi qeyd olunurdu. Yadımdadır, Bakıda gözəl bir kitab aldım, indiyədək kitabxanamdadır, – «Nizaminin dövrü». Heydər Əliyeviç yubiley gecəsində çıxış etməyimi xahiş etdi. Dedim: «Heydər Əliyeviç, mən nə dilçi, nə də nizamişünasam». – «Xahiş edirəm sizdən, – dedi. – Siz çıxış etməsəniz, bu anlaşılmaz». Razılıq verdim, bütün gecə boyu hazırlaşdım.

Sonra çıxışımı bütün respublika qəzetləri yaydı. Mən Nizaminin ümumiyyətlə intibah tipli mütəfəkkir-sənətkar kimi nələrlə fərqləndiyini vurğulayırdım. Heydər Əliyev sonra mənə dedi ki, düppədüz tutmuşam, çıxış xoşuna gəlib. Mən millətçinin vətənpərvərdən nə ilə fərqləndiyi barədə danışmışdım. Millətçi öz vətənini, şərtsiz ki, sevən adam olsa da, onu daima başqalarına qarşı qoyub deyir ki, onun vətəni hamısından yaxşıdır. Vətənpərvər isə öz vətənini sevir və öz yurdu üçün əlindən gələni əsirgəmir. Heç vaxt kiminsə daha yaxşı, kiminsə daha pis olduğunu düşünmür. Heydər Əliyeviç mənim çıxışımı çox tərifləndi. Hərçənd, çıxışımda uzaq hədəfə vuran mətnaltı məna vardı, və o, bunu çox gözəl başa düşürdü. Ümumiyyətlə, o mütərəqqi görüşlü insan idi».



**Oljas Süleymenovla söhbətdən:**

«Biz Əliyev haqqında 1969-cu ildə o, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olanda eşitdik. Bilirdik ki, o, DTK-dan gəlib. Əliyevin ardınca Şevardnadze də hakimiyyətə gəldi. Qafqaz korrupsiyadan təmizlənməli idi, Zaqafqazye isə bu azara xüsusən «yoluxmuşdu». Onların təyinatları dərhal respublikaların hamısında diqqəti cəlb etdi. Ziyalılar arasında söz-söhbətlər gəzdi, yazıçılar bu barədə çox danışdılar, bu adamların hakimiyyətə gəlişinin bütün İttifaqda ab-havanın saflaşdırılmasına xidmət edəcəyinə müəyyən ümidlər bəslənirdi, çünki bu bəlanın mədəniyyətə, iqtisadiyyata, ümumiyyətlə, ölkənin imicinə necə ziyan vurduğunu biz bu və ya digər dərəcədə bilirdik.

Heydər Əliyev Qazaxıstana 70-ci illərin ortalarında, bizə Brejnev başda olmaqla respublikaların bütün MK birinci katibləri təşrif buyurduqları vaxt gəlmişdi. Bu, bizim hansısa yubileyimizlə bağlı hadisə idi. Onda mən Heydər Əliyeviçi ilk dəfə gördüm. O çıxış edirdi, onların hamısı onda çıxış edirdilər, salonda olduğumdan mənim müqayisə etmək imkanım vardı. Bu adamın çıxışının mənə necə təsir bağışladığı indiyədək yadımdadır. Zabitsayağı şax duruşu, səsi. Və öz fikirlərini o, çox savadlı, məntiqli, sərrast ifadə edirdi.

Sonra isə Azərbaycana gəldim, burada, Bakıda Sovet ədəbiyyatı günləri keçirilirdi. Biz tanış olduq. Ancaq Heydər Əliyevlə söhbətləşmək yalnız 1981-ci ilin oktyabrında, Nizaminin yubileyində respublikada böyük şairin 840 illiyi qeyd ediləndə mənə nəsib oldu. Bu, onun Moskvaya getməsindən əvvəl idi. Yadımdadır, biz birlikdə Gəncəyə səfər etmişdik. O vaxt ondan soruşmuşdum:

– Bəs 840 illik niyə? Axı biz yuvarlaq tarixlərə – 850 illik, 900 illik... – öyrəşmişik.

O cavab verdi:

– Belə şairlərin yubileyləri hər on ildən bir keçirilməlidir ki, poeziyaya, xüsusən də belə yüksək səviyyəli poeziyaya xalqın diqqət və marağını doğursun.

Çox sadə və inandırıcı.

Süfrə başında Heydər Əliyev mənim sağlığıma badə qaldırdı, o cümlədən belə dedi:

– Oljas yalnız qazaxlara deyil, Oljas bütün türklərə lazımdır.

Görünür, bu, «AZ və YA» kitabının və müəllifinin aqibəti haqqında gəzən şayiələrə, söz-söhbətə dolayısı cavab idi. Əliyev, Sov.İKP MK Siyasi Bürosunda mənim kitabımla bağlı gedən diskussiyalardan xəbərdar idi. O, öz mövqeyini açıq-aydın bildirdi. Və bu mənim üçün o zaman çox vacib idi».

90-cı illərin əvvəllərində, haçansa «qardaş» müttəfiq respublikalar arasında mədəni əlaqələrin qırılıb dağılması öz apogeyinə çatdıqda, «Literaturnaya qazeta» sabiq SSRİ yazıçılarının keçmiş dostluğu və indiki özgələşməsi mövzusunda diskussiya açdı. Bu kitabın müəllifi də həmin mükaliməyə öz səsini qatmışdı. Birbaşa bizim mövzumuzla bağlı olduğuna görə məqalələrimin birindən parça gətirməyi rəva bilirəm:

«Arxiv tozunu uda-uda, on illik çoxdanın sənədlərini eşələyir, Azərbaycan Yazıçılar Birliyinin başqa respublikalarımızın yaradıcılıq ittifaqlarıyla məktublaşmasını nəzərdən keçirirəm və cəmiyyətin coşğun «aşkarlıq və demokratizasiya» dövrünə doğru irəlilədikcə ədəbiyyatlararası təmasların səngiyib azalan silsiləsinə heyrətlənirəm. Durğunluğun «çiçəklənən» dövrünə aid qalın qovluqları vərəqləyib düşünürəm: durğunluq nə gəzir! Həyat kükrəyir, bulaq kimi qaynayır, yazıçılar konfransını «dəyirmi masa» əvəz edir, poeziya bayramları Sovet ədəbiyyatı günlərinin ardınca gəlir. Tərcümə topluları, müştərək antologiyalar... Hələ bir adlara bax, vüsətə bax! Doğrudan da, «küll bayraqlar bizə qonaq» gələrdi... Amma qovluqlar get-gedə nazilir, birliklərin məktublaşması seyrəlir, birgə ədəbi tədbirlər azalır. Son 2-3 il ərzində «Müttəfiq respublikaların Yazıçılar Birlikləri – məktublaşma» qrifli qovluqlar tədarük etməyə heç ehtiyac da duymurlar. Dairə qapanır, ədəbi əlaqələrin qırılması, deyəsən, son həddinə çatmışdır.

Yazıçılar İttifaqının keçirdiyi bir çox önəmli ədəbi aksiyaların iştirakçısı, tanınmış Azərbaycan şair-tərcüməçisi Səyavuş Məmmədzadəyə zəng vurub onunla öz narahat düşüncələrimi bölüşürəm və cavabında ağrılı-acılı monoloqunu eşidirəm:

– Bəzi həmkarlarımdan həmin tədbirlərdə guya heç bir yaxşı və uzunömürlü cəhət olmamasını eşidəndə, mənim yaddaşım üsyan edir. Mən şəxsən hesab edirəm ki, bu qəbildən olan, biz bəzən istehza ilə «drujba i panibratstvo literatur» adlandırdığımız ədəbi «büsatlarda» belə bir çox pozitiv rüşeymlər əkilmişdi. Axı bütün bu pirotexnika və ateşfəşanlıqdan sonra qəlbimizdə uzun müddət insan ünsiyyətinin istisi qalırdı. Mədəniyyət suveren yaşaya bilməz. Birbirindən sərhəd dirəkləri və tikanlı məftillərlə çəpərlənmək olar, amma mədəniyyət kosmikdir...

**– Səyavuş, bir çox ədəbiyyatçılar, həm də tək respublikamızda yox, 1975-ci ili, Azərbaycanda Sovet ədəbiyyatı günlərini nostalji hisslə yad edirlər...**

– Eh, unudulmaz günlər idi! İndiyədək o vaxt hökm sürən könül açıqlığı, qarşılıqlı cazibə ab-havasını duyuram. Hər bir ünlü qonağımızın arxasında onun torpağı, xalqı, onun mədəni ənənələri dururdu. Onlar bizi tanıyır, biz onların içindən dost qazanırdıq. Biz mücərrəd şəkildə «ədəbi əlaqələr» deyirik, amma axı ədəbi əlaqələr canlı insanlardı!»

## Mənəvi tərbiyə üzrə Ümumittifaq elmi konfrans

**Mərkəzi Komitənin sabiq təbliğat və təşviqat şöbəsinin müdiri Əfrand Daşdəmirovun söyləməsi:**

«1979-cu ilin aprelində Lenin adına Sarayda «Fəal həyat mövqeyinin formalaşması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda Ümumittifaq elmi-praktiki konfrans açıldı. Bu, elmi potensialdan faydalanmaqla, tərbiyəvi-təbliğat işinin təcrübəsini nəzəri baxımdan zənginləşdirməyə yönəldilmiş partiya fəaliyyətini aktuallaşdırmaq forması idi. Bu məsələyə elə böyük əhəmiyyət verilirdi ki, belə səpgili tədbirlər yalnız rəhbərləri Siyasi Büro üzvlüyünə namizəd, ya hətta üzv olduğu respublikalarda keçirilirdi. Və yalnız belə yüksək səviyyəli rəhbərlər əsas məruzəçilər kimi çıxış edərək, bu və ya digər istiqamətlərdə yuxarıların tapşırıqlarını ifadə edirdilər. Gürcüstanda beynəlmiləl tərbiyəyə həsr olunmuş, Ukraynada – həyat tərzi mövzusunda konfranslar keçirilmiş, bizim öhdəmizə isə, mənim zənnimcə, o zaman ən aparıcı mövzu düşdü – mənəvi tərbiyə, əxlaqi sapıntılar, sosial eybəcərliklərlə, rüşvətxorluqla, «kommunist əxlaqının antipodları» adlananlarla mübarizə kimi məsələlər.

Bəzən bunu yanlış şərh edirlər. Hər bir əxlaq – istər kommunist, istər xristian, hər hansı başqası olsun – çoxcəhətlidir. Onun tərkibin-

də həqiqi insani dəyərlərlə yanaşı, ötəri, cari məqamlar da var, itib gedirlər. Biz əxlaqın həqiqi dəyərlərindən söz açarkən, onları kommunist ideologiyasında da aşkarlayırıq: öldürmə, oğurlama, ləyaqətlə davran... Bunlar dində də var, bugünkü «Centlmen Kodeksin»də də. Ötəri müddəalarsa həyatdan sovuşub getmişdir.

Bu konfransa hazırlıq gedəndə, Heydər Əliyevin gələcək məruzəsinin əsas müddəalarını professionalca hazırlaya biləcək kadrların çatışmazlığı məlum oldu. Qruplar, komandalar təşkil olundu. Moskvadan, Sov.İKP Mərkəzi Komitəsindən mütəxəssislər, MK katibliyi məsləhətçilərindən dəvət edilsələr də, məruzənin hər bir variantını Əliyev oxuyub rədd edirdi. O dərəcədə tələbkar idi, konfransı yanvar-fevraldan aprelə keçirməli olmuşdular.

O, aşağı səviyyədə çıxış etməyi özü üçün qeyri-mümkün sayırdı; maksimal səmərəliliklə çıxış etməli, məruzəsində onun istədiyi dövrdə Azərbaycanın qazandığı təcrübə də, bəhs edilən problemlərə münasibəti də əks olunmalı idi. Uzun axtarışlardan sonra bəndənizin üstünə gəlib çıxdılar... Mən o vaxt Sov.İKP MK nəzdində Marksizm-Leninizm İnstitutunun təşəbbüsüylə Moskvaya çağırılmışdım, məni işə dəvət etmək istəyirdilər, danışıqlar aparırdım. Və prinsipcə dəvəti qəbul etməyə meyilli idim. O zaman Bakı partiya məktəbində kafedra müdiri kimi çalışırdım.

Və birdən daimi nümayəndəlikdən zəng vurdular: «Dalınızca maşın göndəririk, təcili olaraq Bakıya uçmalısınız». Mən evdə bir iş baş verdiyini düşünüb qorxdum. Məni sakitləşdirib dedilər ki, evdə hər şey qaydasındadır, lakin təcili tapşırıq var. Bakıya uçub gəldim. Səhərisi məni MK təbliğat şöbəsinə, ordan da Heydər Əliyevin qəbuluna aparırlar. Yeri gəlmişkən, o vaxt əxlaq problemləri haqqında kitabçam çıxmış və diqqəti cəlb etmişdi. Heydər Əliyeviç kitabçanı vərəqlədi. Mənim hansısa konfrans hazırlandığı haqqında heç xəbərim də yox idi. Heydər Əliyev soruşur:

– Sosial əyintilərlə, qanun pozuntularıyla, rüşvətxorluqla mübarizəyə baxışlarınız necədir? Bunların qarşısına nələri qoymaq olar? Sizə bir həftə vaxt verirəm – öz mülahizələrinizi təqdim edin.

Mən bunların mənim «profilim» olmadığını bildirməyə çalışdım.

– Axı sizin broşürünüz çıxıb, – Heydər Əliyev etiraz etdi.

– Bu alimlər və partiya işçiləri üçündür.

– Demək, lazım olanın özüdü ki var. Gedin işləyin.

Evdə qapanıb qaldım, kitabları masamın üstünə qalaqladım. Yeri gəlmişkən, maraqlı bir məqam: o, birdən eşidəndə ki, partiya məktəbi rəhbərliyi məni mühazirə oxumağa çağırıb, yamanca hirsləndi.



MK təbliğat şöbəsi müdirinə də, rektora da acıqlanıb, mənə də zəng vurdu: «Mən sizə iş tapşırmışam, siz isə yayınırsınız». Bu onun üçün çox səciyyəvi idi. Heydər Əliyev hansısa məsələdə maraqlı olanda, işin necə, hansı şəraitdə aparıldığını, icraçının hansı mərhələdə olduğunu öyrənməyi də xırda şey saymırdı. Mən isə birinci katibin bu barədə xəbər tutmasından, üstəlik evimizə zəng vurmasından heyrət içindəydim.

Sözün qısası, konfrans baş tutdu, məruzə də alındı, ölkədə güclü əks-səda doğurdu. Bu çıxış Azərbaycanın nüfuzunu artırdı, respublikamızdakı kadrların və məruzəçinin özünün səviyyəsini nümayiş etdirdi. Məruzə kitabça şəklində respublikada və ümumittifaq səviyyəsində çap edildi. Siyasi Büro üzvlərindən az adam tapılardı ki, onların əsərləri sadəcə vəzifələrinə hörmət xatirinə deyil, oxunaqlı, maraq doğurduğuna görə yayılmasıyla öyünə bilsin.

Konfransda çıxış edənlər Heydər Əliyevin məruzəsini «parlaq və miqyaslı», «təsiredici», «yaxşı düşünülmüş və dərindən əsaslandırılmış», «problemlərin işıqlandırılması və düşüncə baxımından yeni» kimi səciyyələndirmişdi və bu da gəlişigözəl sözlər deyildi. Onun çıxışı, onun iş metodları, xüsusən aşkarlıq, neqativ hallarla mübarizə haqqında mülahizələri bir çox SSRİ partiya və təsərrüfat işçiləri üçün ibrət olmuşdu. Bu konfransın əks-sədası Azərbaycan hüdudlarından çox uzaqlara yayıldı. Heydər Əliyev isə Sovet İttifaqı rəhbərləri arasında daha da populyarlaşdı.

**– Başqa respublikaların nümayəndələri konfransda hansı səviyyədə təmsil olunmuşdular?**

– Bakıda ölkə ideoloji kadrlarının «qaymaqları» – respublika Mərkəzi Komitələrinin, vilayət komitələrinin ideologiya üzrə katibləri toplaşmışdılar. Sov.İKP MK aparatından təbliğat şöbəsi müdiri Yevgeni Tyajelnikov başda olmaqla böyük dəstə gəlmişdi. Bu, «ağır çəkili» siyasətçi, Brejnevə yaxın adam idi. Bütün elmi elita – akademiklər, professorlar... Konfrans, mənəvi tərbiyənin yeni konsepsiyasının hasil edilməsini, Xruşşov dövründə partiya Proqramında yazılmış standartlardan uzaqlaşmanı və Proqramın dövrün şəraitinə uyğun olaraq reallaşdırılmasını məqsəd tutmuşdu.

**– Geniş əks-səda doğurmuş konfrans keçirildi. Haqqında çox yazıldı, Mərkəzi Televiziyada çox danışıldı. Bəs bu tədbir respublikamıza nə gətirdi, nə qazandırdı?**

– Bundan sonra İctimai Elmlər Akademiyasından, SSRİ EA-dan görkəmli nümayəndələr böyük məmnunluq bildirir, Azərbaycan və onun lideri haqqında təəssüratlarını söyləyirdilər. Çoxları bizə ilk

dəfə səfər etmişdilər. Bu da bizə respublikadakı uğurlarımızı göstərməyə daha bir imkan vermişdi. Belə tədbirlərin gedişatında bir çoxları Azərbaycanı özləri üçün ilk dəfə açırdılar. Heydər Əliyev konfransın yalnız əsas aparıcı şəxsi deyildi. O, əlindən gələni etmişdi ki, SSRİ-nin hər guşəsindən gələn yüzlərlə qonaqlara Azərbaycan, onun mədəniyyəti, adət-ənənələri tanıdılsın. O, bütün detallara diqqət yetirirdi – qruplar necə tərtib edilib, hansı rayonlara yollanacaq, kimlərlə görüşəcək, onları kim müşayiət edir, nələri göstərəcəklər... Kim mehmanxanada necə yerləşməli, gələnlərə necə diqqət göstərilməsilə maraqlanırdı. Bir sözlə, qonaqların yaxşı təəssüratla ayrılması üçün hər şey etmişdi».

Tədqiqatçı İradə Hüseynova «Heydər Əliyev – siyasi rəhbərdən ümummilli liderədək» monoqrafiyasında sözü gedən konfransın əhəmiyyətindən yazır:

«Bakı konfransı göstərmişdir ki, Azərbaycanda bir qüdrətli ideya-siyasi və mənəvi tərbiyə məktəbi mövcuddur. Bakıda... Ümumittifaq konfransın keçirilməsi Heydər Əliyevə bəslənən böyük etimad və yüksək inamı əks etdirdi. Bu fakt, respublikada aparılan böyük quruculuq işi təcrübəsinin bəyənilməsini və ümumittifaq miqyasda öyrənilmə zəruriyyətini nümayiş etdirirdi».

## Yeni Konstitusiya
## Dil məsələsi

Əvvəlki fəsillərdə biz Heydər Əliyevin ana dilinə münasibətindən, Azərbaycan dili sahəsində tədqiqatlar aparmış bir qrup dilçi alimlərin Dövlət mükafatına layiq görülməsi, yazıçılarla səmimi söhbətlərdə milli özgürlüyün başlıca daşıyıcısı, saxlancı olan ana dilinin qorunması və inkişaf etdirilməsi haqqında vurğuladığı fikirlər, Heydər Əliyevin ictimaiyyət qarşısında azərbaycanca çıxış etməyə hər bir fürsətdən yarınması barədə bəhs etmişdik.

Ramiz Mehdiyev xatırlayır:

«O zaman respublikamızda ilk dəfə olaraq müstəqil Dilçilik İnstitutu yaradılmış, bu da doğma dilin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsinə rəvac vermiş, dil tarixi, dialektologiya və bir çox başqa problemlər üzrə miqyaslı araşdırmalar aparmağa imkan vermişdir. Rus dilinin beynəlmiləl ünsiyyət dili kimi fəal təbliğ edildiyi həmin illərdə Heydər Əliyev respublikada tam dəyərli ikidillilik ab-havasının təsbitlənməsinə tərəfdar çıxırdı»[62].



Heydər Əliyevin ana dilinə bəslədiyi məhəbbəti 1978-ci ildə respublikada Yeni Konstitusiya qəbul edilən zaman siyasi ehkamlardan irəli gələn ciddi sınaqlardan keçməli oldu. SSRİ Konstitusiya Komissiyasının üzvü kimi o, Əsas Qanunu hazırlayan ölkə rəhbərlərindən biri idi.

1977-ci ilin 24 may günü SSRİ Konstitusiya layihəsi məsələsini müzakirə edən Sov.İKP MK plenumu keçirildi. İki gün sonra bütün respublikaların aparıcı informasiya vasitələrində yayımlanan «Pravda»nın baş məqaləsində yeni Əsas Qanun qəbul edilməsinin zəruriyyəti belə əsaslandırılırdı ki, əvvəlki (Stalin) Konstitusiyası qəbul edildikdən sonra ötən 40 ildə ölkədə və cəmiyyətdə dərin və prinsipial dəyişikliklər baş vermiş, SSRİ-də «inkişaf etmiş sosializm cəmiyyəti» qurulmuşdur, iqtisadiyyatda sosialist mülkiyyəti tam hökm sürür; vahid və qüdrətli xalq təsərrüfatı mexanizmi formalaşmış və uğurla işləyir; sovet cəmiyyətinin sosial siması da başqalaşmışdır. «Millətlər bərabərliyi bizdə yalnız hüquqi deyil, faktiki olaraq da gerçəkləşmişdir. Bütün sovet respublikaları indi yüksək inkişaf səviyyəsinə yetmişlər. Fəhlə sinfi, kolxozçu kəndli və xalq ziyalılarının sarsılmaz dostluğu daha da möhkəmlənmişdir. Əsas sosial qruplar arasında mühüm fərqlər tədricən silinir, ölkənin bütün millətləri və xalqları daha sıx yaxınlaşır. İnsanların yeni tarixi toplumu – sovet xalqı təşəkkül tapmışdır.

...Sovet İttifaqının beynəlxalq durumu da xeyli dəyişmişdir. Ölkəmizin kapitalist əhatəsinə son qoyulmuşdur. Sosializm cahanşümul sistemə çevrilmişdir. Kapitalizmin mövqeləri əhəmiyyətli dərəcədə zəiflədilmişdir. Sabiq müstəmləkələrin yerində onlarla gənc müstəqil dövlət yaranmışdır. Sovetlər ölkəsinin beynəlxalq nüfuzu və təsiri ölçüyəsığmaz dərəcədə artmışdır...

Bütün bu dəyişikliklər yeni Konstitusiya layihəsində öz əksini tapmışdır...»

*Bu sətirləri oxuyaraq, inanmaq olmur ki, on ildən azca artıq ötəcək və nəhəng, həqiqətən də qüdrətli bir məmləkət süquta uğruyacaq və onunla bərabər yeni tarixi toplum – sovet xalqı haqqında qaşəng əfsanə də xam xəyala çevriləcək... Yeni Konstitusiyada deyildiyi kimi, «daha da sıx yaxınlaşan» bir çox millətlər və xalqlar isə desentralizasiya, suverenləşmə və bir çox hallarda aqressiv separatçılığın qızğın tərəfdarları olacaq...*

**İyunun 10-da** keçirilən Azərbaycan Kommunist Partiyasının plenumu SSRİ Konstitusiya layihəsi və L.Brejnevin Sov.İKP MK may

(1977-ci il) Plenumundakı çıxışından irəli gələn respublika partiya təşkilatının vəzifələri haqqında məsələni müzakirə etdi.

**İyulun 7-də** Dzerjinski adına klubda Azərbaycan SSR Ali Soveti onuncu çağırışının beşinci sessiyası açıldı. Heydər Əliyev SSRİ Konstitusiyası layihəsi və zəhmətkeş deputatları sovetlərinin vəzifələri haqqında məruzə etdi. O, yeni ümumittifaq Əsas Qanunu layihəsini ətraflı təhlil etdi və ayrı-ayrı maddələrinin əhəmiyyətini açıqladı.

Layihənin 75-ci və 81-ci maddələrinə uyğun olaraq hər müttəfiq və muxtar respublika öz konstitusiyalarına malik olmalıydı. Ona görə sessiyada Azərbaycan SSR Konstitusiya layihəsinin hazırlanması üzrə Komissiya yaradılması və onun tərkibi barədə təklif qəbul olunur. Layihə 1977-ci ilin dekabrı – 1978-ci ilin yanvarında ümumxalq müzakirəsinə verilmək üçün təqdim olunmalı və gələn ilin birinci rübündə Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında baxılmalı idi. Həmçinin Azərbaycan SSR himninin yeni redaksiyası qarşıda duran işlərdən idi.

Əsas Qanun hazırlanmasında ortaya çıxan əngəllərdən biri dövlət dili haqqında maddə oldu, – Moskvadan bu maddənin layihədən istisna edilməsi barədə «komanda» verilmişdi.

Heydər Əliyev çox mürəkkəb vəziyyətdə qalmışdı.

İlk dəfə Azərbaycan dilinin dövlət dili olması haqqında maddə 1956-cı ildə, İmam Mustafayevin dövründə Konstitusiyamıza daxil edilmişdi. Yeri gəlmişkən, eyni səciyyəli maddə Azərbaycandan çox-çox əvvəl Gürcüstan və Ermənistanda qüvvəyə mindirilmişdi.

Konstitusiyaya ilk dəfə bu düzəlişin daxil edilməsinin təşəbbüskarı Mirzə İbrahimov olmuşdur ki, müasirlərin şəhadətinə görə, bu əsl hünər idi. Akademik Ə.Daşdəmirovun mənə söylədiyinə görə, burada Mirzə müəllimin bir uzaqgörən gedişi də vardı ki, əvvəlcədən SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri K.Voroşilovun razılığı ilə dəstəklənmiş, halbuki MK birinci katibi İ.Mustafayev bu məsələni nə Siyasi Büroya, nə də Sov.İKP MK Rəyasət Heyəti səviyyəsinə çıxarmamışdı. Yəni Azərbaycan rəhbərliyi faktiki olaraq Mərkəzi Komitəyə məlumat verməmiş və yalnız SSRİ Ali Sovetinin razılığıyla kifayətlənmişlər. Daha sonra bu məsələni operativ surətdə respublika Ali Soveti sessiyasının gündəminə daxil etmiş, sessiya Konstitusiyaya düzəlişi qəbul etmiş və qərar elan edilmişdir. Moskvada xəbər tutanda iş-işdən keçmişdi...



«Lakin 1978-ci ildə, yeni Konstitusiya hazırlanmağa başlananda, – Əfrand Daşdəmirov söyləyir, – bəyan edildi ki, artıq yeni sosialist toplumu – sovet xalqı əmələ gəlmiş, hamı qaynayıb-qarışır və bu «əmma» ilə dil haqqında maddələri çıxarmağı buyurdular. Bu «komanda» üç Cənubi Qafqaz respublikasına ünvanlanmışdı, – yalnız onların dövlət dili baqqında belə maddələri vardı.

Və çox mürəkkəb vəziyyət yarandı; bizim ziyalılarımız da, ermənilər də narazı qaldı; Gürcüstanda isə daha o yana getdilər, orada əməlli-başlı mərəkə qopdu, professorlar, tələbələr dövlət dili haqqında maddənin ləğv olunmasına qarşı nümayişlərə axışdılar. Gürcü intelligensiyası o vaxt yamanca qalxdı».

Həmin hadisələri Gürcüstan KP MK katibi Soliko Xobeişvili belə xatırlayırdı:

«Bu, 1978-ci ilin 14 aprelində baş verdi; minlərlə qızışmış cavanlar çox kəskin şüarlarla Hökumət Evi qarşısında mitinq keçirir və şərt qoyurdular: «ya belə-ya elə». Hökumət Evinin yaxınlığında artıq hər şey hazır vəziyyətdə idi. Respublika rəhbərliyi arasında, yeri gəlmişkən, o anlarda elə adamlar da tapıldı ki, «Hanı ordu?» – deyə qəzəblə çığırırdılar. Büroda bir həmkarıma acıya-acıya cavab verdim: yəni, demək, yenə 1956-cı ilin 9 martı, Xruşşovun təqsirindən Tbilisidə cavanları qırdıqları gün təkrarlanacaq?.. Və biz o zaman məsələnin dinc yolla həllini tapdıq»[63].

İctimai rəydə böhranlı vəziyyət Azərbaycanda da baş verdi. Bir müddət Mərkəzi Komitədə ideologiya üzrə katib vəzifəsində işləmiş Ramiz Məmmədzadə bununla bağlı xatırlayırdı:

«Yadımdadır, Heydər Əliyeviç dedi: «Mən Kapitonovla Azərbaycan dili haqqında maddə səbəbilə danışdım, öz rəyimi bildirdim ki, bu maddə daxil edilməlidir. Kapitonov isə etiraz etməyə başladı, yəni ki, bir çox müttəfiq respublikalarda bu maddə yoxdur, siz niyə onu daxil etməlisiniz?» Onda Heydər Əliyeviç baş katibə müraciət etməli oldu».

Azərbaycanın partiya liderinin dövlət dili məsələsində inadkarlığı bəzi müttəfiq respublika rəhbərləri tərəfindən anlaşılmazlıqla və hətta əsəbiliklə qarşılanırdı...

«Xatirimdədir, o vaxt başqa respublika rəhbərləri ilə kəskin danışıqlarımız oldu. Ukrayna rəhbəri Şerbitski ilə mənim kəskin danışıqlarım xatirimdədir. O buna çox etiraz edirdi, belə əsaslandırırdı ki, siz belə yazdığınız halda gərək onda biz də yazaq ki, Ukraynanın dövlət dili Ukrayna dilidir. Mən ona dedim ki, sizə heç kəs mane olmur. Siz bizdən də böyük respublikasınız və Sovetlər İttifaqında

sizin çəkiniz bizimkindən qat-qat artıqdır. Siz istəsəniz bunu yaza bilərsiniz. Ancaq siz nə üçün bizə mane olursunuz? Mübahisəmiz çox gərgin oldu»[64].

«Şaquli» istiqamətdə gərgin danışıqlarla yanaşı, üç Cənubi Qafqaz respublika liderləri arasında intensiv fikir mübadiləsi, məsləhətləşmələr aparılırdı. Əliyev, Dəmirçiyan və Şevardnadze «bir dalğaya köklənmişdilər». Milli respublikalarda dövlət dili haqqında maddə olmalıdır! Zənnimcə, bu yetərincə nadir, amma ibrətamiz hallardandır ki, Qafqazyanı respublika rəhbərlərinin bəmrəyliyi «Kreml qocaları»nın inadkarlığını qırmağa və milli maraqlarını qorumağa kömək etmişdir. Əminəm ki, birinci katiblərdən kimsə tərəddüd edib gerilləsəydi, qalan ikisinin dərhal yolunu kəsəcəkdilər. Ancaq hazırkı təqdirdə cürət etmədilər...

Respublikanın daxilində də, o cümlədən Konstitusiya Komissiyasında gur və canlı diskussiyalar gedirdi. Həm də MK-nın birinci katibi özü bu fikir mübadiləsinə (bəzən də «mücadiləsinə») rəvac vermiş, demək olar ki, «quruluşçu rejissor» kimi düşünmüşdü; iclaslara kənardan da mütəxəssisləri, məsələn, fəlsəfə elmləri doktoru Əfrand Daşdəmirovu, yaxud konstitusion hüquq üzrə səriştəli alim, respublikanın ən nüfuzlu hüquqşünaslarından biri Zakir Qasımovu dəvət etmişdi. Bu adamlar müzakirələrdə yetərincə açıq çıxış edir, rəsmi Moskvanın fikri ilə üst-üstə düşməyən nəzər nöqtələrini bildirirdilər. Bu da kitabımızın qəhrəmanı, böyük diplomata Kremllə söhbətlərdə Azərbaycan dili haqqında maddənin Əsas Qanundan çıxarılmasının qətiyyən əleyhinə olan ictimai rəyə istinad etməyə imkan verirdi.

Üstəlik, Dağlıq Qarabağ məsələsində Azərbaycana «badalaq vurmaq» fürsətini əldən verməyən erməni millətçiləri baş qaldırmışdılar. Sonralar o mürəkkəb dövrü xatırlayan Heydər Əliyev DQMV statusuna yenidən baxılması, vilayətin Ermənistana verilməsi haqqında Sov.İKP MK və Siyasi Büroya ünvanlanan təklif və xahişlərin gurlaşan axınını qeyd edirdi. Erməni lobbiçilərindən kimsə hətta bu məsələnin SSRİ Konstitusiya Komissiyasında baxılmasına cəhd göstərmişdi. Yalnız Siyasi Büro üzvlüyünə namizəd Heydər Əliyevin böyük səyləri bahasına bu məsələ gündəmdən çıxarılmışdı.

**1978-ci ilin 20 aprelində** Azərbaycan Ali Sovetinin (doqquzuncu çağırış) növbədənkənar yeddinci sessiyası işə başladı – gündəmdə respublikanın Əsas Qanunu dururdu. «Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyası (Əsas Qanunu) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında» Heydər Əliyevin məruzəsi dinlənildi.



Sovet Azərbaycanı tarixində respublikanın Əsas Qanunu üç dəfə – 1921, 1925 və 1937-ci illərdə qəbul edilmişdi.

1921-ci ilin Konstitusiyası Azərbaycanda «proletariat diktaturası»nın qurulmasını və onun tərəfindən sosialist milli dövlətçiliyi – Azərbaycan Sovet Sosialist Respublikasının yaradılmasını qanunvericiliklə təsdiqlədi.

Azərbaycan SSR Zaqafqaziya Federasiyası tərkibində digər sovet respublikaları ilə vahid müttəfiq dövlətə birləşməsi IV Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən 1925-ci ilin mart ayında qanunvericiliklə təsdiqlənmişdir.

Sovet dövlətinin keyfiyyətcə yeni inkişaf mərhələsi sosializmin qələbəsi ilə bağlıdır, – bu da 1936-cı il SSRİ Konstitusiyasında öz əksini tapmış və təsdiqlənmiş, sonuncunun əsasında Azərbaycanın qırx il qüvvədə olacaq Konstitusiyası qəbul edilmişdir.

Heydər Əliyev geniş və əraflı məruzəsində yeni Konstitusiyanın mahiyyətini açıqladı.

Layihədə, – məruzəçi qeyd edirdi, – Azərbaycan SSR sosialist ümumxalq dövləti kimi göstərilir, sosializm quruluşunun dayaqları – istehsal vasitələrinin zəhmətkeşlərin özlərinə mənsub olması, istismardan azad əmək, planlı təsərrüfat sistemi – təsdiqlənir. Sosializmin ümumi prinsiplərini təsdiqləyən layihə, İttifaq Konstitusiyası kimi, «yetkin sosializm iqtisadiyyatının yeni cəhətlərini», 40 il ərzində Azərbaycanın xalq təsərrüfatı, elm və mədəniyyətində baş vermiş köklü dəyişiklikləri əks edir. Təbii ki, respublikanın Əsas Qanununda Kommunist Partiyasının «rəhbər və istiqamətverici rolu» hüquqi təsdiqini tapırdı.

Layihədə Respublika Ali Soveti və Nazirlər Sovetinin səlahiyyət dairələri daha dəqiq və dolğun açıqlanır, əmək kollektivlərinin dövlət və ictimai əhəmiyyətli məsələlərin həllində rolu, vətəndaşların dövlət, ictimai orqanlarına onların işinin yaxşılaşdırılması haqqında təkliflər yürütmək, nöqsanlarını tənqid etmək, vəzifəli şəxslərin qanunsuz hərəkətlərinə aid şikayət vermək hüququ haqqında maddələr daxil edilmişdir.

Konstitusiyada vətəndaşların əsas hüquqları və azadlıqları – əmək və peşə seçimi hüququ, istirahət, sağlamlığın qorunması, qocalıqda maddi təminat, təhsil, yaşayış yeri (ilk dəfə) ilə bağlı hüquqlar öz əksini tapmışdı.

Layihənin 33-cü maddəsi respublikada qadın və kişinin bərabər hüquqlu vətəndaş olduqlarını təsdiqləyirdi...

Daha sonra Heydər Əliyev ən «yaralı» məsələyə keçərək, öz məmnuniyyətini gizlətmədən bildirir ki, ümumxalq müzakirəsi gedişatında irəli sürülən təklifləri nəzərə almaqla «Azərbaycan SSR milli-dövlət və inzibati-ərazi quruluşu» bölməsini dil haqqında xüsusi maddə ilə tamamlamaq məqsədəuyğun görünür».

73-cü maddəni aşağıdakı şəkildə ifadə etmək təklif olunur:

«Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir.

Azərbaycan SSR Azərbaycan dilinin dövlət və ictimai orqanlarında, mədəniyyət, maarif və digər orqanlarda işlədilməsini təmin edir və onun hərtərəfli inkişafına dövlət tərəfindən qayğı göstərir.

Azərbaycan SSR-də bərabərhüquqluluq əsasında bütün bu orqan və müəssisələrdə rus dilinin, eləcə də əhalinin istifadə etdiyi başqa dillərin azad işlədilməsi təmin edilir. Bu və ya digər dillərin işlədilməsində hər hansı imtiyazlara, ya məhdudiyyətlərə yol verilmir».

Bu, əlbəttə, Azərbaycan liderinin böyük qələbəsi və bəlkə də onun gələcək Azərbaycan dövlətçiliyi naminə atdığı ən vacib addımlardan idi.

Yeni Konstitusiyada 73-cü maddənin yer tutması ilə millətin əsas mənəvi sərvəti – Azərbaycan dilinin qorunması və gələcək inkişafına etibarlı hüquqi zəmin yaradılmışdır.

**1978-ci ilin 21 aprelində** Azərbaycan Ali Sovetinin 7-ci sessiyası Azərbaycan SSR Yeni Konstitusiyasını qəbul etdi.

## «Əziz Heydər Əliyeviç»

*Heydər Əliyevin yaradıcı ziyalılarla məktublaşmasından*

Sovet mədəniyyət xadimlərinin Heydər Əliyevə ünvanlanan və onun şəxsi arxivində saxlanılan bir çox məktub və teleqramları ilə tanış olmaq imkanı mənə müyəssər oldu. Bu yazışma, əhvallaşma, bayramlaşmalardan da onu ən müxtəlif respublikaların, ən fərqli millətlərin sənətkarları ilə bağlayan canlı və səmimi dostluq, qarşılıqlı ülfət və rəğbət telləri görünür, duyulur.

Mən Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Rauf Hacıyev, müğənnilərimiz Zeynəb Xanlarova, Rauf Atakişiyev, Müslüm Maqomayevdən, aktyorlardan, şair və nasirlərdən gəlmiş çoxsaylı məktubları oxudum. Burada ən müxtəlif məsələlərlə bağlı məqamlar – respublikada yenicə yaradılmış estrada-simfonik orkestrinin təşkilindən tutmuş mənzil verilməsi barədə xahişədək – nəzərə çarpır.



Bir çoxları Heydər Əliyevə qayğı və diqqətinə görə – dövlət mükafatı, fəxri ad aldığına və s. şükranlığını bildirirlər. Bu sırada Cəfər Cabbarlı ailəsinin böyük dramaturqun abidəsinin açılışı münasibətilə təşəkkür məktubu, rəhmətlik Qara Qarayevin ömür yoldaşı Tatyana Qarayevanın kövrək səmimiyyətlə təsirləndirən məktubu, gələcək dünya çempionu Harri Kasparovun minnətdarlığını izhar edən teleqramlar...

Heydər Əliyevə «Literaturnaya qazeta»nın baş redaktoru Aleksandr Çakovski, «Drujba narodov» jurnalının baş redaktoru Sergey Baruzdin (sonuncu ünvan sahibinə jurnalda çıxış etmək barədə «xahişnamələri» əsirgəmir!), SSRİ EA prezidenti Mstislav Keldış, görkəmli pianoçu Emil Gilels, SSRİ Rəssamlar İttifaqının katibi Nikolay Ponomaryov, dramaturq Mixail Şatrov, tanınmış söz ustaları Aleksey Surkov, Konstantin Simonov, İrakli Abaşidze, Nikolay Qribaçov və bir çox başqaları yazırlar.

Məktubların bir qismi rəsmi minnətdarlıq izhar edilməsindən uzaqdır və xüsusən diqqətəlayiqdir.*

«Əziz Heydər Əliyeviç! Mənim altmış illiyim və Sosialist Əməyi Qəhrəmanı adı almağım münasibətilə Sizin xeyirxah, ürəkdən gələn salam və təbrik sözlərinizdən son dərəcə təsirləndim. Buna görə və ümumiyyətlə, yazıçılara gözəl münasibətinizə görə mənim dərin, səmimi təşəkkürümü qəbul edin. Azərbaycanda sovet ədəbiyyatı dekadası zamanı Sizinlə görüşlərim haqqında işıqlı xatirələrimi hələ də saxlayıram. Şükranlıqla əllərinizi sıxır, Sizə ən yaxşı arzularımla qalıram.

Sizin **Mustay Kərim.**

3.XI.79».

«Əziz Heydər Əliyeviç!

Sizə dəvətinizə görə səmimi qəlbdən təşəkkür edirəm. Bu iki gün ərzində mən əsl bayram ovqatını, bir çox insanların təşkil olunmuş deyil, ürəkdən gələn sevincini apaydın hiss etdim. Bütöv bir xalqın bayramına qoşulmaq imkanına görə Sizə çox-çox sağ olun deyirəm!

---

* Təqdim edəcəyimiz məmlər rusca yazılmışdır və burada onları tərcümədə veririk.

Əvvəlkitək ya Moskvada, ya Bakıda Sizinlə görüşməyi arzulayıram. Sizinlə çox şeylər haqqında ciddi, məhrəm bir söhbət üreyimdən keçir, – axı Azərbaycanın son ildəki təcrübəsi göstərir ki, bizim ümidlərimiz, inamımız əsassız deyil.

Kommunist salamı ilə
Sizin **Mixail Şatrov.**

28.04.80».

«Möhtərəm Heydər Əliyeviç!

Mənim əməyimə belə yüksək qiymət verdiyinizə görə Sizə qarşı bəslədiyim dərin təşəkkür və səmimi minnətdarlıq hissini bütün dolğunluqla ifadə etməyə acizəm. Yalnız mənim böyük, əbədi «sağ olumu» qəbul etməyinizi xahiş edə, sizin yüksək etimadınızla xoşbəxt olduğumu deyə bilərəm. Parlaq, görkəmli siyasi xadim istedadınızı tam sərf etdiyiniz respublikadakı nəhəng, ümumxalq əmək və quruculuğun bir zərrəsi kimi öz əməyimi duymaq mənim üçün fərəhlidir. Mənə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adın verilməsində Sizin şəxsi qayğı və diqqətinizin, başçılıq etdiyiniz respublika partiya təşkilatının nüfuzunun şəhadətini görürəm. İcazə verin Sizi əmin edim ki, mənim əməyim indən belə də bütövlüklə doğma musiqi mədəniyyətimizə xidmətə həsr olunacaq. İcazə verin bir daha sizə ürəkdən təşəkkür edim, səmimi-qəlbdən möhkəm can sağlığı, xoşbəxtlik, Sovet Azərbaycanının, bütün böyük vətənimizin çiçəklənməsi naminə yeni uğurlar arzulayım.

Sizi həmişə sevən **Niyazi.**

3 sentyabr 1982-ci il».

«Əziz, çox istəkli Heydər Əliyeviç!

Sizə mənim ən ağır günlərimdə göstərdiyiniz böyük köməyə görə dərin təşəkkürümü bildirirəm. Bildiyiniz kimi, Bakıda, mədə xərçəngi olduğunu güman edib dərhal cərrahiyyə əməliyyatına getməyimi təklif etdilər. Moskvada, Sizin köməyinizlə düşdüyüm Onkoloji Elmi Mərkəzdə əsaslı müayinədən sonra məndə heç bir şiş olmadığını aşkarladılar. Mən, əlbəttə ki, ömrümün 76-cı yaşında bu ağır əməliyyata tab gətirə bilməzdim. İndən belə, əziz Heydər Əliyeviç, mən Sizə yalnız uğurlarıma görə deyil, həyatıma görə də borcluyam. Mənə bəxş etdiyiniz həyatı da Sizə belə fədakarlıqla xidmət etdiyiniz böyük amal yolunda qurban verməyə hazıram.



Sizə Moskvada çıxmış şeirlərimin toplusunu, həmçinin yenə də Sizin şəxsi təşəbbüsünüzlə mənim haqqımda çıxan kitabçanı göndərməyi özümə borc bilirəm.

Sizə bir daha təşəkkür edir, möhkəm cansağlığı və uzun-uzun ömür arzulayıram.

Sizə sadiq
**Samvel Qriqoryan**

21.X.82».

«Möhtərəm Heydər Əliyeviç!

Yalnız indi, Qara Əbülfəzoviçin ölümündən yarım il keçəndən sonra Sizə məktubla müraciət etməyə özümdə taqət tapdım, hərçənd, əlbəttə ki, bunu çox-çox əvvəl etməliydim.

Mən bilirəm ki, əziz Heydər Əliyeviç, Siz Qarayevə necə məhəbbət və hörmətlə yanaşmısınız, onun üçün nə qədər yaxşılıqlar, nə qədər xeyirxahlıqlar etmisiniz! Lap son günlərinədək Siz onun yanında oldunuz, kömək etdiniz, ürək-dirək verdiniz. Qaçılmaz olanın qaçılmazlığı bilinəndə isə, əcəl yaxınlaşanda, Siz onun son iztirablarını, son saatlarını yüngülləşdirməyə çalışırdınız. Və buna görə də Sizə böyük, səmimi, İNSANİ (*məktubda iri hərflərlə yazılıb* – **E.A.**) Sağ olun deyirəm!

Bizim dərdimizi elə bil heç nə toxdada bilməyəcəyi ağır may günlərində, Siz bizim yanımızda oldunuz və öz diqqətiniz və həyanlığınız, qayğı və mehrinizlə bizə ağır sınağa dözüm gətirməyə kömək etdiniz, dərdimizə doğma, yaxın adam kimi şərik oldunuz.

Onun ölümündən sonra, lap son günlərədək mən Sizin ailəmizə qarşı istiqanlı, deyərdim ki, qədirbilən münasibətinizi duyuram. Və bizim üçün elədiyiniz yaxşılıqlara görə mən dönə-dönə Sizə ən səmimi, ürəkdən gələn təşəkkürlərimi bildirmək istəyirəm.

Sizin qayğınız sayəsində mən Bakıda gözəl, abad mənzildə yaşaya bilirəm, hər hansı məişət qayğılarından azad, heç nədən korluq çəkmədən. Və xüsusən, bir ana kimi, oğluma böyük diqqət yetirməyiniz, onun fəaliyyətinə bunca yüksək qiymət verdiyiniz üçün Sizə təşəkkür etmək istəyirəm.

Öz pərakəndə məktubumu sona yetirərək... əziz Heydər Əliyeviç, Sizə, Sizin ailənizə, Sizin övladlarınıza möhkəm can sağlığı, xoşbəxtlik, könül xoşluğu və uzun ömür arzulayıram.

Dərin hörmətlə,
**Qarayeva Tatyana Nikolayevna.**

4 noyabr 1982-ci il».

İndi isə şahmat üzrə gələcək dünya çempionu Harri Kasparovun iki teleqramına yer verirəm. İnanıram ki, aşağıdakı sətirləri yazanda o, tamamilə səmimi hisslərini izhar etmişdir:

«Əziz Heydər Əliyeviç! Fərəhlə Sizə Moskvadakı zonalararası turnirin uğurla başa çatmasını bildirirəm. Bütün bu günlər boyu Sizin qayğı və diqqətiniz elə açıq duyulurdu ki, mən göstərilən etimadı doğrultmaya bilməzdim. Bu qələbəm, doğma respublikanın partiya və hökumət tərəfindən bunca yüksək qiymətləndirilmiş nəhəng əməllərinə mənim sadəcə bir töhfəm sayılsa, xoşbəxt olaram.

**Harri Kasparov».**

«Əziz Heydər Əliyeviç! Vətənimiz Sizə yenə də göstərdiyi yüksək etimad münasibətilə Sizi ürəkdən təbrik edirəm! Sizin qarşıda yola düşməyiniz ümumi sevincə bir qədər göynərti qatsa da, məhz indi ömrümdə göstərdiyiniz atalıq qayğınıza və bilavasitə həyanlığınıza görə Sizə təşəkkür etmək istərdim.

Çox yaxşı anlayıram ki, doğma respublikanın bütün uğurları qırılmaz tellərlə Sizin adınızla bağlı olduğu kimi, mənim də uğurlarım onunla bağlıdır. İcazə verin, çətin, lakin nəcib işinizdə Sizə yeni, daha böyük müvəffəqiyyətlər arzulayım.

**Harri Kasparov».**

Nəhayət, bu sıranı Heydər Əliyevin sadiq dostu və əvəzsiz köməkçisi Yefim Qurviçin oğlu Qriqori Qurviçin şeirindən sadə və təsirli misralarla bitirmək istəyirəm. Həmin şeir də Heydər Əliyevin şəxsi arxivində saxlanılan yadigardır.*

«Əziz Heydər Əliyeviç!

Gəminiz sahildən ayrılmaqdadır,
Yeni yollar açır alatoranda.
Hər vida yenə də bir ibtidadır,
Amma nələr qalır, nələr arxada...

Motorlar gurlayır, üfüqlər əngin,
Qədim yurd ardınca yaylıq yelləyir...
Hər böyük gəminin bəxtidir yəqin,
Onu böyük səfər, ümman gözləyir...

Sizə sadiq,
**Qriqori Qurviç.**

1.XII.82».

* Ruscadan Səyavuş Məmmədzadənin tərcüməsində verilir—**E.A.**



Heydər Əliyevin köməkçilərinin söylədiyinə görə, onun ziyalılardan aldığı heç bir məktub, xüsusən hansısa xahiş bildirən müraciət cavabsız qalmırdı. Heydər Əliyevin cəmiyyətin bu kövrək «təbəqəsi»nə xüsusi münasibətindən şəxsi arxivində qəribə bir diqqətcillikle yığıb saxladığı, demək olar ki, bütün məktublar, teleqramlar, sərgilərdən yadigar qalmış, rəngləri soluxmuş, saralmış bukletlər, köhnə konsert, tamaşa proqramları xəbər verir... Bu yadigarlar öz yiyəsiylə Bakıdan Moskvaya köçmüş, sonra da geri qayıtmış, müxtəlif rəsmi iqamətlərdə qovluqlarda, qutularda qalıb onun ardınca növbəti ünvanlara daşınmışlar. Onunla ünsiyyətdə olan, məktublaşan, bir çoxları dünyasını dəyişmiş bu adamların xatirəsi onun üçün əziz idi, əvəzsiz idi.

Öz yaradıcılığı, sənəti, istedadı ilə o dəyərli şəxsiyyətlər, onun rahatlıq nə olduğunu bilməyən gündəlik həyatına təzə nəfəs, gümrahlıq aşılayan enerji gətirir, işində-gücündə ruhlandırırdı. Həmin sənətkar müsahiblərinə həmişə qayğı göstərdiyi kimi onlar dünyalarını dəyişəndən sonra da ailələrini unutmadı, onların xatirəsini əziz tutdu...

*Heydər Əliyevin mədəniyyət xadimlərinə bəslədiyi hörmət və rəğbət qarşılıqlı idi. Və bu sədaqətli bağlılıq, vəfadarlıq onun dar günlərində, istefaya çıxdığı zamanlarda da özünü göstərdi, – sabiq Siyasi Büro üzvü Moskva ətrafında, Barvixada qəribsəyəndə yanına Tahir Salahov, Rüstəm İbrahimbəyov gəlib əhvallaşanda da, Moskva mənzilinə Elçin və Anar zəng vuranda da, Bakıya qayıdandan sonra Yazıçılar qurultayında söz ustaları başına yığışanda, hərarətlə alqışlayanda da... Və bu sədaqət, bu qədirbilənlik dünən «piyada», bu gün «atlı» olan məmurların, Mərkəzi Komitədə vaxtilə əməkdaşlıq etdiyi bəzi unutqanların, parlamentdə onu «gözümçıxdıya» salmaq istəyən «millət naqqalları»nın hay-küyü, dönüklüyü ilə kəskin bir təzad təşkil edirdi...*

*Amma bu barədə söhbət kitabımızın üçüncü hissəsinə qalsın...*

[1] Арбатов Г. Человек Системы. М., 2002. С.333.
[2] Грачев А. Кремлевская хроника. М., 1994. С. 28.
[3] Yenə orada. S. 31-32.
[4] Bu barədə bax: Сергей Семанов «Юрий Андропов». М., 2003.
[5] «Источник», № 6, 1994. С. 108-109.
[6] Семанов С. Брежнев. М., 2002. С. 179.
[7] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 243.
[8] Соловьев В., Клепикова Е. Заговорщики в Кремле. М., 1991. С. 51.
[9] Медведев Р. Неизвестный Андропов. С. 19.
[10] Ulduz. 1990. № 6. S. 74.
[11] Anar. Ömrümün «Qobüstan» illəri». Əsərlər. Bakı, 2004, c. 4. S. 65-75.
[12] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. Bakı, 2001, k. 1. S. 271.
[13] Yaşıl rəngin işığı. Bakı, 2000. S. 127.
[14] Анар. Без вас. Сочинения. Баку, 2006, т. 3. С. 66.
[15] Yaşıl rəngin işığı. S.151.
[16] Государственный архив политических партий и общественных движений АР (ГАППОД). Фонд 1, опись 62, дело 96, л. 73.
[17] Yenə orada. S. 78-79.
[18] Yenə orada. S. 82.
[19] Государственный архив политических партий и общественных движений АР (ГАППОД). Фонд 1, опись 62, дело 94, л. 13-17.
[20] Yaşıl rəngin işığı. S. 89.
[21] Anar. Mübarizə bu gün də davam edir. Bakı, 2002. S. 501.
[22] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. Bakı, 1992. S. 43.
[23] Ulduz. 1990. № 6. S. 70.
[24] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. S. 42.
[25] Бакинский рабочий. 2003. 23 мая.
[26] Медведев Р. Неизвестный Андропов. М., 1999. С. 163.
[27] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С. 226-227.
[28] Кремлевский самосуд. Сб. документов. М., 1994. С. 169-172.
[29] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. K. 1. S. 271.
[30] Elçibəy Ə. Deyirdim ki, bu quruluş dağılacaq. S. 37.
[31] Шариф А. Любить свой народ – это не национализм. Зеркало. 2003. 20 декабря.
[32] Ulduz. 1990. № 6. S 76.
[33] Yenə orada.
[34] Бакинский рабочий. 2003. 23 мая.
[35] Azərbaycan tarixi, 7 cilddə. 7-ci cild. Bakı, 2003, S. 232-233.
[36] Бакинский рабочий. 2003. 23 мая.
[37] Зеркало. 2003. 20 декабря.
[38] Магомаев М. Любовь моя – мелодия. М., 1999. С. 239.
[39] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. Баку, 2004. С.134-135.
[40] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. K. 2. S. 207.
[41] Магомаев М. Любовь моя – мелодия. С. 196-197.



[42] Yenə orada. S. 202.
[43] Yenə orada. S. 238.
[44] Зеркало. 2003. 9 мая.
[45] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. K. 2. S.212.
[46] Yenə orada.
[47] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 124.
[48] Yenə orada.
[49] Бакинский рабочий. 1979. 2 октября.
[50] Светлана Мирзоева. Гейдар Алиев: искусство прошло через всю мою жизнь. С. 144.
[51] Yenə orada. S. 169.
[52] Бакинский рабочий. 2002. 10 сентября.
[53] Ulduz. 1990. № 6. S. 70.
[54] Эльчин. Лицом к лицу с историей. Зеркало. 2005. 10 декабря.
[55] Ulduz. 1990. № 6. S. 78.
[56] Бакинский рабочий. 2003. 23 мая.
[57] Любовь моя – мелодия. С. 238-239.
[58] Бакинский рабочий. 1977. 11 июня.
[59] Угур Османов. Дорогой мне образ. Бакинский рабочий. 2004. 7 июля.
[60] Литературная газета. 1991. 5 июня.
[61] Гусейнова И. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку, 2005. С. 60.
[62] Бакинский рабочий. 2003. 23 мая.
[63] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С. 398.
[64] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, k. 4. S. 427-428.

*Beşinci fəsil*

# Qoy ədalət zəfər çalsın!

## «Bu mənim əqidəmdir»

Sağlam asketizm fəlsəfəsi, «qaz vur, qazan dolsun», əşyabazlıq əxlaqına barışmazlıq ruhunda tərbiyə almış Heydər Əliyev bir çekist kimi dövlət malına göz dikən, ictimai əmlakı öz şəxsi varı ilə «çaş salan» adamlara həqarətlə baxırdı. O, 70-ci illərdə öz xidməti vəzifəsindən sui-istifadə edən, sovet qanunlarını, partiya Nizamnaməsini pozan partiya işçilərinə qarşı xüsusilə barışmaz idi.

Heydər Əliyevin sabiq köməkçisi Ramiz Tanverdiyev xatırlayır:

«Hansısa söhbət, ya çıxışında, indi yadımda qalmayıb, o, açıq dedi: bu mənim əqidəmdir, mən ömrüm boyu bunlara qarşı barışmazlıq ruhunda tərbiyə almışam. O zamanlar, hətta Qərb politoloqlarının qənaətinə görə, DTK sistemi korrupsiyaya ən az «yoluxmuş» Sovet qurumu sayılırdı. Nadürüstlərlə mübarizə onun üçün prinsip məsələsi idi. Kiminsə xoşuna gəldi, ya gəlmədi».

Rüşvətxorlarla, möhtəkirlərlə mübarizə haqqında Heydər Əliyev hələ respublika KP MK birinci katibi seçilməmişdən əvvəl düşünürdü. Azərbaycan DTK sədri olarkən o, dəfələrlə respublikanın iqtisadi inkişafını əngəlləyən neqativ hallar haqqında Vəli Axundova məruzə etmiş və «sosialist əxlaqı antipodları»na qarşı daha qəti ölçülər götürməyi təklif etmişdi. Lakin liberal Axundov bu işləri sonraya salmağı lazım bildiyindən DTK sədrinin məlumatı əksər hallarda nəticəsiz qalırdı.

Onda Heydər Əliyev özünün bəzi tənqidi mülahizələrini daha geniş auditoriyaya yaymağı qət etdi. Biz onun seçicilərlə görüşlərdə iqtidar dəhlizlərini lərzəyə salan açıqlamaları haqqında artıq bəhs etmişdik. Belə çıxışlarının birini MTN əməkdaşı Pərviz Hətəmzadə xatırlayır:

«Mən ya 1968-ci, ya da 1969-cu ilin əvvəlində keçirilən Mərkəzi Komitənin plenumunda olmuşdum. Plenumda çıxış edərək, Hey-

dər Əliyev vəzifəli şəxslərin, dövlət məmurlarının rüşvətxorluğundan söz açdı. Rəşid Məcidov o vaxt MK inzibati şöbəsinin müdiri idi. O, Heydər Əliyevin sözünü kəsib soruşdu: «Siz konkret misallar gətirə bilərsinizmi?» – «Bəli, bilərəm», – Heydər Əliyev dedi. Və şöbə müdiri daha dinmədi».

Kitabım üçün material toplayanda mən Moskvada tanınmış tarixçi Roy Medvedyevlə görüşdüm və ona suallarımdan biri liberal Moskva ziyalıları tərəfindən Heydər Əliyev şəxsiyyətinə və onun neqativ hallarla mübarizəsinə necə münasibət bəslədiklərinə aid idi.

Cavabı belə oldu:

«1982-ci ildə Heydər Əliyev Moskvaya dəvət edilib SSRİ Nazirlər Soveti sədrinin müavini kimi işə başlayanda «Vaşinqton post» qəzeti məndən onun haqqında məqalə yazmağı xahiş etdi. «Heydər Əliyev: Kreml üfüqlərində yeni bir ulduz» adlı məqalə yazdım. Yazmaqdan əvvəl tanış olduğum adamlarla söhbətləşdim, hələ 1969-cu ildə Heydər Əliyev korrupsiyaya qarşı mübarizəni başlayanda apardığım bütün qeydlərdən, müşahidələrdən və qaynaqlardan istifadə etdim.

Onun haqqında əfsanələr gəzirdi, nələrin gerçək olub-olmamasını Moskvada ayırd etmək bizə çətin idi. Sovet cəmiyyətində korrupsiyaya, kif basmış durğunluğa, idarəçiliyi bacarmayan adamlara, geniş mənada deyək ki, «brejnevçiliyə» son qoymağa ehtiyac, meyil duyulurdu. Və birdən Qafqaz ötəsində iki lider – Gürcüstanda korrupsiya ilə mübarizəyə qatlaşan Şevardnadze, Azərbaycanda isə Şevardnadze kimi hüquq-mühafizə orqanlarından (biri DİN-dən, o birisi DTK-dan) çıxmış Əliyev peyda oldu və partiyanın hakimiyyət monopoliyasından faydalanaraq... qayda-qanun yaratmağa başladılar.

Və Moskvada, hər halda, ziyalıların mən təmsil olunduğum hissəsində onların fəaliyyətini rəğbətlə, ümidlə izləyir və hər bir sözünü göydə tuturdular. Moskvada hətta Azərbaycanda rusca çıxan qəzetləri, məsələn, «Vışka»nı oxumağa başlamışdılar, Tbilisidən «Zarya Vostoka»nı alıb oxuyurdular. Onların fəaliyyəti Moskvada böyük maraq doğurudu».

Vaqif Mustafayevin «Birinci» filmində akademik Georgi Arbatov da eyni müşahidələrini bildirir:

«...Mənim yaşımda, mənim dairəmdən olan, Moskvada yaşayan adamlar, əlbəttə, burada da çoxsaylı korrupsiya faktları ilə rastlaşırdılar. Əfsus ki, bu, nə inqilabın, nə də heç kimin öhdəsindən gələ bilmədiyi köhnə rus azarıdır... Biz hamımız bir-birimizlə bağlı, hamımız vahid İttifaqda idik və anlayırdıq ki, hardasa bu hal ilə həqiqi



mübarizə başlansa, yəqin ki, o, lokal çərçivədə qalmayacaq. Öz respublikasında qayda-qanun yaratmağa birinci olaraq qatlaşan Əliyev oldu. Və hamının gözü ona dikilmişdi. Həmin eybəcərliyə nəhayət əl qaldıran adam bax, budur...»

Roy Medvedyev yuxarıda adı çəkilən məqaləsində Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk aylarda neqativ hallarla mübarizədə guya əl atdığı özünəməxsus üsulları çox bəlağətlə təsvir edir:

«Çoxları hələ onu sifətdən tanımadığı üçün o, mağazalara və restoranlara sadəcə müştəri kimi gedir, sadə insanlarla növbələrdə, küçələrdə söhbətləşirdi. Cənub respublikalarına, dövlət tədarüklərini yerinə yetirməyincə, şimal şəhərlərinə meyvə-tərəvəz aparıb satmaq qadağan edilmişdi. Bu qayda hər yerdə pozulurdu, yazda, yayda Bakı və Tbilisi bazarlarında Moskva, Leninqradda olduğu kimi bahaçılıq idi. Heydər Əliyev şəxsən erkən pomidorla yüklənmiş maşının kabinasında oturub şimala doğru sürdürür. Elə ilk milis «naryad»ı maşını saxlatdırır, sürücünün lazımi sənədləri olmadığı aşkarlanır. Amma bir «iyirmibeşlik» o yana gedən yolu açır. Lakin yük maşınının ardınca DTK işçilərini aparan minik maşını dayanırdı və rüşvətxor milisə öz «yerini tanıdırdı»... Respublika məsul işçilərinin və qara bazar «ağa»larının dəbdəbəli bağ malikanələrini aşkarlamaq üçün Bakı ətraflarında və daha uzaqlarda «vertolyot»lardan fotoçəkilişlər aparılırdı»[1].

Heydər Əliyevin yük maşınında yoxlama səfərinə aid R.Medvedyevin hekayətinin səhih olub-olmamasını deyə bilməsəm də, Bakı ticarət «mafiya»sının köpünü yatızdırması danılmaz faktdır. Heydər Əliyevin şəhərə «partizan»sayağı çıxışları haqqında onun öz dilindən eşitmişəm.*

Heydər Əliyev heç vaxt «bu nəyimə gərəkdir, nə işim var? Niyə özümü qabağa verib düşmən qazanım, ətalətlə, mühafizəkarlıqla, anlamazlıqla çarpışım-vuruşum?» kimi suallarla özünü toxdatmayıb. Ona kimsə bu cür sual versəydi də, təəccüblənərdi. Onun üçün hər şey açıq-aydın idi: bax, budur dünyanın ən yaxşı ölkəsi – SSRİ, budur ən yaxşı quruluş – sovet quruluşu, bu da eybəcərliklər, qüsurlardır ki, işıqlı gələcəyi yaxınlaşdıran kommunizm qurucularına əngəl törədirlər. Demək, həmin eybəcərliklərin kökü kəsilməlidir. «Çekist» qətiyyəti və dönməzliyilə. Sistemdə köklü islahatlar zəruriyyəti haqqında o, sonralar düşünməyə başlayacaq...

---

* Bu barədə kitabın 2-ci fəslində bəhs edilir.

* * *

SSRİ DTK sədrinin sabiq birinci müavini Filipp Denisoviç Bobkov xatırlayır:

«O təsdiqlənəndən sonra ilk görüşümüz həmin mövzu barədə oldu. Məndən soruşdu: «Nədən başlamalı?». Cavab verdim: «Sən, yəqin, nədən başlamalı olduğunu bilirsən. Qayda-qanun yaratmaq lazımdır». «Bəli, mən də belə düşünürəm, – cavab verdi. – İndi ən başlıcası insanların hörmətini qazanmaq, inam doğurmaq lazımdır ki, sən sosialist qanunçuluğunun pozuntularına, xalqa yaxşı yaşamağa maneçilik törədən hər nə varsa, ona qarşı həqiqətən də mübarizə aparırsan».

Və o, bu işlə fəal məşğul olurdu. O, vəzifəyə təyin olunandan üç il sonra Bakıya gəlmişdim, – DTK xəttilə müşavirəmiz vardı. Heydər Əliyev müşavirəyə gələ bilməsə də, getməzdən əvvəl ona baş çəkdim. Söhbət əsnasında soruşdum: «Hə, necədir, Heydər, bu illərdə çoxmu düyünləri açа bildin? Rüşvətin öhdəsindən gələ bildinmi?». O, mənə bircə cümlə ilə cavab verdi: «Mən sənə dəqiq deyə bilərəm ki, Mərkəzi Komitədə rüşvət almırlar».

**Y.Klepikova və V.Solovyovun «Kremldəki qəsdçilər» kitabından:**

«Dövlət Təhlükəsizlik Komitəsinin köhnə müqəddəs emblemini – qalxan və qılıncı yada salsaq, DTK generalı Əliyev, sonra gürcü Şevardnadze, daha sonra SSRİ məxfi xidmətinin başçısı Yuri Andropova gəldikdə, DTK «qalxan»lıqdan çıxıb qılıncını da qorumalı olduğu adamlara – dövlət partokratlarına qarşı yönəltmişdi...

Əliyev tamamilə yeni – açıq üsuli-idarə tətbiq etdi. Yüksək vəzifəli partiya məmurlarının dərhal işdən çıxarılmasıyla, çox vaxt da həbslərlə sonuclanan korrupsiyaya qarşı mübarizəni o, ümumrespublika miqyasında göz önünə çıxartdı. Sonu bilinməyən təmizləmələrə mətbuat da cəlb olundu. Partiya-hökumət qəzeti «Bakinski raboçi» müntəzəm olaraq rüşvətxorluq, dövlət əmlakının talan edilməsi, gizli özəl zavodlar, partiya rəhbərləri arasında qohumbazlıq və müvafiq cəzalar, hətta ölüm hökmləri haqqında da xəbərlər verirdi...

Beləcə Azərbaycanın «qırmızı burjuaziyası» faş edilir və xalqın açıq divanına çıxarılırdı. Beləcə də – qanunu pozanların ifşası və cəzalandırılması üzrə sərt polis tədbirlərinə – keçmişlər üçün də, gələcək üçün də – bəraət qazandırılırdı. Beləcə də insanla dövlət arasında, məhbəslə ev, olumla ölüm arasında məsafə qısaldılırdı: heç kəs nə böyük pulla, nə yüksək vəzifəylə ifşadan və cəzadan sığortalana bilməzdi»[2].



1970-1978-ci illərdə MK inzibati orqanlar şöbəsinin müdiri Cəfər Vəliyev Heydər Əliyevin neqativ hallarla amansız mübarizəsində «sağ əli» idi. Cəfər Cəbrayıl oğlu Vəliyevlə Heydər Əliyev hələ 60-cı illərin başlanğıcından, onun iki Lenin ordenli, Böyük Vətən müharibəsi iştirakçısı olmuş qaynatasıyla isə Naxçıvanda birgə işlədiyi dövrdən tanış idi.

Heydər Əliyevlə birbaşa işləməli olduğu illər və Mərkəzi Komitədə adı çəkilən vəzifəyə təyin olunmasının təfsilatı haqqında C.Vəliyev özü mənə danışmışdır:

«İyulun 14-də Heydər Əliyev Mərkəzi Komitənin birinci katibi seçildi. Plenuma bizim tərəfdən respublika prokuroru dəvət edilmişdi, o vaxt MK üzvlüyünə namizəd idi. Ertəsi günü Qamboy Məmmədov mənə zəng vurub soruşur:

– Bu gün qəzetlərdə MK üzvlərinin siyahısı dərc olunub. «Vəliyev C.» sənsənmi?

Mənə qəzeti gətirdilər, oxuyub təəccübləndim ki, mənim adım bu siyahıya hansı minvalla düşüb. Mən hətta üzvlüyə namizəd olmasam da, birbaşa MK üzvü seçilmişdim. Başa düşdüm ki, bu, əlbəttə, yeni birinci katibin təşəbbüsüdür.

Bir neçə ay keçdi, artıq 1970-ci il idi. Axşamçağı, – biz prokurorluqda işlə bağlı çox qalmalı olurduq, – mənə Heydər Əliyevin referenti zəng çaldı:

– Heydər Əliyeviç sizinlə görüşmək istəyir.

Söhbət əsnasında o mənə Mərkəzi Komitəyə, inzibati orqanlar şöbəsi müdiri vəzifəsinə keçməyi təklif etdi. Artıq tərcümeyi-halımı xırdalıqlarıyla, uzaq qohumlarımın kimliyinədək, xidməti anketimi də oxuyub öyrənmiş və qənaətə gəlmişdi ki, bu vəzifəyə ən münasib adam mənəm.

– İnzibati orqanlar dəhşətli haldadır, – dedi. – Biz onları dirçəltməli, çirkabdan təmizləməli, orada işləmək üçün vicdanlı, abırlıhəyalı kadrlar seçməliyik. Mən sənin bu sahəylə tanış olduğunu, prokurorluqda, ondan əvvəl də MK-da işləyərkən özünü yaxşı göstərdiyini nəzərə alıram. Get və ilk növbəli tədbirlər planını tərtib et.

Bu vəzifədə mən 1977-ci ildək çalışdım, sonra isə həlak olmuş Arif Heydərovun yerinə daxili işlər naziri təyin olundum.

**– İnzibati orqanlarda şöbə müdiri olarkən siz hüquq-mühafizə qurumlarına nəzarət edirdiniz. O illərdə rüşvətxorluqla, ticarətdə əliəyrilikla çox sərt mübarizə aparılır, geniş açıq məhkəmələr keçirilirdi. Həmin sərt tədbirlər zəruri idimi?**

– Biz onunla bu barədə uzun sürən söhbətlər edirdik. Heydər Əliyev deyirdi ki, səhiyyədə, təbabətdə, başqa sahələrdə də vəziyyət pisdir. Hər yerdə rüşvətxorluq, alverçilik, qohumbazlıq baş alıb gedir. Ona görə mənə bütün bunların aradan qaldırılması barədə düşünüb-daşınmaq tapşırılmışdı ki, xalq müsbət dəyişiklikləri duya bilsin, haqq-ədalətin gücünə inansın.

**– O sizin qarşınızda hansı başlıca vəzifəni qoymuşdu?**

– İlk növbədə, hüquq-mühafizə orqanlarının – DİN-in, prokurorluğun saflaşdırılması, məhkəmə orqanları tərkibinə yenidən baxılması. Biz DİN-i «təmizlədik», Əlizadəni işdən çıxartdıq, – belə bir nazir vardı. Nazir də, müavinləri də MK Bürosunda tutduqları vəzifələrdən kənar edildilər.

**– Bəs yeni kadrları harada tapırdınız?**

– Biz onları elə DİN-in özündə, prokurorluqda arayıb seçirdik, axı saleh adamlar da vardı. Orqanları antlamaqdan savayı, rayon partiya rəhbərlərinin pozuntuları haqqında informasiyanı yoxlayırdıq. Yadımdadır, Kürdəmir rayonunda pambıq məhsulu həcminin saxtalaşdırılması aşkarlanmışdı. Orada raykom katibi Məmmədov idi, zahirən özünü prinsipial göstərdiyinə görə onu «bala Lenin» adlandırırdılar. İşinin yoxlanmasına gəldikdə, «pripiska»lar, cürbəcür əyintilər üzə çıxdı, onu partiya sıralarından kənarlaşdırdılar, sonra da cinayət məsuliyyətinə cəlb etdilər. Pozuntulara, saxtalaşdırmalara görə başqa katiblər də cəzalandırılırdı.

Alverçiliklə mübarizə aparılır, xüsusi reydlər keçirilirdi. Amma, əlbəttə, «pripiska»lara qarşı mübarizə daha sərt idi. 70-ci illərin ortalarında Şamxorda böyük pozuntular aşkarlandı. Bir sözlə, biz daima bu məsələlər üzərində çalışırdıq, nazirləri, təsərrüfat rəhbərlərini vəzifələrindən azad etmək lazım gəlirdi. O illərdə MK Büro iclasları çox gərgin keçirdi.

**– Nə üçün?**

– Çünki məsələlər kəskinliklə, prinsipial şəkildə müzakirə olunurdu, adamlar işdən çıxarılır, töhmət alırdılar. Heç kim, hətta ən yüksək vəzifə tutan da, sığortalana bilməzdi. Yadımdadır, MK şöbə müdirləri Ənvər Cəbrayılov və Mikayıl Nəzərov mənə yanaşıb deyərdilər.

– Sənin üçün yaxşıdır, onun sənə necə münasibət bəslədiyini görürük, biz isə yerimizdə oturub əsirik...

Doğrudan da, Büroda iştirak edərkən bəzən düşünürdük ki, sabah bizim də aqibətimiz belə ola bilər. Heydər Əliyeviç güzəştə getməyən adam idi, yanlış hərəkətlərə görə çox ciddi cəza verərdi.



Həlak olmuş Arif Heydərovun dəfninə SSRİ DİN naziri Şşolokov gəlmişdi. Mən hələ MK şöbəsi müdiri idim. Yanaşı gedirdik – Heydər Əliyeviç, ortada Şşolokov, mən də o biri tərəfdə. Biz tanış olduq və nahar etməyə getdik. Sonra Şşolokov Heydər Əliyevə üz tutub soruşdu:

– Bu cavan oğlan niyə daima qaşqabaqlıdır?

– Nədən sevinsin ki, onun nəzarət etdiyi sektor bizdə ən murdar sahədir, – Heydər Əliyevin cavabı belə oldu».

Heydər Əliyev, yazda qar əridiyi kimi xalqın hakimiyyətə qarşı «əriyən» inamını dirçəltmək, qaytarmaq üçün ilk növbədə nədən, hansı işdən başlamalı olduğunu həqiqətən bilirdi. «İndi başlıcası, – güc qurumları rəhbərinə üz tutub tapşırırdı, – asayişi bərpa etməkdir. Bütün əməllərlə qanunun aliliyini bərqərar etdirmək, sərəncamınızda olan bütün vasitələrlə ədalətliliyi, sıralarımızın təmizliyini və sıravi zəhmətkeş vətəndaşı dəstəkləmək əzminizi nümayiş etdirməkdir...»

Bu göstəriş, təbii ki, diqqətlə qarşılanırdı. Lakin əfsus ki, daha çox söz verməklə, əhd-peymanla, zahiri canfəşanlıqla... Hüquq-mühafizə orqanlarının canına, iliyinə işləmiş «əl əli yuyar» düşüncəsi birdən-ikiyə nəzərdə tutulan yeni kursa keçməyə imkan vermirdi. Heydər Əliyevin xeyirxah niyyətləri gizli və üstüörtülü müqavimətlə rastlaşır, ona görə də bəzən boşa çıxırdı. Qəti, kardinal ölçülər götürülməliydi. DİN sistemində «böyük təmizləmə»ni Sabir Hüseynov belə xatırlayır:

«Heydər Əliyeviç Sov.İKP Mərkəzi Komitəsinə respublika DİN sisteminin bütövlükdə yoxlanılması üçün səlahiyyətli professionallardan ibarət komissiya göndərilməsi barədə xahişlə müraciət edir. Belə komissiya da səfərbər edilir. O, bizdə düz bir ay işlədi. Komissiya eybəcərliyi tük ürpəşdirən işlərin astarını üzə çıxardı. Heydər Əliyeviçə komissiya üzvlərinin təqdim etdiyi arayış sarsıdıcı idi... Və təxirəsalınmaz qəti tədbirlər tələb edirdi.

Yoxlama yekunlarının müzakirəsinə Mərkəzi Komitəyə bütün DİN və hüquq-mühafizə orqanları rəhbərliyi dəvət olundu. Nazirliyin kollegiya üzvü kimi mən də iştirak etdim. Müzakirə, yarım saatlıq nahar fasiləsilə, səkkiz saatdan çox çəkdi. Heydər Əliyeviç hər bir iştirakçını, vaxtını məhdudlaşdırmadan, qaldırıb dinlədi.

– Mən heç təsəvvür edə bilməzdim ki, bizdə belə işlər baş verir, – adətən özündən arxayın, ötkəm nazir Əlizadə özünü itirmiş halda dedi.

Bu replikanı Heydər Əliyev yalnız əllərini yellətməklə cavabladı...

Müzakirənin yekunları üzrə MK Bürosunun qərarı lap sarsıdıcı oldu: bütün DİN başçıları – nazir, müavinləri, DİN milis idarə rəisi (o vaxt belə vəzifə də vardı) paytaxt milis rəisi ciddi partiya töhməti aldı və tutduqları vəzifələrindən kənarlaşdırıldı.

Həmin müzakirənin məzmunu ertəsi günü respublikanın «Kommunist» və «Bakinski raboçi» qəzetləri səhifələrində dərc olundu. Əvvəllər belə xəbərləri yaymırdılar. Sonralar mənə məlum olduğu kimi, Heydər Əliyeviç bu açıqlamanın zəruriliyinə Moskvanı inandıra bilmişdi. Onun xahişini və dəlillərini dinləyən Sov.İKP MK katibi Mixail Andreyeviç Suslov düşünüb-daşınıb:

– Sizinlə razılaşmamaq çətindir, yoldaş Əliyev, – demişdir. – Partiya tərəfindən dözülməz nöqsanların aşkarlanması və onlardan çıxarılan nəticələr, zənnimcə, dərc edilməlidir.

Camaat qəzetləri isti «pirojki» kimi əlüstü alırdı. Hətta başqa respublikalardan həmin qəzet saylarının göndərilməsini xahiş edirdilər».

* * *

Heydər Əliyevin şəxsi arxivindəki materiallarla uzun müddət işləyərək, mən saralmış-soluxmuş partiya sənədlərindən, ya da o dövrün qəzetlərindən əyintilərlə mübarizə aparılan zaman «ziyan çəkən» məmurların ad və soyadlarını qeydə alırdım. Korrupsiyaya qarşı mübarizənin ən çox səs-küy doğurmuş bəzi faktları haqqında mənə Heydər Əliyev komandasının üzvləri söyləmişlər; o, özü də az qala hər partiya plenumu, ya müşavirəsində bu problemə diqqət yetirməyi vacib bilirdi. Nəticədə bir qalın qovluq – «dosye» alındı və onun ayrı-ayrı səhifələrini biz oxucuyla birgə vərəqləyəcəyik.*

1973-cü ildə Lənkəran rayonunun balıqçılıq təsərrüfatlarında aparılan yoxlama nəticəsində böyük pozuntular üzə çıxarılmışdır. Rayon mərkəzindən qırx kilometr aralıda yerləşən təsərrüfat rəhbərləri guya 30 hektarlıq sahəyə malik olduqlarını göstərən saxta sənədlər qondarmışlar. Orada pomidor əkilmiş, bolluca məhsul yetişdirilmiş və dövlətə təhvil verilmişdir... Halbuki tərəvəz sahələri yalnız kağız üzərində mövcud idi, elecə də guya müxtəlif ünvanlara göndərilən pomidorla dolu vaqonlar... Sənədlərdə də fəndgir işbazlar böyük məbləğli gəlirləri qeydə alırdılar. Belə saxtakarlıqlar hesabına 15 milyon manat (rubl) vəsait (!) oğurlanmışdır. İstintaq iki il davam etmiş, məsuliyyətə 60 nəfərdən artıq adam cəlb edilmiş, onlardan altı nəfəri güllələnmə cəzası almışdılar. Hərçənd sonra beş nəfəri əfv edilmişdi, hər halda hökm sərt oldu: 22 nəfərin hər biri 15 illik cəzaya məhkum edildi.

«İstintaq zamanı həmin kolxoz sədrlərindən bəziləri öz aqibətlərini yüngülləşdirməyə can ataraq, mənə yol tapmağa cəhd göstərdilər, – Lənkəran rayon partiya komitəsinin sabiq birinci katibi İsa Məmmədov xatırlayır. – Onlardan biri – Eyvazov – qəbuluma gəlib çəkinə-çəkinə qaldı, əsas mətləbə keçə bilmir. Nəhayət, öz xahişini bildirir: «İsa Əliyeviç, bizi partiyadan çıxartdılar, qoy əmlakımızı da müsadirə eləsinlər, təki dama basmasınlar. Mən iyirmi altı ildir ki, milyonçu kolxozun sədriyəm». – «Bəs mən indi neyləməliyəm?» – maraqlandım. «Yoldaş Məmmədov, – o, axır ki, ürəkləndi, – biz dörd nəfərik, hərəmiz də sizə 50 min rubl gətirmişik. Üstəlik siz bizə kömək edəndə adambaşı əlli min verəcəyik». Mən masa arxasından qalxıb əlimi cibimə saldım. «Görürsənmi, mən burda neçə il işləsəm də ciblərim boşdur. Amma yenə də sizin pulunuzu alan deyiləm. Gedin o pulları, bacarsınızsa, hakimlərə, prokurorlara paylayın ki, dadınıza çatsınlar. Söz verirəm ki, bu söhbət öz aramızda qalacaq». Onları məhkum etdilər. Bir müddət sonra məni Heydər Əliyev yanına çağırır. «Sənə orda pul təklif edirlərmi?» Dedim: «Özü də nə qədər... o pulları banka qoysam milyonçu olardım». Heydər Əliyev gülür: «Əşşi, elə pulu banka qoymaq olarmı?» Sonra ciddiləşdi: «Həmin adam bizə hər şeyi danışdı». O, qarşıma Eyvazovun izahatnaməsini qoydu. Oxuyub gördüm ki, bizim söhbətimizi dəqiqliklə qələmə alıb... Əlavə də yazıb ki, bəs mən artıq yeddinci katibnən işləyirəm, altısı məndən pul tələb edirdi, bəzən də zorla qoparırdılar, on min manatdan artıq heç kimə verməmişəm. Buna isə adambaşı əlli min təklif elədik, almadı...»

Heydər Əliyev nəmlənmiş gözlərini mənə zilləyib: «Bax, biz belə də işləməliyik» – dedi».

70-ci illərin əvvəllərində Xaçmaz rayon partiya komitəsinin işində ciddi nöqsanlar və pozuntular aşkarlanmışdı. Birinci və ikinci raykom katibləri B.Hüseynov və T.Hüseynov, elecə də rayon icraiyyə komitəsinin sədri K.Rəhimov işdən azad edilmiş, partiyadan çıxarılmışdılar. Azərbaycan Kommunist Partiyasının 29-cu qurultayın-

* Bəzi misalları biz «Əliyev və onun kadrları» fəslində gətirmişdik.

da Heydər Əliyev onları nadürüstlüklə partiya sıralarını ləkələyən rəhbərlər kimi misal gətirmişdi. Bu əhvalatın üzə çıxmasını şərtləndirən əlamətdar cəhət odur ki, Xaçmazda işlərin bərbad vəziyyətdə olması barədə siqnallar MK birinci katibinə DTK tərəfindən çatdırılmışdı. Ümumiyyətlə, 70-ci illərdə Heydər Əliyevin korrupsiya «əjdahası» ilə ağır savaşında çəkistlər onun yaxın silahdaşları və ardıcıl köməkçiləri idilər. DTK-nın Xaçmaz rayon şöbəsinin sabiq rəisi Cabbar Bəylərov o əhvalatı belə xatırlayır:

«Raykomun birinci və ikinci katibləri tərəfindən yol verilən pozuntular barədə mənə tez-tez məlumat gəlirdi. Onlar rayonda vəzifələrə təyin edilməyə görə böyük məbləğlərdə rüşvət alırdılar. İnformasiya müxtəlif qaynaqlardan, o cümlədən adi vətəndaşlardan da gəlirdi. Mən bu barədə öz sədrimizə məruzə etmək qərarına gəldim. Vitali Krasilnikov yazılı raport təqdim etməyi tapşırdı. İki gün sonra kabinetimdə telefon səsləndi:

– Təcili Bakıya gəlin. Heydər Əliyeviç sizi çağırır.

Mərkəzi Komitənin birinci katibinin qəbuluna gəldim. Bir saat yarım ərzində o məni sorğu-suala tutub hər şey haqqında ətraflı məlumat aldı, hansı qaynaqlardan informasiya almağımla, onların etibarlı olub-olmaması ilə maraqlandı. Mən isə faktları yenidən yoxlatdırmışdım, hər şey dəqiq idi.

– Xaçmaza qayıdın, yerinizdə olun, – dedi. – Mən sizə inzibati orqanlar şöbəsinin müdiri Cəfər Vəliyev başda olmaqla komissiya göndərəcəm.

Komissiyaya Respublika Xalq Nəzarəti Komitəsinin sədr müavini Salman Cəfərov və Nazirlər Sovetinin əməkdaşı da daxil edilmişdilər.

Xülasə, komissiya gəldi, hər şeyi müfəssəl yoxladı. Və mən bildiklərimdən də artıq nöqsanları və eybəcər faktları üzə çıxardı...

1975-ci ilin 18 noyabrında MK Bürosu Xaçmaz rayonunun təsərrüfat fəaliyyətinin yoxlanması nəticələrini müzakirə etdi və qərara aldı: raykomun birinci katibi Hüseynov partiyadan çıxarılsın, MK və raykom bürosu tərkibindən kənarlaşdırılsın, tutduğu vəzifədən azad edilsin. Eynilə rayicrakom sədri, raykomun ikinci katibi cəzalandırıldılar. İkinci katibə gəldikdə, üstəlik onun işi istintaq orqanlarına verildi, – o, daha geniş miqyasda və daha azğıncasına «qaz vurub qazan doldururdu». Rayonda ciddi narazılıq vardı.

MK Bürosu öz qərarında rayon təhlükəsizlik orqanlarının müsbət fəaliyyətini ayrıca maddə ilə qeyd etmişdi. Bu cür maddəyə o vaxtadək Büro qərarlarında rast gəlməmişdim.



O dövrdə, korrupsiyaya qarşı mübarizə dalğasında, Xaçmaz rayonundakı yüksək rütbəli rüşvətxorların ifşa edilməsi respublikada geniş əks-səda doğurdu. Yaxın günlərdə Azərbaycan KP 29-cu qurultayı gözlənilirdi. KP MK təşkilat şöbəsinin müdiri İsmayıl Əsgərov mənə zəng çaldı:

– Heydər Əliyeviçin göstərişilə qurultaya nümayəndə kimi irəli sürülürsünüz. Artıq söz-söhbət olmasın deyə, nümayəndələr siyahısına bəzi başqa rayon DTK şöbə rəislərini də qatdıq».

1975-ci ilin axırında Respublika Ticarət Nazirliyi nəzdində xalq istehlakı mallarının satışı və keyfiyyəti üzrə Dövlət Müfəttişliyi İdarəsinin sabiq işçilərindən çoxsaylı rüşvətxorlar dəstəsi üzərində gurultulu məhkəmə prosesi başa çatdı. İdarə rəisi İbrahimov başda olmaqla 24 nəfər Ali Məhkəmə tərəfindən 8 ildən 15 iladək azadlıqdan məhrum edilmə müddətinə məhkum edilmişdilər. Bütün Sovet İttifaqına sorağı yayılmış bu işi DTK istintaq qrupu araşdırmışdı. Cinayət işi sənədlərində müfəttişlərdən rüşvətlə «yaxa qurtaran» yüzlərlə ticarət işçilərinin adları hallandırılırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ticarət, plan və maliyyə orqanları şöbəsinin sabiq müdiri Mikayıl Nəzərov bu sətirlərin müəllifiylə söhbətində xatırlayırdı:

«1975-ci ilin əvvəllərində Azərbaycan KP Mərkəzi Komitəsinə və başqa təşkilatlara respublika Ticarət Nazirliyi nəzdində Dövlət Müfəttişliyi işçilərinin vəzifələrindən sui-istifadə etdikləri barədə çoxsaylı siqnallar gəlirdi. Orada ticarət müfəttişlərinin qatıldıqları çoxsaylı şantaj, zorla pul qoparma, rüşvətxorluq halları haqqında xəbər verilirdi. Onlar ticarət qayda-qanunlarının pozulması haqqında qəsdən saxta faktlar uydurur, rüşvət almadıqları adamların əleyhinə aktlar tərtib edib hüquq-mühafizə orqanlarına ötürürdülər. Nəticədə hər il ticarət işçilərinə, o cümlədən təzəcə əmək fəaliyyətinə başlamış gənclərə qarşı minə qədər cinayət işinə rəvac verilirdi. İlin ortalarında bir neçə ticarət müfəttişi tutuldu. Onlar da müfəttişliyin rəisi başda olmaqla bir «qatar» nadürüst əməkdaşları öz ardınca çəkib üzə çıxardılar, – cəmi 24 nəfər həbs olundu. Məhkəmə idarə rəisinin 15 il azadlıqdan məhrum edilməsinə hökm verdi, qalanları da müxtəlif cəzaçəkmə müddəti aldılar.

1976-cı ildə bu məsələ Azərbaycan KP MK Bürosunda müzakirəyə qoyuldu. İşində ciddi nöqsanlara, ticarət müfəttişlərinin rüşvətxorluğu barədə siqnallar üzrə ölçü götürmədiklərinə görə respublika ticarət naziri Bəşirzadə, onun birinci müavini Voloviç və nazir müa-

vini Əliyeva tutduğu vəzifələrdən azad edilmiş və partiya xəttilə cəza almışdılar. Bu gurultulu işin materialları mərkəzi və respublika mətbuatında geniş işıqlandırılmışdı. Respublikanın bütün partiya və sovet orqanları, bütün rayonlarda MK Bürosunun həmin məsələ üzrə qərarını müzakirə etmişdilər. Yeri gəlmişkən, Büronun qərarı bütövlüklə mətbuatda dərc edilmişdir».

1976-cı ilin 28 yanvarında keçirilmiş Bakı partiya konfransında Heydər Əliyev bu cinayət işilə və ümumiyyətlə, rüşvətxorluğa qarşı mübarizə ilə bağlı belə deyirdi: «Onlar öz aralarında cinayətkar əlaqəyə girərək, yoxlanılan obyektlərdə işləyən adamlarla sövdələşib, sovet ticarət qaydalarının pozuntularını üzə çıxarır, aktlar tərtib edib, sonra da rüşvət alırdılar. İstintaq materiallarından göründüyü kimi, Dövlət Ticarət Müfəttişliyi işçiləri on min manatlarla ölçülən yüzlərlə rüşvət almışlar. Ancaq bu hələ üzə çıxanlanlardır.

Bu işdə diqqəti cəlb edən daha nədir? İstintaq və məhkəmə araşdırması göstərmişdir ki, nəinki həmin müfəttişlər, həm də təəssüf ki, nəzarətedici orqanların – sanitar və yanğın müfəttişliyi, xalq nəzarəti, OBXSS*, Həmkarlar İttifaqları və raysovetlərin ictimai komissiyalarının bəzi işçiləri də rüşvət alırmışlar.

...Rüşvətxorluqla mübarizə inadla və amansızcasına davam etdirilməlidir, çünki bu azar, təəssüf ki, çox yaşarılı imiş. Biz rüşvətxorluğa və rüşvətxorlara qarşı ümumpartiya, ümumxalq mübarizə cəbhəsi yaratmalıyıq. Bu mənfur adamlar üzə çıxarılmalı və ifşa olunmalıdır... Ümumi səylərlə insanların tərbiyəsinə böyük mənəvi ziyan vuran bu murdar hadisənin kökü tamamilə kəsilməlidir»[3].

1977-ci ilin 10 iyununda Mərkəzi Komitənin plenumunda Heydər Əliyev rəhbər kadrların seçilməsində yeni neqativ faktları ictimaiyyətin nəzərinə çatdırdı:

«Təəssüflə qeyd etməliyik ki, rəhbər işlərə, bəzən hətta partiya aparatına da təsadüfi, nalayiq, öz borcuna və yüksək kommunist adına etinasızlıqla yanaşan adamların soxulması faktdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təşkilat-partiya işi şöbəsi müdirinin müavini D.N.Bağırov məhz belələrindən imiş. O, tamah məqsədilə öz xidməti vəzifəsindən sui-istifadə etmiş, öz vəsaitinə görə dolanmamış, şübhəli, nadürüst adamları dəstəkləmiş, mənəviyyatca çürümüşdür. Azərbaycan KP Mərkəzi Komitəsi D.Bağırovu tutduğu vəzifədən çıxarmış və Sov.İKP sıralarından xaric etmişdir».

* Sosialist Əmlakının Talan Edilməsinə Qarşı Mübarizə Şöbəsi.



Həmin plenumda Heydər Əliyev MK Bürosunun baxdığı daha bir məsələ üzərində dayandı – M.A.Əliyev adına İncəsənət İnstitutunda pedaqoji kadrların qohumbazlıq, dostbazlıq mövqeyindən seçilməsi ilə bağlı eybəcər praktika haqqında açıqlama verdi. İnstitutun bir sıra rəhbər işçiləri bu təhsil ocağına daxil olanlar içərisində üstünlüyü öz adamlarına – dostlarının, qohumlarının övladlarına verilməsi üçün «saqqal tərpədir», «binagüzarlıq» edirmişlər. İnstitut rektoru R.Hüseynov «kadr məsələlərinin həllində özbaşınalığa yol vermiş, tamah məqsədilə xidməti vəzifəsindən sui-istifadə etmişdir. O, tələbələrin qəbulolunma, başqa ali təhsil ocaqlarından keçirmə qaydalarını kobudcasına pozurdu... Məzunların hazırlıq səviyyəsi çox aşağıdır və təsadüfi deyil ki, onların yarısından çoxu öz ixtisası üzrə işləmirlər»[4].

MK Burosu R.Hüseynovu tutduğu vəzifədən kənarlaşdırmış və partiyadan xaric etmişdi.

*Yeri gəlmişkən, sərt cəza yalnız rüşvətə «dadanmış» partiya işçilərinin «payına» düşmürdü. 70-ci illərdə rüşvətxorluğa görə məhkum edilmiş ali məktəb müəllimləri az deyildi. Ali təhsil sistemində bu acınacaqlı «azar»ın kökünü tam kəsmək mümkün olmasa da, Əliyevdən əvvəlki dövrlə müqayisədə ali məktəblərdə mənəvi iqlim xeyli saflaşdırılmışdı. O zaman tələbəsi olduğum, nüfuzlu sayılan Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin durumuna istinad edirəm. Bizim kursumuzda müxtəlif təbəqələri təmsil edən gənclər oxusa da, əksəriyyəti adicə dolanışıqlı ailələrin övladları idi. Beş il təhsil aldığımız müddət ərzində müəllimlərdən kiminsə bizlərə yaxşı qiymət vədilə pul umacaqlı eyham vurması yadıma düşmür...*

*Təəssüflər olsun ki, Heydər Əliyev respublikadan gedəndən sonra bu sahədə vəziyyət, xüsusən ali məktəb sistemində, yenə get-gedə pisləşməyə başladı. Məmurlar sanki Əliyev dövründə fövtə verdiyi fürsətin əvəzini çıxmağa can atırdılar. Az keçmədi ki, sanballı ali məktəbə qəbul olunmaq üçün böyük məbləğdə «bac» vermək «qüvvəyə mindi». Yadımdadır, mənim qızım Azərbaycan Dövlət Univrersitetində təzəcə açılmış beynəlxalq münasibətlər fakültəsinə daxil olmağı qət etdi. Mən dekanata «kəşfiyyat» məqsədilə baş çəkdim, lakin acı peşmançılıq keçirdim. Tanış olduğum müəllimlər bu fakültəyə sənədləri verməyi məsləhət görmədilər, sən demə, oraya daxil olmağın yolu az qala altı rəqəmli məbləğdən keçirmiş...*

*Ali məktəbə qəbul məsələsində cövlan edən alverə Əbülfəz Elçibəy son qoydu. 1992-ci ilin iyun ayında Azərbaycanın ikinci prezi-*

*denti seçilərək, o, ali məktəblərdə test sisteminin tətbiq edilməsini bildirdi. Bu, Xalq Cəbhəsi hakimiyyətinin ən uğurlu təşəbbüslərindən biri idi. 1993-cü ildə onu əvəz edən Heydər Əliyev öz sələfinin ideyasını dəstəklədi və test sistemini nəinki ləğv etdirmədi, hətta sonrakı on il ərzində sağdan-soldan təzyiqlərə baxmayaraq, bu üsulun ən qızğın və ardıcıl tərəfdarı kimi qaldı.*

*...Mənim qızım isə beynəlxalq münasibətlər fakültəsinə daxil ola bildi, – həmin 1992-ci ildə məktəbi bitirib test imtahanını uğurla verərək, 630 bal toplayıb (respublika üzrə həmin il üçün ən yaxşı göstəricilərdən biri!) tələbə oldu.*

1977-ci ilin iyun-iyul aylarında Kürdəmir rayon partiya komitəsinin sabiq birinci katibi M.Məmmədovun məhkəmə prosesi keçirildi. 60-cı illərin sonu-70-ci illərin əvvəllərində o, Mərkəzi Komitədə kənd təsərrüfatı şöbəsinə başçılıq etmişdi. Aparatın sabiq əməkdaşlarının xatırladığına görə, Məmmədov çox özünəməxsus tərzdə işləyirdi, onun səlahiyyət dairəsinə daxil olmayan təsərrüfat məsələlərinə girişir, rayonlara kənd təsərrüfatı məhsullarının yekun göstəricilərinin artırılması haqqında tapşırıqlar verirdi. Bu hərəkətlərin Büroda müzakirəsindən sonra Məmmədova ciddi xəbərdarlıq edilmişdi. Ona daha bir şans vermək niyyətilə Heydər Əliyev sabiq şöbə müdirini Kürdəmir rayonuna raykomun birinci katibi vəzifəsində çalışmağa yolladı. Lakin Məmmədov düzələn deyildi: verdiş etdiyi tərzdə işləyir, «pripiska»larla, rüşvətxorluqla məşğul olurdu. Ciddi yoxlamadan sonra məsələ məhkəməyə verildi. Nəticədə uğursuz katib on il cəzaçəkmə müddətinə məhkum edildi.

Heydər Əliyev üçün ən acınacaqlı hadisə Şamaxı rayon partiya komitəsinin birinci katibi S.Sayılovun cinayət işi oldu. Bu partiya işçisinə MK birinci katibi müstəsna xeyirxahlıqla yanaşırdı.

1979-cu il avqustun 1-də «Pravda» qəzetində Heydər Əliyevin «Vicdanımızın səsi ilə» («По нормам нашей совести») başlıqlı geniş müsahibəsi çıxdı. Bu müsahibədə o, haçansa əziz tutduğu katibin fəaliyyətindəki neqativ məqamları açıqladı. Etiraf etdi ki, uzun zaman Sayılov haqqında gələn siqnallara inanmaq istəməmişdi. «Şamaxı raykomunun məsul birinci katib vəzifəsini tutmuş S.Sayılov iki il öncə partiyadan xaric edilmiş, sonra da məhkum edilmişdir. Kimin ağlına gələrdi ki, onu belə bir aqibət gözləyir? İşgüzar, təpərli, ağıllı-kamallı bir adam kimi o, ilk çağlarda etimadı doğruldurdu. Gərək siz eşidəydiniz ki, o, neqativ hallarla mübarizədən necə gözəl, necə tutarlı inandırıcılıqla danışır, kürsülərdən, şəxsi söhbətlərdə ikiüzlülüyü, tamahkarlığı, tanışbazlığı necə pisləyirdi! O, respublika Kompartiyası Mərkəzi Komitəsinə seçildi, deputat oldu, mükafatları da vardı. Və rayondan Mərkəzi Komitəyə katibin partiyaçıya yaraşmayan davranışından, rüşvətxorlara və tamahkarlara himayədarlığından siqnallar gəlməyə başlayanda, əvvəllər elə düşünülürdü ki, ola bilməz, bu, yəqin paxırlarını açdığı nadürüst adamların fitnə-fəsadıdır. Lakin siqnallar təkrarlanırdı. Onda hər şeyi əməlli-başlı araşdırmaq üçün Şamaxı rayonuna kompleks partiya komissiyası göndərilməsi qərara alındı. Xoşagəlməz bir mənzərə aşkarlandı...»



**Heydər Əliyevin katib-referenti olmuş Rafael Allahverdiyev** «Sayılovun işi» ilə bağlı xatırlayır:

*«Şamaxı rayonunda birinci katib vəzifəsində Sayılov işləyirdi. Yeri gəlmişkən, Heydər Əliyevin Lenin rayonunda seçicilərlə... yaddaqalan görüşünün iştirakçısı idi. Əliyev ona çox inanırdı, Sosialist Əməyi Qəhrəmanı adına təqdim etmişdi. O keçməyəndə Heydər Əliyev onun ikinci Lenin ordeni ilə təltif edilməsinə nail olmuşdu. Sonra məlum olmuşdu ki, onun da Kürdəmir rayon partiya komitəsinin birinci katibi Məmmədov sayağı iddiaları var. Özünə dəbdəbəli qonaq evi tikdirib orada yaxın əsabələrilə kef eləyir, öz dostlarını «yağlı» yerlərdə işə düzəldir, kasad malları yalnız özü paylaşdırır, «pripiska»larla məşğul olurdu. Heydər Əliyevə bunları çatdıranda, o, özünün irəli çəkdiyi adam olmasına baxmayaraq rayona yoxlama göndərdi. Nəticədə Sayılovu partiyadan xaric etdilər, işdən çıxardılar və on il həbs cəzasına məhkum etdilər.*

*70-ci illərdə «Azərinform»un müxbiri işləmiş Vladimir Morozkov mənə DTK sədri Vitali Krasilnikovun dilindən eşitdiklərini söylədi: «Heydər Əliyevin Sayılova xoş münasibətini bilən çekistlər, Şamaxı rayonunda birinci katibin evinin zirzəmisində bir qalaq yaprıxmış sovet pulları tapdıqlarını uzun müddət gəlib xəbər verməyə cürət etmirdilər. Kağız pullar olmazınca çox idi, çoxdan saxlandığından zay olmuşdular. Onları xərcləməyə də raykomun birinci katibi ehtiyat edirdi, dövran başqa idi, odur ki, «qara gün üçün» gizlədirdi».*

*Bir sözlə, İlf və Petrovun «Qızıl buzov» adlı ölməz romanındakı gizli milyonçu Koreykonun daha bir prototipi (belə «Koreyko»lar sovet dövründə SSRİ-nin ucsuz-bucaqsız məkanında nə qədər idi!)*

«Pravda» qəzetinin müxbiri Heydər Əliyevə sual verir: belə halların qarşısı vaxtlı-vaxtında necə alınmalıdır? Və burada Heydər Əliyev, sonralar Qorbaçovun dilindən düşməyəcək «aşkarlıq» kəlməsini yəqin ki, bütün ölkə məkanında ilk dəfə (Azərbaycanda bu sözə ar-

tıq alışmışdılar) səsləndirir: «Bunun üçün ən vacib şərtlərdən biri **aşkarlıqdır**. Və üstəlik, əlbəttə, açıq, prinsipial tənqid və özünütənqid».

Bu barədə Heydər Əliyev komandasının üzvü **Ramiz Mehdiyev** də mənimlə söhbətdə xatırlayırdı:

«Öz işində neqativ hallara yol vermiş, qanunpozma yoluna qədəm qoymuş partiya və təsərrüfat orqanları rəhbərlərinin adları dərhal aşkarlıqla dilə gətirilirdi, çünki MK Bürosunun qərarları, plenum və qurultay materialları respublikanın cari mətbuatında çap olunurdu. Qorbaçovun «aşkarlığ»ından xeyli əvvəl, bu anlamın özünü də, ən başlıcası, partiya təşkilatının işində aşkar, açıq üslubu İttifaqda ilk dəfə tətbiq edən məhz Heydər Əliyev idi. 70-80-ci illərin mətbuatını nəzərdən keçirin, onun çıxışlarını yenidən oxuyun, – və özünüz buna əmin olacaqsınız».

**Ramiz Məmmədzadə ilə söhbətdən:**

«Mən üç ilə yaxın MK təşkilat şöbəsinin müdiri olmuşam. Bu dövrdə kadrların ciddi təzələnməsi baş verirdi: raykomların, vilayət komitələrinin katibləri, rayon icraiyyə komitələrinin sədrləri dəyişilirdi. Heydər Əliyeviç qətiyyətlə qayda-qanun sahmanlayırdı. Biz, məsələn, raykom katiblərinə aid şikayətləri araşdırdıq. Heydər Əliyevə qədər bu şikayətlərlə heç bir iş görülmürdü, nə nəzərdən keçirən, nə yoxlayan vardı. Ona görə də şöbədə yığın-yığın qalmışdılar. Şikayətlərdə isə rüşvətxorluq, dövlət mülkiyyətinin talan edilməsi, pozuntuların ört-basdır edilməsi, «öz» adamlarının məsul vəzifələrə düzəldilməsi və s. haqqında konkret faktlar göstərilirdi.

Biz bu şikayətləri araşdırmağa qatlaşdıq. Məsələn, Tovuz rayon partiya komitəsi birinci katibinin əməlləri. O, özünə təmtəraqlı villa tikdirmiş, Bakıda da bir mənzili satın almışdı. O dövrə görə bunlar ciddi cinayət sayılırdı. Çünki aydın olurdu ki, həmin adam tək öz maaşı hesabına dolanmır. Belə raykom katiblərini işdən çıxarırdıq, ya ciddi töhmət verirdik, ya da partiyadan xaric edirdik.

Ağdaş rayon partiya komitəsinin birinci katibinin işi də vardı. Biz ona sərəncam yolladıq ki, daxil olmuş şikayətləri araşdırsın, o isə başladı təkzib etməyə. Onda mən özüm Ağdaşa yollandım. Katibə şəhəri dolanmağı təklif etdim. Yadımdadır, raykomla üzbəüz yerləşən uşaq bağçasına baş çəkdik. Məni dəhşət bürüdü. Uşaq bağçası köhnə divarları gillə suvanmış daxmada yerləşirdi, döşəməsi dəlikdeşik, otaqlarda siçovullar qaçışır... Uşaqlara elə bulanıq çay verirdilər ki, içmək mümkün deyildi. Bütün bunları öz gözümlə gördüm.



– Tutaq ki, sənə qarşı bütün giley-güzar haqsızdı, – katibə dedim, – amma mən səni elə bu uşaq bağçasına görə işdən çıxarardım...

Nəticədə, onu vəzifəsindən kənarlaşdırdıq və partiyadan çıxartdıq.

Üç il ərzində şöbəmiz Heydər Əliyevin tapşırıqlarıyla on-on iki rayonu «arıtladı» və təəssüf ki, yoxlamaların əksəriyyəti eyni nəticələrlə sonuclanırdı: işdən çıxarmalı, partiyadan qovmalı, bəzilərini isə müttəhim kürsüsünə otuzdurmalı olurduq. Mən indi də hesab edirəm ki, o dövrə görə bunlar düzgün idi, görk idi. Önəmli dərəcədə belə tədbirlərin sayəsində respublikada qayda-qanun yaradılmışdı».

Bir neçə il sonra, pozuntularla mübarizənin cəmiyyətdə mənəvi iqlimi saflaşdıran ilk müsbət nəticələri görünməyə başlayanda, Heydər Əliyev partiya müşavirələrinin birində bəyan edəcək ki, «kommunist əxlaqının antipodlarına qarşı mübarizə ötəri kampaniya yox, partiya təşkilatları, sovetlər, həmkarlar ittifaqları, komsomolun gündəlik işinin vacib tərkib hissəsidir... Biz bundan sonra da antisosial hadisələrin tam kökünün kəsilməsi üçün bütün lazımi işləri görəcək, talançılarla, rüşvətxorlarla, bizim irəliləyişimizi əngəlləyən, sosialist cəmiyyətinin normaları və əxlaqına zidd olan bütün maneələrlə sərt və amansız mübarizə aparacağıq».*

MK ticarət şöbəsinin sabiq müdiri Mikayıl Nəzərov belə bir hadisəni xatırlayır: 1979-cu ilin yayında Bakı bazarlarında gözlənilmədən meyvə-tərəvəzin, xüsusən pomidorun qiymətləri qalxdı. Heydər Əliyev bunu biləndə MK ticarət şöbəsinə zəng vurub bu bahalaşmanın səbəblərini aydınlaşdırmağı tapşırır.

Məlum oldu ki, respublika bazarlarına pomidor məhsulunu dövlət tədarükündən əlavə, Azərittifaq plana uyğun olaraq Bakını kənd əhalisindən satın alınan məhsul hesabına erkən yetişən pomidorlarla təmin etməliymiş, lakin Sabirabad, Saatlı, İmişli rayonlarının tədarük təşkilatları Bakı sakinlərinin ehtiyacına məhəl qoymayaraq məhsulu Azərittifaq xətti ilə başqa respublikalara yollayıb daha baha qiymətə satdırmağı və bolluca gəlir qazanmağı üstün tutmuşlar...

«Bu məsələ Azərbaycan KP MK Bürosunda müzakirə edildi, – M.Nəzərov söyləyir. – Nəticədə Azərittifaqın bir çox rəhbərləri,

* 1973-cü il aprelin 19-da zəhmətkeşlərin ideya və beynəlmiləl tərbiyəsi məsələlərinə həsr olunan partiya fəalları yığıncağındakı məruzədən.

raykomların birinci katibləri, RİK sədrləri uçot vərəqinə yazılmaqla şiddətli töhmət aldılar. Bir sıra rayon kooperativ cəmiyyətlərinin rəhbərləri, tədarük məntəqələrinin direktorları vəzifələrindən sui-istifadə etdiklərinə görə işdən azad edildi. Tezliklə vəziyyət dəyişdi, paytaxt sakinləri pomidorun bazarda bollaşmasını hiss etdi, bu da qiymətləri qat-qat endirməyə imkan verdi. Belə misalların sayı çoxdur.

Heydər Əliyev dönə-dönə Bakı və digər sənaye şəhərlərinin bazarlarında ərzaq mallarının qiymətlərinə nəzarətin gücləndirilməsini tələb edir, ayrı-ayrı ticarət rəhbərlərinin və bazar müdirlərinin süni yolla kasadlıq yaradıb ərzaq məhsullarına qiymətləri artırmaq cəhdlərini sərtliklə puça çıxarırdı. Zəhmət adamına, onun sosial və maddi rifahına qayğı Heydər Əliyev üçün həmişə birinci yerdə idi».

Rüşvətxor məmurlarla mübarizə ilə yanaşı, Heydər Əliyev gizli («kölgə») bizneslə də, yəni məşhur «sexovik»lərlə «cəngə» girməyi qət etdi. Onlar Qafqazyanı respublikalarda dövlət müəssisələrilə əməlli-başlı rəqabət aparır, bəzən də hətta sonunculan «üstələyirdilər».

Azərbaycan DTK-nın sabiq əməkdaşı Pərviz Hətəmzadə xatırlayır ki, Heydər Əliyev MK birinci katibi olduğu dövrdə korrupsiya ilə bağlı ilk cinayət işi 1969-1970-ci illərin qovşağına təsadüf edir. Bu, Sosial Təminat Nazirliyinin idarə rəisi Firidun Heydərovun işidir. Həmin məmur iri «çaplı» «sexovik» idi (qeyri-qanuni istehsalat sahiblərini belə adlandırırdılar – **E.A.**). Yoxlama zamanı onun saxlancında 32 kiloqram xalis qızıl, xeyli cəvahirat tapılmışdı. Heydərov əlillərə aid avtomaşın bölgüsündə açıq-saçıq rüşvət alır, geniş istehlak malları buraxan 25 sex işlədirdi. Həmin sexlərdəki bahalı xarici avadanlıq heç Yüngül Sənaye Nazirliyi müəssisələrində də yox idi. Heydər Əliyevin tapşırığıyla bu işin aparılması DTK əməkdaşlarına həvalə edilmişdi. Məhkəmə Kollegiyası Heydərovun 15 il azadlıqdan məhrum edilməsinə hökm verdi; «Pravda» qəzetində bu barədə yazı çıxanda əhvalatın sorağı bütün ölkəyə yayıldı.

Respublika prokurorluğunun məsul işçiləri İsgəndər Babayev və İzzət Quliyevin nəzarət etdikləri «Maştağa sexləri» ilə bağlı iş daha gurultulu oldu. Pərviz Hətəmzadə söyləyir ki, faktiki olaraq, onlar Yerli Sənaye Nazirliyinin bir sıra sexlərinin «pay sahibləri» idilər. Axtarış zamanı bir sexin mühasibatında «qara mühasibat» deyilən haqq-hesab siyahısı tapılmışdı – «OBXSS»ə filan qədər, prokurorluğa filan qədər pul «ödənilmişdir». Həmin siyahıdan kələfin ucu açıldı.



**Azərbaycan Ali Məhkəməsinin sabiq sədri İbrahim İsmayılovla söhbətdən:**

– «Saşa Babayevin işi» adlanan əhvalat ticarət şəbəkəsində böyük həcmdə keyfiyyətsiz malların peyda olmasından başlandı. Yerli sənaye qadın yaylıqları, «pike»-yorğanları, uşaq paltarları buraxırdı və bütün bu hasilat zay idi.

Orqanlar kütləvi zay malların buraxılması səbəblərini araşdırmağa başladılar. Bu və ya digər məmulatın hazırlanmasına sərf olunmuş sapların sayını yoxladılar. Bu göstərici də dövlət standartları tələb etdiyindən qat-qat az çıxdı. Beləliklə, artıq xammal əldə edilir, ondan da qeydiyyata alınmamış mal hasil edilərək ticarət şəbəkəsi vasitəsilə satılırdı. Müəyyən edilmişdir ki, həmin «solaxay» müəssisələrin başçıları uzun illər boyu ələ keçmirmişlər, çünki onların kollegiya üzvü, respublika prokurorluğunun istintaq şöbəsinin rəisi İskəndər Babayev kimi «arxa»sı varmış. Sonuncuya şəxsən baş prokuror Qamboy Məmmədov himayədarlıq edirmiş...

Cinayətkar əmələ istehsalçılar da, ticarətçilər də qatılmış, – hamısı «bir qoşqu»da olaraq gəlirdən öz faizini alırmış. Bu pulların böyük hissəsi, təbii ki, İskəndər Babayevə çatırdı. Cinayət işində vaxtilə MK katibi, sonralar, M.C.Bağırov dövründə hökumət sədri olmuş Teymur Quliyevin oğlu İzzət Quliyev də vardı. Quliyevin qohumu həmin sexlərin birində mühəndis işləyirdi. Quliyev onu Babayevlə tanış edir və onlar cinayətkar dəstə təşkil edirlər. İstintaq işində çox böyük pul məbləğləri göstərilirdi, ona görə də haqlı olaraq bu əməllər külli miqdarda mənimsəmə və israf etmə kimi təsnif edilmişdi. Məhkəmə araşdırması 1980-ci ildə başa çatdırıldı. Üç nəfər, o cümlədən Babayevlə Quliyev məhkəmənin hökmü ilə güllələndilər».

*Roy Medvedyev sonralar kitabında yazdığı kimi, «məhz korrupsiya ilə mübarizə Əliyevə məşhurluq gətirdi. Respublikada onun çox tərəfdarları vardı, lakin qatı düşmənləri də az olmadı»[5]. Ötən əsrin 80-ci illərinin sonlarında, Heydər Əliyev artıq vəzifə sahibi olmadığı vaxtlarda, haçansa onun işdən çıxardığı, partiyadan xaric etdiyi, illah ki, müttəhim skamyasına yolladığı adamlardan çoxu yenə fəallaşdılar. Sov.İKP MK, Partiya Nəzarəti Komitəsinə, SSRİ Baş Prokurorluğuna «yağdırdıqları» çoxsaylı məktub və ərizələrində bu adamlar özlərini Heydər Əliyev idarəçiliyinin «totalitar» metodlarının günahsız qurbanları kimi qələmə verir, respublika KP MK sabiq birinci*

*katibinin partiya və hətta cinayət məsuliyyətinə cəlb edilməsini tələb edirdilər.*

*Andrey Karaulovla müsahibədə bu mövzuya toxunaraq, Heydər Əliyev qeyd edirdi ki, onun opponentləri partiya təşkilatının keçmiş fəaliyyətini qaralamaq niyyətilə «vaxtilə haqlı olaraq öz əməllərinə görə cəzalandırılmış adamların ərizələrindən faydalanırlar»*[6].

*«Cəzalandırılmışlar çox idimi?» – jurnalist soruşur.*

*«Yetərincə. Onlar vəzifələrindən məhrum edilir, partiya cəzaları alırdılar. Bu gün respublikada* (Vəzirov-Mütəllibov dövrü nəzərdə tutulur. – *E.A.*) *elə şərait yaradılıb ki, onlar yenə baş qaldırıb və ən müxtəlif sahələrdə həyasızcasına «fəallıq» göstərirlər. Bir çoxları sadəcə məndən qisas alır»*[7].

Heydər Əliyevin rüşvətxorluğa, müxtəlif pozuntulara qarşı amansız mübarizəsinə Kremldə necə münasibət bəslənməsini aydınlaşdırmağa çalışaraq, mən Baş katib Brejnevin respublikamıza səfərləri zamanı bütün çıxışlarını nəzərdən keçirdim. Və bir maraqlı «qanunauyğunluq» nəzərə çarpdı: Leonid İliç Azərbaycanın partiya liderinin fəaliyyətinin bu sahəsinə bir dəfə də olsun qiymət verməmiş, bir dəfə də dilə gətirməmişdi ki, baxın, afərin sizin birinci katibə, görün, juliklərlə, möhtəkirlərlə, bizim yaşamağımızı, irəliləyişimizi əngəlləyənlərlə necə çarpışır-vuruşur, başqa respublika rəhbərləri də ondan ibrət götürə bilər.

Və Heydər Əliyevin bəlkə də fəaliyyətinin ən vacib qayəsi saydığı, respublikada mənəvi iqlimin saflaşdırılmasına yönəldilmiş böyük işin üstündən sükutla keçilməsi Azərbaycanın partiya rəhbərinin izzəti-nəfsinə toxunurdu. Bu barədə onun komandasının bəzi üzvləri xatırlayırlar.

**Heydər Əliyevin sabiq köməkçisi Ramiz Tarıverdiyevlə söhbətdən:**

«Yeri gəlmişkən, o, neqativ hallara qarşı apardığı mübarizəyə görə rəsmi səviyyədə, hər halda aşkar şəkildə təqdirlə qarşılanmırdı. Brejnevin Bakıya üç səfəri yadınızdadırmı? O, öz çıxışlarında Azərbaycanın ən müxtəlif sahələrində uğurlarından danışırdı. Nöqsanlardan da söz açırdı – amma yenə də xalq təsərrüfatında. Və bircə Əliyevin korrupsiya ilə mübarizəsinin üstündən sükutla keçilirdi, dəstək yox idi, biz hamımız, əlbəttə, o özü də bunu eşitmək istəsək də. Heç bir çıxışda, Sov.İKP MK-nın heç bir sənədində heç kim Heydər Əliyev təcrübəsini təbliğ etməmişdi».



Həqiqətən də, illər ötdükcə Sov.İKP MK Baş katibi Heydər Əliyevi ən enerjili və nüfuzlu respublika rəhbərlərindən biri kimi daha çox dəyərləndirsə də, korrupsiya və talançılığa qarşı mübarizə məsələsində Brejnev onun ardıcıl müttəfiqi olmadı ki, olmadı...

F.Burlatski «Rəhbərlər və müşavirlər» kitabında Brejnev üçün çeşidli nitqlər yazmış Aleksandr Bovindən eşitdiyi maraqlı epizodu xatırlayır:

«Bovin mənə növbəti nitq hazırladığı Zavidovo bağ malikanəsində olmuş söhbətdən danışdı. O, Brejnevə aşağı əmək haqqı alan adamların necə çətin dolandığından söz açır. Brejnev: «Siz həyatı bilmirsiniz, – cavab verir. – Heç kim maaş hesabına yaşamır. Yadımdadır, gənclik çağlarında, texnikumda oxuduğumuz dövrdə biz vaqonlardan yük boşaltmaqla pul-para qazanardıq. Özü də necə? Üç çuvalı, ya yeşiyi o yana, birini – özümüzə. Ölkədə hamı da belə dolanır». Bəli, düz deyirlər ki, «balıq başdan iylənər». Brejnev «gizli iqtisadiyyatı» da, xidmət sahəsindəki çapqınçılığı da, məmurların rüşvətxorluğunu da normal sayırdı. Bu, az qala ümumi həyat normasına çevrilmişdi»[8].

Təbiidir ki, belə «şuluqluq»lara bu cür rəhmdil yanaşan Baş katib Azərbaycanın partiya liderinin həmin məsələlərdə həddindən artıq əzmkarlığını təqdir edə bilməzdi. Mən əminəm ki, SSRİ DTK sədri Y.Andropovun dəstəyi olmasaydı, Heydər Əliyev bu mübarizənin şiddətli minvalını səngitmək məcburiyyətində qalacaqdı. Bu mülahizəmin dolayısı ilə təsdiqini «Kreml sirləri»ndən agah olan bir adamla apardığım müsahibədən sezdim:

**Brejnevin mühafizə rəisi Vadim Medvedyevlə söhbətdən:**

**E.A. – Siz necə fikirləşirsiniz, nədən nə Leonid İliç özü, nə də Siyasi Büro üzvlərindən heç kim Heydər Əliyevin korrupsiyaya qarşı apardığı mübarizəyə öz dəstəyini ifadə etmədi? Ümumiyyətlə, Brejnevin Azərbaycanda baş verənlərə münasibəti necə idi?**

**V.M.** – Mən düşünürəm ki, prinsipcə onun burada baş verənlər haqqında xəbəri yox idi. Baxın, məsələn, belə bir məqam, Andropov ona Medunov haqqında xoşagəlməz faktları izhar edir. Brejnev soruşur: «İndi nə edəcəyik?» – «Dama basacağıq», – Andropov cavab verir. «Siz nə danışırsınız? Vilayət Komitəsinin birinci katibini? Olmaz!» O, Azərbaycanda korrupsiya ilə mübarizə müstəvisində nələrin baş verdiyini bilsəydi, bəlkə də reaksiya verərdi.

**E.A. – Deməli, Əliyevin arxasında duran yalnız Andropov idi?**

**V.M.** – Hər halda Brejnev çox şeyi Andropovun məruzələrindən bilirdi, Andropov isə bəzi neqativ məlumatları gizlədə bilərdi. Sadəcə, Leonid İliçin qanını qaraltmamaq üçün».

«Naməlum Andropov» kitabında Roy Medvedyev yazır ki, «məhz korrupsiya ilə mübarizə 70-ci illərin sonlarında Andropovu Brejnevlə, az qala Andropovun istefası ilə bitəcək ciddi münaqişəyə gətirib çıxardı. DTK-ya şikayətlər əsasən Şşolokov tərəfindən qaynaqlansa da, onları xəstə və kür Brejnevin hüzuruna gəlib-gedən bəzi başqa rəhbərlər də körükləyirdi.

...Brejnevin Andropovdan və Şşolokovdan ayrıca aldığı informasiyalar çox fərqlənirdilər. Andropovun növbəti bir məruzəsindən sonra Brejnev hətta dedi: «Andropovun qaraxəbər məruzələrindən sonra mən özümü tamamilə xəstəhal hiss edirəm, bir həftə də özümə gələ bilmirəm. O məni öz məruzələri ilə, əlbəttə ki, goruma sürükləyəcək...»

Andropova bu sözləri çatdırırlar. Üstəlik Brejnev onunla üç ay görüşmür, hətta telefonla danışmaqdan da imtina edir. Andropov istefa verməyə hazır olsa da, Brejnev süründürürdü. Leonid İliç yenidən Andropovu məruzə üçün dəvət edəndə, DTK sədrinin məlumatından xəstə Baş katibi acıda biləcək bütün xəbərlər çıxarılmışdı»[9].

Hərçənd bəzi müsahiblərim fərqli fikir söylədilər. Belə ki, 70-ci illərdə bir müddət Moskvada Sov.İKP MK aparatında işləmiş Ramiz Məmmədzadə söyləyirdi ki, «aparatda gəzən söhbətlərə görə Brejnevin Azərbaycan KP MK birinci katibinin hərəkətlərinə münasibəti müsbət idi. Hesab edilirdi ki, Heydər Əliyev respublikada böyük təmizləmə aparır, qayda-qanun yaradır, bunun sayəsində partiya nizam-intizamı yüksəldilir. Onun işinin bəhrələri artıq özünü göstərirdi. Suslovun Əliyevə və onun fəaliyyətinə münasibəti haqqında danışsaq, o da müsbət idi. Lakin orta səlahiyyətli aparat işçiləri arasında müxtəlif rəylər vardı. Bir qismi hesab edirdi ki, Əliyev həddən artıq sərt hərəkət edir, yüksək vəzifəli məmurları partiyadan çıxarmaq, dama basmaq rəva deyil; əksinə, vilayət komitə katibləri Heydər Əliyevdən öyrənməyə, onun təcrübəsindən faydalanmağa çalışır, çıxışlarını, məruzələrini inceləyirdilər».

**Həsən Seyidovla söhbətdən:**

**– Moskva Heydər Əliyevin korrupsiya ünsürləri ilə mübarizəsinə necə yanaşırdı?**



– Bəzi İttifaq rəhbərləri buna mənfi münasibət bəsləyirdilər. Çünki cəza almış adamlar çox vaxt Moskvaya üz tutur və oradan respublikaya «təzyiq göstərirdilər». Siyasi Büronun bir çox üzvləri, Sov.İKP MK aparatının rəhbərləri Heydər Əliyevin prinsipiallığını təqdir etmirdilər. Onlardan bəziləri Azərbaycandakı mafioz ünsürlərlə əlaqədə olduğundan sonuncuların kənarlaşdırılmasını, məhkəməyə verilməsini əsəbiliklə qarşılayırdılar. Və bu işimizə mane olurdu. Onlar yoxlamalar yollayır, ərizələr yazır, qəzetlərdə məqalələr təşkil edirdilər. Axı biz yalnız Brejnevlə, Kosıginlə, ya Tixonovla deyil, Sov.İKP MK, SSRİ Nazirlər Sovetindəki orta qurum rəhbərlərilə də işləyirdik. Onlar da təşəbbüslərimizi əyalətməyə çalışır, Azərbaycanın xalq təsərrüfatının inkişafı ilə bağlı məsələləri həll etmirdilər. Əlbəttə, belə münasibət, mərkəzdə bəzən əks-reaksiya doğuran neqativ hallarla mübarizəmizlə bir çox baxımdan bağlı idi».

Gürcüstanın partiya lideri Eduard Şevardnadzenin də təşəbbüslərinə Moskvanın eynilə yanaşmasını Gürcüstan KP MK katibi işləmiş Soliko Xabeişvili A.Karaulovla müsahibəsində xatırlayırdı:

«Gürcüstanda Şevardnadze rəhbər olunca, müxalifət özünü yığışdırdı. Mənim xatirimdə o, Mərkəzi Komitənin yeganə birinci katibi idi ki, işində həqiqətən düşünülmüş kurs duyulurdu. Şevardnadzedən qorxurdular. Respublika başçısı olaraq, o, 60-70-ci illər tariximizdə baş alıb gedən korrupsiya, rüşvətxorluq, mafioz ünsürlərlə mübarizəyə geniş vüsət verdi. Respublikanın nüfuzu yüksək idi, – sözün qısası, müxalifət gizlənib «marıq»da durdu. Lakin axır-axırda korrupsiya ilə mübarizə uğursuzluqla nəticələndi. Axı bizdə bütün xalq təsərrüfatı kimi, «kölgə» iqtisadiyyatı da bütövlükdə ölkə boyu qarşılıqlı əlaqələrlə bağlıdır. Gürcüstanda millətlərarası münasibətlər kəskinləşdi; 1978-ci ildə Tbilisidə yeni Konstitusiyanın qəbul edilməsilə bağlı kütləvi çaxnaşma baş verdi, iqtisadiyyatda ciddi pozuntular üzə çıxdı. Bütün bu faktları biz gizlətmirdik. Amma ölkənin başqa bölgələrində hər şey ört-basdır edilirdi. Mafiozilər bunu yaxşı anlayır, bizim açıqlığımızdan da bizə qarşı istifadə etdilər. Belə hiss edirdik ki, hansısa yeni mərhələyə yaxınlaşmışıq, lakin yuxarılardan dəstək olmadan biz, təbii ki, daha yüksək həyat quruluşuna qalxa bilməzdik. Brejnev tərəfindən, Siyasi Bürodan isə dəstək yox idi. Yadımdadır, bürokratizm üzrə çox kəskin materiallarla Moskvaya yollandım. Bu məsələni Şevardnadze ilə ətraflı müzakirə edib MK Plenumunda açıq şəkildə gündəmə çıxarmaq istəyirdik. «Staraya ploşşad»da (MK binası yerləşdiyi meydan – *E.A.)* bu qovluq partiya or-

qanları şöbə müdirinin müavini Brovikovun əlinə keçəndə o, kağızları vərəqləyib dedi: «Bizim ölkəmizdə bürokratizmə çoxdan son qoyulub, velosiped icad etməkdən əl çəkin!»

...70-ci illərdə respublikada bir çox mafioz adamlar Şevardnadze tərəfindən cəzalandırılsalar da, qeyb olmadılar. Onlar ehtimal olunan dəyişikliklərə özləri bildiyi kimi hazırlaşır, yavaş-yavaş «kolluqdan» çıxır, bənd-bərədə sualtı daşlar qoyur, intriqa torları hörürdülər»[10].

Göründüyü kimi, hər iki partiya lideri öz əzmkar cəhdlərində tək-tənha, arxasız idi və korrupsiyaya qarşı mübarizə alovunu körükləyib bütün ölkə miqyasında vüsət və dəstək tapmasına nail ola bilmədilər. Yalnız bir neçə il sonra hakimiyyətə gələn Yuri Andropov bu eksperimenti genişləndirməyə çalışaraq, DTK və prokurorluq orqanlarından ölkədə qayda-qanun, nizam-intizam yaratmağı tələb edəcək, o cümlədən ticarət mafiyasının və gizli iqtisadiyyat ağalarının həbslərinə «xeyir-dua» verəcək...

## «Cəmiyyətin əksəriyyəti onu dəstəklədi»

Hər halda, müsahiblərimin fikrincə, «gizli» iqtisadiyyat və rüşvətxorluqla güzəştsiz mübarizə və sərt ölçülər öz faydalı bəhrələrini gətirirdi. O dövrün mövcud qanunları müqabilində, özəl mülkiyyət, sivil bazar olmadığı, xronik defisit, qıtlıq şəraitində talançıların, möhtəkirlərin, gizli «sex» sahibləri və onların himayədarlarının sərt cəzalandırılması amansız, lakin məcburi tədbir idi. Çünki ölkənin bir sıra bölgələrində ticarət-təsərrüfat mafiyasının partiya-sovet qurumları ilə calaşmasını şərtləndirən həmin təbəqə dövlətin dayaqlarını insanların sosial ədalətə və sovet qanunlarına inamını kökündən sarsıtmağa başlamışdı.

Eldar Ryazanovun «Avtomobildən qorun!» komediyasında Detoçkinin «Oğurlayırlar, canım, elə oğurlayırlar ki!» məşhur kəlamı yadınızdadırmı? Respublikada adi düşüncəli «obıvatel» baş alıb gedən oğurluğa alışmış, bu çirkin əmələ qaçılmaz bir «adət» kimi baxmağa öyrəşmişdir: «əl əli yuyar, əl də üzü», oğurlayırlar oğurlasınlar, mənə nə dəxli, yəni indi halal maaşıyla dolanan var ki... Və birdən «qurbağa gölünə daş atılmış» kimi hakimiyyət başına keçən bir şəxsiyyət möhtəkirlərə, əlüyrilərə, qıtlıqdan faydalanan, ictimai mülkiyyəti, xalqın varını gəlir mənbəyinə çevirənlərə qənim kəsilir, onlara qarşı savaş meydanına çıxır...

Və xalq bu insanı şərtsiz dəstəklədi. Həyatın adi axarıyla gedənlər silkələndi, mürgülü beyinlər ayıldı, zəhmət adamı, quran, yaradan, əkən-biçən adamların qəlbində iqtidara, respublika rəhbərliyinə, haqq-ədalətə ümid oyandı, yuxarılarda ikili əxlaqa, gəlişigözəl yalanlara son qoyulacağına inam baş qaldırdı...

Mərkəzi Komitənin birinci katibi vəzifəsini tutan Heydər Əliyev kommunistlərin qarşısında nəyin bahasına olursa-olsun halal zəhmətə hörmətin qaytarılmasını bir vəzifə kimi irəli sürdü.

Və tədricən, yavaş-yavaş vicdanlı əmək, halal zəhmət layiqli yerini tutdu, nüfuz qazandı. Yaxşı işlə – yaxşı da qazan! Qabaqcıl əməkçilər görk oldu, örnək oldu. Fəhlə də, kolxozçu da öz alın təri ilə ev-eşik üçün də, şəxsi maşın üçün də, qızlarına cehiz üçün də qazana bilərdi. Bu, şüurlarda, mənəvi dəyərlər silsiləsində, gündəlik həyat təfəkküründə əsl dönüş idi.

**Milli Məclisin deputatı Fəttah Heydərov** 70-ci illərdə respublikada mənəvi iqlimin saflaşmasını belə xatırlayır:

«Mənim oxuduğum Nehrəm kəndini götürək. Böyük bir kənddi, onu «min ev Nehrəm» adlandırırdılar. Di gəl, müharibədən sonra neçə il ötsə də, kəndimizdə şifer örtüklü vur-tut iki bina – kolxoz idarəsi və kolxoz pəyəsi – vardı. Qalan evlərin hamısı gildən yapılmışdı. Yağış başlayan kimi damırdı.

Heydər Əliyev qısa bir müddət ərzində insanlarda halal zəhmətə böyük həvəs oyada bildi, öz əməyi hesabına yaxşı qazanmağı, layiqincə dolanmağı, qurmağı, yaratmağı öyrətdi. Kəndlərimizə yeni həyat tərzi gəldi. Adamlar sanki yuxudan oyandılar. O dövrdə Heydər Əliyev (əslində ənənəvi milli-mənəvi dəyərlərdən qaynaqlanan – *E.A.)* həyat məramını, strategiyasını inadla, israrla aşılayırdı: «Vicdanla yaşa. Həqiqəti deməkdən çəkinmə. Can-başla çalış».

O, vicdanla işləmək üçün şərait yaradırdı».

**Mərkəzi Televiziyanın sabiq müxbiri Mais Məmmədovun** qənaətinə görə, «Heydər Əliyevin vaxtında kənddə gedən inşaat Azərbaycanda görülməmişdi. İmarətlər ucaldılırdı. Daha heç kəs raykom katibinin hüzuruna gəlib nə işə düzəldilməsini, nə pul-para ayrılmasını xahiş etmirdi. Torpaq sahəsi, maşın, mebel qarnituru istəyirdilər. Məhsul yığımından sonra kolxozçular az qala kisə-kisə pul alırdılar, 20, 30 min manat. Alanda da bəzən baş sındırırdılar ki, nəyə xərcləyək...

Kənd rayonlarına səfərə çıxanda Heydər Əliyev sıravi kolxozçularla hökmən söhbətləşər, maraqlanardı:

– İstəyiniz nədir? Nə almağı arzulayırsınız?

Kimsə salondan səslənirdi:
– Maşın!
– Axı maşınlarınız var ki.
– «Jiquli»dir. Biz isə «Volqa» istəyirik.
O vaxtlar «Volqa» bir növ sovet «Mersedes»i timsalında idi».

Əhalinin müəyyən təbəqələrində qayda-qanunun bərqərar edilməsinə yönəldilən sərt tədbirlər təşviş doğururdu. Hərçənd, xoflanmağa səbəbi olanlar idi. Qondarma ittihamlarla haqsız repressiyalar əyyamı deyildi. Ola bilsin, bugünkü liberal anlayışlarımıza görə verilən hökmlər həddən artıq sərt görünür. Bəzən «güllələnmə» hökmü də çıxarılırdı. Bütün bunlar o dövrün gerçəkliyidir və onları görməzliyə vurmaq olmaz. Lakin belə vurhavurun, tuthatutun yalnız Azərbaycanda baş verdiyini düşünmək də sadəlövhlük olardı. «Dövlət əmlakının külli miqdarda talanması» bütün müttəfiq respublikaların Cinayət Məcəlləsində dövlətə qarşı ən ağır cinayət sayılırdı.

A.Karaulov dialoqlarının birində Heydər Əliyevdən birbaşa soruşur: «Son zamanlar bu mübarizə bəhanəsilə sizin guya bəyənmədiyiniz adamlarla haqq-hesab çürütməyinizi iddia edən məqalələr ortaya çıxır...»

Heydər Əliyev cavab verir:

«Mən bəyan edirəm ki, bu yalandır. Biz, rəhbər işçilər sırasında o şəxslərlə mübarizə edirdik ki, müxtəlif pozuntulara yol vermiş, qanunlarımızı, Partiya Nizamnaməsi tələblərini pozmuş olsunlar. Belələrini heç vaxt bağışlamırdıq. Ancaq deməliyəm ki, Mərkəzi Komitədə heç bir əsassız cəzaya yol verilmirdi. Mənim vaxtımda bir adam da təqiblərə məruz qalmamışdır! Düzdür, hüquq-mühafizə orqanlarının fəaliyyətində pozuntular, qanunçuluqdan yayınmalar olurdu və Mərkəzi Komitəyə belə məlumat çatanda lazımi ölçülər götürülürdü»[11].

**Heydər Əliyevin sabiq köməkçisi Ramiz Tarıverdiyevlə söhbətdən:**

**« – Sizlər, ideoloji cəbhə döyüşçüləri, yaradıcı ziyalılar respublikada qanun naminə başlanan mübarizəyə necə yanaşırdınız? Bu sərt addımlar doğrudanmı saflaşdırılma kimi qarşılanırdı? Doğrudanmı xalq tərəfindən dəstəklənirdi?**

– Bəli, xalqın əksəriyyəti onu dəstəkləyirdi.

**– Bəs cəmiyyətdə nəsə, nələrsə dəyişmişdimi? Bu mübarizə sosial ab-havanın saflaşdırılmasında öz rolunu oynadımı?**



– Hər halda, bu, mənəviyyatı sonralar müşahidə etdiyimiz dərəcədə aşağı düşməyə qoymurdu... Hərçənd, şəxsi söhbətlərimizin birində ona bu sualı verdim. Biz axşamçağı Heydər Əliyeviçlə oturub növbəti məruzəni hazırlayırdıq. O vaxt iki il idi ki, onunla işləyirdim. Və həmin sualı verməyə cürət etdim: «Bunca sərt tədbirlərin mənası varmı? Axı rüşvətxorların, möhtəkirlərin sayı azalmır. Yenə də material gəlib: birisi işdən çıxarılmış, o birisi həmin yerdəcə yenicə oğurluğa qurşanmışdır. Bunun axırı görünmür».

Heydər Əliyev cavabında: «Bilirsən, bu çox mürəkkəb məsələdir, – dedi. – Ancaq biz mübarizə aparmasaydıq, neqativ proseslər qar topası kimi böyüyüb kütləvi xarakter alacaqdı».

Bəli, Əliyevin vaxtında da oğurluq baş verirdi. Amma eyməneyməna, haramla halalın arasındakı uçurumu göz önünə gətirə-gətirə... Bunun obyektiv və subyektiv səbəbləri vardı. Əvvəla, hər halda məsuliyyət hissi vardı, ikincisi, hər (vəzifəli) şəxs nəzarət altında idi – yuxarıdan aşağıyadək. Adi, məişət səviyyəsində isə qorxu hissi vardı. Bu da güclü sədd yaradan amildir. Beləliklə, məsuliyyət hissi doğru-dürüst fəaliyyətə, işləməyə təhrik edir, qorxu hissi də dövlətin cibinə girməkdən çəkindirirdi. Bir il ərzində beş-altı raykom katibinin «paxırı açılırdı», günahın ağırlığından asılı olaraq ciddi töhmət alan, işdən çıxarılan, ya hətta cinayət məsuliyyətinə cəlb edilənlər olurdu. Eləcə də nazirlərə qarşı. Yəni əslində, toxunulmaz şəxslər yox idi.

**– Bəs qanun pozuntuları ilə mübarizədə, tavtalogiyaya görə bağışlayın, qanun pozuntuları baş vermirdimi? Korrupsiyaya qarşı mübarizə kampaniya xarakterli tədbirə çevrilmirdimi?**

– Belə deyildi. Hər kəsin təqsiri sübuta yetirilirdi. Bəlkə hansısa ötəri hallar olub.

**– Çıxışlarının birində Heydər Əliyev bildirmişdi: «Rüşvətxorluqla mübarizə inadla və amansızcasına davam etdirilməlidir, çünki bu azar, təəssüf ki, çox yaşarılı imiş». O, ilk illərdə, mənca, daha optimistcəsinə köklənmişdi. O, həmin bu mübarizənin perspektivsizliyi sarıdan şübhələnmirdimi?**

– Xeyr, şübhələnmirdi. O, çəkinmədən axıradək irəliləyirdi və özünə çox-çox düşmən qazanmışdı. Onun «Literaturnaya qazeta»da müsahibəsi yadınızdadırmı – «Qoy ədalət zəfər çalsın» («Пусть справедливость верх берет»)? Dərc olunmazdan əvvəl Heydər Əliyev yazını mənə oxumağa verib soruşdu: «Hə, necədir?» – «Bilmirəm, Heydər Əliyeviç, – dedim. – Həddən artıq kəskin müsahibədir». – «Nə olsun? Kimdən qorxmalıyam ki?» O, artıq Siyasi Büro

üzvlüyünə namizəd idi. Və həmin yazı ümumittifaq miqyasda qurultulu əks-səda doğurdu. Heç kəs tərəfindən təşkil olunmamış, çox səmimi məktublar gur sel kimi axıb gəldi. Məsələn, ordudan bir qrup zabit, hansısa müəssisədən fəhlələr Əliyevə təqdiredici məktublar yazırdılar. Yəni, siz məsələni düzgün qoyursunuz, oğurluğa, rüşvətxorluğa son qoyulmalıdır və s. Axı ölkədə daha belə bir nümunə olmamışdı».

**Millət vəkili Hadı Rəcəbli ilə söhbətdən:**

«1981-ci ilin lap axırında Heydər Əliyev məni Mərkəzi Komitəyə, təşkilat şöbəsinə götürdü. Mənə çox ciddi sahəyə – Şəki-Zaqatala zonasına kuratorluq həvalə edildi. Şöbəyə Ramiz Ənvər oğlu Mehdiyevdən sonra gəldim və onun rəhbərliyi altında işlədim. Bu çox məsul vəzifə idi. Faktiki olaraq həmin zonadan hər hansı birinci katibin aqibətini həll etmək iqtidarında idim.

Günlərin bir günü Zaqatalaya yollandım, orada raykoma Nadir Əbdürəhmanov rəhbərlik edirdi. Adətən rayona gedəndə naharı birinci katiblə edirdim. Bu məsələyə də Mərkəzi Komitədə çox ciddi yanaşılırdı. Ramiz müəllim tövsiyə edirdi: «Rayonlarda yemək vaxtlarında kvitansiya alın, yemək haqqını özünüz ödəyin». Etiraf edirəm ki, hərdən bu təlimatı pozurdum. Ona görə ki, Lənkəran şəhər icrakomu sədri vəzifəsində işləyəndə qonaq qəbul edər, onlarla süfrə arxasında oturar, heç kəsdən də kvitansiya almazdım. İndi də biz Nadir Əbdürəhmanovla çıxmışıq açıq havada gəzinməyə. Qolumda lap adi saat, kostyumum da sadə. Onu da deyim ki, Şəki-Zaqatala zonasına bolluca xarici mallar yollayardılar, – onlar ceviz məhsulunu xaricə satırdılar. Əbdürəhmanov mənə üz tutur: «Hadı Musayeviç, bəlkə sizə bir qol saatı seçək, münasib kostyum da. İcazə verin, dostcasına...» Mən ona açıq dedim: «Bütün bu illər boyu mən bir şey qazana bilmişəmsə, o da təmiz adımdır. Ona görə də, xahiş edirəm, əziyyət çəkmə...» Başqa rayon rəhbərlərilə də belə hallar baş verirdi. Təbii ki, mən öz əqidəmdə qalırdım. Biz Heydər Əliyevin təlqin etdiyi mənəvi-əxlaqi öyüdlərə riayət etməyə çalışırdıq. Ələlxüsus ki, MK birinci katibi hər bir müfəttişə göz qoyurdu, kimin nə ilə «nəfəs aldığını» bilirdi. Onun diqqətindən heç nə yayına bilməzdi. İki ildən sonra məni iri sənaye və kənd təsərrüfatı rayonuna – Şəkiyə, şəhər partiya komitəsinin birinci katibi vəzifəsinə təyin etdilər. O vaxt cəmi 36 yaşım var idi...»



**Jurnalist Mais Məmmədovla söhbətdən:**

**« – Korrupsiya ilə mübarizə bir para partiya elitası arasında narazılığa səbəb olmuşdu. Heydər Əliyev partiya işçilərinə şəxsi maşın almağa, bağ mülku tikdirməyə icazə vermirdi...**

– O vaxt raykomların birinci katibləri üçün «Moskviç», ya «Jiquli» də matah bir şey idi. Aralıqda söz olmasın deyə, onları da deyək ki, uzaq bir qohumun, nənə-babanın adına yazdırırdılar. Yaxud vəzifə sahibi mağazada xarici santexnika aldısa, tutaq ki, çex unitazı olsun, mağazadan arayış da almalıydı ki, bu matah şey 25 manata alınıb, – sabah münasib orqanlar ilişəndə göstərmək üçün.

O ki qaldı partiya məmuru özünə bağ, ya mənzil ala – nəbadə! Kiməsə, tutaq ki, qanuni yolla mənzil veriblər. Bir az sonra gəlib maraqlanırdılar: «Təzə mənzildirmi?» – «Bəli». – «Təmir edirsən?» – «Görürsünüz də». – «Bəs bu qədər xərci-filan necə ödəyirsən, hansı pula?»

**– Eyni zamanda yaradıcı adamlara, ya deyək ki, sadə zəhmətkeşlərə şəxsi maşın almağa da, şəxsi ev sahibi olmağa da icazə verilirdi...**

– Bəli, qadağalar yalnız partiya və digər rəhbər işçilərə, milis əməkdaşları, prokurorlara şamil edilirdi.

**– Nə üçün? Bu özünü doğruldurdumu?**

– O dövrə görə. Bu bəzilərinin «iştahını» qaçırdırdı. Rayonlara gələndə MK birinci katibi camaata müraciət edirdi: «Ürəyinizdə nə varsa, deyin, danışın. Həm də çəkinməyin ki, birinci katibiniz burdadı. Lazım gəlsə, onu da kənarlaşdırarıq.

Yəni o xalqla birbaşa ünsiyyət bağlayırdı. Və birinci, ikinci katib bilirdi ki, kəndlini çox qısnasa, sıxma-boğmaya salsa, dilini dinc qoymayacaq, Heydər Əliyevin yanında açacaq sandığı, tökəcək pambığı...

Belə açıq ünsiyyət Heydər Əliyevə «nəbzi» tutmağa imkan verirdi».

**Mərkəzi Komitənin sabiq şöbə müdiri Zakir Abdullayevlə söhbətdən:**

« – Heydər Əliyev hər bir işçi haqqında geniş informasiyaya malik idi.

**– Bu məlumatı haradan alırdı?**

– Müxtəlif qaynaqlardan. O cümlədən, orqanlardan da. Bir gün o məni çağırıb dedi: «Sənin filan işçin aparata rüşvət hesabına düzəlib. Bu səndən əvvəl olub. Mən indi xırdalamaq, eşələmək, vaxt

sərf eləmək istəmirəm. Sən onu xoşluqla azad elə». Zənnimcə, belə məlumat, çox güman ki, DTK-dan gəlirdi.

**– Deməli, MK aparatında da «yoluxma» varmış?**

– Tək-tük hallarda. İnanın, onlarla, bəlkə də yüzlərlə adam tanıyıram ki, onlara çox böyük məbləğlərdə pul təklif etsələr də, heç biri almamışdı. Mərkəzi Komitəyə işə qəbul edilənlərə qarşı əsas tələb doğru-dürüst və mənəviyyatca saf olmaları idi... Həm də Heydər Əliyevin xüsusi nüfuzu, zəhmi vardı. Məmurlar onun avtoriteti qarşısında əsirdilər. Mən, məsələn, Sov.İKP Mərkəzi Komitəsindən məsul işçilər, şöbə müdiri müavinləri tanıyırdım ki, Heydər Əliyevdən oddan qorxan kimi çəkinirdilər. Bir dəfə Sov.İKP MK sektor müdirlərindən birindən Heydər Əliyevin yanında olanda (həmin adamın bizim «birinci» ilə xoş münasibətləri vardı) «saqqal tərpətməyi» xahiş etmişdim: «Mixail Mixayloviç, bizə kömək edin, filan məsələni qaldırın». – «Yox, Zakir, əzizim, məni işə salma, – dedi. – Mən bunu ona deyə bilmərəm. O, soruşacaq ki, «siz bunu haradan bilirsiniz? Niyə bizimkilər özü bu məsələni qaldırmırlar?»

Hətta yüksək vəzifəli moskvalı müsahibim də MK birinci katibinin qəzəblənəcəyindən ehtiyat edirdi... Belə nüfuz sahibi idi Heydər Əliyeviç. Həm də çox risqə gedən idi».

Hər halda, Heydər Əliyevin sərtliyini qəddarlıqla eyniləşdirmək olmaz. Onunla bir komandada işləmiş adamlar belə təsəvvürü qətiyyətlə rədd edirlər. Sərt idimi? Bəli. Bəzən prinsipiallığı həddini aşmırdımı? Ola bilsin. Amma qəddar deyildi.

«O, birinci katib olduğu dövrdə də mən onunla uzun illər boyu işləmişəm, – respublika Ali Məhkəməsinin sabiq sədri İbrahim İsmayılov deyir. – Tez-tez ünsiyyətdə olmuşam. Və heç vaxt görməmişəm ki, kimisə cəzalandırmağı tələb etsin. O, sadəcə cinayətkarlıqla sərt mübarizə aparırdı».

Və bu əzmkarlıq, güzəştsiz prinsipiallıq, mənəviyyat, əqidə məsələlərində dönməzlik və bütövlük Heydər Əliyevə Sovet İttifaqının bütün partiya təşkilatlarında misilsiz nüfuz qazandırmışdır. Onu bəyənməyə də bilərdilər. Ondan qorxa da bilərdilər, lakin bu nadir şəxsiyyətə hamı hörmət bəsləyirdi.

**Ramiz Məmmədzadə söyləyirdi:**

«Moskvaya, Sov.İKP MK təşkilat şöbəsində təlimatçı vəzifəsinə irəli sürülərkən, mənə üç böyük vilayətə kuratorluq həvalə edildi... Mən mərkəzi sektorda işləyir və Yaroslavl, Bryansk və Kostroma vilayətlərinə baxırdım. Oralarda, xüsusən Yaroslavl və Bryanskda



çox təcrübəli birinci katiblər işləyirdi. Yaroslavlda Loşşenkov, Bryanskda isə hələ Stalin dövrünün təyinatçılarından olan, altı Lenin ordenli Kraxmalyov. Oraya güzarım düşəndə onlar məni böyük hörmət-izzətlə qarşılayardı, amma anlayırdım ki, bu ehtiram şəxsən mənə deyil (mən onlardan yaşca çox cavan idim), Heydər Əliyevin bir yetişdirməsinə aiddir. Onun sorağı artıq bütün SSRİ-yə yayılmışdı, hərçənd Əliyev hələ heç Siyasi Büroya namizəd də seçişməmişdi.

Hər dəfə görüşəndə onlar məndən Heydər Əliyev haqqında yeni xəbərlər eşitməyi umur, təşəbbüsləri ilə maraqlanırdılar: «Səndə təsadüfən onun məruzəsi yoxdurmu?» Mən bildiyimi söyləyirdim, bu da müəyyən dərəcədə həm onların fəaliyyətinə təsir göstərir, həm də mənim hörmətimi artırırdı. Yadımdadır, Kraxmalyovun 70 illiyi qeyd olunurdu. Məni Sov.İKP MK katibi İvan Vasilyeviç Kapitonov çağırıb tapşırıq verdi:

– Ramiz Hüseynoviç, sən Bryanska yollan və Siyasi Büro, Leonid İliç Brejnevin adından Kraxmalyovu təbrik et. Və ona hədiyyə olaraq adlı-ünvanlı qızıl saatı və Fəxri fərmanı təqdim et.

Mən təbriki oxuyub hədiyyələri təqdim edəndə bütün salon ayağa qalxıb əl çalmağa başladı.

Yəni Heydər Əliyevin nüfuzu onun tabeliyində olanların nüfuzuna da təsir edirdi».

## Qondarma «el» adətlərilə mübarizə

**Azərbaycan KP MK Bürosunun 23 may 1975-ci il tarixli qərarından, protokol № 124, paraqraf 4:**

**«Respublikanın bəzi məsul işçiləri tərəfindən partiya və xidməti intizamın kobudcasına pozulması haqqında**

...Partiya, sovet və inzibati orqanların ayrı-ayrı işçiləri... partiya və xidməti intizamın kobudcasına pozulmasına yol verir, kommunist əxlaqı tələblərilə bir araya sığışmayan hərəkətlər edirlər».

Bu qərarın meydana gəlməsinə səbəb aşağıda söylənən əhvalat olmuşdur: Sabirabad rayon partiya komitəsinin birinci katibi Məmmədov, Əli Bayramlı şəhər partiya komitəsinin birinci katibi Novruzov, Əli Bayramlı şəhər DTK şöbəsinin rəisi Qocayev və Sabirabad rayon prokuroru Eminov 1975-ci ilin 22 fevral günü, Əli Bayramlı şəhər prokuroru Rüstəmova başsağlığı vermək niyyətilə (Rüstəmovun həlak olmuş yaxın qohumlarının yeddinci matəm günü idi) Şamxora yola düşürlər. Şər üstünə şər gəlir, yolda baş verən avtomobil

qəzası nəticəsində Novruzov və Eminov həlak olur, Məmmədovla Qocayev xəsarət alırlar.

Sabirabad prokurorunun dəfn mərasimi Qazaxda böyük təmtəraqla keçirilir; kəsilən qoyun-qoç, bişirilən plov, ehsan, dualar, yasin öz yerində; bu təziyə mərasiminə ətraf rayonların bütün partiya-sovet elitası qatılır, raykom katibləri, icrakom sədrləri, prokurorlar, xalq hakimləri...

«Tamamilə dözülməz bir fakt da odur ki, kommunist etikası və əxlaqı tələblərinə rəğmən, kommunistin, məsul işçinin dəfninə təmtəraqlı səciyyə verilmiş, bir neçə gün sürən köhnəlmiş yas mərasimi əslində dini rəng daşımış və ruhani şəxslərin iştirakı ilə keçirilmişdir. Və kommunistlərdən heç biri təziyyənin belə şəkildə keçirilməsinə qarşı öz etirazını bildirməmişdir. Üstəlik, gələn məsul işçilərin çoxları qoç, böyük miqdarda düyü, qənd, yağ gətirmiş, pul payı vermişlər».

Bu əhvalat səs-səda doğurmuş, Mərkəzi Komitə Bürosunda qızğın müzakirəyə səbəb olmuşdur. Büro üzvləri məsul işçilərin hərəkətlərini pisləmiş, onların çoxuna xəbərdarlıq edilmiş, ya ciddi töhmət verilmiş, vilayət, şəhər, rayon partiya komitələrinə «partiya və dövlət intizamının möhkəmləndirilməsi, kommunist əxlaqı normalarına... riayət edilməsinə görə kommunistlərin məsuliyyətinin artırılması, köhnəlmiş ayinlərin və dini qalıqların qarşısının alınması və kökünün kəsilməsi üzrə ölçülər götürmək» tapşırılmışdı.

Heydər Əliyev yüksək vəzifə mövqeyi ilə öyünən, xüsusən xeyir, ya şər törənlərində, toy büsatı, yaxud yas məclislərində cah-cəlalını, «kimliyini» aləmə car edən partiya məmurlarına qarşı barışmaz və sərt münasibət bəsləyirdi. 1979-cu ilin 1 avqust günündə «Pravda» qəzetində Azərbaycan KP MK birinci katibilə «Vicdanımızın səsi ilə» adlı geniş müsahibə dərc olundu. Mənəvi tərbiyə sahəsində problemlərin və mürəkkəb məqamların incələnməsinə həsr olunan bu müsahibə bütün Sovet İttifaqında geniş əks-səda doğurdu. Neqativ misal kimi Heydər Əliyev qəzet müxbirlərinə Suraxanı qəsəbəsində «Azneft» birliyinin baş direktoru müavininin oğlu üçün qurduğu toy büsatından danışır:

«Təsəvvür edirsinizmi? – MK birinci katibi hiddətini gizlətmir. – Bakının neft rayonunda bir neçə günlüyə fabrik-mətbəx... qapadılmışdır. Nə var, nə var ki, bir gurultulu toy hazırlanıb keçiriləcəkmiş. Yüzlərlə qonaq yığışıb gəlmiş, çoxları da nə təzəbəyi, nə də bir-birini tanımırdılar. «Toy generalı» deyilən şübhəli rolda şəhərin bəzi məşhur işçiləri, alimlər, incəsənət xadimləri çıxış edirdilər. Orkestr



gurlayır, dinamiklərdə sağlıqlar səslənirdi. Aşağıda isə, çəpərlənmiş balaca artırmada öz rütbəsinə və vəzifəsinə uyğun olaraq kimin nə qədər verdiyi pul töhfəsi dəqiq hesablanırdı... Budurmu «xalq ənənəsi»! Bir sözlə, bu dəm-dəstgah, dəbdəbə lovğa bəy ədabazlığıyla həmin toy sanki bütün şəhərə car çəkirdi: baxın, görün, biz necə varlı, şövkətli-şanlı, səxavətliyik!»

Fikir verin, indiki, XXI əsrin başlanğıcında kapitalizmə qədəm qoyan Bakı üçün bu çox tanış mənzərə deyilmi?.. Hələ toylar qalsın bir yana, indiki ehsan, təziyyə süfrələri də bol-bol yemək, ləziz nemətlər sarıdan geridə qalmır. İş o yerə çatıb ki, «əli aşağı» olan ailələr də «başqalarından geridə qalmamaq üçün» var-yoxundan çıxır ki, toy büsatını, yas məclisini «layiqincə» qursunlar. Bəlkə də bir çox adaxlıların «belə» toy yükünün öhdəsindən gələ bilməyəcəyinə görə qız qaçırtmaq halları kənd rayonlarında çoxalıb. Yuxarıda xatırladığımız MK Bürosunun qərarı otuz ildən də əvvəl qəbul edilsə də, indiyədək aktuallığını itirməmişdir. Eləcə də Heydər Əliyevin 70-ci illərə aid bir çox başqa fikir və mülahizələri.

«Pravda» qəzetindəki müsahibədən daha bir parça: «Baxırsan, bəziləri üçün ikimərtəbəli bağ mülkü, maşın həyat uğurluluğu meyarına, göydə günəşə çevrilir. Və ancaq bunların naminə vicdanınla «sövdələşmək», bahalı «bəxşiş» qəbul etmək, gözünün qabağında qatı juliklərin hoqqa çıxardıqlarını «görməmək» olar...

Yaxud daha bir hal. Bəzi həddən artıq «uşaqcanlı» və səxavətli valideynlər böyüyən övladlarına bahalı şeylər, pul, maşın bağışlayırlar. Və budur, hələ ömründə bir qəpik də qazanmamış cavan oğlan atası bağışladığı «Volqa»da yenə də ünlü papası (belə də olur) «düzəltdiyi» təhsil ocağına «çapa-çapa» gəlir... Bu «balacan» həyata nə cür qədəm qoyacaq? Axı, biz özümüzə layiqli əvəz bəsləməliyik».

Belə «burjua ədabazlığı» təzahürlərilə, Əliyevin özünün təbirincə, «ideya sapıntıları» ilə mübarizə aparmaq üçün respublikada bir neçə ictimai təşkilat – o cümlədən sosialist ənənə və adətlərinin təbliği və tətbiqi üzrə Respublika Şurası, mülki mərasimlər üzrə Komissiya fəaliyyət göstərirdi.

Bununla belə, Mərkəzi Komitənin birinci katibi həqiqi xalq adətlərinin heç də əleyhinə deyildi və məsələn, ailə dairəsində Azərbaycanda, ümumən türk dünyasında əziz tutulan Qurbən bayramını həvəslə qeyd edirdi.

Yazıçı Mövlud Süleymanlı söyləyir: «Rəhmətlik Rəsul Rza danışırdı ki, (Anarın dediklərindən)... Heydər Əliyevin qəbulunda oldum. Novruz bayramıyla bağlı fikirlərimi bildirdim. Mənə dedi: «Rəsul

müəllim, gəlin gedək bizim evə, görək Novruz bayramını siz yaxşı keçirirsiniz, yoxsa biz. Əgər bizim ziyalılarımız Novruz bayramını mənim tapşırığımla keçirəcəklərsə, bu heç də yaxşı deyil... Qoy ürəkləri istədikləri şəkildə keçirsinlər».

O zaman 70-ci illərin əvvəlləri idi, bu söz də dildən-dilə düşdü...

Yaz bayramımız öz səmənisi ilə evlərimizdən bayıra çıxdı, yaxınlı-uzaqlı yurdumuzu dolaşdı».

Bu gün respublikada təməli Heydər Əliyev tərəfindən qoyulan «idarəçilik məktəbi»ndən, onun zəngin məfkurəvi irsinin həyat prinsipləri sistemi, mənəvi-əxlaqi oriyentlərinin öyrənilməsinin vacibliyindən çox yazılır, çox danışılır. Lakin xoş amalla xoş əməl arasında fərq qalmaqdadır... Milli bürokratiyanın yolverilməz dəbdəbə, cahcəlal içində yaşayan bəzi yüksək vəzifəli təmsilçilərinə vaxtaşırı Heydər Əliyevin 70-ci illərdəki çıxışlarını yenidən oxuyub ibrət götürmək, nəticə çıxarmaq faydalı olardı. İllah ki, mənim qəhrəmanımın amalı əməli ilə heç vaxt haçalanmırdı. Hətta bütöv bir respublikanın «yiyəsi», böyük ixtiyar sahibi olaraq məhdudiyyətsiz imtiyazlardan faydalana bildiyi halda Heydər Əliyev qəlbən və mənən səmimi əqidəli, gözütoxluq, asketik ruhda köklənmiş partiyaçı, varlanmaq düşkünlüyü, möhtəkirlik, «qaz vurub qazan doldurmaq» düşüncəsini rədd edən yeni kommunistlər nəslinin nadir, bəlkə də ideal nümayəndələrindən idi və var-dövlət hərisliyini meşşanlıq təzahürü, zərərli «xüsusi mülkiyyətçilik azarı» sayırdı... Məsələn, o mənzil məsələsinə gəldikdə də, bəzilərinin yuxularında da gördükləri cahcəlallı kaşanələr xəyalına düşmürdü, dövlət tərəfindən ixtiyarına verilən mənzillə kifayətlənib özəl, şəxsi ocağın gərəkliyini belə düşünmürdü!

**Heydər Əliyevin qızı Sevil xanım mənimlə söhbət edərkən xatırlayırdı:**

«Sovet zamanlarında biz «Gənclik» metrosunun yaxınlığındakı qonaq evində yaşayırdıq; orada bizim kottecimiz vardı, qonşuluqda da MK ikinci katibinin, respublika hökumət və Ali Soveti Rəyasət Heyəti sədrlərinin ailəvi yaşadıqları eyni çeşidli mülklər. Di gəl, öz mənzilimiz yox idi. Anam isə elə arzulayırdı ki, öz ocağımız olsun! «Haçanacan «kazyonnu» qab-qacaq işlədəcəyik! – gileylənirdi. – İstəyirəm öz ev-eşiyim olsun, servanta da öz servizimi qoyam-düzəm!» Atam da həmişə: «Axı yaşamağa yeriniz var ki», – deyərdi. Anam sözünə zarafat qatardı: «Biz filarmoniyaya köçsək, bizi oradan



da qovmazlar. Amma bu öz evin deyil axı...» Beləcə də öz evinə sahibə olmadı... Biz Moskvaya köçdük, «Qorki»də «kazyonnı» mülkdə qaldıq. Düzdür, bizə Aleksey Tolstoy küçəsində yerləşən mənzil də verdilər. Anam onu elə məhəbbətlə sahmanlayır, sərgiləyirdi ki. Amma əslində orada qalmırdı, çünki hamımız «Qorki» qəsəbəsində məskunlaşmışdıq. Odur ki, Moskvadakı mənzil məndə həmişə kədərli xatirələr oyadır. 1977-ci ildə atam Bakıda, Saraykin küçəsində partiya və sovet işçiləri üçün yaşayış binası tikdirdi. Oraya köçməyə hazırlaşırdıq. Ancaq biz Moskvaya köçməli olanda, o, öz mənzilini təhvil verdi.

«Məncə, bu ümumiyyətlə, unikal hadisədir, – Heydər Əliyevin sabiq mühafizə rəisi Aleksandr İvanov Sevil xanımın sözünə qüvvət verir. – Belə səviyyədə duran bir adamın nə mənzili, nə sabit yaşadığı yeri vardı. O, bütün ömrünü dövlət hasarı arxasında yaşadı. Və həyat tərzi də əslində «köçəri» idi – həmişə «çamadan üstə», bütün şələ-şülə qutularda...»

Birinci kitabda qəhrəmanımızın sadə, təmtəraqsız toy büsatından söz açmışdıq. Eləcə də təvazökarlıqla, ailə içində öz ad günlərini keçirərdi. Bəzən başı işlərə elə qarışardı ki, bu əlamətdar hadisə də unudulardı...

«Ümumiyyətlə, atam ad günlərini keçirməyi xoşlamazdı, – Sevil xanım deyir. – O ki qaldı tabeliyində işləyənlərin, həmkarlarının özünə, ya anama hansısa hədiyyə bağışlamasına, bu barədə heç söhbət ola bilməzdi. Bir dəfə bizim tanışımız olan qadın kiminsə ad günü münasibətilə sadəcə bir güldan gətirəndən sonra atam anama: «Yubanmadan qaytar!» – demişdi. Halbuki ən sadə, adi şüşədən hazırlanmış vaza idi.

Həsən Seyidov həmkarlarından hədiyyələr təqdimatının qarşısını almaq xatirinə respublika KP MK birinci katibinin öz 50 illik yubileyindən «vaz keçməsi» ilə bağlı qəribə əhvalatı bu sətirlərin müəllifinə söyləmişdi.

## Ad günü

«1973-cü ilin may ayında Heydər Əliyevin 50 yaşı tamam olurdu. Yaxın dostları, həmkarları, Büro üzvləri bu hadisəni qonaq evində qeyd etmək istəyirdilər. Hazırlıq görürdülər. Amma mən bilirdim ki, «birinci» bunu xoşlamır. Bir dəfə mənə demişdi:

– Bilirsən, mən pis nümunə göstərmək istəmirəm, deyərlər ki, baxın, Büro üzvləri yığışıb kef eləyirlər. Axı bizim öz ənənəmiz var.

Həqiqətən də ənənəmiz vardı. MK katiblərindən, ya şöbə müdirlərindən kiminsə ad günü olanda, nahara 15 dəqiqə qalmış onun otağında yığışardıq. Heydər Əliyeviç söz deyər, təbrik edər, yubilyara orden, ya fəxri fərman təqdim edərdi. Sonra Mərkəzi Komitənin həyətindəki profilaktoriyə düşərdik. Orada balaca süfrə açılmış olardı – buterbrodlar, «zakuska»lar, şirniyyat, bir şüşə də konyak. Yubilyarın şərəfinə badə qaldırardıq (əsasən yubiley tarixləri qeyd olunardı).

Həmin profilaktoridə Nazirlər Soveti sədrinin müavini Əliş Ləmbəranskinin yubileyini qeyd etməyimizi xatırlayıram. 60 illiyi münasibətilə o, fransız konyakı gətirmişdi. Əliş Cəmilyeviç qədəhi qaldırıb deyir:

– Heydər Əliyeviç, böyük adamların hamısı 10 mayda doğulurlar.

Heydər Əliyev güldü. Ləmbəranski onunla bir gündə, ancaq doqquz il əvvəl anadan olmuşdu...

İndi isə Heydər Əliyev mənə deyir:

– Ənənəmiz ki var, gəlin onu gözləyək. Mənim ad günümü də eynilə, həmişəki kimi qeyd edək. Əvvəl mənim kabinetimdə yığışaq, təbrik edərsiniz, sonra profilaktoriyə düşüb badələri qaldıraq, ardınca öz yerlərimizdə oturub nahar edək və çıxıb gedək.

Amma həmkarların ayrı fikri vardı. Onlar Heydər Əliyeviçin 50 illiyini işdən sonra qonaq evində keçirməyə can atırdılar. Onu dilə tutur, «elçi»lər göndərirdilər. O isə heç vəchlə razılaşmırdı.

– Heç bir yubiley istəmirəm! Axı hər kəs hədiyyə, təbrik üzərində baş sındıracaq...

Ad gününə az qalmış hiss elədim ki, Heydər Əliyeviç yumşalmağa başlayır. Amma yenə də əmin idim ki, o, hansısa bir çıxış yolu tapacaq. Elə də oldu... – mayın 10-da o, heç işə də çıxmadı. Gəlmədi ki, xəstəyəm, vəssalam... Ertəsi günü biz onunla görüşəndə özümü saxlaya bilməyib güldüm.

– Niyə gülürsən? – soruşdu.

– Sizin belə tez sağalmağınıza sevinirəm. – Dinmədi. Ehtimalımı sınamaq istədim və dedim:

– Mən işə gəlməməyinizin səbəbini başa düşmüşəm.

Gülümsədi:

– Düz başa düşmüsən...»



Birinci katibin onun özünə ya ən yaxın həmkarlarına azca da olsa kölgə sala biləcək məsələlərə qarşı necə diqqətcil, sərvaxt olması baxımından daha bir əhvalatı misal gətirmək istəyirəm. Bu epizodu mənə Heydər Əliyevin mühafizə xidmətinin sabiq rəisi Aleksandr İvanov söyləmişdir. Sonralar da Aleksandr Alekseyeviçin öz kumiri haqqında duzlu-şirəli hekayətlərinə qayıdacağıq.

## Qarpız əhvalatı

«O doğrudan da, mənim kumirim idi. Mən uşaqlıqdan çekist olmağı arzulayırdım. Bu indinin dəbidir ki, çekistləri çoxu pisləyir. Mən isə bu peşəyə can atırdım, nail də oldum... O, məni öz komandasına götürdüyü zaman baş verən ilk söhbətimizi heç vaxt unutmayacam. Üzbəüz otuzdurdu, salamlaşdı. Elə müfəssəl suallar verirdi ki, sanki şəxsi işimi əzbər bilirdi. Hətta Leninqradda yaşayan baldızım, bacanağım haqqında da soruşdu. «Hə, Qrişa necədir?» Qrişanın üzünü də görməyib, şəxsi iş sənədlərindən öyrənmişdi. Onda bildim ki, necə fenomenal yaddaşı var. O, mənim xidməti siyahımı arıtlamışdı. «İşə başlayırıq», – dedi. Öyüd-nəsihət verdi... «Sən yəqin mənim iş üslubumu, tələblərimi bilirsən, axı peşəkar çekistsən». Cavab verdim ki, ara-sıra onun təhlükəsizliyini təmin etməklə bağlı tədbirlərə qatılmışam. «Bax belə: mən heç vaxt eşitməməliyəm ki, sən hansısa «zavmaq»la tanışsan, ya birinci katiblə yaxınlığından hansısa maddi problemlərinin həlli üçün faydalanırsan, univermaqa dal qapıdan girirsən... Bizim əqidəmiz – sədaqət və halallıqdır». Onun vurğuladığı yeganə məqam bu idi. Professional fəaliyyət haqqında, demək olar ki, heç bir xırdalığa varmırdı, yəqin bilirdi ki, madam ona DTK zabitini təhkim ediblər, deməli, onunla müvafiq təlimat da aparıblar. O, yalnız əxlaqi keyfiyyətlərdən danışırdı. Və həmin əxlaqi keyfiyyətlərə gəldikdə, bir ibrətamiz əhvalatı misal çəkim.

Təxminən 1980-ci ilin söhbətidir.

Biz Sabirabaddan, zona müşavirəsindən qayıdırdıq. Rayonda müşavirə başlayan kimi biz sürücü Toliki raykomun qonaq evinə yollayardıq ki, bir qədər yatsın, çimirini alsın, maşını da hazırlasın. Çünki elə olurdu ki, gecə saat birdə, ikidə işi qurtarırdıq. Demək, Anatolini mehmanxanaya göndərdik. Dincəldi. Müşavirə qurtarana yaxın maşına oturub gəldi. Bizdə kənd rayonlarına çıxmaq üçün beşadamlıq ZİL-117 maşını vardı. Bakıda ZİL-115-də gəzərdi, limuzin maşında. «117» isə daha gödək idi. Şəhərdən çıxdıq, yol gedirik, o

mənə üz tutur: «Saşa, neçə saat gedəcəyik?». Biz onun marşrutunu dəqiqəsinədək «xırdalamışdıq». «2 saat 20 dəqiqə», – dedim. «Yaxşı, onda gəl yerimizi dəyişək... Я немножко покемарю».* O, arxa oturacaqda əyləşir. Həmin sözü Zərifə Əzizovnadan eşidib işlədirdi. Maşını dayandırdıq. O, maşından çıxıb soruşur: «İçməyə bir şey varımızdımı?». Biz baqaj saxlancında həmişə çayla dolu termos, soyuducu-çanta daşıyırdıq: içində «Borjomi», bir neçə buterbrod. O, demək olar ki, bu ehtiyatdan istifadə etmirdi. Dedim: «Çay, «Borjomi» var. Hansını buyursunuz?». Borjomi istədi. «ZİL» – «zor» maşın idi, «baqajnik» salondan açılırdı. Tolik qulpu basdı, qapaq qalxdı. Biz «baqajnik»in qarşısında durmuşuq. Soyuducu-çanta, yanında da iki qarpız. «Sənin qarpızlarındı?» – məndən soruşur. Mən isə bütün günü yanında olmuşam, heç aralanmamışam... Dinmədim. Tolik maşından düşür: «Mənimkilərdir». – «Hardan götürmüsən?» – «Pulnan almışam». Birinci katib üzünü bozartdı: «Sən hələ yalan da satırsan mənə?». Mənə üz tutur: «Bizim dəstədə başqa sürücü də varmı?» – «Xeyr, elə bir nəfərdir». Zuğulbaya qədər yolumuz iki saat iyirmi dəqiqə çəkdi. Və yol boyu o Anatolini qınadı: «Sən fikirləşmədinmi, bu iki qarpız əvəzinə Əliyevin ayağına iki vaqon qarpız yazacaqlar?». Mən özüm də dilxor olmuşam, Tolik də içini yeyir, yol da uzun. Tolik hələ sərhəd qoşunlarında əsgərlik etdiyi və DTK-ya təhkim olunduğu vaxtdan Heydər Əliyevlə işləyirdi. Heydər Əliyeviç o zaman deyəsən, şöbə müdirinin müavini idi. O vaxtdan Toliki yanında saxlayırdı. Di gəl, bu şoğərib qarpızlara görə az qala işdən çıxaracaqdı. Onun müftə «qənimət»lərdən, indi «xalyava» deyilən şeylərdən zəhləsi gedirdi. Bir şeyə ehtiyacın varsa, yaxşısı odur ki, gəl, de. Bizim heç vaxt şəxsi maşınlarımız olmamışdı, bu barədə heç xəyala da düşmürdük. O, hər hansı ifratçılığın əleyhinə idi. Artıq Moskvada işləyərkən, mənə mehmanxanada yaşayış üçün kvitansiya, yemək üçün çek aldırırdı.

...Sözümə qayıdıram. Demək, yol boyu Toliki danlayırdı: «Sən onları (qarpızları) nə ürəklə aldın, kimdən aldın». Tolik də əvvəl candərdi uydurmuşdu ki, pulnan alıb. Kimdi axı Əliyevin sürücüsünə qarpız sata? Aydındır ki, müftə alıb. Gəlib çatdıq Zuğulbaya. Heydər Əliyeviç maşından qanıqara düşür. Zərifə Əzizovna onu qarşılayanda onunla dilucu salamlaşıb kənara çəkilir. Mənə deyir: «Onu Bakıya yolla, sabah Yusifzadəyə de ki, işdən azad elәsin». Təsəvvür

* Покемарю—«кемарить» sözündən—«çimirimi alım» mənasında işlədilir.



edirsinizmi, iki qarpıza görə! Zərifə Əzizovna pıçıldayır: «Tolik, buradan çıx get, xatadan-bəladan uzaq!»

Bir həftə keçər-keçməz Heydər Əliyeviç, deyəsən toxdadı, Zərifə xanım da dada çatdı... Onu da deyim ki, Anatoli Kuşnıruk artıq DTK zabiti idi, iyirmi ilə yaxın idi ki, Heydər Əliyevə sürücülük eləyirdi...»

Xidməti etika çərçivəsini aşan hər bir hərəkətə dözümsüz yanaşan Heydər Əliyev Mərkəzi Komitədə də belə «puritan» ab-hava yaratmışdı. Hətta yüksək vəzifəli partiya funksionerləri onun zəhmli, iti baxışlarından heç bir ayrıntının yayınmadığını duyurdular.

MK inzibati orqanlarının sabiq şöbə müdiri Cəfər Vəliyev bununla bağlı iki səciyyəvi epizodu xatırladı:

«Günlərin bir günü Mərkəzi Komitədə şöbə müdirlərilə oturub nahar edirdik. Həmkarlarım mənə üz tutub ayın-oyun almaqda, yaxşı geyim tapmaqda kömək etməyi xahiş edirlər. Bu məsələdə ciddi qayda-qanun gözlənilirdi, mən univermaqlar, Azərittifaq üzərində nəzarət təşkil etmişdim. İş yoldaşlarıma dedim:

– Oraya ayaq basmayın, hər şey qeydə alınıb mənə çatdırılacaq.

Əl çəkmirlər, bəs bizim fərli köynəyimiz yox, kostyumlarımız da nimdaşlaşıb. Onda Azərittifaqda bir tanış adama «saqqal tərpətdim», o da «soroçka»ları Mərkəzi Komitəyə gətirdi. Həmkarlar Komitəsi sədrini çağırdım: «Bir-bir, cüt-cüt uşaqlar üçün bölüşdür».

Ertəsi günü məni Heydər Əliyev yanına dəvət edir.

– Sən burda nə işlərlə məşğulsan?

– Neyləmişəm ki? Şöbə müdirləri xahiş eləmişdilər...

Susur, qaşlarını çatır.

– Bəli, Heydər Əliyeviç, boynuma alıram, bu işi görmüşəm. Bəs nə etməli? Uşaqların fərli pal-paltarı yoxdur. Hardan alsınlar? Normal maaş alsalar da, xərcləyə bilmirlər: Əldən almaq sərfəli deyil, bahadır, fikdirməyə vaxt yoxdur, axı evə axşam saat on-on birdə qayıdırlar. Bir əlac tapılmalıdır.

O, fikirləşib dedi:

– Mənə vaxt ver, bu məsələni həll edəcəm.

Bir gün sonra yenə çağırdı:

– Mərkəzi univermaqda iki otaq ayırıblar. Oraya bizimkilər üçün xarici mallar gətirəcəklər. Gedib alacaqsınız.

O vaxtdan hər şeyi Mərkəzi Univermaqdan alardıq.

**– Deməli, siz «birinci» ilə mübahisə edə, haqlı olduğunuzu sübuta yetirə bilərdiniz?**

– Nəzəri baxımdan... əlbəttə, amma hər adam buna cürət edə bilməzdi... Daha bir əhvalat yadımdadır.

Yerli sovetlərə seçkilər günü idi. Şöbə müdirlərinin hamısını ayrı-ayrı rayonlara təhkim etmişdilər. Ticarət şöbəsinin müdiri mənə dedi: «Gəlsənə xanımlarımızı da özümüzlə aparaq». – «Aparaq».

Mən Qubaya, o, qonşu Qusar rayonuna yollandıq.

Ertəsi günü səhər yanıma gəldi:

«Madam ki, buraya gəlmişik, gəl bir kabab süfrəsi quraq».

Kolxoz sədrləri özləri hər şeyi təşkil etdilər. Yedik-içdik, azca dincəlib qayıtdıq.

Bir həftə ötdü. Mən bir başqa məsələ ilə bağlı Heydər Əliyevin otağındayam. Və o, birdən:

– O nə «piknik» idi rayonda qurmuşdun?

İnformatorlar öz işini görmüşdü. Əlqərəz, «kabablamağa» görə də, arvadlarımızı özümüzlə apardığımıza görə də məni qınadı. Neyləyim? Mən ömür yoldaşımın xahişini yerə sala bilməzdim, – o, Qubanı heç vaxt görməmişdi...»

## «Biz idealist deyilik...»

Azərbaycanın partiya rəhbərinin «Literaturnaya qazeta»nın 18 noyabr 1981-ci il tarixli sayında «Qoy ədalət zəfər çalsın» başlıqlı müsahibəsi nəinki İttifaqda, xaricdə də az əks-səda doğurmamışdı. Heydər Əliyev respublika rəhbərliyinə gəldiyindən on ildən çox keçəndən sonra nəhəng ölkə birinci katibin rüşvətxorluq, tanışbazlıq, ictimai əmlakın talanması, «kommunist əxlaqının antipodları»na qarşı qeyri-adi, sərt mübarizə metodlarından agah oldu. Bu müsahibə əsl sensasiyaya çevrilib bomba kimi partladı; «Literaturnaya qazeta»ya kisə-kisə məktublar, rəylər axışıb gəldi.

O zaman Azərbaycan KP MK ideologiya üzrə katibi olmuş Həsən Həsənov bu müsahibə ilə bağlı hadisələri xatırlayır:

«Bizə «Literaturnaya qazeta»nın rəhbərliyi Heydər Əliyevdən müsahibə almaq xahişi ilə müraciət etdi. Təbii ki, o razılıq verdi. O vaxtlar bu qəzet müəyyən özgürlüyə malik idi, mövqeyinin demokratikliyi ilə fərqlənirdi. Arada söhbət gedirdi ki, SSRİ ali rəhbərliyi tərəfindən bu qəzetə ölkədə olan nöqsanlar, kommunist ideologiyası baxımından sapıntılar haqqında geniş yazmaq üçün bir növ üstüörtülü imtiyazlar verilmişdir. Heydər Əliyevlə müsahibə baş tutdu, başlığı da məzmunu ilə bağlı, Nizami Gəncəvinin «Qoy ədalət zəfər çalsın» misrası oldu. O dövrün heç bir dissident məqaləsi həmin müsahibənin doğurduğu böyük rezonans ilə müqayisə oluna bilməzdi. Ölkənin hər yerindən qəzetə məktublar axışdı. Onlarda, əsasən, iki məsələ vurğulanırdı: birincisi, Heydər Əliyevin Azərbaycanda apardığı mübarizə onların da bölgələrində aparılmalı, ikincisi, məktubların müəllifləri Əliyevi öz bölgəsinin və hətta bütün ölkənin rəhbəri kimi görmək arzusunu bildirirdilər. Əvvəllər qəzet sadəcə məktubları bizim ünvanımıza yollayır, sonra isə, bu axın elə gurlaşdı ki, qəzet rəhbərliyi bizdən bu məktubları müntəzəm olaraq redaksiyadan götürüb aparmağı xahiş etdi. Lakin axın kəsilmirdi, nəhayət sovet «yuxarıları»nda eyməndilər ki, bu «işin axırı yaxşı olmayacaq» və qəzetə göstəriş gəldi ki, məktublar heç kəsə göstərilməsin, göndərilməsin, cavablandırılmasın, sadəcə yox edilsin».

Bu müsahibədə Heydər Əliyevin o dövrdəki mənəvi dəyərlər sisteminin ən qabarıq və əyani şəkildə öz əksini tapmasını nəzərə alaraq, həmin sənəd üzərində daha ətraflı dayanmağa dəyər.

Əvvəl Heydər Əliyev 1969-cu ildən etibarən Azərbaycanda partiya, sovet, təsərrüfat orqanlarının işində 50-60-cı illərdən «miras» qalmış çoxsaylı nöqsanlarla, pozuntularla başlanmış mübarizədən söz açır: «Bizdə adları qanun üçün uzun illər toxunulmaz və əlçatmaz sayılan adamların sensasiyalı ifşa edilməsi, sərt cəzalandırılması da olmuşdur... Xidməti mövqedən sui-istifadə edildiyi, korrupsiya, gözə toz üfləmə şəraitində, halal zəhmətə hörmətsizlik şəraitində kütlələrin təşəbbüskarlığı azalmaya bilməzdi. Mənəvi nigarançılıq, ardınca da əhalinin bir çox qatlarında yaranmış sıxıntı, laqeydlik ovqatı ilə əvəz olunmuşdu. Bütün bunlar Azərbaycan iqtisadiyyatının İttifaq göstəricilərindən geri qalmasının əsas səbəblərindən biri idi».

Daha sonra o, respublikada kadrların təzələnməsi, rəhbər vəzifələrə yaxşı təşkilatçılıq qabiliyyəti olan, enerjili, fədakar, yüksək mənəvi keyfiyyətlərə malik adamların gəlməsi haqqında danışır. Və həmin kadrların, əsasən, istehsalatdan, təsərrüfat sahələrindən, dəzgah arxasından, tarladan, sexdən gəldiyini bildirir. Məsələn, qazma ustası İsrafil Hüseynov Respublika Neft və Qazçıxarma Sənayesi İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri olmuş, Sosialist Əməyi Qəhrəmanı Yaqub Rüstəmov birbaşa toxuculuq sexindən Yüngül Sənaye İşçiləri Həmkarlar İttifaqı Komitəsi sədri vəzifəsinə irəli sürülmüşdür; Təhmasib İbrahimov sovxoz briqadiri vəzifəsindən Lənkəran şəhər partiya katibi vəzifəsinə yüksəlmiş, inşaatçılar briqadiri İlyas Quliyev isə respublikanın ikinci ən böyük şəhəri Kirovabadın icraiyyə komitəsi sədri seçilmişdir.

Heydər Əliyev ali məktəblərdə kök salmış yaramaz hallarla mübarizəni xatırladır:

«Biz belə bir halla da rastlaşmışdıq ki, ayrı-ayrı ali təhsil müəssisələrinin müəllimləri, rəhbər işçilər öz övladlarını «valideyn» ixtisasları üzrə institutlara düzəltməyə çalışırdılar. Belə cəhdləri məhdudlaşdırmalı olduq, dövlət universitetinin hüquqşünaslıq fakültəsinə işə inzibati orqanlar işçiləri övladlarının qəbul edilməsini tamam qadağan etdik».

Heydər Əliyev aspirantların hamısının, ucdantutma «professor balaları, nəvələri»ndən, hüquq fakültəsinə qəbul edilən abituriyentlərin əksəriyyətinin isə milis, prokurorluq, məhkəmə, partiya və sovet orqanları əməkdaşlarının uşaqları olduğundan danışır.

«Mən bu ifratçılıqlara qarşı çıxış edərkən ilk çağlarda mənə sözsöhbət çatırdı ki, belə qısnamalar nəyə gərək, axı həkimlər, müəllimlər, hüquqçular, alimlər nəsilləri – baba, ata, oğul – olmuşdur. Yəni indi niyə bunlar yasaqlanır? Mənim cavabım belədir: bəli, belə olmuş, ola da bilər, ancaq yalnız yüksək mənəvi zəmində, fitrətən. Mən şəxsən ata-babadan şaxtaçı, neftçi, poladəridən, əkinçi olmuş sülalələrə dərin hörmət bəsləyirəm və yüksək qiymətləndirirəm. İşə – peşəyə halallıqla yoğrulan varislik nəsillərə həqiqi ziyalılıq aşılayır, istər fiziki, istər zehni əmək təmsilçiləri olsun».

Heydər Əliyev «Literaturnaya qazeta»nın müxbirinə bildirir ki, rəhbər partiya işçiləri, vəzifə sahiblərinə bağ tikdirməyi, şəxsi avtomaşın almağı, elmi dərəcə almaq iddiasıyla dissertasiya müdafiə etməyi qadağan etmişdir. Bunu eşidən qəzet müxbiri Antonina Qriqa çəkinə-çəkinə etirazını bildirməyə çalışır: «Bağışlayın, Heydər Əliyeviç, axı biz qanunilikdən danışırıq... Bu isə, yumşaq desək...»

«Yumşaq ifadələr axtarmayın, – Heydər Əliyev cavab verir. – Bəli, bu iradəli hökmdür». Bu qərara səbəb bağ mülkləri tikintisinə müəssisələrdən, inşaat meydanlarından texnikanın, nəqliyyatın, inşaat materiallarının, fəhlə qüvvəsinin qatılması olmuşdur. Belə qadağaların sayəsində isə pansionatların, istirahət evlərinin, zəhmətkeşlər üçün profilaktorilərin inşa edilməsi yeyinləşdirilmişdir.

O ki qaldı elmi dərəcələrə, Heydər Əliyev burada heç vaxt elmi işlə məşğul olmamış, istehsalatda çalışmamış Sumqayıt şəhər partiya komitəsinin sabiq birinci katibi N.Balakişiyevi misal çəkmişdir. Yoxlama nəticəsində məlum olmuşdu ki, alimlik iddiasında olan katib dissertasiyasını özü yazmamış və əslində, başqasının tədqiqatını «mənimsəmişdir». SSRİ Ali Attestasiya Komissiyasının 12 avqust 1981-ci il tarixli qərarıyla o, elmi addan məhrum edilmişdir...



«Ancaq bu yeganə hadisə deyildi. 60-cı illərdə elmi dərəcələrə can atmaq rəhbər işçilər arasında modaya çevrilmişdi. Biz isə belə qənaətə gəlmişdik ki, bundan nə elmə, nə də partiya-dövlət fəaliyyətinə praktiki fayda yoxdur. Ziyan isə, mənəvi ziyan böyükdür. Rəhbər işçilər öz mövqeyindən sui-istifadə edir, alimlərin sıraları isə zibillənirdi. Həmin qadağa, bax, bununla izah olunur».

Müsahibədən ayrılıb qəhrəmanımızın söylədiklərini şərh edək. Əslində, onun gerçəkləşdirdiyi qadağalarda elə bir qeyri-adilik yox idi. G.Şumeyko «Köhnə meydanın salnaməsindən» adlı kitabında L.Brejnev dövründə Mərkəzi Komitə üzvlərinin həyatını pərçimləyən «puritan» qaydaları, vasvası yasaqları xatırlayır. O, yazır ki, daxili intizam MK əməkdaşlarına şəxsi bağ mülkü, şəxsi minik maşını sahibi olmağa yol vermirdi. Ailəsinin dağılmasına görə «gözü kölgəli» olan, mülki münaqişəyə «ilişən» adam çətin ki MK aparatında işləyə bilərdi. Belə qaydaları Heydər Əliyev də respublika MK-da tətbiq edirdi. O, yaradıcı ziyalılara bağ sahələri paylasa da, bəstəkarlara, yazıçılara, akademiklərə «Volqa» almağa yardım göstərsə də, öz partiya məmurlarını «pəhriz»də saxlayırdı. Bir çoxlarının maddi imkanları yetərincə olsa da, şəxsi maşın, ya bağ sahibi olmağı ancaq arzulaya bilərdilər.

1974-cü ilin 5 fevralı günü Heydər Əliyev 41-ci Bakı şəhər partiya konfransında geniş nitqlə çıxış etdi. O, rüşvətxorluqla mübarizə zəruriyyəti haqqında çox kəskin danışaraq, ilk dəfə açıq şəkildə prokurorluq orqanlarını rüşvətxorlara və talançılara yol verməkdə günahlandırdı. Çıxışının böyük hissəsini bağ təsərrüfatı və bu sahədə olan pozuntulara yönəltdi; özünə 266 kvadratmetr sahəli, qarajlı, hovuzlu və s. tikililərlə bağ malikanəsi qurmuş ticarət işçisi Beniaminovun, eləcə də özlərinə dəbdəbəli, dəm-dəstgahlı bağ imarətləri ucaltmış zərgər dükanı direktoru Həbibovun, əmtəəşünas Haşımovun «islahları»nı pisləmiş, işçilərinin istirahəti üçün yaxşı şərait yaratmaq barədə düşünmək əvəzinə şəxsi mülkanə inşaatı ilə məşğul olan rəhbərləri tənqid etmişdir:

«Hər şeydən əvvəl kollektiv istirahət təşkili üçün iri pansionatlar, istirahət evləri və başqa ictimai müəssisələr yaradılmasının qeydinə qalmaq lazımdı... Hər bir zavod, fabrik, hər bir nazirlik belə obyektləri inşa edə bilər».

Ardınca Heydər Əliyev Bakı zonasında bütün bağlarda üç ay ərzində tam yoxlama aparılmasını və bağın mənsubiyyətindən asılı olmayaraq pozuntular aşkarlandığı təqdirdə sahibini bağdan istifadə

hüququndan məhrum edilməsini, həmin bağları fəhlələrə, neftçilərə, havası qazla zəhərlənmiş mədən ərazilərində, zirzəmilərdə yaşayan insanlara verilməsini tələb edir. «Qoy bağlarda istirahət etsinlər!»

Həsən Seyidov xatırlayırdı ki, bir müddət Heydər Əliyev ümumiyyətlə, özəl inşaatı qadağan etmiş, yaradıcı ziyalılara isə azad olunmuş fonddan bağ ayrılmasını tapşırmışdır.

«Biz o vaxt çoxlarının – prokurorların, həmkarlar və partiya xadimlərinin, nazirlərin bağlarını aldıq, – Həsən Nemət oğlu xatırlayırdı. – Onlar nadürüstlüyə görə işdən çıxarılanda, bu və ya digər funksioner hüquq-mühafizə orqanlarının gözünə «ilişəndə», biz şəxsi bağı geriyə götürmək qərarını qəbul edirdik. Bağlar onlara müqavilə əsasında icarəyə verilirdi, ona görə də bağ təsərrüfatı trestinin müqaviləni ləğv etməyə haqqı var idi. Bundan sonra bağlar fəhlələrə, istehsalat qabaqcıllarına, ziyalılara verilirdi. Əlbəttə, bu bəzilərinin narazılığına səbəb olurdu. Yeri gəlmişkən, Heydər Əliyev gedəndən sonra bəziləri bağların qaytarılması barədə iddia irəli sürdülər».

Respublikanın sabiq daxili işlər naziri Cəfər Vəliyev mənimlə söhbət əsnasında Bilgəh qəsəbəsində atasından qalan bağla əlaqədar qəribə əhvalatı yada saldı:

«Bu bağ mülkünü atam özü tikmişdi, bir otaq idi, bir eyvan. Mən sahədə nəsə əlavə bir tikili qurmaq istəsəm də, çəkindim. Hərçənd o vaxt bizə DİN istirahət evinin inşa edilməsinə 5 milyon manat pul ayrılmışdı. Mənim bağımdan da istirahət evinə cəmi 100 metr məsafə var. Müavinim Kərimov bir dəfə təklif elədi:

– Gəlsənə sənin sahəni də tamamlayaq. Üç-dörd maşın material gətirib boşaldarıq.

Mən icazə vermədim.

Günlərin bir günü Bakıya gələn Semyon Kuzmiç Sviqun Heydər Əliyevlə Tahir Salahovun Nardaranda yerləşən bağına yollandılar. Nardarana Bilgəhdən iki yol var. Onlar yuxarı yolu seçməli idilər. Çaş salmışdılar. Mənim bağım isə sanatoriyanın lap yaxınlığında idi. Deməli, yol gedə-gedə görürlər ki, bir qarı darvaza yanında oturub çay içir. Heydər Əliyev qonaqla maşından düşür ki, bir az ayaqları açılışsın. Mühafizəçilərdən biri maraqlanır:

– Kimindir bu bağ?

Anam Heydər Əliyevi tanıyıb deyir:

– Cəfərin bağıdı, qadan alım.

– Hə, elə bu onunkuna oxşayır, nə hasarı, nə divarı var, sınıq-salxaq çəpər...



– Hansı Cəfəri deyirsiniz? – Sviqun soruşur.

– Bizim Cəfər Cəbrayıloviç Vəliyevi...

Sonra Əliyev məni yanına çağırıb qınadı:

– Sən niyə məni Sviqunun yanında biabır elədin? Məgər bir normal bağ tikə bilmirsən özünə?

– Kimdir mənə icazə verən? – dedim. – Siz özünüz məni sonra danlayacaqsınız.

– Gəl, sənə bir bağ ayırım.

O vaxt Bilgəhdə Bakı Soveti üçün bir neçə yaxşı bağ mülkü tikilmişdi. Amma anam istəmədi, bizim taxta-tuxta komamıza öyrəşmişdi.

Rayon milis rəisləri mənə dönə-dönə deyirdilər:

– İcazə verin qışda bunların hamısını kürüyüb iki-üç otaq artıraq.

Mən razı olmadım... Belə idi ümumi ruh. Onun qarşısında ayrı cür davranmaq mümkün deyildi».

Azərbaycanın sabiq ticarət naziri, sonralar Mərkəzi Komitənin katibi Svetlana Qasımova partiya işçilərinə şamil edilən «Əliyev yasaqları»na görə dissertasiyasından əlini üzməli olmuşdur. Halbuki tamamilə qanuni minvalla aspiranturanı bitirmiş və «Riyaziyyatın fəlsəfi problemləri» mövzusunda halalca yazdığı dissertasiyası, demək olar ki, hazır idi. Lakin o zaman Svetlana xanım artıq Bakı şəhər icraiyyə komitəsində işlədiyinə görə ona rəsmi surətdə işini müdafiə etməyi məsləhət görməmişlər. Yəni, əlbəttə, seçimi vardı, amma elmi yolu seçsəydi karyerasından əl çəkməliydi.

«Bakı şəhər icrakom sədrinin müavini ola-ola mən Musabəyov qəsəbəsində bir balaca otaqda yaşayırdım, – Svetlana Qasımova xəfif təbəssümlə xatırlayır. – Hərçənd ətrafdakılar düşünürdülər ki, mənim beş otaqlı mənzilim var. Sonralar, mənə mənzil veriləndə, ucuz, sadə mebel aldım. Mən artıq ticarət naziri olsam da, mebel çeşidlərindən ən ucuzunu seçdim. İndi başa düşürəm ki, əlbəttə, bir az israfçılığa varırdım. Oğlum üçün nə maşın, nə mənzil aldım, nə də bağ tikdirdim. Bütün bunlar bugünün gözüylə baxanda əcaib görünür. Amma əks təqdirdə nazir vəzifəsindən sonra məni heç vaxt MK katibi seçməzdilər... Mən iki dəfə Qırmızı Əmək Bayrağı ordeni almışdım. Birincisini Baksovetdə işləyərkən, ikincisini nazir olanda. Məncə, bu bütün SSRİ məkanında unikal hal idi ki, ticarət naziri orden alsın. Yeri gəlmişkən, İttifaqda eyni zamanda MK üzvü və respublika Ali Sovetinin deputatı olan yeganə ticarət naziri idim.

Əlbəttə, belə sərt məhdudiyyətlərlə heç də hamı razılaşmırdı. Hərçənd, bütövlükdə belə bir qənaət vardı ki, rəhbər işçi xalqın göz qabağındadır, onun hər addımı, hərəkəti, istər şəxsi, istərsə ictimai-siyasi müstəvidə olsun – əhali tərəfindən izlənir, «mizan»da çəkilir. Digər tərəfdən, ifratçılığa varılan hallarda bu məsələyə münasibət birmənalı olmurdu. Məsələn, hansısa raykom bir adamı işə götürür, təlimatçı vəzifəsinə. Söhbətləşmədə soruşurlar: maşının varmı, bağın varmı? «Hə» deyəndə, şəxsi işi kənara qoyurdular.

Bu şəxsən Heydər Əliyevin göstərişlərindən irəli gəlmirdi. Kimlərsə yerlərdə həddən artıq canfəşanlıq edirdilər. Ancaq əslində ümumi ovqat məhz belə idi: rəhbər işçi mənəvi saflıq nümunəsi olmalıdır. Heydər Əliyev bunu tələb edirdi. Və əlbəttə, diqqətlə izləyirdi. Əgər kimsə, hansı nazirsə burada, respublikada, ya kənarda «cızıqdan çıxmışsa» bunu öyrənib müvafiq ölçü götürürdü. Hər kəs hiss edirdi ki, onun hərəkətləri nəzarət altındadır».

70-ci illərdə Heydər Əliyev komandasında olan bir çoxları yarısınadək ya tam yazılmış dissertasiyalarını kənara qoymalı olduqlarını təəssüflə xatırlayırdılar. Çünki «birinci» öz tabeliyində işləyənlərin «bir əldə iki qarpız tutmaq» cəhdlərini bəyənmirdi. Bununla bağlı mülahizələri başqa fəsillərdə də xatırlatmışdıq. Onun qadağalarının məntiqi inandırıcı səslənirdi: əgər dissertasiya işini sən özün yazırsansa, demək, əsas vəzifənə az diqqət yetirirsən. Əgər böyük kollektivə rəhbərlik etdiyinə görə elmi əsər yazmağa vaxtın çatmırsa, demək, başqalarına yazdırırsan... Odur ki, əzizim, özün seç: ya elm (və əlvida, partiya karyerası!), ya da xidmət!

Yeri gəlmişkən, L.Brejnev də ölkə rəhbərliyindəki ali məmurların dissertasiya yazmaqla, müdafiə etməklə məşğul olmasına mənfi münasibət bəsləyirdi.

Yuri Çurbanov öz kitabında bir maraqlı epizodu söyləyir:

«...Bir dəfə Şşolokov doktorluq dissertasiyası – iqtisadi elmlər doktoru – müdafiə edəcəyini dilindən qaçırtdı. Müdafiə «Qosplan» institutlarının birində olmalı, kimsə bu barədə canfəşanlıqla, az qala «tumba»lara afişa yapışdırmaqla yoldan keçənlərə car etmişdi. Həmin o afişanı «tumba»dan qoparıb Leonid İliçə çatdırmışdılar. O, Şşolokovu yanına çağırıb ona dedi: «Sən müdafiə edib mühazirələr oxumaq istəyirsənsə, onda get Moskva Universitetində işləməyə!». Şşolokov Leonid İliçdən yamanca «qulaqburması» almışdı. Ancaq sonralar, Leonid İliçin halı pisləşən zaman, Şşolokov dissertasiyasını müdafiə edə bilmişdi»[12].



Elm xadimlərinin alimlik iddiasında olan partiya və sovet məmurlarına neqativ münasibətindən akademik Y.Primakov «Böyük siyasətdəki illər» kitabında söz açır:

«1974-cü ildə mən SSRİ EA müxbir üzvü, 1979-cu ildə isə həqiqi üzvü seçilmişdim. Təbii ki, bütün ümumi yığıncaqlara gedirdim və gözümün önündə o zamanlara heç də xas olmayan hadisələr baş verirdi. Yadımdadır, bütün rəhbərlik, MK elm şöbəsinin müdiri, Brejnevə yaxın olan adamlardan biri Trapeznikovu akademikliyə keçirtmək üçün az qala dəridən-qabıqdan çıxırdı. Tarix bölməsində ona səs verib seçsələr də, ümumi yığıncaqda başdan elədilər. Nə əvvəlcədən görülən hazırlıq, nə də bəzi hörmətli akademiklərin iştirakı ilə Trapeznikovu seçmək çağırışları elmi şuraya təsir eləmədi»[13].

SSRİ EA həqiqi üzvlüyünə seçkilərdə ali təhsil naziri Yelyutinin də aqibəti belə oldu.

«Onu təqdim edən akademik – bölmə katibi – Yelyutini böyük alim kimi səciyyələndirdi. Sədrlik edən akademiya prezidenti sual verdi ki, kimin qeydləri var. Salonda bir əl qaldırıldı və sual səsləndi: «Müxbir üzvlüyündən bəri, yəni dörd il ərzində Yelyutin nə iş görmüşdür?». Cavab olaraq iddiaçının həm müstəqil, həm müştərək, həm də rəhbərliyi altında elmi kollektiv tərəfindən yazılan işlərin siyahısı sadalandı. Bundan sonra sual vermiş akademik kürsüyə qalxıb dedi: «Yelyutin elmi sahədə bu qədər çox iş görmüşdürsə, deməli, o, nazir kimi pis işləmişdir, – sadəcə, buna onun vaxtı çata bilməzdi. Ya da əksinə...»

Nəticədə, gizli səsvermədə Yelyutini «gillətdilər»[14].

Sözarası, SSRİ miqyasında partiya-təsərrüfat aparatından peyda olan üzdəniraq alimlərə qarşı mübarizə Azərbaycan KP MK birinci katibinin təşəbbüsüylə rəvac almışdı. Heydər Əliyevin «Literaturnaya qazeta»da çıxan müsahibəsindən sonra bir çox partiya rəhbərləri öz tabeliyində çalışanların «bir əldə iki qarpız tutmaq» cəhdlərinə daha sərt yanaşmağa başlamışdılar. Yadımdadır, belə qondarma «alimlər» haqqında populyar aktyor Anatoli Papanovun baş rol oynadığı bədii film də çəkilmişdi.

Bununla belə, partiya aparatına elm sahəsindən gələn həqiqi alimlərə Heydər Əliyev xoş münasibət bəsləyir, üstəlik onların elmi yaradıcılığını davam etdirməsi üçün şərait də yaradırdı. Məsələn, Əfrand Daşdəmirovun Bakıda keçirilmiş mənəvi tərbiyə üzrə ümumittifaq konfransı üçün məruzə hazırlanmasında özünü elmi təfəkkür və bilik baxımından yaxşı göstərdiyini görən Heydər Əliyev ona

«Azərbaycan kommunisti» jurnalına başçılıq etməyi tapşırmışdı. Ə.Daşdəmirov az bir vaxtda dərginin ideya-nəzəri səviyyəsini qaldırmağa və təbii ki, birinci katibin dəstəyi ilə «Xalqlar dostluğu» ordeni ilə təltif edilməsinə nail olmuşdur.

«Ancaq məni orada çox işləməyə qoymadılar, – Daşdəmirov deyir. – 1981-ci ilin yanvarında Azərbaycan Kommunist Partiyasının yubiley tarixli XXX qurultayı oldu. Qurultay vaxtı Heydər Əliyev mənə MK təbliğat şöbəsi müdiri vəzifəsini təklif etdi. Bu məni çaşbaş qoydu. Məsələ ondadır ki, jurnalda işləyərək, mən kafedraya başçılıq edir, elmi-pedaqoji fəaliyyətlə məşğul olmaqda davam edirdim. Mərkəzi Komitəyə keçməklə bunları «qurban» verməli idim. Hərçənd, Heydər Əliyev nəinki etiraz edir, hətta elmdən ayrılmamağımı, kafedraya başçılıq etməyimi təkidlə məsləhət görürdü. Amma mən anlayırdım ki, bu mümkün deyil və təhsil prosesinə əngəllər yaradacağam. Onda EA Fəlsəfə İnstitutunda mənə görə milli problemlər və beynəlmiləl tərbiyə şöbəsi yaradıldı. Başqa respublikalarda bu istiqamət təzə-təzə mənimsənildiyi halda, bizdə dissertasiyalar müdafiə olunur, kadrlar yetişdirilirdi.

Heydər Əliyev elm adamlarına çox hörmətlə yanaşırdı. O, ümumiyyətlə insanlarda professionalizmi dəyərləndirirdi».

Yenə gurultulu əks-səda doğuran müsahibəyə qayıdaq. «Literaturnaya qazeta»nın müxbiri Heydər Əliyevə sual verir:

**« – Məndə belə təsəvvür yaranıb ki, rüşvətxorluq sizdə hər hansı başqa cinayət növündən artıq ikrah hissi doğurur. Niyə məhz rüşvət?**

– Ona görə ki, rüşvət – universal cinayətdir. Bütün başqa naqisliklər onun ətrafında fırlanır... Keçmişin mənfur mirasının yaşarılı qalmasında hamımızın üzərinə təqsir payı düşür. Hətta alana-verənə nifrət bəsləyən halal adamın üzərinə də. Şəxsi salehlik və şəxsi vəsvəsilik hələ vətəndaş məziyyətləri deyil. Vətəndaşlıq fəallıq, şərə qarşı mübarizə bacarığı və əzmi tələb edir».

Ardınca Heydər Əliyev əslində özünün mənəvi dəyərlər sistemini, ideal şəxsiyyət və ideal cəmiyyət anlayışını açıqlayır:

«Xeyirin yolu daima qanqallıqlardan keçərək ulduzlara doğru yönəlmişdir! Qətiyyətli insanlar, heç vaxt süst, bivec, «öz qınına çəkilmiş» adamların, illah ki, əlüyrilərin, fəndgirlərin, xalqın varını talan edənlərin duya bilməyəcəkləri sevinclər keçirirlər, sonuncuların isə əzablarını heç kəs bölüşən deyil, heç kəs də qaçılmaz cəzalarını həddindən artıq sərt saymayacaq...



Biz idealist deyilik, biz iddia etmirik ki, xeyirin şər üzərində mütləq qələbəsinə biryolluq və həmişəlik nail olacağıq. Ancaq ədalətin, qanunçuluğun, əqidəliliyin mizan-tərəzinin gözünü öz tərəfinə çəkməsinə nail olmaq mümkündür və lazımdır. Əyintilər olmuşdur və olacaq, lakin dərhal qanunun, rəhbərliyin, ictimai rəyin diqqət mərkəzində yer alacaqlar».

Müsahibəsinin sonunda Heydər Əliyev aşkarlıq haqqında danışır:

«Sosialist demokratiyası inkişafının, kütlələrin sosial fəallığının yüksəldilməsinin ən mühüm amili aşkarlıqdır, götürülən ölçülər və onların nəticələri haqqında müntəzəm və geniş məlumatlandırma, bunun üçün də mətbuat orqanları, radio və televiziyadan istifadə etməkdir».

*(Mən əminəm ki, Mixail Qorbaçov, hallandırmağı xoşladığı həmin «aşkarlıq» anlamını Heydər Əliyevdən «iqtibas etmişdi», çünki o da, başqa sabiq SSRİ rəhbərləri kimi, 80-ci illərin əvvəllərində Heydər Əliyevin «Literaturnaya qazeta»da çıxan müsahibəsindən vaz keçə bilməzdi və heç şübhəsiz ki, oxumuşdu da, incələmişdi də...»)*

Belə bir müsahibənin üzə çıxmasının, bir növ cəmiyyətin sosial sifarişi kimi qavranılmasının səbəblərini aydınlaşdırmaq üçün 70-80-ci illərdə ölkədəki vəziyyəti xatırlamaq lazımdır. Birinci şəxsin xəstəliyi tədricən cəmiyyətin hər bir yaşam sahəsinə öz təsirini göstərməyə başlamışdı: dövlət və istehsalat intizamı aşağı düşmüş, kadrlara tələbkarlıq azalmış, başdansovduluq, məsuliyyətsizlik kütləvi hala çevrilməkdə idi. Bütün bunlar, təbii ki, sənaye və kənd təsərrüfatı istehsalına təsir göstərməyə bilməzdi. SSRİ DTK sabiq başçısı V.Kryuçkov «Şəxsiyyət və hakimiyyət» kitabında həmin dövrü xatırlayaraq yazır:

«L.İ.Brejnev artıq bütün səviyyələrdən, rəhbər kadrlar tərəfindən öz vəzifələrinin icrasına nəzarət etmək halında deyildi, hələ öz rəhbərlərindən, təbii ki, nümunə götürən sıravi əməkdaşları demirəm.

Ən xoşagəlməz və nigarançılıq doğuran orası idi ki, cəmiyyətdə, hətta partiyada da mənəvi-əxlaqi durum pisləşməyə başlamışdı. Korrupsiya, rüşvətxorluğun artmasını göstərən əlamətlər, dövlət və ictimai əmlakın mənimsənilməsi, tamah məqsədilə vəzifə mövqeyindən sui-istifadə edilmə faktları çoxalmaqda idi... Cinayətkarlıq xüsusən şəhərlərdə nəzərəçarpacaq ölçüdə artırdı. Yuxarılarda bütün bu mənfi hallara qarşı mübarizəyə başlamaq barədə düşünmürdülər. Və onlar qar topası sayağı böyüməyə başladı»[15].

Eyni hallar haqqında Brejnev komandasının başqa bir üzvü, Moskva şəhər partiya komitəsinin sabiq I katibi Viktor Qrişin öz xatirələrində yazır: «80-ci illərin axırlarında ölkənin bir çox şəhər və rayonlarında əhalinin ət, yağ və digər ərzaqla təmin edilməsində kəsintilər qeydə alınmağa başladı. Geniş istehlak malları (paltar, ayaqqabı) çatışmırdı. Bu da, təbii, insanların narazılığına səbəb olurdu. Eyni zamanda əmək və istehsalat intizamı zəifləmiş, oğurluq, sosialist əmlakının çapılması və rüşvətxorluq artmışdı. Bu hallarla mübarizə aparılsa da, zəif idi. Hüquq-mühafizə orqanları qeyri-kafi işləyirdilər. Bəzən onların öz işçiləri də korrupsiya iştirakçıları olurdular. Bu baxımdan Sov.İKP MK tərəfindən siyasi-tərbiyəvi iş də zəif aparılırdı. **Mövcud olan nöqsanların aradan qaldırılması üzrə kəskin göstərişlər verilmirdi** (vurğulama bizimdir. – *E.A.*)[16].

Buna görə də, çox güman ki, məhz Andropov SSRİ-də ən populyar, cəmiyyət tərəfindən inanılan yeganə qəzetin rəhbərliyinə Azərbaycana xüsusi müxbir göndərib Heydər Əliyevlə neqativ hallarla mübarizə təcrübəsi haqqında söhbətləşməyi məsləhət görmüşdü. Onun korrupsiya azarı ilə uzun illər davam edən mübarizəsinin üstündən sükutla keçsələr də, belə bir «qəmbərqulu»nun SSRİ-də olduğunu görməzliyə qoysalar da, axırda etiraf etməli olmuşdular ki, bu mübarizə zəruridir, üstəlik Azərbaycan partiya təşkilatının təcrübəsi ümumittifaq miqyasda tətbiq edilməlidir. Düz bir il sonra Sov.İKP MK Baş katibi seçilən Yuri Andropov Heydər Əliyevin metodlarını – əmək və partiya intizamının möhkəmləndirilməsi, hüquq-mühafizə orqanları və partiya aparatının ciddi «arıtlanması»nı, xalq təsərrüfatında korrupsiya və talançılığa qarşı mübarizəni ölkə miqyasında tətbiq edəcək. Qısa müddət ərzində Moskvada, Krasnodarda, Stavropolda, Rostovda çoxsaylı talançı və rüşvətxor dəstələri aşkarlanıb cinayət məsuliyyətinə cəlb ediləcək, Özbəkistanda «pambıq» araşdırılmaları başlanacaq, «pripiska»larla, səhlənkarlıqla əməlli-başlı mübarizə vüsət alacaq... Əfsus ki, ağır xəstəlik ucbatından Andropov düşündüklərini başa çatdıra bilmədi, onun xələfləri isə bir il yarıma yaxın dövlət sükanı başında olduğu vaxtda gördüyü işlərini də heçə çevirdilər...

## «O, ləyaqətlə çıxıb gedə bilmədi»

A.Karaulovla 1989-cu il 20 noyabr tarixli müsahibəsində Heydər Əliyev bildirmişdi: «Hesab edirəm ki, bugün Azərbaycanda vaxtilə Mərkəzi Komitənin qəbul etdiyi bir çox qərarlara ədalətsiz münasibət bəslənilir. Pozuntulara yol vermiş şəxslərdən bəziləri indi baş qaldırır, vəziyyətdən faydalanaraq, özlərini keçmişin qurbanları kimi göstərməyə çalışırlar. Əslində isə şəxsən məndən haqlı cəzalarına görə qisas alırlar... Respublikanın sabiq prokuroru Məmmədovla bağlı əhvalat da bu sıradandır...»[17]

Həmin konfliktin təfsilatı, A.Vaksberqin «Literaturnaya qazeta»da «Gurultulu alqışlar» məqaləsi sayəsində bütün SSRİ məkanında yayıldı (1988-ci il, 21 sentyabr, № 38). Başqa Moskva nəşrləri də «yuxarı»dan Heydər Əliyevi hər vasitəylə gözdən salmaq barədə siyasi sifariş alaraq, respublikanın sabiq prokuroruna həvəslə yer verir, o da utanıb-qızarmadan sabiq Siyasi Büro üzvünün qarasınca ittihamlar yağdırırdı.

Qəhrəmanımın əsəblərini xeyli vaxt tarıma çəkmiş həmin tarixçəni incələmək niyyətilə 70-ci illərə aid partiya sənədləri, Heydər Əliyevin şəxsi arxivindəki materialları araşdırdım, ələlxüsus da ona görə ki, Q.Məmmədovun vəzifəsindən kənarlaşdırılmasının səbəbləri bu fəsildə bəhs edilən rüşvətxorluq və korrupsiyaya qarşı mübarizə ilə bilavasitə bağlıdır.

Qamboy Məmmədov çekist kadrlarından idi. Ali hüquqşünas təhsili alaraq, respublika DTK istintaq şöbəsi rəisi vəzifəsindən «boy atmış», 1963-cü ildə isə Azərbaycanın baş prokuroru təyin edilmişdir. Yeri gəlmişkən, moskvalı müəllif Nikolay Zenkoviçin «Heydər Əliyev. Taleyin dönərgələri» kitabında, Azərbaycan KP MK sabiq ikinci katibi V.Semiçastnının sözlərinə istinadən deyilir ki, həmin vəzifəyə Heydər Əliyevi «bənd etmək» istəsələr də, o, imtina etmişdir. N.Zenkoviç yazır:

«Respublika prokuroru vəzifəsi boş qaldı. Semiçastnı namizədlərin araşdırılması barədə tapşırıq verdi. MK-da baxılmağa təqdim olunanların sırasında tanış soyadı görür – Əliyev Heydər Əliyeviç. Söhbətə dəvət olunmasını xahiş edir.

Səhhəti, xidməti, ailəsi haqqında sorğu-suala tutur.

– Sizə respublika prokuroru vəzifəsini təklif etsək, buna necə baxarsınız? – Semiçastnı soruşur.

Əliyev fikrə gedir. Sifətinin ifadəsi təmkinli qalsa da, Semiçastnı onun qəlbində baş qaldıran hisslərin çarpışmasını sezir.

– Vladimir Yefimoviç, istəyirsinizmi düzünü deyim?

– Burada başqa cür danışmırlar da...

– Bilirsinizmi, mən təhsilcə hüquqşünas deyiləm. Mən əməliyyat işçisiyəm. Buna görə də bu işdən yapışmaq istəməzdim. Sizi də, özümü də peşiman edə bilərəm... Ən başlıcası isə işə ziyan dəyər.

Semiçastnı sonralar söyləyirmiş ki, bu cavab onu heyrətləndirmişdi. Yüksək vəzifələrdən imtina edənlər az-az olurdu.

– Neynək, yoldaş Əliyev, səmimiyyətinizə görə sağ olun. Sizin mövqeyiniz hörmətə layiqdir.

Semiçastnı, sözünə görə, Əliyevi rahat buraxmış, həmin vəzifəni tutmağa təkid etməmişdir. Onun mövqeyi Moskva canişininin çox xoşuna gəlmişdi»[18].

Qamboy Məmmədov həmin şərəfli təklifdən imtina etmədən respublika prokurorluğuna başçılıq etməyə başlamışdı. Həmkarlarının xatırladığına görə, Qamboy Məmmədov və Heydər Əliyev həmişə yaxşı münasibətdə olmuş, hətta bir müsahibimin dediyinə görə, «ailəvi dostluq» etmişlər. Hərçənd, Məmmədov o vaxtlardan içində «buynuz» saxlayırmış, – özü sonralar bir müsahibəsində söylədiyi kimi, onun əlində həmkarına aid «kompromat» varmış və bu səbəbdən Heydər Əliyevin DTK sədri təyin olunmasına etiraz edibmiş. Halbuki, Heydər Əliyevin bildirdiyinə görə, «bu da uydurmadır. Bəs mən birinci katib seçiləndə niyə o, Mərkəzi Komitənin Plenumunda öz rəyini deməmişdi? O, MK üzvü idi və mənim seçilməyimə səs vermişdi»[19].

Üstəlik, Heydər Əliyev bayram günlərində Qamboy Məmmədovdan, təmtəraqlı risalələr alır və baş prokuror birinci katibə «respublikada hər bir vəzifə sahibinə yüksək tələbkarlıq atmosferi yaratdığına görə, sosialist qanunçuluğunun möhkəmləndirilməsinə təminat verən xidməti borcunu mükəmməl yerinə yetirdiyinə görə» MK birinci katibinə dərin minnətdarlığını izhar edirdi.

Di gəl, elə sosialist qanunçuluğunun möhkəmləndirilməsi məsələsində Q.Məmmədovun rəhbərlik etdiyi prokurorluq orqanlarında heç də hər şey qaydasında deyildi.

**1972-ci ilin iyun ayında** MK Bürosu «Azərbaycan SSR Prokurorluq orqanlarında kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyəsi üzrə işin vəziyyəti haqqında» məsələyə baxdı. Prokurorluğun rəhbərliyi, onun sistemində təsadüfi, səriştəsiz, şübhəli iş qabiliyyəti və siyasi siması olan adamların olmasına görə, işçilərin yerdəyişməsi və ireli sürülməsində çox vaxt əsaslandırılmamış qərarlar verilməsinə görə və s. tənqidə məruz qaldı.



1973-cü ildə Qamboy Məmmədovun respublika prokuroru vəzifəsində işləməsinin Konstitusiyada müəyyənləşdirilmiş müddəti başa çatırdı. MK birinci katibi onu başqa adamla asanca əvəz edə bildiyi halda, Q.Məmmədov yenə də prokuror təyin olundu. Yəqin bu elə bir qərar seçimi idi ki, dostluq bağlılığı və orqanlarda birgə əməkdaşlıq haqqında xatirələr soyuqqanlı götür-qoya üstün gəlmişdi, – tezliklə tamamilə aydın oldu ki, Q.Məmmədov 1969-cu ilin yayında bəyan edilmiş hər hansı qanun pozuntularına qarşı güzəştsiz mübarizə aparılması kursu ilə ayaqlaşmır. Müsahiblərimdən birinin təbirincə, o, «Vəli Axundov epoxasının adamı» olaraq qalırdı və Heydər Əliyevin talançılara, möhtəkirlərə, rüşvətxorlara qarşı dözümsüzlüyünü bir çox hallarda başa düşmürdü.

**1974-cü ilin 8 yanvarında** Azərbaycan KP MK inzibati orqanlar şöbəsinin məktubu əsasında MK Bürosu qəbul etdiyi qərarda, sosialist əmlakının oğurlanması və rüşvətxorluq haqqında cinayət işlərinin baxılmasında və həllində yol verilmiş pozuntulara görə Qamboy Məmmədova və onun müavinlərinə (Barıkin, Gülməmmədov), habelə DİN və Ali Məhkəmə rəhbərlərinə ciddi xəbərdarlıq bildirilmişdi.

İnzbati orqanlar şöbəsinin müdiri Cəfər Vəliyevin məktubunda göstərilən pozuntu faktları «cinayətkarlara əsassız bəraət qazandırmaq, onlara həddindən artıq yumşaq cəza vermək, təhlükəli caniləri məsuliyyətə cəlb etməmək»lə səciyyələnirdi.

Məsələn, 1971-ci ilin 21 noyabrında Cəlilabad rayonunun «Oktyabr» sovxozunun işçisi Şövkətov prokurorluğa yazdığı ərizədə bildirmişdir ki, sovxoz direktoru Abdullayev onu briqadir vəzifəsinə keçirmək üçün 200 manat məbləğində rüşvət tələb etmişdir. Abdullayev rüşvət aldığı yerdə yaxalanmışdır. Bu elementar iş rayon prokurorluğunda 5 aydan artıq süründürülmüş, sonra respublika prokurorluğunun istintaq şöbəsi tərəfindən tələb olunmuş və axır-axırda, 1972-ci ilin 19 mayında müttəhim azad edilmişdir.

Şaumyan rayon qarışıq mallar ticarəti idarəsinin mağaza müdiri Pənahlı 1971-ci ildən 1972-ci ilin 10 fevralınadək 4 min 880 manat məbləğində dövlət mallarını oğurlamışdır. Bu iş üzrə Pənahlıdan böyük məbləğdə rüşvət almış milis işçisi Babayev həbs edilsə də, 5 aydan sonra respublika prokurorluğunun göstərişilə buraxılmışdır. Üstəlik DİN Babayevi daxili işlər orqanları heyətində bərpa etmişdir.

Bakı ət kombinatı buraxılış bürosunun rəisi Eyvazov bu kombinatın fəhləsindən keçiddə rüşvət aldığı zaman yaxalanmışdı. Evində

axtarış aparılarkən böyük məbləğdə pul, iki əmanət kitabçası, çoxsaylı qızıl saatlar, cəvahirat, xalçalar və s. aşkarlanmışdı. «Cinayət işində digər mühafizə və milis işçilərinin rüşvətxorluğu haqqında məlumat vardır. Lakin səthi yoxlanışdan sonra istintaq Eyvazovun və başqalarının rüşvətxorluğa görə cinayət məsuliyyətinə cəlb edilmələri üçün əsas olmadığı haqqında nəticəyə gəlmişdir. Prokurorluq işçilərinin qeyri-düzgün mövqeyi Eyvazovun həbsdən buraxılmasına və xidmətində bərpa olunmasına gətirib çıxarmışdır».

«Şarik avtoruçkaları» (kürəcikli avtoqələmlər) ilə bağlı cinayət işi də respublikada geniş əks-səda doğurmuşdu. Bakı metal kombinatında 4 saylı sexin bir qrup işçisi 1971-ci ilin oktyabr ayında yenicə dəbə düşmüş «şarik avtoruçkaları»nı və saç sancaqlarını külli miqdarda, 20 min 772 min manat məbləğ ölçüsündə mənimsəmişdi. İstintaq zamanı kombinat ərazisində üç dəmir çəlləkdə sex işçilərinin işdən kənar vaxtda qeydə alınmamış xammaldan hazırladıqları 16 min manatlıq «solaxay» avtoqələmlər tapılmışdı...

MK şöbəsinin məktubunda deyilirdi ki, «yetərincə əsas olmadan ittiham olunan üç nəfərin hərəkətləri xidməti mövqeyindən sui-istifadə və səhlənkarlıq kimi yenidən təsnifləndirilmiş, qalanları isə əfv olunub buraxılmışlar».

Prokurorluğun fəaliyyəti sonralar da Heydər Əliyev tərəfindən, o cümlədən 41-ci və 42-ci Bakı şəhər partiya konfranslarında, xüsusən də XXIX respublika partiya qurultayında tənqid olunmuşdu. Qamboy Məmmədov zahirən tənqidlə razılaşsa da, bununla belə inadla öz dəyirmanını fırladırdı. Heydər Əliyevin rəyinə görə respublikanın sabiq prokuroru həddən artıq özündən razı və iddialı adam idi, o, həmişə tənqidi incikliklə qarşılayır və düzəlmək əvəzinə bu tənqidə qarşı çıxırdı.*

**1976-cı ilin 26 may günü** Büro üzvlərinə MK şöbə müdiri Cəfər Vəliyev başda olmaqla şöbənin hazırladığı araşdırma-məktubu təqdim olundu.

Burada prokurorluq orqanlarına ünvanlanan tənqid daha məqsədyönlü və sistemli şəkildə idi. Məktub respublika prokurorluğu fəaliyyətinin Büroda müzakirə edilməsinə və Büronun 1976-cı il 1 iyun tarixli, 11 saylı «Azərbaycan SSR Prokurorluğunun fəaliyyətində ciddi nöqsanlar haqqında» qərar verməsinə əsas oldu.

* Burada və ardınca Azərbaycan SSR doqquzuncu çağırış Ali Soveti IX sessiyasının 1975-ci il 15 dekabr tarixli iclasının stenoqramına istinad edirik.



Qəribədir: həmin qərarda göstərilən faktlardan görünür ki, Qamboy Məmmədovun dövründə prokurorluq orqanları məhkəmələrdən qat-qat «rəhmdil» hərəkət edirmişlər. Bu «üzüyolalıq» da rüşvətxorluq haqqında cinayət işlərinin süründürülməsində, hətta xətm edilməsində də, işlərin aparılması üzərində prokuror nəzarətinin aşağı səviyyəsində, şikayət verilmiş hökmlərdən hər üçüncüsünün xətm edilməsi, ya dəyişilməsində öz əksini tapırdı.

Qərarda ayrı-ayrı prokurorluq işçilərinin öz xidməti vəzifələrinə məsuliyyətsiz yanaşmaları, əxlaqsız davranışları, şübhəli şəxslərlə əlaqələrdə korazehinliyi, şəxsi maşınlarını başqa adamların adına yazdırması və s. haqqında deyilirdi.

Bu baxımdan ümumi nəzarət şöbəsinin sabiq prokuroru T.Hüseynovun cinayət işi səciyyəvidir. Respublika prokurorluğuna keçməzdən əvvəl o, DİN sistemində işləmiş və qatı rüşvətxor kimi «ad» qazanmışdı. Prokurorluğa keçəndən sonra da «vərdiş»indən əl çəkməmiş, əksinə, «iştahı» daha da artmışdı. İş o yerə gəlib çatmışdı ki, Hüseynovun istintaq aparma «metod»larının soraqları tək sıravi vətəndaşlardan deyil, nazirlik və idarə rəhbərlərindən də gəlirmiş. Bununla belə, sərişteli rüşvətxora qarşı cinayət işi yalnız respublika prokurorluğunda rəhbərlik dəyişiləndən sonra açıldı. Nəticədə T.Hüseynov 15 il müddətinə həbs olundu.

Qamboy Məmmədov öz tabeliyində olanların «şuluqluq»larına barmaqarası baxır və uzun müddət yüksək vəzifəli əməkdaşlarının gizli iqtisadiyyat «tuz»larını sığortalamaqları haqqında orqanlara inanmaq istəmirdi. Sonradan məlum olmuşdu ki, prokurorluğun istintaq şöbəsi rəisi İ.Babayevin «solaxay» bizneslə əlaqələri və haram milyonları haqqında materiallar hələ Q.Məmmədov respublika DTK istintaq şöbəsinə başçılıq etdiyi zaman sonuncunun əlində varmış. Buna baxmayaraq, Q.Məmmədov Babayevi nəinki prokurorluqdan uzaqlaşdırmamış, əksinə, ona daima arxalanmış və hətta respublika prokuroru müavini vəzifəsinə namizədliyini irəli sürmüşdü.

Heydər Əliyev bu barədə xatırlayırdı:

«Biz məlumat almışdıq ki, respublika prokurorluğu, rəhbər işçilər rüşvətxorluqla məşğuldurlar. Mən ona (Q.Məmmədova – *E.A.*) dəfələrlə bu barədə demişdim. Mən daha etibarlı mənbələrdən məlumat alırdım. Araşdırmanı ona etibar etmədim, SSRİ Baş prokuroru Rudenkodan öz nümayəndələrini göndərməsini xahiş etdim, onları qəbul etdim, materialları verdim, onlar yoxladılar və ...Babayevi, həmçinin şöbə prokuroru Quliyevi cürbəcür əməllərinə və rüşvət-

xorluğa görə həbs etdilər. O isə (Q.Məmmədov – *E.A.*) onlara himayədarlıq edir, bu adamları müdafiə edir və bununla öyünürdü...»

«Prokuror-istintaq fəaliyyətinin təşkili, qanunçuluq üzərində prokuror nəzarətinin icra edilməsi işində ciddi nöqsanlara və prokurorluq orqanlarında kadrlar seçilməsi və tərbiyəsinin qeyri-kafi vəziyyətinə görə» MK Bürosu Q.Məmmədovun vəzifəsindən kənarlaşdırılması haqqında qərar qəbul etdi. Onun işdən azad olunması məsələsi SSRİ Baş prokuroru və Sov.İKP MK tərəfindən tam həll olundu. Q.Məmmədov özü Büro iclasına gəlmədiyinə görə onun partiya mənsubiyyəti məsələsinə daha sonra, onun iştirakıyla baxılması qət edildi. Əslində, sabiq prokurorun partiyadan çıxarılmamasını, əksər Büro üzvlərinin rəyinə rəğmən, Heydər Əliyev özü təkid etmişdi. O, şöbə müdiri Cəfər Vəliyevdən sabiq respublika prokurorunu bir münasib iş yeri tapmağı da xahiş etmişdi. Məmmədova bir neçə vəzifə, o cümlədən respublika notariat sədrinin müavini vəzifəsi təklif edildi. Amma necə deyərlər, daş qayaya rast gəldi. Q.Məmmədov C.Vəliyevə bildirdi ki, həmin vəzifə onun üçün çox kiçikdir və o, ədliyyə naziri müavini, ən azı Nazirlər Sovetinin hüquq şöbəsinə müdir olmaq iddiasındadır, «niyə»si də xidməti maşın, yüksək maaş, «Leçkomissiya» və s. imtiyazlarla bağlı idi. İstədiyinə nail ola bilməyən sabiq prokuror «cəngi havası»na keçdi. Moskvaya yollanıb Sov.İKP MK-da qəbul edildi, indiyədək işə düzəlmədiyini, Heydər Əliyevin onu qəbul etmədiyini söyləyib, bir az da «zilə çıxaraq» Azərbaycan xalq təsərrüfatında «dövlətə zidd olan praktika»dan dəm vurdu.

Sonrasını Heydər Əliyevin dilindən danışırıq:

«Yoldaşlar (Sov.İKP MK-dan. – *E.A.*) mənə zəng vurdular, mən də dedim, o, belə bir bəyanat etmiş, ancaq quru bəyanatlardan başqa heç nə təqdim etməmişdir. Mən onu qəbul etməyə razıyam, qoy gəlsin, ancaq bir şərtlə ki, yanıma yazılı sənədlərlə, ərizə, məktub, ya arayışla gəlsin... O gəldi, mən onu qəbul etdim. Məmmədov, ümumi boşboğazlıqdan və açığını deyim, bəzi hədələrdən başqa antidövlət praktikasına aid bircə konkret fakt da gətirmədi.

Dedim – bilirsiniz, yoldaş Məmmədov, sağ ol deyin ki, mən vaxt sərf edib sizi qəbul etdim. İstədiyiniz hər şeyi bildirin və Azərbaycan KP Mərkəzi Komitəsi ən diqqətcil tərzdə baxsın. Lazım bilirsinizsə bütün bunları rəsmi surətdə Sov.İKP MK-ya yazın, qoy Sov.İKP MK buna baxsın və söz-söhbətə son qoysun...»



1978-ci ilin 15 dekabrında, Azərbaycan Ali Sovetinin 9-cu sessiyasının iclasında qarşıdakı il üzrə xalq təsərrüfatı planları və büdcənin təsdiqlənməsi məsələsi müzakirəyə qoyuldu. Müzakirə sona yetəndə hamıya meydan oxumağı qət edən Qamboy Məmmədov birdən yerindən qalxıb söz istədi və bəyan etdi ki, ötən il üzrə həm kənd təsərrüfatı, həm sənaye sahəsində planların yerinə yetirilməsi haqqında məlumatın düzgün olmamasına əmindir. Onun sözləri salona çökmüş ağır sükut içində səsləndi. Q.Məmmədov iddia edirdi ki, «respublikada antidövlət praktikasının geniş miqyasları» haqqında məlumatı var və dəfələrlə respublika rəhbərlərindən, Büro üzvlərindən onu qəbul edib dinləməyi xahiş etmişdir.

Salonda bu bəyanatdan sonra necə reaksiya yarandığını təsəvvür etmək olar. Bir qədər sürən çaşqınlıqdan sonra, təbii ki, natiqin sözünü kəsdilər, ardınca çıxış etməyə yazılan altmış nəfərdən on yeddi deputat kürsüyə qalxaraq Q.Məmmədovun irəli sürdüyü ittihamları qəzəblə təkzib etdilər.

Mən həmin sessiyanın stenoqramını diqqətlə oxudum. Əlbəttə, bugünün baxımından orada baş verənlərə fərqli yanaşmalar ola bilər. Bu gün Milli Məclisdə müxalifət təmsilçiləri iqtidara qarşı vaxtilə respublika eks-prokuroru dediklərindən qat-qat kəskin ittihamlar yağdırırlar. Və dünya qopmur, çaxnaşma, qalmaqal baş vermir, uzaqbaşı spiker bir-iki replikası ilə cızıqdan çıxanların köpünü yatızdırır, vəssalam. Lakin o dövrün gerçəklikləri nəzərə alınmalıdır. O vaxt iclasa sədrlik edən Süleyman Rüstəm bircə replika ilə kifayətlənsəydi, salonda oturan deputatlar onu başa düşməzdilər. Axı, Heydər Əliyevin yekun çıxışında bildirdiyi kimi, Q.Məmmədov əslində bütün respublika üzərinə kölgə salmış, bütün Azərbaycan xalqının halal və gərgin zəhmətini şübhə altına almışdı. Həm də sabiq respublika prokurorunun ittihamı «haqq-hesab çürütmə», şəstinə toxunulmuş bir şəxsin xudpəsənd hərəkəti təsiri bağışlayırdı: yəni siz mənim iddialarımı yerə saldınız, mən də sizin kefinizə soğan doğrayacam! Sessiyada Heydər Əliyev öz opponentinə tamamilə məntiqi bir sual verdi: niyə respublika prokuroru vəzifəsində işləyərkən, 1969-cu ildən 1976-cı iləd ək o, rayon, şəhər, müəssisə, ya vilayət hüdudlarında baş verən ciddi pozuntular, gözdən pərdə asma halları haqqında bir dəfə də olsun yazılı məktub, sənədlə müraciət etməmişdir? Birinci katib eks-prokurora onun əməkdaşları tərəfindən rüşvətxorluğa görə yaxalanmış partiya, təsərrüfat işçilərinin qanunsuz azad edilməsini, Q.Məmmədovun bu və ya digər günahkar məmurun ciddi cəzalandırılmasının əleyhinə çıxmasını və bu səbəbdən çox vaxt alınan

siqnallara prokurorluq tərəfindən deyil, Mərkəzi Komitə əməkdaşları tərəfindən baxılmasını xatırlatmışdı.

Sonralar, özünə bəraət qazandırmağa cəhd edən Q.Məmmədov çoxsaylı şikayətnamələrində yazırdı ki, guya daima yuxarılara, Mərkəzi Komitəyə, Partiya Nəzarəti Komitəsinə, respublika Ali Soveti Rəyasət Heyətinə xəbər vermiş, məruzə məktubları, raportlar göndərmiş (A.Vaksberq öz məqaləsində bu «namələr»in sayını 80-ə çatdırır), «pripiska»ların və saxtalaşdırmaların, yalançı statistikanın miqyaslarına, heç bir real nailiyyətlə əsaslandırılmamış «premiya və mükafatlara» diqqət yönəltdiyini bildirmişdi. Lakin Q.Məmmədovun şikayətlərinin yoxlanma nəticələri üzrə MK birinci katibi Kamran Bağırovun imzasıyla Sov.İKP Mərkəzi Komitəsinə göndərilmiş arayışda fərqli məlumat göstərilir: 1975-ci ildə respublika prokuroru tərəfindən Mərkəzi Komitəyə ünvanlanan on informasiyada hesabatları təhrif etmək yoluyla əmələ yetirilən oğurluq, talançılıq haqqında bir kəlmə də yoxdur. «Pripiska»larla mübarizənin gedişatı haqqında respublika prokurorluğunun Mərkəzi Komitəyə göndərdiyi yeganə məlumatı Qamboy Məmmədov deyil, onun müavini imzalamışdı. Bundan başqa, həmin il, dekabrın 26-da Q.Məmmədov sabiq daxili işlər naziri A.Heydərov və maliyyə naziri B.Baxşəliyevlə birgə Mərkəzi Komitədə «Sosialist əmlakının mənimsənilməsi və talan edilməsinə qarşı mübarizənin gücləndirilməsi üzrə tədbirlər haqqında» MK qərarının hüquq-mühafizə orqanları tərəfindən yerinə yetirilməsi ilə bağlı məruzə etmişdilər. Hesabat səciyyəsi daşıyan həmin məlumatda respublika prokuroru, güman etmək olardı ki, «pripiska»lar və bu cinayətlərə ayrı-ayrı rayon rəhbərlərinin qatıldığı haqqında aldığı siqnalları da hökmən bildirməli idi. Lakin 15 səhifəlik arayışda bu barədə heç nə deyilmir. Halbuki, arayış 1975-ci ilin lap axırlarında, yəni Q.Məmmədovun öz sözünə görə, artıq həmin məlumata malik olduğu zaman Mərkəzi Komitəyə təqdim edilmişdi. Q.Məmmədov isə 1975-ci ilə aid öz hesabatında yalnız Lənkəran və Balakən rayonlarında törədilmiş cinayətləri qeyd edir. Mərkəzi Komitənin təşəbbüsüylə qaldırılan və açılmasına Q.Məmmədovun heç bir dəxli olmayan cinayətlərlə bağlı məhkəmə işlərindən başqa, onun arayış ərizəsində heç bir fakt göstərilmir. Sabiq prokurorun, cləcə də Qorbaçovun Liqaçovla müəyyən məqsədlə «kökləyib» Bakıya göndərdikləri «ədalət keşikçiləri»nin qeyri-səmimiliyini və faktların fəndgirliklə təhrif edilməsini göstərən misallar Kamran Bağırovun imzaladığı arayışda yetərincədir.



Başqa cəhətdən baxanda «Vəli Axundov epoxası adamı»nın Heydər Əliyev güzəştsizliyini, neqativ hallarla sərt mübarizəsini bəyənməməsini anlamaq olardı. Amma həmin adam sıravi «obıvatel» deyil, respublikanın baş prokuroru idi. Ona görə də, əgər Q.Məmmədov «təmiz» qalmaq istəyirdisə, o, vaxtlı-vaxtında, bəri başdan sıranı tərk etmək üçün özündə güc, qətiyyət tapmalıydı. Məsələn, istefaya çıxmasını xahiş edə bilərdi, illah da ki, 1973-cü ildə onun səlahiyyətlərinin konstitusion müddəti sona yetmişdi... Bir sözlə, hər necə baxsan, Q.Məmmədovun davranışına «bərəkallah» demək olmaz.

Bu qalmaqallı əhvalatdan az sonra eks-prokuror partiya sıralarından çıxarıldı*. Bu da sonralar Heydər Əliyevin «ağzıgöyçək» opponentlərinə kommunist Məmmədova «divan» tutulmasını car etməyə bəhanə oldu. Cəza ilə barışmayan Qamboy Məmmədov ömrünün sonrakı on ilini Heydər Əliyevdən şikayət yazmağa həsr etdi. Sov.İKP MK aparatı onun birinci katibin «özbaşınalığı», «haqsızlığı» haqqında 80 səhifəlik «gileynamə»ləri üzərində baş sındırırdı. Ən xoşagəlməz cəhət də həmin yazıların yalnız Heydər Əliyevin deyil, onun ailə üzvlərinə də ünvanlanmış qondarma ittihamlar, iftiralar, dedi-qodularla doldurulması idi.

1985-ci ildə, M.Qorbaçov Heydər Əliyevi kənarlaşdırmaq fikrinə düşəndə Q.Məmmədovun «dosye»si yada salındı və bu məsələ körükləndi. Bu məqsədlə SSRİ Prokurorluğunun beş müstəntiqindən, o cümlədən iki şöbə müdirindən ibarət olan xüsusi «briqada» şikayətnamədə sadalanan faktları yoxlamaq üçün Azərbaycana göndərildi. Həmin əhvalat barəsində kitabın sonrakı hissəsində danışacağıq.

Respublikanın sabiq prokuroru ilə MK birinci katibinin qarşıdurması haqqında söhbəti bitirərək həmin məsələyə şəksiz bələd olan adamların şəhadətlərini gətirmək istəyirəm.

**Respublika Ali Məhkəməsinin sabiq sədri İbrahim İsmayılovla söhbətdən:**

«Qamboy Məmmədovu işindəki nöqsanlarına görə çıxartdılar. Və bu da onun izzəti-nəfsinə toxundu. Bizim hamımızın nöqsanları var. İdeal adam olmur. Qamboy DTK istintaq şöbəsi müdiri, mən isə prokurorun xüsusi işlər üzrə müavini işləyəndə, onun araşdırdığı bütün işlər məndən keçirdi və deməliyəm ki, o yaxşı işləyirdi. O vaxtlar Heydər ilə çox yaxın idilər, ailəvi dostluq edirdilər.

* Azərbaycan KP MK Bürosunun 1979-cu il 18 yanvar tarixli, B-955 saylı qərarı.

Amma baş prokuror vəzifəsində Qamboy səhvlərə yol verməyə başladı. Respublika prokurorluğunun işini ittifaq prokurorluğu yoxlayırdı. Onlar da onun kənarlaşdırılması haqqında qənaətə gəlmişdilər. Heydər Əliyev Qamboy Məmmədovu elə-belə, birdən-ikiyə çıxarmamışdı.

O ki qaldı onun sessiyadakı çıxışına, həmin hal, əlbəttə ki, onun incikliyindən irəli gəlirdi. Sual olunur: əgər sən «pripiska»lardan xəbərdardın, bəs baş prokuror vəzifəsində olanda niyə hərəkət etmirdin? Məgər Qamboy elə bir iş qaldırmışdı ki, Heydər onu bağlatdırsın? Belə şey olmayıb. O iddia edirdi ki, məktublar yazırdı. Amma sən baş prokurorsansa, «zapiska» yazmaq nəyə gərək, cinayət işi aç, istintaq apartdır. Prokuror ola-ola, o, rüşvətxorlara həyanlıq edir, «pripiska»lara əl atan şəxslərə qarşı cinayət işi açmaqdan yayınır, sonra da başlayırdı antidövlət fəaliyyəti haqqında faktlardan danışmağa. Elə buna qarşı mübarizə edəydin də, axı bütöv bir respublikanın prokuroru idin... Heydər səndən yalnız bunu tələb edirdi. İşdən çıxarılanda isə bütün aləmdən küsdü...

1981-ci ildə Heydər Əliyev «pripiska»lar haqqında məlumat aldıqda o, araşdırma aparılmasını tapşırdı və bir çoxları cəzalarını aldı. Artıq Əbdürrəhman Vəzirov dövründə bütün ittifaq respublikalarında cəlb edilən 800 müstəntiq Moskvadan axışıb gəldi. Qorbaçov Qdlyan və İvanovun Özbəkistanda quraşdırdıqları gurultulu iş kimi Azərbaycanda da «iş» qondarmaq istəyirdi. Bir il əlləşdilər, heç nə aşkar edə bilmədilər, bircə cinayət işi də üzə çıxmadı. Çünki Əliyev özü vaxtlı-vaxtında pozuntuların qarşısını alırdı...»

**Fərman Salmanovla söhbətdən:**

«Bir dəfə, Brejnev Bakıya gəldiyi zaman təntənəli yığıncaqda tələ məni prokuror Qamboy Məmmədovla üzləşdirdi. Mən Rəyasət Heyətinin ikinci cərgəsində əyləşmişdim, gördüm onu da mənim yanımda otuzdurdular. Mən nə biləydim ki, kimdir, neçidir? Heydər Əliyev çıxış edir, o isə onun çıxışını astadan şərh eləyir, həm də artıq-əskik danışır. Mən ona dedim:

– Bəsdirin! Yoxsa durub gedəcəm. Mən sizi yox, məruzəçini dinləmək istəyirəm.

– Mən sizinlə görüşmək istərdim.

– Görüşərik haçansa.

Kişi olmalısan, ləyaqətlə getməyi bacarmalısan. O, bacarmadı, insanların xatirəsində böhtançı və demaqoq kimi qaldı.



Sonralar o, Heydər Əliyeviçin əsəblərini uzun müddət sınağa çəkdi, bundan da Liqaçov, Qorbaçov, Yakovlev faydalandılar...»

## Arif Heydərovun qətli

*1978-ci ildə, iyun ayının axırlarında Bakıda görünməmiş, fövqəladə hadisə baş verdi: daxili işlər naziri Arif Nəzər oğlu Heydərov öz kabinetində qətlə yetirildi. Bu faciəvi hadisə Heydər Əliyevi sarsıtmış, qəlbində sağalmaz yara qoymuşdu. Arif Heydərov azsaylı, nadir adamlardan idi ki, birinci katiblə onu uzun illər boyu sədaqətli, səmimi dostluq telləri bağlayırdı.*

Arif Heydərov on yeddi yaşında Moskvaya, Daxili İşlər Xalq Komissarlığının kəşfiyyatçılıq məktəbinə oxumağa getmişdi. 1944-cü ildə, 18 yaşında o, könüllü olaraq cəbhəyə yollanır. Yazıçı Çingiz Abdullayevin söylədiyinə görə, valideynləri nigaran qalmasın deyə, o, sadə bir fənd işlədibmiş: öz adından yazdığı bir qalaq məktub qoyubmuş ki, vaxtaşırı Bakıya göndərsinlər. İki aydan sonra güzarı Moskvaya düşən atası oğlunun döyüşən orduda, 1-ci Ukrayna cəbhəsində olduğundan xəbər tutur... Qələbədən sonra da hələ bir neçə il müharibə dağıntıları içində qalan Almaniya və Polşada sovet zabiti kimi xidmət edir. Sonra Azərbaycan DTK-da çalışır, Türkiyədə uzunmüddətli ezamiyyətdə diplomatik pərdə altında işləyir.

«Arif Heydərovun Türkiyədəki fəaliyyəti ilə bağlı maraqlı epizodlar çoxdur, – Ç.Abdullayev yazır. – Onun Azərbaycan bayrağını sovet bayrağı ilə yanaşı asması... Yaxud cəsarətli davranışı, – kimsə onun yanında kommunistlərin ünvanına təhqiramiz sözlər deyəndə, «mən də kommunistəm» deyə həmin bədxah adamı möhkəm əzişdirmişdi... Halbuki üstündən sükutla da keçə bilərdi... Belə pərakəndə səhnələr öz əqidəsini qorumağı bacaran bir bütöv, mərd şəxsiyyətin simasını cizgiləyir...»[20].

Heydər Əliyevlə onlar Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində eyni kursda oxuduqları vaxtda yaxınlaşmış və dostlaşmışdılar. Bir neçə ildən sonra Heydər Əliyev Arif Heydərovun toyunda tamadalıq edəcək, Azərbaycan KP MK-nın birinci katibi seçilən kimi köhnə dostunun namizədliyini respublika daxili işlər naziri vəzifəsinə təklif edəcək.

«1967-ci ildə Arif Heydərovun atası, məşhur neft mütəxəssisi, tanınmış ictimai xadim Nəzər Heydərov vəfat etdi. O zaman Arif Türkiyədə işləyirdi. Moskva rəhbərliyi ona bir həftəlik Bakıya qa-

yımağa icazə verdi. Müsəlman adətlərinə görə rəhmətə gedəni doğmaları, yaxınları dəfn günündən sonra üçüncü, yeddinci və qırxıncı günündə yad edirlər. Yenidən Türkiyəyə yollanmalı olan Arifin yerinə bu kədərli yükü öz öhdəsinə Heydər Əliyev götürdü.

– Heydər xeyirdə də, şərdə də bizimlə bir yerdədir, – o vaxt Adilə Heydərova yaxın rəfiqəsi olan Zərifəyə belə demişdi»[21].

**Albert Salamovun söylədiklərindən:**

«1969-cu ilin mayında, mən böyük leytenant rütbəsində cavan əməliyyat işçisi olduğum zaman, ilk dəfə xaricə, Türkiyəyə ezam olundum. Mən, SSRİ-nin bütün respublikalarından vətəndaşlar daxil olan turist qrupunun tərkibində yola düşdüm. O zaman, bir qayda olaraq, qrup üzvlərinin təhlükəsizliyinin təmin edilməsi və təbii ki, xaricdə çekist tapşırıqlarının yerinə yetirilməsi üçün turist qruplarının tərkibinə DTK əməkdaşını qatırdılar. Qrupa Azərbaycanın müxtəlif şəhərlərindən də adamlar daxil idi...

...Moskvaya yollanmağa iki gün qalmış rəhbərlik bildirdi ki, mənimlə Heydər Əliyeviç söhbət etmək istəyir. Bazar günü idi. Səhər DTK-ya gəlib əməliyyat işçilərinin növbə çəkdiyi otaqda gözlədim. Telefon səsləndi. Heydər Əliyev idi.

– Salamov gəldi?

– Bəli.

– Qoy mənim evimə gəlsin.

O vaxt indiki «Azərbaycan» prospektində, «Cənub» mehmanxanasının yaxınlığında yaşayırdı.

Qalxdım üçüncü mərtəbəyə, qapı zəngini çaldım. Heydər Əliyev özü qapını açıb məni otağa ötürdü. Əyləşdik.

– Mən indi sənə verilən tapşırıqlardan danışmayacam. Bilirəm ki, yaxşı hazırlaşmısan. Şöbə müdiri mənə məlumat verib. Mənim sənə bir xahişim var. Arif Nəzəroviç Heydərov orada, Ankaradadır. Ona bu məktubu çatdır.

O, zərfə qoyulmuş məktubu, iki «Göygöl» konyakı, iki kiçik banka da qara kürü verdi.

Bilirdim ki, Heydər Əliyevlə Arif Nəzəroviç möhkəm dostdurlar, uzun müddət bir yerdə işləmişlər. Arif Nəzəroviç ziyalı, saleh və təmkinli adam idi, komitə əməkdaşları ona böyük hörmət bəsləyirdilər. Türkiyədə o, SSRİ səfirliyində konsul rütbəsində işləyir, xidməti vəzifələrilə yanaşı, çekist borcunu da yerinə yetirirdi.

Arif Nəzəroviç bizi Ankaranın təyyarə limanında qarşıladı. Qucaqlaşdıq.



– Niyə siz mənim «şifrimi» açırsınız? – dedim.

– Eybi yox... deyərsən ki, sənlə Bakıda bir həyətdə oluruq».

**İbrahim İsmayılov baş vermiş faciənin səbəblərini belə açıqladı:**

«Azərbaycanın rayonlarının birində işləyən bir zabit paytaxta xidmətə keçmək istəyirmiş. O, raport yazır. Uzun zaman cavab almayıb Bakıya gəlir. DİN kadrlar şöbəsində deyiblər ki, guya nazir Arif Nəzərov onun xahişini rədd edib. Zabit də bundan odlanıb qisas almağı qət edir. O, psixi xəstə imiş. Nazirin qəbul otağında əyləşən zabiti tapança ilə vurub öldürüb içəri keçir, dərhal kabinetdə olan iki nəfəri də qətlə yetirir, dördüncü adam masa altında gizlənib canını qurtara bilir...

Heydər Əliyev Heydərovun həlak olmasına yaman acıyırdı, göz yaşlarını gizlətmədən ağlayırdı. Mən bunu öz gözlərimlə görmüşdüm...»

Mərkəzi Komitədə bir müddət hüquq-mühafizə orqanlarına kuratorluq etmiş **Ramiz Məmmədzadə** bu əhvalatın fərqli versiyasını verir:

«...Arif Heydərov özünə müavin seçməli idi. Heydər Əliyeviç məndən daxili işlər nazirinin müavini vəzifəsinə kimi məsləhət bildiyimi soruşdu.

– Mən təzə adamam, – dedim, – işçiləri öyrənməliyəm.

– Bəlkə Kazımovu? Sovet İttifaqı Qəhrəmanıdır, «Ulduz»u müharibədə alıb.

Səlahəddin Kazımov DİN-də islah-əmək müəssisələri idarəsinin rəisi idi.

– Heydər Əliyeviç, bu məsələni incələmək üçün mənə üç gün möhlət verin.

Hər bir partiya işçisinin öz yoxlama metodları olur. Mən şəxsi ünsiyyətə üstünlük verirəm, odur ki, Arifə zəng vurub dedim:

– Sənin idarə rəisinlə koloniyalara baş çəkmək, orada işlərin necə getdiyinə baxmaq istəyirəm.

Ertəsi günü Kazımovla obyektlərə yollandıq. Koloniyaya daxil olanda, kolon rəisi qaydaya uyğun olaraq təzim edir, məlumat verirdi. Amma fikir verdim ki, rəisin otağında Kazımov onun yerində əyləşdi. Düzdü, tez də yadına düşdü ki, ondan səlahiyyətcə üstün olan mən də burdayam. Yerindən sıçrayıb dedi:

– Ramiz Hüseynoviç, buyurun əyləşin burada, siz axı...

– Bu kreslonu tutmağa dəyərmi, onun yiyəsi var, qoy özü də otursun...

Bu cizgi xoşuma gəlmədi. Belə qənaətə gəldim ki, Kazımov vəzifəpərəstliyi xoşlayır, göstəriş, əmr verməyi sevir. Həmin günü onun tabeliyində olanlarla ünsiyyətində daha bir sıra neqativ cəhət sezdim.

Qayıdandan sonra bütün müşahidələrimi «birinci»yə bildirdim.

– Heydər Əliyeviç, məsləhət sizindir, mənim bu adamı dərindən tanımaq imkanım olmasa da, gözüm ondan su içmir... – Və sözümü sezdiklərimlə əsaslandırdım.

Heydər Əliyeviç gülümsündü, həmin gün bir qərara gəlmədi, bir neçə gün ötəndən sonra isə:

– Bizim səninlə başqa namizədimiz yoxdur, – dedi. – Arif isə məhz onu məsləhət görür.

– Arif səhv edir, Heydər Əliyeviç, – dedim. – Amma axır-axırda Kazımovu nazir müavini təyin etdilər. O, daxili qoşunlara və İƏK-ə kuratorluq edirdi. Arif Heydərov da onun güdazına getdi... Axı, o güllələr tək Kazımova çatasıydı...

Həmin zabit Şuşa həbsxanasında xidmət edirdi, Bakıya dəyişilmək istəyirdi, Səlahəddin Kazımov söz versə də, əməl etməmişdi. Aldadılmış zabit də Kazımovla haqq-hesabı çürütməyə gəlibmiş...

Kazımov öz kabinetində deyilmiş. Qisasçı nazir müavinini soruşanda, gələnin DİN əməkdaşı olduğunu görüb cavab verirlər ki, nazirin yanındadır. Onda zabit Arif Heydərovun kabinetinə cumub ikisini də öldürür. Orada şöbə müdiri İbrahimov da varmış, o, salamat qala bilir».

Sabir Hüseynovun bu kitab üçün xüsusi yazdığı xatirələrində həmin faciəvi epizod ən müfəssəl və yəqin ki, ən dürüst şəkildə açıqlanmışdır. Əvvəla, Sabir Hüseynov o zaman daxili işlər nazirinin müavini idi; ikincisi – hadisə yerinə birinci olaraq özünü yetirmiş və üçüncüsü, araşdırma aparılmasında bilavasitə iştirak etmişdir. Onun hekayətini dinləyək:

«Heydər Əliyevin məsləhətilə Azərbaycan daxili işlər naziri vəzifəsinə xalis ziyalı və intellektual, əvvəllər xaricdə məsul diplomatik xidmətlə məşğul olmuş Arif Nəzər oğlu Heydərovu təyin etdilər. Heydər Əliyevin etirafına görə, həmin idarə Heydərovun ürəyincə deyilmiş. «Bu, o qədər də mənlik iş deyil», – Heydər Əliyev onun sözlərini xatırlayırdı.



– Axı, Arif Nəzəroviç, bizə burada məhz sizin kimisi lazımdır. Ancaq siz milis sıralarına lazımi əxlaq, mənəviyyat və vətəndaşlarla mədəni rəftar aşılamağa qadirsiniz...

Heydər Əliyev xatırladıqca gözləri dolurdu. Arif Nəzər oğlunun dəfn mərasimində:

– Sabir, necə oldu ki, biz onu qoruya bilmədik, – onun kövrəlmiş səsini eşitdim.

O da, mən də özümüzü günahkar hiss edirdik. O, Arifin təyinatında israrlı olduğuna görə, mən isə nazir müavini vəzifəsinə keçərkən Heydər Əliyevin inamlı xeyir-duasını yada salıb göynəyirdim:

– Səni ona yardımçı kimi təhkim edirəm. O, yumşaq təbiətli, ziyalı adamdır, sizin idarənizin məktəbini keçməmişdir... Fikir verdinmi – səni bu vəzifəyə heç bir «obyektivka», xasiyyətnamə olmadan qoyuram. Səni tanıdığım üçün belə edirəm. Odur ki, ona da, mənə də kömək et.

İndi isə Arif Nəzər oğlu qarşımızda artilleriya lafeti üzərində hərəkətsiz qalmışdı.

Ağlasığmaz hadisə baş vermişdi. O, qətlə yetirilmişdi. Nazirliyin binasında, öz kabinetində. Necə deyirlər, döyüş mövqeyində. Cinayət yerinə ilk özünü yetirən mən oldum.

Gördüyüm səhnə sarsıtdı məni. Qəbul otağında, güllə yarası alaraq stuldan yıxılan nazir köməkçisi, podpolkovnik Səfixanov döşəməyə sərilmişdi. Kabinetdə, qapı ağzında qana qəltan olmuş nazir müavini... Səlahəddin Kazımovun cəsədi. Pəncərə önündə gicgahından güllələnmiş tanımadığım bir adam hələ də can verirdi. Əlində də «Makarov» tapançası. Göründüyü kimi, o, özü-özünü vurmuşdu.

Kresloda donuxmuş Arif Nəzər oğlunun alnındakı yaradan qan sızırdı...

Ardımca qaçıb içəriyə girən əməkdaşlara üz tutdum:

– Heç kəsə toxunmayın! Çıxın bayıra! Həkimləri çağırın!

Birbaşa rabitə dəstəyini qaldırıb Heydər Əliyevə telefon açdım.

– Necə yəni?! – Qışqırdı. – Arifə nə olub?

– Kresloda çöküb... Başı çiyni üstə düşüb...

– Kimdi qatil?

– Araşdırırıq, Heydər Əliyeviç. Hər şey indicə baş verib...

Ardınca hadisə haqqında DTK sədri Vitali Krasilnikova və respublika prokuroru Abbas Zamanova xəbər verdim. Təcili yardım maşını ölümcül yaralanan naziri respublikada ən yaxşı sayılan xəstəxanaya apardı.

Heydər Əliyev xəstəxanaya gəlincə biz qatilin kimliyini öyrənmişdik. O, Şuşa həbsxanasının nəzarətçisi, bir il öncə SSRİ DİN-ə çoxsaylı raportlarından sonra Rusiya Federasiyasından respublikamıza keçirilmiş Muradov idi. Rusiyada texnikumu bitirib milis orqanlarına işə düzəlmiş, sahə müfəttişi vəzifəsində çalışmışdır. Həmkarları tərəfindən söylənən rəy ürəkaçan deyildi. Arif Heydərov onun müraciətlərindən sonra xahişinə əməl etməyi və münasib iş yeri tapmağı tapşırır. SSRİ Daxili İşlər Nazirliyinə göndərilən məktubda Muradovu Azərbaycana, mənzillə təmin etmədən Şuşa həbsxanasına nəzarətçi vəzifəsinə götürməyə nazirliyimizin razılığı bildirilir.

Azərbaycana gələndən üç ay sonra yenə nazirliyimizə dalbadal məktub yağdırmağa başlayıb, valideynləri yaşadığı Qasım İsmayılov rayonunun daxili işlər şöbəsinə, sosialist əmlakının talanmasına və alverə qarşı mübarizə şöbəsinə müfəttiş təyin olunmasını tələb edib. Lakin onun xidməti göstəricilərinə, həm də rayon milisində ştatların tutulduğuna görə bu mümkün olmamışdı.

Raportları ilə bağlı onunla söhbətlər aparılmış, kadrlar idarəsində də, nazir müavini özü də onu başa salmağa çalışsalar da, gətirilən dəlillər onu qane etməmişdir, o, yenə yazmağında imiş, kadrlar idarəsini, DİN rəhbərliyini açıq-saçıq «umacaqlıq»da suçlandırırdı.

Növbəti məktublardan birini də yazıb Bakıya yollanmış, nazirliyə gəlmişdi. Bizim binaya daxil olmaq, indikindən fərqli olaraq çətin deyildi. Arif Heydərov elə qayda qurmuşdu ki, hər hansı milis nəfəri hər hansı rəisin qəbuluna gələ bilsin.

Hadisənin ardıcıl mənzərəsi belə görünür: Muradov üçüncü mərtəbəyə, Kazımovun yanına qalxır. Orada ona deyirlər ki, general nazirin yanındadır. O, ikinci mərtəbəyə enib qəbul otağına daxil olur. Səfixanov ona bildirir ki, nazir məşğuldur, qonşu otağa keçib öz xahişini göstərməklə ərizə yazsın. Muradov qonşu otağa keçib bir qədər hərlənib-fırlanıb əli tapançalı çıxaraq Səfixanova yaxından atəş açır, nazirin otağına cumur. Orada üç nəfər varmış. Heydərov və Kazımovdan başqa kabinetdə olan nəqliyyat milisinin rəisi polkovnik İbrahimov güllə səsini eşidib qəbul otağına atılır. Kabinet ikitaylı qapılı olduğundan İbrahimov qaçaraq çıxanda (özünün istintaq gedişində söylədiyinə görə) açdığı qapının tayı içəriyə soxulan qatilin nəzərindən onu yayındırıb. O, özü də guya qatili görə bilməyib, – fikri-zikri qanına qəltan olmuş Səfixanovda imiş; polkovnik İbrahimov qəbul otağından başıhövllü çıxaraq haray salıb.

...Beləcə, həbsxana nəzarətçisinin gülləsinə tuş gələn Arif Heydərov öz nəcib niyyətinin, demokratikliyinin qurbanı oldu...



Bakıya Heydər Əliyevin xahişilə dünya şöhrətli neyrocərrah, professor Konovalov gəldi. Əfsus ki, generalı xilas etmək mümkün olmadı. Güllə yarası ümid yeri qoymamışdı...

90-cı illərdə hakimiyyətə gələn Xalq Cəbhəsindən olan naşıların insafsızcasına təhrif etdiyi faciənin tarixçəsi belədir. Cəbhəçilər iddia edirdilər ki, baxın, hələ o vaxtlar kommunist rejimi ilə mübarizə edən «tənha qəhrəmanlar» varmış. Onlar qatil-nəzarətçinin adını məktəbə və onun valideynləri işlədiyi sovxoza qoyubmuşlar.

Heydər Əliyev bu faktı «bazar əfəllərinin murdarçılığı» adlandırmışdır. Və müstəqil Azərbaycan Milli Məclisinin sədri seçiləndən sonra onun ilk addımlarından biri başıpozuqluq dövrünün bu təhqiramiz mirasının ləğv edilməsi olmuşdur».

1978-ci ilin 1 iyununda Azərbaycan KP MK üzvü, respublika Ali Sovetinin deputatı, daxili işlər naziri, daxili xidmət general-leytenantı Arif Nəzər oğlu Heydərovun dəfn mərasimi keçirildi. Onu Dzerjinski adına klubdan (indiki Şəhriyar sarayı) son mənzilə yola saldılar; yaşlı adamlar xatırlayır ki, belə insan axınını yalnız böyük Üzeyir Hacıbəyovun dəfn günündə görmüşlər. Mərasimdə SSRİ daxili işlər naziri Nikolay Şşolokov, onun müavini Yuri Çurbanov iştirak etmişdilər. Heydər Əliyev öz dostunun cənazəsi qoyulan tabutun ağırlığını bəlkə də başqalarından daha çox duyurdu... Fəxri Xiyabanda mitinq keçirildi.

Mitinqdə vida sözü söyləyən Heydər Əliyevin səsindən keçirdiyi acı-ağrı, sarsıntı duyulurdu. «Bizim kədərlərimizin həddi yoxdur...» O, Arif Heydərovun simasında «əziz yoldaşını, döyüş dostunu və sədaqətli silahdaşını» itirmişdi... Görənlər xatırlayırlar ki, o, kövrəldiyindən aramla danışırdı.

Dostunun faciəvi ölümündən sonra Heydər Əliyev onun ailəsinə, iki yeniyetmə balasını böyüdən Adilə xanıma öz qayğısını əsirgəmədi. V.Andriyanov və H.Mirələmov «Heydər Əliyev» kitabında yazırlar: «MK birinci katibi onlara ata əvəzi oldu. Murad da, Maqsud da ali təhsil aldılar. Böyük oğul, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib diplomat oldu, kiçiyi DİN-də işləmiş, hazırda Dövlət Gömrük Komitəsində çalışır. Anaları təhsil və elm işçiləri həmkarlar İttifaqının sədri seçilmişdir. Bakı küçələrinin birinə, Daxili İşlər Nazirliyinin ali kurslarına Arif Heydərovun adı verilmişdir. Xəzər dənizində «General Heydərov» tankeri dolanır. Yeri gəlmişkən, Heydərov küçəsi Heydər Əliyev prospekti ilə paralel gedir. Onlar ölümdən sonra da yan-yana qalmışlar»[22].

# Brilyantlar

70-ci illərin əvvəllərində Azərbaycanda valyuta fırıldaqları ilə, qızıl, cəvahirat alveri məqsədini güdən qaçaqmalçılıqla məşğul olan beynəlxalq cinayətkar dəstə ifşa olunmuşdu. Dəstəyə ermənilər də, o cümlədən onların xarici icmalardan olan soydaşları da qatılmışdılar. Qaçaqmalçı «kələfi»nin ucu gizli milyonçu-«sexovik» Qurgen Markaryanla bağlı idi.

Bu işi araşdıran köhnə tanışımız DTK polkovniki **Əkrəm Səlimzadə** olmuşdur. Onun koloritli hekayətini aşağıda veririk:

«SSRİ Ali Sovetinin 1961-ci il tarixli fərmanına uyğun olaraq, valyuta əməliyyatları apararkən xarici vətəndaşlarla əlaqədə olan, onların vasitəsilə valyuta alqı-satqısına qatılan şəxslərə aid cinayət işləri DTK orqanları tərəfindən araşdırılırdı. Belə işlərdən biri mənə həvalə edilmişdi.

Yadımdadır, Heydər Əliyeviç məni DTK sədr müavini Abbas Zamanovla MK-ya dəvət etdi. Biz ona cinayət işi gedişatında müsadirə edilmiş qiymətli əşyaları göstərməyə gətirmişdik. Mən qəbul otağında qaldım. Zamanov kabinetə girdi. Üç dəqiqə keçər-keçməz məni də birinci katibin yanına çağırdılar.

– Hə, Əkrəm, danış görək bu cəvahiratdan.

Orada üç nadir qızıl brelok vardı, Heydər Əliyeviç ilk növbədə onlara diqqət yetirmişdi.

– İndiyədək belələrini görməmişdim. Hardandı bu möcüzəvi breloklar?

Brelokların üzərində Avstriya imperatoru Frans-İosifin əksi həkk olunmuş qızıl medallar döymələnmişdi. Kolleksiyada üç, dörd karat ölçüsündə brilyant qaşlı bahalı üzüklər də vardı. Mənim brilyantlar barədə az-çox biliyim vardı, ətraflı məlumat verdim. Heydər Əliyeviç qiymətli əşyaları nəzərdən keçirib soruşdu ki, bütün bunların qiyməti nə qədərdir. Mən dövlət qiymətlərini də, qara bazardakı qiymətləri də dedim.

Söhbət əsnasında Heydər Əliyev indi nə ilə məşğul olduğumuzla maraqlandı, mən də araşdırma mərhələsində olan qaçaqmalçı dəstəsinin cinayət işindən danışdım. Heydər Əliyeviç bu işlə çox ilgiləndi və bizə faydalı tövsiyə və məsləhətlər verdi.

...Bizdə məlumat var idi ki, Dikermaxer soyadlı bir bakılı böyük miqyasda qızıl, cəvahirat qaçaqmalçılığı ilə məşğuldur. Dikermaxeri yaxalamaq məqsədilə biz təyyarə ilə polkovnik Bantserevlə Odessaya yollandıq. Oraya Fransadan «Ausonio» teploxodu gəlməli idi və



səmişinlərin arasında olan erməni qadın Mari-Elizabet Yerevanyan-Keropyan qaçaqmal matahlarını almalı idi. Əri onu təkbaşına çox risqli səfərə yollamışdı. Həm də bu qadın hələ bir ayı da tamam olmamış körpəsini evdə qoyub yola düşmüşdü.

Keropyan əvvəlcədən Bakıya şifrli teleqramla Odessa limanına «Ausonio» gəmisində filan gündə gələcəyini xəbər vermişdi. Yakov Dikermaxer Odessaya uçmuş, ardınca da – biz. Yakov Keropyana bir kiloqram iki yüz qram sənaye platini (bahalı metal) və iri kupyurlarla 45 min rubl pul ötürür. O vaxta görə bu əməlli-başlı varidat idi. Dikermaxeri biz dərhal yaxalayıb DTK-ya apardıq, qadın isə ciddi nəzarət altına alındı. Biz onu gəmiyə mindiyi məqamda haqladıq, – gəmi isə artıq xarici dövlətin məkanı sayılırdı. Öz ərazimizdə ona dəymədik, çünki bu təqdirdə qaçaqmalçılıq faktı – yəni qiymətli əşyaların xaricə qanunsuz daşınması sübuta yetirilə bilməzdi.

Baqaj yoxlandıqda platin də, 45 min rubl da üzə çıxdı. Həmin qadını dərhal maşına otuzdurub DTK-ya apardıq.

Mən Elizabet Keropyanı sorğu-suala çəkdim:

– Bu qiymətli əşyalar sizdə hardandır?

Cavab verdi ki, Dikermaxerdən alıb.

Mən ona 81-ci maddənin 2-ci hissəsini göstərdim («Xüsusən böyük ölçülərdə valyuta dəyərlərinin xaricə daşınması») və bildirdim ki, bu cinayətə görə ona uzunmüddətli həbs cəzası verilə bilər. Evində qalan körpəsini də xatırlatdım. Odur ki, yeganə yol hər şeyi olduğu kimi söyləməkdir.

Nəticədə o, Dikermaxerin paxırını «təpədən-dırnağadək» açdı. O da qadının göstərdiklərini qismən təsdiqlədi.

Onları Bakıya gətirdilər, dalbadal həbslər başlandı.

İstintaq gedişində Elizabet Keropyan bildirdi ki, hazırda əri və üç uşağı ilə Marseldə yaşayırlar. Əvvəllər Bakıda yaşamış, sonra Martiros Keropyana ərə getmişdir. Əri alverlə məşğul olur, qızıl məmulat, brilyant, xarici valyuta alıb-satırdı. SSRİ-dən köçəndən sonra da köhnə əlaqələrini saxlayırmışlar. O cümlədən Martirosun vaxtilə birgə işlədiyi Dikermaxerlə. 1970-ci ilin oktyabr ayında Fransaya daimi yaşamağa köçmək ərəfəsində Keropyan Dikermaxerə gələcək əməliyyatlar üçün 1200 qram platin və 51 min rubl əmanət tapşırmışdır.

Keropyan vasitəsilə Dikermaxer onun erməni qohumları, Livanda yaşayan qaçaqmalçılar Aleksandryan və Atamyanla daimi əlaqə yaratmış və həmin kanallarla Bakıya 2-3 metr uzunluğunda qalın qızıl zəncirlər şəklində qızıl ötürülməyə başlamışdır. «Mal»ın haqqı sovet

pulları və sənaye platini ilə ödənirmiş. Qızıl zəncirlərin müştərisi isə Arç («Ayı») ayamalı bir erməni imiş. Elizabet onu hələ Bakıda yaşayanda bircə dəfə görübmüş.

Biz öz kanallarımızla həmin Arçı axtarmağa başladıq. Məlum oldu ki, onun əsl adı Markaryan Qurgen Avakoviçdir, Sumqayıt trikotaj fabrikinin direktoru, gizli multimilyonçudur...

Onun tutulması qərara alındı. Ona qarşı birbaşa sübutlar vardı, Elizabet Keropyan da onu fotoşəkillərdən tanımışdı. Bir neçə əməkdaşlarla Sumqayıta yollandıq. Rayon şöbəsinə gedib oradan Markaryana, fabrikə zəng vurduq. Dəstəyi özü götürdü.

– Salam, – dedim, – siz tibbi xalatların hazırlanmasına sifariş qəbul edə bilərsinizmi? Bizə çox böyük sayda lazımdır, təxminən minə qədər.

– Buyurun, mən işdəyəm, sizi gözləyəcəm.

Yanına getdik. Mən mənzilinin və xidməti binasının yoxlanmasına, həmçinin onun həbs edilməsinə aid qərarı təqdim etdim.

Şahidləri – fabrikdə işləyən rus qızlardan – dəvət etdik. Onların birindən soruşdum:

– Maaşınız nə qədərdir?

– Qırx beş rubl.

– Buyurun baxın, direktorunuzun cibişdanında xırda-xuruş xərclər üçün 1800 rubl...

– Niyə məni işçilərimin qarşısında biabır edirsiniz? – Markaryan şeşələndi.

Əlqərəz, yoxlama apardıq, həmin «portmanat»dan savayı bir şey tapılmadı. Fabriki baş mühasibin idarəçiliyinə keçirtdik, Markaryanı isə DTK-ya gətirdik. Mənim kabinetimə yollanarkən dəhlizdə o, mənə üz tutdu:

– Yoldaş Səlimzadə, olar sizi bircə dəqiqə?

– Eşidirəm sizi.

– Mən ömrünüz boyu sizi dolandıraram, təki məni buraxaydınız.

Məni od götürdü.

– Mən fahişə deyiləm ki, sən məni dolandırasan!

Bu vaxt onun evində yoxlama aparılırdı. Bu işlə 2-ci şöbənin əməliyyatçısı Nikita Timofeyeviç Dubrovin məşğul olurdu. Heydər Əliyeviç əməliyyatdan sonra ona məlumat verməyimi tapşırmışdı. O, bu işlə çox maraqlanır və daima əlini «nəbzin» üstə saxlayırdı. Arçın evində yoxlanış zamanı brilyantlar, zərgərlik məmulatı, borcluların siyahısı və s. tapıldı. Amma əsas dəyərli şeylərə hələ əl çatmamışdı.



Dinləmə zamanı Markaryan bir ucdan zarıyırdı:

– Yoldaş Səlimzadə, məndə boğaz xərçəngi var, məni bada verməyin, dama basmayın...

– Sən elə cinayətlər törətmisən ki, Arç, onlara cavab verməli olacaqsan. Bilirsənmi, nə qədər sovet pulu xarice axıb gedib?

– Ara, nə biləydim. Mənə gətirirdilər, mən də alırdım.

– Sənin evində yoxlama gedir. Düzünü de: cəvahiratı harada saxlayırsan?

– Evdə.

– Konkret olaraq – harda? Nəzərə al, Arç, deyirsən «evdə», mən də eləcə yazacam, bu isə sənin səmimi olmadığına dəlalət edəcək, cəza da daha ciddi olacaq. «Sənin» maddən lap güllələnməyədək cəza nəzərdə tutur.

– Şkafda... mətbəxdədi... Niyə mənimlə oynayırsınız? Məgər mən başa düşmürəm?

Mən tələsmədən göstərdiklərini yazıram. Daxili telefonla başqa müstəntiqi çağırıb, özüm qonşu kabinetə keçərək Dubrovinə zəng çalıram:

– Nikita! Mətbəxdəki şkafa diqqət yetir.

Yarım saatdan sonra Nikita zəng vurur:

– Əkrəm, burda bir saxlanc var ki, gəl görəsən! Yüzlərlə üzükmüzük...

Mətbəx dolabının üst qatında içi oyulmuş rəf varmış, oyuqda da 220 üzük! Xülasə, onun evində brilyant, almaz, nişan üzükləri, bahalı xarici avadanlıq, xəz kürklər aşkar olundu. Yoxlama iki gün davam etdi.

Yoxlama protokolunu gətirəndən sonra mən göstəriş verdim ki, siyahıda adları çəkilən adamlar müəyyənləşdirilsin. Onları bir-bir dinləməyə gətirdilər.

– Sən Qurgenə neçə borclusan?

– Heç neçə.

– Sən ona on min rubl borclusan. Bir saatdan sonra pullar burda olmalıdır.

– Siz hardan bilirsiniz?

– Qurgen «qonağımız»dır.

Böyük məbləğdə pul müsadirə olundu.

Sonra Markaryanın qardaşı yaşadığı Yerevana uçduq. Ondan da nə qədər cəvahirat alındı. Markaryanın hər iki qızı başdan-ayağa daş-qaşla bəzənmişdilər. Pulları aşıb-daşırdı, bilmirdilər haraya yığsınlar. Odur ki, Markaryan onları qızıla çevirirdi.

– Bu qızıllar hardandır! – soruşuram.

– Ara, Livandandı da, ermənilər gətirirdilər. Qızılı Nizami küçəsində kilo-kilo çəkdirirdim, zərgər dükanında bir tanışım var, Yunus Ağaqulu oğlu...

Səkkiz zərgər həbs edildi, böyük sayda qiymətli əşya müsadirə olundu. Tutulanlar içində «Zümrüd» mağazasının qızıl sexi müdiri də vardı. Onlar hamısı əlbir idilər və hər şeyi boyunlarına aldılar.

Qaçaqmalçılarla hesablaşmaq üçün Arç «solaxay» maldan istehsalat təşkil etmiş, fəhlələrlə nağd pulla hesablaşırmış. Dövlət müəssisəsi içində şəxsi sahibkarlıqdan «yağlı» gəlir çıxarırmış. Onun şəxsi işi yoxlandıqda, məlum olmuşdu ki, belə adamı maddi istehsal sahəsində rəhbər vəzifəsinə heç yaxın buraxmaq olmazmış. Hələ Böyük Vətən müharibəsi illərində, sovet adamları cəbhədə qanından, canından keçdiyi zaman Qurgen arxada gördüyü əlüyrü işlərinə görə 5 il həbs cəzasına məhkum edilibmiş.

Biz Mərkəzi Komitəyə, Heydər Əliyevə məlumat verdik ki, Livan qaçaqmalçıları ilə əlaqədə olan Qurgen Markaryan həbs edilmişdir. Bundan başqa, bizdə məlumat vardı ki, onlar Bakıdan bu yaxınlarda yola düşüblər və güman ki, hələ SSRİ ərazisində ola bilərlər.

Brestə zəng vurduq, həmin livanlı erməni qaçaqmalçılarının kimliyini, əlamətlərini bildirib hansısa siqnalların olub-olmamasını yoxlamağı xahiş etdik. Brestdən cavab gəldi ki, Aleksandryan və Atamyan getdiyi «Moskva-Paris» qatarında, onların vaqonunun tualetində tapılan gizli saxlancda az qala 50 min rubl aşkarlanıb. Livanlılar dindirilib, lakin pulların onlara məxsus olmasını inkar ediblər. Pullar «yiyəsiz» çıxdığına görə müsadirə edilmiş, ermənilər də buraxmağa məcbur olmuşlar, onlar sərhədi maneəsiz keçmişlər. Əlbəttə, heyf ki, «zəncir» qırılmışdı. Biz Brest şəhərindəki həmkarlarımızdan müsadirə edilmiş pulları əşyayi-dəlil kimi bizə göndərməyi xahiş etdik. İstintaq sona yetəndən sonra Heydər Əliyev müsadirə edilmiş qiymətli şeyləri sərgiləməyi təklif etdi. Baxış DTK-da, Qamboy Məmmədovun keçmiş kabinetində keçirildi. Gen-bol işıqlı otaqda masaları qara məxmərlə örtərək üzərinə brilyantları səpələdilər. Orada bir üzük vardı, brilyant qaşı 11 karat idi; qiymətini 320 min rubl ölçüsündə dəyərləndirirdilər. Sovet pulu ilə! Ən balaca daş-qaş 1 karat çəkisində idi. Üst-üstə bir neçə yüz karatlıq brilyant, çoxsaylı çar qızıl onluqları, qızıl ingilis pulları («funt-sterlinq»), 50 kiloqram, bəlkə də daha artıq müxtəlif metal pullar müsadirə edilmişdi.



O zaman MK ikinci katibi vəzifəsində işləyən Yuri Puqaçov ənliq əşyalar həvəskarı idi. O, komission dükanlara öz adamlarını yollayıb qədim şeyləri aldırırdı. Yadımdadır, Heydər Əliyev, Puqaçov, MK şöbə müdirlərindən bir neçəsi, baş prokuror, daxili işlər naziri gəlmişdilər. DTK-dan Krasilnikov, Bileçenko, mən, müstəntiq Saşa Arutyunov və Arkadi Nəzərli iştirak edirdi.

Mən kabineti tərk etdim, – bu qədər rəhbər işçilərin yanında qalmağı özümə rəva bilmədim.

Birdən Heydər Əliyev məni çağırdı:

– Əkrəm, bura gəl! Gəl, gəl, danış, axı sən bu məsələlər üzrə bizdə mütəxəssissən.

Bir üzük götürüb soruşdu:

– Bunun qiyməti neçədir?

– Mütəxəssis ekspertlər 26 min rubl məbləğində dəyərləndiriblər.

– Bu 26 mindirmi?

– Bəli. Bu üzük isə, Heydər Əliyeviç, 320 min.

Və həmin üzük əldən-ələ keçdi. Puqaçovun əlləri lap əsirdi. Bəs nə?! 11 karatlıq «daş»ı var, par-par parıldayır! Hamı tamaşa edəndən sonra Heydər Əliyeviç dedi:

– Görürsünüzmü, yoldaş rəhbərlər, bizim burnumuzun altında sex istehsalı sahəsində çalışan ayrı-ayrı şəxslər nə ilə məşğuldurlar? Dövlət malını talan edib, ölü kapitala çevirirlər. Sağ olsunlar DTK əməkdaşları ki, bu kanalı boğazlaya bilmişlər! Afərin!

Heydər Əliyev çox razı qalmışdı. Sərgiyə gəlməkdən də həzz almışdı, ən başlıcası isə dövlətə bu qədər sərvətin qaytarılmasına sevinirdi.

İstintaq üç ay davam etdi. Elizabet Keropyanın əri Parisdə SSRİ səfirinə müraciət edib arvadının azad edilməsinə yardım göstərməyi xahiş etmişdi. Bildirmişdi, günahlarını boynuna alırlar; südəmər körpələri ilə üç uşağının Fransada anasız qaldığını nəzərə alaraq əfv edilməsini arzulayırdı. Moskvadan da Keropyanla söhbət etmək üçün fransız səfiri təşrif buyurmuşdu.

Biz hər şeyi rəhbərliyə çatdırdıq. Heydər Əliyev məhkəmə orqanlarından mərhəmət göstərməyi xahiş etdi; hakim elə məhkəmə iclası gedən salonda Elizabet Keropyanı, üç uşaq anası olduğunu, ilk gündən istintaqa cinayətin açılmasına fəal kömək etdiyini nəzərə alaraq buraxdırdı. Onu təyyarə ilə Moskvaya, oradan da xaricə yola saldılar.

Qalanlarını isə, təbii ki, sovet qanunlarına uyğun olaraq cəzalandırdılar.

Markaryanla Dikermaxerə, hərəsinə 12 il iş verdilər. Zərgərlər dörd, beş il həbs cəzasına məhkum edildilər.

Məhkəmə salonunda çoxlu erməni, Markaryanın qohumları oturmuşdular. Onlar Markaryana elə bir fərəhlə, iftixarla baxırdılar ki!

– Görün ey, Arç necə adamdı, üç saatdı çıxış eləyir ki!

Doğrudan da, Qurgen məhkəmədə bişmiş vəkil kimi dil tökürdü. Həm də dönə-dönə məndən şikayətlənirdi ki, guya ona gün verib, işıq verməmişəm, izləmişəm, yanına adam «sırımışam». Artist idi!»

## Nəzərovun işi

Heydər Əliyev DİN rəhbərliyindən hər gün Mərkəzi Komitəyə baş vermiş hadisələrin icmalının təqdim olunmasını tələb edirdi. Bir sıra ən gurultulu cinayət işlərini şəxsi nəzarəti altına götürürdü. Məsələn, 70-ci illərin sonlarında iki rayon milis şöbə rəisləri müavinlərinin qətlə yetirilməsilə bağlı işləri.

...Meşədə Mirbəşir rayonunun milis rəisi müavininin cəsədi tapılır. Qatil onun kəlləsini ağac parçasıyla yarmış, bədənini tanınmaz şəklə salmışdı. Kriminalçı izlərə əsaslanaraq caninin tək olduğunu müəyyənləşdirir. Milis zabiti arxadan vurulmuşdu. Əlbəyaxa çarpışmadan əsəl-əlamət yox idi, ona görə də müstəntiq qurbanın qatilə inam, etibar bəslədiyini fərz edir. Vurulan adamın özünə gəlib hərəkət edə biləcəyindən ehtiyatlanan cani onun dizaltı vətərlərini bıçaqla kəsmiş, sonra da xidməti tapançasını ələ keçirib aradan çıxmışdı.

Heydər Əliyev araşdırmanı daxili işlər naziri vəzifəsini icra edən Sabir Hüseynova tapşırıb istintaq gedişatı haqqında müntəzəm məlumat verməyi xahiş edir.

Qatilin axtarışları düyünə düşdü. Danılmaz alibi olduğundan şübhə doğuran bir adam da qalmadı. Milis rəisi isə iddia edirdi ki, bu kənardan gəlmə adamın əməlidir.

İstintaq hələ davam etdiyi vaxt Ağdamdan daha bir şaşırdıcı bəd xəbər gəldi: meşəlikdə məktəbli uşaqlar milis geyimli bir kişi meyidini görüblər. Məlum olub ki, rayon milis rəisinin müavinidir. Cinayət Mirbəşirdə törədilənin tam eyni idi – yarılmış kəllə, didim-didim edilmiş cəsəd, kəsilmiş dizaltı vətərlər... Tapançası da qoburun yox olmuşdu...

«Heydər Əliyev bu dəfə məni yanına çağırdı, – Sabir müəllim söyləyir.



– Bilirsənmi, sizin sayənizdə mən indi arxayın işləyib dincələ bilmirəm.

Özümü itirdim.

– Nə olub axı, Heydər Əliyeviç?

– Həmin bu əclafın, əlində – o, kriminal arayışını qarşımda yelədi, – iki tapança var. Sən heç fikirləşmisən ki, onlar onun nəyinə gərəkdi?

– Baş sındırıram...

– Sındırma... Mən burada mümkün olan, dəhşətli bir bəd niyyəti sezirəm... Keçib daha, sənə deyim. Ancaq bil ki, eşitdiklərin mənim kabinetimdən o yana yayılmamalıdı... Leonid İliç Brejnevin gəlişi nəzərdə tutulub. Pambıq yığımından dərhal sonra. Fikrimi tutursan?

– Bəs necə!

– Ən qısa müddətdə iş açılmalıdır! O yaramaz tapılmalıdır! İstintaq gedişi haqqında hər gün məruzə olunmalıdır!

Bakı, Mirbəşir, Ağdam, Bərdə, Ağcabədi, Yevlax boyu bütün agentura şəbəkəsi caninin axtarışına qatılmışdı. Heç bir nəticə alınmırdı. Pambıq yığımı da sona çatmaqdadır. Heydər Əliyev dövlət tapşırıqlarının vaxtından əvvəl yerinə yetirilməsini bildirən rayonları gəzib dolanır. Mən nazir vəzifəsini icra edən şəxs kimi, onu daima müşayiət edənlərin arasında idim. Hər gün də onun qaşqabaqlı nigaran baxışları ilə rastlaşmalı olurdum. Başımı yelləyirdim:

– Təzə bir xəbər yoxdur.

– Tap! Vaxt heç qalmayıb. Allah göstərməsin...

Mən də dönə-dönə, daha da sərt tərzdə öz axtarışçılarıma təpinir, gah hədələyir, gah da qızıl dağlar vəd edirdim... Nəhayət, izə düşdük. Mirbəşir rayonu kolxozçularından birinin bizim məlumatçımıza dediyinə görə, milis rəisi müavinini ancaq bircə adam öldürə bilər – onun öz dostu Hüseyn Nəzərov. «Ondan nə desən gözləmək olar, – kəndli deyirmiş. – Onunçün heç bir müqəddəs şey yoxdur».

Biz əvvəl inanmadıq. Bərayi-ehtiyat soraqlaşdırma apardıq. Heç yerdə işləmir... Bir neçə dəfə milis şöbəsinə gətizdirilib. Amma ona qarşı cinayət işi qaldırılmayıb. Hər dəfə rəhmətlik dostu Nəzərovun dadına çatarmış. Cəzasızlığından daha da azğınlaşıb günbəgün qalmaqal törədirmiş... Onun evinə milis «naryadı» göndərilsə də, evdə tapmamışdılar. Qonşu arvad dilindən qaçırdıb ki, «yəqin hansısa xata çıxarıb gizlənir. Az qala ərimi də öldürəcəkdi. Üstünə «naqan»la cumurdu...»

«Onda naqan nə gəzir?» – naryad başçısı soruşur. «Özündən soruşun». – «Görünüşü necədir?» – «Kimin? Hüseyninmi?» – «Yox, naqanın». – «Elə bax o sənin tapançan kimi».

İndi fikrimiz-zikrimiz Nəzərov idi. Bir sıra tutarlı sualımız vardı ona. Axtarsaq da, elə bil yerin altına düşmüşdü.

Bu zaman Heydər Əliyev Mirbəşirə zona müşavirəsinə gəldi. Fürsət tapıb nəhayət şübhəli şəxsi «hesabladığımızı» bildirdim.

– Hesablamaq hələ tutmaq deyil, – cavab verib məni də rəyasət heyətində yer tutmağa dəvət etdi.

Müşavirənin gur vaxtında mənə xəbər verdilər ki, bizim əməliyyatçılar Nəzərovun «həmpiyaləsi»ni tapıblar, o, dostunun gizləndiyi yeri bilir. Həmin adam Hüseyn Nəzərovun qatil olduğu barədə şübhələrimizi təsdiqlədi. «Kefdaş»ı dilindən qaçırtmışdı: «Hüseyn mənə özü deyirdi, iki «it»i gəbərdib».

Mən dərhal yaxalama dəstəsi təşkil etdim və biz çox böyük ehtiyatla Nəzərovun gizləndiyi kəndin həndəvərinə maşınla yaxınlaşdıq. Onu sübh çağı, yuxusunun «şirin» çağında haqlamağı qət etdik. Amma vəhşi cani fəhmi onun yuxusunu ərşə çəkirmiş. Usdufca yaxınlaşan əməliyyatçıların addımlarını eşidib atəş açdı. Təslim olmaq təklifləri, dil-ağız kar eləmədi.

– Yaxşı eləmişəm ki, onları gəbərtmişəm! Qancıqdılar! Elə siz də! Sizi də sərələndirəcəm! – deyə sığınacağından bağırırdı.

– Sən axı niyə cırnayırsan, Hüseyn? – Ucadan dedim. – Əgər onlar səni incidiblərsə, nədən qorxursan? Biz hər şeyi araşdıraraq.

Cavabı mənim səsim səmtinə atdığı güllə oldu. Və mən atəş açmağa əmr verdim...

Heydər Əliyevi müşayiət edən heyət də, özü də dəmiryol stansiyasındakı vaqonlarda gecələyirdilər. Mən qayıdanda səhər saat altıya işləmişdi. Mühafizəçilər bildirdilər ki, toplanış saat 9:30-da olacaq. Mən saat ona işləmiş oyandım. Atüstü üzümü qırxıb, çay içəndən sonra eşiyə çıxdım.

Mən hələ bilmirdim ki, onun keçmiş idarəsindən hansısa «xeyirxahlar» ona xəbər veriblər ki, kəndlərin birində atışma qopub və bir nəfər həlak olub...

– Hüseynov! – Heydər Əliyevin sərt səsini eşitdim. – Bura gəl! Bu nədi sizdə baş verir?.. Güllə atırlar... Adam öldürürlər... Özü də birinci katib respublikanın məsul işçiləri ilə yaxınlıqda ola-ola. Xarici mətbuat indi ağzına gələni yazacaq... Sən buna necə yol verə bilmisən?



– Heydər Əliyeviç, – astadan dilləndim. – Buna zəruriyyət var idi...

– Zəruriyyət nə deməkdir?

– Siz kimin zərərsizləşdirildiyini bilirsinizmi?

O, gərgin intizarla baxışlarını mənə zilləyir.

– Tutulduğu zaman müqavimət göstərdiyinə görə Nəzərov məhv edilmişdir, – məruzə edirəm. – Öldürdüyü milis zabitlərinin tapançalarını ələ keçirən həmin adam. Mən əməliyyatdan gec qayıtdım və sizə xəbər verməyə macal tapmadım.

– Sonra hər şeyin necə olduğunu söyləyərsən, – Heydər Əliyevin baxışları işıqlaşdı, səsi yumşaldı.

Bakıya qayıdandan sonra məni çağırdı, mən də aparılmış əməliyyatı bütün təfsilatıyla danışdım.

– Əməliyyatın bütün iştirakçılarına nazirlik üzrə əmrimlə təşəkkür elan etdim, maddi vəsaitlə mükafatlandırdım.

– Afərin!

«Afərin» onun dilində ən yüksək tərif idi. Bununla söhbət bitmədi.

– Onları təqdir etdin, bəs özünü?

– Mən nazirin səlahiyyətlərini icra edirəm. Öz-özümü qeyd etmək ən azı təvazökarlıqdan kənar olardı...

– Neynək, onda bunu mən edərəm.

O, seyfi açıb mənə qol saatı təqdim etdi».

Sabir müəllim daha bir əhvalat da söylədi. Əvvəli təşviş doğura biləcək, sonluğu isə bir qədər məzəli görünən əhvalat. Hərçənd, Heydər Əliyevin və onun ailəsinin qanqaralığı bahasına başa gəlmişdi.

...Heydər Əliyevin ailəsinin yaşadığı dövlət bağ malikanəsində fövqəladə hadisə baş vermişdi. Beynəlxalq «Gənclik» düşərgəsi ilə həmsərhəd olan postların birində huşsuz halda yerə sərələnmiş bir gözətçi nəzərə çarpır. Onu özünə gətirib nə baş verdiyini soruşanda, deyir: «Bir dəstə maskalı adamlar mənə hücum eləyib Əliyev ailəsinin hansı kottecdə yaşadığını öyrənmək istədilər... Onlar oraya basqın etmək niyyətindəydilər. ...Mən onlara heç nə demədim, sonra huşumu itirdim...»

Gözətçi hünər göstərmiş kimi vəcdlə danışırdı.

Bu işin də araşdırılması Sabir Hüseynova tapşırılır.

– Mənim evimdə təşvişə düşüblər. Zərifə, uşaqlar qorxu içindədirlər, – Heydər Əliyev telefonla S.Hüseynova deyir. – Mən isə işləyə bilmirəm. Fikrim-zikrim onlardadı...

– Narahat olmayın, Heydər Əliyeviç. Mühafizə gücləndirilib.

– Necə yəni narahat olmayım? Yoldaşım uşaqları tək qoymağa qorxur. Mən özüm də özümə yer tapa bilmirəm.

– Heydər Əliyeviç, – dedim, – mənim o gözətçidən gözüm su içmir. Onun hekayətində nə isə bir saxtalıq var. Bizə elə gəlir ki, məsələ başqa cürdür. O, özünü qəhrəman kimi göstərməyə çox cəhd edir...

– Sizin fərziyyələriniz məni qane etmir. Canini tap. Ağlabatan cavab tapmayınca, iş yerini tərk etmə!

Hücum iştirakçıları kimi şübhə altına alınan yüz nəfərdən əməliyyatçılar istisna metodu ilə saf-çürük edə-edə yeddisinin üzərində dayandılar. Və bu yeddi nəfərin arasında vaxtilə Azərbaycandan kənarda sərhəd qoşunlarında xidmət etmiş Şevtsov diqqəti cəlb edir. Onu hansısa bəd əməlinə görə ehtiyata tərxis etmişlər, o, yaşadığı Çita şəhərindən Bakıya, qardaşıgilə gəlib onun evində qalır. Həmin ev də Buzovnada, birinci dövlət bağının yaxınlığında imiş. Əməliyyatçılar oraya üz tuturlar, lakin məlum olur ki, Şevtsov bir-iki gün əvvəl təyyarə ilə Çitaya uçub. Əməliyyatçılar da ardınca yola düşürlər. Öz evinin astanasında Bakı axtarışçılarını görən Şevtsov anlayır ki, onu «hesablayıblar» və uzatmadan, burcutmadan etiraf ifadələri verməyə başlayır.

– Nə qəsd, hansı qəsd! – fərziyyəni eşidib şeşələnir. – Mən yaxınlıqdan keçirdim, gördüm ki, o əfəl gözətçi qoburlu tapançasını hasardan asıb, kitelini də soyunub, nəsə özü-özüylə hoqqa çıxarır... Mən yumruğumla kəlləsinə zopladım. Üstümə yıxıldı. Bir də almacıq sümüyündən ilişdirdim, tirtap uzandı. Vəssalam...

– Bəs tapança? Nəyinizə gərəkdi?

– Mən indi işsizəm. Onun köməyilə bankı basmarlamaq istəyirdim.

– Silahı qaytarın.

– Mən tapançanı elə orada gizlətdim. Dəmiryol stansiyasının yanında, «elektriçka» dayanacağından bir az aralı yerə basdırdım...

«Bütün bunları uşaqlar mənə Çitadan xəbər verdilər, – Hüseynov sözünə davam edir. – Əmr etdim ki, Şevtsovu təcili Bakıya gətirsinlər. Qarşıladıq, dərhal «elektriçka» dayanacağına, silahı gizlətdiyi yerə apardıq. Gecə vaxtı olduğuna görə oraya gur işıqlı projektor gətizdirdik ki, Şevtsov saxlancını tapa bilsin. Dərhal da yeri qazıb tapdı. Bu, gözətçinin tapançası idi.

Səhər tezdən Heydər Əliyevin bağına zəng vurdum. Mənim məruzəmi dinləyib:



– İndi bütün bunları Zərifə xanıma söylə, – dedi. – Qoy sakitləşsin. Dəstəyi ötürürəm.

– Zərifə xanım, – dedim, – həmin milis nəfəri boşboğaz və yalançının biridir. O, öz səhlənkarlığını fədakarlıq pərdəsi altında örtbasdır etmək istəyib. Yəni Heydər Əliyevin ailəsini qoruyarkən belə ziyan çəkmişəm...

Həmin günün axşamı əlimi bərk-bərk sıxan Heydər Əliyevdən daha bir «Afərin!» eşitdim».

## Mafiya ölümsüzdürmü?

Öz etirafına rəğmən Heydər Əliyev ali baxımdan idealist idi. O, xalqın varını oğurlayanlara, talan edənlərə qarşı amansız mübarizənin zəruriliyinə şübhə etmədən inanırdı ki, bir gün gələcək və cəmiyyət bu çirkabdan yaxa qurtaracaq, təmizlənəcək, insanlar yeni, daha ləyaqətli, mənalı ömür yaşayacaqlar.

«Xeyirin yolları əzəl zamandan,
Tikanlar içindən ulduzlaradır!»
Lakin bəzən onu da şübhələr göynədirdi.

Həsən Seyidov xatırlayırdı ki, «əvvəllər Heydər Əliyeviç daha nikbin ovqatla köklənmişdi. Sonralar anlamışdı ki, bu o qədər də asan məsələ deyil. Etiraf edirdi: bu gözlədiyimizdən daha mürəkkəb iş oldu».

**Əfrand Daşdəmirovla söhbətdən:**

**« – Bizim respublikada korrupsiya, «kölgə» iqtisadiyyatına qarşı mübarizə iradə gücünə aparılırdı. Yəni bu azarın kökünü kəsməyi qət etmiş bir adamın iradəsi var idi. Və nəticədə nə oldu? Nəyəsə nail olundumu?**

– Həyat göstərdi ki, problem kompleks halında, bütün ölkə miqyasında həll olunmalı idi. Əslində bunu bir respublikada gerçəkləşdirmək müşkül idi. Məsələnin məğzi ondadır ki, həmin hallarla mübarizə tamamilə ümidsiz və perspektivsiz oldu. Lakin biz bunu dərhal anlamadıq. Mənim üçün də bir çox mətləblər sonra açıqlandı. Andropov tərəfindən dəstəklənən Əliyevin, Şevardnadzenin mübarizə etməyə çalışdıqları hədəf, üstəlik Özbəkistanda «pambıq işi»nə və s. amansız tədbirlərə rəvac verməklə Qorbaçovun göstərdiyi cəhdlərin üstündən «yenidənqurma» qara xətt çəkdi. Çünki yenidənqurmanın bütün mahiyyəti, Rusiyada, Azərbaycanda, ümumiyyətlə, SSRİ-də artıq özünə yer tutmuş proseslərin leqallaşdırılmasına yönəldilmişdi. Yəni «kölgə» iqtisadiyyatı, özəl mülkiyyətçilik irəliyə

can atır, cəmiyyətə sirayət edir və bir çox hallarda partiya, dövlət, hüquq-mühafizə qurumlarına yol açmışdı. Bütün bunlar var idi. Olmasaydı, yenidənqurma da ortaya çıxmazdı. Sosializmə demokratik don geyindirmək istəyən Qorbaçov sadəcə bir vəziyyəti anlamır, izləyə bilmirdi ki, indi o, artıq yeni epoxanın xeyrinə işləyir və həmin epoxada sosializmə yer yoxdur. Biz inanırdıq ki, hər şeyi ictimai, kollektiv başlanğıclara keçirsək uğur qazanacağıq. Mən bir dəfə Heydər Əliyevə sual verdim:

– Abşeronda bu qədər yiyəsiz, qapanmış, kimlərdənsə müsadirə edilmiş, heç kəsə də verilməmiş bağlar var ki, tədricən bərbad hala düşürlər. Onları xüsusi mülkiyyətə vermək olmazdımı?

O cavab verdi:

– Bu yenə də burjualaşmaya, varlanmağa gətirib çıxaracaq. Kütləvi istirahət yerləri yaradılmalı, xalq üçün sanatoriyalar tikilməlidir. Bax, budur çıxış yolu».

**Mais Məmmədov mənimlə söhbətdə xatırlayırdı:**

«Plenumların birində çıxış edərkən Heydər Əliyeviç etiraf etdi:

– Siz bilirsinizmi ki, rüşvətxorluqla, korrupsiya ilə biz neçə mübarizə edirik? Var gücümüzlə. Və mən sizə açıq deməliyəm, biz hələ böyük qələbələr qazanmamışıq».

Heydər Əliyevin 70-ci illərdə neqativ hallara qarşı mübarizəsinin səmərəliliyi barədə sualıma Maqsud İbrahimbəyov yazıçıya xas olan lakoniklik və dəqiqliklə cavab verdi:

«Korrupsiya ilə bağlı vəziyyət, əlbəttə, dəhşətli idi. O, bir çox mafiozilərin ipini yığışdırsa da, elə şeylər var ki, onların qarşısında Heydər Əliyev də, Yuli Sezar da, Napoleon da acizdirlər...»

Həqiqətən də, əsaslı iqtisadi islahatlar olmadan, ancaq «qaykaları burmaq» siyasəti, korrupsiyaya, möhtəkirliyə qarşı amansız mübarizə aparmaqla inzibati-amirlik sisteminin ömrünü bir qədər azaltmaq olsa da, onun yaşarılıq qabiliyyətini saxlamaq daha mümkün deyildi. Bunun üçün tamamilə başqa vasitələr lazım idi. Əminəm ki, 80-ci illərin ortalarında Heydər Əliyev artıq bunu dərk edirdi. Ona görə də o, sovet iqtidarının zirvəsində duran nadir partiya xadimlərindən idi ki, Qorbaçov «yenidənqurma»sına tam səmimiyyətlə səs vermişdi. Və onun günahı deyil ki, bu yenidənqurmanın memarları bunca fərsiz çıxdılar...



[1] Вашингтон пост. 1984. 29 июня.
[2] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. М., 1991. С. 52-53.
[3] Бакинский рабочий. 1976. 15 января.
[4] Бакинский рабочий. 1977. 11 июня.
[5] Вашингтон пост. 1984. 29 июня.
[6] Караулов А. Вокруг Кремля. М., 1993. т. 1. С. 212.
[7] Yenə orada. S. 221.
[8] Бурлацкий Ф. Вожди и советники. М., 1990. С. 299.
[9] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С.263-264.
[10] Караулов А. Вокруг Кремля, т. 1. С. 394.
[11] Yenə orada. S. 211-212.
[12] Чурбанов Ю. Я расскажу все, как было. М., 1992. С. 94.
[13] Примаков Е.Годы в большой политике. М., 1999. С. 22.
[14] Yenə orada. S. 23.
[15] Крючков В. Личность и власть. М., 2004. С. 120-121.
[16] Гришин В. От Хрущева до Горбачева. М., 1996. С. 46.
[17] Караулов А. Вокруг Кремля, т. 1. С. 212.
[18] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С.318-319.
[19] Караулов А. Вокруг Кремля, т.1. С. 215.
[20] Эхо. 2006. 24 июня
[21] Андрианов В.,Мираламов Г. Гейдар Алиев. М., 2006. С.130.
[22] Yenə orada. S. 131.

*Altıncı fəsil*

# Heydər Əliyev və Leonid Brejnev

**1982**-ci il, 24 sentyabr. Azərbaycanın paytaxtına Leonid İliç Brejnev təşrif buyurdu, Sov. İKP MK Baş katibi böyük təmtəraqla qarşılandı. Möhtərəm qonağı birbaşa Bakının Lenin adına meydanına gətirdilər. Burada səhnələşdirilmiş möhtəşəm tamaşa hazırlanmışdı. Rəşid Behbudov Baş katibə Bakının fəxri vətəndaşı medalını təqdim etdi. Həmin gün də L.Brejnevə Dağüstü parkın yamacında yenicə tikilmiş SSRİ Xalqlar dostluğu sarayına «ayaqaçdı» həvalə edildi; o, Sergey Kirov heykəlinin qarşısındakı meydançadan respublika paytaxtının mənzərəsini seyr etdi.

Sentyabrın 25-də L.Brejnev 26 Bakı Komissarı memorialına baş çəkib əklil qoydu; XI Qızıl Ordu abidəsini ziyarət etdi, sonra dənizkənarı bulvarda respublika xalq təsərrüfatı nailiyyətləri sərgisi ilə tanış oldu. Baş katib Heydər Əliyevlə birgə «Şelf-2» üzən qazma qurğusuna gəldi. Həştərxan gəmiqayırma tərsanəsində hazırlanmış bu nəhəng platforma, Sverdlovsk, Volqoqrad, Qrozni zavodlarının məhsulu olan avadanlıqlarla təchiz olunmuşdu. Qurğu, su qatı 200 metrədək olan dəniz sahələrində 6 min metr dərinliyində quyular qazmağa qadir idi.

Sentyabrın 26-da Azərbaycan SSR-ə üçüncü Lenin ordeni təqdim edilməsinə həsr olunmuş respublika KP MK və Ali Sovetinin təntənəli iclası keçirildi. Artıq respublikanın Oktyabr inqilabı və Xalqlar dostluğu ordenləri nəzərə alınmaqla beş ordeni vardı.

L.Brejnev öz nitqində Azərbaycanın uğurları ilə yanaşı bir sıra həll olunmalı problemlərə də – neft hasilatının artırılması, neft emalı sənayesinin texniki baxımdan təzələnməsi, yeni enerji qaynaqlarının işə salınması, o cümlədən bir neçə iri elektrik stansiyalarının, dərin özüllər zavodunun vaxtında inşası kimi vəzifələrə diqqət yönəltdi. Yaşayış binaları inşaatında, mənzil sahələrinin paylanmasında nöqsanları qeyd etdi, maldarlıq və yem istehsalında məhsuldarlı-

ğın artırılması zərurətini vurğuladı. Sentyabrın 27-də Azərbaycan rəhbərliyi ilə görüşündə də Brejnev bir sıra tənqidi iradlarını bildirdi.

Səfərinin son günündə Sovet dövlətinin rəhbəri Azərbaycan xalqına bir növ töhfə edirmiş kimi xəbər verdi ki, respublikada kurort işinin və turizmin inkişaf etdirilməsi haqqında Azərbaycan KP Mərkəzi Komitəsinin təşəbbüsü diqqətlə nəzərdən keçiriləcək. O dedi:

«Bu işə lazımi vüsət verilməli, daha bir ümumittifaq əhəmiyyətli cənub kurort zonasının yaradılması barədə düşünülməlidir. Buna ÜİHİMŞ da, SSRİ səhiyyə nazirliyi də qoşulmalıdır».

Sentyabrın 27-də L.Brejnev Moskvaya qayıtdı.

Bu, Sov. İKP MK-nın Baş katibinin Azərbaycan paytaxtına üçüncü səfəri idi*. Amma məhz bu üçüncü səfər mətbuatın ən çox diqqətini cəlb edəcək və uzun illər boyu cürbəcür şayiə və iftiralara bəhanə olacaq.

L.Brejnev nəinki tək Heydər Əliyevin, həm də bütövlükdə Azərbaycanın taleyində önəmli yer tutmuşdur. Buna görə də Baş katibin şəxsiyyətinə güzgü tutmaq, Əliyev-Brejnev münasibətlərini işıqlandırmaq, eyni zamanda ötən əsrin 80-ci illərinin yarısından üzübəri Rusiya mətbuatında H.Əliyevə qarşı çoxsaylı əfsanə və uydurmaları sovuşdurmağa dəyər.

1974-cü ilin dekabr ayında L.İ.Brejnev xəstələndi və o vaxtdan etibarən səkkiz il ərzində əslində Sov. İKP MK Baş katibi kimi öz vəzifələrini qənaətbəxş şəkildə yerinə yetirə bilmədi. Eyni zamanda Stalin dövründən miras qalan siyasi hakimiyyət sistemi dövlət liderinin normal, sivil yolla əvəz olunmasını nəzərdə tutmurdu. Buna görə də açıq-aşkar paradoks müşahidə olunurdu: Baş katib qocalıb, necə deyərlər, heydən düşdükcə onun səlahiyyət dairəsi artır və Brejnev şəxsiyyətinə pərəstiş də «körüklənirdi».

Digər rəhbərlərlə yanaşı Azərbaycan partiya təşkilatının birinci katibi də Sov. İKP Mərkəzi Komitəsi Baş katibinin ünvanına xoş sözlər deyirdi. O bütün nitqlərində Brejnevin ölkə qarşısında, dünya qarşısında xidmətlərini mütləq qeyd edir, Azərbaycana və respublikanın problemlərinə diqqət yetirdiyinə görə (və bu da, əslində, həqiqətə uyğun idi) təşəkkürünü bildirirdi. Heydər Əliyev Baş katibin şərəfinə təmtəraqlı pişvazlar qurdurur, yubiley və ad günlərində, başqa respublika rəhbərləri kimi, hədiyyələr bağışlayırdı.

* Baş katibin əvvəlki səfərləri 1970-ci və 1978-ci illərdə olmuşdur.



Sonralar Qorbaçov «dalğası»nda üzə çıxan «demokrat»lar dəfələrlə H.Əliyevin rəhmətlik «gensek»lə yaxın olduğunu dəstavüz edib qınamış, Qorbaçovun köməkçiləri Çernyayev və Şahnazarov isə öz xatirələrində rişxəndlə H.Əliyevin «bostanına daş atmışdılar».

Lakin Brejnev «kultu»nu heç də Heydər Əliyev yaratmamışdı. O sonralar bu barədə A.Karaulova verdiyi müsahibədə söyləyir: «...Bugünün mövqeyindən demək olar ki, bizim işimizdə, xüsusən də müxtəlif tədbirlərin keçirilməsində ifrat «parad»çılıq, dəbdəbəlilik vardı. Ancaq bu bizim ümumi azarımız idi...

O zaman belə bir ənənə yaranmışdı ki, ölkə daxilində də, xaricdə də Brejnev təntənə ilə qarşılanırdı. Heç bir respublika istisna deyildi. Və haradasa o, əvvəlki səfərdəkindən pis qarşılansaydı, bu anlaşılmaz olardı. Yəqin ki, belə bir praktika pislənməlidir, ancaq buna görə təkcə Azərbaycanı qınamaq həddən artıq haqsızlıqdır...»[2]

Həqiqətən də, ölkənin partiya rəhbəri şəxsiyyətinə pərəstişin dirçəldilməsinə Brejnev Siyasi bürosunun daha səlahiyyətli üzvləri, məsələn, müdafiə naziri D.Ustinov rəvac vermişdilər. Nazirin sabiq böyük adyutantı, general-polkovnik L.İvaşov xatırlayır:

«O vaxtlar hər rəsmi çıxışı Brejnevdən gətirilən sitatla başlamaq ümumi qayda idi. Mən, bu hər dəfə vacibdirmi? – deyə soruşdum. O (Ustinov – ***E.A.***) cavab verdi: «Axı, Leonid İliç bizə heç nəyi əsirgəmir. Sonra da, yəqin, çıxışlarımızın məzmununu ona çatdırırlar». Düzünü desək, Baş katibin tərifi xoşladığından faydalanmağımız, silahlı qüvvələrlə bağlı məsələlərin həllində yarıyırdı. Dmitri Fyodoroviç Brejnevə marşal rütbəsi verilməsinin təşəbbüskarı idi. Bundan kim nə uduzmuşdu ki? Silahlı qüvvələr isə uddu – müdafiə məsələlərində dəstək gücləndi»[3].

İndi Roy Medvedevin öz kitabında Brejnev haqqında yazdıqlarına fikir verək: «Bütövlüklə mətbu və şifahi təbliğat aparatı, eləcə də Suslova tabe olan bütün ideoloji aparat tezliklə «böyük leninçi» və «görkəmli sülh mübarizi»nin tərənnümünə yönəldildi. L.İ.Brejnev indən belə yalnız rəhbər, bərabərlər içində birinci deyil, partiyanın danılmaz lideri, «hakimi-mütləqi» və faktiki olaraq dövlət başçısına çevrilirdi. Bayramlar ərəfəsində binaların divarlarında Brejnevin nəhəng portretləri, nitqləri və məruzələrindən sitatlar yazılmış böyük plakatlar görünməyə başladı. Bir çox hallarda Brejnevin şəkli digər siyasi büro üzvlərinin şəkillərindən daha iri verilirdi. Qəzetlər az qala hər gün onun fotoşəkillərini dərc edirdilər.

Qəzetlərin baş məqalələri, partiya jurnallarında nəzəri məqalələr Brejnev əsərlərindən «dəyərli» sitatsız keçinmirdi, 1970-ci ilin ya-

zından baş almış, partiya «hakimi» nüfuzunun möhkəmləndirilməsi üzrə təbliğat kampaniyasının miqyasları Xruşşov dövründə edilənlərin hamısını qat-qat üstələyirdi»[4].

Sov. İKP MK-nın sabiq əməkdaşı A.Qraçov «Kreml xronikası» adlı kitabında xatırlayır ki, Gürcüstan KP MK birinci katibi Eduard Şevardnadze qılığa girməkdə hamını qabaqlamışdı. «Rəhbərin qatıldığı təntənəli iclasların birində o, rus xalqına gürcülər tərəfindən əbədi məhəbbəti bəyan edərək, «günəşin şərqdən deyil, şimaldan doğduğunu» bildirəndə və Qafqaz dağları bu dostluğun tam çiçəklənməsinə əngəl törədərsə, onları da qazıb kürüməyi vəd edəndə gurultu qopardı...»[5].

Sonralar Heydər Əliyev söyləyirdi ki, bu ya digər müttəfiq respublikada Baş katibin təntənəli qarşılanma mərasimlərinin az qala hamısında iştirak etmişdir. Partiya liderləri belə görüşlərin hazırlanması ilə bağlı təcrübəni bir-birindən öyrənməyə çalışır, maraqlı tədbir niyyətlərini bir-birilə bölüşürdülər ki, səyləri boşa çıxmasın və başqalarından geridə qalmasınlar.

Heydər Əliyevin Rusiya jurnalisti A.Karaulova Brejnev şəxsiyyətinə pərəstişlə bağlı cavablarında bir inciklik açıq-aşkar sezilir:

«...Gəlin «Pravda»ya qayıdaq. Budur, bir fotoşəkil: mən Brejnevləyəm. Bu belə yozulur: görün, Əliyev Brejnevə nə qədər yaxın idi. Mən isə deyim ki, indiki Siyasi Büro üzvlərinin hamısında, o cümlədən Qorbaçovda da belə fotoşəkillər tapmaq olar. Nə qədər istəyirsiniz. Qorbaçovun Brejnevin kitabları haqqında nələr dediyini hamı unutmuşdur, dediyi isə o idi ki, «Kiçik torpaq» dahiyanədir...

Yeri gəlmişkən, Brejnevi böyük şəxsiyyət səviyyəsinə qaldıran Azərbaycandakı Əliyev deyil, Siyasi Büro olmuşdur. Brejnevin 75 illiyi ilə bağlı sənədləri xatırlayın, «Pravda»da bütöv bir səhifə, Sov. İKP MK, SSRİ Ali Soveti və SSRİ Nazirlər Sovetinin təbriki. Kimlər bu sənədi hazırlamışdır? Sov. İKP Mərkəzi Komitəsi. Kim qəbul etmişdir? Siyasi Büro üzvləri, o cümlədən Qorbaçov. Bax, deyirlər ki, Bakıda Brejnevə həsr olunmuş albomlar nəşr edilmişdir. Bəs Moskvada nələr edilirdi? Moskvadan Mərkəzi Komitə üzvlərinin hamısına Brejnevə həsr olunmuş bax, bu qalınlıqda albom göndərmişdilər, hətta əlində tutmaq da ağır idi. Hələ onun bioqrafiyası, kitabları, – hər şey Siyasi Büronun, Sov. İKP MK-nın qərarı ilə nəşr olunurdu».[6]

Sonralar publisist F.Burlatski, akademik G.Arbatov, jurnalist və politoloq A.Bovin, Mərkəzi Komitədə Xruşşovun, Brejnevin və Andropovun məsləhətçiləri vəzifəsində çalışdıqları haqqında xatirələrini dərc etdirmişdilər. Onlar Brejnevi meşşanlıqda, öz «kultu»na rəvac verməsində və sairədə suçlandırırdılar. Lakin həmin «kultu» aparatda yaradanlar elə onların özü kimi işçilər idi. Məsləhətçilərin Brejnev yubileylərinə qoşduqları tərifnamələr, Sov. İKP MK məsul işçilərinin Brejnevin memuarları ətrafında qondardıqları «çal-çağır» çoxlarının yadındadır. Semanov SSRİ Yazıçılar ittifaqının katibi, sonralar «Oqonyok» jurnalının baş redaktoru olmuş, alovlu «yenidənqurma»çı V.Korotiçin «Politiçeskoye samoobrazovaniye» jurnalında dərc etdirdiyi söyləmələrini xatırladır. Sonralar «durğunluq» dövrünü və həmin dövrün yaradıcısı Brejnevi var gücü ilə damğalayan Korotiç bir zamanlar Leonid İliçin kitabının «heyrətamiz aktuallığı»ndan, Brejnevin həyat yolunun «ibrətamiz və müstəsna» dərslərindən və s. dəm vururdu...

Hərçənd, cənab Korotiç tək deyildi. V.İ.Boldinin dürüst müşahidəsinə görə, «...Brejnev vəfat edəndən sonra, hər yerindən duran özünün neçə cəsur olduğunu göstərmək üçün öz bütünü danmağa başladı»[7].

Bu baxımdan Heydər Əliyev Brejnev dünyasını dəyişəndən sonra da onun xatirəsinə sadiq qalmış və heç vaxt onun «bostanına daş atmamışdı».

Qəribədir: münasibətlərinin məhrəmliyinə baxmayaraq H.Əliyev və L.Brejnev bam-başqa təbiətli insanlar idi. Baş katib, ətrafındakıların söylədiklərinə görə, əhli-kef adam idi, yeyib-içməyi, kişi məclislərində, ailədən uzaq-iraq yerlərdə vaxt keçirməyi, «cövlan etməyi» xoşlayırdı.

Heydər Əliyev isə ailəcanlı bir insan idi, asudə vaxtlarında hər yerə ömür-gün yoldaşı ilə gedər, nə ovçuluğa, nə balıqçılığa həvəs göstərər, istirahət günlərini öz külfəti ilə bir yerdə keçirərdi.

L.Brejnev mütaliə, kitab həvəskarı deyildi, təhsili o qədər də, belə deyək, yüksək olmamış, estetik zövqü də eləcə. H.Əliyev isə oxumağa, mütaliəyə aludə idi, birinci katib vəzifəsində işləyərkən də qəzet-jurnalları, bədii ədəbiyyat nümunələrini oxumağa vaxt tapardı, təhsilini rusca almasa da, rus dilini incəliklərilə duyur və bilirdi; onun ədəbiyyata, musiqiyə, rəssamlığa, teatra dərin marağı sənət adamlarına və ümumiyyətlə onu tanıyanlara yaxşı məlumdur.

Baş katib papiros-siqaret çəkməyə möhkəm alışmışdı, Heydər Əliyev isə tütün tüstüsünə qarşı dözümsüz idi. Belə təzadlı sadalanmaları uzatmaq da olar.

Bununla belə Heydər Əliyev Baş katibin ürəyinə yol tapa bilmişdi.

**Heydər Əliyevin mühafizə rəisi Aleksandr İvanovla söhbətdən:**

**« – Siz deyirsiniz ki, Brejnev ona hörmət bəsləyirdi. Siz şəxsən bu hörmətin təzahürlərini görmüşdünüzmü?**

– Mən Yaltada, Brejnevin öz bağ malikanəsində onu necə qarşılamasını görmüşdüm. Leonid İliç ömür yoldaşı ilə eşiyə çıxar, onlar mehribancasına görüşər, qucaqlaşardı, hər şeydən Brejnevin onun gəlişinə şad olduğu duyulurdu. Başqa rəhbərləri baş katib bu qədər isti qarşılamazdı.

Kreml aparatında da Heydər Əliyevə xüsusi münasibət hiss olunardı. Brejnevin ətrafındakıları, köməkçiləri, bütün aparat tərəfindən. O vaxt Heydər Əliyeviçə heç bir başqa birinci katibə qarşı olmayan münasibət bəslənirdi. Onda Şevardnadze Siyasi Büro üzvlüyünə namizəd, Kunayevlə Şerbitski Siyasi Büro üzvləri idilər. Amma heç birinə qarşı belə münasibət yox idi. Hətta səfərlərin sayına görə də, Brejnev Əliyevin yurduna səfərə çıxdığı qədər heç kimin yanına yollanmamışdı.

1982-ci il sentyabr ayının axırında o, Bakıya təşrif buyurdu, noyabrın başlanğıcında isə dünyasını dəyişdi, yəni vəfatına bir ay qalmış respublikaya gəldi...

**– Sizin fikrinizcə, belə münasibət nə ilə izah olunur?**

– Heydər Əliyeviçə xoş münasibət onun əla işləməsi və olduqca böyük şəxsi cazibədarlığı sayəsində yaranmışdı».

Mentalitet, intellektual maraqlar, həyat tərzi, vərdiş, «şakər» baxımından fərqlərə baxmayaraq H.Əliyevin və L.Brejnevin xasiyyət, təbiətlərində oxşar cəhətlər də az deyildi.

Brejnev də, Əliyev kimi cavan yaşlarında Siyasi Büronun digər üzvlərindən çox əlverişli tərzdə – əyninə uyğun əla tikilmiş kostyumu, yaraşıqlı-yapışıqlı görkəmi, hərbçi sayağı şax duruşu-yerişi ilə seçilirdi.

Amerikalı bir jurnalist yazırdı: «Brejnevi Xruşşovun aparat məmurlarından bir şey fərqləndirirdisə, o da geyim-keçimində duyulan kamil dərzi ustalığı, cilası idi. Sovet İttifaqında Birləşmiş Ştatların səfiri olmuş Foy D.Koler adətən deyərdi ki, «belə görünür ki, Brejnevin Moskvada çox yaxşı dərzisi var». Kremlin qəbul salonunda Xruşşovun ardınca ierarxların kiçik və sıx dəstəsi sıralananda Brejnevin sərt, yaraşıqlı sifəti və hərbçi qəddi-qaməti başqa liderlərin görkəmləri ilə müqayisədə təzad yaradırdı. O, nisbətən daha sərbəst görünür, nəzərə çarpacaq professional baxımlılığı ilə seçilirdi»[8].



Kitabımızın səbəbkarı kimi, L.Brejnev də cavanlıqda tökməbədən bir ərən olmuş və öz sağlamlığına çox ciddi fikir vermişdir. O, əla üzgüçü imiş, hər gün bağındakı hovuzunda üzərmiş. Krımda, yay məzuniyyətinə çıxdığı dövrdə, bir qayda olaraq iki-üç saat dənizdə üzə-üzə sahildən uzaqlaşar, çimərlikdən ancaq nahar çağlarında qayıdarmış.

Heydər Əliyev də üzməyi xoşlayardı, bu idman növüylə ömrü boyu məşğul olmuşdu.

Hər ikisi risqə getməkdən çəkinməzdi və dəfələrlə mühafizəçilərini az qala şok vəziyyətinə düşməyə vadar etmişdilər. Brejnev xarici dövlət başçılarının ona bağışladıqları avtomaşınları sürməyi çox xoşlayar, özü də şəhəryanı yollarda yamanca cövlan edərmiş (bu barədə onun mühafizə rəisi V.Medvedevin xatirələrində bəhs edilir). Brejnevin kürəkəni Çurbanov yazır ki, qaynatası «heç nədən qorxmazdı. Leonid İliçin heç vaxt «oxşar»ları (yalançı «Brejnev» rolunu oynayan adamları – ***E.A.***) olmayıb... üstəlik iki «ZİL» – zirehli və zirehsiz avtomaşınlarından Leonid İliç adətən daha «yüngülü»nü seçərdi, çünki zirehlisinin «yerişi» bir az ləng idi...»[9]

Heydər Əliyev də heç vaxt öz təhlükəsizliyi haqqında çox götür-qoy etmirdi. Respublika rayonlarına gedərkən, xarici səfərlərdə olarkən, o, birdən-birə «protokol»u dəyişərək el-oba ilə planlaşdırılmamış «hal-əhvala» girişər, izdihamın, tanımadığı adamların arasına can atardı və təbii ki, bu qələbəlikdə hər nə desən gözləmək olardı...

MK şöbə müdiri Zakir Abdullayev söyləyirdi: «O, çox cəsur idi. Yadımdadır, rayonlara yollanmışdıq. Axşam saat 10-11 olardı, müşavirə artıq başa çatmışdı. Camaat qaranlıqda durub, onu gözləyirdi.

İnanın ki, biz onunçün əsirdik, o isə birbaşa camaatın arasına yeriyirdi. Axı, hər şey baş verə bilərdi. Bir dəfə biz ona dedik:

– Heydər Əliyeviç, sizi gözləyən adamlara rəhminiz gəlsin».

Buna bənzər məqamları sonralar mənimlə söhbət edən respublika daxili işlər nazirinin müavini Oruc Zalov da yada saldı. 90-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikası parlamentinə başçılıq edərkən, Heydər Əliyev sərhəddə Ermənistan rəhbərləri ilə görüşlər zamanı saatlarla açıq havada, erməni snayperlərinin nişangahlarına tuş ola-ola gəzinər, danışıqlar üçün hazırlanmış örtülü tikiliyə girməkdən qətiyyətlə imtina edərdi...

Hər ikisi də – H.Əliyev də, L.Brejnev də – mərd və mətin adamlar idı, ən acı, kəskin ağrılara belə iradə sayəsində dözüm gə-

tirməyi, illah da ki, iş başında camaat qarşısında acı-ağrılarını büruzə verməməyi bacarırdılar. 1982-ci ilin mart ayında Özbəkistanda təyyarə zavodunu gəzərkən Leonid İliç ciddi xəsarət almışdı, – onun və yanında duran adamların üzərinə yerindən qopan ağır qurğu – stapel – düşmüşdü. Brejnevin körpücük sümüyü sınmış, özü də güclü psixoloji sarsıntı keçirmişdi. Lakin, həkimlər səfər proqramının son hissəsindən vaz keçilməsini təkid etsələr də, Baş katib respublika ictimaiyyətinin, insanların bayram ovqatını pozmaq istəməmiş və təyyarə uçuşunu təxirə saldırmışdı. Brejnevin kürəkəninin xatirələrində deyildiyi kimi, ertəsi günü Leonid İliç respublikaya ali dövlət mükafatının təqdim edilməsinə həsr olunmuş Özbəkistan KP MK, Ali Soveti Rəyasət Heyəti və Nazirlər Sovetinin təntənəli iclasında çıxış edirdi; körpücük sümüyü sınmış qolu ustalıqla sarınmış və novokain blokadası ilə keyidilmişdi»[10].

«Respublika» Sarayının səhnəsində kursantlar qarşısında çıxış edən Heydər Əliyevin xəstəlik ucbatından qəfildən iki dəfə yıxılmasını, hər dəfə də ayağa qalxıb kürsüyə doğru, sözünü tamamlamaq üçün yönəlməsini yada salaq!

Bu hadisələrdən sonra hər ikisi də sağlamlığını bərpa edə bilmədi, həm Brejnev, həm Əliyev üçün həmin məqamlar taleyin dönərgəsi oldu... Lakin hər iki şəxsiyyət necə deyərlər, özünü sındırmadı, əsl kişi kimi apardı.

Kitabımın qəhrəmanı və Baş katib arasında daha bir oxşar cəhət də var idi: sözübütövlük. Bir dəfə SSRİ müdafiə naziri D.Ustinov Brejnevlə telefon söhbətindən sonra: «Leonid İliç həmişə sözünə əməl edir, – deyirmiş, – bu baxımdan da özünü həmişə arxayın hiss edirsən, möhkəm zəmin duyursan». Brejnevin başqa bir yaxın silahdaşı, SSRİ xarici işlər naziri A.Qromıko da onu oxşar ruhda səciyyələndirirdi: «Leonid İliç problemin məğzinə dərhal varmasa da, bir qərara gəldikdə ona əməl edirdi və bundan xatircəm olə bilərdin»[11].

Baş katib də, Azərbaycanın partiya rəhbəri də, böyük ixtiyar sahibi olmaları və imkanlarına baxmayaraq, yetərincə sadə güzəran keçirir və heç bir ifratçılığa yol vermirdilər. 80-ci illərin sonlarında üzdəniraq «demokrat»lar əvvəlki partiya «nomenklatura»sının faydalandığı ağlasığmaz «imtiyazları» haqqında bar-bar bağırırdılar. Bu qaxınclardan Brejnevin də payına düşürdü, hərçənd o, heç də cahcəlallı həyata can atmırdı, əsasən Krımda yerləşən bağ mülkləri dövlətə mənsub idi və əksər hallarda Brejnev tərəfindən xarici qonaqları qəbul etməkçün rəsmi iqamətgah kimi istifadə olunurdu. O,



otuz il boyu Moskvada, Kutuzov prospektindəki mənzilində yaşamış, yeni elit evə köçmək, ya özünə, övladlarına bir bağ mülkü, villa tikdirmək üçün də heç bir cəhd göstərməmişdi.

L.Brejnevin referenti Qalina Doroşina xatırlayır:

«Brejnev son dərəcə təvazökar və.iddiasız insan idi. Şusev küçəsində dəbdəbəli mənzildən özü imtina etmişdi...

Brejnev harada olsa da, nəyisə dəyişməyə çalışmazdı. Viktoriya Petrovna heç vaxt bağ-mülk işlərinə qarışmazdı. Biz cənubda yaylayardıq. Yalnız son illərdə pərdələri dəyişdirmiş, divarların üzlüyünü təzələmiş, halbuki beş il orada heç nəyə əl vurulmamış, dəyişdirilməmişdi. Sadə yeməkləri... xoşlayırdı, beləcə də mənzil, Kutuzov prospektində, 26 saylı evdə yaşayır və «mənə heç nəyi dəyişdirmək lazım deyil» – deyirdi»[12].

Baş katibin xasiyyətində müsbət cəhətləri Brejnevin rusiyalı bioqrafları da qeyd edirlər.

«Bəli, Brejnev ixtiyar yaşlarında qəliz danışırdı, bu da təbii ki, camaatı bezikdirirdi. Lakin məhz bir dövlət xadimi kimi onun şəxsi keyfiyyətləri... olduqca cəzbedici idi... O, Lenin kimi özünəqapanmış və qaradinməz deyildi. Stalin qəddarlığı ona tamamilə yad idi. O, Xruşşov kimi haray-həşir də qoparmazdı və sərxoşluğa əsla meyli yox idi...

Leonid İliç ömrü boyu mənafeyini uca tutduğu vətəninin danılmaz patriotu idi. Daha bir şey: bəli, o, mükafat sərgiləməyi xoşlayardı, amma indi onların hamısı (onları zavallı Rusiyada bir çox şeylər kimi çırpışdırmayıblarsa) Dövlət saxlancında, «Qoxran»dadır. Onun övladları isə nə Sovet İttifaqında, nə də, ələlxüsus, xaricdə şəxsi imarət və malikanələrə sahib olmamışlar»[13].

Qorbaçovun «yenidənqurma» dövründə Sovet liderlərinin xələləri, ardınca da yalançı demokratların faydalandığı imtiyazlar Brejnevin heç yuxusuna da girməmişdi. Məsələn, ömrünün sonunda Baş katibin xarici dövlət başçılarının bağışladıqları on avtomobili vardı, onlardan dördü nəvələrinə qismət oldu, qalanları da Sov. İKP MK-nın və DTK-nın sərəncamına verildi. Bununla bağlı, S.Semanov yazır: «Hər şey müqayisədə anlaşılır. Bax, mətbuat xəbər verir ki, yoxsul Kalmıkıya «prezidentinin» şəxsi avtoparkında avtomaşınların sayı 70-dir. Yetmiş. Hələ şahmat və digər kaşanələrini saymırıq»[14].

Nə Heydər Əliyevin, nə də övladlarının şəhər ətrafında imarətləri, hətta şəxsi maşınları da olmamışdır. Deyirlər ki, Heydər Əliyev oğluna ilk avtomobili onun 26-27 yaşı olanda almışdır.

Heydər Əliyevin məişətdə könlü tox olduğundan, dəbdəbəyə, hərisliyə, varlanmağa pis münasibət bəslədiyindən əvvəlki fəsillərdə bəhs etmişdik. Bəzən onun könül toxluğu həddini aşırdı. Prezidentin qızı Sevil xanım bu sətirlərin müəllifinə söyləyirdi: «Qol saatını onilliklər boyu saxlayırdı. Hətta fotoşəkillərdə də saat siferblatının köhnəlib saraldığı görünür. O, uzun müddət «Seyko» markalı saatı taxardı, elə öyrəşmişdi ki, heç bir başqasını istəmirdi. Ümumiyyətlə, bahalı saat xoşlamırdı. Sonra saatında nəsə sındı, Bəylər də ona təxminən qırx dollarlıq sadə saat aldı. Mən ona təzə saat bağışlamaq istəyəndə, deyərdi: «Bahalı saat lazım deyil mənə, mənim üçün bu rahatdı».

Yadımdadır, o, Cəlal əmi gildə yaşayanda, onun kostyumları mıxlardan asılardı. Bu həmin o vaxtlar idi, qəzetlər onun «var-dövləti»ndən dəm vururdular. Mən uşaqlarımla mehmanxanada qalırdıq. O isə qardaşı evində. Axşamlar onlara baş çəkirdik. Otaqda bir çarpayı vardı. Çarpayı üzərində divara mıxlar çalınmış və o mıxlardan da kostyumları asılmışdı. 1993-cü ildə, artıq Ali Sovetin sədri olarkən, o, bax belə şəraitdə yaşayırdı. Atam gözəlliyi sevirdi, amma cah-cəlala, zinətli əşyalara heç vaxt meyli olmamışdır».

Vadim Medvedevin söylədiklərindən L.Brejnev və H.Əliyevin xasiyyətlərində daha bir oxşar cizgi olduğunu sezmək olar: hər ikisi daima ətrafında olanlarla, öz komanda üzvləriylə ünsiyyətdə xoş zarafata yer verirdilər, bəzən də ərki çatanlara yüngülcə sataşmağı da bacarırdılar.

«Brejnev kənar şəxsləri deyil, məhrəm adamları lağa qoyardı, – V.Medvedev söyləyir. – Onun Blatov soyadlı köməkçisi vardı. Görürdün ki, Brejnev oturub söhbət elədiyi yerdə birdən «Anatoli İvanoviç!» deyə çağırır. «Eşidirəm, Leonid İliç!» – «Dünən axşam sən haradaydın?» – «Öz nömrəmdə». – «Öz nömrəndəmi? Yaxşı...» Onun peferenti vardı, Qalina Doroşina. «Mən Qalya Doroşinaya zəng vurdum, o da yerində yox idi. Bəlkə siz onunla haradasa bir nömrədəydiniz?» – «Xeyir, Leonid İliç, mən tək idim». Qalya da: «Leonid İliç, axı mən öz otağımdaydım!» – «Paho, gör necə özləri-ni təmizə çıxarırlar. Belə təəssürat yaranır ki, doğrudan da bir yerdə olmusunuz...» Hamı gülüşür, Anatoli İvanoviç isə qıp-qırmızı qızarır. Həmişə olan iş idi. Leonid İliç masa arxasından qalxan kimi Blatov bizə pıçıldayırdı: «İndi mənə ilişəcək». Brejnev, doğrudan da, ətrafına göz gəzdirir: «Bəs bizim Anatoli İvanoviç harda əyləşib?».



Beləcə zarafatları vardı, amma yalnız özününkülərlə. O, Anatoli İvanoviçin utancaq olduğunu, uşaq kimi rəng verib rəng almasını bilirdi, ona görə də hər dəfə ona «ilişirdi».

Heydər Əliyev də xoş zarafatı, məzəli «oyun»ları xoşlayırdı. Prezidentlə xarici səfərlərdə iştirak edərkən özüm də belə atmacaların, məzələnmələrin şahidi, hərdən də «hədəfi» olmuşam. Rəsmi danışıqlar, tədbirlərlə dolu yorucu günlərdən sonra o, bir qədər əylənməyi xoşlayar, bamının eyni açılsın deyə, yaxınlardan kimisə atmaca atar, prezident aparatından hansısa məmurla bağlı məzəli əhvalatlar söyləyirdi. Tələtümlü Şimal dənizinə vertolyotla üzən qazma qurğusuna yollanmazdan qabaq qonaqlara kosmonavt geyiminə oxşar kombinezon geymək təklif ediləndə nazirlərimizdən birinin necə təşvişə düşdüyünü «əyani» şəkildə söyləməyi yadımdadır. Nazir prezidenti bu təhlükəli səfərdən daşındırmağa çalışsa da, Heydər Əliyev onun canfəşanlığının əsas səbəbini duyur: «Mənə elə gəlir ki, sən mənim həyatımın yox, öz canının hayındasan. İstəmirsən – uçma. Ancaq bəri başdan istefaya çıxmağın haqqında ərizəni yaz» (əlbəttə, bu sərt sözlər xəfif istehza ilə aşılanmışdı və hərfi məna daşımırdı – *E.A.*). Nazirin həmin «kosmonavt» paltarını geyib Allah amanına pənah gətirməkdən başqa əlacı qalmır. Prezident bu əhvalatı Norveçin Stavanger şəhərində ziyafət zamanı yumorla söylədikdə, gur qəhqəhələrdən divarlar silkələnirdi...

Əlbəttə, belə atmacalar, məzəli oyunlar kin-küdurətdən tamamilə xali idi və «hədəf» olanın izzəti-nəfsinə toxunmurdu.

Yeri gəlmişkən, belə əhvalatlarla bağlı yazılar mənim jurnalist bloknotumda bollucadır, onları «Dövlət danışıqları. Kadr arxasında» şərti adla gələcək kitab üçün «əmanət» kimi saxlayıram.

Brejnevin referenti Qalina Doroşina xatırlayır ki, Baş katib «Əliyevə yaxşı münasibət bəsləyirdi. Əliyevə xeyirxahlıqla yanaşırdı. Əliyev özü çox fəal idi. Moskvaya gələndə Baş katibə mütləq baş çəkərdi. Eşidəndə ki, Brejnev qəbul etmir, təkid edərdi: «Bircə dəqiqəliyə». Və belə bir fəallıqdan sonra adama elə gəlirdi ki, respublikada hər işi təkbaşına özü görür: müraciətnamələri də, raportları da, filan-bəsməkanı da...»[15]

Heydər Əliyevin referenti Turan Hüseynov da söyləyir:

«Moskvada ona böyük hörmətlə yanaşırdılar. Mən Axundova ünvanlanan zəngləri və Əliyevə vurulan zəngləri müqayisə edirdim. Axundovla Sov. İKP MK katibləri öz köməkçiləri vasitəsilə telefon bağlantısı yaradırdılar. Xüsusi kommutator, «VC-molniya». Brejne-

vin Aleksandrov-Agentov soyadlı köməkçisi vardı. O zəng çalıb soruşardı: «Xozəin tvoy u sebə? Skaji emu, pustğ podqotovitsə, s nim budet Leonid İlğiç razqovarivatğ». Amma Heydər Əliyevə onlar, öz köməkçilərini qatmadan, birbaşa zəng vururdular. Mən Baş katiblə dəfələrlə danışmışdım. Axı, «VÇ» aparatı mənim masam üstə idi. «Qaydar tam?» – «Leonid İlğiç, Qeydar Aliev uexal v Karadaqskiy rayon Baku na vstreçu s izbirateləmi. Ə moqu eqo nayti po raüii...» «Ne nado, ne nado bespokoitğ. Koqda priedet, skajite, çto zvonil Brejnev». Çox mədəni insan idi. O, bizə tez-tez zəng vurardı».

**L.Brejnevin mühafizə rəisi V.Medvedevlə söhbətdən:**

**– Brejnev üç dəfə Azərbaycana səfər etmişdir. Bu nədən – onun Əliyevə xüsusi münasibəti ya da «müsəlman» respublikalarına hüsn-rəğbəti izhar etməkdən irəli gəlirdi?**

– Mən hesab edirəm ki, o, Əliyevə yaxşı münasibət bəsləyirdi. Moskvaya gələndə, Heydər Əliyeviç həmişə ömür yoldaşıyla Zareçye-6-ya, Leonid İliçin bağ mülkinə baş çəkərdi. Axşamlar gələrdi. İşgüzar «vizitləri» isə Kremldə olardı. Biz də hərdən zarafatla deyərdik ki, Heydər Əliyev Leonid İliçi Kremldə «cilalayır», ömür yoldaşı isə Brejnevin xanımını bağda...

Leonid İliç Əliyevi, xanımını çox mehriban qarşılayırdı. Onlar hətta «dar dairədə», ailə büsatlarında, məsələn, ad günlərində iştirak edirdilər. Həm də mütləq Heydər Əliyeviçə söz verərdilər. Hamı gülümsəyərdi: «Hə, indi Qafqaz tostuna qulaq asacayıq. O, çox qəşəng, sırf qafqazsayağı bəlağətlə danışardı.

Biz Azərbaycanda qonaq olanda, Əliyev öz ailəsini, o vaxt hələ gənc İlhamı, qızı Sevili təqdim edərdi. Biz, gərək ki, birgə, yadımda deyil, filarmoniya, ya operaya getmişdik. Münasibətlər də lap əla idi. Onlar rəsmi çərçivələri aşıb keçirdi.

**– Bəs Rəşidovla necə?**

– Rəşidov bağa gəlməzdi. Şevardnadze ilə də belə ülfət yox idi. Brejnev Əliyevə sırf insani baxımdan istiqanlı münasibət bəsləyirdi. Onun bir enerjili, energetik insan olduğunu duyurdu. O, öz respublikasında vəziyyəti incəliklərinə qədər bilən, professionallıqla idarə etməyi bacaran adamları çox dəyərləndirirdi.

Heydər Əliyeviçin vaxtında Azərbaycanda üzümçülük necə də yüksəlmişdi! Biz gedəndə, o həmişə bu barədə məlumat verər, Leonid İliçin də lap çiçəyi çırtlayardı!

**– Əliyev rəhbərliyi haqqında hansısa dəyərləndirmə yadınızda qalmayıbmı?**



– Brejnev Əliyevlə söhbətlərindən sonra həmişə qeyd edərdi: «Bu elə bir adamdır ki, ona bel bağlamaq olar».

Bu barədə Brejnevin kürəkəni Yuri Çurbanov da xatirələrində yazır:

«Sov. İKP MK Baş katibinin hansısa «əzizlədiyi» adamı yox idi. Hamı bir «qoşqu»da çalışırdı. Özü də necə çalışırdı! Kunayev, Rəşidov, Şevardnadze, Əliyev, Dəmirçiyan kimi respublika rəhbərləri, məncə, Brejnevə dərin hörmət bəsləyir, amma onun ağzına baxa-baxa qalmır, müstəqil işləyir, Leonid İliçlə məsləhətləşir, bununla belə əksər hallarda **məsuliyyəti öz üzərlərinə götürürdülər** (seçmə bizimdir – *E.A.*)... Leonid İliçin Əliyev, Şevardnadze və Rəşidov haqqında necə xoş fikir söylədiyinin dəfələrlə şahidi olmuşam. Onlar bir çox baxımdan bir-birini tamamlayırdılar... Xüsusən Heydər Əliyev yaxşı yadımda qalıb: enerjili insan, istedadlı natiq. Mənə həmişə elə gəlirdi ki, o, öz respublikasındakı vəziyyətə, həm də hər bir sahədə, əməlli-başlı bələddir».[16]

N.Xruşşov, L.Brejnev, Y.Andropov haqqında geniş əks-səda doğuran kitabların müəllifi, yazıçı və publisist Roy Medvedevlə söhbət əsnasında Brejnev dövründə Siyasi Bürodakı münasibətlərdən danışmasını xahiş etdim. Sovet siyasi Olimpinin dolanbac yollarında qəhrəmanımın necə davrandığını təsəvvür etmək istəyirdim.

**Roy Medvedevlə söhbətdən:**

**« – Heydər Əliyevlə söhbətlərimizin birində o deyirdi ki, Moskvada işlədiyi dövrü onda acı peşmançılıq doğurmuşdur. Siyasi Büro üzvləri arasındakı münasibətlərdə səmimiyyət olmamış, nədənsə ehtiyat edərək, heç bir-birinin evinə qonaq da getməzmişlər. Doğrudanmı, Kremldə belə bir ovqat hökm sürürdü?**

– Bəli. Amma həmişə belə olmayıb. Bu, 1974-cü ildən, Brejnev insult keçirəndən və dövləti idarə etmək qabiliyyətini itirəndən sonra baş verdi. O vaxtdan «taxt» ətrafında çəkişmələr başlandı. O zaman onun əhatəsində çox güclü şəxsiyyətlər vardı. Qromıko da, Ustinov da, Kosıgin də sanballı adamlar idi. Və Stalin dövrünün marşalları hələ sağ-salamat, tam təpərli idilər.

İlkin dövrün Brejnevi – parlaq intellekt sahibi olmasa da, şuxgümrah, yapışıqlı-yaraşıqlı, görklü bir kişi idi. Qadınların ürəyi qonan, əhli-kef, yeyib-içən, maşınları «çapmağı» xoşlayan. Yəni əvvəllər atmosfer bam-başqa, məhrəmanə idi. Və birdən o xəstələndi. Hakimiyyət uğrunda çəkişmələr başlandı, bir-birinə qarşı intriqalar

quran bir neçə qruplaşma əmələ gəldi. Brejnevin bir daxili, gözdəniraq «kabineti» vardı. Bütün vəsaitlər, Kreml «pay»ları, bağ malikanələri və s. sərəncamında olan işlər müdiri, bir də təşkilat şöbəsinin müdiri. Bunlar bir növ kölgədəki liderlərdi ki, maddi ehtiyatlar əllərində ola-ola kimisə satın ala, kimisə fikrindən daşındıra bilərdilər. Onlar hakimiyyət iddiasında olmayaraq Brejnevi dəstəkləyir, ona insanları və vəsaiti istədiyi kimi «fırlatmağa» imkan verirdilər. Kosıginin də öz dəstəsi vardı. O, beynəlxalq işlərdə də böyük rola iddiaçı idi. Kosıgin intellektual baxımdan Brejnevdən üstün idi. Andropov da güclü lider idi. Amma Kosıginlə araları saz deyildi. Siyasi Büroda Qromıko yetərincə nüfuz sahibi idi və onlar Kosıgin qrupuna qarşı duran Qromıko-Ustinov-Andropov üçlüyü yaratmışdılar. Kırılenko da öz dəstəsini saxlayırdı. O, həmin dövrdə partiyada ikinci adam idi. Bu, «Sverdlovsk qruplaşması» deyilən dəstə idi. Onun da öz adamları vardı. Hamısı da liderlik iddiasında, Brejnevə təsir göstərməyə can atırdılar.

**– Bunlar 1974-cü ildən sonra baş verənlərdir?**

– Bəli. Fitnə-fəsad, qarşılıqlı bədgümanlıq dövrü başlandı. Stalinin qürub çağlarında olduğuna bənzər atmosfer yarandı. O vaxtlarda da, deyək ki, Malenkov Xruşşovgilə qonaq gələ bilməzdi. Stalin bunu xəyanət kimi yozardı. Stalin, Siyasi Büro üzvlərinin rəsmi görüşlərindən kənar, yəni özü olmadığı yerdə görüşmələrini istəməzdi.

Brejnev dövrünün ilk illərində belə şeylər yox idi. Axı, ilk on il boyu Brejnev bircə Siyasi Büro üzvünü, bircə MK katibini kənarlaşdırmamışdı. Demişdi: «Sabitlik. Heç kim də gedəsi deyil». Heç kəs də öz vəzifəsinə görə nigaran qalmır, hamı canla-başla çalışır, dostluq edirdi. Yalnız 1974-cü ildən kənarlaşdırmalar başladı, Mazurovu, Podqornını çıxartdılar. Heydər Əliyev bax belə bir qəliz atmosferə düşmüşdü.

**– Həmin intriqalar müttəfiq respublika rəhbərlərinə də təsir göstərirdimi? Onlar da hansısa qrupa qoşulmalıydılarmı? Ya onlara bu çəkişmələrin dəxli yox idi?**

– Onlar kimin hansı məsələni həll etdiyini bilməliydilər. Bu intriqaların məğzindən agah olmalıydılar. Amma baş qoşmamalıydılar. Onlara bunun dəxli yox idi. Onlar öz yerlərində liderlərdi. Daxili çəkişmələrə isə buraxılmırdılar. Əlbəttə, Siyasi Büro üzvü ya üzvlüyə namizəd deyildilərsə. Hərçənd, 1976-cı ilin noyabrından, Heydər Əliyev Siyasi Büro üzvlüyünə namizəd seçildiyinə görə hər şeyi bilməli idi».



H.Əliyevin rusiyalı bioqrafı Nikolay Zenkoviçin qənaətinə görə, «Heydər Əliyeviç, L.İ.Brejnevlə, A.N.Kosıginlə, Y.V.Andoropovla, Sovet İttifaqının digər rəhbərlərilə yaxşı münasibətlər quraraq, öz millətinin əsl lideri kimi müdrik hərəkət edirdi. Bu da respublika üçün əlavə fondlara, limitlərə «yol açmaqda» kara gəlirdi... Və Heydər Əliyeviçin Brejnevlə, onun əsabələrilə dostluğundan nə yazırdılarsa, nə deyirdilərsə – hamısı sadəcə paxıllıqdan, Moskvanın nüfuzlu dairələrində xidməti və şəxsi əlaqələri qurmağı bacarmayanların acizliyindən irəli gəlirdi. Axı, hər bir müttəfiq respublikanın iqtisadiyyatı mərkəzləşdirilmiş, plana əsaslanan inzibati-amirlik sisteminin tərkib hissəsi olduğundan yalnız ümumittifaq mənafelər üstün tutulurdu.

Ona görə cürbəcür fəndlərə əl atmaq lazım gəlirdi ki, respublikaya, hasil edilmiş ümumi məhsuldan heç olmasa bir hissə pay qalsın. Məqsəd bir idi, nəcib idi: inkişaf templəri və xalqın yaşayış səviyyəsi arasındakı uyğunsuzluğu azaltmaq» [17].

## Baş katibə verilən hədiyyələr haqqında

Heydər Əliyev istefaya çıxandan sonra Siyasi Büronun sabiq üzvünün Azərbaycanda nüfuzunun yenidən artmasından xoflanan opponentləri onu gözdən salmağa cəhd edəndə, Baş katib Brejnevə yaxınlığını da «başına qaxınc» etməyə çalışırdılar. Hər vasitəyə, bayağı qiybətlərə, ağlasığmaz iftiralara əl atırdılar.

Belə ki, Qorbaçov «yenidənqurma»sı dövründə H.Əliyevə qarşı irəli sürülən ittihamlardan biri də Brejnevin Azərbaycana son səfəri zamanı guya Baş katibə bağışladığı əfsanəvi üzük olmuşdu. Heydər Əliyev özü hansısa üzük-müzük bağışladığını qəti inkar edirdi: «O, Bakıya gələndə, təyyarədən trapla aşağıya enəndə, barmağındakı üzük gözümə dəymişdi. Məndə təyyarə limanındakı görüşün fotoşəkli var, üzük də apaydın görünür, amma Bakıda ona heç kəs heç bir üzük bağışlamayıb. Yeri gəlmişkən, belə iddialı yazısına görə «Smena» jurnalı mənə rəsmi üzrxahlığını bildirmişdir»[18].

Mən «başabəla» üzük haqqında, şübhəsiz, məlumatlı olan bir adamdan, Baş katibin sabiq mühafizə rəisi Vadim Medvedevdən soruşdum.

« – Heydər Əliyevin guya Brejnevə bağışladığı brilliant əhvalatı nə deməkdir?»

– Cəfəngiyatdır. Brejnev heç vaxt daş-qaşlı üzük gəzdirməzdi, üstü möhürlüsünü isə bizə də göstərmişdi: «Baxın, necə «peçatka»

bağışlayıblar mənə». Üstündə «L.İ.» həkk olunmuşdu. Daş-qaş ömründə gəzdirməzdi. O, həmin möhürlü üzüklə də Bakıya gəlmişdi. Bu, Əliyevin hədiyyəsi deyil. Respublika adından hədiyyələr olmuşdu, amma bələləri yox. Bundan başqa, axı hədiyyə sırf insani münasibət işarəsidir».

Bir neçə il sonra üzük «sirri»ni öz kitabında Brejnevin kürəkəni Y.Çurbanov açır:

«İndi hamı Əliyevin üstünə düşüb ki, Azərbaycanda Leonid İliçə çox qəşəng və bahalı bir üzük bağışlayıbmış. Əvvəl bu üzük haqqında Qdlyan car çəkdi, sonra da jurnalistlər bu söhbətə qarışmağa başladılar. Artıq burada, koloniyada, mən bu mövzuda neçə mətbu yazı oxumuşam. Əliyev müsahibəsində özü deyir ki, Leonid İliçə heç bir üzük bağışlamayıb. Di gəl, Əliyevə heç kim inanmır. Mən isə şahidəm ki, o, həqiqəti deyir: bu üzüyü Leonid İliçin yetmişilliyi günündə oğlu Yuri ona bağışlamışdı. Həmin üzük tezliklə də artıq yaşa dolmuş Baş katibin sevimli oyuncağına çevrilmişdi. – Axı, oğlundan yadigar idi. Mən DİN-də işlədiyim zaman bizdə, Heydər Əliyevin xidməti vəzifəsindən sui-istifadə etməsi barədə, mən bilməni, heç bir siqnal olmamışdı»[19].

Necə deyərlər, şərhə ehtiyac yoxdur. Çurbanov Azərbaycan KP MK birinci katibinə «bəraət qazandırmaq» üçün heç bir təməlla güdmürdü. Hər ikisi işdən kənarlaşdırılmış, Çurbanov isə yuxarıdakı sətirləri «qəfəs»ə salınandan sonra yazmışdır. Bu səbəbdən də Brejnevin sabiq kürəkəninin səmimiyyətinə, obyektivliyinə, bir çoxları kimi Rusiyanın təzə hökmdarlarına xoş gəlmək üçün ümumi şəbihlərə uymadığına, H.Əliyevə şər atmağı özünə rəva bilmədiyinə görə təşəkkür etmək olar...

Yeri gəlmişkən, hərdən hədiyyələr də olurdu və mən bunda heç bir qəbahət görmürəm. Brejnevin xanımının V.Karpov tərəfindən qələmə alınan xatirələrində belə bir epizod var. Viktoriya Petrovna söyləyir ki, ərinin ölümündən sonra Mərkəzi Komitənin ümumi şöbəsindən yanına gəlib Leonid İliçə ad günü, xüsusən də 70 illiyi münasibətilə respublikalar və vilayətlərdən təqdim edilmiş hədiyyələrin qaytarılmasını tələb edirlər.

«...Sonra dedilər: «Sizdə bir qızıl vaza olmalıdır». – «Bilmirəm, – dedim, – qızıldandı ya yox, budur, bax, qutusuz bir vaza – onu dolabın üstünə qoymuşam. Gendən baxanda – qızıl kimidir. Üstündə Lyonyanın portreti var. «Ot naroda Azerbaydjana» yazılıb... Apardılar. Yoxladılar. Məlum oldu ki, qızıldan yox, gümüşdəndi, üzərinə qızıl suyu çəkilib. Amma qaytarmadılar...»[20]



Sov. İKP Mərkəzi Komitəsinin Baş katibinə yubiley münasibətilə respublikalar, vilayətlər nələr bağışlamırdılar ki... qat-qat bahalı hədiyyələr də. Məsələn, Yakutiya ustaları «morj» dişindən (başqa məlumatlara görə mamont dişindən), nadir brilliantlar və digər qiymətli daşlarla süslədirilmiş cam-«çoron» hazırlamışdılar. Xarici dövlət başçıları isə, Baş katibin maşın azarını bilərək, ona son markalı «linkoln»lar, «mersedes»lər peşkəş edirdilər...

Hətta çox-çox sonralar kitabımın qəhrəmanına Brejnevə, Andropova «xüsusi yaxınlığını» bağışlaya bilməmişdilər, o cümlədən Heydər Əliyevin özünə dost saydığı adamlar... Elə Georgi Arbatovu xatırlayaq, həmin Arbatovu ki, V.Mustafayevin «Birinci» filmində Heydər Əliyev haqqında SSRİ-də korrupsiya ilə mübarizəyə başlamış ilk rəhbər kimi çox xoş sözlər söyləmiş, həmin akademik Arbatov ki, SSRİ Ali Sovetinə Azərbaycanın Şamaxı rayonundan deputat seçilmişdi, 2002-ci ildə çıxan «Sistem adamı» kitabında Heydər Əliyevin ünvanına bir neçə dolayısı, lakin təhqiramiz eyhamlar tuşlamağı özünə rəva bilmişdir. Gah 358-ci səhifədə o, Əliyevin guya Brejnevə bağışladığı daş-qaşlı üzük haqqında «çağrılmış bayatı»nı təkrarlayıb deyir ki, Baş katib «hər şeyi unudub, milyonlarla Sovet televiziya tamaşaçılarının gözü qarşısında» həmin zinətin seyrinə dalırmış; gah da 359-cu səhifədə Brejnevin xüsusən yaxın adamlarına qarşı «arsız liberallıq və güzəştkarlığı»ndan yazır və bu «əsabələrin» sırasına Şşolokov, Medunov, Rəşidovla yanaşı Heydər Əliyevi də qatır... Müəllif şübhəsiz hörmət bəslədiyi Andropovun nöqsanlarından birini onda görür ki, onun dövründə «və, əlbəttə ki, təşəbbüsüylə Əliyev və Romanov ən yüksək vəzifələrə irəli sürülmüşdülər».

Qorbaçovun Andropov tərəfindən irəli sürülməsini G.Arbatov sonuncunun uğuru sayır, Əliyevə həyanlığını isə uğursuzluğu bilir... Andropov «H.Ə.Əliyevə himayədarlıq edirdi, hərçənd, – mən buna tamamilə əminəm – o, sonuncunun sonralar ittiham edildiyi qaranlıq işlərə nəinki qatılmamış, sadəcə xəbəri də olmamış, onun (yəni Əliyevin – *E.A.*) qabiliyyətini və xarakterini incələməmişdi. Andropovun təsəvvüründə Əliyev, altmışıncı illərin sonlarında korrupsiyaya qarşı mübariz kimi necə görünürdüsə, elə də qalmışdı»[21].

Bax, belə, – açıq-aşkar... Görəsən, möhtərəm akademik haçan səmimi idi: bu sətirləri yazanda, ya Azərbaycandan deputat seçilib iqtidar zirvəsində olan Heydər Əliyevin yaxşılıqlarından faydalananda? Həqiqətən, ikiüzlülüyün həddi-hüdudu yoxdur!..

Sonuncu Baş katibin əzizlədiyi köməkçisi Georgi Şahnazarov da, Heydər Əliyevə qarşı kin-küdurətini çətinliklə pərdələyərək, «Rəhbərlərlə və onlarsız» kitabında H.Əliyevin guya Brejnevə bağışladığı əfsanəvi «qiymətli brilliantlar» haqqında qaravəllini səsləndirir (maraqlıdır ki, həmin brilliantları heç kim görməsə də, hər yetən onları hallandırır!). Bunun müqabilində Şahnazarovun yozumunda Qorbaçov abır-həya və təvazökarlıq mücəssəməsidir, dövlət başçısı olanda, «ona təqdim edilən bütün qiymətli hədiyyələri təhvil verirdi»[22].

Bəlkə də təhvil verirmiş, amma İsveçrə banklarında hesablar da açır, Fransadakı ermənilərdən misilsiz «xonça»lar da qəbul edirdi...

Qorbaçovun və onun arvadı Raisa Maksimovnanın «kübar» ədabazlıqlarından yetərincə yazılsa da, bir-iki şəhadətə istinad edək.

1984-cü ildə Qorbaçovun Londona səfəri zamanı Raisa Maksimovna paytaxtın dəbdəbəli «Kartye» mağazasından 2.500 dollara brilliant sırğalar almış və haqqını «Ameriken ekspress» kredit kartı ilə ödəmişdi. Bu misli görünməmiş, ağlasığmaz bir hadisə idi: «Əvvəllər heç vaxt heç bir Sovet İttifaqı rəhbəri, illah da ki, onun xanımı «Ameriken ekspress»ə malik olmamışdı; onun mövcudluğu sahibinin Qərb banklarının birində hesabı olduğunu, yaxud çox güman ki, belə hesablara malik olan Sovet hökuməti tərəfindən xanımın aldıqlarının haqqının ödənilməsini bildirirdi»[23]

Məşhur disssident yazıçı Vladimir Bukovskinin (bu həmin o şəxsdir ki, Çili kommunistləri lideri Luis Korvalanla «dustaq mübadiləsi» yoluyla dəyişdirilmişdir) Qorbaçova verdiyi öldürücü xasiyyətnaməni də xatırladırıq:

Andrey Karaulov ondan soruşur: « – Sizin Qorbaçova yazığınız gəlirmi?

Bukovski:

– Əsla, – cavab verir. – Yaramazın biridir. O, elə bilir ki, tarixi aldatmaq da, iqtisadiyyatı tovlamaq da, cənnətə varmaq da olar, özü də heç kəsin xəbəri olmadan... Qorxaqdır. Litvanı partlada bilmir... Başladı, başladı, qorxdu... Gürcüstan – başladı, başladı, qorxdu... Bakı – başladı, başladı, qorxdu... Odurmu dünyanı partladası? Bunu Trotski deyə bilərdi ki, «biz çıxıb gedəcək, qapını da çırpacayıq». Trotski qapını çırpdı da, Qorbaçov isə bacarmaz. Onun İsveçrə bankında hesabı, Raisa Maksimovnanın brilliantları var. O (Raisa Maksimovna – *E.A.*) yaşamaq istəyir.

– Hesabı var? Bunu bilirsinizmi?



– Bilirəm, məndə bu əmanətlərin sayları yoxdur, amma məlumat tamamilə dəqiqdir»[24].

Yeri gəlmişkən, elə həmin Leonid İliçə Stavropol diyarının birinci katibi müntəzəm olaraq hədiyyələr verirdi. Bu barədə danılmaz şəhadət də var. Qorbaçovla Stavropol vilayət komitəsində işləmiş Viktor Kaznaçeyev «Sonuncu baş katib» («Posledniy qensek») kitabında xatırlayır:

«Baş katibin Bakıdan geriyə qayıdan qatarı Stavropoldan keçəndə «hakimi-müəzzəmləri» qarşılamağı mənə tapşırdılar. Səhər saat 5 idi. Əyininə idman kostyumu geymiş Konstantin Ustinoviç (Çernenko – *E.A.*) çıxıb məhrəmanə tərzdə: «Heç kəsi oyatmayaq, – dedi. – Qoy yatsınlar». Bərəkətli diyarın töhfələrilə dolu qutuları vaqona daşıdılar. Və qatar yerindən tərpəndi»[25].

## Qonaq evinin inşası

Dildən zirək qəzetçilərin Əliyevin daha bir «bağışlanmaz günahı» kimi qələmə verdikləri guya Brejnev üçün tikilən qonaq evi olmuşdu. Bu barədə Əliyev özü tam aydın açıqlama vermişdi: «Azərbaycanda Brejnevin şərəfinə saray tikilməsi məsələsi... Bu da yalandır. Azərbaycan böyük respublikadır. Bakı da böyük şəhərdir. Moskvadan, xarici ölkələrdən Bakıya çox qonaqlar – prezidentlər, baş nazirlər, krallar gəlirdilər. Lakin belə adamları yerləşdirmək üçün qonaq evimiz, rezidensiyamız yox idi...

Odur ki, qonaq evi tikməyi qərarlaşdırdıq və bu çox uzun çəkdi, çünki qonaq evinin inşasını böyük tikinti təşkilatlarına deyil, kiçik inşaat trestinə həvalə etdik... Orada Brejnevdən başqa xarici ölkələrin dövlət başçıları, nümayəndələr yaşayıblar.

«Brejnev üçün ev tikilib» məfhumunun özü gülünc və məntiqsizdir. Məgər Brejnev Bakıda yaşamalıydı ki, ona ev tikək? Bir də, kim güman edə bilərdi ki, Brejnev Bakıya gələcək, ya gəlməyəcək? Mən çox şadam ki, o ev tikilib. O, həm xarici, həm də daxili quruluşuna görə gözəl memarlıq abidəsidir. Əgər belə bir memarlıq nümunəsini Azərbaycan xalqı üçün tikib qoymuşuqsa, deməli, xeyirxah iş görmüşük»[26].

**A.Karaulovla müsahibəsindən**

«...Müxtəlif regionlarda, xüsusən kurort zonalarında bir də ildə ən yaxşı hallarda bir-iki dəfə istifadə olunan iri hökumət malikanələri istədiyinizcə var. Mən bunu yaxşı bilirəm. Bəs niyə belə nə-

həng imkanları olan respublikada – Azərbaycanda qonaqları layiqincə qarşılamaq üçün bircə-yeganə iqamətgah tikmək olmazmış?»[27].

Doğrudan da, qəribə məntiqdir, başqasının gözündə çöpü görən öz gözündə tiri görmürdü. Heydər Əliyev on dörd il bütöv bir respublikaya rəhbərlik etdiyi dövrdə yerli vəsait hesabına qonaqlar üçün bircə abırlı ev tikdirdiyi halda, Qorbaçov Kislovodskda, «Mineralnı Vodı»-da, Jeleznovodskda ölkə rəhbərləri üçün imarətlər yapırdı. Viktor Kaznaçeyev yuxarıda xatırladığımız «Sonuncu baş katib» kitabında yazır ki, Qorbaçov Stavropol diyarında əsas qayəsinə çevrilmiş «təmtəraqlı istirahət undustriyası» yaratmışdır. Hər şey Qorbaçovun Kremlin saray təbibi Yevgeni Çazovla tanışlığından başlamışdı. Çazov Stavropola gələndə Qorbaçov işini-gücünü buraxıb bütün günlərini «Kreml allahları» mühitində hökm sürən adət-ənənələrə və xüsusilə hamıdan yaxşı bələd olan baş «loğman»la keçirərdi.

Məhz Çazov, Kaznaçeyevin iddia etdiyinə görə, Mixail Sergeyeviçi inandırmışdı ki, hər şey elə təşkil olunmalıdır ki, ölkənin ali rəhbərliyi istirahət üçün şəfalı Stavropol diyarına gəlməyə can atsın.

Tezliklə DTK-nın 9-cu idarəsinin inşaat qüvvələrilə Kislovodskda pioner düşərgəsinin yerində dəbdəbəli dövlət malikanəsi ucaldıldı. Andropov isə Çazovun təhrikiylə Stavropola baş çəkməyə başladı. İndi Qorbaçovlar cütlüyü öz məzuniyyətlərini Andropovun istirahət dövrünə uyuşduraraq Qafqaz Mineral Sularında birgə dincəlməyə başladılar. Belə çıxır ki, Heydər Əliyev Kremldəki nüfuz və hörmətini öz nəhəng zəhməti, parlaq rəhbərlik qabiliyyətilə qazanmış, Qorbaçov isə MK katibi kreslosuna yalnız «lazımi vaxtda lazımi yerdə» olduğu sayəsində əyləşmişdir. Bu barədə Qorbaçovu yaxşı tanıyan, «yenidənqurma» dövründə fəaliyyətini «içəridən» izləmək imkanı olan Roy Medvedyev də mənimlə söhbətində söz açmışdı:

«Qorbaçov bir zəif əyalət lideri idi, o, nə Azərbaycandan, nə Gürcüstandan gəlməmişdi ki, – orada rəhbərlik edən adam beş il ərzində lider keyfiyyətlərinə yiyələnir, çünki bütöv bir məmləkətə başçılıq etmiş olur. O, kurort yerindən, hər şeyin öz qaydasında, iqtisadi durumun əla olduğu, heç nəyi çözmək-düzmək lazım olmadığı Stavropol diyarından gəlmişdi. İşin odur ki, Mineralnıe Vodıda Siyasi Büro üzvlərinin pişvazına çıx, sanatoriyalarda yerbəyer elə. Hər birilə söhbətləş və faydalı ilgilər yarat».

Həqiqətən də «öldürücü» xasiyyətnamədir. Bu dəyərləndirməni vaxtilə Bi-Bi-Si şərhçisinin Sov. İKP MK-nın yeni katibinə şamil etdiyi bənzətmə tamamlaya bilər: «Qorbaçov – bir əyalət vəkili səviyyəsi deməkdir».



Lakin gəlin Bakıda qonaq evi tikilməsinin tarixçəsinə qayıdaq. Bu niyyətə təkan verən səbəblərdən biri də Azərbaycana ABŞ prezidenti səfərinin baş tutmaması ilə bağlıdır. O zaman respublika hökumət başçısının müavini vəzifəsində işləmiş Süleyman Tatlıyev xatırlayır:

«1978-ci ildə SSRİ-yə ABŞ prezidenti Riçard Nikson səfər etməliydi. Deyirdilər, o Moskvaya gələcək, sonra Bakıda gecələyib ertəsi gün obaşdan İrana uçacaq.

İttifaq DTK-sından bizə qəbul şəraitini yoxlamağa gələn əməkdaşlar belə hesab etdilər ki, bu cür yüksək qonağı qarşılamaq üçün bizim imkanlarımız yoxdur. Bizdə Niksonu, onun mühafizəçilərini yerləşdirməyə münasib qonaq evi yox idi. Heydər Əliyeviçin qanı yamanca qaraldı. Elə o vaxt da xarici ölkə rəhbərlərini, yüksək səviyyəli qonaqları qəbul etmək üçün xüsusi iqamətgah tikdirmək fikrinə düşür. Axı belə şəxslər təşrif buyuranda respublikanın bir çox problemlərini çözmək olardı.

O, layihəçiləri çağırıb ən qısa müddətdə yeni qonaq evi layihəsinin hazırlanması haqqında göstəriş verdi. Mənə də inşaata nəzarət etməyi tapşırdı, şərt qoydu: Azərbaycanda Sovet hakimiyyətinin 60-cı ildönümü günündək bina hazır olmalıdır.

Biz bu obyekti çox tez, təxminən səkkiz-doqquz aya tikdik. Hər istirahət günü Heydər Əliyeviç işlərin gedişatını yoxlamağa gəlirdi.

O illərdə Heydər Əliyevin rəhbərliyi sayəsində üzümçülük sürətlə inkişaf edirdi. Və bir dəfə inşaat meydanına gələndə o mənə dedi: «Fikirləş, yaxşı olardı ki, əsas çılçıraq üzüm salxımı şəklində hazırlanaydı».

Mən dizaynerləri çağırdım, kağız üzərində eskiz cizgiləyib Heydər Əliyeviçə təqdim etdik.

O, eskizi bəyəndi:

– İndi fikirləş görək bu çılçırağı harada sifariş edə bilərik? – dedi.

Çılçırağı Avstriyada sifariş verdik, orada ustalar işin öhdəsindən tez də gəldilər. Divarları milli ornamentlə naxışladıq. Heydər Əliyev hər şeyə özü nəzarət edirdi. Əvvəlki layihədə başqa ornamentimiz vardı, lakin Heydər Əliyeviç onu rədd etdi.

– Burada milli ruh öz əksini tapmayıb, – dedi. – Gedin Şirvanşahlar Sarayına, oradan ornament köçürün, mən də gələn həftə baxaram!..

Biz qədim ornamenti köçürüb ona göstərdik. Bu variantı bəyəndi. Beləliklə, üzərində naxışlar yonulmuş mərmər divarlar alındı. Yəni dizayn, daxili interyer milli ənənələr üslubunda işlənmişdi, salxım-çılçıraq isə Azərbaycanın daha bir rəmzini – üzümçülüyü əks etdirirdi.

İlk ali qonağımız Leonid İliç Brejnev oldu. Eyni zamanda «Gülüstan» sarayı da tikildi. Bizdə böyük bayram tədbirləri, ziyafətlər keçirmək üçün layiqli bir yer yox idi. Odur ki, Heydər Əliyeviç sarayın tikilməsi barədə göstəriş verib bu işi o vaxt Nazirlər Soveti sədrinin müavini olan Ləmbəranskiyə həvalə etdi.

Hər iki binanı eyni vaxtda təhvil versək də, Brejnevin gəlişi şərəfinə ziyafət «Moskva» mehmanxanasının restoranında təşkil olundu.

Heydər Əliyevi sonralar bu inşaata görə qəzetlərdə xeyli «qınasalar da», həmin tikintilər zəruri idi...

...Bir dəfə, mən hələ Nazirlər Sovetində işlər müdiri olanda, Heydər Əliyev məni Zuğulbaya, birinci bağ malikanəsinə çağırdı.

– Gedək, – dedi, – bir yeri sənə göstərmək istəyirəm.

Məni dənizə, gözəl bir mənzərə açılan parka gətirdi.

– Süleyman, mənim burada bir qonaq evi tikdirmək fikrim var.

Zuğulbada onun balaca ikimərtəbəli bağ evi vardı. Qonşuluqda Nazirlər Soveti sədri, MK-nın ikinci katibi və Ali Sovetin Rəyasət heyətinin sədri qalırdılar. Hələ M.C.Bağırov vaxtında tikilmiş mülk idi.

– Mikayıl Hüseynovu buraya dəvət elə, bu guşəni göstər, qoy burada bir qonaq evi layihələşdirsin. Qara dəniz sahillərində gör nə qədər qonaq evləri var! SSRİ rəhbərlərinin hamısı orada dincəlirlər. Elə şərait yaratmaq lazımdır ki, bizim tərəflərdə də istirahət etsinlər, biz də onlarla «yolüstü» respublika problemlərini həll edə bilək.

Həmin qonaq evini tikdik. O, özü orada qalmazdı, ancaq qonaqlarını qəbul edərdi. Bunda da onun təvazökarlığı özünü göstərirdi. Başqası onun yerində olsaydı, əlüstü belə bir gözəl imarəti özününküləşdirərdi...

Sonralar onu guya Brejnevi qəbul etmək üçün kaşanələr tikdirməsində nə qədər günahlandırsalar da, hesab edirəm ki, onun yaratdıqları da azdır. Son nəticədə bütün bunlar respublikaya qaldı, Bakının özündə də hələ nələr tikmək olardı...



Lənkəranda, Xanbulançay dəryaçasında daha bir qonaq evi inşa etdik. Az sonra Finlandiya prezidenti Urho Kaleva Kekkonen orada istirahət etməyə gəldi. Mən onu müşayiət edirdim. Bir neçə il sonra, 1982-ci ilin oktyabr ayında, Fin Respublikasının yeni prezidenti Mauno Koyvisto da Azərbaycana gəldi, Lənkəranda üç-dörd gün qaldı. Sən demə, əməlli-başlı balıqçı imiş.

– Burada balıq ovu yerləri varmı? – soruşdu.

Yaxınlıqda durna balıqları yetişdirilən bir kanal vardı. Qonağı oraya apardım. Əvvəlcədən DTK-nın cavan işçilərindən bir-iki diri nərə balığını tapıb suya buraxmağı ismarladım ki, nə yoğurub nə yapsın, hazırca «kökə» tapsın. Cavanlar xahişimə əməl etdi. Demək, birinci balığı ilişdirib çıxardı. Di gəl, balığın hayı gedib, vayı qalıb. Mən də təpikləyirəm ölüsünü ki, qonaq duyuq düşməsin. Uşaqları qınadım.

– Zərər yox, – dedilər, – ikincisi yaxşı olacaq.

Doğrudan da, o birisini tutanda, hər şey öz qaydasında oldu.

Koyvistodan fərqli olaraq, Kekkonen voleybol həvəskarı idi. Biz qonaq evinin qarşısında tezliklə voleybol meydançası quraşdırdıq, idmançıları da cəlb etdik ki, oyundaşları olsun. Onunla şəhəri gəzib dolanırdıq, o, camaatla ünsiyyətə girir, söhbətləşirdi. Qonaqlarımız ən xoş təəssüratla qayıdırdılar».

## Leonid İliçin məruzələrini çaş salması

1982-ci ilin sentyabrında Bakıya gələn Brejnev artıq ağır xəstəlik keçirən, heydən düşmüş ixtiyar adam idi, odur ki, səfər zamanı bəzi qəribə əhvalatlar baş vermişdi.

Brejnevin çoxsaylı köməkçiləri vardı və onların statusları illər ötdükcə xeyli artmışdı. Hamısı Dövlət mükafatı, biri isə – Aleksandrov-Agentov Lenin mükafatı almışdı. Həmin köməkçilər də öz qocaman liderlərini bəzən «güdaza verirdilər».

İş ondadır ki, Brejnev nəinki məruzə və nitqlərini, hətta qısa təbrikləri də kağızdan oxuyurdu. R.Medvedyev yazır: «Auditoriya qarşısında məruzə ilə çıxış etmək vaxtı çatanda Brejnev hazırlanmış mətni sözbəsöz üyüdür, Xruşşov kimi az qala hər çıxışını özbaşına haşiyələrlə naxışlamağa yol vermirdi. Qarşısında yazılı mətn olmadan Brejnev özünü tam aciz hiss edirdi. Ona görə də xarici müxbirlərin proqramlaşdırılmamış suallarını cavablandırmalı olacaq mətbuat konfranslarına o, demək olar ki, heç vaxt girişmirdi. Müsahibə

verməyi də nə doğmaca Moskvada, nə də başqa ölkələrə səfər zamanı – xoşlamırdı»[28].

Leonid İliç kağızda yazılmış hazır mətnlərə o qədər «bel bağlayırdı» ki, bu sadəlövh arxayınçılıq bəzən məzəli vəziyyətlərə gətirib çıxarırdı. Belə bir əhvalat Bakıda da baş verdi. Bu barədə V.Pribıtkov «Aparat» kitabında yazır:

«Azərbaycanın 60 illiyinə həsr olunmuş* təntənəli iclasda Brejnevin canfəşanlıq edən çoxsaylı əyanları ona burada deyil, tamam başqa yerdə, ertəsi günü söyləyəcəyi mətni «sırımışdılar». Bir neçə dəqiqə Baş katib səylə, can-başla, höccələyə-höccələyə yazılanı oxuyaraq, arxadan səslənən replikalara məhəl qoymadı. Axır-axırda köməkçisi kürsüyə yaxınlaşıb onun qoltuğundan tutub çəkdi.

– A-a-a? – Brejnev qanrıldı və tamamilə başqa mənzənin nüsxəsini alıb salondakılara üz tutaraq gülümsədi:

– Məndə günah yoxdur, yoldaşlar!

Hamı bu zarafatyana etirafa nəinki güldü, hətta bolluca əl çaldılar da.

Bu əhvalatın heç bir neqativ sonucu olmadı. Təqsirkar isə iki nəfər – köməkçi Aleksandrov-Agentov və mühafizə rəisi general Ryabenko idi. Məhz mətnlərin birinci nüsxələrini diqqətlə «qoruyan» Ryabenko son anda Brejnevə bambaşqa vərəqələri ötürmüşdü»[29].

Lakin mənim müsahiblərim baş verənlərin və axırda kimin Brejnevə lazımi vərəqləri çatdırdığının fərqli versiyasını söyləmişdilər.

Zakir Abdullayev həmin epizodu belə yada salır: «1982-ci ildə, Brejnevin Moskvadan gəldiyi, kürsüyə qalxıb nitqini kağızdan oxumağa başladığı vaxt Heydər Əliyeviçin risqli hərəkəti yadımdadır: «Əziz əfqanlar!» Heydər Əliyeviç yerindən qalxıb hamının gözü qabağında Baş katibin köməkçisi Aleksandrova yanaşdı, çıxış mətnini ondan alıb Brejnevin qarşısına qoydu, əvvəlkini isə geriyə götürdü. Brejnev baxıb gördü ki, bu ayrı mətndir və dedi: «Yoldaş azərbaycanlılar, günah məndə deyil». Ona səhvən Əfqanıstan haqqında məruzəni vermişdilər».

Görək bu epizod Rusiya jurnalisti Oleq Tsıqanovun və Baş katibin mühafizə xidməti əməkdaşı Vadim Medvedyevin nəqlində necə səslənir:

* Müəllif səhv edir: Sovet Azərbaycanın 60 illiyi 1980-ci ildə qeyd olunmuşdu; 1982-ci ildə keçirilmiş təntənəli iclas isə respublikaya üçüncü Lenin ordeni təqdim olunmasına həsr edilmişdi.



**Oleq Tsıqanov** – Leonid İliç sadəcə çaşıb «Azərbaycan» kəlməsinin yerinə «Əfqanıstan» sözünü işlətmişdi. Burda, yadımdadır, Heydər Əliyev qurcalandı, hamı gülümsündü. Amma birinci səhifə normal ötdü, bitdi, keçdi ikincisinə. Sonra isə bir dəqiqə keçər-keçməz mətn bambaşqa səmtə yönəldi – nə mövzuya, nə bugünkü görüşə dəxli yox idi. Brejnev özü də anladı, Heydər Əliyeviç də danıxdı, boylandı, kimisə səslədi. Arxada oturan Aleksandrovu çağırdı. Köməkçi Brejnevə yanaşdı, o isə köməkçini əsəbiliklə kənarlaşdırdı. Onda Heydər Əliyeviç özü kağızları götürüb Baş katibə yaxınlaşaraq dedi ki, çaşqınlıq olub, bu mətn oxunmalıdır. Əvvəlki məhdud görüşdə ya parlamentdə, ya da hardasa başqa yerdə oxuyacağı variant idi.

**Vadim Medvedyev** – Yox, orada bir səhifə aradan düşmüşdü. Çıxış gedir, səhifə də çatışmır, kontekst də pozulur. Axı sonra bunlar çək-çevir edilmişdi ki, bu nə üçün, necə olan işdi. Səhifə düşübmüş. Brejnev özü də duymuşdu ki, nə isə qaydasında deyil, çünki oxuduğu hara, birdən-birə gələn mətn hara. O, özü ara verib, dillədi: «Bu nə işdi?» Hələ səsini ucaltdı da: «Ryabenko! Bu nədi mənə sırımısan?» General Aleksandrovun yanına cumdu, Aleksandrov da Brejnevə yanaşdı».

Milli Məclisin deputatı, vaxtilə H.Əliyevin referenti vəzifəsində çalışmış və baş verənləri «içəridən» izləməyə imkanı olmuş Mixail Zabelin bu əhvalatı başqa şəkildə yozur. Yeri gəlmişkən, o, Lenin adına sarayda təntənəli iclasdan əvvəl baş verənlər barədə şaşırdıcı məqamları və Heydər Əliyevin ovqatı haqqında təfsilatı ilk dəfə səsləndirmişdir.

«Heydər Əliyeviç çox əsəbilik keçirirdi, – Mixail Yuriyeviç xatırlayır. – Bilmirdim, hansı səbəbdən. Zahirən normal davransa da, necə gərgin olduğunu duyurdum. Səhər-səhər, Əliyev və Brejnev çıxış edəcəkləri Lenin sarayında təntənəli iclas günü Heydər Əliyevin səsi tutuldu. Danışa bilmirdi. «Bəlkə səhiyyə nazirinə zəng edim?» – soruşdum. «Yox, heç kimə zəng vurmaq lazım deyil. Özümüz. İlıq süd, borjomi gətir». Bir saata yaxın boğazını yaxaladı, həblərdən imtina etdi. Kabinetdə, yəqin çıxışını da məşq edirmiş... Amma axı adamın səsi heç nədən tutulmur, bu, əsəb gərginliyindən baş vermişdi. O, Brejnevin halına görə nigarançılıq keçirirdi. Bu, yəqin, ən ümdə səbəb idi ki, onu yalnız fərz etmək olardı. Heydər Əliyev axı heç kimə bildirmirdi. Brejnevin halı çox fəna idi. Budur, onun korteji gedir, ardınca da «Çayka» şütüyür: içəridə tibbi xid-

mət, reanimasiya. Allah göstərməsin, burada başına bir iş gəlsəydi, nəticədə nələr ola bilərdi!

...Bir saatdan sonra səsi açıldı və o, saraya yollandı. Mən də ardınca. Onun yanında sarayda oldum. Oradan daha tez çıxdım. Sonra Heydər Əliyeviç qayıtdı. Razı halda, gülümsər. «Sən baxırdınmı? Gördünmü?» – «Bəli, – dedim, – gördüm».

**– Bəs orada nə baş vermişdi?**

– Bir gün öncə Brejnev qonaq evində büro üzvləri qarşısında çıxış etmişdi. Ertəsi günü təntənəli iclasda çıxış edəndə ona səhvən ayrı mətni vermişdilər və o, büro üzvlərinə müraciət edirmiş kimi çıxışına başlamışdı: «Hörmətli büro üzvləri...» Bunu deyəndə hamının ağzı açıla qalır. Nə büro, hansı büro? Köməkçisi çaş salıb əvvəlki mətni veribmiş. Rəyasət Heyətində duyuq düşənlər pıçıldaşmağa başlayır. Aleksandrov Brejnevə yaxınlaşıb nəsə qulağına pıçıldayanda Brejnev onu əlilə rədd eləyir... Onda Heydər Əliyeviç həmin mətni götürüb yaxınlaşır, Brejnevdən verilən kağızları alır. Baş katib gözlərini bərəldib ona baxır, Heydər Əliyeviç lazımi mətni onun qarşısına qoyub nəsə astaca deyir, Brejnev səsini ucaldaraq: «Mənim təqsirim yoxdur, yoldaşlar. Onların işidir» – deyir. Və hamı əl çalır.

Bu Heydər Əliyev tərəfindən çox risqli addım idi. Brejnevin reaksiyasını kim əvvəlcədən deyə bilərdi? Axı yığıncaq bütün aləmə yayımlanırdı. Burada MK birinci katibinin qətiyyəti böyük rol oynadı. O başa düşdü ki, Brejnev «qiraəti»ni davam etsə, hansısa «qapalı» mətləblərin üstü açılacaq... Büro üzvləri qarşısındakı çıxışında, yəqin ki, söhbət nöqsanlardan da gedirdi, hansısa birbaşa göstərişlər də olmuşdu. Ona görə də həmin başabəla mətn sözsüz aradan götürülməli idi.

Heydər Əliyeviç yığıncaqdan şad-xürrəm qayıtmışdı. Sevinirdi ki, cəncəlli hadisənin qarşısını ala bilmişdi. «Gördünmü? Necə alındı? – sualları da sevincini sezdirirdi. Dedim: «Çox gözəl, Heydər Əliyeviç, əhsən Sizə. Vaxtında tərpəndiniz». O: «Təsəvvür edirsənmi, nələr ola bilərdi?» – dedi. İndiyədək o sözlər yadımdan çıxmır: «...nələr ola bilərdi?»

– Mənim digər müsahiblərim söyləyirdilər ki, Aleksandrov Baş katibə ertəsi gün oxuyacağı mətni verib.

– Xeyr, belə deyil. Uzun illər MK ümumi şöbə müdiri işləmiş Yakov Mixayloviç Kirsanov Heydər Əliyevin məhrəm adamlarından idi. Brejnev gedəndən sonra mən təsadüfən Heydər Əliyevin Kirsanovla söhbətinin bir məqamının şahidi oldum. Həmin əhvalatı incələmələrindən bu qənaətə gəldim ki, Brejnevə dünən büro üzvləri qarşısında «edəcəyi çıxışının» mətnini veriblər. Sadəcə Aleksandrov materialı çaş-baş salıb. Axı, o da artıq sinni adam idi...»



Daha bir əhvalat Bakının izdihamlı mərkəzi meydanında, Baş katibin yolunu gözləyən çoxsaylı ziyalıların müntəzir dayandığı yerdə baş vermişdi. Leonid İliçlə kəlmə kəsmək, heç kəsə müyəssər olmadı, təntənəli qarşılama mərasimi də Baş katibin nasazlığı ucbatından alınmadı. Bu barədə başqa çekistlərlə birgə tədbirin təhlükəsizliyini təmin etməklə məşğul olmuş DTK sabiq əməkdaşı Əkrəm Səlimzadə söyləyir:

«Brejnevin son gəlişi ərəfəsində Yuli Qusman Lenin meydanında bir gözəl səhnələşdirilmiş tamaşa hazırlamışdı. Heydər Əliyev Leonid İliçi qarşılayıb meydana gətizdirdi. Camaat yığışıb, çalan kim, oynayan kim, Brejnev isə heç tribunaya qalxmaq halında deyil. Mən Heydər Əliyeviçin xahiş etdiyini, Brejnevin də gileyləndiyini eşitdim:

– Qaydar ne moqu, u menə silğno podnəlosğ davlenie.

– Nu, ə vas oçenğ proşu, xotğ dva slova skazatğ narodu, – deyə Heydər Əliyev onu dilə tuturdu.

Hardasa aralıqda Yuli Qusman durub gözləyir, o, Brejnevə hansısa təmtəraqlı sözləri ünvanlamalıydı.

Yadımdadır, Brejnevə yanaşan Rəşid Behbudov qonağın boynundan «Bakının fəxri vətəndaşı» – böyük qızıl medalını asdı.

Sonra Heydər Əliyev Brejnevin qolundan tutub onu yuxarıya qalxmağa dəvət etsə də, Leonid İliç qətiyyətlə imtina etdi. Onu maşına sarı apardılar, mühafizəçilərdən kimsə onu maşında otuzdurdu, o, doğrudan da «sökülüb tökülürdü». Beləliklə, xalq onu əməlli-başlı görə bilmədi».

Axırda «Dövlətnəşrkom»un sabiq sədri Nazim İbrahimovun mənə söylədiyi bir maraqlı epizodu yada salmaq istəyirəm – burada mənim qəhrəmanımın prinsipiallıq, kişi dostluğuna kişi vəfadarlığı, sağlığında yaxın olduğu adamın xatirəsinə sədaqət kimi insani keyfiyyətlər öz əksini tapmışdır.

Moskvaya, yeni təyinatla bağlı yola düşərkən Heydər Əliyev N.İbrahimova L.İ.Brejnev və onun Azərbaycana son səfəri haqqında kitabın («Respublika bayrağında üçüncü Lenin ordeni») nəşri ilə məşğul olmağı tapşırır. 1982-ci ilin sonu – 1983-cü ilin başlanğıcında İbrahimov gələcək kitabın materiallarını hazırlayıb Moskvaya

yollanır, mehmanxanada yer alıb H.Əliyevin qəbul otağına zəng vurur. H.Əliyev onu yubatmadan qəbul edir. İki saata yaxın hazırlanmış materialları nəzərdən keçirir, bütövlükdə razı qalır və SSRİ «Dövlətnəşrkom» rəhbərliyilə kitabın Moskvada 50 min nüsxəlik, hətta o dövrə görə də böyük tirajla çap olunması barədə şərtləşməyi tapşırır.

«Bir qədər sonra mən Dövlətnəşrkom sədri Nenaşevin kabinetində əyləşmişdim, – Nazim müəllim xatırlayır. – Hansı niyyətlə hüzuruna gəldiyimi biləndə ikiəlli başından yapışdı.

– Siz nə danışırsınız? Bu mümkün deyil! Siz Leonid İliç haqqında kitab buraxdırmağa ən nəhs məqam seçmisiniz. Mən əminəm ki, bizi «orada» (Nenaşev barmağını tavana tuşladı) başa düşməyəcəklər.

Bu zaman rəhmətlik Baş katibin ailəsi üzərində qara buludlar sıxlaşmağa başlamışdı. Brejnevin qızı Qalina Leonidovnanı qalmaqallı brilliant oğurluğunda təqsirkar bilərək DTK-da sorğu-suala çəkirdilər. Onun əri Yuri Çurbanovu DİN-dəki vəzifəsindən xaric etmişdilər. Əleyhinə cinayət araşdırma işi başlamışdılar. Odur ki, Nenaşevin eyhamlarını dərhal anladım.

Amma Siyasi Büro üzvü Heydər Əliyevin tapşırığını yerinə yetirdiyimi, onun bu kitabın məhz Moskvada nəşr olunmasını təkid etdiyini bildirdim.

– Ona özünüz zəng vurun və öz tərəddüdlərinizi bildirin, – Dövlətnəşrkomun başçısına dedim.

O, Dövlətnəşrkomun işinə nəzarət edən Siyasi Büro üzvünə zəng vurmaqdan qəti imtina edərək məndən Heydər Əliyevlə bir də danışmağı xahiş etdi.

Ayrılanda Nenaşev:

– Kitabı buraxacağıq, – dedi. – Amma Heydər Əliyevi inandırmağa çalışın ki, kitabın tirajını, tutalım, 5 min nüsxəyədək azaltmaq lazımdır.

Əlqərəz, bir qədər sonra mən yenə Əliyevin Kremldəki kabinetinə qədəm qoyub Dövlətnəşrkom sədri ilə söhbətimizi çatdırdım.

Heydər Əliyev başını yellədi:

– Bax, hamı deyir ki, Leonid İliç mənə xoş münasibət bəsləyirdi, yəni mən onun «lyubimçiki» («əzizi» – *E.A.*) idim. Məgər iş bundadımı? O, bizim hamımıza, Azərbaycana yaxşı münasibət bəsləyirdi. Respublika iqtisadiyyatı, kənd təsərrüfatının inkişafı üçün nə qədər işlər görmüşdü! Sən axı bunu başqalarından yaxşı başa düşməlisən! – O, köks ötürüb davam etdi: – Sonra da, axı bir insan



kimi yaxın olduğun adamın xatirəsinə dönük çıxmaq kişilikdən deyil!»

Beləliklə, Heydər Əliyevin təkidi sayəsində Sovet İttifaqında L.İ.Brejnev haqqında səmimi hörmət və rəğbətlə bəhs edilən bəlkə də sonuncu kitab işıq üzü gördü. Baş katibin xatirəsinə bu hörmət-izzəti Heydər Əliyev qalan ömrü boyu qoruyub saxladı...

[1] Бакинский рабочий. 1982. 27 сентября.
[2] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С. 222.
[3] Досье. История и современность. 2003. №10.
[4] Дружба народов. 1991. № 1. С. 188.
[5] Грачев А. Кремлевская хроника. М., 1994. С. 20.
[6] Караулов А. Вокруг Кремля, т.1. С.235.
[7] Болдин В.И. Крушение пьедестала. М., 1995. С. 42.
[8] Из книги С.Семанова «Брежнев». М., 2002. С. 87.
[9] Чурбанов Ю. Я расскажу все, как было. М., 1992. С. 55.
[10] Yenə orada. S.59.
[11] Крючков В. Личность и власть. М., 2004. С. 117.
[12] Досье. История и современность. 2003. № 11 (26).
[13] Семанов С. Брежнев. М., 2002. С. 6.
[14] Yenə orada. S. 210.
[15] Досье. История и современность. 2003. № 11 (26).
[16] Чурбанов Ю. Я расскажу все, как было. С. 60.
[17] Зенькович Н.Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С.413-414.
[18] Караулов А. Вокруг Кремля, т. 1. С. 222.
[19] Чурбанов Ю. Я расскажу все, как было. С.61.
[20] Семанов. Брежнев. С. 274.
[21] Арбатов Г. Человек Системы. М., 2002. С. 374.
[22] Шахназаров Г. С вождями и без них. М., 2001. С. 234.
[23] Соловьев В., Клепикова Е. Заговорщики в Кремле. М., 1991. С. 285.
[24] Караулов А. Вокруг Кремля, т.2. С. 242-244.
[25] Казначеев В. Последний генсек. М., 1996. С. 48.
[26] Ulduz. 1990. № 6. S. 75.
[27] Караулов А. Вокруг Кремля, т. 1. С. 223.
[28] Дружба народов. 1991. №1. С. 189
[29] Прибытков В. Аппарат. СПб., 1995. С.52.



*Yeddinci fəsil*

# Heydər Əliyev və 70-ci illərin xalq təsərrüfatı

## Azərbaycanın iqtisadi inkişafının yeni strategiyası

Sovet hakimiyyəti illərində Azərbaycan Respublikasının iqtisadiyyatı bir çox nailiyyətlər, uğurlar əldə etmişdi: çoxsahəli sənaye, inkişaf etmiş kənd təsərrüfatı meydana gəlmişdi, əhalinin təhsil və yaşayış səviyyəsi ölçüyəgəlməz dərəcədə yüksəlmişdi. Həm müharibədən əvvəlki, həm də sonrakı illərdə respublika bir çox sahələrdə mərhələ-mərhələ inkişaf etmişdi və bu nailiyyətlərdə Azərbaycanın o vaxtkı rəhbəri Mir Cəfər Bağırovun rolunu qiymətləndirməmək mümkün deyil. Keçən əsrin çox mürəkkəb tarixi kəsiminə – 30-50-ci illərin tədqiqinə obyektiv yanaşan müasir tədqiqatçılar da bunu etiraf edirlər.

Belə ki, rus yazıçısı, publisist Nikolay Zenkoviç yazır:

«Əlbəttə, M.C.Bağırovun Azərbaycanın qarşısındakı xidmətləri az deyil. Hər halda respublikaya nə az, nə çox iyirmi il rəhbərlik edib! Bu illərin dördü – müharibəyə düşüb. Azərbaycanın neft ehtiyatları SSRİ-nin bütövlükdə neft ehtiyatlarının dörddə üçünü təşkil edirdi. O dövrdə 75 milyon tona qədər neft çıxarılmış, 22 milyon ton benzin istehsal olunmuşdu. Ola bilər ki, müasir oxucuya bu rəqəmlər çox az şey deyir. Onda başqa misallar gətirim. Böyük Vətən müharibəsi illərində Azərbaycan neftinin ümumittifaq neft hasilatındakı payı 71,4 faiz təşkil edirdi. Bunun 80 faizi aviasiya benzini, 96 faizi isə avtonəqliyyat yağları idi... Demək olar ki, sovet tanklarının hamısı, təyyarələrinsə 90 faizi Bakı yanacağı ilə işləyirdi. 1942-ci ilin yazında Azərbaycanda «YAK-3» qırıcı təyyarələrin istehsalına başladılar. Bakıda həmçinin «Katyuşa» minomyo-

tu istehsalının da təməli qoyuldu. Əlbəttə, bu faktlar respublika rəhbərliyinin o zaman üzləşdiyi gərginliyi təsəvvürə gətirir»[1].

Azərbaycanda müharibədən sonrakı stalinizm illəri barədə fundamental, əsaslı elmi monoqrafiyanın müəllifi, Azərbaycanın tanınmış tarixçisi E.İsmayılov yazır:

«Dördüncü beşilliklə yalnız dövlət büdcəsi vəsaitlərindən respublikaya 8,7, beşinci beşilliklə isə 15,8 milyard manat ayrılmışdı. Bu, bütövlükdə birinci və ikinci beşilliklər (1928-1937) ərzində ayrılmış müvafiq məbləğdən 6 dəfə çox idi...

Neft sənayesinin inkişafına xüsusi əhəmiyyət verilirdi. Güman edilirdi ki, müharibədən sonrakı illərdə bu sahə öz potensialını Xəzərdəki yataqların qazılması və istismara verilməsi hesabına bərpa edə biləcəkdir. 1949-cu il oktyabrın 31-də SSRİ Nazirlər Soveti «Azərbaycan SSR-də dəniz neft yataqlarının kəşfiyyatı və işlənilməsi üzrə işlərin təşkilinin yaxşılaşdırılması tədbirləri haqqında» qərar qəbul etdi. Bu, son nəticədə dənizdə məşhur «Neft daşları» şəhəri adlanan estakadaların yaradılmasına gətirib çıxaran kompleks proqram idi. Məhz dəniz yataqlarının mənimsənilməsi neft hasilatının tədrici artımında böyük rol oynadı.

Müharibədən sonra sovet rəhbərliyi respublikada Sumqayıt Boruprokat və sintetik kauçuk zavodlarının, Bakı elektromexaniki zavodunun, Bakı podşipnik zavodunun, Mingəçevir hidroqurğusunun, Şimal DRES-in və digər sənaye obyektlərinin tikintisinə rəvac verdi. Bu baza əsasında qara və əlvan metallurgiya, elektrotexnika, maşınqayırma və kimya sənayesinin inkişafında güclü sıçrayış əldə olundu.

...Sənayenin inkişafındakı sıçrayış sənaye mərkəzlərinin coğrafiyasının genişlənməsi ilə nəticələndi. Sumqayıt, Mingəçevir, Daşkəsən yeni sənaye mərkəzlərinə çevrildilər, Bakının, Kirovabadın, kənd rayonlarının sənaye potensialı yüksəldi. Müharibədən sonrakı illərdə bu tendensiyanın təzahüründə ittifaq büdcəsindən səxavətli sərmayə ayırmaları həlledici əhəmiyyət kəsb etdi. Bu isə öz növbəsində Azərbaycanın neft sənayesinin əvvəlki imkanlarını bərpa etmək, gələcək imkanlarını isə genişləndirmək arzusundan doğmuşdu»[2].

50-60-cı illərdə, Azərbaycanın partiya təşkilatına İ.Mustafayev və V.Axundov rəhbərlik edəndə respublika sənaye və kənd təsərrüfatı potensialını yüksəltməkdə davam edirdi. Azərbaycanın görkəmli partiya və dövlət xadimi Kamran Hüseynovun «Bir ömrün salnaməsi» (Bakı, 1999) kitabında Azərbaycan neftçilərinin, maşınqayıranlarının, metallurq, kimyaçı və energetiklərinin əmək qələbələri ilə əlamətdar olan o dövrün canlı ab-havası inandırıcı, əsaslı fakt və nümunələrlə göz önünə gətirilir.



Heydər Əliyev partiya yığıncaqlarındakı məruzələrində, ictimaiyyət qarşısındakı çıxışlarında 70-ci illərdə və 80-ci illərin əvvəllərindəki nəhəng iqtisadi islahatlar proqramının quru yerdən həyata keçirilmədiyini dəfələrlə qeyd etmişdi. 1970-ci il oktyabrın 2-də Azərbaycan SSR-in 50 illiyi münasibətilə keçirilən təntənəli yığıncaqda o, parlaq bir məruzə etdi. Həmin nitqində Azərbaycanın sovet hakimiyyəti illərində keçdiyi bütün yolu xarakterizə etdi. O deyirdi: «Azərbaycan bu gün nəhəng elektrostansiyalar və avtomatlaşdırılmış neft mədənləri, müasir zavod və fabriklər, kanallar və süni dənizlər, pambıq tarlaları və üzüm plantasiyaları, dəmiryol magistralları və avtomobil yolları deməkdir... Sovet hakimiyyəti illərində respublikanın ümumi sənaye məhsulu 70 dəfə artıb».

Sosial sahədəki nailiyyətlərdən danışarkən Heydər Əliyev diqqətə layiq nümunələri misal çəkirdi: «Son 20 ildə ümumi sahəsi 26 milyon kvadratmetri ötüb keçən 720 min mənzil tikilmişdir. 1 milyon 800 min nəfərin müxtəlif təhsil ocaqlarında oxumaq imkanı var. Başqa sözlə, respublika vətəndaşlarının üçdən biri təhsil alır.

Əgər 1921-ci ildə cəmisi 62 ali təhsilli azərbaycanlı var idisə, indi xalq təsərrüfatının bütün sahələrində 80 min nəfərdən artıq ali təhsilli mütəxəssis çalışır. 13 ali təhsil müəssisəsində 100 mindən artıq tələbə oxuyur. Dünyanın 38 ölkəsinin cavanları Azərbaycanda təhsil alır».

Heydər Əliyev varisliyi və ənənəni heç vaxt inkar etmirdi, öz sələflərinin uğurlarının üstündən qələm çəkməyə çalışmırdı. Ümumiyyətlə, böyük insanlara paxıllıq hissləri xas deyil, bunun üçün onlar hədsiz dərəcədə «gözütox»durlar.

60-cı illərin ortalarında SSRİ-də xalq arasında o dövrün hökumət rəhbəri Aleksey Nikolayeviç Kosıginin soyadı ilə adlandırılan «Kosıgin islahatları»na başlanılmışdı. Bütöv tədbirlər kompleksi nəzərdə tutulmuşdu. Kənd təsərrüfatı istehsalı sahəsində çoxillik (5 illik) plan müəyyən edilmişdi. Ona özbaşına dəyişikliklər edilməsi, kolxoz və sovxozlara plandankənar əlavə tapşırıqlar verilməsi istisna edilirdi. Bu isə təsərrüfatçılıq şərtlərinin sabitliyinə, təsərrüfatda geniş manevr etmək, təşəbbüskarlıq və işgüzarlıq nümayiş etdirmək imkanlarına güclü təkan vermişdi. İslahat əməyin iqtisadi cəhətdən stimullaşdırılmasını artırırdı: kənd təsərrüfatı məhsullarının tədarükü

və alınması şərtləri dəyişdirildi, plandan əlavə satışa görə maddi həvəsləndirmə tətbiq olundu, kolxozçuların və sovxoz işçilərinin əmək haqqı ödənişi təkmilləşdirildi. Sənaye istehsalı sahəsində ərazi idarəetmə sistemi ləğv edildi, sahələrə rəhbərlik yenidən yaradılmış nazirliklərə tapşırıldı. Lakin «rəhbərliyin iqtisadi metodlarının inkişafı və tətbiqi kursu sənaye üçün əsas oldu. Müəssisələrin iqtisadi cəhətdən müstəqilliyinin, sərbəstliyinin genişləndirilməsi, fəaliyyətinin inzibati tənzimlənməsinin azaldılması üzrə tədbirlər məcmusu qəbul olundu. Onların işinin direktiv şəkildə planlaşdırılmış göstəricilərinin sayı üç dəfədən də çox (30-dan 9-dək) azaldıldı»[3].

Eyni zamanda müasir tarixçilərin və politoloqların əksəriyyətinin rəyinə görə 60-70-ci illərdə islahatlar olduqca ləng və qeyri-ardıcıllıqla həyata keçirilirdi və gözlənilən nəticəni vermədi.

«Məlum və naməlum Baş nazir. A.N.Kosıgin barədə xatirələr» kitabında uğursuzluqların səbəblərini təhlil edən bir çox «Kosıgin islahatları» iştirakçılarının dəlilləri nümunə gətirilir. Onlardan biri budur: «Kosıgin islahatlara başlayarkən mərkəzləşdirilmiş idarə sistemini dəyişdirməyi zəruri hesab edirdi. Çünki bu sistem o qədər köhnəlmişdi ki, ən ağlabatan addımları belə həyata keçirməyə yaramırdı. Yalnız mərkəzi orqanların səlahiyyətlərinin yerli orqanlara verilməsi yolu ilə idarəetmənin səmərəliliyini yüksəltmək, ölkə ehtiyatlarının gerçək vəziyyətini aşkara çıxarmaq olardı.

İslahatlara hazırlıq gedən zaman idarəetmənin mərkəzi orqanlardan yerli orqanlara verilməsi barədə bəzi ideyaları qərar qəbul edən insanların nəzərinə çatdırmaq, iqtisadiyyatın idarə edilməsindəki çatışmazlıqları etiraf etməyə, bunları qurultay sənədlərində əks etdirməyə razı salmaq mümkün oldu. Bəzi mühüm qərarlar qəbul olundu, kütləvi tələbat malları istehsalında irəliləyiş hiss olundu. Ancaq qəflətən, sanki Adam Smitin yuxusuna da girməyən həqiqətən «görünməz əl» oksigeni kəsərək, yeni, müasir sistem yaratmaq cəhdlərini alt-üst etdi... Yəqin ki, yüksək eşelon təhlükəni, hakimiyyətin əlindən çıxa biləcəyini, yüksək vəzifəli məmurlardan əsil işgüzar, marağı olan adamlara keçəcəyini hiss etdi»[4].

SSRİ DTK-nın keçmiş rəhbəri V.Kryuçkovun sözlərinə görə, islahatların alt-üst olmasında Kosıginlə o vaxt Sov.İKP MK-nın katibi olan Andropovun mövqelərindəki ziddiyyət də öz işini gördü:

«A.N.Kosıgin islahatların iqtisadiyyata sürətlə və geniş şəkildə tətbiqinin tərəfdarı idi. Y.V.Andropov isə ölkənin bu cür templərə davam gətirə bilməyəcəyindən və bunun milli təhlükəsizliyə, cəmiyyətdəki vəziyyətə mənfi təsir göstərəcəyindən ehtiyat edirdi...



L.İ.Brejnev əvvəlcə Y.V.Andropovla A.N.Kosıgin arasındakı münaqişəyə neytral münasibət bəsləsə də, tezliklə Y.V.Andropovun tərəfinə keçdi. L.İ.Brejnevlə A.N.Kosıgin arasındakı münasibətlərin sonrakı gedişi göstərdi ki, onlar islahatların gedişi ilə bağlı məsələdə qarşılıqlı anlaşmaya gələ bilmədilər. Axırda bu münasibət öz neqativ rolunu oynadı və islahatlar yolundan çıxarıldı, daha dəqiq desək, qeyri-müəyyən müddətə təxirə salındı»[5].

Ancaq «durğunluq» anlayışını, son vaxtlar bir sıra nəşrlərdə edildiyi kimi, birmənalı başa düşmək lazım deyil: məhz o illərdə xarici iqtisadi əlaqələr sahəsində SSRİ-nin Qarşılıqlı İqtisadi Yardım Şurasına (SGV) üzv ölkələrlə iqtisadi inteqrasiyası inkişaf etdi, ölkənin öz daxilində əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün çox iş görüldü – yaşayış evləri və yollar sürətlə inşa edilməyə başladı, ittifaqın bir çox şəhərlərində metro işə salındı, sovet adamının, o cümlədən kənd zəhmətkeşlərinin məişəti nəzərəçarpacaq dərəcədə yaxşılaşdı. Kənd rayonlarının elektrikləşdirilməsi, demək olar ki, başa çatdı, kütləvi şəkildə qazlaşdırılmaya başlandı.

«Uzun müddətli həyat təminatına külli miqdarda sərmayə qoyuldu: vahid enerji və nəqliyyat sistemləri yaradıldı, yeməyin tərkibində zülal problemini həll edən quşçuluq fabrikləri şəbəkəsi inşa edildi, torpaqların irimiqyaslı yaxşılaşdırılması (irriqasiya və əkinə yararlı hala salınması), meşəsalınması (ildə 1 milyon hektar) həyata keçirildi. SSRİ uzun müddətə bütün əsas ehtiyatlarla təmin olunmuş dünyada yeganə ölkəyə çevrildi»[6].

Mən rus tarixçiləri ilə razıyam: «durğunluq» anlayışı bütövlükdə ölkədə baş verənlərlə, xüsusilə də respublikamızda gedən proseslərlə heç uyğunlaşmırdı. 70-ci illər gərginlik, ruh yüksəkliyi, on minlərlə insanın vicdanlı əməyindən xəbər verir. Zavod və fabriklər tikilir, bütöv sənaye sahələri yaradılır, nəhəng elmi kəşflər edilirdi. Sibirdə, Tatarıstanda, Başqırdıstanda «ikinci», «üçüncü» Bakılar yaradılırdı. Bütün bunlarla yanaşı, sosial sahədə «qalıq prinsipi» də, ümumi qıtlıq da, talon sistemi də vardı...

Heydər Əliyev Azərbaycana çətin vaxtlarda rəhbərlik etməyə başladı. Ümumittifaq plenumlarında və yığıncaqlarında respublikanın adını geridə qalanlar sırasında çəkirdilər, mənfi cəhətdən nümunə göstərirdilər. Roy Medvedyevin Heydər Əliyev haqqında «Vaşinqton-post» qəzetində dərc olunmuş məqaləsində respublikanın xalq təsərrüfatına zərbə vuran böhranın nə dərəcədə dərin olduğunu göstərən cansıxıcı statistik nümunələr gətirilib:

«Xruşşov dövrünün ilk illərindəki yüksəliş, demək olar ki, Azərbaycandan yan keçdi. 1953-cü ildən 1960-cı ilədək kənd təsərrüfatı məhsullarının artımı burada yalnız 4% təşkil edirdi (bütövlükdə SSRİ-də isə 56% idi). 1960-cı ildə taxıl tarlasının hər hektarından 9 sentner taxıl götürülürdü, hər inəkdən ildə 686 litr süd alınırdı – bu, Sovetlər Birliyində ən pis göstəricilər idi. Brejnevin vaxtında da çox az şey dəyişdi. Sənayenin və kənd təsərrüfatının artımı tempinə görə Azərbaycan 60-cı illərdə də SSRİ üzrə axırıncı yeri tuturdu. 1960-1970-ci illərdə sənaye istehsalının həcmi ölkə üzrə orta hesabla 2,3 dəfə, bəzi respublikalarda isə 3 dəfə artmışdı. Azərbaycanda isə bu artım cəmisi 93% idi. Kənd təsərrüfatı da az irəliləmişdi. Taxılın məhsuldarlığına görə də, pambıq yığımına, süd sağımına, yun qırxımına görə də respublika sonuncu – 15-ci yeri tutmaqda davam edirdi»[7].

Son yarım əsrdəki Azərbaycan iqtisadiyyatının təhlili verilən fundamental «Böyük yolun mərhələləri» monoqrafiyasının müəllifi, akademik Ziyad Səmədzadə keçən əsrin 60-cı illərinin sonunda Azərbaycan sənayesində yaranan vəziyyət barədə bunları yazır:

«İdarəetmədə və planlaşdırmada ciddi çatışmazlıqlar sənaye istehsalının artması və onun səmərəliliyinin yüksəlməsi imkanlarını məhdudlaşdırırdı. Plan və dövlət intizamının nəzərəçarpacaq dərəcədə pozulması, istehsal planlarının, xüsusilə də sənayenin ləng inkişafını tarazlaya bilən sahələrdəki planların aşağı enməsi kimi ziyanlı təcrübənin mövcudluğu vəziyyəti daha da gərginləşdirirdi. Respublikanın qədim sənaye sahələrinin – neft emalı və neft maşınqayırma sahələri müəssisələrinin bərpası və müasirləşdirilməsi üçün tədbirlər görülmürdü. Bütün bunlar müharibədən sonrakı beşilliklərdə planların yerinə yetirilməməsinə gətirib çıxarırdı. Nəticədə, sənaye istehsalının həcmi 1940-cı illə müqayisədə 1970-ci ildə 5,5 dəfə artsa da, bu artım surətinə görə Azərbaycan ittifaq respublikaları arasında sonuncu yerlərdən birini tuturdu»[8].

Bu cür mürəkkəb vəziyyətdə respublikanın yeni partiya rəhbərini «kimdir günahkar?» sualından daha çox «nə etməli?» sualı düşündürürdü.

O, ixtisasca iqtisadçı deyildi, o hər şeyi «işin gedişində» öyrənməyə məcbur idi. Bu yandan da Vəli Axundovdan miras qalmış partiya – dövlət elitası böyük maraqla onun ilk addımlarını gözləyirdi. Çoxları bədxah səbirsizliklərini gücnən gizlədirdilər: görək bu işin öhdəsindən nə partiya-dövlət, nə də təsərrüfatçı səriştəsi olmayan çekist necə gələcək?



Heydər Əliyev tələsik nəticələr çıxarmadı və kəskin addımlar atmadı. O, vəziyyəti araşdırmağa çalışdı. İqtisadi hesablamalarla yaxından tanış oldu. Təcrübəli mütəxəssislərlə və alimlərlə birlikdə ən xarakterik meylləri və xüsusiyyətləri aşkara çıxararaq xalq təsərrüfatında gedən proseslərlə tanış oldu. Səriştəli insanları MK-ya dəvət edir, Büroda onların rəyini dinləyir, məsləhətləşir, təhlil edirdi. Müəssisələrə gedir, yerlərdəki vəziyyəti öyrənirdi. Fikirləşirdi, düşünürdü, düşünürdü...

MK-nın birinci katibinin kabinetində işıq gecədən xeyli ötənədək yanırdı. Evə gedib bir neçə saat yatırdı, səhər saat 9-da isə yenidən öz kabinetində olurdu. O yaxşı başa düşürdü ki, respublika uğrunda döyüş asan deyil. Ancaq o geri çəkilməyə, tutduğu yoldan dönməyə adət etməmişdi.

1965-ci ildən 1985-ci ilədək SSRİ Dövlət Plan Komitəsinin sədri olan və Heydər Əliyevə başladığı nəhəng işlərdə dəstək olan Nikolay Baybakovla görüşdüm. O söylədi:

«Heydər Əliyev hərtərəfli, geniş biliyə malik olan insan, yaxşı təşkilatçı idi. O həll etməli olacağı məsələlərlə əsaslı şəkildə tanış olurdu. Düzünü deməliyəm ki, bu məsələlərdə o Kosıginə oxşayırdı. Kosıgin mənə deyirdi: «Nikolay, qərar qəbul etməzdən qabaq hər şeyi əməlli-başlı ölç, biç. Çünki əgər müəssisə rəhbəri səhv edərsə, biz bir neçə min manat itirərik, nazir səhv edərsə, artıq milyonlar itirərik. Ancaq əgər biz səninlə – mən SSRİ Nazirlər Sovetinin sədri kimi, sən isə mənim müavinim kimi səhvə yol versək, milyardları itirə bilərik. Ona görə də sən əvvəlcə məsələni, xüsusilə də mürəkkəb məsələni əməlli-başlı araşdır, mütəxəssislərlə məsləhətləş, yalnız bundan sonra qərar qəbul et». Heydər Əliyev də bu taktikaya əməl edirdi. O, qərar qəbul etməkdə çox ehtiyatlı idi. Ancaq əgər qəbul edirdisə, onu mütləq həyata keçirirdi. Odur ki, o, Azərbaycan iqtisadiyyatının yüksək templərlə inkişafına nail ola bilirdi».

70-ci illərin əvvəlində L.Brejnev yerli partiya liderlərinə kifayət qədər geniş sərbəstlik, müstəqillik vermişdi və müəyyən dərəcədə öz rəhbərlik təcrübəsinə mərkəzi orqanların bəzi səlahiyyətlərinin yerli orqanlara verilməsi təcrübəsini daxil etmişdi, bununla da respublikaları xırda qəyyumluqdan azad eləmişdi.

«L.İ.Brejnevin Sov.İKP MK-ya Baş katib vəzifəsinə gəlməsi ilə mərkəzdə və yerlərdə partiya aparatının işi dərhal canlandı. İnam hissi gücləndi, təşəbbüskarlıq yarandı, o vaxtlar meydana çıxan

problemlərin həlli ilə bağlı daha dərin və əsaslı təkliflərin hazırlanmasına tələbkarlıq artırıldı.

Onu da deyək ki, ayrıca problemlərin dərindən öyrənilməsi və onlara münasib təkliflərin hazırlanması üzrə işçi qrupların və komissiyaların yaradılması təcrübəsi geniş vüsət almışdı. Sonra həmin təkliflər partiya və dövlət xətti ilə nəzərdən keçirilirdi. Həmin qrupların hazırladığı təkliflərin daha əsaslı olması üçün konkret məsələlər üzrə mütəxəssislər cəlb olunurdu»[9].

Belə qrup və komissiyalar Azərbaycana hər dəfə Heydər Əliyev Sov.İKP MK-ya müəyyən tələblə müraciət edəndən sonra gəlirdi. Onlar şəraitlə yerindəcə tanış olur, məruzə edəndən sonra isə Siyasi Büroda qərar qəbul olunurdu. Nəticədə Azərbaycan üzrə Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin məşhur qərarları meydana çıxırdı. Həmin qərarlar həqiqətən respublikanın sosial-iqtisadi inkişafında misilsiz rol oynayırdı.

2002-ci ilin avqustunda Naxçıvanda Vayxır su anbarının tikintisinə həsr olunmuş yığıncaq keçirilərkən Heydər Əliyev özü bu sənədləri belə xatırlayırdı:

«Həqiqətən, 1969-cu il avqust ayının 5-də ilk plenumda Azərbaycan iqtisadiyyatına geniş təhlil verildi: həm Azərbaycana, həm bizim xalqımıza, ölkəmizə, respublikamıza. Həm də biz SSRİ-yə açıq-aydın göstərdik ki, Azərbaycanın iqtisadiyyatı ağır vəziyyətdədir və buna kömək etmək lazımdır. Ona görə də yadımdadır, 1970-ci ildə Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi, SSRİ Nazirlər Soveti Azərbaycan haqqında iki böyük qərar qəbul etdi. Bu qərarların biri Azərbaycanda kənd təsərrüfatı istehsalının, ikincisi sənaye potensialının inkişafı barədə idi. Bu o vaxtlarda da ağlagəlməz bir hadisə idi. Moskvada nazirlər, çox böyük-böyük adamlar, bir tərəfdən bizi təbrik edirdilər, ikinci tərəfdən də deyirdilər ki, axı biz neçə illərdir burada işləyirik, bir respublika üçün bu cür qərarların qəbul olunmasını görməmişdik. Amma biz bunu etdik. Biz 5 il müddətində 1970-ci ildən 1975-ci ilə qədər onları artıqlaması ilə yerinə yetirdik. Ona görə də mənim mənəvi haqqım oldu, getdim Moskvaya, həm Mərkəzi Komitənin qarşısında, həm Nazirlər Sovetinin qarşısında məlumat verdim ki, siz Azərbaycan haqqında qərarlar qəbul etdiniz. Siz də, çoxları da inanmırdı ki, Azərbaycan bunları yerinə yetirəcəkdir. Çünki keçmişdə Moskvada belə bir fikir yaranmışdı ki, Azərbaycanın rəhbərləri gəlir, söz verir, bəzən müəyyən kömək alır, amma heç bir şeyi yerinə yetirmirlər. Siz mənə də belə baxırdınız, haqqınız vardı. Amma indi mən sizə məlumat verirəm. Onlar məlumatı mənsiz də almışdılar. Amma mən oraya geniş məktub yazmışdım, hamısını göstərmişdim. Məndən soruşdular ki, nə istəyirsən, dedim ki, gələcək illər üçün yeni qərar lazımdır. Çünki bilin, o sistem belə idi ki, artıq o qərarlar olanda hər bir ittifaq naziri onu yerinə yetirməli idi. Qərar olmasa, get ondan-bundan xahiş et. Amma qərar var, qərarı partiyanın Baş katibi, Nazirlər Sovetinin sədri imzalayıbdır. Əgər nazir, yaxud başqa ittifaq təşkilatı bunu yerinə yetirmirsə, onda dərhal gedirsən oraya, məlumat verirsən, onlar da bundan çox qorxurdular. Ona görə də həmin qərarların əhəmiyyəti bundan ibarət idi. Bir də bizim işlərimizi planlaşdırmaq lazım idi. Bu qərarlar bunun üçün də lazım idi.

Bəli, 1975-ci ildə Azərbaycanda kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında, 1976-cı ildə Azərbaycanda mütərəqqi sənaye sahələrinin inkişaf etdirilməsi haqqında qərar qəbul edildi»[10].

Bunları Ziyad Səmədzadə də xatırlayır: «Əsas o idi ki, ittifaq orqanları ilə sıx əməkdaşlıq yaradılmışdı. Mərkəzi rəhbərlik qarşısında mütəmadi olaraq respublika sənayesinin bu və ya digər sahəsinin inkişafının təkmilləşdirilməsi məsələsi qaldırılırdı, bu iş ən ciddi nəzarət altına götürülmüşdü»[11].

Bu gün aparıcı ekspertləri respublika rəhbərlərinə öz iqtisadi yenilikləri, hesablamaları, proqnozları ilə kömək etməyə hazır olan bir çox yerli və xarici strateji araşdırma mərkəzləri, ictimai fondlar fövqəldövlətin xarabalıqları üzərində yaranmış yeni müstəqil dövlətlərin xidmətindədir. Buraya beynəlxalq maliyyə təşkilatlarının mütəxəssisləri ilə məsləhətləşmə imkanlarını, mümkün olan iqtisadi forum və yığıncaqlarda iştirakı da əlavə edək. O vaxtlar isə, sovet iqtisadiyyatının və bütövlükdə cəmiyyətin qapalılığı şəraitində kortəbii, bəzən sınaq və səhvlər, yanlışlıqlar, hətta tamamilə gözlənilməz mənbələrdən də müxtəlif təklifləri qeydə almaq, nəzarətə götürmək metodu ilə fəaliyyət göstərmək lazım gəlirdi.

İlk illər Heydər Əliyev hətta «düşmən tərəfin» rəyinə də qulaq asırdı. Mənim əlimdə dəyərli bir sənəd var: kitabımın qəhrəmanının şəxsi arxivindən tapdığım, «Azadlıq» radiosunun 1971-ci il 16 noyabr tarixli verilişinin lent yazısı.

Bu verilişdə şərhçilər oktyabr plenumunda (1971-ci il) əmək məhsuldarlığının yüksəldilməsində zəhmətkeşlərin ideoloji tərbiyəsinin rolu barədə danışan Heydər Əliyevlə mübahisə edirlər.

Verilişin aparıcısı deyir: «Məhsuldarlığın artırılması zəhmətkeşlərin şəxsi marağının nə dərəcədə nəzərə alınmasından asılıdır. İs-

tehsalın əmək məhsuldarlığının yüksəldilməsi hesabına inkişafı müəssisələrin yeni texnika ilə təchizatından, işin təşkilinin yaxşılaşdırılmasından, xammal və yarımfabrikatlarla təminatından, istehsalat proseslərinin mexanikləşdirilməsi, avtomatlaşdırılması və bir sıra digər problemlərdən asılıdır... Əgər bu problemlərdən hər hansı birisi yerinə yetirilməsə, digər problemlərin həllinə öz təsirini göstərəcək. Azərbaycanın istehsalat avadanlıqlarından çoxusu köhnəlib. Həmin avadanlıqların istifadə müddəti 15 il olsa da, 20 ildən çoxdur ki, istismar olunur. Bu problem məhsulun keyfiyyətinə təsir edir və məhsuldarlığı azaldır...

«Azərbaycan kommunisti» jurnalının sentyabr nömrəsində deyilir ki, yeni sistemlə işləyən müəssisələrin gəlirinin 60%-i təmiz gəlirin qalığı kimi dövlət büdcəsinə, 40%-i isə müəssisənin öz ixtiyarına keçir. Bu o deməkdir ki, müəssisənin gəlirinin çox hissəsini dövlət özünə götürür, nəticədə həvəsləndirmə fondu üçün kifayət qədər vəsait qalmır... Zəhmətkeşlərin şəxsi maraqlandırılmasına bu cür biganə, laqeyd münasibət olan yerdə onlardan məhsuldarlığın yüksəldilməsini tələb etmək olarmı? Heydər Əliyevin dediyi kimi, ideoloji tərbiyə və sosializm yarışının genişləndirilməsi yolu ilə buna nail olmaq çətindir».

İbrətamiz haldır ki, radioverilişin son sətirlərinin altından Heydər Əliyev öz əli ilə xətt çəkib. Bu isə onu sübut edir ki, «zəhmətkeşlərin şəxsi maraqlandırılması» mövzusu MK-nın birinci katibini də narahat edirmiş. Köhnəlmiş texnika və texnologiyaların təzələnməsi, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, müəssisələrin və kənd təsərrüfatının iqtisadi stimullaşdırılması kimi əmək məhsuldarlığının yüksəldilməsi amillərini o, hökumət qarşısında birinci dərəcəli vəzifələr kimi qoymuşdu.

Heydər Əliyev irsinin tanınmış tədqiqatçısı İradə Hüseynovanın yazdığı kimi, «70-ci illərdə suveren, müstəqil Azərbaycanın varlığının mümkünlüyü üçün mühüm addımlar atıldı. O illərdə həyata keçirilmiş görünməmiş ölçülərdə aparılan quruculuq işlərinə bizim dövlət müstəqilliyimizi təmin edən amillər kimi yanaşmaq zəruridir. Tarixi faktlar sübut edir ki, müstəqilliyə aparan yola Azərbaycan hələ 70-ci illərin əvvəlində qədəm qoymuşdu»[12].

Heydər Əliyev özü 1991-ci il dekabrın 6-da «Zaman» qəzetinə verdiyi müsahibədə təsdiq edirdi ki, hələ 70-ci illərdə SSRİ-dəki iqtisadi və siyasi böhranın kəskinləşdiyini hiss edirdi: «Mən fikirləşirdim ki, SSRİ respublikaları nə zamansa müstəqillik əldə edəcəklər. O illərdə mən arzu edirdim ki, Azərbaycanımız da müstəqil dövlət



olsun». Əlbəttə ki, o ürəyindəki arzunu dilə gətirə, ən yaxın adamları ilə belə bölüşə bilməzdi. Ancaq bu arzunun gerçəkləşməsi, Azərbaycanın xalq təsərrüfatının bütün sahələrində sürətli inkişafını təmin etmək üçün bütün qüvvəsi ilə çalışmaq – bax, bu onun böyük arzularının, səylərinin əsas qayəsi idi.

Hər şeydən öncə Heydər Əliyev əsas sahələrdəki – neft emalı, neft kimyası sənayesindəki vəziyyəti dərindən öyrəndi. O özü bunu sonralar belə xatırlayırdı: «...1970-ci ildə qeyd olundu ki, Azərbaycan ölkəyə təxminən yüz il müddətində bir milyard ton neft vermişdir. Böyük Vətən müharibəsi dövründə ölkənin neftə olan ehtiyacının 75 faizini Azərbaycan ödəmişdir. Lakin neftayırma zavodlarımız çar dövründən qalan, yəni müasir tələblərlə ayaqlaşmayan müəssisələr idi. Bu məsələ ilə maraqlananda o da məlum oldu ki, yeni qurğu, avadanlıq var, lakin SSRİ nazirliyi bu müəssisəni zavodlar olmayan yerdə tikir. Azərbaycanda qədimdən neft çıxarılır, yeni texnologiyalı neftayıran zavodlar isə başqa yerlərdə tikilir. Nazirlikdə belə düşünülürmüş: köhnə zavodlar Azərbaycana bəs edər. Bəs Bakının, Qara şəhərin ekologiyası? Buraya niyə Qara şəhər deyilir? Çünki bütün Bakını hisə qərq edirdi. Biz nazirlik, SSRİ Nazirlər Soveti qarşısında məsələni qəti qoyduq və Azərbaycanda iki böyük neftayırma zavodu tikildi. Bunlardan biri... 8 milyon ton neftayırma gücünə malik qurğudur. O biri isə Qara şəhərdə Zığa gedən yerdə XXII partiya qurultayı adına zavodun yerində tikildi. Bir dəfə həmin zavoda getdim. Məni dəhşət bürüdü: yer, göy qapqara idi. Bütün tullantılar isə dənizə tökülürdü. Buradakı bütün köhnə avadanlıqları çıxartdıq. Yerində Almaniyadan olan mütəxəssislərin köməyi ilə yeni zavod tikdik. Yüksək keyfiyyətli benzin hazırlamaq üçün avadanlıq Fransadan alındı və katalitik riform kompleksi tikildi»[13].

**1976-cı il dekabrın 24-də** Heydər Əliyev zəhmətkeşlərin Vladimir İliç adına Yeni Bakı neftayırma zavodunda Azərbaycanda nəhəng «ELOU-AVT» neft emalı qurğusunun işə salınmasına həsr olunmuş mitinqdə iştirak etdi. Baş katib L.Brejnev qurğunun işə salınması münasibətilə neftayıranlara təbrik göndərmişdi. SSRİ-də ən nəhəng komplekslərdən biri olan bu qurğu çeşidli növlərdə yüksək keyfiyyətli neft məhsulları buraxmaq üçün nəzərdə tutulmuşdu. «ELOU-AVT»-də bütün proses tamamilə avtomatlaşdırılmış və əl əməyi bütünlüklə kənarlaşdırılmışdı. Onun quraşdırılmasında minlərlə bakılı çalışırdı, texnoloji avadanlığın böyük bir hissəsi isə Almaniyada hazırlanmışdı.

**1982-ci il yanvarın 3-də** respublika qəzetlərində Bakıda benzinin katalitik riformlaşması və neftin ilkin emalı üzrə texnoloji qurğuların yeni kompleksinin tikintisinin başa çatması münasibətilə Sov.İKP MK-nın Baş katibinin təbriki çap olunmuşdu.

Ertəsi gün Sov.İKP-nin XXII qurultayı adına Bakı neftayırma zavodunda kompleksin açılışı münasibətilə mitinq keçirildi. 1982-ci ilin əvvəlinə «ELOU-AVT» qurğusunun gücünü layihədə nəzərdə tutulan səviyyəyə çatdırmaq, bununla da açıq rəngli neft məhsulları buraxılışını və yüksək keyfiyyətli motor yağlarının həcmini xeyli artırmaq mümkün oldu. Vladimir İliç adına Yeni Bakı Neftayırma zavodunda benzinin katalitik riformlaşdırılması kompleksinə gəlincə, bu kompleks yüksək keyfiyyətli qeyri-etil benzin buraxılışını 3,5 dəfə yüksəltmək və hasil olunan məhsulu yüksək keyfiyyət dərəcəsinə çatdırmaq imkanı yaratdı.

Neftin emalı üçün yeni yüksəktexnologiyalı qurğular epopeyası barədə MK-da ağır sənayeyə nəzarət edən Həsən Seyidov mənimlə söhbətində bunları xatırladı:

«Yadımdadır ki, 1975-ci ilin ortalarında SSRİ neft emalı və neft kimya sənayesi naziri Fyodorov Bakıya gəlmişdi. Əvvəlcə o, yeni qurğunu bizə vermək istəmirdi. Bundan əlavə, həmin qurğunu başqa regionlara söz vermişdilər. Ancaq Heydər Əliyev Fyodorovun Bakıda olduğu 2-3 gün ərzində onun başını tovlayıb 1976-cı ildə Yeni Bakı Neftayırma zavodu üçün ilk qurğunu ala bildi. 1982-ci ildə isə Bakı Neftayırma zavodu üçün ikinci qurğunu aldı. Sonralar onu ELOU-AVT-6 adlandırdılar. Həmin qurğu ildə 6 milyon ton neft emal edirdi. Heydər Əliyev bu qurğuların tikintisinə hər ay, hər həftə nəzarət edirdi: çünki SSRİ Nazirlər Soveti qarşısında öhdəçilik götürmüşdü və onlara sübut etdi ki, biz həm sürətlə tikməyi, həm də yüksək keyfiyyətli məhsul almağı bacarırıq.

Biz fransız katalitik riforminq qurğularında yüksək oktanlı neft əldə edirdik. Əvvəl bizdə yalnız A-76 benzini vardı. Sonra bu qurğuların hesabına A-95 benzini ala bildik. Hazırda hətta A-98 benzini də istehsal edirik. Bu qurğuların köməyilə biz ildə 24 milyon ton neft emal edirdik».

Yeni komplekslər respublikanın neft emalı sənayesinin 1970-ci ildə işlənib hazırlanmış əsaslı yenidənqurulma və müasirləşdirmə, təkmilləşdirmə proqramının tərkib hissəsi idi. Onu demək kifayətdir ki, bu sahənin inkişafına 10 il ərzində 400 milyon manat sərmayə qoyulmuşdu.



Bundan əlavə, Heydər Əliyev respublikanın neft maşınqayırması məhsullarının texniki səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi proqramının işlənib hazırlanmasına təşəbbüs göstərmişdi.

«O vaxtlar neft-kimya maşınqayırması naziri Brexov idi, – deyə Həsən Seyidov yada salır. – Biz onu Bakının Nəsimi rayonundan və Sumqayıtdan Ali Sovetə deputat seçdik və yanılmadıq. 70-ci illərin əvvəlində respublikanın bütün neft maşınqayırma zavodları mənəvi cəhətdən köhnəlmişdi. Biz bu zavodların yenidən qurulması, korpus və avadanlıqların yeniləşdirilməsi zərurəti barədə məktub yazıb Sov.İKP MK-ya göndərdik. Brexov bizi dəstəklədi. Bir neçə ildən sonra bu müəssisələrin yalnız adı qaldı, faktiki olaraq onları yenidən tikdilər. Bu məqsəd üçün mərkəzi orqanlar bizə 480 milyon manat ayırdılar. Yadımdadır ki, 80-ci illərin əvvəlində İttifaq Neft Maşınqayırması Birliyini (Soyuzneftemaş) Lenin ordeni ilə mükafatlandırdılar, birliyin rəisi Rza Məmmədova isə Sosialist Əməyi Qəhrəmanı adı verdilər».

Leytenant Şmidt adına zavodun bazasında bir sıra neft maşınqayırması müəssisəsi yaradıldı: Suraxanı zavodunda dərinlik nasoslarının buraxılışına başlandı, dəzgah-suvuranların istehsalını «Bakinski raboçi» zavoduna, qazma bəndlərinin, iskənələrinin hazırlanmasını isə Bakı maşınqayırma zavoduna tapşırdılar. Leytenant Şmidt adına zavod SSRİ ərazisində neft maşınqayırmasının ən güclü çoxşaxəli müəssisələrindən birinə çevrildi. Nəticədə SSRİ-nin neft sənayesində istifadə olunan neft-mədən avadanlığının 70 faizi Bakının zavodlarında istehsal olunurdu.

Neft-kimya sənayesində iri texnoloji qurğular, yeni perspektiv komplekslər işə salındı, qara və əlvan metallurgiya müəssisələri müasirləşdirildi, təkmilləşdirildi. Azərbaycan Boru-Prokat zavodu Sovet İttifaqındakı eyni profilli ən nəhəng müəssisələrdən birinə çevrildi.

Bütün bunlar üçün böyük maliyyə vəsaiti tələb olunurdu. Heydər Əliyev kömək və dəstək üçün tez-tez, indiki anlamda desək, Azərbaycanın ən böyük lobbiçisi bakılı Nikolay Baybakovun işlədiyi SSRİ Dövlət Plan Komitəsinə müraciət edirdi:

«Yadıma gəlmir ki, Heydər Əliyeviçlə görüşən zaman mən onun qarşıma qoyduğu məsələyə və ya xahişə rədd cavabı verim, – deyə Nikolay Konstantinoviç mənimlə söhbətində söylədi. – Mənim hansısa iradlarım olurdu, məsələn, təklif edirdim ki, bu və ya digər məsələnin həllinə bu tərəfdən yox, digər tərəfdən yanaşsın. Ancaq bütövlükdə götürəndə, yadıma gəlmir ki, aramızda münaqişə düşsün,

fikir ayrılığı olsun. Xüsusilə neft sənayesi ilə bağlı çox məsələlər ortaya çıxırdı.

Azərbaycanda istehsal olunan neft avadanlıqlarının hesabına biz ikinci, üçüncü Bakı yaradırdıq. Beləliklə, ölkə iqtisadiyyatının yüksəldilməsində təkcə Bakı nefti yox, həm də digər neft rayonlarına Azərbaycanın göndərdiyi kömək böyük rol oynadı. Bir vaxtlar Azərbaycan neft-mədən avadanlığından korluq çəkirdi və özü onları istehsal etməyə başladı. Digər neftçıxarma regionları meydana çıxandan sonra isə, biz istehsalı genişləndirmək qərarına gəldik. Çox sonralar belə zavodlardan Ufada, digər yerlərdə tikməyə başladıq. Ancaq bütövlükdə Azərbaycan Böyük Vətən müharibəsi dövründə həlledici rol oynadı və SSRİ-nin bütün digər neft rayonlarının inkişafının əsası olaraq indiki Rusiyanın neft sənayesinin inkişafına da çox böyük köməklik göstərdi. Azərbaycan neftçilərinə üçqat minnətdar olmalıyıq».

Heydər Əliyev sənaye istehsalının strukturunu ən qabaqcıl texnika və texnologiya ilə təchiz olunmuş müəssisələrin tikintisini, elmitexniki tərəqqini müəyyənləşdirən daha perspektivli sahələr hesabına dəyişməyi zəruri hesab edirdi. Ona görə də o, elektron, elektrotexnika, radiotexnika, cihazqayırma, hərbi sənayelər üçün iri zavodlar tikilməsi ilə bağlı dövlət sifarişlərini «elə keçirməyə», işləyən müəssisələrin texniki cəhətdən yeni avadanlıqlarla təchiz olunması, genişləndirilməsi və yenidən qurulması üçün vəsait tapmağa çalışırdı. Andrey Karaulova verdiyi müsahibədə o, heyrətamiz rəqəmləri misal gətirir: 1970-1982-ci illər arasında Azərbaycanda 250 yeni müəssisə, sənaye sahəsi, sex tikilmişdi.

O illəri xatırlayan akademik Ziyad Səmədzadə yazır:

«Sov.İKP MK-nın onuncu beşillik ərəfəsində meydana çıxan «Azərbaycan Kommunist Partiyası MK-nın 1976-1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişafına dair təkliflərə baxılmasının nəticələri haqqında» qərarı Azərbaycanın sosial-iqtisadi tərəqqisinin yeni dövrünün başlanğıcı oldu. Respublikada sənaye istehsalının dinamik və hərtərəfli inkişafına dair konkret proqram onun quruluşunun kökündən dəyişdirilməsi və təkmilləşdirilməsi, daha dərindən ixtisaslaşdırılması və mərkəzləşdirilməsi üzrə tədbirləri müəyyənləşdirdi.

Azərbaycan Kommunist Partiyası MK-nın oktyabr (1976-cı il) plenumunda maşınqayırmanın daha yüksək texniki-iqtisadi göstəricilərlə fərqlənən mütərəqqi sahələrinin uzunmüddətli yüksəlişi proqramı, bütövlükdə sahənin dinamik inkişafı üçün konkret və məsuliyyətli vəzifələr müəyyənləşdirildi»[14].

70-ci illərdə və 80-ci illərin əvvəllərində partiya işinin ən məsuliyyətli sahəsində – rayon, şəhər partiya komitələrinin birinci katibi, MK-nın ideologiya üzrə, sonra isə tikinti və nəqliyyat üzrə katibi işləmiş Həsən Həsənov o illərdə respublikada gedən irimiqyaslı iqtisadi islahatların bilavasitə iştirakçısı olmuşdur. Bu adam nədən danışdığını yaxşı bilir:

«Heydər Əliyev Azərbaycanda işləyərkən təkcə obyektlərin təməlini qoymadı, Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin bir sıra qərarları hesabına uzunmüddətli və səmərəli, genişmiqyaslı tikinti proqramı yaratdı. Proqram elə əhatəli, geniş idi ki, çox vaxt inşaatçılar sadəcə olaraq çatdırmırdılar. Heydər Əliyev Azərbaycana rəhbər seçiləndə respublika iqtisadiyyatı bir qədər qapalı və baxımsız idi. Kənd təsərrüfatında pambıqçılıq, sənayedə neftçıxarma üstünlük təşkil edirdi. Eyni zamanda pambıq yığımı üzrə planlar mütəmadi olaraq yerinə yetirilmirdi, neftçıxarma səviyyəsi isə enməkdə davam edirdi. Bütövlükdə ölkə üzrə yaxşı inkişaf etmiş maşınqayırma sahələri respublikamızda daha çox geridə qalırdı. Heydər Əliyev iqtisadi məsələnin həllinə o vaxt məşhur olan «nəyin hesabına olursa-olsun, planı yerinə yetirməli» metodu ilə yox, strateji nöqteyi-nəzərdən yanaşdı. O, Azərbaycan iqtisadiyyatının strukturunda əsaslı şəkildə yenidənqurma aparmağı qərara aldı. Məsələn, kənd təsərrüfatında pambıqçılığın, üzümçülük və şərabçılığın, tərəvəzçiliyin, çayçılıq və digər subtropik bitkilər yetişdirmənin inkişafı üzrə proqramlar qəbul olundu. Kənd təsərrüfatında texniki bitkilərin inkişafı özüylə birgə emal sahələrinin də inkişafına, yeni müəssisələrin yaradılmasına səbəb oldu. Sənayedə neft-mədən avadanlığının istehsal həcmi kəskin şəkildə artdı. Fəaliyyətdə olan zavodların yenidən qurulmasından başlamış, bugünədək fəaliyyət göstərən Dərin Özüllər zavodu kimi qabaqcıl texnologiyalı nəhəng qurğuların tikintisinədək işlərin miqyası genişləndi. Flaqmanı dünyada tanınmış Bakı Məişət Kondisionerləri zavodu olan dəzgahqayırma, elektronika, elektrotexnika kimi qabaqcıl sahələrin ilk qaranquşları yarandı.

Azərbaycanda siyasi uğurlar və iqtisadi göstəricilər vahid bir məcrada birləşirdi. 1980-ci ilin sentyabrında Kirovabad şəhər partiya komitəsinin birinci katibi olarkən mən Heydər Əliyevi Qazaxıstanda keçirilən yubiley tədbirlərində müşayiət edirdim. Həmin tədbirdə L.İ.Brejnev də iştirak edirdi. Diqqətəlayiq haldır ki, Alma-Atadakı təntənəli yığıncaqda çıxış edənlərdən biri dedi: «Bu gün Azərbaycan

öz məişət kondisionerləri ilə təkcə binalardakı havanı yox, bütövlükdə ölkədəki sağlam mənəvi, ictimai-siyasi ab-havanı müəyyənləşdirir».

Heydər Əliyev öz yaratdıqlarının hamısı ilə fəxr edirdi, ancaq 70-ci illərin ortalarında tikilmiş Məişət Kondisionerləri zavodu ilə xüsusi qürur duyurdu. İllah da ki, Heydər Əliyevin tərcümeyi-halını araşdıranlardan birinin çox dəqiqliklə qeyd etdiyi kimi, «o olmazın əzablar içində doğulmuşdu». Kitabımın qəhrəmanı dəfələrlə ittifaqın kabinetlərində bu və ya digər zavodu və ya müəssisəni başqa yerdə yox, məhz Azərbaycanda tikməyin vacibliyinə inandıra-inandıra məmurlardan dəfələrlə xahişlər etmişdi. Maraqların və ambisiyaların çarpışması aylarla, bəzən hətta illərlə uzanırdı. Bu vaxt baş katibin xoş münasibəti dada çatırdı. Heydər Əliyev bütün digər təsir vasitələrindən əli üzüləndən sonra ona müraciət edirdi.

1990-cı ilin noyabrında Naxçıvanda mənim Heydər Əliyevlə ilk şəxsi görüşüm zamanı o, məşhur zavodun tikilməsinin tarixçəsindən danışdı. Bu belə olmuşdu: yadıma gəlir ki, Heydər müəllim zarafatla gileyləndi – mən respublikanın rəhbəri olandan sonra bütün enerjimi, təcrübəmi Azərbaycanın paytaxtında, eləcə də digər şəhər və rayonlarında mümkün qədər çox bina, müəssisə, zavod, fabrik tikməyə yönəltdim. Özümün isə yaşamağa mənzilim yoxdur.

Yeni hökumət ona Bakıda, heç olmasa, kiçik bir mənzilə sahib olmağa belə icazə vermirdi. Qohumlarının evində kirayənişin vəziyyətində yaşamaq məcburiyyətində qalmışdı.

Biz konkret olaraq Heydər Əliyevin hakimiyyəti illərində respublikada nələrin inşa edildiyini xatırlamağa başladıq. Saydıq, sadaladıq, hesabı itirdik. Mən isə dedim: «Şəxsən mənim ailəm hər şeydən artıq Məişət Kondisionerləri zavoduna görə sizə minnətdarıq. Məsələ orasındadır ki, biz şəhərin dağlıq hissəsində, köhnə tikililərdə yaşayırıq. Bildiyiniz kimi, bu evlərin damına qır* çəkirdilər. May ayından oktyabradək evin ikinci mərtəbəsində yaşamaq mümkün deyildi, belə ki, evin damı gündüz günəşdən qızır, otaqlar qaynar qazanı xatırladırdı. İkinci mərtəbədə bir çox ildən sonra, biz nəhayət, kondisioner alandan sonra yaşaya bildik».

Heydər müəllim gülüb dedi: «Elmira, təsəvvür edin ki, bütün ölkədə kondisioner yox idi axı. Yalnız Bakıda deyil, Rusiyada da, digər respublikalarda da. Siz yəqin ki, bilmirsiniz mən necə çətinliklə zavodun məhz Azərbaycanda tikilməsinə nail olmuşam. Əgər maraqlanırsınızsa, danışa bilərəm».

Mən cavab verdim ki, bu olduqca maraqlıdır və təkrar diktofonu işə saldım. Diktofonun yaddaşına köçürdüklərimi heç bir dəyişiklik, ixtisar olmadan, Heydər Əliyevin özünün danışdığı kimi təqdim edirəm.

## «Məişət Kondisionerləri zavodunu necə inşa etmişəm»

– Beləliklə, 1972-ci il idi. Daşkənddə pambıqçıların ümumittifaq yığıncağı keçirilirdi. Oraya pambıq əkilən respublikaların rəhbərləri, o cümlədən Azərbaycan nümayəndə heyəti də dəvət olunmuşdu. Leonid İliç Brejnev də Daşkəndə gəldi. Təbii ki, biz hamımız onu hava limanında qarşıladıq, sonra isə qonaq evindəki otaqlarımıza dağılışdıq. Yığıncaq səhər saat 10-11-də başlayacaqdı. Çox mehriban, ünsiyyətcil adam olan Leonid İliçin bu və ya digər tədbir başlamazdan qabaq respublikaların rəhbərləri ilə söhbətləşmək adəti vardı. Həm də yeri gəlmişkən deyim ki, onda güclü yumor hissi var idi. Elə o vaxt da o bizim hamımızı güldürdü. O, Şərəf Rəşidovla yanaşı kresloda oturmuşdu, ona işarə edib dedi: «Şərəf Rəşidoviç, məni iqamətgaha gətirib lazımi qaydada yerləşdirdi, mənim isə tabım yoxdur. Hədsiz dərəcədə istidir! Gördüm ki, otaqda kondisioner var. Sevinib onu şəbəkəyə birləşdirdim. O isə havanı sərinlətmək əvəzinə otağa isti hava vurdu. Sonra isə istiliklə bərabər otağı toz bürüdü. Soruşdum ki, bu nədir belə, Şərəf Rəşidoviç, siz qonaqları necə qarşılayırsınız?»

Bütün bunları o yumoristik tərzdə təsvir edirdi. Rəşidov özünə bəraət qazandırmaq üçün məni göstərdi: «Mənim heç bir günahım yoxdur, bu kondisionerləri Bakıda düzəldirlər. O özü cavab versin». «Hə, – Brejnev güldü. – deməli, günahın hamısı Əliyevdə imiş».

Bu yerdə Heydər müəllim izahat verməli oldu:

«Bizdə Buzovnada aviasiya sənayesi zavodu vardır. 70-ci illərin əvvəlində orada məişət kondisionerlərinin istehsalını primitiv yolla işə salmışdılar. Onlar həqiqətən də keyfiyyətsiz, etibarsız idilər. Biz onlardan əsasən öz respublikamızda istifadə edirdik. Ancaq necə ol-

* Bakıda əridilmiş bitumu qır adlandırırlar. Onu iri tiyanlarda qaynadıb Bakı evlərinin yastı damlarına tökürdülər.

muşdusa, kimsə bu kondisionerləri Özbəkistana aparıb çıxarmışdı. Həmin nümunələrdən birilə Brejnev də «tanış olmuşdu».

Mən Brejnevə dedim:

– Bizim respublikamızda kondisioner istehsal olunmur. Bir müəssisədə kustar üsulu ilə nəyi isə yoluna qoymağa çəhd edirlər. Ancaq bütün bunlar ciddi deyil.

Beləliklə, hamımız gülüşdük. Brejnev isə dedi:

– Nədir, yoldaşlar, əhalisinin yarısı cənub respublikalarında yaşayan ölkəmizdə məişət kondisionerlərinin istehsalını niyə də qaydaya salmayaq?

Bilirsinizmi, Elmira xanım, indi sizin jurnalist həmkarlarınız onu az qala təlxək kimi təqdim edirlər. Ancaq o, çox ağıllı, dövlətin mənafeyindən çıxış edən adam idi. Brejnev müsahibinə diqqətlə qulaq asan, haqlı sözü, yaxşı ideyanı başa düşən, kömək edən rəhbər idi. «Axşam istidən boğulanda təsəvvür etdim ki, xəstəxanalarda, doğum evlərində olanlar, uşaq bağçalarındakı körpələr nə çəkir». Fikir verirsinizmi, o ilk növbədə zəifləri, xəstələri və uşaqları düşünmüşdü.

Brejnevin ideyası ürəyimizcə oldu, illah da ki, yığıncağa əsasən cənub regionunun rəhbərləri toplaşmışdı. Odur ki, bu məsələ hamıya doğma və anlaşıqlı idi.

– Moskvaya gedəndən sonra mütləq göstəriş verəcəyəm ki, Məişət Kondisionerləri zavodunun tikintisinə başlasınlar, – Brejnev dedi.

Mən dərhal özümü irəli verdim. Mənə elə bu lazım idi. O illərdə mən bütün qüvvəmlə Azərbaycanda bu cür müəssisələrin tikintisinə nail olmağa çalışırdım. Bilirdim, qabaqcadan görürdüm ki, sonralar onlar bizim var-dövlətimizə, sərvətimizə çevriləcək.

– Leonid İliç, – dedim, – mən sizin təklifinizi bəyənib, qarşılıqlı bir təklif irəli sürürəm. Sizdən xahiş edirəm, göstəriş verin ki, həmin zavodu Azərbaycanda tiksinlər. Söz verirəm ki, obyekt qısa müddətə təhvil veriləcək.

– Yaxşı, – Brejnev dedi, – biz bunu bir qədər sonra müzakirə edərik.

Bizim zarafatyana söhbətimizi Brejnev yaddan çıxarmadı. Moskvaya gedən kimi Məişət Kondisionerləri zavodunun tikintisi barədə məsələni Siyasi Büroda qoydu. Həm də orada bildirdi ki, Əliyev belə bir zavodu Azərbaycanda rekord müddətə inşa etməyə söz verib. Bunu eşidən kimi başa düşdüm ki, işə başlamaq lazımdır.

Bu vaxt Moskvada zavodun tikintisini hansı nazirliyə tapşırmaq məsələsini müzakirə etməyə başladılar. Əvvəllər belə bir nümunə olmadığından texnologiyanı heç kim bilmirdi. Bir-birinin ardınca nazirliklər «münasib olmayan» sifarişdən imtina etdilər. Bu lüzumsuz süründürməçilik Brejnevə çatanda o tapşırdı ki, «zavodun tikintisi ilə Elektrotexnika Sənayesi Nazirliyi məşğul olsun». Nazirlik əməkdaşları ağıl işlədib belə bir nəticəyə gəldilər ki, öz qüvvələri ilə bu işin öhdəsindən gələ bilməyəcəklər, xaricdən texnologiya almaq lazımdır.

«Bunun üçün sizə nə qədər pul lazımdır?» – deyə MK-da soruşdular. Hesablama aparıb, 25 milyon dollarlıq bir məbləğ söylədilər. Bir neçə gündən sonra Elektrotexnika Sənayesi Nazirliyinə zavodun tikintisi üçün 25 milyon dollar ayrılması barədə Siyasi Büronun qərarı dərc olundu. Bəs nazir Antonov nə elədi? Brejnevin göstərişlərinin əksinə, zavodun Zaporojyedə tikilməsi barədə layihə hazırlatdırdı.

Mən respublikada rahatca oturub gözləyirdim ki, layihə nə vaxt hazır olacaq. Birdən Moskvadan siqnal gəldi ki, Zaporojyedə zavodun tikintisinə hazırlıq gedir. Bütün işlərimi atıb Moskvaya uçdum, əvvəlcə Antonovun, sonra isə Kosıginin müavini Novikovun yanına gedib nə baş verdiyini araşdırmağa çalışdım. Mənim özümə dərhal hər şey aydın oldu. Yüksək hakimiyyət dairələrindəki bir çox məmurlar belə hesab edirdilər ki, azərbaycanlılar bacarıqsız, əlindən iş gəlməyən xalqdır, yüksək texnika ilə işləmək qabiliyyəti yoxdur, onların nə müvafiq mühəndis-texniki, nə də işçi kadrları var. Onlar çox ləng və keyfiyyətsiz tikirlər. Brejnev isə xüsusi qeyd etmişdi ki, tikinti qısa müddətə başa çatdırılmalıdır. Onlar mənə bütün bunları izah etdilər, amma mən başa düşdüm ki, məsələ bunda deyil. Böyük sosial və iqtisadi əhəmiyyəti olan bu tipli müəssisələri o illərdə Zaqafqaziyada, Orta Asiyada çox da həvəslə inşa etmirdilər. Onları «öz» respublikalarında – Rusiyada və ya Ukraynada tikməyə can atırdılar.

Ancaq mən sonadək mübarizə aparmaq qərarına gəldim. Kosiginin yanına getdim, ancaq o mənə konkret heç bir şey vəd etmədi. Onda mən birbaşa Brejnevin yanına üz tutdum. Sən demə, baş katibin bütün bunlardan xəbəri yox imiş. Məni görən kimi soruşdu: «Hə, Heydər, sənin zavodunda vəziyyət necədir, irəliləyir?» Mən çiyinlərimi çəkdim. «Nə üçün?» – «Çünki sizin nazirlər oyun oynadılar və zavodu Zaporojyedə tikmək qərarına gəldilər». – «Necə? Ay onların...» Dərhal dəstəyi götürüb Nazirlər Soveti sədrinin müavini Novikova zəng vurdu: «Bu nə özbaşınalıqdır? Mən axı sizə demişəm ki, zavod Bakıda tikilməlidir». Sədr müavini bütün günahları nazir Antonovun üstünə yıxdı. Brejnev Antonovu da biabır etdi. An-

tonov etiraz etməyə çalışdı: «Bilirsiniz, Leonid İliç, Zaporojyedə nazirliyimizin yüksək ixtisaslı kadrları olan böyük zavodu var. Özünüz də bilirsiniz ki, kondisioner istehsalı çox mürəkkəb texnoloji prosesdir. Zaporojyedə biz bu texnikanı mənimsəyə bilərik. Azərbaycanda isə bu, çox çətin olacaq». Brejnev onun sözünü kəsdi: «Sizə necə deyiblərsə, elə də edin. Əvvəla, mən özüm Zaporojyedə işləmişəm, bilirəm ki, bu region zavodlarla doludur. Orada yeni zavod tikməyə lüzum yoxdur. İkincisi isə, bu kondisionerlər ən çox cənub respublikalarına gərəkdir. Deməli, zavodu da cənubda tikmək lazımdır. Nəyə görə kondisionerləri Zaporojyedən Bakıya, Tbilisiyə və ya Aşqabada göndərək. Bakıda bütün bunlar daha ucuz və rahatlıqla başa gələr». Görürsünüzmü, siz isə deyirsiniz ki, o səfeh idi.

Brejnevin kabinetindən çıxanda artıq hamı məni axtarırdı. Novikov yanına çağırırdı, Antonov Əliyevi soruşurdu. İncimişdilər: «Nə üçün bizdən şikayət etmisən?» – «Bəs mən nə etməliydim, zavodumu əlimdən almaq istəyirdiniz». Beləliklə, mən bir qədər rahat olub qayıtdım. Ancaq aradan bir ay keçdi, iki ay keçdi, Moskvadan heç bir səs-səmir gəlmədi. Yenidən Moskvaya uçdum. Növbəti sürüşdürməçiliyin səbəbini aydınlaşdırdım. Şən demə, nazirliyin təmsilçiləri xarici firmalarla – amerikalılarla, almanlarla, italyanlarla razılığa gəlməyə çalışıblar. Onların hamısı çox yüksək qiymət söyləyiblər, 120, 130, 150 milyon dollar istəyiblər. Nazirliyə isə qərara görə cəmi 25 milyon dollar ayırmışdılar. Axır ki, «Toshiba» yapon firması ilə danışığa girdilər və onlar da sifarişi 90 milyon dollara yerinə yetirməyə razılıq verdilər (yeri gəlmişkən deyək ki, yaponlar işi heç də o biri firmalardan pis icra etmədilər, əksinə, sifarişi yüksək səviyyədə yerinə yetirdilər). İndi isə Siyasi Bürodan sərmayəni artırmağı xahiş etmək qalırdı. Ancaq müvafiq idarələrin rəhbərlərindən heç birisi buna cürət etmirdi. Baybakov Kosıginin üstünə atırdı, Kosıgin də Baybakovun – artıq valyuta yoxdur, limitlər tükənib və s. və i.a. Bir sözlə, bütün bu bürokratik əngəllər, sürüşdürməçilik, getgəllər səbrimi tükəndirdi və mən yenidən Baş katibin yanına getdim. İş barədə danışanda o soruşdu: «Hə, necədir, Heydər, zavodun tikintisi gedir?» – «Xeyr» – dedim. «Nə üçün, sən axı mənə söz vermisən ki, sürətlə tikəcəksən». Mən ona hər şey barədə məruzə etdim. Brejnev bərk hirslənib hətta söyüş söydü və dəstəyi götürüb: «Elə bu gün təklif verin, qərar çıxardacağıq», – dedi. Biz bir günə təklif hazırladıq, Brejnev onu imzaladı və nazirliyə 90 milyon dollar ayırdılar.



Bütün bu get-gəllərdən, sürüşdürməçilikdən biz bir il vaxt itirdik. Mənsə Brejnevə söz vermişdim ki, obyekti XXV partiya qurultayınadək təhvil verəcəyik. O vaxtlar, əgər xatirinizdədirsə, mühüm dövlət obyektlərinin təhvil verilməsini hər hansı əlamətdar günə salmaq dəbdə idi. XXV partiya qurultayını 1976-cı ilin əvvəlində keçirmək nəzərdə tutulmuşdu. Vaxtım çox az qalsa da, mən nəyin bahasına olursa-olsun, vədimi yerinə yetirməyi qət etmişdim. Əvvəla, tikintinin məhz Azərbaycanda aparılması üçün həqiqətən əlindən gələni edən Baş katibi pis vəziyyətdə qoymaq yaxşı düşməzdi. İkincisi, sübut etmək istəyirdik ki, azərbaycanlılar əfəl, yarıtmaz deyillər. Mən artıq xəyalımda yaraşıqlı bir zavod canlandırmışdım!

Bakıya gəlib adamları səfərbər etdim, nə özümə, nə də başqalarına dinclik vermədim. Ən azı ayda üç dəfə tikintiyə baş çəkirdim, tikintinin necə getməsi, hansı çətinliklər olması, obyektin fasiləsiz təminatı üçün hansı materiallar gərək olduğu və s. barədə hər gün hesabat, məlumat tələb edirdim. Ətrafdakıları da öz ruh yüksəkliyimlə, öz şövqümlə yoluxdurmuşdum. Zavodu iki ilə tikdik. Mahiyyət etibarilə tikintiyə 73-cü ilin ikinci yarısında başladıq, 75-ci ilin dekabrında zavod təhvil verildi. Həm də biz təkcə zavod tikmədik – bu, işin yalnız yarısı idi. Bu müəssisədə işləyə biləcək kadrlar hazırlamaq lazım idi. Ona görə də, tikinti gedə-gedə 300 nəfər adamı Yaponiyaya göndərdim. Onların arasında mühəndislər, texniklər, fəhlələr də vardı. Bundan əlavə, 500 nəfər Moskva, Leninqrad və Ukraynada elektrotexnika sənayesinin oxşar müəssisələrində təhsil alıb, ixtisaslarını artırdılar. Artıq zavod işə düşəndə, o tamamilə yüksək ixtisaslı, hətta nadir kadrlarla komplektləşdirilmişdi.

Bilirsiniz, mən xoşbəxtəm ki, bu zavodun tikintisində bilavasitə iştirak etmişəm. O, artıq 15 ildir ki, fəaliyyətdədir, xərcini artıq ödəyib, respublikaya gəlir gətirir. Günlərin bir günü mən Afrikanın lap cənubuna – Mozambikə getdim və orada Azərbaycan kondisionerləri gördüm. Sonralar Bakının markası olan kondisionerləri Yer kürəsinin ən müxtəlif nöqtələrində – Koreyada, Vyetnamda, Anqolada görmək mənə nəsib olmuşdu. Mən həqiqətən də qürur duyurdum ki, biz möcüzə yarada bilmişik. Nə üçün bir jurnalist belə bu barədə yazmır? Nə üçün o dövrü yalnız neqativ planda xatırlayırlar?

– Bu barədə siz yazmalısınız. Öz kitabınızda, – deyə mən yenidən ona memuar yazmağı xatırlatdım.

– Yazacağam. Hökmən yazacağam – dedi».

**1975-ci il dekabrın 25-də** Bakı Məişət Kondisionerləri zavodunun işə düşməsinə həsr olunmuş mitinq keçirildi. Bu, süni iqlim aparatının istehsalı üzrə ölkədə ilk zavod idi. Həmin gün Brejnev tikinti iştirakçılarına səmimi salamlar və təbriklər göndərmişdi. Heydər Əliyev mitinqdə heyranedici rəqəmlər səsləndirdi: iki il ərzində 130 milyon manatdan artıq kapital qoyuluşu istiqaməti üzrə mənimsənilib, istehsalat və digər obyektlər 155 min kvadratmetr sahəni tutur. 4 min ədəd mürəkkəb texnoloji və mühəndis qurğusu quraşdırılıb, avtomatlaşdırılmış arasıkəsilməz xəttlərin ümumi uzunluğu 9 kilometrdir, min kilometrə yaxın boru kəməri və kabel xətti çəkilib.

Açılış mərasimində çıxış edən SSRİ elektrotexnika sənayesi naziri A.Antonov qeyd etdi: «Minlərlə vahid texnoloji və mühəndis qurğularının yaradılması və təchizatında onlarla yerli və xarici firma iştirak edib... zavod qabaqcadan işlənib hazırlanmış kompleks şəbəkə qrafiki üzrə, daimi ciddi nəzarət sistemi altında layihələndirilib, kadrlarla komplektləşdirilib, avadanlıqla təchiz olunub, inşa edilib, quraşdırılıbdır.

...Artıq bu gün zavod əsas peşələr üzrə ixtisaslı fəhlələrdən, mürəkkəb avadanlıqları sazlayanlardan, konstruktor, texnoloq, sex və şöbə rəhbərlərindən ibarət elə etibarlı özülə malikdir ki, onlar qarşılarında duran ən mürəkkəb istehsalat tapşırıqlarını belə həll etmək iqtidarındadırlar».

Bu, SSRİ rəhbərliyinə Azərbaycan zəhmətkeşlərinin elmi-texniki tərəqqini müəyyənləşdirən yüksək texnoloji istehsal sahələrinin inkişafında fəal iştirak etməyə qadir olduqlarını sübut edən Heydər Əliyevin və onun komandasının böyük qələbəsi idi.

Kitab üzərində işləyərkən mən qəhrəmanımın şəxsiyyəti ilə bu və ya digər dərəcədə üzləşən, həyatının dönüş illərində onunla ünsiyyətdə olan hər bir kəslə görüşməyə çalışırdım. Onlardan biri də məşhur neftçi, Sibirin «böyük» neftini kəşf edən Fərman Salmanovdur. O, Heydər Əliyev barədə böyük hörmət və ehtiramla danışdı:

«Bu, ilk növbədə respublikanın inkişafını düşünən geniş miqyaslı insan idi. O görürdü ki, Azərbaycanda maşınqayırmanı ciddi şəkildə yüksəltmək, mədəniyyət obyektləri inşa etmək, kənd təsərrüfatını inkişaf etdirmək lazımdır. O, pambıqçılığın, üzümçülüyün inkişafına güclü təkan verdi!

Azərbaycan, demək olar ki, taxıl əkmirdi, çünki Rusiyanın sənaye mərkəzlərini tərəvəzlə təmin etmək lazım idi. O, buna nail oldu.



Moskvada isə rəhbər strukturlarda millətçilər oturmuşdu, onlar deyirdilər ki, Azərbaycan hətta iki kiloqram çörəyi də özü qazanmayıb. O belə adamların cavabını verərək, onları yerində oturdurdu.

Mən Heydər Əliyevə Qərbi Sibirin perspektivlərindən danışırdım. Axı mən orada 135 neft yatağı kəşf etmişəm. O, bununla çox maraqlanırdı. Heydər Əliyev Azərbaycandan gedib Rusiyada işlədiyimə görə məni məzəmmət etmirdi. Əksinə, o çalışırdı ki, azərbaycanlılar Rusiyada, İttifaqın digər respublikalarında işləsinlər, miqyaslı layihələrdə iştirak etsinlər. O belə insanlarla fəxr edirdi».

*Sovet Azərbaycanı tarixinin «Əliyev dövrü»nün uğur və nailiyyətləri barədə çox danışmaq olar. Ancaq zənnimcə, bu heyrətamiz nəticələri rəsmi statistika daha yaxşı əks etdirir. Ona görə də rəqəmlərə üz tutaq.*

*Artıq 70-ci illərin əvvəlində mənfi təmayülləri aradan qaldırmaq mümkün oldu və Azərbaycan qətiyyətlə Sovet İttifaqının qabaqcıl respublikaları sırasına çıxdı. Şəhər və kəndlərin siması tanınmaz dərəcədə dəyişdi, yeni müasir sənaye obyektləri meydana gəldi.*

*1975-ci il sentyabrın 10-da sənaye istehsalının ümumi həcmi üzrə doqquzuncu beşillik vaxtından əvvəl yerinə yetirildi. Sənaye məhsulunun artımı 1970-ci illə müqayisədə 1975-ci ildə Sov.İKP-nin XXIV qurultayının direktivlərindən irəli gələn 43-45 faizə qarşı 50 faiz təşkil edirdi.*

*1977-ci ildə sənaye istehsalının həcmi 1970-ci illə müqayisədə 75 faiz artdı. Elə həmin il Bakı Lenin ordeni ilə təltif olundu.*

*70-ci illərin sonunda Azərbaycan dünyanın 65 ölkəsinə 350 növ məhsul ixrac edirdi.*

*1980-ci il martın 16-da mərkəzi və respublika qəzetlərinin hamısında L.İ.Brejnevin Azərbaycan zəhmətkeşlərinə təbriki və SSRİ Ali Soveti Rəyasət Heyətinin «Azərbaycan Sovet Sosialist Respublikasının Lenin ordeni ilə təltif olunması barədə» fərmanı dərc olunmuşdu. Fərmanda deyilirdi ki, respublika Lenin ordeni ilə «Azərbaycan SSR zəhmətkeşlərinin Sov.İKP XXV qurultayının xalq təsərrüfatının inkişafı üzrə qərarlarının həyata keçirilməsində, sənaye və kənd təsərrüfatı məhsullarının istehsalı üzrə onuncu beşillik tapşırıqlarının vaxtından qabaq yerinə yetirilməsində əldə etdikləri böyük nailiyyətlərə görə təltif olunur».*

*Martın 18-də Bakıda Azərbaycan zəhmətkeşləri nümayəndələrinin respublikanın Lenin ordeni ilə təltif olunmasına həsr olunmuş mitinqi keçirildi. Həmin mitinqdə Heydər Əliyev bəzi yekun rəqəmlər səslən-*

*dirdi: belə ki, milli gəlirin artımına görə 10-cu beşillik plan dörd ilə yerinə yetirilib. 1976-1979-cu illər ərzində respublikanın milli gəliri tapşırıq üzrə 22 faizə qarşı 32,5 faiz yüksəlib. Milli gəlirin mütləq artımı yeddinci və səkkizinci beşilliklərdə birgə götürüləndən də artıq, 1,7 milyard manat təşkil edib.*

*Sənaye əməkçiləri sənaye istehsalının ümumi həcmi üzrə beşillik planı vaxtından əvvəl yerinə yetirmişdilər. Artım tempi beşilliyin sonuna nəzərdə tutulduğu kimi, 39 faizə çatmışdı. 48 yeni iri müəssisə və 29 istehsal sahəsi, 30-dan artıq dövlət və təsərrüfatlararası heyvandarlıq kompleksi və quşçuluq fabrikləri tikilib istismara verilmişdi. Ümumi tutumu 700 milyon kubmetr olan Tərtər, Xanbulançay və Arpaçay su anbarları işə salındı. Bu da 145 min hektardan artıq sahəni suvarmağa imkan verdi.*

*1981-ci il yanvarın 7-də 44-cü Bakı partiya konfransında Heydər Əliyev onuncu beşilliyə qəti yekun vurdu:*

*«Beşillik ərzində sənaye istehsalı həcminin artımı beşillik plan üzrə 39 faizə qarşı 47 faiz təşkil etmişdir. Bu gün sizə deməliyəm ki, ölkə üzrə beşilliyə yekun vurulub və* ***bu, bütün müttəfiq respublikalar arasında ən yüksək göstəricidir.*** *Onuncu beşillikdə sənaye istehsalının ümumi həcmi doqquzuncu beşillikdəkindən 1,5 dəfə çox və ya demək olar ki, altı, yeddi və səkkizinci beşilliklərdə birgə götürülənə bərabər olmuşdur».*

*Və daha bir rəqəm: 1970-ci ildən 1980-ci iədək Azərbaycanın xalq təsərrüfatına əvvəlki 20 ildəkindən daha çox – 15 milyard manat sərmayə qoyulmuşdur.*

Öz vətənində Məişət Kondisionerləri zavodu tikərək Moskvaya azərbaycanlıların yantmaz, əfəl olmadıqlarını sübut edən Heydər Əliyev avtomobil zavodunun tikintisinə də «girişdi». Bu barədə özü belə danışırdı:

«Azərbaycanda avtomobil, aviasiya zavodlarının olması mənim çoxdankı arzum idi. Ermənistanda avtomobil zavodu fəaliyyət göstərirdi, Gürcüstanda həm avtomobil, həm də aviasiya müəssisəsi var idi. Bizdə isə belə zavodların olmaması – Azərbaycan rəhbərlərinin bir sıra məsələlərə biganə münasibətinin və Moskva ilə zəif əlaqələrinin nəticəsi idi. Avtomobil zavodunun tikintisinə necə nail olduq? Bizdə avtomobillər üçün ehtiyat hissələr buraxan kiçik zavod vardı. Məlum oldu ki, SSRİ Avtomobil Sənayesi Nazirliyində tonyarımlıq yük maşınlarının buraxılışı üzrə zavod tikintisinin layihəsi işlənib hazırlanıb. SSRİ-də əsas diqqət iritonnajlı avtomaşınların istehsalına verilirdi. Odur ki, 1 ton yük daşımaq lazım olanda 6 tonluq yük maşını göndərilirdi. Əlbəttə, bu xeyir əvəzinə zərər gətirirdi, elə benzin israfı göz qabağında idi... 1982-ci ildə Brejnev Azərbaycana gələndə, mən ondan respublikada belə bir zavodun tikilməsi barədə göstəriş verməsini xahiş etdim. O, əvvəlcə heyrətləndi: «Siz nə danışırsınız! Bütün ölkədə iritonnajlı maşın zavodları tikilir, siz isə tonyarımlıq maşınlardan danışırsınız». Mən cavab verdim ki, bu məsələni hərtərəfli öyrənmişəm və əminəm ki, SSRİ-nin belə avtomobillərə ehtiyacı var. Söz verdim ki, biz bu zavodu da məişət kondisionerləri zavodu kimi tez və keyfiyyətlə tikəcəyik.

O razılıq verdi. İki aydan sonra mən Moskvaya köçüb SSRİ Nazirlər Sovetində işləməyə başladım. Nəzarətimdə olan sahələrdən biri də nəqliyyat idi. Hökumət başında Andropov dururdu. O vaxtlar ölkədə avtomobil sənayesinin inkişafı barədə böyük bir qərar qəbul olunmuşdu və mən oraya Gəncədə avtomobil zavodu quraşdırılması barədə bənd daxil etməyə nail olmuşdum. Qeyd etməliyəm ki, bu məsələnin həllində müqavimətə rast gəldim. Ancaq Andropov kömək etdi, bizim təklifimizi dəstəklədi. Təəssüf ki, indi bu zavodun tikintisi dayandırılmışdır».

Yeri gəlmişkən, avtomobil epopeyasının «günahkarı» respublika Nazirlər Sovetinin sədr müavini Süleyman Tatlıyev idi. Məhz o, Moskvada olanda öyrənmişdi ki, Ukraynada (yenə də Zaporojyedə!) şəhərdaxili yük daşımaları üçün kiçik ölçülü tonyarımlıq maşınlar buraxan yeni zavodun tikintisi planlaşdırılır. Bakıya qayıdan kimi, Tatlıyev bu barədə MK-nın birinci katibinə məlumat verdi. Heydər Əliyevsə dedi:

– Leonid İliçin adına məktub hazırla.

Tezliklə məktub Moskvaya göndərildi, sonra Baş katibin dərkənarı ilə Dövlət Plan Komitəsinin sədri Nikolay Baybakovun stolunun üstünə qoyuldu. Baybakov çətin vəziyyətə düşmüşdü: SSRİ Avtomobil Nəqliyyatı Nazirliyi zavodun Zaporojyedə tikilməsini təkid edir, Azərbaycan rəhbərliyi isə onların təkliflərinə baxmağı xahiş edirdi.

«Heydər Əliyev məni Moskvaya, Baybakovun yanına göndərdi, – deyə S.Tatlıyev xatırlayır, – bəlkə bu məsələni hərəkətə gətirmək mümkün oldu.

Baybakovun yanına gəldim və ona dedim: – Axı siz bakılısınız, yəni bu məsələni bizim xeyrimizə həll etmək olmaz?

– Bu məndən asılı deyil, – deyə o cavab verdi.

– Kimdən asılıdırsa, çağırın, birlikdə müzakirə edək.

O, avtomobil nəqliyyatı nazirinin müavinini, bəzi əməkdaşlarını çağırdı. Mən sübut etməyə başladım ki, bu cür zavodun tikilməsi üçün bizdə daha əlverişli şərait var: şin zavodumuz var, Azərbaycan – Zaqafqaziyanın mərkəzidir, Xəzər dənizi və Volqa çayı vasitəsilə məhsulu istənilən respublikaya göndərmək olar.

Axırda belə qərara gəldik ki, nazirliyin nümayəndələri Bakıya gəlib, şəraitlə yerindəcə tanış olsunlar.

Nazirin tikinti üzrə müavini və onunla birgə bir neçə mütəxəssis gəldi. Mən Bakıda bir neçə yeri: Qaradağı, Sumqayıt istiqamətini və s. göstərdim. Ancaq bütün bunlar onları qane etmədi. Onda Heydər Əliyev qonaqları Naxçıvana aparmağı təklif etdi. Onlar Naxçıvana getdilər, oranı da münasib bilmədilər ki, oraya hər şeyi daşımaq lazımdır, bu da çox uzaq məsafədir. Bundan sonra gündəliyə Kirovabad (indiki Gəncə) daxil oldu. Ora yollandıq, qonaqlara meydanı göstərdik, Göygölə apardıq. Mən onlara danışdım ki, bura respublikamızın mərkəzidir. Gürcüstan, Şimali Qafqaz çox uzaqda deyil, Göygölün sahilində isə əməkçilər üçün istirahət evi tikmək olar. Kirovabad variantı nazirlik təmsilçilərinin ürəyincə oldu.

Moskvada onlar öz rəylərini nazir Polyakova bildirdilər. O da hər şeyi öz gözləri ilə görmək qərarına gəldi. Mən onu da Kirovabada apardım. Şəhərdə iş həcmi ildə 3-4 milyon manat təşkil edən tikinti tresti var idi. Mən trest müdirini kənara çəkib dedim:

– Hansı həcmi təklif etsələr, razılaş.

Qısası, söhbəti artıq şəhər partiya komitəsində davam etdirdilər. Nazir trest müdirindən soruşdu:

– Biz sizə 12 milyon manat ayırırıq, bu həcmin öhdəsindən gələ bilərsiniz?

– Gələrik.

İlk vəsait 1984-cü ildə ayrıldı. 1985-ci ildə daha altı milyon manat ayırdılar. Gələcək heyət üçün yaşayış evləri, emalatxanalar, sexlər tikildi.

1985-ci ildə məni Ali Sovetin Rəyasət Heyətinin sədri seçdilər, Kirovabadda birinci katib dəyişdirildi. Bir qayda olaraq yeni müdirlər, özündən əvvəlkinin başladığı işi davam etdirməyə xüsusi həvəs göstərmirlər. Ona görə də növbəti ilə ayrılan vəsait mənimsənilmədi, tikintiyə heç kim ciddi nəzarət etmirdi. Heydər Əliyev istefaya gedəndə isə burada hər şey bütünlükdə dayandırıldı».

SSRİ dağılandan, respublika müstəqillik əldə edəndən sonra Heydər Əliyev sərmayəçiləri Gəncəyə cəlb etmək üçün az qüvvə



sərf eləmədi, o öz arzularının çin olmasını istəyirdi. Təəssüf ki, danışıqlar hər dəfə divara dirənirdi. Onun başladığı işi davam etdirmək varisi, Azərbaycanın prezidenti İlham Əliyevə nəsib oldu. Bu gün Gəncədəki avtomobil zavodu fəaliyyət göstərir, minik avtomobilləri, «Belarus» traktorları istehsal edir, əvvəldən zavodun tikilməsinin əsas məqsədi olan tonyarımlıq yük maşınlarının istehsalı qaydaya salınır.

«Əvəzində ittifaq tabeliyində olan bir çox digər zavodlar tikilmişdi, – deyə Süleyman Tatlıyev söhbətini davam etdirir, – «Azon», «İskra», Əli Bayramlıda iki cihazqayırma zavodu, Sumqayıtda kimya kombinatı və bir çox başqaları. Respublikanın əldə etdiyi gəlirin hamısı Mərkəzə göndərilirdi, oradan həmin vəsaitin bir hissəsi Azərbaycana ayrılırdı. Ancaq buna nail olmaq çox çətinliklər bahasına başa gəlirdi. Hələ mən Nazirlər Soveti sədrinin birinci müavini olanda bu məsələlər üçün ən azı ayda iki dəfə Moskvaya gedirdim.

**– Bəs dərin özüllər zavodu necə tikilib? Bu da Heydər Əliyevin təşəbbüsü idi?**

– Əlbəttə. Biz eşitdik ki, Həştərxanda belə bir zavodun tikintisi planlaşdırılır. Bu barədə Heydər Əliyevə məlumat verdik, Brejnevin adına məktub yazdıq. Qərar üçün məktubu yenə də SSRİ Dövlət Plan Komitəsinə göndərdik. Baybakov uzun müddət bu məsələni həll etmədi. Odur ki, Heydər Əliyev mənə dedi: «Moskvaya get, Baybakovla şəxsən görüş, danış». Baybakovla görüşəndə birbaşa ondan soruşdum ki, məsələ niyə belə uzanır? O cavab verdi ki, belə bir zavodu Həştərxanda tikmək daha məqsədəuyğundur: oradan Volqa vasitəsilə bütün ölkə ilə, Xəzərətrafı respublikalarla əlaqə yaratmaq olar. Bu məsələ həll olunana qədər Heydər Əliyevi Moskvada işləməyə apardılar. Ancaq orada işləyərkən də o bizə çox kömək edirdi. Nəhayət, həmin zavod barədə belə qərar çıxardılar: özüllərin sualtı hissəsini Bakıda inşa etsinlər, suyun üstündəki hissəni isə – idarəetmə sistemini, məişət qurğularını, maşın şöbəsini və s. – Həştərxanda hazırlasınlar. Başqa sözlə desək, bu üsulla SSRİ-nin müxtəlif regionlarını bir-birilə əlaqələndirirdilər. Tikinti 70-ci illərin sonunda başladı, zavodu istismara 80-ci illərin ortalarında verdilər».

Bəzən isə əksinə olurdu. Heydər Əliyev bu və ya digər müəssisənin və ya ziyanlı qurğunun Azərbaycanda tikilməsinin qarşısını almaq və ya bağlamaq üçün mümkün olan hər şeyi edir və qəti şəkil-

də etirazını bildirirdi. Məsələn, Sumqayıtda lindan* istehsalı ilə bağlı belə bir vəziyyət yaranmışdı. Jurnalist Elmira Əhmədova ilə müsahibəsində o belə deyirdi:

«Lindan zavodunun Azərbaycanda tikilməsini SSRİ kimya naziri Kostandov bizim xəbərimiz olmadan həll eləmişdi. Mən bunu biləndə qəti etiraz etdim. O vaxtlar Azərbaycan SSR Nazirlər Sovetinin sədri olan Əli İbrahimovu çağırıb bu barədə izahat istədim. O mənə qərarı göstərdi ki, bu, Moskvanın ideyasıdır və Azərbaycan üçün deyil, ölkədə kimya sənayesinin inkişafı üçün nəzərdə tutulub. Dedim, axı bunun tikilməsi üçün Azərbaycandan kiminsə icazəsi olmalı idi. Aydın oldu ki, buna Dövlət Plan Komitəsindən razılıq veriblər.

Dedim ki, nə qədər mən varam, burada lindan zavodu tikilməyəcək»[15].

Həmin əhvalatın davamı barədə Azərbaycan DTK-nın keçmiş əməkdaşı Pərviz Hətəmzadə belə danışır:

«Mən 6-cı şöbənin bölmə rəisi işləyirdim, biz beynəlxalq iqtisadi mübadilə ilə, xarici avadanlıqlarla məşğul olurduq. Bizi Moskvadan «ateşə tutmağa» başladılar: ayırd edin, Fransadan 2,5 milyon manatlıq bahalı avadanlıq alınıb Volqoqraddan Sumqayıta, Kimya Sənayesi Birliyinə gətirilib. Uzun müddətdir ki, açıq havada istifadəsiz qalıb korlanır. Heydər Əliyev MK-nın birinci katibi olanda lindan istehsalı üzrə qurğunun tikintisini qadağan etmişdi. Bu istehsal ətraf mühitə çox böyük ziyan vura bilərdi. O, Moskvaya gedəndə qurğunu tikməyə başladılar və 1985-ci ildə istismara buraxdılar. Qurğu təhvil verilərkən mötəbər mənbələrdən, mütəxəssislərdən operativ məlumat aldıq ki, onu bu şəkildə qəbul etmək olmaz, çünki orada çox şey yarımçıqdır. Biz MK-nı məlumatlandırdıq. Sonralar qurğudan istifadə etmədilər».

SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi illərdə Heydər Əliyev Azərbaycan hökumətinə respublikada atom elektrostansiyası tikməyi qadağan etməyə nail olmaqda köməklik göstərmişdi. Bu barədə biz əsərin üçüncü kitabında söhbət açacağıq.

Ümumiyyətlə, Heydər Əliyev təbiətin mühafizəsi, respublikada ekoloji vəziyyətin yaxşılaşması məsələlərinə çox diqqət yetirirdi. Bu mövzulara Büroda dəfələrlə toxunulmuş, həmin məsələlər üzrə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin xüsusi qərarları qəbul olunmuşdu. Tarixçi İradə Hüseynova öz kitabında 70-ci illərdə bu sahədə əldə olunmuş ciddi irəliləyişlər barədə danışır: «Əsasən at-

* Lindan—kənd təsərrüfatında istifadə olunan kimyəvi maddə.



mosfer və su mühitini çirkləndirən mənbələrin sənədləşdirilməsi aparılmışdı. Bakıda və Sumqayıtda xüsusi inspeksiyalar yaradılmışdı. Azərbaycan dağ-mədən kombinatında, «Azneft» Birliyinin neft-qazçıxarma idarələrində, Naxçıvan şərab zavodunda və daha bir sıra müəssisələrdə tullantıların ətraf mühitə axıdılması tamamilə dayandırıldı. Sumqayıt alüminium zavodunda istehsal tullantılarının dənizə axıdılmasına son qoyuldu.

Xüsusilə Qaradağ sement zavodunda atmosferə zəhərli tullantıların buraxılmasını məhdudlaşdıran bir çox tədbirlər nəzərdə tutuldu. Kirovabad (Gəncə) alüminium zavodunda qaz və toz tullantıları iyirmi dəfə azaldıldı»[16]. Ancaq buna baxmayaraq Heydər Əliyev ekologiya sahəsindəki vəziyyətdən narazı idi. O, kütləvi çıxışları zamanı həmişə xüsusi olaraq vurğulayırdı ki, Azərbaycanın iri sənaye mərkəzlərində havanın çirklənmə səviyyəsi hələ ki çox yüksəkdir.

70-ci illərdə daxili işlər nazirinin müavini işləyən Sabir Hüseynov xatırlayır ki, indiki Xətai rayonu ərazisində baş verən yanğınların birindən sonra Heydər Əliyev paytaxtda ekoloji vəziyyəti xeyli yaxşılaşdıran bir sıra mühüm qərarlar qəbul etdi:

«Küləkli günlərin birində Bakının üzərini qatı qara tüstü bürüdü: neft emalı zavodunun lap yaxınlığında yanacaq dolu çənlər alışıb yanmağa başladı. Yaxınlıqdakı bütün yanğınsöndürən dəstələri oraya tökdük. Mən yanğın baş verən yerdə olanda, Heydər Əliyevin maşınla yaxınlaşdığını gördüm. Alov elə güclü idi ki, yanan yerə yaxınlaşmaq mümkün deyildi. Yanğınsöndürənlərsə həyatları bahasına küləkdən daha da güclənən alovla qəhrəmancasına mübarizə aparırdılar. Mən Heydər Əliyevə yaxınlaşmağa macal tapmamış güclü partlayış səsi eşidildi və bir çəndən müxtəlif istiqamətlərə yayılan alov digər çənlərə keçdi. Çənlər bir-birinin yanında yerləşdirilmişdi və hamısı da bərbad vəziyyətdə idi. Axı onlar bizə hələ Nobelin vaxtından qalmışdı. O vaxtlar buralar Bakının insan ayağı dəyməyən ucqarları idi, indi isə az qala mərkəzdir, ətrafında saysız-hesabsız yaşayış evləri tikilib.

Partlayışdan sonra biz maşınları bir qədər kənara çəkməyə məcbur olduq. Su şırnağı heç alova çatmamış gözümüzün qarşısında buxara çevrilirdi. Heydər Əliyev tüğyan edən yanğını və yanğınsöndürənlərin fəaliyyətini bir saatdan da artıq müşahidə edəndən sonra getdi. Yanğını yalnız sabahısı gün səhər tezdən söndürmək mümkün oldu. Elə həmin gün Heydər Əliyev hadisəni araşdırmaq üçün məni, yanğın xidməti idarəsinin rəisini, neftçıxarma, neft emalı və kimya

müəssisələrinin bütün rəhbər işçilərini yanına çağırdı. Çoxlarının gözlədiyi kimi heç kimi məzəmmət etmədi, danlamadı. Əsil işgüzar söhbət getdi. Heydər Əliyevə problemin səbəbi bəlli idi.

– Hər şey aydındır. Bu cür köhnə, Nuh əyyamından qalma texnika ilə biz özümüzü təhlükəsiz hiss edə bilmərik...

O, elə həmin andaca, hamının yanında SSRİ daxili işlər naziri N.Şolokova zəng vurdu.

– Nikolay Anisimoviç, bilirsiniz, dünən bizdə neçə güclü yanğın baş vermişdi?! Biz çoxlu qiymətli xammal və hazır məhsul itirdik. Bakı barıt çəlləyinin üzərindədir, bizim isə yanğını söndürmək üçün müasir texnikamız yoxdur.

– Sizinlə razıyam, Heydər Əliyeviç. Bu dəqiqə göstəriş verəcəyəm ki, sizə müasir texnika ayırsınlar. O, ilk növbədə Bakıya gərəkdir...

Telefon söhbətini bitirəndən sonra Heydər Əliyev yenidən çıxardığı nəticələri söyləməyə başladı:

– Bu, problemin bir tərəfidir. Digəri isə ondadır ki, anbarı sadəcə təzələmək yox, onu şəhərin kənarına köçürmək lazımdır. Sənaye şöbəsindən xahiş edirəm ki, təcili olaraq müvafiq qərar hazırlayıb Nazirlər Sovetinə çənlər üçün yer müəyyənləşdirməyi və onun inşası üçün vəsait axtarıb tapmağı həvalə etsin.

Yarım ildən sonra Güzdək qəsəbəsində yeni rezervuar parkının nəhəng çənləri yüksəldi. Ondan əvvəl isə yanğın idarəsi Moskvadan ən yeni texnika və alovdan xüsusi mühafizə dəstləri aldı. Onun arsenalında sovet konstruktorlarının işləyib hazırladığı neft yanğınlarının öhdəsindən səmərəli şəkildə gələn, çox güclü qurğu – köpüklə yanğın söndürən vardı. Buna əmin olmaq, inşa edilən rezervuar parkının etibarlılığını yoxlamaq üçün Heydər Əliyev təlimlər keçirməyi təklif etdi. O göstəriş verdi ki, rezervuarın birini yanacaqla doldurub od vursunlar və xarici mətbuatda haqqında yanğın texnikasının qəribə möcüzəsi kimi yazılan, öz mütəxəssislərimizin işləyib hazırladığı qurğunun fəaliyyətini sınaqdan çıxarsınlar. Amerikalı mütəxəssislər də təlimdə iştirak etməyi arzuladıqlarını bildirdilər. Hər şey onların gözləri önündə baş verdi.

Sınağa mahiyyət etibarilə Heydər Əliyev özü rəhbərlik edirdi. Onun komandası ilə məsafədən yanğın törədildi. Çən alışmağa başladı, alov hər tərəfi bürüməyincə Heydər Əliyev onu söndürmək əmri vermədi.

– İndi isə vaxtdır! – deyə nəhayət ki əmr verdi. Odu köpüklə söndürənin ətrafa yayılan alov üzərinə həmləsi 20 dəqiqədən bir qədər artıq çəkdi. Yanğın ocağından hər yeri qarsayan alov əvəzinə zəif boz tüstü qalxırdı. Texas mədənlərində və zavodlarda yanğınların şahidi olan xarici qonaqlar, alovun belə az müddətə ram edilməsindən heyrətləndilər.

Heydər Əliyev keçirilən təlimdən razı qaldı və bacarıqlı, uğurlu fəaliyyətə görə iştirakçıların hamısını qiymətli hədiyyələrlə mükafatlandırdı».



O, respublikanın bu və ya digər regionunda ekoloji tarazlığı pozan ittifaq tabeliyində olan müəssisəni də bağlaya bilərdi. Bəzən bilərəkdən risqə, Moskva ilə münasibətləri kəskinləşdirməyə gedirdi. Belə hallardan birini mənimlə söhbətində keçmiş MK katibi Fuad Musayev xatırlayır:

«Büroda Tovuz sement zavodunun məsələsini müzakirə etməyə hazırlaşanda mən hələ MK-da bir neçə ay idi ki, işləyirdim. Büronun materiallarını alıb, əməkdaşlardan mənim üçün bu müəssisə barədə məlumat toplamağı xahiş etdim. Zavod ildə 10 min ton dekorativ (ağ, çəhrayı) sement buraxırdı. O, hələ XX əsrin əvvəllərində inşa olunmuşdu. Ötən illər ərzində zavodun ətrafında 30-40 min nəfər əhalisi olan yaşayış qəsəbəsi yaranmışdı. Səhiyyə Nazirliyi və Ekologiya Nazirliyi belə bir arayış təqdim etmişdilər ki, atmosferin sement tozu ilə çirklənməsi üzündən onkoloji və digər xəstəliklərin sayı artıb, uşaqlar müxtəlif patologiyalarla doğulur və s. MK Bürosu Əliş Ləmbəranskiyə, Tikinti Materialları Nazirliyinə, Səhiyyə Nazirliyinə zavodda vəziyyətin düzəldilməsi tədbirləri barədə təkliflərini təqdim etməyi tapşırdı.

Beləliklə, Büroda bu məsələyə baxdılar. Ləmbəranski, İttifaq nazirliyinin baş idarəsinin rəisi, digər maraqlı şəxslər nəzərdə tutulmuş tədbirlər barədə məlumat verdilər: təmir işləri, toz udan vasitələrin quraşdırılması və digər tədbirlər təklif olunurdu. Büro üzvləri həmin təkliflərlə əsasən razılaşdılar. Lakin mən öz çıxışımda zavodun bundan sonra istismarının qeyri-mümkün olduğunu sübut etməyə çalışdım. Əvvəla qeyd etdim ki, zavod qəza vəziyyətindədir, istənilən anda uçub dağıla bilər. İkincisi, o, respublikaya heç bir fayda gətirmir: xammalı Ermənistandan alırıq, praktiki olaraq sementin hamısı aparılır, respublikaya hazır məhsulun cəmisi 0,5 faizi qalır. Mənim dəlillərim sükutla və səssiz narazılıqla qarşılandı. Sonda Heydər Əliyev qərar çıxardı: Musayevə bu məsələni işləyib hazırlamağı və bir daha Büroya çıxarmağı həvalə etməli. Təsəvvür edirsinizmi, nəcə böyük məsuliyyətdir? İttifaq nazirliyi, respublika Nazirlər Soveti,

digər instansiyalar zavodun bərpası, yenidən qurulması barədə təkliflərini təqdim edirlər, mən isə onun tamamilə bağlanmasını israr edirəm. Heydər Əliyevin qərarı onun əhalinin sağlamlığına qayğısının ifadəsi, həm də, əlbəttə ki, mənə etimadımın nişanəsi idi.

Mən ora gedib hər şeyi ətraflı araşdırdım və bir daha əmin oldum ki, zavodu bağlamaq lazımdır. Tovuzda qabaqcadan adamları dilə tutdular, onlar da mitinq düzəldib mənim təklifimə etirazlarını bildirdilər. Mən fəhlələri akt zalına yığdım, vəziyyəti başa saldım, söz verdim ki, bu müəssisədə işləyən hər kəs eyni dərəcəli işlə təmin olunacaqdır. Tezliklə müfəssəl arayış hazırlayıb Büroya təqdim etdim. Heydər Əliyevsə onu müzakirəyə qoymadan dəstəklədi, zavodun bağlanması barədə qərar qəbul etdi. Bundan sonra SSRİ sənaye tikintisi materialları naziri mənə zəng vurdu və onunla çox kəskin söhbətimiz oldu. Mən bu barədə Heydər Əliyevə məlumat verdim. O, yəqin ki, «yuxarı»larda kiminləsə danışdı, çünki bu məsələyə bir daha qayıdılmadı».

Qapalı olması səbəbindən, demək olar ki, heç işlənməmiş mövzulardan biri də Azərbaycanda müdafiə sənayesinin inkişafı məsələsidir. Azərinformun keçmiş müxbiri Vladimir Morozkov mənimlə söhbətində örtüyü bir qədər qaldırdı:

«Heydər Əliyev müdafiə sənayesi məsələsilə çox ciddi məşğul olurdu, respublikada müdafiə sənayesi müəssisələrinin yerləşdirilməsini o Moskvadan güclə «qoparırdı». Onda bu barədə nəinki yazmaq, danışmaq belə qadağan olunmuşdu. O vaxtlar ölkəmizdə məşhur olan Bakı zavodları elektron platalar, Nikolayevdə tikilən təyyarələrin qalxması və enməsi üçün geniş meydançası olan hərbi gəmilərin təchizatı üçün müxtəlif sistemlər, hətta yüksək dəqiqliyə malik silahlar istehsal edirdilər. Bakıda həqiqətən yüksək texnologiyalarla işləyən zavodlar fəaliyyət göstərirdi. SSRİ Nazirlər Sovetinin müdafiə sənayesi üzrə qocaman sədr müavini Lev Smirnov tez-tez bura gəlirdi. Heydər Əliyev Moskvadan pul əldə edir, İttifaqdan mütəxəssisləri – mühəndis-elektronçuları, texnoloqları tapırdı. O düşünürdü ki, bu gün mən mərkəzdən yüksək səviyyəli mütəxəssisi müqavilə ilə Bakıya gətirə bilərəm. O işləyib 3 ildən sonra çıxıb gedəcək, onun yerini isə bu müddətdə yüksək texnologiyaları mənimsəmiş azərbaycanlı tutacaq. Başqa sözlə, müdafiə sənayesi müəssisələrinin respublikada yerləşdirilməsi Azərbaycana nadir texnologiyaların tətbiqi, milli kadrların elmi-texniki tərəqqini müəyyənləşdirən ən qabaqcıl ixtisaslar üzrə hazırlanması demək idi. Onun gələcəyi düşünərək yüzlərlə tələbəni Azərbaycandan kənarda oxumağa göndərməsi əbəs deyildi.



«Müdafiəçilərin» məhsulu Azərbaycanda sənaye istehsalı sürətini xeyli artırırdı. Bundan əlavə, bütün bunlar İttifaqın tabeliyində olan müəssisələr idi. Deməli, onların inşa edilməsi ilə bərabər müvafiq sosial infrastruktur – yaşayış binaları, uşaq bağçaları, məktəblər, mağazalar, yollar da inkişaf edirdi. Bu xərclər ittifaq büdcəsindən ödənilirdi, respublika bir qəpik də xərcləmirdi. Odur ki, bu çox uzaqgörən siyasət idi».

Respublikanın dinamik inkişaf edən iqtisadiyyatı daha böyük həcmdə enerjidaşıyıcıları, kənd təsərrüfatı bitkiləri əkmək üçün yeni sahələr tələb edirdi. Odur ki, energetika, meliorasiya Azərbaycan liderinin diqqət mərkəzində idi. 70-ci illərdə bu sahələrdə nəzərəçarpan uğurlar əldə edilmişdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikanın enerji sistemi 5000 mVt-dan artıq istehsal gücünə və ümumi uzunluğu 100 min kilometrdən artıq olan elektrik ötürücü xətlərə malik olmaqla Cənubi Qafqazda ən iri və ən möhkəm, sabit, davamlı enerji sistemi idi. Gürcüstanla Ermənistan birlikdə ildə cəmi 12-13 milyard kilovatt-saat elektrik enerjisi hasil etdiyi halda, Azərbaycanda 2006-cı ildə bu göstərici 23 milyardı keçmişdi. Bu gün Azərbaycan adambaşına düşən elektrik enerjisinin həcminə görə MDB-nin bir çox ölkələrini qabaqlayaraq dünya dövlətləri arasında aparıcı yerlərdən birini tutur.

Müstəqil enerji sisteminin əsası 70-ci illərdə qoyulub. O vaxt Azərbaycan DRES, Şəmkir DES, Gəncə istilik-elektrik mərkəzi, Tərtər DES kimi elektrostansiyalar, sənaye özəklərinin, yarımstansiyaların və elektrik ötürücü xətlərin güclü və şaxələnmiş şəbəkəsi yaradılıb istismara verilmişdi.

Öz vaxtında Heydər Əliyev böyük çətinliklə SSRİ-nin yüksək dairələrində Cənubi Qafqazda ən iri qurğu olan istilik elektrik stansiyası – Azərbaycan DRES barədə qərarı təsdiq etdirdi və 1974-cü ildə stansiyanın tikintisinin həqiqətən ümumxalq tikintisinə çevrilməsinə nail oldu.

Tikinti işlərinin gedişi onun şəxsi nəzarəti altında idi. 1981-ci il oktyabrın 20-də ilk enerji blokunun istismara verilməsi ərəfəsində o Mingəçevirə gəldi, inşaatçılarla və energetiklərlə görüşdü. Moskvaya işləməyə gedəndən sonra həmin obyektdə tikinti-montaj işlərinin başa çatdırılmasına diqqət yetirməkdə davam edirdi, lazım olan kö-

məklik göstərirdi. Ona görə də 1981-1986-cı illərdə hər il bir blok işə salınırdı, beləliklə stansiyanın 6 bloku istismara verildi.

Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbov Vayxır su anbarının tikintisinə həsr olunmuş yığıncağın iştirakçılarına danışırdı ki, 60-cı illərdə ittifaq rəhbərliyi tərəfindən məkrli plan işlənib hazırlanmış və həyata keçirilmişdi. Həmin plan onsuz da çox az atmosfer çöküntüsü olan muxtar respublikada süni quraqlıq yarada biləcəkdi.

«Yerli və Moskva ermənilərinin Nikita Xruşşovu ələ alaraq, guya getdikcə səviyyəsi aşağı düşən Göyçə gölündə balıq ehtiyatının azalmasının qarşısını almaq bəhanəsi ilə Arpaçayın suyunun bu gölə axıdılması barədə çoxdan hazırlanan qərara qol çəkdirmələri və layihəni qısa müddətdə həyata keçirmələri dediklərimizə əyani misaldır. Maraqlıdır ki, o zamankı Azərbaycan rəhbərliyi muxtar respublikanı böyük təhlükə qarşısında qoyan bu layihəyə heç bir münasibət göstərməmiş, etiraz bildirməmişdir.

1977-ci ildə istifadəyə verilən, tutumu 150 milyon kubmetr olan Arpaçay su anbarının tikintisi, əslində ermənilərə və ermənipərəst siyasətçilərə tutarlı cavab idi. Möhtərəm Heydər Əliyevin 1970-ci ilin əvvəllərində atdığı addımlar, muxtar respublikada irimiqyaslı meliorasiya tədbirlərinin həyata keçirilməsi, suvarma əkinçiliyinin genişləndirilməsi, süni dəryaçaların yaradılması Naxçıvanı xilas etdi.

1970-ci ildən sonra ümumi tutumu 1 milyard 477 milyon kubmetr olan 20 su anbarı tikilmişdir ki, bu da 55 min hektara yaxın torpaq sahəsinin suvarılmasına xidmət edir. Həmin dövrdə görülən irimiqyaslı meliorasiya və irriqasiya tədbirləri məhsul bolluğuna təminat yaratmış, muxtar respublikanın kəndləri simasını dəyişmiş, adamların güzəranı yaxşılaşmışdır»[17].

1970-ci ildə Kür su xəttinin ilk növbəsi (iki qol) istifadəyə verildi, bir neçə ildən sonra isə ikinci növbə işə salındı (üç qol). Heydər Əliyev Dağıstan sərhədindən Şollar su xəttinin üçüncü qolunu çəkmək istəyirdi. Dağıstan ərazisində də, Azərbaycanda da böyük hazırlıq işləri aparılmışdı. Hər şey layihələndirilmişdi, Azərbaycan tərəfdə quyular qazılmış, borular çəkilmiş, avadanlıqlar gətirilmişdi. Ancaq quyuların çoxunu Dağıstan ərazisində qazmaq lazım idi. O tərəfin hakimiyyət nümayəndələri isə alim-ekoloqların təzyiqi altında birgə tikintidən imtina etdilər. Alimlər sübut etməyə çalışırdılar ki, su kəmərinin tikintisi muxtar respublikanın flora və faunasına ziyan vurur. Dağıstan quyuları olmadan Azərbaycan quyuları azsulu olacaqdı, layihə də əhəmiyyətini itirəcəkdi. O vaxt dağıstanlıları inandırmaq mümkün olmadı.



## «Bütün respublika onun doğma ocağı idi»

Biz yenidən Heydər Əliyevin rəhbərliyi altında işləmiş insanların xatirələrinə üz tuturuq. Onlar mənə bu və ya digər obyektin yaranmasından, Heydər Əliyevin qaldırdığı təşəbbüslərin həyata keçirilməsindən böyük həvəslə danışırdılar. Bu söhbətlər dövrün canlı naxışları kimi, necə deyərlər, «birinci əldən» çıxdığı üçün tarixi əhəmiyyət kəsb edir.

«Yeni sahələrin inkişafına xüsusi əhəmiyyət verməklə, məsələn, radioelektronikanı inkişaf etdirməklə yanaşı, Heydər Əliyev yüngül sənayeni də, ənənəvi sahələri də – ipəkçilik, xalçaçılıq, çini istehsalını da unutmurdu. Naxçıvanda trikotaj fabriki, xalça kombinatı, 200 milyon şüşə «Badamlı» istehsal edən yeni zavod inşa edildi. Sumqayıtda da üst trikotaj fabriki tikildi. Azərbaycanın digər şəhərlərində də – Gəncədə, Mingəçevirdə, Stepanakertdə bir çox yüngül sənaye müəssisəsi inşa olundu.

Bakının Moskva prospektində yeni ayaqqabı fabriki inşa etdik. Bu nə ilə bağlı idi? Leytenant Şmidt adına zavodun qarşısında ikimərtəbəli kiçik ayaqqabı fabriki vardı. Təəssüf ki, orada baş verən yanğın nəticəsində bir neçə nəfər həlak oldu. Heydər Əliyev yüngül sənaye naziri Tarasovu Bakıya dəvət etdi. O Bakıya gəlib faciənin baş verdiyi yeri gözdən keçirdi və Heydər Əliyevə dedi ki, həlak olanların xatirəsinə burada yeni müasir fabrik tikmək lazımdır.

MK-nın birinci katibi göstəriş verdi elə bir yer tapsınlar ki, həqiqətən də xatirə təsəvvürü yaratsın. Yaraşıqlı bir bina tikdilər, ona mərmərdən və qranitdən üzlük çəkdilər, ən müasir çex avadanlığı ilə təchiz etdilər. Fabrikin nəzdində modalar evi də fəaliyyət göstərirdi.

Fabrik binasının tikintisini ümumxalq tikintisi elan etdik. Respublikanın naxış ustaları çox böyük səy göstərdilər. Heydər Əliyev özü şəxsən tikintiyə nəzarət edirdi, bir neçə dəfə tikintidə olmuşdu. Fabrikin açılışına Tarasovu dəvət etmişdi, o da çox razı qalmışdı. İstehsal etdiyimiz ayaqqabıları ittifaqın bütün respublikalarına göndərirdik».

*(Həsən Seyidovla söhbətdən).*

«Sizə Moskvada məsələlərin necə həll olunmasından danışmaq istəyirəm. Əvvəla, Heydər Əliyev mərkəzi idarələrə respublikanın tələblərinə daha diqqətlə yanaşmağı öyrətmişdi. Bundan əlavə, Azərbaycanın rəhbər işçilərini məcbur edirdi ki, hazırlanmış sənədləri, hesabatları, təhlilləri, müqayisələri götürüb Moskvaya getsinlər. Məsələn, mən Moskvaya gedib hesablamalarımı onlara göstərirdim, südəmər körpələr üçün Ermənistan, Gürcüstan, Orta Asiya nə qədər quru süd alıb, əhali nəzərə alınmaqla biz nə qədər almışıq...

Oraya hazırlıqlı getmək lazım idi. Heydər Əliyev bizim rəhbər işçiləri də, mərkəzi orqanları da belə öyrətmişdi: təmsilçimizi dinləyin, qoy o sizi inandırsın ki, bu lazımdır, onda məsələni həll edin. Bu, əsil, professional rəhbərlik deməkdir. Hər bir sahəyə özü dəqiqliyinədək bələd olduğu kimi, rəhbər heyəti də o cür işləməyə məcbur edirdi.

Moskvada açıq-açığına deyirdilər: biz ilk dəfədir görürük ki, Azərbaycandan hesabatla, əllərində qələm gəlib, bizə sübut edirlər ki, respublika üçün hansı məsələləri həll etməliyik.

Bu, görünməmiş bir şey idi. Bu, dövlət idarəçiliyi məsələlərində kəskin keyfiyyət dönüşü idi. Heydər Əliyev işləri elə təşkil etmişdi ki, respublikaya bir il üçün ayrılmış vəsait yarım ildə, bir rübdə istifadə olunurdu. Onun Moskvada deməyə əsası var idi ki, «siz bizə bir milyard vermisiniz, biz onu iki aya mənimsədik. İndi biz ilin axırınadək oturub gözləyək? Yenə verin».

Ümumittifaq idarələri – Dövlət Plan Komitəsi, Nazirlər Soveti göstəricilərə baxıb etiraf edirdilər: «Doğrudan da, mənimsəyiblər. Onları yarım il işsiz qoymaq olmaz. Vəsait vermək lazımdır ki, Azərbaycan yeni obyektlər tiksin».

Bakıdakı bütün obyektlər mənim gözlərimin qarşısında ucaldılırdı. Onların çoxusunun inşasında mən şəxsən iştirak edirdim. O vaxtlar belə idi: sən nazirsən, sənə bu mərtəbəni tapşırırlar, sən onun tikintisini başa çatdırıb, avadanlıqla təchiz edirsən və onun tez bir zamanda istismara verilməsinə cavabdehsən. Başqa sözlə, hər bir nazirliyin tikintidə öz iş yükü vardı. Mən Məişət Kondisionerləri zavodunun, Ayaqqabı fabrikinin, «Gülüstan» sarayının tikintisində iştirak etmişəm. «Moskva» prospekti boyu sənaye kompleksi bütövlükdə gözlərimin qarşısında yaradılıb. Bundan əlavə, indiki Heydər Əliyev adına Saray da həmçinin. Mən bu Sarayın tikintisi üzrə qərargahın üzvü idim, konkret öhdəliklərim vardı, konkret tapşırıqları, vəzifələri yerinə yetirirdim. Demək istəyirəm ki, hər şey işin dəqiq təşkili, tikintinin yüksək sürətlə aparılması, buna görə də mərkəzi orqanların əlavə imkanlarından istifadə hesabına həll olunurdu.



Mən ilk dəfə idi görürdüm ki, MK-nın birinci katibi tikilən binanı mərtəbə-mərtəbə gəzib, hər bir küncü nəzərdən keçirir. Hər bazar günü o tikintiyə gəlirdi. Yadımdadır ki, Heydər Əliyev boynunu qısa-qısa «Gülüstan»ın texniki zirzəmisində gəzirdi ki, görsün hər iş düzgün və keyfiyyətlə görülübmü? Özüm bunun şahidiyəm ki, Heydər Əliyev bu və ya digər obyektin tikintisinin ayrı-ayrı mərhələlərində hər kiçik detalı belə yoxlayır, hər bir kranı açıb baxırdı ki, görsün: yarımçıq iş qalmayıb ki?

**– Başqa sözlə, özünü yaxşı mənada sahib, «xozeyin» kimi aparırdı.**

– Burada «xozeyin» sözü yerinə düşmür. Ata, ailə başçısının öz ailəsinə, evinə münasibəti hiss olunurdu. Bütün respublika onun doğma evi, ocağı idi. Ona görə də, o hesab edirdi ki, işdə kiçik şey ola bilməz. Hər bir işə nəzarət etmək, onu vaxtında həll etmək lazımdır ki, ailə üzvləri rahat yaşasınlar.

Bu da ətrafdakılara qeyri-adi görünürdü. Ona görə də Moskvada mənə tez-tez deyirdilər: «Kaş bizim də belə Heydər Əliyevimiz olaydı». Bütün respublikalarda deyirdilər: «Bizim də Heydər Əliyevimiz olsaydı nə yaxşı olardı!»

*(Respublikanın keçmiş ticarət naziri Svetlana Qasımova ilə söhbətdən).*

«Bu, sensasiya idi. Mən Lenin rayonunun partiya konfransında iştirak edirdim, orada hamı soruşurdu:

– Siz səkkiz aya bu körpünü necə tikmisiniz?

Sabunçu körpüsünün tikilməsi tarixçəsi belədir: 70-ci illərin əvvəlində kənd təsərrüfatına hamilik edən Sov.İKP MK katibi Fyodor Kulakov, səhv etmiromsə, respublikaya Oktyabr inqilabı ordeni təqdim etmək üçün Bakıya gəlmişdi. O vaxtlar mən MK katibi idim.

İş elə gətirdi ki, o Moskvaya qayıtmaq üçün hava limanına gedəndə biz gecikdik. Axı yüksək səviyyəli dövlət məmuru təyyarə ilə uçanda, xüsusi reys təşkil olunur, ona hava dəhlizi açırlar, hansısa reysləri təxirə salırlar, hər şey dəqiqələrlə hesablanır. Ona görə də xüsusi reyslərə heç cür gecikmək olmaz.

Dəmiryol keçidinə yaxınlaşdıq, şlaqbaum salınmışdı. Maşınları buraxmırdılar. Heydər Əliyev keçid boyunca əsəbiliklə gəzişirdi:

– Yəni burada körpü tikmək olmaz? – Mən ona heç bir söz demədim. O bir qədər dayanıb dedi:

– Hər halda sən bu barədə düşün.

Elektrik qatarları keçənədək 25-30 dəqiqə gözləməli olduq. Hətta MK-nın birinci katibinə görə də hərəkəti dayandırmaq mümkün olmadı. Həm də yəqin ki, mühafizə xidməti bunu nəzərdən qaçırtmışdı.

Bu hadisədən sonra körpünün tikintisinə girişdik. Mən Dəmiryol İdarəsindən olan mütəxəssislərlə məsləhətləşdim. Layihəni Tbilisidə hazırladılar, çünki orada yaxşı layihə institutu vardı. Eyni zamanda dəmir-beton məmulatını Ukraynadan, Darnitsadan alırdıq.

Dəmiryol İdarəsində Tofiq Bağırov işləyirdi. O, layihə ilə, mən isə tikinti materiallarının çatdırılması ilə məşğul olurduq. Bir də hərbi təşkilat var idi – körpü dəstəsi. Biz onları da işə qoşduq. Bir sözlə, obyekti səkkiz aya inşa etdik. O vaxt hamı təəccüblənirdi: necə oldu ki, səkkiz ay ərzində Bakıda belə nəhəng körpü tikildi.

Bir dəfə mən Heydər Əliyevin qəbulunda idim. Şəhər partiya komitəsinin birinci katibi Əli Kərimov da onun kabinetində idi. Mən Heydər Əliyev də eşitsin deyə ona müraciət etdim:

– Əli Həbiboviç, qayıdanbaş Sabunçu körpüsünə diqqət yetirin, siz onun üzərindən keçib gedəcəksiniz.

– Siz nə danışırsınız, o körpü hələ yarım ildən sonra hazır olacaq.

Mən onun sürücüsünü tapıb dedim:

– Körpünün üstündən axşamüstü və ya gecə keçsəniz, maşını saxla və ona de ki, bu Seyidovun tikdiyi yeni körpüdür.

Gördüm ki, Əli Kərimov susub, bir söz demir. İki həftə keçəndən sonra özüm ondan soruşdum:

– Hə, necədir, körpü xoşuna gəldi? Axı sən şəhərin rəhbərisən.

– Bəli, bəli, yaxşı körpüdür.

Daha sonra Dərnəgüldə və Razin qəsəbəsində körpü tikintiləri məsələsi gündəmə gəldi. İnsanlar saatlarla durub gözləyirdilər ki, dəmir yolunu keçsinlər, oradan bir neçə yol keçirdi. O vaxt mən artıq bu işdə mütəxəssis idim, yenə də körpü dəstəsini işə qoşdum və biz Dərnəgül və Razin körpülərini tikdik. Başqa sözlə, o vaxt biz təkcə müəssisələr tikmək barədə yox, şəhərin infrastrukturu, nəqliyyat xətləri və s. barədə də düşünürdük. Bütün bunlar Heydər Əliyevin birbaşa tapşırıqları idi. O bütün yenilikləri çox müsbət qarşılayırdı».

*(Həsən Seyidovun söhbətindən).*



«...O dövrdə çox maraqlı hadisələr baş verirdi. Nəsimi rayonunu yaradanda, Oktyabr rayonu «yoxsullaşdı». 1971-ci ilin martında MK-ya geniş bir məktub yazdım. Orada rayonda nəyin olub-olmamasını təhlil etdim. Əslində orada heç bir şey, heç bir istehsal sahəsi yox idi.

Bu, adi «yataq» rayonu idi. Ən azı 100 min adam səhər tezdən paytaxtın Nəsimi və digər rayonlarına işə yollanırdı. Nəticədə nəqliyyat problemləri yaranırdı. O vaxtlar metronun «Nizami», «Elmlər Akademiyası» stansiyaları yox idi. Məktubda yazmışdım ki, Musabəyov qəsəbəsində iş yerləri ilə təmin olunmamış 40-45 min nəfər yaşayır.

Məktubu alan kimi Heydər Əliyev rayona başda MK katibi Danil Quliyev olmaqla komissiya göndərdi. Tezliklə biz Moskvadan Bakıda bir neçə müəssisənin – 1 saylı Tikiş fabrikinin, Zərgərlik zavodunun, «İskra» zavodunun, Yarımkeçiricilər zavodunun tikintisi üçün icazə və vəsait aldıq. Mənim məktubumdan sonra Heydər Əliyev Nazirlər Sovetinə göstəriş verdi və Oktyabr rayonu ərazisində iri sənaye müəssisələri tikməyə başladılar. Həmin müəssisələri yaşayış massivlərinin yaxınlığında tikirdilər və insanlar oraya işləməyə gedirdilər.

Misal üçün, Musabəyov qəsəbəsində yaşayan qadınlar tikiş fabrikində işləməyə başladılar. O illərdə zərgərlik zavodu öz gücünə görə İttifaqda üçüncü yeri tuturdu. Birinci yeri Moskva və ya Leninqrad, ikinci yeri isə Yerevan tuturdu. 1976-cı ildə rayonumuzda metronun yeni stansiyaları – «Nizami», «Elmlər Akademiyası», «İnşaatçılar», «XI Qızıl Ordu» stansiyaları işə salındı. Beləliklə də, nəqliyyat problemi həll olundu.

«Metrostroy» adlı təşkilatın Əbdülrəhimov kimi çox qüdrətli rəhbəri var idi. Bu güclü şəxsiyyət 50-ci ildə Bakı Sovetinin sədri olmuşdu. O vaxtlar Metrostroy çox işlər görürdü. Bakıda mərmərdən nə tikilibsə, orada işləyən ustaların əli ilə tikilib. Onlar hətta Lenin adına Sarayın (indiki Heydər Əliyev adına Saray – *E.A.)* tikintisində də iştirak ediblər.

Heydər Əliyev Əbdülrəhimovu həm dəstəkləyirdi, həm də ondan tələb edirdi. Çünki bilirdi: Əbdülrəhimov bacarıqlıdır. O həmişə gəlib stansiyaların necə tikildiyinə baxırdı. Heydər Əliyev XI Qızıl Ordu (indiki 20 Yanvar) stansiyasındakı mərmər hörgünün hər bir şəklini diqqətlə nəzərdən keçirirdi. O rayona gələndə yanında mütləq birinci katib olmalı idi. O xüsusi vurğulayırdı ki, birinci katib – rayonun sahibidir. Ancaq ondan tələbi də yüksək idi».

*(Oktyabr rayon partiya komitəsinin keçmiş birinci katibi Nazim İbrahimovun söhbətindən).*

«O tez-tez Naxçıvana gələrdi. Bizdə iki il dalbadal – 1980-ci il aprelin 16-da və 1981-ci il mayın 16-da (!) güclü qar yağdı. Hər dəfə də Heydər Əliyev gəlib təbii fəlakətin nəticələrini aradan qaldırmağa bizə kömək edirdi. Birinci gəlişində o Naxçıvanda iki gün oldu, ikinci dəfə isə dörd gün ləngidi: camaatla görüşüb söhbət etdi, onları həvəsləndirdi, nə etmək lazım olduğunu başa saldı. Biz o vaxt demək olar ki, bütün məhsulu xilas edə bildik. Bütün plantasiyalarda peyin yandırdıq, tüstüsü kömək elədi. Üzüm tənəkləri yenə də məhsuldar oldu. Beləliklə, biz hətta planı artıqlaması ilə yerinə yetirdik.

Rayonlara səfər zamanı o, adətən qonaq evlərində qalmırdı. Onun öz vaqonu vardı, o həmin vaqonda yemək yeyirdi, orada da yatırdı. Çox nadir hallarda haradasa başqa yerdə istirahət edirdi. Yalnız Naxçıvanda qonaq evində məskunlaşırdı. Orada gözəl qonaq evimiz vardı. Heydər Əliyev mənə deyirdi: «Kamran, mən bura gələndə başqa yerdə qala bilmirəm. Burada səhərlər parovoz fitini eşidib uşaqlığımı, atamı yada salıram. Xatırlayıram ki, o səhərlər necə öz formasını geyib işə gedirdi, necə işdən qayıdırdı. Uşaqlarla necə onun yanına – stansiyaya gedirdik. Tamamilə başqa əhval-ruhiyyə yaranır, ürəyim elə hisslərlə dolur ki, onu sözlə ifadə etmək mümkün deyil».

Naxçıvana gələndə o mütləq bacısına, bacısı uşaqlarına baş çəkirdi. Biz onunla səhər saat 10-dan təsərrüfatlara yollanırdıq, hava qaralanda, axşam saat 9-10-da qayıdırdıq. Nə günorta, nə də axşam nahar etmirdik. Qayıdıb şam yeməyi yeyir, gecə saat birədək müxtəlif mövzularda söhbətlər edirdik.

**– Bu, artıq 70-ci illərin ikinci yarısı idi. O dövrdə onu daha çox hansı məsələlər narahat edirdi?**

– Naxçıvanın həddən artıq problemləri vardı. Bir dəfə SSRİ Müdafiə Nazirliyinin baş inspektoru marşal Moskalenko Naxçıvana gəlmişdi. O, qonaq evində qalırdı. Onunla birgə Zaqafqaziya Hərbi dairəsinin komandanı da gəlmişdi. Moskalenko mənə dedi: «Kamran Nəbiyeviç, mən burada 1963-cü ildə olmuşam. O vaxt mən vilayət komitəsinin katibi İbrahimovla ağac altında nahar edirdik. Külək qalxdı, toz qopdu və biz yeməyi yarımçıq qoymalı olduq. O vaxt məndə belə bir təəssürat yarandı ki, Naxçıvan insanların və Allahın unutduğu yerdir. İndi isə buradan getmək istəmirəm, buralar əcəb gözəlləşib!» O bizdən sonra təyyarə ilə Tbilisiyə uçmalı idi. Ancaq



Naxçıvanda ləngidiyindən birbaşa Moskvaya uçdu. Moskalenko balıq tutmağı çox sevirdi. Biz onun üçün Arazda balıq ovu təşkil etdik. Sonra o özü balıq şorbası bişirdi.

Əlbəttə, Naxçıvanda qayğılar kifayət qədər idi. Abadlıq işləri demək olar ki, heç aparılmırdı. Bu da Heydər Əliyevi çox narahat edirdi.

1976-1977-ci illərdə təsərrüfatları gəzəndə o gördü ki, insanlar su qıtlığından əziyyət çəkirlər. İl quraqlıq keçir, məhsul yetişir, onu suvarmağa isə imkan yoxdur.

Axşam biz Heydər Əliyevlə oturub bu barədə danışırdıq.

– Bəs biz problemi necə həll edəcəyik, Kamran? – deyə o soruşdu.

– Heydər Əliyeviç, – dedim, – bu sualı iki yerə bölmək lazımdır. Problemlərin bir hissəsini biz, o biri hissəsini isə siz həll etməlisiniz.

– Siz kiçik hovuzların tikintisi ilə məşğul olun, – dedi.

Az müddətdə mütəxəssislərimiz yerləri müəyyənləşdirdilər və biz Babək, Culfa, İliç, Ordubad rayonlarında otuz süni hovuz tikdik. Biz çayın yolunu kəsirdik, su hovuzlara dolurdu. Elə olurdu ki, bu üsulla bir neçə milyon kubmetr su ehtiyatı yığa bilirdik. Bu sudan yalnız suvarma məqsədilə istifadə olunurdu.

– Problemlərin digər hissəsini isə, – həmin söhbət zamanı Heydər Əliyev dedi, – böyük su anbarları tikintisi məsələsini isə tezliklə meydana çıxacaq üzümçülüyün inkişafı üzrə ittifaq qərarına əlavə edəcəyik.

Bu məsələlər də həll olundu. Arpaçayda, Vayxırda iri su anbarları tikdilər. Digər çayların, məsələn, Çərxiçay, Azaçay üzərində də obyektlər tikməyi planlaşdırmışdıq, ancaq onları həyata keçirməyə imkan tapmadıq. Heydər Əliyev Moskvaya, mən isə Bakıya getdim.

Bütün bu problemlər – su təchizatı, abadlaşdırma, zavod, fabrik, xüsusilə də mədəniyyət obyektlərinin tikintisi Heydər Əliyevin diqqət mərkəzində idi. O illərdə vəsait çatışmazlığı üzündən mədəniyyət obyektləri tikintisinin dayandırılması barədə SSRİ Nazirlər Sovetinin qərarı vardı. Biz bu qərardan yan keçmək üçün müxtəlif yollar axtarırdıq.

Məsələn, İliç rayonunda (indiki Şərur rayonu) Arpaçay üzərində su anbarı tikintisi gedirdi. İnşaatçılar özləri üçün müvəqqəti sığınacaqlar tikirdilər. Mən o vaxt tikinti təşkilatına rəhbərlik edən Saleh Hacıyevi çağırıb dedim ki, müvəqqəti sığınacaqlar əvəzinə İliç rayonunun mərkəzində mədəniyyət evi tiksinlər.

Beləliklə, dolayı yollarla Şahbuzda, Ordubadda da mədəniyyət evləri tikdik. Naxçıvanın özündə böyük mədəniyyət evinin əsasını qoyub inşa etdik. Bir çox kəndlərdə ittifaq orqanlarının qadağalarından yan keçərək müxtəlif adlar altında, müxtəlif yollar axtarıb taparaq mədəniyyət obyektləri tikdik. Bu məqsədlə əsas tikintiyə ayrılmış vəsaitin qalıqlarından istifadə edir, digər variantlar tapırdıq. Elə bu yolla Naxçıvanın özündə bir çox yaraşıqlı yaşayış binaları tikdik, rəsm qalereyası, uşaq yaradıcılığı qalereyası, xalçaçılıq muzeyi açdıq, Hüseyn Cavidin ev-muzeyini, H.Cavid adına teatrı yaratdıq, filarmoniya inşa etdik.

Bütün bu məsələləri Heydər Əliyevin gəlişi zamanı həll edirdik, sonra isə birlikdə yeni obyektlər açırdıq. Hər dəfə də o, uşaq kimi sevinirdi.

Onun muxtar respublikaya qayğısını göstərən daha bir əhvalatı danışmaq istəyirəm. Daşkəsmə kombinatı tikmək istəyirdik. Naxçıvan əhəng daşı ilə zəngindir, onları bloklarla Moskvaya göndərirdik. Moskvada əhəng daşını doğrayıb xaricə satırdılar.

Mənə xəbər verdilər ki, Yerevanda daşkəsən maşınların sərgisi keçirilir. Naxçıvan MSSR Nazirlər Sovetinin sədri İmran Mehdiyevi ora göndərdim. O daş işləri üzrə mütəxəssis idi. O qayıdandan sonra mənə məlumat verdi ki, həmin sərgidə bizə lazım olan maşınlar nümayiş olunur, ancaq onlar 380 min dollaradır.

Biz Naxçıvanda daşkəsən kombinat inşa etmək üçün həmin avadanlığı almaq qərarına gəldik. Mən təyyarə ilə Bakıya uçdum və respublika Nazirlər Sovetinin sədri Əli İzmayloviç İbrahimovun qəbuluna getdim. Bu məsələdə köməklik göstərməsini xahiş etdim.

– Kamran, – dedi, – bizdə valyuta haradandır?

Mən isə bilirdim ki, valyuta var. Ona görə də Heydər Əliyevin yanına getdim. O, Nazirlər Sovetinin sədrinə zəng vurdu.

– Əli İzmayloviç, bizim valyutamız var?

– Var, – deyə o cavab verdi, – nə qədər lazımdır?

– Naxçıvan vilayət partiya komitəsinin katibi Kamran Rəhimov yanımdadır. Onlara 380 min dollar lazımdır. Siz 400 min ayırın.

– Qoy gəlsin.

Mən yenidən Əli İzmayloviçin yanına getdim.

– Sən ona demədin ki, yanımda olmusan? – deyə o çox təşvişlə soruşdu.

– Yox, – cavab verdim.

– Düz eləmisən.



Qısası, biz avadanlığı alıb, kombinatı tikdik və Moskvaya artıq daşları bloklar şəklində yox, doğranmış halda göndərməyə və əvəzində onlardan əlavə vəsait almağa başladıq».

*(Kamran Rəhimovun söhbətindən).*

«1965-ci və ya 1966-cı ildə Leninin ad günündə mən öz sinfimin uşaqlarını Lenin heykəlinin önünə apardım ki, orada açıq dərs keçim. Mehmanxananın yanından keçirdik, o vaxt onun təkcə bünövrəsi qoyulmuşdu. Hər dəfə onun yanından keçəndə öz-özümdən soruşurdum ki, onun tikintisi nə vaxt başa çatacaq? Biz bu yarımtikili mehmanxananın yanından keçəndə uşaqlar məndən soruşdular:

– Burada nə tikirlər, müəllimə?

– Dəqiq deyə bilmərəm, burada nə tikirlər, ancaq Allah eləsin ki, nə vaxtsa tikib qurtarsınlar, yol açılsın, – deyə cavab verdim.

Yalnız Heydər Əliyev Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi olandan, İsa Məmmədov isə Lənkərana gələndən sonra burada tikinti məsələsi ilə ciddi məşğul olmağa başladılar. Ümumxalq canlanması baş verdi. Ziyalıların nümayəndələri ümidlə deyirdilər ki, «əgər mehmanxana tikintisi dirçəlibsə, yolları təmir eləməyə başlayıblarsa, deməli, gələcəyimiz irəlidədir». Başqa sözlə, respublikanın yeni rəhbərinə hörmət artdıqca, partiyaya münasibət də dəyişilirdi, onun nüfuzu artır və möhkəmlənirdi. Hər kəs öz üzərində çalışmağa cəhd edirdi ki, sürətlə dəyişən həyatla ayaqlaşa bilsin.

Azərbaycan üçün Heydər Əliyevin hakimiyyətə gəlməsinin böyük əhəmiyyəti vardı. Lənkərana gəlincə, 70-ci illərdə o əməlli-başlı çiçəkləndi. Qısa müddət ərzində rayon nəhəng tikinti meydanına çevrildi: bütün yeni tikililər, zavodlar, fabriklər, mikrorayonlar, məktəblər, uşaq bağçaları onun vaxtında inşa edilib. 1979-cu ildə o hətta Məişət evinin açılışında da iştirak etdi və mənim tövsiyəmlə oraya müdir təyin etdi. Mən onu Heydər Əliyevə təqdim etdim. O, rus dili müəlliməsi idi. Lənkərana digər respublikalardan çoxlu qonaqlar gəldiyindən o, qonaqlarla ünsiyyət qura bilərdi. Məişət evi Heydər Əliyevin çox xoşuna gəldi. Hər dəfə o rayonumuza gələndə biz xüsusi proqram hazırlayırdıq: ona nəyi göstərəcəyik, haraya aparacağıq. O hər gəlişində nə isə yeni bir şey görürdü».

*(Lənkəran şəhər partiya komitəsinin keçmiş birinci katibi Dilruba Camalova ilə söhbətdən).*

«Əgər əvvəllər Azərbaycanın istehsal etdiyi mallar plan üzrə məcburi şəkildə paylanırdısa, 70-ci illərin sonunda bizim bir çox

mallarımız üçün Ümumittifaq yarmarkasında növbə yaranırdı. Mən bunları danışarkən özümü çox xoşbəxt hesab edirəm, çünki bu işdə mənim də payım var.

Məsələn, Şəki ipəyi üçün növbə seyrəlmirdi, xahiş edir, yalvarırdılar, Sov.İKP MK katibləri vasitəsilə mənə təsir eləməyə çalışırdılar ki, hansısa regionların Şəki ipəyi almasına köməklik göstərim. Mallarımızın keyfiyyəti bax, bu dərəcədə yüksəlmişdi.

Şərabçılıq məhsulları, meyvə-tərəvəz, çini, çit. Axı Azərbaycanda boya fabriki tikilmişdi. Xalça kombinatı təkcə Kirovabadda yox, Naxçıvanda da meydana gəldi. Naxçıvanda trikotaj fabriki açdılar, Sumqayıtda çoxlu fabrik tikdilər. Qadınlar üçün iş yerləri açmaq lazım idi. Kimya sənayesində əsasən kişi əməyindən istifadə olunurdu, yüngül sənaye isə qadın əməyi hesabına inkişaf edirdi. Tikiş, parça, trikotaj müəssisələri inşa olunurdu. Mallarımızı SSRİ-nin bir çox guşələrində, xaricdə gözləyirdilər. Azərbaycan istehsalçıları başlarını dik tutaraq gəzirdilər. Bütün bunlar cəmisi 10 il ərzində baş vermişdi».

*(Svetlana Qasımova ilə söhbətdən).*

Sov.İKP MK-nın keçmiş katibi Aleksandra Pavlovna Biryukova ilə biz onun Moskvadakı rahat mənzilində görüşdük. O mənim suallarımı cavablandırmağa böyük məmnuniyyətlə razılıq verdi və Heydər Əliyevlə birgə işlədiyi vaxtlardan çox maraqlı əhvalatlar danışdı. Biz, xüsusilə də Heydər Əliyevin Moskva dövrü fəaliyyətini əks etdirən fəsillərdə bu söhbətə dəfələrlə qayıdacağıq. A.Biryukova Azərbaycanın yüngül sənaye sahəsində inkişafındakı keyfiyyət sıçrayışının bilavasitə şahidi olub:

«O illərdə Azərbaycan Qafqazın digər respublikaları ilə müqayisəolunmaz dərəcədə yüksək templərlə inkişaf edirdi, lider mövqeyində dururdu. Ən başlıcası isə, respublikada xalq üçün çox işlər görülürdü. Yüz min tonlarla pambıq istehsal olunur və bu rəqəm ildənilə artırdı. Ancaq Azərbaycan təkcə pambıq istehsal edib göndərmirdi. Axı Özbəkistan, Türkmənistan, Tacikistan milyonlarla ton pambıq yetişdirsələr də, tikinti ilə çox az məşğul olurdular. Hamı eyni şəraitdə işləyirdi, hər şeyi mübarizə ilə əldə etmək lazım idi.

Heydər Əliyeviç ixtisasca iqtisadçı olmasa da, iqtisadiyyatı çox yaxşı bilirdi və hiss edirdi ki, nə daha çox səmərə verə bilər. Pambıqçılığı inkişaf etdirməklə, o eyni zamanda toxuma mallar, parça müəssisələri, toxuculuq, pambıq-kətan, əyirici fabriklər inşa edirdi. Özü də çox iri müəssisələr tikdirirdi.



O çalışırdı ki, parça gətirməsinlər, respublika özü parça ixrac etsin. Pambığın qiyməti çox ucuz idi, parça satışında isə dövriyyə vergisi götürülürdü və əhəmiyyətli dərəcədə çox vəsait respublikada qalırdı. Bu isə çox mühüm məsələ idi.

O vaxtlar qiymətqoymada maya dəyəri və rentabelliyin səviyyəsi nəzərə alınırdı (rentabellik həmişə 14-15 faiz verilirdi, böyük müəssisələrdə isə ən çoxu 20 faizə çatırdı). Bundan topdansatış qiymət yaranırdı. Ona dövriyyə vergisi də əlavə olunurdu. Toxuma malların, parçanın dövriyyəsindən vergi 70 faizdən 200 faizədək təşkil edirdi. İplik parçalara növündən asılı olaraq 100-dən 170 faizədək vergi qoyulurdu. Dövriyyə vergisi dövlətin özündə qalırdı. Özü də 80 faiz ittifaq büdcəsinə köçürülürdü, 20 faiz isə respublikada qalırdı. Ancaq əgər parça istehsalının həcmi böyükdürsə, 20 faiz də əhəmiyyətli vəsaitə çevrilirdi.

Pambığın satışından isə çox az vəsait qalırdı. Ona görə də Heydər Əliyev son məhsula çox böyük diqqət yetirirdi. Mən həmkarlar komitəsində də, MK-da da yüngül sənayeyə hamilik edirdim, odur ki, bütün bunların canlı şahidi olmuşam.

Şalayevdən sonra həmkarlar təşkilatında sosial sığortaya və əməyin mühafizəsinə nəzarət edirdim. Sosial sığorta birbaşa səhiyyə ilə əlaqəli olduğu üçün səhiyyəyə də hamilik edirdim. Heydər Əliyevin bu sahədə necə böyük işlər gördüyü mənə məlumdur.

O, kəndlərdə xəstəxanalar, poliklinikalar, ambulator müəssisələr, sanatoriya-profilaktoriyalar tikdirir və bu işləri nəzarətində saxlayırdı.

O vaxtlar bütün göstəricilər üzrə iki respublika ad çıxarmışdı – Belarusiya və Azərbaycan. Onlara keçici bayraqlar da verilirdi, onlar barədə çox danışırdılar. Heydər Əliyev ordenləri havayı yerdən almırdı, nahaqdan yüksəlmirdi. O həmin mükafatları öz işi, əməli ilə qazanmışdı. Hansı sahəni götürsək, görərik ki, onun həmin sahədə böyük zəhməti vardır».

## Sosial problemlər

70-ci illərdə bütün ölkədə olduğu kimi, Azərbaycanda da mənzil problemi kəskin şəkildə mövcud idi. 1971-ci il fevralın 5-də 40-cı Bakı partiya konfransında Heydər Əliyev bu məsələnin üzərində ətraflı dayanmışdı:

«Biz bütün mədən sahələrində, zirzəmi və yarımzirzəmi şəraitində, qəza vəziyyətində olan, köhnəlib çürüyən evlərdə yaşayanların hamısını köçürməli, bu ailələrə normal yaşayış şəraiti yaratmalıyıq.

Bu problemi həll etmək üçün 10 il ərzində təqribən 7 milyon kvadratmetr yaşayış sahəsi, başqa sözlə, bir ilə 700 min kvadratmetr yaşayış sahəsi təhvil verməliyik».

Əlbəttə ki, Vəli Axundovun vaxtında da yaşayış binaları tikirdilər, ancaq tikintinin sürəti o qədər də ürəkaçan deyildi. Bir ilə 300 min kvadratmetrdən artıq yaşayış sahəsi təhvil verilmirdi, odur ki, yaşayış binaları tikintisinin həcmini 2 dəfədən çox artırmaq lazım gəldi.

MK-nın birinci katibinin qətiyyəti nəticəsində 70-ci illərin sonu – 80-ci illərin əvvəllərində bu göstərici Bakı şəhəri üzrə artırılıb ildə milyon kvadratmetrə çatdırıldı.

Onun Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində 18,5 milyon kvadratmetrlik yaşayış sahəsi inşa olunmuşdu. Başqa sözlə desək, ölçülərinə görə bütövlükdə Bakı şəhərinin yaşayış fonduna bərabər olan şəhər salınmışdı. 2 milyon 200 min nəfər, başqa sözlə, respublikanın hər üç sakinindən biri yeni mənzillərə köçmüş və ya yaşayış şəraitini yaxşılaşdırmışdı.

Svetlana Qasımova Heydər Əliyevin Bakı şəhərinin tikilib abad edilməsi planı ilə necə xırda detallara irad tutmaqla tanış olduğunu xatırlayır. Nə tikiləcək, hansı müddətə, hansı kommunikasiya vasitələri, hansı infrastruktur – bütün bunlar MK katibinin şəxsi iştirakı ilə nəzərdən keçirilirdi.

«Musabəyov qəsəbəsi də, bir neçə mikrorayon da, Günəşli, Əhmədli, 8-ci kilometr yaşayış massivləri də 70-ci illərdə inşa olunub. O vaxtlar, xüsusilə də 70-ci illərin əvvəlində sosial-məişət problemləri çox ciddi şəkildə qarşıda dururdu. Bu şəraitdə varlanmaq, evlər, malikanələr tikmək, özün üçün işləmək mənəviyyatsızlıq olardı. Respublikada qanunsuz işlərə, qeyri-qanuni varlanma hallarına qarşı dözümsüzlük mühitini Heydər Əliyev yaratmışdı.

70-ci illərin sonunda Bakıda mənzil problemi nisbətən azaldı, zirzəmilərdə yaşayan köklü bakılılar rahat mənzillərə köçdülər. Yadımdadır, 300-dən artıq ailə Nazirlər Kabinetinin binası ilə üzbəüzdə, dözülməz şəraitdə, siçovullarla «qonşuluqda» yaşayırdılar. Mən orada hər bir mənzili araşdırıb MK-ya məlumat vermişdim. Heydər Əliyev bu problemi də həll etdi».

Həsən Seyidov danışırdı ki, 70-ci illərdə SSRİ-də köhnəlmiş yaşayış normativləri mövcud idi ki, onlar da xüsusilə çoxuşaqlı kənd



əhalisi üçün əlverişsiz, yolverilməz idi. Ailə üzvləri artsa da, oğlun evlənib, qızın ərə getsə də təzə ev tikməyə icazə vermirdilər. Bəzən qayda-qanunu pozduğuna görə insanları mühakimə də edirdilər. Xalq Nəzarəti Komitəsi yoxlamalar keçirirdi, evin sahəsi normadan artıq olardısa, evin sahibini cərimələyə, hətta cinayət məsuliyyətinə cəlb edə bilərdilər.

«İnsanlar bilmirdilər nə etsinlər, – deyə Həsən müəllim xatırlayırdı, – pulları olsa da, qurub-yarada, tikə bilmirdilər. Həm də xərcləmək mümkün deyildisə, bu qədər pul qazanmaq nəyə lazımdır? Mən ağzım köpüklənə-köpüklənə sübut etməyə çalışırdım ki, bizdə ailələr çoxuşaqlıdır, bu normativ respublikamız üçün yararsızdır. Bu məsələdə mənimlə birlikdə Həsən Həsənov da fəallıq göstərirdi. Heydər Əliyevin göstərişi ilə biz Moskvaya gedərək, əlaqədar idarələrlə döyüşürdük».

80-ci illərin əvvəlində respublikada iqtisadiyyatın inkişafı üzrə bir çox problemlər öz həllini tapmışdı. Heydər Əliyev öz komandası ilə birgə sosial problemlərin həlli ilə ciddi məşğul olmağa başlamışdı: respublikanın bütün kəndlərini qazlaşdırmaq, əhalinin içməli su ilə təminatını yaxşılaşdırmaq, rahat yollar çəkmək, digər sosial məsələləri həll etmək lazım idi.

«Biz artıq 5 illik, 10 illik proqram tərtib etmişdik, – deyə H.Seyidov mənə danışırdı, – bu və ya digər regionu hansı ilədək qazlaşdırmalıyıq, hansı ilədək yolları qaydaya salmalıyıq və s. Bu işlərlə məşğul olmağa başladıq.

Yollarla bağlı məsələni götürək. O vaxtlar belə bir qayda var idi: əgər bitum plandan artıq çıxarılırdısa, onda 50 faizi respublikaya qalırdı. Yadımdadır ki, Heydər Əliyev o vaxt mənə Moskvaya getməyi tapşırdı. Mən gedib, plandan artıq bitumun 100 faizinin Azərbaycanda qalmasına nail oldum. Üstəlik, plandan əlavə daha çox bitum əldə etmək üçün yeni qurğu inşa etdik. Günlərin birində, gecə vaxtı onunla birgə Bərdədən Sabirabada gedirdik. O mənə dedi:

– Həsən, məncə yollarımız abadlaşıb.

Mən zarafatla cavab verdim:

– Heydər Əliyeviç, yəqin sizin məlumatınız məndən çoxdur.

O gülüb dedi:

– Əvvəllər isə mənə sübut etməyə çalışırdılar ki, bu mümkün deyil».

1971-ci il fevralın 5-də 40-cı Bakı partiya konfransında Heydər Əliyev Bakının yaşıllaşdırılması zərurətini bəyan etdi və paytaxtın ətrafını və baş plan üzrə yaşıllıqlar salınmalı olan meydançaları bölmələrə, bölmələri də sahələrə bölməyi, sahələri isə zavodlara, fabriklərə, məktəb və müəssisələrə təhkim etməyi təklif etdi. Onların hər birinə, işçilərin və məktəblilərin sayına müvafiq olaraq, hər bir Bakı sakininə iki ağac əkmək tapşırığı verildi...

«Əgər hər bir sakin bir neçə il ərzində iki ağac əkib bəsləsə, Bakının ətrafında nə qədər meşə və park sala bilərik!»

1972-ci il noyabrın 25-də Heydər Əliyev Bakıda Xalqlar dostluğu parkı salınması zamanı çıxış etdi. O, Bakını bağlar şəhərinə çevirməyə çağırdı. Həmin gün mitinqdən sonra Şıx düzənliyində 40 minədək fidanlar – toz ağacı və palıd, Eldar şamı və göyrüş, qovaq və ladən, sərv ağacı, nar, albalı və alma ağacları əkildi.

Heydər Əliyev şəhər və kəndlərin yaşıllaşdırılmasına, respublikanın simasının dəyişdirilməsinə, sosial-mədəniyyət yönümlü obyektlərin tikintisinə böyük diqqət yetirirdi. Svetlana Qasımovanın çox dəqiq ifadəsilə desək, o, respublikaya ailə başçısının doğma ocağına bəslədiyi münasibəti göstərirdi. Doğma ocağın güzəranı məsələsində isə xırda məsələ olmur.

**Milli Məclisin deputatı Fəttah Heydərovla söhbətdən:**

1970-ci ilin noyabrından Ordubad rayon partiya komitəsinin ikinci katibi işləməyə başladım, Heydər Əliyevin keçirdiyi bütün tədbirlərdə iştirak edirdim. Xüsusilə də ideoloji tədbirlərdə.

Biz tez-tez Bakıya müxtəlif yığıncaqlara gəlib, Heydər Əliyevin çıxışlarını dinləyirdik. Bu çıxışlar bizi yeni qüvvə ilə işləməyə həvəsləndirirdi. İşimiz isə başdan aşırdı: bağçılıq böyük vüsətlə inkişaf edirdi, yaraşıqlı binalar, mədəniyyət evləri, inzibati binalar inşa edilirdi.

Misal üçün, hətta rayonun baş qurumu olan rayon partiya komitəsi keçmiş ipəkçilik kombinatının binasında yerləşdirilmişdi. Mədəniyyət sarayı hələ erkən orta əsrlərdə inşa edilmiş Cümə məscidinin binasında bərqərar olmuşdu. Biz 500 nəfər tutan yeni yaraşıqlı mədəniyyət sarayı və eləcə də rayon partiya komitəsinin və rayon icraiyyə komitəsinin idarə binalarını tikdik. 70-ci illərdə Naxçıvanın bütün rayonlarında idarəetmə orqanlarının yeni binaları ucaldıldı. Bu, islahatlar proqramının ayrıca bəndi idi.

Nə qədər məktəb tikilmişdi! Demək olar ki, hər kənddə!



Heydər Əliyev üçün məktəb, mədəniyyət sarayı, sosial obyektlərin tikintisi həyat əhəmiyyətli vəzifə idi. Onun təşəbbüsü ilə respublikanın mütəxəssisləri böyük bir proqram işləyib hazırladılar. Həmin proqramın həyata keçirilməsi üçün Moskvadan əlavə vəsait ayrılırdı.

Məsələ orasında idi ki, üzümçülüyün, pambıqçılığın inkişafı, neftçıxarmanın stabilləşməsi hesabına Heydər Əliyev büdcə gəlirlərinin artımını təmin etdi və bunun hesabına belə geniş tikinti işləri aparmaq imkanı əldə etdi. O başa düşürdü ki, sadəcə xahiş etməklə Moskvadan heç bir şey qopara bilməyəcək. Ona görə də SSRİ dövlət büdcəsinə daxil olmaların artırılmasına çalışırdı. Bu, respublika üçün ayrılan sərmayənin artırılmasını tələb etmək hüququ verirdi.

Respublika əməkçilərinin zərbəçi əməyi və nəzərə çarpan uğurları diqqətdən yayınmırdı. Demək olar ki, 13 il ərzində hər il Moskvanın yüksək rütbəli partiya funksionerləri Ümumittifaq sosializm yarışında qalib gəldiyinə görə Azərbaycana Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, UHİŞ və ÜİLKGİ MK-nın keçici Qırmızı bayrağını təqdim edirdilər. Respublika və onun paytaxtı Lenin ordenləri ilə təltif olunurdu, istehsalat qabaqcıllarından ibarət böyük bir qrup yüksək dövlət mükafatları, Sosialist Əməyi Qəhrəmanı adları alırdılar. Bu adamlar haqqında qəzetlər yazır, onları televiziyada göstərir, dövlətin rəhbər orqanlarına seçir, partiya qurultaylarına və digər forumlara nümayəndə kimi Moskvaya göndərirdilər. Bütün bunlar insanları yeni əmək rəşadətlərinə, daha yüksək göstəricilər əldə etməyə ruhlandırırdı.

Azərbaycan və onun lideri daima kino- və fotokameraların fokus nöqtəsində idilər, təkcə SSRİ-də yox, Şərqi Avropanın sosialist dövlətlərində də mərkəzi qəzetlərin sütunları, jurnalların ayrıca nömrələri «Azərbaycan fenomeni»nə həsr olunurdu.

Keçici Qırmızı bayraqlar və o dövrdə respublikada hökm sürən ab-hava barədə tanınmış Azərbaycan yazıçısı Elçin maraqlı fikir söyləyib. 90-cı ildə Heydər Əliyevin hakimiyyətə qaydışından sonra Elçin onun komandasına daxil oldu və respublika hökumətinin «mədəni» fəaliyyətinə rəhbərlik etdi. O vaxtlar, artıq uzaqda qalan 70-ci illərdə isə o, yaradıcılıq ittifaqının katibi işləyirdi, həm ölkə daxilində, həm də xaricdə geniş çap olunurdu və baş verənləri bir növ kənardan qiymətləndirə bilirdi.

«Bu yaxınlardakı müsahibələrdən birində mənə belə bir sual verdilər ki, 70-ci illərdə, 80-ci illərin əvvəllərində Azərbaycanda

«dalğalanan» Qırmızı bayraqlar haqqında nə deyə bilərsiniz? Belə cavab verdim ki, o Qırmızı bayraqlar tarixin faktıdır, onları danmaq olmaz və lazım da deyil. Doğrudan da belədir. Bu günün nəzərləri ilə yaxın (eyni zamanda çox uzaq!) keçmişimizə nəzər salanda, o «təntənəli» iclasları xatırlayanda, indi onlar adama fantasmaqorik, əcaib, hətta sürrealist təsir bağışlayır. Lakin bu, məsələnin bir tərəfidir: görünən və yekdilliklə pislənən, tənə gətirən tərəfi. İkinci tərəf isə görünmür, dərindədir və mürəkkəbdir. O da bundan ibarətdir ki, həmin «təntənə»lərin arxasında konsperativ şəkildə, xəlvətcə, bəlkə də təhtəlşüur, sövq-təbii olaraq xalqın nüfuzunun artması, uzun illərin sarsıntısından sonra akvarellə nəzərə çarpacaq milliyyətçi dirçəliş prosesi başlamışdı. Yüksək bürokratiya xalqın lideri ilə necə hesablaşırdısa, yavaş-yavaş xalqın özünə də münasibətdə, bəlkə də, daxilən istənilməyən, arzu olunmayan bir ehtiram yaranırdı.

O dövrdə «Sosialist əməyi»ndəki uğurların, keçici qırmızı bayraqların arxasında ilk növbədə **xalqın özünütəsdiqi** dururdu. Mən vaxtında bu barədə yazmışdım. Bütün bu «əmək qələbələri», bayraqlar, respublikanın bayrağına sancılan ordenlər nəhəng və o dövr üçün çox böyük cəsarətlə yaradılan aysberqin yalnız görünən tərəfi idi. Ancaq vacib olan, daha əhəmiyyətlisi isə onun görünməyən, suyun altında qalan, mahiyyəti məhz həmin özünütəsdiqdə olan cəhətlər idi...

O Qırmızı bayraqlarla bərabər, xüsusən 80-ci illərin əvvəllərində Azərbaycanda milli təfəkkürün, özünəqayıdışın ayrı-ayrı fərdlər arasında yox, bir küll halında oyanma dövrü idi. Yalnız elə Hüseyn Cavidin cənazəsinin Sibirdən gətirilib doğma yurdda torpağa tapşırılması faktını xatırlayaq. Yaxud 1981-ci ildə Azərbaycan yazıçılarının VII qurultayındakı sözün yaxşı, sağlam mənasında millətçilik əhvalruhiyyəsi, «İran Azərbaycanı» ifadəsinin «Cənubi Azərbaycan» ifadəsi ilə əvəz olunmasının rəsmiləşdirilməsi...

Əlbəttə, bütün dövrlərdə olduğu kimi, o dövrdə də haqlı işdən çıxarılanlarla bərabər, haqsız işdən çıxarılanlar da olub, haqsız incidilənlər də olub, amma onilliklər boyu insani hisslərə yad olan ictimai əxlaqı (daha doğrusu, əxlaqsızlığı!) zorla həyata tətbiq edən, insanı mənən əzən və lazım gəldikdə cismən də məhv edən sistemi də yəqin ki, yaddan çıxarmaq olmaz və mənim dediyim odur ki, həmin sistem daxilində şəxsiyyətə və onun fəaliyyətinə hərtərəfli, obyektiv, düşünə-düşünə qiymət verməyə, fikir söyləməyə çalışmaq lazımdır. Başa düşürəm ki, bəzən bu çətin olur, şəxsi inciklikləri, şəxsi narazılığı boğmaq bir o qədər də asan deyil, lakin mənim təsəvvürümə görə həqiqi yol budur. Onsuz da, dünyanın hər üzünü görmüş qoca tarix belə də edəcək»[18].



## Kəndlərdə dirçəliş

Sovet hakimiyyəti illərində Azərbaycanın kənd təsərrüfatı böyük inkişaf yolu keçmişdi. 60-cı illərdə respublikanın kənd rayonlarının elektrikləşdirilməsi tam başa çatmışdı, kolxoz və sovxozların müasir maddi-texniki bazası yaradılmışdı, Azərbaycanda güclü kollektiv təsərrüfatlar fəaliyyət göstərirdi. 1969-cu ildə kəndlərimizdə 7 mindən artıq ali təhsilli mütəxəssis çalışırdı.

Bu vaxt nəhəng süni nohuru olan Mingəçevir su qovşağı, Orconikidze adına suvarma kanalı, Ceyranbatan su anbarı ilə birgə Samur-Abşeron kanalı, Baş Muğan, Yuxarı Qarabağ, Yuxarı Şirvan kanalları, Bəhramtəpə su qovşağı, suvarma kanalları olan Ağstafaçay su anbarı kimi nəhəng su təsərrüfatı qurğuları işə salındı.

Oktyabr inqilabının 50 illiyi ilə bağlı Azərbaycanın bir sıra kolxozları Lenin, Qırmızı əmək bayrağı ordenləri ilə təltif olundu. 25 kolxozçu isə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Bununla yanaşı, 60-cı illərin sonunda Azərbaycanda ciddi iqtisadi «eniş» yaşanırdı, kənd təsərrüfatının bir çox sahələri dərin böhran içərisində idi: bitkiçiliyin əsas sahələrinin məhsuldarlığı ildən-ilə aşağı düşürdü. Heyvandarlıqda vəziyyət daha acınacaqlı idi. Kolxoz və sovxozlarda iri və xırdabuynuzlu heyvanların sayı azalırdı, məhsulun maya dəyəri yüksəlirdi. Kənd müəssisələrinin maddi-texniki bazasının yüksəldilməsinə az diqqət yetirilirdi, yeni əkin torpaqları dövriyyəyə buraxılmırdı. Mütəxəssislərin və işçi kadrların hazırlığı aşağı səviyyədə idi. Kənd əməkçilərinin maddi həvəsləndirmə prinsipləri pozulurdu. İnsanlar rəhbərlərə, sosial ədalət hissinə inamını itirir, həvəssiz işləyirdilər.

Akademik Ziyad Səmədzadənin sözləri ilə desək, «yeddinci və səkkizinci beşilliklərdə kənd təsərrüfatı istehsalının, bitkiçilik və heyvandarlığın məhsuldarlığının artım sürətlərinə, əsas istehsal vasitələrindən – torpaqdan və maşın texnikasından istifadənin səmərəliliyinə görə Azərbaycan ölkədə sonuncu yerlərdən birini tuturdu. Özü də bu geriləmə çox böyük rəqəmlərlə xarakterizə olunurdu...

Əkinçilik mədəniyyətinin yüksəldilməsi məsələlərinə kifayət qədər diqqət yetirilməməsi, eləcə də aqrotexniki qaydalara riayət olunmaması üzündən yerlərdə bəzi kənd təsərrüfatı bitkilərinin məhsul-

darlığı orta ittifaq göstəricilərindən xeyli geridə qalırdı. Belə ki, səkkizinci beşilliklə pambığın məhsuldarlığı 16 sentner, taxılınkı 10,9 sentner, üzümünkü 40,4 sentner idi»[19].

Azərbaycan Kommunist Partiyası MK-nın Azərbaycan Kommunist Partiyasının XXVIII qurultayına (mart 1971-ci il) hesabat məruzəsində Heydər Əliyev geriliyin səbəblərini təhlil edərək kənd təsərrüfatı istehsalının inkişafında ciddi dönüşə nail olmaq üçün nəzərdə tutulmuş tədbirlər kompleksini irəli sürdü. Həmin məruzədən parçaları diqqətinizə çatdırırıq:

«Yaşıl çay yarpağı və barama istisna olmaqla kənd təsərrüfatı məhsullarının əsas növlərinin istehsalı üzrə beşillik plan yerinə yetirilməyib. Respublikanın kolxoz və sovxozları çiyidli pambıq, tərəvəz, kartof, meyvə və yumurtanın dövlətə satışı üzrə tapşırıqların öhdəsindən gəlməmişlər».

MK-nın birinci katibi bəyan etdi ki, respublikanın mühüm kənd təsərrüfatı sahəsinə – pambıqçılığa xüsusi diqqət yetirmək lazımdır, çünki kolxoz və sovxozların iqtisadi vəziyyəti, kənd zəhmətkeşlərinin rifahının yüksəldilməsi bir çox cəhətdən pambıqçılığın uğurlu inkişafından asılıdır. Lakin son 10-15 ildə çiyidli pambığın istehsal səviyyəsi xeyli aşağı düşmüş və ötən beşillikdə 328 min ton təşkil etmişdi. Heydər Əliyev qarşıya belə bir vəzifə qoyurdu: respublika üzrə çiyidli pambığın məhsuldarlığını hər hektardan orta hesabla 20 sentnerə qaldırmalı və 1975-ci ildə onun istehsalını 380 min tona çatdırmalı.

«Son illər yüksək templə inkişaf edən üzümçülük kənd təsərrüfatının mühüm və gəlirli sahəsidir, – deyə o məruzəsində qeyd edir. – Ötən beşillikdə ümumi üzüm yığımı 2,6 dəfə artmışdır. Üzüm tədarükü üzrə beşillik plan 109 faiz yerinə yetirilmişdir. Dövlətə bir milyon tondan artıq üzüm təhvil verilmişdir. Ancaq üzüm istehsalının bu cür artımı, onun məhsuldarlığı, demək olar ki, artmadığı bir vaxtda əsas etibarilə sahələrin genişləndirilməsi hesabına baş verib. Cari beşillikdə 63 min hektar sahədə yeni üzümlüklər salmalı, məhsuldarlığı xeyli yüksəltməli və 1975-ci ildə ümumi məhsul yığımını 720 min tona çatdırmalıyıq. Yaxın illərdə emal sənayesinin üzüm istehsalının artımı və tədarükündən geridə qalması hallarını aradan qaldırmalıyıq...

Beşillik ərzində tərəvəzçiliyin inkişafı ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. İxtisaslaşdırılmış sovxozlar yaradılıb, ümumi tərəvəz yığımı artırılıb. Buna baxmayaraq, tərəvəzçilər tapşırığa qarşı 203 min ton tərəvəz verməməklə beşillik planın öhdəsindən gələ



bilməyiblər. Faraş tərəvəzin ittifaq fonduna göndərilməsi üzrə beşillik plan da yerinə yetirilməyib. Əsas vəzifə tərəvəz və kartof yetişdirən təsərrüfatların işini əsaslı şəkildə yaxşılaşdırmaqdan, 1975-ci ildə məhsuldarlığı yüksəltmək hesabına respublika üzrə bütövlükdə tərəvəz istehsalını 600 min tona, kartof istehsalını isə 180 min tona çatdırmaqdan ibarətdir».

Yeri gəlmişkən, Heydər Əliyevin qurultayda qarşıya qoyduğu planlar artıqlaması ilə yerinə yetirildi. Misal üçün, artıq 1972-ci ildə 430 min ton, bir ildən sonra isə 450 min ton çiyidli pambıq yığılıb təhvil verilmişdi.

Qurultayda həmçinin respublika kənd təsərrüfatının ən zəif «həlqəsi» olan heyvandarlığın səmərəli şəkildə inkişafı da vəzifə kimi qarşıya qoyulmuşdu.

Heydər Əliyevin sözlərinə görə, əsas məsələ kənd təsərrüfatı istehsalının iqtisadi səmərəliliyini artırmaq, zərərlə işləyən təsərrüfatların sayının azaldılmasıdır: «Yadda saxlamaq lazımdır ki, müasir şəraitdə əsas məsələ yalnız nə qədər məhsul istehsal etmək deyil, həm də bunun nəyin bahasına, nə qədər əmək sərfi ilə başa gəlməsidir. Kolxoz və sovxozların fəaliyyətinin qiymətləndirilməsində əsas meyar, onların gəlirlilik dərəcəsi olmalıdır».

70-ci illərdə Azərbaycan kəndində gedən iqtisadi və sosial islahatların fəal iştirakçısı olan İrşad Əliyevin (90-cı illərdə Heydər Əliyev komandasında kənd təsərrüfatı naziri) xatırladığı kimi, aqrar siyasətin uğurla tətbiqi, Azərbaycanın geridə qalmış, davamlı böhran keçirən kənd təsərrüfatı sahəsinin, xalq təsərrüfatının qabaqcıl və perspektiv bölməsinə çevrilməsi bir neçə vəzifənin yerinə yetirilməsi hesabına baş verdi.

Əvvəla, bu, alimlərin və mütəxəssislərin iştirakı ilə işlənib hazırlanmış pambıqçılığın, üzümçülüyün, meyvəçiliyin, çayçılığın və heyvandarlığın kompleks inkişaf proqramı idi. Həm də İ.Əliyev xüsusi vurğulayır ki, planlaşdırma ayrı-ayrı regionların sahələr üzrə ixtisaslaşması, rayonların xüsusiyyətləri və onların konkret təbii-iqlim zonasına uyğunluğu ilə bağlı imkanları (meyvə-tərəvəz, taxılçılıq, pambıqçılıq, üzümçülük və s. rayonlar meydana çıxmışdı) nəzərə alınmaqla aparılırdı. İkincisi, kənd təsərrüfatında çalışanlar və alimlər sıx ünsiyyətdə işləməyə başladılar, elmimizin nailiyyətləri kənddə geniş tətbiq olunmağa başladı. Üçüncüsü, iqtisadi həvəsləndirmə, əməyin ədalətli qiymətləndirilməsi və normalaşdırma prinsipləri işə salındı. Dördüncüsü, kənd təsərrüfatı üçün bütün səviyyə-

lərdən olan kadrların intensiv hazırlanmasına başlandı – bunlar həm rayon rəhbərliyinin yeni nəsli, həm respublikanın, eləcə də SSRİ-nin digər şəhərlərinin ən yaxşı ali məktəblərində təhsil almış mütəxəssislər, həm də orta ixtisas tədris müəssisələrinin, eləcə də texniki peşə məktəbləri şəbəkəsinin geniş inkişafı idi. Əlbəttə ki, «Azərbaycan SSR-də kənd təsərrüfatının inkişafı və ixtisaslaşması tədbirləri haqqında» və «Azərbaycan SSR-in kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında» qərarları kimi mühüm partiya-hökumət sənədlərinin qəbulu nəticəsində mərkəzin köməyi və miqyaslı maliyyə dəstəyi böyük rol oynamışdı.

Heydər Əliyev özü 70-ci illərin aqrar siyasəti barədə bunları xatırlayır:

«Biz kənd təsərrüfatının optimal ixtisaslaşmasına nail olduq. Bunu o dövrün ən böyük nailiyyəti hesab edirəm. Biz hansı regionun pambıq, hansının üzüm, bağçılıq, tərəvəzçilik, taxıl və subtropik bitkilər üçün yararlı olduğunu müəyyənləşdirdik. Və bununla bağlı Azərbaycan KP MK-nın 1979-cu il plenumunun böyük qərarı var, orada hər şey çox dəqiq müəyyənləşib. Əgər yoldaşlar sonralar da həmin yolla getsəydilər, respublikada hər şey yaxşı olardı. Əsas çətinlik heyvandarlıq məhsullarının istehsalına aiddir. 1980-1981-ci illərdə Azərbaycanda 300 min hektarda pambıq əkilirdi. Bunlar sulanan torpaqlardır. Əgər 300 min hektarın pambığını ləğv edib, yerində taxıl və yem bitkiləri əksəydik belə, biz özümüzü maldarlıq məhsulları ilə təmin edə bilməyəcəkdik. Hər şeyin səmərəsinə baxmaq lazımdır. Pambıqçılıqdan, üzümçülükdən alınan səmərə heyvandarlıqdan alınan səmərə deyil... Fərq çox böyükdür. Bir də pambıqçılıq Azərbaycanın düzənlik rayonlarında yerləşib. Bu, əsasən Salyanın, Sabirabadın, Neftçalanın, Saatlının, Beyləqanın, İmişlinin, Puşkinin torpaqlarıdır. Bu torpaqlarda pambıq bitkisi başqa sahələrdən xeyli səmərəlidir. Sabirabadda 1971-1972-ci illərdə 20 min ton pambıq yetişdirilirdi. Sonra bu rəqəm 100 min tona qalxdı. Çünki burada istifadə olunmayan torpaqlar çox idi. Çoxları bilmirlər ki, bu illərdə ciddi meliorasiya işləri aparılıb, böyük su hövzələri yaranıb, yeni kanallar çəkilib...

Su ilə təminat əlavə torpaqlardan istifadəyə təkan verdi. Yeri gəlmişkən qeyd edim ki, Azərbaycan kəndçisi üçün pambıqçılıq ənənəvi bitki idi. Arxiv materiallarından məlumdur ki, hələ 1830-cu illərdə Azərbaycanda pambıq əkilirdi. Qafqaz pambıqçılarının birinci qurultayı 1905-ci ildə Ağdaş şəhərində olmuşdur. Bu qurultayın stenoqramı arxivdə var. Mən onunla tanış olmuşam. O ki qaldı cənub



zonası... Cəmisi 10 min ton çay yarpağı istehsal olunurdu. Bu rəqəm 30 min tona qalxdı. Həm Lənkəranın, həm Masallının, həm də Astaranın bir hissəsi çay üçün sərfəlidirsə, o biri hissəsində çayçılıq inkişaf etmir. Bu torpaqlarda tərəvəz əkini daha sərfəlidir. Zənnimcə, kənd təsərrüfatı sahəsində də böyük potensial yaranıb»[20].

***Əlbəttə, hətta ən dəqiq statistik məlumatlar, alim və mütəxəssis rəyləri belə bu miqyaslı dəyişikliklərin, islahatların iştirakçılarının, şahidlərin canlı söhbətini əvəz edə bilməz. Ona görə də təklif edirəm ki, rəqəmlərin və o dövrün məruzə və çıxışlarından gətirilmiş sitatların əvəzinə 70-ci illərin ab-havasına köklənəsiniz, qəhrəmanımızla birlikdə onun keçdiyi yollarla respublikanın rayon və kəndlərində olasınız, tarlalara və fermalara baş çəkəsiniz, ölkədə bənzəri olmayan məşhur zona müşavirələrində iştirak edəsiniz, Heydər Əliyevin fərdi vaqonuna minəsiniz, hətta onunla birlikdə İvanovka kəndində məşhur Nikitin samoqonundan dadasınız (belə şeylər də olurdu!). Mənim çoxsaylı müsahiblərim, hətta deyərdim ki, kitabın həmmüəllifləri Heydər Əliyev uğurunun canlı anatomiyasını yaratmaqda mənə kömək oldular.***

«Vəli Axundovun dövründə 250-300 min ton pambıq, o qədər də üzüm yığırdılar. Heydər Əliyev vəzifə başına gələndən isə istehsalı milyon ton pambığa və 2 milyon ton üzümə çatdırdılar. Özü də məsələ təkcə üzümçülüyün inkişafında deyildi, bütün sahənin kompleks inkişafında idi. Emal da, mütəxəssis hazırlığı da, yol salınması, sosial obyektlərin, yaşayış binalarının, məktəb və s. tikintisi də buraya daxil idi.

Onun öz inamı, təşəbbüskarlığı ilə insanları necə cəlb etməsinə bir misal çəkim. 1972-ci ilin sentyabrında Daşkənddə pambıq yetişdirən respublikaların partiya-təsərrüfat fəallarının yığıncağı keçirilirdi. Sov.İKP MK-nın baş katibi L.İ.Brejnev də həmin yığıncaqda iştirak edirdi. Bu yeni təşəbbüs idi və sonralar ənənəyə çevrildi: ittifaq rəhbərliyinin bu strateji məhsula necə əhəmiyyət verdiyini sübut edirdi. 1973-cü il sentyabrın 24-25-də ikinci belə görüş keçirildi. Həmin görüşdə Heydər Əliyev Brejnevə söz verdi ki, respublika ölkəyə 450 min ton pambıq təhvil verəcək. Yığıncağın ittifaq mətbuatında dərc olunmuş qətnaməsində Azərbaycanın beşilliyin üçüncü ilinin öhdəliklərini artıqlaması ilə yerinə yetirmək və dövlətə ən azı 450 min ton pambıq təhvil vermək (1972-ci ildəki 431 tona qarşı) qətiyyəti ifadə olunmuşdu.

İşin tərsliyindən, əlverişsiz hava şəraiti bu planların həyata keçməsini mürəkkəbləşdirdi. Onda Heydər Əliyev ümumrespublika yığıncağı keçirib xalqa müraciətlə çıxış etdi. 45 dəqiqə ərzində o, elə səmimiyyətlə danışdı ki, onun çıxışından sonra heç kim bu problemə biganə qala bilmədi. Demək olar ki, bu çıxış bütün xalqı ayağa qaldırdı. Büronun bütün üzvləri, Nazirlər Sovetinin rəhbərliyi, məsul əməkdaşlar, Heydər Əliyev özü rayonlara getdilər. Bilirsinizmi, onun çıxışı elə geniş rezonans doğurdu ki, çoxları indiyədək xatırlayırlar. Nəticədə planlar doldu, SSRİ miqyasında respublikanın nüfuzu daha da artdı».

*(Həsən Seyidovun söhbətlərindən).*

«Biz Büro üzvləri ildə bir neçə dəfə pambıqçılıq rayonlarına gedirdik, hər birimizə hansısa zona təhkim olunmuşdu. Birinci mərhələdə nəzərdən keçirirdik ki, pambıq necə yetişir. Başqa sözlə, biz bütün informasiyanı yığırdıq. Tək yox, mütəxəssislərlə gedirdik. Misal üçün, mənimlə birgə rayona pambıqçılıq institutunun alimləri, MK-nın kənd təsərrüfatı şöbəsindən kimsə bir nəfər və təcrübə rəhbərləri gedirdi. Biz müxtəlif mərhələlərdə bitkinin inkişafını izləyirdik. Tutaq ki, mütəxəssislərin fikrincə, bu vaxta kol on santimetr böyüməlidir. Yoxlayırdıq görək səpin yerində dazlıq yoxdur ki, alaq otları vaxtında təmizlənibmi, ziyanvericilərə qarşı vaxtında mübarizə aparılıbmı, tarlaların suvarılması necə gedir? O illərdə çoxlu suvarma sistemləri quraşdırılmışdı. Ancaq bu suvarma kanallarının suvarmaya ehtiyacı olan vaxt yaxşı işləməsinə nail olmaq lazım idi. Suvarma əsasən gecə vaxtı aparılırdı.

Biz bu mərhələlərlə yaşayırdıq. Sonra elə dövrə çatırdıq ki, bir kolda neçə qoza olduğunu sayırdıq. Aydınlaşdırırdıq ki, pambığın hansı yeni növünü respublikaya gətirmək lazımdır. Axı bizim özümüzdə naziklifli pambıq növü yox idi, yalnız yerli növlər var idi. Əvəzində bizdəki pambıq növü yüksək məhsuldarlıqlı idi. Vacib o idi ki, qozaların necə inkişaf etdiyinə, necə açıldığına, yarpaqların tökülməsi üçün defoliasiyanı nə vaxt aparmaq lazım olduğuna nəzarət edilsin. Yarpaqlar töküləndən sonra maşınla yığım başlanırdı.

Bax, belə, demək olar ki, zərgər işi görürdük.

Soruşa bilərsiniz ki, bütün bunlar nəyə gərək idi? Mütəxəssislərin məsuliyyətini artırmaq üçün lazım idi. Onlar bilsinlər ki, başlarının üstündə MK-nın adamları dayanıb. Bununla bərabər, bunlar həm də yerli təsərrüfatçıların və rəhbərlərin su, kimyəvi gübrələr, texnika, pambığı qurutmaq üçün meydançalar, örtüklər və s. sarıdan çətinliklərini eşitmək üçün lazım idi. Bütün bu problemləri vaxtında həll etmək lazım idi ki, bol məhsul əldə etmək mümkün olsun».

*(Lidiya Rəsulova ilə söhbətdən).*

«Əgər 1981-ci ildə Azərbaycanda 34 ton çay yığmışdılarsa, ondan 16.600 və ya 16.800 tonunu, başqa sözlə, yarıya qədərini Lənkəran verirdi. Mövcud çay fabrikləri bu qədər çay yarpağını emal etməyin öhdəsindən gələ bilmirdi. Çay isə vaxtında emal olunmasa, keyfiyyətini itirir. Ona görə də daha bir neçə çay fabriki tikmək lazım gəlirdi. Heydər Əliyev 1982-ci ilin iyununda Lənkərana gələndə onların tikintisinə razılıq verdi.

O vaxtlar Lənkəranda üç çay fabriki fəaliyyətdə idi. Mən onu 2 saylı çay fabrikinə apardım. Həmin fabrikin direktoru Rizvan Babayev üç ildən bir keçirilən çayın növlərə ayrılması ilə bağlı beynəlxalq tədbirdə iştirak edirdi. Məhz bu tədbirdə çayın dequstasiyasını keçirir, onu bu və ya digər növə ayırırdılar, çayın keyfiyyətini əks etdirən sertifikat verirdilər. Rizvan Babayev həmişə qızıl medalla qayıdırdı, Lənkəran çayı isə hər il birinci yeri tuturdu.

Ona görə də mən Heydər Əliyevi məhz o fabrikə apardım. Rizvan baradansa bir kater əldə eləmişdi, təmir eləyib içərisində səliqə-sahman yaratmışdı və özünəməxsus çay evi kimi müəssisənin həyətində qoymuşdu. Heydər Əliyev fabriki dolaşdı, hər şeyi nəzərdən keçirdi, adamlarla söhbətləşdi, sonra isə onu «çay evinə» – katerə gətirdilər. Çay onun çox xoşuna gəldi:

– Əla çaydır, – dedi.

– Lənkəranda çay plantasiyalarını genişləndirmək üçün imkanlar var, – dedim. – Hazırda Lənkəranın əsas ixrac məhsulu çaydır. Biz planı yerinə yetirməyəndə, mən dərhal çay fabriklərinin direktorlarına göstəriş verirəm ki, çay satışının həcmini artırsınlar, biz satış planını yerinə yetirə bilək. Beləliklə, çay rayon planını xilas edir. O, hər şeydən çox gəlir gətirir.

Heydər Əliyev fabrik direktoru ilə söhbətdən çox razı qaldı. Orada xeyli oturub ətirli çay içdi. Direktor isə çay haqqında, onun qəribə müalicəvi xüsusiyyətləri, dişləri möhkəmləndirib, təzyiqi aşağı salmaq xüsusiyyətlərindən danışdı.

– Sənin çox gözəl zövqün var, – Heydər Əliyev ona dedi, – bəs niyə sən onu katerdə nümayiş etdirirsən? Burada əsil Çay evi tik.

O vaxtlar bizdə Çay evi yox idi. Bu söhbətdən sonra Rizvan Çay evini fabrikdə tikdi, mənsə şəhərdə. Biz tələsirdik, Çay evlərini ti-

kib başa çatdırdıq, növbəti il Heydər Əliyevin gəlişini gözləyirdik, ancaq o Moskvaya getdi və buralara bir daha yolu düşmədi.

Elə oradaca, çay fabrikinə gələndə mən onun qarşısında çayçılığın inkişafı, çay plantasiyalarının genişləndirilməsi, yeni çay fabriklərinin inşa etdirilməsi məsələlərini qoydum. Yeni fabriklər tikilənədək, yeni plantasiyalar salmaq olar, – deyirdim. Axı çay yarpağı almaq üçün hər bir çay kolunа səkkiz-on il qulluq etmək lazımdır. O görürdü ki, mən bir kənd adamı kimi bu məsələlərdən yaxşı baş çıxarıram. Bu onun xoşuna gəlirdi.

Heydər Əliyev Rizvanın söhbətlərini heç vaxt yaddan çıxarmırdı.

– O nə qədər desə, mən o qədər çay fabriki tikdirəcəyəm, çayçılığın bütün problemlərini həll edəcəyəm, – dedi və köməkçisi Arif Mustafayevə tapşırdı ki, qayıdan kimi bu məsələni işləyib hazırlasınlar. – Təcili olaraq yanıma meyvə-tərəvəz sənayesi nazirini, kənd təsərrüfatı nazirini, meliorasiya nazirini çağırarsan. Çayçılığın inkişafına xüsusi plenum həsr edəcəyik. Çay məhsulunun artırılması və çay fabriklərinin tikilməsi üzrə tədbirlər planı hazırlayın.

Təəssüf ki, tezliklə o Moskvaya getdi və hər şey unuduldu. Buna baxmayaraq, Lənkəranda daha bir çay fabriki inşa edə bildik.

Finlandiyanın prezidenti Mauno Koyvisto Lənkəranda olanda çayımızı tərifləməyə başladı. Birdən hər yerdə bizi addım-addım izləyən mühafizə polkovniki dedi:

– Əbəs yerə deyil ki, İndira Qandi yalnız Lənkəran çayı içir.

– Siz zarafat edirsiniz, – dedim.

– Xeyr, Dilruba xanım, – o cavab verdi. – SSRİ Xarici İşlər Nazirliyi hər ay sizdən istədiyi çayı biz İndira Qandiyə yollayırıq. Çünki Hindistan çayının tərkibində 1,4 faiz civə varsa, Lənkəran çayında cəmi 0,014 faizdir. Ona görə də sizin çayınız bütün yarmarka və sərgilərdə birinci yeri tutur. Sizin çayınız dünyada ən «sağlam», təmiz və ən faydalı çaydır.

Bakıda çay qablaşdıran fabrik vardı. Həm Lənkəran çayını, həm də Masallı çayını qablaşdırırdı. Biz isə xammal istehsalından hazır çayın qablaşdırılmasınadək bütün işləri özümüz görürdük. Hazır məhsulu İttifaqın hər tərəfinə, eləcə də xaricə göndərirdik.

1987-ci ildə Yeqor Liqaçov çayçılığın inkişafı məsələləri ilə bağlı ümumittifaq yığıncağı çağırmışdı. Mən həmin yığıncaqda iştirak edirdim. İclasdan sonra mağazaları gəzmək qərarına gəldim, görüm Moskvada bizim çayı satırlarmı? Heç bir mağazada Azərbaycan, Lənkəran çayına rast gəlmədim. Əvəzində hər yerdə Gürcüstan çayı var idi. Mən mağaza müdirindən soruşdum.



– Sizdə Azərbaycan çayı yoxdur?

– Olur, – deyə cavab verdi.

– Mən heç yerdə görmədim.

O gülümsünüb, qalın bir dəftər çıxartdı.

– Görürsünüz, bunlar hamısı sifarişlərdir. Azərbaycan çayı gətirilən kimi, satılır. Xüsusilə də sizin 4 №-li Lənkəran çayı. Görürsünüz, sizin çaya nə qədər sifariş var. Onu gətirən kimi, sifarişçilərə bildirirəm, onlar da onu dərhal alıb aparırlar. O çay qalan deyil. Ona görə də siz onu piştaxtalarda görmürsünüz.

Çayımızın belə yüksək dəyərləndirilməsi mənim üçün çox xoş oldu».

*(Lənkəran şəhər partiya komitəsinin keçmiş birinci katibi Dilruba Camalovanın söhbətindən).*

**General-polkovnik A.Kovtunovun xatirələrindən:**

«70-ci illərin əvvəlində mən Azərbaycana gələndə Sovet və İran Azərbaycanı sakinlərinin yaşayışındakı fərqlər aşkar duyulurdu. Onlar göstərmək istəyirdilər ki, daha yaxşı yaşayırlar. Hansısa binalar, evlər tikirdilər, onlardakı həyat səviyyəsinin Arazın bu tayındakından daha yüksək olduğunu nümayiş etdirməyə çalışırdılar. Əslində isə bizim həyat şəraitimiz yaxşılaşırdı. Xüsusilə də Lənkəranda, Masallıda. Onlar gözümüzün qabağında dəyişir, başqalaşırdılar. Heydər Əliyev sərhədyanı rayonlarda – Lənkəran, Masallı, Puşkin, Jdanovda həyat şəraitinin yaxşılaşdırılmasına böyük əhəmiyyət verirdi. Baxmayaraq ki, bütün rayonlar onun diqqət mərkəzində idi, sərhədyanı rayonlara xüsusi önəm verirdi.

Heydər Əliyev doğma respublikasının inkişafı üçün bütün təfəkkür sahiblərini cəlb etməyə, bütün əlaqələrindən istifadə etməyə çalışırdı. Misal üçün, Bakıda doğulan Baybakovun nüfuzundan istifadə edirdi. O, Dövlət Plan Komitəsinin sədri olanda Azərbaycan üçün çox işlər görmüşdü».

**Mərkəzi televiziyanın keçmiş xüsusi müxbiri Mais Məmmədov xatırlayır:**

«Hər ilin fevralında bizdə yarmarka keçirilirdi. Sovet İttifaqının hər yerindən gəlib faraş kələmi almaq üçün müqavilə bağlayırdılar. Bəzən nağd pulla gəlib, yalvarırdılar ki, əlavə iki vaqon kələm sataq. Təsəvvür edin ki, hansısa Uryupinskdə aprel və ya mart ayında təzə kələm harada görmüşdülər? Azərbaycan məhsulunu göydə qapırdılar. Moskvadakı dost-tanışım zarafatla deyirdilər:

– Mais, həyat yoldaşım hər gün mənə iki rubl ayırır. Bu pul mənə bir şüşə «Ağdam»a, tomatlı sousla hazırlanmış kilkə konservinə, 14 qəpiyə bir qutu «Avrora» siqaretinə və bir parça çörəyə çatır. Bunların hamısı isə sizin məhsullardır.

Həqiqətən də, «Ağdam»ı da, tomatlı kilkəni də biz istehsal edirdik.

Dekabrın sonu, yanvarın əvvəlində illik mükafatların paylanmasına başlayırdılar. Kolxozlarda, sovxozlarda işləyənlər, xüsusilə də üzümçülər paketlərlə pul alırdılar, sonra isə hay-küy, haray-qışqırıq başlayırdı. Həmin pulu xərcləmək, nəsə almaq lazım idi axı.

Rayonlarda xalça və xrustal əlindən tərpənmək mümkün deyildi. Bir dəfə İvanovkadakı kolxozun direktorunun, məşhur Nikitinin yanına gəldim. O, acığından zəncir çeynəyirdi.

– Adamları indicə kabinetimdən qovub çıxarmışam, – dedi, – məni lap boğaza yığdılar. Mağazam Belçika istehsalı olan xalçalarla doludur, onları sarımsaqla dəyişmişəm. Artıq bir ildir ki, yatıb qalıb, güvə yeyir. Axır göstəriş verdim ki, kim gəlsə, satın getsin. Kənd camaatı isə gəlib deməqoğluq edirlər: «Niyə bizim xalçalarımızı satırsınız?». Deyirəm: «Əgər xalçalar sənindirsə, gəl götür get». Deyir: «İndi istəmirəm». Cavab verirəm ki, «mən sənin üçün xalçaların keşiyini çəkənəm?»

Yəni ki, rayonda nəsə almaq problem deyildi. Kənd adamları şəhərlilərdən yaxşı geyinirdilər. Yarmarkadan bəzi şeyləri alıb aparmaq üçün Gürcüstandan avtobusla Lənkərana gəlirdilər.

Biz yaponlara nar qabığı, milyon cür heç kimə gərək olmayan tullantı satırdıq. Kooperasiya xətti ilə nə qədər qoz-fındıq, şabalıd satırdıq! Bütün bunları bizdən böyük məmnuniyyətlə alırdılar. Əvəzində isə Azərbaycana yüngül sənaye məhsulları, geyim əşyaları, televizor göndərirdilər. Respublika günbəgün zənginləşir, varlanırdı».

## Bol üzüm yetişdirilməsi uğrunda «döyüş»

Xalq təsərrüfatında nəzərə çarpan nailiyyətlərə, əhalinin həyat səviyyəsinin ildən-ilə artmasına və maddi rifah halının yüksəlməsinə baxmayaraq, Heydər Əliyev arxayınçılıq hissindən uzaq idi. O böyük miqyaslı yeni layihələr barədə düşünürdü, respublikaya əlavə maliyyə vasitələri axımını təmin etməyə çalışırdı, bu və ya digər növdən olan kənd təsərrüfatı məhsulunun istehsalı üzrə mütləq liderliyə çıxmağı arzulayırdı. 70-ci illərin sonunda respublika üstünlüyü üzüm yetişdirməyə verdi.



**1979-cu il martın 17-dən** respublika qəzetləri Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» qərarını dərc etdilər.

Qərarda üzümçülüyün və şərabçılığın sürətli inkişafı üçün əkin sahələrinin təkmilləşdirilməsi əsasında 1990-cı ildə respublikada üzüm istehsalını 2,5-3 milyona çatdırmaq vəzifəsi qarşıya qoyulmuşdu.

**1979-cu il noyabrın 19-20-də** Azərbaycan KP MK-nın plenumu keçirildi. Plenumda bu qərarın yerinə yetirilməsi üzrə respublika partiya təşkilatının vəzifələri müzakirə olundu.

Heydər Əliyev qərara belə qiymət verdi: «Bu, respublika üçün tarixi partiya sənədi kənd təsərrüfatının, bütövlükdə Azərbaycan iqtisadiyyatının inkişafı, bütöv kompleks sosial problemlərin həlli, zəhmətkeşlərin rifah halının yüksəldilməsi kimi elmi cəhətdən əsaslandırılmış uzunmüddətli proqramı özündə əks etdirir».

Plenumdakı çıxışında Heydər Əliyev üçüncü qərarın yaranma tarixindən ətraflı danışdı: «Sov.İKP MK-nın iyul (1978) plenumundan qabaq biz kənd təsərrüfatındakı işlərin vəziyyətini bir daha təhlil edib onun gələcək inkişaf yollarını müəyyənləşdirməyi qərara aldıq. Azərbaycan KP MK Bürosu nüfuzlu komissiya yaratdı. Həmin komissiyanın tərkibinə rəhbər partiya, sovet, təsərrüfat işçiləri, alimlər, kənd təsərrüfatı mütəxəssisləri daxil idi. Respublikanın kənd təsərrüfatının çoxsahəli xarakterini nəzərə alaraq, komissiya kənd təsərrüfatı istehsalının gələcək ixtisaslaşmasının və mərkəzləşməsinin bütün aspektlərini öyrənib, hər bir sahənin inkişafının imkanlarını və iqtisadi məqsədyönlülüyünü müəyyənləşdirdi. Komissiyanın çıxardığı qərarlar vilayət, şəhər, rayon partiya komitələrinin birinci katiblərinin, icraiyyə komitələri sədrlərinin, xalq deputatları sovetləri sədrlərinin, kənd təsərrüfatı idarələri rəislərinin iştirakı ilə müzakirə olundu. Bu məsələ ilə bağlı biz təsərrüfat rəhbərləri ilə – kolxoz sədrləri, sovxoz direktorları, istehsalat qabaqcılları ilə məsləhətləşdik. Qazanılmış təcrübə və aşkara çıxarılmış ehtiyatlar əsasında kənd təsərrüfatının gələcək inkişaf yolları barədə konkret təkliflər işlənib hazırlandı. Həmin təkliflərə Azərbaycanın Nazirlər Sovetində, KP MK-nın Bürosunda əsaslı şəkildə baxıldı.

Belə bir nəticə çıxarıldı ki, respublikanın torpaq-iqlim şəraiti və əldə olunmuş nailiyyətlər kənd təsərrüfatının daha dərindən ixtisaslaşmasını və təmərküzləşməsini həyata keçirməyə, bütün kənd təsərrüfatı məhsullarının, xüsusilə üzümün istehsalının gələcəkdə daha

da artırılmasını təmin etməyə imkan verir. Belə bir fikrə gəldik ki, 1990-cı ildə Azərbaycanda üzüm istehsalını üç milyon tona çatdırmaq olar.

Bu məsələ ilə bağlı biz Sov.İKP MK-ya məktub yolladıq, işimiz-gücümüz, planlarımız barədə şəxsən yoldaş L.Brejnevə ətraflı məlumat verdik. Həmişəki kimi Leonid İliç təkliflərimizə çox diqqətlə yanaşdı və SSRİ Dövlət Plan Komitəsinə, SSRİ Kənd Təsərrüfatı Nazirliyinə, SSRİ Yeyinti Sənayesi Nazirliyinə tapşırdı ki, bizim təkliflərimizə baxsınlar. Nəticədə 1979-cu il fevralın 22-də Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında» qərarı qəbul edildi.

Həmin qərarda əkinçilik və heyvandarlıq məhsulları istehsalının gələcəkdə əhəmiyyətli dərəcədə artırılmasını təmin etmək vəzifə kimi qarşıya qoyulmuşdu. 1990-cı ildə üzüm istehsalını 2,5-3 milyon tona çatdırmaq ən mühüm vəzifə kimi irəli sürülmüşdü.

Bu vəzifələrin yerinə yetirilməsi üçün müvafiq sərmayə qoyuluşu nəzərdə tutulmuşdu. Su təsərrüfatı tikintisi, meliorasiya işləri, emal sənayesi müəssisələrinin, dəmiryol və avtomobil yollarının, eləcə də sosial-mədəni obyektlərin tikintisi, su kəmərlərinin çəkilməsi, kənd rayonlarının, demək olar ki, tam qazlaşdırılması kimi geniş proqram müəyyənləşdirilmişdi.

Heydər Əliyevin fikrincə, qərar «respublikanın bütövlükdə sosial-iqtisadi inkişaf templərinin yüksəldilməsi üçün yeni, böyük imkanlar açır, kəndin geniş sosial və mədəni inkişafı proqramını, təsərrüfatların gəlirlərinin artırılması, zəhmətkeşlərin rifah halının yüksəldilməsi məsələlərini əhatə edir, ümumittifaq kənd təsərrüfatı əməyi bölgüsündə respublikanın rolunu artırır... Beləliklə, taxıl bitkiləri əkilmiş torpaq sahələri 140 min hektaradək azalacaq, 190 min hektar sahədə yeni üzüm tingləri basdırılacaq. Pambıq əkmək üçün torpaq sahəsi mövcud olduğu kimi qalacaq, tərəvəz, tütün və meyvə əkilmiş sahələrdə bir qədər dəyişiklik aparılacaq».

Qərarda 1981-1990-cı illərdə mövsüm ərzində 2 milyon ton üzüm emal edən yeni ilkin şərabçılıq zavodlarının tikilməsini, mövcud zavodların genişləndirilməsi və yenidən qurulmasını, ildə 70 milyon dekalitr gücə malik üzüm şərabı qablaşdıran zavodun, Bakıda ildə 40 milyon şüşəyədək şampan istehsal edən Şampan şərabları zavodunun, 15 milyon dekalitr gücə malik Konyak zavodunun tikintisi nəzərdə tutulurdu.



Respublikada həmçinin qablaşdırma məmulatı, suvenir qutuları, şərab çəlləkləri istehsalı üzrə müəssisələrin, şərabçılıq sənayesi üçün texnoloji avadanlığın istehsalı üzrə zavodun və bir çox digər obyektlərin tikintisi də planlaşdırılırdı.

Heydər Əliyev ümumittifaq layihəsinin detallarını açıqlayandan sonra yekun vurdu:

«Bu deyilənlərdən aydın görünür ki, yoldaşlar, partiya və hökumətin qərarı Azərbaycanda üzümçülüyün və şərabçılığın gələcəkdə yenidən qurulmasını və güclü inkişafını əhatə edir... **Biz həqiqətən də bol Azərbaycan üzümünə doğru gedirik...**»

Uzun illər Ermənistanda yaşayan və Yerevanda Azərbaycan Dram Teatrına rəhbərlik edən tanınmış Azərbaycan yazıçısı və ictimai xadimi Hidayət öz kitabında yazır ki, Azərbaycanın sənaye və kənd təsərrüfatının inkişafındakı uğurları, respublikanın Lenin ordeni ilə təltif olunması, Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosuna üzvlüyə namizəd seçilməsi, Bakıda keçirilən genişmiqyaslı tədbirlər və forumlar – bütün bunlar erməni millətçilərini bərk qıcıqlandırırdı, çünki Heydər Əliyevin nüfuzu Azərbaycana qarşı təxribatların, ərazi iddialarının yolunu qapayırdı. Üzümçülük və şərabçılığın inkişafı haqqında qərara gəlincə isə, Hidayətin dediyinə görə, həmin sənəd Ermənistanda «bomba kimi partladı». Üzümçülük və şərabçılığı himayə edən, özünü beynəlmiləlçi kimi qələmə verən, millətçilik hisslərini açıq-aşkar bildirməyən Ermənistan KP MK-nın şöbə müdirinin sözləri indiyədək xatirimdən çıxmayıb: «Bu qərarın çıxmasına nail olan Heydər Əliyevin bacarığı, məharəti məni heyrətləndirir»[21].

Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin məşhur qərarının necə hazırlandığını və onun bütövlükdə respublika təsərrüfatına necə səmərə verdiyini mən «ilk mənbə»dən öyrəndim.

Zakir Abdullayev 1973-cü ildən Azərbaycan KP MK-nın əməkdaşı idi, kənd təsərrüfatı şöbəsinin təlimatçısı, sonra təşkilati-partiya işi şöbəsinin inspektoru işləmişdi, 1978-ci ildən Heydər Əliyev Moskvaya gedənədək isə MK-da kənd təsərrüfatı şöbəsinə rəhbərlik etmişdi.

«Üzümçülüyün inkişafında böyük sıçrayış etmək onun ideyası idi, – Zakir müəllim mənimlə söhbətində dedi. – Biz bu mövzuda onunla çox söhbətlər edirdik. Məsələ orasındadır ki, Heydər Əliyev gözlənilməzlikləri, böyük və möhtəşəm uğurları sevirdi, birinci olmağı xoşlayırdı. Onunla şəxsi söhbətlərimizdə deyirdi ki, biz hər hansı bir sahədə liderliyi ələ almalıyıq, müttəfiq respublikalar ara-

sında birinci yerə çıxmalıyıq. O başa düşürdü ki, Özbəkistan 6 milyon ton, bizsə 600-800 min ton pambıq təhvil verdiyimiz halda, pambıqçılıq üzrə birinci ola bilmərik. Tütünçülük, taxılçılıq, heyvandarlıq üzrə də liderlik əldə edə bilmərik. Qərar layihəsində ilk əvvəl üzüm yığımını 1,5 milyon tona çatdırmaq nəzərdə tutulurdu. Ancaq o yığımı 1,5 yox, 2,5-3 milyon tona çatdırmağı təklif etdi. Mən etiraz etdim:

– Heydər Əliyeviç, biz digər sahələrə ziyan vuracağıq. Heyvandarlıq da ziyan çəkəcək. Çünki indi yem bazası yaradılan torpaqlarda üzüm əkiləcək. Eyni şey pambıqçılıqda da, digər sahələrdə də təkrar olunacaq.

Ancaq görünür, Brejnevlə söhbəti zamanı o bu rəqəmləri söyləmişdi.

– Gəl 2,5-3 milyon yazaq, – dedi, – çünki mən Leonid İliçə söz vermişəm.

Bundan əlavə, ikinci bir məsələ də vardı. O deyirdi ki, bu 2,5-3 milyona görə biz mərkəzdən böyük kömək alacağıq, bu isə abad yollar, su təsərrüfatı obyektləri, yaşayış məntəqələri, şərabçılıq sənayesi deməkdir.

Üçüncü məsələ də vardı. O vaxtlar Moldaviya 800-900 ton üzüm istehsal edirdi. Onların perspektivi isə 1,5 milyon ton idi. Ona görə Heydər Əliyev 2,5 milyon yazdı ki, Moldaviyanı xeyli qabaqlasın.

**– Mərkəzdə bu ideya ilə dərhal razılaşdılar?**

– Brejnev dərhal başa düşüb, ideyanı qəbul etdi. O vaxtlar SSRİ Fransadan, İtaliyadan, İspaniyadan çoxlu şərabçılıq məmulatı gətirirdi. Fransadan çoxlu konyak spirti gətirdirdik. Bu qərar isə, demək olar ki, ölkəyə həmin məhsulların idxalından imtina etməyi nəzərdə tuturdu.

**– Qərar üzərində iş necə gedirdi?**

– Bu qərara qədər bir neçə belə sənəd vardı. Qərar isə bir növ yekun sənəd oldu. Əvvəlki sənədlərdə qarşıya qoyulmuş vəzifələr üzümçülük üzərində cəmləşdirildi. Azərbaycanın Dövlət Plan Komitəsi sənədin hazırlanması üzrə qərargah idi. Bu işə üç nəfər rəhbərlik edirdi: Plan Komitəsinin sədri İbrahim Məmmədov, Nazirlər Soveti sədrinin kənd təsərrüfatı üzrə müavini Şamil Rasizadə və MK-nın nümayəndəsi kimi mən.

Baş memar, təşkilatçı və icraçı Heydər Əliyev özü idi. O, hər şeyə ən kiçik detallarına qədər nəzarət edirdi, SSRİ Plan Komitəsi ilə, hökumətlə, Sov.İKP MK ilə əlaqəyə girirdi.



Biz qərarı hazırlayırdıq, ancaq onun bütün detallarını Moskva ilə razılaşdırmalıydıq. Orada isə deyə bilərdilər ki, bütün bunlar reallıqdan uzaqdır, hansısa məsələ ilə razılaşmaya bilərdilər. Ona görə də əvvəldən axıradək hər şeyi razılaşdırmaq lazım idi ki, sonra hər hansı anlaşılmazlıq, narazılıq yaranmasın. Axı orada maddi ehtiyatlar, maliyyə, dəmir yolu, avtomobil yolları məsələsi də var idi. Odur ki, ən müxtəlif nazirliklərlə işləyib, onların razılığını alırdıq. Bu, çox mürəkkəb qərar idi.

Razılaşmalar, əlavələr çox vaxt aparırdı. Mən şöbə müdiri işlədiyim vaxtda Heydər Əliyev bu məsələ ilə bağlı bir neçə dəfə Moskvaya getmişdi. Üz-üzə oturub məsələni həll etmək üçün ittifaq nazirləri, hətta onların müavinləri ilə də söhbət edirdi ki, nazirin qəbuluna hazır gətsin. Qərar qəbul olunanadək o Brejnevin yanında iki-üç dəfə olmuşdu, çünki MK-nın həmin sahə üzrə katibinə və ya nazirlərə onun göstərişi lazım idi. Leonid İliç zəng vurub deyirdi: «Əliyev yanımdadır, o bir məsələ qaldırıb, kömək etmək lazımdır. O, nəhəng, xeyirli bir iş görmək istəyir, sizin borcunuz isə onu dəstəkləməkdir».

**– Bu qərar qəbul olunandan sonra kənd təsərrüfatında hansı dəyişikliklər baş verdi?**

– Əsas məqsəd pambıqçılıqdan, taxılçılıqdan çox gəlir gətirəcək sahəni inkişaf etdirmək idi. Doğrudur, üzümçülük onunla fərqlənirdi ki, onu əkəndən üç-dörd il sonra xeyir götürürsən. Pambığı isə əkəndən beş-altı ay sonra məhsulu yığmaq olar. Ancaq üzümçülüyün üstünlüyü məhsuldarlığının çox olmasıdır. Misal üçün bir hektardan 30 sentner pambıq, 20-25 sentner taxıl yığılırsa, 90 sentner üzüm alırlar. 100-120 sentner də yığmaq mümkündür.

İkinci üstün cəhət də var. Taxıldan çörək bişirilsə də, qazanc əldə etmək mümkün deyil. Pambıqçılıq sənayesini inkişaf etdirsən, gəlir götürmək mümkündür. Üzüm isə, məhsul yığılandan sonra şərabçılıq zavodlarına emala göndərilir və külli miqdarda qazanc gətirir.

Demək olar ki, bütün üzümçülük rayonlarında üzümün ilkin emalı üzrə yeni zavodlar tikilmişdi. Belə zavodlar bu qərar qəbul edilənə qədər də var idi. Ancaq geniş tikinti işinə 1979-cu ildən sonra başlanıldı.

Bu zavodlar içində ən böyüyü Şampan şərabları zavodu idi – ildə 40 milyon şüşə şampan istehsal edirdi. 1 saylı Bakı Şərab zavodunu əsaslı şəkildə yenidən quraşdırıb genişləndirdilər. 2 saylı Bakı şərab zavodunu, Gəncədə bir zavodu tikdilər. Şamxorda daha bir

şampan şərabları zavodu meydana gəldi, çünki o zonada üzümün elə növləri yetişdirilirdi ki, onlardan çox gözəl şampan şərabları almaq olurdu. Xanlarda almanların vaxtından şərab zavodu mövcud idi, ancaq onu xeyli genişləndirdilər. Bundan əlavə, demək olar ki, bütün sovxozlarda üzümün ilkin emalı üzrə qurğular yaradıldı.

**– Bəs qərarın icrası ilə bağlı hər hansı çətinliklər meydana çıxırdımı? Axı bu zaman digər əkinlər üçün torpaq sahələri azalırdı.**

– İlkin vaxtlarda üzümçülük, əlbəttə ki, digər sahələrə ziyan vurmaqla inkişaf edirdi. Məsələn, heyvandarlıq üçün yem bitkiləri 450 min hektar sahədə yetişdirilirdi. Bu sahəni 70 min hektar azaltmaq planlaşdırılmışdı. Ancaq azaldılan sahədə məhsuldarlığı yem istehsalının səmərələşdirilməsi hesabına artırmaq nəzərdə tutulurdu. Eləcə də digər sahələrdə.

Yalnız pambıqçılıq ziyan çəkmədi. Biz, əksinə, səpin sahələrini bir qədər də artırdıq. Çünki qarşımızda belə bir vəzifə dururdu ki, heç bir halda pambıqçılıq sahəsinə ziyan dəyməsin, pambıq məhsulunu 1 milyon tona çatdıraq. Bir dəfə hətta 1 milyon tondan artıq pambıq yığmağa nail olduq.

Sözsüz ki, çətinliklər var idi. Əsas diqqəti istifadəsiz dəmyə (suvarılmayan) torpaqlara verdik. Lerikdə, Qəbələdə, Yardımlıda, İsmayıllıda və digər rayonlarda, ümumiyyətlə, üzüm yetişdirmirdilər. Məsələn, Şəkidə üzüm yetişdirirdilər, amma biz daha uzaqlara – dağlara, dəmyə torpaqlara üz tutduq. Çünki suvarılmayan torpaqlarda başqa bitkilər bitmir. Taxıl yetişə bilər, çünki mayda, iyunun əvvəlində yetişir, o vaxt da yaz yağışları yağır, bir qədər məhsul əldə etmək olar. Üzümün kökləri isə torpağın dərinliyinə yayıldığı üçün yayın quraqlığına dözə bilir. Məhsul az olsa da, şəkərliliyi çox olur.

Daha bir çətinlik var idi. Zəruri maddi ehtiyatları almaq üçün, qərarda nəzərdə tutulan hər şeyi mərhələ-mərhələ almaq üçün daima Moskva ilə əlaqə saxlamaq lazım idi. Bu çox böyük, gərgin iş idi. Ancaq o öz nəticələrini verirdi. Respublikaya vəsait gəlməyə başladı. Torpaqda işləyən insanların maddi durumu yaxşılaşdı, sosial sahə canlı şəkildə inkişaf etməyə başladı: yeni binalar, qəsəbələr, xəstəxanalar, məktəblər inşa edilməyə başladı. Bu çox böyük iş idi.

**– Qorbaçovun antialkoqol kampaniyası üzümçülüyə böyük ziyan vurdu?**

– O vaxt 150 min hektaradək üzümlüklər məhv edildi. Bir çox üzüm tingləri baxımsızlıq ucbatından məhv oldu, çoxusu da traktorun tırtılları arasında qaldı. Heydər Əliyevin vaxtında 250-280 min hektar üzümlük salınmışdı.

Bir hektar üzümlük salmaq üçün – buraya torpağın qatını dərindən çevirmə, direklərin hazırlanması, onların arasındakı məftillər, əkmək üçün material və s. daxildir. O dövrün qiymətləri ilə desək, 6,5 min dollara qədər vəsait tələb olunurdu. İki-üç il də məhsul əldə etmək üçün gözləməliydin. Qısası, 10 min dollara qədər vəsait qoymaq lazım idi. Biz həmin vəsaiti qoyub gəlir əldə edirdik. İndi, şükür olsun Allaha, respublikada pullarını üzümçülüyün inkişafı üçün qoyan imkanlı insanlar var. Əminəm ki, onlar Heydər Əliyevin bu qədər zəhmət çəkib ürəyinin hərarətini qoyduğu sahəni canlandıracaqlar».

**Lidiya Rəsulova ilə söhbətdən:**

«Heydər Əliyevin vaxtında biz 2 milyon ton üzüm yetişdirmək səviyyəsinə qalxdıq. Bu nə demək idi? Bütün SSRİ üzrə 6 milyon ton, özü də əsas üzümçülük ölkələri Moldaviya, Özbəkistan, Türkmənistan, Gürcüstan, Ermənistan, Ukrayna hesab olunurdu. Yəni ki, üzümçülük zonası çox idi. Onların verdiyi məhsulun üçdə birini – iki milyon tona qədərini Azərbaycan verirdi.

Və bu, dərhal iqtisadiyyatı qaldırdı. Əvvəllər milli büdcənin əsas hissəsini – büdcənin 30 faizə qədərini – yüngül sənaye təşkil edirdi. 80-ci illərin əvvəlində birincilik üzümçülüyə keçdi.

Bakıda mənəvi tərbiyə üzrə Ümumittifaq yığıncaq keçirilən zaman iştirakçılar ayrı-ayrı qruplarla rayonlara gedirdilər. Mən bir qrupla Qazax rayonunda oldum. Yadımdadır ki, avtobus dayanırdı, qonaqlar avtobusdan düşüb heyrətlə üzümləri sığallayırdılar. Üzüm salxımları rəsm əsərlərini, təbloları xatırladırdı. Biz deyəndə ki, bu texniki növdür, onun şəkərliliyi isə 15, ya da 17 faizdir, onlar heyrətlənirdilər, – əgər bu texniki növdürsə, bəs onda süfrə üzümünün şəkərliliyi nə qədər olar?

Sizə maraqlı bir əhvalat danışım. Ya 1981-ci, ya da 1982-ci ildə biz qeyri-adi dərəcədə yüksək məhsul əldə etmişdik. Direklərdən asılan salxımların hər biri az qala bir kiloqram gələrdi.

Həmin bol məhsulu yığmaq vaxtı gəldi. Bütün Azərbaycan üzüm yığımında maraqlı idi, çünki hər şey bundan asılı idi. İnsanlar özlərinə ev tikir, toy edir, maşın, mebel alırdı. Onlar əvvəlki kimi şikayət etməyə növbəyə durmurdular, müdiriyyətin yanına gəlib maşın almaq üçün icazə istəyirdilər, ya da ki, belə deyirdilər: «Qızımı ərə

verirəm, mebel lazımdır. Ancaq mən Bolqarıstanın və ya Azərbaycanın istehsal etdiyi mebeli istəmirəm. Rumın mebeli, bəd ayaqda Yuqoslav mebeli istəyirəm». Xahişlər ancaq bu məzmunda olurdu.

Bütün bunlar isə üzümün və pambığın hesabına idi. Məhsul yığımı ərəfəsində güclü leysan yağışlar yağmağa başladı. Bir gün, iki gün, üç gün. Yağış ara vermirdi. Üzüm suyun altında qaldı. Heydər Əliyev Büro üzvlərinin iştirakı ilə yığcam yığıncaq keçirdi, Moskvadan mütəxəssisləri dəvət etdi. O vaxt bizdə artıq Üzümçülük üzrə Elmi-Tədqiqat İnstitutu yaradılmışdı, ancaq hələ ki, təcrübəli mütəxəssislərimiz az idi. Kirovabadda güclü Pambıqçılıq İnstitutu vardı, ona Siddiqə Məmmədova rəhbərlik edirdi. Üzümçülükdə isə təcrübəmiz az idi. Ona görə də Heydər Əliyev Moskvadan vəziyyətdən çıxmağın yollarını göstərməli olan mütəxəssisləri dəvət etdi:

Onlar rayonlara gedib gələndən sonra belə dedilər:

– Siz məhsulu xilas etmək istəyirsinizsə, hələ ki o suyun içindədir, onu indi yığmaq lazımdır. Su çəkilən kimi bu məhsullar dərhal çürüntüyə çevriləcək. Bu yeganə çıxış yoludur.

Yadımdadır ki, Heydər Əliyev respublika fəallarını Dzerjinski adına kluba yığıb, orada çox emosional, coşğun bir çıxış etdi. Onun sözləri həyəcan siqnalı, haray kimi səsləndi – Ana Vətən çağırır!

O dedi:

– Biz bunları öz əllərimizlə ərsəyə gətirmişik. Öz əməyimizin nəticələrini görməliyik. Bizə məhsulu xilas etməyin yeganə yolunu göstəriblər. Leysan yağışın altında da olsa, hələ ki, üzümlər suyun içindədir, onları yığmaq lazımdır.

O elə danışırdı ki, aradan 20 il keçəndən sonra da onu xatırlayanda tüklərim biz-biz durur. O, xahiş edir, yalvarırdı ki, insanlar onu başa düşsünlər və bütün mümkün olan şeyi etsinlər.

Zalda briqadirlər, kolxoz sədrləri, partiya fəalları oturmuşdular. Onun çıxışından sonra baş verənləri gərək öz gözlərinizlə görəydiniz! Elə həmin gecə hamı plantasiyalara çıxdı – kimi qayıqlarda, kimi plaş geyərək, kimi plaşsız, kimi uzunboğaz çəkmə ilə, kimisi mizin üstündən müşəmbəni başına çəkərək üzümlüklərə səpələndilər.

Məhsulu xilas etdilər. Bu nə isə qeyri-adi bir şey idi. Onda möhtəşəm təşkilatçılıq, kütlələri arxasınca apara bilmək qabiliyyəti vardı».

Leysan yağış altında qəhrəmanlıq dastanı – üzüm yığımı barədə Zakir Abdullayev də söhbət açdı:



– Neçə gündən bəri yağan leysan yağışların yaratdığı daşqın zamanı Dzerjinski adına klubda üzümçülük rayonlarının başçıları və bir çox iri təsərrüfat rəhbərlərinin iştirakı ilə yığıncaq keçirildi. Qərara gəldilər ki, yağış altında da olsa üzümü son kiloqramına qədər yığmaq lazımdır, gözümüzün qarşısında məhsulun çürüməsinə yol vermək olmaz. Heydər Əliyev dərhal qayıq, rezin uzunboğaz çəkmələr ayırmaq, insanlar üçün polietilendən baş örtüklü plaşlar hazırlamaq barədə göstəriş verdi.

Heydər Əliyev ən ağır anlarda insanların zəif damarını tutmağı, onların qəlblərinə yol tapıb, səfərbər etməyi bacarırdı. Həmin yığıncaqda o həm kəskin, həm həyəcanlı, həm də tələbkarlıqla danışırdı. Və onun çıxışı bütün respublikanı ayağa qaldırdı.

Üzümün hamısını yığdılar, yaxşı məhsul toplandı».

70-ci illərdə Mərkəzi televiziyanın Azərbaycan üzrə xüsusi müxbiri olan tanınmış jurnalist Mais Məmmədov xatırlayır:

«Yaxşı yadımdadır, SSRİ kənd təsərrüfatı nazirinin müavini Heydər Əliyevə danışırdı ki, o gürcüləri Azərbaycanın üzüm istehsalında onları tezliklə ötüb keçəcəyi barədə xəbərdar edib. Onlar gülüb bəyan ediblər ki, Azərbaycan Gürcüstanı ötüb keçsə, onda gərək Kür tərsinə axa. «Elə bu günlərdə, – deyə o sözünə davam etdi, – mən yenidən Gürcüstanda oldum, çıxış edib dedim: «Baxın, Kür əvvəlki axarı ilə axır, Azərbaycan isə sizi xeyli geridə qoyub». Bu dəfə zalda gülən olmadı. Mən belə hesab edirəm ki, onun üzümçülükdə qazandığı uğurlar respublikanın bütövlükdə iqtisadiyyatına güclü təkan oldu»[22].

**Fəttah Heydərovun söhbətindən:**

«O dövrdə Naxçıvanın bir sıra rayonlarında ənənəvi olaraq üzümçülük inkişaf edirdi. Digər rayonlarda üzüm yox idi. Üzüm tənəyi defisit sayılırdı. Sahəni Naxçıvanda və bütün Azərbaycanda qaldırmaqla Heydər Əliyev bu defisiti həmişəlik aradan qaldırdı.

Mən özüm şahidiyəm ki, vaxtilə apteklərdə piştaxta altından satılan qlükozanı daha alan olmadı, çünki çoxlu üzüm yetişdirilirdi. Həmin uşaqlar və qocalar bütün il boyu onlara lazım olan qlükoza normasını meynədən alırdılar. Üzümçülük kənd təsərrüfatının olduqca gəlirli sahəsidir, pambıqçılıqdan qat-qat gəlirli sahə. Adamların əlinə pul gələndən sonra onlar artıq bir-birini didmir, dalaşmırdılar, əksinə, birləşib mehribanlaşırdılar. Kolxozçular qazandıqları pula

maşın alır, ev tikir, bağ salırdılar. İnsanların abad və məhsuldar həyətyanı sahələri meydana gəlməyə başladı».

**Lənkəran şəhər partiya komitəsinin keçmiş birinci katibi İsa Məmmədovun xatirələrindən:**

«Heydər Əliyev iqtisadiyyatdan yaxşı baş çıxarır və duyurdu. MK katibi işləyərkən mən buna dəfələrlə əmin olmuşdum. Misal üçün, məlumdur ki, o illərdə Azərbaycan yüz minlərlə ton pambıq yetişdirirdi. Ancaq 70-ci illərin əvvəllərində toxuculuq sənayesi, demək olar ki, mövcud deyildi. Ona görə də Heydər Əliyev ilk növbədə pambıq emalını inkişaf etdirməyə başladı. Nəticədə xalqın min bir əzabla yetişdirdiyi pambıq ona gəlir gətirməyə başladı. Respublikada yeni toxuculuq fabriklərinin, kombinatlarının açılması kənd əhalisini işlə təmin etməyə, onların həyat səviyyəsini yüksəltməyə şərait yaradırdı.

Və ya götürək Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən üzümçülük sahəsinin güclü inkişafını. Burada da çox incə siyasət yürüdülürdü. Əvvəla, iqlim üzümçülüyün geniş inkişafına imkan yaratmışdı. İkincisi, üzüm tez korlanan məhsul olduğundan, respublikanın özündə emal sənayesinin inkişafı da məntiqə uyğun olardı. Ümumiyyətlə, Heydər Əliyev kənd təsərrüfatı üçün keyfiyyətcə yeni, müasir əsaslarla emal sənayesinin inkişafına böyük diqqət yetirirdi. Bircə nümunə gətirim: o illərdə rayonlarımızda 40-dan artıq şərabçılıq zavodu inşa edilib istehsalata təhvil verilmişdi. Beləliklə də, Azərbaycan xammal istehsal edən respublikadan hazır məhsul ixrac edən respublikaya çevrilmişdi. Yerli əhali isə əməyi müqabilində ikiqat, üçqat gəlir götürməyə başladı.

Bu gün bəziləri 70-ci illəri durğunluq illəri adlandırırlar. Bunun bütövlükdə SSRİ üçün nə dərəcədə düzgün olduğunu deyə bilmərəm. Bircə onu bilirəm ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər iqtisadi inkişaf və güclü sosial tərəqqi illəri idi. Sözümün təsdiqi üçün belə bir misal gətirim: həmin illərdə iqtisadi artım Ermənistanda 3%, Gürcüstanda isə 2% təşkil edirdisə, respublikamızda 9-10% təşkil edirdi»[23].

Kitabımızın üçüncü hissəsində biz Qorbaçovun məşhur antialkoqol kampaniyasının Heydər Əliyev üçün necə zərbə olduğundan və onun respublikadakı üzümlüklərin məhv edilməsinə qarşı necə müqavimət göstərməsindən danışacağıq. Mən təsəvvür edirəm, onun üçün bu qədər ürək ağrısı, yuxusuz gecələr, xalqın milyardlarla vəsaiti və ölçüyəgəlməz miqdarda insan zəhməti hesabına ərsəyə gəlmiş bir işin məhv edildiyini görmək nə dərəcədə ağır idi. Əminəm ki, üzüm tənəklərinin məhv edilməsi ilə bağlı qeyri-insani aksiya onun ürəyində acı izlər buraxmaqla «yenidənquranların» tutduğu yolun düzgünlüyünə dərin şübhə oyatmışdı.



## «Nikitinin tövləsində gecələmək olar»

SSRİ-də heyvandarlıq daima geridə qalırdı, bütün ölkədə ət qıtlığı mövcud idi. Xruşşovun kolxozçuların şəxsi mal-qarasını ləğv etmək eksperimenti uzun müddət özünü göstərməkdə davam etdi. SSRİ Nazirlər Sovetinin sədr müavini V.Novikov o dövrü belə xatırlayır:

«Şəxsi mal-qara, xüsusilə də inəklər üç il ərzində hissə-hissə kolxoz və sovxoz sürülərinə təhvil verildi, əslində kəndlilər onları kəsdilər. Milyonlarla baş mal-qara tələf edildi. Yem bazasının kasadlığı, tövlələrin bərbad vəziyyətdə olması, mal-qaranı təhvil vermə şərtlərinin kəndlilər üçün əlverişli olmaması üzündən nə kolxozlar, nə də sovxozlar bu qədər mal-qara qəbul edə bilmədilər. Kəndlilərə mal-qaranı kəsib, ətindən özlərinin istifadə etməsi və ya bazarda satması daha mənfəətli idi»[24].

Azərbaycana rəhbərlik etdiyi bütün dövr ərzində Heydər Əliyev ictimai heyvandarlığın səviyyəsini qaldırmağa çalışdı, xüsusi plenumlar və yığıncaqlar keçirtdi, bu sahənin geridə qalmasını kəskin tənqid etdi. Əlbəttə ki, heyvandarlığı bütünlüklə xüsusi mülkiyyətə vermək barədə düşünmürdü, ancaq xüsusi mülkiyyətçiliyin əleyhinə də deyildi, əksinə, yüksək partiya tribunalarından kolxozçuları şəxsi həyətyanı təsərrüfatlarını inkişaf etdirməyə, dövlətə əhalini ət-süd məhsulları ilə təmin etməkdə köməkçi olmağa çağırırdı. Halbuki bu çağırışlar kənd təsərrüfatı istehsalının səmərələşdirilməsi və heyvandarlığın yem bazasının azaldılması siyasəti ilə ziddiyyət təşkil edirdi. Sonralar Heydər Əliyev özü etiraf edirdi ki, o vaxtlar Azərbaycan SSRİ çərçivəsində əmək bölgüsünə, artan pambıq, üzüm, tərəvəz tədarükü əvəzinə respublikaya heyvandarlıq məhsullarının da böyük həcmdə gətiriləcəyinə ümid bəsləyirdi. Ancaq onun ümidləri doğrulmadı:

«1978-1979-cu illərdə biz məsələni ittifaq rəhbərliyi qarşısında çox kəskin şəkildə qoyduq: siz bizə yardımın həcmini artırmasanız, biz pambıq əvəzinə taxıl əkəcək, heyvandarlığı gücləndirəcəyik. Ancaq bizimlə razılaşmadılar».

80-ci illərin əvvəlində ölkədə iqtisadi böhranın dərinləşməsi və əhalinin ərzaq təminatının pisləşməsi ilə əlaqədar Heydər Əliyev respublikada heyvandarlığın və yem bazasının inkişafı məsələsini kəskin şəkildə qoymaq məcburiyyətində qalacaq. Bununla bağlı onun İsmayıllı rayonunun Kalinin adına məşhur milyonçu kolxozuna səfəri çox maraqlıdır.

1981-ci il iyulun 24-də Heydər Əliyev həmin kolxoza gedib, ona Qırmızı Əmək Bayrağı ordenini təqdim etdi. O vaxt təsərrüfata Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan Kommunist Partiyası MK-nın, respublika Ali Soveti Rəyasət Heyətinin üzvü Nikolay Vasilyeviç Nikitin fasiləsiz olaraq 30 ilə yaxın idi ki, rəhbərlik edirdi.

* * *

Azərbaycanın digər rus kəndləri kimi, İvanovka kəndinin tarixi də XIX əsrin 30-40-cı illərinə gedib çıxır. Hökumətin 1806, 1825, 1826-cı illərin qəddar tədbirlər silsiləsindən sonra (hətta «subbotniki» adı altında yəhudi sektasının yayılmasının qarşısını almaq tədbirləri haqqında» sinodun fərmanı da çıxmışdı) öz «ziyanlı vərdişindən» əl çəkməyən şəxsləri Sibirə və Qafqaza sürgün etməyə başladılar. Həştərxan və Saratov qubernıyalarından duxlborları, molokanları, Stavropoldan subbotnikləri, gerləri sürgün edirdilər. Rusların XX əsrin əvvəlində təkcə molokanların yüzdən artıq kəndi olan Azərbaycan torpağına köçürülməsi daha sürətlə aparılırdı.

İkinci köçürülmə dalğası Stolıpinin aqrar siyasətinin əsas həlqələrindən biri oldu. 1908-1912-ci illərdə Qafqaza köçürülən 8 min 326 ailədən 4 mindən çoxu indiki Azərbaycanın Yelizavetpol və Bakı qubernıyaları ərazisində yerləşdirildi. Kəndlilərdən çoxusu Muğan düzünün məhsuldar rayonlarında məskunlaşdı. Onlar köç saldıqları yerlərə çox vaxt doğma yurdlarının adlarını verirdilər. Belə ki, Azərbaycanın Lənkəran qubernıyasının Prişib kəndinin (hazırda Cəlilabad rayonunun Göytəpə kəndi) ilk sakinləri Həştərxan qubernıyasının Tsarevsk uyezdinin Axtuba çayı sahilindəki eyniadlı kənddən köçüb gəlmişdilər. XIX əsrin 40-cı illərindən sonra Prişibin ətrafında rus kəndləri peyda olmağa başladı: Privolnoye, Astraxanovka, Pokrovskoye, Andreyevka, Arxangelovka və s.

Rus xalqının ən gözəl ənənələrini əsrlər boyu qoruyub saxlayan «adaları» Azərbaycanın hər yerinə səpələnmişdi, onlardan bir çoxu da İsmayıllı rayonunda yerləşdirilmişdi. Ancaq onlardan nəinki Azərbaycanda, elecə də bütün keçmiş SSRİ-də ən məşhurları Kalinin adına kolxozda cəmləşmiş molokan köçkünləri idi. Heydər Əliyev bu kolxoza, elə əsasən rus əhalisi işləyən digər təsərrüfatlara da həmişə xüsusi diqqətlə yanaşırdı, Nikolay Nikitini isə hamının yanında özünün dostu adlandırırdı. Bu, əbəs yerə deyildi.



Şahidlərin xatirələrinə görə İvanovka kolxozçularının uğuru həyatda çox şeylərlə üzləşmiş MK-nın birinci katibini də heyrətləndirirdi. İnəkləri 4-5 min kiloqram süd verən fermaları, hektarından 48 sentner məhsul yığılan sahmanlı tarlaları (baxmayaraq ki, Kalinin adına kolxoz suvarılan torpaqlar zonasına daxil olmamışdı), stadionu, mehmanxanası, xəstəxanası, Məişət evi və univermağı, ticarət mərkəzi və uşaq bağçası olan şəhər tipli abad qəsəbə. Həmin il Nikitin 700 yerlik tamaşa zalı olan möhtəşəm Mədəniyyət sarayı tikdirirdi. Heydər Əliyev tikintinin gedişi ilə tanış oldu. Hələ kalininçilərin zavodlarını demirik. Onların özlərinin asfalt-beton zavodu, kərpic, ağac emalı sexi, mişarlama dəzgahları vardı. Beləliklə, digər kəndlərdə tikintini əngəlləyən məsələlər İvanovka üçün artıq keçilmiş mərhələ idi.

Heyvandarlıq fermalarının, bütövlükdə kompleks ərazisinin vəziyyəti: yemləmə məntəqəsi, süni mayalanmanın təşkili, fermada istehsal proseslərinin mexanikləşdirilməsinin yüksək səviyyəsi, maşınla sağım – kalininçilərə kəmiyyət və keyfiyyətcə yüksək sağımı təmin edən hər bir şey Heydər Əliyevdə xüsusi fərəh hissi doğurdu. O, seminardakı çıxışında qeyd etdi ki, «biz hiss etdik ki, burada heyvandarlıqda və yem istehsalında çalışanlar öz işlərinə necə məhəbbətlə, həvəslə, təşəbbüskarlıqla yanaşırlar, öz işlərini necə dərindən bilirlər».

Heydər Əliyev özü professional və işinə həddən artıq məsuliyyətlə yanaşan adam idi. Burada, Kalinin adına kolxozda o özünə bənzər insanlara rast gəlmişdi. Odur ki, açıq-açığına sevinirdi.

Ertəsi gün Kalinin adına kolxozda kənd təsərrüfatı nazirlik və idarələri nümayəndələrinin, alimlərin, heyvandarlıq və yem istehsalı məsələləri ilə məşğul olan mütəxəssislərin iştirakı ilə rayon rəhbərlərinin respublika seminar-müşavirəsi keçirildi. Seminarın əsas məqsədi kalininçilərin heyvandarlıq və yem istehsalının inkişafı sahəsindəki müsbət təcrübəsini bütün respublikaya yaymaq idi.

Vladimir Morozkov xatırlayır ki, seminarı açan Nikitinin bir neçə kəlməsindən sonra Heydər Əliyev onun sözünü kəsdi:

– Nikolay Vasilyeviç, elə birbaşa sirrinizi açın görək, necə olur ki, siz dövlətə respublika üzrə orta hesab olunandan az qala ikiqat artıq çəkidə – 500 kiloqram ağırlıqda danalar təhvil verirsiniz?

– Çox sadəcə, Heydər Əliyeviç, – deyə Nikitin bic-bic gülümsünərək cavab verdi, – heyvanları yemləmək lazımdır.

Bu kolxoza yaxşı bələd olan mütəxəssislərin dediyinə görə, digər təsərrüfatlarımız yem ehtiyatını yaza qədər güc-bəla ilə çatdırdığı halda, onların ehtiyatı 5-6 il sonraya da bəs edərdi. Bundan əlavə, İvanovkada iribuynuzlu heyvanların yem rasionu üçün zəruri olan 12 komponentdən 10-nu özləri istehsal edir, yalnız ikisini kənardan alırdılar.

*Mərkəzi televiziyanın xüsusi müxbiri Mais Məmmədov MK-nın birinci katibini bu səfərdə müşayiət edən jurnalistlərin arasında idi. Kalinin adına kolxoza getmələri barədə o mənə bunları danışdı:*

*«Heydər Əliyev işləməyi bacaranları, hamıdan fərqli düşünənləri, sözün əsil mənasında təsərrüfatçı olanları çox xoşlayırdı. Elə götürək həmin Nikitini.*

*Onun Nikitinə böyük rəğbəti vardı, odur ki, onun üçün, onun təsərrüfatı üçün çox iş görmüşdü. Hər il Nikitinin kolxozundan beş nəfər respublikanın ali məktəblərinə müsabiqədən kənar qəbul olunurdu. Bunu Heydər Əliyev onun üçün edirdi ki, molokanlar köçüb getməsinlər, burada daha möhkəm məskunlaşsınlar, özlərini Azərbaycan vətəndaşı kimi hiss etsinlər.*

*Bir dəfə Heydər Əliyev ora gedib, geniş yığıncaq çağırdı, bu dağ təsərrüfatının sabit uğurlarının səbəbini aydınlaşdırmağa çalışdı.*

*– Mənə izah edin görək, – deyə o digər kolxozların rəhbərlərindən soruşdu. – Eyni iqlim, eyni torpaqdır. Bəs niyə Nikitin bu qədər məhsul yığır, siz isə bu qədər? Niyə Nikitinin inəklərinə baxanda adamın həvəsi gəlir, sizinkilər isə zibillikdə eşələnirlər? Nəyə görə?*

*Bu səfərdən sonra bəzilərinin başı ağrıdı.*

*Orada mən ilk dəfə gördüm ki, Heydər Əliyev masa arxasında oturdu, özü də ayrıca yox, onunla gələnlərin hamısı ilə və yerli camaatla birlikdə. O yerli nemətlərdən nuş-canlıqla dadandan sonra Nikolay Vasilyeviçə dedi:*

*– Nikitin, deyirlər, səndə yaxşı araq var.*

*O vaxtlar araq çəkmək qadağan idi, qanunu pozmaq demək idi.*

*– Xeyr, Heydər Əliyeviç, – Nikitin mızıldadı, – biz... bax... bunun özünü...*

*Hamı qulaqlarını şəkləmişdi: Heydər Əliyev araq içəcək?*

*– Bəsdir özünü təmizə çıxardın. Gətir görək.*

*Süfrəyə bir neçə şüşə araq qoydular. İçdilər. Heydər Əliyev dedi:*



*– Çox gözəl araqdır. Amma görünür, bizdən gizlədib özünə saxlayırsan?*

*Məclisin gərginliyi sovuşdu. Arağı birağızdan tərifləməyə başladılar: «Afərin, Nikitin, əla araqdır».*

*Yadımdadır ki, Heydər Əliyev həmin məclisdə demişdi:*

*– Nikitin, sizdəki hər şey mənim xoşuma gəlir – sənin işləməyin də, yeməyin də, içməyin də. Hamınıza deyirəm: bu möcüzə bizim Azərbaycandadır. Bura Hollandiya deyil. Nikitinin tövlələri elə təmizdir ki, orada hətta gecələmək də olar. Peyin iyi gəlmir. Yaxşı, yaxşı, iştahınızı korlamayım, yeyin...»*

*MK-nın birinci katibinin mühafizəçisi Aleksandr İvanov təsdiq edir ki, Heydər Əliyev yalnız xüsusi rəğbət bəslədiyi adamın evində yemək yeyə bilərdi. «Deyək ki, Nikitinin evində. Və ya məşhur kombaynçı vardı, Sosialist Əməyi Qəhrəmanı Tərlan Musayeva. Bu qəhrəmanları, axı, o özü yetişdirmişdi. Onların yanına öz dostlarının yanına gəldiyi kimi gələrdi, evlərinə də gedə bilərdi. Adətən isə, təsərrüfatları gəzəndə masaya yaxınlaşmaz, hətta çay da içməzdi. «Bu, jurnalistlər üçündür, gedin, için». Ya da ayrıca oturar, biz ona bir stəkan çay və ya Borjomi suyu verərdik, o içərdi – vəssalam. Hamının yanında isə yeməzdi. Yeməyini vaqonda yeyərdi.*

*Heydər Əliyev yemək məsələsində tələbkar deyildi, çox sadə qidalanırdı. Səhər yeməyinə adətən kəsmiklə bal, manna sıyığı, qoz ləpəsi, kişmiş və südlü çay verirdilər. Nahara bir tikə suda bişmiş ət olurdu. Yağda qızardılmış tərəvəzi – pomidor, badımcan, bibəri çox xoşlayırdı, yeməyi onun üçün vaqonun mətbəxində hazırlayırdılar. Ətsiz borş yeməyi xoşlayırdı. Xüsusilə axşamlar qızardılmış balıq yeyirdi. Bax, onun yeməyi bundan ibarət idi».*

1982-ci il martın 5-6-da Azərbaycan KP MK-nın heyvandarlığın gələcək inkişafına və onun yem bazasının möhkəmləndirilməsinə dair respublika partiya təşkilatının vəzifələrinə həsr olunmuş plenumu keçirildi. Bu plenuma böyük hazırlıq işləri görülmüşdü: respublikanın heyvandarlıqda və yem istehsalında işlərin vəziyyətinə cavabdeh olan bütün partiya komitələrində və təşkilatlarında iclaslar və fəallar yığıncaqları keçirildi, bu problemlər mətbuatda, radio və televiziya verilişlərində müzakirə olundu, respublika zəhmətkeşlərinin rəy və təkliflərindən ibarət 3 minə yaxın məktub alındı. Əldə olanları ümumiləşdirərək və problemi ətraflı öyrənərək başda Heydər Əliyev olmaqla MK onu plenumun gündəliyinə çıxartdı.

Plenumda irəli sürülən əsas vəzifə – istehsal səviyyəsi ilə respublika əhalisinin ət və süd məhsullarına faktiki tələbatı arasındakı uyğunsuzluğu azaltmaq üçün heyvandarlığın səmərəliliyini yüksəltmək idi. Plenumdan sonra bu sahənin inkişafı və respublikanın ümumittifaq təchizatından asılılığını azaltmaq üzrə bir sıra konkret tədbirlər görüldü.

## Ümumittifaq «bostanı»

Heydər Əliyev ilk illər pambıq, bir qədər sonra isə üzüm yetişdirməyə üstünlük versə də, Azərbaycanın müəyyən bitki növü yetişdirmək sahəsində ixtisaslaşan respublikaya (Özbəkistan kimi) çevrilməsinə mane olmağa çalışırdı, kənd təsərrüfatının ən müxtəlif sahələrində istehsalın yüksəldilməsini təmin etməyə can atırdı.

1973-cü il avqustun 21-də Sov.İKP MK-nın katibliyi Heydər Əliyevin «Azərbaycan Kommunist Partiyası MK-nın Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 27 mart 1970-ci il tarixli «Kartof, tərəvəz və meyvə tədarükünün yaxşılaşdırılması, istehsalının artırılması və əhalinin bu məhsullarla təmin olunması tədbirləri haqqında» qərarının yerinə yetirilməsi üzrə təşkilati işləri barədə» hesabatını dinlədi.

Tezliklə Sov.İKP MK-nın Azərbaycan üzrə qərarı çıxdı. Adəti üzrə hesabatdan və qərardan qabaq bu sahələrin inkişafında mövcud olan problemləri yerində öyrənmək üçün Sov.İKP MK işçilərindən ibarət böyük bir briqada respublikaya gəldi. Nəticədə Moskva Azərbaycan qarşısında respublikada nəhəng ümumittifaq faraş və istiliksevən tərəvəzlərin istehsalı bazasını yaratmaq vəzifəsi qoydu. Bu isə respublikaya yeni maliyyə axını demək idi.

Bu barədə 1973-cü il noyabrın 20-də keçirilmiş plenumda Heydər Əliyev özü belə dedi:

«Plenuma məlumat vermək istəyirəm ki, hesabatımızın Sov.İKP MK Katibliyinin yığıncağında müzakirəsi zamanı biz tərəvəzçiliyin inkişafı ilə bağlı və ittifaq orqanlarından asılı olan bir sıra məsələləri həll etmək xahişilə müraciət etdik. Sov.İKP MK xahişimizə müsbət yanaşaraq SSRİ-nin müvafiq nazirlik və idarələrinə tapşırdı ki, bizim təkliflərimizə baxıb respublikaya maksimal köməklik göstərsinlər. Bu günlərdə nümayəndələrimizin iştirakı ilə bu məsələyə baxıldı. Nəticədə müvafiq sərəncamlar layihəsi hazırlanıb SSRİ Nazirlər Sovetinə təqdim olunmuşdur. Həmin layihədə meyvə-tərəvəz tədarükü və emalı maddi-texniki bazasının inkişafı və respublikada yerləşdirilməsi sxeminin işlənib-hazırlanmasının başa çatması, sərmayə qoyuluşunun həcmi, yeni istehsal obyektlərinin tikintisi, müasir avadanlıq və maşınlarla təchizat və s. məsələlərlə bağlı əməli tədbirlər nəzərdə tutulmuşdur».



O illərdə respublikanın xalq təsərrüfatındakı problemlərinin həllinə ittifaq orqanlarının nəzərini cəlb etmək üçün Heydər Əliyevin atdığı bu cür qeyri-standart addımları qiymətləndirməmək mümkün deyil. 70-ci illərdə Lənkəranda işləmiş Milli Məclisin deputatı Hadi Rəcəbli ölkədə heyrət doğuracaq kəskin dəyişiklikləri belə xatırlayır:

«Əvvəla, Lənkəran ümumittifaq «bostanı»na çevrilmişdi. Bunun üçün külli miqdarda sərmayə qoyuluşu, əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirmək bacarığı, partiya-təsərrüfat aparatının bütün halqalarının gərgin işləməsi lazım idi. Azərbaycan KP MK plenumları, misal üçün, tərəvəzçilik üzrə qərarlar qəbul edirdi. Bu qərarların yerinə yetirilməsi üçün çoxlu maliyyə vəsaiti tapmaq, yetişdirilmiş məhsulun emalını təşkil etmək tələb olunurdu. Heydər Əliyevin şəxsiyyəti, öz təkliflərini əsaslandırmaq bacarığı, Moskva qarşısında qoyduğu məntiqli tələbləri Azərbaycana əlavə maliyyə ayrılması ilə nəticələnirdi. Nəticədə biz Rusiyaya faraş tərəvəz göndərməklə nəinki kənd təsərrüfatı məhsulları istehsalını, həm də sənaye emalını inkişaf etdirmiş olurduq.

Lənkəranın kəndləri simasını göz önündə dəyişirdi. Hər tərəfdə yeni binalar ucaldılır, hər bir yaşayış məntəqəsində Məişət evi, pansionatlar, idman qurğuları inşa edilirdi, kəndlər yüz faiz qazlaşdırılmışdı. Bütün bunlar tərəvəzçiliyin inkişafı hesabına baş verirdi.

Heydər Əliyev Moskvada bu və ya digər iqtisadi layihələri təqdim edərkən, bu layihəyə eyni zamanda infrastruktur məsələlərini, kənd yollarının, məktəb və xəstəxanaların inşasını da daxil edirdi. Beləliklə, kəndin yüksəlişi iki istiqamətdə gedirdi: birinci – iqtisadi cəhətdən, ikincisi isə kəndin sosial-mədəni siması dəyişirdi. O vaxtlar haqqında çox danışılan şəhərlə kəndin yaxınlaşması məsələsi baş verirdi».

Lənkəran şəhər partiya komitəsinin keçmiş birinci katibi Dilruba Camalova mənimlə söhbəti zamanı Sibirdən, Uzaq Şimaldan, Rusiyanın digər regionlarından necə faraş tərəvəz dalısınca Lənkərana gəlmələrini, onun kabinetində əlavə vaqon tərəvəz üçün necə mübarizə apardıqlarını həsrət hissi ilə xatırlayır:

«Sovetlər dönəmində Lənkəranı əbəs yerə «ümumittifaq bostanı» adlandırmırdılar ki, – deyə «müəllimə» gülümsünür. – Otağımda xüsusi xəritə asılmışdı. Orada bizim məhsullarımızın istehlakçıları

olan şəhərlər dairəyə alınmışdı. Həmin dairələrin sayı mindən artıq idi».

Dilruba xanım mənə maraqlı bir əhvalat danışdı. Onun söhbətində partiya liderinin regionların problemlərinə qeyri-adi, hədsiz qayğısı və diqqəti güzgü kimi əks olunub:

«1982-ci ildə bizdə daşqın oldu. Bax, onda mən onun qayğısını öz üzərimdə hiss elədim.

Sentyabrın 30-da leysan başladı. Cəmisi bir saatın ərzində şəhərdə suyun səviyyəsi 60 santimetr qalxdı. Astara rayon komitəsinin birinci katibi Çingiz Fərəcov Bakıya zəng vurub daşqın haqqında məlumat verdi. Ancaq o vaxt Heydər Əliyev Moskvada idi. Ona görə də Fərəcov sözünü MK katibləri İsa Məmmədova və Kamran Bağırova dedi. Mənsə gördüm ki, vəziyyət elə də ağır deyil ki, hay-küy qaldırım. Raykom katiblərini, icra hakimiyyəti sədrlərini topladım. Fövqəladə hallar üzrə komissiyanın üzvlərinin hamısını çağırmağı, zəruri texnikanı hazırlamağı tapşırdım. Dəhşətli yağış yağırdı. Su zirzəmilərə dolub kommunikasiya xətlərini korladı, beş körpünü, digər qurğuları uçurtdu. Yerli müəssisələrə, fabrik və zavodlara böyük ziyan dəydi. Respublikanın qalan hissəsi ilə rabitə kəsilmişdi.

Biz vəziyyəti öyrənmək üçün şəhərə çıxdıq. Su birmərtəbəli evləri basmış, insanlar ev-eşiklərindən məhrum olmuşdular. Biz sakinləri məktəblərə, yataqxanalara köçürtməyə başladıq... Mən Astara tərəfə getməyə cəhd göstərdim. Çətinliklə körpünü keçdik, qorxurduq ki, o da uça bilər, çünki sel çox güclü idi. Şəhərin harada, dənizin harada olduğunu ayırd etmək çətin idi. Yalnız «Niva» maşınında və «vezdexod» avtomobildə getmək olurdu.

Kamran Bağırov zəng vurub təklif etdi ki, Zaqafqaziya Hərbi Dairəsi ilə əlaqə saxlayıb hərbçilərdən kömək istəyək.

– Onlar mənə lazım deyil, Kamran Mamedoviç, – dedim. – Mən artıq sərhəd diviziyasını ayağa qaldırmışam. Onların «vezdexod»ları şəhərin küçələrindədir, diviziya komandiri və sərhəd dəstəsinin rəisi mənim yanımdadır və biz hamımız birgə işləyirik.

– Afərin, – deyə o cavab verdi. – Əgər kömək lazım olsa, mənim adımdan tələb edə bilərsən.

Heydər Əliyev təyyarə ilə uçub Bakıya gələn kimi, hər şey barədə ona məlumat verdilər, o birbaşa hava limanından mənə zəng vurdu. Mən isə kabinetdə deyildim, şəhərdə idim. Məni DTK vasitəsilə axtarmağa başladılar. DTK-nın rəisi də mənimlə birgə idi, ikimiz də təpədən-dırnağa qədər su içində idik. Məni tapıb dedilər ki,



Heydər Əliyev sizi axtarır. Dərhal maşına minib, kabinetimə gəldim və MK-ya zəng vurdum.

– Eşidirəm, Heydər Əliyeviç.

O şəhərdəki vəziyyət barədə sorğu-sual etməyə başladı. Mən hər şey barədə məlumat verdim.

– Sənə nə kömək lazımdır?

– Mən bütün imkanlardan istifadə etmişəm.

– Sənə kim kömək edir?

Mən hamının adını çəkdim.

– Kim onlara göstəriş verib?

– Heç kim. Özüm onlara müraciət etmişəm.

Hava limanından Bakıya çatan kimi o təcili olaraq Büro üzvlərini, MK katiblərini yığıb onların «aşının suyunu verdi».

– Qadın mənimlə danışanda hiss etdim ki, onun ürəyi necə əsir. O isə məni qorxutmamaq üçün deyir: «Narahat olmayın, biz hər şeyi təşkil etmişik, hər yerdə insanlar əlləşib-vuruşur, suyu axıtmaq üçün xəndək qazırlar». Mən ona qulaq asıb qadının mərdliyinə heyrət etdim. Siz isə burada oturub bekarçılıqdan milçək qovursunuz.

Bir qədər əvvəl İsa Məmmədov mənə zəng vurub əmr etmişdi ki, hay-küy salmayım:

– Elə bir şey olmayıb, Lənkəranda həmişə çox yağış yağır.

– Sizin vaxtınızda belə yağış olmamışdı, – deyirəm, – bircə dəfə 1966-cı ildə olmuşdu. Siz belə leysan görməmisiniz. İkincisi də, sizə mən yox, Çingiz Fərəcov zəng vurub. Mən sizdən heç bir şey istəmirəm, özüm öhdəsindən gələrəm.

Xülasə, Heydər Əliyev onları möhkəm danlayıb.

– Niyə kömək etməmisiniz, maraqlanmamısınız? Niyə siz heç bir şey bilmirsiniz? Niyə mənim öyrəndiklərimdən sizin xəbəriniz yoxdur?

Nəhayət, mənə dedi:

– Sənin yanına Əliş Ləmbəranski başda olmaqla on səkkiz nazir və komitə sədri göndərirəm. Onlardan nə istəyirsənsə, tələb et, dağılanları bərpa etməyə məcbur et. Onlar mənim kabinetimdədirlər və söhbətimizi eşidirlər. Özlərini kişi hesab edirlər. Görürlər ki, qadın suda boğulur, birinin kişiliyi çatmayıb ki, köməyə gəlsin.

– Su artıq enir, Heydər Əliyeviç. Hər şey tədricən qaydaya düşür.

– Onlar dərhal vertolyotla gəlirlər. – Mən ona məlumat vermişdim ki, su beş körpünü uçurub. – Təcili olaraq onları bütün körpüləri və qalan obyektləri təmir etməyə məcbur elə.

Aradan iki saat keçdi, böyük bir nümayəndə heyəti gəldi. Mən onları aparıb hər şeyi göstərdim. Heydər Əliyevin köməyi sayəsində bütün evlər, müəssisələr, körpülər az vaxtda bərpa olundu.

O vaxtdan mən heç bir nazirin qapısını döyməmişəm. Zəng vurmağım kifayət idi, hər şey telefonla həll olunurdu.

Heydər Əliyev Moskvaya gedəndən sonra da onun sözləri qüvvədə qalmışdı. Kimə zəng vururdumsa, bu sözləri eşidirdim:

– Dilruba xanım, indicə həll edərik.

Mən belə hesab edirəm ki, bu, ona olan böyük hörmətin, rəğbətin təzahürü idi.

Daşqından sonra o mənə zəng vurub dedi:

– Mənə hər həftə zəng vurub, öz problemlərindən danış».

## Rayonlara səfərlər

Jurnalist həmkarlarım və yazıçılarla, keçmiş partiya işçiləri, eləcə də birinci katibin mühafizəsini təmin edən insanlarla söhbətlərin hesabına mən Heydər Əliyevin 70-ci illərdə Azərbaycanın rayonlarına səfərləri, pambıq və taxıl tarlalarına, çay və üzüm plantasiyalarına, meyvə bağlarına, heyvandarlıq fermalarına baş çəkməsi, kolxozçularla ünsiyyəti, rayon və zona müşavirələri keçirməsi barədə həqiqətən nadir materiallar toplamağa nail oldum. Bu, raykom katiblərindən tutmuş briqadirlərə və manqa başçılarınadək ən müxtəlif zümrələrin cəlb olunduğu, həqiqətən canlı dövlət idarəçiliyi məktəbi idi. İdarəetmənin psixologiyasına dərindən bələd olan Heydər Əliyev hökumətin kütlələrlə, xalqla əlaqəsinin rolunu və əhəmiyyətini yaxşı başa düşürdü. Bu, gələcək fəaliyyət istiqamətinin müəyyənləşdirilməsinə, problemlərin həlli yollarının dəqiqləşdirilməsi və göstərilməsinə təminatdır. O başa düşürdü ki, «aşağıların» rəyi ilə hesablaşmağı və ona çevik münasibət bildirməyi bacarmaq lazımdır. Odur ki, daima rayonlara səfərlər edir, müəssisələrə baş çəkir, gözlənilmədən Bakının mağazalarına girir, sakinlərlə söhbətlər edirdi.

Bir qayda olaraq rayonlara səfərlər yayın qızmar istisində və payızın əvvəlində, yəni əsas kənd təsərrüfatı bitkiləri olan üzüm və pambıq yetişən zaman təşkil olunurdu. Özü də bu, rəhbərin sadəcə rəsmiyyət xatirinə həyata keçirilən səfərləri deyildi, qızmar günəş, açıq səma altında, yüksək vəzifəsinə heç bir güzəşt olmadan üzücü, yorucu, uzunmüddətli fəaliyyət idi.



Heydər Əliyevin yalnız 1980-ci ildə rayonlara səfərlərinin salnaməsini təqdim edirik (Azərinformun bu səfərlər barədə hesabatı respublika qəzetlərində dərc olunurdu):

**İyulun 3-də** MK-nın birinci katibi rayonlara səfərə çıxıb və **iyulun 4-də** Xanlar rayonunda partiya-təsərrüfat fəallarının yığıncağını keçirib. Rayonda olduğu müddətdə Heydər Əliyev bir sıra təsərrüfatlara baş çəkib, üzüm plantasiyalarının vəziyyəti ilə maraqlanıb, kənd zəhmətkeşləri ilə görüşüb.

**İyulun 5-də** Heydər Əliyevin iştirakı ilə Cəlilabad rayonunun partiya-təsərrüfat fəallarının yığıncağı keçirilib. Əvvəllər üzümçülüyün inkişaf etmədiyi rayon bir neçə il ərzində respublikada ən iri üzüm tədarükçülərindən birinə çevrilib. Bu illər ərzində Muğan düzünün cənub sərhədlərindəki 30 min hektara yaxın üzümlük Talış dağlarının ətəklərinə yaxınlaşıb.

Üzümçülük təsərrüfatlarına baş çəkəndən sonra Heydər Əliyev şəhəri gəzdi, onun abadlaşdırılması üçün görülən işlərlə tanış oldu: yeni meydança, C.Məmmədquluzadənin abidəsi, yeni universam, bərpa edilərək yenidən qurulmuş şəhər parkı, şəlalələ fəvvarə. Birinci katib hətta yerli «Orlyonok» pioner düşərgəsinə də baş çəkdi.

**İyulun 4-də və 5-də** Xanlarda və Cəlilabadda respublikanın üzümçülük rayonları rəhbərlərinin zona müşavirəsi keçirildi. Həmin müşavirədə MK Bürosunun üzvləri, vilayət, şəhər, rayon partiya komitələrinin birinci katibləri, rayon kənd təsərrüfatı idarələrinin müdirləri, aqrar-sənaye birliklərinin baş direktorları, respublika nazirlik və idarələrinin rəhbərləri, Kommunist Partiyası MK-nın məsul işçiləri, yaradıcılıq ittifaqlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri və s. iştirak edirdi.

**Sentyabrın 5-6-da** Bərdədə və Sabirabadda Heydər Əliyevin iştirakı ilə respublikanın pambıqçılıq rayonlarının partiya-təsərrüfat fəallarının yığıncağı keçirildi. Həmin yığıncaqda pambıq yığımının qızğın çağının uğurla keçməsi üçün nəzərdə tutulmuş tədbirlər müzakirə olundu.

**Sentyabrın 11-də** Tovuz rayonunda Heydər Əliyev fəallar yığıncağı keçirdi, üzümçülərlə görüşdü, plantasiyaları nəzərdən keçirdi, Zaqafqaziyada ən iri nasos stansiyasının tikintisinə baş çəkdi.

**Sentyabrın 12-də** Şamaxıda Heydər Əliyev rayon partiya təşkilatının qarşıdakı üzüm yığımına, digər kənd təsərrüfatı işlərinin gedişinə həsr olunmuş fəallar yığıncağını keçirdi. Bundan əlavə, o bir sıra təsərrüfatları gəzdi, tarlaların, bağların və fermaların əməkçiləri ilə söhbətləşdi, onların iş və məişət şəraiti ilə tanış oldu.

**Oktyabrın 2-də və 3-də** Bərdədə və Sabirabadda Heydər Əliyevin iştirakı ilə respublikanın pambıqçılıq rayonlarının partiya-təsərrüfat fəallarının yığıncağı keçirildi.

Məşhur səyyar yığıncaqların iştirakçıları ilə söhbət zamanı məni Heydər Əliyevin xalqla ünsiyyətinin spesifik xüsusiyyətlərindən tutmuş MK-nın birinci katibinin mühafizəsinin təşkil edilməsinə qədər hər şey maraqlandırırdı. Mühafizə məsələsi ilə məni uzun illər Heydər Əliyevin mühafizə xidmətində işləmiş Aleksandr Alekseyeviç İvanov ətraflı tanış elədi.

**Aleksandr İvanovla söhbətdən:**

«Siyasi büro üzvlüyünə namizəd, Azərbaycan KP MK-sının birinci katibi Heydər Əliyevin şəxsi təhlükəsizliyi ilə Azərbaycan Respublikasının DTK-nın beşinci şöbəsinin doqquzuncu bölməsi məşğul olurdu. Onlar DTK-dan üç əməkdaş və MK xətti ilə sürücü heyətindən ibarət idi.

Uzun illər doqquzuncu bölməyə 1923-cü il təvəllüdlü, Heydər Əliyevin yaşıdı Namiq Tağızadə rəhbərlik edirdi. O hələ İmam Mustafayevlə də işləmişdi. Mən onun müavini sayılırdım.

Şəxsi mühafizə ilə biz ikimiz məşğul olurduq, qrupumuzdakı üçüncü şəxs isə təsərrüfat məsələlərini idarə edən komendant idi.

Kütləvi tədbirlərdə bizə kömək üçün Azərbaycan DTK-nın əməkdaşlarından ibarət əlavə qüvvələr ayırırdılar. DİN əməkdaşları kənarda dayanırdılar. Biz günlərlə iş başında olurduq: bir gün işdə, bir gün evdə. Hər hansı bir tədbir olanda isə, Heydər Əliyevin daima belə tədbirləri olurdu, evdə mənim üzümə həsrət qalırdılar. Rayonlara səfərlər, mədəni-kütləvi tədbirlər və s. Belə tədbirlərdə, həmin gün kimin növbədə olmasından asılı olmayaraq ikimiz də iştirak edirdik. Misal üçün, əgər Heydər Əliyev axşam Opera və Balet Teatrına gedəcəkdisə, mən qabaqcadan ora gedib DTK-nın öz planı əsasında tərtib etdiyi iş bölgüsünü yoxlayırdım: girişdə kim durub, zalda, nəzarət məntəqəsində kim olacaq, yola kim baxacaq. Vəziyyəti tam araşdırandan sonra rəisə məlumat verirdim. Əgər mən MK-da növbədə olsaydım, rəisim özü mənə məlumat verirdi ki, Saşa, hər şey hazırdır. Biz bir növ bir-birimizi tamamlayırdıq.

Rayonlara səfərlərə gəlincə, qayda təxminən belə idi: tutaq ki, Heydər Əliyev Bakı-Qazax marşrutu ilə gedəcək. Mən bir gün əvvəl gedirdim. Özümüzün «Zil-117» maşınımız vardı, çünki rayon partiya komitələri katiblərinin ixtiyarımıza verdikləri maşınlara bel

*Xalqlar dostluğu parkında iməcilik.*
*10 aprel 1973-cü il.*

*H.Əliyev "Böyük Vətən müharibəsi salnaməsi" sərgisində.*
*Ondan solda - Azərbaycanın xalq şairi Cabir Novruz.*
*30 aprel 1975-ci il.*

*Sərsəng SES-in tikintisində. 16 avqust 1975-ci il.*

*Sov.İKP XXV qurultayının nümayəndələri ilə. Fevral, 1976-cı il.*

*Xaçmaz şəhərinin sakinləri Moskvada Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd seçilmiş H.Əliyevi salamlayırlar. Mart, 1976-cı il.*

*H.Əliyev Xaçmaz dəmir yol vağzalında improvizə edilmiş qarşılanma mərasiminə təəccüb qalıb.*

*H.Əliyev xalq arasına gözlənilmədən çıxmağı xoşlayırdı.*

*H.Əliyevdən solda - K.Bağırov, sağda - A.İvanov.*

*H.Əliyev "Əks-əlaqəni" - sadə zəhmətkeşlərlə ünsiyyəti yüksək qiymətləndirirdi.*

*Kürdəmirdə. 21 iyul 1976-cı il.*

*Yevlaxda. 12 iyul 1977-ci il.*

*Ucarda. İyul, 1978-ci il.*

*Bərdədə. 25 avqust 1978-ci il.*

*MK-nın 1-ci katibi "kiçik vətənində" tez-tez baş çəkirdi.*
*H.Əliyevdən sağda - Naxçıvan vilayət partiya komitəsinin rəhbəri K.Rəhimov.*

*MK-nın 1-ci katibi kənd təsərrüfatı problemlərinin ən xırda incəliklərinə varırdı.*

*Respublikanın bütün rayonlarında H.Əliyevi ilk qarşılayanlar uşaqlar olurdu.*

*H.Əliyev dəmiryol qəzasının baş verdiyi yerdə.*
*13 sentyabr 1979-cu il.*

*H.Əliyev C.Naxçıvanski adına internat-məktəbin şagirdləri ilə. 1980-ci il.*

*Nəhayət ki, nəfəs dərmək olar... Sov.İKP MK-nın Baş katibini yola salandan sonra. Sentyabr, 1978-ci il.*

*MK-nın 1-ci katibi neftçilərlə onların "öz dilində" danışırdı. H.Əliyevdən solda - K.Bağırov və A.İvanov, sağda - F.Musayev*

*H.Əliyev KİV nümayəndələrinin əməyinə hörmətlə yanaşırdı. Rayonlara səfərləri zamanı H.Əliyevi daim mərkəzi televiziyanın xüsusi müxbiri M.Məmmədov müşayiət edirdi.*

bağlamırdıq. Mən Heydər Əliyevin əsas maşını ilə, sürücüsü ilə gedirdim.

Heydər Əliyevsə axşam qatarla çıxırdı. Səhər saat səkkizdə qatar stansiyaya yan alırdı, mənsə artıq yuyulmuş, təmiz, hazır maşınla onu gözləyirdim. Qazaxa gələn kimi, mən qabaqcadan marşrutu – Heydər Əliyevin gedəcəyi kolxozları, sovxozları, iclasın keçiriləcəyi Mədəniyyət sarayını öyrənə bilirdim. DTK ərazi şöbələri əməkdaşlarını məsul nöqtələrə paylaşdırırdım. Bundan əlavə, özümüzlə beşinci şöbənin ən etibarlı, inanılmış bir neçə əməkdaşını gətirirdik.

Onun səfərlərinin marşrutu elə tərtib olunurdu ki, get-gedə Bakıya yaxınlaşıb geriyə maşınlarla qayıdasan. Oraya qatarla getməyi daha münasib bilmişdi. Tutaq ki, rayon və zona müşavirələri Şamxorda olmalı idi. Qatar Şamxora səhər saat 8-də gəlirdi. MK-nın birinci katibi saat 1-ə və ya 2-yə qədər rayonun kolxozlarına, sovxozlarına baş çəkir, elə buradaca rayon müşavirələrini keçirirdi. Bu, təxminən saat 5-dən 7-yə qədər çəkirdi. Nazirlər Sovetinin, Ali Sovetin üzvləri, MK-nın ikinci katibi də onunla birlikdə gedirdi. Axşam yenidən Şamxora bütün zonanın birinci katibləri ilə birlikdə yerli kluba və ya Mədəniyyət sarayına yığışırdılar. Beləliklə də, zona müşavirəsi başlayırdı. O, saat 7-dən gecə saat 12-yə, birə qədər davam edə bilərdi. Tutaq ki, Şamxorda rayon müşavirəsi başlayanda mən DTK, DİN briqadası ilə, öz uşaqlarımızla Şamxordan növbəti məntəqəyə, deyək ki, Sabirabada gedirdim. Heydər Əliyevsə öz vaqonuna qayıdıb müşayiətçilərlə birlikdə gecə ikən Sabirabada yola düşürdü. Səhər saat 8-də biz maşınlarla onu stansiyada gözləyirdik. Burada yenə də bir sıra tədbirlər keçirilir, sonra trassı bağlayırdılar və biz bir qayda olaraq bazar gününün gecəsi maşınlarla Bakıya qayıdırdıq. Vaxt itkisi az olurdu, axı, bazar ertəsi səhər tezdən o işdə olmalı idi.

**Vladimir Morozkov bu səfərləri belə xatırlayır:**

«Adətən Bakıdan cümə axşamı gecə saat 11-də çıxırdıq. Üç vaqonu (biri Heydər Əliyev üçün, ikisi isə onu müşayiət edənlər üçün) Tbilisi qatarına qoşurdular. Rayona cümə günü səhər çatırdıq. Bütün günü tarlalarda, fermalarda, axşam rayon, sonra isə zona müşavirəsində olurduq. Müşavirələrdə nazirlər, müvafiq dövlət komitələrinin rəhbərləri iştirak edirdilər. Rayonun fəallar yığıncağında isə operativ məsələlər həll olunurdu. Tutaq ki, hansısa kolxoz sədri deyir ki, yanacaq problemi var. Yanacaq komitəsi sədrini dərhal ayağa qaldırıb tapşırıq verirdilər. Yeşik və ya avtonəqliyyat problemi də yerindəcə həllini tapırdı.

İşin axırında «birinci» paytaxta maşınla dönürdü. Adətən onu müşayiət edən ziyalıların nümayəndələrinə təklif edirdi:

– Kim mənimlə getmək istəyirsə, buyurun «kalona». Ancaq xəbərdarlıq edirəm – mən sürətlə gedirəm. Kim sürətlə getməyi xoşlamırsa, gecəni rayonda qala bilər, səhər onu yola salarlar.

Yadımdadır ki, biz «Pravda»nın xüsusi müxbiri Leonid Tahirovla birlikdə bir maşında idik. Maşın karvanı ilə Şamaxıdan Bakıya gecənin qaranlığında 55 dəqiqəyə çatdıq. Sürücümüz yalnız «Azərneft» meydanında əyləci basdı.

Heydər Əliyevin sürücüsü Anatoli mənə danışırdı ki, «Sabirabaddan çıxırdıq, o gecə saat birdə maşına oturanda məndən soruşdu: «Tolya, Zuğulbada saat neçədə olacağıq?» Saata baxıb dedim: «Haradasa, saat üç on beşdə». – «Baxaq görək də». O yolda bir qədər mürgüləməyi xoşlayırdı. «Azneft»ə yaxınlaşanda saata baxdım, gecə saat üçdür. Ay Allah, on beş dəqiqəyə Zuğulbaya çatmaq lazımdır! İki dəqiqə gec çatsaq, Heydər Əliyeviçin əhvalı pozulacaq. Belə olanda o maşından düşəndə heç xudahafizləşməyə də bilərdi. Zərifə xanım onu qarşılayıb, mənə gizlicə işarə edirdi ki, ürəyini sıxma, kefini pozma, hər şey qaydasındadır. O çox xoşlayırdı ki, maşını bərk sürəsən».

Doğrudur, Aleksandr İvanov bildirir ki, onun vaxtında heç vaxt gecikmirdilər: «Biz ehtiyat üçün bir qədər tez çıxırdıq. Lazım gələndə çox böyük sürətlə gedirdik. Bizdən öncə respublika DAM-ından müşayiətçi «Volqa» gedirdi. Sonra biz israr etdik, daxili işlər naziri Cəfər Vəliyevi məcbur etdik ki, «Mersedes»lər alsın. Çünki bizim «ZİL» sürəti 200-dən çox da artıra bilərdi, «Volqa»nın isə buna gücü çatmırdı. Yol boş olurdu, biz də sürəti artırırdıq. Odur ki, heç vaxt gecikmirdik. Hətta çalışırdıq beş dəqiqə də tez çataq. Tez gələndə o narazı qalmırdı. Təki gecikməyək. O dəqiqliyi çox sevirdi».

**Vladimir Morozkovun söhbətinin davamı:**

Sentyabrda Heydər Əliyev yenidən rayonlara çıxırdı: planları və sosialist öhdəliklərini dəqiqləşdirir, yerindəcə rəqəmləri yoxlayır, tutuşdururdu.

Dəhşətli isti vardı, tər dabanımızdan süzülürdü. Heydər Əliyeviç həmişəki kimi səliqə ilə geyinmişdi: kostyumda, qalstukda. Bir dəfə o etiraf etdi: «Mən nahar etmirəm, fasiləni də sizin xatirinizə eləyirəm. Gündüz vaqonda bir stəkan meyvə şirəsi içib, alma yeyirəm. Axşam isə yeməyə həvəsim olmur. Ona görə də hər səfər zamanı mən çəkimdən 5-6 kiloqram itirirəm».



O rayona səfəri zamanı özüylə yaradıcı adamları – yazıçıları, rəssamları, publisistləri götürməyi xoşlayırdı. Hər axşam müşavirə, yığıncaq qurtarandan sonra onları Mədəniyyət sarayında hər hansı bir otağa yığırdı. Onlardan təəssüratlarını soruşur, ürək sözlərini söyləməyi xahiş edirdi: «İnsanlardan yazın, baxın görün kənddə həyat necə dəyişib, kənd adamları necə fədakarlıqla çalışırlar. Bəs siz diqqət yetirdinizmi, kənd zəhmətkeşlərinin tələbləri necə yüksəlib? Bax, bu gün kolxozların birində qızlar cehiz üçün xarici mebel əldə etməkdə köməklik göstərməyi məndən xahiş edirdilər. Beş il qabaq belə şey mümkün idimi?»

Biz Bakıya şənbədən bazar gününə keçən gecə gəlirdik. Bazar günü səfər haqqında hesabat hazırlayırdıq. Bazar ertəsi səhər Azərinformun direktoru Yefim Qurviç «birinci»nin yanına gedirdi. Heydər Əliyeviç dərc olunmaq üçün onun iştirak və çıxış etdiyi tədbirlər barədə yazılanları şəxsən özü nəzərdən keçirirdi».

**Tibb İnstitutunun keçmiş rektoru Zəhra Quliyevanın xatirələrindən:**

«Mən rayonlara tez-tez gedirdim. Hər yerdə də lövhələrə rast gəlirdim: Heydər Əliyev burada 16 dəfə olub, burada 15 dəfə. Elə bir rayon yox idi ki, oraya getməsin.

Mən Tibb İnstitutunun rektoru olanda, yayda tələbələrimizi rayonda tibbi təcrübə keçməyə göndərirdik, özümüz isə onlara nəzarət etməyə gedirdik. Bir dəfə Bərdə rayonundaydım. Həmin vaxt Heydər Əliyev də orada idi. Gün ərzində qızmar günəş altında başıaçıq pambıq sahələrini gəzir, hər bir kolxozçu ilə söhbətləşir, az qala hər bir pambıq kolundakı qozaları sayırdı. Axşamlar isə zona müşavirələri keçirirdi. Mən onlardan birində iştirak etdim və heyrətləndim: o əsil aqronom, torpaq işinin bilicisi kimi çıxış edirdi.

O vaxtlar rayonun girişində lövhələr vururdular. Həmin lövhələrdə rayonun nə qədər pambıq, yumurta, ət, süd təhvil verməsi barədə öhdəliklər əks olunurdu. Uşaqdan böyüyə qədər hamı bu rəqəmləri bilirdi. Hər gün rayonda günün yekunlarına dair yığıncaqlar keçirilirdi, təsərrüfatların hansının planı necə yerinə yetirməsi müzakirə olunurdu. Bu barədə də bütün rayon əhlinin xəbəri vardı. Hamı böyük şövq və həvəslə işləyirdi. Bütün bunlar Heydər Əliyevə görə idi, axı onun işgüzarlığı, işə sədaqəti hamıya sirayət eləmişdi».

**Lidiya Rəsulovanın söhbətindən:**

Biz Heydər Əliyevlə zona müşavirələrinə gedərdik. Bu, çöl işlərinin qızğın çağı, məhsulun artıq yetişdiyi, yığım prosesinə başlanılan günlərdə olurdu.

Səhər tezdən qatardan düşüb, rayonlar üzrə paylaşdıq. Məsələn, mənim payıma Bərdə rayonu düşmüşdü. O isə öz qrupu ilə başqa bir yerə gedirdi. Mənim qrupum rayonun bütün kolxozlarını, bütün manqalarını dolaşır, işlərin vəziyyəti barədə informasiya toplayır, mövcud problemləri aydınlaşdırırdı. Tutaq ki, ayrı-ayrı zonalarda məhsul yığımı müxtəlif vaxtlarda aparılırdı: birində on gün qabaq, birində sonra. Orada gecikirdilər, burada isə hər şey plan üzrə gedir. Haradasa kənd təsərrüfatı məhsullarını qəbul etmək üçün meydançalar hazırdır, haradasa yeşik, vaqon çatışmır. Bütün bu məlumatları qeyd edirdik.

Biz öncədən bilirdik ki, müşavirə hansı rayonda keçiriləcək, ora gedirdik. Heydər Əliyev Büro üzvlərini Mədəniyyət evinə toplayırdı. Biz gördüklərimizi məruzə edirdik.

Sonra zona müşavirəsi başlayırdı. O, hər bir kolxoz sədrini, raykomun birinci katiblərini, bəzən hətta manqa başçılarını, briqadirləri də dinləyirdi. Bərk istidir, kondisionerlərin havanı təzimləməyə gücü çatmır (70-ci illərin ortalarına qədər onlar heç mövcud deyildi), zal ağzınacan dolu idi. Belə müşavirələr bəzən bir neçə saat çəkirdi. Nəticədə MK-nın birinci katibi vəziyyəti tamamilə təhlil etmək üçün iki saatdan artıq danışırdı. Hərdən belə isti havalarda danışa-danışa onu tər aparırdı.

Çox vaxt mən onunla eyni qrupa düşürdüm. Hansı rayonda, hansı kolxozda onu kölgələnməyə, güneşdən qorumağa çalışsalar da, o heç vaxt razılaşmırdı.

– Mən örtük altında durum, kolxozçularsa qızmar günəş altında? Siz məni nə hesab edirsiniz?

Kəndarası yollarla gedəndə halımızı görəydiniz! Misal üçün, Kürdəmirdə maşın keçib gedəndən sonra başdan ayağadək toza bürünürdük.

O bu müşavirələri heç vaxt rəsmiyyət xatirinə keçirmirdi. Bakıya qayıdandan sonra da hər şeyi nəzarətdə saxlayırdı: bu və ya digər rayona yanacaq çatdırılarmı, əlavə kimyəvi gübrələr gətirilərmi və s. O, rayon rəhbərləri ilə hər gün əlaqə saxlayırdı: «Vəziyyət barədə məlumat verin, nə kimi problemləriniz var?»

Əgər hər hansı məmura desəydilər ki, sabah filan kolxoza benzin göndərməlisən, onun hünəri nə idi benzini vaxtında çatdırmasın. Hər



kəs bütün tapşırıqları özü üçün qeyd eləməliydi, çünki hamıya yaxşı məlum idi ki, Heydər Əliyev fenomenal yaddaşa malik olmaqla bərabər, həm də işçilərə yüksək tələbkarlıqla yanaşırdı – o sabah səninlə söhbəti zamanı mütləq soruşacaqdı – yanacaq göndərmisiniz, ya yox? Bu cür səyyar müşavirələr rayon rəhbərləri üçün bürokratların yarada biləcəyi bütün problemləri həll etmək üçün fürsət olurdu».

Tanınmış jurnalist Mais Məmmədovun bu səfərlər barədə çox canlı, koloritli xatirələri var. 70-ci illərin əvvəlindən onun çəkiliş qrupu MK-nın birinci katibini daim səfərlərdə müşayiət edirdi. Mais Heydər Əliyev hakimiyyətdən uzaqlaşdığı dövrdə belə onunla əlaqələri üzməyən azsaylı jurnalistlərdən biri idi. Yerli hakimiyyətdə qəzəb doğura bilmək risqi altında operator Nadir Zeynalovla birgə Naxçıvana gəlir, blokada şəraitində olan muxtar respublikanın həyatından reportajlar hazırlayır, Heydər Əliyevlə tanış olaraq əməkdaşlığa başladıqları illəri həsrətlə xatırlayırdılar.

«1973-cü ilin martında məni Mərkəzi Televiziyanın xüsusi müxbiri kimi təsdiq etdilər, – deyə Mais Məmmədov söhbətə başladı. – May ayında isə tapşırdılar ki, mən birinci katiblə rayona getməliyəm.

Mən perrona gəldim. Üç vaqon dayanmışdı, onlardan biri onunku idi. Gördüm ki, orada jurnalistlərdən başqa bəstəkarlar, tarixçilər, memarlar da var. Bizə dedilər ki, «birinci» indi gələcək. O gəlib hamı ilə görüşdü. Mən tarixçi İqrar Əliyevin yanında dayanmışdım. Heydər Əliyev dedi:

– Hə, səni təsdiq eləyiblər? Di onda işlə, özünü göstər.

Mən bir şeyə heyrət etdim. Bax, musiqiçinin kənd təsərrüfatı ilə nə əlaqəsi var? Pambığın necə yetişməsi onun nəyinə lazımdır? Axı bu gəzinti deyildi, üzücü, ağır iş idi. Təsəvvür edin: 40-50 dərəcə istidə biz kolxozlara gedirdik. Onu da Heydər Əliyev müəyyənləşdirilən marşrutu poza də bilərdi. Gözlənilmədən deyirdi:

– Siz nə üçün məni bu təsərrüfata aparırsınız? Gəlin o birinə gedək.

Bir də gördün, marşrutu dəyişdi. Yəni ki, adamlar istənilən gözlənilməzliyə hazır idilər. Bu da onları özlərini yığışdırmağa məcbur edirdi: qonşu kolxozlarda vəziyyət yaxşıdırsa, bizdə ondan pis olmamalıdır. O tarlalara gedib briqadirlərlə mübahisə edirdi. Misal üçün, soruşurdu:

– Sən sahəni neçə dəfə suvarmısan?

O cavab verirdi:

– İki dəfə.

– Sən niyə məni aldadırsan? Bir dəfə suvarmısan.

Axı biz bütün bunlardan xəbərsiz idik. O isə ən yaxşı mütəxəssislərlə məsləhətləşirdi, bilirdi ki, iki dəfə suvaranda kollar tamam başqa cür, eyni qaydada böyüyür.

O, rayonlara hazırlıqlı, haqqında danışdığı məsələyə dərindən bələd olaraq gedirdi. Onu aldatmaq kolxoz sədri və ya briqadir üçün çox çətin idi.

– Nə üçün məni aldadırsan? Başa düşürəm, sən Qızıl Ulduz almaq, qəhrəman olmaq istəyirsən. Bir kiloqram pambıq vəd edirsən, üç kiloqram verirsən. Sən çox gözəl bilirsən ki, üç kiloqram verə bilərsən. Bəs onda məni niyə aldadırsan? İstəyirsən bir kiloqramı kənara satasan?

– Yox, mən özümü sığortalayıram.

– Nədir, sunami gözlənilir?

O gözəyarı müəyyənləşdirə bilirdi ki, hər kolda neçə qoza var.

– Kolda neçə qoza var, 30?

30-u 4 qrama vuranda hər kola 120 qram eləyir. O artıq təsəvvür edirdi ki, bu tarladan nə qədər pambıq yığılacaq. Təbii ki, briqadirlər özlərini itirirdilər.

Bəzən birinci katiblərin də aşımın suyunu verirdi. Misal üçün onlara deyirdi:

– Sən tarlaya nə qədər zəhərli kimyəvi maddə səpmisən?

O özünü təmizə çıxarmağa çalışırdı:

– Heydər Əliyeviç, neyləyim, sovka pambığı yeyir.

Heydər Əliyev əl çəkmirdi:

– Axı burada insanlar çalışır. Sən dəli olmusan, nədir? Bəlkə sabah sənin uşaqların burada işləyəcək?

– Ziyanvericilər çoxdur, – deyə onlar yenə də bəhanə gətirirdilər.

– Cəhənnəmə ki, – Heydər Əliyev naziri çağırırdı.

– Bizdə ziyanvericilərə qarşı digər bioloji üsul varmı?

– Var.

– Bəs niyə buraya tətbiq etmirsiniz?

– Axı bizdən tələb etməyiblər.

– Onlar niyə tələb etməlidirlər? Sən Amerikada yaşayırsan, nədir? Səni nəyə görə kənd təsərrüfatı naziri təyin ediblər? Əgər o sənin elmi araşdırmalarını tətbiq etməkdən imtina etsə, bu başqa məsələ. Buna görə mən onu işdən çıxardaram. Sən isə, deməli, onlardan gizlədirsən?



Bax, belə araşdırmalar aparırdı. Məşhur pambıqyığan Sərdar İmrəliyevi çox sevirdi. Çox gözəl insan idi. Günəşdən qaralmış üzü, iri fəhlə əlləri vardı. O, Jdanov rayonunda yaşayırdı. İmrəliyev əməyin məhsuldarlığını artırmaq üçün maşınla yığımın orijinal üsulunu tapmışdı. Pambıqyığan kombayn bir tərəfdən irəliləyərək tədricən dolur, sonra o, tarlanın o başında saxladığı ikinci maşına oturaraq əks istiqamətdə pambıq yığmağa başlayırdı. Birinci maşını boşaldırdılar, o geri dönəndə, artıq kombayn hazır olurdu. Yəni ki, o iki maşında işləyirdi. Bir qız da var idi, Tərlan Musayeva. O da bu üsulla işləyirdi. Heydər Əliyev onun da xatirini çox istəyirdi, ona kömək eləməyə çalışırdı. Ümumiyyətlə, o, yaxşı işləyənləri xoşlayırdı.

Zona müşavirələrində çoxlu məsələlər həll olunurdu. Özü də Heydər Əliyev dəqiqliklə xatırlayırdı ki, hansısa Məmməd Məmmədov ötən yığıncaqda ona necə cavab verib, indi nə deyir. O, çıxış edənin sözünü kəsə bilərdi:

– Dayan! Sən mənə keçən il nə vəd etmişdin? Sən xatırlamırsan, mənimsə yaxşı yadımdadır. Sən mənə filan qədər pambıq yığmağı vəd etmişdin. Mən baxmışam, sənin göstəricilərin yüksək idi. İndi sən onları aşağı salırsan ki, sonra qəhrəman kimi görünəsən? Keçməz!

O, yalan danışanları, kələk gələnləri xoşlamırdı. Yadımdadır, Sabirabadda zona müşavirəsi keçirilirdi. Kiminsə yalanını tutmuşdu, əsəbiləşmişdi. Orada iki rayon yanaşı idi: böyük rayon olan Sabirabad təxminən 100 min ton pambıq verirdi, Saatlı isə 15-20 min tondan artıq verə bilmirdi.

Saatlı rayonunun birinci katibi Babayev çıxış edərək dedi:

– Heydər Əliyeviç, sizin gəlişiniz münasibətilə biz 150 min ton pambıq təhvil vermək barədə yüksək sosialist öhdəliyi götürürük.

Hamının ağzı açıla qaldı – bu mümkün olan şey deyildi. Heydər Əliyev ona baxdı:

– Nə dedin?

O isə sözünü belə tamamladı:

– ...Sabirabad rayonu ilə birlikdə.

Heydər Əliyev özünü saxlaya bilməyib güldü.

– Yaman zarafatcılsan! – dedi.

Bununla Babayev Heydər Əliyevin əhval-ruhiyyəsini qaldırdı. Sonradan ona yaxınlaşıb, qucaqlayıb-öpür, «Sən onun hirsini soyutdun» deyirdilər.

Heydər Əliyevin vaxtında kənd təsərrüfatı geniş inkişaf etmişdi. İnsanlar alın təri ilə çoxlu pul qazanırdı.

Yadımdadır ki, Sabirabadda bir nəfər irəli çıxıb dedi:

– Heydər Əliyeviç, bizi incidirlər!

– Nə olub?

– Ev tikirik, bir qədər daş əldə edirik, milis bizə göz verib, işıq vermir.

Heydər Əliyev nazirə tərəf döndü:

– Eşitdiniz? Əgər bilsəm ki, kolxozçunun əlindən bircə daş alıblar, həmin gün işdən qovacağam. Onlar özləri üçün ev tikirlər, onlara mane olmayın.

O vaxtlar hər şey məhdudlaşdırılırdı: bir adam üç maşın daş alırdı, vəssalam, artıq almaq olmazdı. Ev tikmək üçün ona beş maşın lazımdır. O əlavə daş alır, milis başının üstünü kəsdirir:

– Bu dəqiqə sayım görüm, qayimə üzrə nə qədər daş almısan... Pul ver.

Onun bir cəhəti də məni heyrətləndirirdi. Biz tarlaları gəzəndə tər tökürdük, litrlərlə su içirdik. O isə heç bir stəkan su da içməz, bir loxma çörək də ağzına almazdı. Baxmayaraq ki, hər yerdə bizə süfrə açırdılar. Nahar fasiləsində o öz vaqonuna gedib, bir saat dincəlirdi.

Bundan əlavə, biz qatarla gedəndə o həmişə maraqlanırdı:

– Camaatı yedirdib-içirdiblər?

Ona cavab verirdilər ki, bir dəfə yedirdiblər.

– İnsanların qayğısına qalmaq lazımdır, – deyirdi, – axı onlar bütün günü sənin tarlalarını dolaşıblar.

Əslinə qalanda o heç maraqlanmaya da bilərdi ki, biz yemək yemişik, ya yox.

O, neftçilərin yanına gedəndə də eyni vəziyyət təkrar olunurdu. Neftçilərlə söhbət zamanı onlar heyrətlənirdilər ki, o «reagent», «dövrələmə boru», digər alətlərin adını haradan bilir. O deyirdi:

– Bildiyimə görə, siz qazmaya filan qədər reagent işlədirsiniz. Ancaq bu çoxdur axı.

Onlar başları ilə təsdiq edirdilər:

– Bəli, Heydər Əliyeviç, biz sizinlə razıyıq. Ancaq bizdəkilər yerli reagentlərdir, xarici reagentlərimiz yoxdur. Xarici reagentlər daha qatı olur.

– Hə, aydındır.



O dahi idi. Biz 90-cı ildə Heydər Əliyevlə Londona gedəndə o, hansısa kimya konserninin prezidenti ilə görüşdü və ona dedi:

– Mən sizi xatırlayıram, siz Sumqayıtda filan müəssisəni inşa etmisiniz. Ancaq indi onu yenidən qurmaq lazımdır.

O heyrətləndi:

– Cənab prezident, iqtisadiyyatı bu cür dəqiqliklə bilən insana ilk dəfədir ki, rast gəlirəm.

70-ci illərdə Heydər Əliyev dəfələrlə Lənkərana gəlir və regionun nailiyyətlərindən fərəhlənirdi. O illərdə Lənkəran bütün İttifaqa səs salmışdı! Misal üçün, onlar kələm əkmişdilər, aradakı novlarda isə pomidor şitilləri basdırmışdılar. Kələmi yığandan sonra pomidor yetişirdi. Bir tarladan iki cür məhsul almış olurdular.

Heydər Əliyev bunu görüb narahat oldu:

– Bu, saxtakarlıqdır.

– Bunun nəyi saxtakarlıqdır ki, – deyə İsa Məmmədov etiraz etdi. – 50 kvadratmetrdən biz iki məhsul alırıq. Hər şey qanun çərçivəsindədir.

Ona işin mahiyyətini izah edəndə sevindi:

– Afərin! Başa düşmürəm, bizim elmi-tədqiqat institutlarımız nə işlə məşğul olurlar? Bunu 3-4 il öncə fikirləşmək olmazdımı?

Bu məsələyə cavabdeh olan adam, özünə bəraət qazandırmağa, dodağının altında mızıldanmağa başladı.

Heydər Əliyev qadınlardan soruşdu:

– Dadlı pomidorlardır?

– Əla dadı var».

Mais Məmmədov heç də şişirtmirdi. O dövrün qəzetlərini vərəqləyəndə mən Heydər Əliyevin zona müşavirələrində, fəallar yığıncaqlarındakı bir çox çıxışlarını oxudum və heyrətlənməyə bilmədim: bəzən elə təsəvvür yaranır ki, üzümçülüyün problemlərindən bu sahənin ən görkəmli mütəxəssisi danışır. O, üzüm tinglərinin ziyanvericilərinə və xəstəliklərinə qarşı mübarizədən də, üzümün şəkərliliyinin yüksəldilməsi metodlarından da danışır, üzüm sortlarını qarışdırdıqlarına görə təsərrüfat rəhbərlərini tənqid də edir, qeyd edir ki, Ağsu rayonunun Sabir adına kolxozunda olanda bir sahədə beş müxtəlif növdən olan üzüm tinginin yanaşı əkildiyinə rast gəlib. O, təsərrüfat rəhbərlərinin hamısından meynələri dirəklər üstünə qaldırmağı, müvafiq idarələrin başçılarından isə kolxoz və sovxozları lazımi material və avadanlıqla təmin etməyi tələb edirdi.

Tədricən Heydər Əliyevin komandasının onunla rayon və zona müşavirələrinə gedən bütün üzvləri kənd təsərrüfatı istehsalından baş çıxarmağa başladılar. Aşağı təbəqələrlə daimi və sıx əlaqədə işləyən geniş profilli rəhbər işçilər belə tərbiyələnirdilər. Tarla əməkçiləri, briqadirlər, kombaynçılar, sağıcılarla ünsiyyətdə olarkən, onların hər bir problem və qayğılarına bələd olarkən MK-nın birinci katibi dövlət məmurlarında qabarlı əlləri ilə milli sərvətimizi yaradan əmək adamlarına hörmət oyadırdı. Və bu, yəqin ki, onun xalq arasına etdiyi səfərlərin ən ibrətamiz nəticəsi, yekunu idi.

Heydər Əliyevin rayonlara gedəndə özü ilə apardığı yaradıcı ziyalılarla ünsiyyətə gəlincə, xalq yazıçıları Mövlud Süleymanlı və Maqsud İbrahimbəyovun mənimlə bölüşdükləri iki maraqlı əhvalatı misal gətirmək istəyirəm.

**Mövlud Süleymanlının xatirələrindən:**

«70-ci illərin sonunda Bərdədə Heydər Əliyevin iştirakı ilə zona müşavirəsi keçirilirdi. Yazıçılar İttifaqından da başda birinci katib İmran Qasımov olmaqla bir dəstə rayona yollandı. Mən də onların arasında idim.

Hər yerdə qayda-qanun, işgüzar ab-hava, səliqə-sahman duyulurdu. Heydər Əliyev o qədər qayğının içində bizi də yaddan çıxarmırdı. Günün axırında o, Bərdə rayon partiya komitəsinin birinci katibinə müraciətlə dedi:

– Səfərəliyev, yazıçılarla özün məşğul ol!

Hazırda yaşları 60-ı ötmüş və Azərbaycanın ədəbi ictimaiyyətində layiqli yer tutmuş həmkarlarımın çoxusu ürəklərində o günlərin xoş xatirələrini yaşadırlar.

– İmran müəllim, məni gənc yazıçılarla tanış elə!

Kimin yadından çıxıbsa, bu o vaxtlar idi ki, qeyri-rəsmi də olsa, əsərlərin altında milli soyadları və ya ləqəblərlə imza atmaq qadağan olunmuşdu. Partiya senzorları altında «oğlu», «xanlı», «lı-li» ilə bitən soyadları olan şeiri və ya hekayəni çapa buraxmamağa çalışırdılar.

Aramızdan biri durub özünü təqdim etdi:

– Nüsrət Kəsəmənli.

Onu da deyim ki, qabaqcadan hazırlanmamış həmin görüşdə başqa respublikalardan olan qonaqlar, jurnalistlər, televiziya işçiləri də iştirak edirdilər. Onlar gözlərini maraqla Nüsrətə dikmişdilər. Bir neçə dəqiqəlik sükutdan sonra Heydər Əliyev şairin soyadını təkrarladı:



– Deməli, Kəsəmənli... Kəsəmənli nə deməkdir?

– Kəndimizin adıdır.

– Yaxşı, Kəsəmənli...

Biz bir sırada oturmuşduq. Ondan sonra Sabir Rüstəmxanlı ayağa qalxdı.

– Sabir Rüstəmxanlı!

Heydər Əliyev onun da soyadını təkrar etdi.

– Deməli, Rüstəmxanlı.

Görüşdə bizim milli soyadlarını və ya ləqəbləri qanuniləşdirmək cəhdlərimizə var qüvvələri ilə müqavimət göstərən partiya kabinləri də iştirak edirdi. Çoxlarını üzdən tanıyırdıq. Hiss olunurdu ki, baş verənlər onların ürəyincədir. Onlar açıq-aşkar gözləyirdilər ki, birinci katib bu azadfikirliliyə son qoyacaq və yazıçılara mətbuatda bu cür soyadlarından istifadə etməmək barədə xəbərdarlıq edəcək. Hamı gərginliklə qulaqburması gözləyirdi.

– Siyavuş Sərxanlı.

Heydər Əliyev gülümsündü:

– Belə. Sərxanlı – xanlı!

Mənim də növbəm çatdı:

– Mövlud Süleymanlı.

– Sağ ol. Əyləş!

* * *

Bu səfərdən bir qədər keçəndən sonra İmran Qasımov bizi öz kabinetinə yığdı.

– Mən sizi Heydər Əliyevin tapşırığı ilə yığmışam. Onun dediklərini sizə çatdırmaq istəyirəm. O, sizə qayğı göstərməyi və problemlərinizi həll etməyi mənə tapşırıb. Sizin haqqınızda «Yaxşı uşaqlardır» dedi.

Həqiqətən də, o dövrdə gənc, istedadlı şair və yazıçıların çoxusu öz məişət problemlərini həll etdilər: kiməsə mənzil, kiməsə maşın verildi, bəzilərini də işlə təmin etdilər. Təkcə yaradıcılıqla məşğul olmaq qalırdı...

Biz böyük ruh yüksəkliyi və məmnunluq hissi ilə yazıb-yaradırdıq. Həm də başa düşürdük ki, yeni ab-hava yeni ədəbi təfəkkür, düşüncə tərzi, yeni üslub və yanaşma tələb edir».

**Maqsud İbrahimbəyovla söhbətdən:**

«Heydər Əliyev rayonlara gedəndə yazıçıları da özü ilə aparırdı. Bir dəfə Bərdəyə gedirdik. Cəmisi üç vaqon idi. Birinci vaqonda o

özü və ikinci katib, ya Puqaçov, ya da başqa kimsə. İkinci vaqonda MK-nın ideologiya, kənd təsərrüfatı üzrə katibləri, DTK-nın sədri, daxili işlər naziri, yerli Aeroflotun rəhbəri Nuru Əliyev, yazıçı İmran Qasımov və mən idik. Üçüncü vaqonda isə jurnalistlər gedirdi. Yolda Azərbaycanın Lenin ordeni ilə təltif edilməsi münasibətilə «kiçik banket» təşkil etdik. Heydər Əliyevlə ikinci katib bizimlə deyildilər, qonaqlıqda təkcə ikinci vaqonun sakinləri idi. MK katibi ayağa qalxıb dedi ki, müharibə vaxtı neftin 80 faizə qədərini Azərbaycan verirdi, bunun hesabına Sovet İttifaqı Hitler Almaniyası üzərində qələbə çaldı. Ona görə də respublikamız yüksək dövlət mükafatına layiq görülüb. Sonra DTK-nın sədri, daxili işlər naziri çıxış etdilər və hamısı da demək olar ki, eyni sözü dedilər. Növbə mənə çatdı. Mən özümdən əvvəl çıxış edənlərlə razı olduğumu bildirdim, ancaq əlavə etdim: «Əgər Allah eləməsin, bir də müharibə olsa, gərək Azərbaycanı düşmənə təslim edək. Çünki almanlara təslim olan şəhərlər Qəhrəman şəhər adı aldılar, bizə isə Lenin ordeni verdilər». Bu sözlərdən sonra həmsöhbətlərimin qanı qaraldı. Bir dəqiqəlik sükutdan sonra bir-birinin ardınca «gəmini tərk etməyə» başladılar. Kənd təsərrüfatı üzrə MK katibi dedi ki, «mənim işim var» və öz kupesinə keçdi, daxili işlər naziri də kənarlaşdı, bir sözlə, hamı qaçıb getdi. İmran Qasımovla Nuru Əliyev qaldı. Yeri gəlmişkən, mənimlə yeganə razılaşan da Nuru Əliyev oldu: «Maqsud haqlıdır. Doğrudan da, onlara Qəhrəman şəhər adı verdilər, bizə isə Lenin ordeni». Hamı öz kupesinə yatmağa getdi. Səhər hamımız sıraya düzüldük, Heydər Əliyev gəlib bizimlə görüşməyə başladı. Mənə növbə çatanda gördüm ki, çox acıqlıdır. Dodaqlarının arasından dedi: «Sən yenə də zarafatından qalmırsan?» Vəssalam. Biz Bərdəyə getdik. Hamı məndən vəba xəstəliyinə tutulmuş adamdan qaçan kimi uzaq gəzirdi. Hansısa kolxoza gəldik, tarlaları gəzdik. Mənsə yeməkxanaya baş çəkib, qayğanaq götürdüm, qüssədən bir stəkan araq içdim, sonra isə ağac altında oturub mürgüladım.

Məni oyadıb dedilər ki, Heydər Əliyev səni görmək istəyir. O, yüz metrlik məsafədə pambıq tarlasında tək dayanmışdı. Mən ona yaxınlaşdım. O pambıq qozasını əzdi, orada soxulcan vardı. «Görürsən, – dedi, – bu sovkadır, pambığın qənimi». – «Bəli, murdar, iyrənc heyvandır», – dedim. O mənə ikrahla baxdı və mən anladım ki, söhbətimiz bununla bitdi. Geri qayıdanda, gördüm ki, mənə münasibət dəyişdi. Hamı yenidən mənə yaxınlaşıb, heç nə olmayıbmış kimi söhbət eləməyə başladılar.



Yəni ki, Heydər Əliyev heç bir şeyi nəzərdən qaçırmırdı, o hiss eləmişdi ki, ona yaxın adamlar məndən üz döndəriblər, onlara göstərdi ki, biz həmişəki kimi həmsöhbətik.

Anlaşılmazlıq aradan qalxmışdı. Axşam yenə də biz onunla bir stol ətrafında oturmuşduq».

Daxili işlər naziri olanda Cəfər Vəliyev, demək olar ki, həmişə Heydər Əliyevi rayona səfərlərində müşayiət edirdi. MK-nın birinci katibi çox vaxt oğlunu da özüylə götürürdü, güman edirdi ki, Azərbaycanın əyalətlərindəki həyat şəraiti ilə tanışlıq onun xeyrinə olar. Bu səfərlər zamanı yeniyetmə oğlan nazirin himayəsində olurdu.

**Cəfər Vəliyevin söhbətindən:**

«Heydər Əliyev mənə deyirdi ki, «İlham sənin maşınında oturacaq».

Biz son məntəqəyədək qatarla gedirdik, baxır hansı marşrut olurdu. Orada isə maşınlara oturub rayonlara yollanırdıq.

Dəhşətli isti olsa da, mən İlhama bir stəkan limonad da təklif edə bilmirdim. O nə yeyir, nə də içirdi. Atası onu belə tərbiyələndirmişdi. Heydər Əliyev su içməyi xoşlamırdı. Yalnız soyuq çay. Hara gedirdiksə, stolun üstünə şirələr, mineral sular, meyvələr, şirniyyat düzülürdü.

– Heydər Əliyeviç, heç olmasa alma yeyin.

– Siz yeyin, mən istəmirəm.

Biz oturub çay içir, meyvə yeyirdik, o isə soyuq çay içirdi. Ona armudu stəkanda çay süzürdülər, o çayın soyumasını gözləyir, bir-iki qurtum içirdi – vəssalam.

Axşam bizi vaqonuna çağırıb qreçkaya və sosiskaya qonaq edirdi. Belə yemək çoxunun ürəyincə deyildi, kəndlisayağı bişirilmiş qoyun əti, kabab yemək istəyirdik. Bir dəfə vaqonumuz səhərədək dayanmalı oldu. Kənd təsərrüfatı naziri və şöbə müdirlərindən kimsə mənə yaxınlaşdı:

– Sən bizə yemək verəcəksən, ya yox?

– Nə olub ki?

– Bir şey teşkil elə, acından ölürük. Ya da ki, düşüb bir yerdə yemək yeyək.

Mən milis rəisini çağırıb tapşırıq verdim. O böyük bir qutu ilə qayıtdı: kabab, başqa yeməli şeylər gətirmişdi.

Axşam isə Heydər Əliyev mənə dedi:

– Sən orada nə iş görürsən?

Mən çiyinlərimi çəkdim:

– Bəs mən nə edim? Camaat acdır, yeməyə bir şey almaq üçün vaqondan düşməyə icazə istəyirlər. Onlar burada nə ala bilərlər?

Bu, yüngülvari «ziyafət» onun xoşuna gəlmədi.

– Sən bir də belə iş tutma. Qoy özləri ilə evdən yemək götürsünlər. Mən onlara xəbərdarlıq edərəm.

**– Necə düşünürsünüz, o nə üçün raykom katibləri ilə bir stol arxasında oturmurdu?**

– Bəzən otururdu. Baxır hansı raykom katibi ilə. Bir dəfə o İvanovkada Nikitinlə süfrə arxasında oturmuşdu, Sosialist Əməyi Qəhrəmanı, Bərdənin birinci katibi Səfərəliyevlə də iki dəfə nahar etmişdi. Onunla həmişə axşamlar Qonaq evində stol arxasında oturub söhbət edərdi.

Bərdə hamıdan çox pambıq verirdi. Heydər Əliyev də bu adama hörmət xatirinə onunla nahar edirdi».

Heydər Əliyevin cənub regionuna səfərinin çox maraqlı təfərrüatlarını Lənkəran şəhər partiya komitəsinin keçmiş birinci katibi Dilruba Camalova bizə danışdı:

«O Lənkərana 1982-ci ildə gəldi, onun gəlişinə xüsusi proqram tərtib etmişdik. Öyrəndik ki, Heydər Əliyev eyni yerə bir neçə dəfə getməyi xoşlamır, ona görə də son vaxtlar rayonda meydana gələn yenilikləri göstərməyə çalışırdıq.

Onu vağzalda qarşıladıq. Oradan o ilk olaraq sərhəd dəstəsinə yollandı. O həmişə əvvəlcə sərhədçilərin yanına, İranla sərhədə gedir, əsgərlərlə, zabitlərlə görüşür, xidmət şəraiti, məişət problemləri ilə maraqlanır, kazarmalara baş çəkirdi.

Sonra Heydər Əliyevi ideoloji mərkəzə apardıq. Moskvanın Sosial Problemlər İnstitutunun köməyi ilə biz rayonda sosioloji tədqiqatlar aparmaq üçün Lənkəranda mərkəz yaratmışdıq. Moskvadan sosioloqlardan ibarət böyük bir qrup dəvət etdik, maraqlı təcrübələr keçirdik. Hesablamalar Moskvada aparılırdı, nəticələri isə bizə diaqram şəklində göndərirdilər. Əlimizdə demoqrafik göstəricilərdən tutmuş iqtisadi hesablamalara qədər rayon haqqında tam informasiya vardı. Biz hətta kəndçilərin evində neçə televizor olduğunu da hesablamışdıq.

Heydər Əliyevi ideoloji mərkəzə gətirib işimizin nəticələrini göstərəndə o heyran qaldı. O vaxt Bakıda bu cür idcoloji mərkəzlər hələ yaradılırdı, bizdə isə artıq fəaliyyət göstərirdi. Yadımdadır, o vaxt Əfrand Daşdəmirov bizdən incimişdi ki, biz onun başının üstündən birbaşa Moskva ilə əlaqə yaratmışıq. Heydər Əliyev dedi ki, bizim təcrübəmizi bütün rayonlara yaymaq lazımdır.



Təsərrüfatlara səfər də onda xoş təəssürat yaratmışdı. Biz ona yeni uşaq bağçalarını, məktəbləri, salınan yolları göstərdik. Mən hələ 1981-ci ildə avtomobil yolları naziri Rafiq Xələfova müraciət edib ondan xahiş etmişdim:

– Bizə Bakıdan, digər respublikalardan, xaricdən hörmətli qonaqlar gəlir, ancaq mən onları rayonun içində gəzdirə, məmləkətimizi göstərə bilmirəm. Çünki kəndarası yollarımız bərbad vəziyyətdədir. Xahiş edirəm Lənkəranda kəndarası yolların tikintisini planınıza salın.

O mənə söz verdi və vədinə də əməl etdi. Bəlkə də yeganə rayon idi ki, yolları tamamilə asfaltlaşdırılmışdı. Heydər Əliyev də bunu yüksək qiymətləndirdi.

Yerli əhali ilə söhbətləri zamanı onun qarşısına ictimai tikinti məsələsini qoyurdular: camaat məktəb, uşaq bağçası, məişət evləri tikməyi xahiş edirdi. Heydər Əliyev plenumda çıxış edərkən bu faktı xüsusi qeyd etdi: «Rayonlara gedirsən, hər kəs öz şəxsi məsələsini həll etməyə çalışır, öz problemlərindən danışır. Burada isə mən bir dənə də olsa şəxsi xahiş, şikayət eşitmədim. Bu da böyük işdir».

Nahardan sonra biz şəhər partiya komitəsinin plenumuna getdik. Hələ İsa Məmmədovun vaxtında şəhərdə min nəfərə yaxın adam tutan böyük Ziyalılar evi tikmişdik. Bütün fəallar ora toplaşmışdı. Bu, Heydər Əliyevin iştirakıyla keçirdiyim ilk plenum idi. Əlbəttə ki, bərk həyəcanlı idim. İclasın gedişi boyu yekun sözü üçün qeydlər edirdim. Mənə elə gəlirdi ki, hansısa mühüm məsələni unutmuşam. Gördüm ki, Heydər Əliyev gülümsəyir. Axı o yanımda oturmuşdu və mənim nəsə cızma-qara elədiyimi görürdü.

Nəhayət mən yekun sözü demək üçün xitabət kürsüsünə qalxdım. Özü də elə həyəcanlı idim ki, nə danışdığım yadımda deyil. Ancaq çıxışım Heydər Əliyevin xoşuna gəlmişdi.

Sonralar, artıq Bakıda o, Büroda məlumatla çıxış etdi və mənim ünvanıma yaxşı sözlər dedi, səfərdən məmnun qaldığını söylədi. Lidiya Rəsulova Bürodan sonra dərhal mənə zəng vurub, yüksək qiymətləndirildiyim üçün təbrik etdi. İsa Məmmədov da zəng vurub minnətdarlıq elədi ki, mən onu pis vəziyyətdə qoymamışam, hər şeyi yüksək səviyyədə keçirmişəm.

Daha bir maraqlı əhvalat danışım: şəhərimizdə divanə-dəlisov bir adam vardı, o məni hədələyirdi ki, Heydər Əliyevə şikayət edə-

cək. MK-nın birinci katibi ilə şəhəri gəzərkən, camaatla söhbət edərkən gördüm ki, o da camaatın arasındadır və yavaşca irəli çıxmağa çalışır. Ürəyim ayağımın altına düşdü. Ancaq o bizim lap yaxınlığımızda qəflətən ayaq saxladı və dodağının altında mızıldadı: «Yox, yaxşı deyil».

Bütün yol boyu insanlar qızılgül ləçəklərini qoparıb maşının təkərləri altına atırdılar. İlham müəllim sonralar yazırdı ki, bunu heç vaxt unutmayacaq. Camaat Heydər Əliyevi necə hörmət və məhəbbətlə qarşılayırdı!

Plenum çox gec, gecə saat 11-də başa çatdı. Biz Ziyalılar evindən çıxanda küçə yenə də insanlarla dolu idi, heç kim dağılışmamışdı.

– Sən təşkil eləmisən? – deyə Heydər Əliyev mənə söz atdı.

– Mən camaatı gecə saat 11-dək küçədə saxlaya bilərdim? Baxın, bu ahıl qadının gecə yarıyadək burada qalmasını qıyardımmı?

Həmin qadın isə özü ilə kətil gətirib oturmuşdu. Özü də hamı sakitcə dayanmışdı, axı gecə düşmüşdü. Qarı Heydər Əliyevi görüb, var səsiylə dedi:

– Sənə qurban olum, ayaqlarına qurban olum, xoş gəlmisən, Allah səni saxlasın!

Özü də bütün bunları Lənkəran ləhcəsi ilə söylədi. Heydər Əliyev bu səmimi hisslərdən riqqətə gəldi.

Astaraya gedəndə mən onun öz maşınında onu ötürürdüm.

– Dilruba xanım, deyirsən ki, burada hamı səndən razıdır, heç kim şikayətlənmir?

– Heydər müəllim, mən heç kimin yolunu kəsməmişdim, kimin şikayəti vardısa, deyə bilərdi. Siz ki fəhlələrlə də, kolxozçularla da, küçədəki insanlarla da sərbəst söhbət etmisiniz, bazarda da olmusunuz. Onlar şikayətlənə bilərdilər, mən onları heç cür saxlaya bilməzdim.

– Yaxşı, baxarıq, – dedi.

Lənkəranla Astara arasındakı sərhəddə olan körpünün altından keçəndə maşınlar dayandı, bir nəfər maşına yaxınlaşdı:

– Heydər Əliyeviç, xahiş edirəm, mənim ərizəmi qəbul edin.

– Nə oldu, – deyə o güldü, – bəs deyirdin səndən narazı olan yoxdur?

– Heydər müəllim, bu lənkəranlı deyil.

– Haradan bilirsən?

– Ləhcəsindən.

– Baxarıq.



Həqiqətən də şikayətçi Cəlilabad rayonundan imiş.

Həmin gəlişi zamanı birinci katibin diqqətini yerli «İstisu» şəfa ocağının problemlərinə yönəldə bildim. İstirahət evinin ərazisində bir neçə yaraşıqsız kottec, heç bir kommunal şəraiti olmayan daxmalar vardı. Elə həkimlər, tibb bacıları da köhnəlmiş binaya sığınmışdılar. Mən isə müasir tələblərə cavab verən sanatoriya binasının tikintisi barədə düşünürdüm.

Mən Heydər Əliyevi ora apardım. Orada da insanlar onu çox gözəl qarşıladılar. Mən dedim:

– Deyin görək, bizim nəyimiz Kislovodskdan əskikdir? Əsrarəngiz təbiət, sıx meşə, ətraf gül-çiçək içərisindədir. İstəyirəm ki, burada əmək adamlarımız üçün yaraşıqlı sanatoriya binası tikilsin. Belə bir fikrim də var ki, buradan Sumaxdağa kanat yolu çəkilsin.

O, əlini çiynimə qoyub dedi:

– Əhsən!

Qısası, mən ona bütün planlarımdan danışdım. O mənə baxıb dedi:

– Sağ ol. Elə birinci katib belə də olmalıdır: narahat, təşəbbüskar. Mən razıyam, tikin.

O vaxt mən artıq layihə hazırlamaq üçün tapşırıq vermişdim.

Heydər Əliyev Bakıya qayıdandan sonra Lidiya Xudatovna məni təbrik edib dedi:

– O artıq İstisuda sanatoriya tikmək barədə göstəriş verib.

Yola çıxmamışdan qabaq o mənə demişdi.

– Sən işə başla, tikinti üzrə razılaşdırmaları mən özüm təmin edəcəyəm.

Mən ondan dörd məktəbin, bir neçə uşaq bağçasının, məişət evinin və bir sıra digər obyektlərin tikintisi üçün razılıq aldım.

Tezliklə o, Moskvaya işləməyə getdi. O illərdə Həsən Həsənov MK-nın tikinti işlərinə baxan katibi idi. Mənə Dövlət Plan Komitəsində dedilər ki, planı təsdiq etmək üçün ona aparıblar, o isə bəzi obyektləri plandan çıxarıb. Belə izah edib ki, bunlar Lənkəran üçün çoxdur, onlar eyni vaxtda bu qədər tikinti obyektinin öhdəsindən gələ bilməzlər.

Mən Həsən Həsənova zəng vurdum:

– Həsən müəllim, siz Heydər Əliyevin camaata vəd verdiyi obyektləri plandan çıxarmısınız. Mən indi onların üzünə necə baxacağam, onlara nə cavab verəcəyəm? Elə bilirsiniz mən Moskvaya gedə bilmərəm? Mən Heydər Əliyevə zəng vurub bunları deyəcəyəm.

– Yaxşı, – deyə o cavab verdi, – baxım görüm nəyi bərpa edə bilərəm.

Səhərisi o mənə zəng vurdu:

– Məktəblərinizin hamısını bərpa etmişəm. Mənə söz verirsiniz ki, sentyabradək onları tikib qurtara biləcəksiniz?

– Söz verirəm. Ancaq xahiş edirəm, sanatoriyanı da bərpa edin.

– Axı onun hələ heç layihəsi yoxdur?

– Nə olsun ki? Layihə hazırlayarıq.

O, sanatoriyanı da plana saldı. Biz az müddətdə bütün obyektləri tikdik. Həmişə deyirəm ki, onlar bizə Heydər Əliyevdən yadigar qalıb.

Heydər Əliyevin Lənkərana gəlişindən bir qədər əvvəl mən su təsərrüfatı və meliorasiya naziri ilə Xanbulançayın suyundan istifadə üzrə layihəni işləyib hazırlamaq barədə söhbət etdim. Bizim su kəmərimiz vardı, ancaq su başqa səmtdən, Lerik tərəfdən axan çaydan gəlirdi. Bu su təmizlənib, şəbəkəyə axıdılırdı, ancaq kifayət eləmirdi. Odur ki, Lənkərana Kürün suyundan çəkməyə hazırlaşırdılar. Ancaq öz Xanbulançayımız ola-ola Salyandan gələn çirkli Kür suyu lənkəranlıların nəyinə gərəkdir? Nazir dediklərimlə razılaşıb, layihənin plana salınmasına nail olmağı məsləhət gördü. Birinci katibin Lənkərana gəlişindən istifadə edib, öz düşüncələrimi onunla bölüşdüm. İdeya Heydər Əliyevin çox xoşuna gəldi. Və o, bu layihəni dövlət planına daxil etməyə icazə verdi. Ümumiyyətlə, Heydər Əliyev Lənkəranda olduğu müddətdə bizim bir çox problemlərimizi müzakirə və həll etməyə imkan tapdı. Əsrarəngiz bir adam idi, onun kimisi olmamışdı, olmayacaq da!»

*Dilruba xanımın söhbəti bizim dediklərimizi canlı nümunə və faktlarla bir daha təsdiqləyir: 80-ci illərin əvvəlində respublikada ən mühüm sosial problemlər həllini tapdı, insanların sabit əmək haqqı bərqərar oldu, onlarda sabahkı günə inam yarandı. Odur ki, onlar şəhər və rayonların infrastrukturunun inkişafı, kəndlərin abadlaşdırılması, mədəniyyət obyektlərinin tikintisi məsələlərini daha qətiyyətlə irəli sürürdülər. Bir də ki, Dilruba Camalova kimilərin simasında (respublika üzrə onların sayı az deyildi) Azərbaycanda yeni rəhbər nümunəsi, Əliyev məktəbinin yetirmələri formalaşırdı. Onları işgüzarlıq və təşəbbüskarlıq, mütərəqqi iş forma və metodlarına can atma, saflıq, təmizlik və vətənpərvərlik hisslərinin güclü olması fərqləndirirdi. Heydər Əliyev bu cür rəhbərləri çox xoşlayırdı, bütün təşəbbüslərini dəstəkləyir, onları geridə qalmış, atalət basmış konservatizmdən və sovet bürokratik maşınının fəaliyyətsizliyindən qoruyurdu. Nə qədər ki, o, respublika idarəçiliyinin sükanı arxasında idi, bu maşının bütün təkərləri rahat fırlanırdı.*



* * *

Heydər Əliyev əmin idi: hüquq-mühafizə strukturlarının işində qanunçuluq və ədalət təmin olunmadan iqtisadi uğurlar əldə etmək mümkün deyil. Azərbaycan Kommunist Partiyası MK-nın inzibati orqanlar şöbəsinin keçmiş müdiri Sabir Hüseynov xatırlayır ki, bu vəzifədə işlədiyi ilk aylarda birinci katibdən belə bir tapşırıq almışdı: kompleks şəkildə komissiya yaradıb bütün hüquq-mühafizə orqanlarının fəaliyyətini onların respublikanın iqtisadi göstəricilərinin yüksəldilməsindəki rolu baxımından geniş yoxlamasını keçirmək. Yoxlamanın nəticələri üzrə MK qətnaməsi bütün İttifaqda böyük əks-səda doğurdu.

Nəticələr sərt və ədalətli idi, ən başlıcası isə onlar təsərrüfat sahəsində öz müsbət əksini tapdı. Hüquq-mühafizə strukturlarının bir çox rəhbərləri ciddi partiya cəzası aldılar, ya da vəzifələrindən azad olundular.

«Qətnamənin mətni respublika mətbuatında əksini tapmışdı, – deyə Sabir Hüseynov sözünə davam etdi. – Bu, Moskva təqdir edəndən sonra həllini tapmışdı. Heydər Əliyevin Kapitonovla söhbəti mənim yanımda olmuşdu.

– İvan Vasilyeviç, biz hüquq-mühafizə orqanlarının əsaslı yoxlamasını keçirdik. Onların iqtisadiyyatı inkişaf etdirmək şərtlərini necə təmin etdiklərini araşdırdıq. Ciddi qanun pozuntuları aşkara çıxarıldı. Bir sıra vəzifəli şəxslər layiqli cəzalarını aldılar. Sizi məlumatlandıraraq, həmin materialların dərc olunması üçün icazə vermənizi xahiş edirəm. Zənnimcə, bu, zəhmətkeşlər üçün təkcə maraqlı olmaqla qalmayacaq, həm də respublikanın partiya komitəsi onların normal işi və məişəti üçün mümkün olan hər şeyi etdiyi üçün təşəbbüskarlıqlarını artıracaq...

– Çox gözəl, Heydər Əliyeviç! Çox gözəl! Məsələnin bu cür qoyuluşuna yerlərdəki partiya komitələrində rast gəlməmişdim. Əlbəttə ki, dərc edin. Bundan əlavə, bu qətnaməni sizin geniş şərhinizlə mənə göndərin. Güman edirəm ki, Sov.İKP MK sizin maraqlı təcrübənizi respublikalar arasında yayacaq. Siz çox böyük iş görmüsünüz...

Doğrudan da, tezliklə Sov.İKP MK Azərbaycan partiya təşkilatının işini ölkənin bütün partiya komitələrinin öyrənməsi və tətbiq etməsi barədə qərar çıxartdı.

Aradan bir qədər də keçəndən sonra əhalinin hüquqi biliklərinin vəziyyəti barədə məsələyə baxılmasını mənə təklif etdi. Bu məsələni əməlli-başlı öyrənəndən sonra şöbə belə qərara gəldi: vəziyyət o qədər də ürəkaçan deyil. Bu məsələ ilə əlaqədar təqdim olunmuş arayış MK Bürosunda müzakirə olundu. Qərar çıxaranda, Heydər Əliyev birdən qeyd etdi:

– Sabir müəllim, rayon və şəhər partiya komitələri yanında hüquqi biliklərin xalq universitetlərinin yaradılmasını ayrıca bənd kimi qanuna daxil etmək pis olmazdı.

Onun təklif etdiyi və qərara daxil etdiyim cümlə bütün ölkəyə yayıldı. Sov.İKP MK ölkənin bütün rayon, şəhər, vilayət və respublika partiya komitələrinə əmək kollektivlərində hüquq-maarifçilik işinə diqqət yönəltməyi və hər yerdə xalq hüquqi biliklər universitetlərini yaratmağı tövsiyə etdi...»

* * *

İqtisadi sahədəki uğurlar və Heydər Əliyevin ölkənin hər yerində geniş əks-səda doğuran uğurlu təşkilati təşəbbüsləri Kremlin diqqətindən kənarda qala bilməzdi.

**1979-cu il avqustun 24-də** SSRİ Ali Soveti Rəyasət Heyətinin Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi yoldaş Heydər Əliyevə Sosialist Əməyi Qəhrəmanı adı verilməsi barədə fərmanı dərc olundu.

«Xalq təsərrüfatının inkişafı, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi, hər il bütün növdən olan kənd təsərrüfatı məhsullarının dövlətə satılması üzrə plan və sosialist öhdəliklərinin artıqlaması ilə yerinə yetirilməsinin təmin edilməsi üzrə XXV partiya qurultayının qərarlarının uğurla həyata keçirilməsi üçün respublikanın kommunistlərinin və bütün zəhmətkeşlərinin səfərbər edilməsindəki böyük təşkilatçılıq və siyasi fəaliyyətinə görə Sov.İKP MK Siyasi Bürosuna üzvlüyə namizəd, Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi yoldaş Heydər Əlirza oğlu Əliyevə Lenin ordeni və «Oraq və çəkic» qızıl medalı təqdim olunmaqla Sosialist Əməyi Qəhrəmanı adı verilsin.

***SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.Brejnev,***
***SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi M.Georqadze.***
**Moskva, Kreml,**
**24 avqust 1979-cu il».**



**Sentyabrın 7-də** bütün mərkəzi və respublika qəzetləri L.Brejnevin və Heydər Əliyevin Kremldə Heydər Əliyevə Lenin ordeni və «Oraq və çəkic» qızıl medalının təqdim olunma mərasimindən sonrakı çıxışlarını dərc etdilər.

L.Brejnev demişdi: «...Mükafat böyük və dərin məna kəsb edir. Həmin mükafata, Heydər Əliyeviç, təkcə sizin şəxsi və uğurlu fəaliyyətiniz yox, mühüm partiya qərarlarının yerinə yetirilməsində, respublikanın hərtərəfli inkişafında, Sovet Vətənimizin zənginləşməsi və qüdrətlənməsində iştirakı olan Sovet Azərbaycanının bütün zəhmətkeşləri layiq görülüblər.

Ona görə də, düşünürəm ki, sizin təltifinizi Azərbaycanın bütün əməkçiləri onların xidmətlərinə və uğurlarına verilən qiymət kimi məmnuniyyətlə qəbul edəcəklər.

Heydər Əliyeviç, siz Azərbaycan KP MK-ya başçılıq etdiyiniz on il müddətində kommunist-rəhbərə məxsus zəruri keyfiyyətləri qətiyyətlə nümayiş etdirdiniz. Siz Azərbaycan zəhmətkeşlərinin əldə etdiyi müsbət və davamlı nəticələrə öz payınızı əlavə etmisiniz, mövcud olan çatışmazlıqların aradan qaldırılması, vaxtı çatmış böyük vəzifələrin həll olunması üçün əlinizdən gələni edirsiniz.

Bax, mükafat bütün bunlara görədir. Layiqli, qazanılmış mükafatdır, Heydər Əliyeviç».

*Mən «Pravda» qəzetində dərc olunmuş fotoya baxıram: Brejnevin, Qromıkonun, Kosıginin, Suslovun yanında, birinci sırada – Lider, yaraşıqlı, qədd-qamətli, xoşbəxt Əliyev dayanıb. Üçüncü sırada isə, kiminsə çiyninin arxasında güclə başını çıxaran gələcək və sonuncu baş katib Mixail Qorbaçov görünür. O hələlik çox sakitdir, nəzəri cəlb etmir, yalnız uzaqdan-uzağa Heydər Əliyevin şöhrətinə və hörmətinə paxıllıq edir. Bu həsəd hissi qəhrəmanımızın taleyində çox fəlakətli rol oynayacaq və az qala faciəli sonluqla nəticələnəcək. Ancaq bu barədə romanımızın sonrakı hissələrində bəhs edəcəyik.*

Heydər Əliyevin dövlət və hökumət mükafatları az deyildi. Ordenlərin ən gur «ulduz yağışı» 70-ci illərə düşür: 1971, 1973, 1976-cı illərdə Azərbaycan KP MK-nın birinci katibi Lenin ordeni ilə təltif olunub. 1982-ci il martın 10-da daha bir ordenlə – Oktyabr inqilabı ordeni ilə mükafatlandırıldı, Y.Andropovun hakimiyyəti dövründə isə ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı aldı.

Bu gün Brejnev dövründən danışarkən keçmiş SSRİ rəhbərlərinin bu və ya digər respublika, diyar və vilayəti mütəmadi olaraq ulduz yağışına qərq etməsini, istəkli silahdaşlarını mükafatlarla həvəsləndirməsini lağa qoymaq bir adətə çevrilib. Ancaq mənə elə gəlir ki, burada kinayə, lağ yersizdir. İnsanlar bu orden və medalları yaxşı işlərinə, görkəmli mütəxəssis kimi uğurlarına görə alırdılar və bu mükafatlarla haqlı olaraq fəxr edirdilər. Kim bilərdi ki, otuz ildən sonra əzəmətli bir dövlət dağılacaq, SSRİ-nin çökməsi ilə çoxsaylı sovet ordenləri də öz qüvvəsini itirəcək. Heydər Əliyev özü heç vaxt heç yerdə öz mükafatlarından söhbət salmırdı. Yalnız o vəfat edəndən sonra əliyevşünas-alim İradə Hüseynova Moskva arxivlərində axtarış apararaq Heydər Əliyevə sovet orden və medallarının verilməsi ilə bağlı qərarların tam siyahısını respublika mətbuatında dərc etdirdi *(bax: «Bakinskiy raboçiy». 2004. 22 iyun)*.

**1980-ci il oktyabrın 30-da** Lenin adına sarayda Azərbaycan zəhmətkeşlərinin 1980-ci ilin plan və sosialist öhdəçiliklərinin yerinə yetirilməsinə, eləcə də Sov.İKP MK-nın baş katibi L.Brejnevin təbrikinə həsr olunmuş mitinqi keçirildi.

Heydər Əliyevin bu mitinqdəki çıxışı xüsusi səmimiliyi ilə seçilirdi. Yekun rəqəm və statistik göstəriciləri sadalamaqla yanaşı, o bu uğurların nəyin bahasına əldə olunduğundan, onların birgə necə gərgin əmək sərf etdiklərindən danışırdı:

«...Kənd təsərrüfatı qüvvələrin və səylərin xeyli gərginləşdirilməsini tələb edən çətin və mürəkkəb işdir. Hər bir kənd təsərrüfatı ilinin öz xüsusiyyətləri, öz çətinlikləri və mürəkkəblikləri vardır. Onuncu beşilliyin bütün əvvəlki illərində olduğu kimi, 1980-ci ildə də Azərbaycan KP MK kənd təsərrüfatı məsələləri ilə hər gün yaxından məşğul olmuş, kənd təsərrüfatı istehsalının bütün məsələlərini müntəzəm surətdə nəzərdən keçirmiş və həll etmişdir. Bu gün biz yekun vurmaq, əmək qələbəmizi bayram etmək üçün toplaşmışıq. Lakin geriyə, arxada qalmış kənd təsərrüfatı ilinə nəzər saldıqda bu yolda nə qədər mərhələ, nə qədər mürəkkəb və çətin dövrlər olduğunu xatırlayırsan.

Biz Azərbaycan KP MK-da, rayonların partiya, sovet və təsərrüfat fəalları yığıncaqlarında, kənd təsərrüfatı rayonları fəallarının zona müşavirələrində və zona yığıncaqlarında tez-tez görüşmüşük. Həmişə yüksək məhsul yetişdirilməsinin, yığıma hazırlığın hər bir mərhələsində və yığım zamanı bütün məsələləri birlikdə müzakirə etmişik. Biz hər dəfə yeni məsələləri müzakirə etmişik, hər dəfə yeni



çətinliklərdən danışmışıq. Bu gün razılıq hissi ilə demək olar ki, məsələlər əsasən vaxtında həll edilmiş, yerlərdən gələn xahişlər əsasında əlavə tədbirlər görülmüş, partiyanın kənd təsərrüfatı sahəsində qarşıya qoyduğu vəzifələri müvəffəqiyyətlə həyata keçirmək üçün əlavə maddi-texniki vəsait ayrılmışdır.

Bu və ya başqa bir işdə, yaxud kənd təsərrüfatının ayrı-ayrı sahələrində yol verilən nöqsanlarla əlaqədar olaraq keçirilən yığıncaqlarımız, eləcə də MK Bürosunun iclasları bəzən sərtliyi ilə yadda qalırdı. Lakin təcrübə göstərirdi ki, məsələlərin həlli üçün müntəzəm görüşlər, operativlik, Azərbaycan KP MK-nın, yerli partiya, sovet və təsərrüfat orqanlarının ciddi tələbkarlığı yaxşı nəticələr verir...

...Əbəs yerə gərgin işləməmişik, əməyimizin əvəzi qat-qat çıxır, bütün bunlar partiya və xalq tərəfindən yüksək qiymətləndirilmişdir, bütün bunlar Sovet Azərbaycanımızın şöhrətini getdikcə yüksəklərə qaldırır»[25].

## Azərbaycanda saxtakarlığa yol verilirdimi?

1990-cı ildə Andrey Karaulov Heydər Əliyevdən bu barədə soruşanda MK-nın keçmiş birinci katibi səmimiyyətlə cavab verdi:

«Mənə qədər də, mənim fəaliyyət dövrümdə də ölkənin hər yerində olduğu kimi (onlara indi də yol verilir) Azərbaycanda da təsərrüfatın müxtəlif sahələrində saxtakarlığa, şişirdilmiş rəqəmlərə yol verilirdi. Respublikada vəzifəli şəxslər tərəfindən rüşvətxorluq, oğurluq, şişirdilmiş rəqəmlər və digər sui-istifadə, cinayət halları geniş yayılmışdı. Biz elə fəaliyyətimizi də bütün neqativ hallara, o cümlədən gözdən pərdə asmağa qarşı fəal mübarizədən başladıq. Onlara son qoyuldumu? Xeyr. Onlar üzə çıxmaqda davam edirdilər. Məhz üzə çıxmaqda. Bu, bütöv bir rayon miqyasında, müəssisələrin, tikintilərin, kolxoz və sovxozların işində özünü göstərirdi. MK-ya məlum olan faktların hamısı Büroda müzakirə olunurdu. Biz belə hesab edirdik ki, bu yolla biz istənilən səviyyədə olan rəhbər işçiləri qanunazidd hərəkətlərdən çəkindirə bilərik».

Karaulov soruşur ki, Heydər Əliyev və onun komandası bu halların kökünü kəsməyə nail ola bildilərmi? Heydər Əliyev yenə də səmimiyyətlə cavab verir: «**Təəssüf ki, bu halları tam aradan qaldırmaq mümkün olmadı**»[26].

Heydər Əliyev həmişə düz, səmimi cavablar verirdi, çatışmazlıqları, problemləri ört-basdır etməyi lazım bilmirdi. Şişirdilmiş rəqəm-

lər, saxtakarlıq MK-nın birinci katibinin ən ağrılı yeri idi. Bir tərəfdən respublika üzərinə dövlətə pambıq, üzüm, tərəvəz satışı üzrə çox yüksək öhdəliklər götürürdü, digər tərəfdən isə planı şişirtmə və fırıldaq yolu ilə artıqlaması ilə yerinə yetirməyə cəhd göstərənlər ciddi cəzalandırılırdı.

1975-ci ilin martında Azərbaycan KP MK Bürosu «Sənaye müəssisələrində, nəqliyyatda, tikintidə, kolxoz və sovxozlarda planın yerinə yetirilməsi barədə hesabat göstəricilərinin şişirdilməsi və digər təhrifedilmə faktlarının aradan qaldırılmasına partiya, sovet təşkilatlarının, təsərrüfat və inzibati orqanların diqqətinin gücləndirilməsi barədə» qərar qəbul etdi.

Sonralar respublikanın keçmiş prokuroru Qamboy Məmmədovun şikayətinə əsasən aparılmış yoxlamanın nəticələri üzrə MK-nın birinci katibi Kamran Bağırovun Sov.İKP MK üçün hazırladığı arayışda oğurluq və şişirdilmiş rəqəmlərlə bağlı işlərin əksəriyyətinin 70-ci illərdə Mərkəzi Komitənin və ya nəzarət orqanlarının öz təşəbbüsü ilə aradan qaldırıldığını sübut edən maraqlı faktlar göstərilir:

«...O dövrdə araşdırılmış Lənkəran, Balakən və Kürdəmir rayonlarındakı, Bakı Şin zavodunda, Astara meyvə-tərəvəzçilik idarəsində, Quba və Xaçmaz kənd təsərrüfatı texnikası birliklərindəki və bir çox digər müəssisələrdəki çox böyük oğurluq və saxtakarlıqla bağlı işlər prokurorluğun təşəbbüsü olmadan qaldırılmışdı. ...Sumqayıt şəhərindəki Azərbaycan Boru-prokat zavodu işçilərinə açılmış cinayət işi də bu zavodun direktorunu saxtakarlığa və dövləti aldatdığına görə partiya sıralarından xaric edən MK-nın qərarı ilə bağlı idi».

Heydər Əliyevlə tez-tez rayonlara gedən Həsən Nemət oğlu Seyidov bununla bağlı xatırlayır: «Demək olmaz ki, xüsusilə də kənd təsərrüfatında saxtakarlıq, fırıldaqçılıq yox idi. Ancaq Heydər Əliyev bunlarla mübarizə aparmağa çalışır, çoxlarını cəzalandırırdı. Demək olar ki, kənd təsərrüfatı məsələlərinə həsr olunmuş hər bir partiya fəalları yığıncağında o saxtakarlıqla bağlı məsələni gündəliyə çıxarır və deyirdi ki, məhsuldarlığın yüksək göstəricilərini belə hallar hesabına əldə etmək bizə lazım deyil, biz saxtakarlıqla mübarizə aparacağıq. Rayonların təsərrüfat fəaliyyətinin müzakirəsi zamanı Heydər Əliyev həmişə diqqəti buna yönəldirdi: qoy 1 milyon olmasın, 800 min ton olsun, ancaq bu rəqəm real olsun».

O dövrdə Heydər Əliyevin sözsüz etibar etdiyi, inandığı adamlardan biri Lənkəran şəhər partiya komitəsinin birinci katibi İsa Məmmədov idi. Baxmayaraq ki, İsa Məmmədov bir neçə il ərzində rayon



miqyaslı rəhbər çərçivəsindən yüksələrək Lənkəranı daimi liderlər sırasına çıxardı, bütün mümkün olan mükafatlara, hətta o illərdə ən yüksək Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü, Heydər Əliyev onu MK-ya işə 10 il keçəndən sonra gətirdi.

1981-ci il yanvarın 30-da Azərbaycan Kommunist Partiyası MK-nın təşkilat məsələləri ilə bağlı plenumunda İsa Məmmədov Mərkəzi Komitənin kənd təsərrüfatı üzrə katibi seçildi. Yeni kabinetində əsaslı şəkildə yerini bərkitməmiş, dərhal qızğın fəaliyyətə başladı. Özünə yaxın olan raykom katiblərindən ayrı-ayrı təsərrüfatlarda pambıqçılıq və heyvandarlıqda saxtakarlığa, şişirdilmiş rəqəmlərə yol verildiyini öyrənəndən sonra o zəruri materialları topladı, bəzi faktları dəqiqləşdirəndən sonra Heydər Əliyevin yanına gedib vəziyyəti danışdı.

«Bərdədə və bir sıra digər rayonlarda qeydə alınmamış pambıq əkilən sahələr vardı. Kolxoz sədrləri sahələrin ölçülərini qəsdən kiçildirdilər ki, hər hektardan məhsuldarlıq yüksək görünsün. Bizim Pambıqçılıq ETİ-də ən yaxşı halda hər hektardan 28 sentner, Bərdədə və digər rayonlarda isə 35 sentner alırdılar. Bundan əlavə, kağız üzərində iribuynuzlu mal-qaranın sayının az göstərilməsi kimi ziyanlı təcrübə yayılmağa başlamışdı ki, hər inəkdən süd sağımı çox görünsün. Mən bütün bunları yoxlayıb məlumat verdim».

Heydər Əliyev kənd təsərrüfatı nazirinin və Nazirlər Sovetinin kənd təsərrüfatı məsələləri ilə məşğul olan sədr müavininin iştirakı ilə respublikanın 19 pambıqçılıq rayonları katiblərinin iclasını keçirməyi İsa Məmmədova tapşırdı.

İclasdan öncə kimin əslində nə qədər pambıq yığması, kimin nə qədər qeydə alınmamış əkin sahəsi olması barədə geniş arayışı Heydər Əliyevin stolunun üstünə qoydular.

O, bir-birinin ardınca Bərdə, Sabirabad, Ağdaş, Şamxor rayon partiya komitələri katiblərini ayağa qaldırmağa başladı. Biri 20 min ton, o biri 10 min ton artıq yazdırmışdı. Həmin gün Heydər Əliyev onlara çoxlu acı sözlər dedi: «Yaxşı ki, respublikada, heç olmasa, bir nəfər mənə hörmət edən adam tapıldı və həqiqəti mənə söylədi».

«Yığıncaqdan sonra mən yerlərdə iclas keçirmək üçün rayonlara yollandım, – deyə İ.Məmmədov söhbətini davam etdirdi. – Saxtakarlıq edənlər cəzalandırıldılar, bir sıra raykomun birinci katibləri məsələn, Murtuzayev işdən çıxarıldı, Şamxor rayon partiya komitəsinin birinci katibi isə həbs olundu.

Yəni ki, düzünü deməliyik ki, saxtakarlıq, şişirdilmiş rəqəmlər vardı, ancaq biz onlara qarşı mübarizə aparırdıq. Heydər Əliyev də

həyəcanlı məlumata qarşı vaxtında ölçü götürərək həm özünü, həm də respublikanı böyük bəladan xilas etdi».

Təəssüf ki, bir müddətdən sonra İsa Məmmədovun özü rayonlara rəhbərliyin ziyanlı metodlarını tətbiq etməklə, təzyiq göstərməklə gündəlik üzüm və pambıq yığımı normasının əsassız yüksəldilməsini tələb edirdi. Mənimlə söhbəti zamanı kənd təsərrüfatı şöbəsinin keçmiş müdiri Zakir Abdullayev bu barədə xatırladıqlarını danışdı. Bundan qabaqkı fəsillərdə artıq əmin olduğumuz kimi, Z.Abdullayev bu cür işlərdə kifayət qədər prinsipial, qətiyyətli, hətta bir qədər də vasvası adam idi.

**Zakir Abdullayevlə söhbətdən:**

«İsa Məmmədov həqiqətən saxtakarlıq barədə məsələ qaldırdı. O, Heydər Əliyevə məlumat verdi ki, raportlarda göstərildiyi qədər pambıq yığılmayıb.

Həqiqətən də, 1981-ci ildə bütün pambıqçılıq rayonlarının birinci katiblərini MK-ya dəvət etdilər. Yığıncaqda Heydər Əliyev, Şamil Rasizadə, İsa Məmmədov və mən iştirak edirdik. Əvvəlcə İsa Məmmədov məlumat verdi:

– Heydər Əliyeviç, Sov.İKP MK-dan da çoxlu siqnallar daxil olur, çoxlu şikayətlər var, işləri nəzarətə götürürlər, Moskvadan yoxlama komissiyaları gəlir. Yoxlama zamanı aşkara çıxır ki, bəzi rayonlar həqiqətən də şişirtmələrə, saxtakarlığa yol veriblər.

Lakin konkret olaraq heç kimin adını çəkmədi.

Ondan sonra Heydər Əliyev çıxış elədi. Onları necə lazımdırsa, danladı.

– Siz bizim gördüyümüz böyük işlərə ləkə vurursunuz. Qoy pambığımız bir milyon yox, 800 min ton olsun, 900 min olmasın, 700 min ton olsun. Bu qorxulu deyil. Planımız onsuz da 560-600 min tondur. Biz onsuz da planı artıqlaması ilə yerinə yetirəcəyik. Pambığı 10-15 faiz artıqlaması ilə yığmaq isə böyük uğurdur.

O, birinci katibləri bir-bir qaldırıb qulaqburması verirdi: «Mən sənə inanıb, etibar edirdim, sənsə... Bilirsən, bu nə ilə qurtara bilər?»

Təşkilati nəticələr çıxarıldı, ancaq bir müddət keçdi, həmin İsa Məmmədov rayonlara zəng vurub, birinci katiblərdən tələb edirdi ki, «7 faiz artım verməlisən».

Məhsul yığımı dövründə hər gün mənə rayonlar üzrə məlumatlar gəlirdi. Onları ümumiləşdirib birinci katib, ikinci katib və bu sahəyə nəzarət edən katib üçün yazı makinasında çap eləmək lazım idi. Bu



məlumat Heydər Əliyev işə gələnə – səhər saat 10-a qədər hazır olmalı idi. Kabinetinə gələn kimi, o ilk növbədə məlumatlara baxıb zəng vururdu: «Nə üçün filan rayon az yığıb? Nəyə görə filan rayon artıq neçə gündür ki, geri qalır?» Mən izah edirdim ki, yağış yağıb, daha hansısa səbəblər var və s.

Həmin ərəfədə İsa Məmmədova demişdim:

– Hətta maşınla yığım şəraitində belə 6-7 faiz artım mümkün deyil. Artım 2-4 faiz ola bilər.

– Sən hər şeyə bədbinliklə yanaşırsan, – deyə o əlini yellədi.

Ertəsi gün artıq saat 10-dur, məlumat isə yoxdur. İsa Məmmədovun köməkçisi Valeri Semyonov idi. Qabaqlar o rəhbərlik etdiyim şöbədə təlimatçı işləyirdi. Ona zəng vurdum.

– Nə olub, niyə məlumat yoxdur? İndilərdə Heydər Əliyeviç işə gələcək, məndən soruşa bilər.

– Hə, bir qədər ləngiyir, – deyə mızıldandı.

Artıq 11-ə işləyir, məlumat isə hələ də yoxdur. Semyonovun yanına getdim.

– Nə səfehləyirsən?

– Başqa cür mümkün deyil. İsa Əliyeviç sizə məlumat verməyi mənə qadağan edib.

İsa Məmmədov MK-nın şöbə müdirinə məlumat verməyi qadağan etmişdi ki, mən oradakı uydurma rəqəmləri görməyim.

İkinci belə bir əhvalat Heydər Əliyev artıq Moskvada olanda, mən isə Xaçmazda raykomun birinci katibi işləyəndə baş verdi. Üzüm üzrə planı artıqlaması ilə yerinə yetirmişdik. Noyabrda İsa Məmmədov mənə zəng çaldı:

– Rayonların hamısı mənə zəng vurub, əhalidən üzümü satın almağa icazə istəyirlər. Sənin rayonunda isə əhalidən bir kiloqram da alınmayıb. Nə üçün? Orada üzüm var axı, daha üç-dörd min ton tədarük elə.

Bu isə açıq-aydın saxtakarlıq idi. Əhalidən üzüm alınmırdı. Kolxoz və sovxozlardan daxil olan üzümün şəkərliliyini azaldırdılar, sonra da göstərirdilər ki, əhalidən üzüm alınmasına bu qədər pul xərclənib. Əslində isə həmin pullar mənimsənilirdi.

– İsa Əliyeviç, – dedim, – burada əhalinin üzümü yoxdur. Tərəvəz olur, üzüm isə yoxdur. Mən bunu eləməyəcəyəm.

Heydər Əliyev Moskvaya gedəndən sonra o belə təkid edirdi, birinci katiblərə təzyiq göstərirdi.

İndi isə iddia edir ki, o saxtakarlığa, şişirtmələrə qarşı qəhrəmanlıqla mübarizə aparıb».

Naxçıvan vilayət komitəsinin keçmiş birinci katibi Kamran Rəhimov mənə danışırdı ki, təsərrüfat rəhbərlərinin saxtakarlıq yolu ilə planı artıqlaması ilə yerinə yetirmələri barədə raport vermək cəhdlərinin qarşısını dəfələrlə alıb:

«O vaxtlar şişirtmələrə, sosialist mülkiyyətinin talan edilməsinə, rüşvətxorluğa qarşı fəal mübarizə aparılırdı.

Bir dəfə Büroda çıxış edərkən dedim ki, Bir may adına kolxozda İsa Əliyevin briqadası hər hektardan 70 sentner məhsul yığır. MK-nın ikinci katibi Yuri Puqaçov mənə inanmadı, fikirləşdi ki, saxtakarlıq edirəm.

Taxıl yetişəndə Puqaçova zəng vurub dedim.

– Yuri Nikolayeviç, gəlin, mənim yalan danışmadığıma özünüz şahid olun.

O gəldi və biz həmin kolxoza yollandıq.

– Sahəni özünüz seçin, qoy kombayn məhsulu yığsın. Sonra çəkək.

Hər hektardan 76 sentner alındı.

Ancaq fırıldaqçılar da olurdu. Bir dəfə «Xanlıqlar» sovxozuna gəldim. Gördüm ki, bir qadın çığır-bağır salıb, nəyəsə etiraz edir. Maraqlandım, görüm nə baş verib? Qadın dedi:

– Yoldaş Rəhimov, mən təhvil vermək üçün üzüm gətirmişdim. Üzümün şəkərliliyi 24-25 faizə çatır, onlar isə göstəricini qəsdən azaldırlar.

Mən başqa laboratoriyadan adam çağırdım. Şəkərliliyi təyin etməyi tapşırdım. Əmin oldum ki, həmin qadın haqlıdır. Həmin dəqiqə yalan məlumatlar verən laborantı işdən qovmaq barədə göstəriş verdim.

Tək-tək adamlar üzümü ayrıca təhvil verirdilər, təsərrüfatlarsa ayrı. Mən nəzarət edirdim ki, bu iki məhsulu qatmasınlar, birini o birinin yerinə təhvil verməsinlər.

Bir gün mənə xəbər verdilər ki, Sədərəkdən olan ağsaqqallar üzüm yığımı ilə bağlı hansısa məsələyə görə qəbula yazılıblar. Təəccübləndim, çünki artıq oktyabrın sonu idi və məhsul tam yığılmışdı. Tapşırdım ki, onları yanıma buraxsınlar. Gəldilər. Dedilər ki, Sədərəkdə yetişdirilən üzümün həcmini saxtalaşdırırlar. Şəkərliliyi azaldırlar, bunun hesabına məhsulun həcmini artırırlar.

O vaxtlar Bakıda üzümçülük üzrə Dövlət Komitəsi mövcud idi. Guya ki, oradan göstəriş gəlmişdi ki, şəkərliliyi azaldıb, bunun hesabına yığılan üzümün həcmini çoxaltsınlar. Dövlət Komitəsinin sədri, çox gözəl münasibətdə olduğum Yunis Rzayevə zəng vurdum.

– Yunis Qəhrəmanoviç, bu işlərə son qoyun! Camaatı saxtakarlığa alışdırmaq yaxşı deyil. Məhsulu belə artırmaq mənə lazım deyil. Nə qədər yığmışıq, o qədər də təhvil verəcəyik.

Mənə qədər hansı proseslər getmişdi, şişirtməyə görə neçə-neçə adamı həbs etmişdilər. Ancaq nə qədər ki, mən oradaydım, heç kim ziyan çəkmədi, bir dənə də olsun cinayət işi açılmadı. Özü də üzüm, taxılçılıq məhsulları ilbəil artırdı. Mən Naxçıvana təzə-təzə gələndə cəmisi 10 min ton üzüm təhvil verirdik. 1983-cü ildə isə artıq məhsul 100 min tona çatırdı».

Misal gətirilmiş nümunələrdə o dövr üçün qeyri-adi və göydəndüşmə bir şey yoxdur: saxtakarlıq, şişirdilmiş rəqəmlər və oğurluq halları sosialist iqtisadiyyatının kifayət qədər geniş yayılmış təzahürü, əsas qüsurlarından biri idi. Karaulova verdiyi müsahibədə Heydər Əliyev bu barədə səmimiyyətlə danışmışdı. Qeyri-adi olan başqa şey idi: Azərbaycanda bu cür nöqsanlara qarşı mübarizə aparırdılar, şişirtmələrə görə cəzalandırırdılar, işdən çıxardırdılar, məhkəməyə verirdilər, aşkara çıxarılan faktları ictimaiyyətə çatdırırdılar. Həmsöhbətlərimin hamısı, hətta hansısa səbəbdən Heydər Əliyevə qarşı qəzəbi olanlar da etiraf edirlər: 70-ci illər dövründə şişirtmələr Azərbaycan üçün xarakterik olmayıb.

Bu, respublikanın rifahının və nüfuzunun yüksəldilməsinə yönəlmiş nəcib məqsədlərlə bu məqsədlərə nail olma vasitələri arasında dramatik təzad, ziddiyyət idi. Bir tərəfdən, respublika öz üzərinə çox yüksək sosialist öhdəlikləri götürürdü, digər tərəfdən isə Heydər Əliyev onları nəyin bahasına olursa olsun yerinə yetirməyin qəti əleyhinə idi. Onun həyat meyarı yalnız zəhmətlə, fədakar, coşğun əməklə məqsədə çatmaq idi. Və o, insanlara öz simasında nümunə göstərməyə çalışırdı.

Birinci katib dözülməz istidə, yatıb dincəlməyi, istirahəti belə unudub, kolxoz briqadiri kimi tarlaları, plantasiyaları dolaşır, hər kolun üstündəki «ağ qızıl» qozalarını bir-bir sayır, bütün komandasını əldən salır, müharibə dövründəki kimi tarlalardan gələn xəbərlərlə nəfəs alır, təsərrüfat rəhbərlərindən tələb edirdi ki, kəndin bütün ehtiyac və tələblərini maneəsiz təmin etsinlər. Əmək qabaqcıllarını orden və medal yağışına tuturdu. O, həmin adamlara satqınlıq hesab etdiyi yalan və saxtakarlıqdan başqa hər şeyi bağışlaya bilərdi. Bu

cür şeylərə görə ilişən adamları isə o dövr üçün çox ağır cəza gözləyirdi.

1986-cı ildə Heydər Əliyev hələ SSRİ Nazirlər Soveti sədrinin birinci müavini işləyəndə Liqaçovun təşəbbüsü ilə respublikaya guya ki, Azərbaycanın özündən daxil olan sıqnalları yoxlamaq üçün Aslaxanovun və Barannikovun başçılığı ilə 1500 (!) nəfərdən ibarət böyük bir operativ istintaq briqadası göndərilmişdi. Əslində isə onlar Heydər Əliyevi gözdən salmaq, ləkələmək üçün material toplamağa gəlmişdilər.

«Yuxarıların» təzyiqi ilə onlar nəyin bahasına olursa olsun, Azərbaycanda böyük miqyaslı saxtakarlıq faktları aşkara çıxarmağa və sonra da Qdlyanın və İvanovun Özbəkistanda açdığı hay-küylü «pambıq işi» kimi məsələ qaldırmağa cəhd göstərirdilər.

Moskvadan gələn müstəntiqlər rayonlara paylaşdılar, təsərrüfat rəhbərlərini, briqadirləri, manqa başçılarını istintaqa çağırmağa başladılar. Qərəzçiliklə, hədə-qorxu gəlməklə istintaq edir, insanları müvəqqəti olaraq saxlayır, bəzən hətta həbs edirdilər. Saxtakarlığı, şişirtmələri boynuna almağa məcbur edirdilər. Hamının, eləcə də Moskvada işləyən Heydər Əliyevin əsəblərini tarıma çəkdilər. Əlbəttə ki, o, doğma respublikasında baş verənlərə biganə qala bilməzdi. Ancaq istintaq briqadasının səylərinə baxmayaraq, köməkçisi Şahnazarovun Qorbaçova vəd etdiyi kimi, «bay-küylü» cinayət işi açmaq (elə bir cinayət işi ki, Rəşidovunku onun yanında toy-bayrama gedəsi olsun) onlara müyəssər olmadı. Çünki Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə çox müdrikliklə və uzaqgörənliklə hərəkət edərək ona qədər respublikada geniş yayılmış saxtakarlığı və hesabatlardakı yanlışlıqları aradan qaldırmağa çalışırdı. Bədnamlıqla ad çıxaran İvanov-Qdlyan qrupu 80-ci ilin ortalarında irimiqyaslı saxtakarlığa görə az qala Özbəkistanın yarısını barmaqlıqlar arxasına göndərdi. Azərbaycana isə onların dişi batmadı. Çünki Heydər Əliyevin özü onlardan çox-çox qabaq tədbir görərək, yalan üzərində nüfuz və uğur qazanmağa cəhd göstərən kadrları vaxtında kənarlaşdırmışdı.

## Xalq təsərrüfatında böhran hallarının dərinləşməsi

70-ci illərin ortalarında ölkə iqtisadi inkişafının zirvəsinə çatdı, sonra isə tədricən böhran halları güclənməyə başladı. Təəssüf ki,



70-ci illərdə Brejnev və onun komandası Kosıginin yarımçıq islahatlarından uzağa gedə bilmədilər, Macarıstanda və ya Yuqoslaviyadakı islahatlar təcrübəsini mənimsəmədilər, tədricən bazar münasibətlərinə, azad iqtisadi zonalara, xarici sərmayə axınına keçidi təmin edə bilmədilər. Sovet dövrünün bir çox tədqiqatçıları hesab edirlər ki, radikal iqtisadi islahatlara SSRİ-nin zəngin enerji sərvətləri ilə birlikdə dünyada neft və qazın yüksək qiymətləri çox mane oldu. Ona görə də, ölkə neft amilindən asılı olaraq, əsasən ekstensiv inkişaf yolunu seçmişdi.

«Sənaye istehsalı, tədricən də olsa artırdı. Ancaq iki təhlükəli cəhət diqqəti daha çox özünə cəlb edirdi: yanacaq hasilatı durmadan artırdı. On beş il ərzində ölkənin bütövlükdə tarixində hasil olunan qədər yanacaq istehsal olunmuşdu... İkincisi, ümumi məhsul buraxılışında gündəlik tələbat mallarının payı durmadan azalırdı. Ölkə keyfiyyətcə deyil, kəmiyyətcə inkişaf etməkdəydi...

Dünyada gedən texnoloji inqilab bizdən yan keçdi...

Vəziyyət ona görə mürəkkəbləşirdi ki, sosializm modelinin özünün yeniləşdirilməsi, təkmilləşdirilməsi yolları rədd edilirdi. Əksinə, təşkilati və bürokratik həll yollarına inam güclənirdi...

Kənd təsərrüfatı və ərzaq problemi iqtisadiyyatımızda «Axillesin dabanı»na dönmüşdü. Ancaq problemlərin həlli, artıq bundan əvvəlki dövrdə səmərəsiz olduğunu göstərmiş ənənəvi yollarda axtarılırdı. Kolxozların sovxozlaşdırılması, yəni onların dövlətləşdirilməsi siyasəti davam edirdi.

Kimyalaşdırma gözlənilən nəticəni vermədi. 70-ci illərdə SSRİ-nin gübrə istehsalına görə ABŞ-ı ötüb keçməsinə baxmayaraq, kənd təsərrüfatında əməyin məhsuldarlığı bir neçə dəfə aşağı idi.

İqtisadi və texnoloji geriləmənin bir səbəbi vardı: vaxtı çatmış struktur islahatlarından – sənayedə təsərrüfat hesabına keçmə, xidmətlərin kooperativləşdirilməsi, kənddə dəstə və ailə podratlarının tətbiqi və s.-dən baş açmamaq və onların tətbiqindən çəkinmək»[27].

Sovet iqtisadi sisteminin böhranının səbəbləri barədə 1966-cı ildən 1985-ci ilədək SSRİ Dövlət Plan Komitəsi sədrinin birinci müavini işləyən V.Y.İsayev isə belə düşünür: «Məlumdur ki, ölkənin iqtisadiyyatı uzun illər boyu nisbətlə planlaşdırılırdı – büdcənin 60% A qrupunun (ağır sənaye), 40% isə B qrupunun (yüngül sənaye) inkişafına yönəldilirdi. İnkişaf etmiş ölkələrdə iqtisadiyyat xalqın rifahının yüksəldilməsinə istiqamətləndirilir. Biz isə müharibənin törətdiyi fəlakət və dağıntılardan sonra daha çox ölkənin sənayesini və

hərbi gücünü düşünürdük. Planlaşmadakı uyğunsuzluq, qeyri-mütənasiblik məxaric prinsipinin nəticəsi idi. Dövlət büdcəsində xərclər gəlirləri üstələməyə başladı. Ölkə imkanlarından artıq yaşamağa başladı.

Planlar işlənib hazırlanarkən tikintiyə ayrılan sərmayə 25% təşkil edirdi. Mənim kabinetim həmişə ağzınadək dolu olurdu – nazirlər gah daha çox vəsait ayırmağı, gah da planda düzəliş etməyi xahiş edirdilər. Vəsaitlərdən daha artıq istifadə, planların kəsirdə qalması getdikcə təsərrüfatçılıqda adi hala çevrilirdi... Aleksey Nikolayeviç Kosıgin vəziyyətdən çıxmağa yollar axtarırdı. O, həmin illərdə yüngül sənayenin inkişafı üçün çox işlər görmüşdü. Xalq bunu dərhal hiss etmişdi. Kosıgin nüfuz sahibi oldu. O, iqtisadi proseslərə dərindən bələd idi... Ancaq bacarıqlı və səriştəli Aleksey Nikolayeviç hökumət dairələrində doğma adam kimi qəbul olunmadı. Ondan çox ehtiyat edirdilər, çəkinirdilər»[28].

Hətta sovet quruluşunun ən qatı müdafiəçisi, havadarı olan V.Kryuçkov (SSRİ-nin keçmiş DTK sədri) belə etiraf edir ki, son illər ölkə iqtisadiyyatı dərin çat vermişdir: «Valyuta əldə etmək məqsədilə sənaye mallarının, xüsusilə də xammalın ixracına daha çox diqqət yetirməyə başladılar. Ancaq təəssüf ki, əldə olunan vəsait kənd təsərrüfatı məhsullarının alınmasına xərclənirdi. Ona görə də Sovet İttifaqının ixracdan əldə etdiyi valyuta gəliri faktiki olaraq yeyilirdi. Əvvəlki kimi böyük miqdarda vəsait kütləvi tələbat malları bir yana, ərzaq mallarının alınmasına xərclənirdi»[29].

Partiya liderlərinin geniş nitqlərində bütün dünyada sosializmin qaçılmaz qələbəsindən, kapitalizmin labüd məhvindən, Ərzaq proqramının uğurlu həllindən danışılırdı. Bununla belə, sovet adamlarına boş sözlər yox, çörək yedirtməyə borclu olan insanlar isə «lənətə gəlmiş» kapitalistlərlə xaricdən əlavə milyon tonlarla ət və taxıl almaq barədə danışıqlar aparırdılar. Çünki kommunistlər öz xalqını müstəqil surətdə yedirtmək iqtidarında deyildilər.

KP MK-nın təcrübəli aparat işçiləri çoxdan duymuşdular ki, dövlət maşını getdikcə daha çox yolunu çaşdırır. D.Volkoqonov «Yeddi rəhbər» kitabında yazır ki, Brejnevin köməkçiləri yaxınlaşmaqda olan böhranın səbəbləri və onları aradan qaldırmaq yolları barədə tənqidi və konstruktiv fikirləri ağır xəstəliyə tutulmuş Baş katibin dilindən dedirtməyə cəhd edirdilər.

Ölümündən iki ay qabaq Siyasi Büroya gələn Leonid İliç yazılı mətndən gözünü çəkməyərək sosialist ölkələrin «qardaş partiyalarının» rəhbərləri ilə Krımdakı ənənəvi görüşlərindən danışırdı:



«Xoşa gəlməyən hal olsa da, bir faktdır ki, sosialist ölkələri ilə müqavilə üzrə malların göndərilməməsi bir sıra nazirliklərimiz üçün xroniki xəstəliyə çevrilib... Deməyə bilmərəm ki, dostlarımızın QİYŞ (Qarşılıqlı İqtisadi Yardım Şurası) işindən narazılığı nəzərəçarpacaq dərəcədə artır. Onu biz də hiss edirik... Problemin kökü ondadır ki, zaman 30 il bundan öncə bu təşkilat formalaşdığı vaxt yaranan formaları üstələyib... Müttəfiqlərimiz təsərrüfatı idarəetmənin direktiv üsullarını iqtisadi vasitə və stimullardan istifadə ilə uyğunlaşdırmağa səy göstərir, rəhbərliyin həddsiz mərkəzləşməsindən imtina edirlər»[30].

Partiya və dövlət aparatında neqativ halların dərinləşməsi barədə Baş katibə problemlərin həlli üçün təşkilatçılığın və nizam-intizamın möhkəmlənməsi, sərt inzibati tədbirlərin tətbiqinin əsas yol olduğunu nəzərdə tutan Yuri Vladimiroviç Andropov da yazıb məlumat verirdi. Mühüm iqtisadi və siyasi islahatların həyata keçirilməsi, görünür, onların heç birinin ağlına gəlmirdi. Gəlsə də, öz gizli fikirlərini partiya silahdaşları ilə bölüşməməyi üstün tuturdular.

Ölkə həyatında ciddi dəyişikliklərin zəruriliyi barədə, görünür, Heydər Əliyev də tez-tez düşünürmüş. Respublikanın açıq-aşkar uğurlarına baxmayaraq, onun mövcud vəziyyətdən şəxsi narazılığı gündən-günə artırdı. O, yaxşı görürdü ki, MK-nın saysız-hesabsız qətnamələrinə, Büronun qərarlarına, partiya funksionerlərinin cəzalandırılmasına baxmayaraq bir çox istehsal sahələri, xüsusilə əsaslı tikinti, ictimai nəqliyyat, ticarət, məişət, iaşə sahələri öz yerində sayırdı. Qələbə xəbərləri, hər il respublikaya keçici qırmızı bayraq, qabaqcıllara çoxsaylı mükafat və ordenlər verilməsinə baxmayaraq, onun plenumlarda və fəallar yığıncağındakı çıxışlarının ahəngi getdikcə daha çox tənqidi xarakter alırdı. O, istehsalın bütün sahələrini, xüsusilə də yüngül sənayeni, nəqliyyatı, ticarəti tənqid edirdi. Bəzən həmkarları «birinci»ni başa düşmürdülər: ətrafdakıların hamısı növbəti qələbəni və növbəti keçici bayrağı bayram etdiyi halda, nəyə görə o, belə kəskin və açıq-aşkar şəkildə yarımçıq qalmış işlərdən, problemlərdən danışır?

70-ci illərin sonunda Əliyevin çıxışlarından bir neçə nümunə gətirək: 1978-ci il dekabrın 14-də Heydər Əliyev Azərbaycan KP MK-nın plenumunda Sov.İKP MK-nın noyabr (1978) Plenumunun yekunları və respublika partiya təşkilatının plenumun qərarlarından irəli gələn vəzifələri barədə məruzə ilə çıxış etdi. Uğurlar barədə qısaca danışandan sonra, o, xalq təsərrüfatının inkişafını ləngidən konkret

problemlərin təhlilinə keçdi. Yüngül və yeyinti sənayesində malların keyfiyyət və çeşidinin yaxşılaşdırılması kəskin problem kimi qalırdı. Nəqliyyatda, xüsusilə də dəmir yolu nəqliyyatında geriləmələr hiss olunurdu. Respublika əhalisini yerli ət və süd məmulatı ilə təmin etmək vəzifəsi çox ləng yerinə yetirilirdi. 1978-ci ildə yem tədarükü planı müvəffəqiyyətsizliyə uğramışdı. Təsərrüfatsızlıq ucbatından respublika kənd təsərrüfatı məhsulları itkisindən milyonlarla ziyana düşdü. Heydər Əliyev bütün bunlar barədə açıq, birbaşa, günahı olan nazirlik, idarə və ayrı-ayrı rəhbərlərin adını çəkərək danışırdı.

1982-ci il oktyabrın 22-də Bakıda Azərbaycan KP MK-nın Sov.İKP MK-nın Baş katibi L.Brejnevin Bakıdakı təntənələrdə söylədiyi təklif və iradların aradan qaldırılması üzrə respublika partiya təşkilatının vəzifələrini müzakirə edən plenumu oldu.

Heydər Əliyevin çıxışı həmişəki kimi son dərəcə tənqidi və səmimi idi. Bir çox sənaye, kənd təsərrüfatı, su təchizatı, ticarət, tikinti sahələrində yol verilmiş çatışmazlıq və nöqsanları rəqəm və faktlarla açıqladı, ictimai mülkiyyətin oğurlanması, qanunçuluğun, bəzən elə hüquq-mühafizə orqanları işçiləri, hətta rəhbərləri tərəfindən pozulması barədə çoxlu faktlar gətirdi. Öz nitqində Heydər Əliyev yaşayış evlərinin tikintisi sahəsindəki çatışmazlıqlara, Azərbaycanın paytaxtındakı su qıtlığı məsələsinə, ət və süd tədarükü ilə bağlı çətinliklərə də toxundu. O, göstərdi ki, ərzağın çox hissəsi oğurlanıb qara bazarda satılır.

Əbəs yerə deyil ki, aparıcı xarici radiodalğalar onun bu çıxışından ətraflı nümunələr götürürdülər. Heydər Əliyevin şəxsi arxivində Bi-Bi-Si radiostansiyasının Heydər Əliyevin MK-nın oktyabr plenumundakı çıxışına həsr olunmuş 1982-ci il 23 noyabr tarixli verilişinin yazısını tapdım.

Əlbəttə ki, o öz dövrünün övladı idi və o dövrdə «köklərə» əl atmağı ağlına gətirmirdi.

On beş ildən sonra o, «Azadlıq» radiosuna verdiyi müsahibədə bu barədə açıq danışacaq*. Odur ki, həll yollarını mövcud sistemdə və ideologiyada – müəssisələrdə qayda-qanunun, nizam-intizamın möhkəmləndirilməsi, partiya və təsərrüfat işçilərinin məsuliyyətinin yüksəldilməsində, qıtlıqla yalnız inzibati yollarla yox, digər üsullarla da mübarizə aparmaqda görürdü.

* Mən jurnalist Vladimir Toltsun Azərbaycan Prezidenti Heydər Əliyevlə söhbətində iştirak etmişəm.



Maraqlıdır ki, Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərliyinin son illərində onun nitqlərində yeni çalarlar, notlar meydana gəlmişdi – maddi həvəsləndirmə, həyətyanı təsərrüfatları inkişaf etdirmək zərurəti, şəxsi əmək məhsullarının satışı ilə məşğul olmaq, başqa sözlə, şəxsi təşəbbüsü inkişaf etdirmək. O, daxilən ciddi islahatlara hazır idi, ancaq «yuxarıdan» göstəriş verilmədiyindən, inzibati amirlik sistemi çərçivəsində hərəkət etməli olurdu.

Çox vaxt tərəddüdlər onu üzürdü: görəsən ölkə, onunla birlikdə Azərbaycan düz yoldadırmı?

**Akademik Yevgeni Primakovla söhbətdən:**

«Heydər Əliyevlə o, Azərbaycan KP MK-nın birinci katibi işləyəndə tanış olmuşam. Mən isə Dünya iqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun direktoru Nikolay İnozemsevin birinci müavini idim. 70-ci illərin əvvəlləri idi.

Bilirsinizmi, ilk görüşdən onun haqqında parlaq təəssürat yarandı. Daxilən onu yaxşı tanıdığım Şevardnadze ilə müqayisə edirdim. Ancaq sonra Əliyevlə tanışlıq zamanı söhbətləşməyə başladıq. Söhbətlərimiz çox maraqlı alınırdı və biz çox kəskin mövzularda danışırdıq. Mən başa düşdüm ki, o, əlbəttə ki, bir çox partiya liderlərindən dərin, ağıllı, müdrik adamdır. Mən Bakıda olanda, o məni iki günlüyə Zuğulbadakı bağına dəvət etmişdi. Yadımdadır ki, bir qədər dənizdə üzəndən sonra biz sinəmizə qədər suyun içərisində dayanıb söhbət etməyə başladıq. Xeyli, 45 dəqiqəyədək söhbət etdik. Müxtəlif mövzularda danışırdıq. Artıq o vaxt aydın oldu ki, nəsə eləmək lazımdır. Durğunluq dövrü idi və bu onu, ümumiyyətlə, qane etmirdi. Bir tərəfdən o, Brejnevin xoşuna gəlmək istəyirdi. Elə hamıda bu istək vardı. Eyni zamanda onun düşüncələrində ölkədə yaranan vəziyyətə və bu şəraiti dəyişmək üçün nəsə eləmək zərurətinə realist münasibət özünü göstərirdi. O Azərbaycanda hansı işlər gördüyü barədə çox maraqlı söhbətlər edirdi. O deyirdi ki, respublika iqtisadiyyatını tez bir zamanda yüksəltmək əzmindədir. Və o, Azərbaycanı yüksəldirdi. Əlbəttə, həddindən artıq dərəcədə yüksəldirdi».

MK-nın birinci katibini hər şeydən artıq məyus edən o idi ki, çox gərgin, var-qüvvəsilə işləməsinə baxmayaraq o, öz xalqını ərzaq və əmtəə qıtlığından xilas edə bilmirdi. Əksinə, 70-ci illərin sonu, 80-ci illərin əvvəlində əsil ərzaq böhranı başladı. Nəticədə əsas yeyinti məhsulları üçün talon sistemi tətbiq etmək qərara alındı. Heydər Əliyev komandasının bir çox üzvləri mənimlə söhbətlərində hə-

min dövrdə əhalinin ərzaqla təminatıyla bağlı yaranan mürəkkəb şəraiti yada salırdılar.

«Axı biz heç vaxt özümüzü heyvandarlıq məhsulları ilə tam təmin edə bilmirdik, – deyə Həsən Seyidov mənə danışdı, – dotasiya – dövlət tərəfindən verilən yardım üzrə 100 min tona yaxın alırdıq. SSRİ-də əmək bölgüsü var idi. Bizim kənd təsərrüfatı sahələrimizdə əsasən pambıq, taxıl, üzüm, tərəvəz əkilmişdi. Biz bütün bu məhsulları ümumittifaq bazarına göndərir, əvəzində isə bizdə çatışmayan mallar alırdıq. Ancaq çox vaxt həmin malları tam ala bilmirdik, çünki respublikaların çoxusu plan və öhdəlikləri yerinə yetirmirdilər.

Respublikamızda şərait yaradırdıq ki, vətəndaşlar şəxsi, həyətyanı təsərrüfatı inkişaf etdirsinlər, şəxsi mal-qara saxlasınlar və s. Bu öz müsbət nəticəsini verdi. Əhalinin sayı da durmadan artırdı – bunu da yaddan çıxarmaq olmaz. Axırda biz əsas yeyinti məhsulları olan ət və yağa ərzaq talonları tətbiq etməyə məcbur olduq.

1980-ci ildə lap ağır vəziyyət yaranmışdı. Adətən bayram ərəfəsində əhalini ərzaqla təmin etmək üzrə komissiya yığıncaq keçirirdi. Biz əlavə ehtiyatlar axtarırdıq, tədarükçülərdən göndərilən ərzağın həcmini artırmağı xahiş edir və ya dövlət ehtiyat fondundan alırdıq. 1980-ci ildə ehtiyatlar da tükəndi. Yadımdadır ki, biz Heydər Əliyevdən mağazalara ənənəvi gedişlərini bu səfər ləğv etməyi xahiş etdik. O çox düşünəndən sonra axşamüstü dedi:

– Yox, mən gedəcəyəm.

Getdi. İnsanlara hər şeyi doğru-düzgün izah etməyə çalışdı: bəli, çox ağırdır, çətindir, siz bizi bağışlamalısınız.

Siz təsəvvür etmirsiniz ki, onun bu açıq söhbətini camaat necə ürəkdən, canıyananlıqla qəbul etdi.

Ertəsi gün o Büronun bütün üzvlərini yığdı:

– Biz bütün xalqı ayağa qaldırmalıyıq, ət-süd məhsulları qıtlığı problemini həll etmək üçün respublikanın bütün gücünü və imkanlarını səfərbər etməliyik.

Tezliklə respublikada heyvandarlığın inkişafı ilə bağlı qərar qəbul olundu. Heydər Əliyev bizi hər bir rayon üçün, nəinki rayon, hər bir kənd üçün proqram işləyib hazırlamağa məcbur etdi. Hansı rayonda arıçılığı və ya quşçuluğu, inəkçiliyi və ya xırdabuynuzlu heyvandarlığı inkişaf etdirməyin daha məqsədəuyğun olmasını aydınlaşdırdı. Yəni ki, kim nəyə qadirdir, hansı imkanları var.

Bundan sonra Büronun bütün üzvləri, o cümlədən mən də rayonlara cəzm olunduq. Mən Tərtərə düşdüm. İndiyədək xatırlayıram ki, mən orada təhlil apardım: hər kənddə nə qədər iri və xırdabuynuzlu



heyvan, quş və s. var. Kolxoz sədrləri, sovxoz direktorları qarşısında çıxış etdim. Çıxışdan sonra onlar mənə yaxınlaşıb soruşurdular:

– Bu rəqəmləri siz haradan əldə etmisiniz, heç bizim özümüzdə belə məlumatlar yoxdur.

Sonra respublikada quşçuluğu inkişaf etdirmək barədə qərar qəbul edildi. Siyəzəndə, Dəvəçidə, Lənkəranda quşçuluq fabriklərinin tikintisinə başlandı. Abşeronda kiçik şəhərcik saldıq, mən onu Ptitseqrad (Quşlar şəhəri) adlandırdım. Heydər Əliyev artıq Moskvada olanda Siyəzən fabriki Macarıstandan avadanlıq almalı idi. Romanov həmin avadanlığı harasa Rusiyaya göndərmək istəyirdi. Heydər Əliyev Tixonovun yanına gedərək həmin avadanlığın Azərbaycana verilməsinə nail oldu. Belə epizodlar çox olmuşdu».

MK-nın ticarət şöbəsinin müdiri Mikayıl Nəzərov əhalinin ərzaqla təminatı proqramının həyata keçirilməsi ilə bilavasitə məşğul olanlardan biri idi. O həmin dövrü belə xatırlayır:

«Zəhmətkeşlərin sosial-məişət şəraiti, insanların həyat səviyyəsinin və rifahının yüksəldilməsi Heydər Əliyev üçün birinci dərəcəli məsələlər idi. O əhalinin zəruri mallarla fasiləsiz təminatına xüsusi diqqət yetirirdi.

70-ci illərin əvvəlində Azərbaycan yeyinti məhsullarına: ət, ət məhsulları, toyuq əti, kərə yağı və s. ehtiyac hiss edirdi. Bu göstəricilərə görə respublika ittifaq təşkilatlarından asılı idi. Ət və quş ətinin 50%-dən çoxunu RSFSR, Ukrayna və Pribaltika təşkilatları göndərir, kərə yağının 90%-ni Ukrayna və Pribaltikadan alırdıq. Şəkər tozu bütünlüklə kənardan gətirilirdi. Kartofun 70%-ni Azərbaycan RSFSR, Polşa və Belorusiyadan alırdı. Un, düyü, yarma və bir çox digər məhsullar da respublikaya kənardan gətirilirdi. Əvəzində ümumittifaq bazarına Azərbaycandan çoxlu miqdarda fəraş tərəvəz: kələm, xiyar, pomidor, eləcə də üzüm, xurma, nar və digər meyvələr göndərilirdi. Bu o dövrün reallıqlarıdır.

Heydər Əliyev müvafiq rəhbərlərdən daima tələb edirdi ki, fəhlə və qulluqçuların stolunun üzərində bütün zəruri yeyinti məhsulları olsun. Respublikaya göndərilən məhsullar gecikdiriləndə o, şəxsən özü Ukraynanın rəhbəri Şerbitskiyə, Belarusiyaya Maşerova, Baltikyanı respublikaların rəhbərlərinə zəng vurur, respublikamız üçün planlaşdırılmış məhsulların göndərilməsinə nəzarət etmələrinə nail olurdu.

Belə bir hadisə yada düşür. Bir dəfə Yeni il bayramı ərəfəsində respublikada əhalinin heyvandarlıq məhsulları ilə təminatında gərgin vəziyyət yaranmışdı. 1975-ci ilin pis hava şəraiti ilə bağlı bizim

əsas tədarükçülərimizdə də vəziyyət o qədər də ürəkaçan deyildi. Yeni il bayramı ərəfəsində o həmişə bizi yığıb soruşardı ki, biz əhaliyə nə və necə mal satacağıq. Vəziyyətin ciddi olduğunu biləndən sonra o, SSRİ hökumətinin başçısı Aleksey Nikolayeviç Kosiginlə telefon əlaqəsi yaratdı, ondan dövlət ehtiyatları hesabına zəruri ərzaqları, əsasən yağ və əti brondan çıxarmaq üçün icazə istədi. Dərnəgüldə böyük ərzaq bazamız vardı. Orada fövqəladə şərait halları üçün ehtiyat ərzaq saxlanılırdı. Təsəvvür edin ki, yalnız Heydər Əliyevin nüfuzu qarşısında Kosigin özü qoyduğu qadağanı pozdu.

Bütün bunlarla bərabər əhalinin ərzaqla təminatında vəziyyət çox mürəkkəb idi. Ticarət işçiləri tərəfindən sui-istifadə hallarına yol verməmək üçün Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə və digər sənaye şəhərlərində məcburi tədbirə əl atdıq – talon sistemi tətbiq olundu. Respublikanın hər bir vətəndaşı 2 kq ət və ya toyuq əti, bir kiloqram kərə yağı ala bilərdi. Zəhmətkeşlərin birinci dərəcəli zəruri ərzaqla təminatı üzərində nəzarət və onun təşkili Azərbaycan KP MK-nın ticarət üzrə komissiyasına həvalə olunmuşdu. Eyni tipli komissiyalar partiyanın şəhər və rayon komitələrində də yaradılmışdı. Talon tətbiqindən sonra vəziyyət bir qədər sabitləşdi.

Lakin Heydər Əliyev bu vəziyyətdən razı deyildi. O, respublikanın ittifaq orqanlarından asılılığını azaltmaq üçün hər il partiya və sovet orqanları qarşısında heyvandarlıq məhsullarının, xüsusilə də ət və quş ətinin istehsalını artırmaq vəzifəsi qoyurdu.

Beləliklə, quş əti istehsalının xeyli artırılması və onun ildə 30 min tona çatdırılmasını nəzərdə tutan «Sənaye əsasında quşçuluğun inkişafı tədbirləri haqqında» xüsusi qərar qəbul edildi. Az müddət ərzində yeni istehsal meydançaları: tezliklə respublikaya bütün təsərrüfat kateqoriyaları üzrə 35 min tondan artıq quş əti verən Mərdəkan, Dəvəçi, Siyəzən, Yeni Bakı, Qaraqaşlı broyler quşçuluq fabrikləri yenidən quruldu və ya inşa edildi».

Azərbaycanın keçmiş ticarət naziri Svetlana Qasımova yada salır ki, məsul partiya işçiləri çox vaxt MK-nın birinci katibinin tapşırığı ilə əhalini zəruri ərzaqlarla təmin etmək üçün digər müttəfiq respublikalarla danışıq aparmağa gedirdilər. Bir dəfə o da kartof dalınca Belarusiyaya getməli olub. Həmin il şaxtalar çox erkən düşdüyündən kartofun Azərbaycana vaxtında çatdırılmasında əngəl yaranıb.



«Mən Belarusiyanın Nazirlər Sovetinə getdim, – deyə Svetlana Çingiz qızı danışır. – Eşidəndə ki, məni Heydər Əliyev göndərib, belaruslar Belarusiya Nazirlər Sovetinin təcili yığıncağını çağırdılar. Mən də həmin iclasda iştirak edirdim. Məsələni müzakirə etdik, Nazirlər Sovetinin sədri dedi: «Heydər Əliyevə çatdırın ki, onun tapşırığını yerinə yetirmək Belarusiya kommunistləri üçün şərəfdir». Onlar hətta bunu xahiş kimi yox, **tapşırıq** kimi qəbul etdilər. Ona, bax, belə münasibət vardı. Onun nüfuzu çox böyük idi».

Aleksandr İvanov belə halları da xatırlayır ki, MK-nın birinci katibinin mağazalara səfərləri zamanı məsul ticarət işçiləri «gözə kül üfürərək» süni bolluq nümayiş etdirməyə çalışırdılar:

«O çox yaxşı başa düşürdü ki, bütün bunlar təşkil olunmuş şeylərdir: əti, yağı piştaxtaya qoyurlar, yaxına da heç kəsi buraxmırlar, defisit məhsulları da göstərirlər ki, baxın, bizdə hər şey var. O dərhal həmin adamları ifşa edirdi: «Bu cür tamaşalar göstərmək mənə lazım deyil». Qabaqcadan nəzərdə tutulmuş marşrutdan yayınaraq digər mağazalara baş çəkirdi.

İnsanlar ona etibar edib, düşündüklərini, ürək sözlərini açıq-açığına söyləyirdilər. Onların tez-tez təkrarladıqları bir ifadə indi də qulaqlarımda səslənir: «Əgər siz kömək etməsəniz, daha üz tutmağa heç kimimiz yoxdur». Xahişlər müxtəlif idi. Çox vaxt məktubu onun özünə verirdilər. O mənə deyirdi: «Götür», sonra isə özü həmin məktubları gözdən keçirirdi. Mən bilirəm ki, o çoxlarına kömək etmişdi. Eyni şeylər fəallarla görüşdə də təkrar olunurdu. Hansısa rəqəm göstəriciləri, statistika hazırlanırdı, ona rəsmi məlumat verilirdi. O isə bir qayda olaraq əvvəlcə hər şeyi dinləyir, sonra isə şəhərlə, rayonla tanışlığı zamanı, insanlarla ünsiyyətdə olarkən görüb duyduqlarını rəhbərlərin üzünə deyirdi».

«Ticarətdəki neqativ hallara qarşı mübarizə üç yolla aparılırdı, – Svetlana Qasımova deyir. – Birincisi – defisitin, qıtlığın aradan qaldırılması idi. İkincisi – ticarətin daha keyfiyyətli təşkili tədbirlərinin tətbiq olunması, buraya çəkidə aldatmanı istisna edən məhsulların qablaşdırılması, malların müəssisələrdə, idarələrdə satışı aiddir. Üçüncüsü isə sınanılmış, etibar edilərək irəli çəkilən kadrlardır. Mən ticarət naziri təyin edilərdə Azərbaycan KP MK Bürosunun qərarları ilə, şəhər, rayon partiya komitələri bürolarının qərarları ilə iqtisadiyyat üzrə təhsil almış və kütlələrlə iş təcrübəsi olan bir çox komsomol və partiya işçiləri ticarətə gəlirdilər. Öz növbəsində onlar düzgün kadr siyasəti yürüdərək, vicdanla işləməyə başladılar, heç

bir mafiya strukturu, kölgə iqtisadiyyatı ilə məşğul olanlarla əlaqəyə girmədilər. Bu, digər insanları da intizama çəkirdi.

Kəskin mübarizə aparılırdı. Çəkidə 30 qram aldatmaya görə işi prokurorluğa verirdilər. Məhkəmələr ictimaiyyətin gözü qarşısında aparılırdı. Alıcıları mağazada çəkidə və qiymətdə aldatdıqlarına görə mağaza müdirlərini həbs edirdilər. Fikir verin: satıcını yox, mağaza müdirini həbs edirdilər. Bir çox adamları işdən çıxarırdılar, onları bir daha ticarətdə işləməyə buraxmamaq haqqında qərar çıxarılırdı və s.

Bir çox restoran, topdansatış bazalarının direktorlarını malları gizlətdiyinə, alver qiymətinə satdığına, sui-istifadə hallarına yol verdiyinə görə işdən çıxarır və onların işini prokurorluğa verirdilər. Sadə xalq bunu dəstəkləyirdi. Sizə deməliyəm ki, bunlara qarşı şəxsən Heydər Əliyev özü mübarizə aparır, bütün bunlar MK-nın birinci katibinin nəzarətinə götürülürdü.

Hər həftə o, mağazaları, bazarları gəzirdi. Kənd təsərrüfatı məhsulları olan rayonları, kolxozları, sovxozları öz mallarını sənaye mərkəzlərinə gətirməyə, bolluq yaratmağa, möhtəkirliyə yol verməmək üçün mallarını sabit qiymətə satmağa məcbur edirdi. Kolxozlar, sovxozlar keyfiyyətli, təbii pendir, yağ, alma, armud – özlərində olan hər şeyi gətirirdilər. Satış üçün müəyyən yerlər ayrılırdı. Mən özüm Bakı şəhər İcraiyyə Komitəsi və ya şəhər partiya komitəsi ilə birgə yerlər müəyyənləşdirir, xüsusi meydançalar ayırırdım. Bu yarmarkalar mütəmadi xarakter daşıyırdı. Yəni ki, hər həftənin şənbə və bazar günləri Bakıda, Sumqayıtda, Əli Bayramlıda, Gəncədə şəhər ətrafındakı kolxoz və sovxozlar öz məhsullarını gətirirdilər. Bu, bolluq yaradırdı, bu, möhtəkirliyə, malların gizlədilməsinə qarşı mübarizəyə kömək edirdi.

Ancaq sənaye malları, xalq istehlakı malları ilə bağlı vəziyyət bir qədər mürəkkəb idi. Ona görə də belə bir satış forması tətbiq etdilər – malları müəssisə və təşkilatlarda ciddi növbəlilik qaydası ilə satmağa başladılar. Bu, möhtəkirliklə mübarizə forması idi. Onu da deyim ki, çox səmərəli forma idi. Çünki hamıya xarici mebel lazım idi, ancaq o çox az sayda gətirilirdi. Mağazada qalsa, müdir onu alverçi qiymətinə satacaq. Belədə isə xüsusi hesab aparılırdı. Həmkarlar İttifaqı ilə birgə biz səyyar mebel, soyuducu, televizor, geyim əşyaları, ayaqqabı satışı təşkil olunacaq müəssisələrin siyahısını tuturduq. Bu iş yerli həmkarlar təşkilatının nəzarəti altında həyata keçirilirdi. Biz yazıçıların, bəstəkarların, yaradıcı ziyalıların digər nümayəndələrinin tələblərinə xüsusi diqqətlə yanaşırdıq».



1974-cü il iyulun 12-də «Sov.İKP-nin XXIV qurultayının tələbləri işığında respublika zəhmətkeşlərinə ticarət və məişət xidmətinin yaxşılaşdırılması tədbirləri haqqında» Azərbaycan KP MK-nın plenumu keçirildi. Bu plenumda ilk dəfə olaraq uca səslə belə bir fikir səsləndi ki, yalnız cəza tədbirləri ilə ticarətdə qayda yaratmaq mümkün deyil.

MK-nın birinci katibinin bu plenumdakı məruzəsi ciddiliyi və hər bir fakta yanaşdığı dəqiqliyilə heyran qoyurdu. O, bu və ya digər çatışmazlıqların aşkara çıxarıldığı müəssisə və təşkilatların adını çəkir, çıxdaş edilmiş malların çeşidini və miqdarını sadalayır, həmin sahədə kadr probleminə aid olan konkret fakt və rəqəmləri göstərir – ticarət sahəsindəki bir problem belə onun nəzərindən yayınmırdı.

Heydər Əliyev qeyd edirdi ki, yaxın keçmişdə respublikada ticarət və bütövlükdə əhaliyə xidmət sahəsinin sosial-siyasi əhəmiyyəti qiymətləndirilmirdi. Ticarət və iaşə sahəsində yalan və oğurluq, çəkidə və qiymətdə aldatmalar, israfçılıq və möhtəkirlik geniş yayılmışdı. Bir çox ticarət şəbəkələrində, məişət xidməti müəssisələrində, restoranlarda, kolxoz bazarlarında «nəzarətsizlikdən və səhlənkarlıqdan istifadə edərək zəhmətkeşlərin hesabına var-dövlət sahibi olan dələduzlar və fırıldaqçılar peyda olmuşdu». Sonra Heydər Əliyev yada salır ki, partiya ticarət və məişət xidməti sahəsindəki nöqsanlara qarşı barışmaz mübarizə aparmışdır. Bir çox işə can yandırmayan və əliəyri adamlar tutduqları vəzifədən kənarlaşdırılmış, partiya və cinayət məsuliyyətinə cəlb olunmuşlar. Son vaxtlar işdə yol verdikləri nöqsanlara və xidməti vəziyyətindən sui-istifadə hallarına görə 140 ticarət müəssisəsi rəhbəri vəzifəsindən azad edilib. Respublika Ticarət Nazirliyinin dövlət ticarət müfəttişliyinin işçiləri tərəfindən yol verilmiş və üstü açılmış kütləvi pul qoparma faktlarını Heydər Əliyev «rüsvayçılıq» adlandırmışdı. Qayda-qanuna nəzarət etməli, sui-istifadə və oğurluq hallarının kökünü kəsməli olan müfəttişlik əməkdaşlarının bir çoxu özləri rüşvətxorluq və pul qoparma yolu tutmuşdular. Nəticədə ticarət müfəttişliyinin 22 əməkdaşının hamısı həbs edilərək mühakimə olundular.

Bununla belə, onun məruzəsindən və plenumun yekunları üzrə Azərbaycan KP MK-nın qəbul etdiyi qətnamədən göründüyü kimi, Heydər Əliyev bilirdi ki, təkcə zor tədbirləri ilə problemi həll etmək olmaz, ona görə də Ticarət Nazirliyindən, Azərittifaqdan, Əhaliyə Məişət Xidməti Nazirliyindən köhnə üsullarla işləməyə son qoymağı, bazarın dəyişən şəraitini, əhalinin təklif və tələblərini öy-

rənməyi, ticarət təşkilatlarının strukturlarını günün tələblərinə uyğunlaşdırmağı, paralelliyə və təkrarçılığa son qoymağı tələb edirdi. Onun tərəfindən topdansatış bazalarının ünvanına çox mütərəqqi tələblər səslənir – onlar sadəcə hazır məhsul anbarı yox, malların sifarişçisi olmalı, əhalinin tələblərini öyrənməli, müəssisələrdən keyfiyyətsiz malları qəbul etməməli, əmtəə kütləsinin daha tez realizə olunması üçün məharətlə manevr etməyi bacarmalıdır.

Hələ 1970-ci il noyabrın 12-də Azərbaycan KP MK «Ticarətin mütərəqqi forma və metodlarının gələcəkdə respublikada tətbiq olunması tədbirləri haqqında» qərar qəbul etdi. Lakin Heydər Əliyev qeyd edir ki, respublikada əvvəlki kimi özünəxidmət mağazalarının sayı azdır, qablaşdırılmış məmulatların buraxılışı, yarımfabrikatların satışı kifayət qədər yoluna qoyulmayıb. Qabaqcadan sifariş əsasında malların evlərə çatdırılması kimi forma çox ləng tətbiq olunur.

Bu plenumdan sonra respublikada ticarət qaydalarının pozulması ilə mübarizəyə ilk dəfə olaraq digər məsələlərlə birgə – xalq tələbatı malları istehsalının artırılması, onların çeşidinin və keyfiyyətinin yaxşılaşdırılması, ticarətin təşkilində yeni texnologiyanın tətbiqi və s. – kompleks şəkildə baxmağa başladılar. Bütün bunlar, əlbəttə ki, öz müsbət nəticələrini verirdi.

Moskvada işləyərkən o, özünü ölkəni elmi-texniki tərəqqi yolu ilə, təsərrüfatçılığın qabaqcıl formaları ilə irəli apara bilən, hər bir yeniliyi alqışlayan rəhbər kimi göstərəcək.

O, həmin dövr üçün mütərəqqi olan «Əmək kollektivləri haqqında» Qanunu işləyib hazırlayacaq, kooperativ hərəkatda yeni bir səhifə açacaq, «yenidənqurmanı» və «yeni təfəkkürü» sözsüz dəstəkləyəcək. O, nəhəng, çoxmillətli dövlətin iqtisadiyyatının mümkün olan islah yolları haqqında daima düşünəcək. Təəssüf ki, Mixail Qorbaçov və K° onun və SSRİ rəhbərliyindəki digər müdrik insanların rəyini getdikcə daha az nəzərə alırdılar. Elə bu da təkcə Heydər Əliyevin yox, möhtəşəm bir ölkənin faciəsinə çevrildi.



[1] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С.399.
[2] Исмаилов Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. Баку, 2003. С.218-221.
[3] Мунчаев Ш., Устинов В. История советского государства. М., 2002. С.568-569.
[4] Премьер известный и неизвестный: Воспоминания о А.Н.Косыгине. М., 1997. С.202.
[5] Крючков В.А. Личность и власть. М., 2004. С.107-108.
[6] Валянский С, Калюжный Д. Русские горки: конец российского государства. М., 2004. С.268.
[7] Вашингтон пост. 1984. 29 июня
[8] Самедзаде З. Этапы большого пути. Баку, 2004. С.148.
[9] Крючков В. Личность и власть. С.103.
[10] Respublika. 2002. 16 avqust.
[11] Самедзаде З. Этапы большого пути. С.448.
[12] Бакинский рабочий. 2005. 6 мая.
[13] Ulduz. 1990. № 6. S.68.
[14] Самедзаде З. Этапы большого пути. С.149-152.
[15] Ulduz. 1990. № 6. S.68.
[16] Гусейнова И. Гейдар Алиев – от политического руководителя к общенациональному лидеру. Баку, 2005. С.54.
[17] Respublika. 2002. 16 avqust.
[18] Зеркало. 2005. 10 декабря.
[19] Самедзаде З. Этапы большого пути. С.186.
[20] Ulduz. 1990. № 6. S.69.
[21] Hidayət. İrəvana 7 məktub. Bakı, 2004. S.41.
[22] Respublika. 2004. 11 mart.
[23] Məmmədov İ. Heydər Əliyev mənim həyatımda. Azərbaycan. 2003. 13 may.
[24] Бурлацкий Ф. Вожди и советники. М., 1990. С.199.
[25] Kommunist. 1980. 1 noyabr.
[26] Карэулов А. Вокруг Кремля. М., 1993, т.1. С.210.
[27] Бурлацкий Ф. Вожди и советники. С.300.
[28] Досье. История и современность. 2003. № 10.
[29] Крючков В. Личность и власть. С.108.
[30] Волкогонов Д. Семь вождей. М., 1995. С.98.

*Səkkizinci fəsil*

# Heydər Əliyev və erməni separatizmi

## «Ermənilər sizdə yağ içində böyrək kimi bəslənirlər»

İqtisadiyyat və ideologiya məsələləri ilə yanaşı respublika partiya təşkilatının birinci katibi postunda, xüsusilə də fəaliyyətinin ilk dövrlərində Heydər Əliyevin daimi qayğılarından biri özünün də şahidi olduğu erməni separatizminə müqavimət göstərmək, onun qarşısını almaq idi. Kitabın birinci hissəsində biz onun DTK-nın rəhbəri kimi bu istiqamətdəki işindən, fəaliyyətindən geniş bəhs etmişik.

Heydər Əliyev, separatizm təzahürləri ilə MK-ya birinci katib seçiləndən dərhal sonra üzləşib qarşılaşmalı olmuşdu. 60-cı illərin ortalarında Dağlıq Qarabağın zorla qopardılmasına nail olmaq cəhdləri növbəti dəfə uğursuzluqla nəticələnəndən sonra ermənilər taktikanı dəyişərək, 20-ci illərin sonlarına aid olan hansısa köhnə xəritələri üzə çıxartdılar, Azərbaycanın bir sıra sərhədyanı torpaqlarını «qədim erməni torpaqları» elan edərək, onların Ermənistana qaytarılmasını tələb etdilər. Sonralar Heydər Əliyev yada salırdı ki, «onlar köhnə xəritələri – 28-ci ilin, yaxud da 29-cu ilin xəritələrini ortaya çıxarmışdılar. İki-üç il danışıqlar getdi. Bu danışıqları tək Vəli Axundov deyil, Məmməd İsgəndərov, Ənvər Əlixanov, ikinci katib Yelistratov birlikdə aparırdılar. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti elə bir qərar qəbul etmişdi ki, həmin sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Mən iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni bir ay müddətində təhlil etdim və həmin qərardan imtina etdim. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim. Bu qərarın o vaxt necə qə-

bul olunduğunu da bilirəm. İndi bunu danışmağa ehtiyac yoxdur. Amma bununla onu demək istəyirəm ki, şübhəsiz, o da həmin torpaqların verilməsini istəməmişdi. Ançaq həm yuxarıdan, Moskvadan olan təzyiqlər, həm sağdan, həm də soldan olan təzyiqlər birlikdə bu cür qərarın qəbul edilməsinə gətirib çıxarmışdı»[1].

Bu barədə o, jurnalist Elmira Əhmədovaya verdiyi müsahibəsində də xatırlamışdı:

«Birinci katib seçilməndən bir ay sonra, 1969-cu ilin sentyabrında Ermənistan KP-nin birinci katibi Anton Koçinyana zəng edib onunla görüşmək istədiyimi bildirdim. Görüşümüz Qazax rayonu ilə İcevan rayonunun sərhədində oldu. Mən məsələni qəti qoydum və Koçinyana təklif etdim ki, Ermənistandakı millətçi adamları öz ərazi iddialarından çəkindirmək üçün əməli, konkret işlər görsün. Zənnimcə, o görüşümüz səmərəli oldu. Çünki sonrakı dövrlərdə respublikalarımız arasında bizi narahat edən hadisələr baş vermədi»[2].

Tanınmış Azərbaycan şairi, yazıçı-publisist Hidayət «İrəvana 7 məktub» kitabında yazır:

«Ermənistan KP MK-nın keçmiş birinci katibi A.Koçinyan 1988-ci ildə bir müsahibəsində (bəlkə də son müsahibəsiydi, «Qarun» («Bahar») ədəbi-bədii gənclik jurnalında, – Ermənistan Yazıçılar İttifaqının və respublika Komsomolu Mərkəzi Komitəsinin orqanı, bizim «Ulduz» jurnalının oxşarıydı, – dərc olunmuşdu) deyirdi ki, onun rəhbərliyi dövründə Qarabağ «məsələsi» neçə dəfə qaldırılmış, lakin Heydər Əliyevin nüfuzu və mərkəzdə sözünün iti kəsəri bu məsələnin həllinə imkan verməmişdir. Hətta M.A.Suslov Koçinyanı yanına çağırıb: **«Xvatit armənskoqo naüionalizma» – demişdi və bu, L.İ.Brejnevin dövründə erməni millətçiliyinə və Qarabağ «probleminə» axır nöqtə idi. Bəlkə buna görə də L.İ.Brejnevin vəfatı İrəvanda bayram kimi qarşılandı»**[3].

Bununla belə 70-ci illərin əvvəlində xoşagəlməz hallar kifayət qədər idi. Bununla bağlı dövlət arxivlərində, DTK-nın arxivində bəzi şeyləri axtarıb tapa bilmişəm. Keçmiş çekistlərlə söhbətlər də mənə çox kömək oldu. Yerevan millətçilərinin törətdiyi təxribatlardan biri elə həmin 1969-cu ildə Azərbaycanın Daşkəsən rayonunun Bayan kəndində baş vermişdi.

Məsələ orasındadır ki, Böyük Vətən müharibəsində həlak olmuş həmyerlilərinin xatirəsini əbədiləşdirmək üçün Bayan kəndinin Yerevanda və SSRİ-nin digər şəhərlərində yaşayan sakinləri öz vəsaitləri hesabına bayanlı döyüşçülərə abidə-obelisk ucaltmağı qərara al-



mışdılar. Abidə qurğusu üçün vəsait toplanması üzrə Moskvada, Bakıda, Kirovabadda, Xanlarda və Sovet İttifaqının digər şəhərlərində komitələr yaradıldı. 1967-ci il sentyabrın 26-da rəhbər orqanlardan xəbərsiz Bayan kənd sovetinin sessiyasında bu abidənin tikintisi məsələsini müzakirə etdilər. Təşkilat komitəsinin sədr müavini Avetikyan familiyalı yerevanlı həkim sessiyada çıxış edib kənd sakinlərini tikinti üçün pul yığmağa çağırdı. Nəticədə 22 min manat yığıldı və təşkilat komitəsinin ixtiyarına verildi. Abidəni Yerevanda memar R.İsraelyan və heykəltəraş A.Arutyunyan hazırladı, quraşdırma işlərini isə əsasən Yerevandan gələn fəhlələr icra etdilər. Abidənin özü ilə bağlı Azərbaycan KP MK-nın 8 avqust 1969-cu il tarixli arayışında deyilir:

«Abidə hündürlüyü 14 metr, əsas fasadında 3 metr hündürlükdə qartal təsviri, fasadın yan tərəfində ağlayan qadının barelyefi olan boz bazaltdan hazırlanmış obeliskdən ibarətdir. Bundan əlavə, yan fasadların hər iki tərəfində erməni dilində abidənin məram-məqsədini izah edən yazılar var.

Azərbaycan Rəssamlar Birliyinin sədr müavini Ömər Eldarovun və «Azdövlətlayihə» Dövlət Baş Layihə İnstitutunun baş mühəndisi O.İsayevin gəldikləri rəyə görə abidə stilizə olunmuşdu və arxaik qartalın təsviri məhz Böyük Vətən müharibəsində həlak olmuş Bayan kəndi sakinlərindən ibarət sovet döyüşçülərinin xatirəsi mövzusunu əhatə eləmirdi. Ona görə də abidəni uzaq keçmişin istənilən faciəli hadisələrinə həsr olunmuş bir əsər hesab etmək olar».

Abidənin üzərindəki yazı da ziddiyyətli və çoxmənalı idi: «1941-1945-ci illərdə Böyük Vətən müharibəsində həlak olmuş 600 bayanlı igid döyüşçüyə, qartal oğullara, **əcdadlarımızın layiqli və azadfikirli davamçılarına** (seçmə bizimdir – ***E.A.***) əbədi eşq olsun»[4].

Qırx il bundan öncə baş vermiş bu epizodu xatırlayarkən akademik Ömər Eldarov qartal heykəl təsvirinin o vaxtkı rəydə açıq yaza bilmədiyi əsl mənasını açıqladı:

«Bu qartal ermənilərin Sərdarabad döyüşündə türklər üzərində qələbəsinin şərəfinə Yerevanda ucaldılmış abidənin əsas detallarından birinin surəti idi. Yerevanda iki antitürk abidə mövcuddur. Bu, genosid – soyqırım qurbanlarının xatirəsinə ucaldılmış monument və Sərdarabad döyüşündəki qələbənin şərəfinə qartallar və nəhəng öküzlər təsvir olunan abidədir. Bu qartal həmin abidənin fraqmentinin bir qədər kiçik ölçüdə surəti idi».

Abidə quraşdırılanadək rayon rəhbərliyindən heç kimin onun forma və məzmunundan xəbəri yox idi. Dəfələrlə tələb olunmasına baxmayaraq, təşkilat komitəsinin üzvləri yerli hökumətə heç bir eskiz və maket təqdim etməmişdilər. Obelisk quraşdırılandan sonra isə layihə müəllifi Daşkəsən rayon İcraiyyə Komitəsinin rəhbəri Xocayanın dəvətinə baxmayaraq, meydana çıxan məsələləri yerində müzakirə etmək üçün gəlmədi.

Onda məsələ raykomun bürosunda müzakirə olundu və büro üzvləri abidənin üzərindən qartalın bədii təsvirini götürməyi qərara aldılar. İyulun 25-də gecə sakinlərin xəbəri olmadan qartal təsviri götürülüb kənddən çıxarıldı. Bu kənd sakinlərinin hiddətinə səbəb oldu, ittifaq və respublika partiya orqanlarına məktub və teleqram seli axmağa başladı. Üstəlik də Yerevandan gəlmiş emissarlar vəziyyəti süni surətdə gərginləşdirməyə başladılar. Onlar rayon rəhbərliyinin hərəkətini həlak olanların abidəsinə təhqir, hörmətsizlik kimi təqdim etdilər. Rayonun partiya və sovet orqanları rəhbərlərinin ünvanına təhqirlər və hədələr səslənən kortəbii mitinqlər başlandı. Bayan kəndinin kolxoz sədrini və partiya təşkilatı katibini xain adlandırıb fiziki cəhətdən divan tutmaqla hədələyirdilər. Təcili olaraq Bakıdan başda MK katibi Əli Əmirov olmaqla komissiya göndərməli, əhali arasında izahat işləri aparmalı oldular.

Nəticədə sakinlərə dövlət hesabına onların razılığı ilə memorialda qoyulacaq başqa bir abidə düzəldəcəklərinə söz verdilər.

1969-cu il avqustun 12-də Azərbaycan Kommunist Partiyası MK Bürosunun xüsusi qərarı qəbul olundu. Bu qərara uyğun olaraq «Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin heykəl və abidələrin layihələndirilməsi və ucaldılması qaydaları barədə qərarlarının yerinə yetirilməsinə məsuliyyətsiz münasibət bəslədiklərinə, kobud pozuntulara yol verdiklərinə, Bayan kəndində abidə ucaldılması ilə bağlı məsələlərin həllində siyasi kütlük göstərdiklərinə görə Daşkəsən rayon partiya komitəsinin birinci katibi Q.T.Süleymanova və rayon İcraiyyə Komitəsinin sədri A.A.Xocayana üçot vərəqlərinə yazılmaqla şiddətli töhmət elan olundu. Rəssamlar İttifaqına tapşırıldı ki, layihə tərtib edib, həlak olmuş döyüşçülər mövzusuna uyğun gələn heykəltəraşlıq fiquru hazırlasınlar[5].

Bundan əlavə, Yerevandan gəlmiş erməni emissarları özbaşına həmin rayonun Zəylik, Çovdar və Şərukər kəndlərində də abidələr ucaltmaq niyyətində idilər. Odur ki, qərarda respublika prokurorluğuna tapşırılırdı ki, həmin kəndlərdə abidə ucaldılmasına sərf olunan vəsait xərclənməsinin qanuniliyini yoxlasınlar.



1969-cu ilin yayında daha bir iyrənc əhvalat baş vermişdi. Onun təşkilatçıları gərginliyi, ermənilərlə azərbaycanlılar arasında inamsızlığı gücləndirmək məqsədi güdürdülər. Beləliklə, 1969-cu il avqustun 15-də Ermənistan SSR-in Ararat stansiyasında 257 №-li Yerevan-Bakı qatarında erməni millətindən olan bir dəstə xuliqan yol bələdçilərini qəddarlıqla döymüşdülər. Azərbaycan Nazirlər Soveti yanında DTK-nın sədri vəzifəsini icra edən V.Krasilnikovun MK-nın birinci katibi Heydər Əliyevin adına göndərdiyi məktubdan göründüyü kimi, «insidentin gedişi zamanı stansiyada yerli sakinlər arasından bu xuliqanlıq əməllərində iştirak edən ünsürlərdən ibarət böyük bir kütlə yığışıbmış».

Bundan əlavə, 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində Azərbaycanda sabitliyi pozmaq məqsədilə erməni separatçıları «kürd məsələsi»ni ortaya atmağa cəhd göstərdilər.

Azərbaycan DTK-nın sədri V.Krasilnikov Heydər Əliyevin adına göndərdiyi məktubda (№ 101522, 29 oktyabr 1969-cu il) yazır: «Bizə daxil olan məlumatlara görə, Ermənistan SSR-də yaşayan kürdlər yaxın zamanlarda respublikamızın rəhbər instansiyalarına aşağıdakı məsələləri həll etmək üçün ərizə ilə bir qrup adam göndərmək niyyətindədirlər:

1. Ermənistan, Türkmənistan və Qırğızıstan SSR-də yaşayan kürdlərə, onlar üçün ayrıca muxtar ərazi ayırmaqla Azərbaycan SSR ərazisinə köçməyə icazə verilsin.
2. Tədrisi doğma dillərində aparılan məktəblər açılsın.
3. Kürd dilində bədii, elmi və b. ədəbiyyatın nəşri üçün müvafiq şərait yaradılsın.
4. Kürdlər üçün ayrılmış ərazidə doğma dillərində qəzet buraxılsın, radio verilişləri təşkil olunsun.
5. Kürd ziyalılarının müvafiq işlə təmin olunmasına qayğı göstərilsin.

Beləliklə, erməni millətçiləri bu xalqın milli-mədəni hüquqları barədə qayğı göstərmək pərdəsi altında öz ərazilərində kürdlərdən etnik təmizləmə aparmaq qərarına gəlmişdilər. Maraqlıdır, bəs nə üçün öz torpaqlarında muxtariyyət yaratmaq onların ağlına gəlməyib?

İ.Hüseynov «Kəşfiyyat generalı ilə müsahibə» kitabında yazır:

«70-ci illər artıq onunla xarakterik idi ki, erməni millətçiləri «Qarabağ ərazisinin tarixən Ermənistana aid olması» barədə açıq-aşkar məsələ qaldırırdılar. Bu «fəaliyyətdə» əsas rol vilayətin ziyalı və gənclərinin bir hissəsinə məxsus idi. Onların əməllərini Yerevanın millətçi dairələri istiqamətləndirirdi. Öz cinayətkar məqsədlərinə çatmaq üçün onlar silah və döyüş sursatı toplamağa keçdilər, vərəqələr yayır, gizli millətçi gənclər qrupu yaratmağa cəhd göstərirdilər. Məhz bu dövrdə Azərbaycan DTK-da 1971-ci ilin iyununda Stepanakert şəhərində Azərbaycan milliyyətindən olan bir qrup şəxsə döyüş qumbarası atan R.Danielyan və onun terrorçu qrupunun üzvlərinin ifşa edilməsi üzrə iş başa çatdırılmışdı. 1972-1974-cü illərdə təkcə vilayətin ərazisində Azərbaycan DTK-sının materialları üzrə erməni milliyyətindən olan 35 şəxsin əməllərinin qarşısı alınmış, onların bir hissəsinə rəsmi xəbərdarlıq elan olunmuşdu»[6].

**DTK-nın DQMV üzrə şöbəsinin 1972-ci il hesabatından çıxarış:**

«1971-ci il iyunun 18-də «Qarabağ» mehmanxanasının qarşısında qumbara partladılmış, nəticədə Azərbaycan milliyyətindən olan beş nəfər ağır yaralanmışdır. Onlardan biri ölmüşdür.

Vilayət daxili işlər idarəsi və Stepanakertdəki qarnizonun xüsusi şöbəsinin keçirdiyi operativ axtarış tədbirləri nəticəsində erməni millətindən olan 8 adam həbs edilmişdir. Axtarış zamanı onlardan külli miqdarda silah və döyüş sursatı müsadirə olunmuşdur.

Qabaqca qumbara partladılması ilə bağlı işi DQMV prokurorluğu aparırdı, sonra onu muxtar vilayətin Daxili İşlər Nazirliyinə verdilər. Təhrikçilərin bəzilərini həbs etdilər, sonra isə (guya dəlil-sübut olmadığına görə) yerli sakinlərin təzyiqi altında onları azad etdilər. Bir neçə aydan sonra altı cildlik material yığılsa da, iş yerindən «tərpənmədi». Heydər Əliyev bu məsələyə MK Bürosunda baxıb, işi «komitəçilər»in araşdırmasına verməyi qərara aldı. Beləliklə də, qumbara partladılması ilə bağlı iş köhnə tanışımız Əkrəm Səlimzadənin əlinə düşdü.

## Qumbara

**Əkrəm Səlimzadənin söhbətindən:**

«Mən işə girişdim. Çirkli qovluqlar, erməni dilində hər cür ieroqliflər... Azərbaycan dilində istintaqı hansısa baş leytenant aparırdı.



Mən şöbə müdirimizdən xahiş elədim ki, bütün bu materialları Azərbaycan və erməni dillərindən rus dilinə çevirmək üçün tərcüməçilər versin. Bundan əlavə, söhbət əsasən erməni millətindən olan şəxslər haqqında getdiyindən, müstəntiqlərin sırasına erməni dilini bilən adamı da salmağı təklif etdim.

Səfər Əliyevi mənim sərəncamıma göndərdilər. O, Ermənistanda yaşamış, orta məktəbi erməni dilində bitirmişdi. Müstəntiqlərdən isə Saşa Şkitovu verdilər. Ertəsi gün səhər tərcüməçilər işə başladılar. Bütün materialları mənim üçün tərcümə etdilər. Mən onlarla tanış olub başa düşdüm ki, bu işi açmaq olar. Sadəcə olaraq iş səriştəsizliklə aparılıb. Yəqin ki, ermənilər azərbaycanlılar yazanı, azərbaycanlılar isə ermənilər yazanı oxumayıblar.

İşə başladıq. Tezliklə «Pşka» ləqəbli Eduard Danielyanı, Valerik Ağacanyanı, Slavik Ağacanyanı həbs etdik. İş üzrə cəmisi 8 nəfər həbs olunmuşdu.

Birinci olaraq Valerik Ağacanyan yaxalandı. İş üzrə materiallardan aydın oldu ki, şərikləri ilə söhbət zamanı o belə bir ifadə işlədib:

– Nahaq yerə azərbaycanlılara qumbara atdınız.

Stepanakertdə «Qarabağ» mehmanxanası var. Orada keçirilən seminara yaxın rayonlardan – o cümlədən Füzulidən, Şuşadan və s. bədən tərbiyəsi müəllimlərinin hamısı dəvət olunmuşdu. Axşamlar azərbaycanlılardan ibarət böyük bir dəstə, cavan oğlanlar mehmanxananın əsas giriş qapısı ağzında dayanıb söhbət edirdilər. Onların yeganə «günahı» ondan ibarət idi ki, azərbaycanlı idilər. Hansısa hərbi hissədən RQ-42 döyüş qumbarasını oğurlayan ermənilər binanın arxasında gizlənib oradan qumbaranı azərbaycanlıların üstünə atdılar. Bir nəfər yerindəcə keçindi, başqa birisinin ayağını kəsməli oldular, qalanları da yaralandılar.

Biz Valeri Ağacanyanı «tərksilah» edə bildik. O, onuncu sinifdə oxuyan bir qızı sevirdi və onunla evlənmək fikrində idi. Qız isə onu yaxın buraxmırdı. Biz qızı dilə tutub ona sevgi məktubu yazdıra bildik. Qızın şəklini də zərfin içinə qoyduq. Qız təxminən bu sözləri yazmışdı: «Valerik, əgər sən dələduz yox, təmiz, namuslu, vicdanlı adam olsan, qarşılıqlı hisslərə ümid edə bilərsən».

Mən Valerini istintaqa çağırdım. Onun söylədiyi «nahaq yerə azərbaycanlılara qumbara atdınız» sözləri bizim üçün qarmaq oldu. Bircə onun vasitəsilə başqalarına «çıxmaq» qalırdı.

– Sənə məktub gəlib, ancaq özünü şarlatan kimi apardığından, onu sənə verməyin mənası yoxdur.

– Nə məktubdur elə?

– Sən bu adamı tanıyırsan?

Qızın şəklini görən kimi onu tər basdı.

– Gəl kişi kimi danışaq, – deyə mən təklif etdim, – mən məktubu sənə verirəm. İstəsən kameraya aparmağa da icazə verərəm. Sən hər şeyi düz danışsan, fotoşəkli də birgünlüyə verərəm.

Mən məktubun əvvəlini ona göstərdim ki, o, qızın xəttini tanısın.

– Mənə sabahadək vaxt verin, – deyə o xahiş etdi, – fotonu da kameraya aparmağa icazə verin.

– Şəkli hər şeyi etiraf edəndən sonra alacaqsan.

İki saat keçməmiş o, bütün olanları danışdı, cinayət törədənlərin adını söylədi. O özü də həmin qrupa daxil idi, törədiləcək terror aktının müzakirəsində iştirak etmişdi.

– Gəlin qumbara ataq, azərbaycanlıları, bu türkləri qıraq, onlardan intiqam alaq.

Bu hadisədən bir neçə il qabaq, 1967-ci ildə Stepanakertdə bir oğlanın ölümü ilə bağlı iş üzrə məhkəmə prosesi ilə əlaqədar kütləvi iğtişaşlar baş vermişdi. O vaxt 25 nəfəri həbs etmişdilər, onların arasında Danielyanın böyük qardaşı da var idi. Ona ölüm hökmü kəssələr də, sonralar 15 illik həbs cəzası ilə əvəz etdilər. Odur ki, Danielyan qardaşının qisasını alırdı.

Bir qədər sonra, 80-ci illərdə, Qarabağ münaqişəsi başlanan zaman həmin bu Danielyan azğınlaşaraq azərbaycanlılara işgəncə verir, onları qınırdı.

Biz Danielyanla Ağacanyanı üzləşdirəndə onların arasında dava düşdü. Biz isə bunların hamısını lentə köçürmüşük.

– Sən niyə məni satırsan? – deyə Danielyan qışqırdı.

– Sən bizi bezdirmisən, nəyə görə səndən ötrü türmədə çürüməliyik? İşi tutmusan, boynuna al.

Onlar bir-birinin üstünə cumdular. Uşaqlar kameranı söndürmək istədilər, mən qoymadım:

– Elə şey eləməyin, qoy Ali Məhkəmədə görsünlər ki, bunlar nə cür məxluqlardır.

Məhkəmə Danielyana – «Pşka»ya 15 il iş kəsdi. Bununla o, ikinci azərbaycanlının qətlində günahlandırılırdı. Ona, həddi-büluğa çatmadığına görə hələ az iş kəsmişdilər. Valerik Ağacanyana 10 il, qalanlarına isə vaxtında məlumat vermədiklərinə görə 5-6 il iş kəsdilər. O vaxt onlardan iki nəfərini hərbi xidmətə çağırmışdılar. Onları hissədən gətirdilər.



Heydər Əliyev istintaqın gedişindən çox razı qaldı. O vaxt mənə hansısa mükafatı verdilər».

Aradan cəmisi iki il keçəndən sonra erməni millətçiləri bu dəfə Sovet İttifaqının paytaxtında daha dəhşətli, hay-küylü terror aktı törətdilər. 1973-cü ildə Moskvada üç partlayış baş verdi: 25 oktyabr (indiki Nikolskaya) küçəsindəki mağazada, Dzerjinski meydanında və metroda – «İzmaylovski park» və «Pervomayskaya» stansiyaları arasındakı məsafədə. Terror aktları nəticəsində 29 nəfər həlak oldu.

Filipp Bobkovun «DTK və hakimiyyət» kitabında terrorçuların axtarışı ilə bağlı çox zəhmət, səbr və diqqət tələb edən istintaq işindən söhbət açılır. Beləcə, istintaqçılar kiçicik qırıntılardan partlayıcı maddənin qoyulduğu qabı (bu, içində iri quşları bişirmək üçün uzun qazan idi) bərpa eləməyə, sonra isə metroya qoyulmuş qurğunun özünü yığmağa nail oldular. Partlayış zamanı metro vaqonunda olan sərnişinləri axtarıb tapdılar, onlar faciə baş verənədək stansiyalarda düşənlərin görünüşünü təsvir və tərtib etməyə köməklik göstərdilər. Çox xarakterik əlamətlər meydana çıxdı. Terrorçular iki nəfər imiş, güman edildiyi kimi, ikisi də erməni. Operativ axtarış xidmətinin əməkdaşları Moskvadan Yerevana gələn bütün təyyarələri, qatarları qarşılayırdılar. Axtarışlar başqa yerlərdə də aparılırdı. Elə Moskvadan Yerevana gələn ilk qatardan əlamətlərinə görə Kursk vağzalında gördüklərinə oxşar iki kişi düşdü. Bunlar hansısa Zatikyanın rəhbərlik etdiyi qeyri-leqal milli qrupun üzvləri Stepanyan və Baqdasaryan idi. Axtarış zamanı onun çardağından metroda partlayanın əkiz tayı olan uzunsov qazan tapıldı. Onları yaxalayandan sonra cinayətkarlara qırıntılardan yığılmış uzunsov qazanı və daha başqa əşyayi-dəlilləri təqdim etdilər.

«Məlum oldu ki, – deyə Bobkov yazır, – onların üçü də sovet quruluşuna, eləcə də Moskvaya qarşı mübarizə aparmağı qarşısına məqsəd qoymuş qeyri-leqal millətçi partiyanın üzvləridir. Onlar ruslardan, fərqi yoxdur, qadın, uşaq, qoca olsun, – əsas odur ki, ruslardan qisas almaq qərarına gəlmişdilər.

Adama elə gəlir ki, bu hadisə partiya və dövlət rəhbərlərinin diqqətini cəlb etməli, millətlərarası nifaqa aparan səbəblərin aradan qaldırılması yollarını axtarmağa sövq etməli idi. Ancaq istintaq orqanlarının və Moskvada aparılan məhkəmənin işindən başqa heç bir hərəkət olmadı. Ermənistan hökuməti isə bu qanlı cinayəti respublika əhalisindən gizlətməkdən ötrü əlindən gələn hər şeyi etdi. Ermənistan KP MK-nın birinci katibi Dəmirçyanın göstərişi ilə erməni di-

lində çıxan bir qəzet də terror aktı barədə məlumatı dərc etmədi. Zatikyan və onun əlaltıları üzərində aparılan proses barədə çəkilmiş sənədli filmi Ermənistanın partiya fəallarına belə göstərmək qadağan olunmuşdu. Onu ali rəhbərlikdən ibarət dar bir çərçivədə nümayiş etdirdilər. Film ekranlara çıxmadı, ancaq çox xeyir gətirə bilər və tərbiyə işinə kömək olardı. Respublika rəhbərliyi bu qadağanı erməni xalqını rusların gözündən salmamaqla əlaqələndirirdi...

Hətta terror faktından da heç kim siyasi nəticələr çıxarmaq istəmirdi. Heç kim məsələnin mahiyyətinə varmaq və anlamaq istəmirdi ki, yalnız daşnak təbliğatına qarşı izahat işi bəlanın qarşısını ala bilərdi. Mərkəzdə də, yerlərdə də rəhbərlər başa düşmək istəmirdilər ki, iş bununla bitmir. Hətta bir neçə ildən sonra respublikada millətçi təmayüllər genişlənməyə başlayanda, daşnaklar öz ideologiyalarını Ermənistana daha fəal şəkildə yeritməyə başlayanda, yerli rəhbərlik onlara lazımi müqavimət göstərməmişdi və görünür, bu təsadüfi deyildi»[7].

Heydər Əliyev DQMV partiya nomenklaturası içərisində millətçi əhval-ruhiyyənin güclənməsi təhlükəsini hamıdan yaxşı duyurdu. Onu görə də MK birinci katibi muxtar vilayətin rəhbərliyini sınanmış kadrlarla möhkəmləndirmək qərarına gəlir. 1973-cü ilin payızında Heydər Əliyev Bakının Kirov rayon Partiya Komitəsinin birinci katibi işləmiş Boris Sarkisoviç Gevorkovu Azərbaycanın Dağlıq Qarabağ vilayət Partiya Komitəsinə birinci katib seçməyi təklif etdi. 1973-cü il oktyabrın 12-də Azərbaycan KP Dağlıq Qarabağ vilayət komitəsinin plenumu oldu. Plenumun qərarına əsasən Qurgen Melkumyan birinci katib vəzifəsindən və Dağlıq Qarabağ vilayət komitəsi bürosunun üzvlüyündən azad olundu. Onun yerinə isə Boris Gevorkov seçildi. Melkumyanı Həmkarlar İttifaqı Şurasına işə keçirdilər[8].

Heydər Əliyev B.Gevorkovun xidmətlərini qiymətləndirirdi, onun Lenin ordeni, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunması, SSRİ Ali Sovetinə deputat seçilməsi üçün çalışırdı. Gevorkov Azərbaycan KP MK Bürosu üzvlüyünə namizəd idi.

Qeyd edək ki, Gevorkov öz vəzifəsində 1988-ci il fevralın 23-nədək, Dağlıq Qarabağ vilayət partiya komitəsinin plenumunda «işdə yol verilən nöqsanlara görə» birinci katib vəzifəsindən azad olunana qədər işlədi. Onun yerinə qatı separatçı və gizli milyonçu Henrix Poqosyan gəldi[9].



1975-ci ildə vilayət partiya komitəsinin plenumunda DQMV partiya komitəsinin birinci katibi Dağlıq Qarabağda siyasi sabitliyi pozmağa çalışan millətçi ünsürlərin ünvanına tənqidi çıxış etdi. Konkret faktlar və soyadları, o cümlədən Zori Balayanın adı çəkildi. Gevorkov daşnak Andranikin milli qəhrəman kimi təqdim olunma cəhdlərini tənqid etdi. Heydər Əliyev bu çıxışın nəticələrini belə xatırlayır:

«...Millətçi ünsürlər yenidən baş qaldırdı və ilk növbədə Gevorkovun, eləcə də DQMV partiya komitəsinin əleyhinə cürbəcür hərəkətlər başlandı. Moskvaya, başqa yerlərə teleqramlar vuruldu, vəziyyət gərginləşdi. 2 ay sonra Moskvada Dəmirçyanla görüşüb 4 saat söhbət etdik. Ona bildirdim ki, DQMV-nin problemlərini vilayətin və Azərbaycanın öz rəhbərliyi həll etməlidir. Qarabağın işlərinə ayrı-ayrı şəxslərin qarışması ümumi münasibətimizə ancaq ziyan vurar və biz buna yol verə bilmərik... Bu dəfə yenə ara sakitləşdi»[10].

Tanınmış yazıçı Mariyetta Şaginyan 1975-ci ildə, Bakıda keçirilən sovet ədəbiyyatı günlərinə gəlmişdi. O, Kirovabadda, DQMV-də oldu, çoxları millətçilik əhvalına köklənmiş erməni ziyalılarının nümayəndələri ilə görüşlər keçirdi. Qayıdanbaş Heydər Əliyev onu öz evində qəbul etdi. Yazıçı onunla bir sıra müşahidələrini bölüşdü. Əvvəla, Şaginyan bəyan etdi ki, ermənilər Azərbaycanda çox gözəl yaşayırlar, «yağ içində böyrək kimi bəslənirlər». İkincisi, Bakıya gələnə qədər o, Yerevanda mehmanxanada qalırmış. Ermənistanın tanınmış mədəniyyət xadimlərindən ibarət bir qrup onun yanına gəlib. Onlar DQMV-nin Ermənistana verilməsi xahiş olunan məktubu ona göstərib, ərizənin altında imza qoymağı təklif ediblər. Şaginyan nəinki onlara rədd cavabı verib, həm də həmvətənlərinə bu ziyanlı və ləyaqətsiz niyyətdən əl çəkməyi məsləhət görüb. Beləliklə, Heydər Əliyevə məlum olub ki, erməni separatçıları öz niyyətlərindən əl çəkməyiblər.

«1976-cı ilin fevralında Ermənistan Pedaqoji İnstitutunun Gorus filialında və Yerevan Politexnik İnstitutunda DQMV və Naxçıvan MSSR-in Ermənistana birləşdirilməsi barədə məsələni həll etməklə bağlı Sov.İKP XXV qurultayına müraciət dərc olunmuş vərəqələr yayılmışdı. Elə həmin dövrdə «Nyu-York tayms» qəzetində Ermənistan KP MK-nın keçmiş üzvü Xanzadyanın məqaləsi dərc olunmuşdu. O, öz məqaləsində sovet hökumətindən «əvvəllər Ermənistana məxsus olan DQMV-ni geri qaytarmağı» tələb edirdi. Eyni vaxtda Sov.İKP MK Siyasi Bürosuna kommunist E.Ohanesyandan məktub göndərilmişdi. Məktubda o, nə az, nə çox, Azərbaycana məxsus olan Şamxor, Daşkəsən, Xanlar, Şaumyan rayonlarını,

DQMV-ni Ermənistana «qaytarmağı» tələb edirdi. O dövr üçün erməni mətbuatında, tədris, elmi-populyar və bədii ədəbiyyatda keçmişi idealizə etmə, milli təkəbbür hisslərinin, eləcə də «Böyük Ermənistan»ın sərhədlərilə bağlı məsələnin şişirdilməsi hallarının yer alması xarakterikdir. Bu əsərlərin çoxunda qonşulara, əsasən də Türkiyə və Azərbaycan xalqlarına qarşı ərazi iddiaları sezilir. Qarabağ, Naxçıvan və digər rayonların «tarixi Ermənistanın yerli vilayətləri» olması fikri təlqin olunur. Bu meylləri Moskvada nəşr olunmuş «Erməni folkloru» (tərtibçi və tərcüməçi Q.Karapetyan) kitabında da müşahidə etmək olardı. Müəllif iddia edirdi ki, «Şuşa şəhəri tarixən Ermənistanın tərkibinə daxil olan Artsağın qala-şəhəridir»[11].

Təəssüf ki, respublikamızın elmi və yaradıcı ziyalılarının nümayəndələri daha çox «ermənilər və azərbaycanlılar arasında sarsılmaz dostluğu» tərənnüm etməyə yönəldilmişdilər, ona görə də qonşu Ermənistandan olan millətçilərə tək-tək adamlar layiqli cavab verməyə cürət edirdi. Məsuliyyətdən yaxasını qaçıranlar isə əsl həqiqəti və ədaləti bərpa etməyə cəhd göstərənlərin qarşısına kötük dığırladırdılar.

**Ramiz Məmmədzadə ilə söhbətdən:**

«Yadımdadır, bir gün rəhmətlik Ziya Bünyadov mənə zəng vurdu. O vaxtlar mən artıq MK-da işləyirdim.

– Ramiz müəllim, sizin köməyiniz lazımdır.

– Nə olub?

– Mən Azərbaycan Elmlər Akademiyasının «Xəbərlər»inə məqalə vermişəm. Həmin məqalədə qədim Azərbaycan memarlıq abidələrinin əslində ermənilərə məxsus olduğunu iddia edən erməni alimlərinə elə erməni mənbələri və erməni tarixçilərinin əsərlərinə istinadla cavab verərək, onun fikirlərinin səhv olduğunu sübut edirəm. Ancaq MK-dan mənim məqaləmin nəşrini dayandırmaq barədə göstəriş verilib.

– Mən ideologiya üzrə katib olsam da, bu barədə heç bir şey bilmirəm, – deyə cavab verdim.

Akademiyanın prezidenti rəhmətlik Həsən Abdullayevə zəng vurdum:

– Ziya Bünyadovun məqaləsini niyə çıxartmısınız?

– Biz bu göstərişi sizdən almışıq, – deyə Həsən Abdullayev cavab verdi.

– Bu göstərişi kim verib? Heydər Əliyev?

– Xeyr.



– Əgər nə Heydər Əliyev, nə də mən belə göstəriş verməmişiksə, onda siz hansı haqla məqalənin nəşrini dayandırmısınız?

Məsələ barədə Heydər Əliyevi məlumatlandırdım.

– Sən məqaləni oxumusan? – deyə o məndən soruşdu.

– Oxumuşam.

– Sənin rəyin necədir?

– Hesab edirəm ki, faydalı məqalədir, onu dərc etmək lazımdır.

– Onda göstəriş ver, onu çap etsinlər.

Mən Həsən Abdullayevə zəng vurdum:

– Məqaləni buraxın.

Məqalə çap olundu.

Və ya başqa bir epizodu danışım. Əgər xatirinizdədirsə, belə bir jurnal var idi: «Texnika molodyoji». Orada çap olunan kiçik bir məqalədə Nizamini «böyük fars şairi» adlandırmışdılar. Rəhmətlik Mirzə İbrahimov yanıma gəlib dedi:

– Ramiz müəllim, belə bir məqalə çıxıb.

– Bəs sən münasibət bildirmisən?

– Xeyr.

– Niyə?

– Qorxuram, düzgün başa düşməzlər, millətçilik təzahürü kimi qəbul edərlər.

– Mirzə müəllim, axı siz ağsaqqalsınız. Necə yəni düzgün başa düşməzlər? Mən ideologiya üzrə katib kimi hər şeyi düzgün başa düşərəm. Gedin və dəyərli, layiqli cavab yazın.

Gördüm o, qərara gələ bilmir. Onda mən baş redaktora zəng vurub, onunla razılığa gəldim. O, məndən yeganə bir şeyi xahiş etdi:

– Ramiz müəllim, qoy o bu məqaləni yazsın, biz onu çap edəcəyik. Ancaq polemika tərzində yox. Orada yazılsın ki, Nizami dünyada tanınmış görkəmli Azərbaycan şairidir. Onda oxucular başa düşərlər ki, bundan qabaqkı məqalədə səhvə yol verilib.

Mirzə İbrahimovun həmin məqaləsi dərc olundu.

Heydər Əliyev çox vaxtında gəlmişdi, o belə məsələləri çox gözəl başa düşürdü və hakimiyyətə gələndən sonra onları düzgün həll edirdi. Mən həmişə deyirdim: əgər 80-ci illərin sonunda hakimiyyətdə Kamran Bağırov yox, Heydər Əliyev olsa idi, heç bir Qarabağ məsələsi meydana çıxmazdı».

Akademik İqrar Əliyev xatırlayırdı ki, 1978-ci ilin əvvəlində Heydər Əliyev onu yanına çağıraraq deyib: «Ermənilər ölkə rəhbərliyi qarşısında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə mə-

sələ qaldırıblar. Bu məsələ barədə əsaslı arayış hazırlamaq lazımdır». Akademik partiya liderinə xatırladıb ki, Böyük Vətən müharibəsindən dərhal sonra belə bir arayış Mircəfər Bağırov üçün hazırlanıb və onun tərtib olunmasında o özü də iştirak edib. İqrar Əliyev həmin sənədi partiya arxivlərinin dərinliklərindən axtarıb tapmağı xahiş etdi.

«Ertəsi gün Heydər Əliyev məni yenidən qəbul etdi. O, 30 il bundan əvvəl yazdığımız arayışı mənə uzatdı. Onunla söhbət etdiyimiz bir neçə dəqiqə ərzində mən hiss elədim ki, bu problem onu necə narahat edir. Bir ay ərzində mən Dağlıq Qarabağın tarixi barədə geniş bir arayış hazırlayıb MK-ya təqdim etdim. Ertəsi gün arayışın əsas müddəaları Mərkəzi Komitə Bürosunun yığıncağında müzakirə olundu və bəyənildi. Hiss olunurdu ki, sənəd onun xoşuna gəlib, müzakirələrdən sonra o mənə minnətdarlığını bildirdi. Sonralar mən öyrənib bildim ki, Heydər Əliyev ermənilərin Azərbaycan xalqına qarşı növbəti təxribatının qarşısını vaxtında ala bilib...»[12].

Yeri gəlmişkən, 1987-ci ilin sonunda akademik Aqanbekyanın Parisin «Yumanite» qəzetindəki çıxışından sonra İqrar Əliyev öz arayışını xatırladı və onu yenidən nəzərdən keçirib respublikanın o zamankı rəhbəri Kamran Bağırova göndərdi. Alim çox təəssüflə xatırlayır ki, rəhbərlikdən heç bir operativ reaksiya görmədim, tezliklə hamıya məlum olan hadisələr qızışdı.

1999-cu il noyabrın 10-da bir qrup Azərbaycan yazıçısını Prezident Sarayında qəbul edən Heydər Əliyev iyirmi il öncəki hadisələri belə xatırlayırdı:

«77-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunurdu. Konstitusiya komissiyası təyin olunmuşdu, sədri Brejnev idi, biz də onun üzvü idik, mən də Azərbaycanın nümayəndəsi idim.

Vaxtaşırı komissiyanın müzakirələri keçirdi. Bunları da o vaxt mərkəzi komitənin katibi vardı – akademik Ponomaryov – o aparırdı. Brejnev o qədər fəal iştirak eləmirdi. Bir dəfə Moskvaya, komissiyanın iclasına gəldim. Gördüm, xeyli ərizə gəlib ki, «Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb Ermənistana vermək lazımdır». Gördüm ki, Ponomaryov deyir bunu komissiyanın müzakirəsinə qoymaq lazımdır – ermənilər ona da təsir göstərirdilər. Elə komissiyanın müzakirəsinə verilməsi faktı, başa düşürsünüzmü, nə deməkdir?

Hələ komissiyanın iclasından bir gün qabaq mən buna nə qədər etiraz elədim, gördüm yox... yenə də getdim Brejnevin yanına. Ona



dedim ki, bu nədir, belə şey ola bilməz! O, telefonu götürüb Ponomaryova zəng elədi ki, məsələni gündəlikdən çıxar!»[13]

Heydər Əliyevi Siyasi Büroya üzv seçəndə və o, ittifaq hökumətində rəhbərlərdən biri olanda Ermənistanın necə matəmə büründüyünü təsəvvür etmək çətin deyil. Aradan uzun müddət keçəndən sonra Daşnaksutyun partiyasının «fürer»lərindən biri olan Gevork Kirakosyan həyasızcasına açıq-açığına bəyan edəcəkdi: «Heydər Əliyevi aradan götürməsək, Qarabağ bizim üçün vətən yox, zindan olacaq. Heydər Əliyev Ermənistanla yanaşı, bütün dünyadakı erməni lobbisini sarsıtmışdı...»[14].

## «Ermənilər Heydər Əliyevin maşınını əlləri üstündə aparırdılar»

Dağlıq Qarabağ ətrafında hadisələr başlananda, mərkəzi kütləvi informasiya mənbələrində açıqdan-açığa Qorbaçov idcoloqlarının təhrikilə belə bir fikir yayıldı ki, münaqişənin əsas səbəbi DQMV-nin sosial-iqtisadi sahədə geri qalması və respublika rəhbərliyi tərəfindən erməni əhalisinin hüquqlarının pozulması olub. Əlbəttə ki, bu, Heydər Əliyevi nüfuzdan salmaq və millətlərarası problemlərin tənzimlənməsində mərkəzi hökumətin acizliyinə bəraət qazandırmaq məqsədilə uydurulmuş yalan idi.

Kitabımızın qəhrəmanı A.Karaulova verdiyi müsahibədə 70-80-ci illərdə DQMV-nin sosial-iqtisadi cəhətdən nə cür yüksək inkişaf göstəricilərinə nail olduğundan ətraflı söhbət açıb, onun rəhbərliyi dövründə Dağlıq Qarabağda qurulub-yaradılanları sadalamışdı:

«...Vilayətin mərkəzinə qədər dəmir yolu, Stepanakertdə yaraşıqlı vağzal, yeni aeroport – biz Stepankert, Bakı və Yerevan arasında müntəzəm reyslər təşkil etmişdik. Mən Dəmirçyana zəng vurdum və biz razılaşdıq ki, reysləri Azərbaycan Aeroflotu və Ermənistan Aeroflotu həyata keçirəcək. Görürsünüzmü, biz bütün bu məsələləri necə kiçik detallarına qədər düşünmüşdük. İri müəssisələr yaradılmışdı: ayaqqabı fabriki, elektrotexnika zavodu, elektron sənayesi üçün kondensatorları, kənd təsərrüfatı maşınqayırması və s. zavodlar tikilmişdi. Kənd təsərrüfatı sahəsində mühüm tədbirlər görülmüşdü. Elektrostansiyalı, suvarma kanalları olan iki iri su anbarı tikilmişdi ki, bu da iki rayonun su ilə təchizatını əhəmiyyətli dərəcədə yaxşı-

laşdırmışdı. Üzüm istehsalı 70-ci illərin əvvəlindəki 50-60 min tondan 1980-ci ildə 120-130 min tonadək qalxmışdı. Heyvandarlıq istehsalı demək olar ki, 2 dəfə artmışdı. 170 min nəfər əhalisi olan kiçik vilayət üçün bunlar az deyildi.

Sosial-mənəvi sahədə də xeyli işlər görülmüşdü. Stepanakertdə Pedaqoji İnstitut yaratdıq. Belə kiçik vilayətdə o bəlkə də gərək deyildi, ancaq biz yaradıcı ziyalıların istəyini yerinə yetirdik. Dərslər erməni dilində keçirilirdi. Mən artıq dedim ki, yaşayış evləri, məktəblər, poliklinikalar tikilirdi; dram teatrı yenidən qurularaq təzə avadanlıqlarla təchiz olundu. Böyük Siyasi Maarif evi tikdik – tikinti zamanı şəxsən mən özüm orada olmuşam. Yeni abidələr ucaldıldı. Şuşa şəhərində böyük bir kilsə var idi. 1918-ci ildə o dağıdılmışdı. Biz Ermənistandan ustalar dəvət edərək onu tamamilə bərpa etdik. DQMV ilə Ermənistan arasında mədəni əlaqələr gücləndirildi. Biz buna imkan, şərait yaratdıq. Ermənistanın nazirlik və idarələrinin rəhbərləri, teatr və konsert briqadaları, mədəniyyət xadimləri, alimlər tez-tez muxtar vilayətə gəlirdilər. Hər hansı məhdudiyyət barədəki bütün söhbətlər tamamilə əsassızdır»[15].

Bəli, bu sətirləri oxuyandan sonra Mariyetta Şaginyanın «Ermənilər Azərbaycanda yağ içində böyrək kimi bəslənirlər» ifadəsinin nə qədər ədalətli olduğuna bir daha inanırsan.

Bəzən adama çox ağır gəlirdi: 70-ci illərdə Dağlıq Qarabağa nə qədər pul tökmüşdülər, yaxşı olardı ki, Azərbaycanın digər bölgələrinə bir az artıq vəsait ayırılardı. Ancaq bu, bizim ağlımıza indi gəlir, o vaxtlar isə hamı vahid bir ölkədə yaşayır və səmimiyyətlə ümumi mənafeyi düşünürdü. Bundan əlavə, Heydər Əliyev canıyanan təsərrüfatçı kimi respublikanın bütün regionlarının inkişafına çalışır və öz həmvətənləri arasında etnik mənsubiyyətinə görə ayrı-seçkilik salmırdı.

Muxtar vilayəti daim nəzarətdə saxlamaq üçün o, adətən ildə iki dəfə Dağlıq Qarabağa gedirdi, hər dəfə də onu böyük mehribanlıqla, üzügülər qarşılayırdılar.

Aşağıda MK-nın birinci katibinin DQMV-yə yalnız bir neçə səfərinin salnaməsi diqqətə çatdırılır:

**1973-cü il oktyabrın 27-də Heydər Əliyev** DQMV-yə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜHİŞ və ÜİLKGİ MK-nın keçici Qırmızı Bayrağını təqdim edərkən Stepanakertdə çıxış etdi.

Ondan bir qədər sonra **1973-cü il noyabrın 23-də** muxtar vilayətin yubileyi münasibətilə Dağlıq Qarabağ vilayət partiya komitəsinin və vilayət zəhmətkeş deputatları Sovetinin təntənəli yığıncağında iş-



tirak etmək üçün yenidən Stepanakertə gəldi. Heydər Əliyev DQMV-nin paytaxtına respublikanın bütün partiya rəhbərliyi ilə birgə gəlmişdi. O, yığıncaqda geniş nitq söylədi və çıxışında doqquzuncu beşilliyin son üç ilində vilayətdə görülmüş işləri sadaladı: ildə 3,5 milyon cüt ayaqqabı istehsal edən Stepanakert ayaqqabı fabriki, Şuşa şəhərində musiqi alətləri fabriki, Mardakert rayonunda XXII partiya qurultayı adına sovxozda ilkin şərabçılıq zavodu işə salınmışdır. Qurğuşun-saflaşdırıcı, suvenir məmulatları fabrikləri tikilməkdədir, Xaçınçay üzərində körpünün tikintisi başa çatmaq üzrədir. Tərtərçay üzərində salınan Sərsəng su qovşağı respublikada beşilliyin nəhəng tikintilərindən birinə çevrilmişdir.

DQMV-də 5 orta ixtisaslı tədris müəssisəsi, 204 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Noyabrın 22-də isə Azərbaycan SSR KP MK və Nazirlər Soveti Azərbaycan Pedaqoji İnstitutunun Stepanakertdəki filialının müstəqil pedaqoji instituta çevrilməsi barədə qərar qəbul etdi.

**1979-cu il yanvarın 12-də** DQMV-nin xəritəsində Azərbaycan dəmir yolunun yeni stansiyası peyda oldu – Stepanakert. Burada ikimərtəbəli vağzal binası, yük həyətinin inzibati korpusu, lokomotiv briqadalarının istirahət evi, zəruri stansiya avadanlıqları quraşdırıldı. Ağdamdan çəkilmiş 26 km-dən də çox uzunluqda yol dağ çaylarını, suvarma kanallarını kəsib keçirdi, yolun üzərində bir neçə körpü salınmışdı.

İndi artıq muxtar vilayət respublikanın və bütün ölkənin bir çox yaşayış məntəqələri ilə daha sərfəli nəqliyyat növü ilə əlaqə yarada bilirdi. Nəticədə DQMV-də istehsal olunan məhsulun maya dəyəri altı dəfədən də çox aşağı düşdü. Yolun açılışı zamanı Stepanakertə gəlmiş Heydər Əliyev çıxış etdi.

«Bu xətti necə açdığımızı yaxşı xatırlayıram, – deyə DTK-nın veteranı Bəxtiyar Süleymanlı bizə danışdı. – O vaxtlar mən DTK-nın Mingəçevir zonası üzrə rayon şöbəsinin rəisi vəzifəsində işləyirdim. Dəmiryol stansiyasında çoxlu yerli camaat toplaşmışdı, geniş mitinq keçirildi. Onlar yeni xəttin açılmasından şadlanır, Azərbaycan hökumətinə minnətdarlıqlarını bildirirdilər. «Bakı-Ağdam» marşrutunun adını dəyişərək «Bakı-Stepanakert» qoydular.

Açılışdan sonra Heydər Əliyev vilayət rəhbərliyi ilə söhbət etdi və biz Şuşaya getdik. O, şəhəri gəzdi, Vaqifin məqbərəsinin tikintisinin vəziyyətilə maraqlandı, sonra biz Mədəniyyət sarayına gəldik və o, şəhərin, şəhər partiya komitəsinin rəhbərliyi ilə Şuşanın abadlaşdırılmasının vacibliyi, bu şəhərin mədəniyyətimizin qədim beşiyi,

mənəviyyatımızın müqəddəs ocağı olması barədə uzun müddət söhbət etdi».

**Aleksandr İvanovla söhbətdən:**

«Əgər Heydər Əliyev Azərbaycan rayonlarından hansı birindəsə olmamışdısa da (80 rayonu gəzmək asan məsələ deyil), Dağlıq Qarabağa ildə ən azı iki dəfə baş çəkirdi. O, Qarabağın əhəmiyyətini başa düşürdü.

Mən ermənilərin onu necə qarşıladıqlarının şahidi olmuşam. Bir dəfə MK-nın birinci katibinin maşını Şuşaya qalxa bilmirdi. O, Vaqifin abidəsinin açılışına gəlmişdi. ZİL – avtomat ötürücü qutusu olan özünəməxsus avtomobildir. Stepanakertdən Şuşaya qalxan yoxuşda söndü. Səhərdən güclü qar yağırdı, məqbərəyə gedən cığırları buz bağlamışdı. ZİL yerindəcə dayandı. İçərilərində ermənilərin çoxluq təşkil etdiyi yerli sakinlər işi belə görüb maşını qaldırdılar və bir müddət əlləri üzərində apardılar. Bax, ona bu cür münasibət bəsləyirdilər».

**1982-ci il yanvarın 15-də** Heydər Əliyev ədəbiyyat və incəsənət xadimlərinin böyük bir qrupu ilə Şuşaya, görkəmli Azərbaycan şairi Vaqifin məqbərəsinin açılışına gəlmişdi.

Həmin gün Azərinformun müxbirləri hadisə yerindən reportajlarında qürurla yazmışdılar: «Onun cənazəsi qayalıq yerdə basdırılıb, üzərində isə möhtəşəm məqbərə ucaldılıb (müəlliflər – memarlar Azərbaycan SSR EA müxbir üzvü A.Salamzadə və E.Kanukov, heykəltəraş A.Mustafayev). Bu, xaricdən qırmızı Qarabağ mərməri, daxildən isə ağ mərmər üzlük çəkilmiş dördguşəli qüllədir. Mərkəzində qara mərmərdən yonulub hazırlanmış sarkofaq – sərdabəyə şəbəkəli məhəccərdən işıq süzülür. Zalın dərinliyindəki divardan Vaqifin ağ mərmərdən hazırlanmış büstü daxil olanlara tamaşa edir. Bundan sonra bu məqbərə qədim və cavan Şuşanın simasının ayrılmaz hissəsini təşkil edəcək».

Elə həmin gün Heydər Əliyev yeni Poeziya Evinin açılışında iştirak etdi, sonra isə Dağlıq Qarabağ Muxtar Vilayətinin partiya fəallar yığıncağını keçirtdi.

Heydər Əliyev yığıncaqdakı çıxışında son illərdə DQMV-nin sosial-iqtisadi simasındakı dəyişiklikləri qeyd etdi: «Bugünkü yığıncağımızda çıxış edənlər Stepanakertə çəkilmiş dəmir yolundan, qaz kəmərindən minnətdarlıqla söz açdılar. Yadımdadır ki, mən 1971-ci ildə vilayət partiya konfransının işində iştirak edəndə, bu vilayət



üçün həyat əhəmiyyətli obyektlərin tikintisindən həlli çətin problem kimi danışırdılar. Su kəmərinin çəkilməsindən, Pedaqoji İnstitutun yaradılmasından da o cür inamsızlıqla söhbət gedirdi. Ancaq indi bütün bunlar artıq real gerçəklikdir.

Əlbəttə, bu məsələlərin həlli asan başa gəlməyib, külli miqdarda vəsait qoyuluşu, respublika və ittifaq orqanlarının böyük səyi ilə ərsəyə gəlib. Ancaq artıq bütün bunlar öz həllini tapıb və biz indi muxtar vilayətimiz, Azərbaycan Respublikamız üçün əsl qürur hissi keçiririk. Siz yaxşı yaşayırsınız. Zəhmətkeşlərin rifah halı ilbəil yüksəlir... Söhbət zamanı (Stepanakertin və Şuşanın sakinləri ilə – *E.A.*) mən şikayət, etiraz olub-olmaması ilə maraqlanmışam, mənə ancaq minnətdarlıq və razılıq hissi ilə cavab veriblər».

Ancaq Heydər Əliyev Dağlıq Qarabağın inkişafı üçün nə qədər çox iş görürdüsə, Azərbaycan torpağının bu bərəkətli guşəsini qoparmaq planından əl çəkməyən Ermənistanın müəyyən dairələrində ona qarşı münasibət daha neqativ hal alırdı. Bununla bağlı Hidayətin «İrəvandan 7 məktub» kitabında maraqlı faktlar gətirilir. Bu kitabdan böyük bir parçanı oxucularımızın diqqətinə çatdırıram:

«Azərbaycanın rəhbəri sistemin ali orqanının tərkibinə seçilməndən sonra Ermənistanda Siyasi Büroya üzvlüyə namizədlərin şəkilləri gözəçarpan yerlərdə vurulmadı, paradlarda qaldırılmadı (o vaxtacan paradlarda nümayişçilərin əllərindən Siyasi Büro üzvlüyünə namizədlərin şəkilləri bu sətirləri yazanda da gözlərimin önündədir). **Ancaq soydaşlarımız fəxr edirdilər öz dahi soydaşıyla, harda beş-on azərbaycanlı bir yerə toplaşa bilirdisə, başları üstündə Heydər Əliyevin şəkli asılmalıydı. Hətta bir yerdə... O görüş gözlərimin qabağından heç getmir.**

**Epizod:** 1976-cı ilin payızında İrəvan Pedaqoji İnstitutunda V.Petrosyan, G.Emin və bu sətirlərin müəllifi ilə görüş keçirildi. Görüşün bütün detalları həkk olunub yaddaşıma. Son mərtəbəyə, akt zalına qalxarkən pillələrin başında, divarda Siyasi Büronun üzvlərinin və üzvlüyə namizədlərin portretləri asılmışdı. Dərhal anladım, akt zalıyla üzbəüz institutun Azərbaycan bölməsi yerləşirdi, şübhəsiz, bu bizim övladlarımızın təşəbbüsüydü. Ancaq sevinməyə əsas yox idi. Heydər Əlirza oğlunun portretinin yeri boş qalmışdı. Təəccüblə filologiya fakültəsinin dekanına baxdım:

– Portreti nə üçün çıxarıblar ordan? – Əsəbi halda soruşdum.

– Hə, kimsə çıxarıb, – dekan pərtləşərək cavab verdi, – həmin ölçüdə şəkil axtarınq yerinə vurmağa.

Onun «bəraətinə» münasibət bildirməyə vaxt çatmadı, biz dərhal görüş zalına daxil olduq, bir neçə saniyə sonra «rəyasət heyəti»ndə yerlərimizi tutduq. Və bu görüş mənimçün belə qanqaralığıyla başladı. Rektor görüşü açıb, sözü Vartgesə verən kimi mikrofonu özündən aralayıb mənə tərəf çöndü.

– O şəklin çıxarılması qanınızı qaraltmasın, hansısa axmağın işidir, – dedi və yəqin etdim ki, pillələri qalxarkən dekana sualımı o da eşitmişdi, – mən özüm məşğul olacağam, həmin ölçüdə portret tapıb yerinə vurduracağam...

«Hansısa axmağın işidir» ifadəsi diqqətimi çəkmişdi. Özümü saxlaya bilmədim.

– Mikoyanın şəkli otuz il başımızın üstündən asıldı, ancaq heç bir azərbaycanlı onu çıxarıb atmadı. Elə bilirsiniz bizim içimizdə, azərbaycanlıların arasında axmaq yoxdur? Lakin heç kəs çıxarmadı...

Rektor-akademik pörtdü, bir andaca qıpqırmızı qızardı, nə isə cavab vermək istədi, ancaq ya dili topuq vurdu (əslində pəltək deyildi), ya da cavab verməyə söz tapmayıb, özü-özünə mızıldadı»[16].

Hidayət xatırlayır ki, Ermənistana səfərləri zamanı Heydər Əliyevin portretləri üzərində vəhşilərin rişxənd izlərinin dəfələrlə şahidi olub: «...Sürücüm erməni Hamlet ermənilərı dodaqaltı söyə-söyə maşını saxlayar, eybəcər hala salınmış şəkilləri qoparıb, əsəbi halda maşına gətirərdi»[17].

Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi ilə marşal Baqramyanı bir-birinə şəxsi dostluq telləri bağlayırdı. Heydər Əliyev üçün Böyük Vətən müharibəsi mövzusu müqəddəs idi və Hitler Almaniyasının darmadağın edilməsində ləyaqətlə iştirak edənlərə o böyük hörmətlə yanaşırdı. Hər il mayın 9-da o mütləq Böyük Vətən müharibəsi veteranları ilə görüşər, onlara xatirə hədiyyələri, yubiley mükafatları təqdim edər, onların bütün sosial problemlərinə diqqətlə yanaşardı.

Marşal Baqramyana gəlincə, o iki dəfə Sovet İttifaqı Qəhrəmanı olandan sonra onun Vətənində büstünün qoyulması məsələsi ortaya çıxdı.

O, Azərbaycanın Şamxor (indiki Şəmkir) rayonunun Dağlıq Çardaxlı kəndində anadan olmuşdu. Lakin yazıçı Hidayətin sözləri ilə desək, «Ancaq doğum yeri məsələsində Hovhaness gəncliyindən «işini görmüşdü», tərcümeyi-halına yazmışdı, sonralar məlumat kitablarına, ensiklopediyalara saldırmışdı ki, guya... Gəncədə (əvvəllər Yelizavetpol, sovetlər dönəmində Kirovabad) anadan olub. Ancaq



bununla belə, Şəmkirin Çardaxlı kəndində dünyaya gələn, ilk gəncliyində Gəncənin mərkəzində təhsil aldığı texnikumun həndəvərində gözəl bağın içində ona öz xahişiylə ucalan abidəyə baxıb sevincindən göz yaşlarını saxlaya bilməyən qoca hərbçi heyranlıq içində gəlmişdi İrəvana. Mənə söylədi ki, mədəniyyət xadimlərindən başlamış Dəmirçyanacan kimi görürsə – Heydər Əliyevin böyüklüyündən, müdrikliyindən danışır»[18].

Doğrudan o, Azərbaycanın rəhbərinə müraciət edərək büstün Kirovabadda qoyulmasını, döyüş şöhrəti muzeyinin isə doğma kəndində yaradılmasını xahiş etmişdi. Heydər Əliyev bu məsələni MK Bürosuna çıxardı, marşalın xahişi qoyulan qaydaları pozsa da, onun diləyini yerinə yetirməyi qərara aldılar. Tezliklə həmin texnikumun qarşısındakı səfalı yerdə, mənzərəli meydançada İvan Baqramyanın büstü qoyuldu. Heydər Əliyev büstün açılışındakı təntənələrdə iştirak etmək üçün Kirovabada gəlmişdi. MK-nın birinci katibi Baqramyanla birgə bir çox sakinləri həqiqətən də müharibə illərində zabit və general olmuş Çardaxlı kəndində də gözəl bir muzeyin açılışında iştirak etdi. Yaşa dolmuş marşalın sevincdən axan göz yaşları, onun Heydər Əliyevin böyüklüyü, geniş ürəkliliyi, müdrikliyi, üç Qafqaz respublikasının sarsılmaz dostluğu, qardaşlığı haqqında söylədiyi çoxsaylı fikirlər kimi bütün bunlar da ümumi tariximizin sovet dövrünün reallıqlarıdır.

Bəli, Heydər Əliyev erməni xalqının ən yaxşı nümayəndələrinə hörmətlə yanaşırdı, Dağlıq Qarabağın inkişafı və çiçəklənməsi üçün əlindən gələni edirdi, ancaq erməni millətçi-şovinistlərinin separatçılıq cəhdlərinin qarşısını inadla və qətiyyətlə alır, kökünü kəsirdi.

Qəhrəmanımın «erməni məsələsi» ilə bağlı sonralar söylədiyi fikirlərdən nümunələr gətirim:

«1969-cu il iyulun 14-dən 1982-ci il dekabrın 3-nə kimi Azərbaycan KP MK-nın birinci katibi olmuşam. Bu müddətdə Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməyib. Bu, faktdır. Baxmayaraq ki, Ermənistan tərəfindən ayrı-ayrı hallarda torpaqların alınmasına cəhdlər olurdu... Açıq heç nə demirdilər, bəzi rəhbər işçilər vasitəsilə mənə çatdırırdılar ki, biz gərək Ermənistanla Azərbaycanın xəritəsini dəqiqləşdirək, guya 20-ci illərdə burada müəyyən səhvlər buraxılıb. Mən isə hamıya deyirdim ki, bizim sərhədimiz məlumdur və heç nəyi dəyişdirməyə ehtiyac yoxdur. Yadımdadır ki, Kəlbəcər rayonu ilə sərhəddə qızıl mədəni var idi. Orada qızıl axtarmaq bəhanəsi ilə ermənilər bizim torpağa keçmişdilər. Bunu bilən kimi respublika Nazirlər Sovetinə, Kəlbəcər rayon rəhbərliyi-

nə göstəriş verdim ki, yubanmadan onları çıxartsınlar və biz məsələni həll etdik»[19].

Dağlıq Qarabağ münaqişəsi başlananda da, bir qədər sonra da Heydər Əliyev əmin idi ki, bu məsələ, əlbəttə ki, DQMV-nin özündə düşünülməyib.

«Mən DQMV əhalisi ilə dəfələrlə görüşmüşəm, vilayətin bütün rayonlarında olmuşam, ermənilərlə də çox söhbət etmişəm. Bir nəfər də deməyib ki, Qarabağ verilsin Ermənistana. Bir faktı da xatırlayım. DQMV-nin 50 illik yubileyi idi. Vilayət Xalqlar Dostluğu ordeni ilə təltif olunurdu. Oradakı çıxışımda bir cümləni erməni millətçiləri indi də mənə bağışlaya bilmirlər. Mən bəzi əhval-ruhiyyələri hiss edərək demişdim ki: «DQMV Azərbaycanın ayrılmaz hissəsidir və ayrılmaz hissəsi olaraq qalacaq...»[20].

Həmin tarixi yubiley nitqində Heydər Əliyev Dağlıq Qarabağ Muxtar Vilayəti ilə Azərbaycanın qırılmazlığını dəfələrlə vurğuladı. Onu da xatırlatmağı yaddan çıxarmadı ki, vilayətin mərkəzi, indiki Stepanakert Azərbaycanın qədim şəhərlərindən biridir: «Vaxtilə Xankəndi adlanan kiçik ərazi, hazırda Azərbaycan SSR-in ən gözəl şəhərlərindən birinə çevrilib...»

O illərdə Yerevanda yaşayan yazıçı-publisist Hidayət xatırlayır ki, bu çıxış erməni millətçi-vətənpərvərlərinin açıq-aydın hiddətinə səbəb oldu.

**Azərbaycan Ali Məhkəməsinin keçmiş sədri İbrahim İsmayılovla söhbətdən:**

«1982-ci ilin yayında mən Heydər Əliyevin qəbuluna gəlib dedim ki, erməni millətçiləri lap həddlərini aşıblar, azğınlaşıblar, tədbir görüb, onları yerində oturtmaq lazımdır. O isə mənə dedi: «Sən bilirsən ki, Moskvada nələr baş verir, onların arxasında necə böyük qüvvələr durur. Bacarsaydım mən hər şeyi edərdim. İmkan vermirlər». O, Siyasi Büro üzvlüyünə namizəd, Brejnevin yaxın adamı idi, buna baxmayaraq erməni ekstremizminə qarşı çətinliklə sinə gərirdi.

1983-cü ildə Bakıda Cənubi Amerikadan, Salvadordan olan iki tələbəni qətlə yetirmişdilər. İş üzrə üç adam təqsirləndirilirdi, ancaq əsas iştirakçı iki nəfər idi. Üçüncü şəxs cinayəti ört-basdır eləməyə, gizlətməyə çalışırdı. Qətlin təşkilatçısı erməni Spartak Akopyan idi. Onu ən ağır cəzaya məhkum edib güllələdilər. Qalanlarını uzun müddətə azadlıqdan məhrum etdilər. Böyük bir proses oldu və bu, televiziyada işıqlandırıldı. Bakının vağzalətrafı hissəsində belə söhbətlər gəzirdi ki, bu çox ağır cəzadır, Akopyanı əfv etmək olardı.



Məhkəmə mənim sədrliyimlə gedirdi. O vaxtlar mən Ali Məhkəməyə başçılıq edirdim.

1984-cü ildə Naxçıvanda beş erməni sərhədi gizli şəkildə keçməyə cəhd göstərmişdilər. Onlardan ikisi sərhədi keçərkən sərhədçilər tərəfindən güllələnmiş, üçünü isə tutub məhkum etmişdilər. Məhkəmə iclasını mən aparırdım, respublika prokuroru Abbas Zamanov isə ittihamçı kimi çıxış edirdi.

Dadamyan və Baqdasaryan familiyalı «kölgə iqtisadiyyatı ilə məşğul olan»ların oğurluğu, mənimsəməsi ilə bağlı hadisə kulminasiya nöqtəsi oldu. Baqdasaryan əvvəllər məhkum olunmuşdu. Gizli milyonerlər mətbuatı da, ittifaq prokurorluğunu da, bizim rəhbərləri də ələ almışdılar. Onlar Moskvada külli miqdarda pul xərclədilər. Bu məhkəməyə sədrlik edən Ənvər Qafarov öz prinsipiallığının oduna düşdü. Ona böyük miqdarda rüşvət təklif edirdilər. Sonra isə həmin adamları məhkum etdiyinə görə işdən çıxardılar. O, bir neçə il işsiz qaldı.

SSRİ-nin baş prokuror müavini qəti etirazını bildirdi və işi SSRİ Ali Məhkəməsinin məhkəmə kollegiyası tələb etdi. İki il onu orada «hərəkətsiz» saxlayandan sonra SSRİ Baş Prokurorluğuna göndərdilər, onlar isə təkrar araşdırılması tələbi ilə bizim prokurorluğa göndərdilər. Axırda işin yönünü 167-ci maddəyə dəyişərək onu faktiki olaraq heçə endirdilər.

Bütün bunları Moskvada siyasi iş kimi təqdim edib hay-küy qaldırdılar, guya ki, ermənilər təqib olunur, Azərbaycanın məhkəmə sistemi insanları milli mənsubiyyətinə görə cəzalandırır. Mənə erməni xalqının düşməni, Heydər Əliyevin adamı olub, guya onun ermənilərə qarşı sərt münasibətinin davamçısı kimi baxmağa başladılar. Vəzifədən uzaqlaşmağa məcbur etdilər.

Ümumiyyətlə, 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində təsəvvürəgəlməz işlər baş verirdi. Cinayətkarlar arasında erməni olan kimi problem yaranırdı. Kimisə mühakimə edən kimi, o dəqiqə baş prokurorun köməkçisi keçmiş bakılı Mizaryanın işlədiyi SSRİ Baş Prokurorluğundan ya məhkəmə hökmünün ləğv olunması və ya yüngülləşdirmə istiqamətində dəyişdirilməsi barədə göstəriş gəlirdi. Özü də arada külli miqdarda puldan söhbət gedirdi. Biz rüşvətdən, korrupsiyadan danışırıq. Ancaq burada min, iki min rubl götürürdülərsə, mərkəzi hüquq-mühafizə orqanlarında milyonlarla rüşvət alınırdı. Ümumiyyətlə, mən əminəm ki, Heydər Əliyevi çox sevdiklərinə görə yox, burada «erməni məsələsi»ni həll etmək və Qarabağı ermənilərə vermək üçün Moskvaya aparmışdılar».

Mərkəzin «erməni millətindən olan şəxslərə» bu cür havadarlıq etməsi halları barədə prezident Heydər Əliyev Azərbaycan yazıçıları ilə söhbətində xatırladırdı:

«...Mən sizə bir fakt deyim, bunu heç vaxt yadımdan çıxara bilmirəm. Mərkəzi Komitədən sektor müdiri mənə telefon etmişdi ki, bilirsiniz, Daşkəsən filiz kombinatının bir mühəndisi ermənidir, onu işdən çıxarıblar. Deyirəm nə olsun ki, oranın baş mühəndisi ermənidir, işdən çıxarıblar. Erməni olduğuna görə işdən çıxarmayıblar ki. Bir də ki, bizim nomenklaturamız deyil ki. Deyirəm ki, bunu sən haradan bildin? Deyir ki, universitetin bir-iki erməni professoru gəlib mənim yanıma, etiraz edirlər. Başa düşürsünüzmü?»[21].

1987-ci ildə Heydər Əliyev Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefaya çıxanda «Əliyev – erməni separatizmi» üzücü qarşıdurmasında məcburi pauza, fasilə yarandı. Bu, Azərbaycan üçün nə ilə nəticələndi – çox yaxşı məlumdur.

## Əliyev, Dəmirçyan və Şevardnadze

1988-ci ilin mayında eyni gündə Azərbaycanın və Ermənistanın Kommunist partiyalarının birinci katibləri işdən çıxarıldı. Moskvanın rəyinə görə, onlar vəziyyətdən çıxış yolu tapa bilməmiş, Dağlıq Qarabağda münaqişənin qızışmasına yol vermişdilər. Bakıda keçirilən plenumda respublikaların keçmiş rəhbərlərini həm də onda günahlandırdılar ki, son ilyarım – iki ildə onlar ümumiyyətlə əlaqə saxlamayıblar və onların arasındakı münasibətlər kifayət qədər gərgin olub.

Əlbəttə, tarix felin lazım formasını xoşlamır. Ancaq əgər iki respublikanın liderləri qarşılıqlı münasibətlərdə ən kəskin problemlərin belə həll olunmasında Heydər Əliyevin qoyduğu ənənələri qoruya bilsəydilər, çox şeyin qarşısını elə o vaxt almaq, ehtiraslar alovunu lap başlanğıcda söndürmək olardı.

Həqiqətən 70-ci-80-ci illərin əvvəli dövrünü bütünlüklə nəzərdən keçirdikdə deyə bilərəm ki, Qafqazın 3 birinci şəxsi kifayət qədər fəal qarşılıqlı münasibətdə idilər. Ümumrespublika və ittifaq tədbirləri zamanı biri o birinin yanına gedir, Sov.İKP plenumları zamanı Moskvada görüşür, üzvü olduqları Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Şurasının yığıncaqlarında iştirak edir. Sübut üçün bir ilin timsalında bu görüşlərin hərəkət xəttini izləyək:



**1980-ci il aprelin 25-də** Lenin adına Sarayda Azərbaycan KP MK-nın və respublika Ali Sovetinin Azərbaycan SSR-nin yaradılmasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncağı oldu.

Bakıda keçirilən bayram şənliklərinə, on il əvvəldə olduğu kimi, Moskvadan, Leninqraddan, ittifaq respublikalarından bir çox rəhbərlər gəlmişdi. Həmin gün Lenin adına Sarayda Kommunist Partiyaları MK-larının birinci katibləri: Özbəkistandan – Ş.Rəşidov, Gürcüstandan – E.Şevardnadze, Ermənistandan – K.Demirçyan, Türkmənistandan – M.Qapurov, Moldoviyadan – İ.Bodyul, RSFSR Nazirlər Sovetinin sədri M.Solomentsev, Ukrayna, Qazaxıstan, Litva, Qırğızıstanın Ali Sovetləri Rəyasət Heyətlərinin sədrləri, SSRİ DTK sədrinin birinci müavini S.Sviqun, ölkənin HHM qoşunlarının baş komandanı, SSRİ müdafiə nazirinin müavini, aviasiya marşalı A.Koldunov və bir çox digər dövlət xadimləri iştirak edirdilər.

Yığıncaqda Eduard Şevardnadze çıxış etdi. Sirr deyil ki, o, Heydər Əliyevin uğur və şöhrət qazanmasına çox qısqanclıqla yanaşırdı, çünki o illərdə Azərbaycan həmişə irəlidə gedirdi.

Onun etirafı çox maraqlıdır:

«Azərbaycan xalqının həyatında xüsusi nəzərəçarpacaq dəyişikliklər son on ildə ciddi çatışmazlıqları aşkar etmək, nöqsanları aradan qaldırmaq və respublikanın iqtisadiyyatını və mədəniyyətini kəskin şəkildə yüksəltmək kursu götürülən zaman baş verib.

Bu, çox çətin, mürəkkəb, ancaq eyni zamanda cəsarətli və zəruri addım idi. İndi artıq hamı üçün aydındır ki, bu yeganə düzgün yol idi. Ancaq o vaxt heç də hamı belə düşünmürdü.

Bax, elə ona görə də yoldaş H.Ə.Əliyevə Sosialist Əməyi Qəhrəmanı kimi yüksək adın verilməsi respublikanın bütün kommunistləri ilə birlikdə bu prinsipial cəhətdən mühüm kursun müəyyənləşdirilməsində və həyata keçirilməsindəki rolunu xüsusi olaraq nəzərə çarpdırır.

Elə buradaca deməliyəm ki, Azərbaycan və Gürcüstan – təkcə qardaş respublikalar deyil, biz təkcə yaxın qonşular deyilik. Biz həm də yarışan respublikalarıq. Odur ki, sizin hamınızı ümumittifaq sosializm yarışındakı onuncu qələbə münasibətilə təbrik edirəm. Biz yalnız yeddi dəfə qalib gəlmişik. Əlbəttə, çox istərdik ki, sizə çataq, ancaq alınmır. Biz dost, qardaş olduğumuz üçün, gəlin hesab edək ki, birlikdə 17 dəfə qalib gəlmişik!»[22]

Heydər Əliyev Zaqafqaziya hərbi dairəsinin Hərbi Şurasının yığıncağında iştirak etmək üçün Yerevana getmişdi, oradan da Naxçıvan MSSR-ə gəlib **1980-ci il mayın 21-24-də** orada oldu. Ermənis-

tan KP MK-nın birinci katibi K.Dəmirçyan onu İliç rayonunun Sədərək sərhəd kəndinə qədər ötürdü. Birbaşa sərhəddə qabaqcadan hazırlanmamış mitinq oldu. Xitabət kürsüsünü Heydər Əliyev tapdı: ətrafa göz gəzdirib kənarları açılmış yük maşınına qalxdı.

Heydər Əliyev Naxçıvana təbii fəlakətlə – qasırğa, leysan yağışlar, sellə bağlı gəlmişdi. O bu günlərdə yorulmadan sənaye və kənd təsərrüfatı müəssisələrinə, yeni tikililərə, muxtar respublikanın su təsərrüfatı obyektlərinə gedir, fəhlələrlə, kolxozçularla, mütəxəssislərlə, təsərrüfat rəhbərləri ilə söhbət edir, meydana çıxan problemləri həll edir, təbii fəlakətin nəticələrini aradan qaldırmaq yollarını müəyyənləşdirirdi.

**1980-ci il noyabrın 14-də** Bakıda Qırmızı Bayraqlı Zaqafqaziya hərbi dairəsinin Hərbi Şurasının növbəti yığıncağı oldu. İclasda iştirak etmək üçün Siyasi Büro üzvlüyünə namizəd, Gürcüstan KP MK birinci katibi E.Şevardnadze, Ermənistan Kommunist Partiyası MK-nın birinci katibi K.Dəmirçyan, Zaqafqaziya hərbi dairəsi qoşunları komandanı, general-polkovnik O.Kulişov Bakıya gəlmişdilər.

Yığıncaqdan sonra Heydər Əliyev qonaqları Azərbaycan maşınqayırənlərinin flaqmanı – elektrotermik avadanlıqlar buraxılışı üzrə Bakı sınaq-eksperimental zavoduna dəvət etdi. Bu nəhəng elektrotexnika müəssisəsi Gürcüstanın və Ermənistanın bir çox istehsal müəssisələri ilə iqtisadi əməkdaşlıq əlaqəsində idi. Şahidi olanlar danışırlar ki, Şevardnadze və Dəmirçyan istəmədən, yalnız Heydər Əliyevin təkidi ilə mitinqdə iştirak etməyə razılıq verdilər. Vladimir Morozkov yada salır ki, onların qısa, rabitəsiz çıxışları daha çox tostа, sağlığa oxşayırdı. Bu fonda yenidən aydın, emosional, alqışlarla müşahidə olunan nitq söyləyən Azərbaycan rəhbəri parladı.

**1980-ci il noyabrın 28-də** Heydər Əliyev yenidən Yerevana getdi, orada Ermənistan Kommunist Partiyası MK-nın və Ermənistan SSR Ali Sovetinin və Ermənistan Kommunist Partiyasının yaranmasının 60 illiyinə həsr olunmuş təntənəli yığıncağında çıxış etdi.

Əlbəttə ki, üç birinci katib arasında dilə gətirilməyən rəqabət mövcud idi, bizim qəhrəmanımız isə həmişə qalib çıxırdı. Bu da Dəmirçyanda olduğu kimi, Şevardnadzədə də qibtə, həsəd, paxıllıq hissi oyadırdı.

**General-polkovnik A.Kovtunovla söhbətdən:**

«Bilirsiniz, gözə çarpırdı ki, respublikalar yüksəlişdədir, aralarında gizli yarış gedir. Kim irəliyə daha tez çıxacaq: Gürcüstan, Ermənistan, Azərbaycan? Əvvəllər Azərbaycan geridə qalırdı, sonra irəli



çıxmağa başladı, insanların həyatı, rifahı yüksəlirdi, sənaye, kənd təsərrüfatı yüksək templərlə inkişaf edirdi. Heydər Əliyev Azərbaycana daha çox diqqət yönəldə bildi. Bir çox nüfuzlu şəxsləri respublikanın işlərində iştirak etməyə cəlb edirdi. Brejnev Bakıda bir neçə dəfə olmuşdu, artıq elə bunun özü göstərici idi».

Sov.İKP MK-nın keçmiş katibi Aleksandra Pavlovna Biryukovanın rəyinə görə, «Şevardnadze Əliyevə bağışlaya bilmirdi ki, Azərbaycan Zaqafqaziyanın digər respublikalarından müqayisəyəgəlməz dərəcədə yüksək templərlə inkişaf edirdi». Biryukova xatırlayır ki, sonralar hər ikisi artıq Moskvada işləyəndə Şevardnadze Siyasi Büroda heç vaxt Heydər Əliyevi dəstəkləmirdi. «Şevardnadze altdan-altdan iş görürdü. O, üzündə xoş təbəssüm olsa da, Qorbaçovun qulağına nə isə pıçıldayırdı. Buna şübhə yox idi. Biz Anatoli İvanoviç Lukyanovla çox mehriban münasibətdə idik. O bəzən mənə də deyirdi ki, «Şevardnadze ilə ehtiyatlı ol, ondan özünü qoru».

Bəli, SSRİ-nin keçmiş xarici işlər nazirini nahaqdan «ağ tülkü» adlandırmamışdılar ki?! Heydər Əliyevi istefaya göndərəndə Şevardnadze nəinki çətin anda həmkarına dəstək olmadı, əksinə, Qorbaçovun zərbəsinin daha təsirli olması üçün əlindən gələni etdi. Bu barədə biz kitabın növbəti hissəsində danışacağıq.

1974-cü ilin noyabrında nəinki Ermənistanda antiazərbaycan, antitürk əhval-ruhiyyəsinin zəifləməsi üçün hansısa cəhdlər göstərməyən, əksinə, birbaşa və ya dolayısı ilə erməni şovinizmini ruhlandıran Karen Dəmirçyan Ermənistan KP MK-nın birinci katibi seçildi. O, Heydər Əliyevə ehtiyatlı, hörmətlə yanaşır, Azərbaycana dəvətlərini məmnuniyyətlə qəbul edir, «düzgün» və gözəl nitqlər söyləyirdi. Ancaq Heydər Əliyevin populyarlığına, illah da ki, yerli azərbaycanlılar arasındakı nüfuzuna qısqanclıqla yanaşırdı. Bir dəfə açıq-aydın Dəmirçyanın təhriki ilə Heydər Əliyevin doğma kəndi Comərdliyə səfəri pozulmuşdu. Bu, aşağıdakı şəraitdə baş vermişdi.

1982-ci il oktyabrın 1-də Heydər Əliyev Yerevana Zaqafqaziya hərbi dairəsinin Hərbi Şurasının yığıncağına gəlmişdi. Sonra Dəmirçyan və Şevardnadzeylə bərabər dostluq mitinqi keçirilən «Masis» ayaqqabı istehsalat birliyinə baş çəkdi.

Sonralar Heydər Əliyev danışırdı:

«Mən Yerevandan partiya fəallar yığıncağı keçirmək üçün Naxçıvana getməli idim. Yerevanda tədbirin sonunda fikirləşdim: bəlkə Sisiana gedib valideynlərimin doğulduğu kəndlərə baş çəkim, oradan

katibliyim ərzində gedə bilmədiyim Zəngilan və Qubadlıya yollanım?!

Fikrimi Dəmirçyanla bölüşdüm. O niyyətimi bəyəndi və Sisian rayonunun birinci katibi Şşors Davityana tapşırdı ki, Heydər Əliyevi səfər boyu müşayiət edəcəksən».

Heydər Əliyev Yerevandan partiya-təsərrüfat fəallar yığıncağı keçirmək üçün Naxçıvana yollandı. Oradan qonşu Sisian rayonuna keçməyi planlaşdırmışdı. Comərdlini o heç vaxt görməmişdi. Atasının doğma kəndi düzəndə yerləşən Uruddan xeyli uzaqda və yüksəkdə idi.

Davityan Heydər Əliyevi müşayiət etmək üçün Naxçıvana gəldi. O, artıq Urudun kolxoz sədrinə tapşırmışdı ki, kəndi onların gəlişinə hazırlasın, orada qayda-qanun yaratsın, Heydər Əliyevi hara aparacaqlarını, nə göstərəcəklərini və s. müəyyənləşdirsin. Səhər onlar yola çıxmalıydılar, qəflətən axşamüstü Moskvadan zəng gəldi. Nazirlər Sovetinin sədri Tixonov hansısa yığıncaq keçirəcəkdi, Heydər Əliyevin iştirakı tələb olunurdu. O, nə qədər bəhanə gətirsə də, öz yerinə MK katibini göndərməyi təklif etsə də (çünki artıq özünü doğma yerlərə getməyə kökləmişdi), heç bir şey alınmadı. O, Davityandan üzr istəyib, yenidən Yerevana qayıtmalı, oradan da Moskvaya uçmalı oldu.

Yığıncaq ekologiya məsələlərinə həsr olunmuşdu, Siyasi Büro üzvlüyünə namizədin, Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibinin orada iştirakı vacib deyildi. Heydər Əliyev hətta bərk hirsləndi: bundan ötrü onu çağırmağa dəyərdimi? Sonralar o uzun müddət fikirləşib başa düşməyə çalışırdı: ya Dəmirçyanın, ya da kiminsə qurması ilə Heydər Əliyevin Sisiana nəzərdə tutulan səfəri barədə məlumat vermişdilər və beləliklə də, onun doğma yerlərlə və həmyerliləri ilə görüşmək cəhdinin qarşısını almışdılar. Beləcə, Heydər Əliyevə Comərdliyə getmək qismət olmamışdı*.

Şevardnadze və Dəmirçyandan fərqli olaraq, Heydər Əliyev dəfələrlə onlara kömək edib, onları çətin vəziyyətdən çıxarırdı. Bir dəfə Şevardnadzenin xahişi ilə MK-nın birinci katibi Gürcüstanın futbol komandasının simasını qorumaq naminə hətta «milli maraqlarını» da qurban verdi. Görün bu barədə keçmiş partiya funksioneri Yuri Məmmədov nələri xatırlayır:

* Bu əhvalatı mənə yazıçı Musa Urud danışmışdı. Onu isə Heydər Əliyevin sözləri əsasında prezidentin yaxın ətrafından olan bir nəfər söyləyib.



«Gürcüstan, Ermənistan və Azərbaycan Zaqafqaziya hərbi dairəsində birləşmişdilər. Hər il paytaxtların birində Hərbi Sovetin yığıncaqları keçirilirdi. Neçə olmuşdusa, hərbi şuralardan biri Bakıda keçirilirdi. Ermənistanın birinci katibi yox idi, Şevardnadze isə gəlmişdi. Adətən, hərbi şuralar Azərbaycanın indiki Parlamentinin binasında keçirilirdi. Şura iclası başa çatdı, biz keçidlə irəliləyirdik. Heydər Əliyevlə Şevardnadze qabaqda, mən isə onlardan beş addım arxada gedirdik. Eşitdim ki, Heydər Əliyev Gürcüstan KP MK-nın birinci katibini nahara qalmaq üçün dilə tutur. O isə cavab verir: «Heydər Əliyeviç, mən böyük məmnuniyyətlə qalardım, ancaq axşam saat altıya iclas təyin etmişəm. Heç cür alınmır». Onlar yollarına davam edirlər. Birdən Şevardnadze Heydər Əliyevə dedi: «Heydər Əliyeviç, mənim sizdən böyük bir xahişim var. Bu gün «Neftçi» Bakıda Tbilisinin «Dinamo» komandası ilə oynayır». Heydər Əliyev sevinərək:

«Bax, görürsən, qal futbola gedək, sonra isə təyyarə ilə uçarsan,» – dedi. Şevardnadze isə cavabında: «Yox, söhbət ondan getmir. Heydər Əliyeviç, biz çox çıxılmaz vəziyyətdəyik, ona görə ki, hər an yüksək liqadan çıxa bilərik». – «Yaxşı, bunun baş verməməsi üçün nə etmək olar?» – deyə Heydər Əliyev soruşdu. «Bəlkə bizim uşaqlar heç-heçə oynasınlar? Bu kifayət edər», – deyə Şevardnadze cavab verdi. Heydər Əliyev mənə tərəf dönüb dedi: «Məmmədov, sən eşitdin?» – «Bəli, Heydər Əliyeviç, eşitdim». – «Onda get, bu məsələni həll elə».

Mən MK-ya gəlib öz kabinetimdən Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri Rzayevə zəng vurdum. O, əvvəlcə bu barədə bir kəlmə də eşitmək istəmədi: «Sən nə danışırsan? Biz onları «darmadağın» edəcəyik, şübhən olmasın», – dedi. Onda mən ona birbaşa söylədim: «Belə bir fikir var ki, biz onlarla heç-heçə oynayaq». O yenə də öz bildiyini deyirdi, ağlına gətirmirdi ki, bu kimin fikridir. Söhbəti sona çatdıranda nəhayət ki, ona nəsə aydın olmuşdu. On beş dəqiqədən sonra mənə zəng vurub dedi: «Mən başa düşdüm. Ancaq necə oynayaq, hesabı açmayaq?» – «Yaxşı olar ki, 1-1 olsun». – «Bəs birinci kim vurmalıdır?» Bir sözlə, mən ona izah elədim ki, necə eləməlidir. Elə də oldu. Əvvəlcə, bizim qapımızdan top keçirtdilər, sonra isə biz qol vurduq. Tamaşaçılar da razı qaldılar, gürcülər də».

Hakimiyyətə ikinci dəfə gələndən sonra Heydər Əliyev olub keçmiş inciklikləri, Siyasi Büro üzrə sabiq həmkarının xəyanətini

yaddaşından sildi. O, Gürcüstanı dünyanın nəhəng dövlətlərinin geosiyasi maraqları orbitinə cəlb elədi, irimiqyaslı regional layihələrin tamhüquqlu və marağı olan iştirakçısına çevirdi. Özümün 1998-ci ildə yazdığım «Tənhalıq – prezidentlərin nəsibidir» məqaləsindən sitat gətirmək istəyirəm: «Onların (Əliyev və Şevardnadzenin) taleləri oxşardır, məqsədləri ümumidir, arzuları birdir. Mənə elə gəlir ki, onlardan birinin başına bir iş gələrsə, o birisi bu itkiyə çox çətinliklə dözə bilər. Bir də mənə elə gəlir ki, Əliyev Gürcüstana Azərbaycana lazım olduğu qədər gərəkdir».

Bu proqnoz özünü doğrultdu... Heydər Əliyev dünyasını dəyişəndə Eduard Şevardnadze dərhal siyasi yoxluğa çəkildi. Bir neçə il öncə, Ermənistan Parlamentindəki terror aktı zamanı Heydər Əliyevin digər həmkarı – Karen Dəmirçyan da mənasızcasına həlak oldu və necə deyərlər, terrorçuluğun bir addımlığında olan erməni separatizmi ilə zarafatlaşmağının, oyun oynamağının layiqli cavabını aldı.

Düz deyiblər ki, «bu dünyada heç bir şey izsiz ötüşmür».



[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, 6-cı kitab. S.455.
[2] Ulduz. 1990. № 6. S.71.
[3] Hidayət. İrəvana 7 məktub. Bakı, 2004. S.23.
[4] Государственный архив политических партий и общественных движений АР (ГАППОД). фонд 1, опись 56, дело 50. С.20.
[5] Yenə orada. S.22.
[6] Гусейнбейли А. Интервью с генералом разведки. Баку, 1997. С.57-58.
[7] Бобков Ф. КГБ и власть. М., 2003. С.311-312.
[8] ГАППОД, фонд 1, опись 80, дело 491. С.15.
[9] Постановление Пл-9/1 от 24.02.88 г. ГАППОД, фонд 1, опис 80, дело 491. С.17.
[10] Ulduz. 1990. № 6. S.71.
[11] Гусейнбейли А. Интервью с генералом разведки. С.58.
[12] «Elm» qəzetinin xüsusi buraxılışı. 2002, № 13-16.
[13] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. Bakı, 2001, 1-ci kitab. S.368.
[14] Hidayət. İrəvana 7 məktub. Bakı, 2004. S.51.
[15] Караулов А. Вокруг Кремля. М., 1993, т.1. С.217-218.
[16] Hidayət. İrəvana 7 məktub. Bakı, 2004. S.37-38.
[17] Yenə orada. S.40.
[18] Yenə orada. S.50.
[19] Ulduz. 1990. № 6. S.72.
[20] Yenə orada.
[21] Heydər Əliyev. Mədəni irsimizin keşiyində. S.368.
[22] Бакинский рабочий. 1980. 26 апреля.

*Doqquzuncu fəsil*

# Heydər Əliyev və sovet ordusu

## «Mən hərbçilərə hörmətlə yanaşıram»

XX əsrin 1960-1970-ci illərində Sovet Azərbaycanının ərazisində çoxlu sayda hərbi hissə və döyüş texnikası yerləşdirilmişdi. Ümumqoşun hissələrindən bizdə 4 diviziya var idi: Naxçıvan, Kirovabad, Lənkəran və Bakıda. Onlar 4-cü ordunu təşkil edirdilər. Bundan başqa, onlara ordu komplekti adlanan bir sıra briqada və alaylar əlavə edilmişdi. Bütün bu «təsərrüfat», qərargahı Tbilisidə yerləşən Zaqafqaziya hərbi dairəsinin tabeliyində idi.

O vaxt SSRİ-də cəmi iki hava hücumundan müdafiə dairəsi (PVO) var idi: Moskva və Bakı dairələri. Bakı HHM dairəsi altı respublikanın ərazisində yerləşirdi; Zaqafqaziyanı, Şimali Qafqazı, Qazaxıstanın cənubunu və Türkmənistanı əhatə edirdi. Onun tərkibinə Ələt, Tbilisi və Rostov korpusları, Volqoqrad diviziyası, bir sıra briqadalar, aviasiya, radiotexnika və zenit-raket hissələri daxildi. Dairənin qərargahı Bakıda, məşhur «Beryoza»da yerləşirdi.

Bundan başqa, Azərbaycan paytaxtında Qırmızı bayraqlı Xəzər flotiliyası, həmçinin Zaqafqaziya sərhəd dairəsinin dəniz briqadası yerləşirdi. Flotiliyanın çox da böyük olmayan qüvvələri Həştərxanda və Dağıstanda da qərarlaşırdı.

Bir sözlə, SSRİ-nin cənub hərbi əməliyyatlar «teatrı» çox güclü hərbi qruplaşma tərəfindən qorunurdu.

Bu fəsil üçün material toplayarkən Moskvada vaxtilə Azərbaycanda xidmət etmiş bir çox yüksək rütbəli hərbçini axtarıb tapdım. Ahıl yaşlı, iş, qayğı, xəstəlik üzündən o qədər də çox asudə vaxtları olmayan Sovet ordusunun marşal və generalları, Heydər Əliyevin adını eşidən kimi dərhal mənimlə görüşməyə razılıq verirdilər. Sovet İttifaqı Qəhrəmanı, aviasiya marşalı Anatoli Ustinoviç Konstan-

tinov haqqında xüsusi minnətdarlıqla bir neçə söz demək istəyirəm. 1968-1980-ci illərdə o Bakı HHM dairəsinin komandanı olmuş, uzun müddət Azərbaycan KP MK-nın birinci katibi ilə bilavasitə təmasda işləmişdir. Son illər o xəstədir, gözləri demək olar ki, görmür, şəhər kənarındakı bağ evini çox nadir hallarda tərk edir. Belə nadir hallardan biri də, özünün dediyi kimi, mənimlə görüş oldu, çünki o, Heydər Əliyevlə görüşlərini ürəyində ən əziz xatirə kimi saxlayır.

İki general – Aleksandr Vasilyeviç Kovtunov və Aleksandr Stepanoviç Qudkovla da görüşə bildim. Kovtunov Bakıya 1972-ci ildə göndərilmişdi, 1975-ci ilə qədər Salyan kazarmalarında diviziya komandiri, 1978-ci ildən 1983-cü ilədək isə Zaqafqaziya hərbi dairəsinin 4-cü ümumqoşun ordusunun komandanı olmuşdur.

Qudkov Azərbaycanda 1969-cu ilin dekabrından 1979-cu ilin iyuluna qədər xidmət etmişdir. Əvvəlcə Naxçıvandakı diviziyada siyasi şöbə rəisinin müavini, 1972-ci ilin mayından Salyan kazarmalarında 295-ci motoatıcı diviziyanın siyasi şöbə rəisi idi, bundan sonra 4-cü ordunun siyasi şöbə rəisinin müavini təyin olundu. Azərbaycanda xidmətini başa vuranda, o, Zaqafqaziya hərbi dairəsinin Hərbi Şurasının üzvü və ordu siyasi şöbəsinin rəisi idi.

General-mayor Mustafa Nəsirov mənə MK-nın birinci katibinin sovet sərhədçiləri ilə münasibətləri haqqında maraqlı söhbətlər danışdı. 1972-1987-ci illərdə Nəsirov Bakıda Əməliyyat-qoşun şöbəsinə rəhbərlik edirdi, eyni vaxtda SSRİ DTK sərhəd qoşunları Qırmızı bayraqlı Zaqafqaziya dairəsi rəisinin müavini idi.

Bu insanlar mənim ixtiyarıma MK-nın birinci katibinin orduya münasibəti, Heydər Əliyevin Azərbaycan ərazisində keçirilən hərbi təlimlərdə, Zaqafqaziya dairəsinin Hərbi Şurasında iştirakı, Qəbələ RLS-nin tikilmə tarixi və bir çox başqa məsələlər haqqında həqiqətən qiymәti ölçüyəgəlməz materiallar təqdim etmişdilər. Bu mövzulara bugünə qədər, demək olar ki, toxunulmayıb, çünki həmin sahəyə müdaxilə uzun illər yasaq olub.

Həmsöhbətlərimə verdiyim ilk sual təxminən belə olurdu:

**– Azərbaycanda belə çox ordu və texnikanın yerləşdirilməsi Heydər Əliyevin etirazına səbəb olmurdu ki?**

– Yox, – deyirdilər, – Belə bir məsələ heç zarafat tərzində də qaldırılmırdı. Əksinə, o həmişə narahat idi: onun respublikası kifayət qədər etibarlı qorunurmu?

Qudkov, Kovtunov, digər generallar H.Əliyevin hərbçilərə, onların qayğılarına olduqca diqqətlə yanaşdığını xatırlayırlar:



«Azərbaycanın hərbi komissarı general-mayor Quliyev qəflətən vəfat edəndə, biz Bakı HHM dairəsinin Zabitlər evində yığışmışdıq, – Qudkov xatırlayır. – Hərbi komissar yerinə kimin təyin olunması məsələsi həll olunurdu. O vaxt Heydər Əliyeviç dedi:

«Ailəmizdə mənim general rütbəsi almağıma birinci katib seçilməyimdən daha çox sevinmişdilər. Ona görə də hərbçilərə yaxşı münasibət bəsləyən yalnız mən deyilәm, bütün ailəmiz orduya, hərbçilərə hörmət ənənələrilə tərbiyə alıb. Çünki bunun nə qədər ağır zəhmət olduğunu başa düşürük».

Hərbi şəhərciklərin qurulması və abadlaşdırılması, hərbi qulluqçuların mənzillə təmin olunması həmişə birinci katibin diqqətində idi, halbuki o, narahat olmaya da bilərdi, hər halda respublika büdcəsindən vəsait ayırmalı deyildi.

Aleksandr Qudkov xatırlayır:

«Qafqazda vəziyyət bir qədər sakitləşəndə, Naxçıvandakı 75-ci motoatıcı diviziyanı başqa rejimə keçirdilər, zabitlərin sayı təqribən beş-altı dəfə azaldı. Boşalan mənzilləri biz Naxçıvan sakinlərinə verdik. Ancaq 1978-1979-cu illərdə İran hadisələri ilə bağlı vəziyyət gərginləşdi, diviziyanı yenidən genişləndirdilər. Çoxlu zabit gəldi, yaşamağa isə yer yox idi. Komandanlıq zabitləri kazarmalarda, «Lenin» guşələrində, hara əl çatırdısa, orada yerləşdirmək məcburiyyətində qaldı.

Söhbətlərimizin birində mən Heydər Əliyeviçə bu barədə məlumat verdim, dedim ki, zabitlərin, xüsusilə də onların uşaqlarının və həyat yoldaşlarının əhval-ruhiyyəsi narıxdırıcıdır. O fikirləşib dedi:

– Yaxşı, gəl iki-üç gündən sonra bir də görüşək.

Bir neçə gündən sonra onun kabinetində görüşdük. O, Nazirlər Sovetinin sədri İbrahimovu dəvət edib dedi:

– Bir vaxt onlar boşalan mənzillərini bizə verdilər. Gəlin, vəziyyəti düzəltmək üçün Naxçıvanda respublikanın hesabına zabit ailələri üçün ev tikək.

Üç aydan sonra o məndən soruşur:

– İşlər necə gedir?

– Evin layihəsi hazırlanır, ancaq tikinti materialları sarıdan problem yaranıb.

O yenə İbrahimovu dəvət edir. Baş nazir deyir:

– Söhbət yadımdadır, göstəriş vermişəm, hər şeyi lazımi qaydada yerinə yetirəcəyik.

Həqiqətən də orada tikinti başlandı, lakin 1979-cu ildə mən Azərbaycandan getdim, binanı mənsiz başa vurdular.

Yəni, vaxtının məhdud olmasına, işinin mürəkkəbliyinə baxmayaraq, Heydər Əliyeviç olduqca diqqətli idi. Düşünmək olardı ki, ordudur, xüsusi təşkilatdır, birbaşa Mərkəzə tabedir, amma o, ordunun problemlərinə də diqqət göstərirdi. Özü də heç vaxt milli maraqları unutmurdu, respublikanın nüfuzunu qoruyurdu».

General-mayor Mustafa Nəsirov söyləyir ki, MK-nın birinci katibi olduqca düşünülmüş və uzaqgörən siyasət yeridirdi – hər vəchlə sərhədçilərlə yerli partiya-təsərrüfat orqanları arasında normal münasibətlər yaratmağa çalışırdı. Şəxsən özü də onlar üçün az iş görmürdü: sərhədçilər üçün respublika büdcəsi hesabına evlər tikirdi, sərhəd zastavalarını rekonstruksiya edirdi, hərbi qulluqçu ailələrinin məişət vəziyyətini yaxşılaşdırırdı. Sərhəd rayonuna gələndə, Heydər Əliyev ilk növbədə sərhədçilərə baş çəkirdi. Bu yalnız dövlət sərhədinin qorunmasının mühüm vəzifə olduğunun dərk olunması deyildi. O bu fikrdə idi: münasibətlərin yaxşı olduğu təqdirdə, sərhədçilər bəzi məsələlərdə yerli əhaliyə güzəştə gedərlər.

Mustafa Nəsirovun dediyinə görə «müttəfiq respublikaların heç birində sərhəd qoşunları üçün yerli vəsait hesabına Azərbaycanda olduğu kimi çoxlu sayda, Sədərəkdən tutmuş Bakıya qədər, sərhəd obyektləri tikilmirdi. Biz sərhədçilərin öz inşaat hissəsi – batalyonumuz var idi, lakin vəsait çatışmırdı. SSRİ DTK-sı yalnız sərhəd zastavaları tikmək və genişləndirmək üçün vəsait ayırırdı. Yaşayış obyektlərinin tikintisinə gəldikdə isə, adətən icazə ala bilmirdik. Bununla belə, 70-ci illərdə Heydər Əliyevin köməyi ilə biz Naxçıvanın Şərur rayonunun Sədərək qəsəbəsində sərhəd zastavası üçün əsl şəhərcik, Prişib dəstəsi üçün 50 mənzillik yaşayış binası, Lənkəranda iki 70 mənzillik bina, Bakıda üçmərtəbəli dairə hospitalının yanında yeni dördmərtəbəli korpus tikdik. Bundan başqa, zastava şəhərcikləri, sərhəd komissarı iqamətgahları, dəniz briqadası şəhərciklərində yeni xidmət və tədris korpusları tikildi və ya yenidən quruldu. Bütün bunlar bu gün göydəndüşmə kimi oldu, həmin obyektlərdən müstəqil Azərbaycanın sərhəd qoşunları səmərəli istifadə edir. Mərdəkanda rabitə batalyonu var idi, inqilabdan qabaq tikilmiş dörd binada yerləşirdi. Əsgərlər üç yarusda yatırdılar, batalyonun qərargahı bir binada, siyasi şöbə isə bir başqasında yerləşirdi. İndi orada yaxşı kazarmalar, yeməkxana, klub və s. vardır. 70-ci illərdə biz tamamilə yeni, böyük şəhərcik tikdik.

Bu məsələni necə həll etməyim yadımdadır. Mən Heydər Əliyevin qəbuluna gələndə, köməkçi dedi ki, respublika rəhbərlərindən



biri onun yanındadır. Məni «birincinin» kabinetinə dəvət etdilər. Mərdəkanda rabitə batolyonuna şəhərcik tikmək üçün 950 min manat istədim. Heydər Əliyeviç kabinetdə olan həmin adama baxıb soruşdu: «Hə, necədir, verək?». O, üzünü turşutdu: «Heydər Əliyeviç, yarım il əvvəl biz onlara Lənkəranda 70 mənzillik bina tikmək üçün vəsait vermişdik. Yenə verək?». Heydər Əliyevin cavabı heç vaxt yadımdan çıxmaz: «Onlar tikə bilirlər. Özü də, fikir ver, başqa yerdə yox, bizdə, Azərbaycanda, tikirlər. Bütün bunlar burada qalacaq». Çox uzaqgörən idi. İndi Mərdəkanda ən yaxşı hərbi şəhərciklərdən biri yerləşir».

MK-nın birinci katibinə «başağrısı» gətirən məsələlərdən biri də insanların bütün həyatını sərt reqlament çərçivəsinə salan sərhəd rejimi məhdudiyyətləri idi – gəlib-getmək, yaşamaq, hərəkət etmək, torpaqdan, sudan, meşə və digər yerlərdən istifadə qaydaları və s. Heydər Əliyevin özü sərhədyanı rayonda yaşamışdı, keçmiş DTK əməkdaşı idi, ona görə də yerli əhali üçün bu rejimin nə demək olduğunu, ağırlığını yaxşı bilirdi. SSRİ-də sərhəd rejimi ümumiyyətlə çox sərt idi, xüsusən də kapitalist ölkələri ilə sərhəd olan respublikalarda.

Bu cür qaydalar, təbii ki, iqtisadiyyatın, kurort zonalarının, turizmin inkişafına, sərhəd çayları və sərhədyanı torpaqlardan istifadə olunmasına, yerli əhalinin hüquqi və maddi durumuna mənfi təsir göstərirdi. Bir çox direktivlər yerli şərait nəzərə alınmadan, həddindən artıq sığortalanmış, çox vaxt sərhədyanı ərazidə yaşayan əhalinin konstitusiya hüquqlarında pozuntulara yol verilməklə yuxarıdan göndərilirdi. Ancaq Mərkəz onların qeyd-şərtsiz icra olunmasını tələb edirdi.

Məsələn, sərhədin böyük hissəsi çayın içi ilə keçir, əhali də çaydan dolanır, amma ora buraxmırlar – hər tərəf «dəmir pərdə» ilə, ikimetrlik məftil çəpərlə bağlıdır. Buna baxmayaraq H.Əliyevin təşəbbüsü ilə sərhədin Azərbaycan hissəsində digər ittifaq respublikalarında analoqu olmayan tədbirlər həyata keçirilirdi. Yalnız H.Əliyevin uzaqgörənliyi və təkidi nəticəsində sərhəd çayları üzərində su anbarları tikmək mümkün oldu. H.Əliyevin sərhədyanı rayonların iqtisadi inkişafı və əhalinin məişət şəraitinin yaxşılaşdırılması istiqamətində qazandığı ən böyük nailiyyət, heç şübhəsiz, sərhəd çayı Araz üzərində İranla birlikdə unikal hidroqurğunun tikintisi oldu. O vaxt çoxlarının heç ağlına belə gəlməzdi ki, «soyuq» müharibənin, iki sistem arasında siyasi və ideoloji qarşıdurmanın qızğın çağında İranla bir yerdə 2 su elektrik stansiyası və Horadizdə Mil-Muğan su

qovşağı bəndinin tikintisi mümkün ola bilər. O vaxt üçün, sonradan isə Naxçıvanın erməni işğalçıları tərəfindən çoxillik blokadası şəraitində bu obyektlərin mühüm siyasi və iqtisadi əhəmiyyətini görməmək mümkün deyil. Sərhədyanı ərazilərin iqtisadi inkişafında Arpaçay və Xanbulançay su anbarları da böyük rol oynamışdır.

«Mən Naxçıvanda xidmət edəndə, – general Nəsirov danışır, – öz təşəbbüsümlə iki dəfə Azərbaycan Nazirlər Sovetinə sərhədyanı kəndlərin iqtisadiyyatının, yol şəbəkəsinin, telefonla əhatə olunmasının sürətli inkişafı barədə qərar layihəsi ilə çıxmışam. Nazirlər Soveti də bu layihələri qəbul edibdir. Əgər sərhədçilər sərhəd rejimi qaydalarına ciddi riayət edib, qanunun icrasını tam mənası ilə tələb etsəydilər, yerli əhalinin yaşayışı tamamilə dözülməz olardı.

Bizim təlimatlarda, məsələn, deyilirdi ki, sərhədyanı zonada tikinti aparmaq üçün sərhədçilərin icazəsi tələb olunur, yaxud: Ordubad rayonundan Zəngilan rayonuna keçmək üçün buraxılış almaq lazımdır. Ümumiyyətlə, sərhəd dəstəsinin rəisi rəsmi olaraq zonanın «yiyəsi» sayılırdı. Bir çox məsələlərdə elə sərhədyanı rayonlar da absurd qadağaları olan zonanı xatırladırdı.

Dəmir yolunu götürək. Əgər mən Bakıdan Yerevana Naxçıvandan tranzitlə gedirəmsə, mənə buraxılış vərəqi lazım deyil. Amma birbaşa Naxçıvana gedirəmsə, buraxılışım olmalıdır. Mən bir dəfə Dəmir yolu İdarəsinin rəhbərlərinə təklif etdim ki, gecə vaxtı adamları narahat etməsinlər, onları iki yox, bir əsgər yoxlasın. Qatarları müşayiət edən şəxsi heyətə əmr verildi ki, gecə heç kəsi oyatmasınlar, kimin düşəcəyini əvvəlcədən bələdçilərdən öyrənsinlər. Düşən adamı 15 dəqiqə qabaq oyadıb yoxlamaq və buraxmaq lazımdır. Başqaları qoy yatsın.

Bir dəfə şəxsən zastava rəisinə möhkəm «qulaqburması» verməli olmuşam. İmişli rayonunda Bəhramtəpə su anbarı var. Muğanda suvarma kanalı tikmişdilər, tarlaları suvarmaq vaxtı gəlib çatmışdı, bunun üçün isə su anbarından kanala boru çəkilməliydi. Bəndin üstündə elektrosiqnalizasiya çəpəri var. Briqadir zastava rəisindən xahiş edir: bizə dörd saat vaxt verin, bu hissədə siqnalizasiyanı söndürün, biz borunu çəkib çəpəri təzədən bərpa edərik. Ancaq müsbət cavab ala bilmirlər. Rayondan özlərini mənim yanıma çatdıran «çaparlar» vəziyyəti danışdılar. Hirsləndim, dəstə rəisinə zəng vurdum, «Kəndtəsərrüfatısutikinti» nümayəndəsinə isə dedim ki, uçuruq ora. Bizdə Şixovda, mayak olan yerdə, öz vertolyot meydançamız vardı. Uçub gəldik. Dəstə rəisindən soruşuram ki, niyə inşaatçılara kömək etmir, axı bu şəxsi dükan deyil, dövlət işidir. Sənə adam kimi



deyirlər: çəpəri aç. Elə onda da hirslənib ona bir-iki sərt söz dedim».

Buna bənzər problemlər çox olurdu. Məsələn, balıq tutmaq olmaz, Araz üstündəki su anbarında isə nə qədər desən balıq vardı, amma hidroqurğunun müştərək istifadəsi haqqında Sazişdə maddə var idi ki, sənaye üsulu ilə balıq tutmaq yalnız iki tərəfin hökumətlərinin razılaşması əsasında ola bilər. Yəni, SSRİ gərək İran hökumətinə müraciət edəydi ki, onların hakimiyyət nümayəndələri balıq tutmağa icazə versin. Belə olanda, Mustafa Nəsirov İranın sərhəd komissarı ilə razılığa gəldi ki, su anbarında eksperiment qaydasında balıq tutulsun. Əli-Bayramlıdan gələn balıqçılar Naxçıvanda balıq tutmağa başladılar, məhz elə həmin vaxt şəhərdə istənilən qədər təzə balıq var idi.

Sərhədyanı rayonlarda İranın və SSRİ-nin sərhəd komissarları belə məsələləri həll edə bilirdilər. Yerli əhalinin həyat şəraitinin yaxşılaşması məsələsində sərhəd dəstəsinin, zastavaların komandanlığından, onların camaata münasibətindən çox şey asılı idi. Heydər Əliyev bunu gözəl başa düşürdü.

**General Nəsirov deyir:** «Yaycı kəndindən məni Naxçıvanın Ali Sovetinə deputat seçəndə, onlar xahiş etdilər ki, kəndlərinə su xətti çəkim. Suyu çəkdik, adamlar isə yeni xahişlə gəlirlər: icazə verin bir az Arazdan su götürək. Niyə? Sən demə, onu xüsusi daşlardan keçiriridilər, belə təmizlənmiş sudan isə əla çay dəmlənirdi. Yerli sakinlərin Araza tərəf düşməsi üçün xüsusi çəpər çəkdirməli oldum. Səhər sərhədçi növbəsi gəlib adamları buraxır, onlar su götürür, axşam isə bu prosedur təkrar olunurdu. Kəndlilər Arazla dolanırdılar, bütün suvarma ordan gəlirdi. Biz də hər dəfə İranın sərhəd komissarı ilə razılaşırdıq, çünki danışığa görə hər iki tərəf çaydan eyni miqdarda su götürməli idi. Bir çox yerlərdə su nasosları qurulmuşdu, onlardan çıxan borular tarlalara qədər uzanırdı».

Yerli əhali ilə sərhəd qoşunları arasında yaranmış qarşılıqlı anlaşma və mehriban münasibətlər SSRİ dağılanda, Azərbaycanda faciəli hadisələr başlayanda çox faydalı oldu. Belə ki, qanlı yanvar hadisələri ilə bağlı sərhədyanı rayonlarda elan edilmiş fövqəladə vəziyyət zamanı, ondan əvvəl və sonra heç bir sərhəd hissəsi Sovet ordusunun əməliyyatlarında iştirak etməmişdi, onlar yerli əhaliyə qarşı son dərəcə loyal münasibətdə olmuşlar.

Xalq Cəbhəsinin «fəalları» İran sərhədini, o cümlədən bahalı siqnalizasiya sistemlərini, rabitə və elektrik xəttlərini, digər texniki

qurğuları vəhşicəsinə dağıdanda da onlar münasibətlərini dəyişmədilər. Qondarma «Talış-Muğan respublikası»nda Əlikram Hümbətovun separatçılarına tabe olmayan yeganə hərbi hissə Lənkəran sərhəd dəstəsi idi.

Müstəqil Azərbaycan Respublikasının tarixində xüsusi səhifə açmış bir əlamətdar faktı da yada salaq: yeni müstəqil dövlətin üçrəngli bayrağını ucaldan ilk hərbi hissə Naxçıvan sərhəd dəstəsi oldu və bunu 1992-ci il avqustun 22-də təntənəli şəraitdə Naxçıvan Muxtar Respublikasının Milli Məclisinin o vaxtkı sədri Heydər Əlirza oğlu Əliyev etdi. Yeri gəlmişkən, onun ustalıqla, cəsarətli və vaxtında atılmış addımları sayəsində silah, hərbi texnika və digər daşınan əmlak 50%-in 50%-ə prinsipi ilə bölünmədi, dəstədə qaldı və bu gün də sərhədimizin qorunmasında istifadə olunur.

## «... Orduda onu sevirdilər, hörmət edirdilər»

Zaqafqaziya hərbi dairəsinin Hərbi Şuraları əsasən Tbilisidə keçirdi, lakin tez-tez səyyar iclaslar da olurdu.

H.Əliyev, E.Şevardnadze və K.Dəmirçyan dairənin Hərbi Şurasının üzvü idilər, MK-nın ikinci katibləri isə, adətən, ordu hərbi şuralarının üzvü olurdu. Hərbi Şuralarda regionda hərbi-strateji vəziyyət müzakirə olunurdu: hərbi obyektlərin tikilməsi, dövlət sərhədinin qorunması, qoşunların komplektləşdirilməsi və yerləşdirilməsi, hərbi hissələrin dislokasiyası və digər mühüm məsələlər. Şuralarda birinci katiblər çox mühüm rol oynayırdı, çünki əslində onlar, öz respublikalarının tam sahibləri idi.

MK-nın birinci katibləri il ərzində bir-iki iclasda iştirak edirdilər. İclaslar hər ay keçirilirdi, ancaq partiya liderləri əsasən orduya çağırışın nəticələri, səfərbərlik hazırlığının vəziyyəti, ordunun maddi təchizatı, ordu quruculuğunda respublikaların qarşılıqlı əlaqələri məsələləri müzakirə olunan zaman gəlirdilər. Həmsöhbətlərimin danışdıqlarına görə, Heydər Əliyev Hərbi Şuralarda mütləq çıxış edirdi və həmişə də konstruktiv təkliflərlə. Məsələn, Azərbaycanın çağırışçı resurslarından hərbi hissələrin döyüş hazırlığında istifadə olunması. Bu məsələni o daim qaldırırdı. MK-nın inzibati orqanlar şöbəsinin keçmiş şöbə müdiri Sabir Hüseynov xatırlayır ki, Heydər Əliyev Hərbi Şuranın iclaslarında məmnuniyyətlə və həmişə olduğu kimi parlaq çıxışlar edirdi:



«Onun bu Şuralara məxsusi hazırlaşdığını deyə bilmərəm. O çox şeylər bilirdi, yadında saxlayırdı, istədiyi vaxt öz fantastik yaddaşının gizli guşələrindən yerinə düşən maraqlı faktı çıxara bilərdi. Yadıma gəlmir ki, o mənim şöbəmdən hərbçilər qarşısında çıxış etmək üçün qaralama, «bolvanka» deyilən variant hazırlamağı xahiş etsin. Yalnız rəqəmləri tələb edirdi. Onlar isə məndə bir səhifəyə yerləşirdi. Növbəti dəfə ona faiz və rəqəmlərdən ibarət səhifəni uzadanda fikirləşdim: «Narazı qalacaq». Mənim gərginliyimi sezib ürəkdən güldü və əlinin arxasını mənim yazdığım arayışa vurub ucadan dedi:

– Bilirsən, Sabir, bu mənimçün nədir?! Poeziyadır! Puşkin deyirdi ki, hər bir nağıl onun üçün poemadır. Mən Puşkin deyiləm, ancaq deyirəm: mənim üçün hər rəqəm nəzmlə yazılmış povestdir.

Və o, bu povesti bədahətən yaradırdı. Birbaşa tribunadan. Dairənin yüksək rütbəli zabitləri onu diqqətlə dinləyirdilər, qeydlər aparırdılar. Mən onlara göz qoyurdum, Şevardnadze və Dəmirçyana, hərbi auditoriyanın onların partiya silahdaşının çıxışına göstərdikləri belə böyük diqqət xoş gəlmirdi. Açıq-aşkar qısqanclıq və paxıllıq edirdilər. Ancaq bu cəhətdən onlar Heydər Əliyevlə bəhsə girə də bilməzdilər. Yəqin elə buna görə də Moskvanın Hərbi Şuralarda birinci şəxslərin çıxış etməsi barədə göstərişlərinə baxmayaraq, Şevardnadze və Dəmirçyan bu vəzifəni MK-nın ikinci katiblərinin, müvafiq olaraq Kolbin və Andreyevin üstünə atırdılar. Bu hərbçilərin xoşuna gəlmirdi, özlərinə qarşı sayğısızlıq kimi qəbul edirdilər.

Fürsətlərin birində müavinləri ilə mənim yanımda dayanmış dairənin qərargah rəisi, general-polkovnik Kirilyuk, mənə müraciətlə dedi:

– Sənin şefin haqqında eşitmişəm, – general gözləri ilə Heydər Əliyeviçi göstərdi, – ancaq ilk dəfə idi ki, dinləyirdim. Dəryadır, dərya.

– Elədir ki, var, yoldaş general.

– Bilirsən nə var? Mənimçün indi ona yanaşıb bu barədə demək yaxşı düşməz. Onun həmkarları, – general bic-bic gülümsədi, – düz başa düşməzlər. Odur ki, fikrimi ona çatdır.

Bakıya qayıdanda, yolda mən Kirilyukun xahişini sözbəsöz təkrar etdim. Heydər Əliyeviç özünü o yerə qoymadı, ancaq mən hiss etdim ki, onun üçün xoş idi».

Respublikanın adətən hazırlaşdığı Səyyar Hərbi Şura başa çatandan sonra, birinci katiblər qonaqlara təzə tikilən sənaye obyektlərini,

kənd təsərrüfatındakı nailiyyətləri nümayiş etdirməyə çalışırdılar, görüşlər təşkil edirdilər.

General Kovtunov Ermənistan rəhbərliyinin ikiüzlü siyasətini tam açıb göstərən əlamətdar bir hadisəni xatırlayır:

«Hərbi Şuraların birində Azərbaycanla Ermənistan sərhədi boyu Culfa-Naxçıvan istiqamətində şosse yolunun çəkilməsi məsələsi qalxdı. O vaxt yalnız sərhəd yolu işləyirdi, bütün avtomobil hərəkəti isə Sevan aşırımından keçirdi. Başqa sözlə, maşınla Naxçıvana yalnız Ermənistandan keçməklə getmək olardı. Bir yol da var idi – Qarabağdan, çox çətin yol idi, amma əsası Sevan aşırımından keçirdi. Bu da məsafəni dəfələrlə artırırdı. Burada isə Puşkindən keçən yol, Biləsuvar çıxıntısı sərhəd boyu gedən Culfa yoluna gətirirdi. Culfadan Naxçıvana artıq yaxşı yol vardı.

Hərbçilər bu yerdən yol çəkilməsinə həmişə çalışırdılar. Öz qüvvələrini, mühəndis-istehkamçı hissələrini işə qoşmağı təklif edirdilər. Ermənistan qəti surətdə etiraz edirdi. Nə səbəbdən, demək çətindir. Biz bir neçə dəfə bu məsələni qaldırmışdıq, hərbi şuralarda müzakirə etmişdik. Əliyev «lehinə» idi, Dəmirçyan «əleyhinə». Dəmirçyan əsaslı dəlillərdən yayınırdı, təklifləri rədd edirdi.

Heydər Əliyev bilirdi ki, yol Naxçıvanı Azərbaycanın qalan hissəsi ilə birləşdirəcək və muxtar respublikaya yolu bir neçə dəfə qısaldacaq. Hər şeydən başqa, bu, iqtisadi cəhətdən sərfəli idi. Bəli, oranın relyefi mürəkkəbdir: qayalar, dağlar, tunellər açmaq lazım gələcək. Ancaq bir zamanlar buradan dəmir yolu çəkilmişdi axı».

Dəmirçyanın etirazının səbəbləri aydındır: ermənilər Naxçıvanı «qalpaq altında» saxlamağa çalışırdılar və hər vəchlə onun Ermənistan ərazisindən keçən nəqliyyat kommunikasiyalarından asılılığının zəifləməsinin qarşısını almağa çılışırdılar. Deməli, Naxçıvanı qopartmaq barədə uzaqgörən planlar (xoşbəxtlikdən Heydər Əliyevin sayəsində həyata keçməyən) erməni separatçıları tərəfindən artıq o illərdə düşünülürdü. A.Kovtunovun sözlərinə görə, Heydər Əliyevin qətiyyətinə və Moskvada olan nüfuzuna baxmayaraq, şosse yolunun layihəsini təsdiq etmək mümkün olmadı, çünki Kovtunovun dediyinə görə, bu işdə ona «məlum olmayan cərəyan mane olurdu».

Ermənilərin güclü müqavimətini qırıb SSRİ Nazirlər Sovetindən yolun tikilməsi barədə qərarı Heydər Əliyev ittifaq hökuməti sədrinin birinci müavini qismində nəqliyyat sahəsinə cavabdeh olduğu vaxt keçirə bildi. Bu barədə Naxçıvan vilayət partiya komitəsinin sabiq birinci katibi Kamran Rəhimov mənə bunları danışdı:

«Bir dəfə Naxçıvanda olanda Heydər Əliyev mənə dedi:



– Kamran, Naxçıvana maşınla gəlmək üçün böyük məsafə qət etmək, Ermənistandan keçmək lazım gəlir. Bu yolu necə qısaltmaq olar?

– Heydər Əliyeviç, – dedim, – burada yalnız bir çıxış yolu var. Bakı-Zəngilan-Mehri-Ordubad-Naxçıvan yolunun tikilməsi məsələsi qoyulmalıdır.

– Mən də bu marşrut barədə fikirləşirdim, – dedi. – Təşəbbüs göstər, görək».

Mən bu təkliflə çıxış etdim, o Ermənistan KP MK-nın birinci katibi Dəmirçyanla, onların Nazirlər Sovetinin sədri ilə danışdı. Onlar təklifi bəyəndilər. Mən mütəxəssislərimizə göstəriş verdim ki, layihə hazırlasınlar, ermənilər də layihələşdirmə ilə məşğul oldular. Erməni tərəfin təkliflərinə əsasən yol onların bütün kəndlərindən keçməli idi, yəni çox bahalı layihə alınırdı. Biz öz layihəmizi təqdim edəndə, Heydər Əliyevin tapşırığı ilə Həsən Seyidov Naxçıvana gəldi. Ermənistan Nazirlər Sovetinin sədr müavini də buraya gəldi. Biz bir yerdə bütün marşrut boyu hərəkət etdik. Mən özüm də iki dəfə bu marşrutla getdim.

Bizim təklifimizlə razılaşdılar, lakin tezliklə ermənilər əngəl yaratmağa başladılar. Onlar bu yolu çəkmək istəmirdilər. Mən Zaqafqaziya hərbi dairəsinin, Zaqafqaziya sərhəd qoşunlarının komandanları ilə danışmışdım, onları bu işə qoşmuşdum. Bir dəfə Naxçıvanda yerləşən sərhəd hissələrinin birinə getmişdim, sərhədçilərlə görüşəndə şikayətləndilər ki, yol olmadığından bəzən onlara vaxtlı-vaxtında çörək, digər ərzaq məhsullarını çatdıra bilmirlər. Ona görə də onların bu tikintiyə xüsusi maraqları var idi.

Heydər Əliyev Moskvaya gedəndən sonra, SSRİ Dövlət Plan Komitəsinin sədr müavini bizə gəldi. Azərbaycanda o vaxt Plan Komitəsinin sədri Sabit Abbasəliyev idi. O mənə zəng vurdu.

– Kamran Nəbiyeviç, biz gəlirik Zəngilana. Qoy sizin Nazirlər Sovetinin sədri də bütün materialları götürüb ora gəlsin.

Materialları nəzərdən keçirib, bizim layihə ilə razılaşdılar. Nəhayət, Heydər Əliyeviçin işə qarışması və hökumət başçısı Nikolay Tixonovun dəstəyi sayəsində SSRİ Nazirlər Soveti müvafiq qərar qəbul etdi. Artıq 1983-cü ildə biz yolun tikintisinə başladıq. Onu Nüvədi kəndinə qədər çatdırdıq. Mehriyə 15 km qalırdı. Ancaq bu yerdə Ermənistanla münaqişə başladı və yolun tikintisi yarımçıq qaldı.

**4-cü ordunun siyasi şöbə rəisi Aleksandr Qudkov söyləyir:**

«O illərdə hökumətin «Partiya ehtiyatının hazırlığı haqqında» qərarı çıxdı, bununla əlaqədar rayon, vilayət partiya komitələrinin katibləri ongünlük hazırlıq keçməli idilər. O heç vaxt buna mane olmurdu, əksinə, nəzarət edirdi ki, partiya işçilərindən heç kim döyüş hazırlığından yayınmasın. Bir də ki, o, hərbi şəhərciklərin hansı vəziyyətdə olmasına diqqət yetirirdi, görəndə ki, şəhərcik baxımsızdır, səliqə-sahmanı yoxdur, komandirləri tənqid edirdi. Özlərini ona oxşatmağa çalışan şəhər və rayonların partiya, sovet rəhbərləri hərbçilərlə əlaqə yaratmağa can atırdılar.

**– Qoşunlar yerli əhaliyə kömək göstərirdimi?**

– Göstərirdi. Demək olar ki, bütün hərbi hissələr pambıq yığımında iştirak edirdi. Əliyevin müdafiə naziri Ustinovla daimi əlaqəsi var idi. Lazım olanda o birbaşa müdafiə nazirinə müraciət edirdi.

Pambıqdan başqa, Lənkəranda tərəvəz yığırdılar. Bakıda, Abşeronda hətta üzüm yığımına kömək göstərirdilər. Haradasa fəlakət baş verdimi, məsələn, daşqın, bizim istehkamçılar ora tələsirdi.

Hərbi hissələrdə çoxlu azərbaycanlı işləyirdi: rabitə qovşağında, kazarmalarda, binalarda xidmət sahəsində, elektrotexniklər, dülgərlər və s. hamısı yerli əhalidən idi.

Hərbi hissənin yerləşdiyi şəhərdə tikinti gedəndə, ordu tikintiyə gömək edirdi. Axı hərbçilərin öz tikinti materialı, vəsaitləri yoxdur, lakin inşaat batalyonları var. Onda biz özümüzünküləri qazanc dalınca göndərirdik. Bunun üstündə bizi möhkəm tənbeh edirdilər.

Məsələn, əsgərlər Qaradağ sement zavodunda işləyirdilər, əvəzində biz sement alırdıq. Ancaq, təkrar edirəm, buna o qədər də yaxşı baxmırdılar.

**– Məhsul yığımı üçün pul alırdınızmı?**

– Bir qayda olaraq çalışırdıq ki, pul götürməyək, çünki əsgərlərə pul ödəməyə ixtiyarımız yox idi. Ancaq bu və ya digər kolxoz ya sovxoz hərbi hissə üçün nəsə alırdı, məsələn özfəaliyyət üçün musiqi alətləri. Kolxozlar varlı idi, heç kim zəhmətimizi ödəməkdən boyun qaçırmırdı. Əsgər və zabitlərimizin süfrəsindən əksik olmayan tərəvəz və başqa nemətlərdən isə heç danışmağına dəyməz».

**Aviasiya marşalı A.Konstantinovla söhbətdən:**

**– Heydər Əliyev dairənin gündəlik qayğıları ilə maraqlanırdımı?**

– O nəinki maraqlanırdı, ərazidə yaranmış vəziyyətlə bağlı hərbi hissələrdə olurdu. Əgər qonşularda bir hadisə baş vermişdisə, sərhəd pozuntusu ya başqa bir iş, o dəqiqə maraqlanırdı: «Bəs bizdə necədir? Nə tədbir görürük?»

Bizim qərargah Bakıda, Dağüstü parkın yaxınlığında idi. Qərargah korpusunun arxasında komanda məntəqəsi üçün bina tikmişdilər. Orada vertolyot meydançası da düzəltmişdik. Bizdən sonra, bəzi dairələr ləğv edilib «istiqamətlər» yaradılanda, orada Cənub istiqamətinin Baş Komandanı otururdu. Ancaq bu çox çəkmədi.

Biz oradan onunla hərbi hissələrə uçurduq. Məsələn, yeni MİQ-25 qırıcı təyyarələri almışdıq. Onlar Nasosnıda, HHM aviasiyasının aerodromunda dayanmışdılar.

Mən Heydər Əliyeviçə məruzə etdim ki, yeni tipli qırıcılar almışıq.

– Danış görək, – dedi.

Danışdım, təyyarənin modelini nümayiş etdirdim. Lakin o bununla qane olmadı, hər şeyi öz gözlərilə görmək istəyirdi. Təklif etdi:

– Gəl gedək, baxaq.

Elə orada, Nasosnıda təyyarə mühərriklərinin təmiri üzrə zavod tikməyə başlamışdıq. Bu zavod elə gurultu qoparırdı ki, səsboğan qoymaq lazım idi.

**– Bəs təlimlərdə necə, iştirak edirdimi?**

– Bizdə təlimlər döyüş atışı olmadan keçirilirdi. Döyüş atışını Həştərxan poliqonunda təşkil edirdilər. Döyüş atışı olmayan təlimlərdə o iştirak etmirdi.

**– Olurdu ki, yerli əhali sizə kömək göstərsin?**

– Əsas əlaqəmiz respublika rabitəçiləri ilə olurdu. Onlar bizim rabitəçilərə xəttləri müəyyən komanda məntəqəsinə, oradan döyüş mövqeyinə, radiolakasiya rotasına ya da raket divizionuna çatdırmaqda kömək edirdilər. Bizə istiqamət, xüsusi şəbəkə, aparatura ayırırdılar. Burada qarşılıqlı işləyirdik.

Bundan əlavə, mənim xidmət etdiyim müddətdə Azərbaycanda OADKYC (DOSAAF) xətti ilə təyyarəçi hazırlamaq üçün aerodromlar, qırıcı təyyarə mühərriklərinin təmiri üzrə zavod tikilmiş, bütün səviyyələrdə qoşunların komanda məntəqəsindən idarə olunması yaxşılaşdırılmışdı. Biz çox işlər görürdük və hər zaman Azərbaycan rəhbərinin xeyirxah dəstəyini hiss edirdik».

**General-mayor Mustafa Nəsirov xatırlayır:**

«Orduda niyə onu sevirdilər, hörmətlə yanaşırdılar, onunla görüşməyə can atırdılar? Çünki o şəxsi keyətlə başqa rəhbərlər kimi

formal, «quş qoymaq üçün» görüşmürdü. O hər şeylə maraqlanırdı, bu və ya digər sərhəd dəstəsinin həyat və məişətinin bütün xırda tərəflərı gözündən qaçmırdı, çoxlarını üzdən tanıyırdı.

Heç bir respublikada sərhədçi zabitlərə əməkdar həkim, əməkdar inşaatçı, əməkdar mühəndis fəxri adları verilmirdi. Rusiya və digər respublikalarda fəxri fərmanlarla təltif edirdilər, ancaq ad vermirdilər. Budur, «Bakinski raboçi» qəzetinin 1982-ci il 17 iyul tarixli nömrəsi qarşımızdadır. Fərmanların birində Zaqafqaziya sərhəd dairəsinin hərbi qulluqçuları «Azərbaycan SSR əməkdar inşaatçısı», «Azərbaycan SSR əməkdar hüquqşünası», «Azərbaycan SSR əməkdar mühəndisi» fəxri adları ilə təltif olunurlar.

Bundan əlavə, ilk dəfə olaraq və yalnız Azərbaycanda AS Rəyasət Heyətinin Fəxri fərmanı ilə ayrı-ayrı zabitləri deyil, bütöv hərbi hissəni, məsələn, gözətçi gəmisini, sərhəd zastavasını və s. təltif edirdilər. Yalnız Azərbaycanda sərhəd rayonlarında könüllü xalq drujinaları haqqında xüsusi əsasnamə qəbul edilmişdi. Minlərlə gənc patrul xidmətində, növbə çəkmədə, sərhədi pozanların yaxalanmasında iştirak edirdi. Belə əsasnamə, məsələn, ancaq 7 il sonra Leninqrad Vilayət İcraiyyə Komitəsi tərəfindən qəbul edildi. Könüllü drujinaların rayon qərargahlarına dairə Hərbi Şurasının və respublika KXD qərargahının keçici Qırmızı bayrağı verilirdi.

İndi gənclər bunu başa düşmür, amma o zaman bu həvəsləndirmə metodları sərhədçilərin döyüş və vətənpərvərlik tərbiyəsində böyük rol oynayırdı. Sərhəddə xidmət edən insanlar hiss edirdilər ki, qayğı və diqqətlə əhatə olunublar, onların haqqında fikirləşirlər, ağır zəhmətlərinə qiymət verirlər. Buna görə də Heydər Əliyevin orduda nüfuzu çox böyük idi. Onun vaxtında Azərbaycanda ilk dəfə zastavalara ad vermək ənənəsi yarandı. Məsələn, Qobustanda 26 Bakı komissarı adına zastava yaranmışdı. Naxçıvan komsomolunun adını daşıyın zastava da var idi və s.».

**Sabir Hüseynovun xatirələrindən:**

«Heydər Əliyev ordu işini və hərbi leksikonu sevirdi. Yəqin ki, dəqiq və sözə qənaətli olduğu üçün. Bunu bilən, onun hərbi işə ciddi münasibətini görən generallar Heydər Əliyevə ehtiramla yanaşırdılar. Mən özüm dəfələrlə bunun şahidi olmuşam.

Bir dəfə marşal Moskalenko gəlmişdi – baş inspektor və SSRİ müdafiə nazirinin müavini. 4-cü ordunun bazasında geniş miqyaslı təlimlər keçirilməliydi. Mən marşalı MK-nın birinci katibi ilə görüşündə müşayiət edirdim. Moskalenkonu dinlədikdən sonra Heydər Əliyeviç birdən soruşdu:

– Kirill Semyonoviç, sizinlə birlikdə təlimdə iştirak etməyimə icazə verərsinizmi?

– Məmnuniyyətlə, Heydər Əliyeviç, – sonra səsini alçaldıb əlavə etdi: – Tanıdığım birinci katiblərdən hələ heç biri mənə belə təklif etməyib.

Təlimlər bütün günü davam etdi. Və bütün gün ərzində Heydər Əliyev marşal Moskalenko ilə birlikdə komanda məntəqəsində təlimin gedişatını müşahidə etdilər, sonra Abşeron çöllərində keçən təlim döyüşlərini araşdırmaq üçün bir neçə hərbi hissədə olduları».

**General-polkovnik A.Kovtunovun dediklərindən:**

«Mən adətən bizim qoşunlarda planlaşdırılan işlər barədə məruzə edirdim. Bir çox tədbirlərdən onun xəbəri var idi. Ən vaciblərində iştirak etməyə həmişə razılıq verirdi.

Yadımdadır, mən polk komandirləri ilə hazırlıq keçirdim. Xırdalanın arxasında, şimala tərəf, Pirküşkül və Sumqayıtdan bir az aralıda. Bu vaxt təyyarəçi-kosmonavt Popoviçin arvadı, polkovnik Marina Popoviç bizə gəldi. Məşhur təyyarəçi, dünya rekordçusu. Mən ona tədbirimiz barədə danışdım, o da iştirak etmək istədi. Deyirəm, olmaz, Heydər Əliyeviç elə adamdır ki, yalnız onun icazəsi ilə kimisə dəvət etmək olar. O, israr edir: «Mən zabitlərə mühazirə oxuyaram. O gələndə, yaxınlaşaram». Bu hazırlıq zabitlər üçün səhra şəraitində döyüş maşınlarını idarə etmək, atıcılıq üzrə metodik məşğələlər, taktiki məşğələlərin epizodlarından ibarət idi.

Başda Heydər Əliyev olmaqla bütün MK Büro üzvləri gəldilər. Mən durmuşam, yanımda isə Marina Popoviç dayanıb. O, maşından çıxdı, baxdı və deyəsən ona elə gəldi ki, yanımdakı arvadımdır. Yəqin düşündü ki, nə həyasız adamdır, hələ arvadını da gətirib. Sifətində azacıq narazılıq ifadəsi sezilsə də o, bir söz demədi. Mən necə lazımdır məruzə etdim. Məruzədən sonra Marina ona yaxınlaşıb əlini uzadır: «Polkovnik Popoviç». O gülümsəyib dedi: «Sizin haqqınızda çox eşitmişəm, ancaq belə yaxından birinci dəfədir ki, görürəm». Onun qoluna girib bütün məşğələ yerlərini göstərməyə apardı».

Yeri gəlmişkən, general-polkovnik Kovtunovun şəxsi həyatında MK-nın birinci katibi az rol oynamamışdı. Onu da deyək ki, bir vaxtlar 4-cü orduya gələcək SSRİ müdafiə naziri marşal Yazov

komandanlıq edirdi. Ondan sonra ordu komandanı vəzifəsinə general Kirilyuk, onu Zaqafqaziya dairəsi qərargah rəisi vəzifəsinə keçirəndən sonra isə yerinə Aleksandr Vasilyeviç Kovtunov gəldi. Ancaq Kirilyukun qərargah işində nəsə xoşuna gəlməmişdi və o, Tbilisidən geriyə, Bakıya qayıtmaq istəyirdi. Təbii ki, keçmiş ordu komandanı vəzifəsinə. Kovtunovu başqa vəzifəyə keçirmək məsələsi qalxdı, guya vəzifəsinin öhdəsindən gəlmir. Özü də vəzifədə aşağı salmaqla. Onun üçün axtarıb Moskvada vəzifə tapdılar – hansısa ikinci dərəcəli idarə rəisi. Əlbəttə, bütün bu əlaltından görülən işlər, eləcə də təzə vəzifə Aleksandr Vasilyeviçin ürəyincə deyildi. Burada o komandandır, orada kimdir? Belə olan surətdə general Kovtunov kömək üçün Zaqafqaziya dairəsi komandanının müavini, Çexoslovakiyada bir yerdə xidmət etdiyi Dmitri Suxorukova müraciət etdi. Çexoslovakiyada Suxorukov Mərkəzi qrup qoşunlarının komandanı, Kovtunov isə korpus komandiri olub. Axı kiminləsə məsləhətləşmək lazımdır. Hər şeyi ona danışır, Suxorukovun məsləhəti belə olur: «Əgər səni «sıxışdırmağa» sənin komandanın (general-polkovnik Oleq Fyodoroviç Kulişov – müdafiə naziri Ustinova yalnız o müraciət edə bilərdi) başlayıbsa, əvvəl– axır «sıxıb suyunu çıxaracaq». Bir dəfə məruzə edəcək, iki dəfə, üçüncü dəfə istədin-istəmədin səni götürəcəklər. Odur ki, razılaş». Neynəmək olar, Kovtunov barışmalı olur. Məsələ, demək olar ki, həll olunmuşdu.

«Gözlənilmədən Baş inspeksiya Zaqafqaziya dairəsini və 4-cü ordunu yoxlamağa gəldi, – general Kovtunov söhbətinə davam edir. – Mənim keçməyimlə bağlı məsələ nədənsə aradan qalxdı. Biz marşal Moskalenko və Baş inspeksiya komissiyasına hesabat verdik, müsbət qiymət aldıq.

Mən məsələnin mahiyyətini bilmirdim, Heydər Əliyeviç Moskvaya gedəndə isə o, növbə ilə bütün Büro üzvlərini dəvət edirdi – sağollaşmaq, söhbət etmək, onun yerinə kimi görmək istəməyimiz barədə fikrimizi bilmək üçün. Biz söhbət etdik, sonra o soruşdu: «Sən bəlkə məndən inciyirsən?» – «Niyə?» – «Sən axı Moskvaya getmək istəyirdin». – «Getmək istəmirdim, sadəcə olaraq məni «dartıb» aparırdılar, yəqin kiməsə mane olurdum burada». O dedi: «Bilirəm, mənim öz fikrim var idi, mən bir neçə dəfə Ustinova məruzə etmişdim ki, sənə toxunmasınlar. Ona açıq dedim – bizə başqa komandan lazım deyil. Mən axı diqqətlə izləyirdim sən necə işləyirsən».

Təsəvvür edirsiniz? Sən demə yalnız MK-nın birinci katibi işə qarışandan sonra vəzifəmdə qalmışdım. Ancaq mən axı vəziyyət



barədə ona məruzə etməmişdim. Mənim heç ağlıma belə gəlmirdi ki, kömək istəyim, belə xahişlə onun yanına getmək yaxşı düşməzdi. Baxmayaraq ki, bir insan kimi onunla yaxşı münasibətlərimiz yaranmışdı. Bu hadisə çox şeydən xəbər verir: onun səmimiyyətindən, həssas ürəyindən, insanlara qarşı diqqətindən, ən başlıcısı isə – yalnız partiya mühitində deyil, hərbçilər arasında da böyük hörmət və nüfuzundan».

Yeri gəlmişkən, nüfuz haqqında. MK-nın keçmiş əməkdaşı Yuri Məmmədov bununla bağlı mənə maraqlı bir epizod danışıb. MK-nın inzibati orqanlar şöbəsində işləyərkən, Yuri Hüseynoviç hərbi sahəyə, Dövlət Təhlükəsizliyi Komitəsinə, DİN və prokurorluğun bəzi qurumlarına kuratorluq edib.

80-ci illərin əvvəlində Azərbaycanda iri hərbi təlimlər keçirilirdi, bununla əlaqədar SSRİ müdafiə naziri marşal Dmitri Fyodoroviç Ustinov gəlmişdi. MK-da belə qayda var idi: əgər, Heydər Əliyeviç yüksək vəzifəli bir qonaqla söhbət edirdisə, bu sahənin kuratoru bir qədər aralıda dayanmalıdır ki, birinci katib lazım olanda ona müəyyən göstərişlərini verə bilsin. Ona görə də Yuri Məmmədov olduqca maraqlı bir söhbətin şahidinə çevrilmişdi:

«Heydər Əliyeviç qonaq evində Ustinovla şam etdi, səhərisi günü müdafiə naziri Bakıdan uçmalı idi. Budur, onlar şam yeməyindən sonra parkda gəzişir, mən də arxada, bir qədər aralıdayam. Birdən eşidirəm ki, Heydər Əliyeviç Ustinova müraciət edir: «Dmitri Fyodoroviç, sizdən bir xahişim var». O deyir: «Məmnuniyyətlə, Heydər Əliyeviç, əgər buna mənim gücüm çatırsa». – «Mən çox istəyərdim ki, azərbaycanlı kosmosa uçsun». – «Problem yoxdur. Ancaq gərək azərbaycanlı təyyarəçi tapaq». Moskvaya çatandan sonra Ustinov Müdafiə nazirliyinin Baş kadrlar idarəsinə müvafiq göstəriş verdi. Heydər Əliyeviç eyni tapşırığı mənə verdi. Biz altı ay bu iş üçün yarayan azərbaycanlı təyyarəçi axtardıq, tapa bilmədik. Mülki aviasiyada var idi, hərbidə yox. Axtarışla hətta Almaniyadakı sovet qoşunları qrupuna qədər gedib çıxdıq, şəxsi işləri araşdırmaq üçün təlimatçımızı ora göndərdik. Heç kimi tapa bilmədik. Bu xoşagəlməz hal-qəziyyədən sonra o, bizim uşaqların hərbi təyyarəçi məktəblərinə daxil olması məsələsini ortaya atdı. Bizə tapşırdı ki, təyyarəçi məktəbləri üçün milli kadr seçilməsi ilə fəal məşğul olaq. Elə birinci il biz Ulyanovsk ali hərbi təyyarəçilər məktəbinə 120 nəfər göndərdik. Yadımdadır, Heydər Əliyev mənim yanımda Ulyanovsk vilayət partiya komitəsinin birinci katibinə zəng vurub uşaqlara görə xahiş edirdi. Təsəvvür edirsiniz: hamısı qəbul olundu!

İndi o uşaqlardan bir çoxunun respublikamızın Hərbi-Hava Qüvvələrində çalışdığı və ya gənc nəsli öyrətdiyi istisna deyil».

Heydər Əliyev sanki indiki günləri qabaqcadan görürdü. Bəlkə elə həmin səbəbdən hərbi-vətənpərvərlik tərbiyəsinə və ümumiyyətlə hərbi məsələlərə bu qədər ciddi yanaşırdı.

Bu mənada bizim şanlı general Həzi Aslanova vətənində ucaldılan abidənin əlamətdar tarixçəsi vardır. Bunu mənə Sabir Hüseynov danışmışdır:

«Biz onunla Böyük Vətən müharibəsi veteranları ilə görüşdən sonra MK-ya qayıtdıq. O həmişə 23 fevral – Sovet ordusu günü ərəfəsində və 9 May Qələbə günündə belə görüşlər keçirirdi. Bu görüşlər təntənəli, incəsənət ustalarının konserti ilə keçirilirdi, radio və televiziya ilə yayımlanırdı. Paytaxtın üzərini əlvan fişənglərin işığı bürüyürdü. O, öz əlilə əsgərlərə qiymətli hədiyyələr və içərisində pul mükafatları olan zərflər verirdi.

– Yanıma gəl, – o məni dəvət etdi və dərhal məsələyə keçdi. – Bizdə 122 nəfər Sovet İttifaqı Qəhrəmanı var. Öz azərbaycanlılarımız da çoxdur. Ancaq heç birinə abidə yoxdur. Gənclər üçün, elə bizim üçün, qohumları və yaxınları həlak olmuş və ya müharibədə itgin düşmüş adamlar üçün, belə abidə lazımdır. Onların ruhları qarşısında hörmət və ehtiram üçün. Böyüməkdə olan nəsildə vətənpərvərlik hissi və insanların canlarından keçdiyi Vətənə məhəbbət tərbiyə etmək üçün. Belə abidə lazımdır. Gərək seçim edək, ən layiqlisinin üstündə dayanaq. Səncə bu kim ola bilər?

– Səmimi qəlbdən deyə bilərəm ki, hər biri. Ancaq bir halda ki, məndən soruşursunuz, məncə abidəni sərkərdəyə qoymaq lazımdır. Öz əsgərləri ilə bir yerdə həlak olana. Bizdə belə adam bir nəfərdir – general Həzi Aslanov. Onunla xidmət eləyənlər deyirlər ki, cəbhə komandanı onu ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim edibmiş...

– Biz sənինlə bu məsələdə eyni cür düşünürük. Razıyam. Ən məsləhətli simadır... Aslanovun ölümündən sonra ikinci ulduzla təltif olunması barədə təltif vərəqəsinin olmasını mən də eşitmişəm... Sən belə elə. Həmin sənədlərin axtarışına hərbi tarixçiləri və jurnalistləri cəlb et...

– Oldu! – cavab verdim və sonra əlavə etdim. – Heydər Əliyeviç, biz əgər büst yox, abidə qoymaq istəyiriksə – Moskvanın icazəsi olmalıdır.



– Öyrət məni, öyrət. Yoxsa mən bilmirəm, – dedi. – Kiminlə lazımdır danışaram, sən Sov.İKP MK-ya müvafiq məktub hazırla. Mən imzalayaram...

General Həzi Aslanovun vətəni Lənkəranda abidəsinin açılışı Heydər Əliyevsiz keçdi. O artıq vətəndən uzaqda, Moskvada yaşayırdı və işləyirdi. Və Moskvada həmin o itmiş təltif vərəqəsini tapmağımız üçün az qüvvə sərf etmədi...».

## Qəbələ RLS-in tikilməsi

70-ci illərin ortasında SSRİ rəhbərliyi Zaqafqaziya ərazisində radiolokasiya stansiyasının tikilməsi barədə məsələ qaldırdı. Bü cür stansiyalar Uzaq Şərqdə, Orta Asiyada, Pribaltikada, Ukraynada artıq var idi. RLS-in qurulması Sovet İttifaqına hava məkanını 360° dərəcə «qavramaq» imkanı verirdi. Yəni düşmən hədəflərinin başdanbaşa aşkar edilmə zonası mövcud idi.

O ki qaldı RLS-in yerinin seçilməsinə, hərbi mütəxəssislərin rəyinə görə Azərbaycan ölkənin cənubunda daha əlverişli strateji mövqeyə malik idi, İran və Türkiyənin bilavasitə qonşuluğunda yerləşirdi. Yerli HHM qüvvələri bu regionda dövlət sərhədinin pozulması hallarını tez-tez qeydə alır və «soyuq» müharibə reallıqlarından çıxış edərək hərəkət edirdilər. Marşal Konstantinov xatırlayır ki, 1973-cü ilin noyabrında İran qırıcı təyyarəsi Naxçıvan rayonunda sərhədi pozmuş və Zaqafqaziya HHQ-nin təyyarəçisi tərəfindən vurulub salınmışdı. Bir ay sonra, 1973-cü ilin dekabrında, SSRİ-nin hava məkanı Türkiyə HHQ-yə məxsus iki qırıcı tərəfindən pozulmuşdu. Onlar Yerevan şəhəri rayonunda müəyyən edilmiş və Bakı HHM dairəsinin zenit-raket qoşunları tərəfindən vurulub salınmışdı.

Təbii ki, belə mühüm strateji obyektin inşası respublikanın «sahibinin» diqqətindən yayına bilməzdi. Üstəlik tikintinin yerini müəyyənləşdirmək üçün radioelektron sənayesi naziri Pleşakov, SSRİ müdafiə nazirinin inşaat və qoşunların yerləşdirilməsi məsələləri üzrə müavini marşal Gelovani, Sovet İttifaqının bütün ərazisində hava məkanının müdafiəsinə cavabdeh olan SSRİ müdafiə nazirinin müavini, hava hücumundan müdafiə Baş komandanı marşal Koldunov Azərbaycana gəlmişdilər.

**Marşal Konstantinovla söhbətdən:**

«Etirazı olub-olmadığını Heydər Əlieviçdən soruşanda o, suala sualla cavab verdi:

– RLS-in Azərbaycan ərazisində tikilməsi qərarı nə ilə əsaslandırılır?

Heydər Əliyeviçin gətirilən dəlillərlə razılaşması üçün, ittifaq rəhbərliyinin nümayəndələri qəbul etdikləri qərarı xeyli müddət və hərtərəfli izah etməli oldular.

Ancaq burada bir maraqlı məqam var idi. O maraqlandı:

– Stansiyaya kim xidmət edəcək?

Ona dedilər:

– Birincisi, hərbçilərdən olan həmin xidmət nümayəndələri, ikincisi, yerli əhalidən muzdla işləyənlər.

Onda Heydər Əliyeviç çox vacib sual verdi:

– Bəs burada işləməli olan adamlar harada yaşayacaqlar?

Radioelektron sənayesi naziri eyhamı anladı:

– Biz onlar üçün evlər tikəcəyik.

Yəni Heydər Əliyev stansiya əməkdaşlarının işlə təmin olunmasını burada mənzil, məktəb, xəstəxana, ATS tikilməsi ilə bağladı. Beləliklə o RLS-in tikintisindən yerli problemlərin həlli üçün istifadə etdi. Və bu heç kimdə etiraz doğurmadı.

Radioelektronika naziri Gelovaniyə dedi:

– İnşaatçılar sizdən, tikintinin vəsaiti – məndən.

Heydər Əliyeviç həmçinin əlverişsiz radiasiya fonunun yerli əhalinin səhhətinə mənfi təsir göstərəcəyindən narahat olaraq, ekoloji təhlükəsizlik barədə suallar verirdi. Ona aydınlaşdırırdılar ki, RLS çox güclü radiasiya verir, ona görə də orada mülki əhalinin şüalanmasının qarşısını alan xüsusi maneə sipərləri qoyulmuşdur. Onlar insan orqanizminə mənfi təsir göstərən radioaktiv şüaların yayılmasını aradan götürür».

DTK veteranı, 70-ci illərdə Təhlükəsizlik Komitəsinin Mingəçevir zonal rayon şöbəsinə rəhbərlik etmiş Bəxtiyar Süleymanlı birinci katibin xüsusi obyektə gəlməsini yada salır:

«1978-ci ilin mayında mənə məlumat verdilər ki, Heydər Əliyev hərbi obyektin inşası və rayonda vəziyyətlə tanış olmaq üçün Qəbələyə gələcək. RLS-in tikintisində böyük qüvvə – 15-16 min hərbi qulluqçu çalışırdı. Bu bir növ qapalı ümumittifaq tikintisi idi.

DTK sədri Krasilnikovla Heydər Əliyevi qarşıladıq, o YAK-40-la Yevlaxa, oradan isə vertolyotla obyektə gəlmişdi. Radioelektronika naziri Gelovani və aviasiya marşalı Koldunov (vaxtilə Azərbaycanda Bakı HHM dairəsinə komandanlıq edirdi) artıq orada idilər. Bir çox başqa generallar, həmçinin tikintini avandanlıqla təchiz edən SSRİ radiotexnika sənayesi naziri Pleşakov da orada idilər.



Əvvəlcə qapalı iclas oldu – söhbət yeni obyektin təyinatından, RLS-in nəyə xidmət edəcəyindən və s. gedirdi. Sonra Heydər Əliyev rayon rəhbərlərini yığdı, orada birinci katib avar Abdulla Bullayev idi. 14 il idi rayona rəhbərlik edirdi. Heydər Əliyev rayonun problem və ehtiyacları ilə maraqlanmağa başladı, sonra Pleşakova dedi: «Təkcə hərbi obyektin inşası ilə işinizi bitmiş hesab etməyin. Bura dağlıq rayondur, çoxsaylı problemləri var, onların həllində yerli təşkilatlara kömək etmək lazımdır. Sizdən burada bir neçə yüz zabit işləyəcəkdir, həyat yoldaşları, uşaqları ilə bu rayonda yaşayacaqlar. Onlar üçün məktəb, hamam, başqa sosial obyektlər tikmək lazımdır». O vaxt Qəbələdə böyük beynəlmiləl məktəb tikildi, regionda ən iri, min nömrəlik ATS-in bünövrəsi qoyuldu, yollara asfalt çəkildi. O, birinci katibə tapşırdı ki, əldə olunmuş razılaşmaları nəzarətdə saxlasın. Bir də o həmişə rəhbər işçiləri başa salmağa çalışırdı: hərbçilərlə mehriban qonşuluq əlaqələri yaratmaq üçün əhali arasında izahat işi aparmaq lazımdır. O, xalqla ordunun dostluğuna böyük əhəmiyyət verirdi.

Qəbələdə RLS-in tikintisi ilə bağlı maraqlı bir xatirəni «Heydər Əliyev və Azərbaycan tarixi məsələləri» adlı məqaləsində mərhum akademik, Milli Elmlər Akademiyasının tarix institutunun direktoru İqrar Əliyev danışır.

1977-ci ildə tarixçilər xəbər tutdular ki, Qəbələdə hansısa bir gizli obyektin inşası başlanıb və həmin obyekti unikal memarlıq abidəsi – Azərbaycan dövlətinin qədim paytaxtı Qəbələnin yerində tikmək istəyirlər. İqrar Əliyev köhnə dostu, Azərbaycan Parlamentinin rəhbəri Qurban Xəlilova zəng edir, xahiş edir ki, tarixçilərin həyəcanını 1-ci katibə çatdırsın. Səhəri günü Heydər Əliyev İqrar Əliyevi qəbul edir, diqqətlə dinlədikdən sonra hökumət telefonunu qaldırır:

«... O, Moskvaya, müdafiə nazirliyinin hansısa ən yüksək rütbəli zabitinə, deyəsən, marşalların birinə zəng etdi. Heydər Əliyevin həmin o marşalla danışığı indi də olduğu kimi mənim yadımdadır. Onun marşala dediyi sözlər o qədər sərt və acı idi ki, mən Heydər Əliyevin öz vətəninə, tariximiz və mədəniyyətimizə nə qədər bağlı bir mərdanə şəxsiyyət olduğunu gördüm. Açıq etiraf edim ki, öz

xalqım və vətənim üçün çox böyük qürur hissi keçirdim. Heydər Əliyev telefonun dəstəyini yerə qoyandan sonra başda Qurban Xəlilov olmaqla komissiya yaradılması barədə göstəriş verdi və biz səhəri gün Qəbələyə yola düşdük.

Məlum oldu ki, indiki məşhur Qəbələ RLS-in tikinti layihəsi o zaman ittifaq layihə institutlarının birində işləyən milliyyətcə erməni olan qadın tərəfindən hazırlanıbmış və qədim paytaxt Qəbələnin üzərində tikilməli imiş. Biz hərbçilərin qədim paytaxt ərazisində quraşdırdıqları bütün qurğuları sökməyə və tarixi abidədən uzaqlaşdırmağa müvəffəq olduq. Bu, əlbəttə ki, o zaman respublikaya rəhbərlik edən Heydər Əliyevin qətiyyəti sayəsində mümkün oldu və Azərbaycan xalqının dövlətçilik abidəsi olan Qəbələ şəhəri xilas edildi. Mən hesab edirəm ki, bu Heydər Əliyevin vətən qarşısında etdiyi saysız-hesabsız böyük xidmətlərindən biri idi»[1].

## Cənub qərargahının yaradılması

Bu hadisəni mənə Heydər Əliyevin ən yaxın silahdaşlarından biri – Sabir Mamedoviç Hüseynov danışmışdır. O, əla hekayəçi olduğundan, epizodu danışdığı kimi verirəm:

«... Səhər saat on birə işləyirdi. «Birinci» ilə birbaşa əlaqə selektorunun zummeri məni işdən ayırdı.

– Sabir, təcili yanıma gəl.

Mən onun yanına tələsdim.

O nə barədəsə düşünə-düşünə həyəcanlı halda kabinetdə gəzişirdi.

– Otur! Məsləhətləşmək istəyirəm.

Çoxdan bilirdim ki, onun «məsləhətləşmək istəyirəm» ifadəsi nə deməkdir. Yəni o, artıq qərara gəlib, indi bunu sözdə «cilalamaq», hərtərəfli sınaqdan çıxarmaq lazımdı.

– Qulaq asıram, Heydər Əliyeviç.

O, stola yaxınlaşıb qalın qovluğu əlinə götürür. Bu – dünən keçirilmiş Sov.İKP MK Siyasi Bürosunun protokolu idi. Qaydaya görə bu protokollar ertəsi gün kuryer poçtu ilə respublikaların birinci şəxslərinə göndərilirdi.

– Siyasi Büro, – Heydər Əliyeviç deyir, – qərara alıb ki, ölkədə dörd hərbi qərargah (stavka) yaradılsın. Onlardan biri – Baş



qərargahın Cənub istiqamətindəki «stavka»sı – Zaqafqaziyada dislokasiya olmalıdır...

– Dəqiq harada?

– Məsələ də elə ondadır ki, hələ dəqiqləşməyib. Şevardnadze ilə Dəmirçyan heç şübhəsiz bunu görməyəcəklər, bu qərara elə də əhəmiyyət verməyəcəklər. Hərbi məsələlər onları az maraqlandırır.

– Siz istəyirsiniz ki, «Stavka»nı Bakıda yerləşdirsinlər?

– Elədir! – o, həvəsə gəldi və yenidən kabinetdə var-gəl etməyə başladı. – Əgər biz «Stavka»nı ala bilsək, onda qərargahları Tbilisidə olan Zaqafqaziya hərbi dairəsi və Zaqafqaziya sərhəd dairəsi bizə, Azərbaycana tabe olacaqdır.

– Əladır! – bilaixtiyar ağzımdan çıxdı.

– Deməli, sən başa düşdün?! Bu bizim üçün çox nüfuzlu, vacibdən-vacib məsələdir. Razısan?

– Söz ola bilməz. Ancaq qonşularımızı qabaqlamaq lazımdır...

O sanki bu sözləri gözləyirdi. Yerinə əyləşib bir qədər susdu, sonra dərindən nəfəs alıb «VÇ»-nin dəstəyini qaldırdı.

– Zdraviya jelayu, Dmitri Fyodoroviç! – o, müdafiə nazirini – Ustinovu hərbçilər sayağı salamladı.

Bundan sonra bütün dialoqu yaddaşımda qalan kimi təsvir edirəm, o ki qaldı həfizəmə, nə mənim, nə də mənimlə bir yerdə işləyənlərin ondan şikayəti olmayıb.

**Dmitri Ustinov:** Sənə də can sağlığı arzulayıram, Heydər Əliyeviç!

**Heydər Əliyev:** Siyasi Büronun protokolu qabağımdadır... Zəng etməyə bilməzdim. «Stavka»nın təşkili ideyası – dahiyanədir. Öz heyranlığımı şəxsən sizə söyləməkdən özümü saxlaya bilmədim. Bir an da şübhə etmirəm ki, ideyanın müəllifi sizsiniz...

**D.U.:** *(telefon dəstəyindən onun məmnun gülüşü eşidilir)* Sağ ol. Zəhmət çəkməli olduq...

**H.Ə.:** Mən elə başa düşdüm ki, dislokasiya yerləri ilə sizdə hələ müəyyənlik yoxdur.

**D.U.:** Axtarırıq.

**H.Ə.:** Dmitri Fyodoroviç, sizdən xahişim var *(Heydər Əlieviç mənə baxıb özünəməxsus tərzdə gözlərini qıyır)*, Cənub istiqaməti Qərargahı üçün yer seçməkdə tələsməyin.

**D.U.:** Bəlkə Qərargahın sizdə, Azərbaycanda, Bakıda olmasını istəyirsiniz?

**H.Ə.:** Etiraf edim ki, çox istəyərdim. Həm də bizim müəyyən infrastrukturumuz, hərbi təyinatlı obyektlərimiz var...

**D.U.:** (sözünü kəsir) Niyə də yox, Heydər Əliyeviç, maraqlı fikirdir. Düşünürəm, məni dəstəkləyərlər... Siz belə edin: mənim adıma məktub göndərin, mən də o saat komissiya göndərərəm. Qoy baxsınlar. Bir də ki, mənim planlarımda yaxın vaxtlarda sizin tərəflərə gəlmək var.

**H.Ə.:** Çox yaxşı. Minnətdaram. Gözləyəcəyik *(dəstəyi qoyur)*.

– Eşitdin hamısını? – o, qalib nəzərlərlə məni süzdü. – İndi məsələ bizdən asılıdır. Sabah bu vaxt məktub stolumun üstündə olsun. Kimi istəyirsən bu işə cəlb elə. Yadında qalsın: respublika üçün indi bundan nüfuzlu məsələ yoxdur...

Müdafiə nazirliyindən bizə gələn komissiya yoxlamadan razı qaldı və Ustinova məruzə etdi ki, Cənub istiqaməti qərargahının dislokasiyası üçün Bakıda hər şərait var, yerləşmək üçün burada nisbətən az xərc tələb olunacaq.

Bir aydan sonra Bakı Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ müdafiə naziri, Sovet İttifaqı marşalı Dmitri Fyodoroviç Ustinovu qəbul edirdi. Hava limanında onu Heydər Əliyev və marşalın gəlişi ilə əlaqədar burada olan Gürcüstan və Ermənistanın birinci katibləri qarşılayırdılar.

Axşam rəsmi qəbulda Dmitri Fyodoroviç sözbəsöz bunları dedi:

– Heydər Əliyeviç, mən sizin bu gözəl paytaxtınıza əliboş gəlməmişəm. Sürprizlə gəlmişəm! İcazə verin Baş Qərargahın Cənub istiqaməti «Stavka»sının Bakıda yerləşməsi haqqında Sov.İKP MK Siyasi Bürosu üzvləri tərəfindən bəyənilmiş və mənim imzaladığım əmri oxuyum. SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə «Stavka»nın dünən təyin olunmuş Baş komandanını – Sovet İttifaqı Qəhrəmanı, ordu generalı Yuri Pavloviç Maksimovu da özümlə gətirmişəm...

Ustinov bunu bəyan edəndə, mən qeyri-ixtiyari Şevardnadze və Dəmirçyanın təəccübdən donub qalmış sifətlərinə, onların müəmmalı baxışmasına diqqət yetirdim. Bunu görməmək mümkün deyildi.

Qonaqlar gedəndən sonra, Heydər Əliyevlə təklikdə qalanda maraqlandım:

– Gördünüz Şevardnadze ilə Dəmirçyan Ustinovun xəbərinə necə reaksiya verdilər?

– Mən hər şeyi görürdüm, Sabir. «Stavka» ilə Bakının statusu Tbilisinin statusundan yuxarı oldu...



Məmnun halda əllərini bir-birinə sürtərək, o cavanlara məxsus coşqunluqla və uca səslə dedi:

– Biz hələ çox işlər görəcəyik!

Bu sözlər içimdə elə səslənir ki, elə bil onları indicə deyib».

## 70-ci illərdə hərbi təhsil

Çar Rusiyasında azərbaycanlıları, eləcə də başqa müsəlman xalqlarını, hərbi xidmətə çağırmırdılar, «etibarsız», «döyüş qabiliyyəti olmayan xalq» damğası vurub, əvəzində pul alırdılar. Bəzən qafqazlılardan nizami qoşunlarda deyil, «dikaya diviziya» qismində istifadə edirdilər. Buna baxmayaraq, bir çox azərbaycanlı Rusiyanın hərb tarixində şöhrət qazanmış, özlərini cəsur, ən başlıcası isə çara və vətənə sədaqətli sərkərdə kimi göstərmişdi. Son zamanlar Naxçıvanski xanları sülaləsindən bəhs edən tarixi romanlar seriyası üzərində çalışan rus yazıçısı, tarixçi Rudolf İvanov bu həqiqəti olduqca inandırıcı sübuta yetirir.

Azərbaycanlıların həqiqətən qəhrəman xalq olduğunu amansız 1941-1945-ci illər bir daha təsdiq etdi. Qızıl Ordunun Azərbaycanda formalaşan 416-cı, 223-cü, 77-ci atıcı diviziyaları əsil döyüş şücaəti nümayiş etdirdilər. Azərbaycanın 122 övladı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, 170 mindən çox əsgər və zabit orden və medallarla təltif olundular.

Əfsus ki, müharibə qurtarandan sonra azərbaycanlılara olan münasibət yenidən pis tərəfə dəyişdi. Azərbaycan gənclərini hərbi xidmətə aparanda, əsasən, inşaat batalyonlarına, dəmiryol qoşunlarına cəlb edirdilər, aviasiya, tank, strateji desant qoşunlarında xidmət etmək arzusunda olanların qarşısına sədd çəkirdilər.

Belə vəziyyət, sözsüz ki, Heydər Əliyevi narahat etməyə bilməzdi.

«O, birinci katib olanda, – Sabir Hüseynov söhbət edir, – mən MK-nın inzibati orqanlar şöbəsinin müdiri kimi gördüm ki, Heydər Əliyeviç hərbçilərə və hərbi işə çox ciddi yanaşır. Bir dəfə məndən xahiş etdi ki, gənclərimizin Sovet ordusuna çağırışı ilə bağlı vəziyyət haqqında arayış hazırlayım. Onun çıxardığı nəticə gözlənilməz və çox dəqiq idi:

– Zaqafqaziyadan çağırılan yeni əsgərlərin üçdə ikisinin bizdən olması, yaxşıdır. Pis odur ki, onların əlinə tüfəng yox, bel və külüng

verirlər. 90 faizi inşaat batalyonlarında xidmət edir. Bizim uşaqlara qarşı belə münasibəti dəyişmək lazımdır.

Elə o saat da «VÇ» ilə marşal Ustinova zəng etdi. O, Heydər Əliyevi diqqətlə dinlədikdən sonra dedi ki, onun fikri ilə razıdır və elə bu gün nazirliyin Baş səfərbərlik idarəsinə əmr verəcək ki, yaranmış vəziyyəti düzəltsin. Sovet İttifaqının müdafiə naziri ilə olan bu konkret söhbət, fikir mübadiləsindən sonra vəziyyət kəskin dəyişdi. Çox keçmədi ki, bizim gənclərin 90 faizi nizami hissələrdə qulluq etməyə başladı.

Bundan əlavə, o göstəriş verdi ki, mən hərbi komissariatlar vasitəsilə çağırışçılarla işi nəzarətə alım və elə təşkil edim ki, onlar tank, aviasiya, ümumqoşun və s. hərbi məktəblərinə getsinlər.

Heydər Əliyev təkid edirdi:

– Onları məhz bu tədris müəssisələrinə yönəltməliyik. Bizə döyüş zabitləri lazımdır.

Təkid edirdi və hərbi komissariatların kimi və haraya göndərməsi siyahılarını tələb edirdi. Onun üçün hərbi tədris müəssisələrinə oxumağa yola düşən gənclərlə görüşlər keçirmək ənənə halını almışdı. Adətən, bu görüşlər indi onun adını daşıyan sarayda keçirilirdi. Respublika başçısının alovlu nitqinə, xeyir-duasına qulaq asan oğlanların sevincdən parıldayan gözlərini görmək lazım idi.

Onu da qeyd etməyə bilmərəm ki, Heydər Əliyeviç Bakı Ali Ümumqoşun və Ali Hərbi-Dəniz məktəblərinin buraxılış mərasimlərində iştirak etməyə həmişə vaxt tapırdı, diplom və zabit paqonlarını məzunlara şəxsən təqdim edirdi.

Respublikada orta və ali hərbi təhsilin vahid sistemi məhz 70-ci illərdə yaradılmağa başladı.

Cəmşid Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının kursantları ilə görüşü zamanı H.Əliyev özü bunu belə xatırlayırdı:

«Gənclərimizi hərbi peşəyə cəlb etmək, hərbi işə alışdırmaq üçün Azərbaycanda hələ 30 il bundan qabaq, bütün xalqlar üçün, bütün Sovet İttifaqı üçün vahid ordu olan bir zamanda, İkinci dünya müharibəsindən sonra yaradılmış Cəmşid Naxçıvanski adına hərbi liseyə bənzər Suvorov, Naximov məktəbləri olan bir vaxtda yerli uşaqlar üçün xüsusi hərbiləşdirilmiş orta məktəb yaratmaq qərarına gəldilər. Hər bir gənc Sovet Ordusunun nəhəng SSRİ ərazisində yerləşən müxtəlif hərbi məktəblərinə daxil olub tam hərbi təhsil ala bilərdi. Bu barədə məndən soruşurdular: bunu nə üçün edirsiniz? Mən qərarımdan dönmək istəmirdim, Azərbaycanda belə hərbiləşdirilmiş məktəbin yaradılmasının vacibliyini sübut etməyə çalışırdım.



30 il bundan əvvəl yaratdığımız hərbiləşdirilmiş orta məktəb, indiki Cəmşid Naxçıvanski adına Hərbi lisey çox işlər görmüşdür, Azərbaycan milli ordusunun yaradılmasında, zabit kadrlarının hazırlanmasında böyük xidmətləri vardır...

Biz bu işi başlayanda, bu bizim üçün nəzəriyyə deyildi, biz böyük gələcəyə baxırdıq. Azərbaycanın gələcəyini düşünürdük. Milli zabit kadrlarının hazırlanması yolunda bu ilk addımlar idi»[2].

1981-ci il dekabrın 9-da Dzerjinski adına klubda C.Naxçıvanski adına internat-məktəbin 10 illik yubileyinə həsr olunmuş təntənəli iclas keçirildi.

MK-nın Büro üzvləri ilə birlikdə H.Əliyev iclasda iştirak etmiş, Azərbaycan AS Rəyasət Heyətinin Fəxri Fərmanını internatın kollektivinə təqdim edərək nitq söyləmişdi:

«1971-ci ildə, Azərbaycan KP MK-nın qərarına uyğun olaraq, ölkəmizdə ilk dəfə belə profilli internat-məktəb yaradıldı.

Məqsədimiz ali hərbi məktəblərə daxil olmaq və sonrakı xidmətini SSRİ Silahlı Qüvvələrinin zabit korpusunda davam etdirmək üçün əsasən yerli millətdən olan gənclərin hazırlanması idi... Bu qısa müddətdə məktəbin kollektivi şərəfli yol keçmişdir. Ən əsası, belə tədris müəssisəsi yaratmaq ideyası özünü tamamilə doğrultdu və indi məktəb üzərinə qoyulan məsul vəzifələrin öhdəsindən uğurla gəlir. Qazanılmış uğurlar, bunu əminliklə demək olar, biz gözlədiyimizdən də artıq oldu. On il ərzində məktəbin 540 yetirməsi akademiyalara, məktəblərə və ya hərbi institutlara daxil olmuşdur, indi onlar 47 hərbi təhsil müəssisəsində oxuyurlar. Bu gənclərdən 130 nəfəri artıq zabitdir, Sovet Ordusu və Hərbi-Dəniz Donanmasında xidmət edirlər. Hazırda internat-məktəbdə beş yüzdən çox uşaq təhsil alır, onlardan 310-u bu il qəbul olub.

... Məktəbin yaranması və inkişafı prosesində qarşıya çıxan çətinliklərdən də danışmaq lazımdır. Keçilən yol, açıq deyək, asan olmamışdır. Məqsədimiz aydın idi, bununla belə on il qabaq müvafiq təcrübəmiz və praktikamız yox idi. Bir çoxlarını xüsusiləşdirilmiş məktəbin məqsədəuyğun olmasına inandırmalı olurduq, orta məktəbdən bir qədər fərqlənən müəllim kollektivi seçmək, müvafiq maddi-texniki baza və s. yaratmaq lazım idi.

İlk vaxtlar məktəb üçün şagirdlərin seçilməsi də əsas problemlər sırasında idi. Biz bu işdə müdiriyyətin, müəllimlərin çətinliklərini başa düşürdük, problemlə dərindən məşğul olurduq, kömək göstərir-

dik. Və götürün bu ili, məktəbə 300 yerə 650 gənc daxil olmaq arzusunu bildirmişdir. Əsil müsabiqədir, ali məktəblərdə olduğu kimi! Heç şübhə yoxdur ki, gələn illərdə müsabiqə daha da artacaqdır».

İnternat-məktəb yarandandan sonra Azərbaycan KP MK məktəbin maddi-texniki bazasının möhkəmlənməsini, tədris prosesinin təkmilləşməsini nəzərdə tutan xüsusi qərar qəbul etdi. H.Əliyev heç vaxt məktəbi diqqətdən kənara buraxmırdı, hər il 9 mayda MK-nın Büro üzvləri, generallar, ordu veteranları ilə birlikdə internatın kollektivi ilə görüşürdü. O deyirdi ki, «bütün bunlar hərbi peşənin, Vətəni müdafiə etmək peşəsinin nüfuzunu, sizin məktəbin nüfuzunu daha da yüksəyə qaldırmağa, şanlı Sovet Ordusu sıralarında xidmətə daha çox gəncin cəlb olunmasına yönəlmişdir».

Çox sonralar, artıq müstəqil Azərbaycanın prezidenti kimi otuz il əvvəl yaranmış liseyə Qələbə günündə gəlmək ənənəsinə sadiq qalan Heydər Əliyev, o vaxt keçirdiyi hissləri belə xatırlayırdı:

«Oradan mən həmişə dərin təəssüratla qayıdırdım. Bu gün də sizi görəndə, sizə baxanda mən eyni hissləri keçirirəm. Mən sizə baxıb Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz sizə inanırıq, əziz oğullarımız. Siz isə bizim arzu və istəklərimizi doğrultmalısınız»[3].

Kamran Rəhimov 1988-ci ildə Sov.İKP MK katibi Yeqor Liqaçovun Bakıya gəlməyini yada salır. Kamran Bağırovla birlikdə onlar Naxçıvanski adına hərbi məktəbdə olmuşdular.

«Mən onları orada qarşılayırdım – K.Rəhimov deyir. – Məktəblə tanışlıqdan sonra Liqaçov dedi: «Bu tədris müəssisəsini yaradan insan, yəqin ki, xalqını çox sevib və onun gələcəyi haqqında düşünüb». Bilmirəm, Kamran Bağırov ona məktəbin yaradıcısının kim olduğunu söylədimi?».

**Vladimir Morozkovla söhbətdən:**

«1971-ci ildən mən Az.TAQ-da müxbir işləyirdim. Yüksək səviyyəli rəsmi mərasimləri işıqlandırırdım. Yadımdadır, 70-ci illərin əvvəlində Heydər Əliyev Ali Hərbi Dəniz Məktəbinə getmişdi. Bu hərbi məktəbdə bizimkilərlə yanaşı xaricilər də təhsil alırdı – həbəşlər, ərəblər, vyetnamlılar. Naxçıvanski adına internat-məktəb yaratmaq ideyası da yəqin elə həmin vaxt doğdu. Heydər Əliyev bu məktəb üçün münasib bina tapmaq barədə göstəriş verdi. Hərbi dəniz məktəbinin yaxınlığında yarısökük bir internat tapdılar. Yadımdadır, məktəbdə olan zaman o dedi: «Azərbaycanlıları inşaat



batalyonları və dəmiryolçu rotalarına, bellə işləməyə göndərdikləri bəsdir. Bizə raketçilər, tankçılar, təyyarəçilər lazımdır».

Hər il, mayın 9-da o əvvəlcə Bakı qospitallarında Böyük Vətən müharibəsi illərində aldıqları yaralardan həlak olmuş əsgərlərin dəfn olunduğu yerə baş çəkir, sonra Rixard Zorge, Mehdi Hüseynzadə, Həzi Aslanovun abidələrini ziyarət edirdi. Saat 12 radələrində MK Bürosunun üzvləri ilə birlikdə Naxçıvanski məktəbinə gəlirdi. Orada 8-10-cu siniflərdə yeniyetmələr oxuyurdu. Onların arasında dövlət himayəsinə ehtiyacı olanlar var idi: aztəminatlı ailələrin övladları, ümumiyyətlə valideynlərini itirmiş uşaqlar. Orada xüsusi müəllim kontingenti, xüsusi şərait, hərbiləşmiş idman hazırlığı var idi, məşğələləri istefada olan zabitlər aparırdı, tərbiyəçilər də hərbçilər sırasından seçilmişdi. İnternatı bitirənlər güzəştli şərtlərlə, bəzən göndərişlə, SSRİ-nin hərbi ali məktəblərinə oxumağa göndərilirdi.

Əvvəllər uşaqların forması yox idi, heç cür nümunə fikirləşib tapa bilmirdilər. İki-üç ildən sonra Zaqafqaziya Hərbi Dairəsi internatın şagirdləri üçün xüsusi forma tikdirdi.

İlk vaxtlar Moskva bu işə yaxşı baxmırdı, sonra isə yeniyetmələrin hərbiləşdirilmiş tərbiyəsi Sov.İKP MK tərəfindən bəyənilmişdi. Məsələyə Siyasi Büro səviyyəsində baxılmış, təcrübənin yayılması barəsində hətta xüsusi qərar qəbul edilmişdi. Bundan sonra gürcülər də özləri üçün Leselidze adına analoji məktəb açmışdılar».

Bundan əlavə, Azərbaycan gəncləri sistemli qaydada keçmiş SSRİ-nin ali hərbi məktəblərinə göndərilməyə başladı. Ehtiyatda olan general-mayor M.Nəsirovun yazdığı kimi, «ilk dəfə olaraq yalnız Azərbaycandan hər il yüzlərlə abituriyent məktəblərin özlərində qəbul imtahanlarını vermədən Silahlı Qüvvələrin, demək olar ki, bütün qoşun növləri üzrə hərbi məktəblərinə daxil olurdu»[4].

Jurnalist Valeh Mirzə özünün «Heydər Əliyev və milli təhsil sisteminin inkişafı» adlı məqaləsində aşağıdakı statistik məlumatı verir:

«70-ci illər – 80-ci illərin əvvəlində keçmiş SSRİ-nin ali hərbi məktəblərində təhsil almaq üçün hər il təxminən 800-900 gənc respublikadan kənara yollanırdı. Bununla yanaşı, Bakıda olan iki ali hərbi məktəb də milli kadrların hazırlığı ilə məşğul olurdu. 1980-ci ildə ADPİ-də Qafqazda birinci, SSRİ-də isə dördüncü olan ilkin hərbi hazırlıq fakültəsi açıldı. Fəaliyyət göstərdiyi dövrdə fakültə respublikamız üçün mindən yuxarı hərbi kadr hazırladı»[5].

**4-cü ordunun siyasi şöbəsinin sabiq rəisi A.Qudkovun söhbətindən:**

«Düşünürəm ki, onun hərbi xidmətdə olmayan şəxsləri rəhbər vəzifələrə təyin etməmək barədə gizli göstərişindən hamının xəbəri var. Ona görə də Azərbaycanda əsgəri xidmətdən boyun qaçıranlar, demək olar ki, yox idi. Düzdür, bəzi yüksək vəzifəli valideynlərin oğlanlarını harasa uzağa göndərməyib, Azərbaycan ərazisində saxlamaq xahişləri olurdu.

Heydər Əliyeviç Azərbaycandan olan çağırışçıların hansı hərbi ixtisaslar üzrə xidmət etdiyini bizdən tez-tez soruşurdu, elə biz özümüz də bu məsələni dəfələrlə qaldırırdıq. Çünki səfərbərlik elan edilsəydi, Azərbaycanda bir deyil, iki deyil, bir neçə hərbi hissə yaratmaq lazım gələcəkdi. Ehtiyatda olanları nəzərdən keçirəndə isə məlum olur ki, yerli əhalinin nümayəndələri əsasən inşaat batalyonları və konvoy hissələrində xidmət etmişlər. Rabitəçilər, artilleriyaçılar, tankçılar yox idi. Heydər Əliyeviç hətta SSRİ Müdafiə Nazirliyinin Baş Qərargahı qarşısında məsələ qaldırdı ki, Azərbaycandan olan çağırışçılar qoşunların hərbi qüdrətini müəyyən edən hissələrdə də xidmət etsinlər – yəni nişançı, raketçi, «RLS» operatorları və s. ixtisaslara yiyələnsinlər. Orduya çağırışla əlaqədar vəziyyəti o çox diqqətlə izləyirdi.

Respublika rəhbərinin məsələyə bu cür yanaşması öz işini gördü. Bir çox azərbaycanlını Almaniyadakı Sovet qoşunları qrupuna, qabaqcıl seçmə hissələrə göndərməyə başladılar.

Naxçıvanski məktəbi yaradılanda, o bütün Azərbaycan rəhbərliyini, o cümlədən hərbə hissə komandirlərini də özü ilə ora aparırdı. Sinifləri gəzirdi, tirə baş çəkirdi, müəllimlərlə söhbətində deyirdi:

– Yoldaşlar, hesab edin ki, bu həm də sizin vəzifənizdir.

Sinif tərbiyəçisi deyilən vəzifələrə yaxşı, bacarıqlı zabitlər tapmaq, ikincisi, – geyimlə gömək etmək, üçüncüsü, – maddi-tədris bazası yaratmaq, tədris silahları, müxtəlif maketlərlə məktəbi təchiz etmək lazım idi. Bu işlərə o hərbçiləri cəlb edirdi. Məsələn, soruşurdu ki, niyə silahlanma xətti ilə bütün işlər başa çatdırılmayıb, niyə silah çatışmır, biz hərbçiləri məktəb administrasiyası ilə başbaşa qoyurdu – nə, harada, hansı səbəbdən diqqətimizdən yayınmışdır.

Yaxud götürək Ali Ümumqoşun Məktəbini. Heydər Əliyevdən əvvəl də məktəb fəaliyyət göstərirdi, ancaq maddi-tədris bazası bərbad vəziyyətdə idi. Onun vaxtında çox işlər görüldü. İlk növbədə



bütün kazarmalar, tədris otaqları əsaslı təmir olundu, gözəl tir, hovuz, başqa obyektlər inşa edildi. Bərşadlı məktəb rəisi təyin edilməndən sonra məktəb, demək olar ki, tamamilə simasını dəyişdi, nəinki Zaqafqaziya dairəsində, bütün SSRİ-də nümunəvi oldu. Heydər Əliyev də həmişə deyirdi:

– Hərbi məktəb – respublikanın simasıdır, kadr yetişdirmək lazımdır.

O məktəbdə milli kadrların olmasını böyük diqqətlə izləyirdi. Axı orada təkcə Azərbaycandan yox, bütün SSRİ-dən olanlar oxuyurdu».

Milli Məclisin deputatı Fəzail Ağamalı da bu barədə yazır:

«Azərbaycan ərazisində SSRİ səviyyəsində strateji əhəmiyyət kəsb edən bir neçə ali hərbi məktəbin fəaliyyət göstərməsinə baxmayaraq, həmin məktəblərdə təhsil alan kursantların milli mənsubiyyəti Azərbaycan üçün həqiqətən acınacaqlı idi. Azərbaycan ərazisində yerləşməsinə baxmayaraq, bu məktəbin minlərlə məzunu arasında yalnız beş-altı azərbaycanlı var idi və onların da çoxu «beynəlmiləl» ailələrin üzvləri idi. Təbii ki, bu tendensiya da Heydər Əliyevi narahat etməyə bilməzdi. Maraqlıdır ki, 70-ci illərdən başlayaraq Bakıdakı hərbi məktəblərə (Ali Ümumqoşun Komandirləri Məktəbi və Zığdakı Hərbi Dəniz Qüvvələri Məktəbi) qəbul olunan gənclərin arasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı. Hətta 1979-cu ilin statistikasına görə, kursantların 65 faizini azərbaycanlılar təşkil edirdilər»[6].

## Sərhədçilərin milli kadrları haqqında

**İstefada olan general-mayor Mustafa Nəsirovun söylədiklərindən:**

«70-ci illərdə bütün sahələr üzrə yüksək səviyyəli milli kadrlar hazırlandı, onların bir çoxu başqa respublikalarda işləməyə dəvət olundu. H.Əliyev rəhbərliyə gələnə qədər, hərbi kadr sahəsində tam «kasadlıq» idi. Ümumiyyətlə, hərbi qulluqçulara münasibət, yumşaq desək, o qədər də yaxşı deyildi. Mən ilk dəfə olaraq yerli rəhbərlik tərəfindən təbrik açıqcasını 1967-ci ildə, Sərhədçi günü münasibətilə aldım. Məni DTK sədri Heydər Əliyev təbrik etdi. Bəlkə də, bəzilərinin gözündə xırda faktdır, ancaq mənim üçün çox şeydən

xəbər verir. 60-cı illərin əvvəlində, bir çoxlarının heç xəbəri də yox idi ki, Nəsirov soyadlı dəstə rəisi var.

Sərhəd qoşunlarında xidmət edən milli kadrların sayı çox az idi, səbəbi də aydın idi: bizə qarşı etimadsızlıq. Azərbaycanlılardan çəkinirdilər. Məsələ ondadır ki, sərhədin Azərbaycan və gürcü-erməni hissələri kapitalist ölkələri – Türkiyə və İranla sərhəd təşkil edirdi. Türkiyə NATO-nun üzvü idi, İran isə SENTO-nun. Digər tərəfdən, İranla olan sərhədin Azərbaycana aid hissəsi, əks siyasi sistemlərdə yaşayan vahid xalqı iki yerə bölürdü. Ona görə də İran və Türkiyə ilə sərhədin hər qarışı xüsusi diqqətlə, əsaslı surətdə qorunurdu. Hər şeydən sığortalanma meyli olduqca güclü idi! Zabitlər Zaqafqaziya sərhəd dairəsinə on dəfə yoxlandıqdan sonra təyin edilirdi. Sərhədin Azərbaycan hissəsinə çağırışçıları xüsusi diqqətlə seçirdilər. Orduya çağırışa üç ay qalmış sərhəd dəstələrinin zabitləri vilayət və hərbi dairələrə gedir, gələcək yaşıl papaqlı əsgərləri seçirdilər: onların gərək milislə heç bir «təması» olmayaydı, fəhlə-kəndli kökləri, siyasi cəhətdən savadları mühüm şərt idi. Azərbaycanın özündən sərhəd qoşunlarında xidmətə cəmi 50-60 nəfər çağırırdılar, o da məcburiyyət qarşısında – sərhəddə Azərbaycan dilini bilən adamlar lazım idi. Bu 50 nəfərdən ən azı 15-i rus və ya ukraynalı idi. Ümumilikdə isə Azərbaycan sərhəd dəstələrinin şəxsi heyəti 10 min nəfərə yaxın təşkil edirdi. Onların yalnız bir neçə faizini Azərbaycan millətinin nümayəndələri təşkil edirdi.

H.Əliyev sərhəd qoşunlarında milli kadrlara olan münasibətə yaxşı bələd idi. Bu barədə çıxışlarının birində söyləmişdi: «Bir azərbaycanlı kimi bu məni daim narahat edirdi».

60-cı illərin əvvəlində Azərbaycanlı zabitlər sərhəd qoşunlarında xidmət edirdilər, lakin əsas etibarilə kəşfiyyat və əks-kəşfiyyat şöbələrində. Onlar işin xüsusiyyətinə görə (agentlərlə, yerli əhali ilə iş) Azərbaycan dilini bilməli idilər. Eyni zamanda onların içində rəis vəzifəsini tutan yox idi, ən yaxşı halda müavinlər idi.

Bir misalı diqqətinizə çatdırım: sovet hakimiyyəti qurulmasının 50 illiyinə qədər – yəni 1967-ci ilədək, Azərbaycanın sərhəd qoşunlarında, təkrar edirəm, **komandir vəzifəsində**, cəmi bir azərbaycanlı böyük zabit var idi. Bir nəfər də olsun zastava rəisi, komendant, ştab rəisinin müavini yox idi, ştab rəisi və ya dəstə rəisi vəzifəsindən heç söhbət belə gedə bilməzdi.

Ancaq 1982-ci ildə, yəni 15 ildən sonra, belə vəzifələrdə onlarla azərbaycanlı böyük zabit xidmət edirdi, o cümlədən polkovnik rütbəsində. Sərhəd zastavalarının rəisləri, sərhəd hissələrinin komendantları, məsələn, polkovnik Məhəmmədov, polkovnik Əliyarov, dəstə rəislərinin və sərhəd komissarlarının müavinləri, məsələn, polkovnik Novruzov, polkovnik Müştəidzadə, polkovnik Allahverdiyev, polkovnik Ələsgərov, polkovnik Canməmmədov meydana çıxdılar. Bütün bunlar H.Əliyevin təşəbbüsü və inadı nəticəsində mümkün olmuşdu.



Öz şəxsi həyatımdan misal gətirəcəyəm. Mən general rütbəsini 53 yaşına çatanda almışam. DTK və DİN orqanlarında bu hələ mümkün olan işdir. Ancaq, necə deyərlər, döyüş komandiri general rütbəsini bu yaşında alsın!? Bu yaşda, adətən, istefaya göndərirdilər. Hərbi xidmət haqqında qaydalara əsasən, 50 yaşa çatmış polkovnik ehtiyata çıxırdı. Hərdən 45 yaşında da ehtiyata göndərirdilər. Ordu, axı, nəhəng idi, ona görə də belə yollarla ordunu cavanlaşdırırdılar.

1970-1972-ci illərdə mən artıq təqaüd haqqında düşünürdüm, özüm üçün akvarium, sarı bülbül almışdım. Gözlənilmədən 1972-ci ildə mənə general-mayor rütbəsi verirlər. O vaxt general rütbəsi almaq çox çətin idi. Həmin il bizim dairədə iki nəfər general rütbəsi almalı idi. H.Əliyev Azərbaycan KP MK inzibati orqanlar şöbəsinin müdiri Cəfər Vəliyevə göstəriş verir ki, (o özü mənə bu barədə danışıb) mənə general rütbəsi verilməsini izləsin. O vaxt mən hospitalda yatırdım, Moskvada tanış həmkarlar, dostlar az deyildi. Onlar mənə zəng vurub deyirlər: «Miş (Moskvada dostlarım məni Mixail Dmitriyeviç çağırırdılır), təbrik edirik, sənin familyan qalıb». General rütbəsi SSRİ Nazirlər Sovetinin xüsusi qərarı ilə verilirdi. Deməli, siyahı gedir Nazirlər Sovetinə, mənim familiyam orada vardır. Sonra başqa dostum zəng vurur: «Mişa, tədbir gör, sənin familiyanı çıxartdılar». Bu minvalla, düz bir həftə gah o yana, gah bu yana.

Mən 1987-ci ildə, 66 yaşında istefaya çıxdım. Sərhəd qoşunlarında belə «uzunömürlü» generallar, demək olar ki, yox idi. Mən axıra kimi Əməliyyat-qoşun şöbəsinin rəisi işlədim. Bəs nə səbəbdən? Ona görə ki, heç kim ürək eləyib məni işdən çıxara bilmirdi, çünki hamı bilirdi – H.Əliyev arxamda dağ kimi durub.

Bizim azərbaycanlı uşaqları oxumağa göndərirdilər, hər il SSRİ DTK-sı göstəriş verirdi – filan respublikalardan, filan qədər adam DTK sərhədçi məktəblərinə göndərilsin. Azərbaycan DTK-sına 10-12 yer ayrılırdı. Bu ilk növbədə SSRİ DTK Mossovet adına Moskva Ali Sərhəd Komandirləri Məktəbi və SSRİ DTK Dzerjinski adına Ali Sərhəd Komandirləri Məktəbi (Alma-Ata şəhərində) idi. İkincisi, H.Əliyev Azərbaycandan kənardakı sərhəd dəstələrində olan

azərbaycanlı zabitlərin (eşidəndə ki, belə zabit Qazaxıstan və ya Ukraynada xidmət edir) respublikaya dəyişilməsinə nail olurdu. O, belə zabitlərə diqqət və qayğı göstərir, onlara maddi və mənəvi dəstək olurdu.

Daha bir məqam: tutalım həkimlər, maliyyəçilər, mühəndislər ali məktəbi bitirirlər. Onlar öz hərbi kafedralarında ehtiyatda olan baş leytenant rütbəsi alırdılar. O vaxt belə qayda var idi: bütün hərbi hissələr, o cümlədən sərhəd qoşunları, mülki profilli mütəxəssislər çatışmadıqda, hərbi komissarlıqlar vasitəsilə ehtiyatda olan zabitləri orduya çağıra bilərdilər. Onun gizli tapşırığına əsasən, biz sərhəd qoşunlarına həkimləri, maliyyəçiləri, mühəndisləri azərbaycanlılar sırasından seçirdik».

**Müstəqil Azərbaycanın gələcək ordusunun təməli belə qoyulurdu, bu gün ölkəmizin müasir Silahlı Qüvvələrinin simasını təşkil edən milli sərkərdə kadrları belə yetişdirilirdi. Və bu işdə Heydər Əliyevin şəxsi xidmətləri həqiqətən misilsizdir.**

[1] «Elm» qəzetinin xüsusi buraxılışı. 2002. №№ 13-16.
[2] Бакинский рабочий. 2002. 19 июня.
[3] Yenə orada.
[4] Бакинский рабочий. 2004. 16 января.
[5] Бакинский рабочий. 2004. 23 апреля.
[6] Dövlət müstəqilliyimizdə Heydər Əliyev amili. Bakı, 2003. S.6.

*Onuncu fəsil*

# Heydər Əliyev və gənclər siyasəti

## «Komsomol kadrları Heydər Əliyev məktəbi keçiblər»

Respublikada nəhəng islahatlar proqramına başlayarkən Heydər Əliyev yaxşı bilirdi ki, bu tarixi missiyanı əsas etibarilə Azərbaycan əhalisinin yarıdan çoxunu təşkil edən gənclər həyata keçirəcək. Odur ki, o, gənclərin bütün forumlarında mütləq iştirak edir, ali məktəblərin tələbələri və məzunlarıyla görüşür, LKGİ qurultaylarında dolğun nitqlər söyləyirdi. O illərdə komsomol kifayət qədər güclü və nüfuzlu təşkilat idi. Onun sıralarına praktiki olaraq sovet gənclərinin ideya və ya intellektual cəhətdən zəngin nümayəndələri daxil idi. Elə gələcək partiya liderlərini, idarə edənləri və ya indi adlandırıldığı kimi menecerləri də o bu gənclərin arasından seçib götürürdü.

Maraqlıdır: Heydər Əliyev çox çətin problemlərlə yüklənməsinə baxmayaraq, rayon və ya şəhər komsomol komitələrinin birinci katibi vəzifəsinə namizədlərin hər biri ilə şəxsən görüşməyi zəruri hesab edirdi. Yalnız MK-nın baş kabinetinin «sakini» ilə söhbətdən sonra təşkilat şöbəsi plenumda seçiləcək namizədi təsdiq edirdi.

Keçmiş komsomol işçisi, hazırda parlamentin deputatı Hadi Rəcəbli belə görüşlərin biri barədə mənə bunları danışdı:

«1969-cu ilin avqustunda Azərbaycan Kommunist Partiyası MK-nın plenumunda Heydər Əliyev bir sıra mühüm vəzifələr, o cümlədən Azərbaycan kəndində köklü islahatlar aparılması barədə məsələlər irəli sürdü. O, xüsusi vurğuladı ki, Azərbaycanın milli kadrları yalnız Bakının nümayəndələri hesabına yox, həm də regionların hesabına təşkil edilməlidir. Çünki respublika rəhbərliyinə «torpaqdan

gələn adamlar», Azərbaycan əməkçilərinin psixologiyasına bələd olan insanlar lazım idi. Bu, çox mühüm məsələ idi.

Avqust plenumundan bir il sonra, 1970-ci ildə mən Kommunist Partiyası sıralarına daxil oldum. O vaxt Lənkəranda çörək zavodunda fəhlə işləyirdim. Eyni zamanda Moskva Yeyinti Sənayesi İnstitutunda qiyabi oxuyurdum. Təsəvvür edin ki, 1971-ci ilin fevralında mən, adi fəhlə, birbaşa Lənkəran şəhər Komsomol Komitəsinin ikinci katibi oldum. Bu, Heydər Əliyevin kadr siyasətində yaratdığı əsil dönüşün nəticəsi idi. O vaxt mənim cəmisi 23 yaşım vardı. İkinci katib vəzifəsində olmağıma baxmayaraq, heç kim mənə güzəşt etmirdi. Bir müddətdən sonra mən orduda xidməti borcumu yerinə yetirdim, qayıdandan sonra isə məni şəhər komsomol komitəsinin birinci katibi vəzifəsinə məsləhət bildilər və söhbət üçün KP MK-ya çağırdılar.

Əvvəlcə bizi – bir neçə namizədi MK-nın təşkilat şöbəsinin müdiri İsmayıl Nəsrulla oğlu Əsgərov qəbul etdi, yoxlayıb birinci katiblə söhbətə hazırladı. Sonra biz Heydər Əliyevin yanına getdik. Sonralar mən öz məqalələrimdən birində bu barədə belə yazmışdım: «Heydər Əliyevlə ilk görüşüm məndə çox böyük, həyat fəaliyyətimin istiqamətini birdəfəlik müəyyən edən bir təəssürat yaratdı. Mən ilk dəfə 1972-ci il iyulun 4-də Heydər Əliyevin qəbulunda oldum, kasıb bir ailədən çıxmış, vəzifədə heç bir qohumu olmayan 24 yaşında bir gənc kimi Lənkəran şəhər komsomol komitəsinin birinci katibliyinə tövsiyə olunmuşdum. Yüksək vəzifəyə təyinatımın sevinci nə qədər böyük olsa da, məni valeh edən heyrətli və ibrətamiz təəssürat Heydər Əliyev şəxsiyyətinin əcazkarlığı idi. Mən həmin qəbulu quru, sxematik bir görüş təsəvvür edirdim, lakin canlı, hətta doğma və sərbəst mühitdə keçən bir söhbətin şahidi oldum.

Qəbulunda olan şəxslərlə, xüsusilə də, gənclərlə dərhal dil tapıb, respublika rəhbəri vəzifəsinin ümumi xarakterik aurasından doğan sıxıntını dəf etmək, söhbəti sərbəst, lakin çox məhsuldar və işgüzar məcraya yönəltmək bacarığı onun nə qədər dərin psixoloji istedada malik olduğunun nümunəsi idi. Və o görüşdə mənə verilən tövsiyələr, onun yaratdığı şərait, mənim onunla fikir mübadiləsi imkanlarım Heydər Əliyev məktəbinin elə birinci dərsi idi. Bu dərslər istər onunla sonradan dəfələrlə şəxsi görüşlərim, istər qurultay, plenum və konfranslardakı çıxışları, istərsə də verdiyi göstərişləri bu BÖYÜK MƏKTƏBİN təkrarolunmaz və əvəzedilməz tədrisində ömrüm boyu davam edən ibrətamiz həyat universiteti idi».



Komsomol təşkilatlarının əsas vəzifəsi böyüməkdə olan nəslin ideoloji, əmək, hərbi-vətənpərvərlik, mənəvi tərbiyəsi idi. Əlbəttə, komsomolun işində, xüsusilə onun mərkəzi aparatında bürokratlıq, lüzumsuz rəsmiyyətçilik, süründürməçilik hallarına da rast gəlmək mümkün idi. Partiya MK-nın birinci katibi üzgörənlik etmədən bu çatışmazlıqları göstərirdi. Onun 1978-ci il martın 11-də Azərbaycan komsomolunun XXX qurultayındakı nitqi çox parlaq və emosional idi. Həmin nitqində o, zərbəçi tikintilərə zəif rəhbərliyə, işdə formalizmə yol verdiklərinə, canlı təşəbbüskarlığın olmamasına, gənclərin əmək və mənəvi tərbiyəsinə kifayət qədər diqqət yetirilməməsinə görə komsomol liderlərini tənqid edirdi. Bu çıxışında Heydər Əliyevin nifrət etdiyi, müasir cəmiyyətin bəlası olan «əşyaçılığ»ın tənqidi diqqəti cəlb edir: «Faktlar sübut edir ki, meşşanlıq, «əşya» xəstəliyi mikrobu, həyata istehlakçı münasibət bəzən tələbələrin arasında da özünə münbit zəmin tapır. Bu işdə uşaqlarını pulla, bahalı geyim və bəzək əşyaları, hətta avtomobillərlə korlayan, onları erköyün böyüdən valideynlərin də günahı az deyil».

Tibb İnstitutunun sabiq rektoru Zəhra Quliyeva mənimlə söhbətində xatırladı ki, MK-nın birinci katibi qəbul imtahanı zamanı institута gəlib, imtahanların gedişinə nəzarət edərmiş, sonra valideynlərlə söhbətləşmək, onların şikayətlərini dinləmək üçün hökmən həyətə çıxarmış.

– Yadıma bir əhvalat düşür, – deyə Zəhra xanım danışırdı. – Abituriyentlərin arasında anası ilə birlikdə sığallı-tumarlı bir ev uşağı durmuşdu. Heydər Əliyevin nəzərini onun qolundakı enli qızıl bilərzikli saat cəlb etdi. Yay vaxtı olduğundan hamı qolu qısa köynək geymişdi. Heydər Əliyev onlara yaxınlaşıb bir neçə sual verdi. Sonra isə həmin oğlana üzünü tutub dedi:

– Sən onuncu sinfi yenicə bitirmisən. Bu cür saat taxmaq sənə yaraşmaz, bir qədər sadə olmaq lazımdır, – və öz qolunu uzatdı. – Mənim saatıma bax...

O, respublikanın rəhbəri ola-ola qoluna dəri qayışlı adicə saat taxmışdı. Anasının üzü qızardı, əlbəttə ki, oğlan özü də utandı. Belə fikirləşirəm ki, bu hadisə ömrünün axırınadək ona bir dərs oldu».

Hər dəfə yaraşıqlı xarici maşının sükanı arxasında hələ özü alın təri ilə bir qəpik qazanmasa da, qayğısız həyatın bütün ləzzətlərini dadan, bığ yeri yenicə tərləmiş bir cavan oğlanın oturduğunu görəndə bu əhvalatı xatırlayıram. Təəssüf ki, hazırda bu, adi hala çevrilib. Ancaq artıq bizdən uzaqda qalan 70-ci illərdə müstəsna hal idi, na-

musla, vicdanla, o cümlədən zərbəçi komsomol tikintilərində işləmək, tələbə inşaat dəstələrində, komsomol drujinalarında iştirak etmək, neqativ hallara qarşı mübarizə aparmaq həyat normasına çevrilmişdi.

Hadi Rəcəbli danışır ki, gənclərin «kommunizmin qurucuları» kimi yüksək mənəvi dəyərlər ruhunda tərbiyəsi üçün Lənkəranda yeni ənənələr, mərasim və ayinlər fəal şəkildə həyata keçirilirdi. Misal üçün, məhsul bayramları, mahnı festivalları, kitab sərgiləri, folklor bayramları və s. Az qala bütün rayonun toplaşdığı bütün bu tədbirlərin, mərasimlərin əsas təşəbbüsçüləri gənclər, komsomolçular idi.

«Biz hər il görülən işləri yekunlaşdıraraq insanları mükafatlandırırdıq – bu həm maddi, həm də mənəvi stimul, həvəsləndirici amil idi. O dövrdə Azərbaycan kəndində əmək haqqı şəhərdə çalışan fəhlələrə nisbətən, demək olar ki, iki dəfə yüksək idi. Bu «əyalətlərin» dirçəlməsi üçün böyük əhəmiyyət kəsb edirdi. Biz hər yerdə, o cümlədən dində də yüksək mənəvi dəyərlər axtarırdıq. Çünki din öyrədir ki, oğurluq, əlüyrülük eləmə, namuslu, düzdanışan ol, zəifin əlindən tut. Ümumbəşəri əxlaqın bu cür ünsürlərini biz keçmişdə də, indi də, tariximizdə, xalq adət-ənənələrimizdə də tapırdıq və gənc qızları və oğlanları məhz o zəmində tərbiyələndirməyə çalışırdıq.

O illərdə komsomolçular arasından yetişən kadrlar bu gün də yüksək vəzifələr tutur, müstəqil Azərbaycanın rifahı naminə çalışırlar. Çünki Heydər Əliyevin güclü, qüdrətli məktəbini keçmişlər».

Həqiqətən, 1979-cu il iyulun 17-də Azərbaycan KP MK-nın plenumunda ideoloji, siyasi tərbiyə işinin gələcəkdə daha da yaxşılaşdırılması məsələsini müzakirə edərkən Heydər Əliyev tərbiyənin müxtəlif forma və vasitələrindən səmərəli istifadənin müsbət nümunəsi kimi Lənkəran şəhər partiya komitəsinin təcrübəsini misal çəkmişdi: «Bu halda kənd əhalisinin mədəni səviyyəsinin yüksəldilməsi, onun məişət şəraitinin yaxşılaşdırılması məsələlərinə xüsusi diqqət yetirilir. Təkcə doqquzuncu və onuncu beşilliklər ərzində 37 mədəniyyət ocağı, o cümlədən Kitab evi, Ziyalılar evi, Yaşıl teatr, musiqi məktəbi tikilib, Dram teatrı yaradılıb və xalq arasında populyarlıq qazanıb... Demək olar ki, 5 min nəfər kənd əməkçisi bədii özfəaliyyət dərnəklərində iştirak edir. Xalq tikintisi üsulu ilə şəhər stadionu, pansionat tikilib. Kəndlərdə idman yarışlarının, bədii müsabiqələrin, alimlərlə, yazıçılarla, rəssamlarla, artistlərlə görüşlər keçirilməsi, ümumrayon məhsul bayramlarının təşkili gözəl ənənəyə çevrilib».

Təbii ki, bütün bu tədbirlərdə Lənkəran gəncləri daha fəal iştirak edirdi.

## «Bakıda uşaqlar dörd növbədə oxuyurdular»

Gənclər siyasətinin ikinci istiqaməti təhsil, xüsusən ibtidai və orta təhsil sisteminin maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı idi. Ölkə üzrə əhalinin artım tempinə görə birinci yerlərdən birini tutan respublikada 70-ci illərin əvvəlində məktəblər, uşaq bağçaları kəskin şəkildə çatışmırdı.

Bakıdakı məktəbəqədər və məktəb müəssisələrinin vəziyyətini təhlil edərkən MK-nın birinci katibi dəhşətə gəldi və şəhər rəhbərliyinə hər il paytaxtda 10 yeni məktəb və 12 uşaq bağçası tikintisini təmin etmək, bundan əlavə, bütün mövcud təhsil müəssisələrində cari və əsaslı təmir aparmaq barədə göstəriş verdi.

«O vaxtlar mən Bakı şəhər İcraiyyə Komitəsində işləyirdim, – deyə Svetlana Qasımova xatırlayır. – Bir gün Heydər Əliyev bizi MK Bürosuna dəvət edib dedi: «Bilirsiniz, axşam qaranlığında birinci sinif şagirdləri məktəbə gedirlər. Belə təhsilin keyfiyyəti necə olar? Ata-ana işdən evə qayıdır, uşaq isə dərsə getməyə hazırlaşır».

Desəm ki, Bakıda uşaqlar dörd növbədə oxuyurdular, bu gün buna inanmazlar. Məktəblərdə şagird yeri çatışmırdı. Bu cür vəziyyət respublikanın hər yerində müşayiət olunurdu. Kiçik kəndlərdə təlim dördüncü sinfə qədər aparılırdı, sonra isə uşaqları başqa kəndə və ya rayon mərkəzinə göndərirdilər. Başqa sözlə, təhsilin maddi-texniki bazası acınacaqlı vəziyyətdə idi.

Heydər Əliyev bu məsələləri dəfələrlə MK Bürosuna çıxarmışdı, məsul şəxslərin hesabatını fərdi qaydada dinləmişdi. Mən də Bakı şəhər İcraiyyə Komitəsi sədrinin təhsilə, məktəblərin istismara verilməsinə cavabdeh olan müavini kimi mütəmadi olaraq MK Bürosunda hesabat verirdim. Özü də Heydər Əliyev tələb edirdi ki, obyekti sentyabrda yox, iyulun birində təhvil versinlər, 15-20 avqusta kimi məktəbi zəruri avadanlıqlarla: partalar, lövhələr, əyani vəsaitlərlə və s. təchiz edə bilsinlər. Hünərimiz nə idi ki, mən və ya hər hansısa digər məsul şəxs bu tapşırığı yerinə yetirməsin. Məktəb və məktəbəqədər müəssisələr şəbəkəsinin inkişafı Heydər Əliyevin böyük xidmətidir».

Svetlana Qasımova xatırlayır ki, onun qəbuluna gələn işçi qadınlar uşaqlarını kabinetdə qoyub, ürəklərində deyirdilər: «Onu uşaq bağçasına düzəlt». Məktəbəqədər müəssisəyə göndəriş almaq üçün növbəyə yazılmaq lazım idi.

Heydər Əliyev Bakı şəhər İcraiyyə Komitəsinin rəhbərliyini dəfələrlə şəxsi söhbətə dəvət edərək, inadla başa salırdı:

– Biz yeni sahələr yaradırıq, əsasən qadın əməyinin tətbiq olunduğu yüngül sənaye böyük vüsətlə inkişaf edir. Ona görə də uşaq bağçaları tikmək, məktəblərdə günü uzadılmış qruplar açmaq lazımdır ki, analar uşaqlarından arxayın olaraq işə getsinlər.

Nəticədə Əliyev hakimiyyətinin birinci «onilliyi» (1970-ci ildən 1980-ci ilədək) ərzində respublikanın şəhərlərində, qəsəbə və kəndlərində 700-ə qədər yeni məktəb binası tikildi, elə o qədər də təhsil müəssisəsini əsaslı təmir edərək abadlaşdırdılar.

70-ci illərdə respublikada yalnız məktəb və məktəbəqədər müəssisələr yox, Pionerlər sarayı, pioner düşərgələri, o cümlədən şəhər tipli pioner düşərgələri də tikilirdi. Şəhərətrafı pioner düşərgələri çatışmırdı, həm də övladını 40-60 kilometr kənara göndərmək, sonra da hər həftə onun yanına getmək hər valideynin hünəri deyildi. İndi isə pioner düşərgəsi böyründədir. Uşaq dənizkənarı bulvarda və ya şəhər parkında gəzir, bütün günü açıq havada olur, yeyir, istirahət edir, axşamlar isə valideynləri onun dalısınca gəlirlər. Orada keçirilən idraki oyunlar, müsabiqə və yarışlar o qədər maraqlı idi ki, uşaqlar heç evə getmək istəmirdilər.

Şəhər tipli düşərgələr əsil sensasiyaya çevrildilər. Uşaqların yay istirahətinin təşkilinin Bakı təcrübəsini digər respublikalar da mənimsəyir, öyrənirdilər. Bütöv məktəbəqədər və məktəbdənkənar müəssisələr sisteminin yaradılması, kütləvi şəkildə pionerlər evinin, uşaq və gənclərin yaradıcılıq mərkəzlərinin, idman məktəblərinin tikilməsi, onların maddi-texniki təchizatının təkmilləşdirilməsi – bütün bunlar pioner və məktəblilərin asudə vaxtının keyfiyyətcə yeni səviyyədə təşkilinə, yeniyetmələri küçədən yayındırmağa, faydalı vərdişlərin aşılanmasına imkan yaradırdı.

70-ci illərdə ali və orta məktəblər üçün Azərbaycan dilində dərsliklərin və dərs vəsaitlərinin hazırlanması və nəşri üçün də çox iş görülmüşdü. Çünki bu sahədə vəziyyət həqiqətən acınacaqlı idi. Gülzar İbrahimovanın «Heydər Əliyev və Azərbaycan qadınları» kitabında yazdığı kimi, 207 xüsusi fənn cəmisi 22 dərslik və 20 dərs vəsaiti ilə təmin olunmuşdu. Ali məktəblərdə dərslik çatışmazlığı



80%-ə çatmışdı[1]. MK-nın birinci katibinin təşəbbüsü ilə bu çatışmazlığın aradan qaldırılması üçün respublikanın ən güclü elmi-pedaqoji qüvvələri və Azərbaycanın poliqrafiya bazasının böyük bir hissəsi işə cəlb olundu.

## Əliyev və tələbələr

70-80-ci illərdə respublikanın iqtisadi və sosial sahəsinin güclü inkişafı ilə yanaşı, ali təhsil sistemi də yüksək səviyyəyə çatdı. Azərbaycanın bir çox ali məktəblərinin şöhrəti keçmiş ittifaqın hüdudlarından çox-çox uzaqlara yayıldı. Respublikanın ali tədris müəssisələri bir çox Avropa, Asiya, Afrika, Latın Amerikası ölkələri üçün mütəxəssis kadrlar hazırlayırdı. Ali məktəblərə qəbul zamanı yol verilən rüşvətxorluq, qohumbazlıq, proteksionizm hallarına qarşı mübarizə genişlənirdi. Hər il yüzlərlə oğlan və qız SSRİ-nin ən nüfuzlu institutlarına təhsil almağa göndərilirdi.

Belə ki, rəsmi statistik məlumatlara görə, 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə keçmiş İttifaqın 50 iri şəhərindəki 170 ən tanınmış ali məktəbində 15 min gənc azərbaycanlı respublikada kəskin tələbat duyulan 250 ixtisas üzrə təhsil almışdı.

1975-ci ilin avqustunda Moskvaya və ölkənin digər şəhərlərinə oxumağa gedən tələbələrə xeyir-dua verib yola salarkən Heydər Əliyev aşağıdakı rəqəmləri misal çəkmişdi: «Əgər 1970-ci ildə başqa şəhərlərdə təhsil almağa 60 nəfər göndərilmişdisə və bu rəqəm bizim bəzi yoldaşlara az qala imkan xaricində görünürdüsə, bu il 604 nəfəri, başqa sözlə, 10 dəfə artıq adamı göndərmişik. Bundan əlavə, gənclərin böyük bir dəstəsi ölkənin ali hərbi məktəblərinə, Kiyev Mülki Aviasiya İnstitutuna, Patris Lumumba adına Universitetə, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna daxil olub».

MK-nın birinci katibinin təşəbbüsü ilə 1972-ci il sentyabrın 1-dən etibarən ali məktəb tələbələrinin təqaüdü 25%, orta ixtisas təhsil müəssisələri şagirdlərininki isə 50% artırıldı. Ali məktəb tələbələri 40 manatdan 60 manatadək, texnikumda oxuyanlar isə 30 manatdan 45 manatadək təqaüd almağa başladılar.

Bir çox ali təhsil müəssisələrində rəhbərlikdə dəyişiklik oldu, təhsil prosesinin başına, bir qayda olaraq, Heydər Əliyevin özünün təyin etdiyi adamlar qarşısında qoyduğu yüksək tələblərə uyğun olan yeni kadrlar gətirildi.

**Azərbaycan Dövlət Tibb İnstitutunun keçmiş rektoru Zəhra Quliyevanın söhbətindən:**

«Məni rektor təsdiq edəndə Heydər Əliyevə dedim:

– Tibb İnstitutu çox mürəkkəb ali təhsil ocağıdır. Orada nə cür işçi heyəti olduğunu bilirsiniz: barmağını uzatsan, əlini qopararlar. Mən onların öhdəsindən gələ bilərəmmi?

O cavab verdi:

– Səni partiya göndərir. Heç kimdən və heç nədən qorxub çəkinmə, təmiz işləsən, biz həmişə sənə dayaq olacaq, arxanda duracağıq.

Mən 1972-ci ildə rektor oldum və bu vəzifədə 1983-cü ilədək işlədim. O vaxtlar orada vəziyyət dəhşətli idi. Tanışlıq, ya da iri miqdarda pul olmasaydı, oraya top gülləsi ilə də buraxmazdılar. Kök atmış yerliçilik, qohumluq münasibətləri də üstəlik: kafedrada bir professor işləyirdisə, arvadını, qızını, kürəkənini də ətrafına yığırdı. Bütün bunları aradan götürməli oldum.

Hər ilin avqustunda Heydər Əliyev MK-da yığıncaq keçirirdi. Hər bir rektor qəbul imtahanına hazırlığın gedişi, abituriyentlər üçün valideynlər üçün yaradılan şərait barədə məlumat verirdi. Bundan başqa, qəbul vaxtı o bütün institutlara baş çəkirdi. Bizim instituta da gəlir, auditoriyaları gəzərək imtahanın gedişinə nəzarət edirdi, mən isə əlüstü ona məlumat verirdim. O, hansı rayonlardan abituriyentlər gəldiyi, onların hansının daha hazırlıqlı, hansınınsa zəif olduğu, bunun səbəbləri barədə soruşurdu.

Hər il respublikada məktəbi medalla bitirən 350 məzundan 300-ü sənədlərini Tibb İnstitutuna verirdi. Sonralar iş prosesində mən yəqin etdim ki, institutumuza sənəd verənlərin yarıdan çoxu valideynlərinin təhriki ilə, həm də nüfuzlu sayıldığına görə bu addımı atırmışlar. Mən çox vaxt abituriyentlə söhbətlər aparır, onlardan soruşurdum: «Siz nəyə görə sənədlərinizi bizim instituta vermisiniz? Bəlkə siz həkimlər haqqında maraqlı kitab oxumusunuz və ya evinizdə ağır xəstə var, siz ona qulluq edə-edə həkimlik peşəsinə vurulmusunuz? Bəlkə xəstənin küreyinə banka qoyub, iynə vurmusunuz?»

Çox vaxt ağlabatan cavab almayıb əmin olurdum ki, çoxlarının tibb, təbabət barədə heç bir təsəvvürü yoxdur, o ki qaldı həvəsi, meyli, qabiliyyəti olsun. Ancaq bir müddətdən sonra vəziyyət dəyişməyə başladı, auditoriyalarda atalarının «gül balaları»nın, imkanlı ailələrin övladlarının sayı hiss olunacaq dərəcədə azaldı, əvəzinə institutumuzun qapıları oxumağa can atan, həkimlik peşəsinin həqiqi



vurğunu olan və ona uyğunlaşmağa çalışan kənddən gələn cavanların, əyalətdən olan istedadlı oğlan və qızların üzünə açıldı».

Zəhra Quliyeva yadə salırdı ki, artıq 90-cı illərin ortalarında Qadın Problemləri üzrə Dövlət Komitəsinin rəhbəri olarkən Salyan rayonunda səyyar konfrans keçirərkən ona deyiblər ki, konfransda iştirak edən yerli həkimlərdən biri çıxış etmək üçün icazə istəyir. Məlum oldu ki, o, institutu 25 il bundan qabaq bitirib və o yalnız Zəhra xanım rektor təyin olunandan sonra instituta daxil ola bilib. O, sənədlərini Tibb İnstitutuna verməyə hazırlaşanda bütün kənd onu fikrindən daşındırmağa çalışıb ki, oraya «tapşırıqsız» keçmək mümkün deyil. Ancaq o, qəbul olunmuşdu. Ondan sonra qardaşı və bacısı da həmin institutun tələbələri olmuşdular.

* * *

Bəzi tədqiqatçılar yazır ki, 60-cı illərdə – 70-ci illərin əvvəlində SSRİ-nin aparıcı ali məktəblərinə qəbul zamanı azərbaycanlılar qarşısında süni maneələr yaradırdılar. Misal üçün, Fəzail Ağamalı hesab edir ki, bu siyasəti «milli əlamətlərə görə ayrı-seçkilik» kimi qiymətləndirmək olar. O, belə rəqəmləri misal gətirdi: 1965-70-ci illərdə ittifaqın nüfuzlu ali məktəblərində 210 erməni, 250 gürcü təhsil alırdısa, azərbaycanlıları barmaqla saymaq olardı. Özü də onlara filologiya, musiqi və digər humanitar ixtisaslar üzrə təhsil almağa icazə verilirdi[2].

Bəli, Moskvanın, Leninqradın və SSRİ-nin digər iri şəhərlərinin ali məktəblərində təhsil alan azərbaycanlı tələbələrin sayı həqiqətən də az idi. Ancaq ittifaq rəhbərliyini bunda, ümumiyyətlə, günahlandırmaq olmaz. Bütün bunların günahı bu sahəyə cavabdeh olan respublika məmurlarının mühafizəkarlığında idi. Azərbaycan Nazirlər Sovetinin keçmiş sədr müavini Kamran Hüseynov «Bir ömrün salnaməsi» kitabında bu barədə belə yazır:

«Xidməti işlərlə bağlı Qazaxıstanda, Özbəkistanda olanda Moskvanın, Leninqradın, Kiyevin texniki ali məktəblərinə gənclərin güclü axınına diqqət yetirirdim, – respublikalar bacarıqlı, qabiliyyətli, savadlı mütəxəssislər əldə edirdilər. Azərbaycanda isə bu imkandan, demək olar ki, istifadə olunmurdu. Öyrəndim ki, ittifaq rəhbərliyinin qərarı ilə hər il ali məktəblərə qəbul olunan tələbələr üçün ayrılan yerin beş faizini digər respublikaların nümayəndəsi tuta bilərdi. Biz isə on illər boyu bu fürsəti əldən vermişdik. Bu isə o demək idi ki, hər il biz 500-600 yüksək ixtisaslı mütəxəssis itirirdik.

Bu fikir məni Moskvaya, hələ Moskvada həmkarlar təşkilatında işlədiyim vaxtlardan, «SSRİ-Əlcəzair» dostluq cəmiyyətində birgə çalışdığımız çağlardan tanıdığım nazir V.P.Yelyutinin yanına gətirib çıxardı...

– Vyaçeslav Petroviç, – dedim, – bu necə olur, bu beş faizli hüquqdan başqa respublikalar faydalanır, Azərbaycan isə yox?

– Məsələ qaldırmamısınız, ona görə də faydalanmamısınız, – deyə nazir sakitcə cavab verdi. – Niyə məni günahlandırırsınız? Siz başlayın, mən də kömək edərəm.

Bakıya qayıdıb hər şeyi ali və orta ixtisas təhsili naziri Züleyxa Hüseynovaya danışdım. O isə dedi:

– Biz özümüz bunu istəmirik.

– Nə üçün? – deyə təəccüblə soruşdum.

– Bizim uşaqlar gedib orada pozularlar, yollarını azarlar.

– Mənim əzizim, siz nədən danışırsınız?! Bu axı respublika üçün əlavə bilik, qüvvə deməkdir! Qoy gənclərimiz burada da oxusunlar, orada da biliklərə yiyələnsinlər. Biz öz hüququmuzdan istifadə etməliyik.

Ancaq ilk vaxtlar biz heç yüz uşaq da göndərə bilmədik. İkinci il MK-nın qarşısında məsələ qaldırdıq. Heydər Əliyev mütərəqqi ideyanı göydə tuturdu. Mən ona başqa respublikalardakı, öz respublikamızdakı vəziyyətdən danışdım. 700-800 tələbə, sonra isə diplomlu kadr – bu bütöv bir institutun heyəti demək idi! Heydər Əliyev bu ideyanı bəyəndi, bu ideyadan ruhlandı, onun vacibliyini qeyd etdi. İşə girişdik. Tezliklə məktəb məzunlarından 800 nəfərə qədərini seçib müxtəlif ixtisaslar üzrə ali məktəblərdə təhsil almağa göndərdik. Heydər Əliyevin iştirakı ilə Lenin adına sarayda onlara təntənəli yolasalma mərasimi təşkil etdik. Moskvada, digər şəhərlərdə respublika gəncləri ilə tez-tez görüşlər keçirirdik. Bu, bir ənənəyə çevrildi...»[3]

Heydər Əliyevin və KP MK Bürosu üzvlərinin Azərbaycandan olan tələbə və aspirantlarla 1979-cu il dekabrın 4-də Moskvada keçirilən görüşü xüsusilə yaddaqalan oldu. Həmin görüş Qorki adına Moskva Bədii Akademik Teatrın yeni binasında keçirilirdi. Görüşdə SSRİ ali və orta ixtisas təhsili naziri V.Yelyutin, ÜİLKGİ MK-nın birinci katibi B.Pastuxov, Moskvanın ali məktəblərinin rektorları, rayon partiya komitələrinin katibləri iştirak edirdilər. Burada respublika tələbələrinin belə genişmiqyaslı tədbiri indiyədək görünməmişdi. Bu aksiya paytaxt dairələrində böyük əks-səda doğurdu və respublika gənclərinə bu cür qayğılı münasibət bəsləyən Azərbaycan rəhbərinin nüfuzunu, hörmətini daha yüksəklərə qaldırdı. Sonralar bu iş daha böyük vüsət aldı.



Lidiya Rəsulovanın dediyinə görə bu siyasətin çox ciddi özülü, bünövrəsi vardı və o, respublikanın xalq təsərrüfatı üçün kadrlar hazırlanması sistemində əsil inqilab yaratdı:

«Əvvəla, Azərbaycanın bəzi ali təhsil ocaqları, Tibb İnstitutu kimi inhisarçı, monopolist idilər. Rəqabət olmadığından, təlimin meyarları çox vaxt ümumittifaq standartlarına uyğun gəlmirdi. Ona görə də Heydər Əliyev gənclərimizi ölkənin ən məşhur tibb institutlarına oxumağa göndərməyi zəruri hesab edirdi. Başqa sözlə desək, o, respublika üçün mütəxəssis hazırlığının keyfiyyətini yüksəltmək istəyirdi və bu yolla Azərbaycanın daxilində rəqabət yaratmağa çalışırdı ki, öz müəllimlərimiz bir qədər hərəkətə gəlib özlərini düzəltsinlər.

İkincisi, seçim məktəb məzunlarının daha istedadlıları arasında aparıldığından, onların çoxusu aspiranturaya, sonra doktoranturaya qalır və Azərbaycana artıq elmi dərəcə ilə qayıdıb ali məktəb müəllimlərinin sırasını artırırdılar. Axı bizim Tibb İnstitutunun müəllim heyəti poliklinikalarda və ya xəstəxanalarda işləyənlərdən təşkil olunmuşdu. Ancaq müəllimlik fəaliyyəti ilə həkimlik təcrübəsi arasında böyük fərq var. Çox nadir hallarda tibb işçisi özündə yaxşı həkimin və müəllimin qabiliyyətini birləşdirə bilər. Ona görə də respublikaya qayıdan və ali məktəblərə gələn elmi dərəcəli kadrlar mütəxəssislərin ümumi səviyyəsini yüksəldirdilər. Elə həmin Tibb İnstitutunda elə fakültələr vardı ki, orada müəllim kadrlarına ciddi ehtiyac var idi. Xüsusilə də təbabətdə yeni istiqamətlər işləyib hazırlayan sahələrdə.

Üçüncüsü, 70-ci illər Azərbaycan üçün iqtisadiyyatın güclənmə, çiçəklənmə illəri idi, yeni sənaye sahələri inkişaf edirdi. «Ozon», Dərin özüllər zavodu, Elektron hesablama maşınları, Cihazqayırma zavodları kimi müəssisələrə günün tələblərinə cavab verə bilən kadrlar lazım idi. Ona görə də gənclər elə ali məktəblərə yollanırdılar ki, orada birbaşa bu sahələr üçün yüksək ixtisaslı mütəxəssislər hazırlansın.

Bir də, hər hansı adam yaxşı təhsil görüb, gözəl mütəxəssis olsa da, ancaq rus dilini bilməsə, praktiki olaraq, onun gələcəyi sual altında qala bilərdi. Ən yaxşı halda o işlədiyi zavodda baş mühəndis olacaqdı. Müsabiqədən kənar qəbulda isə respublikanın rayonlarından çoxlu uşaqlar olurdu, daha doğrusu, başqa şəhərlərin ali məktəblərində oxumaq üçün rus dilini bilməyənlər də gəlirdilər. Onların

oxuduqları yerlərdə xüsusi hazırlıq şöbələri təşkil olunurdu. Orada ilk yarım il rus dilinin dərindən öyrənilməsinə sərf olunurdu. Azərbaycan bölməsini bitirmiş tələbə, sözsüz ki, rus dilini lazım olan səviyyədə bilmirdi. Heydər Əliyev üçünsə mühüm məsələ o idi ki, onlar həm kamil mütəxəssislər kimi yetişsinlər, Azərbaycan dili bilgilərinə rus dilini də əlavə etsinlər. Bu, onlara bir müddətdən sonra hər hansı müəssisəyə, nazirliyə, bütöv bir sahəyə rəhbərlik etməyə, öz respublikasını bütün ölkə miqyasında təmsil etməyə imkan yaradacaqdı.

Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində Heydər Əliyev ali təhsil sahəsində demək olar ki, inqilab yaratdı. Nəticədə bütün sənaye, elm, kənd təsərrüfatı sahələrində aparıcı mövqelər tutan, uzun illər ölkəmizin əqli simasını müəyyənləşdirən yüksək dərəcəli mütəxəssislər yetişdi».

Azərbaycanın Nazirlər Soveti sədrinin keçmiş birinci müavini Süleyman Tatlıyev mənimlə söhbətində «məqsədli» təhsil üçün heyətin necə seçildiyi barədə bunları xatırladı:

«Bu iş Nazirlər Soveti vasitəsilə həyata keçirilirdi. Biz perspektivli, müvəffəqiyyətlə oxuyan uşaqların seçildiyi məktəblərə tələbnamələr göndərirdik. Sonra uşaqların təhsil almaq istədikləri ali məktəblərdən müəllimlər dəvət edirdik ki, onlar burada abituriyentlərdən imtahan götürsünlər. Uğurla imtahan verənlər arxayınlıqla təhsil almağa yollanırdılar. Siz görəydiniz ki, nə qədər arzu edənlər vardı, seçmə necə ciddi aparılırdı! MK-nın birinci katibinin göstərişi ilə Moskvadakı Azərbaycan nümayəndəliyi bu uşaqlara hamilik edirdi, onlarla görüşlər keçirir, onların hər şeylə təmin olunmasının qayğısına qalırdı.

Ölkənin aparıcı ali təhsil ocaqlarında azərbaycanlı məzunlar üçün bu qədər yerin ayrılmasında Heydər Əliyevin xidməti böyükdür. Hər il respublikaya ali təhsil müəssisələrində müəyyən miqdarda yer ayrılması məsələsini Moskva qarşısında o qoyurdu.

Hər il respublikadan 700-dən 1000-dək uşaq başqa şəhərlərə oxumağa göndərilirdi. Hazırda həmin insanlar bizim sənaye, kənd təsərrüfatı, təhsil sistemimizdə ən yüksək vəzifələrdə çalışırlar».

Tələbələri oxumağa təntənəli şəkildə, necə deyərlər, «ailəlikcə» yola salırdılar. Heydər Əliyev belə bir ənənənin əsasını qoymuşdu: bir sentyabr ərəfəsində Lenin adına Sarayda başqa şəhərlərdə təhsil almağa yollanan tələbələrlə görüş keçirilirdi. O, respublikanın birinci şəxsinin qarşısında çıxış eləmək etibar olunmuş gənc qızların və oğlanların səmimi, həyəcanlı sözlərini dinləyir, sonda isə özü də bu uşaqların tezliklə layiqli yerlər tutacağı sevimli Azərbaycanın gələcəyi barədə fikirlərlə dolu səmimi nitq söyləyirdi.



«Sabahkı gün sizin qarşınıza yeni, yüksək tələblər qoyacaq. Mütəxəssis, əgər həqiqətən də yaradıcı şəxsiyyətdirsə, sadəcə zamanla ayaqlaşmamalı, həmişə onu bir qədər qabaqlamağa çalışmalıdır. Bu isə o deməkdir ki, daima oxumaq, öyrənmək lazımdır. Bunun üçün biliklərdən, bacarıq və qabiliyyətlərdən, vərdişlərdən ibarət möhkəm özül, bünövrə olmalıdır. Özü də tələbəlik illərində bu bünövrənin əsasını nə qədər əsaslı, etibarlı qoysanız, Vətənə, doğma respublikanıza bir o qədər çox xeyir gətirəcəksiniz. Həyatınız bir o qədər səmərəli, məzmunlu, gözəl olacaq, cəmiyyətin inkişafına daha böyük töhfələr verə biləcəksiniz.

Biz sizi ali təhsil müəssisələrinə böyük ümidlə yola salırıq, sizin qayıtmağınızı, fəal, məhsuldar əmək fəaliyyətinizi də ümidlə gözləyəcəyik. Son nəticədə gələcəkdə respublikamızın iqtisadi və mədəni quruculuq tempi, ictimai həyat səviyyəsi indiki gənc nəsildən, onun bacarıq, qabiliyyət və biliklərindən asılı olacaq».

Bu nitqi Heydər Əliyev 1975-ci il avqustun 28-də, yəni otuz iki il öncə söyləyib. Ancaq bu xeyir-dualar bugünkü müstəqil Azərbaycanın gəncləri üçün o qədər aktualdır ki, sanki o dünən söylənilib.

Heydər Əliyevin 1977-ci il avqustun 27-də respublika tələbələri qarşısındakı çıxışından daha bir parçanı sitat gətirmək istəyirəm. Orada zabit kadrların hazırlığı və ya başqa şəhərlərdə təhsilini başa vurmuş məzunların təyinatı kimi çox mühüm məsələlərə toxunulmuşdu. Onu da deyim ki, bu məsələlər müstəqil Azərbaycanda da xüsusi aktuallıq kəsb edir. Ona görə də təhsil sahəsinə hamilik edən məmurlarımızın sovet dövrünün təcrübəsini praktiki cəhətdən öyrənməsi pis olmazdı.

«Moskva, Leninqrad və ölkənin digər şəhərlərinin ali məktəblərinə daxil olanlar arasında kənd rayonlarından olan oğlan və qızların sayının durmadan artması faktı, indi bu məktəblərdə, demək olar ki, bütün respublikanın təmsil olunması xüsusi məmnunluq hissi oyadır.

Azərbaycan Kommunist Partiyası MK-sı azərbaycanlı gənclər arasından zabit kadrların hazırlığına böyük əhəmiyyət verir... Ali hərbi tədris müəssisələrinə daxil olan milli gənclərimizin sayının ildən-ilə artması bizi sevindirir. 1972-ci ildən 1977-ci ildək ali hərbi təhsil müəssisələrinə əvvəlki altı ildən üç dəfə çox sayda azərbay-

canlı daxil olub. Təkcə bu il ali hərbi məktəblərə 150 azərbaycanlı qəbul olunub.

Gələcək zabit kadrların hazırlığı üçün Azərbaycan Kommunist Partiyası MK-nın təşəbbüsü ilə yaradılmış C.Naxçıvanski adına ixtisaslaşdırılmış internat məktəb gözəl bazadır. Məktəbdə təlimin keyfiyyəti durmadan artır, nəticədə onun hərbi məktəblərin kursantlarına çevrilən məzunlarının sayı da artır. Bu il internatın 58 yetişdirməsindən 56-sı ali hərbi tədris müəssisələrinə daxil olub.

Partiya MK-sı başqa şəhərlərdə təhsilini başa vuran məzunların işə düzəlməsinə nəzarət edir və bu işə xüsusi diqqət yetirir. Misal üçün, 1977-ci ilin 92 məzununun hamısı ETİ-lərə, nazirliklərin müəssisələrinə, «Azneft» birliyinə, «Xəzərdənizneft»ə və s. göndərilib.

Respublikanın Nazirlər Soveti 1978, 1979, 1980-ci illərdə başqa şəhərlərdə ali təhsilini başa vurmuş gənc mütəxəssislərin fərdi təyinat planını xüsusi qərarla təsdiq edib. Tələbələrin özünə də gələcək iş yerləri məlumdur».

*Nümunəvi haldır ki, müdrik atasının qoyduğu ənənələri davam etdirən respublika Prezidenti İlham Əliyev 2006-cı ildə xaricdə təhsil alan istedadlı azərbaycanlı gəncləri himayə etmək barədə dövlət proqramı qəbul etdi. İndi isə hüdudlar sovetlər dönəminə nisbətən bir qədər də genişlənib. Artıq Moskvanın, Sankt-Peterburqun və ya Kiyevin ali məktəbləri ilə bitmir, buraya Böyük Britaniyanın, ABŞ-ın, Almaniya, Fransa və dünyanın bir çox başqa dövlətlərinin aparıcı, nüfuzlu kollecləri, universitetləri daxildir. Bu gün strateji məqsəd ondan ibarətdir ki, nüfuzlu təhsil almış gənclər doğma Vətənində ona olan ehtiyacı duysun, daha Qərbdə «ağ yaxalıqlılar»ın sırasını doldurmasın.*

Akademik Arif Mehdiyevin dediyinə görə «müdrik və uzaqgörən siyasətçi olan Heydər Əliyev çox gözəl bilirdi ki, elmi-texniki tərəqqi, müasir qabaqcıl texnologiyanın işlənib hazırlanması və tətbiqi olmadan iqtisadiyyatın və sosial sahənin inkişafı ağlasığmazdır. Elmlər Akademiyası irəliyə kəskin sıçrayış etdi. O dövrdə Azərbaycanda elmin yeni istiqamətləri yarandı, aerokosmik, geofiziki və biofiziki tədqiqatlar inkişaf tapdı, sənayenin elmtutumlu sahələri, xüsusilə cihazqayırma, elektronika, mikroelektronika, polimer materiallar istehsalı və digər sahələr meydana gəldi. Kənd təsərrüfatı sahəsində yeni yüksək məhsuldarlıqlı sortlar yaradıldı, yeni qabaqcıl aqrotexniki üsullar tətbiq olunmağa başladı... Yeni ali təhsil müəssisələrinin yaradılması, gənclərin Rusiyanın və digər müttəfiq respublikaların aparıcı elm və təhsil mərkəzlərində oxumağa göndərilməsi yeni elmi-tədqiqat institutlarının yaradılması, elmi tədqiqat dairəsinin genişləndirilməsi, Elmlər Akademiyasının sürətli inkişafı üçün baza təşkil edirdi»[4].



Azərbaycandan oxumağa göndərilən gənclərdən çoxusu 70-80-ci illərdə yaradıcı peşələrə yiyələnərək ixtisaslı rejissor, operator, ssenarist oldular, sovet kinosunun adlı-sanlı nümayəndələrinin emalatxanasında təlim keçdilər. Azad Şərif tanınmış aktyor Aleksey Batalovun emalatxanasında təhsil almaq üçün azərbaycanlı tələbələrdən ibarət qrupu necə yığdıqlarını belə xatırlayır:

«İki il Batalovu dilə tutaraq razı salmağa çalışdım. Nəhayət, Aleksey İvanoviç Batalov Bakıya gəldi. Rüstəm İbrahimbəyov və Eldar Quliyev qəbul komissiyasına rəhbərlik edirdilər. Yəhudilər, ermənilər, ruslar tökülüşüb gəldilər, hamısı Ümumittifaq Kinematoqrafiya İnstitutunda oxumaq istəyirdilər. Qrup isə cəmi 15 nəfərdən ibarət idi. Mən Batalovla açıq danışmaq qərarına gəldim:

– Aleksey İvanoviç, çətin vəziyyətə düşmüşəm, müsabiqədə Bakıda yaşayan bütün millətlərin nümayəndələri təmsil olunub. Mənim və sizin qarşınızda duran vəzifə isə ondan ibarətdir ki, milli qrup hazırlayaq.

O məni başa düşüb gülümsündü:

– Azad Kərimoviç, onda sən qarışma, kənarda dur. – Batalov valideynlərin hamısını yığıb dedi:

– Əziz dostlar, mənim qarşımda Azərbaycanın milli aktyor qrupunu yaratmaq və ona beş il təlim keçmək vəzifəsi durur.

– Azərbaycan filmlərində rus obrazları da var axı, – deyə bir qadın etirazını bildirdi.

– Doğrudur, – deyə o cavab verdi, – bu zəruri olanda yoldaşlar Moskvadan, «Mosfilm»dən aktyorlar gətirirlər. Mən özüm məmnuniyyətlə çəkilmişəm, Kryuçkov neçə il Bakıda çəkilib. Ona görə də inciməyin. Kim Ümumittifaq Kinematoqrafiya İnstitutuna girmək istəyirsə, Moskvaya buyursun.

O bu məsələni yoluna qoydu. Qəbul 80-ci illərin əvvəllərində olmuşdu, kursu isə onlar 1988-ci ildə başa vurdular. O, tələbələrlə necə işləyirdi! Tələbələrlə yanaşı, biz Moskvaya Azərbaycan dili müəllimi də göndərdik, ona əmək haqqı verdik, o da tələbələrimizlə birlikdə yataqxanada yaşayırdı. Axı uşaqların hamısı rusdilli idilər. Həmin müəllimə onlara Azərbaycan dilini öyrədirdi. Moskvadan tez-tez zəng vurub Azərbaycan dilində vallar, kitablar, milli paltar-

lar, albomlar göndərməyi xahiş edirdilər, mən onların bütün arzularını yerinə yetirirdim».

70-ci illər – ali və orta ixtisas təhsili sistemində yalnız keyfiyyət cəhətdən yox, kəmiyyət cəhətdən də dəyişikliklər dövrüdür. Respublikada beş yeni ali məktəb yaranmışdı. Lenin adına Pedaqoji İnstitutun filiallarının bazasında Naxçıvanda və Stepanakertdə müstəqil pedaqoji institutlar təşkil edildi. Ç.İldırım adına Politexnik İnstitutunun inşaat və memarlıq fakültələrinin bazasında İnşaat Mühəndisləri İnstitutu yaradıldı. Eləcə də xüsusi pedaqoji institutlar – M.F.Axundov adına Rus dili və Ədəbiyyatı və SSRİ-nin 50 illiyi adına Xarici Dillər institutları təsis edildi. Bir sıra şəhərlərdə yeni orta ixtisas təhsili müəssisələri açıldı. Respublika sənayesinin strukturundakı dəyişikliklərlə əlaqədar ali məktəblərdə 29 yeni fakültə, 76 kafedra, çoxlu müasir problem laboratoriyaları yaradıldı.

70-ci illərin sonunda Azərbaycanda 526 kafedrası, 134 fakültəsi olan 16 ali tədris müəssisəsi fəaliyyət göstərirdi. Bu ali məktəblərdə 100 mindən artıq oğlan və qız təhsil alırdı.

## Ali məktəblərdə korrupsiya ilə mübarizə

Ali məktəblərə qəbul zamanı, imtahan sessiyası dövründə rüşvətxorluq Heydər Əliyevin həllinə dərhal girişdiyi ciddi problemlərdən biri idi.

O vaxtlar abituriyentlər və onların valideynləri çox yaxşı bilirdilər ki, Azərbaycan Dövlət Universitetinə qəbul «neçəyə»dir, Tibb İnstitutuna, Xarici dillərə neçəyədir. Bunlar, necə deyərlər, «elit» ali təhsil ocaqları idi, onlarda oxumaq üçün də yüksək haqq qoyulurdu. Azərbaycan Neft və Kimya, Politexnik, Lenin adına Pedaqoji İnstitutların ətrafında bu cür ajiotaj müşahidə olunmurdu, orada «məzənnə» nəzərəçarpacaq dərəcədə aşağı idi. Sessiya vaxtının da öz qiymətləri vardı. Qəbul imtahanlarında iştirak etmək külli miqdarda pul qazanmaq demək idi, hələ qohum-əqrəbadan da iki-üç nəfəri yerləşdirmək imkanları barədə danışmırıq, əlbəttə ki, onlar da borclu qalmayacaqdılar. Ona görə də imtahan komissiyasının tərkibi ətrafında daima əsil dava, savaş, çəkişmə olurdu.

Bu iyrənc hala son qoymağı qərara alan MK-nın yeni birinci katibi sərt qayda-qanun yaratmağa girişdi. Əvvəlki fəsillərdə biz artıq onun partiya plenumlarındakı sərt çıxışlarından nümunələr göstərmişdik. Həmin çıxışlarda Heydər Əliyev prinsipiallıqla ali məktəblərdə geniş yayılmış rüşvətxorluq, qohumbazlıq və proteksionizm hallarını ifşa edərək qəbahət etmiş ali məktəb rəhbərlərini ictimaiyyətin mühakiməsinə vermişdi. Tezliklə ali təhsil müəssisələrinə qəbul zamanı ciddi nöqsanlar barədə MK Bürosunun xüsusi qərarı çıxdı. O, çox vaxt bu və ya digər rektoru vəzifəsindən kənarlaşdırmalı, ali və orta ixtisas təhsili nazirliyinin rəhbərliyini işdən çıxarmalı və ya şiddətli töhmət verməli, MK xətti ilə ali təhsil müəssisələrində xüsusi yoxlamalar aparmalı olurdu. Ramiz Ənvər oğlu Mehdiyev mənimlə söhbəti zamanı həmin yoxlamalardan birini yada saldı:

«1980-ci ildə mən Azərbaycan Kommunist Partiyası MK-da elm və təhsil müəssisələri şöbəsinə rəhbərlik etməyə başladım. Heydər Əliyev mənim qarşımda bir sıra, o cümlədən orta və ali təhsil müəssisələri sistemində, eləcə də şöbənin hamilik etdiyi digər sahələrdə mövcud olan neqativ hallarla mübarizə ilə bağlı məsul vəzifələr qoymuşdu. Bizim şöbəmiz isə o vaxtlar Ali Təhsil Nazirliyinə, Maarif Nazirliyinə, Texniki Peşə Təhsili Komitəsinə, Sosial Təminat Nazirliyinə, Səhiyyə Nazirliyinə, İdman Komitəsinə hamilik edirdi. Məsuliyyətimiz böyük idi.

Mən bu vəzifəyə təsdiq olunandan az sonra ali təhsil müəssisələrində qəbul imtahanları keçirilməli idi. Şöbəmiz ali məktəblərə və texnikumlara qəbul sisteminə çox ciddi nəzarət edirdi, mən də Bakı şəhərinin ali məktəblərini dolaşmaq qərarına gəldim. Demək olar ki, onların hamısında oldum, bəzilərində vəziyyət daha qənaətbəxş idi, digərlərində isə yox. Ancaq praktiki cəhətdən qəbul imtahanlarına hazır olmayan Azərbaycan Dövlət Universitetindəki, eləcə də Bədən Tərbiyəsi İnstitutundakı vəziyyət daha acınacaqlı idi. Təbii ki, mən hər iki ali məktəbin rəhbərliyinə narazılığımı bildirdim, sonra respublikanın bütün ali məktəblərinin rektorlarının iştirakı ilə yığıncaq keçirdik. Həmin yığıncaqda qəbul imtahanlarına hazırlıq prosesindəki çatışmazlıqları və onların aradan qaldırılması yollarını müzakirə etdik. Bundan sonra mən Heydər Əliyevə müraciət edib dedim: «Bu təhsil müəssisələrindəki qeyri-sağlam şəraiti, tələbələrin və müəllim heyətinin narazılıqlarını nəzərə alaraq Azərbaycan Dövlət Universitetinin və Bədən Tərbiyəsi İnstitutunun rektorlarını dəyişməyi məqsədəuyğun hesab edirəm». O, razılaşdı, ancaq təklif etdi: «MK-da sənə bilavasitə hamilik edən Kamran Bağırov ADU-nun rektoru Faiq Bağırzadənin qardaşı olduğu üçün, görünür, bu məsələ ilə bağlı gərək mən özüm qabaqcadan MK katibi ilə danışım. Bu məsələni

bir qədər sonra həll edərik. Bədən Tərbiyəsi İnstitutuna gəlincə isə, arayış hazırla və məsələni katibliyin iclasına çıxart».

Katiblikdəki müzakirə digər rektorların və Ali Təhsil Nazirliyinin təmsilçilərinin iştirakı ilə və çox kəskin keçirildi. Rektor Rafiq Rəcəbovu işdən azad etmək, onun yerinə Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin təlimatçısı Samur Novruzovu təyin etmək qərara alındı. S.Novruzov institutda pis işləmirdi, orada qayda-qanun yaratmışdı, neqativ hallarla mübarizə aparırdı. Doğrudur, sonralar onunla şəhər partiya komitəsinin birinci katibi vəzifəsindən kənarlaşdırılandan sonra bir müddət İdman Komitəsinə rəhbərlik edən Vaqif Hüseynov arasında münaqişə başladı. Mən o vaxtlar artıq MK-nın ideologiya üzrə katibi idim, gərginliyi aradan qaldırmaq üçün Kamran Bağırova Samur Novruzovu partiya MK-sının təbliğat və təşviqat şöbəsi müdirinin müavini vəzifəsinə qoymağı təklif etdim».

Bununla belə, kəskin tədbirlərə baxmayaraq, ali məktəblərdə, xüsusilə də qəbul imtahanları keçirilən zaman işlərin vəziyyətinin düzəlməsi çox ləng gedirdi. Bax, elə onda Heydər Əliyev qəbul sisteminin özünü köklü şəkildə dəyişmək qərarına gəldi. Bir müddət MK-da elm və tədris müəssisələri şöbəsi müdirinin müavini vəzifəsində işləmiş Lidiya Rəsulova bunun necə baş verdiyini belə xatırlayır:

«Heydər Əliyev ali məktəblərə qəbul zamanı rüşvətxorluq hallarına qarşı mübarizənin yollarını müzakirə etmək üçün bir qrup adamı dəvət etmişdi. Dəvət olunanlar arasında təhsil sisteminin məsul işçiləri, bütünlüklə bizim şöbəmiz, inzibati orqanların – DTK, DİN, Prokurorluğun nümayəndələri var idi. O hamı ilə məsləhətləşirdi: nə edək, problemi necə həll edək, nüfuzlu fakültələrin qapısını bilikli, hazırlıqlı gənclərin üzünə necə açaq? Axırda **Qəbul üzrə Mərkəzləşdirilmiş Komissiya** yaratmaq barədə qərara gəldilər. Bu nə demək idi? Ciddi, savadlı mütəxəssislər arasından müxtəlif ixtisaslar və fənlər üzrə müəllim qrupu yaradılırdı. Onlar imtahan götürmək üçün haraya, hansı ali məktəbə gedəcəklərini qabaqcadan bilmirdilər. Bu adamları imtahan günü partiyanın MK-sına yığıb elan edirdilər ki, kimsə Tibb İnstitutuna, kimsə də Konservatoriyaya gedəcək. Bu, yaraları sağaltmasa da, sözsüz ki, qəbul zamanı baş verən nəticəmizliyin faizini aşağı salırdı.

Müəllimlərə və onları təvsiyə etmiş ali məktəblərə nəzarət etmək üçün belə bir üsul tətbiq etdilər: birinci sessiyanın nəticələrinə



görə müqayisə edirdilər ki, görsünlər tələbənin attestat qiyməti ilə həmin fənn üzrə qəbul imtahanlarındakı qiyməti onun birinci sessiyadakı göstəricilərinə uyğun gəlir, yoxsa yox?

Başqa sözlə desək, belə tələbəni institutdan xaric etməyə qanuni haqqın yox idi, amma bu, ciddi müzakirənin mövzusuna çevrilirdi – imtahanı kim götürüb, ona bir də bu işi tapşırmaq olarmı, ali məktəb rəhbərliyinin bu məsələyə təsiri necə olub və s.

Orta məktəbi medalla bitirənləri çox diqqətlə yoxlayırdılar. Axı medalçı cəmisi bir imtahan verirdi. Əgər «beş» alırdısa, onu instituta qəbul edirdilər. Ona görə də çoxları bu məsələni məktəbin özündə «həll etməyə» çalışırdılar. Başqa cür desək, uşaqlarının qızıl medal almasına «sponsorluq» edirdilər. Ona görə də medalçıların üstündə xüsusi nəzarət var idi. Bəzən aşkara çıxarırdılar ki, məsələn, medalçı qəbul imtahanlarından «beş» alıb, ancaq elə birinci sessiyada bütün bunları heçə çıxarırdı. Bunun nəticəsi isə çox pis qurtara bilərdi: komissiya üzvlərini, bəzən hətta ali məktəbin rəhbərini də dəyişə bilərdilər.

Ali məktəblərə məbz kimin, hansı zümrənin qəbul olunmasına da diqqət yetirməyə başladılar. Bu cür işlər ildən-ilə davam edirdi. Heydər Əliyev ərazisində ali təhsil müəssisələri yerləşən rayon partiya komitələrinin birinci katiblərini yığıb deyirdi:

– Bəli, mərkəzləşdirilmiş komissiya var, bəli, qəbul imtahanlarından sonra hərtərəfli təhlil aparacağıq, günahı olanlara qarşı ən ciddi ölçülər götürüləcək. Ancaq siz özünüz də fikirləşməlisiniz ki, qayda-qanun yaratmaq üçün daha nə etmək olar.

Yadımdadır, imtahanlar vaxtı az qala ömrümün yarısını itirirdim ki, bir auditoriyadan başqasına gedən olmasın, imtahanlara kənar adam girməsin, hər hansı bir kağız parçasının auditoriyaya keçirilməsinin qarşısını alım. Müəllimlər də ehtiyatlı olmuşdular. Onlar artıq fikirləşirdilər: «Mən bu tələbəyə kömək edəcəyəm, amma sessiya imtahanlarında onun «paxırı» açılacaq. Onda məndən yapışacaqlar».

Ancaq bu tədbirlər də 100 faizli nəticə vermədi. Ona görə də 90-cı illərin əvvəlində tətbiq olunan test sistemi bir çox cəhətdən vəziyyətdən çıxış yolu oldu».

Qəbul üzrə mərkəzləşdirilmiş komissiya yaratmaqdan əlavə, MK-nın birinci katibi daha sərt ölçülər tətbiq etdi. Biz artıq xatırlatmışıq ki, o, hüquq-mühafizə orqanları işçilərinin övladlarına hüquq fakültəsinə daxil olmağı qadağan etmişdi. Əvəzində kənd cavanları-

nın nümayəndələrinə, fəhlə balalarına üstünlük verilirdi. Sonra belə bir yol fikirləşdilər: orta məktəbi bitirdikdən sonra instituta girmək üçün birillik iş stajı tələb olunurdu. Həkim olmaq istəyirsənsə, zəhmət çək, bir il xəstəxanada sanitar işlə.

Yaxşı yol idi, ancaq xalqımızın belə bir xüsusiyyəti var: təzə qanun və ya sərəncam çıxan kimi biz başımızı sındırıb onu necə yerinə yetirmək haqqında yox, ondan necə yan keçmək haqqında, vəziyyətdən çıxmaq haqqında düşünürük. Təbii ki, valideynlərin çoxusu uşaqlarının adını sanitar, xəstə baxıcısı və s. yazdırmaqla vəziyyətdən çıxış yolu tapdılar. Məhz «yazdırmaqla», çünki bir il ərzində Tibb İnstitutunun tələbəsi olmağa hazırlaşan heç bir oğlan və ya qız işə çıxmadı, xəstəyə qulluq göstərmədi, ancaq iş stajı öz-özünə gedirdi. Hüquq-mühafizə orqanlarının əməkdaşları da vəziyyətdən çıxırdılar. Onların övladları başqa şəhərlərdə hüquq fakültəsinə daxil olur, bir və ya iki ildən sonra Bakı universitetinə köçürülürdülər.

Onu da deməliyik ki, respublika daxilində Dağlıq Qarabağın sakinləri üçün ali məktəblərə məqsədli, müsabiqədənkənar qəbul mövcud idi. Öz vaxtında DQMV-nin rəhbərliyi növbədənkənar qəbulun zəruriliyini onunla əsaslandırmışdı ki, muxtar vilayətin bir çox kəndlərində həkim, müəllim və hüquqşünaslar çatışmır. Müsabiqədən kənar qəbul olunan tələbələrin təhsildən sonra DQMV-yə mütəxəssis kimi qayıdacaqları güman edilirdi. Bir şey də maraqlıdır: müsabiqədənkənar qəbul üçün yerlər Dağlıq Qarabağın bütün əhalisinə ayrılırdı, DQMV-nin rəhbərliyi isə onu yalnız erməni millətindən olanlara şamil edirdi. Çox vaxt da oxumağa ən layiqlilərini yox, qohumluq, yerliçilik və s. prinsipləri ilə seçilənləri göndərirdilər.

Bir dəfə Heydər Əliyev MK təftiş komissiyasının sədri Lidiya Rəsulovaya tapşırdı ki, vaxtilə müsabiqədənkənar təhsil üçün tövsiyə olunmuş gənc mütəxəssislərin hara və necə qayıtdıqlarını, Dağlıq Qarabağın başlıca istiqamətlər üzrə kadrlarla – həkimlərlə, müəllimlərlə necə təmin olunması məsələlərini araşdırsın.

«Yadımdadır ki, biz bu məsələni Qarabağda araşdırırdıq, – deyə Lidiya Rəsulova xatırlayır. – Görün orada nələri aşkara çıxardıq. Çoxları bu məsələdə bir növ əl yeri qoymuşdular. Burada, Azərbaycanda təhsil alandan sonra onlar əksər hallarda Dağlıq Qarabağa qayıtmırdılar, respublikadan çıxıb gedirdilər – kimisi Yerevana, kimisi Moskvaya və ya Leninqrada. Nəticədə yerlərdə qəribə vəziyyət yaranırdı, sanitar həkim terapevt işləyirdi, diş həkimi isə cərrah. Yəni vilayət rəhbərliyi tələbələrin geriyə dönüb-dönməməsinə qətiyyən



nəzarət etmirdi. Onlar öz öhdəliklərini yerinə yetirmirdilər, odur ki, boş yerləri doldurmaq üçün diş həkimini cərrah təyin edirdilər.

MK Bürosunda bu barədə məruzə edərkən mən yolverilməz faktları misal gətirirdim, konkret poliklinikaların, xəstəxanaların adını çəkirdim. Başqa sahələrdə də çoxlu nöqsanlar aşkara çıxarılmışdı, ancaq ən böyük çatışmazlıqlar, biabırçılıqlar səhiyyə sahəsində idi.

Vilayət rəhbərliyinə yaranmış vəziyyəti ciddi şəkildə araşdırıb müvafiq ölçü götürmək tövsiyə olundu».

## Azərbaycanda idmanın inkişafı

**1974-cü il iyunun 21-də** Azərbaycanda bədən tərbiyəsi və idmanın gələcək inkişafı ilə bağlı tədbirlər barədə məsələni müzakirə edən respublika partiya fəalları yığıncağı keçirildi.

Heydər Əliyev həmişəki kimi çox tənqidi çıxış etdi. O da, digər çıxışçılar da idmanda kütləviliyin olmamasından, Azərbaycan idmançılarının ümumittifaq və beynəlxalq yarışlarda zəif nəticələr göstərməsindən, orta və ali məktəblərdə bədən tərbiyəsi fənninin tədrisinin aşağı səviyyədə olmasından, respublikanın idman qurğuları tikintisi sahəsində çox geridə qalmasından, bəzi komandalar, məsələn «Neftçi» futbol klubunun təlim-məşq bazasının olmamasından danışdılar. Heydər Əliyev bütün səviyyələrdə olan rəhbər işçilər qarşısında bədən tərbiyəsi və idmana tərəf üz tutmağı və bu sahədəki «ağrılı» problemlərin həllinə köməklik göstərməyi bir vəzifə kimi qoydu.

DQMV vilayət partiya komitəsinin birinci katibi Boris Gevorkov müzakirələrdə çıxış edərkən bəyan etdi ki, 20 ildir komsomol və partiya işlərində çalışır, indiyədək bədən tərbiyəsi və idmanla bağlı məsələnin bu cür yüksək səviyyəyə qaldırılmasını xatırlamır.

**Yuri Məmmədovla söhbətdən:**

«70-ci illərin ortalarında «Azərbaycan SSR-də bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi haqqında» həqiqətən də tarixi sənəd qəbul olundu. O vaxtlar kütlələrdən bədən tərbiyəsinin və professional idmanın inkişafına yeni baxış tələb olunurdu: infrastrukturu təzələmək, ümidverən idmançıların maddi-texniki təminatını yüksəltmək, idman bazaları şəbəkəsi yaratmaq və s. Heydər Əliyev çox gözəl bilirdi ki, idmanda əldə edilmiş nailiyyətlər ölkə üçün böyük siyasi əhəmiyyət kəsb edir. Kubanı, Almaniya Demokratik Respublikasını bütün dünyada əsasən idman sahəsindəki uğurlarına görə tanı-

mışdılar. Kimin şərəfinə ölkənin bayrağını qaldırır, dövlət himnini səsləndirirdilər? Əlbəttə ki, qalib gəlmiş dövlətin və idmançıların şərəfinə. Heydər Əliyev çalışırdı ki, idman vasitəsilə bizi nəinki SSRİ-də, həm də onun hüdudlarından kənarlarda da tanısınlar.

**– Sənədin qəbul olunması ilə bu sahədə nə dəyişdi?**

– Çox şey. Əvvəla, idmanın nüfuzu qalxdı. Azərbaycan KP MK-nın və respublikanın Nazirlər Kabinetinin birgə qərarı olan bu sənəd mətbuatda dərc olundu. Orada bir çox konkret bəndlər var idi: Mingəçevirdə Olimpiya avarçəkmə bazasının, idman məktəbləri şəbəkəsinin yaradılması barədə, bir sözlə, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı rəngarəng məsələlər əhatə olunmuşdu. Bundan sonra «Neftçi»nin futbolçuları üçün müasir baza inşa edildi, bir çox rayonlarda stadionların və idman meydançalarının quraşdırılmasına başlandı.

Heydər Əliyev sənədin təşəbbüskarı idi. Ümumiyyətlə, o bütün bu məsələləri qəlbindən keçirirdi, bir yandan da axı o özü də idmançı idi, bütün ömrü boyu üzgüçülüklə məşğul olmuşdu.

O, idmançıları sevirdi: onlara himayədarlıq edir, növbədənkənar avtomobillə, mənzillə təmin edir, fəxri adlar verirdi. Bir misal gətirim. O, Kislovodskda istirahət edirdi, Bakının «Neftçi» komandası isə orada toplantıda idi. O vaxt biz yüksək liqada çıxış edirdik. «Neftçi» yerli komanda ilə yoldaşlıq oyunu keçirdi və uduzdu. Heydər Əliyev stadionda oyunu müşayiət edirdi. Məzuniyyətdən gələn kimi Bədən Tərbiyəsi və İdman üzrə Dövlət Komitəsi sədrini və «Neftçi»nin baş məşqçisi Əhməd Ələsgərovu MK Bürosuna çağırtdırdı. Müzakirə zamanı Heydər Əliyev soruşdu:

– Ələsgərov, sən mənə de görüm, o nə cür oynamaq idi?

O, yöndəmsiz şəkildə özünə bəraət qazandırmağa başladı və sözarası bu ifadələri də işlətdi:

– Bilirsiniz, Heydər Əliyeviç, Azərbaycanda hündürboy adam yoxdur.

Heydər Əliyev bərk qəzəbləndi.

– Mən necə, alçaqboyluyam? Bəs Kamran Bağırovun necə, boyu qısadır?

Və bu əhvalatdan sonra Əhməd Ələsgərov komandadan kənarlaşdırıldı».

«Neftçi» komandasının oyunçusu Vladimir Mixaylovskinin sözlərinə görə, onun bəxti gətirib ki, o respublikaya Heydər Əliyev rəhbərlik etdiyi vaxt komandada oynayıb. Respublikanın partiya lideri idmançılarla tez-tez görüşür və onların problemləri ilə maraqlanırdı.

Futbolçularla görüşlərin birində Heydər Əliyev pəncərəyə yaxınlaşdı, oradan qarşıda tikilməkdə olan bina görünürdü. Görüşdə şəhər meri də iştirak edirdi. MK-nın birinci katibi merdən soruşdu ki, bu ev kimindir? O isə cavab verdi ki, idarə evidir, mənzillər də artıq bölüşdürülüb. «Bu evdəki mənzillərdən dördünü uşaqlar üçün ayırmaq lazımdır», – deyə Heydər Əliyev amiranə səslə dilləndi. Elə ertəsi gün «Neftçi» komandasının yaşayış şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan futbolçuları mənzil aldılar. «Yəqin ki, meydançaya çıxan və Heydər Əliyevi tribunada görən oyunçulardan hər biri düşünürdü ki, respublikanın şərəfini qoruyur, o cümlədən Heydər Əliyevin şərəfini qoruyur. O, futbolun və idmanın inkişafı üçün o qədər iş görmüşdü ki, onu pis vəziyyətdə qoymağa ixtiyarımız yox idi», – deyə Vladimir söhbətini tamamladı.

Bakılıların məşhur qapıçısı Sergey Kramarenko isə xatırlayır ki, «birinci» ayda ən azı bir-iki dəfə bazaya gəlir, hər şeylə maraqlanırdı – uşaqlar necə yaşayır, ailəmizin, doğmalarımızın nəyəsə ehtiyacı yoxdur ki?! O uşaqlarda yalnız qələbə əhval-ruhiyyəsi yaradırdı».*

**Lidiya Rəsulova ilə söhbətdən:**

«Heydər Əliyev xüsusilə gənclər, cavanlar arasında idmanın inkişafına böyük diqqət yetirirdi. MK-nın elm və tədris müəssisələri şöbəsində biz uşaq və gənclərdən ibarət idman komandaları ilə işə nəzarət edirdik. Onlar respublika, ümumittifaq yarışlarında iştirak edir, bəzən isə onlardan beynəlxalq turnirlərdə yarışmaq üçün komandalar yaradılırdı. Gizlətmək istəmirəm, o vaxtlar çoxları hiylə işlətməyə çalışırdılar. Misal üçün, qaydaya görə, deyək ki, hansısa ümumittifaq yarışlarında 11-13 yaşlı uşaqlar iştirak etməli idilər. Maarif Nazirliyi iştirakçıların siyahısını şöbəmizə təqdim edirdi, biz isə yarışlar başlanana qədər bu siyahını yoxlamağa çalışırdıq. Təəssüf ki, saxtakarlıq faktları ilə üzləşdik. Müdirim yerində olmadığından Heydər Əliyevə mən məruzə etməli oldum:

– Biz nümunəvilik yolu ilə iştirakçıların tərkibini yoxladıq, məlum oldu ki, 10-dan artıq adam öz yaş qrupuna uyğun gəlmir. Təbii ki, bu vəziyyətdən Maarif Nazirliyinin xəbəri olmamış deyil. Bizə belə uğurlar və göstəricilər lazımdırmı? Biz bilə-bilə uşaqları yalana öyrədirik. Axı uşaqlar hər şeyi çox yaxşı başa düşürlər.

---

* Vaqif Mustafayevin «Birinci» filmi.

İlk baxışda bu adi, nəzərə çarpmayan hadisə MK-nın birinci katibində çox kəskin reaksiya doğurdu. O dedi:

– Siz hazırda baş vermiş bir hadisə haqqında danışdınız, əminsinizmi ki, buna bənzər hallar əvvəllər olmayıb, gələcəkdə də olmayacaq? Biz nə cür nümunə göstəririk? Hesab edirəm ki, bu məsələni katibliyə çıxarmaq lazımdır.

Biz buna bənzər faktları daha dərindən araşdırdıq, məsələni MK-nın katibliyinə çıxardıq və əlbəttə ki, komandaların təşkilində və seçilməsində əli olanlar çox ciddi cəzalandırıldılar?».

*XX əsrin 90-cı illərində müstəqil Azərbaycanın prezidenti olan Heydər Əliyev Milli Olimpiya Komitəsinə öz oğlu İlham Əliyevi rəhbər qoymaqla, «atla gediş» etdi. O dəqiq hesablamışdı: oğul Əliyevin idmana rəhbərliyə gəlməsi ilə ölkənin bütün partiya funksionerləri və iş adamları bu sahəyə üz tutdular. Demək olar ki, ölkənin bütün regionlarında ən müasir olimpiya idman kompleksləri ucaldıldı. Professional idmançılarla yanaşı, yerli cavanlar da bu komplekslərin daimi sakinlərinə çevrildilər. Artıq bir neçə ildən sonra Azərbaycan idmançıları ən nüfuzlu beynəlxalq turnirlərdə mütəmadi olaraq qələbə çalacaqlar. Bakı da müxtəlif idman növləri üzrə Avropa və dünya çempionatlarının keçirildiyi məkana çevriləcək.*

*Heydər Əliyevin istədiyi və nail olduğu əsas məsələ o idi ki, gəncləri idmana cəlb etsin, idmana həvəs isə respublikada kütləvi hal alsın. Onun gənclik illərindəki kimi.*



[1] İbrahimova H. Heydər Əliyev və Azərbaycan qadını. Bakı, 2007. S.18.
[2] Dövlət müstəqilliyimizin əldə edilməsində Heydər Əliyev amili. Bakı, 2003. S.7.
[3] Летопись одной жизни, Баку, 1999. С.254-255.
[4] Mehdiyev A. Xalqımızın böyük oğlu. «Respublika», 2005. 9 may.

*On birinci fəsil*

# Əks əlaqə

## Heydər Əliyev və 70-ci illərin kütləvi informasiya vasitələri

**1990**-cı ilin noyabrında məni «Literaturnaya qazeta»nın xüsusi müxbiri təsdiq etdilər, iki aydan sonra isə redaksiyadan ilk məsuliyyətli tapşırıq aldım: Naxçıvana gedib Heydər Əliyevdən müsahibə almaq. Öyrəndim ki, qəzetin ictimai-siyasi problemlər şöbəsində «Sabiqlər» rubrikası hazırlayırlar. Keçmiş dövlət xadimlərinin siyasi fəaliyyətə qayıtması fenomeni o vaxt təzə idi və ümumi maraq doğururdu. H.Əliyevin Azərbaycan Ali Sovetinə seçkilərdə parlaq qələbəsi və Naxçıvan parlamentindəki qaynar fəaliyyəti isə ölkədə böyük səs-küyə səbəb olmuşdu.

Bir neçə gündən sonra mən Naxçıvana gələndə və nəhayət ki, şəxsi tanışlığımız baş tutanda, Heydər müəllim mənim yadıma 1990-cı ilin iyununda yerli mətbuatda dərc etdirdiyim bir məqaləni saldı. Sən demə bu görüşün baş tutmasına görə, mən nüfuzlu paytaxt qəzetinin xüsusi müxbiri imicinə deyil, məhz həmin məqaləyə borcluymuşam. Heydər Əliyev özü bu barədə belə danışır (onun danışdıqlarını diktofona yazmışam, olduğu kimi verirəm):

«1990-cı ilin yayında, hələ Moskvada ikən, qəzetləri gözdən keçirəndə «Bakinski raboçi» qəzetindəki məqaləyə diqqət yetirdim. Adı deyəsən belə idi – «Biz hamımız keçmişdən çıxmışıq». Yazı diqqətimi məntiqə söykənməsi, obyektivliyi və heç şübhəsiz, bədii məziyyətləri ilə çəkdi. Təbii ki, müəllifin adı ilə maraqlandım. Materialın altında Elmira Axundova yazılmışdı. Yadıma salmağa çalışdım: bu adda jurnalist tanıyıramm, qabaqlar görüşmüşəmmi? Məqaləni oxuyandan sonra keçmiş gözümün qarşısında canlandı –

Azərbaycanda işlədiyim illər, o vaxtlar ki, mənim tərəfimdən ədəbiyyat və incəsənət sahəsində hər bir maraqlı hadisə, hətta o qədər əhəmiyyətli olmayanı belə, böyük rub yüksəkliyi ilə qarşılanırdı. Mən həmişə jurnalistikamızın işini diqqətlə izləmişəm, qəzetdə müəllifin yaradıcı, elmi və ya intellektual potensialından xəbər verən, başqalarından fərqlənən materiala rast gələndə ürəkdən sevinmişəm. «Bakinski raboçi», «Vışka», «Kommunist» qəzetlərinin redaksiyalarına tez-tez zəng vururdum, redaktorlarla söhbət edirdim, bu və ya digər məqalə barədə fikrimi bildirirdim, müəlliflərlə maraqlanırdım. Ona görə də bütün Azərbaycan jurnalistlərini kifayət qədər yaxşı tanıyırdım».

70-ci illərdə respublika və ittifaq mətbuatında işləmiş jurnalist həmkarlarım H.Əliyevin bir rəhbər kimi KİV nümayəndələri üçün açıq, əlçatan olması və MK-nın birinci katibi ilə daimi «əks əlaqənin» mövcudluğu haqqında heyranlıqla danışırlar. Bütün azçox istedadı olan jurnalist arxayın ola bilərdi: əgər o dəyərli material çap etdirsə, Heydər Əliyev onu mütləq oxuyacaq, nəticə çıxaracaq, ola bilər ki, hələ zəng edib müəllifi şəxsən təbrik də edəcək. Əgər material onun etirazına səbəb olubsa, o yenə də jurnalistlə əlaqə yaradacaq və açıq söhbətdə bütün qaranlıq məqamlara aydınlıq gətirəcəkdir.

Paradoksal da olsa faktdır: məhz o vaxt, senzura və total nəzarət şəraitində mətbuat əsl «dördüncü hakimiyyət» idi, cəmiyyətin diqqətini bu ya digər problemlərə cəlb etməyin ən təsirli vasitələrindən, başlıcası isə bu problemləri həll edən alətlərdən biri idi. KİV-də çap olunmuş materiallar əsasında yoxlamalar təyin olunur, ali partiya orqanları tərəfindən qərarlar qəbul edilir, işə can yandırmayan məmurlar cəzalandırılır, bəzən isə tutduqları vəzifədən azad edilirdilər. Bu gün, bir çox kütləvi informasiya orqanlarındakı yazılar daha çox kompromat «süzdürülməsini» xatırladanda, tənqidi çıxışlara isə hakimiyyət dairələrinin ciddi diqqət yetirmədiyi bir vaxtda, buna inanmaq çətindir. Lakin həmkarlarımın bu fəsildə gətirdiyim xatirələri – o vaxtkı cəmiyyətdə jurnalist nüfuzunun və rolunun əyani təsdiqidir. Məhz elə bu nüfuz çap olunmuş hər sözə görə onların məsuliyyətini inanılmaz dərəcədə artırırdı.

**Ramiz Tarıverdiyevin söhbətindən:**

«1973-cü ildə mən «Bakinski raboçi» qəzetinə baş redaktor müavini təyin olunmuşdum və «Molodyoj Azerbaydjana» qəzetinin baş redaktoru vəzifəsinə təsdiq olunan Vaqif Hüseynovla birlikdə Azərbaycan KP MK-nın birinci katibi tərəfindən qəbul edildim.



Mətbuatın vəzifələrindən, o vaxt respublikada gedən proseslərin işıqlandırılmasındakı rolundan təxminən bir saata yaxın söhbət getdi. Yadımdadır, Heydər Əliyeviç deyirdi ki, gərək bizim mətbuatımızın yazdıqları daha kəsərli və tənqidi olsun. Neqativ hallara qarşı mübarizə gedirdi. O bizə deyirdi: «Heç kimdən və heç nədən qorxmayın. Qəzet kəsərli olmalıdır. Nə olsa mən sizin arxanızda dayanmışam».

Mən də elə bunu gözləyirdim. Okulov ezamiyyətdə olanda mən onu əvəz edirdim.

Bir dəfə bizdə fotofelyeton tipli material hazırlanmışdı. Bir səhifəlik – Bakının mənzərəsini korlayan eyvanlar haqqında. O vaxt özbaşına tikililərə, balkonların şüşəbənd edilməsinə qarşı mübarizə gedirdi. Bizim müxbir də bu cür özbaşınalığı əks edən təxminən 10 belə şəkil çəkmişdi. İki aya yaxın baş redaktor nə «hə», nə «yox» deyib materialı saxlayırdı. Orada konkret şəxslərin ünvanları, soyadları göstərilirdi, bir sözlə, material dedikcə kəskin alınmışdı. Okulov çox təmiz adam idi, ancaq həddən ziyadə ehtiyatlı idi. Nə etmək olar, onun öz həqiqəti var idi – böyük ömür yaşamışdı, çox şeylər görmüşdü. Biz isə cavan idik, özü də bir qədər ağına-bozuna baxmayan, haqsızlığa qarşı son dərəcə həssas. Xoşbəxtlikdən həyatımızın elə dövrünü yaşayırdıq ki, bu keyfiyyətlərə ehtiyac var idi.

Okulov növbəti dəfə harasa yola düşəndə, bütün bu neqativ material çapa getdi. Ertəsi gün ideoloji məsələlərlə bağlı plenum oldu, mən baş redaktorun əvəzinə orada iştirak etdim. Plenum axşam saat 7 ya 8-də qurtardı, mən oradan nəşriyyata getdim. Bir sözlə evə gecə saat on bir, on ikiyə işləmiş gəlib çatdım. O saat da həyat yoldaşım mənə deyir ki, Emil gəlmişdi, səni MK-dan axtarırlar, Heydər Əliyevin qəbul otağından zəng vurmuşdular. Mən Musabəyov qəsəbəsində, nəşriyyat işçilərinin binasında yaşayırdım. O vaxt «hava xətləri» çəkirdilər, bizim binamızda telefon yalnız Emil Ağayevdə, «Literaturnaya qazeta»nın xüsusi müxbirində, vardı. Qaçıram onlara. O da həyəcanlıdır. Deyir, ona tapşırıblar ki, məni təcili axtarıb tapsın. Verilən nömrəyə zəng vurub ehtiyatla soruşuram (fikirləşirəm ki, nə bilmək olar, bəlkə kimsə zarafat edib? ): «Heydər Əliyeviçin qəbul otağıdır?» – «Bəli». – «Mən Ramiz Tarıverdiyevəm, «Bakinski raboçidən». Məni kimsə soruşub?» – «Gözləyin». Qısa fasilədən sonra birdən dəstəkdə Heydər Əliyevin səsini eşidirəm: «Salam. Hə, neccəsən?» Məni soyuq tər basdı, görəsən mənimkilər orada nə oyun çıxarıblar? Mən iki gündür ki, plenumda oturmuşam, bugünki qəzeti heç əməlli-başlı görə bilmə-

mişəm. O isə, sən demə, həmin felyeton barədə zəng vurub. «Sizin felyetonu oxumuşam!» Fikirləşirəm ki, hə, qanım getdi! «Nə deyə bilərəm? Afərin! Onların dərsini yaxşı vermisiniz. Belə də lazımdır, təkrar edirəm, heç kimdən qorxmayın». Qərəz, mənə ürək-dirək verən başqa sözlər də dedi. Fərəhimdən bir neçə gün göyün yeddinci qatında idim.

Mənim yadıma gələni «Bakinski raboçi»nin tənqidi çıxışları dəfələrlə Büroda müzakirə olunmuşdu, onların əsasında nəticələr çıxarılmışdı. Bu materialları heç kim bizə «yuxarıdan» sifariş etmirdi. Heç kim də göstəriş vermirdi: bunu «vurmaq» lazımdır, bu birisini tənqid etmək. Əksinə, bəzən belə məqalələr arzuolunmaz olurdu.

Yadımdadır, Oleq Zeynalovun üç materialını dərc etmişdik. O bizdə ekologiya ilə məşğul olurdu və çox kəsərli yazırdı. Yazılarında Oleq o vaxt Şamxorda ad çıxarmış, böyük pullar gətirən brakonyerlik mexanizminin üstünü açmışdı. Məsələ ondadır ki, Şamxor SES-dən Kürün Mingəçevir su anbarına töküldüyü yerə qədər 16-17 kilometr məsafə var. Bir-iki saatlıq Şamxor SES-i dayandırırdılar, çay bu hissədə dayazlaşırdı, yük maşınlarını çəkib çapalayan balıqları yığırdılar və iki-üç yük maşınını oradan Gürcüstana ötürürdülər. Bu məqalə «Bakinski raboçi»də getmişdi. Məqalə Büroda müzakirə olundu, Şamxor raykomunun birinci katibinə o vaxt ciddi töhmət elan edildi, təsərrüfat rəhbərlərindən kimisə vəzifəsindən azad etdilər. Belə işlər tez-tez olurdu».

Olduqca ciddi nəticələrə gətirib çıxaran daha bir məqalə haqqında mənimlə olan söhbətində «Azərbaycan kommunisti» jurnalının keçmiş baş redaktoru Kamran Rəhimov xatırladı:

«Bir dəfə biz Ağdamda yerləşən və birbaşa Moskvaya, Müdafiə Nazirliyinə tabe olan iri avtomüəssisə rəhbəri haqqında çox kəskin material dərc etdik. Moskvanın havadarlığına arxalanan bu adam heç kimlə hesablaşmırdı, üstəlik respublikada da yüksək vəzifəli qohumları var idi. Məni hətta xəbərdar etmişdilər ki, bu materialı dərc etməyim, çünki başağrısından savayı heç nəyə nail ola bilməyəcəyəm. «Baş elə ona görədir ki, ağrısın», – deyə, cavab vermişdim. Məqaləni çap etdik. Budur, Bərdədə MK-nın birinci katibinin iştirakı ilə keçirilən hansısa müşavirədə – jurnalın həmin nömrəsi əldən-ələ gəzir. Məqaləni oxuyanlardan kimsə birinci katibin köməkçisi Arif Mustafayevə razılıqla deyir: «Ağdama sovet hökuməti hələ indi gəlib çatır». Heydər Əliyeviç Arif Mustafayevi çağırıb soruşur ki, o nədir orada hamı oxuyur. O da jurnaldakı məqaləni göstərir.



Bakıya qayıdandan sonra MK-nın birinci katibi məni yanına çağırdı. Dinlədikdən sonra MK katibi Həsən Seyidova göstəriş verdi ki, məsələni araşdırsın. Məqalədə gətirilən faktlar yoxlanılandan sonra Mərkəzi Komitənin Bürosu oldu, avtomobil sənayesi naziri, Ağdam rayon partiya komitəsinin birinci katibi işdən çıxarıldılar. Həmin adam isə cinayət məsuliyyətinə cəlb olundu. Sonradan eşitdim ki, o baş prokuror Qamboy Məmmədovun yaxın qohumudur. Artıq məqalə çap olunub «əsərin qəhrəmanı» cinayət məsuliyyətinə cəlb olunandan sonra əməkdaşlar mənə danışdılar ki, həmin adam onlara məqalənin çapa getməməsi üçün 25 min manat təklif edirmiş. Sonra məbləği 50 minə qaldırıb. «Gərək götürəydiniz, – dedim – banka təhvil verərdik».

Heydər Əliyeviç jurnalın hər çıxışına diqqətdə yanaşırdı. Heç vaxt tənqidi məqalələrə qarşı etiraz etmirdi, əksinə, tələb edirdi ki, belə məqalələr mümkün qədər tez-tez çıxsın. Çünki tənqid obyektivdirsə, yalnız işin xeyrinədir».

O illərdə «İzvestiya» qəzetinin Azərbaycan üzrə müxbiri işləmiş Elmira Əliyeva MK-nın birinci katibinin kütləvi informasiya vasitələri nümayəndələri üçün həmişə əlçatan olmasını xatırlayır:

«Hesab edirəm ki, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə işləyən müxbirlərin bu sarıdan bəxti yaman gətirmişdi.

Bununla bağlı bir maraqlı əhvalat danışım.

1969-cu il iyulun 14-də MK-nın plenumunda Heydər Əliyevi respublika partiya təşkilatının birinci katibi seçdilər. Bu hadisədən bir neçə gün sonra bizim qəzetdə Azərbaycanla bağlı dalbadal iki material getdi. Materiallardan biri müsbət səpkidə idi, Azərbaycanda ezamiyyətdə olmuş redaksiya əməkdaşı tərəfindən hazırlanmışdı, ikincisi isə – kiçik tənqidi replika idi, onu mən hüquqşünasla müştərək (mövzu tələb edirdi) respublikada rəhbərliyin dəyişməsindən iki ay qabaq yazmışdım, ancaq redaksiyanın çantasında xeyli vaxt qalmışdı. Budur, qərara gəlmişdilər ki, bu materialları çap etsinlər, özü də, təbii ki, pis fikirlə yox, əksinə, qəzet Azərbaycanın yeni partiya liderinin etimadını və yaxşı münasibətini qazanmaq istəyirdi. Ancaq əksinə alındı – hər iki məqalə Heydər Əliyevin kifayət qədər kəskin neqativ reaksiyasına səbəb oldu.

Mən məzuniyyətimi yarıda qoyub yeni birinci katiblə görüşmək, yaranmış vəziyyətə aydınlıq gətirmək qərarına gəldim. Onun qəbul otağına zəng vurdum. Az qala elə həmin gün «birinci»nin yanına gəlmək təklifi alanda heyrətləndim. Mənim üçün olduqca əlamətdar

olan, yeni rəhbərin şübhə və təəccüblərinə səbəb olmuş məqamlara aydınlıq gətirən söhbətimiz oldu, bununla da məsələ bitdi. Yadımdadır, birinci katibin belə açıqlığı, mətbuat nümayəndələri ilə birbaşa ünsiyyətə hazır olması və həvəsi, qarşıya çıxan problemləri operativ həll etməsi məni heyrətə gətirdi.

Bir müddət sonra MK-nın birinci katibi ilə daha bir görüşüm oldu. «İzvestiya»nın birinci səhifəsində vaxtaşırı respublikalar üzrə eyni başlıq altında məqalələr «toplusu» dərc olunurdu. Müəyyən vaxtdan sonra respublikamız qabaqcıllar sırasına çıxanda, keçici qırmızı bayraqlara layiq görüləndə və s. redaksiya mənə tapşırıq verdi ki, Azərbaycanın nailiyyətləri haqqında MK-nın birinci katibinin şərhi ilə material hazırlayım.

Heydər Əliyevin köməkçisinə zəng vurdum, köməkçi ona məruzə etdi və o saat razılıq aldı. Ancaq şəxsən mən o vaxtkı hadisədən sonra MK-nın birinci katibindən müsahibə ala biləcəyimə şübhə ilə yanaşırdım.

Heydər Əliyeviç materialları oxudu, məmnuniyyətlə şərh etdi və dedi: «Bax, bu başqa məsələ!». Onun göstərişi ilə söhbətdən sonra mənə telefon nömrəsi verdilər, bir problemlə üzləşəndə və ya dəqiq informasiya lazım olduqda, onunla birbaşa bağlayacaqdılar. Bu «qaynar xəttdən» bir-iki dəfə istifadə etməli oldum.

Adətən «İzvestiya»nın xüsusi müxbirləri perspektiv üçün iş planı hazırlayırdılar, mən də fikirləşdim ki, qabaqcadan birinci katiblə danışıb gələcək məqalələrin mövzu dairəsi ilə bağlı onun fikrini öyrənsəm o, məsləhət verə bilər, düşündüklərimə dəqiqlik gətirər. O vaxt rüşvətxorluqla, mənfi hallarla mübarizə başlamışdı, «İzvestiya» isə bu cür tənqidi materialları çap etməyə həmişə meyilli idi, ona görə də siyahımda kifayət qədər kəskin mövzular yer almışdı. Əlbəttə ki, bu başdan Heydər Əliyeviçin dəstəyini almaq yaxşı olardı, çünki onun nə dərəcədə ciddi rəhbər olduğunu və mətbuatda dərc olunan materiallara necə diqqətlə yanaşdığını artıq anlamışdım.

Bu dəfə də eyni operativliklə qəbul olundum. Məni çox diqqətlə dinlədi, demək olar ki, bütün mövzularla bağlı fikrini bildirdi – bu mənim üçün olduqca vacib idi. Sonra artıq mən bu proqramla işləyirdim.

Əlbəttə, mənim jurnalist təcrübəmdə müsbət ruhda yazılmış məqalələr, oçerklər, müsahibələr çox idi, ancaq müsbət yazılar axı yadda qalmır, tənqidi yazılar isə o saat gözə girir. Bir dəfə Nazirlər Sovetinin sədri Əli İzmayloviç İbrahimov mənə irad tutdu: «Bilirsiniz, Elmira, sizin barənizdə çoxları deyir: o yaxşı vətənpərvər



deyil». – «Niyə?» – ürəkdən təəccübləndim. «Necə niyə? Həmişə tənqid edirsən». Deyirəm: «Necə tənqid etməyim, əgər tənqid etməli nəsə varsa? Bir baxın, Heydər Əliyeviç mənfi hallarla mübarizədə necə böyük işlər görür, mən də məhz bu istiqamətdə yazıram. – Özümü təmizə çıxarmaq üçün uşaq kimi sadəlövhcəsinə söyləyirəm: – Yadınızdadır, Vladimir İliç Lenin nə deyib? «Nöqsanların kökünü kəsmək üçün, onları üzə çıxarmaq lazımdır». Bu şüar bizim Dzerjinski adına klubda səhnənin üstündə asılmışdı. Sonra mən başladım Əli İzmayloviçə öz müsbət materiallarımı sadalamağa, məsələn, Tahir Salahova, Mikayıl Abdullayevə, bizim ixtiraçılara, qabaqcıllara və b. həsr olunmuş oçerkləri. Məlum oldu ki, onların çoxunu o heç oxumayıb. Mənim məqalələrimin üçdə ikisi məhz müsbət ruhda idi.

Tənqidi məqalələrimin də sayı az deyildi. Məsələn, o vaxt Ayaz Mütəllibovun rəhbərlik etdiyi Bakı soyuducular zavodu haqqında. Onların buraxdığı məhsullar müntəzəm olaraq reklamasiyalar alırdı və şikayətlər nədənsə əsas etibarilə qəzetlərə, o cümlədən də «İzvestiya»ya gəlirdi. Onların da hamısını mənə göndərirdilər ki, məqalə ilə münasibət bildirim. Söz yox ki, bu cür materiallardan sonra orta qurum rəhbərlərində narazılıq əmələ gəlmişdi, lakin biz bütün plenumlarda və aktivlərdə aşkarlığa, obyektiv təhlilə və tənqidə çağıran Heydər Əliyevdən nümunə götürürdük».

Mərkəzi televiziya və ümumittifaq radiosunun Azərbaycan üzrə müxbir məntəqəsinin müdiri Mais Məmmədov, mənə Heydər Əliyevin fövqəladə yaddaşını bir daha təsdiqləyən çox maraqlı bir hadisə danışdı.

«Azərinformun təzəlikcə direktor müavini təyin olunmuş Asim Cəlilov agentliyin kənd təsərrüfatı şöbəsinin müdiri Vladimir Andreyevlə birlikdə zona müşavirəsini işıqlandırmaq üçün Bərdəyə yola düşürlər. Tədbir qurtarandan sonra Vladimir Yakovleviç deyir:

– Asim Quliyeviç, mən gedim, tez materialı yazıb gətirim.

Yazıb qayıtdı, Asim baxdı, ilk baxışdan hər şey qaydasında idi və həmişə olduğu kimi, fasilədə imzalamaq üçün Heydər Əliyevə təqdim etdi.

Beş dəqiqədən sonra qalmaqal düşdü. Sən demə Andreyev, ümumiyyətlə, protokol məlumatından ibarət olan informasiyanı, sözbəsöz Azərinformun ötən il verdiyi analoji məlumatdan köçürüb, təkcə rəqəmləri dəyişib. Sabirabadın yerinə isə Bərdə yazıb. Asimin axı bu işlərdən xəbəri yox idi.

Heydər Əliyev bərk hirslənmişdi:

– Bu nə deməkdir? Mənə keçənilki məlumatı sırıyırsınız?!

«Bu hal məni heyrətə gətirdi, – Mais Məmmədov söyləyir, – hamıya da dərs oldu ki, bu insanı elə belə aldatmaq mümkün deyil. Əlbəttə, Asimin başı daha çox ağrıdı, axı materialın üstündə imza onun idi».

Maisdən soruşdum ki, Mərkəzi televiziya ilə gedən süjetlərə «birinci» nəzarət edirdimi, ona müəyyən iradlar olurdumu?

«Belə iradlar olurdu – «Heç vaxt məni vəzifəli şəxslərlə çəkmə». Məsələn, nazirlə. Yadıma gəlir ki, bir dəfə Ağdamda güclü yağışa düşdük. Bütün şəhəri su basmışdı, heyvanlar qırılmışdı, dağıntı var idi. Mən bu barədə süjet çəkib Moskvaya göndərdim. Ertəsi gün material efirə getdi. «Vremya» proqramından sonra Brejnev zəng vurub soruşur:

– Sizdə Ağdamda nə baş verib?..

Sonra Heydər Əliyeviç mənə irad tutdu:

– Əgər belə material çəkirsənsə, köməkçilərimlə əlaqə yarat, məsələdən xəbərim olsun.

Ümumiyyətlə isə o heç vaxt yaradıcılıq məsələlərinə qarışmırdı. Hansısa materialı qeyd edə bilərdi, ancaq desin ki, mən nəyisə düz göstərməmişəm, yaxşı şərh etməmişəm – belə şeylər olmurdu. Azərinform – başqa söhbətdir, rəsmi dövlət orqanıdır. Bizim status hər halda bir qədər fərqli idi. Azərinform fotomüxbirinin heç ağlına da gəlməzdi ki, ona desin: «Heydər Əliyeviç, orada durun ki, üzüm tənəyi yaxşı düşsün». Ancaq operatorumun xahişi ilə mən deyirdim: «Heydər Əliyeviç, üzüm salxımı görünmür, mümkünsə bir qədər geri çəkilin».

Mən yaxınlaşıb xahiş edə bilərdim: «Heydər Əliyeviç, zəhmət olmasa, pencəyinizi soyunun». İsti az qala qırx dərəcəyə çatıb, onun əynində isə kostyum var, qalstuq taxıb. Mənə baxıb gülümsəyir, soruşur:

– Başqa heç nə soyunmaq lazım deyil?

– Xeyr, Heydər Əliyeviç, təkcə pencəyi.

O televiziyanı çox gözəl bilirdi, respublikanın həyatını ölkə miqyasında işıqlandıran reportajlarımızın rolu və əhəmiyyətini dəyərləndirirdi. Bundan əlavə, bəzən hesab edəndə ki, bu və ya digər hadisə xüsusilə vacibdir (bir dəfə Cəlilabadda belə olmuşdu) özü yaxınlaşıb soruşurdu:

– Bunu nə vaxt efirə verəcəksən?



– Bu gün şənbədir, sabah istirahət günü, deməli yalnız birinci gün gedəcək.

– Bu bizim üçün çox vacibdir, bu gün axşam özün get. – Və Üzümçülük Komitəsinin sədri Yunis Rzayevə göstəriş verirdi: – Onun üçün bilet sifariş ver, aeroporta qədər xüsusi maşınla təmin elə, qoy elə bu gün Moskvaya uçsun».

Daha bir xatirədən də parça vermək istəyirəm. O illər «Trud» qəzetinin xüsusi müxbiri olan Tünzalə Qasımova xüsusi olaraq bizim kitabımız üçün yazıb:

«Qəribədir ki, düz 25 il «Trud» qəzetinin Azərbaycan üzrə müxbiri olmağıma baxmayaraq, mənim əvvəlcə ittifaq respublikasının, sonra isə suveren dövlətin birinci şəxsi ilə, demək olar ki, görüşlərim olmayıb. Əlbəttə ki, bunun səbəbi yalnız qəzetin statusu ilə bağlı deyil – çox nüfuzlu, bir ara hətta SSRİ-də ən böyük tiraja malik olsa da, hər halda partiya qəzeti deyildi, deməli «ikinci dərəcəli» idi. Mənim öz «günahım» da az deyildi – kəskin ehtiyac olmadan yüksək ünsiyyətlər aramağın lüzumsuz olduğunu daxilən həmişə hiss edirdim.

Hər halda «kəskin ehtiyac» tez-tez olmurdu. Heydər Əliyevlə bağlı isə – barmaqla sayılan qədər. Və ilk dəfə – dilə gətirmək çətindir – az qala qırx il öncə. 1968-ci il idi. Oktyabr ayı. Lenin komsomolu 50 illik yubileyini bayram edirdi. Azərbaycan LKGİ MK-nın keçirdiyi yubiley tədbirləri sırasına gənclərin vətənpərvərliyi mövzusunda respublika seminarı da salınmışdı. Həmin bu seminara əsas məruzəçi qismində Azərbaycan DTK-sının sədri general-mayor Heydər Əliyev dəvət olunmuşdu.

Üstündən çox vaxt keçdiyinə görə indi yada sala bilmirəm hansı səbəbdən təşkilatçılar işləri korlamışdılar. Ola bilsin ki, bu tədbiri hazırlamağa bayramqabağı tələsiklikdə artıq gücləri qalmamışdı: Zabitlər evinin kiçik zalını belə adamla doldura bilməmişdilər. Beş-on nəfər komsomolçu, bir də mən, «Molodyojka»nın müxbiri – auditoriya elə bundan ibarət idi.

Təzə DTK sədrini – o, respublikanın xüsusi xidmət orqanlarının rəhbərliyinə bir il qabaq gəlmişdi, bu mühüm postu tutan ilk azərbaycanlı idi – əvvəllər də görmüşdüm, ancaq uzaqdan. Heydər Əliyevin mənzili indiki Azərbaycan prospektində, qəşəng boz binanın üçüncü mərtəbəsində yerləşirdi. Həyat yoldaşımın valideynləri üzbəüz binada, özü də üçüncü mərtəbədə yaşayırdılar, pəncərələri qarşı-qarşıya idi. Biz küçənin o biri tərəfi ilə onun işdən qayıtmasını

tez-tez görürdük. Hündürboy, qəşəng, baldızımı heyran edən qıvraq yerişli gənc general sanki ətrafa qüvvət və inam saçırdı. Bu təəssürat yaxından qat-qat güclü oldu.

DTK rəhbərinin seminar təşkilatçıları barəsində nə düşündüyünü deyə bilmərəm, ancaq nə baxışı, nə hərəkəti ilə heç bir narazılıq bildirmədi. Təxminən qırx dəqiqəlik məruzə – kağızsız, sinədən, çox tez məlum olacaq ki, bu da onun üçün adi haldır – auditoriyanın azsaylı olmasına güzəştə getmədən edildi.

Yenə detallar fikrimdə qalmayıb, lakin hiss və düyğular bu günə qədər təravətini saxlayıb – zahirən olduqca təmkinli, hətta emosiyalardan uzaq söhbət son dərəcə maraqlı idi. Əvvəllər rəsmi şəxslərin belə çıxışlarını eşitməmişdik. Məruzədən sonra ona yaxınlaşdım, özümü təqdim edib qəzet üçün müsahibə barədə xahiş etdim. İndiki gənc həmkarlarım heç ağlına belə gətirə bilməzlər ki, o vaxtkı etik normalara görə, mənim hərəkətim nə dərəcədə yolverilməz qəbul edilməli idi. Sıravi müxbirin bu cür xahişlə belə yüksək rütbəli rəhbərə müraciət etməyə sadəcə olaraq ixtiyarı yox idi – belə məsələlər tam başqa səviyyədə həll olunurdu. Heydər Əliyev, yalnız ona xas olan diqqətli nəzərlərlə məni süzdü – sanki rentgen şüalarından keçirtdi və gözlənilmədən gülümsündü. Yaxşı gülüş idi – açıq, eyni zamanda bir qədər müəmmalı: «Yaxşı, mən tapşıraram, qəbul otağıma zəng vurun və suallarınızı göndərin».

Ancaq redaksiyada gələcək müsahibə barəsində qalibanə xəbər gözlənilən effekti vermədi. «Bərəkallah, – redaktorumuz könülsüz dilləndi. – Muğayat ol, sənin özünü «müsahibə» üçün aparmasınlar».

Təbii ki, məni heç yerə aparmadılar: insanların düşüncəsində DTK xofu instinkt səviyyəsində qalsa da, hər halda zəmanə başqa idi. Qəbul otağındakı nəzakətli cavanla zəngləşib suallarımı göndərdim. İntizarlı günlər başlandı. Sonra həftələr. Sonra aylar. Yarım ildən sonra məlum oldu ki, məsələ təkcə sədrin son dərəcə məşğul olmasında deyil: 1969-cu ilin iyulunda Heydər Əliyevi Azərbaycan KP MK-nın birinci katibi seçdilər. Və müsahibə ilə bağlı problem avtomatik olaraq götürüldü.

O vaxt mən, əlbəttə, ağlıma belə gətirə bilmezdim ki, bu əhvalatın gözlənilməz davamı olacaqdır. Daha doqquz il keçdi. O vaxt mən artıq üç il idi ki, «Trud» qəzetində çalışırdım. Xüsusi müxbirin vəzifəsi yalnız qəzeti materialla təmin etməkdən ibarət deyildi. Digər vəzifələr sırasına – hamısının adını çəkməyəcəyəm – «ikinci gün seminarları»nın keçirilməsi də daxil idi. Bunun nə demək olduğunu başa salmaq hələ o vaxtlar da asan deyildi, indi isə yəqin heç mümkün deyil. Ancaq əslində çətin bir şey yoxdur. Seminar – bu aydındır, o ki, qaldı «ikinci günə», bu da ona görədir ki, tədbir məhz həmin günlər keçirilirdi. Təbii ki, hər həftə yox. Hər regionda da yox. Bu hüququ hələ qazanmaq lazım idi, tanış olmaq üçün bütün dünyadan adamları dəvət etməyinə dəyən hər hansı bir qabaqcıl təcrübə ilə: ümumittifaq seminarına – SSRİ-nin müxtəlif kənd və şəhərlərindən, beynəlxalq seminara isə – müvafiq olaraq xaricdən. Sonra bu hadisəyə adətən dörd səhifədə çıxan qəzetdə ikisəhifəlik xüsusi əlavə həsr olunurdu. Mənim «Trud»da işlədiyim 25 il ərzində Azərbaycan bu şərəfə – rişxəndsiz deyirəm – iki dəfə layiq görülmüşdü: birinci dəfə – Bakı, ikinci dəfə – Gəncə.

Bu qədər uzun müqəddimə ona görə lazım idi ki, tədbirin yerli maraqlar nöqteyi-nəzərindən də nə qədər məsuliyyətli və mühüm olması başa düşülsün. Həm də 1977-ci ilin mayında, seminarın Bakı kondisionerlər zavodunda keçirilməsi təklifi Moskvada bəyənilməndən sonra, mənim üzərimə nə qədər iş töküldüyünü təsəvvür etməkdən ötrü. Üstəlik redaksiyada qərara alındı ki, BMKZ kimi müasir müəssisənin yaradılması və uğurlu fəaliyyəti xarici ölkələrin diqqətinə də layiqdir. «Trud» qəzetinin tərəfdaşı qismində ADR həmkarlar ittifaqlarının orqanı olan «Tribyun» seçildi. Bir xeyli qonaq yığılmışdı, «Tribyun» və «Trud»un baş redaktorları da onların cərgəsində idi – Klaus Henrix və Aleksandr Subbotin. Heydər Əliyev yalnız onları yox, bütün nümayəndə heyətini tam tərkibdə qəbul etdi – bu addımında onun mətbuata olan münasibəti tam aydınlığı ilə özünü göstərdi.

O bizi hələ MK-nın köhnə binasındakı kabinetində, bir-bir əl tutaraq qarşıladı. Mənim növbəm yetişəndə, o bir an baxışlarını ləngidib, çox astadan, sanki özü-özünə söylədi: «Molodyoj Azerbaydjana?». Söz yox, o əlbəttə, bilirdi ki, mən artıq «Trud» qəzetindəyəm – bizi adbaad təqdim edirdilər. Sadəcə olaraq o bir anlığa öz fenomenal yaddaşının dərinliklərindən doqquz il bundan qabaqkı o qısa görüşü çıxarıb yarısualla təsdiqlədi.

Sonralar hər birimizin Heydər Əliyevin hüzurunda ən məşhur adamların özlərini necə itirdiklərini və gərginlik keçirdiklərini müşahidə etmək imkanı olub. İlk baxışdan heç bir qüvvə sərf etmədən, o hamını özünü daxilən yığışdırmağa məcbur edirdi – bu, şəxsiyyətin inanılmaz, izaha gəlməyən qüdrəti idi. O gün mən ilk dəfə bunun şahidi oldum. Heydər Əliyev özünü mehriban, səmimi aparırdı, qonaqları sorğu-suala tuturdu, cavablara diqqətlə qulaq asırdı, özü

danışırdı – qonaqlar isə sanki ağızlarına su almışdılar. Sov. İKP MK, ÜHİMŞ rəyasət heyəti və bir çox nüfuzlu təşkilatların üzvü olan hər şeyə qadir baş redaktorumuzu heç vaxt bu qədər utanan görməmişdim.

Görüşdən sonra, Mərkəzi Komitənin qarşısındakı küçədə, Subbotin nəfəsini dərib əsəbi halda gülümsədi. «Hə, nə deyim. Çoxdan belə həyəcan keçirməmişdim». Klaus Henrix, Şərqi Almaniyada yüksək vəzifə və böyük nüfuz sahibi, bununla belə olduqca təmiz və bir qədər də sadəlövh insan (Moskvaya gəlib hər yerdə «Slava trudu» (Əməyə eşq olsun) şüarlarını görəndə təəccüblə Subbotinə demişdi: «Mən heç bilmirdim ki, sənin qəzetin bu qədər populyardır») özünü heç də az itirməmişdi, çaşqın halda başını tərpədib həmkarı ilə razı olduğunu bildirirdi. Subbotin bir qədər susandan sonra məndən soruşdu: «O sənə nə deyirdi, başa düşmədim». Mən müsahibə ilə bağlı həmin o köhnə əhvalatı qısaca danışdım. O yenə bir qədər susdu, sonra dalğın-dalğın dilləndi: «Fövqəladə, fenomenal insandır».

Mövzunun yekununda indi çox az adamın bildiyi bir faktı da yada salacağam. 70-ci illərdə sovet jurnalistlərinin əksəriyyəti üçün «kompüter», «displey» anlayışları, informasiyanın hazırlanması və ötürülməsinin digər texnoloji vasitələri fantastika aləmindən olan möcüzələr kimi idi. Qəzet və jurnalların redaksiyalarında son günlərini yaşayan yazı makinaları işlədilirdi, «qaynar» xəbərlərin çatdırılması isə teletayp lenti və ya stenoqrafçı qızların köməyi ilə həyata keçirilirdi. Moskvadan sonra «kağızsız texnologiya» ilə informasiyanın ötürülməsi ilk dəfə məhz Bakıda tətbiq olunmuşdu. Olimpiada-80-nin ərəfəsində, SİTA (TASS) bu sistemə keçən zaman Heydər Əliyevin göstərişi ilə Azərinformun kompüterlə təchiz olunması üçün o vaxt çox çətin tapılan 500 min manat qızıl valyuta ayrılmışdı. Artıq bir-iki ildən sonra Azərbaycanın milli informasiya agentliyi SSRİ-də birincilər sırasında o vaxt üçün ən yeni olan İKT sisteminə keçdi. Ölkə miqyasında ilk baxışda azəhəmiyyətli görünə bilən bu epizod, Heydər Əliyevin yeniliyə qarşı nə qədər həssas olmasına, həyatın ən müxtəlif sahələrində gələcəyi necə kəskin hiss etməsinə dəlalət edir.



## Zəhmətkeşlərin məktubları ilə iş

Vəli Axundovun dövründə hər ay MK-ya 100-200 məktub gəlirdi. Avqust plenumundan sonra bu axın kəskin artdı – 3-5 minə qədər. 1969-cu ilin axırına yaxın isə ayda 10 min məktubu keçdi. Yəni respublika əhalisi inandı ki, rəhbərlik həqiqətən onların problemi ilə məşğul olacaq və müraciətlərində qaldırdıqları məsələləri həll edəcəkdir.

Heydər Əliyevin hələ DTK illərindən qalmış adəti var idi – bütün məktublarla şəxsən tanış olmaq. Belə olan surətdə, bu qədər böyük məktub axınını «həzm» etmək iqtidarında olmayan ümumi şöbə, rayon və şəhər komitələrindən iki dil bilən partiya işçilərini kömək üçün dəvət etməyə başladı. 1969-cu ilin oktyabrında zəhmətkeşlərin məktubları ilə işləmək üçün dəvət olunanlardan biri də sonradan ümumi şöbəyə dəyişilən Rafael Allahverdiyev oldu. Həmin dövrü o belə xatırlayır:

«Biz məktubları oxuyurduq, hər birinə qısa xülasələr yazırdıq. Onlar «birinciyə» göndərilirdi. O xülasələrlə tanış olurdu və əgər məktub onda maraq doğurursa onu bütövlükdə oxuyurdu və dərkənar qoyurdu.

**– Belə çıxır ki, Heydər Əliyev ayda bir neçə min məktubla tanış olurdu? Qoy lap yalnız xülasələr olsun.**

– Təsəvvür edin. Arxivlərdə onun dərkənarı olan bütün bu məktublar saxlanmalıdır. Belə «əks əlaqənin» nəticəsində biz qısa müddətdə əhali ilə iş aparılmasında qayda-qanun yaratdıq. Raykomların, şəhər komitələrinin katibləri nəhayət camaatla ünsiyyətdə olmağa başladılar. Buna qədər onlar tamamilə insanlardan ayrı düşmüşdülər. Orta qurum rəhbərləri bəzən bilmirdilər ki, defisit malları mağaza müdiri kimə satır, evlər müdiri, «jek» müdiri nə işlə məşğuldur. Heydər Əliyev qayda qoydu – ən azı ayda bir dəfə vətəndaşların qəbulunu aparmaq. Partiya işçiləri öz rayonlarının problemlərinə yaxın oldular, ona görə də məsələlər həll olunmağa başladı. Dəyişikliklər özünü çox gözlətmədi, çünki xalq birinci katiblə həmfikir oldu, onun təşəbbüslərini dəstəklədi»

Lidiya Rəsulova Azərbaycan KP MK Təftiş komissiyasının sədri kimi partiya orqanları, nazirlik və idarələrin zəhmətkeşlərin məktubları ilə işinə nəzarət edirdi.

«Biz vaxtaşırı rayonlarda olurduq, – Lidiya Xudatovna xatırlayır, – vətəndaş qəbulunun təşkil olunması, onun neçə vaxtdan bir

keçirilməsi, qəbula neçə adamın yazılması, yazılma qaydaları, bəzi adamların hətta bir neçə müraciətdən sonra qəbula niyə düşə bilmədiyi ilə maraqlanırdıq.

Yadıma gəlir, məlum oldu ki, Bakı Soveti icraiyyə komitəsinin sədri Aydın Məmmədov çox az adam qəbul edib, Naxçıvan vilayət partiya komitəsinin birinci katibi Kamran Rəhimovun qəbulunda isə bir ayda cəmi iki nəfər olub. Biz partiya rəhbərlərinin bu cür işinə müvafiq qiymət verirdik.

Heydər Əliyeviç qurultayda hesabat təqdim etməyimi gözləmədən məni yanına çağırırdı. Əhali ilə işin aparılmasından, zəhmətkeşlərin şikayətlərindən danışmağımı xahiş edirdi. Respublika müşavirələrində, plenumlardakı çıxışlarında partiya rəhbərlərini lovğalıqda, xalqdan uzaqlaşmaqda tənqid edərkən tez-tez mənim verdiyim informasiyadan istifadə edirdi. O deyirdi:

– Siz kimin hesabına yaşadığınızı başa düşmürsünüz. Onlar istehsal edir, siz isə bəhrələnirsiniz. Nəhayət, vicdanınız olsun, onları dinləyin».

Mais Məmmədovun fikrincə SSRİ-də xalqla açıq ünsiyyət üslubunu ilk dəfə Qorbaçov yox, Heydər Əliyev tətbiq etmişdir:

«Heydər Əliyeviç bazarları gəzir, qiymətlərlə maraqlanırdı. Əlbəttə ki, hamı o saat aşağı salınmış qiymətlər deyirdi. O köməkçilərindən birinə tapşırırdı:

– Zəhmət olmasa yoxla, bir üç saatdan sonra yenə gəl, gör qiymətlər necədir.

O gün satıcılar daha qiymətləri qaldırmırdılar.

Heydər Əliyev xüsusən bayramqabağı xalqın qarşısına çıxmağı xoşlayırdı. Və mütləq alverçiləri «tuturdu». Müxtəlif iqlim zonalarından olan məhsulların yığıldığı piştaxtaya yaxınlaşıb soruşurdu:

– Deməli, sən alverçisən?

Satıcı and-aman edir ki, bunların hamısı öz həyətindəndir, ancaq Heydər Əliyeviç etiraz edir: ola bilməz ki, həyətdə həm fındıq, həm lobya, həm də ərik bitsin. Satıcı bilmirdi canını hara qoysun.

O, yolüstü xəstəxanaya da deyə bilərdi, şahmat məktəbinə də. O vaxt respublikada şahmat məktəbləri göbələk kimi əmələ gəlmişdi, yeri gəlmişkən, bu da onun təşəbbüsü idi. O içəri girib uşaqlardan soruşurdu ki, nə vaxtdan burada məşğul olursunuz. Biri cavab verirdi:

– Beş aydır.

O birisi deyirdi:



– Mən ilyarımdır.

Yəni araşdırırdı ki, bu «qurğu» deyil, uşaqları onun gəlişi üçün buraya yığmayıblar.

Belə səfərlər daim olurdu, bu da məmurları gərginlikdə saxlayırdı».

## «Biz insanlardan heç nəyi gizlətmirik»

Bu sözləri partiya konfranslarının birində Heydər Əliyev söyləmişdi. O əmin idi ki, xalqla açıq danışmaq lazımdır, o zaman iş də yaxşı gedər, nöqsanların da sayı azalar. H.Əliyev Azərbaycan partiya təşkilatının rəhbərliyinə gələndə, plenum və müşavirələrdəki çıxışları qəzetlərdə ixtisarsız çap olunmağa başladı. Vəli Axundovun vaxtında belə çıxışlar «tam məxfi» qrifi altında gedirdi. Rayon və şəhər partiya komitələrinə ən yaxşı halda növbəti plenum haqqında stenoqrafik hesabatdan ibarət qırmızı kitabçalar göndərilirdi. Hakimiyyət Olimpində gedən proseslərdən xalqın xəbəri yox idi.

1969-cu ildə H.Əliyevin məşhur məruzəsi ilk dəfə olaraq bütünlüklə çap edildi və o vaxtdan bu, ənənə halını aldı.

«SSRİ miqyasında aşkarlığı birinci dəfə o tətbiq etdi. Heydər Əliyev hər işi açıq görürdü: məsələn, yüksək vəzifəli partiya xadimini işdən götürürdü və öz qərarının motivlərini izah edirdi. Hətta Xalq Nəzarəti Komitəsinin materialları da dərc olunurdu. Yəni, nöqsanlar barədə informasiya artmışdı. Xalq da iqtidara inandı. KP MK-da belə təcrübə tətbiq olunurdu: hər yarımildə MK-ya daxil olmuş zəhmətkeş məktub və ərizələrinin icmalı verilirdi. Onlardan birinci katibin dərkənarı ilə bu qədər, katiblərin dərkənarı ilə bu qədər və s. Bu qədəri öz müsbət həllini tapmışdır, bu qədəri yox. Əgər «yox», səbəbini göstərmək lazım idi. Bu hesabat MK Bürosunda müzakirə olunduqdan sonra orta və aşağı partiya təşkilatlarına göndərilirdi. Bunun əsasında zəhmətkeşlərin ərizə və məktublarında göstərilmiş arzu və təkliflərin yerinə yetirilməsi üçün Azərbaycan KP MK-nın tədbirləri haqqında qərar hazırlanırdı.

*(Rafael Allahverdiyevlə olan söhbətdən)*

«Əliyev xalqla, partiya həmkarları ilə təmas qurmağın tamamilə yeni üslubunu tətbiq etmişdi. Real vəziyyətin təsvirində sərt həqiqət və tam şəffaflıq. Bu çıxışlarda, Əliyevdən qabaqkı respublika katiblərinin məruzələrində olduğu kimi müsbət cəhətlər deyil, nöqsan-

lar, çatışmayan cəhətlər ön plana çəkilirdi. Respublika rəhbərinin xalqla adət edilməmiş açıq və birbaşa söhbəti. Əliyev vəziyyətin həqiqi durumunu göstərmək, xalqda məsuliyyət hissi oyatmaq və neqativ hallarla mübarizədə əl atmağa məcbur olduğu sərt aksiyalara bəraət qazandırmaq istəyirdi»[1].

Kitabın əvvəlki fəsillərində söhbət açdığımız «Fəal həyat mövqeyinin formalaşması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri» mövzusunda keçirilən Ümumittifaq konfransdakı nitqində Heydər Əliyev aşkarlıq sahəsində Azərbaycan partiya təşkilatının qazandığı uğurları xüsusi qeyd edirdi:

«Biz kommunistlərin, bütün əhalinin partiya təşkilatının neqativ hallara, kommunist mənəviyyatının antipodlarına qarşı apardığı mübarizədən xəbərdar olması üçün kütləvi informasiya vəsitələrinin imkanlarından istifadə olunmasına mühüm əhəmiyyət veririk. Geniş xalq kütlələri mətbuat vasitəsi ilə qazanc məqsədi ilə vəzifəsindən sui-istifadə edənlərə, tamahkarlıq, rüşvətxorluq, xalq malını oğurlamaq və digər cinayətlərlə məşğul olanlara qarşı partiya komitələri, xalq nəzarət orqanları, milis, prokurorluq, məhkəmə orqanlarının fəaliyyəti haqqında məlumat alırlar. Təcrübə göstərir ki, aşkarlıq – idarəetmə orqanlarının səmərəli işləməsi, kommunist tərbiyəsinin səmərəliliyi, sosialist demokratiyasının təkmilləşməsi, keçmişin qalıqları ilə mübarizə aparmaq üçün ən əməli vasitələrdən biridir. Bu isə o deməkdir ki, kütlələr partiya təşkilatının prinsipial mövqeyini biləndə, görəndə ki, o, xalqdan heç nə gizlətmir, bu onların sosial aktivliyinin artmasına xidmət edir».

Həsən Həsənovun fikrinə görə 70-ci illərin partiya aparatının iş üslubu 60-cı illərin üslubundan kəskin fərqlənirdi:

«Mən müqayisə edə bilirəm, çünki Heydər Əliyevdən qabaq MK və komsomolda işləmişdim. Ondan əvvəl etalet üstünlük təşkil edirdi, işə can yandırma, dinamizm çatışmırdı, tək-tük fəal işçilər, entuziastlar isə çətin ki, ümumi atmosfer yarada bilərdilər. Düzdür, o vaxt da neqativ hallarla mübarizə aparılırdı, kimi isə işdən çıxarırdılar, cəzalandırırdılar, lakin bunun hamısı sistemli, ardıcıl xarakter daşımırdı. Yalnız kollektiv səylər nəticəsində dönüş yarana bilərdi. Heydər Əliyevin rəhbərlik üslubunun fərqli cəhəti onda idi ki, o mənəvi-siyasi təmizləmə işini aşkarlıq şəraitində, ictimai rəyi nəzərə alaraq həyata keçirirdi; o cəmiyyəti birləşdirməyə və əsaslı dəyişikliklərə yönəltməyə nail oldu. O, öz prinsip və hərəkətlərində ardıcıl idi. Ona görə də Qorbaçov aşkarlıq siyasətini elan edəndə, biz deyirdik ki, bu bizim üçün yenilik deyil. Azərbaycanda aşkarlıq



çoxdan, 15 ildir ki, vardır. Bu aşkarlığı sovet cəmiyyətinin həyatına daha təbii və mükəmməl şəkildə məhz Heydər Əliyev gətirmişdi».

Bu gün ictimai rəyi öyrənən mərkəzlərin yaranması, müxtəlif sosioloji sorğuların keçirilməsi və s. olduqca dəbdədir. Ancaq çoxları bilmir ki, SSRİ-də belə mərkəzlərdən ən birincisi hələ 70-ci illərdə məhz Azərbaycanda yaradılmışdı.

Bu barədə mənimlə söhbəti zamanı partiya MK-sının təbliğat və təşviqat şöbəsinin keçmiş müdiri Əfrand Daşdəmirov xatırladı:

«Bu Heydər Əliyeviçin öz ideyası idi, o deyirdi: «Biz ki, hər işi ictimai rəyi nəzərə alaraq, ona arxalanaraq görürük. Bu təcrübə niyə ümumiləşdirilmir?» Elə həmin vaxt da MK nəzdində İctimai Rəyin Öyrənilməsi və Sosioloji Tədqiqatlar Mərkəzinin yaradılması ideyası yarandı. Biz respublikada öz sosioloji komandamızı, əslində bütöv bir sistem yaratdıq. Ən aktual mövzularda – çörəyin qiyməti, korrupsiya problemləri, səbiyyə, ali məktəblərə qəbul – bakılılar arasında telefon sorğularından başlayaraq (bu bizim təcrübəmizdə ilk dəfə həyata keçirilirdi), müxtəlif aksiyalar keçirirdik. Bu işə tədricən digər şöbələr də qoşuldu. Bakının bütün iri müəssisələrində sosioloji xidmət təşkil edirdik, sosioloq ştatları açmışdıq. Çoxlu maraqlı işlər görürdük. Tədqiqatların nəticələrini dərc edirdik. Biz bu işi aparatın özündə və ondan kənarda yaradılan əngəllərə, qarşıdurmalara baxmayaraq, Heydər Əliyevin sayəsində görə bilirdik. O bizi sadəcə olaraq dəstəkləmirdi, o bu tədqiqatlara arxalanırdı, onlardan faydalanırdı. Bu öz təsdiqini partiya qərarlarında, respublika rəhbərinin keçirdiyi irimiqyaslı aksiyalarda tapırdı».

*1982-ci il fevralın 12-də Azərbaycan boru-prokat zavodunun kollektivi qarşısında çıxış edərkən, H.Əliyev ictimai rəyin öyrənilməsinin mühümlüyünü xüsusilə vurğuladı. Bundan bir gün qabaq Azərbaycan KP MK-nın ictimai rəyin öyrənilməsi və sosioloji tədqiqatların aparılmasına dair qərarı qəzetlərdə dərc edilmişdi. Fəhlələr bu qərarın hansı zərurətdən doğmasını H.Əliyevdən soruşdular.*

*O, cavabında dedi ki, öz işində həmişə kütlələrin rəyinə, onların dəstəyinə arxalanıb, ələlxüsus neqativ hallarla mübarizə, zəhmətkeşlərin mənəvi tərbiyəsi ilə bağlı tədbirlərin həyata keçirilməsində. İki misal çəkdi. 1981-ci ilin avqustunda Bakının Nərimanov rayonunun inzibati orqanlarının işində ciddi qüsurlar aşkar olunmuşdu. Qərar dərc ediləndən sonra İctimai Rəyin Öyrənilməsi və Sosial Tədqiqatlar Mərkəzi mətbuat vasitəsilə xalqa müraciət edib qaldırılan məsələ-*

*lərə münasibət bildirməyini, arzu və təkliflər göndərməyini xahiş etdi. Çağırışa 6 min cavab gəldi, xüsusilə də hüquq-mühafizə orqanlarının işinin yaxşılaşdırılması istiqamətində. Məktublar əsasında Kirov rayon daxili işlər şöbəsində bir neçə rüşvətxor ifşa olundu.*

*Respublikanın səhiyyə müəssisələrində müalicədə olan xəstələr arasında aparılan anket sorğusunun nəticələri əsasında isə Bakı şəhərindəki bir sıra xəstəxana və poliklinikada böyük nöqsanların üzə çıxarılması mümkün oldu.*

*Buradaca Heydər Əliyev bəyan etdi ki, ictimai rəyi öyrənən orqan respublikanın bütün iri müəssisələrində olmalıdır.*

Sosioloji sorğuların keçirilməsini MK-nın təşkilati-partiya işi şöbəsinin keçmiş müdiri Ramiz Mehdiyev də xatırlayır.

«1981-ci il yanvar ayının sonlarında Azərbaycan Kommunist partiyasının XXX qurultayı oldu. Forumun ikinci günü, təşkilati məsələlər həll olunan zaman Heydər Əliyev məni yanına çağırdı. Söhbət elə orada, qurultayın keçirildiyi Lenin adına Sarayda oldu. Heydər Əliyeviç dedi ki, qurultayın fasiləsində Büronun iclası olmuş, mənim MK tərkibinə, Büro üzvlüyünə namizədliyə və təşkilati-partiya şöbəsinə müdir seçilməyim barədə qərar qəbul olunmuşdur. 1983-cü ilin dekabrına kimi bu vəzifədə çalışdım.

Şöbə müdiri qismində işim barəsində çox danışmaq istəmirəm. Bəlkə də təvazökarlıqdan kənar səslənəcək, ancaq qeyd etməliyəm ki, şöbə partiya nizamnaməsinin tələb etdiyi kimi həqiqətən aparıcı quruma çevrildi. Özümdən əvvəlki müdirdən xeyli cavan idim, yeni ideyalar, təşəbbüslərlə gəlmişdim. Şöbəni xeyli dərəcədə təzələməli, yeni kadrların gəlməsini təmin etməli oldum, bu da işimizə məlum dinamiklik gətirdi.

Məsələn, şöbəmiz Azərbaycanda partiya təşkilatı tərkibinin sosioloji təhlilini apardı. Respublika Kommunist partiyasının tarixində heç kim belə dərin tədqiqat aparmamışdı. Nəticədə qarşımızda xeyli çətin məsələ durdu: əvvəllər yol verilmiş və kökü Moskvadan gələn əyintiləri düzəltmək. Sov.İKP MK-da hesab edirdilər ki, Kommunist partiyasının say tərkibi 70-80 faiz fəhlələrdən, müəyyən faizi kolxozçu kəndlilərdən, cüzi hissəsi isə ziyalılardan ibarət olmalıdır. Bu nisbət respublikadakı real vəziyyəti əks etdirmirdi, axı bizdə Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafına böyük töhfələr vermiş güclü ziyalı kadrları yetişmişdi. Tədqiqat aparandan sonra, mən məsələni katibliyə çıxartdım. Heydər Əliyeviç bəyəndi, dedi ki, bu çox dəyərli, sanballı təhlildir. Biz bu yolla getməliyik,



partiyada ziyalı təbəqəsini artırmalıyıq. Müstəqil işləməyə başladıq, ancaq çox keçmədi ki, Moskva bizi «ilişdirdi». Aylıq hesabatlarımızdan Sov.İKP MK-dakı kuratorlar hiss etdilər ki, ziyalılar sırasından olan kommunistlərin sayı artmağa başlayıb. O dəqiqə başımızdan vurdular: «Özfəaliyyəti dayandırın! Sizə kvota göndərilir, onun əsasında da işləyin». Ancaq əlaltından biz «öz işimizi» davam etdirirdik...».

1982-ci il noyabrın 2-də Bakıda Gürcüstan, Ermənistan və Azərbaycanın partiya komitələri katiblərinin Sov.İKP MK təbliğat şöbəsi tərəfindən təşkil olunmuş elmi-praktiki konfransı işə başladı. Konfrans ictimai rəyin, kütlələrin əhval-ruhiyyəsinin, insanları narahat edən kəskin məsələlərin öyrənilməsi təcrübəsinə həsr olunmuşdu. Heydər Əliyev konfransın açılışında çıxış etdi, ictimai rəyin öyrənilməsi təcrübəsindən, xalqla, əhali ilə qarşılıqlı əlaqə yaradılmasının təşkilindən söz açdı:

«... Bizdə, Azərbaycan KP MK-nın nəzdində ictimai rəyin öyrənilməsi və sosioloji tədqiqatlar üzrə xüsusi Mərkəz vardır. Respublikanın yüzdən artıq təşkilatında sosioloji tədqiqatlar aparan xidmət mövcuddur. Bütün rayon, şəhər, vilayət partiya komitələrində, ilk partiya təşkilatlarında sosioloji tədbirlər keçirmək yolu ilə ictimai rəyin dərindən öyrənilməsi sahəsində iş aparılır...».

Bu konfransda Heydər Əliyev bəyan etdi ki, respublika partiya təşkilatının kütlələrlə apardığı işin ən mühüm prinsipi aşkarlıqdır: «Azərbaycan partiya təşkilatının iş təcrübəsi göstərir ki, burada müxtəlif vasitələri bacarıqla birləşdirmək vacibdir, yəni həm sosioloji tədqiqatları, həm də əhalinin ayrı-ayrı təbəqələri arasında keçirilən sorğuları, görülən tədbirlərin, xüsusilə onların nəticələrinin geniş **aşkarlığını** (seçmə bizimdir – ***E.A***) təmin etmək lazımdır...

Biz insanlardan heç nə gizlətmirik, bütün tədbirlərimizi, Mərkəzi Komitənin, Nazirlər Sovetinin ictimaiyyət üçün mühüm əhəmiyyət kəsb edən, o cümlədən ayrı-ayrı təşkilatların fəaliyyətindəki neqativ tərəfləri, vəzifəli şəxslər tərəfindən buraxılmış nöqsanları və səhvləri, sui-istifadə faktlarını, cinayət təzahürlərini əks edən bir çox ən mühüm qərarlarını açıq elan edirik. Bu, insanların siyasi, əmək fəallığının artmasında müstəsna rol oynayır... qarşılıqlı etimadlılıq mühiti yaradır, bu və ya digər məsələylə bağlı insanların əsl fikrinin üzə çıxması və ifadə olunmasına kömək edir»[2].

*Azərbaycan KP MK katibinin o vaxt üçün inqilabi sayılan eksperimentləri, o cümlədən ictimai rəyin öyrənilməsi, insanlarla dialoqun*

*qurulması, cəmiyyətin həyatındakı neqativ hallar barədə açıq söhbətlər qonşu respublika, ölkə və vilayət partiya təşkilatlarında qısqanclıqla öyrənilirdi. O cümlədən də Stavropol ölkə partiya komitəsinin katibi Mixail Qorbaçov tərəfindən izlənirdi. Vaqif Mustafayevin «Bir paxıllığın tarixçəsi» filmində Qorbaçov etiraf edir:*

*«Orada elə yeniliklər baş verir ki, bizdə böyük maraq doğurur: korrupsiya ilə, kadrlardakı durğunluqla, bütün bu qohumbazlıqla mübarizə və sairə ... Mən qəzetlərə, o cümlədən Azərbaycan qəzetlərinə abunə yazılmağa, informasiya almaq üçün oxumağa başladım».*

*Tamamilə əminəm: Sov.İKP MK Baş katibi seçilib bədnam «yenidənqurma» siyasətinin strategiyasını müəyyən edərkən, Qorbaçov «nəqarat» qismində seçdiyi «demokratikləşmə» və «aşkarlıq» sözlərindən sonuncusunu yüz faiz Stavropolda işlədiyi dövrdə öyrəndiyi və özünü ona oxşatmağa çalışdığı insanın leksikonundan götürəcəkdir. Aşkarlığın partiya rəhbərinin iş prinsipi kimi ilk dəfə Azərbaycanda tətbiq edildiyini isə əlbəttə ki, yada salmamağı üstün tutacaqdır.*



[1] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. М., 1991. С. 53.
[2] Бакинский рабочий. 1982. 3 ноября.

*On ikinci fəsil*

# İran inqilabı və Kreml siyasəti

## Heydər Əliyev və TUDƏ liderinin əvəz edilməsi

Cənubi Azərbaycanda Pişəvərinin rəhbərlik etdiyi milli-azadlıq hərəkatının məğlubiyyətindən sonra öz sıralarında İrandan mühacirət edənləri birləşdirən iki marksist partiyası fəaliyyət göstərirdi: İran Xalq Partiyası (TUDƏ) və Azərbaycan Demokrat Firqəsi (ADF). İXP-TUDƏ-nin mənzil-qərargahı əvvəlcə Moskvada yerləşirdi, sonra iqamətgah Leypsiqə (ADR) köçdü, ADF-nin baş ofisi isə Bakıda yerləşirdi. Azərbaycan Demokrat Firqəsi yaranan gündən TUDƏ rəhbərliyi həmişə onun əleyhinə çıxış etmişdi.1950-ci il dekabrın 15-də Tehranın mərkəzi «Qəsri-Qacar» həbsxanasından İran Xalq Partiyasının 10 liderinin qaçması təşkil olunmuşdu (çox güman ki, sovet xüsusi xidmət orqanları tərəfindən). Azadlığa çıxan kimi İran marksistlərinin Moskvadan ilk tələbi ADF-nin qadağan edilməsi oldu. ADF MK-ya uzun müddət Qulam Yəhya Daneşyan rəhbərlik etmişdir. 60-70-ci illərdə ADF İranda güclü mövqeləri olan olduqca qüvvətli təşkilat idi.

Tarixçi Cəmil Həsənlinin söylədiyinə görə, «Moskva ADF-nin bağlanması və Bakıdakı mənzil-qərargahının ləğv edilməsi haqqında dəfələrlə məsələ qaldırmışdı. Moskva bu fikirdə idi ki, İranda bir marksist partiyası olmalıdır, çünki demokratlar TUDƏçilərin İran Azərbaycanında fəaliyyətinə imkan vermirlər. Onlar TUDƏçilərin qənaətinə görə, guya, İran Azərbaycanının əhalisini öz nəzarətləri altında saxlayır, gizli şəbəkələr yaradır və TUDƏ üzvlərinin fəaliyyətinə mane olurlar. Mənə elə gəlir ki, bununla TUDƏ liderləri öz təşkilati zəifliklərinə bəraət qazandırmağa çalışırdılar. Bağırovun,

Mustafayevin, Axundovun dövründə də, Əliyevin vaxtında da Moskva Azərbaycan rəhbərliyinə təzyiq göstərirdi ki, onlar ADF-ni bağlasınlar. Ancaq bizim rəhbərlər müqavimət göstərirdi, çünki ADF sözün yaxşı mənasında millətçi partiya idi və bu partiiyanı həmişə Cənubi Azərbaycan problemi düşündürürdü. TUDƏ isə milli məsələdən öncə, sinfi mübarizənin marksist şüarları uğrunda mübarizəni əsas işi sayırdı. Ona görə də Azərbaycan rəhbərləri hər dəfə Kremli inandırırdı ki, ADF-nin saxlanması vacibdir. Moskvaya ünvanladıqları məktublarda Azərbaycan KP MK-nın birinci katibləri yazırdılar ki, ADF Cənubi Azərbaycan məsələsini həll olunmuş hesab etmir. Üstəlik bu partiyanın mövcudluğu TUDƏ-də gedən proseslərə təsir göstərməyə imkan verə bilən vasitədir. 70-ci illərin sonunda belə də oldu».

H.Əliyevin Sov.İKP MK üçün hazırladığı arayışa əsasən, 1979-cü il üçün Azərbaycanda 19 min İrandan gəlmə, o cümlədən 4396 siyasi mühacir yaşayırdı. Bakıda 1960-cı ildən əyalət təşkilatı hüququ ilə İran Xalq Partiyasının tərkibinə daxil olan ADF MK-nın aparatı fəaliyyət göstərirdi. ADF-nin sıralarında 152 ilk partiya təşkilatında cəmlənmiş 3500 üzv var idi[1].

Azərbaycan KP MK ADF aparatını və Siyasi Mühacirlər Cəmiyyətini maliyyələşdirirdi. Məsələn, 1978-ci il üçün 165,8 min dəyərində smeta nəzərdə tutulmuşdu, buraya İran partiya funksionerlərinin, inzibati aparatın maaşı, həmçinin redaksiya, qəzet və «Azərbaycan» jurnalının nəşriyyat xərcləri daxil idi. Smeta MK-nın birinci katibi tərəfindən şəxsən təsdiq edilir, sonra Sov.İKP MK-ya göndərilirdi[2].

**Tarixçi Cəmil Həsənlinin söhbətindən:**

*«1978-1979-cu illərdə İranda islam inqilabı genişlənməyə başlayanda Sovetlər amerikalıları İrandan sıxışdırmaq üçün vəziyyətdən istifadə etmək qərarına gəldilər. SSRİ-nin öz planları var idi: Kreml hesab edirdi ki, Xomeyni və tərəfdarları bir qrup adi fanatiklərdir, Xomeyni qoca və zəifdir, hakimiyyəti saxlaya bilməyəcək, ona görə də ondan amerikanpərəst şah rejimini yıxmaq üçün istifadə etmək, sonra isə İranda hakimiyyətə TUDƏçiləri gətirmək olar. Yəni bir növ inqilabın ixracını həyata keçirmək. Ona görə də gündəlikdə belə bir məsələ dururdu: islamçıları dəstəkləmək, ya yox? TUDƏ rəhbərliyi bu fikirdə idi ki, İranda inqilabı dəstəkləmək lazım deyil. TUDƏ-nin lideri o vaxt İrac İsgəndəri idi. O və onun silahdaşları hesab edirdilər ki, bu heç bir yaxşı nəticəyə gətirib çıxarmayacıq. Lakin TUDƏ-nin içində fraksiya, Nurəddin Kiyanurinin qrupu var idi.*



*Onlar hesab edirdilər ki, islam inqilabını dəstəkləmək, Xomeyni ilə əməkdaşlığa girmək və inqilabın müəyyən mərhələsində hakimiyyəti ələ almağa cəhd etmək lazımdır. Bununla əlaqədar Moskvaya lazım idi ki, partiyanın başında onun xəttini dəstəkləyən adam dursun. Lakin TUDƏ rəhbərliyində dəyişikliklər yalnız o halda mümkün ola bilərdi ki, bu ideyanı Azərbaycan demokratlarının liderləri dəstəkləsinlər. Məsələ ondadır ki, 60-cı illərdə ADF formal olaraq öz müstəqilliyini saxlayaraq kollegial orqan qismində TUDƏ-nin tərkibinə daxil olmuşdu. Bu Moskvanın qərarı idi. TUDƏ MK-nın tərkibində Azərbaycan Demokrat Firqəsinin nümayəndələri, yəni Qulam Yəhyanın adamları az deyildi, ona görə də prosedur məsələləri, məsələn, partiya liderinin seçilməsi, mühüm dərəcədə onlardan asılı idi. Kremldən göstərişlər alan Heydər Əliyev, ADF liderləri, sonra isə Kiyanurinin özü ilə bir sıra danışıqlar aparır».*

MK-nın birinci katibinin İran kommunistlərinin liderləri ilə apardığı danışıqların Azərbaycan Respublikasının Siyasi partiyalar və ictimai hərəkatlar dövlət arxivində saxlanılan stenoqramlarını oxuyanda vəcdə gəldim: onlar H.Əliyevin parlaq diplomatik istedadını, təzyiq göstərmədən, səsini yüksəltmədən həmsöhbətini onun nöqteyi-nəzəri ilə razılaşmağa və öz mövqeyini dəyişməyə məcbur etmək bacarığını tam mənada açır. ADF liderləri və gələcək İXP başçısı ilə danışıqlar həm də ona görə maraqlıdır ki, o vaxtkı Heydər Əliyevin İranda baş verən hadisələrə, o cümlədən bizim üçün ən ağrılı olan Cənubi Azərbaycan probleminə siyasi baxışlar sistemini ilk dəfə olaraq açıqlayır. Biz qonşu ölkədə yetişən proseslərdən dərin narahatlıq keçirən, eyni zamanda İran Azərbaycanındakı vəziyyətə təsir göstərmək imkanından ruhlanan Heydər Əliyevi görürük; biz tərəddüd keçirən və düşünən, dəyərli məsləhətlər verən və İran siyasi mühacirlərini fəlakətli nəticələrə gətirib çıxara bilən düşünülməmiş addımlardan çəkindirən Əliyevi görürük. Bir sözlə, hesab edirəm ki, sensasiyalı protokolları arxiv qaranlıqlarından işıq üzünə çıxarmağın vaxtı çatmışdır. Üstəlik SSRİ dağılandan və Sov.İKP-nin «vəfatından» sonra protokollar məxfilik qrifini itirmişdir və yalnız tarixi dəyəri şübhə doğurmayan sənədlər kimi əhəmiyyətlidir.

**Beləliklə, 1978-ci il dekabrın 11-i və 13-də MK-nın şöbə müdiri Ə.Cəbrayılov Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevə İran Xalq Partiyası Mərkəzi Komitəsinin İcraiyyə bürosundakı vəziyyət haqqında iki arayış göndərir.**

Arayışlarda oxuyuruq:

«Son vaxtlar yol. İ.İsgəndəri və yol. N.Kiyanuri arasındakı ziddiyyət oduqca kəskin və barışmaz xarakter almışdır. Partiya MK-sındakı hərc-mərcliyə indi pessimist və anarxist əhval-ruhiyyə əlavə olunmuşdur... Qarşıya çıxan məsələləri operativ həll etmək, partiyanın düzgün siyasi xəttini kollegial işləyib hazırlamaq əvəzinə İXP MK-nın rəhbərləri ardı kəsilməyən mübahisələr, qarşılıqlı ittihamlarla məşğul olurlar. Bu gün partiyanın bütün fəaliyyəti, xüsusilə də İrana və qərb ölkələrinə yönəlmiş işlər, müstəqil hərəkət edən, MK İcraiyyə Bürosunun rəyi ilə hesablaşmayan, MK-nın təşkilat məsələləri üzrə katibi yol.Kiyanurinin əlində cəmlənmişdir. MK-nın birinci katibi yol. İsgəndəri mənəvi sarsıntı içindədir və çıxılmaz vəziyyətdə qalıb, Kiyanuri onu partiyanın rəhbərliyindən kənarlaşdırmaq üçün ona qarşı fəal kampaniya aparır. Mövcud ziddiyyətlərə görə İXP MK indiyə qədər İranda baş verən hadisələrlə bağlı öz dəqiq mövqeyini açıqlaya bilməyib.

Yol.İsgəndərinin MK İcraiyyə Bürosunun bu ilin noyabrında keçirilən sonuncu iclasında irəli sürdüyü təkliflər K.Səncabinin başçılıq etdiyi İran Milli Cəbhəsi ilə əlaqə yaratmaq tövsiyəsindən ibarətdir. Yol.Kiyanuri bunun əksinə olaraq, şah rejiminə qarşı əldə silah vuruşmaq və A.Xomeyni qüvvələri ilə əməkdaşlıq etmək tələbi ilə çıxış edir.

...Qeyd etmək lazımdır ki, yol. Kiyanuri təcrübəli partiya işçisidir, yaxşı konspiratordur, təşkilatçılıq bacarığına malikdir, fəaldır, dünyagörüşü genişdir, savadlıdır, Almaniyada universitet və Sov.İKP MK yanında APM-i bitirmişdir, partiya qarşısında xidmətləri vardır. 1954-cü ilə qədər İranda gizli işdə olmuşdur.

Sov.İKP MK-nın beynəlxalq şöbəsi (yol.Zaqladin V.V. və yol.Simonenko N.N.) həqiqətən yol.Kiyanurini dəstəkləyirlər, ona xeyirxah münasibət bəsləyirlər. Mənim yanımda yol.Zaqladin V.V. yol.Daneşyana tövsiyə etdi ki, yol.Kiyanuriyə münasibətini dəyişsin, onun mövqeyini dəstəklesin. Buna baxmayaraq, yol.Daneşyan əvvəlki kimi yol.Kiyanuriyə etibar etmir, onu volyuntarist və anarxist sayır. Yol.Daneşyanın fikrincə İXP MK üzvlərindən çoxu yol.Kiyanuridən narazı olduqlarını açıq bildirirlər. Bizim məlumatımıza görə, İXP MK-nın 44 üzvü və üzvlüyə namizədindən 23-ü yol.İsgəndərinin mövqeyində möhkəm dayanıb. Ehtimal etmək olar ki, MK üzvlərinə bu və ya digər tərəfi seçmək təklif olunarsa, yol.İsgəndərinin uğur qazanmaq şansları daha üstündür»[3].

Ə.Cəbrayılov daha sonra yazır ki, İsgəndəri tamamilə ADF MK-nın xəttinə şərikdir, ADF rəhbərliyi ilə məsləhətləşir, Kiyanuri isə



İXP-nin Azərbaycan təşkilatına qarşı sərt mövqedə dayanmışdır. Ə.Cəbrayılov təqdimatında qeyd edir: «Əminliklə söyləmək olar ki, yol. Kiyanuri ADF MK üzvləri və Azərbaycan SSR-də olan mühacirlərin böyük əksəriyyəti tərəfindən bir o qədər də rəğbətlə qarşılanmır».

**1979-cu il yanvarın 3-də H.Əliyevlə İXP MK İcraiyyə Bürosunun üzvü, ADP MK-nın Sədri Q.Y. Daneşyan arasında birinci görüş oldu[4].**

Daneşyan 1978-ci ilin noyabrında keçirilmiş ADF-nin plenumundan danışmış, iştirak edənlərin yekdillikle İrandakı inqilabi hadisələrə mənəvi və maddi yardım etməyə hazır olduqlarını bildirdiklərini qeyd etmişdir.

«Bizim hazır kadrlarımız vardır. 1946-cı ildə biz SSRİ-yə gələndə içimizdə cəmi 16 nəfər ali təhsilli adam var idi. Mühacirət illərində Azərbaycan KP MK-nın daimi köməyi və qayğısı sayəsində beş min nəfərdən çox ali və orta ixtisas təhsili olan mütəxəssis hazırlanmışdır. Lakin İranda vəziyyətlə bağlı nə etmək, hansı konkret addımlar atmaq lazım olduğunu biz bilmirik».

Sonra Daneşyan şikayətlənir ki, İXP MK İcraiyyə Bürosunun düz 24 gün davam etmiş iclasında MK üzvləri vahid fikrə gələ bilməmişlər, çünki MK katibləri İsgəndəri və Kiyanuri bir-birinə etibar etmədiyindən MK rəhbərliyində qeyri-normal vəziyyət yaranmışdır.

**H.Əliyev:** «Mən şəxsən bunu başa düşmürəm. 30 ildən çoxdur ki, siz mühacirətdəsiniz, İranda əlverişli vəziyyətin yaranmasını gözləyirsiniz. Bu gün, bu vəziyyət yetişəndə və əhalinin müxtəlif təbəqələri, dindarlar da daxil olmaqla, şah rejiminə qarşı çıxanda, siz mövqeyinizi müəyyən edə bilmirsiniz. Düşünmək olardı ki, partiya bu şəraitdə İranla əlaqəni gücləndirməli, ölkəyə öz fəallarını, etibarlı adamlarını göndərməlidir. Bu istiqamətdə bir iş görülürmü?»

**Q.Y.Daneşyan:** «Çox az. MK-nın təşkilat şöbəsinin rəhbəri yol.Kiyanuri özünü düzgün aparmır, heç kimlə hesablaşmır. İcraiyyə Bürosunun sonuncu iclasında Kiyanuri təklif verdi ki, adamları silahlandırıb Xomeyni tərəfdarları ilə birlikdə şaha qarşı çıxış etmək lazımdır. Mən ondan soruşdum ki, kimi silahlandıraq? Kimə arxalanaq? Bizə məlum deyil, partiyanın İranda öz adamları varmı? Dindarları silahlandırmayacağıq ki».

H.Əliyev maraqlanır ki, İsgəndəri ilə Kiyanurinin fikir ayrılığına əsas səbəb nədir və yaranmış şəraitdə hansının günahı daha çoxdur?

Daneşyan Kiyanurinin əleyhinədir, onun fikrincə Kiyanuri «anarxistdir, fəaliyyətində daha çox parçalamaqla, nəinki birləşdirməklə məşğuldur. Partiya aktivi onu sevmir».

**H.Əliyev:** «Partiya rəhbərliyindəki vəziyyət sizi narahat etmir? Tutalım, sabah İranda şahı devirəcəklər, daha proqressiv, ola bilsin ki, demokratik rejim quracaqlar. Bununla bağlı İXP hansı addımlar atmaq niyyətindədir, sizcə ölkədə kim partiyanın başında dura bilər? Çox nüfuzlu adam olmalıdır. İnsanlar ona inanmalıdırlar».

Daneşyan hesab edir ki, bu rola MK-da tərəfdarlarının sayı çox olan İsgəndəri uyğun gəlir.

Ancaq H.Əliyevin fikrinə görə, İsgəndəri «laqeyd adamdır. Onun, biz bildiyimizə görə, heç bir konkret ideyası yoxdur».

Heydər Əliyev soruşur ki, Daneşyan İcraiyyə Bürosundakı vəziyyət barədə Kiyanuri ilə danışmağa cəhd göstəribmi? O cavab verir ki, bu yaxınlarda Moskvada yol.Simonenko ona Kiyanurini dəstəkləməyi tövsiyə edib, o isə rədd cavabı verib, çünki bu adama inanmır. ADF-nin lideri bundan əlavə söyləyir ki, Kiyanuri «İXP-nin Azərbaycan təşkilatına çox pis münasibət bəsləyir... ADF-nin rəyi ilə həmişə və hər məsələdə hesablaşmır, sadəcə olaraq bizi saymır».

H.Əliyev söyləyir ki, Kiyanuri onunla və Daneşyanla görüşmək üçün sabah Bakıya gəlir və həmsöhbətinə açıq sual verir: bu iki nəfərdən hansı MK-nın birinci katibi işləyə bilər? Daneşyan cavab verir ki, Kiyanurinin partiyada hörməti yoxdur və əgər o birinci katib seçilərsə, o vaxt o, Daneşyan, istefaya gedəcəkdir. «İnanıram ki, yol.Səfəri, yol.Cövdət, yol.Lahrudi və bir çox başqaları da belə edəcəklər. Hazırda İXP rəhbərlərinin praktik olaraq heç bir hörməti yoxdur. Mühacirətdə az-çox bizimlə hesablaşırlar».

**H.Əliyev:**

«Sov.İKP-dəki yoldaşlar Kiyanuri haqqında müsbət fikir söyləyirlər. Onu əqidəsində möhkəm, sadiq adam kimi səciyyələndirirlər... Siz iddia edirsiniz ki, Kiyanuri partiyanın başında dura bilməz, ancaq razılaşın ki, İsgəndəri də lazım olan səviyyədə deyildir. Onun demək olar ki, dövrü keçmişdir, heç bir fəallıq nümayiş etdirmir. Vəziyyət dəyişərsə onu İranda qəbul edərlərmi? Əlbəttə, bu sizin partiyadaxili işinizdir, lakin məni İXP-də olan vəziyyət narahat edir, istəyirsən ki, bu qədər çətin mərhələdə MK İcraiyyə Bürosu vəziyyəti düzgün qiymətləndirsin».

**1979-cu il yanvarın 4-də H.Əliyev və Q.Daneşyanın ikinci görüşü oldu[5].**



MK-nın birinci katibi soruşur ki, Daneşyan hansı nəticəyə gəldi? O təkrar edir ki, Kiyanuri lider roluna yaramır və birinci katib postuna professor Cövdəti təklif edir.

**H.Əliyev:**

«Mən Sov.İKP MK Beynəlxalq şöbəsinin rəhbərləri və digər yoldaşlarla məsləhətləşmələr apardım, İXP rəhbərliyindəki vəziyyəti bir də təhlil etdim və nəticəyə gəldim ki, hazırda partiya praktik olaraq fəaliyyət göstərmir, işdə ciddi dönüş yaratmaq üçün təcili tədbirlər görülməlidir. Əgər siz gələcəkdə də 24 günlük iclaslar keçirərək, mübahisə aparıb nəzəriyyəbazlıq edəcəksinizsə, işdə dəyişiklik olmayacaqdır».

Cövdətin vəziyyəti dəyişmək iqtidarında olmadığını söyləyən H.Əliyev Kiyanurinin namizədliyi üzərində təkid edir:

«O təcrübəli konspiratordur, fəhlə sinfinin ideallarına sadiq olan adamdır. Sizin ola bilsin ki, onun işi barədə dəqiq təsəvvürünüz yoxdur. Vəziyyət elə gətirmişdir ki, İcraiyyə bürosunun gözü qarşısında aysberqin yalnız görünən hissəsi olmuşdur, suyun altında gizlənənlərdən isə xəbəriniz olmayıb.

...Biz Kiyanurinin son illərdəki fəaliyyəti ilə tanış olmuşuq. MK-nın İcraiyyə Bürosuna çıxarılan ən düzgün, ən inqilabi təkliflər məhz onun tərəfindən gəlirdi. Kiyanuri, məsələn, partiyanın Xomeyni ilə müvəqqəti ittifaqını təklif edirdi. Siz razı olmadınız, baxmayaraq ki, təklif düzgün idi və indi də düzgün olaraq qalır. Və yaxud deyək ki, Kiyanuri «Mərdom» qəzetində xalqa müraciət çap etdirmişdi, sonra bir çox İran qəzetləri bu müraciəti dərc etdilər və bu, İranda inqilabi hərəkatın genişlənməsinə kifayət dərəcədə kömək etdi.

Əlbəttə, Kiyanuri ideal namizəd deyil, o bəzən səhvlərə yol verir, silahdaşlarının rəyinə hörmətsizlik göstərir. Bu bizə yaxşı məlumdur. Yalnız heç bir şey etməyən səhv buraxmayır...»

Q.Y.Daneşyan əvvəlki kimi, Kiyanurinin namizədliyinin əleyhinədir:

«Kiyanuri heç kəslə hesablaşmır. Ancaq mən axı böyük partiya təşkilatını təmsil edirəm. Onun daim əsəbi olması, təkəbbürü bizə əzab verir. Alman yoldaşlar əvvəllər Kiyanuriyə inanırdılar, indi onun haqqında fikirlərini dəyişiblər».

H.Əliyev: «Burada bir anlaşılmazlıq var, çünki AVSP MK Siyasi Bürosu Kiyanuri və onun fəaliyyətini müsbət qiymətləndirir. Bunu bizə bir daha inandırdılar».

Söhbətin yekununda H.Əliyev Bakıya gələn Kiyanuri ilə görüşməyi, narahatlıq doğuran bütün məsələləri ona söyləməyi və ümumi mövqeyi müəyyən etməyi təklif edir:

«Yoldaşlar mənə demişdilər ki, bu dönüş məqamının həllinin açarları sizin əlinizdədir. Bu açarlardan partiya rəhbərliyində işgüzarlıq ab-havasının, qarşılıqlı inam və prinsipiallığın bərqərar olması üçün istifadə edin».

**Q.Y.Daneşyan:** «Mən vəziyyəti yenidən düşünməyə çalışaram və siz mənə necə məsləhət görürsünüzsə elə edərəm».

**H.Əliyev:** «Partiyanın həyatında tarixi an yaxınlaşır, ona görə strategiya və taktikanı düzgün müəyyənləşdirməyin böyük əhəmiyyəti vardır. Kiyanuri ilə danışın, onun MK-nın birinci katibi seçiləcəyindən çıxış edərək vəziyyəti bir daha təhlil edin. Bu bizim qəti fikrimizdir».

**Cəmil Həsənlinin söhbətindən:**

*«Nurəddin Kiyanuri – o vaxt TUDƏ partiyasının Mərkəzi Komitəsinin katibi – Bakıya Leypsiqdən gəldi. İran inqilabı artıq vüsət almışdı. Kreml Heydər Əliyevə tapşırıq verdi ki, ADF MK ilə İXP-də rəhbərliyin dəyişilməsi məsələsini həll etsin. Bu məsələnin həlli məhz ADF liderlərindən asılı idi. Silsilə görüşlər nəticəsində H.Əliyev ADF rəhbərliyini Moskvanın xəttini dəstəkləməyə və eyni vaxtda ADF-in TUDƏ partiyasının MK-sında təsirini artırmağa inandıra bildi.*

*H.Əliyev təklif etdi: bir halda ki, Kiyanurinin seçilməsi sizdən asılıdır, siz onu dəstəkləyin, ancaq öz tələblərinizi də irəli sürün. Qoy o, TUDƏ partiyasının MK-sında ADF üzvlərinin sayını artırsın, belə olan surətdə sizin oradakı mövqeyiniz daha da güclənər. Sonuncu dəlil Daneşyana cəlbedici göründü və onu razı salmağa kömək etdi».*

**1979-cu il yanvarın 6-da H.Əliyevlə Q.Y. Daneşyanın üçüncü görüşü oldu[6].**

**H.Əliyev:** «Kiyanuri İrandakı işi barədə sizə danışdımı?»

**Q.Y.Daneşyan:** «Bəli, bəzi şeyləri danışdı, ancaq mən ona inanmıram».

**H.Əliyev:** «Bir-birinə inanmadan axı işləmək olmaz. Xomeyni ilə əməkdaşlıq etmək imkanları barədə artıq neçə vaxtdır ki, müzakirə aparırsınız. Kiyanuri bu məsələ ili bağlı İcraiyyə Bürosuna konkret təkliflər çıxarır, sizinlə İsgəndəri isə bunun əleyhinə çıxış edirsiniz».



**Q.Y.Daneşyan:** «İcraiyyə Bürosunun son iclasında mən İran Milli Cəbhəsi ilə əlaqə yaratmağı təklif etdim. Mənim xahişimlə bu, protokolda qeyd olunmuşdur».

**H.Əliyev:** «Protokolda qeyd olunmaq nə verir. Qərar ki, qəbul edilmədi».

**Q.Y.Daneşyan:** «İXP rəhbərlərinin əsas çatışmayan cəhəti ondadır ki, onlardan heç biri qəbul olunmuş qərarların icrasına nəzarət etmir».

**H.Əliyev:** «Axı daim faktların və hadisələrin qeyd edilməsi ilə məşğul olmaq olmaz, hərəkət etmək, işləmək, qəbul olunmuş qərarların yerinə yetirilməsi üçün yollar axtarmaq lazımdır. İsgəndərinin, bəzi hallarda isə sizin də mövqeyinizə İranda vəziyyət sakit olanda dözmək olardı. İndi isə, Tehran küçələrinə barrikadalar düzüləndə, İsgəndərinin fəaliyyətsizliyinə haqq qazandırmaq olmaz.

Mühacirət həmişə aydın və düşünülmüş məqsədə xidmət edir, o həmişə Vətənlə, öz xalqı haqqında düşüncələrlə bağlı olmalıdır. Siz isə yalnız bir-birinizlə mübahisə etməklə məşğulsunuz. İndiki vaxtda İranda Xomeynidən populyar adam yoxdur. Ona inanırlar, onun portreti ilə adamlar ölümə gedir. Axı başa düşmək lazımdır ki, o təkcə taxt-taca qarşı deyil, ölkədə amerikanların olmasına qarşı da mübarizə aparır. İçərinizdə daha gözüaçıq olan Kiyanuri sizə Xomeyni ilə birləşməyi təklif edir, siz isə bunun əleyhinə çıxış edirsiniz, Kiyanurini avantürist adlandırırsınız. İrandakı hadisələrə Kiyanuriyə olan şəxsi münasibət prizmasından baxmaq olmaz.

...Əgər biz Kiyanurini qəbul ediriksə, deməli hər bir işdə ona inanmalıyıq, hər bir işdə dəstəkləməliyik. Bütün bu subyektiv məqamları, şübhələri, inciklikləri bir kənara tullayın, əsl işə Qoşulun...»

Uzun sürən söhbətin axırında Qulam Yəhya Daneşyan bəyan etdi ki, H.Əliyevin bütün tövsiyələrini yerinə yetirməyə hazırdır, çünki partiyanın əsgəridir, sovet məktəbi keçmişdir və sovet tərbiyəsi almışdır.

**Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi yol. H.Ə.Əliyevin İran Xalq Patiyası MK-sının İcraiyyə Bürosunun üzvü, İXP MK-nın katibi yol.Nurəddin Kiyanuri ilə 1979-cu il yanvarın 6-da olmuş söhbətin yazısından[7].**

H.Əliyev qonaqdan İXP rəhbərliyinin əhvalını soruşur.

«İXP rəhbərliyində iki xətt dəqiq müəyyən olmuşdur, – Kiyanuri cavabında söyləyir, – İranda baş verən hadisələrin qiymətləndirilməsində iki meyl. Onlardan biri – İrəc İsgəndərinin apardığı sazişçilik xəttidir, ziyanlıdır... O heç bir fəallıq nümayiş etdirmir, İranda baş verən hadisələri qeyd etməklə kifayətlənir, «bir qənbərqulu çıxmasın» prinsipi ilə hərəkət edir... Mən İrandakı indiki böhranı düz bir il qabaq görürdüm. İcraiyyə Bürosunda mənim yazım durur, orada mən həmçinin Xomeyninin müxalif qüvvələri ilə təmas qurmağı təklif edirdim. Yazırdım ki, Xomeyninin islam respublikası qurmağın tərəfdarı olduğuna baxmayaraq, onunla müvəqqəti ittifaqa getmək bizim üçün əlverişlidir – bütün qüvvə və imkanlarımızı səfərbər edib, sonuncu və həlledici döyüşə hazırlaşmaq. Lakin İcraiyyə Bürosunda məni dəstəkləmədilər.

Təşkilati məsələlər sahəsində mən dəfələrlə İrana təcrübəli adamların göndərilməsi tələbini irəli sürürdüm, hətta onların adlarını çəkirdim. İcraiyyə Bürosunun yarısı, İsgəndəri də daxil olmaqla bunun əleyhinə çıxış etdilər... Düz bir ildir mən İsgəndərini inandırmağa çalışıram ki, ölkədə yaranmış inqilabi vəziyyətdən istifadə etmək lazımdır. Mən dəfələrlə bəyan etmişəm ki, şaha qarşı vahid müxalifət cəbhəsi kimi çıxış etmək, bütün müəssisələrdə, zavod və fabriklərdə, məktəb və digər təşkilatlarda bu cəbhənin özəklərini yaratmaq, onları şaha qarşı mübarizəyə istiqamətləndirmək lazımdır. Lakin mənə qulaq asmırlar, lağa qoyurlar. Gəlib o yerə çatdı ki, İsgəndəri mənim İcraiyyə Bürosunun tərkibindən çıxarılmağım barədə məsələ qoydu.

Bir il ərzində biz partiyanın Xomeyni ilə əməkdaşlıq etmək təklifini dörd dəfə müzakirə etmişik, dörd dəfə qərar qəbul etmişik, məktub isə yalnız iki gün bundan qabaq göndərilib, özü də İsgəndəri onu imzalamayıb».

**H.Əliyev:** «İsgəndərinin Xomeyniyə məktubu imzalamamağı nə ilə izah olunur?»

**Kiyanuri:** «İsgəndəri – sosial-demokratdır, yarımçıq, düşünülməmiş qərarların tərəfdarıdır. O da Bəxtiyar kimi, demokratik hüquq və azadlıqlar uğrunda çıxış edir. Başqa sözlə, deyir: «Qoy şah, şah olaraq qalsın, ancaq idarə etməsin».

Ötən il iyunun 27-də mən İcraiyyə Bürosuna silahlı mübarizəyə hazırlığa başlamaq təklifi ilə yazılı müraciət etdim. Mən onda göstərirdim ki, İranda böhran dərinləşəcək, ölkədə hərbi rejim qurula bilər. İsgəndəri etiraz etdi, bunu belə əsaslandırdı ki, bəs, Şərif



İmami demokratik dövlət qurmağa söz verib. Bu az imiş kimi, İsgəndəri məni provokator adlandırdı, dedi ki, mən guya SSRİ sərhədində münaqişə yaratmaq, bəlkə də üçüncü dünya müharibəsi istəyirəm».

«Xomeyni TUDƏçilərlə əməkdaşlığa razı olarmı?» – H.Əliyev sual verir.

«Düşünürəm ki, razılaşar, – Kiyanuri cavab verir. – Bu yaxınlarda Xomeynidən soruşurlar: o necə hesab edir, ABŞ silahlı qüvvələri İrana soxula bilərmi? O cavab verir: «Əgər amerikalılar İrana girsə, daha güclü düşmənlə qarşılaşacaqlar».

H.Əliyev maraqlanır ki, Xomeyni dövlət başçısı kürsüsünə iddia edirmi?

«O, Parisin 40 kilometrliyində yaşayır, – Kiyanuri deyir. – Yanında kiçik rəhbərlər qrupu vardır. Xomeyni bəyan edib ki, ölkənin prezidenti olmaq istəmir, din xadimi olaraq qalmaq istəyir».

**H.Əliyev:** «Mənim bildiyimə görə, Xomeyni söyləmişdir ki, kommunistlərlə əməkdaşlığın əleyhinədir».

**Kiyanuri:** Düşünürəm ki, bu taktiki bəyanat olub. Sovet mətbuatında bəzən onu irticaçı kimi səciyyələndirirlər. Bu haqda, məsələn, İvanov özünün «Müasir İran» kitabında yazıb... Ümumiyyətlə Xomeyni SSRİ ilə ABŞ-ı tərəzinin eyni gözünə qoymur. Məlumdur ki, ayətullah Tələbani, ayətullah Qomi və digər din xadimləri Sovet İttifaqı haqqında fikirlərini olduqca konkret söyləmişlər. Məsələn, Qomi bu yaxınlarda demişdir: «SSRİ uzun müddət ərzində İrana heç bir pislik etməmişdir. Biz şahla mübarizədə Sovet İttifaqını potensial müttəfiq hesab edirik».

**H.Əliyev:** «İranda inqilabın inkişaf perspektivlərini necə qiymətləndirirsiniz, ölkədə partiyanın mövqeləri necədir?.. Sizə nə ilə kömək edə bilərik?»

Kiyanuri cavab verir ki, onun partiyası Tehranda güclü qrupa, ölkənin digər şəhərlərində bir neçə 30-40 nəfərlik xırda qruplara malikdir. Gizli yolla 350 nüsxəlik qəzet nəşr edir. Xahişləri bundan ibarətdir: siyasi cəhətdən etibarlı adamların seçilib İrana göndərilməsində kömək etmək, Daneşyanın vəsaitlərindən maliyyə yardımı göstərmək və partiyanın rəhbərliyində sağlam ab-hava yaratmaq. Kiyanuri boynuna alır ki, Daneşyan dedikcə təmiz, alicənab adamdır, partiya qarşısında xidmətləri vardır və «İcraiyyə Bürosunda tez-tez elə hallar yaranır ki, Daneşyanın sözü həlledici olur. Sizə açıq deyim ki, Daneşyanın dəstəyi olmasa biz MK rəhbərliyində dəyişiklik edə bilməyəcəyik».

Kiyanuri MK-nın birinci katibi ilə ölkədə mübarizəyə bilavasitə rəhbərlik etmək üçün katibliyin yeni heyətindən iki və ya üç nəfərin İrana göndərilməsi planlarını bölüşür.

**H.Əliyev:** «Bu düzgün qərardır. İndi işin ağırlıq mərkəzini İrana, inqilabi hadisələrin mərkəzinə keçirtmək lazımdır».

Sonra H.Əliyev Kiyanuriyə dəyərli taktiki məsləhətlər verir:

«...Olub keçənləri unudun, Daneşyanla səmimi söhbət edin, mümkün olduğu qədər onu öz işlərinizdən agah edin. Sizin doğru olmanıza onun daxilən inanması çox vacibdir. İndi ağılla hərəkət etmək lazımdır, unutmaq olmaz ki, birincisi, Daneşyan Cövdət, Səfəri və MK-nın digər üzvlərinə müəyyən təsir imkanlarına malikdir; ikincisi, Daneşyanın əhval-ruhiyyəsi bütün mühacirata çox tez sirayət edə bilər.

Açıq deyim sizə: yol.Daneşyanda sizin haqqınızda bir o qədər də düzgün fikir formalaşmayıb. Təkcə onda yox, Azərbaycandakı mühacirətin bir hissəsində də. Söhbət vaxtı bunu nəzərə alın, öz konsepsiyanızı dəqiq açın.

Azərbaycanda iranlıların arasından beş minə yaxın ixtisaslı kadr hazırlanmışdır, 370 siyasi mühacir Ali partiya məktəbi bitirmişdir, 180 nəfər elmlər doktoru və elmlər namizədi elmi dərəcəsi almışdır. Bu böyük qüvvədir. İnanıram ki, əgər onların hamısı da olmasa, müəyyən hissəsi ölkəyə getməyə hazır olduqlarını bildirəcəklər. Odur ki, kadr qıtlığı olmayacaqdır».

Öz növbəsində Kiyanuri Heydər Əliyevi əmin edir ki, Azərbaycan xalqına və Azərbaycana dərin hörməti vardır, ADF-in İXP ilə birləşməsinə tərəfdar çıxan birinci o olmuşdur.

**Yanvarın 6-da axşam H.Əliyev yenidən Nuraddin Kiyanuri və ADF MK-nın sədri Qulam Daneşyanla görüşmüşdür. Görüşdə həmçinin İXP MK üzvü Əmrəli Lahrudi iştirak etmişdir[3].**

H.Əliyev: «Reallıq ondan ibarətdir ki, İXP MK rəhbərləri fəal işləyib İranda baş verən hadisələrə təsir göstərmək əvəzinə, aramsız mübahisələr və nəzəri mülahizələrlə məşğuldurlar. Otuz ildən çoxdur ki, mühacirətdə yaşayırsınız, inqilabi mübarizə arzulayırsınız, ancaq İrandakı hadisələrə hazır ola bilmədiniz. Yol.Kiyanurinin partiyanın fəaliyyətini canlandırmaq üçün konkret planları vardır. Təəssüf ki, İsgənderi İcraiyyə Bürosunun ayrı-ayrı üzvlərinin dəstəyinə malik olmaqla bu planlara qarşı çıxır. Biz öz tərəfimizdən hesab edirik ki, Kiyanuri yaranmış durumda daha düzgün təkliflər irəli sürür, onları qəbul etmək və onlara uyğun hərəkət etmək lazımdır».



Kiyanuri həmsöhbətlərinə öz siyasi platformasını da açıqlayır:

«Biz şah rejiminə qarşı silahlı mübarizənin, İranda olan başqa müxalifət qüvvələri ilə birləşməyin, o cümlədən Xomeyni ilə əməkdaşlığın tərəfdarıyıq. Hazırkı vəziyyətdə birləşmək, vahid rəhbərlik yaratmaq, bizə həmişə olduğundan daha vacibdir, təcili surətdə İrana yoldaşlarımızdan bir qrupunu göndərməliyik».

Daneşyan Kiyanurinin proqramı ilə əsasən razı olduğunu bildirir.

Lahrudi Kiyanuriyə sual verir: «Hər şeydən əvvəl, biz silahı kimə verməyə hazırlaşırıq? Onu haradan götürəcəyik?»

Kiyanuri: «Silahı Tehranın və eləcə də İranın başqa şəhərlərinin küçələrinə çıxmış xalqa verəcəyik...»

Görəndə ki, Lahrudi və Daneşyan bu cavabdan narazıdırlar, əlavə edir:

«Bizim xalqa paylamaq üçün öz silahımız yoxdur. Biz siyasi təşkilatı təmsil edirik. Biz xalqa ümumi xətti göstərməliyik, xalq isə əsgər və zabitləri tərksilah edəcək, silahı onların əlindən alacaq. Bizim bu barədə ətraflı söhbət etmək imkanımız olacaq».

H.Əliyev söhbətə barışdırıcı intonasiyalar gətirir:

«Özünüzü mübahisə etməyə hazırlamayın, baxmayaraq ki, düzgün qərarlar mübahisə və fikir mübadiləsi zamanı yaranır. Ancaq indi diqqəti buna yönəltmək lazım deyil».

Təşkilati məsələləri razılaşdırandan sonra, H.Əliyev İran inqilabçılarına dəyərli məsləhətlər verir və bu məsələdə Sov.İKP MK-nın tutduğu xətti açıqlayır:

«Mənim sizə məsləhətim var. İstənilən inqilabi hərəkat nəzəriyyə ilə bağlıdır. Mənə hərdən elə gəlir ki, siz bəzən inqilabi fəaliyyətin ziyanına, nəzəri mülahizələrlə həddindən artıq məşğul olursunuz. İndi ən fəal addımlar atmağın vaxtı yetişmişdir. Marksizm-leninizm nəzəriyyəsi ehkam deyil, fəaliyyət üçün dərslikdir. Hər addımı, hər hərəkəti nəzəri cəhətdən əsaslandırmaq lazım deyil. Dünyada baş verən hadisələr bizim həyat haqqında təsəvvürlərimizə çoxlu düzəlişlər gətirir. Məgər, marksizm-leninizm nəzəriyyəsində belə müddəa varmı ki, bir sosialist ölkəsi digər sosialist ölkəsini düşmən elan edə bilər? Sizə bizim partiyanın gizli və açıq fəaliyyətinin zəngin təcrübəsindən, ayrı-ayrı Avropa, Asiya ölkələrinin inkişafı təcrübəsindən istifadə etmək lazımdır, ancaq siyasi istiqaməti İrandakı konkret şəraitdən çıxış edərək seçmək lazımdır. Şəxsən mən hesab edirəm ki, hal-hazırda şaha qarşı, Amerikaya qarşı istiqamətlənmiş hər hansı müxalifət qüvvəsi ilə ittifaq sizin üçün sərfəlidir. İranda vəziyyət dəyişə bilər. Bəxtiyarın hökuməti əvə-

zinə Oveysi, ya bir başqa şah əlaltısının hərbi rejimi hakimiyyətə gələ bilər, ancaq bundan qorxmaq lazım deyil. Xomeyninin tutduğu mövqeyin cazibəsi nədədir? O eyni vaxtda həm şaha, həm də amerikalılara qarşı mübarizə aparır. Hətta fərz etsək ki, şah monarxiyasının yerinə hərbi administrasiya gələcəkdir, o halda da bunun bir addım qabağa olduğunu düşünməyə haqqımız vardır. İran xalqı lap uşaqlıqdan şahın qarşısında baş əymək, onu ilahiləşdirmək ruhunda tərbiyə olunur. Hərbi diktatora bu inam olmayacaqdır, ona görə də onu, amerikalıların dəstəyinə baxmayaraq, devirmək asan olacaqdır. Biz taktika seçimində daha çevik, daha gözüaçıq və qətiyyətli olmalıyıq.

Xalqı silahlandırmağa çağırmaqla Kiyanuri düz edir. Bir var siyasi şüarlar qışqırasan, bir də var – dinc nümayişçiləri, qadın və uşaqları soyuqqanlıqla öldürənlərə atəş açasan. Aydındır ki, silahınız yoxdur, onu paylamaq da sizin işiniz deyil, ancaq, heç şübhəsiz, xalqı silaha, müqavimət qüvvələrini birləşməyə çağırmaq lazımdır. Xalq bunu hərarətlə qarşılayar.

Sovet İttifaqı üçün İran böyük əhəmiyyət kəsb edir. Ona görə də biz orada cərəyan edən proseslərə biganə deyilik. İranla bağlı Sovet İttifaqının mövqeyi L.İ.Brejnevin «Pravda» qəzetinin müxbirinə verdiyi müsahibədə dəqiq ifadə olunmuşdur. Biz İranın daxili işlərinə qarışa bilmərik. Ancaq İran xalqının azadlığa və müstəqilliyə can atmasını dəstəkləyirik. Ona görə də amerikalıları xəbərdar etdik ki, əgər onlar İrana hərbi müdaxiləyə yol verərlərsə, biz cavab tədbirləri görməyə məcbur olacağıq. Əlbəttə ki, biz hərb təhlükəsi ilə nəticələnə biləcək vəziyyət yaratmaq istəməzdik. Ancaq şah rejimini devirmək üçün var qüvvədən istifadə etməyin vacibliyi də şübhəsizdir. İndi artıq o gün uzaqda deyil».

**1979-cu il yanvarın 13-də Leypsiqdə İrəc İsgəndərinin sədrliyi ilə İran Xalq Partiyası Mərkəzi Komitəsi İcraiyyə Bürosunun iclası oldu.**

Hər şey Bakı razılaşmasına uyğun keçdi. MK İcraiyyə Bürosu İXP-nin İranda silahlı mübarizəyə çağırışının mətnini yekdillikle təsdiq etdi. Sonra çıxış edən Daneşyan bəyan etdi ki, «İranda cərəyan edən hadisələr İXP-nin fəallaşmasına yönəlmiş ciddi tədbirlərin görülməsini tələb edir. İXP MK-nın birinci katibi yol. İsgəndəri partiyanın fəaliyyətində zəruri olan dönüş yaratmaq iqtidarında deyil, onun İranla heç bir əlaqəsi yoxdur və o praktik olaraq fəaliyyət göstərmir». O, İsgəndərinin tutduğu vəzifədən azad edilməsini



və Kiyanurinin birinci katib seçilməsini təklif etdi. MK-nın digər üzvləri bu təklifi bəyəndilər.

**Yanvarın 16-da İran Xalq Partiyası MK-nın İcraiyyə Bürosunun daha bir iclası keçirildi.**

Beynəlxalq əlaqələr şöbəsinin müdiri Ə.Cəbrayılovun həmin iclas haqqında məlumatında maraqlı məqam vardır: «İclasın yekununda yol.Kiyanuri çıxış etdi. O həmçinin qeyd etdi ki, hazırda İran mühacirlərinin kütləvi şəkildə İrana köçürülməsi məsələsini öyrənmək üçün əlverişli vəziyyət yaranmışdır. Məsələ sovet yoldaşları ilə məsləhətləşmə tələb edir...Gizli iş aparmaq üçün təcili olaraq İrana 5-6 inanılmış adam göndərmək lazımdır, sonrakı 2-3 ay ərzində isə daha 30-40 adam. **Kiyanuri demişdir ki, adamların hərbi mübarizə üçün hazırlanmasında biz FAT və İrak kommunistləri ilə sıx əməkdaşlıq edəcəyik** (seçmə bizimdir – *E.A*) »[9]. Bu sözlər bir daha təsdiq edir ki, o illərdə Sov.İKP Yasir Ərəfat və Abdulla Ocalanın döyüşçülərini yaxından himayə edir, FAT və PKK daxilində inqilabın Yaxın və Orta Şərq ölkələrinə mümkün ola biləcək ixracı üçün öncül dəstələr hazırlayırdı.

**Cəmil Həsənlinin söhbətindən:**

*«Onda Moskva TUDəçilərə göstəriş verdi – prezident seçkilərində Əli Xameneini və ümumiyyətlə Xomeyni xəttini dəstəkləmək. İranda seçkilər keçdi, TUDə partiyasında da seçkilər oldu. TUDə-nin 1979-cu il fevralın 27-28-də Berlində keçirilmiş növbədənkənar XVI plenumunda Nurəddin Kiyanuri TUDə-nin birinci katibi seçildi. Və bu işdə Heydər Əliyevin rolu böyük idi».*

## İranda Kreml siyasətinin məğlubiyyəti

İXP plenumu İranın bütün demokratik və milli qüvvələrinə yeni həyat qurmaq naminə əməkdaşlığa çağıran müraciət qəbul etdi.

Martın 3-də TUDə MK İcraiyyə Bürosunun mühüm qərarlar qəbul edən iclası oldu. Birincisi, partiyanın rəhbər işçilərinin İrana getmək məsələsinə baxıldı. Qərar qəbul edildi ki, İrana getmək üç mərhələdə həyata keçiriləcəkdir. Birinci mərhələdə MK katibləri gedəcək, ikincidə – İcraiyyə Bürosunun üzvləri, üçüncüdə – İXP MK-nın bütün üzvləri və üzvlüyə namizədlər, həmçinin bütün partiya funksionerləri. Həmçinin qərara alındı ki, İXP-nin İranda fəaliyyət göstərməsi xahişi ilə Xomeyniyə, Bazarqana və Sənca-

biyə teleqram göndərilsin, teleqramın surəti isə «İttilaat», «Keyxan» və «Ayəndegan» qəzetlərinə göndərilsin. İclasda siyasi mühacirlərin İrana repatriasiyası məsələsinə baxıldı. Qəbul olunmuş qərarda qeyd olunurdu ki, MK İcraiyyə Bürosu SSRİ-də və qardaş sosialist Ölkələrində yaşayan İran siyasi mühacirlərinin kütləvi repatriasiyası məsələsinə müsbət yanaşır[10].

Heydər Əliyev Kiyanurinin İran mühacirləri sırasından İranda praktik işdə istifadə olunmaq üçün bir qrup adamın seçilməsində və hazırlanmasında yardım etmək xahişinə müsbət yanaşdı. Bununla bağlı o, İrandan olan 30 gənc üçün qısamüddətli bağlı kursların təşkil olunmasını məqsədəuyğun sayır və bu barədə xüsusi məktubda Sov.İKP-nin razılığını istəyir.

İrandakı hadisələr İran mühacirlərini həyəcana gətirdi. Həm də ki, Azərbaycan xalqı şah rejiminə qarşı mübarizədə olduqca fəal iştirak edirdi. Yeni inqilabi liderlər də açıq-aydın Təbrizi ruhlandırırdılar. Çıxışlarının birində Xomeyni demişdi: «Təbrizdə tökülən qan, milyonlarla iranlının damarına axmışdır». Bazarqan, Şərif İmami və İranın başqa xadimləri dəfələrlə bəyan etmişdilər: «Təbriz bizə inqilab yolunu göstərdi... Təbriz şah rejiminin belini qırdı»[11].

Azərbaycan KP MK-nın məlumatına görə, «xeyli qrup iranlı, xüsusilə gənclər, İrana işləmək üçün getmək istədiklərini bildirirlər... ADF MK üzvlərinin və üzvlüyə namizədlərin böyük əksəriyyəti partiyanın tapşırığı ilə açıq və ya gizli yolla İrana getməyə hazırdırlar»[12].

**1979-cu il martın 29-da Bakıda ADF MK-nın plenumu oldu.**

Plenumda İranda islam respublikasının yaranması ehtimalı və inqilaba şiə xadimlərinin rəhbərlik etməsi faktı ətrafında müzakirələr aparıldı. ADF MK-nın bəzi üzvləri islamçılarla əməkdaşlıq etməyin mümkünlüyünü nəzəri cəhətdən əsaslandırmağa çalışırdılar. Məsələn, Z.Abasəlinin fikrinə görə «biz öz fəaliyyətimizdə gərək islamın elmi kommunizmlə təmas nöqtələrini axtaraq... Hələ «21 Azər» hərəkatı ərəfəsində S.C.Pişəvəri publisistik məqalələrində Qurandan sitatlar gətirirdi. Azərbaycan əhalisi tərəfindən bu yaxşı qarşılanırdı». Ona marksizm-leninizm klassiklərindən sitat gətirən Z.Bəhlul dəstək verdi: «F.Engels İngiltərədə blankistləri dinə düzgün münasibət bəsləmədiklərinə görə tənqid edirdi. Əgər biz islam respublikasına səs veririksə, onda məntiqli olmalı və açıq dini qarşıdurmaya getməməliyik»[13].

Plenumda İran Azərbaycanının muxtariyyət məsələsi də müzakirə olundu. Bəziləri daha radikal və qətiyyətli mövqe tuturdular,



deyirdilər ki, kürdlər, türkmənlər, beluclar muxtariyyət tələb edirlər, azərbaycanlılar da bu məsələni qaldırmalıdır. Başqaları isə daha ehtiyatlı idi və mövqeyi müəyyən etməkdə tələsməyi məsləhət görmürdülər.

Plenumun sonunda ADF MK-nın birinci katibi seçilmiş Əmrəli Lahrudi çıxış etdi. O dedi ki, «milli məsələ İran inqilabının ən vacib aspekti olaraq qalır. İranın müvəqqəti inqilabi hökuməti bəyan etmişdir ki, milli azlıqlara inzibati və mədəni muxtariyyət verilməsi məsələsini diqqətlə araşdıracaqdır... İran Xalq Partiyası milli məsələnin marksizm-leninizm mövqeyindən həll olunmasının tərəfdarıdır, hesab edir ki, İran inqilabının hazırkı mərhələsində milli məsələyə bütün ölkənin milli müstəqilliyinin təmin edilməsi nöqteyi-nəzərindən baxılmalıdır».

Partiyanın islama münasibətindən danışan ADF MK-nın birinci katibi qeyd etmişdir ki, «şiə məzhəbi min illər ərzində İran xalqını yadelli qəsbkarlara qarşı mübarizəyə səsləmişdir. Şiəlik bayrağı altında İran xalqları Abbasilər xilafəti və Osmanlı imperiyasına qarşı mübarizə aparmışdır, şiə ruhaniləri 1905-1911-ci illərdə Qacarlar sülaləsinin zülmünə son qoyulmasında fəal iştirak etmişdir. 20-ci illərdə Azərbaycan xalqının milli-azadlıq hərəkatına tanınmış din xadimi Məhəmməd Xiyabani başçılıq edirdi»[14].

Nəticədə plenum bütün mühacirləri referendumda iştirak etməyə və islam respubikasına səs verməyə çağırdı. ADF MK İcraiyyə Bürosuna tapşırıldı ki, İran Azərbaycanının muxtariyyət məsələsində mövqeyini müəyyənləşdirsin və siyasi mühacirlərin Vətənə repatriasiyası üçün zəruri olan tədbirləri görsün.

Təəssüf ki, Xomeyni xəttinin dəstəklənməsinə, kommunistlərin strateji məqsədlərə çatmaq naminə islamçılarla əməkdaşlıq etməyə hazır olmalarına baxmayaraq, onların bir çox arzu və istəklərinin həyata keçməsi qismət olmadı.

**Martın 31-də H.Əliyev ADF MK İcraiyyə Bürosunun üzvləri Q.Daneşyan, Ə.Lahrudi, M.Muciri, L.Ərdəbilyan, Q.Rəhmani, S.Əfmiyyət, Q.Xəyyami və digərlərini qəbul etdi[15].**

O, ADF-in mühacirət dövrü tarixini yada saldı, partiyanın həyatında müxtəlif vəziyyətlərin olmasını qeyd etdi, məsələn, ADF ilə İXP arasında kəskin fikir ayrılığı olan dövrləri. Əliyev xatırladı ki, «1974-cü ildə İsgəndəri mənim qəbulumda olarkən qəti surətdə ADF-nin ləğv olunmasını tələb edirdi. Onda mən soruşdum ki, bu nə ilə bağlıdır, niyə bu təşkilatı dağıtmaq istəyirsiniz?

İsgəndəri cavab verdi:

– Qoy İranda hamı bilsin ki, bundan belə ADF mövcud deyil.

Bu düşünülməmiş qərar idi və əgər biz partiyanın buraxılmasını elan etsəydik belə İranda buna inanan olmayacaqdı.

O vaxt mən İsgəndəri ilə ciddi danışdım və qəti şəkildə bildirdim ki, ADF qalmalıdır».

H.Əliyev söyləyir ki, mühacirət illərində ADF böyük yol keçmişdir, xeyli sayda ixtisaslı mütəxəssis hazırlamışdır və indi İranda vəziyyət fəal təşkilati-partiya işini və kütləvi-siyasi işi genişləndirməyə imkan verəndə «bütün partiya aktivini, bütün iranlı yoldaşları İrana kütləvi repatriasiyaya istiqamətləndirmək lazımdır».

H.Əliyev İran Azərbaycanındakı vəziyyətlə maraqlanır, ADF-nin işdə hansı problemlərlə üzləşdiyini soruşur.

Lahrudi Milli məsələnin kəskinləşdiyindən danışır, Kürdüstanda və İran Türkmənistanında milli məsələnin olduqca kəskin şəkil almasını, Ərdəbildə və Salmasda da yerli əhali ilə hökumət qoşunları arasında toqquşma hallarının olmasını qeyd edir.

Din xadimləri və İranın Müvəqqəti hökumətinin üzvləri Milli məsələyə fərqli yanaşırlar. Lahrudinin dediklərindən məlum olur ki, Xomeyni ilk vaxtlar qeyri-titul millətləri öz tərəfinə çəkmək üçün xeyli çevik hərəkət edirdi. O deyirdi ki, İranın bütün xalqları ana dilində oxumaq və təhsil almaq, qəzet və jurnal nəşr etmək, öz ostanları daxilində iqtisadi və sosial məsələləri idarə etmək hüququna malik olmalıdırlar. Eyni vaxtda Tələqani milli azlıqlara tam muxtariyyət verilməsinin əleyhinə çıxış edirdi.

Lahrudi H.Əliyevdən məsləhət istəyir:

«ADF-nin rəhbərliyində milli məsələni necə, hansı formada qoymaq haqqında dəqiq təsəvvür yoxdur. Biz bu gün yoldaşlarımızı milli muxtariyyətə istiqamətləndirməliyik, yoxsa diqqəti bütövlükdə İrana qayıtmaq məsələsi üzərində cəmləşdirməliyik?».

ADF MK İcraiyyə Bürosunun üzvü A.Rəhmani hesab edir ki, «öz milli hüquqları uğrunda dəfələrlə silahlı mübarizəyə qalxan Azərbaycan xalqına indiki şəraitdə islam respublikası çərçivəsində muxtariyyət məsələsinə biganə qalmaq yaraşmaz».

Daneşyan söyləyir ki, adamların Vətənə qayıtmasını təşkil etmək lazımdır. Partiyanın rəhbərliyini, MK üzvlərindən çoxunu, qəzeti və «Azərbaycan» jurnalını Təbrizə köçürmək lazımdır.

M.Müciri açıq şəkildə boynuna alır: «Biz gərək öz təbliğat işimizə yenidən baxaq. Açıq söyləsək, islamın məğzi marksist-leninçi dünyagörüşünə ziddir, lakin, aydın məsələdir ki, biz gərək təmas nöqtələri axtarıb tapaq, geniş xalq kütlələrini öz tərəfimizə çəkmək



üçün islam və elmi kommunizm arasında bizə xeyirli olan paralellər gətirək».

İcraiyyə Bürosu üzvlərini dinlədikdən sonra Heydər Əliyev olduqca xeyirli məsləhət və tövsiyələrin səsləndiyi proqram xarakterli nitqlə çıxış edir. Bu nitqdən geniş sitatlar gətiririk, çünki bu çıxış Azərbaycan kommunistləri liderinin İranda baş verənlərə, xüsusən də milli məsələyə münasibətini aydın göstərir.

«İrandakı yeni quruluş şahı xalqın düşməni elan etdi. Siz bunu 32 il bundan qabaq etdiniz və bu səbəbdən də təqiblərdən qaçmağa məcbur oldunuz. Buna görə də sizin repatriasiya məsələsini qaldırmağa və müsbət həll olunmasına nail olmağa qanuni əsasınız vardır.

Şəxsən mənə elə gəlir ki, siz iki istiqamətdə hərəkət edə bilərsiniz. Birincisi – Moskvadakı İran səfirliyi və Bakıdakı Baş konsulluq vasitəsilə tələblərinizin fəallaşmasını nəzərdə tutan rəsmi yoldur... Hər gün Xomeyniyə, Bazarqana, qəzet və jurnal redaksiyalarına ünvanlanmış məktublar, teleqramlarla müraciət etmək, İranın diplomatik nümayəndəliklərinin qapısını döymək lazımdır... Siz tərəfdən gedən nə qədər çox olarsa, İran Azərbaycanında mövqelərinizi möhkəmləndirməyə imkanınız bir o qədər artacaqdır.

İkinci yolun rəsmiliyi daha azdır: öz tanışlarınızdan, qohumluq əlaqələrinizdən istifadə edin, İran ictimaiyyətini onların vasitəsilə mübarizəyə qaldırmağa çalışın, mətbuatı, radionu, televiziyanı bu işə qoşun. İctimai rəyin təzyiqi altında hakimiyyət bu məsələni həll etməyə məcbur olacaqdır.

Çox güman ki, iki-üç aydan sonra sizlərdən bir çoxunuz Vətənə qayıda biləcəkdir. Hər şey ora gedir ki, hökumət repatriasiyaya razılıq verəcəkdir.

ADF İranda öz adı altında fəaliyyət göstərməlidir, bu sizin tərəfinizə daha çox adam cəlb edər, ancaq bununla belə yaddan çıxarmayın ki, siz İXP-nin tərkib hissəsisiniz... **Biz İranın vahid müstəqil dövlət kimi formalaşmasının tərəfdarıyıq** (burada və sonra seçmə bizimdir – ***E.A***), İXP-nin Xorasan və Mazandaranı, Azərbaycan və Kürdistanı, İranın digər əyalətlərini birləşdirən vahid Marksist-leninçi partiya kimi çıxış etməsinin tərəfdarıyıq. Ona görə də insanların beynəlmiləlçi əhval-ruhiyyəsini möhkəmləndirmək, öz aktivini İXP-yə hörmət ruhunda tərbiyə etmək lazımdır.

Siz gərək bundan sonra da bu meyli gücləndirəsiniz, İXP rəhbərliyinə inam və hörmətə nail olmalı, farslar və azərbaycanlılar arasında birliyi möhkəmləndirməlisiniz... İndi, TUDƏ-nin fəaliyyəti praktik olaraq rəsmiləşəndə, birliyin, həmrəylik və yekdilliyin möhkəm-

ləndirilməsi məsələləri mühüm siyasi əhəmiyyət kəsb edir. Yadınızda saxlayın, birlik – İranda müvəffəqiyyəti təmin etmək üçün ən mühüm şərtdir. Burada siz bizim himayəmiz altında yaşayırdınız və İXP ilə münaqişələrdə, mübahisəli hallarda hakim rolunda çıxış etməyə kimsə var idi. İranda bu olmayacaq.

İndi ölkə miqyasındakı məsələlər barədə. Kürdlər həqiqətən milli muxtariyyətə nail olmaq istəyirlər, türkmənlər də əldə silah hakimiyyətə qarşı çıxış edirlər. Azərbaycanda hələlik sakitlikdir. Bu nə ilə izah olunur?

1946-cı ildə milli-demokratik hərəkat yatırılandan sonra İran şahı İran Azərbaycanında böyük işlər apardı, bu rayonu SAVAK-ın ona daha sadiq olan inanılmış işçiləri ilə gücləndirdi. Ona görə də xalq tərpənə bilmirdi, gözü qorxmuşdu, çünki inqilab alovlarında əlini yandırması birinci dəfə deyildi. Şəxsən mənə elə gəlir ki, Azərbaycan xalqı hələ oyanmayıb, gözləyir.

Təbrizdə çıxış edərkən Bazarqan boynuna aldı ki, pis azərbaycanlıdır, çünki ana dilini bilmir. Məgər əsas məsələ budur? Əsas – xalqa mənsub olduğunu başa düşməkdir, milli ruhunu qoruyub-saxlamaqdır. Bilirsiniz ki, son on ildə respublikada sosial-iqtisadi və mədəni inkişafda olan geriliyin aradan qaldırılması üçün böyük işlər görülüb. Respublikanın ölkədə nüfuzunu qaldırmağa yönəlmiş xeyli tədbir həyata keçirdik. Doqquz ildir ki, biz Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, ÜİHİMŞ-in, ÜİLKGİ MK-nın keçici Qırmızı bayrağını alırıq. Bu yaxınlarda Sov.İKP MK Baş katibi, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri L.İ.Brejnev yoldaş Bakıya Lenin ordenini təqdim etmişdir. Sov.İKP MK tərəfinən belə yüksək qiymət Azərbaycan xalqını ruhlandırır, onun milli qürur hissini yüksəldir. İndi hər yerdə Azərbaycan haqqında danışırlar. Bununla yanaşı Azərbaycan xalqı Sovet İttifaqının ən beynəlmiləlçi xalqlarından biridir.

Digər tərəfdən bəlkə elə yaxşıdır ki, İran Azərbaycanında hələ muxtariyyət uğrunda hərəkat yoxdur. Nəzərə almaq lazımdır ki, Xomeyni və Bazarqan Azərbaycan xalqının ayağa qalxmasından qorxurlar. Ona görə bu gün gərək onları qorxutmayaq, daha yaxın məqsədlərə nail olmaq lazımdır.

Mən hesab edirəm ki, inqilabın bu mərhələsində **siz milli muxtariyyət verilməsini tələb etməməlisiniz, xüsusən də silaha sarılmamalısınız.** Bunun xeyri olmayacaq, yalnız İrandakı şəhpərəst qüvvələri qıcıqlandıracaqdır. Azərbaycan vahid islam dövləti çərçivəsində inkişaf etməlidir. Bununla yanaşı, Azərbaycan özünü bildirməlidir. Mətbuatda çıxış etmək, əhali arasında iş aparmaqla nümayiş etdirmək lazımdır ki, Azərbaycan da ana dilində məktəblərin olması, özünəməxsus mədəniyyətini inkişaf etdirmək istəyir.



İndiki rejimin ömrü uzun ola bilməz. Ona görə də indi İranda baş verən təmizləmə prosesində olduqca fəal iştirak etmək, mümkün qədər çox üstünlük qazanmaq üçün ölkədə olan boşluq və qeyri-müəyyənlikdən istifadə etmək lazımdır, həmişə və hər işdə hadisələrin önündə olmağa can atmaq lazımdır.

**Şəxsən mən hesab edirəm ki, İran federativ dövlət kimi inkişaf edə bilər.** Tələqanının Azərbaycan xalqı 2500 il ana dilindən məhrum olmuşdur deməsi ümid verir ki, Xomeyni insanların milli müstəqilliyə can atmalarını nəzərə alacaqdır.

**Sovet və İran Azərbaycanının birləşməsi haqqında heç bir söhbət ola bilməz.** Bu, ziyanlı fikirdir, bizim bütün niyyətlərimizi beşikdəcə boğa bilər. Zavod, fabrik, qəzet, mədəni-maarif müəssisələrinin sahibləri ilə əlaqə yaradın, onlarda milli qürur oyadın, dəstəklərini qazanın».

Cavabında iranlı yoldaşlar H.Əliyevə qiymətli məsləhətlər üçün təşəkkürlərini bildirdilər. Lahrudi isə xüsusi qeyd etdi:

«Biz sizə Azərbaycan xalqı üçün və biz, İran siyasi mühacirləri üçün bütün etdiklərinizə görə xüsusi minnətdarlığımızı bildirmək istəyirik, çünki sizin burada etdikləriniz Arazın o tayında əks-səda verir, zəhmət adamlarının arzu və ümidlərini, azərbaycanlıların milli qürurunu möhkəmləndirir. Arxayın ola bilərsiniz ki, biz, sizin məktəbinizi keçmiş İran kommunistləri, öz xalqımıza sədaqətlə xidmət edəcəyik».

D.Müciri: «Biz heç zaman unutmayacağıq ki, ADF öz varlığı ilə şəxsən sizə borcludur, Heydər Əliyeviç».

Heydər Əliyevin İran kommunistləri qarşısında proqram xarakterli çıxışı – təcrübəli siyasətçinin, dərindən düşünən və uzaqgörən dövlət xadiminin nitqidir. Bir tərəfdən bu xalqın övladı kimi o, Cənubi Azərbaycanın müstəqillik, heç olmasa milli-mədəni muxtariyyət qazanmasını ürəkdən istəyir, ona görə də İranın federativ dövlət şəklində mövcud ola bilməsindən danışır. Digər tərəfdən, 1946-cı ilin acı təcrübəsini, muxtariyyət arzularının onminlərlə insanın qanında boğulmasını yada salaraq o, ADF liderlərini ehtiyatsız addımlardan, xüsusilə, silahlı mübarizədən çəkindirir. Eyni zamanda Heydər Əliyev İran siyasi mühacirlərini silkinməyə, onların tarixi vətənində gedən proseslərə fəal qoşulmağa, Azərbaycan xalqını öz

hüquqları uğrunda, hər şeydən öncə ana dilində oxumaq, mədəniyyətini inkişaf etdirmək hüququ uğrunda mübarizəyə qaldırmağa çağırır.

1979-cu il iyulun 9-da Ə.Cəbrayılov ADF MK-nın birinci katibi Əmrəli Lahrudi ilə İXP MK-nın katibi Ənuşirəvan İbrahiminin Moskvada baş tutmuş görüşü haqqında H.Əliyevə təqdimat yazır. Bu yazıya əsasən İranda artıq «ruhanilərin irticaçı təbəqələri və rəsmi hakimiyyətin ayrı-ayrı qərbyönlü nümayəndələri tərəfindən geniş antikommunist kampaniyasının başlanması əlamətləri görünür... TUDƏ-dən olan yoldaşlar bunun arxasında irticanın ölkədəki sol qüvvələrə qarşı aktiv hücumunun gizləndiyini istisna etmirlər...»[16].

Bundan başqa İranda İXP-nin yerli üzvləri ilə mühacirətdən qayıdanlar arasında kəskin fikir ayrılığı başlamışdır.

İbrahimi söylədi ki, «İran inqilabının inkişafı zamanı və ondan sonra Azərbaycan əhalisi arasında demokratik və milli təmayüllər kəskin şəkildə artmışdır. Azərbaycan dilində kitab, kitabça, vərəqələr çap olunmağa başlamışdır. Marksist-leninçi ədəbiyyatla yanaşı açıq satışa Azərbaycan ədəbiyyatının klassikləri – Sabir, C.Məmmədquluzadə, N.Nərimanov, S.Vurğun, M.İbrahimovun əsərləri çıxarılmışdır. Bütün keçirilən tədbirlərdə, bütün mitinqlərdə Azərbaycan dili səslənir, ana dilində şerlər oxunur. Azərbaycanın bir çox şəhərlərində məqsədləri Azərbaycan xalqının milli özünüdərkinin, dilinin və mədəniyyətinin inkişaf etdirilməsi olan, cəmiyyət və təşkilatlar, o cümlədən «Azərbaycan mədəniyyət işçiləri təşkilatı» yaradılmışdır. Təbrizdə ADF-nin orqanı – gündəlik «Azərbaycan» qəzeti çıxır...

Təbrizdə Azərbaycanın Azadlığı Tərəfdarları Partiyası aktiv fəaliyyət göstərir. Onun çap orqanları «Azadlıq» qəzeti və «Yoldaş» jurnalıdır. Bu yaxınlarda jurnalda AATP-nin İran Azərbaycanına muxtariyyət, həmçinin İranda yaşayan bütün xalqlara və milli azlıqlara hüquq bərabərliyi verilməsi tələbini irəli sürən proqramı çap edilimşdir»[17].

Respublika DTK-sının xarici kəşfiyyat xidmətinin sabiq rəisi İ.Hüseynov Azərbaycan çekistlərinin bu istiqamətdəki fəaliyyətini xatırlayır:

«...İran üzrə iş həmişə böyük gərginlik və qüvvə tələb edirdi. Xüsusən də yetmişinci illərdə.

Daxil olan informasiya təsdiq edirdi ki, İran şahı Məhəmməd Rza Pəhləvinin hakimiyyəti çox güclüdür. Onun ixtiyarında müasir



silah növləri ilə təchiz edilmiş güclü ordu və möhtəşəm repressiya aparatı – SAVAK var idi. Nə sovet kəşfiyyatı, nə ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi ağlına belə gətirməzdi ki, yaxın illərdə İranda şah rejiminə son qoyan inqilab baş verəcək. Ona görə də sovet hökuməti İranla, şahla münasibətləri yaxşılaşdırmağa yönəlmiş tədbirlər görürdü, kəşfiyyatımızın fəaliyyəti isə İranı ABŞ-ın nəzarətindən qopartmaq məqsədilə əsas etibarilə Amerikaya qarşı yönəlmişdi».

70-ci illərdən başlayaraq SSRİ-yə əhalinin şah rejimindən narazılığının artması və ruhanilərin təsirinin güclənməsi barədə məlumat gəlməyə başladı. 1978-ci ilin sonunda isə inqilabi vəziyyət əsl iqlaba çevrildi. 1979-cu il yanvarın 16-da şah ölkəni tərk etdi. Elə həmin gün müxtəlif şəhərlərdə qoyulmuş şah və onun atasının heykəlləri uçurduldu. Fevralın 12-də inqilab qələbə çaldı, hakimiyyətə ruhanilər gəldilər.

«Biz daim İranda baş verən hadisələri izləyir, Moskvaya məlumat verirdik, – İ.Hüseynov xatırlayır. – Bizim bütün məlumatlardan istifadə olundu və yüksək qiymətləndirildi...

Bəzi tarixçilər hesab edirlər ki, şah əleyhinə hərəkat kortəbii yaranmışdı. Mənim fikrimcə isə İran xalqı bü inqilaba çoxdan, addım-addım gəlirdi. Sol qüvvələr də kənarda qalmamışdı, inqilabda fəal iştirak edirdilər. Belə ki, hələ 1941-ci ildə yaranmış İran Xalq Partiyası (TUDƏ), şah rejimi dövründə amansız repressiyalara məruz qalaraq gizli və mühacirətdə fəaliyyət göstərmişdir. Cənubi Azərbaycanda bu partiyanın işi Azərbaycan Demokrat Firqəsi çərçivəsində həyata keçirilirdi. Xomeyninin antiamerika xəttini dəyərləndirən TUDƏ, onun dəstəklənməsini bəyan etdi. Sovet İttifaqı da İranın daxili işlərinə qarışmayacağı haqda bəyannaməyə baxmayaraq inqilabı dəstəklədi, çünki onun antiamerika yönümü ona sərf edirdi. Buna görə də Sov.İKP MK TUDƏ və ADF-yə həm DTK-nın xaricdəki rezidenturası, həm də bizim vasitəmizlə lazımi köməklik göstərirdi. Məsələn, bizim üzərimizə vəzifə qoyulmuşdu: partiya funksionerlərinin qəbul edilməsi və sərhədin Azərbaycan hissəsində o tərəfə keçirilməsi»[18].

**Tarixçi Cəmil Həsənlinin söhbətindən:**

*«Təəssüf ki, İrandakı hadisələr Moskvada düşünüldüyü kimi cərəyan etmədi. Xomeyni özü hakimiyyətə əsl lider kimi gəldi. Əvvəlcə o, Amerikanı İranın başlıca düşməni elan etdi. Bundan qabaq daha bir maraqlı məqam olmuşdu: Amerikanın onu müdafiə etmək və monarxiyanı qorumaq üçün heç bir ciddi səy göstərmədiyinə əmin olandan*

*sonra, şah Tehrandakı sovet səfirinin yanına gəlib söyladi: mən amerikanlarla bütün əlaqələri kəsirəm, Amerika bazalarını İran ərazisindən çıxarıram və Sovet İttifaqı ilə əlaqələri qaydaya salıram. O vaxt inqilabın başlanmasına təxminən iki ay vaxt qalırdı. Sovet səfiri Moskvaya yollandı və şahın təkliflərini çatdırdı. Moskva bu təklifləri qəbul etmədi və səfir şahın devrilməsinə qədər bir daha Tehranda görünmədi. Ancaq Qromıko da, Suslov da, Ponomaryov da Xomeynini dəstəkləmək və islam inqilabı barədə TUDƏçilərlə fəal danışıqlar aparırdılar. Hadisələrin sonrakı inkişafı nəinki Xomeyni ilə əməkdaşlığın, bütövlükdə İXP-nin siyasi mövqeyinin də xam xəyal və hətta absurd olduğunu göstərdi.*

*Xomeyni Moskvanın bütün «kartlarını» qarışdırdı. O, kommunist təhlükəsi hiss edib ölkə daxilində TUDƏçilərlə mübarizə aparmağa başladı. İXP üzvləri kütləvi şəkildə İrana qayıdırdılar, lakin bir müddətdən sonra onların bir çoxu həbs edilib zindanlara atıldı. İnqilab vaxtı TUDƏ böyük itkilər verdi. Moskva strateqlərinin hesablamaları özünü doğrultmadı. İlk vaxtlar yola çıxmağa hazır olsalar da, ADF liderlərindən heç biri İrana gedə bilmədi».*

Qeyd etmək lazımdır ki, ADF funksionerlərini divan və repressiyalardan Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev xilas etdi: hiss edəndə ki, Xomeyni kommunistlərlə münasibəti sərtləşdirir, Heydər Əliyev Azərbaycan demokratlarının rəhbərlərini yanına çağırır və məsləhət görür ki, getmək məsələsində əlverişli zaman gələnə qədər gözləsinlər.

Buna baxmayaraq, çox güman ki, o özünü günahkar kimi hiss edirdi və bundan əzab çəkirdi: Moskvanın tapşırığını yerinə yetirərək o, Kiyanuriyə arxalanmışdı. Ancaq «halsız qocanın» məkrli niyyətlərini hiss edən və mənasız qurbanlara getmək istəməyən İsgəndəri doğru çıxmışdı. O çətin illərdə H.Əliyev heç şübhəsiz indiki vəziyyətlə uzaq 1946 il hadisələri arasında paralellər gətirirdi, o zaman da Moskva proqnozlarında yanılmış və eyni soyuqqanlıqla İran vətənpərvərlərini şah rejiminin pəncəsinə atmışdı. Əlbəttə, 1946-cı və 1979-1980-ci illərin repressiyaları müqayisəyəgəlməzdir. Ancaq Kreml başbilənləri heç olmasa bir qədər uzaqgörən olsaydı, bu repressiyalar olmaya da bilərdi.

Bəlkə elə məhz bu günah və Moskvanın yarımçıq qərarlarına qarşı daxili etiraz hissi, Heydər Əliyevi keçən fəsillərdə Elçinin dilindən qələmə aldığımız görünməmiş addım atmağa vadar etmişdir. 1982-ci ildə xarici diplomatlarla söhbət zamanı H.Əliyev açıq bəyan etmişdi ki, Cənubi və Şimali Azərbaycanda eyni vahid xalq



yaşayır və o inanır ki, həqiqət nə vaxtsa zəfər çalacıqdır. Bu, SSRİ-nin Əfqanıstana müdaxilə etməsini sərt pisləyən İİR rəhbərliyinə ünvanlanmış sözlər idi. Əgər ilk vaxtlar SSRİ İran inqilabına antiimperialist və xalq inqilabı kimi baxırdısa da, tezliklə o başqa istiqamət götürdü. Hər halda «Nə Şərq, nə Qərb» şüarı ABŞ və Sovet İttifaqı arasında fərq qoymadı. 1982-ci ilin əvvəlində SSRİ İraqa silah göndərməyi bərpa etdi (bu ölkə o vaxt İranla müharibə aparırdı), ancaq Suriya və Livana da İrana sovet silahı göndərməyə mane olmadı. İranda kommunistlərə və onlara rəğbət bəsləyənlərə qarşı sərt mübarizə başlandı. İran rəhbərliyinin özündə o vaxt Moskva ilə münasibətlər məsələsində birlik yox idi. İran prezidenti Əli Xameneinin tərəfdarları imperialist ölkələri ilə əlaqələri qınıb SSRİ ilə yaxınlaşmağı tələb edirdilər. İslam Məclisinin sədri Əli Əkbər Haşemi-Rəfsancaninin tərəfdarları isə tələb edirdilər ki, Sovet İttifaqına da ABŞ kimi «böyük şeytan» qismində baxılsın.

İranla münasibətlərin mürəkkəbləşməsini nəzərə alan H.Əliyev cənub qonşusuna «barmaq silkələməyi» özünə rəva bildi, başa saldı ki, sovet rəhbərliyi lazım gələrsə Azərbaycan «kartından» istifadə edə bilər. O vaxt o belə hərəkəti edə bilərdi, çünki Şimali Azərbaycan qüdrətli imperiyanın tərkibində idi və İran tərəfdən onun vətəninə heç bir qorxu yox idi. Cəmil Həsənli də belə hesab edir ki, bölünmüş xalq haqqında sözlər emosional hisslərin yox, Heydər Əliyev tərəfindən atılmış düşünülmüş addımın nəticəsi idi. Bu siyasətçi heç bir sözü qarasına demirdi, heç bir işi kor-korana görmürdü. Hər şeyi qabaqcadan ölçüb-biçirdi.

Azərbaycan yazıçılarının 7-ci qurultayında yazıçıları Cənubi Azərbaycan mövzusuna daha çox diqqət yetirməyə çağıranda da, onun təşəbbüsü ilə Yazıçılar ittifaqının ştatı genişlənib, Balaş Azəroğlu Cənubi Azərbaycan üzrə katib olan da, Elmlər Akademiyasında XIX-XX əsr Cənubi Azərbaycan ədəbiyyatını öyrənən xüsusi şöbə yaranarkən də, o, bu addımları ətraflı düşünüb etmişdi.

Bu, növbəti dəfə arzuların puç olmasına Azərbaycan rəhbərinin reaksiyası idi.

Desək ki, bu cavabı İranda «qiymətləndirdilər», hesab edin ki, heç nə deməmişik. Praktik olaraq bütün xarici radiostansiyalar Heydər Əliyevin sözlərini sitat gətirdilər, İranın Moskvadakı səfiri isə izahat üçün təcili olaraq islam respublikasının rəhbərliyinə çağırıldı.

**«Bi-Bi-Si» radiostansiyasının həmin gün efirə verdiklərindən:**

«Heydər Əliyev Kirilenkonun yerinə Siyasi Büroya seçilib. İran dövləti Azərbaycandakı vəziyyəti və Heydər Əliyevin Azərbaycan

haqqında dediyi sözləri diqqətlə izləyir. Onun bu yüksək vəzifəyə seçilməsi İran rəhbərliyinin diqqət mərkəzindədir.

Əliyev – iki Azərbaycanın birləşməsi tərəfdarıdır və bu barədə açıq söyləyir. Diplomatlarla görüşdə o qeyd etmişdir ki, Sovet Azərbaycanının 6 milyon əhalisi vardır. Sosializm şəraitində Sovet Azərbaycanı inkişaf etmiş respublikaya çevrilmişdir. Lakin İrandakı 10-15 milyon azərbaycanlı dözülməz şəraitdə yaşayırlar.

Bu görüşdə Əliyev diplomatlara demişdir ki, iki Azərbaycan birləşməlidir. O qeyd etmişdir ki, bu onun şəxsi fikridir. Bu birləşmə hansı formada baş verəcək bunu Azərbaycan xalqı özü müəyyən etməlidir.

Əliyevin bu fikirlərini İranın Moskvadakı səfiri İran rəhbərliyinə təfsilatı ilə çatdırmışdır».

*(«Bi-Bi-Si», 23 noyabr 1982-ci il)*

«Heydər Əliyevin bəyanatı, hətta o öz şəxsi fikrini bildirirsə belə, İran rəhbərlərinin xoşuna gələ bilməz. Əgər onun sözlərindən belə nəticə çıxarılsa ki, SSRİ İranın işlərinə qarışır, bunu onunla izah etmək olar ki, İran rəhbərlərinin sovet müsəlmanlarına çağırışları Sovet İttifaqını təngə gətirib»

*(Fars dilində «Bi-Bi-Si», 24 noyabr 1982-ci il)*

## Sovet-İran sərhədində gərginliyin artması

1979-cu ilin 24 dekabrında sovet qoşunları «beynəlmiləlçilik köməyi» göstərmək üçün Əfqanıstana daxil oldular. SSRİ qərbdəki neft böhranından sonra öz hərbi qüdrətinin zenitində idi. Qərbdə hesab edirdilər ki, Əfqanıstana müdaxilə daha irimiqyaslı planların başlanğıcıdır, Əfqanıstana isə bu planlarda əməliyyat meydanı və ya istehkam rolu ayrılmışdır.

Bir Allah bilir ki, sovet strateqləri nə haqda düşünürdülər, ancaq fakt faktlığında qalır: 1980-cı ilin əvvəli üçün Sovet-İran sərhədində 1921-ci ildə bağlanmış müqaviləyə əsasən istənilən an İran ərazisinə yürüşə hazır olan 22 diviziya cəmlənmişdi. Bu gün sovet hərbçiləri deyirlər ki, bu, İrana hərbi zərbə endirmək niyyətində olan Amerika administrasiyasının planlarına cavab olaraq məcburi addım idi. Guya Karter İrana qarşı hərbi müdaxiləyə hazır olan sovet ordusunun iri hərbi hissələrinin İran-Sovet sərhədində cəmləşməsi haqqında kəşfiyyat məlumatları alandan sonra bu fikirdən daşınmışdır.



İran ətrafındakı hadisələr və sovet qoşunlarının Əfqanıstana yeridilməsinin gizlin səbəbləri haqqında mənə söhbət əsnasında SSRİ DTK sədrinin keçmiş birinci müavini Filip Bobkov danışdı:

«Biz qoşunlarımızın Əfqanıstana daxil olması haqqında mülahizə yürüdəndə müxtəlif dəlillər gətiririk, ancaq bu dəlillər içərisində çox vacib bir məqam nəzərə alınmır: sovet qoşunları Əfqanıstana daxil olmazdan əvvəl amerikalıların dəniz piyadaları İran körfəzində artıq cəmlənmişdi. İrandakı səfirliyinin əməkdaşlarına yardım göstərmək üçün amerikanlar desant çıxarmağa hazırlaşırdı. Bilirsiniz ki, 1979-cu ildə orada səfirlik ətrafında iri münaqişə yaranmışdı. Belə olduqda, ABŞ Tehrana qoşun yeridilməklə iranlıları cəzalandırmaq qərarına gəldilər. Qoşun yeridilməsi yaxın günlərdə baş tuta bilərdi və bu hal həlledici idi. Çünki amerikalılar İrana qoşun çıxarsaydı, müqaviləyə əsasən biz də həmin yolu tutmalı idik. Bir-birinə qarşı İranda iki qüvvə hərəkət edir. Təsəvvür edirsinizmi bu, nəyə gətirib çıxara bilərdi?

Biz Əfqanıstana daxil olanda, diqqəti yayındırdıq, amerikalıların desant çıxarmaq məsələsi dayandırıldı. Bizim aksiyamız faktiki olaraq amerikalıların İrana girmək imkanlarını əlindən aldı, çünki Orta Şərqdə vəziyyət dəyişmişdi. Yəni İran faktoru qoşunların Əfqanıstana daxil olmasında öz rolunu oynadı».

Hər necə olursa olsun, Əfqanıstana hərbi müdaxilədən sonra da İran körfəzində və Sovet-İran sərhədində vəziyyət olduqca gərgin olaraq qalırdı.

**SİTA-nın məlumatından:**

**«Vaşinqton. 25 aprel 1980-cı il.** C.Karterin administrasiyası İran İslam Respublikasına qarşı hərbi provokasiya həyata keçirmişdir. Ağ ev nümayəndəsinin bu gün gecə təcili çağırılmış mətbuat konfransında elan etdiyinə görə, İran ərazisində, ayrıca bir yerdə, səhra şəraitində yaradılmış gizli aerodromdan Amerikanın Tehrandakı səfirliyinin bu ölkəyə qarşı casusluq fəaliyyətində günahlandırılan əməkdaşlarını azad etmək üçün desant əməliyyatı planlaşdırılırdı.

Lakin əməliyyat, Ağ evin bəyanatında deyildiyi kimi, «texniki nasazlıq» üzündən baş tutmamışdır. Yerdə iki Amerika təyyarəsi toqquşmuşdur, nəticədə təyyarələrin 8 heyət üzvü həlak olmuşdur. Bir neçə Amerika hərbi qulluqçusi yaralanmışdır. Planlaşdırılan əməliyyatın bütün digər üzvləri evakuasiya edilmişdir.

Prezident C.Karter bu aksiyaya görə bütün məsuliyyəti öz üzərinə götürmüşdür».

«**Nyu-York. 25 aprel.** (SİTA). Pentaqonun İran sahillərində toplanmış ən böyük hərbi-dəniz donanmasına qatılmaq üçün başda «Konstelleyşn» təyyarə gəmisi olmaqla ABŞ Hərbi Dəniz Qüvvələrinin Hind okeanına yollanan zərbəçi qrupu bu gün Sinqapurun yaxınlığından keçmişdir. Bu barədə diplomatik mənbələrə istinadən YUPİ xəbər vermişdir.

«**Tehran. 25 aprel.** (SİTA). Birləşmiş Ştatların İrana qarşı hərbi təcavüzünün uğursuzluğa düçar olması ilə əlaqədar İran İslam Respublikasının birləşmiş ştabı bəyanatla çıxış etmişdir.

Bəyanatda o cümlədən deyilir ki, içində Tehrandakı ABŞ səfirliyi ərazisinə desant çıxarmaq üçün nəzərdə tutulan MKİ (SRU) agentləri və dəniz piyadaları olan iki Amerika hərbi təyyarəsi İran HHQ-nin təyyarələri tərəfindən təqib olunan zaman toqquşaraq alışmış və İran əyaləti Xorasanın şimal-şərqində yerləşən Tebes şəhərinin civarında yerə düşmüşdür».

«**London**. Bu gün icma palatası deputatlarının böyük bir qrupu – leyboristlər – parlamentdə qərar layihəsi təqdim etmişdir. Layihədə həmçinin deyilir: «Biz girovların azad olunması üçün güc tətbiq edilməsinə qarşıyıq, iri dünya münaqişəsinə səbəb ola biləcək hər hansı hərbi əməliyyatın əleyhinəyik». Deputatlar Ağ evin İrana qarşı heç bir hərbi tədbir görməyəcəyi barədə qəti təminat verməyəcəyi təqdirdə girovların azad olunması probleminin həllində ABŞ-la əməkdaşlığı dayandırmağı İngiltərə hökumətindən tələb etmişlər».

«**Ottava. 25 aprel.** (SİTA). Kanadanın Baş naziri P.Trüdo mətbuat konfransında bəyan etmişdir ki, Birləşmiş Ştatlar tərəfindən İrana qarşı güc tətbiq edilməsi təhlükəlidir və İran böhranının həllinə gətirməyəcəkdir, əksinə, onun daha da kəskinləşməsinə səbəb ola bilər».

İran ətrafında cərəyan edən hadisələr bizim respublikaya bilavasitə toxunurdu və Azərbaycanın lideri onların ən fəal iştirakçısı idi. İranla sərhəddə sovet qoşun və hərbi texnikasının toplanması davam edirdi, Qala qəsəbəsindəki hərbi-hava bazasına isə bir-birinin ardınca Müdafiə nazirliyi və sərhəd qoşunlarının yüksək rütbəli zabitlərini gətirən təyyarələr enirdi. SSRİ DTK sərhəd qoşunları rəisinin müavini general-polkovnik Revenko vəziyyəti yerində öyrənirdi və hər 5-6 saatdan bir Moskvaya məruzə edirdi. İranla sərhəddə dislokasiya olunmuş hərbi hissələrin döyüş hazırlığını nümayiş etdirmək üçün hətta təlim keçirilməsi də qərarlaşdırılmışdı.



4-cü ordunun siyasi şöbəsinin keçmiş rəisi Aleksandr Qudkov mənimlə söhbətdə o hadisələri xatırlayırdı:

«Bizim başlıca vəzifəmiz İrandakı inqilabla əlaqədar Azərbaycan sərhədlərinin qorunmasını təmin etmək idi.

İran İslam Respublikasında hadisələrin necə inkişaf edəcəyini qabaqcadan beç kim deyə bilməzdi. Birdən Amerika işə qarışdı və ya iranlıların dini fanatizmi yenidən oyandı. İranın sərhədyanı rayonlarının əhalisinin çəpərləri söküb Azərbaycan ərazisinə keçməsi təhlükəsi var idi. Təhlükə olduqca real idi, axı İranın Azərbaycanla sərhədində, əsasən, azərbaycanlılar yaşayırdı.

**– Yəqin ki, Heydər Əliyev də vəziyyəti izləyirdi?**

– Əlbəttə, biz ona vaxtaşırı məlumat verirdik. O daim Lənkəran, Astara, Naxçıvandakı vəziyyətlə maraqlanırdı, detallara diqqət yetirirdi. Heydər Əliyeviç bizim məruzələri diqqətlə dinləyirdi, hərbçilərin əhval-ruhiyyəsi ilə maraqlanırdı, həmsərhəd ərazidə baş verən hadisələr, sərhədi keçmək cəhdlərinin olub-olmaması və s. barədə soruşurdu».

**4-cü ordunun sabiq komandanı A.Kovtunovun xatirələrindən:**

«1979-cu ilin yanvarında hadisələr çox qızğın şəkildə güclənirdi. Hətta belə bir məqam oldu ki, mən sovet qoşunlarının Naxçıvan tərəfdən – Culfadan İrana daxil olmasına real hazırlıq görmək haqqında əmr aldım. Dördüncü ordu Azərbaycanda yerləşirdi, o cümlədən Naxçıvanda və Qarabağda. Biz məlumat almışdıq ki, amerikalılar İrana girə bilərlər. Mən aldığım əmri Heydər Əliyevə məruzə etdim. Dedim ki, belə tapşırıq almışam. O deyir: «Xəbərim var. Almısan – yerinə yetir. Hazırlıq barədə məruzə edərsən». Onun baş verənlərə münasibətini soruşmurdum. Bu məsələlər Moskvada həll olunurdu, bizim işimiz isə əmri icra etməkdi. Onun hərbçi adam kimi, MK-nın 1-ci katibi kimi artıq söz danışmağa ixtiyarı yox idi, çünki dedikləri o saat bütün dünyaya yayılırdı. Sonra eşidirik ki, SİTA-nın təkzibini verirlər. İran hökuməti bəyan etdi ki, sovet ordusu Naxçıan-Culfa tərəfdən qoşun çıxarmağa hazırlaşır. Bizə əmr etdilər ki, hər şeyi dayandırıb öz yerlərimizdə qalaq».

Xoşbəxtlikdən Brejnev və onun ətrafı son həddi keçmədilər. Kim bilir, sovet qoşunları İranı daxil olsaydı, SSRİ və ABŞ qarşıdurması nə ilə nəticələnəcəkdi? Dəqiq bilmirəm, ancaq yüz faiz əminəm: cənub sərhədlərində vəziyyət kəskinləşən dövrdə Kreml rəhbərliyi Azərbaycanın lideri ilə daimi məsləhətləşmələr aparırdı.

Kremlin Yaxın və Orta Şərq siyasəti məsələlərində Heydər Əliyevin fikri ilə hesablaşması barədə çox saylı şəhadətlər vardır. 70-ci illərin ortalarında İrandakı sovet səfirliyi nümayəndələrinin bəzi məlumat və arayışları məhz ona, Heydər Əlievə göndərdiklərini söyləmək kifayətdir. Bu arayışlar, əsasən, Cənubi Azərbaycandakı vəziyyətlə bağlı idi – azərbaycanlıların təhsil hüquqlarının pozulması, ana dilində qəzet və kitab nəşri, iqtisadi tənəzzül və s.

Üçüncü kitabda biz Yuri Andropovun sovet xarici siyasətinin «şərqi asiya» istiqamətinə kurətorluğu SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini, Siyasi Büronun üzvü H.Ə.Əliyevə tapşırmasından və üzərinə qoyulan bu vəzifənin öhdəsindən onun necə müvəffəqiyyətlə gəlməsindən danışacığıq.

Ancaq əvvəlcə gərək qəhrəmanımızın belə yüksək vəzifələrə necə və hansı şəraitdə təyin olunduğu, H.Əliyevin ölkədə yaranmış ənənələrin yenə də əksinə olaraq, Azərbaycan KP MK-nın 1-ci katibi vəzifəsinə varisi özü seçdiyi barədə danışaq.



[1] Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (DSPİHA). Fond 1, siyahı 89, iş 213, vərəq 83.
[2] AR DSPİHA. F. 1, siyahı 89, iş 211, vərəq 1-8.
[3] AR DSPİHA. F. 1, siyahı 89, iş 211, vərəq 6-9.
[4] Yenə orada, vərəq 14-22.
[5] Yenə orada, vərəq 22-26.
[6] Yenə orada, vərəq 26-30.
[7] Yenə orada, vərəq 31-41.
[8] Yenə orada, vərəq 42-50.
[9] Yenə orada, vərəq 56-57.
[10] Yenə orada, vərəq 68.
[11] Yenə orada, vərəq 95.
[12] Yenə orada, vərəq 84-86.
[13] Yenə orada, vərəq 97-98.
[14] Yenə orada, vərəq 101-102.
[15] Yenə orada, vərəq 112-115.
[16] AR DSPİHA. F. 1, siyahı 89, iş 211, vərəq 1-8.
[17] Yenə orada, vərəq 41-42.
[18] Гусейнбейли А. Интервью с генералом разведки. Баку, 1997. С. 49-50.

*On üçüncü fəsil*

# Qlobal dəyişikliklər

## «Sən burada lazımsan, Heydər!»

**1982**-ci il noyabrın 7-də Sov.İKP MK Baş katibi L.Brejnev Mavzoleyin tribunasından hərbi keçidi və zəhmətkeşlərin nümayişini sonadək seyr etmək üçün özündə güc tapdı. Kreml sarayındakı qəbulda hətta qısa nitq də söylədi. Lakin onun günləri artıq sayılmışdı.

Baş katibin son günləri V.Medvedevin «Arxada duran insan» kitabında təfərrüatı ilə təsvir olunur. Kreml rəhbərinin şəxsiyyət kimi sürətlə tənəzzülə uğramasından bəhs edən səhifələri oxumaq ağırdır. İş qabiliyyətini itirmiş bu adamın dünyanın ən güclü dövlətlərindən birini az qala təkbaşına idarə etdiyini fikirləşəndə isə daha ağır olur. Ancaq, təkbaşınamı? Ötən əsrin 90-cı illərində Leonid İliç işdən getmək, istefaya çıxmaq barədə ciddi düşünürmüş, lakin yaxın ətrafı hər vasitə ilə onu bu fikirdən daşındırmağa çalışıb. Bu faktı təsdiq edən dəlillər açıqlanmışdır. Çox heyif! Kim bilir, bəlkə də Andropov hakimiyyətə bir neçə il qabaq gəlsəydi, ölkədə hər şey başqa cür olardı? Qəhrəmanımın da boşa çıxan ümidlərinin sayı bir qədər azalmış olardı. Əfsus ki, tarix felin lazım formasını qəbul etmir.

Leonid İliç Brejnev 1982-ci il noyabrın 10-da səhər saat doqquz radələrində vəfat etdi. Baş katibin ölüm xəbərini xalqa yalnız ertəsi gün çatdırdılar. Dəfn mərasimi noyabrın 15-nə təyin olundu.

L.Brejnevin ölümündən bir neçə saat sonra Azərbaycan KP MK-nın birinci katibinə baş katibin köməkçisi Aleksandrov-Agentov zəng vurur və təcili olaraq Moskvaya gəlməsini xahiş edir.

Bu zəngdən sonra hadisələrin necə cərəyan etdiyini mənə H.Əliyevin mühafizə rəhbəri Aleksandr Alekseyeviç İvanov danışdı:

«Telefon düyməsinin işığı söndü, əlaqə kəsildi. Bu vaxt kabinetdən zəng gəldi. Rafael içəri girdi və o saat da çıxıb dedi: «Səni çağırır». İçəri keçirəm, Heydər Əliyeviç deyir ki, Moskvaya uçmaq lazımdır. Mənim fikrimi oxuyurmuş kimi, əlavə edir: «Heç bir xüsusi dəstə çağırmaq lazım deyil, biz saat yarım-iki saata uçmalıyıq. «Aeroflot»un rəisi Vaqif Sadıxovla əlaqə yarat, qoy təyyarə bazırlasın». Tapşırıq, açığını deyim ki, gözlənilməz idi. Moskvaya, DTK 9-cu idarəsinə zəng edirəm: biz hər halda məlumat verməli idik. Deyirəm ki, mühafizə olunan uçuş sifariş vermişəm, Azərbaycan «Aeroflot»unun təyyarəsi ilə uçacağıq. Yeri gəlmişkən, təyyarəni hələ tapmaq lazımdır. Sadıxlıya zəng edib deyirəm ki, təcili təyyarə hazırlanmalıdır, TU-134, Heydər Əliyeviç məhz bu təyyarəni istəyir. O şoka düşür: boş təyyarə, ekipaj tapmaq üçün cəmi iki saat vaxt vardır. Azərbaycan DTK-sına xəbər verdim ki, onlar ekipajı necə olursa attestasiya etsinlər, hazırlasınlar, çünki Siyasi Büro üzvlüyünə namizədin kiminlə oldu və nə ilə gəldi uçmasına yol verilmir. Moskvadan artıq zəng edirlər: nə oyun çıxarırsınız orada? Deyirəm: mənim mühafizə etdiyim şəxs uçur, onun göstərişidir. Evə adam göndərdik, onun üçün bəzi şeylər gətirdik. Üçümüz uçuruq: Heydər Əliyeviç, mən və Rafael Allahverdiev. Hava limanına çatdıq. Təyyarənin komandiri cavan oğlandır, əlbəttə ki, həyəcan keçirir. Heydər Əliyeviç onu yola salanlarla sağollaşana qədər, mən komandirə ürək-dirək verən sözlər deyirəm. Adətən xüsusi təyyarədə kreslolar, divanlar olur, burada isə adi salondur. Boş təyyarə və biz üçümüz – qeyri-adi gəlir adama. Sadıxlı mülki aviasiya nazirliyi ilə əlaqə saxlayıb uçuşa icazə alır. Bir sözlə, nəhayət havaya qalxırıq. Heç kim, hətta Heydər Əliyeviç də bilmir ki, niyə uçuruq. Baş katibin ölümü haqqında o yalnız biz ora çatandan sonra bildi – onu qarşılayanlardan eşitdi. Rafael o saat daimi nümayəndəliyə getdi. O Siyasi Büronun materialları ilə məşğul olurdu: gələndə, məlumat verir, koordinatlarını bildirirdi. Bundan sonra feldyeqer xidməti Heydər Əliyeviçə gələn paketləri, materialları ora gətirirdi. Rafael elə orada qalırdı, mən isə Heydər Əliyevlə bir yerdə Sov.İKP MK İşlər idarəsinə məxsus «Oktyabrskaya» mehmanxanasında. 304-cü nömrə həmişə onun üçün saxlanırdı, olmayanda otaq boş qalırdı. O vaxtlar bu, paytaxtın ən «sayılan» mehmanxanası idi. Mühafizə edilən adamlardan Moldaviyanın rəhbəri Bodyul, Türkmənistandan Qafurov və Ermənistanın «böyüyü» Dəmirçyan Moskvaya gələndə ora düşürdülər. Vorobyov dağlarında da qonaq evləri vardı, lakin əsasən xarici qonaqlar üçün istifadə



olunurdu. Heydər Əliyeviç Moskvada tək hərəkət edirdi, mühafizə maşını onu arxadan izləyirdi. Moskvaya çatan kimi o, MK-ya yollandı, mən isə mehmanxanaya – çemodanları yerbəyer etməyə. Heydər Əliyeviç hava limanından gedəndən sonra, həmkarlarım mənə Brejnevin ölümü barədə dedilər».

Noyabrın 12-də keçirilən Sov.İKP MK növbədənkənar plenumu Yuri Vladimiroviç Andropovu yeni baş katib seçdi. O düz 15 il, 1967-ci ilin mayından 1982-ci ilin mayına qədər SSRİ DTK-sının rəhbəri olmuş, cəmi altı ay isə ideologiya üzrə Sov.İKP MK katibi vəzifəsini icra etmişdi. Lubyankanın keçmiş rəisinin seçilməsi barədə xarici mətbuatda istənilən qədər, əsasən də xeyirxah şərhlər çap olundu. Andropovun bioqrafı, tarixçi Roy Medvedev yazır ki, qərb qəzet və jurnallarında Andropov haqqında oxumaq olardı ki, o «təzə Kennedidir, beynəlxalq məsələlər barədə yaxşı məlumatı var», digər Kreml rəhbərlərindən «öz mədəniyyəti ilə seçilir», Andropov – «gizli liberaldır, ingilis dilində yaxşı danışır, siyasi mötədilliyə və iqtisadi islahatlara meyillidir»... Hakimiyyət dəyişikliyini hətta Qərbə «göndərilmiş» və ya mühacirət etmiş sovet dissidentləri də Kremldə baş verən müsbət hadisə kimi qarşıladılar.

Əlbəttə, başqa fikirlər də səslənirdi. Hətta Qərb politoloqlarından bəziləri SSRİ-də polis çevrilişinin baş verdiyini, Y. Andropovun çoxdan bəri, altdan-altdan baş katib kürsüsünü özü üçün hazırladığını söyləyirdilər[1].

Andropovu yaxşı tanıyan və bir müddət onun şöbəsində məsləhətçi işləmiş akademik Arbatov bununla bağlı yazırdı:

«...Mənim müşahidələrim və təəssüratlarıma görə Y.V.Andropov mənsəbpərəstlikdən uzaq, «birinci» olmağa can atmayan siyasətçi idi. İstisna etmirəm ki, o özü haqqında Brejnevin səlafi qismində ancaq ona görə düşünməyə başladı ki, bu rola yararlı bir adam görmürdü. Andropovun özü, mənə elə gəlir ki, 1982-ci ilin əvvəlinə qədər bu yeni siyasi rola özünü hazırlamağa belə cəhd etmirdi»[2].

G.Arbatov xatırlayır ki, «Andropov başqalarına bənzəmirdi, onunla işləmək maraqlı idi. Formal sistemli təhsil almasa da (çay gəmiçiliyi texnikumu!), xeyli mütaliə etmişdi, çox şey bilirdi, erudisiya baxımından əksəriyyəti ali məktəb bitirməsə də heç olmasa, ali partiya təhsili almış rəhbərlikdəki həmkarlarından üstün idi. Bundan əlavə o istedad sahibi idi. Özü də təkcə siyasətdə yox. Məsələn, Yuri Vladimiroviç asanlıqla və mənim diletant nöqteyi-nəzərimdən

yaxşı şerlər yazırdı, musiqi duyumu var idi (yaxşı səsə malik idi, gitarada çalırdı, düzdür, bu barədə biz yalnız eşitmişdik)[3].

Andropovun məsləhətçiləri qrupuna daxil olmuş G.Şahnazarov isə onu belə səciyyələndirir:

«Andropov şəxsiyyətində ağlasığmaz tərzdə iki müxtəlif insan birləşmişdi – sözün normal mənasında rus ziyalısı və öz partiya borcuna fanatik sadiq olan və həyatının məqsədini partiyaya xidmət etməkdə görən məmur»[4].

D.Volkoqonov da «Yeddi rəhbər» kitabında yeni baş katibə oxşar xasiyyətnamə verir:

«Onun öz sələflərindən düşüncə genişliyi, analitik qabiliyyət, şəxsi təvazökarlıq, qeyri-adi dərrakəsinə görə fərqləndiyini inkar etmək olmaz. Bununla belə o iliyinə qədər Lenin məktəbi keçmiş çekist idi»[5].

Məhz elə buna görə Yuri Andropov rəhbərliyə gələn kimi hər şeydən əvvəl ölkədə qayda-qanun yaratmaq istədi: qeyri-qənaətbəxş icra intizamına, partiya-dövlət aparatındakı korrupsiyaya son qoymaq, ölkə həyatının bütün sahələrinə gizli iqtisadiyyat və mafioz strukturların təsir qüvvəsinin artması səbəblərini araşdırmaq. Belə bir mübarizəyə başlayanda o İttifaqda birinci olaraq cinayətkarlıq və korrupsiyaya qarşı əsl müharibə elan etmiş adamı yada salmaya bilməzdi.

Yeni baş katibin proqram xarakterli çıxışı və qəhrəmanımızın həyatında yeni sərt dönəni qaçılmaz edən Sov.İKP MK-nın payız Plenumu hələ Leonid İliç Brejnevin sağlığında hazırlanırdı. Sonralar həmsöhbətlərimdən çoxu belə bir versiya irəli sürürdülər ki, Brejnev plenumda H.Əliyevi A.Kirilenkonun yerinə Siyasi Büroya salmaq fikri varmış. Ona görə də Andropov, necə deyərlər, yalnız dünyasını dəyişmiş baş katibin niyyətini yerinə yetirib.

Kitab üçün material toplayarkən, Moskvada mən Qorbaçov «yenidənqurmasının» baş ideoloqu Aleksandr Yakovlevlə görüşdüm. Başqa məsələlərlə yanaşı Yakovlev Heydər Əliyevin Siyasi Büroya üzv seçilməsini və Moskvaya işə dəvət olunmasını da xatırladı. Bu başdan deyim ki, «yenidənqurmanın memarı» dolaşıq və qatma-qarışıq danışırdı, onun hansısa rəsmlərin oğurlanması ilə bağlı yadına saldığı əhvalat isə məni, doğrudun da, heyrətləndirdi: guya bunun üstündə Andropovla Əliyevin arası birdəfəlik dəyibmiş.

**Aleksandr Yakovlevlə olan söhbətdən:**

« – Bu göhnə əhvalatdır. Andropovun Əliyevi Moskvaya gətirməsi də qəliz məsələdir.



Əliyevi Moskvaya, əlbəttə ki, Brejnev gətirmişdi.

**– Axı Andropov Bakıya zəng vurardu, özü təkid edirdi.**

– Bizdə miflər çoxdur, bütün tarix miflərdən ibarətdir. Götürək şəkillərlə olan məsələni. Andropov bütün bu zir-zibili təmizləməyə başlayanda və bir akademikin qədim tablolarla bəzədilmiş mənzili oğurlananda, orada az qala Rubensin rəsmləri var imiş, aydınlaşır ki, bunu azərbaycanlılardan ibarət komanda edib və bu işdə az qala rəhbərliyin əli olub. Andropovun bu məsələ ilə bağlı başı çox ağrayıb. Həmin vaxtdan da Əliyevlə münasibətləri dəyişib.

Yerli komanda nə səbəbdənsə ipin ucunu ələ verməkdən boyun qaçırıb. Onlar Andropova məruzə edirlər ki, bu adamlar azərbaycanlı olsalar da deyəsən İtaliya ya da ki, Misirdə yaşayırlar və biz heç nə ilə kömək göstərə bilmirik. Respublikanı xəbərdar etməyən Andropov gizli olaraq öz briqadasını göndərir. Onlar müəyyən edirlər ki, həmin adamlar Azərbaycandadır, heç yerə getməyiblər. Orada mafioz «araşdırmaları» olur.

Bundan xəbər tutan Əliyev Brejnevə zəng vurur. Brejnev Andropovdan çəkinsə də xətrini istəyirdi, ona görə də məsələni araşdırmağı Andropovdan zəhləsi gedən Suslova tapşırır (?!). Suslovla Andropov arasında Ponomaryovun da iştirak etdiyi məşhur söhbət olur:

– Yoldaş Andropov, sizi buraya partiya elitasının mənəviyyatı ilə yox, dövlət təhlükəsizliyi məsələləri ilə məşğul olmaq üçün qoyublar.

«Qulaqburması» alan Andropov Azərbaycandan əl çəkir.

Bu, köhnə, Əliyevin respublikada hələ birinci katib olduğu vaxtlara təsadüf edən əhvalatdır».

SSRİ DTK-sının keçmiş rəhbərlərindən biri – Filipp Bobkovla görüşəndə, mən Yakovlevlə olan bu qəribə söhbəti ona danışdım. Filipp Denisoviç bu əhvalatı belə şərh etdi:

«Cəfəngiyatdır! Sizə tamamilə rəsmi deyirəm: belə şey olmayıb. Bütün şəkil oğurluqları və bu qəbildən olan hadisələr mənim rəhbərlik etdiyim 5-ci idarə tərəfindən araşdırılırdı. Şəxsi rəsm kolleksiyasından bir oğurluq hadisəsi olmuşdu, iki həftədən sonra oğruları tapdıq. Yakovlev tərəfindən belə qiyməti nə ilə izah etmək olar? O illərdə namusla işləyən adamları pis tərəfdən göstərən, uydurma da olsa, nə varsa ortalığa atmaq onun üçün çox vacibdir. Yakovlev bunu bacarır. Məgər ona inanmaq olar: baxın görün o, «Moskovski komsomolets»də Andropov haqqında nələr yazır, onu necə çirkaba bulaşdırır!»

Andropovun müfəssəl bioqrafiyasının müəllifi Sergey Semanov da A.Yakovlevin «son dərəcə əyri-üyrü həyat yolundan», onun, yumşaq desək, qeyri-səmimiliyindən yazır. «Yenidənqurma memarı»nın 2000-ci ilin sonlarında nəşr olunmuş və Andropova sırf mənfi qiymət verdiyi memuarlarından söz açan S.Semanov qeyd edir: «... Həmişə yalan danışan Yakovlev indi populyarlığını itirmiş Andropovdan gec də olsa «yaxa qurtarmağa» çalışır, baxmayaraq ki, onu Kanadadan Moskvaya siyasi sürgündən qaytaran məhz Andropov olmuşdu»[6].

Aleksandr Nikolayeviçdən H.Əliyevlə bir yerdə işlədikləri illər barədə soruşanda da mən həmin qeyri-səmimiliyi hiss etdim. A.Yakovlevin maqnitofon lentinə yazılmış xatirələrində guya «Siyasi Büronun həyatına uyğunlaşa bilməyən» qəhrəmanıma qarşı çətin pərdələnən bədxahlıq, hətta sayğısızlıq səslənir. Öz tərəfimizdən əlavə edək ki, Yakovlevin dediyi Siyasi Büro artıq onun özü kimi yaltaq qulağagirənlərin meydan suladığı, daha güclü rəqibi «oyundan çıxarmaq» üçün ən murdar şayiə və dedi-qodulara əl atan Qorbaçov Siyasi Bürosu idi. Əminəm ki, Aleksandr Yakovlev mifik rəsm oğurluğu barədə şayiələri Qorbaçov və onun əlaltılarına dəfələrlə danışıb. O cümlədən Y.Andropovun H.Əliyevdən xoşu gəlməməsi və onu Moskvaya yalnız rəhmətlik baş katibin vəsiyyətinə əməl edərək gətirməsi haqqında nağılı da. Filipp Denisoviç Bobkov Yakovlevin versiyasını «absurd» adlandırır:

«Andropovun Əliyevə münasibəti yaxşı idi. Əlbəttə təyinetmə məqamının özünü belə də yozmaq olar, çünki Əliyev Siyasi Büronun üzvlüyünə Brejnevin vəfatından dərhal sonra seçilmişdi. Yəqin ki, bir razılaşma olmuşdu. Ancaq gəlin məntiqlə düşünək: əgər Andropov bunu etmək istəməsəydi, məsələnin həllini sonraya saxlaya bilərdi, uzadardı və ya heç seçməzdi. Yəni ki, bu absurddur.

Birincisi, Əliyev MK-nın birinci katibi seçiləndə Andropov Siyasi Büro üzvü və SSRİ DTK-sının sədri idi. Andropov Əliyevin namizədliyinin əleyhinə olsaydı, öz fikrini Brejnevə çatdırmaq üçün üsul tapardı. O əleyhinə deyildi. Onun Əliyevlə həmişə normal münasibətləri olub, Azərbaycan DTK-sının sədri kimi də Əliyevə heç bir etirazı olmayıb. Bir də, o, Əliyevin artıq birinci katib qismində respublikada gördüyü işləri çox bəyənirdi, mən bunu dəqiq bilirəm, ona görə də Andropovun qarşısında Əliyevi Moskvaya aparmaq ya aparmamaq sualı durmurdu».

Heydər Əliyevi Moskvaya aparmağın Baş katib tərəfindən düşünülmüş seçim olmasına Andropovun ilk kadr dəyişiklikləri də



dəlalət edir. O elə birinci gündən özünü lider, müstəqil qərarlar qəbul edən rəhbər kimi apardı, ilk növbədə də Brejnevin «əzizlədiyi» adamlardan azad oldu. Roy Medvedev yazır: «Baş katib vəzifəsinə keçəndən dərhal sonra Andropov Brejnevin həyatının son illərində yaranmış nəhəng şəxsi hakimiyyət aparatının ixtisarına başladı. Faktiki olaraq MK-nın bütün başqa şöbələrinin işini təkrar edən və hətta özünə tabe edən «Sov.İKP MK Baş katibinin nəzdində katibliyi» ləğv etdi. Brejnevin şəxsi katibliyi onun adı və ya imzası ilə pərdələnərək böyük nüfuzu olan rəhbər orqana çevrilmişdi. Leonid İliçin çoxsaylı məsləhətçiləri, referentləri, xüsusən də köməkçiləri nəinki nazir və ya Mərkəzi Komitənin sıravi üzvləri, hətta Siyasi Büro üzvləri və MK katiblərini də öz iradələrinə tabe edirdilər»[7].

Bəs dünyasını dəyişmiş Brejnevin digər qüdrətli favoriti – Şşolokovun işdən götürülməsi! Brejnevin kürəkəni Yuri Çurbanov memuarlarında Andropovun SSRİ daxili işlər nazirinə olan nifrətinin səbəblərini araşdırır:

«Leonid İliç vəfat etdikdən artıq düz iki həftə sonra Andropov Şşolokovu «cənnət qrupu»na («райская группа») göndərdi – SSRİ Silahlı qüvvələrinin baş inspektorlar qrupunu loru dildə belə adlandırırlar. Bu elə təqaüdə çıxmaq kimi bir şeydir. Şşolokov heç gözünü də açmağa macal tapmadı...Yuri Vladimiroviç əsl kommunist idi. Cibində partbilet gəzdirən adam kommunist adına ləkə gətirən hərəkətə yol verəndə, o nəinki mütəəssir olurdu – həmin adam onda prinsipial nifrət doğurardı. Əgər bu elə belə adam yox, rəhbər işçi, nazirdisə, onda heç danışmağına dəyməz... Onları birbirindən uzaqlaşdıran şəxsi ədavət yox, nazirlik rəhbəri özünü necə aparmalıdır məsələsinə münasibətdə baxışlarının kəskin haçalanması idi»[8]. Yuri Andropov qüdrətli DİN nazirinin nə dünyadan köçmüş baş katibin ən yaxın adamı olmasını, nə də ki, Nikolay Şşolokovun Brejnev komandasında ən güclü və sözükeçən nazir kimi tanındığını nəzərə aldı. Eyni zamanda o Heydər Əliyevi inadla Moskvaya çağırırdı, çünki hər şeydən əvvəl **onun şəxsində daxilən özünə yaxın** insan görürdü.

Etiraf etmək lazımdır ki, Leonid İliçin Heydər Əliyevə nə qədər səmimi və mehriban münasibət bəsləməsinə baxmayaraq, H.Əliyev Andropovun adamı idi. Hər ikisinin, müasir təbircə desək, «qan qrupu eyni idi». Heydər Əliyevin yüksək icraçılıq intizamı, şəxsi təvazökarlıq və asketizmi, neqativ hallarla Azərbaycanda apardığı qətiyyətli mübarizə Andropovun ürəyincə idi.

H.Əliyevin özü sonralar Andropovu belə yada salırdı:

«Yuri Vladimiroviç Andropovla mənim yaxın yoldaşlıq münasibətlərim var idi. Bu münasibətlər hələ mən Azərbaycan DTK-sında işləyərkən yaranmışdı və onun son günlərinə qədər davam edirdi... Mən Moskvaya gələndə hər dəfə Yuri Vladimiroviçlə görüşürdüm. O həmişə söhbətləşmək üçün vaxt tapırdı. Görüşlərimiz işgüzar xarakter daşıyırdı, mən ona partiya təşkilatının işi haqqında məlumat verirdim, səmimi məsləhətlər alırdım. Söhbətlərimizdə ən çox ideoloji və mənəvi problemlərə toxunurduq. O mənfi halların kökünün kəsilməsi istiqamətində görülən tədbirlər haqqında mənim məlumatımı maraqla dinləyirdi. Bizim keçmiş rəhbərləri ləkələmək xasiyyətimiz bu gün Yuri Vladimiroviçdən də yan keçmir. Mənim üçün, onu yaxşı tanıyan insan üçün bunu görmək ağırdır. Andropov şəxsiyyətinin miqyası çox böyükdür, Siyasi Büroda o ən ziyalı və savadlı şəxslərdən biri idi, onun təvazökarlığı və prinsipiallığı yaxşı məlumdur. O möhkəm əqidəli beynəlmiləlçi idi, milli məsələləri dərindən bilirdi»[9].

H.Əliyev özü etiraf edirdi ki, Moskvaya dəvət olunması onun üçün tam gözlənilməz olmuşdu. Köməkçilərinin xatırladığına görə, Andropov onu söhbət üçün Moskvaya artıq «kiçik» Siyasi Büroda öz fikrini açıqlayandan sonra çağırmışdı.

**Rafael Allahverdiyevin söhbətindən:**

«1982-ci il noyabrın 19-da bizi həmişə olduğu kimi Moskvaya MK-nın Plenumuna çağırdılar. Bizdə yaranmış qaydaya görə o hava limanından birbaşa Mərkəzi Komitəyə yollandı, mən isə Siyasi Büronun materiallarını gözdən keçirmək və qayıdanda ona məruzə etmək üçün Azərbaycanın daimi nümayəndəliyinə getdim. Daimi nümayəndəliyə çatdım, Mərkəzi Komitəyə zəng vurub dedim ki, əgər Heydər Əliyevin adına sənəd varsa, qoy Azərbaycanın daimi nümayəndəliyinə göndərsinlər. Bir azdan sənədləri göndərdilər, mən materialları açdım. Üstdə Sov.İKP MK Baş katibi Yuri Andropovun noyabrın 18-də keçirilmiş Siyasi Bürodakı çıxışı idi. O bəyan edirdi ki, Əliyevi Siyasi Büro üzvlüyünə namizədlikdən Siysi Büro üzvlüyünə keçirmək və Ali Sovetin sessiyasında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini seçmək lazımdır.

Təxminən yarım saatdan sonra Heydər Əliyev gəldi. Məni həyəcanlı görüb (mənim, açıq deyirəm, hətta gözlərim yaşarmışdı) soruşdu ki, sənə nə olub? Cavab verdim ki, Siyasi Büronun materiallarını almışam. O məni kabinetə dəvət etdi, materiallara baxıb dedi: «İndi ağlamaq vaxtı deyil, ancaq etiraf edim ki, bu mənim özümçün də gözlənilməz oldu. MK-ya gəldim və yalnız orada mənə dünənki



iclas barədə dedilər. Brejnev məni iki dəfə Moskvaya aparmaq istəmişdi. Mən də hər dəfə ona deyirdim ki, hələlik Azərbaycanda lazımam, respublikada başa vurmadığım xeyli iş var. Andropovun yanına girəndə isə o artıq qərar qəbul etmişdi. Mənə dedi: «Sən burada lazımsan, Heydər».

Qəhrəmanımın taleyindəki köklü dəyişiklik haqqında düşünərkən mən həmsöhbətlərimə eyni sualı verirdim: onlar bu dəyişikliyi necə qarşıladılar və Heydər Əliyev özü bunu necə qarşıladı? Ən müxtəlif, bəzən tamamilə gözlənilməz cavablar səslənirdi:

«Biz bunu həm gözləyirdik, həm qorxurduq, həm istəyirdik, həm də istəmirdik, – MK-nın təbliğat və təşviqat şöbəsinin keçmiş müdiri Əfrand Daşdəmirov xatırlayır. – Sov.İKP MK plenumunun səhəri günü SSRİ Ali Sovetinin sessiyası işə başladı, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təsdiq olundu. O nümayəndəliyə gəldi, onu müşayiət edən qrupu, o cümlədən məni, öz yanına dəvət elədi və biz bu yüksək vəzifəyə seçilməyi münasibətilə onu təbrik etməyə başladıq. Heydər Əliyeviç dedi ki, Moskvaya köçür. O çox emosional danışırdı. Mən ilk dəfə onu həyəcanlı görürdüm.

**– Bunu necə qarşıladınız?**

– Mən iki məqamdan çıxış edirdim. Sovet dövlətində Azərbaycan təmsilçilərinin qazandığı ən yüksək səviyyə Kreml divarları önündə uyuyan Nəriman Nərimanovun və Mircəfər Bağırovun səviyyəsi idi. Bağırov öz vaxtı üçün çox nüfuzlu adam idi, üç Zaqafqaziya respublikasından ÜK(b)P MK-nın Siyasi Bürosunun üzvlüyünə namizəd idi. Respublikaların MK katibləri Moskvaya plenuma gedəndə yollarını Bakıdan salırdılar – Mircəfərlə görüşmək üçün. Bizim tariximizdə, qısa da olsa, belə bir məqam olub. Heydər Əliyev isə onları ötüb keçmək imkanı qazanmışdı. Xalqımızı bu qədər yüksək səviyyədə təmsil etmək – bu bizim nüfuzumuz, Azərbaycanın statusu, respublikanın problemlərini həll etmək baxımından tarixi hadisə idi. Bu birincisi.

İkincisi isə – başa düşürdüm: o bu yüksək rütbədə respublikaya nə qədər yaxın olsa da, Azərbaycanın tarixində yeni mərhələ başlayır. Bu mərhələ necə olacaq – bunu qabaqcadan görmək o vaxt çətin idi».

Azərbaycan KP MK birinci katibinin mühafizəsini həyata keçirən Aleksandr İvanova Heydər Əliyev Moskvada bir yerdə işləməyi təklif etdi. Təbii ki, təklif razılıqla qəbul edildi.

«...Bakıya, geriyə uçuruq, – A.İvanov danışır. – Təyyarədə o məni yanına çağırdı, üzbəüz əyləşdirib dedi: «Zərifə xanım dedi ki, sən bundan sonra da mənimlə işləməyə etiraz etmirsən». – «Heydər Əliyeviç, – deyirəm, – mən bütün qəlbimlə sizə bağlanmışam, bundan sonra da canla-başla xidmət etməyə hazıram». – «Lap yaxşı, səni mühafizə rəisi təyin edəcəyəm. Bütün ştatı özün yığırsan. Bunlar sənə həvalə olunur».

Gəldik Bakıya, noyabrın ya 28-i idi, ya 29-u. Maşına oturduq, hava limanından gedirik, indi yadımda deyil, işə, yoxsa evə. Baxıram ki, onun gözləri yaşarıb. «Yadındadır, bu ağaclar necə balaca idilər?» – yol boyu bitmiş zeytun ağaclarını göstərir. O bu işə yaman fikir verirdi. Bu ağaclar hələ təzə-təzə əmələ gəlməyə başlayanda və biz Zuğulbadan şəhərə gedəndə, əgər görsə ki, hansı ağacınsa dibi qurudur, o saat əmr edirdi ki, müəyyən edin görək bu kimin ərazisidir, bu işə kim baxır, niyə ağaclar sulanmır? «Bir gör ağaclar necə böyüyüb, yadındadır nə boyda idilər? Bütün bunlar mənim zəhmətimdir». Bu sözləri deyəndə hiss olunurdu ki qəhər onu boğur.

– **Moskvaya getmək istəyib-istəməməsi haqqında sizə bir şey deməmişdi ki?**

– Onun ümumiyyətlə heç vaxt belə bir həvəsi yox idi. Bu barədə söhbətlər gəzirdi. Məsələn, «Amerikanın səsi» bir söz deyəndə, ya xarici mətbuatdan nə isə oxuyanda ona çatdırırsan: «Filan yerdə sizi tərif edirlər, deyirlər yeriniz Siyasi Bürodadır, Moskvaya gedəcəksiniz». O isə cavab verir: «Mən istəsəydim bu məsələni çoxdan həll edərdim».

Ancaq o, əlbəttə ki, azərbaycanlının sovet tarixində ilk dəfə olaraq Siyasi Büro üzvü olması, bunu təkcə Azərbaycan xalqının yox, bütün müsəlman aləminin bayram etməsi ilə fəxr edirdi. Bu onun üçün stimul idi».

Heydər Əliyevin sabiq köməkçisi Ramiz Tarıverdiyevin danışdığı xatirələr məni heyrətə gətirdi – əsl sensasiya idi. Bu insan sona qədər H.Əliyevə sadiq qalıb, Siyasi Bürodan kənarlaşdırılmış qəhrəmanımı 1990-cı ilin iyulunda Bakı hava limanında qarşılayan 5-6 nəfər H.Əliyevin silahdaşlarının sırasında olub. Halbuki o zaman bu cəsarətli addımın onun üçün acınacaqlı nəticələri də ola bilərdi. Romanımızın üçüncü hissəsində biz bu epizodu ayrıca şərh edəcəyik. Hələlik isə R.Tarıverdiyevin xatirələrinə müraciət edək:

«O Siyasi Büroya üzv seçildiyi plenumdan qayıtdı, köməkçilərini, şöbə müdirlərini yığdı. Təbriklər başladı, ümumi söhbət alındı,



gülüş səsləri eşidilirdi. Mənim qanım qara idi və bu onun gözündən yayınmadı.

Axşamdan xeyli keçmiş, hamı dağılışandan sonra mən Arif Mustafayevin otağına getdim, çay içə-içə oturub fikirləşirdik: bir tərəfdən bu, əlbəttə, çox yaxşıdır, digər tərəfdən isə – respublikanın işləri necə olacaq, elə bizim də. Bu vaxt Rafael mənə xəbər verdi: «Heydər Əliyeviç səni çağırır». Haradasa saat 11 olardı. Mən kabinetə daxil oluram, o mənə baxıb gülümsəyir: «Keç, əyləş».

Onların arasında təxminən belə söhbət olur:

– Mən səni həmişə tənqid etmişəm, – Heydər Əliyev deyir, – ona görə də sən gərək mənim getməyimə başqalarından çox sevinəsən. Ancaq həmkarların məni təbrik eləyəndə, sənin eynin açılmırdı. Sevinmirsən məgər?

Tarıverdiyev çiyinlərini çəkir:

– Nəyə sevinməliyəm ki?

H.Əliyevin qaşları dartılır:

– Necə yəni, ilk dəfə olaraq azərbaycanlı, sənin xalqının nümayəndəsi belə yüksək vəzifəyə seçilir, sən isə az qala gözünün suyunu tökürsən?

– Heydər Əliyeviç, əgər belə söhbət düşübsə, açıq deyəcəyəm. Mən hesab edirəm ki, bu pisdir. Respublika üçün pisdir, mənim üçün də pisdir, ona görə ki, siz məni nə qədər tənbeh etsəniz də mən sizinlə işləməyə alışmışam. Şəxsən sizin özünüz üçün də yaxşı olmayacaq.

– Niyə? – Heydər Əliyev ürəkdən təəccübləndi.

– Ona görə ki, sizi heç vaxt birinci şəxs təyin etməyəcəklər, özü də orada sizin kimi işləməyə alışmadıqları üçün Moskvada sizə həmişə yad adam kimi baxacaqlar.

Kabinetə sakitlik çökdü. Görünür ki, ümumi eyforiya yaşanan bu günlərdə heç kim ürək qızdırıb öz şübhələrini ona belə açıq və səmimi söyləməmişdi. Və bu səmimilik Heydər Əliyevi riqqətə gətirdi. Yəqin elə buna görə də, o heç kimə demədiyini köməkçisinə açıb söyləmək qərarına gəldi.

– Sən düz demirsən, – o, başını döndərib nəzərlərini qaranlıq pəncərəyə dikdi, – Yuri Vladimiroviç mənə seçmək üçün üç vəzifə təklif etdi. Onlardan ikisi – tamamilə müstəqildir.

Yenə susdu. Sonra gülümsəyə-gülümsəyə gözlərini qıyıb Tarıverdiyevdən soruşdu:

– Yəqin bilmək istəyirsən hansılardır?

– Əgər mənə etibar edirsinizsə...

– Gör neçə il bir yerdə işləyəndən sonra sənin buna şübhən var? – Heydər Əliyev güldü. – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən savayı o mənə SSRİ xarici işlər naziri və ittifaq DTK-sının sədri vəzifələrini təklif etdi.

– Bəs siz? – Ramiz köks ötürdü.

– Nə mən? Cavab verdim ki, dövlət təhlükəsizliyi orqanlarındakı işdən çoxdan uzaqlaşmışam, diplomatik işi bilmirəm, ancaq hökumətdə iş isə, deyəsən, yerinə düşərdi... Yaxşı, get, – Heydər Əliyev əlavə etdi, – mən səni hələ çağıracağam.

...Ramiz Tanverdiyevə inanmamağa heç bir əsasım yoxdur. Ona görə də onun danışdıqlarından olduqca mühüm nəticəyə gəlmək olar: hələ 80-ci illərin əvvəlində Heydər Əliyev DTK və XİN kimi nəhəng və qüdrətli təşkilatların başında dura bilərdi (necə ki, heç bir təcrübə və müvafiq bacarığı olmadan sonralar Şevardnadze ölkənin baş diplomatı oldu). Lakin o ən ağır və zəhmətinə dəyməyən təsərrüfat işini seçdi. Bəlkə ona görə ki, bu sahəni daha yaxşı bilirdi, bəlkə də vaxtı gəlməmiş demək istəmədiyi başqa səbəb var idi.

Azərbaycanın keçmiş lideri heç şübhəsiz bütün sirləri köməkçisinə açmamışdı, çünki yeni seçilən baş katib öz dostunu hökumətin tərkibinə daxil etməkdə uzaqgörən məqsədi var idi: bir müddət sonra ona SSRİ Nazirlər Soveti sədrinin kreslosunu həvalə etmək. Kitabın üçüncü hissəsində biz Andropovun Heydər Əliyevi SSRİ-də nüfuzuna görə ikinci sayılan vəzifəyə irəli çəkmək niyyəti barədə tutarlı dəlillər gətirəcəyik. Özü də Nikolay Tixonovun yaşı çox idi, təşəbbüs göstərmirdi, onu daha cavan və enerjili hökumət başçısı ilə əvəz etmək tələb olunurdu. Birinci müavin vəzifəsi ona görə lazım idi ki, Heydər Əliyev Kreml «dəhlizlərinə» alışsın, adamlara isinişsin.

Prezident Əliyevin qızı Sevil xanımla söhbət edərkən mən ailə üzvlərinin, ilk növbədə Zərifə xanımın onun həyatındakı bu dəyişikliyi necə qarşıladıqlarını soruşdum – Moskvaya köçməyi, yüksək vəzifəni?

Cavabında Sevil xanım mənə söylədi:

«Mən də, anam da buna sevindik. Birincisi ona görə ki, mən və İlham o vaxt Moskvada yaşayırdıq, oxuyurduq. İlham institutda, mən isə Şərqşünaslıq institutunun aspiranturasında. Anamın günü bu iki şəhərin arasında keçirdi. Atamı da tək qoya bilmirdi, uşaqlar üçün də darıxırdı. Ona görə də atamın təzə təyinatını sevinclə qarşıladı.



Ancaq anam, əlbəttə ki, Bakını çox sevirdi, həmişə buraya gəlirdi. Atam isə Azərbaycanı tərk etmək istəmirdi. Andropov ona Moskvaya gəlməyi təklif edəndə o tərəddüd etdi. Atam danışırdı ki, hətta Yuri Vladimiroviç incimişdi: «Nədir, mənə kömək etmək istəmirsən?». Andropovun inandığı adamlara ehtiyacı var idi. Bizdə narahatlıq hissi yox idi. Andropov axı onu yaxşı niyyətlə aparmışdı».

Buna baxmayaraq həmsöhbətlərimdən bəziləri bu fikirdədir ki, Heydər Əliyev Moskvaya yüksək vəzifəyə boş yerə aparılmayıb, respublikada hakimiyyət dəyişikliyi həyata keçirilib. Hələ Nəriman Nərimanovun vaxtından Kreml strateqləri bəzən bu təcrübəyə əl atırdılar: milli respublikalardan olan çox güclü lideri aradan götürmək elə asan deyildi, çünki öz vətənində o böyük və şəksiz nüfuz sahibi idi. Ancaq onu Mərkəzə aparmaq, sonra tədricən «itirmək» isə mümkün məsələ idi. 20-ci illərdə Nərimanovu Moskvaya aparıb MİK sədrlərindən biri seçəndə məhz bu üsuldan istifadə etmişdilər. Çox keçmədən o xəstələndi və müəmmalı şəkildə vəfat etdi. Heydər Əliyevlə də bu hal təxminən təkrar olundu, hər halda onun fəaliyyətinin Moskva dövrü ümidlərinin başdan-başa boşa çıxması ilə nəticələndi.

Beləliklə, onun Moskvaya aparılmasında hansısa uzaqgörən qərəzli niyyət olmuşdumu? Mənim bu sualıma Rusiyanın tanınmış tarixçisi Roy Medvedevin cavabı birmənalı oldu:

– Yox, belə niyyət yox idi, çünki o vaxt heç kim belə strateji düşünmürdü. Stalinin vaxtında bu cür uzaqməsafəli planlar qurula bilərdi. Apararam onu Moskvaya, doğma köklərindən ayırıram, yerinə başqasını qoyuram. Nərimanovla belə etmək olardı, ancaq, tutalım, Beriyanı Moskvaya hakimiyyətə gətirmişdilər, doğma torpaqdan ayırmaq üçün yox. Bu yolla Postışevi Ukraynadan ayırdılar. Onu Xalq Komissarları sədrinin müavini təyin etdilər, yerinə isə Xruşşovu «oturtdular». Sonra Postışevi göndərdilər Kuybışevə... Belə variantlar olurdu.

Ancaq 70-ci illərdə Brejnevin, qocaların artıq belə strateji planları yox idi. Heydər Əliyevi Moskvaya səmimi aparmışdılar, mənim sonrakı müşahidələrim nəticəsində, məndə belə bir fikir yarandı ki, Əliyev özü Moskvaya can atırdı. Azərbaycan balaca respublikadır, Əliyev üçün darlıq edirdi, o özünü daha böyük işlər görməyə qadir hesab edirdi, şöhrətpərəst idi, irəli getmək istəyirdi. Axı Qafqaz Stalindən başlayaraq bir çox liderlər yetişdirmişdi: Beriya, Mikoyan. Onların hamısı fəaliyyətlərini Moskvada genişləndirmişdilər, qol-

budaq atmışdılar. Ona görə də məndə elə fikir yaranmışdır ki, Azərbaycanda özünü göstərən Əliyev, ittifaq səviyyəsinə çıxmaq istəyirdi. O vaxt belə güclü lider üçün bu təbii hal idi. Fəaliyyət meydanı – SSRİ. Şevardnadze də Moskvaya can atırdı. Düzdür, o gözləmirdi ki, ona xarici işlər naziri vəzifəsi təklif olunacaq. O buna sadəcə olaraq hazır deyildi. Əgər daxili işlər naziri vəzifəsini təklif etsəydilər – daha çox xeyir gətirə bilərdi. Ona görə də ittifaq respublikalarından olan bir çox liderlər Moskvaya can atırdılar».

Ancaq mənim digər həmsöhbətim, tanınmış qazax yazıçısı və ictimai xadimi Oljas Süleymenovun bu məsələyə münasibəti fərqlidir:

« – Əliyev Siyasi Büronun üzvü seçilib Moskvaya işə keçəndən sonra, əfsuslar olsun ki, bizim ünsiyyətimiz qırıldı. Onun orada necə işləyib yaşaması barədə ayrı-ayrı söhbətlər gəlib çatırdı. Biz başa düşürdük ki, bu yolla onu Azərbaycandan ayırıblar, mən buna çox təssüflənirəm. Ağacı doğma torpaqdan ayıranda o qol-budaq atmır və bar gətirmir. Ağaca qaratorpaq lazımdır, qum yox, qoy lap qızıldan olsun.

**– Bu onun üçün çox faciəli dövr idi.**

– Sonra onun şəxsi faciəsi böyüyüb ictimai faciəyə, xalqın, bütün Azərbaycanın faciəsinə çevrildi. O vaxt milli respublikalarda eyni vaxtda təmizləmə gedirdi. Bu, respublikalardan miqyaslı liderləri aparıb onların mövqelərini zəiflətmək, sonra orada istədikləri siyasəti həyata keçirmək üsulu idi.

Mən o vaxt da, elə ondan qabaq da, respublika rəhbərlərini sıradan çıxarmağın müxtəlif yolları olduğunu bilirdim. Onlardan biri: respublikadan aparıb vəzifədə irəli çəkmək, sonra isə sakitcə heçə endirmək. Əliyev üçün, çox güman, bu üsul nəzərdə tutulubmuş. Çünki populyar olan liderləri səs-küylə çıxarmaq olmaz. Ya da ki, bu işi öz partiya təşkilatı görməlidir, Kunayevlə olduğu kimi. Moskva axı artıq respublikaların işinə kobud müdaxilə edə bilmirdi.

**– Problemə maraqlı yanaşmadır. O vaxt hamımız bu fikirdə idik ki, Heydər Əliyev qabağa gedib, vəzifəsi artırılıb.**

– Sizə obrazlı misal çəkim. Çöldə yol, təpələrin arası ilə uzanır, xəndək yoxdur. Yolun üstündə bir qaya parçasına rast gələndə, onu yaxınlıqdakı təpəciyin üstünə yuvarladırlar, sonra o daha uzağa, üzücnişə diyirlənir. Heydər Əliyevə qarşı Moskva, görünür, bu cür hərəkət edib. Qayanı təpəciyin üstünə qaldırıb ehmalca itələyiblər. Sonradan məlum olub ki, daş yolda boş-boşuna dayanmayıbmış, yol ayrıcında dayanıbmış, istiqaməti, hərəkət vektorunu müəyyənləşdirməyə kömək edirmiş. Bu, 80-ci illərin sonunda baş verən hadisələr zamanı, Azərbaycan liderisiz, rəhbərsiz qalanda bilindi. Fırtına vaxtı gəminin sükançını itirməsinə bənzədi. Sükan arxasına keçən təsadüfi matroslar, adamlarla dolu gəmini fəlakətə doğru apardılar».



Mənim çox məlumatlı digər həmsöhbətim dedi ki, Heydər Əliyev özü, həm də respublika üçün qarşıdan gələn çətin sınaqları sanki hiss edirmiş kimi həyatındakı bu sərt dəyişikliyə birmənalı yanaşmırdı.

**RSFSR Nazirlər Sovetinin sabiq sədri Vitali Vorotnikovla söhbətdən:**

«Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə 1982-ci il noyabrın 22-də MK-nın plenumunda təsdiq etdilər. Ondan qabaq Mazurov idi. Partiya iyerarxiyası nöqteyi-nəzərindən bu yüksəliş idi. Ancaq eyni zamanda məndə elə fikir yarandı ki, Bakıdan ayrılmaq onun üçün çətindir. Zənn etmirəm ki, o buna çox sevinmişdi və təklifi düşünmədən qəbul etmişdi. Hesab edirəm ki, bu işdə Andropov müəyyən rol oynamışdı. Əliyev Andropova böyük hörmətlə yanışırdı, Andropovun da ona hörməti var idi. Yalnız ona görə yox ki, onların yolları professional planda kəsişirdi. Onlar insan kimi bir-birlərinə rəğbət bəsləyirdilər. Düşünürəm ki, Əliyevin bu təklifi qəbul etməsində onların münasibətlərinin müəyyən rolu olmuşdur. Ancaq qarasına demək ki, onu gələcək hökumət sədri kimi götürüblər – olmaz. Bəlkə Əliyevə başqa təkliflər ediləcəkdi, bəlkə o MK-ya artıq başqa sifətdə, məsələn katib kimi keçəcəkdi. Bu mümkün idi. Birinci də olmasa, hər halda aparıcı katiblərdən biri kimi. Ancaq dəqiq bilirəm ki, o Moskvaya o qədər də böyük həvəslə gəlmirdi».

Bu isə mənim Leonid İliç Brejnevin mühafizə rəisi Vadim Medvedevlə söhbətimdən fraqmentdir. Çox məsələlərdən xəbərdar olan insandır:

**« – Əliyevlə Brejnev arasında Heydər Əliyevin Moskvaya işə keçməsi ilə əlaqədar söhbət olmuşdumu?**

– Bəli, Brejnev onu götürmək istəyirdi. Hətta hökumət sədri olması barədə söhbətlər də olmuşdu. Hesab edirəm ki, Brejnev Əliyevi hökumətin başçısı kimi təsəvvürünə gətirirdi. Dəqiq təsdiq edə bilmərəm, ancaq hər halda Brejnev onu Moskvada işləyən Siyasi Büro üzvü kimi görürdü. Brejnevin Əliyevə olan münasibətindən çıxış edərək düşünmək olar: sağ qalsa, Əliyevi Siyasi Büro üzvü edəcəkdi.

**– Niyə Andropov onu məhz birinci müavin götürdü? Bəlkə bunun özündə də uzaqgörən məqsəd var?**

– Əlbəttə. Andropov onu birbaşa hökumətin rəhbəri qoya bilməzdi. İstəyirdi ki, Əliyev işin içində olsun».

Əslində bu gün biz deyə bilmərik ki, məsələ necə olmuşdu. Çoxları uzaqdadır, dünyasını dəyişib. Qəhrəmanımın memuar yazmadığına artıq neçənci dəfədir ki, təəssüflənirsən.

Hər halda, Heydər Əliyevin gələcək fəaliyyət istiqamətləri artıq müəyyən olunmuş, hüdudları dəqiqləşdirilmişdi. Ölkəni iqtisadi iflicdən çıxarmaq üçün ittifaq hökumətinin tərkibində onu böyük işlər gözləyirdi. Ancaq əvvəlcə öz yerinə kimisə seçmək lazım idi. Bir də komandası ilə vidalaşmaq.

## Çətin seçim

«İndi isə, deyir, fikirləşmək lazımdır, Azərbaycanda mənim yerimə kim qalsın. Mən ona deyirəm: «Respublikanı sizsiz, sizi isə respublikasız görə bilmirəm». Cavab verdi: «Sov.İKP-nin tarixində birinci dəfədir ki, respublikanın yeni rəhbərinin seçilməsi keçmiş birinci katibin özünə tapşırılıb. Gəlin fikirləşək».

Adətən birinci şəxslə bağlı kadr məsələləri Moskvada həll olunurdu. Ancaq bu dəfə istisnaya yol verilmişdi. Andropov Əliyevə tapşırmışdı: sənə bir həftə vaxt verirəm, Bakıda kadr məsələsini həll elə və geri qayıt. Bu görünməmiş etimad idi.

O vaxtdan etibarən o məsləhət üçün adamları yanına dəvət etməyə başladı. Moskvada biz bir həftə qaldıq. Bu müddət ərzində Əliyevin yanına onlarla adam gəldi. O hamı ilə məsləhət edirdi, hamıya eyni sualı verirdi: respublikanı kimə etibar etmək olar? Ən müxtəlif fikirlər səslənirdi».

*(Rafael Allahverdiyevlə söhbətdən)*

Seçim həqiqətən asan olmadı, çünki respublikaya rəhbərlik etdiyi 13 il ərzində Heydər Əliyev yüksək iş qabiliyyətli çevik komanda formalaşdırmışdı, onlardan hər birinə dövlət quruculuğunun ən məsuliyyətli sahələrini tapşırmaq olardı. Həsən Həsənov xatırlayır ki, respublikanın yeni partiya liderinin seçilməsi qərarını təsdiq edən Azərbaycan KP MK Bürosunda Heydər Əliyev belə ifadə işlətmişdi: «Vəli Axundov gedəndə nəinki Büronun tərkibində, hətta MK-nın



tərkibində də bu vəzifəyə yararlı bir adam tapılmadı. Bu gün isə MK Bürosunun hər bir üzvü bu vəzifəni tutmaq iqtidarındadır».

Mən öz həmsöhbətlərimdən üzgörənliklə varisin necə seçilməsini, son məqamda Heydər Əliyevin niyə məhz Kamran Bağırovun namizədliyi üzərində dayanmasının səbəbini soruşurdum. Respublikanın «yiyəsi» yerində o daha kimləri görürdü? Əliyev komandasının üzvləri bəzən tamamilə bir-birini təkzib edən versiyalar açıqlayırlar. Ancaq bütün versiyalar maraqlıdır, o zamankı mürəkkəb vəziyyəti əks etdirən material kimi yaşamağa ixtiyarı vardır. Heydər Əliyevin «yaxın dairəsinə» daxil olan adamlar bu prosesin iştirakçılarıdır, onlar varisin seçilməsində öz rollarını oynamışlar. Və deməli bu seçimdə müəyyən məsuliyyət payları var. Qoy danışsınlar, sözü onlara verək.

**Ramiz Mehdiyevlə söhbətdən:**

**– Yuri Andropov deyəsən SSRİ tarixində ilk dəfə birinci katib vəzifəsinə varis seçməyi Heydər Əliyevin özünə tapşırdı. Sizin fikrinizcə niyə Heydər Əliyev son nəticədə Kamran Bağırovun namizədliyinin üstündə dayandı? Yoxsa o bu namizədi dərhal seçdi?**

– Bu fikrə o belə tez gəlmədi. Büro üzvləri öz üstün və çatışmayan cəhətləri, problemə baxışları, mənəvi keyfiyyətləri və dövlət işinə münasibətləri ilə canlı insanlardır. Bununla belə, demək istəyirəm ki, Heydər Əliyevin vaxtında rəhbərlik ahəngdar işləyirdi, Büro vahid, monolit komanda idi. O Büro üzvlərindən hər birini öz yerinə təklif edə bilərdi və onun təklifi qəbul edilərdi.

Tamamilə səmimi deyə bilərəm: Heydər Əliyev Moskvadan mənə zəng vurub dedi ki, o indicə Siyasi Büroda Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə Həsən Seyidovun namizədliyini təklif etmişdir. Xəbərim yoxdur, ola bilsin ki, məndən qabaq da kimləsə zəng vurub. Mənimlə olan söhbətdən sonra isə MK Bürosunun digər üzvləri ilə danışdığı dəqiqdir. Mən cavab verdim:

– Heydər Əliyeviç, əlbəttə, siz bilən yaxşıdır, ancaq mənə elə gəlir ki, respublikanın partiya aktivi onu qəbul etməyəcək. Mən bunu ictimaiyyətin, xüsusilə respublikanın rəhbər heyətinin Həsən Seyidovun şəxsiyyətinə olan münasibətindən çıxış edərək deyirəm.

Mən Seyidova hörmətlə yanaşırdım, ancaq onun şəxsi keyfiyyətləri barədə bir sıra fikirlərimi söylədim.

Heydər Əliyev dedi:

– Yaxşı, mən digər Büro üzvləri ilə də danışacağam.

Doğrudan da, həmin gün o Büronün digər üzvləri ilə də danışdı və onların tam əksəriyyəti Seyidovun namizədliyinin əleyhinə fikir söylədilər. Çox keçmədi ki, kabinetimdə yenidən Moskva telefonu zəng çaldı. Heydər Əliyev respublikadan kənarda olanda mənə tez-tez zəng vurub vəziyyətlə maraqlanırdı. Bu təbii idi, çünki mən təşkilati-partiya şöbəsinə rəhbərlik edirdim və vəzifə səlahiyyətimə görə Azərbaycandakı vəziyyətə nəzarət edirdim.

Heydər Əliyev söylədi ki, bir nəfərdən başqa bütün Büro üzvləri Həsən Seyidovun namizədliyinin əleyhinə fikir söyləyiblər. Söhbətin axırında dedi:

– Mən bu məsələnin həllini dayandırdım. Gələrəm Bakıya, baxarıq. Azərbaycan KP MK-nın bütün üzvləri ilə görüşmək isteyərdim.

**Fuad Musayevlə söhbətdən:**

**– Varisin seçilməsi necə gedirdi?**

– Heydər Əliyeviç bu məsələni hələ Moskvada ikən həll etmişdi. O mənə Moskvadan iki dəfə zəng vurmuşdu. O vaxt artıq o, Andropova varis qismində Həsən Seyidovun adını çəkmişdi. Ancaq Heydər Əliyeviç hətta qərar qəbul etdikdən sonra belə hamı ilə məsləhətləşirdi.

O Həsən Seyidovun namizədliyi barədə mənim fikrimi öyrənmək üçün zəng vurmuşdu. Demədi ki, artıq namizədliyi Moskvada təqdim edib, bu barədə mən sonra eşitdim. Mən dedim ki, bu namizədliyin əleyhinəyəm. Çünki o, öz xasiyyətinə görə, bilik səviyyəsinə görə birinci katib postuna uyğun gəlmirdi. Məsələ onun xasiyyətinin sərt olmasında deyil, buna biz alışmışdıq. Fikrimi necə əsaslandırdığım indi yadımda deyil, lakin sırf professional məsələlərdən danışırdım, iqtisadiyyatı bilməkdən və s. Dedim ki, Dövlət Plan Komitəsində işləyəndə onunla çox üz-üzə gəlmişəm. Heydər Əliyeviç mənimlə razılaşdı. «Bəli, sən düz deyirsən. Bəs kim yarayır?» – «Kamran Bağırov». İki gündən sonra o bir də zəng etdi. Bu məsələdə fikrimin dəyişib-dəyişməməsini bilmək üçün. Mən yenə də Kamran Bağırovun adını çəkdim. Bunu onun profesionallığı, işə münasibəti, insani keyfiyyətləri ilə əsaslandırdım. Aydındır ki, Heydər Əliyeviçi heç kimlə müqayisə etmək olmaz, ancaq olanlardan kimi isə seçmək lazım idi.

**İsa Məmmədovun söhbətindən:**

«1982-ci ilin noyabrında, Moskvaya Sov.İKP MK-nın Plenumuna yola düşməzdən qabaq o mənim yanıma xəstəxanaya gəldi. Mən



«leçkomissiyada» yatırdım, ayağım ağrayırdı. Axşam saat 11-də mənim yanıma MK-nın birinci katibi təşrif gətirdi. Onunla birlikdə xəstəxananın baş həkimi, növbətçi həkim və bir də H.Əliyevin şəxsi mühafizə rəhbəri – Namiq Tağızadə içəri daxil oldular. Sonra onlar çıxdılar, H.Əliyevlə ikimiz qaldıq.

O mənə dedi: «Mənim məsələm həll olunub, mən Moskvaya işə keçirəm. Necə bilirsən, birinci katib vəzifəsinə kimi məsləhət görmək olar? O iki ad çəkdi. Mən başımı buladım. Dedim ki, ən layiqli namizəd Kamran Bağırovdur. Onu respublikada adamlar yaxşı tanıyır, hörmət edirlər. Əliyev gülümsündü: «Bəs sən? Səni axı camaat Kamran Bağırovdan pis tanımır. Lənkərana daha kimlər gəlmirdi!» – «Mən heç rus dilini də əməlli bilmirəm». – «Nədir, Rəşidov, Qafurov rus dilini səndən yaxşı bilirlər?» – «Heydər Əliyeviç, mən sizdən sonra bu vəzifədə işləyə bilmərəm. Kimdir məni Bakıda tanıyan?» – «Səni hamı tanıyır». – «Rayonlarda ola bilsin ki, tanıyırlar, Bakıda isə yox.» – «Nahaq belə fikirləşirsən», – Heydər Əliyev gülümsədi.

Bir sözlə, belə cəlbedici və məsuliyyətli təklifi qəbul etməmək üçün min cür bəhanə axtarıram. Bilirsiniz, Əliyev mənim gözümdə elə bir nəhəng idi ki, mən sadəcə olaraq özümü onun yerində təsəvvür edə bilmirdim. O isə bu işi bacaracağıma inandırmaqda davam edir.

Sonra dedi: «Mən Moskvaya uçuram, sabah sənə zəng edəcəyəm».

Səhər saat 9-da işdə idim. MK katibləri Fuad Musayev və Kamran Bağırov kabinetə daxil oldular. Məni təbrik etməyə başladılar. Başa düşdüm ki, H.Əliyevin gecə xəstəxanaya gəlməsini onlara artıq xəbər veriblər. Fuad deyir: «Necə lazımdır işləyəcəyik, kömək edəcəyik sənə». Onların ağlına belə gəlmirdi ki, mən «yox» deyə bilərəm. Kamran isə soruşdu: «Sən Heydər Əliyeviçlə nə barədə danışırdın?» – «Heç nə. Mənə dəyməyə gəlmişdi». – «Heç nə demədi?» – «Yox».

Bir saatdan sonra H.Əliyev zəng vurdu. Girişsiz-filansız soruşdu: «Hə, qərara gəldin?» – «Yox!» – «Özün bilərsən!», – Əliyev dəstəyi asdı.

Bu həyatımda ən böyük səhvim idi. Mən özümə həddən artıq məsuliyyətlə yanaşıram. Bəlkə də təvazökarlıqdan uzaq səslənir, ancaq mən Qarabağ hadisələrinə yol verməzdim. Kamran orа yalnız 1988-ci ildə getdi, mən isə 7 dəfə orada olmuşam. Mən Qorbaçova

da deməyə söz tapardım, etiraz edərdim. Axı bizim onunla yaxşı münasibətlərimiz var idi.

1984-cü ildə Moskvaya, Sov.İKP MK-nın plenumuna getmişdim və məncə, bu, Andropovun keçirdiyi, yeganə plenum oldu*. Qorbaçov o vaxt artıq çəkisinə görə ikinci sayılan MK katibi idi, ideologiya üzrə. Heydər Əliyevin yanına getdim. Mən işlə bağlı Moskvada olanda həmişə onunla görüşürdük. Qucaqlaşdıq, sorğu-suala tutandan sonra dedi: «Qorbaçov səni soruşurdu. Zəng elə ona». – «Nəsə yaxşı düşmür!» – «Nə yaxşı düşmür, elə mənim kabinetimdən onun köməkçisinə zəng vur». Zəng vurdum. Köməkçi məni tanıyırdı, dedi ki, indi Mixail Sergeyeviç vyetnamlıları qəbul edir, yarım saatdan sonra zəng vurun. Çox keçmədi ki, bizi birləşdirdilər və Qorbaçov saat 3-ə görüş təyin etdi.

Mənə verdiyi ilk sual bu oldu:

– İsa, düzünü de, sən doğrudan da MK-nın birinci katibi vəzifəsindən imtina etmisən?

– Bəli, etmişəm.

– Heydər Əliyeviç sizin o söhbətiniz barədə mənə danışıb. Səndən soruşmaq istəyirəm – niyə belə etdin?

Mən 1982-ci ilin noyabrında gətirdiyim dəlilləri təkrar etdim. Yəni, Heydər Əliyev kimi nəhəngdən sonra bu vəzifəni tutmağı özümü layiq bilmədim.

Qorbaçov təəssüflə başını yellədi:

– Mən Heydər Əliyeviçi çox sevirəm, ona hörmətim var. O, həqiqətən güclü adamdır. Ancaq sən neçə il onunla işləmisən, bilirəm ki, bir insan kimi yaxın idiniz. Bacarardın».

**R. Allahverdiyevin söhbətindən:**

«Heydər Əliyev heç bir xəstəxanaya getməyib. İsa Məmmədov Moskvaya gəldi və özü Heydər Əliyevi daimi nümayəndəlikdə tapdı. Ertəsi gün, Bakıda hamı qarşıdan gələn plenumun gündəliyindən xəbər tutandan sonra, Seyidov və Bağırov Əliyevə Bakıdan zəng vurdular, Məmmədov isə özü onun yanına daimi nümayəndəliyə gəldi.

* İsa Məmmədov yanılır: Y.Andropovun sonuncu dəfə geniş nitqlə çıxış etdiyi Sov.İKP MK-nın plenumu 1983-cü ilin iyununda olmuşdur. Partiyanın ideoloji işinin aktual problemlərinə həsr olunmuşdur. 1983-cü ilin dekabrında iqtisadiyyat problemlərinə həsr olunmuş plenum keçirilmiş, xəstə olan baş katib iştirak etməmiş, onun məruzəsi oxunmuşdur.



Yadımdadır, məndən öyrənmək istəyirdi ki, Əliyev respublikada kiminlə danışıb. İsa Məmmədovun məsələsi yox idi. Söhbət baş nazir Seyidovdan, həmçinin Tatlıyev və Bağırovdan gedirdi. Əliyevin çox adam haqqında düşünməyə vaxtı yox idi, o kiminsə namizədliyi üzərində dayanmalı idi. Moskvada SSRİ Meliorasiya Tıkıntisi naziri Polad Poladzadəni, başqalarını təklif edirdilər. Ancaq o bu namizədləri dərhal kənarlaşdırdı, bəs, mən onlarla işləməmişəm, nəyə qadir olduqlarına bələd deyiləm. Nəticədə iki namizəd qaldı – Həsən Seyidov və Kamran Bağırov. Yadıma gəlir, Heydər Əliyev bütün Büro üzvləri ilə məsləhətləşirdi, o cümlədən Oqtay Bağırovla da. Belə bir fəhlə var idi – Büro üzvü, KMZ-də, Keşlə Maşınqayırma zavodunda işləyirdi. Onunla bir yerdə əvvəllər Həsən Seyidovun direktor işlədiyi leyt. Şmidt adına zavoddan MK üzvü də gəlmişdi, deyəsən adı Əmir Rəhimov idi. Bu görüşün təfərrüatlarını sonralar Heydər Əliyeviç özü mənə danışmışdı. Rəhimov demişdi: Seyidov özümüzünküdür, zavodda böyüyüb, yaxşı adamdır, ancaq onda atalıq hissi yoxdur. Heç vaxt öz övladı olmayıb. Belə adam Azərbaycana rəhbərlik edə bilərmi, bütün respublikaya atalıq edə bilərmi? Bu sözlər, məncə, Əliyevi düşünməyə vadar etmişdi. Ancaq, əlbəttə ki, bu yeganə səbəb deyildi.

Biz hamımız Kamran Bağırovun tərəfində idik. Sonra məlum oldu ki, onda epilepsiya xəstəliyi var. Yadıma gəlir, sonralar H.Əliyev məzəmmətlə deyirdi: «Axı siz hamınız dağ kimi Kamranın dalında durmuşdunuz, niyə o vaxt məni fikrimdən daşındırmadınız?» Kamran Bağırovun köməkçisi var idi, Sahib Quliyev, Bağırovun tutması başlayanda, o ilk yardım göstərirdi və ağır xəstəlik barədə ondan başqa heç kimin xəbəri yox idi. Adam içində Kamranda xəstəlik özünü büruzə vermirdi. Biz hamımız həqiqətən Kamranın tərəfində idik, çünki yumşaq adam idi, Seyidov isə daha sərt və tələbkardı.

Əliyev bütün Büro üzvlərini dəvət edirdi, deyirdi ki, sən filan parametrlərə görə uyğun gəlmirsən, ancaq sənin fikrini bilmək istəyirəm. Kim ola bilər? Sən kimi və hansı səbəblərə görə təklif edirsən? Ən axırda o Bağırovu yox, Seyidovu qəbul etdi və ona dedi: Həsən, sabah Kamran Moskvaya təsdiqə gedəcək, bundan sonra da bir komandada işləyəcəksiniz. Eşidəndə ki, Əliyev onun namizədliyi üzərində dayanıb, biz necə də sevindirdik! Bağırov müsahibə üçün Moskvaya uçdu, o Siyasi Bürodan təsdiqdən keçməli idi. Dekabrın 3-də isə Heydər Əliyevin sonuncu dəfə apardığı Azərbaycan KP MK-nın plenumu oldu».

*Yeri gəlmişkən, Kamran Bağırovun xəstəliyi haqqında. Onunla işləyən adamlar – Ramiz Tarıverdiyev, Fuad Musayev, Sahib Quliyev deyirlər ki, o epilepsiya xəstəliyindən yox, vestibulyar aparatın pozulmasından əziyyət çəkirdi. Hərdən onda başgicəllənmə olurdu, xüsusilə də stress vəziyyətlərində. Böhran vəziyyətlərdə o uzanmalı idi, əks halda müvazinətini itirə, hətta yıxıla da bilərdi. Bir dəfə belə xoşagəlməz hal Moskvada, Qorbaçovun gözü qarşısında baş verir. Bağırov Sov.İKP MK-da hansısa müşavirədə çıxış edərkən az qalır huşunu itirsin. O vaxt Qorbaçov əsəbi halda Heydər Əliyevi sancmışdı: «Niyə bizə xəstə adamı tövsiyə etmisiniz?».*

*Əlbəttə ki, Kamran Bağırovun xəstəliyinin nədən ibarət olmasının məsələyə bir o qədər də dəxli yoxdur. Əsas odur ki, respublikanın birinci şəxsi ciddi xəstə idi. Bu amil Heydər Əliyevi ciddi düşünməyə vadar etməliydi. Əfsuslar olsun ki, hamılıqla ona məhz bu namizədin üzərində dayanmaq məsləhətini verən komanda üzvlərinin inadkarlığı da öz məşum rolunu oynadı.*

**Həsən Həsənovla söhbətdən:**

«1981-ci ilin yanvarında mən Azərbaycan KP MK-nın katibi vəzifəsinə keçəndə MK katibliyi təzələndi və Kamran Bağırov, diplomatik dillə desək, duayen oldu. Yəni, «bərabərlər içində böyük». Heydər Əliyev hərdən onu belə də çağırırdı. Heydər Əliyev və MK-nın ikinci katibi yerində olmayanda Kamran Bağırov «iş üstündə» qalırdı. Heydər Əliyev Moskvaya getməyə hazırlaşanda Büro üzvlərindən çoxuna bu sualı vermişdi: özünü MK-nın 1-ci katibi qismində görürsənmi, bu vəzifədə kimi görmək istəyərdin. Təkcə ola bilsin ki, rus millətindən olanlardan, MK-nın ikinci katibindən və 4-cü ordunun komandanından başqa. Ona görə də bəziləri hesab edirlər ki, məhz onlar bu vəzifəni tutmağa daha yaxın idilər».

**Zakir Abdullayevlə söhbətdən:**

**– Deyilənə görə birinci katib yerinə Heydər Əliyevin üç namizədi var imiş: Tatlıyev, Seyidov və Bağırov. Çox götür-qoy etmişdi, hamının məsləhətini dinləmişdi. Sizinlə məsləhətləşmişdimi?**

– Bir dəfə söhbət olmuşdu.

**– İsa Məmmədov israr edir ki, Heydər Əliyev birinci katib vəzifəsini ona da təklif edib, ancaq başqaları bu faktı təkzib edirlər.**



– İsa Məmmədovun namizədliyini Moskva təsdiq etmədi. Sov.İKP MK-da mənim yaxın dostum işləyirdi, şöbə müdirinin müavini. O mənə danışdı ki, İsa Məmmədov az qala keçəcəkdi. Ancaq Sov.İKP MK-da ciddi etirazlar olub – o nisbətən təzə adamdır, MK katibliyinə bu yaxınlarda keçib. Qısası, Moskva bu işin əleyhinə olub. Seyidov və Tatlıyevin namizədliyini isə Əliyev özü rədd edib, nəticədə Bağırovun üzərində dayanıb.

**– Niyə?**

– Kamran Bağırov ona çox sadiq idi. Bağırov sahə üzrə MK katibi olanda Heydər Əliyeviç onun rəyi ilə hesablaşırdı. Bağırov bir çox məsələləri «qaldırıb» həll edə bilirdi. Heydər Əliyev ona etibar edirdi.

**– Seyidov sərt adam idi, aparat işçiləri qorxurdular ki, o rəhbərliyə gəlsə işləmək o qədər də asan olmayacaq, bəlkə bu da öz rolunu oynamışdı?**

– Bu da var idi. Ancaq əsas o idi ki, bu vəzifədə yaxın, Əliyevə sadiq olan adam olmalıydı. Seyidov və Tatlıyevə Əliyev bu dərəcədə etibar etmirdi, onlara, necə deyərlər, inanırdı, ancaq yoxlayırdı. Bu ən yaxın adamlar deyildi. Heydər Əliyeviç ehtiyat edirdi ki, Tatlıyev və ya Seyidov sonradan ona xəyanət etsinlər, onun kadrlarına başqa münasibət bəsləsinlər. Kamran isə son günlərə qədər Heydər Əliyeviçin dediyinə qulaq asırdı.

**Fuad Musayevlə söhbətdən:**

**– Moskvaya getmək ərəfəsində Heydər Əliyev İsa Məmmədovun yanına xəstəxanaya gəlmişdimi?**

– Gəlmişdi. Özüm görməmişəm, ancaq bilirəm ki, orada olub. Mənə bu barədə «leçkomissiya»nın baş həkimi dedi. Bununla belə, hesab edirəm ki, İsa Məmmədov düz danışmır. Heydər Əliyev Moskvaya getməzdən qabaq heç kəs bilmirdi ki, onu Siyasi Büronun üzvü seçəcəklər. Onu Moskvada Andropov yanına dəvət edib və SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsini təklif edib. Əliyevin paytaxta getməsi ərəfəsində belə heç nə məlum deyildi. O xəstəxanaya gəlib İsa Məmmədova necə deyə bilərdi: «Məni Siyasi Büro üzvü seçirlər, mən də istəyirəm səni birinci katib postuna tövsiyə edəm». O ki, qaldı İsa Əliyeviçin etiraz etməsinə, bax, bu tamamilə fantaziyadır.

**– Necə bilirsiniz, Heydər Əliyev İsa Məmmədovun namizədliyi barəsində düşünürdümü?**

– Haradan bilim? Ancaq niyə Seyidovun adını çəkdiyini təxmin edə bilirəm. O respublikada ikinci şəxs idi, hökumətin sədri idi. Məntiqə qalsa, Heydər Əliyeviç onun adını çəkməli idi. Əgər Heydər Əliyeviç öz yeni təyinatı barədə qabaqcadan bilsəydi, yəqin ki, hazırlaşardı. Yalnız Moskvada, biləndə ki, onu hansı vəzifəyə təyin edirlər, o varis barəsində düşünməyə başlayır və Seyidovun adını çəkir. Seyidovun yerində başqa bir adam olsaydı, onun adı çəkiləcəkdi. Birinci katib yerində olmayanda onun yerini Nazirlər Sovetinin sədri tutur. Yeri gəlmişkən, Seyidovun namizədliyinə etiraz edən bir mən deyildim. Moskvada Əliyevlə olan adamlar onun bu seçiminə mənfi münasibətdə olublar. Bağırovu da hamı dəstəkləmirdi. Məsələn, bilirəm ki, Həsən Həsənov o vaxt onun namizədliyinin əleyhinə çıxış edirdi. O, Seyidovun tərəfində idi. Kamran özü də mən onun yanına gəlib deyəndə ki, Heydər Əliyeviç mənə zəng vurub və mən onun adını çəkmişəm, bu xəbəri çox əsəbi qarşıladı. Qorxmuşdu. Bəs necə: Heydər Əliyevdən sonra çiyninə belə məsuliyyət düşürdü. O boyda yükün altına girmək!

O ki, qaldı Kamran Bağırova qarşı ittihamlara, guya o Heydər Əliyevin əleyhinə nəsə edirdi – yalandır. Bağırov Heydər Əliyevi satmamışdı. Heç bir epilepsiyası da yox idi. Onu uşaqlıqdan tanıyıram. Düzdür, xəstəliyi vardı. Ancaq buna rəğmən idmanı sevən adam idi, səhərdən axşamacan tennis oynaya bilərdi. Hər gün oynayırdı. Çox təmiz adam idi. Sadəcə olaraq Heydər Əliyevlə müqayisədə uduzurdu.

**Əfrand Daşdəmirovun danışdıqlarından:**

«Həsən Həsənov Kirovabad şəhər komitəsinin birinci katibi vəzifəsindən 1981-ci ildə MK-nın sənaye üzrə katibi seçilmişdi, sonra yerdəyişmə etdilər – Kamran Bağırov sənaye üzrə katib oldu, ideologiyaya isə Həsən Həsənovu «təhkim» etdilər. Biz o vaxt heç nə başa düşmədik. Xüsusən də mən, partiya iyerarxiyasının qəliz incəliklərindən başı yaxşı çıxmayan adam. Mən sonra başa düşdüm ki, sovet partiya təcrübəsinə görə, sənaye üzrə katib faktiki olaraq ikinci şəxs idi. Sov. İKP MK-da ikinci şəxs ideologiya üzrə katib sayılırdı, respublika şəraitində isə ideoloq ikinci və ya üçüncü ola bilməzdi. İkinci dərəcəli fiqur idi. Çünki bütün ideologiya Moskvanın əlində cəmlənmişdi. Beləliklə də Kamran Bağırov Heydər Əliyevin varisi «təyin» olunmuşdu».



**Ramiz Mehdiyevlə söhbətdən:**

«O vaxt MK-nın tərkibində yüzdən yuxarı adam var idi. Təsəvvür edirsiniz, o, ictimai rəyin öyrənilməsinə bir neçə gün həsr edib MK-nın hər bir üzvü ilə söhbət etdi. Hər kəs mülahizəsini bildirirdi. Seyidovun namizədliyi ortadan çıxanda soruşurdu: «Bəs kimi?». Əsasən iki ad səslənirdi – Kamran Bağırov və Həsən Seyidov. Ancaq qeyri-rəsmi söhbətlərdə başqa Büro üzvlərinin də adı çəkilirdi.

O məndən soruşanda ki, birinci katib kimi görürsən, cavab verdim ki, indiki durumda daha münasib kadr hər halda Kamran Bağırovdur. Nəhayət, məsələ onun xeyrinə həll olundu. Bizim səhv etdiyimizi isə yalnız zaman, həyat göstərdi, o respublikaya rəhbərlik edə bilmədi.

**– Bəs hansı keyfiyyətlərinə görə siz onu başqa namizədlərdən üstün tutdunuz?**

– Birincisi, o özünü respublikada aparılın bütün işlərin fəal tərəfdarı kimi göstərirdi. Başqa Büro üzvləri ilə müqayisədə daha açıq idi, ünsiyyət yaratmağı bacarırdı, özünə qarşı rəğbət qazandırırdı... Büro üzvlərinin hamısı ona yaxşı münasibət bəsləyirdilər, çünki o heç kimlə aranı vurmaq istəmirdi. Düzdür, onu yaxından tanıyandan sonra başa düşdük ki, bu xüsusiyyət həm də insanın qeyri-prinsipial olmasından irəli gəlir. Bu cür məsuliyyətli sahədə işləyib opponent qazanmamaq qeyri-mümkündür. Bundan əlavə, məlum oldu ki, xasiyyətindəki bir çox xüsusiyyətlər qondarmadır, səmimilik və açıqlıq onun təbiətinə yaddır».

**Həsən Seyidovla söhbətdən:**

«Respublikanın Nazirlər Sovetinin sədri kimi Sov.İKP MK-nın 1982-ci il noyabr plenumunda iştirak edirdim. Məndən başqa plenumda iştirak etmək üçün Qurban Xəlilov və MK-nın ikinci katibi Yuri Kozlov da Moskvada idilər. Heydər Əliyeviçin Moskvaya işə keçirilməsi haqqında heç nə bilmirdim. Birdən Andropov deyir ki, Heydər Əliyevi Siyasi Büro üzvü seçmək və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin etmək tövsiyə olunur. Başqalarını bilmirəm, mənim üçün gözlənilməz oldu.

**– Siz bunu necə qarşıladınız?**

– Bir tərəfdən biz əlbəttə ki, qürur hissi keçirirdik, digər tərəfdən isə onun getməsinə heyfsilənirdik, mütəəssir olurduq. Plenumdan sonra Heydər Əliyev daimi nümayəndəliyə qayıtdı və əsas mə-

sələnin müzakirəsinə başladı – ondan sonra Azərbaycan partiya təşkilatına kim rəhbərlik edəcək?

**– O bu postda kimi görmək istədiyi barədə öz fikrini söylə-yirdimi?**

– Yox, biz onun rəyini bilmirdik. O məndən soruşdu: «Əgər sə-nin namizədliyini təklif etsəm, buna necə baxarsan?». Dedim ki, bu məsələ ilə bağlı fikrim mənfidir. Mən axı istehsalatçıyam, iqtisadiy-yatla məşğul olmuşam, burada isə ideologiya, inzibati məsələlərə dərindən baş qoşmaq lazımdır. Mən bunun öhdəsindən gələ bilmərəm. Elə belə də dedim Heydər Əliyeviçə.

Özüm Kamran Bağırovun tərəfində idim: savadlıdır, rusdillidir, ideologiya sahəsində çalışıb, inzibati orqanlar, prokurorluq, DİN və s. ilə yaxşı tanışdır. Ona görə də, Əliyev məndən soruşanda, dedim ki, Kamranın namizədliyinə qarşı etiraz etmirəm, əlbəttə, əgər o mənimlə işləmək istəyərsə. Mən Nazirlər Sovetində, o – MK-da. Kamran Mamedoviçlə MK-ya biz eyni vaxtda gəlmişdik, 8 gün fərqlə. Bir yerdə işləyirdik, o vaxt o tikinti şöbəsində idi, ailəliklə dostluq edirdik.

**– Rafael Allahverdiyev deyir ki, Əliyev onun haqqında çox adamlardan soruşub. Bağırovdan arxayın deyildi məgər?**

– Arxayın idi. Yalnız öz fikrinin təsdiqini axtarırdı.

**– Deyirlər ki, Heydər Əliyev öz yeni təyinatından bir o qədər də razı deyildi?**

– Demək olmaz ki, narazı idi. Sadəcə olaraq getməyə can atmır-dı. O, Azərbaycanı həddindən çox sevirdi».

**Respublika Ali məhkəməsinin sabiq sədri İbrahim İsmayılov xatırlayır:**

«Özündən sonra Bağırovu saxlamaq qərarına gələn Heydər məs-ləhət üçün məni yanına çağırdı və mən ona dedim ki, Bağırovun təyin olunması böyük səhv olardı.

Əliyev dedi:

– Sən bilirsən ki, mənə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini təklif edirlər. Sənin fikrini bilmək istəyirəm, MK-nın birinci katibi kimi görürsən?

– Düzünə qalsa, İsa Məmmədovu, – deyirəm. – Çünki sizə bu-rada etibarlı və mətin adamın olmağı lazımdır.

– Mən isə Kamrana razılıq verdim.

– Niyə məni razılıq verəndən sonra çağırmısınız? Əgər mənim fikrimi bilmək istəyirdinizsə, qabaqcadan soruşmaq lazım idi. Kam-



ran sizin bütün kadrlarınızı dağıdacaq. Bir ildən sonra heç birimiz işdə qalmayacağıq.

– Ola bilməz, – Heydər deyir. – o çox sadiq adamdır.

– Mənim doğru olduğumu görəcəksiniz. Kamran, nə qədər ki siz birinci katibsiz, sizə sadiqdir. Mən onu sınaqdan çıxarmışam: o sizi sevmir. Əgər fikirləşirsiniz ki, o sizə sadiq adamdır, səhv edirsiniz.

Əslində elə də oldu.

İsa Məmmədov – möhkəm adamdır. Əgər Əliyev öz yerinə Kamran Bağırovu yox, onu qoysaydı heç bir Qarabağ münaqişəsi olmayacaqdı. O çıxış yolu tapa biləcəkdi. Mən onun Qorbaçovla söhbətinin şahidi olmuşam, Qorbaçov onda kənd təsərrüfatına baxırdı, onunla «sən»lə danışırdı.

Kənd təsərrüfatı üzrə MK katibi olandan sonra İsa Məmmədov böyük uğurlar qazandı. Bəs Kamran özünü nədə göstərdi? Heç bir şeydə. İsa Məmmədovun vaxtında Lənkəran bütün Sovet İttfaqına səs salmışdı. Bununla yanaşı o nəzakətli idi, adamlarla dil tapa bilirdi. O bu respublikanın oğlu idi».

**Rafael Allahverdiyevlə söhbətdən:**

**– Ola bilsin ki, Kamran Bağırovun namizədliyi Heydər Əli-yevə ona görə daha əlverişli görünürdü ki, belə adamı Moskva-dan idarə etmək asan idi?**

– Yox, səhv edirsiniz. O gedəndə Kamran Bağırova üç məsləhət verdi: Kamran, sən mənim bütün qohumlarımı bir kənara qoya bilər-sən. Əgər onlar sənin yanına gəlib nə barədəsə xahiş etsələr, sən onların xahişini yerinə yetirməyə bilərsən, səndən incimərəm. An-caq iki şeyi unutma: mən böyük əziyyət bahasına möhkəm komanda yaratmışam. Onun formalaşmasında yerliçilik prinsipi rol oynama-yıb. Qoyma onu dağıtmağa. İkinci: mən ildə iki dəfə Dağlıq Qara-bağa boş yerə getmirdim. Bu, barıt çəlləyidir, bunu yaddan çıxarma və DQMV-də vəziyyəti nəzarətdə saxlamağa çalış. Hesab elə ki, bu mənim xeyir-duamdır. O demədi ki, mən sənə nəzarət edəcəyəm, göstərişlər verəcəyəm. İnanın, onu narahat edən bu deyildi, respub-likanın taleyi idi.

Bax belə, varisin seçilməsi prosesi az qala çox dramatik olub. Mənə elə gəlir ki, unikal intuisiyaya malik Heydər Əliyev, Kamran Bağırovun üzərində könülsüz, yalnız bütün qalan namizədlər obyek-tiv və subyektiv səbəblər üzündən sıradan çıxandan sonra dayanmış-dır. Son nəticədə, gördüyümüz kimi, qəhrəmanımın hesabləşməyə

adət etdiyi kollektiv rəy üstün gəlir. Gələcək göstərdi ki, seçim bir o qədər də uğurlu olmamışdı. Bağırovun iradəsizliyi, üstəlik o vaxt artıq istefaya göndərilmiş Heydər Əliyevin ölkə rəhbərliyində olmaması, Dağlıq Qarabağ ətrafında hadisələrin başlanğıcında məşum rol oynamışdır.

## Dünya mətbuatının diqqət mərkəzində

Qəhrəmanımın həyatındakı dəyişiklik dünya informasiya vasitələrində əsl qasırğa yaratdı. Heydər Əliyevin şəxsi arxivində onun Siyasi Büro üzvlüyünə seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmasını şərh edən xarici radiosəslərin oxunması və aparıcı Qərb qəzetlərindəki məqalələr saxlanılmışdır. Saralmış səhifələri vərəqləyək və xarici müxbirlərlə bir yerdə o vaxtın atmosferinə baş vuraq:

*«Azadlıq» radiostansiyası 1982-ci il noyabrın 23-də xəbər verirdi* – «... Əliyevin Siyasi Büro üzvlüyünə seçilməsi dünyada geniş əkssəda doğurmuşdur...». Heydər Əliyevin qısa tərcümeyi-halını dinləyicilərə xatırladan müxbir qeyd edir ki, MK-nın birinci katibi seçiləndən sonra o «Azərbaycan KP MK-nın avqust plenumunda çıxış edərək respublikanın təsərrüfat və mədəni quruculuq sahəsində əsaslı dəyişikliklərin, partiya rəhbərliyinin gücləndirilməsinin, partiya və dövlət intizamının möhkəmləndirilməsinin zəruriliyini vurğulamışdır. Bu andan etibarən Heydər Əliyev Azərbaycanın partiya-təsərrüfat orqanlarında «dəmir daraqla» təmizləmə aparmağa başlamışdır. Bir vaxtlar bu proses «permanent təmizləmə» adı almışdı».

Verilişin aparıcısı bunun ardınca söyləyir ki, Qərb müşahidəçilərinin qənaətinə görə, Əliyevin irəli çəkilməsi ona görə gözlənilməz olmuşdur ki, onun siyasi karyerası əsasən L.Brejnevlə bağlı idi.

«Azadlıq» radiostansiyasının müxbiri Assoşieyted Press agentliyinin H.Əliyevin Azərbaycan partiya rəhbəri kimi fəaliyyətindən bəhs edən informasiyasından sitat gətirir: «Öz çıxışlarında o dəfələrlə korrupsiyanı, rüşvətxorluğu, qohumluq əlaqələrindən qazanc məqsədilə istifadə olunmasını tənqid etmişdir. Agentlik göstərir ki, 1970-ci ildən bəri Moskvanın dəstəyi ilə respublika gerilikdən, xüsusilə də kənd təsərrüfatında, yaxa qurtarmışdır».



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsi haqqında xəbər verən *Bi-Bi-Si radiostansiyası (fars dilində) 1982-ci il noyabrın 23-də efirə gedən verilişində* «onun Şimali və Cənubi Azərbaycanın birləşməsində maraqlı olduğunu» qeyd etmişdir. Yayımlamada vurğulanır ki, «Heydər Əliyevin tərcümeyi-halının bir çox faktları diqqətəlayiqdir. Bu ilk növbədə onun siyasi karyerasının 1941-ci ildə təhlükəsizlik orqanlarından başlanmasıdır. Onun respublikanı idarə etmək üçün mərkəzdən göndərilən ruslardan olmaması faktına da böyük əhəmiyyət verilir. O azərbaycanlıdır, şiə təriqətinə məxsusdur, faktlar göstərir ki, İrandakı azərbaycanlıların taleyinə böyük maraq göstərir.

Bu vaxta qədər Heydər Əliyev xarici siyasət məsələlərinə qarışmırdı. Güman edilir ki, onun Siyasi Büroya seçilməsinə səbəb sovet cəmiyyətindəki korrupsiya və başqa sosial bəlalarla mübarizədə qazandığı nüfuz, həmçinin nümayiş etdirdiyi siyasi duyumla bağlıdır».

Radiostansiya MK-nın son plenumunda H.Əliyevin guya kənd təsərrüfatındakı vəziyyəti «faciəvi» adlandırdığı nitqindən geniş sitatlar gətirir. Əliyevin məruzəsində Azərbaycanda insanların işlə təmin olunmasında qarşıya çıxan çətinliklər və bununla bağlı adamların Sovet İttifaqının digər respublikalarına göndərilməsi istiqamətində tədbirlərin görülməsinə həsr olunmuş hissə aparıcıda xüsusi maraq doğurur. Aparıcı vurğulayır: «Sovet İttifaqında işsizliyin olması rəsmi olaraq təkzib edildiyindən, bu vaxta qədər SSRİ-də bu barədə açıq danışmaq qadağan idi». Verilişdə qeyd olunur ki, Əliyev öz nitqində mənzil tikintisi sahəsindəki nöqsanlardan, Azərbaycan paytaxtında su qıtlığından, ət və yağ məhsullarının təminatı ilə bağlı çətinliklərdən danışmış, xeyli miqdarda məhsulların oğurlandığını və qara bazarda satıldığını diqqətə çatdırmışdır.

Radiostansiya fərziyyə irəli sürür ki, yeni sovet rəhbəri Yuri Andropov nöqsanların ört-basdır edilməsi siyasətinin davam etdirilməsində maraqlı deyil. Hətta bundan da açıq danışmağı tələb edir. Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsi bir sıra məsələlərin həllində və korrupsiyaya qarşı mübarizədə yeni sovet rəhbərliyinin göstərişlərinin yerinə yetirilməsində məxfi polisin və məhkəmə orqanlarının rolunun gücləndirilməsi kimi qiymətləndirilir».

Heydər Əliyevin Siyasi Büroya seçilməsi və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması haqqında informasiya, həmçinin bununla bağlı şərhlər noyabr günlərində «Amerikanın

səsi» radiostansiyasının efirində, İsrail, Monte-Karlo, Küveyt və başqa ölkələrin radiostansiyalarının verilişlərində dəfələrlə səslənmişdi. Dünyanın ən iri Qərb qəzetləri Əliyev haqqında məqalələr dərc etmişdi.

Küveyt radiostansiyası *(noyabrın 25-də)* belə bir fərziyyə irəli sürür ki, bu təyinatın ardınca çox güman ki, H.Əliyev SSRİ Nazirlər Sovetinin sədri kürsüsünə irəli çəkiləcəkdir. *«Azadlıq» radiosunun 24 noyabr tarixli* məlumatına görə isə Frans-press agentliyinin müxbiri bəyan etmişdi ki, «artıq may ayında H.Əliyevin Sov.İKP MK-ya işə keçən Y.Andropovun yerinə SSRİ DTK sədri postuna təyin olunması ehtimal edilirdi. Lakin bu vəzifəyə Ukrayna DTK-sının rəhbəri Fedorçuk təyin olundu».

*«Azadlıq» radiostansiyasının Azərbaycan xidmətinin 25 noyabr 1982-ci il tarixli verilişində* qeyd olunurdu ki, 59 yaşlı Əliyev sovet hökumətinin 77 yaşlı sədri Tixonovun müavini olmuşdur. Tixonovun digər müavini – 75 yaşlı Arxipov Siyasi Büronun üzvü deyil. Müxbir söyləyir ki, ola bilsin, gələn yazda Əliyev Tixonovun yerini tutacaq, sovet hökumətinin tərkibində isə mühüm dəyişikliklər baş verəcəkdir.

Qərbi Almaniyanın ***«Frankfurter alqemayne»*** qəzeti yazırdı ki, «əslində SSRİ-də ali hakimiyyət olan Siyasi Büronun tərkibinə onu Andropov özü irəli çəkmişdir... Moskvanın fikrinə görə, Əliyevin xüsusi xidmətləri vardır. O, məsələn, İranla həmsərhəd olan müsəlman respublikasında qayda-qanun və sakitliyi təmin etmişdi, respublikada korrupsiyaya qarşı amansız mübarizə aparmışdı, bəzən xalq təsərrüfatında oğurluq üstündə ölüm hökmləri çıxarmışdı...

Siyayi Büronun üzvü olmaqla Əliyev həmçinin DTK sıralarından çıxmış iki Siyasi Büro üzvlüyünə namizədin başı üzərindən addımladı: Gürcüstan Kommunist partiyasının rəhbəri Şevardnadzenin və Özbəkistan Kommunist partiyasının rəhbəri Rəşidovun. Əliyevin irəli çəkilməsi yalnız onun xidmətlərinin qiymətləndirilməsi demək deyildir, bu həm də o deməkdir ki, Kreml gələcəkdə ondan çox şeylər gözləyir».

H.Əliyevin təyin olunmasını digər Qərbi Almaniya qəzeti – ***«Züddoyçe tsaytunq»*** da şərh edir. Maraqlıdır ki, bu qəzetdə Azərbaycanda Əliyevin yerini tuta biləcək üç mümkün namizədin adı çəkilir:

«Siyasi müşahidəçilərin fikrinə görə Azərbaycanda Əliyevin yerinə öz təcrübə və mövqeyinə görə üç namizəddən biri iddia edə bilər: Azərbaycan KP MK katibi Həsən Həsənov, Bakı partiya komitəsinin birinci katibi, Azərbaycanın keçmiş komsomol lideri Vaqif Hüseynov və Nazirlər Sovetinin hazırki sədri Həsən Seyidov». Gördüyümüz kimi müxbirin oxları hədəfdən yan keçmişdir: onun saydığı namizədlərdən heç biri Heydər Əliyevin varisi olmamışdır.

*1982-ci il noyabrın 26-da «Azadlıq» radiosunun Azərbaycan xidməti* «Nyu-York taymS» qəzetinin Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini seçilməsinə həsr olunmuş məqaləsinin icmalını səsləndirdi.

Qəzetdən parça gətirilir:

«Heydər Əliyev Azərbaycanın xalq təsərrüfatını dirçəltmək üçün böyük səylər göstərirdi. Xarici müxbirlər H.Əliyevin siyasi eruditsiyasını və zahiri gözəlliyini qeyd edərək göstərirlər ki, onun belə yüksək pilləyə irəli çəkilməsi sayı 40-45 milyona çatan Sovet İttifaqı müsəlmanlarının nüfuzunu qaldıracaqdır».

*1982-ci il noyabrın 28-də «Amerikanın səsi» radiostansiyası* Amerika mətbuatının yeni sovet rəhbərləri haqqında icmalını Azərbaycan dilində verdi.

Belə ki, ***«Krisçen sayens monitor»*** Heydər Əliyev haqqında məqalə dərc etmişdi. Məqalədə o cümlədən deyilir: «...Qərb diplomatları güman edirlər ki, Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunması sovet iqtisadiyyatının dirçəlişinə nail olmaq, orada qayda-qanun yaratmaq məqsədi daşıyır».

***«Nyu-York taymS»*** qəzetindəki məqalədən də sitat gətirilir: «Əliyevin bu vəzifəyə Andropov seçiləndən sonra təyin olunmasına baxmayaraq, Qərb diplomatlarının fikrincə, bu qərar hələ Brejnevin sağlığında qəbul olunmuşdu. Əliyev Brejnevə yaxın olan şəxslərdən sayılırdı».

*«Bi-Bi-Si» radiosunun fars dilində xidməti 1982-ci il noyabrın 29-da «TaymS»* qəzetinin Moskva müxbirinin məlumatını yaymışdır. Məlumatda deyilir ki, «Əliyevin, Azərbaycan Kommunist partiyası rəhbərinin, yüksək vəzifələrə irəli çəkilməsi gözlənilməz olmuşdur. Bunun nəticəsində Sovet Azərbaycanı ümumi diqqət mərkəzinə çevrilmişdir».

*1982-ci il noyabrın 30-da «Azadlıq» radiosunun Azərbaycan redaksiyası Amerikada çıxan «Los Anceles taymS»* qəzetində «Heydər Əliyev – Kreml iyerarxiyasının parlaq ulduzu» başlığı ilə dərc olunmuş məqalənin icmalını vermişdir. Orada qeyd olunur ki, Qərb mətbuatı «Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin gözlənilmədən partiya və dövlət vəzifə pilləsi ilə irəli getməsinə»

böyük diqqət ayırmaqda davam edir. Məqalədə o cümlədən deyilirdi:

«... Hazırda Əliyevin vəziyyəti möhkəmdir, onun 77 yaşlı Tixonovu əvəz edəcəyi istisna olunmur. Bu isə o deməkdir ki, 1953-cü ildə milliyyətcə gürcü olan Stalinin ölümündən sonra, ilk dəfə olaraq belə yüksək posta qeyri-slavyan mənşəli şəxs yaxınlaşmışdır. Əliyev korrupsiyaya qarşı mübariz kimi şöhrət qazanmışdır, bu da ölkədə korrupsiya və israfçılıqla mübarizəyə böyük əhəmiyyət verən Andropovun mövqelərinə uyğun gəlir.

SSRİ baş nazirinin birinci müavini Əliyevə durğunluq vəziyyətində olan sovet iqtisadiyyatında neqativ hallarla mübarizə işini etibar etmək olar... Azərbaycanda 13 illik hakimiyyəti dövründə Əliyev sənaye və kənd təsərrüfatında dönüş yaratmağa nail olmuşdur. Əvvəllər dövlət planlarını yerinə yetirmək iqtidarında olmayan Azərbaycan, onun rəhbərliyi dövründə ən qabaqcıl respublikalardan birinə çevrilmişdir...

Əliyevin Siyasi Büronun üzvlüyünə seçilməsi **Brejnevin 18 illik hakimiyyəti dövründə həddsiz-hüdudsuz imtiyazlardan istifadə edən sovet bürokratik elitası tərəfindən ruh yüksəkliyi ilə qarşılanmayacaqdır** (seçmə bizimdir – ***E.Ə.***). Bunun əksinə olaraq Əliyev Azərbaycanın bir sıra partiya işçisini vəzifəsindən kənarlaşdırıb şəxsi avtomobil və bağlarını əllərindən almışdır. Son vaxtlar respublikada 14 hakim, prokuror və milis şöbəsi rəisi vəzifəsindən kənarlaşdırılmışdır. Korrupsiyaya qarşı mübarizədə Əliyevin əsas fəaliyyət meydanı təhsil sistemi idi. 1977-ci ildə o bəyan etdi ki, bu sahədə rüşvətxorluq və qohumbazlığın kökü kəsilmişdir. Lakin keçən il «Literaturnaya qazeta»ya verdiyi müsahibədə etiraf etdi ki, bu problem hələ də durur.

...Bir neçə ay bundan əvvəl Azərbaycanda olmuş Qərb diplomatlarında Əliyev bilikli, lakin marksist-leninçi dünyagörüşün, sərt xətlin tərəfdarı olan insan təəssüratı yaratmışdır. O xarici siyasət məsələlərini bilir və sovet respublikalarından xarici səfərlərdə iştirak edən bir neçə partiya rəhbəri sırasına daxildir...».

H.Əliyevin irəli çəkilməsinin müəyyən dairələrdə narahatlıq doğurduğu barədə «Vaşinqton post» qəzetində dərc olunan məqaləsində tarixçi Roy Medvedev də yazacaqdır. Bu məqalənin tərcüməsini də mən Heydər Əliyevin şəxsi arxivindən tapdım.

«Heydər Əlirza oğlu Əliyevin irəli çəkilməsi bəzi Moskva və əyalət dairələrində həyəcan doğurdu. Ömrünün son 10 ilində Stalin SSRİ-də təkcə antisemitizm deyil, antimüsəlman əhval-ruhiyyəsi də



yayırdı.1943-1944-cü illərdə Qafqaz və Aşağı Volqadan sürgün edilmiş kiçik xalqların hamısı SSRİ əhalisinin müsəlman hissəsinə aid idi. Qafqazın müsəlman millətlərinə qarşı düşmənçiliyini Stalin hələ vətəndaş müharibəsi illərində bildirmişdi. Stalinin vaxtında Siyasi Büronun üçdə bir hissəsi həmişə qafqazlılar olmuşdu (Orconikidze, Mikoyan, Beriya, Stalin özü), ancaq heç vaxt Azərbaycandan, Orta Asiyadan nümayəndə olmamışdı. Xruşşovun və Brejnevin dövründə bu qayda dəyişməyə başladı, ancaq bir çox antimüsəlman fikirlər qaldı və hətta islam dünyasındakı son hadisələrlə əlaqədar artdı. Bir moskvalı millətçi-ziyalı məni inandırmağa çalışırdı ki, H.Əliyev Z.Nuriyevlə birlikdə (SSRİ Nazirlər Soveti sədrinin müavini) rus Şimalının talan olunmasına kömək edəcəkdir. Bu yaxınlarda mənim yanıma Qafqazdan olan rus ziyalısı gəlmişdi.

– SSRİ-də müsəlmanların hakimiyyətə gəlməsindən qorxmursunuz ki? – deyə, o məndən soruşdu.

– Qorxmuram, – dedim.

– Bəs Əliyevin irəli çəkilməsinə necə baxırsınız?

– Əliyev axı müsəlman yox, azərbaycanlıdır, kommunistdir.

– E, bizdə Qafqazda hər şey başqa cürdür, siz Moskvada fikirləşdiyiniz kimi deyil. Müsəlman həmişə müsəlman olaraq qalır.

Buna bənzər rus şovinizmi bizim çoxmillətli və beynəlmiləlçiliyə iddialı olan ölkəmizdə yerli millətçiliyin bütün digər təzahürlərindən qorxuludur».

Əfsuslar olsun ki, Kremlin «yeni ulduzuna» rəğbət bəsləyən adamların həyəcanı son nəticədə özünü doğrultdu: yüksəkrütbəli partiya bürokratiyası Andropova Heydər Əliyevi SSRİ-də əhəmiyyətinə görə ikinci sayılan kürsüyə əyləşdirməyə imkan verməmək üçün əlindən gələni etdi. Yuri Andropov xəstə olduğundan müqavimət göstərmək iqtidarında deyildi və öz məsləkdaşı barədə fikirləşdiyini sona çatdırmadı.

*1982-ci il dekabrın 1-də «Bi-Bi-Si»* Londonda çıxan ***«Tayms»*** qəzetində dərc olunmuş məqalənin geniş xülasəsini verdi:

«Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü seçilməsi xarici icmalçıların diqqətini Sovet İttifaqının cənub respublikalarına cəlb etdi. Londonda çıxan «Tayms» qəzetinin qeyd etdiyi kimi, sovet rəhbərliyi Azərbaycan respublikasını əvvəllər geridə qalmış sayılan bu regiona sovet hakimiyyətinin göstərdiyi müsbət təsirin nümunəsi kimi gətirir.

... Hazırda SSRİ-də səfərdə olan Türkiyənin xarici işlər naziri İltər Türkmən 60 il sovet hökumətinin nəzarəti altında olan respublikanın bu illərdə qazandığı uğurları öz gözləri ilə görmək üçün Sovet Azərbaycanının paytaxtına – Bakıya gəlmişdir.

... Qeyd etmək lazımdır ki, Heydər Əliyevin yüksəlməsinin əsas səbəblərindən biri onun qabaqlar məxfi polisdə (DTK) işləməsidir. O 15 il SSRİ DTK-sına rəhbərlik etmiş Yuri Andropovla yaxın əlaqədə olmuşdur. Heydər Əliyev Azərbaycanda korrupsiya ilə mübarizə aparan insan kimi tanınıb. Sovet İttifaqının digər bölgələrində iqtisadi vəziyyət qeyri-qənaətbaxş olaraq qalmaqda davam edəndə o, Sovet Azərbaycanının iqtisadiyyatını lazımi səviyyəyə qaldırmışdı.

Bakıda, Xəzər sahilində neft sənayesinin xeyli inkişaf etməsi ilə əlaqədar sovet hökuməti bu rayona həmişə xüsusi əhəmiyyət vermişdir. Bununla yanaşı sovet hökuməti başa düşür ki, Azərbaycan öz müsəlman əhalisi ilə ölkənin həssas regionlarından biridir.

Gözlənilir ki, Sovet İttifaqında türkdilli müsəlmanların sayı əsrin axırında ümumi əhalinin dörddə birini təşkil edəcəkdir. Sovet hökumətinin müsəlmanların yaşayış səviyyəsinin yüksəlməsinə böyük diqqət yetirməsinə baxmayaraq, hökumət onun say artımının nəticələrindən çox narahatdır, çünki gələcəkdə bu istehsalatdakı və ordudakı vəziyyətə təsir edə bilər. Digər tərəfdən, Sovet İttifaqında yaşayan müsəlmanlara İranda və Əfqanıstanda cərəyan edən hadisələr təsir göstərə bilər, bu da, heç şübhəsiz, sovet hökumətində narahatlıq yaratmaya bilməz. Belə ki, Azərbaycanda «Müsəlman qardaşları» və «Sufi dərvişlər» təriqətləri fəaliyyət göstərir.

Azərbaycan DTK-sında Əliyevin varisi xəbərdar etdi ki, Qərb xalqın etibarsız hissəsini hökumət əleyhinə hərəkətlərə sövq etməkdə islamdan bir vasitə kimi istifadə edir. Bununla yanaşı, Heydər Əliyev çox güman, əmindir ki, İran rəhbərləri sovet sərhədinin o biri tərəfində sosializmin qələbə çalmasından narahat olmalıdırlar. Ötən yay o Bakıda olan Qərb ölkələri nümayəndələri ilə görüş zamanı bəyan etdi ki, İran Azərbaycanında yaşayan 10-12 milyon azərbaycanlı öz yaşayış səviyyəsinə görə Sovet Azərbaycanında yaşayan 5 milyon qardaşlarından xeyli geri qalıblar... O ümidvar olduğunu bildirmişdir ki, nə vaxtsa Azərbaycan xalqı birləşəcəkdir».

Bu icmal «Bi-Bi-Si»-də fars və türk dillərində səslənmişdir.

*«Azadlıq» radiosunun Azərbaycan xidməti 1982-ci il dekabrın 1-də* **«Krisçen sayens monitor» qəzetinin 30 noyabr tarixli nömrəsində** dərc olunmuş məqalənin məzmununu efirdən səsləndirdi.



Məqalədə göstərilirdi ki, Yuri Andropov partiya kadrlarının düzgün seçilməsinə və partiyadaxili intizama böyük əhəmiyyət verir. Xarici diplomatların rəyinə görə Heydər Əliyevin bir həftə ərzində Azərbaycanın partiya rəhbəri vəzifəsindən Sov.İKP MK Siyasi Bürosuna, sonra isə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə yüksəlməsinə məhz bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır.

Qərb müşahidəçiləri hesab edirlər ki, «Heydər Əliyev – sovet iqtisadiyyatının inkişafı məsələsində sərt tədbirlərin tərəfdarıdır. Onun fikrinə görə israfçılıq və prinsipsizliklə məhz bu yolla mübarizə aparmaq olar. Heydər Əliyevin iş üslubunun nəticələri Azərbaycanda özünü əyani göstərmişdir. Lakin səylərinə baxmayaraq respublikada korrupsiya kimi mənfi halın kökünü kəsməyə müvəffəq olmadı».

Məqalədə qeyd olunur ki, «Literaturnaya qazeta»ya müsahibəsində Heydər Əliyev sosializm cəmiyyətində Lenin prinsiplərinin bərpa olunması məsələsinə toxunmuşdur. Bununla bərabər göstərilir ki, 1971-1976-cı illərdə Azərbaycanda 60 yerli partiya rəhbərindən 14-ü tutduğu vəzifəsindən kənarlaşdırılmışdır, 1980-ci ildən başlayaraq isə müxtəlif səbəblər üzündən yerli hakimiyyət orqanları rəhbərlərinin 25 faizi işdən azad edilmişdir.

Noyabrın 29-dan dekabrın 3-nə qədər Türkiyənin xarici işlər naziri İltər Türkmən SSRİ-də rəsmi səfərdə olmuşdur. Onu müşayiət edən jurnalistlərin içində «Günaydın» qəzetinin icmalçısı və fotomüxbiri Ərtoğrul Akbay da var idi.

Bakıda olarkən jurnalist Əliyevlə görüşmüşdür. *1982-ci il dekabrın 10-da «Günaydın»da* çıxan fotoreportaj və məqalə belə adlandırılmışdı: «Əliyev Türkiyəyə salam göndərdi».

Məqalədə o cümlədən deyilir:

«Mən Azərbaycandan olan Heydər Əliyevlə söhbət etdim. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, partiyanın ali orqanı – Siyasi Büroda təmsil olunan H.Əliyev mənə dedi:

– Mən istəyirəm ki, iki qonşu ölkə səylərini birləşdirərək dostluğumuzu möhkəmləndirmək işində tərəqqi əldə etsinlər. Əminəm ki, gələcəkdə münasibətlərimiz bütün sahələrdə dostluq ruhunda inkişaf edəcəkdir.

**H.Əliyev türk dilində gözəl danışır, İstanbul ləhcəsində** (seçmə bizimdir – *E.A.*)

Təyin olunduğu vəzifədə Sovet İttifaqının taleyində mühüm rol oynayacaq H.Əliyev, təvazökar, səmimi insan təsiri bağışlayır.

59 yaşı olmasına baxmayaraq, Əliyev cavan görünür. Ağıllı, həyat eşqi ilə parıldayan gözləri var. Baxışından, hərəkətlərindən bilinir ki, güclü adamdır.

Qısa ifadələrlə danışır. Xoş bir şey görəndə, onun sərt baxışları birdən-birə yumşalır, çöhrəsi gülür.

«Günaydın»da dərc olunmuş özü haqqında məqaləni oxumağa başlayanda görünüşü belə idi. Sərt baxışlar yumşalmışdı, gülümsəyirdi. Sonra Azərbaycan dilində dedi: «Yaxşı. Yaxşı».

Məqalədə ən çox xoşuna gəldiyi onun yaxşı sovet-türk münasibətlərinin tərəfdarı olduğundan bəhs edən yer oldu. O yeri oxuyanda dedi:

– Baxın, yazanlar tamamilə doğru deyir. Biz qonşuyuq, gərək yaxşı münasibətlərimizi inkişaf etdirək.

Baş nazirin 12 müavinindən birincisi olmuş Heydər Əliyev, özünə diqqəti iqtisadiyyatda və sui-istifadə hallarına qarşı mübarizədə qazandığı uğurlarla cəlb etmişdir. Azərbaycanın qazandığı uğurlara görə o «Sosialist Əməyi Qəhrəmanı» adına layiq görülmüşdür. Bu yüksək mükafat şəxsən Brejnev tərəfindən təqdim olunmuşdur. Əliyevin gənc yaşlarında Siyasi Büroya seçilməsi və sovet rəhbər heyətinə daxil edilməsinə səbəb onun qazandığı böyük uğurlar olmuşdur...».

*Sitatları davam etdirmək olar. Qəhrəmanımın fəaliyyətinin Moskva dövrü ilk gündən başlayaraq dünya mətbuatının diqqətli nəzərləri altında keçəcəkdir. Bir dəfə Qorki-10-da onun yanına gəlmiş general Ziya Yusifzadəyə hirslə deyəcək: «Sən elə bilirsən bütün bu söhbətlər mənim xeyrimədir? Bu barədə ən nüfuzluları da daxil olmaqla xarici qəzetlər yazır – «Vaşinqton Post» da, «Nyu-York tayms» da, türk mətbuatı da. Əliyev, guya, Siyasi Büronun ən nüfuzlu üzvüdür. Bunun axırı yaxşı olmayacaq».*

*Sanki ürəyinə damıbmış.*

## Vidalaşma

Varisi müəyyənləşdirəndən sonra Heydər Əliyev rəhbərliyi altında sonuncu olan Azərbaycan KP MK plenumunda yekun nitqi hazırlamağa başladı. O bir həftəyə yaxın Azərbaycanla, müxtəlif dövrlərdə onun komandasında çalışmış insanlarla, rayonların rəhbərləri ilə, Azərbaycan ziyalılarının nümayəndələri ilə vidalaşdı. Bir



çox həmsöhbətlərimdə bu vida görüşləri haqqında riqqət doğuran xatirələr qalıb.

«Yadımdadır, o günlərdə mən bir dəfə Heydər Əliyevin kabinetində oturmuşdum, bu vaxt hökumət telefonu zəng çaldı, – Həsən Həsənov danışır. – Yuri Andropov idi. Siyasi Büroya çıxaracağı hansısa məsələni razılaşdırırdı. Söhbət əsnasında soruşdu: «Niyə Bakıda bu qədər yubanırsınız?». Başqası bəlkə özünü itirərdi, ancaq mən Heydər Əliyevin inamlı cavabının şahidi oldum: «Mən 1-ci katib vəzifəsində 14 il işləmişəm, heç olmasa 14 gün ərzində yekun vurub adamlarla vidalaşmalı deyiləmmi?». Düzdür, bu vidalaşma simvolik xarakter daşıyırdı. Bir müddət sonra o Azərbaycana məzuniyyətə, 1983-cü ilin payızında isə Bakıya Şərq xalçaları üzrə Beynəlxalq simpoziumda iştirak etmək üçün gəldi. O, Azərbaycanla bağlı Moskvada keçirilən bütün mədəni tədbirlərdə iştirak edirdi.

O günlər onunla görüşmək istəyənlərin sayı minlərlə idi. Ancaq bunu tam mənasında həyata keçirmək qeyri-mümkün idi. Ziyalılar üçün istisna etdilər, onların nümayəndələri qrup-qrup gəlir, Heydər Əliyevin kabinetinə keçib onunla söhbət edirdilər. Bizlərdən hər biri ikili hisslər keçirirdi: bir tərəfdən Heydər Əliyevin uğuruna sevinirdik, digər tərəfdən isə Azərbaycanın gələcək taleyi barədə narahat idik. Sonradan, Ermənistanın Dağlıq Qarabağa iddiaları açıq xarakter alanda, biz onun burada olmamasını daha ağrılı hiss etdik...».

Yazıçılar qrupunun tərkibində Azərbaycan KP MK-nın 1-ci katibinin kabinetində yazıçı Elçin də olmuşdu. «Tarixlə üz-üzə» adlı məqaləsində o vaxtkı təəssüratını o belə ifadə edir:

«Mənim də daxil olduğum bir qrup yazıçı onunla vidalaşmağa gəldi. Məhz o vaxt Azərbaycandan ayrılmağın onun üçün nə qədər ağır olduğu, respublika ilə qırılmaz tellərlə necə bağlı olduğu aydın oldu. Heydər Əliyev həyəcan keçirirdi və heç cür bunu gizlədə bilmirdi. Ona baxıb fikirləşirdim ki, insan ürəyi həqiqətən açılmayan sirrdir. O özündə onun qətiyyətini, sərtliyini, bəzən hətta amansızlığını və bu həyəcanları, hisslər aləmini birləşdirirdi... Bir yazıçı kimi bu mənim üçün olduqca maraqlı müşahidə idi və bu maraq sonralar da sönmədi. Son günlərə qədər onun şəxsiyyətində özüm üçün elə gözlənilməz cizgilər açırdım ki, hərdən mənə elə gəlirdi, bu adamı birinci dəfədir görürəm...»[10].

Noyabrın bütün axır günləri qəzetlərdə partiya, sovet işçilərinə, mədəniyyət və incəsənət xadimlərinə fəxri adların verilməsinə dair səhifələr çap olunurdu: «əməkdar müəllim», «əməkdar incəsənət xadimi», «əməkdar mədəniyyət işçisi». O günlərdə yüzlərlə adam

bu adlara layiq görüldü. Bir çox cavan partiya funksionerı o günlərdə onun əlindən yeni rahat mənzillərin açarlarını aldılar.

**Milli Məclisin deputatı Mixail Zabelinin xatirələrindən:**

«Heydər Əliyeviç artıq Moskvaya hazırlaşanda biz Musabəyov qəsəbəsində, «xruşşovka»da, üç ailə bir yerdə yaşayırdıq: qaynımın ailəsi, qayınatam, bizim ailə də o vaxt dörd nəfərdən ibarət idi. Mən mənzil üçün sənədlərimi vermişdim. Heydər Əliyeviç məni çağırıb soruşur: «Mən gedirəm. Sənə bir şey lazımdır?». Deyirəm, çox sağ olun, heç nə lazım deyil. Günün ikinci yarısında o yenə məni çağırır. Niyə, deyir, yalan danışırsan? Mən donub qalıram, yenə nəyi isə düz etməmişəm. «Nəyi nəzərdə tutursunuz, Heydər Əliyeviç?» – «Sənə axı mənzil lazımdır?» – «Bəli, Heydər Əliyeviç, lazımdır, nəsə utandım deməyə». – «Nahaq yerə». O dərhal MK-nın işlər müdiri Mirzəcanova zəng vurdu. Mənə MK-nın evində dördotaqlı mənzil verdilər».

**Milli Məclisin deputatı Hadı Rəcəblinin xatirələrindən:**

«Heydər Əliyevin Moskvaya işləməyə getməyi ilə bağlı maraqlı epizod danışım sizə. Biz, MK-nın 11 təlimatçı və inspektoru partiya məktəbinin yataqxanasında yaşayırdıq. Həyat yoldaşımla iki uşağım rayonda idilər. Axı adətən MK işçilərini Bakıdan götürürdülər, Heydər Əliyeviç bu ənənəni pozmuşdu. O, ümumiyyətlə, MK aparatının aurasını dəyişdi. Hə, deməli mənim yataqxanadakı otağım bir növ ştab kimi idi, çünki burada televizor qoyulmuşdu. Hamımız o axşam «ştaba» yığışıb gecədən xeyli keçənə qədər yeyib-içib Heydər Əliyevin yeni təyinatını qeyd etdik. Yeganə hal idi ki, biz yataqxanada qoyulmuş qaydanı pozurduq: burada hamı bir-birinə göz qoyur, yeri gələndə «yuxarıya» çatdırırdı. Səhər açılana qədər kef çəkdik, sevinirdik ki, bizim rəhbərimiz Moskvaya belə yüksək vəzifəyə gedir. Saat doqquzda yuxulu-yuxulu gəldik işə. O vaxt içki iyini itirmək üçün heç saqqız da yox idi. Bir saatdan sonra Ramiz Mehdiyev aparat müşavirəsi keçirdi. Biz uzaqda oturmağa çalışdıq ki, dünənkindən sonra hələ «yaxşı» vəziyyətdə olduğumuzu sezməsinlər. Bu vaxt Ramiz Ənvəroviç elan etdi ki, gedəndə Heydər Əliyeviç tapşırıb ki, bizə mənzil verilsin. MK-nın bütün 11 gənc əməkdaşı o vaxt gözəl mənzillər aldı. Mən indiyə qədər Heydər Əliyevin verdiyi mənzildə yaşayıram».

Buna bənzər əhvalatları 1982-ci ilin noyabr günlərində mənzil şəraitini düzəldən və ya vəzifəsi artırılan onlarla keçmiş partiya işçisi danışa bilər.



Heydər Əliyevin yüksək vəzifəyə təyin olunması və Siyasi Büronün üzvü seçilməsi ilə əlaqədar eyforiyaya baxmayaraq respublikanın taleyi ilə bağlı həyəcan hissi keçib getmirdi. Azərbaycan dövlətçiliyi tarixində dəfələrlə milli fəcielərə gətirib çıxarmış bir ziyanlı tendensiya onu xüsusilə narahat edirdi. Ən çox da yüksək hakimiyyət eşelonunda düşmənçilik və intriqanın başlanmasından qorxurdu.

«1982-ci ilin dekabrında Moskvaya yola düşərkən, – Heydər Əliyev çox sonralar xatırlayırdı, – mən həmkarlarıma iki xəbərdarlıqla müraciət etdim: birincisi, çalışın ki, rəhbərlikdə qruplaşmalar yaranmasın, fikir ayrılığı olmasın. Bizə düşmən olan qüvvələr, bundan istifadə edərək Azərbaycana ziyan gətirərlər. İkincisi də ki, Dağlıq Qarabağ məsələsini diqqətdən kənar buraxmayın. Əfsus ki, mənim məsləhətlərimə qulaq asmadılar, nəticədə də respublika son illərdə bu ağır vəziyyətə düşdü»[11].

**Ramiz Mehdiyevlə söhbətdən:**

«Heydər Əliyeviç Moskvaya işləməyə yola düşəndə o bütün Büro üzvləri və respublikanın bəzi rəhbər işçilərinin şərəfinə şam yeməyi təşkil etdi, özü də həyat yoldaşları ilə birlikdə. Büro üzvlərinin hər birinə öz münasibətini bildirdi, fəaliyyətinə qiymət verdi. Təbii ki, mənim işim barədə dediyi sözlər yadımdan çıxmayıb. O sözbəsöz bunları dedi: «Uzun illər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi təşkilati-partiya şöbəsinə müdir axtarırdı. İndi nəhayət deyə bilərəm ki, biz təşkilati-partiya komitəsinin müdirini tapmışıq. Bu Ramiz Mehdiyevdir». Mən elə o vaxt həyat yoldaşıma dedim: «Çox sağ olsun Heydər Əliyeviç. Mənə belə yüksək qiymət verdi. Bundan böyük qiymət ola bilməz. Ancaq sözlərimi yadında saxla: Heydər Əliyeviç təəssüf ki, gedir. Görərsən, o gedəndən sonra Azərbaycanda necə intriqalar başlayacaq».

Yeri gəlmişkən, bu mövzu Heydər Əliyeviçin özü üçün də «ağrılı» idi. O mənim yanımda və şəxsən mənim özümə dəfələrlə deyib ki, 1920-ci ildən 1969-cu ilə qədər az qala respublikanı məhv edəcək intriqalar Azərbaycanı dağıdırdı. Ermənilər, Azərbaycanın Moskvada olan düşmənləri tərəfindən qızışdırılan didişmələr, böhtanlar, «donoslar», çəkişmələr, qalmaqallar – bütün bunlar respublikamızın başına bəlalar gətirdi.

Heydər Əliyeviç Moskvaya gedəndə, sonuncu Büroda bizə öyüd-nəsihət verirdi: «Əsas odur ki, intriqaların ayaq açmasına, rəhbər işçilərin qarşı-qarşıya qoyulmasına imkan verməyəsiniz. Ən çox bundan qorxmaq lazımdır». Əfsuslar ki, bizim bəzi rəhbərlər bu, mən

deyərdim ki, qızıl sözlərə qulaq asmadılar. Əgər Əbdürrəhman Vəzirov kimi sözün hərfi mənasında xəstə bir adam respublikanın rəhbərliyinə gəldisə, bu bir çox hallarda MK Bürosunda və ondan kənarda baş alıb gedən intriqaların nəticəsi idi. Təəssüflə demək istəyirəm ki, Kamran Bağırov nəinki bu təhlükənin qarşısını ala bilən adam oldu, hətta bir çox hallarda özü bu intriqaların təsirinə düşdü.

Kamran Bağırovun gəlməyi ilə Heydər Əliyev tərəfindən əsası qoyulmuş bir çox işlər əl altından yığışdırılmağa başladı, o cümlədən də kadrların seçilməsi və yerləşdirilməsi sahəsində. Çox vaxt köhnə işində özünü heç cür göstərməyən adamlar rayon, hətta respublika səviyyəsində rəhbər vəzifələrə çəkildilər. Rəhbər heyətdə belə partiya intizamı «axsamağa» başladı, mühüm təsərrüfat, sosial, kadr məsələlərinin həllinə çox vaxt prinsipial, dövlət yanaşması yox idi. Bütün bunlar respublikada ümumi vəziyyətə mənfi təsir göstərirdi».

...Ayrılıq qabağı son günlər xüsusilə ağır idi. MK-nın sonuncu geniş iclasında çıxış edən Heydər Əliyevin göz yaşlarını saxlaya bilməməsi çoxlarının yadındadır. Açıq deyirdi ki, respublikadan getmək istəmir, burada başa çatdırmaq niyyətində olduğu çoxlu planları, fikirləri var. «Ancaq onsuz da bir yerdə işləyəcəyik» – o özünü və orada olanları ruhlandırırdı. Fəttah Heydərov vidalaşma görüşlərinin birində iştirak etmişdir.

«O işlədiyi hər bir adamla sağollaşmağa, heç kimi yaddan çıxarmamağa çalışırdı, – Fəttah müəllim mənə danışırdı. – Görüşlər əksər hallarda Azərbaycan KP MK-nın köhnə binasında, beşinci mərtəbədə keçirilirdi.

O bizi də, Azərbaycanın bütün rayonlarının birinci katiblərini, həmçinin həmkarlar ittifaqı rəhbərlərini orada topladı. O görüş bütün incəlikləri ilə bu günə qədər yadımdadır.

Əvvəlcə Heydər Əliyev özü çıxış etdi, qısa nitq söylədi:

– Biz uzun illər bir yerdə işləmişik. Mən çox şadam ki, bütün planlaşdırılan işlər, qoyulan məqsədlər sizin iştirakınız, sizin köməyinizlə uğurla həll olunmuşdur, həyata keçmişdir. Biz Azərbaycan üçün çox işlər görmüşük, onun sənaye potensialını artırmışıq, şəhər və kəndlərimizin simasını dəyişmişik, cəmiyyətin həyatına mənəvi təmizlik gətirmişik. Mən bunu heç vaxt unutmayacağam. Siz həmişə mənim tapşırıqlarımın, göstərişlərimin mahiyyətini düzgün başa düşürdünüz, mənim təşəbbüslərimi fəal surətdə dəstəkləyirdiniz. Buna görə sizə minnətdarlığımı bildirirəm. Bu illəri həmişə fərəhlə yada salacağam.



Onun gözləri yaşardı. Biz də həyəcanlı idik, məni hətta qəhər boğmağa başladı. Bizim tərəfimizdən üç nəfər çıxış etdi: ağsaqqallar adından – Bərdə rayon komitəsinin birinci katibi Rüstəm Səfərəliyev. Xatirimdədir, o dedi:

– Siz torpağımız, xalqımız, partiyamız naminə sədaqətlə işləməyi bizə öyrətdiniz. Siz – bizə təmiz yaşamağı öyrətdiniz.

Sonra söz AHİŞ sədri Lidiya Rəsulovaya verildi. Çıxış vaxtı o ağladı.

Üçüncü çıxış edən Bakı şəhər partiya komitəsinin birinci katibi Vaqif Hüseynov oldu. O danışa-danışa ağlayırdı, hətta Rəsulovadan fərqli olaraq, hönkürürdü.

Sonda Heydər Əliyev qapının ağzında durdu, zaldan çıxanların bir-bir əlini sıxıb şəxsən xudahafizləşdi. Mən o qədər təsirlənmişdim, elə həyəcanlı idim ki, sağollaşanda onun üzündən öpdüm, sonra bir addım kənara çəkilib ağlamsındım. Elə bil hamımızın ürəyində həyəcan və qeyri-müəyyənlik yuva salmışdı.

Adamlar ondan ayrılmaq istəmirdilər. Bizim sanki ürəyimizə nəsə dammışdı, onu heç cür buraxmaq istəmirdik. O özü də Azərbaycandan çox çətinliklə ayrılırdı, sanki yaxın vaxtlarda necə böyük əziyyətlərlə qarşılaşacağını qabaqcadan görürdü».

* * *

**1982-ci il dekabrın 3-də** Heydər Əliyev Azərbaycan KP MK-nın plenumunda Azərbaycan Kommunist partiyası Mərkəzi Komitəsinin 1-ci katibi vəzifəsində 13 illik fəaliyətinə yekun vurduğu geniş nitq ilə çıxış etdi. İlk baxışdan quru görünən sətirləri diqqətlə oxuyaq. Bu sətirlərin arxasında uzun illər onun möhkəm, inamlı əli ilə irəli aparılan nəhəng kollektivin gərgin, ahəngdar işi hiss olunur.

«Əllinci-altmışıncı illərdə bütün göstəricilərə görə çox geridə qalan Azərbaycan iqtisadiyyatı artıq üçüncü beşillikdir ki, dinamik, davamlı, orta ittifaq göstəricisini qabaqlayan sürətlə inkişaf edir. Sənaye və kənd təsərrüfatının bütün əsas sahələri, sosial inkişaf üzrə nəinki dövlət planları, həmçinin sosialist öhdəçilikləri də ilbəil artıqlaması ilə yerinə yetirilir. Sənayenin strukturunda köklü dəyişikliklər baş vermişdir, burada elmi-texniki tərəqqini müəyyən edən sahələr hesabına onun sürətli inkişaf tendensiyası özünü aydın biruzə vermişdir. Əmək məhsuldarlığı, məhsulun keyfiyyəti və ictimai istehsalın digər mühüm göstəriciləri durmadan artır. Yaxın keçmişdə bərbad vəziyyətdə olan kənd təsərrüfatı əsaslı surətdə intensivləş-

dirmə, ixtisaslaşma, əkinçilik və heyvandarlıq mədəniyyətinin yüksəldilməsi yoluna qoyulmuşdur.

Keçdiyimiz yolun yekunları statistik göstəricilərdə aydın görünür. Yalnız bəzilərini söyləyim. İstifadə olunan milli gəlir doqquzuncu, onuncu və on birinci beşilliyin ilk iki ili ərzində 2,5 dəfə artmışdır. Bu dövrdə respublikada sənaye istehsalı 2,7 dəfə artmışdır. 13 il ərzində 101,5 mlrd. manatlıq və ya bundan əvvəlki 50 ildə olduğu qədər məhsul istehsal olunmuşdur.

Kənd təsərrüfatının ümumi məhsulu 13 il ərzində 2,7 dəfə artmışdır. Kənd təsərrüfatında əmək məhsuldarlığı 2,2 dəfə artmışdır. Su təsərrüfatı tikintisinə 2 mlrd. manat vəsait qoyulmuşdur, ötən 50 ildə isə bu sahəyə cəmi 800 mln. manat sərf olunmuşdur.

13 ildə xalq təsərrüfatının inkişafına 21,3 mlrd. manat kapital qoyuluşu yönəldilmişdir, bu da əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çoxdur. 250 iri müəssisə, sex və istehsal yeri tikilmişdir. Əsas fondlar 18,6 mlrd manat artmışdır. Bu əvvəlki 25 ildə olduğundan 1,6 dəfə çoxdur.

13 il ərzində 18,5 mln. kv. metr mənzil tikilmişdir. Başqa sözlə desək, miqyasına görə bütün Bakının mənzil fonduna bərabər şəhər ucaldılmışdır. 2 mln. 200 min nəfər, başqa cür desək, respublikanın hər üç sakinindən biri yeni mənzilə köçmüş və ya mənzil şəraitini yaxşılaşdırmışdır».

Azərbaycanın son onilliklərdə qazandığı uğur və nailiyyətləri sadalayan H.Əliyev bu uğurların qazanılmasında digər amillər sırasında partiya və dövlət intizamının möhkəmləndirilməsi, Azərbaycanda sağlam mənəvi-siyasi mühitin yaradılması, obyektivliyin, nöqsanlara və neqativ hallara qarşı barışmaz münasibətin bərqərar olmasını qeyd etmişdir.

O bildirmişdir ki, «respublika partiya orqanlarının, Azərbaycan KP MK-nın, Büro və katibliyin ahəngdar işi sağlam, işgüzar, prinsipial və xeyirxah mühitdə, səmimi və qarşılıqlı tələbkarlıq şəraitində keçir. Keçmişdə rəhbər işçilər arasında yer alan və ümumi işə böyük ziyan vuran intriqa, dedi-qodu, qruplaşma kimi qeyri-sağlam hallara çoxdan və birdəfəlik son qoyulmuşdur. MK-nın Bürosunda işgüzar şərait, əsl partiyalılıq, prinsipiallıq, məsuliyyətlilik ruhu bərqərar olmuşdur. Bu şəraiti, bu normaları hər vasitə ilə qorumaq və möhkəmləndirmək lazımdır».

H.Əliyev diqqətə çatdırır ki, son illər respublikada öz aktiv həyat mövqeyini «partiya və dövlət intizamının pozulmasına, kommunist əxlaqının antipodlarına, vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə



etməsinə qarşı qəti, barışmaz mübarizə şəraitində» formalaşdıran yüksəkixtisaslı kadrlar dəstəsi meydana gəlmişdir.

Rəhbər işçinin mühüm mənəvi keyfiyyətlərini sadalayan Heydər Əliyev xüsusi vurğulamışdır: «...Təkcə başqalarını düzgün və obyektiv tənqid etmək yox, eyni zamanda qüvvə və cəsarət tapıb öz işini və hərəkətlərini də tənqidi təhlil edib qiymətləndirmək, ümumiyyətlə, öz işinə tənqidi yanaşmaq olduqca vacibdir. Tutduğu vəzifə nə qədər yüksəkdirsə, vəzifəli şəxs öz fəaliyyətinə, iş yerində, məişətdə davranışına bir o qədər məsuliyyətlə yanaşmalı, qazandığı nailiyyətlərdən arxayınlaşmamalıdır. Vəzifəli şəxslərin öz vəzifə salahiyyətlərindən sui-istifadə faktlarına qarşı amansız mübarizə də işimizin mühüm amilidir. Yalnız bu yolla insanlara rəhbərlik etmək, onları tərbiyə etmək, bu və ya digər sahəyə başçılıq etmək üçün mənəvi ixtiyar qazanılır».

H.Əliyev qəbul edilmiş qərar və həyata keçirilən tədbirlərin aşkarlığı, ictimai rəyin daim öyrənilməsi, ideoloji işə, kütlələrin mənəvi və beynəlmiləlçilik ruhunda tərbiyəsinə diqqətin artırılmasının partiya və dövlət aparatının bütün qollarında işin yaxşılaşdırılması naminə oynadığı rolu bir daha yada salmışdır.

O respublikanın yeni rəhbərliyindən SSRİ-nin aparıcı ali məktəblərində Azərbaycan üçün kadr hazırlanması xəttini davam etdirməyi xahiş edərək qeyd etmişdir ki, «bu, mühüm ictimai-siyasi məsələdir, çünki söhbət Azərbaycanın gələcəyindən, onun etibarlı, möhkəm əllərdə olmasından gedir».

H.Əliyevin çıxışının yekun hissəsi çox emosional idi, təsadüfi deyil ki, onun çıxışı zamanı zalda oturanların çoxunun gözləri yaşarmışdı.

«Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin avqust (1969-cu il) plenumundan sonra ötən illər, özünüz bilirsiniz və bunları yaşamısınız, çətin və gərgin olmuşdur. Bu mürəkkəb, lakin gözəl illər idi... O vaxtdan keçən on üç il Sovet Azərbaycanının iqtisadiyyat, elm və mədəniyyətinin sürətli inkişafı, nüfuz və şöhrətinin yüksəlişi dövrü olmuşdur. Kommunistlər, respublikanın zəhmətkeşləri qazanılmış nailiyyətlərlə haqlı olaraq fəxr edirlər. Mən də xoşbəxtəm ki, bütün bu şərəfli illər ərzində Azərbaycan Kommunist Partiyası MK-sının birinci katibinin məsuliyyətli vəzifələrini icra etmişəm. Respublikanın uğurlarında şəxsi iştirakım olduğuna görə dərin məmnunluq hissi keçirirəm.

İndi partiya mənə yüksək etimad göstərib: mən namizədlikdən Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə keçirilmişəm və SSRİ

Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmuşam. Bu etimadı mən tamamilə, məni böyüdüb tərbiyə etmiş Azərbaycan partiya təşkilatının, Azərbaycan xalqının xidməti hesab edirəm... Daima kömək və etimad göstərdiklərinə, məni başa düşdüklərinə, birgə işə görə mən səmimi qəlbdən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə, MK-nın Bürosuna, kommunistlərə, Azərbaycan xalqına çox sağ ol deyirəm. Əmin ola bilərsiniz ki, əziz yoldaşlar, yeni vəzifədə də mən Azərbaycan partiya təşkilatının etimadını qırmayacağam. Elə işləyəcəyəm ki, onun şərəf və şöhrəti daha da yüksəlsin»[12].

*Həmişə olduğu kimi, Heydər Əliyev sözünün üstündə durdu. Onun Kreml rəhbərlərindən biri kimi fəaliyyəti haqqında indi də səmimiyyətlə danışılır. Andropovun irəli çəkdiyi adamın yaradıcı ziyalı və KİV nümayəndələri, orta qurum rəhbərləri və sadə sovet adamları arasında populyarlığı həndəsi silsilə ilə artırdı. Danışırdılar ki, Rusiya ucqarlarında ahıl qadınlar teleekranda onun əksini öpüb baş katib olması üçün dua edirdilər.*

*«Kreml beşilliyi» Heydər Əliyev üçün ciddi sınaqlar dövrü oldu, eyni zamanda, tam şəkildə olmasa da, onun rəhbər kimi çoxşaxəli istedadının açılmasına, nəhəng ölkənin daxili və xarici siyasətinin ən müxtəlif sahələrində bilik və bacarığını göstərməyə imkan verdi. Bu təcrübə 90-cı illərdə, müstəqil Azərbaycanın rəhbəri olanda, dövlətinin xarici siyasət istiqamətlərini sıfırdan qurmağa başlayanda qəhrəmanımın karına gələcəkdir.*



[1] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 348-350.
[2] Арбатов Г. Человек Системы. М., 2002. С. 376.
[3] Yenə orada. S. 127.
[4] Г.Шахназаров. С вождями и без них. М., 2001. С. 103.
[5] Волкогонов Д. Семь вождей. М., 1995, кн. 2. С. 136.
[6] Семанов С. Юрий Андропов. М., 2003. С. 375.
[7] Медведев Р. Неизвестный Андропов. Ростов-на-Дону, 1999. С. 354.
[8] Чурбанов Ю. Я расскажу все, как было. М., 1992. С. 97.
[9] Караулов А. Вокруг Кремля. М., 1993, т. 1. С. 224.
[10] Зеркало. 2005. 10 декабря.
[11] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 1998, k. 6. S. 457.
[12] Бакинский рабочий. 1982. 4 декабря.

*On dördüncü fəsil*

# «Qalstuksuz» Əliyev

Qəhrəmanımızın həyat tərzindəki aza qane olmaq, süni, saxta olmayan, bəzən zahidliyə qədər çatan sadəliyi, təvazökarlığı çoxdan bəri dillərdə dastan olmuşdu. Onun ailəsində də, uşaqlarının tərbiyəsində də bu cür ciddi, son dərəcə prinsipial ab-hava hökm sürürdü. MK-nın birinci katibi və onun yaxınlarının şəxsi həyatı barədə heç bir söz-söhbət, şayiə yadıma gəlmir. Əvvəla, həm Heydər Əliyev, həm də onun həyat yoldaşı göz qabağında idilər, həmişə xalqın arasında olurdular. İkincisi, dedi-qodu üçün heç bir əsas yox idi. Bu hal mühüm tərbiyəvi əhəmiyyət kəsb edirdi, cəmiyyətdəki mənəvi iqlimə müsbət təsir göstərir, hakimiyyətin zirvəsində dursa da, ondan şəxsi məqsədlər naminə sui-istifadə hallarına yol verməyən Heydər Əliyevə böyük hörmət qazandırırdı.

Bu fəsildə kifayət qədər incə bir mövzuya toxunmaq, Heydər Əliyevi, indi dəbdə olan tərzdə desək, «qalstuksuz» – rəsmiyyətdən kənar şəkildə göstərmək, təqdim etmək istəyirəm. İşdən kənar vaxtlarını harada və necə keçirirdi, az-az təsadüf olunan boş vaxtlarında nə ilə məşğul olurdu, hansı musiqiyə üstünlük verirdi, hansı filmlərə baxmağı xoşlayırdı və s. Adətən bu zümrədən olanların şəxsi həyatı «yeddi pərdə arxasında» gizlədilir, ancaq mən Heydər Əliyevin yaxın ətrafının xatirələri hesabına «qalın örtüyü» qaldıra bildim. Bu fəsil üçün eksklüziv materialı mənim ixtiyarıma vermiş Heydər Əliyevin qızı Sevil xanıma və onun vəfalı cəngüdəni Aleksandr İvanova xüsusilə minnətdaram.

Artıq qeyd etdiyimiz kimi, respublikaya rəhbərlik etdiyi illərdə Heydər Əliyev şəxsi villa və imarət tikdirməmişdi. Nəinki villası, heç özünə məxsus mənzili də yox idi. Gənclər dostluğu küçəsindəki hökumət kottecində və ona əvvəlki rəhbərlərdən miras qalmış Zuğulbadakı yay iqamətgahında yaşayırdı.

**Aleksandr İvanovla söhbətdən:**

«Gənclikdəki şəhər tipli hökumət iqamətgahında (biz öz aramızda onu «73»-cü obyekt adlandırırdıq) ondan başqa MK-nın ikinci katibi, Ali Sovetin Rəyasət Heyətinin sədri, Nazirlər Sovetinin sədri, HHM Bakı dairəsinin komandanı da yaşayırdı. İqamətgahın ərazisində beş ikiotaqlı kottec, bir də SSRİ Nazirlər Sovetinin sədr müavinləri, ittifaq nazirləri üçün böyük qonaq evi vardı. Heydər Əliyeviç ailəsi və uşaqları ilə birlikdə digər rəhbərlərin yerləşdiklərindən heç nə ilə fərqlənməyən adi kottecdə yaşayırdı.

Birinci mərtəbədə xoll, soyunub-geyinmə otağı, mətbəx və yemək otağı yerləşirdi. Üstəgəl xidməti heyətin istifadə etdiyi otaqlar. Yuxarıda iki və ya üç yataq otağı vardı. Ərazidə hovuzlu idman zalında Heydər Əliyevin yalnız özünün səhərlər istifadə etdiyi otaq yerləşirdi. Hovuz, üzgüçülük onun ən çox xoşladığı şeylər idi. O, üzmək, suya baş vurmaq üçün hər cür imkandan istifadə edirdi. Səhərlər bir qayda olaraq ərazidə sürətli idman yerişi yeriyir, sonra 40 dəqiqə idman hərəkətləri kompleksini yerinə yetirir, qırx dəqiqə, yarım saat isə sərbəst üsulla üzürdü. Praktiki olaraq hər gün bütün bunlar təkrar olunurdu. Əlbəttə, əgər hansısa tələsik iş, vacib tədbir – kimisə qarşılamaq, harasa getmək lazım gəlmirdisə. Ərazidə sauna da vardı, ancaq o, oraya getmirdi. Yalnız üzgüçülüklə, idman yerişi və səhər gimnastikası ilə məşğul olurdu.

**– Gimnastika ilə özü məşğul olurdu, ya həkimin nəzarəti altında?**

– Xeyr. Həkimləri həmişə nizə-qalxanla qarşılayırdı. Bizdə bədən tərbiyəsi təhsilli Jilişev soyadlı metodist vardı. O məşğələlərə nəzarət edir, hərdən məşğələyə qədər və sonra Heydər Əliyevin təzyiqini ölçürdü.

**– 70-ci illərdə o daha çox şəhərdə yaşayırdı, ya Zuğulbada?**

– Zuğulbaya yalnız yayda gedirdi. Bəzən, çox nadir hallarda qış mövsümündə bazar günləri ora baş çəkə bilərdi. İş günləri isə bütünlüklə məşğul olurdu. Zuğulbanın ərazisi də kotteclər sistemi şəklində qurulmuşdu. Sonra təzə Qonaq evi tikdilər, ancaq Moskvaya köçənə qədər o, həmin evdə bir gün də yaşamadı. Sonralar – Siyasi Büronun üzvü olanda, Bakıya iş dalınca gələndə də həmin qonaq evinə düşmürdü. Orada xüsusi olaraq hovuz tikmişdilər, bu onun arzusu idi».

Heydər Əliyevin qızı ilə söhbət zamanı ondan soruşdum ki, atası boş vaxtını necə keçirirdi, işdən kənar vaxtlarda kimlərlə ünsiyyəti xoşlayırdı.

*Tamaşadan sonra görkəmli sovet satirik aktyoru Arkadi Raykinlə. 1 oktyabr 1975-ci il.*

*H.Əliyev "Xalqlar dostluğu - ədəbiyyatların dostluğu" konfransının iştirakçısı olan bir qrup yazıçı ilə.*

*H.Əliyev və Z.Əliyeva Rusiya mədəniyyət xadimləri ilə.*

*1980-ci il dekabrın 4-də H.Əliyev Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinə dövlət mükafatları təqdim etdi: R.Rza Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü, S.Vurğun adına Rus Dram Teatrının veteranı S.Yakuşev Oktyabr inqilabı ordeni ilə təltif olundu, müğənni Z.Xanlarovaya isə SSRİ xalq artisti adı verildi.*

*H.Əliyev bir qrup sovet mədəniyyət xadimi ilə söhbət edir.*

*H.Əliyev Qara Qarayevi Sosialist Əməyi Qəhrəmanı adı alması münasibəti ilə təbrik edir.*

*1981-ci il iyulun 7-də Şüvəlandakı Yaradıcılıq evində yazıçılarla görüşdə.*

*1981-ci il oktyabrın 23-də H.Əliyev Azərbaycanın xalq yazıçısı, respublika Yİ-nin sədri, Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri Mirzə İbrahimova Lenin ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edərək, onu anadan olmasının 70 illiyi münasibəti ilə təbrik etdi.*



*1981-ci il dekabrın 10-da H.Əliyev şairlər S.Rüstəm və B.Azəroğluya hökumət mükafatları təqdim etdi.*

*H.Əliyev Rusiya aktyorları V.Zeldin və L.Çursina ilə söhbət edir.*

*H.Əliyev 1982-ci il yanvarın 15-də Şuşada Vaqifin məqbərəsinin açılışında. Solda - xalq şairi S.Rüstəm, sağda - xalq yazıçısı M.İbrahimov.*

*29 iyul 1982-ci il. Şuşada Vaqif Poeziya günlərinin açılışı.*

*Şuşada Vaqifin barelyefi önündə. 29 iyul 1982-ci il.*

*Heydər Əliyev və maestro Niyazi. Bakı, sentyabr, 1983-cü il.*

*Nadir istirahət dəqiqələrini H.Əliyev ailəsi ilə keçirirdi.*

*Bu ailədə heç vaxt atalar və oğullar problemi olmayıb.*



*Ailədə ilk nəvənin adını Zərifə qoydular.*



*Bu fotoşəkildə Zərifə və Heydər tamamilə xoşbəxtdirlər*

«Qışda bazar günləri şəhər kənarına, Zuğulbaya gedirdik, – deyə Sevil xanım söhbətə başladı. – Yayda ora köçürdük. Bizim yeganə ünsiyyət əhatəmiz bağ qonşularımız idi – Ali Sovetin sədri Xəlilov, Nazirlər Sovetinin sədri İbrahimov, ikinci katib Kozlov və HHM dairəsinin komandanı general-polkovnik Oliferov. Və əlbəttə ki, bizim əsil ailəvi dostlarımız Vitali Sergeyeviç və Nadejda Alekseyevna Krasilnikovlar. Biz çox tez-tez görüşüb bir yerdə olurduq, anam Nadejda Alekseyevna ilə, mən isə onların qızı Aneçka ilə dostluq edirdik. Atamla anam şənlənməyi, zarafatlaşmağı, ziyafət süfrəsi ətrafına toplaşmağı çox xoşlayırdılar. Anam piano çalır, atam isə oxuyurdu. Hamı şənlənir, əhvalları yüksəlirdi. Yayda bəzən elə çimərlikdə nahar edirdik.

Atam üzməyi xoşlayırdı. Qardaşımla mən, demək olar ki, dənizdə böyümüşük. Uşaqlığım DTK-nın Bilgəhdəki İstirahət evində keçib. Atam birinci katib olandan sonra biz Zuğulbaya – onun şəhərətrafı iqamətgahına köçəndə ilk vaxtlar dostlarım üçün darıxmağa başladım. Bilgəhdəki böyük ərazidə mənim çoxlu yaşıdlarım vardı.

Atam məzuniyyət götürəndə ailəlikcə Yaltaya gedirdik. Orada şəraitli hökumət bağları vardı. Səhər yeməyini yeyib çimərliyə gedirdik. Qayıdıb nahar edirdik. Atam kağız-kuğuzla əlləşir, xüsusi rabitə ilə Bakıya zəng vururdu. Axşamlar filmlərə baxırdıq. Valideynlərim bəzən Leonid İliç Brejnevin bağına gedirdilər. Anam onun həyat yoldaşı Viktoriya Petrovna ilə dostluq edirdi».

Şəhər iqamətgahının sakinlərinin həyat tərzi barədə mənə respublika Nazirlər Sovetinin keçmiş sədri Həsən Seyidov danışdı:

«Bu bağ əvvəllər «ermənikənd bağı» adlanırdı. Onu həm də Mir Cəfər Bağırovun vaxtında MK katibi, sonra isə Nazirlər Sovetinin sədrinin adı ilə «Teymur Quliyevin bağı» da adlandırırdılar. Çoxlu meyvə ağacları olan böyük sahədə beş ikimərtəbəli ev tikilmişdi. Həmkarlarımdan biri bu iqamətgahı zarafatla «mədəni həbsxana» adlandırmışdı, çünki biz işdə də bir yerdə olurduq, bura gəlirdik, yenə də eyni sifətlərlə üzləşirdik. Ərazi ümumi idi, evlər bir-birindən çəpərlə ayrılmamışdı. Qonaq evində biz bəzən birlikdə kinoya baxırdıq.

**– Heydər Əliyevin ailəsi ilə qeyri-rəsmi şəraitdə görüşmüşdünüzmü, hansısa ailəvi tənənələri, ad günlərini keçirmişdinizmi? Sizin şefiniz işdən kənarda necə olurdu?**

– Əslində biz tez-tez ev şəraitində görüşürdük, ancaq bu ad günləri şənlikləri deyildi. O, belə şeyləri xoşlamırdı.

**– Bəs nə ilə bağlı görüşürdünüz?**

– Təqvimdəki bayram günləri ilə əlaqədar bir yerə yığışırdıq: Yeni il, 7 noyabr, 1 may və s. günlərdə, o da həmişə olmurdu.

**– Görüşləriniz necə keçirdi? Hansınızınsa evində süfrə açırdınız?**

– Yox, niyə ki, hansımızınsa evində? Bizim şəhərdə də, Zuğulbada da qonaq otaqlarımız var idi. Beş ailə bir yerə cəmləşirdik. Sözsüz ki, Heydər Əliyeviç çox şən, yüksək əhval-ruhiyyədə olurdu. Bəzən zarafatlaşır, lətifələr danışırdı.

**– Nə barədə söhbət edirdiniz? İş-güc barədə, ya hansısa başqa mövzuda?**

– İş barədə biz çox az danışırdıq. Çünki Zərifə xanım həmişə zarafatla sözümüzü kəsirdi: «İşinizdən danışdınız, bəsdir. Gəlin mətləbə keçək». O, pianoda gözəl çalırdı. Ümumiyyətlə, onların ailəsi musiqiduyumlu idi. Zərifə xanımın bacısı Gülarə xanım «Dan ulduzu» ansamblının rəhbəri idi. Zərifə xanım, ümumiyyətlə, deyib-gülməyi çox sevərdi, həyat yoldaşını da pianoda özü müşayiət edirdi. Heydər Əliyevsə məmnuniyyətlə oxuyurdu.

**– Onun repertuarında hansı mahnılar vardı?**

– O, əsasən Azərbaycan mahnılarını ifa edirdi, ancaq rus mahnılarını da bilirdi. Yadımdadır ki, 70-ci illərin ortalarında Bolqarıstan Kommunist Partiyası MK-nın birinci katibi Todor Jivkov qızı və kürəkəni ilə Bakıya gəlmişdi. Onlar ziyafət zamanı ailəlikcə hansısa bolqar mahnısı oxudular. Onda Heydər Əliyev dedi:

– Gəlin biz də bir şey oxuyaq.

Biz də xorla «Moskva axşamları» mahnısını oxuduq.

Görəydiniz Heydər Əliyev necə rəqs edir! Əsl professional kimi – milli rəqsləri də, valsı da, oynaq Qərb ritmlərini də...».

Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin keçmiş müdiri Cahangir İldırımzadə Heydər Əliyevin respublikaya gəlmiş jurnalistlərlə qeyri-rəsmi görüşünü belə xatırlayır:

«...Bakıda «Pravda» qəzetinin Zaqafqaziya və Şimali Qafqaz üzrə xüsusi müxbirlərinin yığıncağı keçirilirdi. «Pravda»nın baş redaktor müavini Sklyarov, Zaqafqaziya və Rostova qədər Şimali Qafqaz regionunun 10 nəfər xüsusi müxbiri gəlmişdi. Mən onların görüşmək və söhbətləşmək istədiklərini Heydər Əliyevə çatdırdım. O razılaşdı. MK-nın işlər müdiri Balabəy Mirzəcanova zəng vurdu. Axşama Qonaq evində – «Bağırovun evində» görüş təyin etdi. Qurban Xəlilovu, Əli İbrahimovu, Süleyman Tatlıyevi və başqalarını da dəvət etdik.



Artıq bir qədər yeyib-içmişdik, stol ətrafında canlanma hiss olunurdu. «Pravda»nın Gürcüstan üzrə xüsusi müxbiri Lebanidze Heydər Əliyevə müraciət etdi: «Heydər Əliyeviç, sizə Stalinlə bağlı bir əhvalat danışmaq istəyirəm. Bir dəfə Stalin Suxumiyə gəlir, orada onu qarnağrısı tutur. Ona baxmaq üçün təcrübəli həkim gətirirlər. Arıq, hündürboy, ahıl bir həkim rəhbəri müalicə etməyə başlayır. 30-40 dəqiqədən sonra ağrı kəsir. Həkim getməyə hazırlaşanda Stalin ona nə iləsə minnətdarlıq bildirmək istəyir. «Sənin ürəyindən nə keçir? Mən sənə necə kömək edə bilərəm?» Həkim cavab verir: «Yoldaş Stalin, tanınmış adamam. Burada hamı məni ziyafətlərə, qonaqlıqlara dəvət edir, insanlar arasında böyük nüfuzum və hörmətim var. Yeganə məni narahat edən bir şey varsa – o da mədəmdəki yaradır. Məni tez-tez qonaq çağırırlar. Hər ziyafətdə ilk badəni yoldaş Stalinin sağlığına qaldırırlar. İcazə verin, sizin sağlığınıza badəni axıradək içməyim». Stalin qəlyanını tüstülədərək fikrə getdi. Sonra isə dedi: «Düşünürəm ki, camaatdan seçilmək lazım deyil».

Heydər Əliyev bu əhvalatı dinləyəndən sonra qəhqəhə çəkdi. Sonra isə Q.Xəlilovu və A.İbrahimovu dilə tutmağa başladı ki, rəqs eləsinlər. O, xatirini çox istədiyi adamlarla zarafatlaşmağı xoşlayırdı. «Bax, bizim Qurban Əliyeviç Xəlilov hər dəfə Moskvada Ali Sovetdə növbətçi olanda bir qadını siğə eləyir». Və «siğə»nin nə olduğunu izah etməyə başladı. Hamı ürəkdən güldü. Heydər Əliyev bir qədər sərbəstləşəndə, olduqca səmimi və maraqlı həmsöhbət olurdu, hətta lətifələr də söyləyirdi.

Həmin axşam jurnalistlərdən hər biri maraqlı bir şey danışdı. Heydər Əliyev bu cür yığıncaqları çox xoşlayırdı».

HHM Bakı dairəsi qoşunlarının keçmiş komandanı Anatoli Ustinoviç Konstantinova da Heydər Əliyevlə bir stol arxasında oturmaq nəsib olmuşdu. Onun söhbətlərindən belə məlum olur ki, işdən kənar vaxtlarda o tamamilə başqa təsir bağışlayırdı:

«Rəsmi qəbullar zamanı, xarici nümayəndə heyətinin qəbulundan – rəsmi nitqlər, rəsmi sağlıqlardan söhbət gedəndə o, respublikanın, hətta ölkənin ciddi siyasi rəhbəri idi.

Dostcasına qəbullar, ziyafətlər zamanı isə o özünü dövlət adamı kimi yox, sadə vətəndaş kimi azad, sərbəst aparırdı. O, Zərifə xanımla bir-birilərini belə məclislərdə çox gözəl başa düşürdülər. Zərifə xanım piano çalır, oxuyur, Heydər Əliyev isə bütün qadınlarla rəqs edirdi.

Bəzən rəhbərlər danışmağa başlayanda heç kimə macal vermirlər. Burada isə hər şey tamam başqa cür idi. Mən də, mənim həyat yoldaşım da çıxış edə bilərdik, digər yoldaşlar da söz ala bilərdilər. Sağlıq deyir, maraqlı əhvalatlar danışırdılar...

**– Hamı qeyd edirdi ki, Zərifə xanımla onların arasında həqiqətən zərif, titrək münasibətlər vardı, Heydər Əliyev onu çox sevir və qiymətləndirirdi.**

– Çox mehriban ailələri vardı. Rəqs etmək növbəsi gələndə, təşəbbüskar Zərifə xanım olurdu. O, gah milli paltar geyir, gah başına şlyapa qoyur, bir sözlə, oyun çıxarırdı. O çox şən, zarafatcıl insan idi, Heydər Əliyev də ona qoşulurdu.

Zərifə xanım Heydər Əliyevin çətin anlarda söykənə biləcəyi etibarlı arxa-dayaq idi. Onların arasındakı münasibətlərin əsasını özlərinə və ətrafdakılara hörmət təşkil edirdi. Heydər Əliyev ömür-gün yoldaşının vaxtsız vəfatından sonra da bu prinsiplərə sadiq qaldı».

Sevil xanım danışırdı ki, plenumlarda, iclaslarda, sessiyalarda iştirak etmək üçün Moskvaya yollananda o, Zərifə xanımı, Zərifə xanım da uşaqları özü ilə götürürdü:

«Anam bizsiz qala bilmirdi. Biz hər yerə dördümüz gedirdik. 1976-cı ildə onu Siyasi Büro üzvlüyünə namizəd seçəndə də onunla idik. Biz elə sevinirdik, onunla elə fəxr edirdik ki!»

**Zərifə xanımın rəfiqəsi, professor Zəhra Quliyeva xatırlayır:**

– Zərifə, necə deyərlər, odun üstünə həmişə su səpərdi. O, Heydər Əliyevdə və ətrafındakılarda toplaşan mənfi enerjini bütünlüklə zərərsizləşdirməyi bacarırdı. Bu zaman o boynuna düşən məsuliyyəti aydın dərk edirdi. Onun gözü önündə həmişə atasının surəti dururdu. Ətrafdakılar ona qibtə edir, o isə ərinin, uşaqlarının üstündə əsirdi.

«Literaturnaya qazeta»da Heydər Əliyevin böyük hay-küyə səbəb olan «Qoy ədalət zəfər çalsın» başlıqlı müsahibəsi dərc olunanda mən Moskvanın kənarındakı sanatoriyada istirahət edirdim. Mənimlə birlikdə keçmiş nazirlər, yüksək vəzifəli partiya işçiləri də dincəlirdilər. Yadımdadır ki, onlar məni əhatəyə alıb sorğu-suala tutdular: bizim MK-nın birinci katibi necə adamdır, niyə o belə qətiyyətlə və açıq çıxış edir.

Mən heyrətə gəlirdim: axı o insanların rifahı üçün açıq ürəklə çox işlər görüb, ancaq bu qədər gözü götürməyəni, düşməni var! Ona görə də Zərifə həmişə ondan nigaran idı: Heydər Əliyev təyyarə ilə bir yerə uçurdusa o, dərhal zəng vurub mənzil başına necə çatması ilə maraqlanırdı.



Biz onunla ezamiyyətlərə gedəndə, hava limanına çatmamış o telefonun dəstəyini götürüb evə zəng vururdu. Onu başa düşmək olardı. Kənardan baxanlar isə ona qibtə edirdilər. Elmlər Akademiyasının prezidenti Həsən Abdullayevi işdən çıxardanda o çox həyəcan keçirirdi. Bir dəfə mənə dedi:

– Zara, bilirsən, həyat yoldaşım əvvəllər onunla ünsiyyətdə olurdu, biz ailəvi dostluq edirdik. Mən zəng vurub onun həyat yoldaşı ilə danışdım, gərginliyi azaltmaq, vəziyyətin niyə belə şəkil almasının səbəbini izah etmək istədim.

Belə hallar çox olurdu. O, özünün zərifliyi, həlim xasiyyəti, diplomatiyası ilə vəziyyəti tənzimləməyə çalışırdı.

O, həyat yoldaşını çox sevirdi, onun üstündə əsirdi, ümumiyyətlə, onun səhhətinə ciddi nəzarət edirdi».

Bu barədə mənə Milli Məclisin deputatı, bir müddət MK-nın birinci katibinin referenti işləmiş Mixail Zabelin də danışdı:

– Zərifə Əzizovna ümumiyyətlə qeyri-adi insan idi. Mən onunla tez-tez, bəlkə də gündə beş-altı dəfə telefon əlaqəsi saxlayırdım. Heydər Əliyev nadir hallarda evlə calaşdırmağı xahiş edirdi, çox vaxt Zərifə xanım zəng vururdu. «Heydər Əliyeviç gəlib?» – «Bəli, – deyə cavab verirdim, – Zərifə Əzizovna, gəlib». – «O özünü yaxşı hiss edir?» – «Hər şey qaydasındadır». – «Saat on birdə ona dərman və kök şirəsi vermək yadından çıxmasın». – «Zərifə Əzizovna, yadımdan çıxmaz». O bir stəkan kök şirəsi içib, saat on birdə də dərmanını içirdi. Bir azdan Zərifə xanım yenidən zəng vururdu:

«Qoy orada nahar etməsin, mən buxarda bişmiş kotlet hazırlayıb göndərirəm. Onu yesin». Bir qədər keçəndən sonra yenə də nəyə görəsə zəng vururdu. Başqa sözlə, o daim onun qayğısını çəkir, ondan nigaran qalırdı. Bu zümrədən olan ərlərin əksəriyyətini bu, qıcıqlandıra bilərdi. Heydər Əliyevi isə bu qayğı, diqqət heç vaxt qıcıqlandırmırdı, əksinə, onun xoşuna gəlirdi. Çünki onu çox sevirdi.

**– Bu sevgi özünü nədə göstərirdi? Söhbət zamanı, intonasiyalarda?**

– Mən onların söhbətində çox iştirak etməmişəm, ancaq bir dəfə söhbətin üstünə çıxmışam. Görünür, Heydər Əliyev istirahət otağında idi. Mən onun kabinetinə daxil oldum, çünki Zərifə Əzizovna zəng vurub demişdi ki, Heydər Əliyev dəstəyi götürmür. O məndən xahiş etmişdi yoxlayım, görüm hər şey qaydasındadırmı? Kabinetə daxil oldum, gördüm, həqiqətən də yerində yoxdur. Otaqdan çıxmaq

istəyəndə o, əllərini silə-silə daxil olub, soruşdu: «Nə olub?». Dedim: «Zərifə Əzizovna sizinlə əlaqə yarada bilməyib, xahiş elədi ki, mən xəbər tutum». Heydər Əliyeviç məndən pəncərəni bağlamağı xahiş edib, özü dəstəyi götürüb Zərifə xanımla danışmağa başladı. O, heç bir nəvazişli söz demədi, ancaq səsinin ahəngindən hiss elədim ki, bu qadına sevgisi-məhəbbəti böyükdür və diqqətinə görə ona minnətdardır. Zərifə xanım gözəl başa düşürdü ki, həyat yoldaşı çox böyük insandır, ona başqa cür yanaşmaq olmaz, diqqət və qayğı ilə əhatə etməsən, onu necə qorumaq, saxlamaq olar?

Zərifə Əzizovna ümumiyyətlə çox diqqətcil qadın idi. O, qızlarının ad günlərini yadında saxlayırdı. Bir gün zəng vurub dedi: «Mişenka, qızının ad günü münasibətilə ona paltar göndərirəm. Zənnimcə, əyninə gələcək. Anatoli sənə verər». Yaxud da, Yeni il qabağı o tez-tez zəng vururdu: «Mən sizə bəzi şeylər göndərmişəm. Heydər Əliyeviç də öz adından sizə Yeni il hədiyyəsi göndərir. Sürücü gətirəcək. Sən özün payla». Həmişə Yeni il üçün Heydər Əliyeviçin adından ayrı hədiyyə alırdıq, Zərifə Əzizovnadan ayrı. Bu, hamının ürəyincə olurdu. Hiss edirdik ki, bizim barəmizdə düşünənlər var, biz sadəcə «mexanizmin vintləri» deyilik, biz də nəyəsə yarayırıq».

Lənkəran şəhər partiya komitəsinin keçmiş birinci katibi Dilruba xanım Camalova Heydər Əliyevin cənub regionuna gəlişinin maraqlı təfərrüatlarından danışdı. O vaxt o həyat yoldaşı və oğlu ilə birlikdə gəlmişdi və Dilruba xanımın inadkarlığı sayəsində ailəsi ilə istirahətə və Lənkəranın füsunkar təbiətilə tanışlığa bir neçə saat ayırmışdı. D.Camalova bunları belə xatırlayır:

«Bu, onun 1982-ci ildə Lənkərana gəlişi zamanı olmuşdu. Təsərrüfatları gəzəndən sonra biz Xanbulançay dəryaçasına, artıq Zərifə xanımla İlhamın yerləşdiyi qonaq evinə getdik. Burada yemək və istirahət üçün hər şey hazır idi. Heydər müəllim üçün ayrıca otaqlar hazırlamışdıq (biz oranı «Kekkonen otağı» adlandırırdıq).

Mən Heydər müəllimi bir qədər dincəlmək üçün otağına ötürüb, mətbəxə endim. Gördüm ki, «birincinin» şəxsi aşbazı Sona mətbəxdə «at oynadır». Biz isə o qədər yeməklər bişirmişdik ki! Mənə dedilər ki, Heydər Əliyev yalnız bu qadının əliylə hazırladığı yeməkləri yeyir.

O həm aşbaz idi, həm də həkim.

Sona mənə dedi ki, gərək əvvəlcə bişirdiyimiz yeməkləri yoxlasın.



– Buyurun, – dedim, – yoxlayın. Heydər müəllim həyat yoldaşı, oğlu ilə Lənkərana gəlib. İndi ki o bizim qonağımızdır, gərək Lənkəran təamlarından dada.

– Bu qətiyyən mümkün deyil, – deyə Sona etiraz etdi.

Mən öz adamlarıma göstəriş verdim ki, hər şeyi hazır etsinlər, ancaq mənsiz süfrəyə gətirməsinlər. Özü də hər şeydən bir az olsun. Biz cürbəcür yeməklər hazırlamışdıq, istəyirdik ki, qonaqlarımız hamısının dadına baxsınlar.

Zərifə xanım isə narahat idi:

– Bu sənə ziyandır, onu yemək olmaz. Ehtiyatlı ol... – deyirdi.

– Zərifə, – deyə Heydər müəllim cavab verdi, – biz Lənkərana, Dilruba xanıma qonaq gəlmişik, ona tabe olmalıyıq.

Həmin vaxt aramızda çox gözəl münasibətlər yaranmışdı. Mən onu dilə tutdum:

– Mərcili plovun dadına baxın.

– Hə, – dedi, – anam rəhmətə gedəndən bəri mən mərcili plov yeməmişdim.

– Sənə olmaz, – Zərifə xanım yenə də naharatlıqla bildirdi.

O vaxtlar Heydər müəllimin mədəsində problemlər vardı, ona görə də ona hər şeyi buxarda bişirirdilər. Ancaq biz nə təklif etdiksə hər şeydən məmnuniyyətlə yedi. Görünür, belə təamlar üçün darıxmışdı.

– İndi isə icazə verin qızardılmış kütüm gətirsinlər, – dedim.

Hər dəfə təzə yemək gətirəndə ondan icazə istəyirdim.

– Gətirsinlər baxaq.

Kütüm gətirdilər. Onun da dadına baxdı.

Mən bilirdim ki, axşam yeməyini və ertəsi gün səhər yeməyini bizdə yeyəcək. Odur ki, çalışırdım hər dəfə süfrəyə yeni bir təam gətirsinlər.

Axşam katerlə Xanbulançay dəryaçasına gəzintiyə çıxdıq. O gəzintiyə o qədər də meyilli deyildi. Ancaq mən onu 10-15 dəqiqəliyə dəryaçanın sularında gəzinmək üçün dilə tutdum. Bizim arxamızca mühafizəçilərin kateri gəlirdi. Gəzinti zamanı mən Lənkəran meşələrindən, orada bitən ağac növlərindən, canlılar aləmindən söhbət açdım. Axı dəryaçanın hər tərəfi meşə ilə əhatə olunmuşdu, gözəl mənzərə yaranmışdı.

– Həqiqətən, bura necə gözəldir, – deyə o heyranlıqla söylədi. – Zərifə, Bakıya qayıdan kimi Seva ilə səni bura yollayacağam. Dilruba xanımın yanına gəlib, əməlli-başlı gəzib dincələrsiniz.

O biri katerdən İsay Rubençik şəklimizi çəkirdi. Sonralar bu şəkillər Prezidentə həsr olunmuş bir çox fotoalbomlara salınmışdı.

Səhərisi gün Heydər Əliyev Astaraya yola düşdü, biz isə Zərifə xanım və İlhamla şəhəri gəzdik, İstisuda olduq, sonra meşəyə, bulaq başına yollandıq. Oraya Finlandiyanın prezidenti Koyvistonu və digər ali qonaqları da aparmışdıq. Özü də Koyvistu oradan qayıdandan sonra demişdi: «Bu cür əsrarəngiz meşədə maşınla gəzmək olmaz. Buranı yalnız piyada dolaşmaq lazımdır». O dörd kilometr yolu piyada getdi. Hündürboylu prezidentin bir addımı az qala bir metr idi, bizimkilər onunla güclə ayaqlaşırdılar.

Mən Zərifə xanımla İlhamı da oraya apardım. Füsunkar, ecazkar bir yerdir: dağ kəndinin ətəkləri, ətraf sıx meşəlikdir, buz kimi bulaq çağlayır. Özünlə götürdüyün meyvələri suyun altına qoysan, heç soyuducuya ehtiyac qalmaz.

Bizi artıq çay süfrəsi gözləyirdi, samovar buğlanır, nehrə yağı, beçə balı, təptəzə kənd nemətləri süfrəyə düzülmüşdü. Cığıra qədər maşınla getdik, oradan o yana isə meşəyə 100-200 metrlik yolu ayaqla qalxmaq lazım idi.

Zərifə xanım dedi:

– Dilruba xanım, ayaqlarım ağrayır. Orada on dəqiqə oturub qayıdaq.

Dar cığırla yuxarı qalxmağa başladıq, İlham anasına kömək edirdi. Nəhayət, bulaq başına gəlib çatdıq. Meşəbəyi artıq orada xalça salıb gözəl bir süfrə açmışdı. Oturduq, söhbət qızışdı. Zərifə xanım meşəbəyidən bu yerlərin flora və faunası, ağacların xüsusiyyətləri barədə soruşurdu. Ana-bala bizimlə və öz aralarında Azərbaycan dilində danışırdılar. İlham artıq o vaxt Azərbaycan dilini yaxşı bilirdi. Yadımdadır ki, maşınla gedəndə Heydər Əliyev oğlundan soruşdu:

– İlham, mən xitabət kürsüsündən çıxış edəndə nə danışdığımı başa düşürdün?

– Ana, – deyə İlham dilləndi, – sən özün atama de. Anam çox şeyi başa düşmürdü, mən ona tərcümə edirdim.

– Məsələn, nəyi? – deyə Heydər Əliyev maraqlandı.

– Məsələn, sən «qeyri-məlum», «mükəmməl» və sairə ədəbi sözlər işlədəndə, anam soruşurdu ki, «o nə deyir?», mən isə ona tərcümə edirdim.

Söhbət Heydər Əliyevin geniş nitq söylədiyi partiya fəallar yığıncağından gedirdi. Zərifə xanım və İlham da zalda idilər. Beləliklə, çay içib, ordan-burdan söhbət edirdik. Aradan qırx dəqiqə keçdi. İlham soruşdu:



– Ana, sən burada cəmi on dəqiqə oturmaq fikrindəydin.

– Buranın elə gözəl havası var, – deyə Zərifə xanım cavab verdi, – büllur kimi saf, təmiz, adamı xumarlandırır. Özü də yayın qızmar çağında (iyunun 30-u idi). Suyu necə gözəldir. Adətən mən su içmirəm, ancaq bundan doyunca içmişəm.

Bir sözlə, Zərifə xanım gəzintidən çox razı qayıtdı. Sevilə zəng vurub təəssüratlarını onunla bölüşdü. O vaxt Sevilin böyük qızı anadan olmuşdu.

– Nəvəm hələ körpədir, – dedi Zərifə xanım, – odur ki, onu özümlə götürməmişəm. Baxmayaraq ki, Heydər Əliyeviç təkid edirdi: hamımız birlikdə gedək, Seva ilə uşağı da özümüzlə götürək.

Yola düşəndə Heydər Əliyeviç mənə dedi:

– Körpə bir qədər dirçələndən sonra, mən mütləq qızımı Zərifə xanımla birgə sənin yanına göndərəcəyəm. Sən onları Lənkəranda Xanbulançayda gəzdirərsən, Qızılağaca apararsan. Qonaqpərvərliyinə görə çox sağ ol. Mən burada ürəkdən dinclədim...»

Yeri gəlmişkən, yemək barədə. Mən Sevil xanımdan soruşdum ki, Heydər Əliyev yeməklərdən ən çox nəyi xoşlayırdı?

«O, yağlı yeməkləri xoşlamırdı, – deyə cavab verdi. – Naxçıvan mətbəxi üreyincə idi. Bizim üçün yemək bişirən qadın, bir vaxtlar anamın valideynlərigildə işləmişdi. O, məni anadan olduğum vaxtdan tanıyırdı. Nina xala Leyli nənəmin əlinin altında işləmişdi, ona görə də necə deyərlər, onun «tökdüklərini yığmışdı», onun kimi bişirirdi.

Ancaq atam təzə yeməklərdən də dadmağı xoşlayırdı. Yadımdadır ki, 1976-cı ildə hamımız birlikdə Yuqoslaviyaya getmişdik. Gözəl istirahət idi! Hər gün çimərlikdə spagetti yeyirdik. Atam hər cür yeməyi – həm Şərq, həm də Avropa mətbəxini xoşlayırdı. O anama danışmışdı ki, haradasa hətta qurbağa ətinin də dadına baxıb. Anam dəhşətə gəlmişdi, çünki yemək məsələsində çox vasvası idi. Bir yerə gedəndə də ancaq bələd olduğu təamlardan yeyirdi. Ən çox toyuq ətinə üstünlük verirdi. Atam isə yenilikləri xoşlayırdı. Biz onunla hətta dəniz ilbizinin də dadına baxmışdıq».

Hər yay olmasa da, hər halda ailəlikcə Yaltada istirahətə gedə bilirdi. Yüksək partiya zümrəsinin nümayəndələri çalışırdılar ki, Leonid İliç Brejnev Yaltada istirahət edəndə orada olsunlar. Bu hər kəsə, hətta Siyasi Büro üzvlərinə nəsib olmurdu. Ancaq Heydər Əliyev ailəsi ilə oraya istənilən vaxt gedə bilirdi. Onlar adətən Misxor-

dakı dördüncü bağda qalırdılar. Misxor – Yaltanın yaxınlığında kiçik bağ yeridir. Brejnev isə yaxınlıqda – Livadiyadakı birinci bağda dincəlirdi.

«Ancaq bunun təkcə adı istirahət idi, – deyə Aleksandr İvanov təbəssümlə yada salır. – Malikanə özü dağın başında yerləşirdi. Oradan dənizə maşınla üç-dörd dəqiqəliyə getmək olardı. Dəniz hər tərəfdən mühafizəçilərlə əhatə olunmuşdu. O, çox gözəl üzürdü. Mən cavan olsam da, arxası üstə üzüb ona güclə çatırdım. Fənd işlədib onu qayıqla müşayiət etməyə başladım. Heydər Əliyev yorulmaq bilmədən üzürdü. İstirahət vaxtı üzgüçülük onun ən sevimli məşğuliyyəti idi... Sonra maşına oturub bağa qayıdırdıq. Bu vaxt ərzində feldyeger rabitəsi külli miqdarda paketlər gətirirdi: Siyasi Büronun materiallarını, Moskvadan yazışmaları, qəzetləri. Nahardan sonra o daha dənizə getmir, oturub işləyirdi. Axşamlar kino göstərirdilər, «Günün yenilikləri» və «Fitil» kinojurnallarına və ya Azərbaycan kinematoqrafçılarının çəkdiyi hansısa yeni filmə baxmağı xoşlayırdı. Onun istirahəti bundan ibarət idi – bir saat, saat yarım dənizdə çimmək, bir də kinoya baxmaq. Yay mövsümündə Krımda çoxlu rəngarəng əyləncələr olurdu: hər cür müsabiqələr, artistlərin çıxışı və s. Yaltadakı heç bir konsertə getmirdi».

A.İvanovun sözlərinə görə, Sov.İKP MK-nın baş katibi yay ərzində bir dəfə Livadiyada qonaqlıq təşkil edirdi: həmin vaxt Yaltada istirahətdə olan bütün rəhbər işçilər üçün ziyafət gecəsi keçirirdi. Bundan əlavə, baş katib sosialist ölkələrindən qonaq qəbul edəndə və ya hansısa məsələ birbaşa Azərbaycanla bağlı olanda Heydər Əliyev baş katibin iqamətgahına dəvət olunurdu.

«Mən Brejnevin Yaltadakı bağında onu necə qarşıladığının şahidi olmuşam, – deyə A.İvanov söhbət edir. – Açıq-aşkar görünürdü ki, bizi xüsusi qəbul edirlər. Leonid İliç özü arvadı ilə birlikdə çıxır, Heydər Əliyevi qucaqlayıb öpürdü. Hiss olunurdu ki, Brejnev onun gəlişinə ürəkdən şaddır».

Heydər Əliyev Moskvaya işləməyə gedəndən sonra yay istirahətini Azərbaycana səfərlə əvəz etməyə çalışırdı. Ailəlikcə Zuğulbada, MK-nın birinci katibi olanda yaşadığı həmin 5 saylı, taxtadan tikilmiş kottecdə yerləşirdi. Hətta Siyasi Büronun üzvü olandan və SSRİ-də yüksək dövlət vəzifəsində işləyəndən sonra da, Moskvaya köçməzdən bir qədər əvvəl tikdirdiyi Qonaq evində qalmağa razılıq verməmişdi. Qəribə təvazökarlıq idi!



Aleksandr İvanov Heydər Əliyevin Azərbaycana növbəti gəlişi zamanı şəhərkənarı iqamətgahında baş vermiş məzəli əhvalatı yada saldı:

– Mən bir qayda olaraq onunla yanaşı üzürdüm. Mənə qədər belə şey olmamışdı. O, suya atılan kimi mən də dalısınca cumurdum. O susur, heç bir söz demirdi. Bəs nə edim? Mənim növbəmdir – onun təhlükəsizliyi üçün tam məsuliyyət daşıyıram. Zarafat deyil, dəniz, suiti... Ya da ki, ayağı qıc ola bilər. O üzüb çox uzaqlara, ikinci dərinliyədək gedirdi, çünki təmiz suda üzməyi xoşlayırdı. Uzaqlara gedib sahilə paralel olaraq üzürdü. Kamran Bağırov üzməkdənsə, tennis kortuna üstünlük verirdi, üzmək istəyəndə də katerə minirdi. Moskvadan Bakıya ilk dəfə gələndə Zuğulbada katerlərə rast gəldik. Heydər Əliyevin vaxtında belə israfçılığa yol verilmirdi».

Beləliklə, MK-nın birinci katibi Heydər Əliyevə katerlə gəzməyi təklif etdi. Kater böyük deyildi, gəzinti üçün nəzərdə tutulmuşdu. İkilikdə katerə mindilər, arxalanıyca da cangüdən. Bağırov dedi: «Saşa, bəlkə lazım deyil? Biz özümüz öhdəsindən gələrik». – «Olmaz», – deyə İvanov cavab verdi və katerə qalxdı. Heydər Əliyev gülümsündü, bilirdi ki, mühafizə rəisini fikrindən döndərməyə çalışmaq faydasızdır – təlimat buna yol vermir! Onlar sahil boyunca DİN-in İstirahət evinə tərəf üzdülər. Heydər Əliyev qəflətən: «Gəlsənə DTK-ya sürək, çoxdandır orada olmamışam», – dedi. Hava çox gözəl, sahilsə adamla dolu idi: günəşin altında qaralır, çimir, dincəlirdilər. Heydər Əliyev Bağırovla birlikdə katerdən dənizə atılıb sahilə doğru üzməyə başladılar. İstirahət edənlər onları tanıdılar, həyküy, çaxnaşma düşdü. Çimərlikdəkilər ora-bura qaçışdılar. Bu mənzərəni gərək öz gözünlə görəsən: Siyasi Büronun üzvü və MK-nın birinci katibi çimərlik paltarında! Heydər Əliyev hamıyla salamlaşır, görüşür, zarafatlaşırdı, çekistlərin çoxusunu dərhal tanıdı. İstirahət evinin direktoru Xəlilov da öz «Volqa»sında sahilə yan aldı. Bir sözlə, Heydər Əliyev camaatla ünsiyyətə girdi, nə cür yaşadıqlarını ilə maraqlandı. Qayıtmaq vaxtı idi. Katerə tərəf üzdülər, o isə işə düşmədi. Nə etməli? Xəlilovun «Volqa»sı hələ də sahildəydi. Dolayısı ilə bağa qayıtmaq qərarına gəldik.

«Yaş çimərlik geyimində maşına əyləşdik, – deyə Aleksandr Alekseyeviç gülümsünür. – Onlar ikisi arxada, mən isə sürücünün yanında. «Birinci» bağa yaxınlaşırıq, sürücü siqnalı basır. Oradı isə darvazalar bağlıdır, gözətçilər bilirdilər ki, Heydər Əliyev Bağırovla dənizin sahilindədir... Siqnal vurmaqda davam edirik. Milis çıxaraq

əliylə işarə edir ki, olmaz. Sonra diqqətlə baxıb məni çimərlik geyimində qabaq oturacaqda görəndə özünü itirdi. Mən ona dedim: «Tez qapını aç!». Heydər Əliyeviç uğunurdu. Elə bu vaxt hava korlanmağa başladı. «Birinci» bağın sahil hissəsində adamlar yığışmağa başladı. Biz Moskvadan Bakıya öz maşınlarımızı, moskvalı sürücüləri gətirmişdik. Gördüm ki, sahildə bizim sürücülər, müavinim Viktor İvanoviç Nemuşkov, eləcə də Yura Kamayev durub. Hamı intizarla dənizə baxır. Heydər Əliyeviç pıçıldadı: «Sakitcə yaxınlaşaq, onlar üçün sürpriz olsun». Onlar bizə tərəf dönəndə, üzlərində həyəcan gördük. «Nə olub?» Cavab verirlər ki, «İlham sizin dalınızca yollandı». Bax, onda ilk dəfə olaraq Heydər Əliyevin söyüş söydüyünü eşitdim. Sən demə, İlham qonşuluqdakı «Gənclik» turist düşərgəsindən qayıq götürüb arxamızca gedib. Hava da qəflətən pisləşib. Heydər Əliyev Yuri Kamayevin üstünə düşdü, mən də özümüzünküləri danladım ki, necə ola bilər, İlhamı tək buraxsınlar. Heydər Əliyeviç məndən soruşdu: «Nə edək?» Mən dedim: «Bu dəqiqə maşını Zuğulbaya sürüb axtarmaq üçün adam göndərərik». Birdən katerin səsini eşitdik, İlham geri qayıdırdı».

**Sevil Əliyevanın xatirələrindən:**

«Atam düzlüyü çox xoşlayırdı. O, ən kiçik yalanı da bağışlamırdı. Mən onu çox gözəl başa düşürdüm, çünki özüm də yalan xoşlamıram, hətta ən kiçiyini belə. Valideynlərimin ikisi ilə də səmimi, açıq idim. Əlbəttə, anamla daha yaxın idim, onunla bir adam idik. O mənim ürəyimdən keçənlərin hamısını bilirdi. Atamla da münasibətlərimiz yaxın dostlar kimi qarşılıqlı etimada əsaslanırdı.

Mən ona rəfiqələrim və dostlarım haqqında, təhsilim, ümumiyyətlə insanlar haqqında danışa bilərdim. O mənə məsləhətlər verərdi. Biz çox vaxt zarafatlaşırdıq. Zarafat, məzhəkə, yumor həyatımızın ayrılmaz hissəsi idi.

**– Ailənizdə «atalar və övladlar» problemi var idimi? Sizin musiqiyə, kinofilmlərə, əyləncələrə, geyim tərzinizə, gələcək ixtisas seçiminizə münasibət məsələsində valideynlərinizlə fikir ayrılığı olmurdu ki? Heydər Əliyev işdə çox zəhmli adam idi. Ailədə necə, bu zəhmlilik özünü göstərirdimi?**

– Bilirsiniz, bizdə, ümumiyyətlə, fikir ayrılığı olmurdu və şübhəsiz ki, bu atamla anamın qarşılıqlı münasibətləri ilə bağlı idi. O, bir dəfə mənə demişdi ki, əgər anama rast gəlməsəydi, yəqin heç vaxt evlənməyəcəkdi. Anam onu tamamlayırdı, özünü onun əhvalına kökləməyə çalışırdı. Anam çox mülayim, üzüyola, diplomat



qadın idi, ona görə də münaqişə üçün zəmin yaranmırdı. Atam da səbəbsiz irad tutmurdu. İnsanlardakı bəzi xüsusiyyətlər onun xoşuna gəlmirdi. Ancaq ailəmizdə belə şeylərə yol verilməsini xatırlamıram. İlhamla mən özümüzü elə aparmağa çalışırdıq ki, valideynlərimizin əhvalını pozmayaq.

Valideynlərim mənim maraqlarıma hörmətlə və başa düşərək yanaşırdılar. Mən Qərb musiqisini dinləməyi xoşlayırdım. O vaxtlar Bakıda belə vallar az olduğundan xaricdən gətirməyi kimdənsə xahiş edirdim. Qısa yubka və platformalı çəkmələr geyməyi çox xoşlayırdım, o vaxtlar dəb belə idi.

Atam müasir adam idi. O məni başa düşürdü, çünki özü də gözəl və dəbli geyinməyi xoşlayırdı. Bir yerə gedəndə mənə və anama yaraşıqlı paltarlar gətirirdi. Mənim özümə fikir verməməyim və pis görünməyim onu heç açmırdı. Buna görə o hətta mənə irad da tutardı. Xatırlayıram ki, mənim çox rahat, ancaq bir qədər dəbdən düşmüş yubkam var idi. Bir gün atam mənə dedi: «Bir də bu yubkanı sənin əynində görməyim».

**– Siz Heydər müəllimin ad günlərini necə keçirirdiniz, ona nə bağışlayırdınız?**

– O çox vaxt ad günlərini unudurdu. Başı işə elə qarışırdı ki, doğum günlərini yaddan çıxarırdı. Uşaq vaxtı biz ona açıqcalar yazıb təbrik edirdik. Xüsusi olaraq ad günlərinə kimisə dəvət etmirdik.

**– Respublikanın rəhbəri olandan sonra Heydər müəllim mütaliə ilə məşğul ola bilirdimi? Hansı yazıçıları daha çox sevirdi – klassik ədəbiyyatdan, müasir yazıçılardan kimə üstünlük verirdi? Hansı filmləri sevirdi? Sevimli aktyoru kim idi? Məlumdur ki, o musiqi duyumlu insan idi və Zərifə xanımın müşayiəti ilə oxumağı çox sevirdi. Bəs o konkret olaraq hansı mahnıları ifa edirdi?**

– Atam ədəbiyyatı, xüsusilə də klassik ədəbiyyatı çox yaxşı bilirdi. O bizə danışırdı ki, bütün bunları məktəbdə keçib. Dünya klassik ədəbiyyatını mükəmməl bilirdi, Şekspirdən – «Hamlet»dən parçalar söyləyirdi. Hüseyn Cavidin vurğunu idi.

Məzhəkə filmlərini, xüsusilə də sovet komediya filmlərini xoşlayırdı. «İşdə məhəbbət macərası», «Mimino», İqor İlyinskinin çəkildiyi lentlərə – «Karnaval gecəsi», «Köhnə tanış» filmlərinə dəfələrlə tamaşa edirdi. Ümumiyyətlə o, gülməyi xoşlayırdı.

Məmnuniyyətlə oxuyurdu, çox vaxt da anamın müşayiəti ilə Tofiq Quliyevin «Sənə də qalmaz» mahnısını ifa edirdi. Bəzən o mahnının sözlərini unudanda anam ona pıçıltı ilə xatırladırdı. «Gecə pat-

rulu» sovet filmindəki mahnı da onun sevdiyi melodiyalardan idi. İndiyədək mən mahnının sözlərini xatırlayıram: «Quş da Vətəndən uzaq düşməsin». Zənnimcə, onu Mark Bernes oxuyurdu.

Alla Puqaçovanın ifa etdiyi «Milyon qızılgül» mahnısı da onun sevimli mahnılarındandır. Puqaçova 2001-ci ildə Bakıda olanda, o həmin mahnını atamın xahişi ilə oxumuşdu. İfa zamanı o atama yaxınlaşdı və onlar nəqəratı birlikdə oxudular. Bu melodiya qəlbimin tellərini titrədərək məndə xüsusi hisslər oyadır, çünki atamla anam həmin melodiya altında rəqs edərdilər. Bu onların sevimli mahnısı idi.

70-ci illərdə «El-Bimbo» melodiyası populyar idi. Yadımdadır ki, 1976-cı ildə Yuqoslaviyada istirahətdə olanda, biz onu tez-tez restoranda və klublarda eşidirdik. Həmin melodiya da atamın çox xoşuna gəlirdi.

Ancaq onun ən sevimli mahnısı mənim anamın xatirəsinə həsr etdiyim «Qayıt, sevgilim» mahnısı idi. Hər dəfə onu dinləyəndə atamın gözü yaşarırdı. O deyirdi ki, bu melodiya sözsüz də anamın haqqında təsəvvür yaradır, onu xəyalən anamlı günlərinə qaytarır. Bu mahnı indi mənim üçün ikiqat əzizdir, çünki həm anam, həm də atam haqqında xatirədir».

Zərifə və Heydər Əliyevlər arasındakı kövrək münasibətlər barədə poemalar yazılıb, filmlər çəkilib. Ancaq hər halda hələ çox şey deyilməyib. Həyat yoldaşının Heydər Əliyevə bəslədiyi məhəbbəti necə təsvir etmək olar? Cəsarətlə deyə bilərəm ki, İzzət xanım istisna olmaqla, həyatda heç kim Heydər Əliyevi Zərifə qədər sevməyib. O, Heydərə ana övladının qayğısını çəkdiyi kimi diqqət göstərirdi, onun şəxsiyyətinə sözün həqiqi mənasında pərəstiş eləyirdi və hər an istəkli həyat yoldaşının yolunda canından keçməyə hazır idi.

Lidiya Rəsulova Zərifə xanımın danışdığı qəribə bir əhvalatı xatırladı. Başda MK-nın birinci katibi olmaqla Büronun bütün üzvləri Musiqili Komediya Teatrına, Rauf Hacıyevin «Yol ayrıcında» operettasının premyerasına gediblər. Tamaşanın fasiləsində Lidiya xanım həmişə ərini müşayiət edən Zərifə xanımla söhbət edir. Zərifə xanım ona danışır ki, Moskvaya uşaqlarına dəyməyə gedibmiş, qayıdanda Sviqun ona öz təyyarəsində uçmağı təklif edir. Elə təzəcə havaya qalxmışdılar ki, texniki nasazlıq aşkara çıxır: şassilər bağlanmayıb. Heyət komandiri elan edir ki, problemləri var. Yanacaq qurtarmamış onlar yerə enə də bilməzlər, çünki təyyarə partlaya bilər. Əvvəlcə salonda oturanlara bir şey bildirmədilər. Ancaq illüminatordan baxanlar gördülər ki, təyyarə bir yerdə fırlanır. Zərifə xanım deyir ki:



– Gördük ki, uçuş xəttinə yanğınsöndürən, «təcili yardım» maşınları yığışıb. Başa düşdüm ki, hər an dəhşətli bir hadisə baş verə bilər. O anda məni yalnız bir şey düşündürürdü: bunu Heydər Əliyevə necə xəbər verəcəklər və bu xəbərdən sonra onun halı necə olacaq?!

«Mən bu hisslər qarşısında heyrətə gəldim, – deyə Lidiya Rəsulova xatırlayır. – Belə çətin vəziyyətdə qadın özünü yox, ərinin bu itkiyə necə davam gətirəcəyini düşünür».

Heydər Əliyevin mühafizə rəisi Aleksandr İvanov təyyarə xarab olan zaman Zərifə xanımın yanındaymış. O indiyədək bu qadının heyrətamiz insani keyfiyyətlərini məftunluqla xatırlayır.

**– Zərifə Əliyeva yadınızda necə qalıb?**

– Hazırda kiçik oğlumun 27 yaşı var. Mən Heydər Əliyevlə işləməyə başlayanda o hələ doğulmamışdı. Yadımdadır, növbəmi başa çatdıranda, Zərifə xanım məni yanına çağırtdırıb və ya artırmadan səsləyib deyirdi: «Bu paketi götür». Mən deyirdim ki, «lazım deyil, ayıbdır». O isə cavabında: «Bunu sənə vermirəm, İrkaya apararsan. Hamilə qadınlar dəniz məhsulları yeməlidir ki, uşağın gözləri mavi olsun».

Və ya zəng vurub deyirdi: «Saşa, Volodya (onun sürücüsü) sizə bir qutu ərik apardı». Burada, şəhər iqamətgahında çoxlu ərik ağacları vardı. O, bağbandan xahiş edirdi ki, onları yığsın, mənə, sürücülərə, rəhmətlik Tamerlan Əzizoviçə göndərirdi. O, hamının qayğısına qalırdı. Onun bütün sözü-söhbəti uşaqları, nəvələri, Heydər Əliyeviç barədə olurdu.

Təyyarə əhvalatı Heydər Əliyeviç hələ MK-nın birinci katibi olanda baş vermişdi. Bir gün səhər tezdən üzgüçülük hovuzundan kottecimizə gedirdik. Heydər Əliyeviç mənə dedi: «Saşa, bu gün Zərifə Əzizovnanı gətirmək üçün Moskvaya uçursan». Belə hallarda DTK vasitəsilə müvafiq operativ-texniki tədbirlər – təyyarələri, pilotları və s. attestasiyadan keçirmək lazım idi.

Moskvaya zəng çaldım, mənim üçün bilet götürdülər, nahardan sonra uçub getdim. Moskvada məni Yura Kamayev qarşıladı. Mehmanxanada yerləşdik. Geriyə qayıtmaq üçün bileti bizim üçün artıq Yura Azərbaycanın Moskvadakı nümayəndəliyi vasitəsilə sifariş etmişdi. Axşam Zərifə Əzizovna məni tapıb dedi ki, papa zəng vurmuşdu (biz Heydər Əliyeviçi öz aramızda «papa» adlandırırdıq), dedi ki, Sviqun Bakıya uçur, ona görə də biz onunla xüsusi reyslə uça-

cağıq. Sviqun Bakıya DTK xətti üzrə yığıncaqda iştirak etmək üçün gedirdi və general-polkovnik kimi onun xüsusi təyyarə ilə uçmağa haqqı çatırdı. Mənim əlimdə isə adi 861-ci reysə iki bilet vardı və təyyarə bizim operativ xətt üzrə attestasiyadan keçmiş hazırlıqlı heyətə malik idi.

Heydər Əliyevin öz təyyarəsi yox idi. Sovetlər dönəmində Siyasi Büro üzvlərinin heç birinin şəxsi təyyarəsi yox idi. O vaxt Mülki Aviasiya Nazirliyi yanında Siyasi Büro üzvlərinə, üzvlüyə namizədlərə, xarici dövlətlərin başçılarına xidmət edən xüsusi 235-ci dəstə mövcud idi (hazırkı «Rossiya» aviakompaniyası).

Sözün qısası, axşam «papa» zəng vurdu ki, biz Sviqunla uçmalıyıq. Vnukovo-1 hava limanından uçacaqdıq. Zərifə Əzizovna Sviqunun yanında oturdu, mən bir qədər aralıda, Sviqunun mühafizəçiləri – iki zabitlə oturdum. Təyyarədə cəmi beş nəfər idik. Havaya qalxdıq, stüardessa konfet gətirib payladı. Birdən şassilər qəribə səslər çıxarmağa başladı. Mən tez-tez təyyarə ilə səfərə çıxırdım, bu səs nə isə mənim xoşuma gəlmədi, ancaq nigaranlığımı büruzə vermədim, susdum. Sviqunun mühafizəçilərini tanıyırdım, amma onlarla yaxın münasibətdə olmamışdım. Gözümün ucu ilə baxıb gördüm ki, artıq «Tyoplıy stan»ın üzərindən uçuruq. Ancaq heç cür yüksəkliyə qalxa bilmirik. Təyyarə üçüncü dəfə dövrə vuranda Sviqun dedi: «Öyrənin görün təyyarəyə nə olub». Onun mühafizəçisi vəziyyəti öyrənməyə getdi, bənizi ağarmış halda qayıdıb dedi: «Uşaqlar, nə isə baş verib, stüardessa oturub ağlayır, heyət isə qapını bağlayıb, açmır». Zərifə Əzizovna bunu eşidəndə dərhal gəlib yanımda oturdu. Hiss olunurdu ki, həyəcanlıdır. «Nə olub?» – soruşdu. «Heç nə, hər şey qaydasındadır, indi qalxacağıq» – dedim. Hara qalxacağıq? Təyyarə yenidən aşağı enməyə başladı. Təyyarə beş dəfə qalxıb endi. Sonra öyrəndik ki, sən demə bununla yanacaq sərf edirmiş. İkinci dövrədə uçuş xəttinə artıq yanğınsöndürən, «təcili yardım» maşını gəldi. Zərifə Əzizovna əlimdən tutdu və təsəvvür edin ki, özü barədə bir kəlmə də demədi: «Heydər Əliyeviç və İlham eşitsələr necə olacaq? Bu xəbəri necə qarşılayacaqlar?»

Zərifə xanım həmişə hamıdan az özü haqqında düşünürdü».

Əliyevlər cütlüyünün çoxdankı ailə dostları arasında görkəmli rəssam Tahir Salahov da vardı. Mən ondan soruşdum ki, Zərifə ilə Heydərin münasibətləri haqqında nə deyə bilər? Adətən belə olur: biri sevir, o birisi isə sevilməyə «icazə» verir.



«Yox, onların arasında belə şey yox idi, – deyə Tahir müəllim bir qədər fikirləşəndən sonra cavab verdi. – Onlar bir-birini qəribə şəkildə tamamlayırdılar. Bizi bağlayan xatirələr çoxdur. Heydər Əliyeviçin Moskvada təhsil aldığı və ya stajirovka keçdiyi vaxtlardakı görüşlərimizi xatırlayıram. Zərifə Əzizovna mənə Bakıdan zəng çalıb deyirdi:

– Tahir, ona diqqət göstər, tək qoyma. Çünki orada qəribçilikdədir.

O çox qayğıkeş qadın idi».

«Heydər Əliyeviç onu «Zarişa» çağırırdı, – deyə Müslüm Maqomayev mənə söylədi. – Zərifə xanım isə onun dalınca addım-addım gəzirdi. Tamara ilə mənim yanımda onu adı və atasının adı ilə çağırırdı: «Heydər Əliyeviç, sizin üçün bu kifayətdir... Bu sizə olmaz...» Belə bir hadisə olmuşdu. Mən Heydər Əliyeviçlə bir məsələ ilə bağlı görüşmək üçün Bakıya gəlmişdim. O qədər də əhəmiyyətli məsələ deyildi, ancaq bir nəfərə söz vermişdim ki, Heydər Əliyevlə danışaram. Gəlib Rafayel Allahverdiyevə zəng vurdum və dedim: «Heydər Əliyeviçə çatdırın ki, mən Bakıdayam». – «Oldu». Bir gün gözlədim, iki gün, üç gün – heç bir xəbər yoxdur.

Axırda Zərifə Əzizovnaya zəng vurdum ki, «Moskvada təcili işlərim var, getməliyəm, ancaq Heydər Əliyeviçlə cəmisi beş dəqiqəlik görüşüb danışmalıyam. Bununla bağlı mənə kömək edə bilməzsinizmi?» – «O hələ səni qəbul etməyib? Dayan bir». Görünür dəstəyin o biri başında gözlədiyimi və hər şeyi eşitdiyimi unudub, digər telefonla Heydər Əliyeviçi məzəmmət etməyə başladı: «Heydər, oğlan gəlib, üç gündür burada oturub, nədir, ona beş dəqiqə vaxt ayıra bilmirsən?». Bu sözlər elə bir ahənglə deyilmişdi ki, mən artıq Zərifə xanımın ona necə ərki çatdığını anladım. Onun tez-tez işlətdiyi «Heydər Əliyeviç» kimi ifadələri isə kənar adamların yanında ehtiramı gözləmək üçün imiş.

Zərifə xanım çox bəməzə, zarafatcıl olmaqla, bütün məclislərin gözü idi. Müdrik və həyatsevər, şən, musiqi duyumlu idi, royalda məharətlə çalırdı. Əgər həkim, siyasətçi xanımı olmasaydı, musiqiçi olacaqdı. Elə Heydər Əliyev də gözəl rəssam, aktyor ola bilərdi. O, əsil aktyorlara məxsus qayda-qanunlarla çıxışlar edərdi».

Svetlana Qasımova Azərbaycan SSR-in 60 illiyi təntənələrinə Bakıya gəlmiş müttəfiq respublikaların Kommunist Partiyalarının bi-

rinci katiblərinin xanımlarının Zərifə xanım haqqında necə hörmətlə və heyranlıqla danışdıqlarını yada salır:

– Biz respublikalardan gələn nümayəndə heyətlərini qarşılayanda mən ilk dəfə Zərifə xanımla yaxından ünsiyyətdə oldum. İstər-istəməz biz Zərifə xanımla başqa birinci katiblərin xanımlarının nədən və necə danışdıqlarını müqayisə edirdik. Zərifə Əzizovna nadir şəxsiyyətlərdən idi – yüksək mədəniyyətə, dərin biliyə, geniş dünyagörüşünə malik, eyni zamanda da çox sadə və səmimi qadın idi. O, ətrafında çox rahat ab-hava, qonaqlardan hər birinə Azərbaycan, Azərbaycan qadını haqqında təsəvvür oyanması üçün şərait yaradırdı. O, əsil Azərbaycan xanımı idi».

* * *

Əlbəttə ki, məişət məsələlərində Heydər Əliyev tam naşı, səriştəsiz idi. Uşaqlara, nəvələrə, böyük ailənin azuqəsinə, təsərrüfatın təşkilinə – bütün bunlara Zərifə xanım dəqiqliklə nəzarət edirdi. Bununla belə, MK-nın birinci katibi yüksək vəzifəsinə baxmayaraq mağazaları dolaşmağı, şəhərdə ticarətin necə getdiyini öz gözləri ilə görməyi xoşlayırdı. Xüsusilə də yetmişinci illərin sonu, səksəninci illərin əvvəllərində, ərzaq qıtlığı yarananda o mağazalara daha tez-tez baş çəkirdi. Çox vaxt Heydər Əliyev mağazalara planlaşdırılmamış, qəfləti gedişlər də edir, tabeçiliyində olanların «duyuq düşməsinə», ayrı-ayrı qastronomlarda yalançı ərzaq bolluğu yaratmasına imkan vermirdi. «İşdən evə, «Gənclik» tərəfə gedirdik, – deyə Saşa İvanov danışır. – Marşrut Azneftdən keçir – Çkalov küçəsilə üzüaşağı. Kommunist küçəsinə yaxınlaşırdıq, «QAİ» işçiləri Neftçilər prospekti boyu dayanıblar. Birdən Heydər Əliyev dedi: «Tolik, sola dön». Qoşa qala qapıları tərəfdən Zevin küçəsinə döndük. O, yol boyu bütün mağazalara baş çəkdi. Təsəvvür edin: ZİL artıq tək qalmışdı, qabaqda müşayiətçi yox idi. Bizim yolumuzu kəsə də bilərdilər. Həmin vaxtda nə DTK, nə də DİN-ə xəbər verməyə macal tapmazdıq.

...O mağazalarda hər şeylə, qiymətlərlə, çeşidlərlə maraqlanırdı. Leytenant Şmidt küçəsində, 28 Aprel küçəsinin tininde məşhur ərzaq mağazası vardı. Mən həmişə bu hadisəni xatırlayıram. Heydər Əliyeviç piştaxtaya yaxınlaşdı, orada iştahaçan Tambovda hazırlanmış qaxac edilmiş bud qoyulmuşdu. Heydər Əliyeviç məndən soruşdu: «Saşa, pulun var?». Daxili işlər naziri Cəfər Vəliyev məndən qabaq cavab verdi ki, «var». – «Mən səndən soruşuram, Saşa, pulun var? Bir kiloqram qaxac edilmiş bud al». Satıcı qız böyük bir tikə çəkdi. Mən kassaya yaxınlaşdım – 3 manat 70 qəpik. Sonra daha hansısa mağazaya baş çəkəndən sonra iqamətgaha gəldik. Həmişəki kimi Zərifə Əzizovna onu qarşılayırdı. «Zarişa, – deyə Heydər Əliyeviç gülümsündü, – bax, sənə necə hədiyyə almışam!»



Bir dəfə biz işdənkənar vaxtda İnşaatçılar prospekti ilə «Olimp»ə tərəf düşürdük. Kimisə qarşılamağa gedirdik. Necə olmuşdusa işdən həmişəki vaxtdan tez çıxmışdıq. «Olimp»ə çatmamış, Heydər Əliyev dedi: «Qulaq as, bildiyimə görə, burada əvvəllər yaxşı pivəxana olub!».

Pivəxanaya daxil olduq. Orada işləyən binəva oğlanın qorxudan əlləri əsdi, əlində tutduğu parçdan pivə yerə axdı. Hərəmiz bir parç pivə içdik. Maşına mindik. O, sürücü Tolikə dedi: «Sən böyük bir ləzzətdən məhrum oldun». O, adamları cırnatmağı xoşlayırdı».

Əlbəttə ki, ciddi protokol şəraitində yaşayan MK-nın birinci katibi bəzən rəsmiyyət bağlarını qıraraq sərbəstləşmək, şənlənmək, sözün hərfi mənasında kip bağlanmış qalstukun düyününü boşaltmaq istəyirdi.

«Bir dəfə mən Moskvadan idman üslubunda pambıq parçadan tikilmiş kostyum aldım, – deyə Aleksandr İvanov söhbət açdı. – Biz yun pencəklərdən, boğazımıza dolaşan qalstuklardan bezmişdik. Növbəti dəfə rayona gedəndə, aldığım kostyumu geymək qərarına gəldim. «Şef» vaqondan çıxıb mənə baxdı, susdu. Heç bir şey demədi. Sonra Namik Tağızadə məni danlamağa başladı: «Bu nə geyimdir?». Maşına oturanda Heydər Əliyeviç soruşdu: «O nə kostyumdur geymisən?». Mən cavab verdim ki, o rahatdır, ən başlıcası isə yüngüldür. Bir müddətdən sonra o dərzini çağırıb, özünə o cür kostyum sifariş verdi.

O kostyumlarının çoxusunu tikdirirdi, mənim vaxtımda yadıma sala bilmirəm ki, o hazır kostyum alsın. Moskvada da kostyumlarını Kutuzov prospektindəki xüsusi otelyedə tikdirirdi. Hazır paltarlardan yalnız köynək alırdı. Heç bir geyinib-ölçmə prosesində Zərifə xanım iştirak etmirdi, parçanı da, ülgünü də o özü seçirdi. Ancaq qalstukların, çəkmələrin seçilməsində qadınlar iştirak edə bilərdi».

Bu barədə Heydər Əliyevin referenti Turan Hüseynov da danışır:

«70-ci illərdə o bütün kostyumlarını dərziyə tikdirirdi. Xüsusi emalatxanalar yox idi. MK-nın işlər müdiri Balabəy Mirzəcanov bir dəfə dedi: «Mən Heydər Əliyeviçə bir neçə dərzinin tikdiyi pencəkləri göstərdim. Onlardan birinin üzərində dayandı». Həmin pencəyi tikən dərzini çağırdılar. Bakı ermənisi idi, öz peşəsinin fanatı, zər-

gər incəliyi ilə tikirdi. Yadımdadır ki, o, Fransadan xüsusi tikiş maşını gətirtdirmişdi, kostyumda xüsusi xətlər qoyurdu. O, uzun illər «birinci» üçün kostyumlar tikdi. Sonralar harayasa köçüb getdi və Heydər Əliyeviç üçün kostyumları Nazim adlı dərzi tikməyə başladı.

Mən işlə əlaqədar Moskvada ezamiyyətdə olanda qadınlar Heydər Əliyevdən söz salıb ah çəkirdilər: «Belə kişi üçün adam canından keçər!»

Heydər Əliyevin qızı Sevil xanım da təsdiq edir: «Atam əyin-başında hər şeyin millimetr dəqiqliyi ilə yerində olmasını xoşlayırdı. Odur ki, hazır kostyumlar almazdı. Baxmayaraq ki, ideal bədən quruluşuna malik idi və hətta hazır kostyumlar da onun əynində qutu kimi oturardı».

Sevil xanım təbəssümlə atasını əhatə edən əşyalar aləmindən danışır. Bu aləmdə bəzək-düzəyə, artıq şeylərə yer yox idi. Hər bir məişət əşyası da müəyyən məna kəsb edirdi və öz sahibinə on illər boyu xidmət edirdi. Qəhrəmanımın yeganə «zəif» yeri – yaraşıqlı kostyum və onun rənginə uyğun seçilmiş qalstuk idi.

«Atam görünüşünə qarşı çox tələbkar idi və hər şey yüz faiz qaydasında olmalı idi. Parçanı özü seçirdi, bəzən bu işdə biz ona kömək edirdik. O, boz və göy rəngli parçaları, onların müxtəlif çalarlarını xoşlayırdı. Qara rəngli kostyumu o qətiyyən yaxın buraxmırdı, onun, bir dənə də olsunn, qara kostyumu yox idi.

Onun üçün köynək seçmək müşkül məsələ idi, çünki o, yalnız bir cür köynəkləri xoşlayırdı, klassik üsluba üstünlük verirdi, yaxalıq qalstukun düyününə ideal şəkildə uyğun gəlməli idi. Bir dəfə mən ona italyan firmasının istehsal etdiyi köynəklər almışdım, onun çox xoşuna gəlmişdi və məndən xahiş etmişdi ki, «mənim üçün həmişə belə köynəklər al». Atam həmişə yaraşıqlı və müasir görünürdü.

Onun üçün qalstukları və köynəkləri anam alırdı. O, ümumiyyətlə, parlaq rəngli qalstukları xoşlayırdı, deyirdi ki, onlar üzə gözəl çalar verir. Onun üçün qalstuk seçəndə çox çətinlik çəkirdim: parçası müvafiq, düyünü yaraşıqlı, rəngi və naxışları ürəyincə olmalı idi. Yadımdadır ki, ona Londondan bir neçə açıq mavi rəngli qalstuklar gətirmişdim. Həmin qalstuklar onun o qədər xoşuna gəlmişdi ki, hər gün təzəsini taxırdı və mənə deyirdi: «Görürsən, gətirdiklərindən hər gün birini taxıram».

O, hər işdə çox səliqəli idi. Hətta gənclik vaxtının şəkillərindən də bu aydın görünür. Ona məxsus olan hər şey öz yerində olmalı idi. O, əşyalara öyrəşirdi. Misal üçün, köhnəlmiş, artıq üzülmüş, dəşik-deşik olmuş sviteri əynindən çıxarmırdı, deyirdi ki, mən ona öyrəşmişəm, əynimdə çox rahat qalır.

O, gözəllik aşiqi idi, ancaq onda heç vaxt dəbdəbəyə, cah-cəlala, bahalı şeylərə meyil olmayıb».



Gözəl geyinməklə bərabər, Heydər Əliyev keyfiyyətli içkiləri – zərif şərabları, tünd konyakı, viskini qiymətləndirməyi bacarırdı. Leonid İliç Brejnevin sevdiyi «Zubrovka» arağına üstünlük verirdi. Onu Bakıya xüsusi olaraq Belarusiyadan gətirirdilər.

– 70-ci illərin sonlarında onun daha bir sevimli içkisi meydana gəldi. «Şirvan» adlı Azərbaycan konyakı, – deyə Aleksandr İvanov xatırlayır. – «Şirvan»la o, fəxr eləyirdi. O, konyakın şüşəsini də özü seçmişdi, etiketini də özü işləyib hazırlamışdı. Yadımdadır ki, Üzümçülük və Şərabçılıq üzrə Dövlət Komitəsinin sədri rəhmətlik Yunis Rzayevə etiketə görə neçə əzab verirdi.

MK-nın keçmiş şöbə müdiri Zakir Abdullayev «Şirvan»la bağlı maraqlı əhvalat danışdı.

«Bir dəfə zona müşavirəsindən sonra qatarla Bakıya qayıdırdıq. Kənd təsərrüfatı üzrə köməkçi Arif Mustafayev, DİN-in başçısı Cəfər Vəliyev, kənd təsərrüfatı naziri Məmməd Əsgərov və mən bir kupedə idik. Biz əvvəlcədən bilirdik ki, qatarla getməli olacağıq. Ona görə də, yol üçün özümüzə yemək götürmüşdük. Yığıncaqdan sonra limon kimi sıxılmışdıq. Odur ki, qatar yola düşəndən təqribən yarım saat sonra qərara gəldik: nə olur-olsun, yüz qram araq içək. İnanın ki, təzəcə bir qədəh araq içmişdik ki, Heydər Əliyevin mühafizəsinin rəisi Namik Tağızadə gəlib çıxdı və dedi ki, Heydər Əliyeviç sizi çağırır.

– Siz necə bekara, vecsiz adamlarsınız, – deyə o bizi zarafatyana qarşıladı. – Altdan-altdan vurursunuz, birinci katibiniz heç yada da düşmür ki, o haradadır, nəylə məşğuldur. Əyləşin!

O, hamımıza sevimli «Şirvan» konyakından süzdü, özünü də unutmadı. Stolun üstünə cürbəcür qəlyanaltılar, çərəzlər düzülmüşdü. Onunla keçirdiyimiz bu qeyri-adi gecə əbədilik yaddaşıma həkk olundu.

**– Yeri gəlmişkən, «Şirvan» barədə. Deyirlər ki, o həmişə bu konyakla qürurlanırmış. Hətta şüşəsinin dizaynını da özü fikirləşibmiş.**

– Bir neçə nümunə vardı. Bu butulka eskizlərindən «Şirvan» üçün o məhz bu variantı, zənnimcə, ən orijinalını seçdi. «Şirvan» 1980-ci ildə, Sovet Azərbaycanının 60 illiyi münasibətilə istehsal

olunmağa başladı. Yadımdadır ki, bütün qonaqlara çəllək formalı butulkalarda konyakın suvenir variantını və büllur qab hədiyyə etdilər».

Respublikanın 60 illik təntənələri barədə biz artıq əvvəlki fəsillərdə xatırlatmışdıq. Digər komitə işçiləri ilə birlikdə mühüm hökumət tədbirinin təhlükəsizliyini təmin edən Əkrəm Səlimzadənin xatirələrindən daha bir parçanı nümunə gətirmək istəyirəm. Əkrəm müəllimin iti, əsl çekist yaddaşı var. Onun söhbətlərində istənilən epizod külli miqdarda maraqlı təfərrüatla doludur:

«1980-ci ildə Azərbaycan SSR-nin 60 illiyi təntənə ilə qeyd edilərkən çoxlu qonaqlar gəlmişdi. Heydər Əliyev onların şərəfinə «Gülüstan» Sarayında banket verirdi. O vaxtlar ikinci şöbənin rəis müavini işləyən Vladimir Bantserev mühafizə rəisi təyin olunmuşdu. Məni xüsusi rabitə telefonunun yanında növbətçi qoymuşdular. «Gülüstan»ın sağ qanadında hökumət rabitəsi vardı. Deməli, mən xüsusi rabitə telefonu qoyulmuş zala, qonaqların qarşılanmasına və qarderoba cavabdeh idim.

Qonaqların arasında marşal Baqramyan, Siyasi Büro üzvlüyünə namizəd Solomentsev, Özbəkistan KP MK-nın birinci katibi Rəşidov, Belarusiya KP MK-nın birinci katibi Maşerov, Şevardnadze xanımı ilə və s. vardı. Hər biri öz «Çayka»sında gəlirdi. Zərifə xanım da mühafizəçisi ilə gəldi. Bantserevə yaxınlaşıb salamlaşdı, hal-əhval tutdu. Mən isə onların yanında durmuşdum. O məni üzdən tanıyırdı, çünki Heydər Əliyev tamaşalara və ya təntənəli gecələrə gələndə mən mühafizə tədbirlərində iştirak edirdim.

– Heydər Əliyeviç səhərdən ağzına bir tikə çörək də almayıb, – deyə o bizə gileylədi. – O heç səhər yeməyi də yeməyib. Mən çox narahatam.

– Narahat olmayın, – deyə Volodya Bantserev dilləndi, – yəqin ayaqüstü hardasa bir şey yeyib.

– Yox, yox, siz onu yaxşı tanımırsınız, mən əminəm ki, o heç bir şey yeməyib.

Hamı Heydər Əliyevi gözləyirdi. Rəşidovun arvadı şənlənir, qonaqların arasındaca rəqs edirdi. Şevardnadzenin arvadı gözəlliyi ilə işıq saçırdı. Zərifə xanım isə həyəcan içində vurnuxurdu. Heydər Əliyevə görə narahat idi. Sakitcə bir yerdə durmuşdu.

Nəhayət, Heydər Əliyev gəlib çıxdı. Təsəvvür edin ki, adicə «Volqa»da. Onun dörd «Çayka»sı var idi. Hamısını Siyasi Büro üzvlüyünə namizədlərin ixtiyarına vermişdi.

Zərifə xanım ona yaxınlaşıb astadan soruşdu:



– Haradasan? Özünü necə hiss edirsən?

Onunsa Zərifə xanıma cavab verməyə belə vaxtı yox idi, qonaqlara başı qarışmışdı, hər birinin əlini sıxır, ziyafət zalına dəvət edirdi. Zərifə xanım Vladimir Qavriloviçi nişan verib, qonaqlara deyirdi:

– Bilirsiniz bu kimdir? Bu adam Heydər Əliyeviçlə bir kabinetdə oturub.

Sonra bizimlə mehribanlıqla sağollaşıb ziyafət zalına getdi.

Biz Bantserevlə kənara çəkildik.

– Əkrəm, – deyə Volodya mənə müraciət etdi, – diqqətli ol. Ziyafət zalına keçmək istəyənlərin hamısını burax. Burada təsadüfi adam yoxdur.

Bizə generallar yaxınlaşırdılar, mən onlara konyak içməyi məsləhət görürdüm, Ordubaddan qutularda qoz göndərmişdilər. Qonaqlar dağılışanda hərəsinə üç qutu qoz payladıq.

Birdən xüsusi rabitə telefonu zəng çaldı. Dəstəyi götürdüm:

– Danışır Soçi! Heydər Əliyeviçi telefona çağırın! Onunla Baş katib danışacaq. Təcili olaraq onu telefona çağırın.

– Heydər Əliyeviç banketdədir, – dedim. – Siz bir qədər gözləməli olacaqsınız. O, 2-3 dəqiqədən sonra olacaq.

Cəld aşağı zala düşüb Bantserevi axtardım ki, ona Heydər Əliyeviçə kim zəng çaldığını bildirəm. Vladimir Qavriloviç isə elə bil qeybə çəkilmişdi. Qərara gəldim ki, risk edim və zala daxil olum. Qapını açıb ziyafət zalına daxil oldum. Bu vaxt Heydər Əliyev şöhrəti bütün ölkəyə yayılmış geoloq Fərman Salmanovun şərəfinə sağlıq deyirdi. Mən «birinci»yə yaxınlaşdım:

– Heydər Əliyeviç, Brejnev zəng vurub.

O, başını tərpədib, sözünə ara vermədən dedi:

– İndi isə mən sözü Fərman Salmanova verirəm. – O isə ziyafət zalında yox idi. Hamı bir-birinin üzünə baxdı. – Yəqin haradasa neft fontan vurub, – deyə Heydər Əliyeviç sözünü zarafatla tamamlayıb cəld zaldan çıxdı. Sükutu şaqraq gülüşlər əvəz etdi.

Mən onu rabitə otağına ötürdüm, özüm otaqdan çıxıb qapını kip örtdüm. Ancaq o elə bərkdən danışırdı ki, hər şey eşidilirdi.

– Necəsiniz, Leonid İliç? – deyə Heydər Əliyeviç soruşdu. – Bu gün Bakıda mitinq keçirildi, ziyafətdə isə biz birinci badəni sizin sağlığınıza qaldırdıq. Viktoriya Petrovna necədir?

Onlar üç dəqiqə danışdılar. Mən isə bütün bu söhbətləri eşidirdim, çünki oradan aralana bilməzdim.

Bu vaxt Fərman Salmanov gəlib çıxdı və ziyafət zalına cumdu.

– Oğuldu, e, zarafatından qalmır!

Yəqin ki, Heydər Əliyeviçin qəflətən vuran neft fontanı barədə zarafatını ona çatdırmışdılar».

Bakıya tez-tez yüksək hökumət nümayəndə heyəti gəlirdi. Onların proqramında rəsmi hissədən başqa, mədəni tədbirlər də nəzərdə tutulurdu: görməli yerlərlə tanışlıq, balıq ovu, çöl heyvanları ovu. Qonaqlar, bir qayda olaraq razı qalırdılar və bir də gəlmək arzusunda olduqlarını bildirirdilər. Azərbaycan DTK-nın keçmiş əməkdaşı bununla bağlı iki maraqlı hadisəni yada saldı.

**Albert Salamovla söhbətdən:**

«1970-ci il oktyabrın sonunda Heydər Əliyeviç hökumət üzvləri, mütəxəssis-istehsalatçılar, jurnalistlər (müşayiət qrupunda Azərbaycan DTK-nın bir neçə əməliyyat müvəkkili də vardı) daxil olan böyük bir nümayəndə heyəti ilə Astaraya getdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Nikolay Podqorni başda olmaqla hökumət nümayəndə heyəti oraya İran-SSRİ qaz kəmərinin açılışına gələcəkdi.

Biz respublikaya yenicə gətirilmiş «Volqa» maşınlarından ibarət böyük bir dəstə ilə yola düşdük. Podqorni isə Astaraya qatarla gəldi. Orada onu Heydər Əliyev başda olmaqla respublika rəhbərliyi təntənəli şəkildə qarşıladılar. Podqorni vaqondan düşüb, «Naşa marka» papirosunu tüstülədərək onu qarşılayanların müşayiəti ilə maşına əyləşdi. Hamı İranla sərhədə, təntənə yerinə tərəf irəliləyirdi.

Burada qonaqlar üçün böyük brezent çadır qurulmuşdu, xüsusi rabitə aparatı quraşdırılmışdı. Qaz kəmərinin açılışı mərasimindən sonra Podqorni yerli hökumətin bir neçə nümayəndəsi və bizim çekistlə – həris balıqçı və ovçu polkovnik V.Bantserevlə birlikdə adaya – ördək ovuna yollandı. Ov uğurlu olduğundan Podqorni razı qaldı. Ovdan sonra o, L.İ.Brejnevlə xüsusi rabitə telefonu vasitəsilə danışdı, qaz kəmərinin açılışı barədə məlumat verdi, sonra isə Heydər Əliyevin xahişi ilə buranın gözəl təbiəti və çoxlu çöl quşları olduğunu xüsusi qeyd edib Leonid İliçi ova dəvət etdi. Sonra Podqornının bizə dediyinə görə, Leonid İliç təəssüflənərək işi həddən artıq çox olduğundan dəvəti qəbul edə bilməyəcəyini bildirib.

Oktyabrın 29-da Podqornının dalısınca hərbi təyyarə meydanına iki səmişin təyyarəsi – TU-154 və TU-134 endi. Heydər Əliyeviç qonağı yola salırdı. Qəflətən təyyarənin trapa açılan qapısında Nikolay Podqorni və Heydər Əliyev göründü. Heydər Əliyev boz kostyum geymişdi, plaşsız idi. Podqorni onu ötürənlərə elan etdi:

– Mən sizin Əliyevi Moskvaya aparıram.



Heydər Əliyeviç təbəssümlə bizə əl etdi və onlar təyyarəyə daxil oldular.

Todor Jivkovun gəlişi ilə bağlı daha bir xatirə.

1973-cü il avqustun 1-də Bolqarıstan KP MK-nın birinci katibi Todor Jivkovun başçılığı ilə bolqar nümayəndə heyəti Bakıya gəlmişdi. O, qızı, azyaşlı nəvəsi, yeznəsi və mühafizə dəstəsi ilə gəlmişdi.

Qonaqları Bakıdan Gəncəyə apardılar. Əvvəlcə xalça fabrikində oldular. Oradakı fəhlələrlə görüşəndən sonra Heydər Əliyev onların adından Todor Jivkova qeyri-adi gözəllikdə bir xalça bağışladı. Todor Jivkov dedi ki, bolqarca xalçaya «kilim» deyirlər. Heydər Əliyev də qeyd etdi ki, azərbaycanlılar da onu kilim adlandırırlar.

Sonra isə «Çayka» və «Volqa»lardan ibarət böyük maşın karvanı Göygölə gəldi. Qonaqlar qonaq evində yerləşdilər. Ertəsi gün səhərə ceyran ovu nəzərdə tutulmuşdu. Dağlarda ov etməyə Todor Jivkovla birlikdə onun yeznəsi, mühafizə rəisi – general, bizdən polkovnik Bantserev və daha iki gəncəli yola düşdülər. Bir neçə saatdan sonra ovçular geri qayıtdılar, özü də qənimətsiz. Belə deyirdilər ki, qabaqcadan ayağına ip bağlanmış ceyran canını qurtararaq meşədə gözdən itib. Ali qonağı məyus etməmək üçün ona demişdilər ki, yaralı heyvanın qoyduğu izlə gedən peşəkar ovçular bildiriblər ki, o uzağa gedə bilməz. Tezliklə vertolyotla güllə yarasının izi olan başqa bir ceyranı gətirdilər və ovçulara təslim etdilər. Daha heç kimin sualı olmadı. Elə buradaca ceyranı soyub təmizlədilər, buynuzlarından Todor Jivkova bağışlamaq üçün suvenir düzəltdilər. Bolqarıstanın rəhbəri ceyranın taxta özülə bərkidilmiş uzun buynuzlarının yanında şəkil çəkdirmək qərarına gəldi. Ali qonaq Azərbaycana gəlişindən çox razı qaldı. Heydər Əliyeviç qonaqların qəbulunu gözəl təşkil etməyi bacarırdı, qonaqpərvər və duz-çörəkli ev sahibi idi».

*İşə hədsiz məhəbbət ilə yanaşı, mənim qəhrəmanım həyat sevgisindən də məhrum deyildi: dostları ilə yeyib-içməyi, məqamına düşən zarafatı, məzəli lətifələri sevirdi, qadın gözəlliyinin pərəstişkarı idi. Trilogiyamızın sonuncu hissəsində mən prezidentin lap uşaq marağı və ürəkdən gəlmə səmimiliklə getdiyi ölkələrin tarixi-mədəni sərvətləri ilə tanış olmasından, necə məmnunluqla xarici təəmların və içkilərin dadına baxmasından, ikitərəfli danışıqlarda ən kübar və rəsmi kompaniyanı belə ələ almağı bacarmasından danışacağam.*

*Mənə elə gəlirdi ki, bu adam üçün bütün həyatı boyu protokol çərçivəsində, öz kabinetinin divarları arasında, partiya funksionerlə-*

*rinin və məmur bürokratiyasının əhatəsində cansıxıcı olub. O, şair və yazıçıların yanında, hər hansı uşaq şənliklərində və ya kənd ağsaqqalları ilə ünsiyyətdə özünü çox rahat hiss edirdi.*

*2002-ci ildə Heydər Əliyev sonuncu dəfə Naxçıvana gələndə dağlara qalxdı. Protokolda nəzərdə tutulmamış çayxanaya baş çəkdi. Ona bir stəkan çay verdilər, o bir parça qəndi çaya batırıb içdi və nəzərlərini uzaqlara dikərək fikirli-fikirli dedi: «Həyatımın ən xoşbəxt günü». Sonra isə, görünür, düzgün başa düşməyəcəklərini düşünüb əlavə etdi: «Naxçıvanda».*



## *On beşinci fəsil*

# Lider

Kitabın ötən fəsillərində biz qəhrəmanımızın xarakterindəki ən müxtəlif çalarları açmağa çalışdıq: Heydər Əliyev – rəhbər, Heydər Əliyev – ideoloq, Heydər Əliyev – siyasətçi. Əlbəttə, belə parlaq, bənzərsiz şəxsiyyətin mükəmməl obrazını yaratmaq son dərəcə çətindir. Ramiz Mehdiyevin haqlı olaraq vurğuladığı kimi: «Heydər Əliyevin siyasi portretini yaratmaq iddiasına düşmək özü çox məsuliyyətli bir məsələdir, bu bütöv bir epoxanı təsvirə gətirməyə, təhlil etməyə bərabərdir».

Axı, dilimizdəki hansı bənzətmələri, hansı təşbehləri seçəsən ki, Heydər Əliyev şəxsiyyətinin fenomenallığını açıb göstərə biləsən? Geniş dünyagörüşə, yüksək intellektə malik idi? Əlbəttə, sözsüz. İnsanı heyrətə gətirən uzaqgörənliyi, unikal işgüzarlığı, təşkilatçılığı vardımı? Şübhəsiz. Analitik təfəkkürün orijinallığı, yaradıcılıq istedadı necə? Bəs, mənəvi yetkinlik? Əlbəttə, bütün bunlar Heydər Əliyev şəxsiyyətini tamamlayan meyarlardır, amma bununla belə, bir şəxsiyyət ki, İlahidən qüdrət alıb, üstündə Yaradanın inayəti, nəzərdiqqəti var, onun sirrini açmaq mümkün olan iş deyil. Və heç mən də bu niyyətə düşməmişəm.

Bu səbəbdən də mənim vəzifəm nisbətən asandır: bu fəsildə qəhrəmanımla yaxından ünsiyyətdə olmuş insanların xatiratları toplanıb. Xatirələrin müəllifləri kimi bu xatirələrdən doğan təəssüratlar da müxtəlifdir. Amma bir yerə cəmləyəndə, bu adi söhbətlər Heydər Əliyevin Sovet Azərbaycanına rəhbərlik etdiyi dövrün mənzərəsini yaradır, hansısa cizgilər, çalarlar qəhrəmanımızın obrazını tamamlayır.

Beləliklə, 70-ci illərdə o, ətrafında olanların yaddaşında necə qalıb?

«Onun hafizəsi sadəcə möcüzə idi. Neçə illər qabaq baş vermiş hadisələrin ən xırda epizodlarını belə yadına sala bilirdi. Bu və ya digər görüşlərin iştirakçısı olanların adlarını və eləcə də atalarının adlarını asanlıqla dilinə gətirirdi və orda kimin nə danışdığını, necə danışdığını, hətta hansısa bir məqamda münasibətini hansı tonda, hansı şəkildə bildirdiyini çətinlik çəkmədən söyləyirdi. Bundan əlavə, havanın durumunu, günün hansı saatı olduğunu da yadına sala bilirdi... Mən də bu nəticəyə gəlmişəm ki, Yaradan bu cür yaddaşı tək-tək bəndələrinə, **seçilmişlərinə** nəsib edir...»

*(Sabir Hüseynov)*

«Kütləvi yığıncaqlarda Heydər Əliyev hərdən poetik misralara müraciət edirdi və şeirlərin 99 faizini kağıza baxmadan əzbərdən söyləyirdi. O, çoxlu şeir bilirdi. 1978-ci ildə biz yeni himni hazırlayanda, o mətni sonadək əzbərdən söylədi».

*(Həsən Seyidov)*

«Bayram günlərində, paraddan sonra Heydər Əliyeviç hərbi hissə komandirlərini nahara dəvət edirdi. Bizim şərəfimizə söylədiyi heyrətamiz sağlıqlar yaddaşımda əbədiləşib: heç kim diqqətindən kənarda qalmazdı, hər birimiz haqqında ayrıca danışardı, özü də bu zaman yalnız həmin adama məxsus xüsusiyyətləri vurğulayırdı. Biz onun insanları dəyərləndirmək məharətinə heyran idik. Bir tərəfdən çox xoş idi ki, o səni tərifləyir, digər tərəfdən isə bu xoş sözlər məsuliyyət hissi doğururdu. Beləliklə, o bizi öz əxlaq çərçivəsinə salardı və hər kəs çalışırdı ki, rəhbərlik etdiyi sahədə vəziyyət bir az da yaxşılaşsın.

Bir də, kiminsə onun ünvanına mədhiyyələr söyləməsini heç xoşlamırdı və buna yol vermirdi».

*(Aleksandr Qudkov)*

«Ola bilərdi ki, yığıncaqarası fasilədə qeyri-rəsmi söhbətlərə varsın, ətrafındakılarla hansısa fikrini, gümanını, şübhəsini paylaşsın.

Öz aramızdı, mən bir dəfə də olsun onun dilindən biədəb söz eşitmədim. Heç vaxt söyüş söyməzdi. Əgər hirslənibsə, ola bilsin ki, səsini qaldırardı: «Sən nə tərs adamsan! Gör bir nə qədər adamı tərbiyə etmişəm, amma səninlə bacara bilmirəm». Bu, Heydər Əliyevin mənim ünvanıma dediyi ən acı sözdür. Xırda bir şeydən ötrü də əsəbiləşə bilərdi. Hərdən olurdu ki, iş vaxtı çay içməyə qaçırdım, ya hansı materialısa götürmək üçün maşınbüroya düşürdüm. Qayıdanda məlum olur ki, məni axtarıb. Kabinetə daxil olan kimi düşürdü üstümə: «Sən hara getmişdin?». Cavab verirdim: «Heydər Əliyeviç, maşınbüroya düşmüşdüm, məruzəni götürməyə». İndi hər köməkçinin on-on beş əlaltısı var, amma o zaman mənim nə katibəm, nə kuryerim vardı. Elə kuryer barədə də dilimdən bir söz çıxdı, amma fikrimi tamamlamağa macal vermədi: «Bircə elə bu qalmışdı, – dedi, – ağa çıxıb bizim üçün!»



Aradabir o məni beləcə məzəmmət edəndə, özümü təmizə çıxarmağa çalışırdım. Bir dəfə cəsarətimi toplayıb dedim: «Heydər Əliyeviç, mən dünyada tərslik, inadcıllıq üzrə ikinci yerdəyəm». «Necə yəni ikinci yerdə? Bəs birinci yerdə kimdir?» Mən susdum. O, kimin bostanına daş atdığımı başa düşüb səsini qaldırdı: «Sürüş burdan!» Ancaq onun səsində özümə qarşı qəzəb sezmədim.

**– Onu nəyəsə inandırmaq olurdu? O, opponentinin sözünə qulaq asıb, onun dəlil-sübutları ilə razılaşırdımı?**

– O insanları dinləyirdi. Əgər əsaslandırılmış və inandırıcı dəlillər olarsa, başqa adamın nöqteyi-nəzəriylə də razılaşa bilərdi. Öz işinin kamil ustalarını çox qiymətləndirirdi və onların rəyi ilə hesablaşırdı. Heç vaxt kökündən baltalamırdı ki, mən necə deyirəmsə, o cür olmalıdır.

Mən onunla hətta mübahisə də edə bilirdim».

*(Ramiz Tarıverdiyev)*

«Bu insanın mənim həyatımda xüsusi yeri var. Mən onu lider adlandırardım, təkcə öz ölkəsinin lideri yox, geniş miqyaslı lider. O çox gözəl insandır, başqa sözlə desək, mən həyatımda kişi kimi ondan gözəl, ondan nəcib, xeyirxah insana, təəssüf ki, rast gəlməmişəm. İndi deyəcəksiniz ki, Zıkina yəqin ona vurulubmuş. Bəli, bir qadın kimi gözəl dövlət xadimi və rəhbərə vurulmuşam».

*(Lyudmila Zıkina)*[*]

«Mən ilk dəfə Lidiya Rəsulova ilə onun yanına gələndə Heydər Əliyev ya Büro iclası keçirirdi, ya da fəallar yığıncağı. Mən də Azərbaycanın Həmkarlar İttifaqının işinin yoxlanması ilə bağlı yekunlar barədə məruzə etdim. Elə onunla şəxsi tanışlığımız da o zaman oldu.

O mənə çox sadə, səmimi, adamın sözünü kəsmədən diqqətlə dinləməyi bacaran bir insan təsiri bağışladı. O, Siyasi Büro üzvlüyü-

[*] V.Mustafayevin «Professional» filmindən.

nə namizəd, mən isə yalnız MK-nın üzvü idim. Ancaq onunla söhbət zamanı mən bu səlahiyyət fərqini hiss etmədim, o öz nüfuzunu, yüksək mövqeyini gözə soxan adam deyildi. Özü də Brejnevin yanında xatir-hörməti böyük idi.

Biz Heydər Əliyeviçlə çox vaxt Moskvada sadəcə əl tutub görüşürdük, vəssalam. Qeyd etməliyəm ki, digər respublikaların liderləri içərisində Heydər Əliyev sadəliyi, təvazökarlığı ilə seçilirdi. Bu özünü həm də onda göstərirdi ki, qəbul zamanı çıxışları çox qısa, işgüzar və mümkün qədər konkret olurdu. Axı orada Brejnevdən başqa hamı kağıza baxmadan çıxış edirdilər. Mən də həmişə qadın marağı ilə qulaq asırdım, görüm rəhbərlər necə danışırlar. O hamıda xoş təəssürat oyadırdı. O illərdə Ümumittifaq Həmkarlar İttifaqı Şurasında birgə çalışdığım və Heydər Əliyevi gözəl tanıyan Aleksandr Nikolayeviç Şelepin onu yüksək dəyərləndirirdi, Şevardnadze barəsində isə yaxşı fikirdə deyildi, baxmayaraq ki, onlar komsomolda birgə işləmişdilər. Aleksandr Nikolayeviç isə mənə etibar edən, ürək qızdıran adam idi və bir dəfə də olsun o, Heydər Əliyev haqqında artıq-əskik söz demədi. O, Əliyevi olduqca işgüzar, insanlar üçün çox şeylər etməyə can atan, amma olduqca sadə bir həyat tərzi yaşayan insan kimi qələmə verirdi».

*(Aleksandra Pavlovna Biryukova, Sov.İKP MK-nın keçmiş katibi)*

«Bizim onunla əlaqələrimiz 1971-ci ildən, mən Voronej vilayət partiya komitəsinin birinci katibi olandan sonra başladı. XXIV qurultayda bizi eyni vaxtda MK-nın tərkibinə seçmişdilər. O vaxtlar Birinci Katiblər İnstitutu meydana çıxmışdı. O əslində mövcud deyildi, ancaq mahiyyət etibarilə öz aralarında, MK yığıncaqlarında, hər hansı problemlə əlaqədar kiçik iclaslarda, Sov.İKP MK rəhbərləri – Brejnev, Suslovla görüşlərdə bir-biri ilə daim əlaqədə olan qrup yaranmışdı. Bax, elə orada, təbii ki, bizim əlaqələrimiz, ünsiyyətimiz baş tuturdu.

**– 70-ci illərdə sizdə Heydər Əliyev barədə nə cür təəssürat yaranmışdı?**

– Ən xoş təəssürat. Əvvəla, xarici görkəmi xoş təsir bağışlayırdı. Sakit, mülayim, təmkinli, gülərüz, həmişə səliqəli geyinən, ünsiyyət zamanı ölçü-biçi gözləyən, davranışında heç bir artıq hərəkətə yol verməyən insan idi. Bu da ətrafdakılarda rəğbət oyadırdı. Digər tərəfdən, biz MK-nın tərkibində təzə adamlar idik, əlbəttə ki, bir-birimizlə ünsiyyətdə həddən artıq sərbəstliyə yol vermirdik. O, bu məsələdə də seçilirdi. Dəmirçyandan və Şevardnadzedən fərqli olaraq,



o özünü bir qədər başqa cür – ağayana aparırdı və təbii ki, xoş təəssürat oyadırdı. Özü də mən sonradan tam əmin oldum ki, bu, görünmək, özünü göstərmək xatirinə deyilmiş, bu onun daxildən gələn bir cəhəti, əsl xarakteri imiş.

Biz onunla bir də Kubada görüşdük. 1979-cu ildə məni Havanaya səfir göndərdilər, o isə hələ Azərbaycanda MK-nın birinci katibi idi. 1982-ci ilin aprelində Heydər Əliyeviç SSRİ Ali Soveti nümayəndə heyətinə başçılıq edirdi. Onlar Meksikaya Brejnevin köməkçisi Aleksandrov-Agentovla birlikdə uçmuşdular və iki günlüyə Kubada qaldılar. Boş vaxtda biz onları nümayəndə heyətindən bir qədər ayırdıq. Nümayəndə heyəti şəhərlə tanış olurdu, mən isə onları səfir kimi mənə verilmiş dəniz sahilindəki bağıma dəvət etdim. Bütün gün ərzində biz orada çimdik, istirahət etdik, söhbətləşdik. O vaxt mən onu daha yaxından tanıdım. O respublika barədə, öz həyatı, uşaqlığı, gəncliyi, siyasətə qoşulmağı barədə ətraflı danışdı. Aramız açıldıqca, məlum oldu ki, o elə də «qapalı», qaradinməz adam deyilmiş. Özünü tam sərbəst aparır, bizimlə zarafatlaşır, bir stol arxasında yeyib-içirdik.

Bizi birləşdirən başqa məqamlar da vardı: mən uzun illər Kuybışev vilayətində işləmişdim. Yəni ölkənin ikinci böyük neft rayonunda, o illərin termini ilə söyləsək «ikinci Bakı»da. O vaxt Azərbaycan yeni neft yataqlarının aşkara çıxarılmasında bizə yaxından kömək edirdi. Bizdə Bakıdan gələnlər – həm azərbaycanlılar, həm də ruslar çox idilər. Sonra onları şimala – Tümənə göndərdilər. Bakıdan olan neftçi kadrlar SSRİ-də lazımınca dəyərləndirilirdilər. Bir sözlə, söhbət üçün mövzu öz-özünə yarandı, iş metodlarından danışdıq, bu sahədəki bəzi insanları yada saldıq. Amma bu zaman Azərbaycan neft sənayesində çatışmazlıqlar da vardı: kəşfiyyat işləri, qazma avadanlıqları ilə təminat, Xəzərdə yeni buruqların inşası lazımi səviyyədə deyildi. Pul çatışmırdı, bir sözlə, müşahidə olunurdu ki, bu sahədə axsamalar var. Və bütün bunlar onu həyəcanlandırırdı və o danışırdı ki, bütün bu çatışmazlıqları aradan qaldırmaq üçün Moskvaya müraciət etsə də, çətinliklərlə üzləşir.

Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsində fəaliyyəti, əlbəttə ki, müsbət qiymətləndirilirdi. Respublika onun dövründə yüksəliş illərini yaşayıb. Bunu açıq demək lazımdır. O, respublikanı öncül mövqeyə çıxarmaq üçün çox iş görüb. Həm plenumlarda, həm partiya qurultaylarında Baş katibin dilindən dəfələrlə təriflər səslənib ki, Azərbaycan iri addımlarla irəliləyir, uğurlar qazanır. İnanın ki, bu sözlər olduqca əhəmiyyətli idi.

Təəssüf ki, mən Azərbaycanda olmamışam. Ancaq onun fəaliyyəti həmişə yüksək, müsbət qiymətləndirilib. Yadıma gəlmir ki, onun ünvanına tənqid səslənsin».

*(Vitali İvanoviç Vorotnikov, RSFSR Nazirlər Sovetinin keçmiş sədri)*

«O, məqsədyönlülüyü ilə seçilirdi. Bu, bir. Yeni ideyanı tez duyub, dərindən mənimsəyirdi. Bu, iki. Sözsüz ki, təşkilati məsələdə qeyri-adi qabiliyyət sahibi idi. Bu, üç. Respublikanın yüksəlişi üçün çox işlər görürdü, respublikanın maraqları ilə yaşayırdı. Bu da dörd. Mənim buna heç bir şübhəm yoxdur».

*(Yevgeni Primakov)*

«Sözün həqiqi mənasında o yorulmaq nə olduğunu bilmirdi. Bununla bağlı bir epizod danışmaq istəyirəm.

MK-da partiya qurultayına qızğın hazırlıq gedirdi. Bütün aparat ayaq üstə idi. Açılışa iki gün qalırdı. Heydər Əliyev kabinetdən çıxmadan oturub ona təqdim olunan sənədlərin yüzlərlə səhifəsini oxuyur, dərindən tanış olurdu və köklü surətdə düzəldirdi. Onları yenidən işləmək üçün on dəfə geri qaytarırdı. Qeyri-dəqiqliyə yol verdiklərinə görə əməkdaşları məzəmmət edir, danlayırdı. Çoxları onun iş tempi ilə ayaqlaşmır, bu gərginliyə dözə bilmirdi. Bir dəfə necə oldusa, mən onun yanında olanda MK-nın birinci katibinin köməkçilərindən biri kabinetə daxil oldu (Heydər Əliyev mənim hüquqi mövzuda hazırladığım bloklardan birini nəzərdən keçirirdi).

– Bu nədir, lap ölü toyuğa dönmüsən. Nə olub? – gözünü materialdan çəkmədən soruşdu.

– Yorulmuşam, Heydər Əliyeviç.

– Yorulmusan? Nə eləmisən ki? Bir vaqon sement boşaltmısan?

Əlini yelləyib, materialı oxumağına davam etdi. Köməkçisi otaqdan çıxanda o başını qaldırdı.

– Sabir, yorulmaq nə deməkdir? O nə olan şeydir?

Sonra isə səsini alçaldaraq dedi:

– Bəlkə də bu yaxşı hal deyil, ancaq mən «yorulmuşam» deyən adamı heç vaxt başa düşməmişəm. Bəlkə bu, yaşla əlaqədardır? Ancaq, axı, mənim köməkçim məndən demək olar ki, 15 yaş kiçikdir.

Mən çiyinlərimi çəkdim. Yorulmaq fiziki anlayışdır, amma bu hissiyyatı necə izah etmək olar? Bu hissiyyatı yaşamayan, bu halı keçirməyən insana onu necə təsvir edəsən? Sən ha de, amma heç vaxt yorulmayan, yorulmaq nə olduğunu bilməyən insan səni hardan



başa düşsün? Görünür, onun bədənində orqanizmin fiziki hazırlığı ilə təması olan hüceyrələr bizlərə məlum olan anlamda mövcud deyildi. Və elə bu səbəbdən yaşlandıqca da, yorğunluq deyilən şeyin nə olduğunu bilmirdi. Hərdən tərpənmədən, ara vermədən, nəfəs dərmədən saatlarla çıxış eləyirdi.

Vəfatından iki il qabaq Heydər Əliyev o vaxt verdiyi sualı mənə xatırlatdı. O, Klivlenddən, üzərində uğurla aparılmış cərrahiyyə əməliyyatından qayıtmışdı. Mən onun halını soruşmaq üçün zəng vurmuşdum. Səsi aydın və şən idi. Biz on dəqiqə danışdıq. Söhbətimizin sonunda o birdən soruşdu:

– Sabir, yadındadır, mən səndən soruşurdum ki, yorğunluq nədir?

– Bəli, amma mən elə indi də onun nə olduğunu izah edə bilmərəm.

Xəttin o biri başında mənə çox yaxşı tanış olan gülüşü eşidildi.

– Mən isə indi izah edə bilərəm. Yorğunluq – xəstəlikdir».

*(Sabir Hüseynov)*

**« – Heydər Əliyevin hərbi dairələrdə nüfuzu necə idi?**

– Mən bu barədə əsasən mətbuatdan və iş yoldaşlarımdan xəbər tuturdum. Fikir ayrılığı yox idi, belə bir vahid rəy formalaşmışdı: respublikanın **LİDER**i var. Azərbaycanda xidmət etdiyim birinci üç ildə mən başa düşdüm ki, qeyri-adi, böyük iradə sahibi, işgüzar, ağıllı, Azərbaycanı təkcə Zaqafqaziyada yox, Yaxın Şərqdə qabaqcıl respublikalar sırasına çıxarmağa qüdrəti çatan bir insan hakimiyyət başındadır. O vaxtlar Gürcüstan çiçəklənirdi. Gürcülər azərbaycanlılardan yaxşı yaşayırdılar, xüsusilə kənd yerlərində. Və birdən elə bir insan meydana çıxır ki, bu vəziyyəti dəyişmək qərarına gəlir.

Əliyev mənim üçün təkcə xoş və işıqlı xatirə deyil, həm də böyük məktəbdir. Həm elmdir, həm örnək. Mən Uzaq Şərq dairəsi qoşunlarının baş komandanı kimi xidmətimi başa vurmuşam. Böyük bir kollektivə başçılıq edirdim. Bu insanla ünsiyyət mənə güclü bir təkan verdi, mən onun iş üsullarını, geniş auditoriya qarşısında çıxışlara hazırlığın, kütləvi tədbirləri təşkil etməyin xüsusiyyətlərini, məsələ qaldırmaq vərdişini mənimsədim. Sonralar mən Elmlər Akademiyasının Sibir şöbəsi, bütün Uzaq Şərq vilayət və mahalları ilə çox sıx təmas qurmuşdum. Uzaq Şərqin respublikaları, diyar və vilayətlərinin iqtisadi və strateji vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlər keçirirdim. Hərbi fəaliyyətimizdəki mövcud problemləri qaldırırdım. Həmişə də Heydər Əliyevi minnətdarlıqla xatırlayırdım, çünki

Azərbaycanda keçən xidmət illərim mənə çox şeylər öyrədib. Mən Nazarbayevlə də, digər respublikaların rəhbərləri ilə də yaxından ünsiyyətdə olmuşam, işləmişəm, ancaq bu cür səviyyəli və əməllərində bu cür məqsədyönlü adam görməmişəm».

*(General-polkovnik Aleksandr Kovtunov)*

«Şəxsi ünsiyyətimizdən və bu görüşdən aldığım ilk təəssüratdan sonra öz-özümə dedim: respublikada, bəlkə də ilk dəfə, nəhayət ki, məni diqqətlə dinləyib, düzgün başa düşən adama rast gəldim. Mən hiss elədim ki, boş yerə danışmıram, əksinə, qarşılıqlı anlaşma var. Bu mənim üçün çox dəyərli idi. Çünki o vaxta qədər mənə Azərbaycan KP MK-nın katibləri ilə də, Sov.İKP MK-nın məsul əməkdaşları ilə də görüşmək nəsib olmuşdu, dərs dediyim partiya məktəbinə çoxlu adamlar gəlirdi. Bakı Ali Partiya məktəbi o vaxtlar rəhbər partiya heyəti üçün ən nüfuzlu təhsil mərkəzlərindən biri idi. Bura gəlib işin təşkili ilə tanış olur, öyrənirdilər.

Ancaq ünsiyyətdə olduğum bütün insanlarla müqayisədə bu görüş məndə tamamilə başqa təəssürat oyatdı. Mən respublikanın həyatı ilə, onun qayğıları ilə yaşayan, ölkədə nə baş verdiyini anlamağa can ataraq problemləri həll etməyin yollarını axtaran insanı gördüm.

Heydər Əliyev çox gözəl, diqqətcil, tənqidi-analitik düşüncə tərzinə malik müsahib idi. Ən başlıcası isə, o cəhd edirdi ki, təkliflər havadan asılı qalmasın, praktik həllini tapsın. O, bu təkliflərin həlli üsullarını və formalarını axtarırdı: bu və ya digər məsələni necə qaldırsın, onu necə müdafiə etsin və ya əksinə, gündəlikdən necə çıxarsın? Bu, əlbəttə, məndə güclü təəssürat oyatdı. Digər tərəfdən, mən onunla 1978-ci ildə, respublikaya rəhbərliyinin doqquzuncu ilində görüşmüşdüm. Ona görə onun görkəmli siyasi xadim olması mənim üçün yenilik deyildi – mən onu ekranlarda, xitabət kürsülərində görmüşdüm. Sadəcə olaraq, ünsiyyət zamanı onun haqqında bildiklərim bir daha təsdiqləndi».

*(Əfrand Daşdəmirov)*

«1977-ci ildə bərk xəstələndim, cərrahiyyə əməliyyatı üçün Moskvaya getməli oldum. Reanimasiya şöbəsindən palataya keçirilənədək Heydər Əliyeviç üç dəfə xəstəxanaya zəng vurmuşdu. Bunu mənə sonralar tibb bacıları danışırdı. Bir dəfə də həyat yoldaşım xəstələnmişdi və o, bunu hardansa eşidib bilmişdi. Zəng edib köməyini təklif eləyirdi və soruşurdu ki, hansı dərmanlar lazımdır?



Qayınanam rəhmətə gedəndə Heydər Əliyeviç Krımda idi. Oradan zəng vurub başsağlığı verdi. Yakov Kirsanova, ümumi şöbəyə tapşırmışdı ki, «Bakinskiy raboçiy» qəzetində Büro üzvləri adından başsağlığı versinlər. Baxmayaraq ki, başsağlıqları adətən «Vışka»da çap olunurdu. Bəlkə də bütün bunlar kimin üçünsə çox xırda görünə bilər, ancaq əslində həyatımız elə belə xırda məsələlər üzərində qurulub. O çalışırdı ki, bütün əməkdaşlar mənzil alsın. Kiminsə ailəsi böyüyəndə, xeyir iş olanda, o, dərhal kömək əlini uzadırdı. Mən «Nərimanov» metrosunun yaxınlığında yaşayırdım. Bir dəfə mənə dedi:

– Sən uzaqda yaşayırsan.

Mən yeddi ildən bəri MK katibi olsam da, mənzilimi dəyişməmişdim.

– Partiya məktəbi ilə üzbəüzdəki binaya köç, – dedi.

Cavab verdim ki, yaşadığım mənzil mənə kifayət eləyir.

1977-ci ildə cərrahiyyə əməliyyatından sonra Moskvadan Bakıya qayıdanda o mənə dedi:

– Təzə binada sənin üçün mənzil ayırmışam, get bax, xoşun gəlsə, açarı götür, köç.

Həmin ev Nazirlər Soveti ilə üzbəüzdə yerləşir. Onu 1976-cı ildə tikmişdilər, 1977-ci ildə istifadəyə vermişdilər. Hər dəfə mən balkona çıxıb dənizə, şəhərə tamaşa edəndə onu xatırlayır, onu düşünürəm».

*(Həsən Seyidov)*

«Kiminsə başına bir iş gəlsəydi, hökmən köməklik göstərirdi. Heydər Əliyeviç işdə belə bir qayda qoymuşdu: mən partkom və şöbə müdiri olduğuma görə, işdən yalnız o gedəndən sonra çıxa bilərdim. O isə axşam saat 10-dan tez işdən getmirdi.

Bir gün axşam saat 8-də zəng vurdu.

– Sən harda idin?

– Heydər Əliyeviç, mənə bədbəxtlik üz verib, bacım soyuqlayıb, sətəlcəm olub. Mən onu «leçkomissiya»ya yerləşdirmişəm, hər axşam yanına gedirəm.

– Bəs nə üçün bunu mənə deməmisən? Yanıma gəl.

Mən onun yanına getdim.

– Bacına nə olub?

– Sətəlcəm olub, ürəyində də problemi var.

O, SSRİ Səhiyyə Nazirliyinin 4 №-li İdarəsinin rəisi Çazova zəng vurdu.

– Bura yaxşı bir kardioloq göndərin.

Çazovun müavini Xarlyamov Bakıya gəldi. Mən gedib onu qarşıladım. Doğrudur, bacımı xilas etmək mümkün olmadı. Xarlyamov onun müalicəsinə başlasa da, tibb bacısının səhlənkarlığı ucbatından o vəfat etdi. Heydər Əliyev dar ayaqda mənə belə ciddi kömək göstərmişdi.

Başqa bir misal. O vaxt bizim mənzilimiz birinci mərtəbədə yerləşirdi. Əlbəttə ki, darısqallıq idi. Bu vaxt MK işçiləri üçün Partiya məktəbi ilə üzbəüzdə ev tikirdilər. Tikinti başa çatandan sonra partkomu, yerli komitə sədrini yığıb mənzilləri bölüşdürməyə başladılar.

Sonda Heydər Əliyeviç məndən soruşdu:

– Sənə mənzil lazım deyil? Bildiyimə görə üç uşağın var, həyat yoldaşın elmlər namizədidir, özün də yaxşı işçisən. Niyə susursan? Get, bax. Orada beşotaqlılar var. Mərtəbəni özün seç.

Bu, mənə olan böyük diqqətin nümunəsi idi».

*(Cəfər Vəliyev)*

«Heydər Əliyevin unikal dinləmək qabiliyyəti vardı: müsahibinə səbrlə, təmkinlə qulaq asardı. Zəhmətkeşlərlə saysız-hesabsız görüşləri zamanı onları sorğu-suala tutardı, problemləri barədə soruşardı. Bu da, əlbəttə, mövcud çətinliklər barədə obyektiv informasiyalar toplamaq imkanı yaradardı.

Respublikaya rəhbərlik etdiyi ilk gündən o kolxoz bazarlarını, mağazaları və başqa ictimai yerləri gəzməyə başladı. O, insanlarla görüşür, ona görə də, onlara lazım olan ən kiçik şeyi də bilirdi.

O, son dərəcə diqqətcil insan idi. 70-ci illərin əvvəllərində o məni yanına çağırdı və dedi:

– Svetlana, mənə deyiblər ki, Həzi Aslanovun həyat yoldaşı göz xəstəxanasında yatır, mən bilmirəm ona necə kömək eləyim, hər halda sən ona baş çək, bəlkə bir şeyə ehtiyacı var, xəstəxanadan çıxanacan ondan diqqətini əsirgəmə...

Demək istəyirəm ki, onun dövlət əhəmiyyətli, iri miqyaslı işləri nə qədər çox olsa da, Həzi Aslanovun həyat yoldaşının göz xəstəxanasında yatması barədə eşitdiyi xəbərə də biganə qalmamışdı. Bu kiçik misal çox şeydən xəbər verir.

Onun tapşırığı ilə mən tez-tez tanınmış qadınlarımızın, xüsusilə yaşlıların, tənhaların, köməyə ehtiyacı olanların yanına gedirdim. Həmin adamların problemlərini onun adından həll edirdim».

*(Svetlana Qasımova)*



«On nəfər azərbaycanlılardan ibarət qrup Portuqaliyaya getməli idi. Azərbaycanla bağlı heç bir şey onun nəzərindən yayına bilməzdi. Mən deputat və rektor kimi həmin nümayəndə heyətinə daxil edilmişdim. Həmin vaxt mən Moskvada, Ali Sovet komissiyasının iclasında idim.

Birdən mənə xəbər verdilər ki, nümayəndə heyətindən çıxarılmışam. Bu xəbər Bakıya çatdı. Təsəvvür edin ki, o, xüsusi olaraq MK əməkdaşını Moskvaya göndərdi ki, Azərbaycan nümayəndəsini siyahıdan çıxarıb onun yerinə Rusiya təmsilçisini daxil etmələrinin səbəbini aydınlaşdırsın. Beləliklə, adımın siyahıda bərpa olunmasına nail oldu. Söhbət təkcə məndən getmirdi, o istəyirdi ki, Azərbaycanın nümayəndə heyəti tam heyətdə təmsil olunsun. Axı həmin adamı nümayəndə heyətinə respublika daxil etmişdi, onu həmin siyahıdan çıxarmağa heç kimin ixtiyarı yoxdur. Özü də o çox diplomatik hərəkət etdi: Rusiya nümayəndəsini də siyahıdan çıxartmadılar».

*(Zəhra Quliyeva)*

«Onun Tofiq adlı sürücüsü vardı. Tofiq Dadaşov. O, Vəli Axundova da xidmət etmişdi. Heydər Əliyeviç sonralar onun iki oğlunu da MK aparatına işə götürmüşdü. Birini təsərrüfat idarəsinin rəisi vəzifəsinə, o birini isə şəxsi mühafizə idarəsinə. Qızını da işə düzəltmişdi. O, bir insandan razı idisə, ürəyini də ona bağışlamağa hazır idi. O, axıradək ona himayədarlıq edirdi».

*(Turan Hüseynov)*

«Bir dəfə Heydər Əliyeviç mikroinfarkt keçirmiş bir adamın nazir müavini təyin olunmasına razılıq vermədi.

– Bu, istehsalatdır, – dedi, – biz insanı məhv edə bilərik.

Aradan beş il keçdi, mən yenə də həmin adamın namizədliyini irəli sürdüm, bu dəfə MK-da işləməyə. Beş il qabaqkı söhbəti artıq unutmuşdum. Birdən Heydər Əliyeviç məndən soruşdu:

– Sən axı deyirdin ki, o mikroinfarkt keçirib.

Mən yerimdə donub qaldım.

– Heydər Əliyeviç, siz necə də hər şeyi yadınızda saxlayırsınız.

**– Onu yenə də təsdiq etmədi?**

– Bu dəfə təsdiq etdi. Ancaq o vaxt məni onun fenomenal yaddaşı heyrətə salmışdı.

Ümumiyyətlə, o çox savadlı adam idi, Azərbaycan tarixini, mədəniyyətini, ədəbiyyatını dərindən bilirdi, yüksək intellektual səviy-

yəyə malik idi. Onunla işləyən hər kəs, heç olmasa nədəsə ona oxşamağa çalışırdı».

*(Həsən Seyidov)*

Sonda kitabımın qəhrəmanının şəxsiyyətinə dair iki maraqlı psixoloji portreti canlandırmaq istəyirəm. Birincisi, rusiyalı dissidentlər Y.Klepikova və V.Solovyovun qələminə məxsusdur. Onlarla, əlbəttə ki, tam razılaşmasaq da, burada müəyyən qədər həqiqət anı mövcuddur:

«Əliyevin və Şevardnadzenin simasında dövlət təhlükəsizliyi orqanlarının öz funksionerlərindən sızıb çıxara bildiyi energetik faydalı işi əyani şəkildə nümayiş etdirən polis zabitlərinin yeni nəsli çalışqanlığı, təşkilatçılığı və qeyri-adi iş qabiliyyəti ilə fərqlənirdi. Onların hər ikisi hədsiz dərəcədə şöhrətpərəst idilər ki, bu da onların energetik potensialını mərkəzdəki həmkarlarından daha çox artırırdı. Moskva təyinatına nail olmaq üçün onlar respublikanın şimal-qərb istiqamətində keçməli olduqları hüdudları daxilində nümunəvi olmalı idilər. Doğma respublikaları onlar üçün start meydançaları idi, çünki onların şöhrətpərəstlikləri də təfəkkürləri kimi milli çərçivələrlə məhdudlaşmayan, imperiya-beynəlmiləl xarakterdə idi.

Ancaq gürcü həmkarından fərqli olaraq, DTK generalı Əliyev daha ideal, inamlı və uğursuzluqdan uzaq, imperiya ideologiyasının rəsmi minimumundan başqa özgə bir məslək tanımayan icraçı idi. O, tarıma çəkilmiş və yaydan qopmazdan qabaq titrəyən ox kimi enerji ilə dolu idi...»[1].

Başqa, daha çox maraqlı bir portreti Azərbaycan KP MK-nın birinci katibinin keçmiş referenti Turan Hüseynov yaradıb. Özü də görün hansı şəraitdə: Moskvada Vilen Klimovun rəhbərlik etdiyi Sosioloji Tədqiqatlar İnstitutu mövcud idi. Heydər Əliyevin təşəbbüsü ilə Bakıda institutun filialını açmağı qərara aldılar. Əməkdaşları seçib yığmaq üçün professor İlya Zemtsov Bakıya gəlmişdi (sonralar o, Fransaya emiqrasiya etmiş və Heydər Əliyev haqqında kitab yazmışdı. Doğrudur, həmin kitab dəqiq olmayan faktlar və miflərlə doludur, ancaq bütövlükdə xeyirxah hisslərlə yazılıb). Turan Hüseynov bu filialın əməkdaşı oldu. Sosioloji Tədqiqatlar Mərkəzində işləyən zaman Turan müəllim Heydər Əliyevin ümumiləşdirilmiş psixoloji obrazını yaratdı. Həmin portret təmtəraqlı müəllif üslubuna baxmayaraq, bu fenomenal şəxsiyyətin gələcək tədqiqatçıları üçün də maraq kəsb edə bilər:



«Həyatının 1969-cu və sonrakı illərini belə xarakterizə etmək olar: nə fiziki qüvvəsi tükəndi, nə ölçüyəgəlməz mənəvi gərginliklərdən yoruldu. Qaynar iş və azman məhrumiyyətlər şəraitində neçə-neçə əsrdən bir yarana bilən bir insan formalaşdı: həssas, hər bir şeyə qarşı diqqətcil, işdən yorulmayan, çevik, yenilikçi, dəmir iradəli, lava kimi qaynar temperamentli, yaddaşı bütün hadisələri suçəkən kimi özünə çəkən, son dərəcə hafizəli, qanadlı arzuları hüdud tanımayan, ən yaxşı nəticələr almaq üçün haraya qüvvə sərf etmək lazım olduğunu zamanında və səhvsiz müəyyənləşdirən Heydər Əlirza oğlu Əliyev məhz belə insan idi. Təşkilatçı kimi ən böyük uğurları ilhamının qüdrətindən gəlirdi: yeni fikirlər və ideyaların necə gerçəkləşdirilməsi, birbaşa iş prosesində, hərdən yığıncağın ən qızğın anında doğulurdu və qeyd-şərtsiz yenilik kimi qəbul olunurdu. Onun nəzərində həlli olmayan iş mövcud deyildi, çünki sinəsində tükənməz yaradıcılıq ehtirası ilə dolu bir ürək döyünürdü. O, uzaqgörən idi və bu qabiliyyətə o dərəcədə yiyələnmişdi ki, həyatı boyu heç bir səhv addım atmadı, çünki nəinki hər addımını, hətta hər niyyətini belə ölçüb-biçirdi, – həmçinin genişmiqyaslı işləri tam nəzarətində saxlaya bilir və gərginliklər, çətinliklər qarşısında heç vaxt özünü itirmədən işlərini başa çatdırırdı. Əksinə, çətinliklər elə bil onun yaradıcılıq imkanlarına bir qədər də meydan açırdı, yaradıcılıq ehtirasını bir qədər də gücləndirirdi. Fəhmi və özünə inamı o qədər güclü idi ki, onunla təmasda olan, ona yaxınlaşan hər kəs onun təsiri altına düşürdü. Hətta ən özündənrazı adamlar belə onun qarşısında keçirdikləri heyrət, həyəcan hissini özlərindən uzaqlaşdırmaq iqtidarında olmamışlar. Əgər dahilik ağılın miqyası, səviyyəsi və xarakterin qüvvəsi ilə ölçülsəydi, xalqımızın tarixində çətin ki, Əliyevə bərabər ola bilən insan tapılaydı».

*Bütün bunlar Heydər Əliyev haqqında 70-ci illər dövrünün rəyləridir. Aradan otuz il keçəndən sonra bu şəxsiyyətin unikallığı barədə Yer kürəsinin ən məşhur siyasətçiləri danışacaq. Biz həmin mülahizələri romanın üçüncü kitabında əks etdirəcəyik. Ümumiyyətlə isə, mənə elə gəlir ki, qəhrəmanımı səciyyələndirmək üçün I Napoleonun məşhur aforizmi daha çox uyğundur: «Uğur – böyük adamları meydana gətirən, bax, budur».*

[1] Клепикова Е., Соловьев В. Заговорщики в Кремле. М., 1991. С.52.



# Sözardı

Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində fəaliyyəti tarixçilərin, politoloqların, yazıçıların əsərlərində müxtəlif cür dəyərləndirilir. Əlbəttə, verilən qiymətlərin əksəriyyəti müsbət səciyyə daşıyır: gələcək müstəqil dövlətçiliyin təməlini qoymuşdur, sənaye və kənd təsərrüfatını dirçəltmişdir, milli kadrlar hazırlamışdır və s.

Ancaq başqa səpkidə olan fikirlər də var: insan hüquqlarını pozurdu, rüşvətxorluğun kökünü həddindən artıq sərt metodlarla kəsirdi, fərdi təşəbbüsü boğurdu.

Heydər Əliyevlə ilk şəxsi görüşümüz zamanı (1990-cı ilin noyabrında) opponentlərinin sayının niyə belə çox olduğunu soruşdum? Və ümumiyyətlə, bəyan etdiyi yüksək idealları həyatda pozduğu hallar olubmu? Aldığım cavab belə oldu:

«Əlimi ürəyimin üstünə qoyub deyirəm: heç vaxt pozmamışam! Mən uzun ömür yaşamışam, 13 il respublika partiya təşkilatına rəhbərlik etmişəm – namusla xidmət etmişəm, xalqımın mənəvi təmizliyi uğrunda mübarizə aparmışam. Ola bilsin ki, bu mübarizədə mən özümə xeyli düşmən qazanmışam, çünki ilk növbədə natəmiz adamlarla vuruşmuşam. Təəssüf ki, onların yüksək müqavimət göstərmək bacarığı vardır, canları bərkdir – vəziyyət dəyişən kimi baş qaldırırlar. Mən xalqım qarşısında təmizəm! Bu da mənim ən böyük sərvətimdir».

Trilogiyanın ikinci hissəsində mən pisi yaxşıdan ayırmağa, 70-ci illərdə kiçik sovet respublikası olan Azərbaycanda baş verən bütün əsas hadisələri yada salmağa, bu barədə mümkün qədər sözçülüyə yol vermədən, pafossuz, təmkinlə danışmağa çalışmışım. Buna nə dərəcədə müvəffəq olduğumu siz, oxucular deyəcəksiniz.

Qəhrəmanımın 70-ci illərə aid olan portretinə bir neçə cizgi əlavə etmək istəyirəm. Mənə elə gəlir ki, fəaliyyətinin sovet dövründə Heydər Əliyev əsl reformatorluq zirvəsinə, cəmiyyətin həya-

tında köklü iqtisadi və siyasi dəyişikliklərin zərurətini dərk etmək səviyyəsinə yüksəlmədi. Bütün güclü keyfiyyətləri ilə yanaşı o, digər sovet rəhbərləri kimi kommunist ideallarına bağlılıq, imperializmə qarşı mübarizlik, şəxsi mülkiyyət və siyasi plüralizmi inkar etmək kimi xüsusiyyətlərlə seçilirdi. O, partiyanın sadiq əsgəri idi, onun göstəriş və qərarlarını danışıqsız həyata keçirirdi. O, ağıllı adam idi və başa düşürdü ki, başqa cür ola da bilməz, çünki o, Moskvadan asılıdır və Kremlin siyasi-ideoloji və iqtisadi doktrinalarından kənara çıxmaq cəhdlərini ona bağışlamazlar. Hətta ittifaq hökumətinin qüdrətli baş naziri Aleksey Kosıgin də bu gün bizə sadə görünən islahatları başa çatdıra bilmədi – o ki ola kiçik ittifaq respublikasının birinci katibi. H.Əliyev neqativ hallara qarşı apardığı mübarizə ilə, onsuz da, öz şəxsiyyətinə həddən ziyadə maraq doğururdu.

Onun rəhbərliyi dövründə respublikanın qazandığı inkaredilməz uğurlara baxmayaraq, bir çox hallarda ölkədə vəziyyətin pisləşməsi ilə əlaqədar həllini tapmayan problemlər də qalırdı: nə qədər müqavimət göstərsə də, 1980-ci ildə ərzaq talonlarının tətbiqi qaçılmaz oldu. Mal qıtlığına qarşı da o gücsüz idi. Yazıçı-tarixçi D.Volkoqonov haqlı olaraq yazırdı ki, «kommunist rəhbərliyi elə bil lənətlənmişdi, yetmiş il ərzində həlli mümkün olmayan, sanki tilsimə düşmüş problem onların başının üstünü almışdı: nəhəng ölkənin əhalisini necə doydurmaq, camaatı necə geyindirmək? Sov. İKP bu problemi Brejnevin hakimiyyəti dövründə də həll edə bilmədi»[1]. Azərbaycan Sovet İttifaqının bir hissəsi idi, ona görə də nəhəng ölkədə cərəyan edən neqativ proseslər respublikaya öz təsirini göstərməyə bilməzdi. Korrupsiya ilə mübarizə də başa çatmadı və dünyanı bürüyən bu bəla üzərində tam qələbə ilə başa çata da bilməzdi. H.Əliyev xoş niyyətlərdən irəli gələn, məsələn, partiya funksionerlərinə bağ tikməyi qadağan etmək kimi bir çox «əyintilər»ə görə də, mənə elə gəlir ki, sonralar, açıq etiraf etməsə də, təəssüflənirdi.

Mənim sırf şəxsi fikrimə görə, H.Əliyevin sovet dövründə bənzəri olmayan ideya generatoru, strateq, hadisələri qabaqlamaq istedadının tam mənada açılması heç mümkün də deyildi. Çünki iqtisadiyyatı və ideologiyanı marksizm-leninizm ideyalarının ehkamçı çərçivəsinə sıxışdırmış sistemin özü SSRİ hüdudlarında həqiqi reformatorların yaranmasını rədd edirdi. Yalnız partiyanın plenum və proqram tapşırıqlarını yerinə yetirmək bacarığı ilə fərqlənən rəhbərlər, təşkilatçılar, icraçılar ola bilərdi. Heydər Əliyev onların sırasında, bəlkə də, ən istedadlı və fəallarından idi. Əlbəttə, H.Əliyevin təşəbbüsləri istənilən qədər idi, lakin onların heç biri nəhəng ölkənin yaşadığı sistem çərçivəsindən kənara çıxmırdı. Məsələn, o, ictimai mülkiyyəti az qala müqəddəs hesab edirdi, göz bəbəyi kimi qoruyurdu, əksinə, «kölgə» iqtisadiyyatı nümayəndələrinin, «sexovik»lərin şəxsi sahibkarlıq fəaliyyətinə (onlar, özünəməxsus şəkildə, düzdür, dövlət hesabına qıtlıqla mübarizə aparmaqla, obyektiv olaraq lazımlı və xeyirli iş görürdülər) dözülməz münasibət bəsləyirdi. O hər vasitə ilə kolxoz-sovxoz mülkiyyətini möhkəmləndirirdi, torpağın özəlləşdirilməsi və mal-qaranın kəndlilərin şəxsi mülkiyyətinə paylanması barədə düşünə də bilməzdi (1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikasının rəhbərliyinə gələndə ilk gördüyü iş bu oldu).

Azərbaycanda hakimiyyətdə olduğu birinci dövrün sonunda H.Əliyev artıq hiss edirdi ki, dövlət sistemində nəsə axsayır, iqtisadiyyatın, cəmiyyətin özünün əsaslı dəyişikliklərə ehtiyacı var. Təsadüfi deyil ki, Azərbaycanın nəzərəçarpan uğurlarına baxmayaraq, onun çıxışlarında tənqidi notlar ildən-ilə güclənirdi. H.Əliyev növbəti plenum və ya aktiv ərəfəsində daha çox tənqidi material toplamaq xahişi ilə müraciət edəndə, MK-dakı həmkarları heyrətlə çiyinlərini çəkirdilər. O, xalqın çox böyük səylərinə, sənaye və kənd təsərrüfatının yüksəlişinə baxmayaraq, respublikanın əvvəllər olduğu kimi ittifaq fondundan aldığının ora verdiyindən daha az olması və adamların ildən-ilə artan total qıtlığın sıxıntıları içərisində yaşamasından açıq-aydın narazı idi.

Lakin Heydər Əliyevin rusiyalı bioqrafı Nikolay Zenkoviçin öz kitabında yazdığı kimi, «hər şeyin sərt mərkəzləşməsinə, Moskvada dövlət idarələrinin həddən ziyadə şişməsinə və ağır tərpənməsinə, planlaşdıran təşkilatların süründürməçilik və lovğalığına baxmayaraq, Azərbaycan Heydər Əliyeviçin rəhbərliyi altında çox şeylərə nail oldu. «Azərbaycan iri addımlarla irəliləyir!» – L.İ.Brejnevin bu məşhur sözləri göydən düşməyib. Uzun illər Bakı küçələrini bəzəyən bu kəlamda Azərbaycan xalqının Əliyevin hakimiyyəti dövründə qazandığı böyük uğurlar öz əksini tapmışdır»[2].

Bir də Heydər Əliyevin artıq 70-80-ci illərdə, onun ümummilli lider kimi formalaşdığı dövrdə özünü büruzə verən fenomenal uzaqgörənliyini qeyd etmək istəyərdim. Bu zaman kəsiyində o nəinki respublikanın iqtisadiyyatını möhkəmləndirərək, onun çoxşaxəliliyini, yəni struktur dəyişikliklərini təmin etdi, elmi-texniki tərəqqiyə istiqamətlənmiş sahələr yaratdı. Onun səyləri sayəsində bizdə böyük elmi və kadr potensialının yaranması, o cümlədən milli zabit kor-

pusunun əsasının qoyulması da mühüm əhəmiyyət kəsb edir. O, cəmiyyət qarşısında Azərbaycan xalqının tarix və mədəniyyətinin dərin qatlarını açdı, bu da insanlarda öz millətinə böyük qürur hissi yaratdı, milli özünüdərk meyarını yüksəltdi.

Bütün bunlar, doğrudan da, belədir. Lakin buna baxmayaraq, mənim qəhrəmanım dünya miqyasında həqiqi mənada böyük və parlaq siyasi xadimə, dövlət xadiminə SSRİ çökəndən sonra, Milli lider keyfiyyətlərini göstərmək üçün imkan əldə edəndən sonra, Azərbaycan dövlətinin əsl qurucusu, bütün Xəzəryanı regionun geosiyasi xəritəsini dəyişdirən ideyaların müəllifi olandan sonra çevriləcəkdir.

...70-ci illərlə vidalaşırıq, lakin Heydər Əliyevlə vidalaşmırıq, çünki tezliklə onunla Kreml dəhlizlərində görüşəcəyik. Ona görə də:

*ardı var*

**Bakı, 2005-2007-ci illər.**

[1] Волкогонов Д. Семь вождей. М., 1995. С. 97.
[2] Зенькович Н. Гейдар Алиев. Зигзаги судьбы. М., 2007. С. 401.



# Mündəricat

*Birinci fəsil.* **Sərt dönüş** ..... 5
Zamanla səsləşən zərurət ..... 5
Bir səslə seçildi... ..... 27
5 avqust 1969-cu il ..... 32

*İkinci fəsil.* **Başlanğıc** ..... 47
Bu vaxt isə Kremldə... ..... 47
«Mixaylo şəhərdədir!» ..... 55
«Bakı – gözəl şəhərdir!» ..... 57
Baş katibin ilk «hədiyyəsi» ..... 61

*Üçüncü fəsil.* **Əliyev və onun komandası** ..... 67
Hər şeyi kadrlar həll edir! ..... 67
Əliyevin kadrları seçmə prinsipləri ..... 71
«Onun komandasında işlədiyim üçün fəxr edirəm...» ..... 81
«Mən həmişə liberalizmin əleyhinə olmuşam...» ..... 103
«MK Bürosunda tam diskussiya azadlığı hökm sürürdü...» ..... 146
O, anadangəlmə natiq idi ..... 162

*Dördüncü fəsil.* **Birinci katib: «Gürzlə zindan arasında»** ..... 173
Tarazlaşdırma siyasəti ..... 173
«Sizin aranızda əsas dissident mən özüm idim!» ..... 206
DTK Əbülfəz Əliyevə qarşı ..... 224
«Biz yaradıcı ziyalıların fəaliyyətini məhdudlaşdırmırdıq» ..... 231
«Küll bayraqlar bizə qonaq olacaq» ..... 265
Mənəvi tərbiyə üzrə Ümumittifaq elmi konfrans ..... 285
Yeni Konstitusiya. Dil məsələsi ..... 288
«Əziz Heydər Əliyeviç!» ..... 294

*Beşinci fəsil.* **Qoy ədalət zəfər çalsın»** ..... 303
«Bu mənim əqidəmdir» ..... 303
«Cəmiyyətin əksəriyyəti onu dəstəklədi» ..... 326
Qondarma «el» adətlərilə mübarizə ..... 333
«Biz idealist deyilik...» ..... 342

«O, ləyaqətlə çıxıb gedə bilmədi» ... 352
Arif Heydərovun qətli ... 363
Brilyantlar ... 370
Nəzərovun işi ... 376
Mafya ölümsüzdürmü? ... 381

*Altıncı fəsil.* **Heydər Əliyev və Leonid Brejnev ... 385**
Baş katibə verilən hədiyyələr haqqında ... 399
Qonaq evinin inşası ... 403
Leonid İliçin məruzələrini çaş salması ... 407

*Yeddinci fəsil.* **Heydər Əliyev və 70-ci illərin xalq təsərrüfatı ... 415**
Azərbaycanın iqtisadi inkişafının yeni strategiyası ... 415
«Məişət kondisionerləri zavodunu necə inşa etmişəm» ... 431
«Bütün respublika onu doğma ocağı idi» ... 449
Sosial problemlər ... 459
Kəndlərdə dirçəliş ... 465
Bol üzüm yetişdirilməsi uğrunda «döyüş» ... 474
«Nikitinin tövləsində gecələmək olar» ... 485
Ümumittifaq «bostanı» ... 490
Rayonlara səfərlər ... 494
«Azərbaycanda saxtakarlığa yol verilirdimi?» ... 519
Xalq təsərrüfatında böhran hallarının dərinləşməsi ... 526

*Səkkizinci fəsil.* **Heydər Əliyev və erməni separatizmi ... 541**
«Ermənilər sizdə yağ içində böyrək kimi bəslənirlər» ... 541
Qumbara ... 546
«Ermənilər Heydər Əliyevin maşınını əlləri üstində aparırdılar» ... 555
Əliyev, Dəmirçyan və Şevardnadze ... 564

*Doqquzuncu fəsil.* **Heydər Əliyev və sovet ordusu ... 573**
«Mən hərbçilərə hörmətlə yanaşıram» ... 573
«...Orduda onu sevirdilər, hörmət edirdilər» ... 580
Qəbələ RLS-in tikilməsi ... 591
Cənub qərargahının yaradılması ... 594



70-ci illərdə hərbi təhsil ... 597
Sərhədçilərin milli kadrları haqqında ... 603

*Onuncu fəsil.* **Heydər Əliyev və gənclər siyasəti ... 609**
«Komsomol kadrları Heydər Əliyev məktəbi keçiblər» ... 609
«Bakıda uşaqlar dörd növbədə oxuyurdular» ... 613
Əliyev və tələbələr ... 615
Ali məktəblərdə korrupsiya ilə mübarizə ... 624
Azərbaycanda idmanın inkişafı ... 629

*On birinci fəsil.* **Əks əlaqə ... 635**
Heydər Əliyev və 70-ci illərin kütləvi informasiya vasitələri ... 635
Zəhmətkeşlərin məktubları ilə iş ... 647
«Biz insanlardan heç nəyi gizlətmirik» ... 649

*On ikinci fəsil.* **İran inqilabı və Kreml siyasəti ... 657**
Heydər Əliyev və TUDƏ liderinin əvəz edilməsi ... 657
İranda Kreml siyasətinin məğlubiyyəti ... 671
Sovet-İran sərhədində gərginliyin artması ... 682

*On üçüncü fəsil.* **Qlobal dəyişikliklər ... 689**
«Sən burada lazımsan, Heydər!» ... 689
Çətin seçim ... 704
Dünya mətbuatının diqqət mərkəzində ... 716
Vidalaşma ... 724

*On dördüncü fəsil.* **«Qalstuksuz» Əliyev ... 735**

*On beşinci fəsil.* **Lider ... 763**

**Sözardı ... 777**

**Axundova Elmira Hüseyn qızı**

# HEYDƏR ƏLİYEV
## Şəxsiyyət və Zaman

*II HİSSƏ*

Tərcüməçilər: **Səyavuş Məmmədzadə,**
Əməkdar incəsənət xadimi
(IV-V-VI fəsillər)
**Nərgiz Qurbanova,**
Əməkdar jurnalist
(I-III-VII-VIII-X-XIV-XV fəsillər)
**Yaşar Quluzadə,**
filologiya elmləri namizədi
(II-IX-XI-XII-XIII fəsillər)
Redaktor: **Məmməd Oruc**
Korrektor: **Gülarə Əmirxanova**
Texniki redaktor: **Cəsarət Qasımov**

Yığılmağa verilib: 12.10.2006. Çapa imzalanıb: 01.11.2007.
Formatı: 60x90 1/16. Ofset çapı. Həcmi: 49
Sifariş № 181. Tiraj: 2000.

CBS POLYGRAPHIC PRODUCTION

mətbəəsində çap olunmuşdur